HEYDƏR ƏLİYEV İRSİ VƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ

AZƏRBAYCAN NƏŞRİYYATI
BAKI-2005

H14(05)

Kitab Yeni Azərbaycan Partiyasının İcra Katibliyi tərəfindən hazırlanmışdır

Kitaba Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Azərbaycanın Ümummilli lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin xatirəsinə həsr edilmiş "Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi" mövzusunda keçirilən konfransın materialları daxil edilmişdir.

H $\frac{4804000000\text{-}014(05)}{M\ 670(07)\ -\ 2005}$ Sifarişlə

© "AZƏRBAYCAN" nəşriyyatı, 2005

HEYDƏR ƏLİYEV İRSİ MİLLİ SƏRVƏTİMİZDİR

MURTUZ ƏLƏSGƏROV
Milli Məclisin sədri,
YAP sədrinin müavini

HEYDƏR ƏLİYEV İRSİ VƏ AZƏRBAYCANDA PARLAMENTARİZM ƏNƏNƏLƏRİ

Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz tarixi xidmətləri olan ümummilli lider, milli dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin həyatı, siyasi və dövlətçilik fəaliyyəti tariximizdə müstəsna yer tutur. Azərbaycan xalqının milli sərvəti olan Heydər Əliyevin zəngin və həmişəyaşar irsinin sistem halında araşdırılması, elmi əsaslarla öyrənilməsi və təbliği, bu zəngin xəzinənin milli-mənəvi və bəşəri dəyərlərinin xalqa, xüsusən də, gənc nəslə yetərincə çatdırılması dövlət əhəmiyyətli vəzifələrdən biridir. Bu həqiqəti Heydər Əliyevin müasiri olan hər bir şəxs, o cümlədən ulu öndərlə təmasda olan, onunla müxtəlif vaxtlarda bir yerdə işləmək şərəfinə nail olan hər kəs layiqincə dərk etməlidir.

Çünki yarım əsrdən artıq siyasi və dövlətçilik fəaliyyətini xalqına xidmətə həsr edən, işıqlı sabahın yolunu ona göstərən ulu öndərin 2003-cü ilin oktyabrında Azərbaycan xalqına ünvanladığı Müraciətdə dediyi kimi, ***"... bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib."***

Azərbaycanı dünyaya tanıdan dahi öndərimizin vurğuladığı kimi, müasir dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti, insan hüquqlarının aliliyi, siyasi plüralizm prinsiplərini rəhbər tutaraq Azərbaycan Avropanın və dünyanın ən qabaqcıl, qüdrətli dövlətləri ilə çiyin-çiyinə fəaliyyət göstərir. Ölkəmiz beynəl-

xalq aləmdə öz layiqli yerini tutub. İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Bizi tanıyırlar, qəbul edirlər və əsas məsələlərdə bizimlə hesablaşırlar.

Azərbaycan tarixinin Heydər Əliyev dövrü vətənini və millətini təhlükələrdən qurtararaq ardıcıl inkişaf yoluna çıxaran nəhəng şəxsiyyətin zamanın fövqünə yüksəlməsinə parlaq bir nümunədir. Xalqımızın dərin zəkasını, yenilməz iradəsini və əzmini təcəssüm etdirən, böyük siyasi və dövlət xadimlərimizin, tarixi şəxsiyyətlərimizin dövlətçilik ənənələrini XX yüzilliyin sonlarında davam etdirərək daha da zənginləşdirən Heydər Əliyev uzaqgörənliyi və müdrikliyi, hünəri və cəsarəti, mərdliyi və fədakarlığı sayəsində müstəqil Azərbaycan dövlətini yaratdı, qoruyub saxladı, öz dühasının şah əsəri olan bu dövləti indiki və gələcək nəsillərə ərməğan etdi.

Heydər Əliyev irsinin öyrənilməsi son dövrlərdə xüsusi vüsət almış, bu zəngin sərvətin elmi surətdə araşdırılması Azərbaycan elmində, azərbaycanşünaslıqda yeni elmi istiqamətin, daha doğrusu, Əliyevşünaslıq elmi məktəbinin əsaslarının qoyulmasına gətirib çıxarmışdır. Bu mövzuda alimlik dərəcəsi almaq üçün dissertasiyalar yazılmış, ali təhsil ocaqlarında Heydər Əliyev məşğələlərinin keçirilməsi, elmi-praktik konfransların təşkil olunması ənənə halını almışdır. Heç şübhəsiz ki, bütün bunlar zəruridir. Lakin bu kütləviliklə yanaşı, Heydər Əliyevin zəngin irsi onun öyrənilməsinə yaradıcı və elmi müstəvidə yanaşmanı ön plana çəkir. Çünki Heydər Əliyevin dövlətçilik fəaliyyəti olduqca çoxşaxəlidir.

Heydər Əliyevin Azərbaycan SSR-in rəhbərliyində (1969-1982-ci illər) və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində (1982-1987-ci illər) çalışdığı dövr təkcə Azərbaycanın sosial-iqtisadi və mədəni intibahı, yüksəliş illəri kimi deyil, eyni zamanda, Azərbaycanın müstəqilliyinin təməlinin qoyulduğu Heydər Əliyev dövrü kimi səciyyələndirilməlidir. Əslində, tarixi xronikaya ardıcıllıqla nəzər salsaq, görərik ki, bu mərhələ milli müstəqilliyimizin bünövrəsinin qoyulduğu, milli özünüdərkin, milli oyanışın başlandığı istinad nöqtəsi kimi dəyərləndirilməlidir.

Bütün bunlarla yanaşı, ulu öndərin Siyasi Bürodan istefa verməsi, SSRİ hakimiyyətindən uşaqlaşdırılması, siyasi təqiblərə məruz qalması, 1990-cı ilin 20 Yanvarında informasiya blokadasına məhkum olunan Azərbaycanın

haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında qətiyyəti və fədakarlığı, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində söylədiyi tarixi nitq, Heydər Əliyevin Azərbaycana – Vətənə – Naxçıvana qayıdışını doğuran tarixi səbəblər, bu dahi şəxsiyyətin dövlətçilik və siyasi fəaliyyətinin Naxçıvan dövrü (1990-1993-cü illər), daha sonra 1993-cü ilin yayında Azərbaycanda siyasi böhranın dərinləşməsi və ölkədə vətəndaş qarşıdurmasının yaranması, xalqın tələbi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı, xalqı parçalanmaqdan, ölkəni dağılmaqdan xilas etməklə yeni tariximizə "Milli Qurtuluş günü"nü yazdıran böyük xilaskarın 1993-cü il iyunun 15-dən 1995-ci ildə Konstitusiyanın qəbul edilməsinədək tarixi dönüş mərhələsindəki gərgin fəaliyyəti, habelə dövlət quruculuğu, siyasi, iqtisadi və sosial islahatlar, yeni neft strategiyası və onun reallaşması yolları, həmçinin Azərbaycanın beynəlxalq aləmdə tanınması, Dağlıq Qarabağ probleminin nizamlanması üçün göstərdiyi səylər, heç şübhəsiz ki, Əliyevşünaslıq məktəbinin, Əliyevşünaslıq elminin aparıcı mövzuları olmalıdır.

Müstəqil dövlətimizin bugünkü Milli Məclisi 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyəti parlamentinin varisidir. Ümummilli liderimiz Heydər Əliyev bu tarixi dövrü belə qiymətləndirmişdir: ***"Azərbaycan Respublikasının Milli Məclisi Xalq Cümhuriyyətinin yaratdığı parlamentin indi də varisidir. Varislik həmişə, eyni zamanda, böyük məsuliyyət demək olubdur. Varislik o demək deyil ki, sən o hadisəni olduğu kimi təkrar edəsən, yaxud o səviyyədə yaşayasan. Hər bir varis varislik prinsipini əziz tutaraq, o dövrün, o hadisənin varisi olaraq o hadisəni, o dövrü, o quruluşu daha da yüksəklərə qaldırmalıdır. Biz Azərbaycanda bunu edirik və bu sahədə çox şeylərə nail olmuşuq. Hesab edirəm ki, Azərbaycanın bugünkü Milli Məclisi varislik adını şərəflə daşıyır, eyni zamanda, ötən illərdə və xüsusən son dövrdə Azərbaycanın müstəqil dövlətini inkişaf etdirmək üçün çox işlər görübdür."***

Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu olduğu kimi, bugünkü peşəkar Azərbaycan parlamentinin də yaradıcısıdır. Ölkədə qurulmuş hüquqi dövlətin bütün atributları ilə yanaşı, Konstitusiyamız da, Milli Məclisimiz də onun yaradıcı təfəkküründən nəticəsidir. Məlum olduğu kimi, 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri vəzifəsində çalışmış,

Prezident seçildikdən sonra da parlamentlə sıx əlaqə şəraitində fəaliyyət göstərmişdir. Belə ki, o, dəfələrlə Milli Məclisin iclaslarında iştirak etmiş, bütövlükdə peşəkar parlamentin formalaşması işinə öz dəyərli töhfələrini vermiş, dövlət əhəmiyyətli qərarların qəbul edilməsində həlledici rol oynamışdır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, ümummilli liderimizin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi layihələr üzrə Azərbaycan parlamentində 900-dən çox qanun qəbul olunmuşdur.

Əslində Azərbaycanda parlamentarizmin təşəkkülündə yeni mərhələ Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə üzv seçilməsi ilə başlanmışdır. 1990-cı illərin əvvəllərində yenicə suverenlik əldə etmiş Azərbaycan Respublikası cəbhədə bir-birinin ardınca məğlubiyyətə uğrayırdı və beynəlxalq aləmdən, hətta qonşu dövlətlərdən təcrid olunmuşdu. Bakıda hakimiyyət bir naşı rəhbərdən digərinə keçirdi. Heydər Əliyev kimi təcrübəli və nüfuzlu dövlət xadiminin Azərbaycana qayıdışına müxtəlif vasitələrlə maneələr törədilirdi. Lakin bütün bu maneələrə və hədə-qorxulara baxmayaraq, 1991-ci ilin payızında Heydər Əliyev təntənəli surətdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və sədri seçildi.

Əlbəttə, həmin dövrdə Azərbaycanın bütün dövlət orqanları mövcud idi. Lakin onların səriştəsizliyi respublikanı xaos və qarışıqlığa sürükləmiş, insanlarda sabaha inam hissini öldürmüşdü. Belə bir şəraitdə Naxçıvan Ali Məclisinin bütün strukturlarının ahəngdar fəaliyyəti, əhalinin erməni silahlı qüvvələrindən yüksək səviyyədə müdafiə olunması, ümumən, respublikamızda vəziyyətin düzələcəyinə ümid çırağı yandırırdı.

O dövrdə Naxçıvan Ali Məclisinin qəbul etdiyi bir sıra qərarlar sonralar Azərbaycan Respublikasının başlıca qanunvericilik aktlarının yaradılması üçün təməl rolunu oynamışdır. Bunların arasında 31 dekabr Dünya azərbaycanlılarının həmrəyliyi gününün qeyd olunması haqqında, Naxçıvan Muxtar Respublikasının müstəqilliyi haqqında, Naxçıvan Muxtar Respublikasının bayrağı haqqında, adı haqqında qanunlar muxtar respublikanın demokratik inkişaf yolunu müəyyənləşdirdi. Sonralar ölkədə həyata keçirilmiş islahatların bünövrəsi məhz muxtar respublikada qoyulmuşdu.

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya qayıdan Heydər Əliyev Azərbaycan parlamentinin sədri seçildi. Onun respublika rəhbərliyinə qayıtması müstəqilliyimiz və dövlətçiliyimiz üçün

yaranmış təhlükələrin aradan qaldırılacağına, insanların firavan günlərə yetişəcəyinə ümid oyadırdı. Heydər Əliyev xalqa müraciətində deyirdi: ***"Mən burada, Milli Məclisin iclasında bu tribunadan üzümü bütün Azərbaycan vətəndaşlarına tuturam, bizim qardaşlarımıza, bacılarımıza, övladlarımıza tuturam və müraciət edirəm və bildirirəm ki, bizim respublika indi ağır vəziyyətdədir. Bizim ən böyük çətinliyimiz, bir də deyirəm, işğal olunan torpaqlarımızı geri qaytarıb, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin etməkdən ibarətdir. Ona görə də bütün iğtişaşlar, daxili didişmələr kənara qoyulmalıdır... Azərbaycanın bu faciəli dövründə biz böyük fəlakət qarşısındayıq. Bu dövrdə bütün qüvvələr birləşməlidir, bütün siyasi partiyalar, bütün siyasi qurumlar, bütün siyasi və ya ictimai təşkilatlar, bütün insanlar hamısı birləşməlidir. Hamı kin-küdurəti kənara qoymalıdır, hamımız birləşib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmalıyıq."***

Heydər Əliyevin parlamentin sədri seçilməsi Milli Məclisin nüfuzunu yeni, yüksək səviyyəyə qaldırdı və onun təşəkkülünə, ölkənin ictimai-siyasi həyatının sabitləşməsinə, eyni zamanda, Azərbaycanda müasir Avropa standartlarına uyğun peşəkar parlamentin formalaşmasına zəmin yaratdı. Bu vəzifədə cəmi dörd ay çalışsa da, Heydər Əliyev bu qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Onun iclasları aparmaq tərzi, öz təkliflərini dəqiq əsaslandırması, deputatların çıxışlarının məğzini tutmaq bacarığı, dəyərli fikirləri ümumiləşdirərək ən optimal variantı seçmək qabiliyyəti parlamentin üzvləri üçün əsl parlamentarizm məktəbi idi. Onun şərait tələb etdikdə sərtliyi, şəxsi mədəniyyəti, güclü məntiqi istər-istəməz hamını heyran qoyurdu.

1995-ci ilin payızında demokratiya və azadlıq şəraitində keçirilən şəffaf seçkilər nəticəsində Azərbaycanın peşəkar parlamenti formalaşdırıldı. Qanunun aliliyinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının qorunması ilə məşğul olan təsisatlar yaradıldı.

Parlamentin qanunvericilik fəaliyyətinin mühüm bir istiqaməti cəmiyyət və dövlət həyatının bütün sahələrində məqsədyönlü şəkildə aparılan köklü islahatların hüquqi mexanizmini qurmaqdan ibarət olmuşdur. Milli Məclis ölkə iqtisadiyyatında əsaslı dəyişikliklərin həyata keçirilməsi, özəlləşdirmə, torpaq islahatı, ölkəyə xarici sərmayələrin cəlb edilməsi, əhalinin sosial müdafiəsi, qaçqınlara və məcburi köçkünlərə qayğı göstərilməsi,

mədəniyyətin, elm və təhsilin inkişaf etdirilməsi məsələlərini həmişə diqqət mərkəzində saxlamışdır.

Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində də böyük işlər görülmüşdür. Parlamentdə dünyanın 60-dan çox ölkəsinin qanunvericilik orqanı ilə əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir. Bu qruplar respublikamızın beynəlxalq münasibətlərinin inkişafı üçün çox əhəmiyyətlidir. Milli Məclisin nümayəndə heyətləri mütəmadi olaraq xarici ölkələrdə rəsmi səfərlərdə olur, üzv olduğumuz beynəlxalq təşkilatların işində yaxından iştirak edirlər. Hazırda Milli Məclis Parlamentlərarası İttifaqın, Avropa Şurası Parlament Assambleyasının, ATƏT-in Parlament Assambleyasının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının, İslam Konfransı Təşkilatı Parlament Məclisinin, GUƏAM Parlament Assambleyasının və digər nüfuzlu beynəlxalq qurumların üzvüdür.

Milli Məclisin həyata keçirdiyi işlər bir daha sübut edir ki, parlament qanunvericilik sahəsində çoxşaxəli və məhsuldar fəaliyyəti ilə ümummilli liderimiz Heydər Əliyevin müdrik daxili və xarici siyasətini həmişə dəstəkləmiş, müstəqil dövlətimizin inkişafı üçün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır. Milli Məclisin 2001-ci il 23 fevral tarixli iclasında Heydər Əliyev parlamentimizin səmərəli fəaliyyətini yüksək qiymətləndirərək demişdir: ***"1995-ci ildə seçilmiş Milli Məclis Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesinin inkişafı üçün, sosial-iqtisadi, hüquqi-siyasi islahatların keçirilməsi üçün çox iş görmüşdür və görülən işlərin əsas mənası da qəbul olunmuş qanunlardır. Tam cəsarətlə deyə bilərəm ki, ötən beş il ərzində Azərbaycanın Milli Məclisi çox məhsuldar işləmiş, çox böyük əhəmiyyətə malik olan və mürəkkəb xarakter daşıyan qanunlar qəbul etmişdir."***

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri əsasında sülh yolu ilə nizama salınmasının ideya müəllifi də Heydər Əliyevdir. Bu mənada 2003-cü il sentyabrın 24-də BMT Baş Məclisinin 58-ci sessiyasında cənab İlham Əliyevin dediyi sözləri xatırlatmaq yerinə düşərdi: ***"Azərbaycan münaqişənin beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildiribdir. Biz bu yolda səylərimizi davam etdirməkdə israrlıyıq və beynəlxalq icmanın fəal iştirakına ümid edirik. Azərbaycan heç zaman "mövcud reallıqlar" əsasında həll variantı ilə razılaşmayacaq və torpağının bir qarışını belə heç kimə verməyəcəkdir. Azərbaycanın səbri sonsuz deyil və heç kim bundan sui-istifadəyə cəhd etməsin. Məsələnin həll olunmamasına görə məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür, işğalın qurbanı olan Azərbaycanın üstünə yox. Beynəlxalq icmanın tutduğu passiv müşahidəçi mövqeyi yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə bilər."***

Azərbaycanın ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi bir milyondan çox soydaşımızı evsiz-eşiksiz qoymuş, Azərbaycan iqtisadiyyatına ağır zərbə vurmuşdur. Lakin bütün bu məhrumiyyətlərə baxmayaraq, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və gerçəkləşdirilmiş iqtisadi islahatlar və yeni neft strategiyası artıq konkret nəticələrini verməyə başlamışdır. Bu islahatlar ölkədə makroiqtisadi sabitliyə və yüksək iqtisadi göstəricilərə nail olmağa şərait yaratmışdır.

Heydər Əliyev irsi indiki və gələcək nəsillər üçün bir nümunədir. Onun həyat və fəaliyyətinin öyrənilməsi istiqamətində aparılan məqsədyönlü araşdırmalar getdikcə daha geniş sahəni əhatə etməklə yanaşı, keyfiyyət baxımından yeni elmi müstəviyə qədəm qoymaqdadır. Son illər Azərbaycanda və xaricdə ulu öndərimizin fəaliyyətindən bəhs edən bir sıra kitablar çap olunmuşdur. 2003-cü ildə Milli Məclis ümummilli liderimizin 80 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan parlamenti" kitabını hazırlayıb nəşr etmişdir. Kitabda ulu öndərin parlamentdəki çıxışları ilə yanaşı, onunla təmasda olan, iş prinsiplərinə yaxından bələd olan deputatların bu dahi şəxsiyyət haqqında ürək sözləri verilmişdir. "Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar" kitabında isə ümummilli liderimizin yaratdığı təməl üzərində ölkəmizin ali qanunvericilik orqanının beynəlxalq əlaqələrindən söhbət açılır.

Heç şübhəsiz ki, son yüzillikdə Azərbaycan neft və qaz istehsalı sahəsində bir sıra xarici ölkələrin diqqət mərkəzinə çevrilmişdir. Lakin Azərbaycanın bu vara, bu sərvətə sahib olması fikrini beynəlxalq aləmə təlqin etmək səadəti məhz yeni neft strategiyasının, eyni zamanda, "Əsrin müqaviləsi"nin müəllifi olan Heydər Əliyevə nəsib olmuşdur. Müasir dünyada neft məqsəd deyil, qlobal siyasi, strateji və iqtisadi problemləri həll etmək üçün vasitədir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dediyi

aşağıdakı sözlər neft amilinin müasir dünyada aparıcı rol oynadığını vurğulamaqla yanaşı, onun Azərbaycanın iqtisadi problemlərinin həllində açar olduğunu da ön plana çəkir: ***"... Biz Prezidentimiz Heydər Əliyevin müasir neft strategiyasını həyata keçirməklə, yəni Azərbaycan neftini dünya bazarına çıxarmaqla, iqtisadiyyatımızın inkişafını, respublikamızın dünyanın ən aparıcı və qüdrətli ölkələr arasına çıxmasını təmin etmiş olarıq."***

Ən yaxın tariximizə nəzər saldıqda görürük ki, ölkəmizdə Avropa standartlarına uyğun olan möhkəm qanunvericilik bazası yaradılmış, insan və vətəndaş hüquqlarının qorunması, qanunun aliliyi təmin edilmiş, söz, fikir azadlığı, vicdan azadlığı, siyasi plüralizm cəmiyyətimizin reallığına çevrilmişdir. Heydər Əliyevin dövlətçilik, azərbaycançılıq ideyaları Yer kürəsinin müxtəlif bölgələrində yaşayan soydaşlarımızın şüuruna hakim kəsilmiş, onların tarixi Vətənlə əlaqələrinin güclənməsinə, xaricdə Azərbaycan diasporunun formalaşmasına və təşkilatlanmasına yardım etmişdir. Təbii ki, bütün bunlar Heydər Əliyevin şəxsi nüfuzu, onun həmvətənlərimizin qəlbində tarixi Vətənə bağlılıq, milli təəssübkeşlik, gələcəyə inam hissi aşılaması sayəsində mümkün olmuşdur.

Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin haqq dünyasına qovuşmasından keçən bir ildən artıq dövr, eyni zamanda, bütün mənalı həyatını millətinin xoşbəxtliyinə həsr etmiş dahi şəxsiyyətin zəngin irsinə, müəyyənləşdirdiyi siyasi kursa və prinsiplərə bizim nə dərəcədə sadiq olduğumuzu sınaqdan çıxardı. Axı digər taleyüklü məsələlərdə olduğu kimi, siyasət və dövlətçiliyin təcrübəsində də varisin olması, varisin varlığı gələcək inkişafı şərtləndirən başlıca amillərdən biridir. Fərəhli haldır ki, bu gün ümummilli liderimizin yolunu onun siyasi məktəbinin yetirməsi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev layiqincə davam etdirir. Hələ il yarım öncə, 2003-cü il oktyabrın 15-də tarixi bir seçim edən Azərbaycan xalqı sabitliyə, tərəqqiyə və sivil dünyaya inteqrasiyanın güclənməsinə tərəfdar olduğunu, demokratik prinsiplərə sadiqliyini bir daha təsdiqlədi. Beləliklə, bu seçimlə ölkəmizi böyük tərəqqiyə aparan yolun – Heydər Əliyev yolunun davam etdirilməsinin əsası qoyuldu. Xatırlatmaq yerinə düşərdi ki, cənab İlham Əliyev Prezident seçilənə qədər böyük bir siyasi məktəb keçmiş, beynəlxalq qurumlarda, xüsusən Avropa Şurasında Azərbaycan həqiqətlərini beynəlxalq aləmə çatdırmışdır. O,

Azərbaycan parlament nümayəndə heyətinin başçısı olmaqla yanaşı, həmin nüfuzlu beynəlxalq təşkilatın Parlament Assambleyasının sədr müavini və Büro üzvü seçilmişdir. Bu tarixi faktı vaxtilə Heydər Əliyevin Kremlin zirvəsini fəth etməsi – Siyasi Büroya üzv seçilməsi ilə müqayisə etmək olar. Ümummilli liderimiz Heydər Əliyev Prezidentimiz İlham Əliyevə inamını belə ifadə etmişdir: ***"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyiniz ilə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."***

Bu gün İlham Əliyev dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin bu inamını ləyaqətlə doğruldur. İnanırıq ki, dövlət başçısı möhtərəm İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha işıqlı və firavan gələcəyə qovuşacağı günlər uzaqda deyil. Biz inanırıq ki, o, Heydər Əliyevin başladığı taleyüklü planları qətiyyətlə həyata keçirəcəkdir. Bunun üçün biz hamımız cənab İlham Əliyevin ətrafında səfərbər olmalı, Heydər Əliyevin ideyalarını davam etdirmək naminə əlimizdən gələni əsirgəməməliyik. Çünki bizim bu günümüz və sabahımız ulu öndər Heydər Əliyevin ölməz adı, ölməz ideyaları ilə sıx bağlıdır. Bu ideyaların layiqli varisi olmaq isə bizim hər birimizin mənəvi borcumuzdur.

ƏLİ NAĞIYEV
Əmək və Əhalinin Sosial Müdafiəsi naziri,
YAP sədrinin müavini, professor

MÜSTƏQİL AZƏRBAYCANIN SOSİAL SİYASƏTİ

Hər bir xalqın əzəmətinin və qürurunun, mədəniyyətinin, dilinin, dininin yaşatması üçün vacib şərt onun azad, müstəqil dövlətə malik olmasıdır. Tarixdə mövcud olan dövlətlər və xalqlar özlərinin maddi sərvətləri və siyasi qüdrətlərindən daha çox öz zamanında böyük işlər görmüş, izlər qoymuş, tarixi şəxsiyyətləri ilə tanınırlar. Həmin şəxsiyyətlər olduqca mürəkkəb və taleyüklü məsələləri həll etmək, vətəni xilas etmək üçün tarixin ən həlledici məqamlarında meydana çıxırlar. H. Əliyev Azərbaycan üçün belə şəxsiyyətlərdən olmaqla, tarixi ənənələrdən, milli-mənəvi keyfiyyətlərdən bəhrələnərək ölkəsini dünyanın nüfuzlu təsisatlarına inteqrasiya yolu ilə inkişaf etdirmək, xalqının milli hüquqlarını, tarixi haqlarını həyata keçirməyi bacaran nadir tarixi simadır.

İqtisadi artım - hər bir ölkənin mühüm məqsədidir. İdeologiyasından və inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələr iqtisadiyyatın inkişaf etdirilməsi və həyat səviyyəsinin yüksəldilməsi məqsədlərini güdürlər. İqtisadi artım və sosial tərəqqi bir-biri ilə sıx, qarşılıqlı əlaqədədir. Hər bir cəmiyyətdə iqtisadi artım nəinki maddi ünsürləri artırır, həmçinin cəmiyyətin sosial inkişafı üçün şərait yaradır. İqtisadi inkişafın lazımi səviyyədə olmaması labüd surətdə sosial tərəqqi imkanlarını azaldır.

H. Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə həyata keçirilən tədbirlərin əsas məqsədini məhz əhalinin sosial rifahının və həyat səviyyəsinin yüksəldilməsi təşkil etmişdir.

Əvvəllər bütün əsas göstəricilər üzrə ölkə miqyasından geri qalan Azərbaycan 1969-1982-ci illərdə Heydər Əliyevin yeni inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində ittifaqın ən inkişaf etmiş respublikalarından birinə çevrildi. Belə ki, 1965-ci ilə nisbətən 1970-ci ilində məcmu ictimai məhsul 34 faiz, sənaye məhsulları istehsalı 37 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 27 faiz, əsaslı vəsait qoyuluşu 43 faiz, xalq təsərrüfatının bütün sahələri üzrə əsas istehsal fondları 34 faiz artmışdı.

Xarakterik cəhətlərdən biri ondan ibarətdir ki, bütövlükdə hər bir iqtisadi və sosial inkişaf göstəricisi nəinki sabit qalmış, hətta ardıcıl yüksək inkişaf sürətinə malik olmuşdur. Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində respublikada aparılan məqsədyönlü təşkilatçılıq işi və səmərəli idarəetmənin həyata keçirilməsi əldə edilmiş nailiyyətlər üçün zəmin yaratmışdır.

1969-1982-ci illərdə iqtisadi sıçrayışa səbəb olan başlıca və həlledici amillərdən biri, qəbul edilmiş qərar və qətnamələrin vaxtında, qüsursuz yerinə yetirilməsi olmuşdur. Onu da qeyd etmək lazımdır ki, ümumi sənaye məhsulu istehsalı artımının 76 faizi əmək məhsuldarlığı hesabına yüksəldilmişdir.

Həmin dövrdə xeyli sənaye müəssisəsi tikilmişdir ki, bu da respublikanın iqtisadi potensialının artırılmasında müstəsna əhəmiyyət kəsb edir. Təkcə 1971-1975-ci illər ərzində respublikada 64 iri dövlət sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Onlardan Bakı məişət kondisionerləri zavodunu, Sumqayıt kompressor zavodunu, üst trikotaj fabrikini, Bakıda tikiş və ayaqqabı hissələri fabriklərini, Gəncə Çini Qablar zavodunu və başqalarını misal göstərmək olar.

Neft ehtiyatlarının işlənməsi, kəşfiyyatı və istifadəsində də bir sıra nailiyyətlər əldə edilmişdi. 1971-ci il martın 28-də Azərbaycanda bir milyard ton neftin çıxarılması təntənə ilə qeyd edildi. Neft emalı və neft - kimya, kimya sənayesi, əlvan və qara metallurgiya sürətlə inkişaf etdirilir, neftayırma sənayesinin yenidən qurulması və modelləşdirilməsi istiqamətində geniş iş aparılırdı.

Həmin beşillikdə kənd təsərrüfatının inkişafında misilsiz nailiyyətlər əldə olundu. Kənd təsərrüfatının istehsal fondları 62 faizdən çox artırıldı ki, bu da məhsul istehsalının orta illik artımını sürətləndirdi.

Tarixən çox qısa bir müddət ərzində əldə edilmiş yüksək iqtisadi nəticələr respublika rəhbərliyinin yüksək təşkilatçılıq qabiliyyəti, idarəetmə sənətəsi və bacarığı, mövcud ehtiyatları səfərbər edərək, onlardan səmərəli istifadə etməsinin nəticəsi idi ki, kənd təsərrüfatının əsas sahələrindən pambıqçılıq, üzümçülük, tütünçülük, çayçılıq rentabelli sahələrə çevrilmişdi. Həmin dövrdə dövlətə tərəvəz satışı 60 faiz artmışdı.

Məlumdur ki, hər cür istehsalın və onunla bağlı həyata keçirilən tədbirlərin ən yüksək məqsədi xalqın artmaqda olan maddi və mənəvi tələ-

batının daha dolğun ödənilməsindən ibarətdir. Sosial inkişafın əsasını iqtisadi inkişaf təşkil edir. Bu baxımdan, 1970-1982-ci illərdə Azərbaycanın sosial-iqtisadi inkişafında əsl sıçrayış baş vermişdi. Beləliklə, adambaşına milli gəlirin artım sürəti 1971-1982-ci illərdə 1961-1970-ci illərdəkinə nisbətən 2,7 dəfə artmışdı. Milli gəlirin artım sürətinin dinamik xarakter alması nəticəsində fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1970-ci ildəkinə nisbətən 1,3 dəfə, kolxozçuların əmək haqqı isə 1,9 dəfə çoxalmışdı.

Sosial inkişafın ən başlıca və ümumiləşdirici göstəricisinin - əhalinin real gəlirinin artması vacib məsələdir. Bu məsələnin həlli son nəticədə milli gəlirin bölgüsü və yenidən bölgüsü ilə tamamlanır. Faktik materialların təhlili göstərir ki, həmin dövrdə əhalinin real gəlirində ictimai istehlak fondlarından aldığı imtiyaz və güzəştlərin, xüsusilə, milli gəlirin yığım fonduna nisbətən istehlak fondunun daha sürətlə artırılmasının rolu yüksək olmuşdur. Həkimlərin, müəllimlərin, məktəbəqədər uşaq tərbiyə müəssisələri tərbiyəçilərinin, elmi dərəcəsi olmayan ali məktəb müəllimlərinin əmək haqqı xeyli artırılmış, maddi istehsal sahələrində çalışan və aylıq əmək haqqı 70 manatadək olan fəhlə və qulluqçuların əmək haqqından vergi tutulması ləğv edilmiş, 90 manatadək olan aylıq əmək haqqından tutulan vergi dərəcəsi aşağı salınmışdı ki, bu tədbirlərin həyata keçirilməsi nəticəsində əhalinin alıcılıq qabiliyyəti xeyli yüksəlmişdi. Dövlət büdcəsindən elmin inkişafına sərf edilən məsrəflər getdikcə artmışdı.

70-ci illərdən başlayaraq respublikada xalq maarifinin, səhiyyənin, mədəni-maarif sahələrinin və xüsusən, mənzil-kommunal təsərrüfatının inkişafında yüksək nailiyyətlər əldə edilmişdir. Respublikada həkimlərin ümumi sayı 1982-ci ildə 1970-ci ildəkinə nisbətən təxminən iki dəfəyə yaxın artmışdı. Həmin müddətdə əhalinin hər 1000 nəfərinə düşən ali və orta (tam və natamam) təhsillilərin sayı da iki dəfəyə yaxın çoxalmışdı.

Düzgün və səmərəli sosial siyasətin həyata keçirilməsi nəticəsində əhalinin rifahının və mədəni səviyyəsinin yüksəldilməsində, adamların maddi və mənəvi tələbatının ödənilməsində böyük nailiyyətlər qazanılmışdı.

Totalitar rejimin hökm sürdüyü bir dövrdə, xalqların və millətlərin siyasətlə, zor gücünə assimilyasiya edildiyi bir vaxtda hakimiyyətə gəlişi zamanı rəsmi tədbirlərdə məhz Azərbaycan dilində danışması H. Əliyevin

azərbaycanlı olmaqdan qürur duyduğuna bir işarədir. O, həmçinin, öz tarixi ilə də fəxr edirdi. Belə ki, Azərbaycanı bütün dünyada tanıtmaq, xalqımızın potensialını nümayiş etdirmək, onun şərəfli tarixini təbliğ etmək məqsədilə ilk ensiklopediyanın hazırlanması barədə qərar qəbul edilməsinə nail olmuş, bu məsələni həmişə diqqət mərkəzində saxlamış və bu məqsədə çatmaq üçün əlindən gələni əsirgəməmişdir.

H. Əliyev öz xalqının mədəniyyəti ilə fəxr edirdi. Vətənin bütün guşələrində Azərbaycanın böyük şəxsiyyətlərinin abidələrini, Gəncə şəhərində Nizaminin məqbərəsini ucaltdırdı, repressiya qurbanı olmuş Cavidi ölümündən illər keçdikdən sonra Vətən torpağına qovuşdurdu, elə həmin illərdə Azərbaycanın görkəmli sənət adamlarının böyük bir hissəsinə-şairlərimizə, yazıçılarımıza, bəstəkarlarımıza Sovetlər Birliyinin ən yüksək adlarının verilməsinə nail oldu, müstəqillik qazandıqdan sonra onları Azərbaycan Respublikasının fəxri adlarına, fərdi təqaüdlərə layiq gördü.

H. Əliyev müdikcəsinə dilini, tarixini, mədəniyyətini dünyaya tanıtdırdı. O bilirdi ki, dil də, tarix də, mədəniyyət də millətsiz mövcud ola bilməz və hər hansı bir milləti yer üzərindən izsiz olaraq silmək üçün onun dilini, tarixini, mədəniyyətini əlindən almaq kifayətdir. Həyata keçirdiyi tədbirlərlə böyük öndər məhz bu faciənin qarşısını almağa çalışmış və ona nail olmuşdur. Heydər Əlirza oğlu azərbaycanlı olmağı ilə nə qədər fəxr edirdisə, Azərbaycan xalqı da öz böyük oğluna görə daha bəxtəvərdir.

1991-ci ildə Azərbaycan öz siyasi müstəqilliyinə qovuşdu və suverenliyin ilk illərində müşahidə olunan sosial-iqtisadi çətinliklər, siyasi böhran bir tərəfdən, qonşu Ermənistan tərəfindən ədalətsizcəsinə cəlb edildiyimiz müharibə isə ikinci bir tərəfdən daxili və xarici qüvvələr vasitəsilə daha da kəskinləşdirilmişdi.

Xalqın tələbi ilə xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əlirza oğlunun müdrikliyi, uzaqgörənliyi, dəmir iradəsi nəticəsində xalqımız bir çox bəlalardan xilas oldu, ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, respublika separatist meyllərdən təmizləndi, ayrı-ayrı siyasi qüvvələrə və şəxslərə tabe olan silahlı birləşmələr ləğv edildi, vahid komandanlığa tabe olan ordu yaradılmağa başlandı.

Əgər müstəqillik illərində sosial-iqtisadi inkişafın hərtərəfli təhlilini aparsaq, aydın olar ki, əldə olunmuş nailiyyətlər məhz Heydər Əliyevin

respublikamıza rəhbərlik etdiyi dövrü əhatə edir. Belə ki, Ümumi Daxili Məhsulun həcmi 1993-1996-cı illərdə 45.5% azalmışdısa, müdrikcəsinə qurulmuş strategiya, bu strategiyanın müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində bu makroiqtisadi göstəricinin real həcmi 90%-a çatmış, 1996-2003-cü illərdə onun orta illik artım tempi 9%-ə yaxın olmuşdur. İnflyasiyanın səviyyəsi isə 2-3%-ə endirilmişdir.

Dahi siyasətçi təkcə iqtisadi inkişafın sürətləndirilməsi üçün deyil, Azərbaycanın dünya ölkələri arasında layiqli yerini tutması üçün də müvəffəqiyyətli siyasət yürütmüşdür. Belə ki, Azərbaycan Respublikasının Avropa Şurasına qəbulu, NATO və Avropa Birliyi ilə əməkdaşlıq bu siyasətin məhsuludur. Bundan əlavə, onlarla siyasi partiyanın radio və televiziyanın, yüzlərlə qəzet və jurnalın, QHT-nın fəaliyyət göstərməsi həmin illərdə respublika rəhbərliyinin demokratik prinsiplərə sadiq qalmasına real sübutdur.

Heydər Əlirza oğlu respublikamızda quruculuq tədbirlərinə neft strategiyasının yaradılması və həyata keçirilməsi ilə başladı. Neft respublikamızın milli sərvətidir, iqtisadi və siyasi çəkiyə malik strateji məhsuldur. Məhz H. Əliyev tərəfindən dəqiqliklə həyata keçirilmiş neft strategiyası respublikamızda ilbəil hiss etdiyimiz iqtisadi inkişafın təməlidir. Dünyada analoqu olmayan "Əsrin müqaviləsi" bağlanmış 21 müqavilədən biridir. Bu müqaviləyə görə 504 mln ton neft çıxarılması nəzərdə tutulmuşdur, onun da 244 mln tonu mənfəət kimi Azərbaycan Respublikasına çatacaq. Pul şəklində isə respublikamızın mənfəəti 33 mlrd $ həcmində dəyərləndirilir. Düzgün işlənmiş və müvəffəqiyyətlə həyata keçirilən neft strategiyası ABŞ, Böyük Britaniya, Norveç və s. kimi qüdrətli və inkişaf etmiş ölkələri respublikamızın iqtisadi və siyasi partnyorlarına çevirmiş, Xəzərin statusunun ədalətli təyin edilməsini əsaslandırmışdır. Məhz Prezidentimizin müdrik siyasəti nəticəsində Azərbaycanın neft müqavilələrində payı 10%-dən 50%-dək artmışdır. Bundan əlavə, H. Əliyevin respublikamıza rəhbərlik etdiyi vaxtdan başlayaraq bərqərar olmuş iqtisadi-sosial və siyasi sabitlik bu ölkələrin Azərbaycana olan marağını artırmış, xarici investisiyaların axınına şərait yaratmışdır. İqtisadiyyata ümumi olaraq 17 mlrd. ABŞ dollardan çox investisiya qoyulmuşdur ki, onun da 73.2%-i xarici investisiyadır. Bir faktı qeyd etmək yerinə düşərdi ki, MDB dövlətləri arasında əhalinin adambaşına düşən xarici investisiyaların həcminə görə Azərbaycan ilk yerdədir. Respublikamızda qeyri-neft sektorunun da inkişafına dövlət diqqəti güclüdür. Həyata keçirilən aqrar islahatlar və bu islahatların uğuru buna əməli sübutdur. Belə ki, ÜDM-un dörddə bir hissəsinin istehsal olduğu, əmək qabiliyyətli əhalinin üçdə birini özündə birləşdirən aqrar sahədə islahatların mühüm əhəmiyyətli olduğunu və onu struktur islahatların tərkib hissəsi kimi qiymətləndirən Dahi siyasətçi bu sahə ilə bağlı keçmiş SSRİ məkanında ən radikal addımlar atmışdır. Naxçıvan Muxtar Respublikasında aqrar sahə islahatları proqramının ilkin təcrübəsi Azərbaycan kənd təsərrüfatında aparılan köklü islahatların metodiki bazasına çevrildi. Bu gün torpaqdan soyumuş kəndli yenidən torpağa bağlanır. Bu sahədə aparılan islahatların nəticəsi olaraq 1 mln. 350 min hektar torpaq kəndlilərə verilmiş, 34000-dən artıq fermer təsərrüfatı yaradılmış və məhz bu əsasdan da hazırda Azərbaycan Respublikası özünün kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəmək iqtidarındadır.

H. Əliyev 2002-ci il aprelin 25-də yerli sahibkarlarla görüşdə özəl sektorun və sahibkarlıq fəaliyyətinin əhəmiyyətini xüsusilə vurğulamış və qeyd etmişdir ki: "Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır". Bu görüşdə sahibkarlığın inkişaf problemləri müəyyən olunmuş, respublikamızda sahibkarlığa yardım Prezident tərəfindən dövlətin əsas vəzifələrindən biri kimi təyin edilmişdir.

Respublikamızda yeni iqtisadi münasibətlərin inkişaf etdiyi son illər əhalinin aztəminatlı təbəqəsinin, xüsusilə pensiyaçı və əlillərin, sosial müdafiəsi dövlətin xüsusi diqqət mərkəzində olmuş və olmaqdadır. Bu istiqamətdə həyata keçirilən islahatlar da öz müsbət nəticəsini verməkdədir.

Nəzərə almaq lazımdır ki, son illərdə pensiya və müavinətlərin ödənilməsində nisbətən maliyyə sabitliyinə, mövcud resurslardan istifadədə müəyyən səmərəliliyə nail olunmuşdur ki, bu da hökumət tərəfindən bu problemə daima xüsusi diqqətin nəticəsidir. Pensiyaçıların maddi vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə son illərdə dəfələrlə pensiya qanunvericiliyinə - pensiyaların məbləğlərinin artırılmasını nəzərdə tutan dəyişikliklər edilmişdir. Müqayisə üçün qeyd etmək kifayətdir ki, 1997-2003-cü illərdə pensiya və müavinətlərin artırılmasına 900 milyard manat ayrılmışdır. Nəticədə 2003-cü ildə pensiya və müavinətlərin ödənilməsinə

ayrılan vəsait 1997-ci illə müqayisədə 3 dəfədən çox artmışdır. Həmin rəqəmləri hal-hazırkı səviyyə ilə müqayisə etdikdə isə bu nisbətin daha da böyük olduğunu görürük.

1995-2003-cü illər ərzində əhalinin həyat səviyyəsinin əsas göstəricilərindən biri kimi əhalının pul gəlirləri 3.6 dəfə artmışdır. 2003-cü ildə 1995-ci illə müqayisədə orta aylıq əmək haqqının və pensiyanın artımı müvafiq olaraq 6.1 və 6.9 dəfə təşkil etmişdir.

Ümummilli lider əsrlər boyu formalaşaraq zamanın sınağından çıxan, bu günümüzə gəlib çatan milli-mənəvi dəyərlərimizi keçid dövrünün mürəkkəb və ağır məqamlarında itirməmək üçün yeni siyasi məktəb, fundamental zəmin yaradaraq müstəqil Azərbaycanı dünya arenasında öz sözünü deməyə qadir olan, özünü siyasət aləmində təcrübəli ictimai-siyasi xadim kimi təsdiq edən qətiyyətli şəxsiyyətə - İlham Əliyevə etibar etdi.

Heydər Əliyevin siyasi kursu indiyə qədər Azərbaycana yalnız uğur gətirmişdir və bu siyasətin məhz İlham Əliyev tərəfindən davam etdirilməsi həm də yeni uğurların qazanılmasına etibarlı təminatdır. Bu da təsadüfi deyildir. Ötən illərə nəzər salarkən gördük ki, Azərbaycan kifayət qədər böyük nailiyyətlərə imza atmışdır və onların hər biri dövlətçiliyin fundamental əsaslarını müəyyənləşdirən tarixi hadisələrdir. Bu prosesin gələcəkdə İlham Əliyev tərəfindən davam etdirilməsi, əlbəttə ki, bütün Azərbaycan vətəndaşlarının ümumi iradəsini ifadə edən arzudur.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, aztəminatlı ailələrin maddi rifah halının yüksəldilməsinə, Vətənin bütövlüyü uğrunda fiziki sağlamlıqlarını itirmiş, əlil və şəhid olanların ailələrinə diqqət və qayğısını əsirgəməyən Heydər Əlirza oğlunun bu sahəyə xüsusi nəzarətinin davamını bir daha təsdiq edən cənab İlham Əliyev hələ prezident seçkiləri ərəfəsində İsmayıllıda bu qəbildən olan insanlar üçün yaraşıqlı binanın açılışı zamanı hər bir azərbaycanlının prezidenti olacağına, xalqın mənəviyyatını uca tutacağına söz vermiş və bu sözün üzərində ləyaqətlə durmuşdur.

Cənab İlham Əliyevin dövlətimizin başçısı seçildiyi bu müddətdən bəri özəl sektora böyük qayğı ilə yanaşılaraq sahibkarlığın inkişafının yeni mərhələsi başlanmış, korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı təsdiq edilmiş, humanistlik göstərilərək əfv fərmanları imzalanmış, milli

sərvətimiz olan Azərbaycan Milli Ensiklopediyasının nəşrinin və ana dilinə dövlət qayğısının artırılması məqsədilə latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi barədə sərəncamlar verilmişdir, uğurlu xarici siyasət nəticəsində dünyanın aparıcı dövlətləri ilə münasibətlərimiz yüksələn xətlə inkişaf etdirilməkdədir.

İlham Əliyev dövlət başçısı seçiləcəyi təqdirdə Azərbaycanın bütün regionlarının inkişafı üçün ciddi addımlar atacağını söyləmişdi. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanın verilməsi və "Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın təsdiqlənməsi bu sahədə əsaslı irəliləyiş üçün yeni stimul yaratmışdır.

Prezident İ. Əliyev tərəfindən 2004-cü ilin 11 fevral tarixində imzalanmış Fərmanla təsdiq olunmuş "Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (2004-2008-ci illər)" H. Əliyevin çox böyük önəm verdiyi "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın məntiqi davamı və tamamlayıcısıdır. Hər iki proqramda Respublikamızın sosial-iqtisadi inkişaf istiqamətləri, həmçinin hər bir inzibati-iqtisadi rayon üzrə bu inkişafı təmin edəcək tədbirlər müəyyənləşdirilmişdir.

Hər iki sənəd iqtisadi inkişafın daha da sürətləndirilməsinə xidmət edən təkmil konsepsiya olmaqla, işsizliyin aradan qaldırılmasını, regionların dinamik inkişafının təmin olunmasını, sənayenin və aqrar bölmənin inkişafını və digər prinsipial məsələləri nəzərdə tutur.

"Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (2004-2008-ci illər)"da qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilmişdir. Dövlət Proqramının qəbul edildiyi kiçik bir müddət ərzində həyata keçirilmiş tədbirlər öz bəhrəsini verməkdədir. Belə ki, 2004-cü ilin ilk 7 ayı ərzində qeyri-neft məhsullarının ixracı 2.4 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 90%, bitki mənşəli yağların ixracı 77% artmış, aliminum və ondan hazırlanmış məhsulların ixracı isə 3.1 dəfə yüksəlmişdir.

Bütün bunlarla yanaşı, respublikamızda, xüsusilə, regionlarda iqtisadiyyatın çiçəklənməsinə, əhalinin məşğulluğunun yüksəldilməsinə yönəldilən tədbirləri nəzərdə tutan 2005-2008-ci illər üçün Dövlət İnvestisiya Proqramının layihəsi hazırlanmışdır.

Cənab İ. Əliyevin prezident seçildiyi dövrdə "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" sözünə sadiq qalması əhalinin sosial müdafiəsi sahəsində atdığı addımlarla bir daha təsdiqlənir.

Azərbaycan prezidentinin son aylarda dövlət büdcəsindən maliyyələşən nazirlik, komitə və təşkilatlarda çalışan vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, pensiyaların, tələbə təqaüdlərinin, alimlik dərəcələrinə görə vəzifə maaşlarının, habelə minimum əmək haqqı və işsizliyə görə müavinətinin artırılması məqsədilə imzaladığı fərman və sərəncamlar da ictimaiyyətə tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Məlumdur ki, dünyada yoxsulluq probleminin həll edilməsi istiqamətində ən effektiv vasitələrdən biri, məhz, məşğulluğun stimullaşdırılması və layiqli yaşayışını təmin edəcək iş yerlərinin yaradılmasıdır. Məhz bu əsasdan da "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət proqramı"nda əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi yoxsulluğun azaldılması istiqamətində əsas tədbirlərdən biri kimi qeyd olunmuş, Prezident İ. Əliyev tərəfindən imzalanmış "Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (2004-2008-ci illər)" və "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanı isə bu imkanların reallaşmasına şərait yaradan bir əsas rolunu oynamaqdadır.

Hər bir vətəndaşın dövlətin köməyinə ehtiyacı olmadan ləyaqətli məşğulluğu vasitəsilə həyatını təmin etməsi, dövlət tərəfindən bunun üçün zəmanətin verilməsi vətəndaşların öz vəzifə və borclarını daha aydın dərk etməsinə, vətəndaş həmrəyinin əldə olunmasına xidmət edir. Bu əsasdan da, yaradılması nəzərdə tutulan 600 min iş yeri əhalinin həyat səviyyəsinin yüksəldilməsi ilə yanaşı, iqtisadiyyatın çiçəklənməsi, dövlət və vətəndaş arasında qarşılıqlı anlaşmanın bərqərar edilməsi məqsədini güdür. Prezident seçkilərindən sonrakı dövrdə 100 mindən çox yeni iş yerinin yaradılması cənab İ. Əliyevin xalq qarşısında verdiyi sözə sadiq qalmasına real sübutdur.

Makroiqtisadi stabillik və iqtisadi artım sosial sferanın inkişafında və əhalinin həyat səviyyəsinin yüksəlməsində də əks olunmaqdadır. Ölkə iqtisadiyyatında çalışan işçilərin orta aylıq əmək haqqı 2003-sü illə müqayisədə 26.2% çoxalaraq 483.4 min manata çatmışdır. Son zamanlar iqtisadi inkişaf nəticəsində əhalinin gəlirlərində yüksək artım tempi müşahidə edilməkdədir. Əhalinin nominal pul gəlirləri 2004-cü ildə 2003-cü illə

müqayisədə 20.7% artaraq 30 trilyon manata çatmışdır. Adambaşına pul gəlirləri isə il ərzində 19.6% çoxalmışdır.

Respublikada həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biri əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Bu sahədə qəbul edilmiş qərarların həyata keçirilməsi 2004-2008-ci illərdə əhalinin pul gəlirlərinin, orta aylıq əmək haqqının, pensiyaların, müavinətlərin, o cümlədən, işsizlik müavinətlərinin artmasını təmin edəcəkdir. Belə ki, proqnoza əsasən 2008-ci ildə əhalinin pul gəlirlərinin 2003-cü ilə nisbətən 1.8 dəfə, orta aylıq əmək haqqının isə 2.6 dəfə artması gözlənilir. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2003-cü il tarixli Fərmanında əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində gələcək illəri bir daha müəyyən etmişdir.

Ölkədə əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlar arasında yalnız birini - minimum əmək haqqının son bir il ərzində 3.6 dəfə artırılması faktın qeyd etməkdə sosial sahəyə diqqətin nə qədər güclü olduğunu qeyd etmiş olarıq.

11 noyabr 2004-cu il tarixdə möhtərəm İ. Əliyev respublikanın sosial-iqtisadi inkişafına, insan kapitalının qorunması və inkişaf etdirilməsinə xidmət edəcək daha bir Dövlət Proqramını - "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nı təsdiq etdi. Bu Proqram ölüm səviyyəsinin azaldılması, orta ömür uzunluğunun artırılması, ailənin inkişafı, uşaq və anaların müdafiəsinin gücləndirilməsi məqsədini güdən tədbirləri əhatə edir. Nəzərə almaq lazımdır ki, respublikamızda ailə və ailədaxili münasibətlər böyük əhəmiyyət daşıyır. Buna görə də, Dövlət Proqramı çərçivəsində ailə və nigahlar sahəsində tədbirlər ailənin möhkəmləndirilməsi, xüsusilə gənc ailələrə uşaqların tərbiyəsində, gənclərin sosial-iqtisadi fəallığının yüksəldilməsində, ailənin psixoloji, sosial funksiyalarının yerinə yetirilməsində dövlət köməyinin artırılması kimi istiqamətləri əhatə edir. Ümumiyyətlə, qeyd edilməlidir ki, Dövlət Proqramının əsas məqsədi vətəndaşlara inkişafın bütün aspektlərini əhatə edən, beynəlxalq norma və standartlara uyğun şəraitin yaradılmasından ibarətdir.

İlham Əliyev Azərbaycanın bayrağını yüksəklərə qaldırmağın daha bir yolunu gənclərin sağlamlığında, idmanın inkişafında görür. Bu da siyasi

amildir və Azərbaycanın qüdrətini, ağır çəkisini göstərən mühüm əlamətdir. 2000-ci ildən bəri ölkədə 8 yeni olimpiya kompleksi tikilib istifadəyə verilmiş, hər bir bölgədə idmanla məşğul olmaq üçün dünya standartlarına cavab verən gözəl şərait yaradılmışdır. Bu yaxınlarda Yunanıstanın Afina şəhərində keçirilən XXVIII Yay olimpiya oyunlarında böyük ruh yüksəkliyi ilə çıxış etmiş, Vətənə yüksək nailiyyətlərlə dönmüş idmançılarımızın da mükafatlandırılması onların fədakarlığına verilən layiqli qiymət, gələcək qələbələrə zəmin yaradan stimuldur.

Dövlət başçısının siyasi platformasında öncül yer tutan Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin milli mənafelərinə və beynəlxalq hüquq normalarına uyğun həlli istiqamətindəki səyləri xüsusi qeyd edilməlidir. Cənab İlham Əliyev bütün xarici səfərlərdə, görüşlərdə bu problemi ön plana çəkir, ölkəmizin haqlı mövqeyini bir daha dünya ictimaiyyətinə çatdırır. Bu baxımdan, İlham Əliyevin respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndələrinin başçıları ilə görüşü zamanı Azərbaycanda həm daxili, həm də xarici siyasətdə gedən proseslərin dünya ictimaiyyətinə mükəmməl çatdırılmasını, informasiya hücumunun daha da gücləndirilməsini tövsiyə etməsi də hər bir azərbaycanlıda mənsub olduğu xalqın tarixinə, mədəni irsinə diqqətlə yanaşılması, vətənpərvərlik duyğusunun aşılanması baxımından əhəmiyyətlidir.

Ulu Tanrı Azərbaycan xalqına və onun gənc Prezidenti İlham Heydər oğlu Əliyevə yar olsun!

ƏLİ ƏHMƏDOV
Yeni Azərbaycan Partiyası
Sədrinin müavini, YAP İcra katibi,
Milli Məclisin deputatı

HEYDƏR ƏLİYEVİN DEMOKRATİYA BAXIŞLARI

Bəşəriyyətin müasir inkişafının əsas meylləri sırasında demokratiyanın hərtərəfli yayılmasının xüsusi önəm daşıması günümüzün inkaredilməz gerçəkliyidir. Demokratiyanın qərarlaşması dərəcəsi və demokratik dəyərlərə sədaqət milli dövlətlərin dünya birliyinin bərabərhüquqlu və hörmət bəslənilən üzvü olmasının, demək olar ki, ən vacib şərti sayılmaqdadır. Ayrı – ayrı dövrlərdə ictimai düşüncədə üstün mövqeləri şəriksiz olaraq özündə saxlayan ədalət və bərabərlik prinsipləri indi demokratiya prinsiplərinin kölgəsində az qala görünməz olub. Dünya birliyinə üzv olmağın fundamental prinsipi elan edilmiş demokratiya suveren dövlətçiliyin özünütəsdiq və özünüifadəsinin də ölçü vahidi kimi qavranılmaqdadır.

Demokratiyanın milli suverenliyin və dövlətlərin dünya birliyinə inteqrasiyanın fundamental prinsipi kimi dəyərləndirilməsi gənc müstəqil dövlətlərə münasibətdə daha qabarıq şəkildə özünü büruzə verir. Görünür, bu heç də təsadüfi deyil. Vaxtilə milli suverenliyin beynəlxalq aləm müstəvisində özünütəsdiqi milli gücün nümayişi formasında baş tuturdusa, indi bu, dövlətin demokratiyaya sədaqət sınağından uğurla çıxması şəklində həyata keçirilir. Bir sözlə, demokratiya müasir dövlətçiliyin təməl prinsipi dərəcəsinə yüksəlmişdir və bu səbəbdən də, demokratiyanı özündə qərarlaşdırmayan xalqlar nəinki dünya birliyinin bərabərhüquqlu üzvü olmaq şansını itirmək təhlükəsi ilə üz-üzə dayanırlar, həm də müstəqil, suveren dövlət kimi tanınmaq hüququndan məhrum olmaq həddinə belə gəlib çatırlar.

Demokratiyanın müasir, milli, suveren dövlətçilik praktikasının immanent halı olması hazırda hamılıqla qəbul olunur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulması prosesində sözügedən fundamental prinsipə xüsusi önəm verməsi, düşünürəm ki, məhz elə bununla əlaqədardır. Qeyd olunmalıdır ki, Azər-

baycanda dövlət quruculuğunun demokratiyadan kənarda dərk edilməsinin mümkünsüzlüyü Heydər Əliyev tərəfindən o hələ Naxçıvanda olarkən qeyd edilirdi. Yeni Azərbaycan Partiyasını yaratmaq təklifi ilə Ümummilli Liderimizə Azərbaycan ziyalılarının müraciətinə cavabında o, bildirmişdir: «Müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, seçib seçilmək azadlığından gedir.»

Heydər Əliyevin demokratiya baxışları müasir demokratik meylləri özündə üzvi surətdə birləşdirərək onun dövlətçilik konsepsiyasının ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Heydər Əliyevə görə, müasir dövlət demokratiya normalarına istinad etmədən dünya birliyinə inteqrasiya etmək imkanlarından məhrum olduğundan, onun, ümumiyyətlə, mövcudluğu təmin edilə bilməz. Məhz elə buna görə də onun müstəqil dövlət quruculuğu konsepsiyasının təməl prinsipləri sırasında demokratiyaya, demokratik inkişafa xüsusi önəm verilir.

Heydər Əliyevin demokratiya haqqında baxışları onun rəhbərliyi altında ölkəmizdə müstəqil, demokratik dövlət quruculuğu təcrübəsində, ayrı – ayrı nitq və çıxışlarında, dövlət başçıları, tanınmış siyasi xadimlərlə görüşlərdə söhbətlərində ifadə olunmuşdur. Fikrimizcə, Heydər Əliyevin demokratiya haqqında baxışları bir yandan müasir demokratik dəyərləri, digər yandan isə Azərbaycanın konkret reallıqlarında onların özünüifadəsi və özünütəsdiqi üsullarını ahəngdar şəkildə birləşdirir. Aparılan təhlillər əsasında bu qənaətə gəlmək olar ki, Heydər Əliyevin demokratiya baxışları aşağıdakı əsas prinsiplərin üzərində qərar tutur:

a) demokratiya qanunun aliliyinə əsaslanmalıdır;

b) demokratiya dərk edilmiş zərurətdir;

c) demokratiya xalq hakimiyyəti təsisatlarının yaradılması və onlara hörmətlə yanaşılması zəminində həyata keçirilməlidir;

ç) demokratiya proses kimi qəbul edilməlidir;

d) demokratiya xalqın faydalanması naminə qurulmalıdır.

Demokratiyanın qanunun aliliyinə əsaslanması onu xaos və anarxiyaya aparan yoldan ayıran başlıca amildir. SSRİ-nin süqutundan sonra meydana gələn müstəqil dövlətlərin acı təcrübəsi demokratiyanın xaosa çevrilməsi ehtimalının böyük olduğunu artıq sübuta yetirmişdir. XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Azərbaycanda demokratiya adı altında baş verənlərin sözün həqiqi mənasında xaos və anarxiyadan başqa adla işarələnə bilməməsi deyilənə əyani misaldır. Təsadüfi deyildir ki, Azərbaycanda əsl demokratiyanı qurmağa müvəffəq olmuş Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqda ilk olaraq qanunçuluğun təmin edilməsi və sabitliyin bərpa olunmasını müstəqil, demokratik dövlət quruculuğunun əsas vəzifələri kimi qarşıya qoymuşdur. Bununla əlaqədar olaraq o demişdir: «Demokratiya qanunları pozmaq deyil. Demokratiya qanun çərçivəsində olmalıdır.

Dövlətin vəzifəsi ölkədə qanunun aliliyini təmin etməkdir, insanların hüquq bərabərliyini təmin etməkdir. İnsanların azadlığını təmin etməkdir. Vətəndaşın da vəzifəsi bütün hərəkətləri, bütün fəaliyyəti, işləri qanun çərçivəsində görməkdir. Bax, belə olan halda – bir tərəfdən dövlət qanunun aliliyini təmin edirsə və ikinci tərəfdən, hər bir vətəndaş öz həyat tərzi ilə, davranışı ilə, fəaliyyəti ilə qanunun aliliyinin təmin olunmasına öz payını verirsə və qanunun aliliyindən istifadə edərək öz hüquqları çərçivəsində fəaliyyət göstərirsə, onda demokratiya həqiqi demokratiyadır.»

Heydər Əliyevin demokratiyanın baxışlarında ikinci mühüm prinsip onun dərk edilmiş zərurət kimi qiymətləndirilməsi ilə əlaqədardır. Hər bir xalqın həyatında demokratiyanın özünə yer tutması toplumun daxili inkişafının məntiqi nəticəsi kimi meydana çıxa bilir. Demokratiya xalqın siyasi inkişafının immanent ifadəsi olduqda həqiqi parametrlər kəsb edir və yaşarlı olur.

Müstəqil Azərbaycan dövlətinin formalaşması prosesinin əsas istiqamətlərini səciyyələndirərkən Ümummilli Lider Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, xalqımızın seçimi demokratiyadır, yolumuz demokratiya yoludur. O eyni zamanda qətiyyətlə belə bir zərurəti də vurğulayırdı ki, demokratiya Azərbaycana kənardan gətirilə bilməz və gətirilməməlidir. Kənardan ölkəyə gətirilən demokratiya dərk edilmiş zərurət olmur və təbiidir ki, dərk edilməyən heç nə ictimai düşüncədə və insanların həyatında dayanıqlı mövqe qazana bilməz. Demokratiya xalqın öz daxilində yetişməli, bir yandan onun siyasi düşüncələrinin ifadəsi, digər tərəfdən isə, həyat tərzi və siyasi davranışının tənzimləyici norması olmalıdır. Heydər Əliyev qeyd edirdi: «Demokratiya bir prosesdir. Özü də insanlar, ölkələr

və xalqlar bu prosesi ona hazır olduqları səviyyədə keçirlər ..... Təsadüf ki, Qərbdə bəziləri belə hesab edirlər – hər hansı Qərbi Avropa ölkəsində də, Qafqazda da, daha haradasa, demokratiya eyni cür olmalıdır. Yox, belə ola bilməz.

Başqa məsələdir ki, demokratiyanın əsas daşıyıcıları və böyük təcrübəyə malik olan ölkələrin keçdiyi yolu biz xeyli qısa vaxtda keçə bilərik və keçirik. Ona görə də demokratiya elə bir hadisədir ki, insanların təfəkküründə dəyişikliklər baş verməlidir.»

Vurğulanmalı cəhətlərdən biri də ondan ibarətdir ki, Ümummilli liderimiz demokratiyanı ölkəmizin suverenliyinin təminatı, onun inkişafının vacib şərti sayırdı və xüsusi qeyd edirdi ki, biz dövlət müstəqilliyi əldə etdikdən sonra demokratiya yolu seçmişik və bu yolu dövlətimizin daha azad, suveren inkişafı üçün yeganə yol kimi görürük.

Dərk edilmiş zərurət kimi qavranılan demokratiyanın real həyatda mövcudluğunun təmin edilməsi onun təsisatlanması yolu ilə həyata keçirilir. İnsan hüquq və azadlıqlarının bir sıra fundamental prinsiplərini özündə birləşdirən demokratiya müvafiq təsisatlar sistemində reallığa çevrilir. Azərbaycanın demokratiya yolu ilə irəliləməsi ardıcıl və sistemli şəkildə həmin təsisatların yaradılması və təkmilləşdirilməsi formasında özünü büruzə verir.

Demokratiya bu sözün daşıdığı məna yükünə uyğun olaraq, hər şeydən əvvəl xalqın hakimiyyətinin qərarlaşmasını nəzərdə tutduğundan demokratiya quruculuğu da ilk növbədə xalq hakimiyyəti təsisatlarının formalaşmasından keçir. Hakimiyyət bölgüsü, hakimiyyətin müxtəlif qollarının seçkilər vasitəsi ilə formalaşdırılması və xalq qarşısında hesabat verməsi demokratiyanın əsas özünüifadə formaları baxımından təsisatlanması hesab edilir. Heydər Əliyevin sözügedən aspektdən demokratiyanın bərqərar olmasında müstəsna xidməti ölkədə hakimiyyətin güc tətbiqi, saray çevrilişləri, silahlı üsyanlar vasitəsilə deyil, seçkilər yolu ilə formalaşması gerçəkliyini və ənənəsini yaratmasında özünü göstərir. 1993-cü ilin məlum iyun hadisələrindən sonra hakimiyyətə gələn Heydər Əliyev hakimiyyətin formalaşması ilə əlaqədar Azərbaycanda formalaşmış zorakı ənənələrə və üsullara birdəfəlik son qoydu, onun seçkilər vasitəsi, xalqın iradəsi ilə qurulması təsisatını həm yaratdı, həm də bir ənənə olaraq möhkəmləndirdi. 1993-cü ilin avqust ayında ölkəni ağır durumda başsız qo-

yaraq Bakını tərk etmiş prezident Əbülfəz Elçibəyə etimadsızlıq göstərilməsi ilə əlaqədar ümumxalq referendumunun keçirilməsi əslində mahiyyətcə hakimiyyətin yalnız seçkilər yolu ilə, xalqın iradəsi əsasında dəyişdirilməsi ənənəsinin və praktikasının əsasının qoyulması demək idi. Həmin referendumun keçirilməsi təşəbbüsü Heydər Əliyevə məxsus olduğundan, sözügedən ənənənin əsasının qoyulmasının da Heydər Əliyevin xidməti olduğunu mütləq vurğulamaq tələb olunur. Hakimiyyətin xalqın iştirakı və iradəsi ilə formalaşması praktikası 1993, 1998 və 2003-cü illərin prezident seçkilərində qəti şəkildə möhkəmləndi və geriyədönməz xarakter aldı.

Demokratiyanın digər mühüm təsisatı olan hakimiyyət bölgüsü və onun konstitusion əsaslarının yaradılması da Heydər Əliyevin xidməti sayılmalıdır və sayılır. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilənə qədər ölkədə hakimiyyətin üç qolunun – Prezident hakimiyyətinin, Qanunverici hakimiyyətin və Məhkəmə hakimiyyətinin formalaşması praktikada artıq demək olardı ki, həyata keçirilmişdi. 1995-ci ildə ölkənin Əsas Qanununun – Konstitusiyanın qəbul edilməsi hakimiyyət bölgüsünün konstitusion əsaslarını təsbit etməklə bu təsisatı daha səmərəli formaya saldı. Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə Konstitusiya Məhkəməsinin yaradılması hakimiyyət bölgüsü ideyasının məntiqi yekunu olaraq, onun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsini təmin etmiş oldu.

Demokratiyanın təmin edilməsində digər qrup fundamental prinsiplər insan hüquq və azadlıqları ilə sıx bağlıdır. Demokratiya əslində insanların hüquqlarının tanınması, onlara hörmətlə yanaşılması, onların qorunması üçün səmərəli mexanizm yaradılması deməkdir. Heydər Əliyevin bu mənada xidmətlərinin nə qədər mühüm və geniş miqyaslı olduğunu təsəvvür etmək üçün kifayət qədər tutarlı faktlar mövcuddur. Hakimiyyətə qayıdışı ilə ölkədə hərcmərcliyi aradan qaldırmaq, qanunun aliliyini təmin etmək, sabitliyi yaratmaqla əslində o, insan hüquq və azadlıqlarının qorunmasına ən münbit şərait yaratmışdır. Bundan əlavə, Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında ölkə Konstitusiyasının hazırlanması, Əsas Qanunda insan hüquq və azadlıqlarının geniş şəkildə təsbit edilməsi (Konstitusiyanın bütün maddələrinin təxminən üçdə biri insan hüquq və azadlıqlarının təsbit edilməsi ilə əlaqədardır), Şərqdə ilk dəfə Azərbaycanda ölüm

hökmünün ləğv edilməsi, insan hüquqları üzrə müvəkkilin – Ombudsmanın yaradılması Ümummilli liderin hakimiyyəti dövründə görülən tədbirlər, yaradılan təsisatlardır. Qeyd olunmalıdır ki, bir yandan yaradılan sözügedən təsisatlar səmərəli fəaliyyət göstərir, digər yandan isə bunun sayəsində demokratiya Azərbaycanda real parametrlər kəsb edir.

Demokratiyanın təsisatlanmasının vacib istiqamətləri sırasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi həlledici əhəmiyyət kəsb edir. Azərbaycanda azad mətbuatın məhz Heydər Əliyevin hakimiyyəti dövründə formalaşdığı təkzib edilməsi mümkün olmayan gerçəklikdir. Bunu təsdiqləyən faktlar aşağıdakılardan ibarətdir: Heydər Əliyev ölkədə «Söz, fikir və mətbuat azadlığının təmin edilməsi ilə əlaqədar əlavə tədbirlər» haqqında xüsusi fərman vermiş, 1992-ci ildə prezident Elçibəyin mətbuat üzərində qoyduğu senzuranı ləğv etmiş, mətbuat orqanlarının yaradılması və fəaliyyəti üçün hər cür şəraiti yaratmışdır. Məhz elə buna görə Azərbaycan qəzet, jurnal və televiziya kanallarının sayına görə ən qabaqcıl, demokratik ənənələrin dərin kök saldığı ölkələrdən heç də geridə qalmır. İctimai televiziyanın yaradılması ilə əlaqədar əsası Heydər Əliyev tərəfindən qoyulan işlər bu gün öz məntiqi nəticəsinə çatmaqdadır.

Demokratiyanın digər həlledici təsisatı – seçkilər institutunun formalaşmasında da Heydər Əliyevin xidmətləri xüsusi qeyd edilməlidir. Heydər Əliyevin rəhbərliyi dövründə ölkəmizdə 1993, 1998 və 2003-cü illərin prezident, 1995 və 2000-ci illərdə parlament seçkiləri, 1999-cu ildə bələdiyyələrə seçkilər, 1993, 1995 və 2002-ci illərdə isə ölkə həyatının vacib məsələləri ilə əlaqədar ümumxalq səsvermələri – referendumlar keçirilmişdir. Seçkilərin təşkil edilməsi və keçirilməsi üçün daimi əsaslarda fəaliyyət göstərən seçki administrasiyası formalaşdırılmışdır. Seçkilərin şəffaf, ədalətli keçirilməsini, beynəlxalq standartlara cavab verməsini təmin etmək üçün seçki qanunvericiliyi əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş, seçki qanunvericiliyi toplusundan ibarət olan Seçki Məcəlləsi qəbul edilmişdir.

Qeyd etmək lazımdır ki, ölkəmizdə yaradılan seçki təsisatları Azərbaycanda demokratiyanın qərarlaşmasının ən mühüm amilidir. Ölkədə seçki mədəniyyətinin formalaşmasından tutmuş hakimiyyətin xalqın iştirakı və iradəsi ilə yaradılmasınadək bütün demokratik prosedurların baş tutmasında seçki təsisatları əsas rol oynayır.

Nəhayət, demokratiyanın daha bir fundamental təsisatı – siyasi plüralizm və çoxpartiyalılığın formalaşmapsında da Heydər Əliyevin xidmətləri ciddi siyasi araşdırmalar və dəyərləndirmələr obyekti olmağa layiqdir. Sözün həqiqi mənasında siyasi plüralizm, müxtəlif siyasi baxışların ictimai rəydə mövcud olması və açıq şəkildə ifadə olunması, onun çoxpartiyalılıq şəklində təsisatlanması Heydər Əliyevin rəhbərliyi altında aparılan siyasi islahatların bəhrəsidir. Heydər Əliyev dəfələrlə siyasi plüralizmə hörmətlə yanaşdığını bəyan etməklə yanaşı, onun mövcud olması üçün zəruri şəraiti də yaradır, bununla da demokratiyanın bu atributunun özünütəsdiqinə meydan verirdi. Eynilə də çoxpartiyalılığın təmin edilməsi, ölkədə çoxpartiyalı sistemin yaradılması, tam məsuliyyətlə qeyd oluna bilər ki, Azərbaycan xalqının Ümummilli liderinin həyata keçirdiyi siyasi islahatlarla, bütünlükdə onun dövlət siyasəti ilə əlaqədardır. Məhz Heydər Əliyevin siyasi islahatlarının nəticəsində çoxpartiyalılıq partiyaların say çoxluğundan demokratiyanın ən mühüm şərtlərindən biri olan təsisata çevrildi. İrəliyə sürülən tezisin təsdiqi qismində ilk növbədə belə bir fakt vurğulana bilər ki, ölkəmizdə ilk dəfə olaraq çoxpartiyalılıq əsasında parlament 1995-ci ildə keçirilən seçkilərin nəticəsində formalaşmışdır. Bununla da əslində Azərbaycanda demokratiyanın immanent xüsusiyyəti, əlaməti kimi, çoxpartiyalılıq bir təsisat olaraq formalaşmışdır.

Heydər Əliyevin demokratiya baxışlarının tərkib hissəsini təşkil edən çox önəmli elementlərdən biri ona fasiləsiz proses kimi baxılması ilə əlaqədardır. Bəşəriyyətin təkamül prosesindən keçərək indiki mərhələyə gəlməsi və inkişafın fasiləsiz xarakterə malik olması bütün bəşəri hadisələrin təkamülə meylli olduğunu təsdiq etmək üçün ən tutarlı dəlildir. Demokratiya ictimai həyat hadisələrinin digər formaları kimi, daim inkişaf edib, müxtəlif mərhələləri keçib və təbiidir ki, yenə də kamilləşməkdə davam edir. Demokratiyanın inkişafı həm də təkcə onun bir sosial fenomen olaraq kamilləşməsi prosesi ilə məhdudlaşmır. Baxmayaraq ki, demokratiyanın inkişafı anlayışı ilk növbədə prosesin məhz sözügedən aspektini nəzərdə tutur. Bununla belə, demokratiya konkret şəraitdə, özünün xüsusi təzahür halında da inkişaf edir. Söhbət ayrı – ayrı ölkələrdə demokratikləşmə prosesinin təkmilləşdirilməsindən gedəndə məhz inkişafın bu aspekti başa düşülür. İstənilən ölkə demokratiya yoluna qədəm qoyduqda o, həmin sosial – siyasi fenomenin müxtəlif mərhələlərini yaşamalı olur və çox

vaxt bir qayda olaraq yeni demokratiya yoluna düşən ölkələr ənənəvi olaraq demokratik sayılan ölkələrdən əhəmiyyətli dərəcədə fərqlənir. Buradan da ayrı – ayrı ölkələrin timsalında sosial hadisə kimi demokratiyanın müəyyən edilmiş ümumdünya pilləsindən xeyli fərqlənən demokratiya formaları meydana gəlir. Demokratiyaya bir proses kimi baxılması demokratiyanın milli dövlətlərin timsalında təkmilləşməsini, kamilləşməsini, ayrı – ayrı dövlətlərin demokratik inkişaflarında fərqin aradan qaldırılması halını ehtiva edir.

Heydər Əliyev «demokratiya bir prosesdir» dedikdə, fikrimizcə, yuxarıda şərh edilən hər iki halı nəzərdə tuturdu. Məsələ ilə əlaqədar çıxışlarında o dəfələrlə bildirirdi ki, dünyanın qabaqcıl ölkələri demokratiya sahəsində nə qədər irəlidə olsalar da, bu son həddi sayıla bilməz. Çünki, Heydər Əliyevin təbirinə görə, demokratiya elə bir hadisədir ki, əvvəli var, axırı yoxdur. Deməli, o daim inkişafa, təkmilləşməyə məhkumdur. Digər tərəfdən isə, Heydər Əliyevin baxışlarında demokratiya konkret dövlətin konkret inkişaf mərhələsi kimi nəzərdən keçirilirdi və bu mənada «demokratiya bir prosesdir» dedikdə konkret dövlətin demokratik halının təkmilləşməsini ifadə edirdi. Onun fikrincə, demokratiya yolu seçmiş Azərbaycanın qısa tarixi mərhələdə kamil demokratiya mərhələsinə çatması qeyri mümkündür və bu halda ölkənin demokratikliyini onun kamilliyi ilə deyil, demokratiya yoluna sədaqətli olması, bu yolla inamla irəliləməyə, demokratik dəyərləri ardıcıl surətdə mənimsəməyə iddialı və qadir olması ilə təyin etmək daha ədalətli sayılmalıdır. Heydər Əliyevin demokratiyaya konkret vəziyyətdə sözügedən mövqeydən yanaşması əslində demokratiya problematikası ətrafında aparılmış diskussiyalar zamanı ortaya qoyulan «demokratiya ya var, ya da yoxdur» konsepsiyası gerçəklikdən uzaq tezisə əsaslandığını təsdiq edən ən tutarlı cavab idi. Çünki, təzə demokratiya yoluna qədəm qoymuş ölkələrin həyatında demokratik dəyərlərin yayılmasını böyük demokratiya tarixi olan ölkələrin həyatı ilə eyni prinsipdən müqayisə edilməsi istər – istəməz düzgün olmayan nəticələrə gətirib çıxarmasına səbəb ola bilərdi.

Demokratiyaya proses kimi yanaşılması nəzəri postulat olmaqla yanaşı, həm də mühüm praktik əhəmiyyətə malik tezis sayılmağa layiqdir. Söhbət ondan gedir ki, məhz bu cür yanaşma əsasında hər bir ölkədə ardıcıl surətdə demokratiyanı inkişaf etdirmək, təkmilləşdirmək mümkündür. Azərbaycanda son 10-12 ildə demokratiyanın inkişafı sahəsində əldə edilən nailiyyətlər, demokratiya dəyərlərinin getdikcə geniş yayılması, təsisatlanması deyilən fikri sübuta yetirən təkzibedilməz dəlil sayıla bilər.

Heydər Əliyevin demokratiya konsepsiyasında diqqəti çəkən mühüm prinsiplərdən biri də onun mücərrəd deyil, konkret məzmuna malik olmasıdır. Hər bir sosial hadisənin mahiyyəti onun ictimai faydalılıq əmsalı ilə təyin edilir. İnsanlar onların həyatını dəyişdirən və ya yaxşılaşdıran hadisələrə meyl edir. Bəşəriyyətin inkişafı ictimai – faydalı hadisələrin yayılması və hamılıqla tətbiq edilməsi sayəsində mümkün olub. Demokratiya da məhz ona görə yayılıb, inkişaf edib ki, insanların, bütünlükdə cəmiyyətin həyatını daha yaxşı təşkil etməyə imkan yaradıb və bütünlükdə ictimai tərəqqiyə təkan verib. Antik demokratiya inkişafın amili olduğu üçün həyatda özünə yer tutub, lakin bəşəri tərəqqinin digər siyasi amilləri praktikada üstünlük təşkil edəndə demokratiya arxa plana keçməli oldu. Tarixin inkişafının indiki mərhələsində və halında da demokratiya dəyərlərinin ictimai proseslərə nüfuz etməsi ilk növbədə həmin meyarlarla – ictimai faydalığı ilə müəyyənləşir. Demokratiya bəşəriyyətin inkişaf stimul olması, insan hüquq və azadlıqlarına təminat verməsi, bütünlüklə cəmiyyətin daha səmərəli və ədalətli təşkilinə imkan yaratması ilə cəlb edir.

Müstəqilliyini bərpa etmiş Azərbaycanın demokratiya yolunu seçməsi, artıq yuxarıda qeyd edildiyi kimi, bir sıra səbəblərlə əlaqədardır və bu səbəblər sırasında onun ictimai həyatı daha yaxşı təşkil etməyə imkan yaratması kimi xüsusiyyəti əsas yeri tutur. Demokratiyanın sözügedən xüsusiyyəti Heydər Əliyev tərəfindən yüksək dəyərləndirilir və bu sosial hadisəni ölkəmiz üçün gərəkli edən cəhətlərdən birincisi qismində qeyd edilirdi. Bu münasibətlə Heydər Əliyev deyirdi: «Bir halda ki, biz tutduğumuz bu yol ilə gedirik, qanunlarımızı dünyanın demokratik qanunlarına uyğunlaşdırırıq, dövlət quruculuğu sistemimizi, cəmiyyətimizi dünyanın demokratik ölkələri və cəmiyyətləri, dövlətləri səviyyəsinə qaldırmaq istəyirik, demək onları mütləq həyata keçirməliyik. Bunlar da kiminsə xoşuna gəlmək və onun respublikamıza «bəli, siz yaxşı ölkəsiniz» deməsi üçün yox, sadəcə olaraq ölkəmizin həyatını kökündən dəyişdirmək, dövlətimizi istədiyimiz səhiyyəli dövlət etmək üçün və iqtisadiyyatımızı, insanların sosial vəziyyətini, rifah halını yaxşılaşdırmaq, iqtisadiyyatımızda ciddi dəyişikliklər aparmaq üçün lazımdır. Bunlar hamısı bir – biri ilə bağ-

li, kompleks şəkildə olan tədbirlərdir və bunları da kompleks şəkildə aparmalıyıq.»

Heydər Əliyevin düşüncəsinə görə, demokratiya səmərəli olmalı, cəmiyyətə, millətə, dövlətə və hər bir insana fayda verməlidir. Demokratiyanın mahiyyəti bunda ifadə olunur. Demokratiyanı zəruri edən, onu insanlar üçün cəsbedici edən də məhz onun səmərəliliyidir. Azərbaycanın son illərdə əldə etdiyi uğurların əsasını təşkil edən fundamental amillər sırasında ölkəmizdə Heydər Əliyevin rəhbərliyi altında qurulan və inkişaf etdirilən səmərəli demokratiya aparıcı yer tutur. Səmərəli demokratiya habelə Heydər Əliyev siyasətinin mahiyyətini təşkil edən cəhətlərdəndir. Bu gün Azərbaycanda uğurla davam etdirilən Heydər Əliyev siyasəti ictimai həyatın bütün sahələrində olduğu kimi, cəmiyyətin daha da demokratik mahiyyət kəsb etməsində ifadə olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ yoxdur» çağırışı eyni dərəcədə ölkəmizdə demokratik inkişafa alternativin olmaması kimi qavranılır. Demokratiya müasir Azərbaycan cəmiyyətinin mahiyyətini təyin edən fundamental prinsiplərdən biri olaraq insanların həyat tərzində birdəfəlik qərarlaşmışdır. Qətiyyətlə etiraf olunmalıdır ki, demokratiyanın Azərbaycan cəmiyyətinin və xalqımızn həyatında qəti qərar tapması bir yandan ölkəmizin seçdiyi strateji seçimlə bağlıdırsa, digər yandan Heydər Əliyev ideyalarına, o cümlədən Ümummilli Liderin demokratiya baxışlarına insanlarımızın böyük hörmət və ehtiramla yanaşmasından irəli gəlir. Bu isə öz növbəsində Heydər Əliyev siyasətini daha yaşarlı edir, onun ideya və baxışlarını bəşəri dəyərlərin ayrılmaz tərkib hissəsi kimi təsdiqləyir.

ARİF RƏHİMZADƏ
Milli Məclis sədrinin birinci müavini,
YAP İdarə Heyətinin üzvü

ƏSRƏ BƏRABƏR ON İL

Heydər Əliyev haqqında az yazılmayıb. Amma onun şəxsiyyətinə göstərilən maraq azalmır. Heydər Əliyev fenomeni yenə hamını heyran edir.

Müasirlərimin bir çoxu kimi mənim üçün də tapmacadır ki, ömrünün, demək olar, ixtiyar çağını yaşayan bir insan dağılmaq üzrə olan, daxili ziddiyyətlərin və xarici təsirlərin yıxıb sürüklədiyi ölkəyə başçılıq etməyi, bu ölkəni bir siyasi və sosial-iqtisadi formasiyadan digərinə keçirməyi, demokratik, hüquqi dövlət qurmağı necə bacarmışdı.

1993-cü ildə dövlət başçısı olanda Heydər Əliyevin 70 yaşı vardı. Düzünü söyləsək, əmək xarüqələri göstərmək üçün münasib yaş deyil. Xüsusən, nəzərə alsaq ki, o, artıq dünyanın hər üzünü görmüşdü, milyonlarla insanın içərisində bəlkə birinin qismətinə düşən ömür yolu keçmişdi. Heydər Əliyevin həyat yolunda yoxuş da olmuşdu, eniş də. Fövqəldövlətin rəhbərlərindən biri də olmuşdu, evsiz-eşiksiz pensiyaçı da. Amma otuz ildən artıq siyasi fəaliyyəti dövründə mərdliyi və qətiyyəti, hadisələri irəlicədən görmək və qabaqlamaq kimi dahiyanə qabiliyyəti, xalqın məhəbbəti və etimadı heç vaxt ondan üz döndərməmişdi.

Səksəninci illərin sonları - doxsanıncı illərin əvvəlləri. Bir fərsiz rəhbəri digəri əvəz edir. İnsanların güzəranı günbəgün pisləşir. Sovet qoşunlarının Bakı sakinlərinə qəddarcasına divan tutması və Qarabağ müharibəsində uğursuzluqlar eyni bir zəncirin həlqələri kimi qəbul edilir, insanlarda təlaş, məyusluq və çarəsizlik hisslərini artırır. Xalq Cəbhəsinin on bir aylıq hakimiyyəti ölkənin düşdüyü girdabı lap dərinləşdirir, dərd üstünə dərd gətirir. Vətəndaş müharibəsi alovlanır, Azərbaycanın ərazi bütövlüyü üçün real təhlükə yaranır, ölkənin parçalanıb dağılmasına bir addım qalır. Dövləti idarəetmə vasitələri itirilir.

İnqilabi vəziyyət barəsində məşhur bir kəlam var - aşağılar daha əvvəlki kimi yaşaya bilmir, yuxarılar isə başqa cür idarə etməyə qadir de-

yil. Bizdəki vəziyyətin fərqli cəhəti o idi ki, hakimiyyətdəkilər nəinki başqa cür idarə edə bilmirdilər, həm də bunu yaxşı anlayırdılar.

Sonrakı hadisələr çoxlarına məlumdur. Prezidentin nümayəndələri, ictimai-siyasi qüvvələrin təmsilçiləri, dəstə-dəstə adamlar və ayrı-ayrı vətəndaşlar Naxçıvana, Heydər Əliyevə üz tuturlar. Onların arasında müxtəlif insanlara rast gəlmək olardı. Elələri vardı ki, Heydər Əliyevdən incik idilər, onu sevmir, hakimiyyətə gəlməsindən qorxurdular. Ancaq hamısının yekdil rəyi bu idi ki, ölkəni düşdüyü fəlakətdən yalnız və yalnız Heydər Əliyev çıxara bilər. Bir səslə xahiş edir, dilə tutur, tələb edirdilər ki, Heydər Əliyev Bakıya gəlsin və respublikaya rəhbərlik etsin. Umu-küsü, şəxsi iddialar arxada qalmışdı. Böyük əksəriyyətin fikri bir idi, özünümüdafiə instinkti işə düşmüşdü.

Heydər Əliyevə mən də eyni xahişlə müraciət etdikdə cavabı belə olmuşdu: "Hakimiyyətdə gözüm yoxdur. Mən onun zirvəsinə yüksəlmişəm və xalqa borcumu vermişəm. Amma ötən illərdə qurub-yaratdıqlarımı necə dağıtdıqlarına və taladıqlarına, xalqı nə cür fəlakətə apardıqlarına laqeydliklə tamaşa edə bilmirəm". İnsanlara gərək olduğunu dərk etməsi, üzərinə çox böyük bir missiya düşdüyünü - xalqı hərc-mərclik, həqirlik və çarəsizlik girdabından xilas etməli olduğunu hiss etməsi Heydər Əliyevi ölkəyə rəhbərliyi yenidən öhdəsinə götürməyə və onu tərəqqi yolu ilə irəliyə aparmağa sövq edən başlıca amillər idi.

Heydər Əliyevin fenomenal yaddaşı və iti zəkası hamıya bəllidir. Onun əfsanəvi bir qabiliyyəti vardı - problemin mahiyyətinə vara bilir, hamıdan tez və hamıdan uzağı görürdü. Bununla bərabər, başqalarının fikirlərini çox diqqətlə və hörmətlə dinləyir, müsahibinin sözünü kəsmirdi. Ümumiyyətlə, dinləmək və görmək böyük bir sənətdir. Hər baxan görmür, yaxud hər qulaq asan eşitmir. Görməyi və eşitməyi bacarmaqdan ötrü bütün varlığınla burada olmalısan, yozmadan baxmağa və dinləməyə qüdrətin çatmalıdır. Heydər Əliyevdə bu keyfiyyətlər mükəmməl idi, ona görə də böyük mətləbləri bir işarədən anlayırdı.

Heydər Əliyevin bu və ya digər qərara necə gəldiyini söyləmək çətindir. Amma bir qərarı yaxınləşdirdikdə onun dəlil və mülahizələrini təkzib etmək mümkün deyildi. O, nə deyirdisə, nə edirdisə, hamısına əmin idi, haqlı olduğuna başqalarını da, qərəzsiz olan hər kəsi də inandırırdı. Heydər Əliyevin ən yaxın ətrafına mənsub olan, doxsanıncı illərdə dövlətdə yüksək vəzifə tutan bir nəfər Heydər Əliyevin fikri ilə heç də həmişə razı olmurdu. Söhbət zamanı o qüssələnirdi ki, "Heydər Əliyevlə danışmaq mümkün deyil. Elə dəlillər gətirir ki, istər-istəməz razılaşırsan". Ürəyində o, narazı qalırdı, amma Heydər Əliyevin məntiqli təfəkkürü qarşısında dayana bilmir, ona görə də hirslənirdi.

1990-1993-cü illərdə Azərbaycanın siyasət səhnəsinə romantik, iradəsiz xəyalpərəstlərlə yanaşı, avantüristlər və fırıldaqçılar da ayaq açmışdılar. Onlar xalqın xilaskarları, millətin mənafelərinin müdafiəçiləri olduqlarını sanırdılar. Özlərini də, nə az, nə çox, dövlətin rəhbərləri məqamında görürdülər. Hamının yaxşı tanıdığı Surət Hüseynov yerli hərbi kontingenti özünə tabe etdikdən sonra Azərbaycanın qərbində hakimiyyəti əslində mənimsəmişdi. O, respublikada Xalq Cəbhəsi iqtidarını devirməyi, onun rəhbərlərini Azadlıq meydanında dara çəkməyi özünə ən yaxın hədəf seçmişdi. Elə onun qədər ad çıxarmış başqa bir "xadim" eyni yolla respublikanın cənub rayonlarını elə keçirmiş, məntiqi, sağlam düşüncəni və adamların narazılığını eyninə almadan, hakimiyyəti altındakı ərazidə onlar üçün "parlaq gələcək" yaratmaq niyyətinə düşmüşdü. Bundan ötrü Azərbaycanı parçalamaq, cənub rayonlarını respublikanın tabeliyindən çıxarmaq istəyirdi. Yalnız dövlət müdrikliyi, çox böyük həyat təcrübəsi, mərdlik və əzmkarlıq bəlanın qarşısını ala bildi. Heydər Əliyev həmin adamlar ilə saatlar boyu səbirlə söhbət edir. İnandırır, izah edir, lazım gələndə vəd verir, özü də vədinə həmişə əməl edir. Bu tərəfdə zəka, həyat təcrübəsi, o tərəfdə kobud qüvvə, maddi və maliyyə axınları, o cümlədən xaricdən gələn axınlar qarşı-qarşıyadırlar. Vəziyyətdən heç də hamı baş çıxara bilmir, hətta ən yaxın ətrafdakı şəxslər də hadisələrin necə inkişaf edəcəyini təsəvvür etmirlər. Heydər Əliyev rayonların nümayəndələri ilə, ağsaqqallarla, alimlərlə, əhalinin digər qrupları ilə görüşür, fikirlərini öyrənir, problemi necə gördüyünü təmkinlə onlara izah edir.

Ölkədə və ölkə hüdudlarından çox-çox uzaqlarda onun heyrətamız nüfuzu vardır. Adamlar Heydər Əliyevin səksəninci-doxsanıncı illərdəki fəaliyyətinə yaxşı bələddirlər. Naxçıvanda necə işlədiyini bilirlər, respublikanın həm kommunist, həm də cəbhəçi rəhbərliyinin düşmənçilik münasibətinə baxmayaraq bölgəni ölkənin ən mühüm siyasi mərkəzinə çevirdiyindən agahdırlar. Xalq Heydər Əliyevə tam etimad göstərir və onu dəstəkləyir. O da bu etimada çox duyğulu yanaşır, adamları qoruyur və yal-

nız ən ağır dövrlərdə xalqa müraciət edir. Əlikram Hümbətovun başçılığı ilə bir qrup avantürist yerində oturtmaq lazım gələndə bu cür olmuşdu. Dəqiq ölçülüb-biçilmiş vaxtda Heydər Əliyev xalqa üz tutur, onu öz iradəsini bildirməyə çağırır. Nəticəsi bu olur ki, silahsız insanlar Lənkəranda xeyli gücü olan hərbi kontingenti tərksilah edirlər, "xalqın qayğıkeşi" isə qaçıb gizlənir. Ən maraqlısı budur ki, hadisələr böyük qan-qadasız ötüşür, hərçənd silahların işə salınması ehtimalı son dərəcə yüksək idi.

Surət Hüseynovun ölkədə hakimiyyəti ələ keçirmək cəhdini də o, eyni məharətlə, zərgər dəqiqliyi ilə boşa çıxarır. 1994-cü il oktyabrın 5-də Heydər Əliyevin çağırışı ilə yarım milyona qədər insan bir neçə saatın içində Prezident sarayının ətrafına yığılır və həddini aşmış başabəla siyasətçiləri yekdil iradələri ilə dayanmağa məcbur edir, Azərbaycanın müstəqilliyini düşmən qüvvələrdən qoruyurlar.

Heydər Əliyev dövlət işlərində məsuliyyəti həmişə öz öhdəsinə götürürdü. O, haqlı olduğuna son dərəcə əmin idi, çünki daim mənəviyyat və qanunçuluq prinsiplərini rəhbər tutaraq hərəkət edir və fəaliyyət göstərirdi. İnsanlarla, hətta ona düşmən kimi yanaşan şəxslərlə təmasdan heç vaxt qaçmırdı. 1993-cü ilin iyununda Milli Məclis Naxçıvandan yenicə gəlmiş Heydər Əliyevin parlament sədri seçilməsi məsələsinə baxanda o vaxtkı müdafiə naziri Rəhim Qazıyev bəyan etmişdi ki, Gəncədə böhranlı vəziyyət yaranıb və oradakı qüvvələrin rəyini nəzərə almadan bu seçki haqqında qərar qəbul etmək düzgün olmaz. Guya, belə qərar respublikada vəziyyətin normallaşmasına kömək etməz. Bu, Surət Hüseynovla razılaşdırılmış birbaşa şantaj idi, məqsəd kimin ixtiyar sahibi olduğunu, ölkəyə kimin ağalıq etdiyini Heydər Əliyevə göstərmək idi.

Nadir dövlət rəhbəri tapılar ki, gözünü qan örtmüş adamlarla təmasa girsin. Azərbaycanın əvvəlki rəhbərləri oxşar vəziyyətlərdə xata-bəladan uzaq durmağı üstün tutmuşdular. Əlbəttə, Heydər Əliyev bədxah çıxışa məhəl qoymaya bilərdi. Öz məsuliyyətini başa düşən və xalqın nə gözlədiyini nəzərə alan Milli Məclis Heydər Əliyevi sədr seçməyə hazır idi. Amma Heydər Əliyev parlamentin iclasını saxladı və elan etdi ki, vəziyyətlə yerində tanış olmaq üçün bir neçə saatdan sonra Gəncəyə yola düşür. Bu, çox böyük cəsarət və eyni zamanda, müdriklik idi. Gəncədə hansı xətərlərin olmasından, hətta cismən aradan qaldırılma təhlükəsinin mövcudluğundan çoxları, xüsusən Heydər Əliyev yaxşı xəbərdar idi. Bir qədər

əvvəl elə həmin hadisələrlə əlaqədar olaraq mən bir qrup adamla birgə Gəncəyə getməyə hazırlaşanda məhz Heydər Əliyev mənim həyatım üçün ciddi surətdə ehtiyat edirdi. O vaxt Gəncədə məni gözləyən təhlükə Heydər Əliyevi gözləyən təhlükə ilə müqayisəyə gəlməz. Ancaq həmin addımı atdı və sonrakı hadisələr bu gedişin nə qədər düzgün və zəruri olduğunu sübut etdi.

1994-cü ildə Heydər Əliyev Azərbaycanın neft strategiyasını formalaşdırdı və həyata keçirməyə başladı. Bu strategiyanın məğzi təbii karbohidrogen ehtiyatlarını istifadəyə vermək yolu ilə respublikanın həyati əhəmiyyətli aşağıdakı problemlərini həll etməkdən ibarət idi:

- bütün iqtisadiyyatın inkişaf etdirilməsi və əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, çünki neft sektoru digər sahələri də çəkib arxasınca aparmağa qadir olan lokomotiv rolu oynamalı idi;
- ölkənin dünyaya iqtisadi və siyasi inteqrasiyası, Azərbaycanın beynəlxalq aləmdə rolunun və nüfuzunun artırılması.

Lakin Heydər Əliyevin planları qonşu dövlətlərdə böyük qısqanclıqla, hətta düşməncəsinə qarşılandı. Kütləvi informasiya vasitələrində psixoloji müharibədən tutmuş şantaja, birbaşa hədələrə, Heydər Əliyevi cismən aradan götürmək cəhdlərinə qədər hər şeyə əl atdılar ki, Azərbaycanın neft ehtiyatlarının işlənilməsinə yol verilməsin. Məsələn, qonşu dövlətin xarici işlər nazirinin müavini belə bir çıxış etmişdi ki, günlərin birində onların ölkəsi Azərbaycanın öz ərazi suları saydığı sahədə qazma işlərinə başlaya bilər. "Nə edəcəksiniz, bizimlə müharibəyə başlayacaqsınız?" - deyə, bu "xadim" sual edirdi.

Ancaq vəziyyət son dərəcə təhlükəli olsa da, Heydər Əliyev bu addımı atdı. Onun düşündükləri tam təsdiqini tapdı və uğurla həyata keçirilməkdədir. Neft strategiyası Heydər Əliyevin təkcə zəkasının, bəsirətinin və dəqiq hesablamasının deyil, həm də şəxsi mərdliyinin və cəsarətinin bəhrəsi oldu. Onun məhz bu keyfiyyətləri sayəsində biz enerji ehtiyatlarımızı xaricə ixrac etmək imkanı qazandıq. Heydər Əliyevin hünəri Lissabonda ona dünyanın 53 ölkəsinin rəhbərlərinin təzyiqinə davam gətirmək və ATƏT-in Azərbaycan üçün sərfəli sənədinin qəbul edilməsinə nail olmaq imkanı verdi.

Düşündüklərimin heç də hamısını söyləmədim. Deyilənlər Heydər Əliyevin on il ərzində Azərbaycan Respublikası üçün etdiklərinin ayrı-ay-

rı, amma vacib fraqmentləridir. Yenə də cavabdan çox sual var. Gənc olmayan bir insan bu qədər işin öhdəsindən necə gəlib? O, gündə 16-18 saat işləmək üçün haradan güc alırdı? Dəfələrlə ölüm təhlükəsi ilə üzləşsə də, Heydər Əliyevi seçdiyi yoldan dönməməyə sövq edən nə idi?

Bir şeyi qəti söyləmək olar. Heydər Əliyev ötən əsrin şəksiz olaraq görkəmli dövlət xadimidir. Onun dərin zəkası və siyasi duyumu ilə mərdliyi, cəsarəti, əzmkarlığı və çevikliyi üzvi surətdə birləşmişdi. Bütün varlığı vətənə məhəbbətlə yoğrulmuşdu, gücünü xalqdan alırdı. Xalq da Heydər Əliyevə sonsuz sevgisi və sədaqəti ilə cavab verirdi.

Bu barədə Heydər Əliyev gözəl demişdi: "...xalq mənə ümid bəsləyir. Mən də bu ümidi doğrultmaq üçün həyatımın qalan hissəsini xalqa bağışlamışam və ona qurban verməyə hazıram". Belə də oldu. Həyatını xalqına bağışladı və qurban verdi.

ZAHİD QARALOV
Milli Məclisin Regional məsələlər
daimi komissiyasının sədri,
YAP idarə heyətinin üzvü

HEYDƏR ƏLİYEVİN ELMİ İRSİNİN FORMALAŞMASINA İCTİMAİ-SİYASİ MÜHİTİN TƏSİRİ

Yüksək insani keyfiyyətlərinə, dövləti idarəetmək bacarığına, xalqa xidmət mədəniyyətinə görə Heydər Əliyev nadir tarixi şəxsiyyətlər sırasındadır. Bunu bütün həqiqətsevər insanlar bilir və etiraf edir.

Heydər Əliyevin ideyalarında, əsərlərində, əməli fəaliyyəti əsasında əldə olunmuş nəticələrdə fərdlərin, icma və xalqların inkişafına kömək göstərə biləcək faydalı nə varsa, hamısı bir yerdə onun elmi irsini təşkil edir.

Həyatda müəyyən müddət yaşamış, fəaliyyət göstərmiş hər insanın özündən sonrakılara əmanət qoyduğu irs var. Lakin hər irsə elmi irs demək olmaz.

Deməli, şəxsiyyətləri fərqləndirmək və obyektiv qiymətləndirmək üçün onların yaratdıqları irsin mahiyyəti müəyyənləşdirilməlidir.

İnsanların irsini iki qrupa ayırmaq olar: **elmi irs, sadə (adi) irs.**

Elmi irs - dünyanın üç böyük varlığına: kainat, bəşəriyyət, insan təfəkkürü sistemlərinə gətirilmiş elmi yeniliklər sistemidir.

Yeni və ya yeniləşdirilmiş elmi anlayışlar, qanun və nəzəriyyələr, qanunauyğunluqlar elmi irsin məhsullarıdır.

Elmi irsin məhsulları dünyanı dərk etmək, hadisələrə düzgün şərh vermək, mahiyyəti anlamaq, nəticə etibarilə insan inkişafına müsbət təsir göstərmək üçün öyrənilir, qiymətləndirilir, qorunur, təbliğ olunur, nəsildən-nəslə ötürülür, inkişaf etdirilir.

Elmi irs ümumbəşəridir. Elmi irsin məhsullarından hər kəs: fərd, ailə, xalq, millət, bütün dünya əhalisi ehtiyacına, dərketmə səviyyəsinə uyğun qaydada bəhrələnmək imkanına malikdir. Əlçatmazlıq halları (məxfilik, yayım məhdudluğu, qadağalar, mücərrəd təfəkkür səviyyəsinin çatışmaz-

lığı və s.) müstəsna olmaqla, elmi irsin məhsullarına maraqlı insanların hər biri bu nemətlərə yiyələnə bilər.

Beynini daim ayıq saxlayan, sağlam düşünən, analitik təfəkkür sahibi olan, müntəzəm sərbəst axtarışlar aparan, maraq dairəsinə və dərketmə imkanına uyğun sahələr üzrə elmi biliklərdə dərk etmiş hər bir nəfsitox insan elmi irs yarada bilər. Bu fikir nəzəri cəhətdən əsaslı olsa da, praktikada özünü həmişə doğrultmur. Buna görədir ki, elmi-nəzəri irsi bəşəri olan insanlar dünyada azlıq təşkil edir.

Elmi irs sahibləri fəaliyyət sahələrinə və yaratdıqları elmi-nəzəri nemətlərin miqyasına görə bir-birindən fərqlənirlər.

Məsələn, təbiətin fundamental qanun və nəzəriyyələrini kəşf etmiş alimlərlə (nümunə üçün: Qaliley, Nyuton, Eynşteyn, Pyer Küri və b.) xüsusi hallara aid qanunları öyrənmiş alimlər (Boyl və Mariotti, Gey-Lyussak, Şarl və b.) fərqləndiyi kimi, cəmiyyət qanun və qanunauyğunluqlarını aşkar etmiş elmi irsin sahibləri də bir-birindən fərqlidir.

Sadə (adi) irs - məhdud məkanda formalaşan, məişət məzmunlu fikirlər, təsir dairəsi və gücü az olan empirik biliklərdir.

Sadə irs adətən ailə üzvləri, tanışlar arasında əhəmiyyət kəsb edə bilər. Bunlarda ciddi elmi ümumiləşdirmələr yoxdur. Sadə empirik biliklər əksər hallarda uzunömürlü olmur. Bir neçə nəsildən sonra deformasiyalara uğrayır, unudulur.

Sadə irs ümumbəşəri səviyyəyə yüksələ bilməz.

Bəşər tarixində (bir milyard il ərzində) doğulub yaşamış və dünyasını dəyişmiş milyardlarla insanın yalnız 3-5 %-nin elmi irsinin üzdə qalması, bu günə gəlib çatması bir daha sübut edir ki, şəxsiyyətlərin 95-97 %-nin irsi yalnız sadə (adi) irs olmuşdur.

Yer üzərində insanlığı qoruyub saxlayan, insan inkişafını hərtərəfli təmin etmək imkanını yaradanlar məhz, elmi irsin sahibləri olmuşdur. Onların qədir-qiymətini bilmək, ideyalarının əbədi yaşamasına qayğı göstərmək borcunu yaradan səbəb də budur. Qədirbilməzlər ilk növbədə sağlam mənəvi dəyərlərə zərbə vuran nankorlardır. Xeyir və şər qüvvələrin əbədi mübarizəsinin kökü də buradadır.

Qədirbilənlər elmi irsi qoruyub faydalananlar xeyir qüvvələr, elmi irsi məhv etməyə çalışan qədirbilməzlər şər qüvvələrdir. Bu qüvvələrin mübarizəsi dəyərli elmi irs yaradanların əbədiyyətə gedən yollarına daim işıq salmışdır.

Heydər Əliyevi dövrünün başqa şəxsiyyətlərdən fərqləndirən əsas xüsusiyyət budur ki, o, mürəkkəb və ziddiyyətli, çoxsaylı ideoloji-siyasi baxışlar arasından həmişə mütərəqqi, zəruri optimal variantları müstəqil seçmək qabiliyyətinə malik idi. İnsanın və ictimaiyyətin, dövlətin normal fəaliyyətini təmin etməyin nəzəri əsasları üzrə hazırlanan müxtəlif məqsədli və məzmunlu strateji proqramların daha xeyirlisini seçmək bacarığı Heydər Əliyevi bütün ömrü boyu müşayiət etdi. Onun ayrı-ayrı keçid dövrlərindəki insani davranışını, fəaliyyətini araşdırarkən bunları aydın görmək mümkün olur.

Heydər Əliyevin elmi irsi əsasən iki sahədə: cəmiyyət və insan təfəkkürü üzrə formalaşmışdır.

Cəmiyyət hadisələrinə aid olan ictimai proseslər, siyasət, idarəetmə, sosial məsələlər, dövlət quruculuğu, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafı kimi fundamental məsələlər Heydər Əliyevin elmi irsində mühüm yer tutur.

Milli məsələlər, dinlərarası münasibətlər, sosial psixologiya, əxlaq və mədəniyyət, etika, mənəviyyat, həmçinin insan təfəkkürünə aid olan digər hadisələr, anlayışlar, qanun və qanunauyğunluqlar Heydər Əliyevin elmi irsinin əsas tərkib hissələridir.

Heydər Əliyevin elmi irsinin mahiyyəti, onun tərkib hissələrinin xüsusiyyətləri barədə tədqiqatımızın ilkin nəticələri mətbuatda çap olunmuşdur.*

Bu məqalədə yalnız bir suala cavab axtarılmışdır: Heydər Əliyevin elmi irsinin formalaşmasına ictimai-siyasi mühitin təsir gücü və xarakteri nədən ibarət olmuşdur?

---

* 1. "Heydər dağına kölgə salmaq olmaz". "Hər dövrün bir kitabı var" monoqrafiyası "Elm" nəşriyyatı. Bakı-1994.
2. "Heydər Əliyevin elmi irsi haqqında". "Azərbaycan məktəbi" jurnalı, № 3. Bakı-1998
3. "Heydər Əliyevin elmi irsi". "Ağsaqqal sözü" kitabı, səh. 54-68. "Elm" nəşriyyatı. Bakı-1998
4. "Elmi idarəetmə məktəbi" ("Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur" kitabının 221-230-cu səhifələri). "Azərbaycan" nəşriyyatı. Bakı-2003.
5. "Heydər Əliyevin yaratmaq, idarəetmək və təşkilatçılıq istedadı barədə" ("Heydər Əliyev və Azərbaycan parlamenti" kitabının 422-445-ci səhifələri). Azərbaycan Respublikası Milli Məclisinin nəşri. Bakı-2003.
6. "Heydər Əliyev tarixi sözübütöv, sağlam ideyalı soxsiyyət kimi daxil olub" ("Heydər Əliyev ümummilli lider" kitabı, səh. 60-76). "Azərbaycan" nəşriyyatı-2004
7. "Əbədiyyətə gedən yollar". "Elm" nəşriyyatı, səh. 575. Bakı-2005.

Sualı cavablandırmaq məqsədilə Heydər Əliyevin doğumu ilə dünyadan köçməsi arasında (1923-2003) olan dövrdə ictimai-siyasi mühitdə baş vermiş dəyişiklikləri xatırlatmaq lazım gəlir.

Heydər Əliyev 4 fərqli ictimai-siyasi keçid dövrünün məhsulu olan ideoloji, siyasi, fəlsəfi, iqtisadi, sosial münasibətlər mühitində dünyaya göz açmış, yaşamış, fəaliyyət göstərmişdir.

Azərbaycanda son 100 ildə baş vermiş böyük ictimai-siyasi keçidlər bəllidir:

I keçid: Çar Rusiyası imperiyasının dağılması, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması;

II keçid: Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, sovet imperiyasının yaranması və inkişafı;

III keçid: Sosialist lagerinin və SSRİ-nin dağılması, Azərbaycanın öz suverenliyini əldə etməsi, yeni ictimai-siyasi quruluş yolunun axtarışı;

IV keçid: Sosializmdən bazar iqtisadiyyatı, açıq cəmiyyət (kapitalizm) sisteminə keçid.

Hər keçid dövrünün öz xüsusiyyətləri, tələb və təklifləri, idarəetmə formaları olmuşdur.

Çar Rusiyası dağılandan sonra onun yerində yaranmış dövlətlər yeni ideoloji-siyasi mühit yaradana qədər xalq əvvəlki imperiyanın əsrlər boyu formalaşdırdığı mənəvi mühitin təsiri altında qalmışdı.

1917-1921-ci illər əslində üç fərqli ideologiyanın, dünyaya baxışların mübarizəsi dövrü idi: Çar Rusiyası imperiyasının ideologiyası, Azərbaycan xalqının iradəsini ifadə edən milli ideologiya, kommunizm ideologiyası. Bu mübarizənin mahiyyətinin dərki Azərbaycanda kütləvi xarakter almasa da, nəticələri çox adamlar dərk edirdilər.

Üç qrup ideoloji-siyasi mübarizə əslində fərqli üç ictimai-siyasi quruluşun (kapitalist, xalq hakimiyyəti, sosialist) hansının bərqərar olması uğrunda gedən mübarizə idi.

Azərbaycan Xalq Cümhuriyyəti mübarizəyə davam gətirə bilmədiyindən tez süqut etdi. Lakin Heydər Əliyevin qiymətləndirdiyi kimi, insanlar müstəqilliyin, müstəmləkəçilikdən azadlığın nə demək olduğunu dərk etdilər, mübarizlik ruhu qazandılar, sonrakı bütün illərdə azadlığa qayıdış yolları barədə düşündülər. Milli mənlik şüuru dərinləşməyə doğru artmağa başladı. Bununla paralel olaraq, kommunizm ideologiyası da getdikcə daha çox insanları əhatə edirdi.

Bəllidi ki, keçid dövrləri həmişə milli şüurda, həyat tərzində ciddi dəyişikliklərlə müşayiət olunmuşdur. I keçid dövrünün əvvəllərində Azərbaycanda tarixən formalaşmış həyat tərzini, istehsal münasibətlərini, idarəetmə sistemlərini əhalinin əksəriyyəti adi hal kimi qəbul etdiyindən, keçidin əsl mahiyyətini düzgün bilən insanlar çox az olmuşdur. Ətalət qanunu burada da özünü aydın göstərirdi. Belə ki, adiləşmiş həyat qaydaqanunlarından tezliklə uzaqlaşmaq, yeni tələblərə uyğunlaşmaq mümkün olmurdu. Əhalinin 90%-dən çoxunun dünyəvi elmlərin, eləcə də yeni ictimai-siyasi quruluşun nəzəri əsaslarını bilmədiyinə görə hər şeyə sadə hal kimi baxırdılar. Belə insanları öyrətmək, quruluşun mahiyyətini, əvvəlki quruluşdan köklü fərqlərini aydın başa salmaq mümkün olmurdu.

Sosialist quruluşunun, SSRİ-nin yaranması yeni təfəkkür tərzinin formalaşmasına şərait yaratdı. Marksizm-leninizm ideologiyasının qələbəsi və 70 ildən çox dünyanın dörddə birində hakim mövqeyə çıxması, bəşəriyyətə, o cümlədən Azərbaycan xalqına müəyyən yeniliklər, dəyərlər gətirsə də, onun mənfi nəticələrinin təsirindən kənarda qalan olmamışdır.

Azərbaycana və Azərbaycan xalqına dəymiş bütün ziyanları üç qrupda birləşdirmək mümkündür:

- istehsalda xüsusi dəyəri olan burjuaziya sinfinin nümayəndələri və kənd təsərrüfatı əməkçiləri tamam məhv edildi;
- xalqın firavan yaşayış səviyyəsinin təmin olunmasına mənfi təsir göstərən istehsalçı və istehlakçı münasibətləri yarandı, xalq, xüsusilə peşəkarlar istehsal vasitələrindən məhrum olundular. İstehsal vasitələri, xüsusilə istehsal alətləri nəzəriyyədə hamının, əslində heç kimin idi.
- insanlarda kütləvi psixoloji, mənəvi sarsıntı yarandı, milli-mənəvi dəyərlər təhlükə altına alındı. Fiziki və hüquqi şəxslər, fərdlər və dövlət arasında inam, etibar azaldı, süni zahiri, ictimai-siyasi görkəmli mühit yarandı.

İnamın yerini qorxu, düz sözün yerini yalan-uydurma tutdu. Avtoritar rejimlər yarandı.

Avtoritarlıq təhsil müəssisələrinin fənn proqramlarında öz əksini tapdığına görə bütün Azərbaycan gəncləri kimi, Heydər Əliyevin də onları öyrənməsi qaçılmaz idi. Bununla yanaşı, mikromühit (ailə, məhəllə) də öz təsirini göstərirdi. Mürəkkəb, ziddiyyətli mühitdə Heydər Əliyevin müstəqil təhlil aparmaq, nəticə çıxarmaq və doğru yol tutmaq bacarığının for-

malaşması barədə onun özünün çox maraqlı söhbətləri olmuşdur. Xatirələrindən aydın olur ki, ətraf mühitdə baş verən hadisələrin mahiyyətini, elmi əsaslarını öyrənmək cəhdi Heydər Əliyevin yeniyetməlik dövründən başlamış və bu keyfiyyət ömrünün sonuna qədər daim inkişafda olmuş, mükəmməl elmi sistemə çevrilmişdir. Ona görədir ki, cəmiyyətdə müşahidə etdiyi, bəyənmədiyi, yaşayışa əngəl törədən nələr varsa, öz əlində hakimiyyət cəmləşəndə bunlara qarşı kəskin mövqe tutdu. Heydər Əliyev qarmaqarışıqlıqdan duruluğa, haqsızlıqdan ədalətə, qanunsuzluqdan qanunun aliliyinə, zorakılıqdan humanizmə, diktaturadan demokratiyaya doğru inkişafın qanunauyğunluqlarını dərk etdikcə, onların tənzimlənməsi qaydalarının müəyyənləşdirilməsi məsələləri ilə daim məşğul olmuşdur.

Bütün keçid dövrlərinin həm müsbət, həm mənfi tərəflərini həmişə sağlam təfəkkür süzgəcindən keçirməsinin, yalnız bundan sonra ağıllı qərar verməsinin nəticəsidir ki, Heydər Əliyev həmişə fəal həyat mövqeyində olmuşdur. Bütün keçid dövrlərində təzə fikir, faydalı ideya sahibi kimi tanınmışdır.

Heydər Əliyevi yüksək insanlıq səviyyəsinə yüksəldən amillərdən biri bütün dövrlərdə hadisələrə nikbin, ümidlə, səbrlə yanaşması olmuşdur. Kəskin ziddiyyətli şəraitdən əksəriyyətin razılaşdığı çıxış yolu tapmaq, fərqli dünyagörüşlərinə hörmət və dözümlülük, hər bir yaramaz işdə yararlı toxumlar axtarmaq, ən ağır hadisələr törətmiş caninin müsbət keyfiyyətlərini seçmək və qiymətləndirmək, hər şeydən ümidini kəsmiş insanlara ümid yerini göstərmək, çıxılması mümkün sayılmayan ictimai-siyasi mühitdən az itki ilə çıxış yolu seçmək kimi nadir keyfiyyətlərin Heydər Əliyevdə formalaşma dövrü onun ilkin gənclik illərindən başlamış, ömür boyu onu müşayiət etmişdir. Bütün bunları onun elmi irsini diqqətlə öyrənən hər adam ayırd edə bilər.

Heydər Əliyev hər bir ictimai-siyasi keçid dövrünə qanunauyğun hal kimi baxmış, onların yaratdığı fərqli ideoloji-siyasi mühitlərin üstün və zərərli tərəflərini böyük mütəfəkkirlərə məxsus tərzdə ayırd etmiş, obyektiv qiymətləndirmişdir. Onun 35 illik nümunəvi hakimiyyət başçısı kimi tanınmasının əsas səbəblərindən biri də bu olmuşdur.

Bəllidi ki, sosializmə keçid dövrünün əsas xüsusiyyəti hər şeyin: mülkiyyətin və əmlakın, iqtisadi imkanların, vergi-maliyyə məsələlərinin, mədəniyyətin, elm və maarifin, idarəetmə sistemlərinin mərkəzləşdirilməsi, ən uca piramidanın qurulmasından ibarət olmasıdır. Dövlət siyasəti, ideologiya, təhsil, mədəniyyət, yeni qurulmuş piramidanın əvvəlkilərdən fərqini, üstünlüyünü əsaslandırmağa, insanları bu ictimai-siyasi mühitin yeniliyinə, əvəzolunmazlığına inandırmaqdan, ona sədaqətlə xidmət etməyi öyrətməkdən ibarət olmuşdur. Sənayeləşdirmə, kollektivləşmə, elektrikləşdirmə, hamılıqla savadlanma və digər qlobal hadisələr hamının diqqətini özünə cəlb edirdi. Heydər Əliyevin uşaqlıq, ilkin gənclik dövrü belə qaynar vaxta düşmüşdü. Komsomol, kommunist partiyası dövrün hakim siyasi mühitini yaradırdı. Cəsarətli gənclər siyasi proseslərə, hakimiyyət piramidasının qurulmasına daha çox meyl göstərirdilər. Heydər Əliyev öndə gedən gənclərdən olmuşdur.

SSRİ-nin ucqar əyalətinin birində çoxuşaqlı ailədə boy atmış şəxsiyyətin idarəetmənin aşağı pillələrindən başlayaraq, imperiyanın ürəyinə - Kreml hakimiyyət kürsüsünə qədər öz bacarığı ilə ucalması bunun parlaq sübutudur.

Xüsusi mülkiyyətdən - mərkəzləşdirilmiş dövlət mülkiyyətinə fərdi təsərrüfatdan - dövlət sənayesinə, tək təsərrüfatdan - kolxoz və sovxozlara, şəxsi (özəl) məktəblərdən - dövlət məktəblərinə, çoxpartiyalılıqdan - birpartiyalılığa, üfüqi idarəetmədən - şaquli idarəetməyə və digər əsaslı keçidlər dövründə Heydər Əliyev onun passiv müşahidəçisi olmamışdır. Onların elmi, ictimai-siyasi əsaslarını dərindən öyrənmiş, eyni zamanda həmin proseslərin icrasında fəal çalışmış, müxtəlif məsul vəzifələri yerinə yetirən şəxs kimi təşkilatçılıq işlərini görmüşdür.

Sov. İKP Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışarkən qanunların, dövlət qərarlarının qəbulunda, icrasında və yerinə yetirilməsinə nəzarətin təşkilində aparıcı dövlət rəhbərlərindən olmuşdur.

Bununla yanaşı, hər şeyin mərkəzləşdirilməsinin, əhalinin güzəranına, insanın inkişafına, milli mənlik şüurunun formalaşmasına mənfi təsirini də hiss etmişdir.

Beləliklə, tarix kitablarında ifadə olunduğu kimi, cəmiyyətin kapitalizmdən (bazar iqtisadiyyatından) sosializmə (və kommunizmə) keçid dövrünün bütün qanunauyğunluqlarını, inkişaf mərhələlərini, təsirlərini, nəticələrini, bunun kimi də, kapitalist mülkiyyətinə proletar nifrətindən yaranan antaqonist münasibətləri, siyasi baxışları Heydər Əliyev dərindən

öyrənmişdi. İctimai-siyasi mühitin və Konstitusiyanın tələblərinə uyğun olaraq vəzifə borcunu həmişə ləyaqətlə yerinə yetirmişdir. Ciddi səhvlərə, xüsusilə siyasi səhvlərə yol verməyə, ictimai-siyasi quruluşun əksinə hərəkət etməyə meyl göstərməmişdir.

Amma bu o demək deyil ki, Heydər Əliyev sovet imperiyasının artıq cəmiyyət, dünya sivilizasiyası qarşısında durum gətirmək gücünü itirdiyini, yeni güclü sosial-siyasi dəyişiklik dalğasının yaxınlaşdığını hiss etmirdi.

SSRİ dövründə yüksək vəzifəli şəxslər arasında ictimai ədalətsizliklə kəskin mübarizə aparan şəxs olmuşdu. Onun təkcə o dövrdə böyük hayküyə səbəb olan "Qoy ədalət zəfər çalsın!" müsahibəsi, mövqeyi dediyimizi təsdiq edən faktlardan biridir.

H.Əliyev SSRİ-də ədalətsizliklə həqiqi mübarizənin simvolu idi. Heydər Əliyev sosialist qanun yaradıcılığının (deputat kimi), qanun icraçılarının (hökumət rəhbərlərindən biri kimi) və qanunların icrasına nəzarətçilərin (partiya, milli təhlükəsizlik orqanlarının rəhbəri kimi) ən parlaq, sadiq və məsuliyyəti dərk edən şəxsiyyətlərdən biri idi. Bununla yanaşı, Azərbaycanın və Azərbaycan xalqının mənafelərini SSRİ xalqlarının ümumi mənafeyi ilə yüksək səviyyədə əlaqələndirməyə qadir olan nadir şəxsiyyət kimi tanınmışdı. Beynəlmiləlçilikdə, milliliyi qoruyub inkişaf etdirməkdə əvəzsiz siyasi xadim olmuşdur.

Bütün keçid dövrlərinin texnologiyasını yüksək səviyyədə mənimsəmişdi.

İkinci Dünya müharibəsindən sonra bütövlükdə sosializm lagerinə, xüsusilə onun başında duran SSRİ-yə qarşı Qərbin elan etdiyi soyuq müharibə keçən əsrin 80-ci illərində öz mənfi təsirini biruzə verdi. Sovet imperiyası piramidasında dərin çatlar əmələ gəldi. Ərzaq böhranı başladı. Millətlərarası dostluğun yerini milli ixtişaşlar tutdu. Elmi siyasəti siyasi avantüra əvəz etdi. Ədəb-ərkan qaynağı olan insanlar əvəzinə qaçaq-quldurların əməlləri tərənnüm edildi. Mənəviyyat sarsıldı. SSRİ-nin birinci və axırıncı prezidenti Mixail Qorbaçovun yenidənqurma siyasətinin və proqramının konturları aydın göründü: dünya sosializm lageri dağıldı, müttəfiq respublikalar, ilk növbədə Baltikyanı ölkələr SSRİ-dən ayrıldı. İmperiyanın tamam dağılma prosesi başladı.

Bu, keçən yüzillikdə baş verən ən böyük sosial-siyasi keçid dövrünün başlanğıcı oldu.

Sosialist lagerinin və SSRİ-nin sürətlə dağılmasının nə ilə nəticələnə biləcəyini bəlkə də keçən əsrin 80-ci illərində Heydər Əliyev qədər dərindən hiss edən ikinci böyük siyasi xadim olmamışdır. O bilirdi ki, avantürist ölkə başçısı Mixail Qorbaçov ("Mister konvert") artıq ölkəni idarə edə bilmir və onu "satıb". SSRİ tufanlı okeanda sükançılığı itirilmiş nimdaş gəmiyə bənzəyir.

H.Əliyevin 1987-ci ildə heç bir obyektiv səbəb olmadan Sov. İKP Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilərək təqaüdə göndərilməsi yaxınlaşan fəlakətin Azərbaycana dəyəcəyi zərərlərin başlanğıcı idi. İlk nəticə SSRİ ordu bölmələrinin köməyi ilə Ermənistan tərəfindən Dağlıq Qarabağın və ətraf rayonların işğalı oldu. Bunun ardınca təxribat məqsədilə Sumqayıtda çaxnaşma saldılar. Azərbaycan və erməni millətlərinin köhnə ədavətini qızışdırdılar. Milli-etnik çəkişmələri və dini qarşıdurmanı gücləndirdilər. Bütün Qafqaz xalqlarını qarşı-qarşıya qoydular. Cənubi Qafqazı qan çanağına döndərmək məqsədilə Azərbaycanda və Gürcüstanda arasıkəsilməyən qanlı təxribatlar törətdilər. Bu arada Azərbaycan üçün ən ağır faciə 1990-cı il qanlı 20 Yanvar hadisəsi oldu. Bakıya vəhşi sovet ordusu doldu. Yüzlərlə günahsız, silahsız dinc vətəndaşın qanı axıdıldı. Eyni hadisə respublikanın başqa bölgələrində təkrarlandı. Xalq aylarla silah altında saxlandı.

Azərbaycan xalqına vurulan bu və ya digər yaralar yeni ictimai-siyasi quruluşa keçməyin qaçılmazlığından xəbər verirdi.

III keçid dövrünün başlandığını aydın başa düşən Heydər Əliyev Moskvada dərhal 20 Yanvar hadisələrinə qəti münasibətini bildirməklə yanaşı, Azərbaycan xalqını ayıq-sayıqlığa, suverenliyini mümkün qədər itkisiz qazanmaq üçün birliyə, möhkəm iradə nümayiş etdirməyə çağırdı. O, özünün qətiyyətli çağırışını 1991-ci ildə Ali Sovetin sessiyasında yenidən səsləndirdi, tarixi suverenlik tezislərini irəli sürdü.

O zaman Heydər Əliyevin dəyərli milli suverenlik tezislərini ölkəyə rəhbərlik edənlərin başa düşmək istəməməsi üzündən III ictimai-siyasi keçid başqa müttəfiq respublikalara nisbətən Azərbaycan üçün daha çox itkili oldu.

Əslində III keçid dövrü hesab etdiyimiz 1989-1991-ci illər məqsədi geniş əhali üçün aydın olmayan xaotik bir ictimai-siyasi mühit idi. SSRİ

Konstitusiyası, sovet qanunları öz təsir gücünü itirmişdi, müttəfiq respublikaların Konstitusiyaları əvvəlki formallığı çərçivəsində ictimai-siyasi prosesləri tənzimləməyə qadir deyildi. Mərkəz-əyalət siyasi-iqtisadi tarazlığı tamam itirilmişdir. Heç kəs mövcud qanunçuluğa əməl etmək istəmirdi. Hərcmərclik, subyektiv idarəçilik baş alıb gedirdi. Hamı hər şeyi dağıdırdı, yerinə ağıllı bir təklif vermirdi. Heç kəs də niyə dağıtdığının fərqinə varmırdı.

Vəziyyətin dözülməzliyini dərindən dərk edən, lakin Azərbaycandakı hakim qüvvələrə birbaşa təsir imkanı olmayan Heydər Əliyev xalqa öz yaratdıqlarına və Tanrının bəxş etdiyi varlıqlara, nemətlərə, qurulmuşlara hörmət və qayğı ilə yanaşmağı tövsiyə etdi. Bildirdi ki, Azərbaycan suverenliyinə yalnız indiyə qədər qazandığımız maddi və mənəvi dəyərləri qoruyub saxlamaq, gələcəkdə inkişaf etdirmək yolu ilə nail ola biləcək. H.Əliyev qeyri-müəyyən keçid dövründə - sovet imperiyasının xırda dövlətlərə parçalandığı bir vaxtda - siyasi iradəsini Naxçıvan Muxtar Respublikasında həyata keçirməyə başladı. Bütövlükdə Azərbaycana nümunə ola biləcək tərzdə ağıllı tədbirlərlə III keçid dövrünün nəzəri və praktik əsasını yaratdı. Onun burada topladığı təcrübə bir qədər sonra Azərbaycanın ictimai-siyasi keçid dövrü üçün dəyərli elmi əsas oldu.

1991-ci ilin axırlarında Azərbaycan öz suverenliyini elan etdi. Bununla da IV ictimai-siyasi keçid dövrü başladı.

IV ictimai-siyasi keçid dövrünün əsas xüsusiyyətlərini nəzərə ala bilməmək ucbatından o zamankı ölkə rəhbərləri sonradan fəlakətlərə səbəb olacaq kobud səhvlərə yol verdilər.

Düzgün yol seçmək üçün əsrin keçid formulunu bilmək lazım idi. 1987-1993-cü illərdə ölkəyə rəhbərlik edənlər isə bunları dəqiq bilmirdilər. Belə formul o zaman Heydər Əliyevin diqqətini çəkmişdi. Formul belə idi:

Çar imperiyası, kapitalizm - Xalq Cümhuriyyəti →

→ sovet imperiyası (SSRİ) → SSRİ-nin dağılması (qeyri-müəyyənlik) →

→ suveren Azərbaycan, bazar iqtisadiyyatı (kapitalizm)

1990-cı ilin əvvəllərində keçid proseslərindən nəyi qoruyub saxlamaq, nələrdən yaxa qurtarmaq, nələri dəyişdirmək və əlavə etmək məsələlərini əslində H.Əliyevdən başqa heç bir siyasi xadim bilmirdi.

Respublikanın bütün iqtisadi və maliyyə sistemləri, elm və təhsil, makro və mikro infrastrukturlar SSRİ məkanında tam inteqrasiya olunmuşdu, bunlar elmi qaydada tənzimlənməli olduğu halda, necə gəldi sındırılıb yox edilirdi. Bu, Azərbaycana böyük iqtisadi, sosial, mənəvi zərbə idi.

Məlum olduğu kimi, sosializmdə din yox idi. Kommunizm ideologiyası yox oldu. Bunların yerini millətçilik tutdu. Dövlətlərarası qurumlar heç bir iş görə bilmədilər. Hər şeyə inam itdi. Milli mənəvi dəyərlərə zidd olan təbliğat gücləndirildi. Alimlər, bütün ağıllı ziyalı korpusu, mədəniyyət xadimləri, elm ocaqları təhqir edildi, təcavüzə məruz qaldı. İşsizlik, yoxsulluq, talançılıq baş alıb getdi.

Rusiyanın və bəzi Qərb ölkələrinin köməyi ilə Ermənistanın apardığı işğalçılıq müharibəsi nəticəsində Azərbaycan torpaqlarının 20%-nin işğalı, Ermənistan və Gürcüstandan (1989-1993-cü illər) 350 mindən çox soydaşımız zorakılıqla vətənlərindən çıxarıldığına görə Azərbaycanda sığınacaq tapması, işğal olunmuş ərazilərdən bir milyona qədər qaçqın və köçkünün ölkənin müxtəlif bölgələrində yerləşdirilməsi cəmiyyət həyatının tarazlığını pozdu. Ölkədə vətəndaş müharibəsi başlandı. Ərzaq məhsulları yoxa çıxmışdı. Fəlakətlərin sonu görünmürdü.

Azərbaycanın və Azərbaycan xalqının ən ağır dövründə Heydər Əliyev Naxçıvandan paytaxta dəvət olundu, respublikanın prezidenti seçildi. Bu seçim hadisələrin yönünü dəyişdi. Dağıntılar dayandırıldı, inkişaf strategiyası müəyyənləşdirildi: sərbəst iqtisadiyyat, özəlləşdirmə, sosial inkişaf, vətəndaş cəmiyyəti.

Ən əsası isə xalqın inamı özünə qaytarıldı. Yeni demokratik Konstitusiya qəbul olundu, buna uyğun qanunlar hazırlandı. Hüquqi, demokratik dövlət və cəmiyyət quruculuğuna başlandı. Din, əqidə azadlığı tam reallığa çevrildi, kommunizm ideologiyası azərbaycançılıqla əvəzləndi, beynəlxalq birliklərdə Azərbaycan ləyaqətlə təmsil olundu. Dövlətçilik ənənələri zənginləşdirildi. İnsan inkişafı strateji proqramların məqsədinə çevrildi. Azərbaycanın və Azərbaycan xalqının hərtərəfli inkişafına kömək edən bütün imkanlardan səmərəli istifadə etməyə şərait yarandı.

Dörd böyük ictimai-siyasi keçid dövrünün və keçidlər əsasında yaranan quruluşların mahiyyətini dərindən dərk etdiyinə görə Heydər Əliyev Azərbaycanda əvəzsiz siyasi xadim, bacarıqlı dövlət xadimi kimi özünü təsdiqlədi. Keçid dövrlərində qazandığı təcrübə isə onun elmi irsinin formalaşmasına, ümumbəşəri əhəmiyyətli nəzəri və təcrübi dəyərlərin zənginləşməsinə səbəb oldu.

Heydər Əliyevin elmi irsinin dəyəri onun dünyəviliyində, ümumbəşərilliyindədir.

Heydər Əliyevin elmi irsini ilk növbədə onun mənəvi davamçıları yaşadacaq, inkişaf etdirəcək.

Heydər Əliyev irsinin davamçılarına tövsiyəmiz:

- xalqa xidmət etməyi ondan öyrənmək;
- dövlətçiliyin qorunmasında onun seçdiyi yola sədaqətli olmaq;
- insanlara mənəvi dayaq durmaqda onun təcrübəsinə əsaslanmaq;
- hər peşə sahibi ilə onun istəklərinə uyğun qarşılıqlı münasibət qurmağı ondan öyrənmək;
- görülmüş işləri və iş adamlarını qiymətləndirməkdə, diqqətdə onun təcrübəsinə istinad etmək;
- milli mənəvi və maddi dəyərləri zənginləşdirmək bacarığını ondan öyrənmək;
- insanları düzgün yola yönəltmək, dünyaya, burada baş verən bütün hadisələrə sağlam düşüncə və açıq gözlə baxmaqda onun irsinə istinad etmək;
- səliqə-sahman yaratmaqda, nümunəvi davranışda daim onu əsas götürmək.

Bizdə belə bir əminlik var ki, Heydər Əliyevin elmi irsini dərindən bilən, hər işdə bu irsə sadiq qalan insan heç vaxt mağmun olmaz, daim uğurlar qazanar, ləyaqətli insanlar cərgəsində durar, sıxıntı çəkməz, özünə güclü inam bəsləyər, insanlığın qədrini bilər.

Borcumuz böyüyən nəsillərə Heydər Əliyevin elmi irsini öyrətməkdir. Bu borcu ləyaqətlə ödəyənlər həmişə xalqın etimadını qazanacaqlar.

İndi dünya çox ziddiyyətli hadisələr dövrünü yaşayır: qloballaşma və regional inkişaf, ümumbəşərilik və millilik, sahibkarlığın inkişafı və yoxsulluğun aradan qaldırılması, dövlətlərin ərazi bütövlüyünün saxlanması və yeni qonşuluq nəzəriyyəsi kimi ziddiyyətli görünən prosesləri düzgün tənzimləmək üzrə bilik və bacarıq tələb olunur.

Bundan başqa, dünya iki real qüvvənin döyüş meydanına çevrilib:

- təhlükəsiz, ekoloji təmiz, demokratik həyat dünyası uğrunda çarpışan qüvvə;
- kriminal qüvvələr: narkomafiya, insan alverçiləri, terrorçular.

Keçmiş sovet respublikaları permanent inqilab meydanına çevrilmişdir. Azərbaycan xalqı belə mürəkkəb həyatda özünə düzgün mövqe və inkişaf yolu seçməyi bacarmalıdır.

Heydər Əliyevin elmi irsi müasir dünyada hər bir azərbaycanlının, bütövlükdə xalqımızın doğru yol seçməsinə kömək göstərə bilən parlaq mayakdır.

Azərbaycan gəncliyinə əvəzsiz örnək olan Heydər Əliyev irsinin öyrədilməsi məsələsinə daxil olan problemlərin həlli yollarını müəyyənləşdirmək üçün xüsusi tədqiqatın aparılmasını nəzərdə tutmuşuq. İnşallah, növbəti məqalələrimizdə mövqeyimizi açıqlayacayıq.

ASYA MANAFOVA
Milli Məclisin Təbii ehtiyatlar, energetika
və ekologiya məsələləri daimi komissiyasının sədri,
YAP İdarə Heyətinin üzvü

İNSANLARI DƏYƏRLƏNDİRƏN DAHİ ŞƏXSİYYƏT

Azərbaycan xalqı bəşər tarixinə çox saylı böyük mütəfəkkirlər, qüdrətli dövlət xadimləri bəxş etmişdir. XX yüzillikdə Azərbaycan çox-çox tarixi nəsillərə nümunə ola biləcək Heydər Əliyev kimi dahi şəxsiyyət və əvəzolunmaz lider yetirdi. Heydər Əliyev Sovet İttifaqı kimi böyük bir dövlətin, əzəmətli türk dünyasının, qədim Şərqin, müasir dünyanın dövlətçilik tarixinə yenilməz dövlət xadimi kimi daxil oldu.

Heydər Əliyev böyük liderlik istedadına, geniş dünyagörüşünə, ensiklopedik yaddaşa, dərin zəkaya malik, həmişə yenilik axtaran, əsas fəaliyyəti qurub yaratmaq olan dahi bir şəxsiyyət idi. 1993-cü ildə yenidən Azərbaycan rəhbərliyinə qayıdan bu dahi şəxsiyyət böyük fədakarlıqla Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxladı, onun siyasi, iqtisadi və mədəni inkişafını təmin etdi. Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini dönməz, daimi və əbədi etdi.

Mən həyatda özümü xoşbəxt sayıram ki, uzun illər Heydər Əliyev kimi dahi şəxsiyyətin rəhbərliyi altında işləmişəm. Bu heç bir müqayisəyə gəlməyən böyük şərəfdir. Heydər Əliyevin insanları, kadrları, təbəçiliyində olan adamları obyektiv dəyərləndirmək, onlara layiq olduğu qiyməti vermək qabiliyyəti onun çox saylı keyfiyyətlərindən biri və ən önəmlisi idi. Bu yazıda mən bütün əmək fəaliyyətim dövründə şəxsi müşahidələrim, şahidi olduğum hadisələr, çıxardığım nəticələr əsasında Böyük Öndərin bu xüsusiyyəti və keyfiyyətindən söz açmaq istərdim.

Ümummilli liderimizin müəllifi olduğu ilk milli Konstitusiyanın hazırlığı zamanı üzvü olduğum Konstitusiya komissiyasının iclaslarında onun tərəfindən insan amilinə, onların hüquq və azadlığı prinsiplərinə xüsusi diqqət göstərməsinin canlı şahidi olmuşam. Böyük Öndər ölkənin Əsas Qanununun mətnində insan və vətəndaş hüquqları ilə bağlı maddə və müddəaların daha çox olmasını istəyirdi. Ona görə komissiya üzvlərinə və

işçi qrupuna bu məsələlərə xüsusi diqqət yetirməyi tövsiyə edirdi. Məhz bu cür yanaşmanın nəticəsi olaraq bu gün qüvvədə olan Konstitusiyamızın 158 maddəsinin, demək olar ki, üçdə biri insan və vətəndaş hüquqları və azadlıqlarına həsr olunub.

Ümummilli lider Heydər Əliyev sözün əsl mənasında Böyük Azərbaycanlıdır. Ölkənin, xalqın, Azərbaycan tarixinin, onun dövlətçiliyinin böyük təəssübkeşi olan Heydər Əliyev XX yüzilliyin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan dövlətinin xilaskarı oldu. Azərbaycanın dövlətçiliyindən, müstəqilliyindən tükənməz qüvvət alan Böyük Öndər onun tarixində misilsiz iz qoyan Babək, Cavanşir, Qızıl Arslan, Uzun Həsən, Eldəniz, Cahan Pəhləvan, Xətai kimi xalqın qüdrətli övladlarını və böyük dövlət xadimlərini özünəməxsus dahiliklə dəyərləndirirdi. Bütün bunlar Heydər Əliyevin Böyük insanları dəyərləndirməyi bacaran dahi şəxsiyyət olduğunu əyani təcəssüm etdi. Azərbaycanın çağdaş tarixi bu dahi şəxsiyyəti, adları çəkilən misilsiz dövlət xadimlərinin sırasına qovuşdurdu, Heydər Əliyev şəxsiyyəti bəşər tarixində öz layiqli yerini tutdu. Heydər Əliyev dünya tarixində ən ziddiyyətli yüzilliklərdən biri olan XX əsrdə müasir Azərbaycanın qurucusu zirvəsinə yüksəldi. 40 ildən artıq olan bu dövr Heydər Əliyev şəxsiyyəti ilə, onun quruculuq fəaliyyəti və ölkənin tərəqqisi naminə mübarizəsi ilə bağlıdır. O, Tanrının xalqımıza, torpağımıza bəxş etdiyi Böyük Azərbaycanlıdır.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə kadrlara, onların hazırlığına çox diqqət yetirirdi. O, kadrların seçilməsində Azərbaycanda yaşayan bütün xalqların hüquqlarının təmin olunmasına çalışırdı. Buna əyani sübut Azərbaycanın layiqli vətəndaşı kimi yetişməyimdə O Böyük İnsanın şəxsən mənə göstərdiyi qayğıdır. Belə ki, adi bir ləzgi qızı, yüzlərlə mühəndislərin sırasından Azərbaycan Kommunist Partiyasının rəhbər orqanlarına - Qusar rayon Partiya Komitəsinin katibi vəzifəsinə irəli çəkilməyim, Moskvaya Sov.İKP MK-nın yanında İctimai Elmlər Akademiyasına oxumağa göndərilməyim, sonralar Azərbaycan KP MK-nın Təşkilat şöbəsində məsul işçi vəzifəsinə təyin olunmağım, Masallı rayon İcraiyyə Komitəsinin sədri, Qusar rayon Partiya Komitəsinin birinci katibi, rayon Sovetinin sədri, rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə qədər yüksəlməyimlə məhz Heydər Əliyev cənablarına borcluyam. Həmçinin son 15 ildə üç çağırış Azərbaycan SSR Ali Sovetinin, Milli Məclisin deputatı, on

ilə yaxın Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının sədri kimi fəaliyyət göstərməyimdə əsas meyarım Heydər Əliyev məktəbi olub. Odur ki, ona, yalnız ona minnətdaram.

O, xalqın keçmiş rəhbərlərinə, tarixi şəxsiyyətlərinə də layiqli qiymət verərək onların xatirəsinə böyük hörmət və ehtiramla yanaşırdı. Sovetlər dövründə doğma xalqına qarşı baş vermiş haqsızlıqlarla barışmayaraq gərgin mübarizə aparır, mərkəzin ağır təqibləri nəticəsində Azərbaycan xalqının çəkdiyi əziyyətlərə cavab olaraq, öz dövlətinin gələcəyi naminə cəsarətli addımlar atırdı.

Azərbaycan xalqının haqqı tapdalanmış görkəmli övladlarının, şəxsiyyətlərinin adları özünə qaytarılır, xatirələri əbədiləşdirilir, heykəlləri ucaldılırdı. Heydər Əliyev repressiya qurbanı olan Hüseyn Cavidi uzun illərdən sonra Azərbaycana qaytardı. Vaxtı ilə öz respublikasına rəhbərlikdən uzaqlaşdırılıb irəli çəkilmək adı ilə Mərkəzə aparılan və qısa müddətdə müəmmalı şəkildə dünyasını dəyişən Azərbaycanın görkəmli dövlət xadimi və lideri olmuş Nəriman Nərimanovun böyük adını özünə qaytardı, çətinliklərə və təzyiqlərə baxmayaraq paytaxtın gözəl bir meydanında onun əzəmətli heykəlini ucaltdı. O zamanlar mən mərkəzi orqanlarda çalışan bir insan kimi Heydər Əliyevin bu fədakarlığının canlı şahidiyəm.

XX əsrin bütün dövrlərində milli dövlətçiliyimiz tarixində insanlara, mütəxəssislərə, ziyalılara daim qayğı göstərən, onları yüksək dəyərləndirən, kadrlarla işi hər zaman diqqət mərkəzində saxlayan ikinci bir dövlət başçısı olmayıbdır.

Heydər Əliyev bütün sahələrdə çalışan insanları yüksək dəyərləndirirdi. İstər elm, təhsil, mədəniyyət, ədəbiyyat, səhiyyə sahəsində, istərsə də sosial, sənaye və kənd təsərrüfatı, xüsusi ilə ölkə iqtisadiyyatında özünəməxsus yeri olan neft-qaz və energetika sahəsində çalışan insanlar həmişə yüksək qiymətə layiq olublar.

Heydər Əliyevin hakimiyyəti illərində elm adamlarına xüsusi diqqət yetirilmişdir. Onlarla alimlərimiz dövlət mükafatları ilə təltif olunmuş, ittifaq və respublika parlamentlərinin üzvü seçilmiş, əməkdar elm xadimi, əmək qəhrəmanı adına layiq görülmüşlər. Akademiklərdən Mikayıl Hüseynova, Mustafa Topçubaşova, Musa Nağıyevə, Həsən Əliyevə, Həsən Abdullayevə, İmam Mustafayevə, Əliəşrəf Əlizadəyə və digərlərinə yüksək dövlət mükafatları verilmişdir.

XX əsrin 70 - 80-ci illərdə neftçıxarma və neft-qaz maşınqayırma sənayesi sahəsində çalışan alimlərimiz böyük uğurlar qazanmışlar. Beynəlxalq maliyyə qurumlarının məlumatlarına görə, bu illərdə ölkənin neft və qazçıxarma sənayesi neft maşınqayırma avadanlıqlarının istehsalına və mütəxəssislərin hazırlıq səviyyəsinə görə dünyada ABŞ-dan sonra ikinci yeri tuturdu.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra, ötən əsrin 90-cı illərin əvvəllərində, dövlət rəhbərliyində olan naşı siyasətçilər Elmlər Akademiyasını ləğv etmək kimi iddialar irəli sürürdülər. 1993-cü ildə xalqımızın böyük oğlu Heydər Əliyevin qayıdışından sonra elmə, ölkənin elm məbədinə və elm xadimlərinə, alimlərə olan münasibət müsbət mənada kökündən dəyişdi. Ümummilli lider xüsusilə humanitar elmlər, ilk növbədə tarix elmi sahəsində yaranmış vəziyyətə, mövcud problemlərin obyektiv işlənməsinə diqqəti gücləndirdi.

Böyük Öndərin elmə, elm adamlarına olan qayğı və diqqətinin nəticəsidir ki, bu gün ölkədə 1500-dən çox elmlər doktoru, 8 mindən artıq elmlər namizədi müxtəlif elmi müəssislərdə və iqtisadiyyatın bir çox sahələrində uğurla çalışırlar. Dövlətin, dövlət başçısının diqqəti və qayğısı olmadan elmin inkişafını təmin etmək çətin məsələdir. Məhz bu baxımdan, Ümummilli liderimiz Heydər Əliyev elmə və elm xadimlərinə qayğını daim diqqətdə saxlayırdı. Prezident İlham Əliyev cənabları Böyük Öndərin bu siyasi kursunu uğurla davam etdirir.

Mədəniyyət, ədəbiyyat, digər elm sahələri də Heydər Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuşdu. Qədim tarixə malik olan Azərbaycan mədəniyyətinə əsrlər boyu xidmət edən, onun keşiyində duran çox dəyərli insanlar bu qayğıdan bəhrələnərək öz istedadları hesabına onu daha da zənginləşdirmiş və inkişaf etdirmişlər. XX əsrin son onilliklərində Azərbaycan mədəniyyəti özünün ən yüksək inkişaf dövrünü yaşadı və bu gün də yaşamaqda davam edir. Bu inkişafı şərtləndirən əsas səbəb mədəniyyətə dövlət qayğısının yüksək və davamlı olmasıdır. Azərbaycanın mədəni irsinin mühafizəsinin və inkişaf etdirilməsinin, təbliğinin, xüsusilə ölkə hüdudlarından kənarda tanınmasının ən əsas səbəbi bu irsi və onu yaşadan insanları daim dəyərləndirən dahi şəxsiyyət, Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləridir.

Mədəniyyətimizin keçən əsrin 70-ci illərin əvvəllərindən başlayan və bu günə kimi davam edən inkişaf dövrü, həqiqətən, intibah dövrü adlandı-

rılır. Azərbaycanın öz müstəqilliyini bərpa etdikdən sonrakı dövrü xüsusilə çox önəmlidir. 1993-cü ildən sonrakı onillikdə Azərbaycan xalqının mədəni nümunələri dünya, inkişaf etmiş ölkələr, beynəlxalq təşkilatlar səviyyəsinə çıxarıldı.

Azərbaycanda mədəniyyət və incəsənətin, ədəbiyyat və musiqinin, teatr və kinonun, rəssamlıq və memarlığın inkişafı və tanınması ilk növbədə Böyük Öndər Heydər Əliyevin daimi qayğısı və diqqəti nəticəsində mümkün olmuşdur.

Heydər Əliyev şəxsiyyətinin tariximizi, xüsusilə mədəniyyət və ədəbiyyat tariximizi mükəmməl bilməsi, onun mədəniyyət, incəsənət və ədəbiyyata bağlılığı bu qayğıya xüsusi təkan verirdi.

Mədəniyyət və ədəbiyyat xadimlərinin yubileyləri Heydər Əliyevin şəxsi təşəbbüsü və onun iştirakı ilə həyata keçirilirdi. Bu tədbirləri ən önəmli edən yubileyi keçirilən şəxslərin yaradıcılığı barədə Heydər Əliyev kimi dahi insanın hərtərəfli söz deməsi olurdu. Böyük Öndərin bu nitqləri xalqın keçmişinə qiymət verməklə yanaşı, yetişməkdə olan sənətkarlara, gənc nəslə böyük tərbiyəvi təsir göstərir, onlara yaradıcılıq ilhamı verirdi.

Onun mədəniyyət, sənət adamları ilə görüşü geniş ictimaiyyətin, xüsusilə gənclərin iştirakı ilə keçirilirdi. Bu tədbirlər sənətkarları yeni və daha yüksək səviyyəli əsərlər yaratmağa ruhlandırırdı.

Azərbaycanın mədəniyyət və ədəbiyyat xadimləri keçmiş ittifaq miqyasında da Heydər Əliyevin təşəbbüsü və təkidi ilə yüksək mükafatlara təqdim olunurdu. Ölkəmizin paytaxtında, şəhər və rayon mərkəzlərində, doğulduğu qəsəbə və kəndlərdə görkəmli insanlara abidələr qoyulur, adları əbədiləşdirilirdi.

Mən şahidiyəm ki, Heydər Əliyev Azərbaycanın mədəniyyəti, ədəbiyyatı, tarixi ilə bağlı məsələləri keçmiş mərkəz qarşısında çox ciddi qoyur və həmişə onun həllinə nail olurdu. Onun təşəbbüsü ilə keçmiş Sovet respublikaları arasında ən çox fəxri adlara, dövlət təltiflərinə layiq görülən bizim respublikamızdan idi. Azərbaycanın görkəmli ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri Süleyman Rüstəm, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Maqsud və Rüstəm İbrahimbəyovlar, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Arif Məlikov, Zeynəb Xanlarova, Müslüm Maqomayev, Fidan və Xuraman Qasımovalar, Tahir Salahov, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Mikayıl Abdullayev və onlarla yüksək istedadlı sənətkarlar fəxri adlara və mükafatlara layiq görülmüşlər.

Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra ziyalılara, xalqın görkəmli şəxsiyyətlərinə bu qayğını, bu münasibəti davam etdirdi. Ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri, ölkənin və xalqın inkişafında böyük xidmətləri olmuş insanların adı, xatirəsi qayğı ilə əhatə olunmuşdu.

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi, "Kitabi-Dədə Qorqud"un 1300 illiyi YUNESKO səviyyəsində, Azərbaycan tarixində böyük xidmətləri olmuş insanların - şairlərin, yazıçıların, bəstəkarların, dövlət xadimlərinin və digərlərinin geniş miqyasda və yüksək səviyyədə yubileyləri təşkil edildi. Son 10 ildə Heydər Əliyevin fərmanı ilə görkəmli sənət xadimlərinə Azərbaycanın fəxri adları, ali ordenləri - "İstiqlal" və "Şöhrət" ordenləri verildi. Ölkə qarşısında xidmətlərini layiqincə qiymətləndirmək üçün Böyük Heydər Əliyev xüsusi Prezident təqaüdləri təsis etdi.

Cəmiyyətdə qadınların yerini, əməyini və rolunu yüksək qiymətləndirən Ümummilli liderimiz onlara daim qayğı göstərmişdir. Məhz onun şəxsi təşəbbüsü və xüsusi fərmanı ilə bu sahədə mərkəzi icra hakimiyyəti orqanı - Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

Komitə qadınlar, analar və uşaqlarla bağlı dövlət siyasətini həyata keçirir. Azərbaycan qadını bu gün dövlət orqanlarında rəhbər vəzifələrə irəli çəkilir, sosial və iqtisadi sahələrin mühüm bölmələri onlara etibar edilir. Bütün dövlət tədbirləri mütləq qaydada qadınlarımızın iştirakı ilə həyata keçirilir. Qadınlarımız kişilərlə bərabər bütün seçkili orqanlarda təmsil olunur, dövlət mükafatlarına və fəxri adlara təqdim olunurlar. Bu siyasi xətt Böyük Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və indi də uğurla davam etdirilən dövlət siyasətidir.

Heydər Əliyev gənc nəslə xüsusi qayğı göstərirdi. Onları yüksək vəzifələrə təyin edir, yaradıcı gənclərə hərtərəfli yardım göstərirdi. Ölkənin gələcək inkişafı və tərəqqisində gənclərə böyük ümidlər bəsləyən Heydər Əliyev onların problemlərini bütün fəaliyyəti dövründə diqqət mərkəzində saxlamış və həllinə böyük uzaqgörənliklə nail olmuşdur.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi keçən əsrin 70-80-ci illərində on minlərlə azərbaycanlı gənclər keçmiş Sovet İttifaqının böyük şəhərlərində yerləşən adlı-sanlı universitetlərində təhsil alır, elm ocaqlarında elmi tədqiqatlar aparır, elmi dərəcələrə yiyələnirdilər. Azərbaycanın müstəqilliyini bərpa etdiyi dövrdə də bu vacib məsələyə Ümummilli lider tərəfindən ciddi diqqət yetirilirdi. Son on il ərzində gənclərimiz MDB məkanı ilə yanaşı,

dünyanın, inkişaf etmiş ölkələrinin aparıcı universitetlərində, müxtəlif növ təhsil ocaqlarında biliklərə yiyələnir, nadir ixtisaslar üzrə layiqli mütəxəssislər kimi yetişir və ölkə iqtisadiyyatının inkişafına öz töhfələrini verirlər.

Ölkə iqtisadiyyatının vacib sahələrindən biri olan aqrar sahədə çalışan əmək adamları da Heydər Əliyevin xüsusi qayğısı ilə əhatə olunmuş, onlar mütəmadi olaraq yüksək dövlət mükafatları və fəxri adlarla təltif edilmişlər.

Neft sənayesindən danışarkən Böyük Öndər qeyd edirdi ki, "neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir". 20 sentyabr 1994-cü ildə dünyanın ən iri transmilli neft şirkətləri ilə birgə bağlanmış və "Əsrin Müqaviləsi" adı ilə artıq tarixə çevrilmiş Saziş Ümummilli liderimiz Heydər Əliyevin şah əsəridir. Hazırda 15 ölkənin 35 neft şirkəti ilə 24 neft-qaz müqaviləsi bağlanmışdır. Ölkəmizin neft və qaz sektoruna 8 mlrd. ABŞ dollarından artıq investisiya qoyulmuşdur. 12 mlrd. ABŞ dolları həcmində 4 əsas layihə üzrə işlər uğurla davam etdirilir:

"Azəri-Çıraq-Günəşli" neft yatağı təqribən 825 mln. ton həcmində çıxarıla biləcək neft ehtiyatlarına malikdir. Layihə 4 mərhələ üzrə işlənir: İlkin neft layihəsi (1997-ci ildən), faza -1 (2004, IV rüb, ildə 20-30 mln. ton), faza -2 (2006, II rüb, ildə 40 mln. ton), faza -3 (2008, II rüb, ildə 50-60 min ton). Beləliklə, gündə 133 min barel neftdən - 1 mln. barelədək (2009-cu il) hasilatın artması nəzərdə tutulur. Bu rəqəm dünyada artan neft tələbatının 10 faizini təşkil etməklə, respublikamız üçün yüksək göstərici sayılır.

"Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Neft Kəməri Xəzər neftini, Bosfor və Dardanel boğazlarından yan keçməklə, Aralıq dənizinə çıxaran regional əhəmiyyətli ilk birbaşa boru kəməri olmaqla, tikintisinin 2005-ci ilin IV rübündə başa çatdırılması nəzərdə tutulmuşdur.

Azərbaycan neft hasilatında əldə etdiyi uğurlarla bərabər, qaz yataqlarının işlənməsi sahəsində də böyük irəliləyişlərə nail olmuşdur. Belə ki, beynəlxalq əhəmiyyətli "Şahdəniz" qaz yatağında 30 illik dövr ərzində ildə 8,2 mlrd. kubmetr qaz çıxarılması nəzərdə tutulmuşdur ki, bunun da iqtisadiyyatımızın inkişafına mühüm təsiri olmaqla yanaşı, Azərbaycanı həm də qaz ölkəsi kimi dünyaya tanıdacaqdır.

Bunun bariz nümunəsi kimi, ümumi uzunluğu 690 km olan Cənubi Qafqaz Boru Kəməri vasitəsilə respublikada ildə 7,3 mlrd. kubmetr həcmində hasil olunmuş təbii qaz Gürcüstandan keçərək Türkiyəyə Bakı-Tbilisi-Ərzurum marşrutu ilə nəql olunacaqdır.

Müstəqil Azərbaycanın inkişafı naminə 2000-ci ildə Böyük Öndər tərəfindən yaradılmış Dövlət Neft Fondu Heydər Əliyevin neft strategiyasının ən önəmli və respublikanın gələcək inkişafına yönəldilmiş uğurlarındandır. Bu gün Neft Fondunda 1 mlrd. ABŞ dolları həcmində vəsait toplanmışdır. Heydər Əliyev məktəbinin çox layiqli davamçısı, onun ideyalarını böyük uğurla həyata keçirən möhtərəm Prezidentimiz İlham Əliyev cənabları neft siyasətinə öz münasibətini belə açıqlayır: "Müasir dünyada neft məqsəd yox, qlobal siyasi, strateji və iqtisadi problemləri həll etmək üçün vasitədir". Bu yanaşma dövlətimizin neft sahəsində yeridilən strateji xətti aydın şəkildə ifadə edir.

Böyük Öndər Azərbaycanın enerji təhlükəsizliyinə də xüsusi önəm verirdi. O, ölkənin elektroenergetika sahəsində elə bir gücə malik olmasına çalışırdı ki, respublika digər dövlətlər və onların enerji bazarlarından asılı olmasın. Bu, nə qədər çətin olsa da, Ümummilli lider buna nail olurdu. Onun rəhbərliyi dövründə Mingəçevirdə, Naxçıvanda, Şəmkirdə, Bakıda, Sumqayıtda yeni-yeni su və istilik elektrik stansiyaları tikildi, mövcud stansiyalar yenidən quruldu, genişləndirildi, yeni ötürücü elektrik xətləri salındı. Bütün bu işlərə xarici və daxili sərmayələr cəlb edildi. Bu nəhəng və müasir müəssisələr yüksək ixtisaslı rəhbər və mühəndis kadrları ilə təmin edildi. Ümummilli liderimizin bu sahədəki önəmli işlərini möhtərəm Prezidentimiz İlham Əliyev cənabları bu gün uğurla davam etdirir.

Ölkə neftçilərinin, bütövlükdə energetiklərin əməyini bütün dövrlərdə yüksək qiymətləndirən Heydər Əliyev bu sahədə çalışan qabaqcıl insanları müntəzəm olaraq dövlət mükafatlarına və fəxri adlara layiq görmüşdür. Bu sahədə Böyük Öndərin ənənələrinə sadiq qalan möhtərəm Prezidentimiz İlham Əliyev cənabları 2004-cü ilin sentyabrında Neftçilər günü münasibətilə böyük bir qrup neftçilərin əməyini dövlət təltifləri ilə qiymətləndirdi.

Dünya şöhrətli siyasi xadim olan Azərbaycan xalqının Ümummilli lideri, Böyük Öndər, Dahi şəxsiyyət Heydər Əliyevin taleyi millətin taleyi, xalqın, ölkənin taleyi idi. Azərbaycanın taleyi Heydər Əliyevin taleyi idi. Azərbaycan xalqı bu dahi şəxsiyyətin ürəyi idi. Millətin dərdi, ağrısı onun dərdi idi. Xalqın xoşbəxtliyi onun xoşbəxtliyi idi. O, xalqın ayrılmaz hissəsi olan əbədi şəxsiyyət idi. Və bu, bu gün də belədir, sabah da belə olacaq.

YUSİF HÜMBƏTOV
Prezidentin İcra Aparatı Ərazi İdarəetmə
Orqanları ilə iş şöbəsinin müdiri,
YAP idarə heyətinin üzvü

HEYDƏR ƏLİYEVİN DÖVLƏT İDARƏÇİLİK İRSİNİN ÖYRƏNİLMƏSİ

Ümummilli liderimiz Heydər Əliyev fenomeninin məzmun və mahiyyətini açıb göstərən çoxsaylı tədqiqat əsərləri yazılsa da, bu böyük siyasət və dövlət xadiminin idarəçilik məharəti, dövlətçilik ideyaları, həmin ideyaların nəzəri və praktik aspektləri hələ lazımınca öyrənilməyib.

Heydər Əliyev dühasını və onun idarəçilik irsini səciyyələndirən cəhətlər olduqca müxtəlifdir. Onun analitik təfəkkürü və uzaqgörənliyi ictimai- siyasi həyatın müxtəlif istiqamətləri və sahələri üzrə ümumiləşdirmələr aparmağa, dünyada gedən mürəkkəb prosesləri vaxtında təhlil edərək onlardan öz xalqı və dövlətinin mənafeyi naminə nəticələr çıxarmağa imkan vermişdir.

Dünya ölkələrinin inkişaf tarixinin araşdırılması göstərir ki, bütün zamanlarda xarizmatik lider, müqəddəratı təhlükə altında olan dövlətin xilaskarı funksiyanı yerinə yetirir, onun davamlı inkişafının təminatçısı olur. Həmin funksiyanı Rusiyanın tarixində Böyük Pyotr, ABŞ-ın tarixində C.Vaşinqton və A.Linkoln, qardaş Türkiyənin tarixində Böyük Atatürk yerinə yetirmişsə, Azərbaycanın çağdaş tarixində bu missiya böyük öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Parlaq və aydın zəkaya, zəngin intellektə və təcrübəyə malik olan bu insanın indiki və gələcək nəsillərə miras qoyduğu misilsiz dövlət idarəçilik irsi hərtərəfli, sistemli və elmi - akademik səviyyədə öyrənilməlidir. Bu, olduqca çətin, məsuliyyətli, eyni zamanda çox önəmli və son dərəcə şərəfli bir vəzifədir. Elə bu məntiqə söykənərək, Heydər Əliyev dövlət idarəçilik irsinin bir sıra nəzəri və praktiki məsələlərini nəzərdən keçirək.

Öncə qeyd edək ki, bu irsin ən mühüm postulatlarından biri fəaliyyət üçün aydın və konkret məqsədin müəyyənləşdirilməsindən ibarətdir. Azərbaycan dövlətçiliyinin qorunması və möhkəmləndirilməsi, ölkəmizin

dünya birliyinə tam inteqrasiyasının təmin olunması Heydər Əliyevin xalq və dövlətçilik naminə yorulmaz fəaliyyətinin ali məqsədini təşkil edirdi. Təsadüfi deyil ki, onun "Müstəqilliyimizin əldə olunması nə qədər çətindirsə, saxlanılması, daimi, əbədi olması bundan da çətindir"- ifadəsi atılı aforizmə çevrilmişdir.

Təcrübəli siyasətçi lideri Heydər Əliyevin dövlət idarəçilik irsinin əsasını onun özünün bilavasitə rəhbərliyi və iştirakı ilə işlənib ümumxalq səsvermə yolu ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının prinsipləri üzərində qurulmuş idarəçilik fəaliyyəti təşkil edir.

Bu idarəçilik fəaliyyətinin mahiyyətini aşağıdakı prinsipləri təşkil edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Məqsədə nail olmağa əngəl törədən problemlərin üzə çıxarılması, onların mahiyyətinin öyrənilməsi və həlli imkanlarının araşdırılması dövlət idarəçilik fəaliyyətinin əsas istiqamətlərindən biridir.

"Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir" deyən Heydər Əliyev hakimiyyətə qayıtdığı 1993-cü ildə ilk növbədə aşağıdakı fundamental problemləri həll etmək vəzifəsi ilə qarşılaşmışdı:

- daxildə separatçılıq və dövlətçiliyə qarşı qəsd meyllərini aradan qaldırmaq və ictimai- siyasi sabitliyi təmin etmək;
- getdikcə dərinləşməkdə olan iqtisadi böhranı dayandırmaq və gələcək inkişaf üçün təməl yaratmaq;
- xalq cəbhəsi-müsavat cütlüyünün məsuliyyətsiz, kor-koranə və populist bəyanat və çağırışları nəticəsində qonşu dövlətlərlə Azərbaycan dövləti arasında yaranmış gərgin münasibətləri normal səviyyəyə çatdırmaq;

- Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərini geri almaq;

- bütün dövlətlərlə qarşılıqlı faydalı əlaqələr quraraq, Azərbaycan Respublikasının siyasi, iqtisadi, mədəni, hüquqi və s. sahələrdə davamlı inkişafını təmin edəcək şərait yaratmaq;

- xalqın itirilmiş inamını özünə qaytarmaq.

Müxtəlif səviyyələrdə səriştəsizlik və xəyanət nəticəsində Azərbaycan üçün yaradılmış sadalanan problemlər və digər məsələlər bu dahi şəxsiyyətin yorulmaz fəaliyyəti, müdrik daxili və xarici siyasəti sayəsində öz həllini əsasən tapa bilmişdi.

Heydər Əliyevin dövlət idarəçilik təcrübəsinin təkrarsız xüsusiyyətlərindən biri də problemin həlli ilə bağlı vaxtında və qətiyyətli qərar qəbul edilməsidir. Onun qəbul etdiyi qərarların zərgər dəqiqliyini hər dəfə zaman özü təsdiq edir. Buna "Əsrin müqaviləsi"ni və digər beynəlxalq neft kontraktların, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası ilə bağlı qərarları misal gətirmək olar.

Heydər Əliyevin idarəçilik üslubunda xalqın və ictimaiyyətin iradəsinə və dəstəyinə arxalanaraq müvafiq qərarlar qəbul edib, tədbirlər görmək xüsusiyyəti diqqəti cəlb edən başlıca amillərdən biridir.

Qondarma "Talış-Muğan Respublikası" yaradılması üçün separatçılıq və dövlətçiliyə qəsd meylləri, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri sonsuz qətiyyət və böyük müdrikliklə, tarixdə analoqu olmayan bir şəkildə - dövlət başçımızın xalqa ünvanlanmış müraciəti ilə aradan qaldırılmışdır.

Heydər Əliyevin siyasi uzaqgörənliyinin elmi-metodoloji əsasları ilə tanışlıq belə bir inam hasil edir ki, SSRİ kimi nəhəng imperiyanın dağılacağının labüdlüyünü o, hamıdan əvvəl yəqin etmişdi. Hər şeyi bütünlüklə Mərkəzə tabe etdirdiyi Sovet dövlətinin hökmranlığı dövründə bütün diplomatik bacarıq və səriştəsini işə salıb müxtəlif maneələri dəf etməklə, Azərbaycan SSR-də hərbi kadrlar hazırlayan məktəbin yaradılmasına icazə almağa nail olması onun bir çox siyasi hadisələri öncə görməsinə dəlalət edir. Müstəqillik illərində milli ordu quruculuğu prosesində Heydər Əliyevin böyük uzaqgörənliklə göstərdiyi bu təşəbbüs bugünkü ordu quruculuğunda öz müsbət bəhrəsini verir.

Heydər Əliyevin dövlət idarəçilik irsində Prezidentin fərman və sərəncamlarının da öyrənilməsi bu məktəbin hərtərəfli işi barədə aydın təsəvvür yaradır. Heydər Əliyev dövlət idarəçiliyində yalnız şifahi tapşırıq və göstərişlərlə kifayətlənmir, həm də həlli vacib olan məsələlərin həyata keçirilməsi məqsədilə zəruri hüquqi aktlar qəbul edirdi. Qəbul olunması vacib hesab edilən aktların hazırlanmasına tapşırıq verdikdən sonra işin gedişinə nəzarət etməsi, son mərhələdə isə özü bilavasitə bu sənədin üzərində işləyib köklü və əsaslı əlavələr edərək, onu daha dolğun, mükəmməl və işlək bir hüquqi formaya salırdı.

Ümummilli liderimiz Heydər Əliyev dövləti idarə edərkən yalnız daxili iqtisadi və siyasi amilləri nəzərə almaqla kifayətlənmir, həmçinin xarici amilləri də diqqətlə öyrənir və bu amillərin ölkənin siyasi və iqtisadi inkişafına təsirini ölçüb-biçirdi. Xarici siyasi və iqtisadi amillərin uzlaşdırılması ölkənin siyasi-iqtisadi inkişafı, milli maraqların qorunması şərtilə beynəlxalq sistemə inteqrasiyanı təmin edirdi ki, bu da ölkənin beynəlxalq aləmdə imicinin və siyasi nüfuzunun artmasına xidmət edirdi.

Dövlət idarəçilik strukturlarının ahəngdar işinin təşkili və təmin edilməsi də Heydər Əliyev idarəçilik tərzinin əsas xüsusiyyətlərindən biridir. Dövrün tələbinə uyğun olaraq, eyni funksiyalı və təkrarlanan strukturların ləğv edilməsi, günün tələbinə uyğun yeni strukturların yaradılması və dövlət idarəçilik strukturlarında həyata keçirilən digər dəyişikliklər bu sistemin vahid, ahəngdar bir mexanizm kimi işləməsini təmin etmək məqsədini daşıyırdı.

Heydər Əliyev idarəçilik irsinin xüsusiyyətlərindən biri də ölkənin gələcək inkişafını təmin edə biləcək kadrlar hazırlamasıdır.

Hələ SSRİ dövründə Mərkəzin yaratdığı min bir maneəyə sinə gərərək, Azərbaycanın gələcəyinin quruculları olan gənc oğlan və qızları yüksək bilik və savad əldə etmək məqsədilə SSRİ-nin ən nüfuzlu ali məktəblərinə təhsil almağa göndərərkən çoxları bunun siyasi mənasını anlamır, dövlət başçısının bu tədbirinin uzağagedən strateji məqsəd daşıdığının fərqinə varmırdı. Əslində isə müdrük dövlət xadimi olan Heydər Əliyev bu addımı ilə gələcək Azərbaycan dövlətçiliyi üçün hava və su kimi zəruri olacaq kadr potensialını formalaşdırırdı.

Kadrların fəaliyyəti üçün maksimum şərait yaratmaqla yanaşı, onlara qarşı tələbkarlıq, öz idarəçilik üslub və metodlarını yeni nəslə öyrətmək xüsusiyyətləri Heydər Əliyev idarəçilik məktəbinin tərkib hissəsidir.

Müdrük dövlət başçısı kadrların normal işləyib-yaşaması üçün şərait yaradılmasına xüsusi qayğı ilə yanaşırdı. Onun rəhbərliyi dövründə yeni tikilən inzibati binalar, onların lazımi müasir avadanlıq və inventarla təmin edilməsi, idarə, müəssisə və təşkilatların işçiləri üçün inşa olunan yaşayış evləri belə fikir söyləməyə əsas verir. Ümummilli lider bu məsələlərə diqqətlə yanaşmağı hər bir vəzifəli şəxsdən tələb edər, müəssisə və təşkilatlarda olarkən əməkçilərin iş və məişət şəraiti ilə yaxından tanış olmaqdan məmnunluq duyardı. Bu sahədə görülən təqdirəlayiq işlərə yüksək qiymət verməklə yanaşı, çatışmazlıqları göstərər, onların aradan qaldırılması üçün müvafiq tapşırıqlar verərdi.

1993-cü ildə Heydər Əliyev xalqın iradəsi ilə hakimiyyətə qayıtdıqdan sonra respublikada iqtisadi və siyasi proseslərə rəhbərliyin iflic vəziyyətinə düşdüyünün, rəhbər kadrlarla iş sisteminin tamamilə dağıldığının şahidi oldu. Taleyinə Tanrı tərəfindən yalnız qurmaq və yaratmaq missiyası yazılmış o böyük insan həmin sahədə də köklü dəyişikliklərin təşəbbüskarı və təşkilatçısı oldu. Müasir tələblərə cavab verən yeni kadrların - xalqın "qızıl fondu"nun hazırlanması işinə rəhbərlik etdi. Bu baxımdan, Prezident Heydər Əliyevin respublika, şəhər, rayon, müəssisə, təşkilat, birlik və digər təsərrüfat subyektlərinin rəhbər kadrları ilə müxtəlif səviyyələrdə müntəzəm keçirdiyi müşavirə və görüşlər olduqca böyük əhəmiyyət kəsb etmişdir. Onun təşəbbüsü ilə ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması, "Dövlət qulluğu" haqqında qanunun qəbul edilməsi və eləcə də Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının yaradılması bu baxımdan mühüm əhəmiyyətə malik hadisələrdir.

Ölkə üçün xüsusi əhəmiyyət kəsb edən bütün məsələlərin əlaqədar mərkəzi və yerli icra strukturlarının iştirakı ilə müzakirə edilməsi, lazım gələrsə, məsələnin həlli yollarının xalqın müzakirəsinə verilməsi xüsusiyyəti də Heydər Əliyev idarəçilik üslubunun səciyyəvi xüsusiyyətidir. Ölkə Konstitusiyasının qəbulu, dövlət dili, xalqın tarixi və mədəniyyəti ilə bağlı digər vacib sənədlərin alimlərin, ziyalıların və nəhayət, xalqın müzakirəsinə verilməsi bunun bariz nümunəsidir.

Verilmiş tapşırıqların vaxtında və layiqincə yerinə yetirilməsinə ciddi nəzarət Heydər Əliyev idarəçilik irsinin əsasını təşkil edir. Onun ölkə həyatının mühüm məsələlərinin icra vəziyyəti ilə bağlı keçirdiyi

iclas və toplantılarda həyata keçirdiyi praktiki idarəçilik üsulları və metodları canlı bir məktəb idi. Hər bir toplantı və iclaslarda yüksək vəzifəli kadrlar böyük bir idarəçilik dərsi keçmiş olurdular ki, bu da onların sonrakı fəaliyyəti üçün çox faydalı idi.

İdarəçilikdə və ümumi işdə yol verilmiş nöqsanlara qarşı barışmazlıq, bütün məsələlərin həllində, nöqsanların araşdırılmasında ədalətlilik prinsipi ümummilli liderin idarəçilik üslubunun əsasını təşkil edirdi. O, kimliyindən asılı olmayaraq hər bir şəxsin nöqsan və qüsurlarını ciddiliklə açıb göstərən, əldə olunmuş uğurları layiqincə qiymətləndirməyi bacaran və bütün bunları aşkarlıq və şəffaflıq şəraitində həyata keçirən bir dövlət rəhbəri idi.

Heydər Əliyev bütün siyasi fəaliyyəti dövründə nəyin bahasına olursa-olsun, xalqına və millətinə sədaqətlə xidmət etmək amalına sadiq qalmışdır, həm SSRİ-nin tərkibində olduğumuz dövrdə, həm də müstəqillik dövründə bu belə olmuşdur. "Kim müxalifətdə dursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın" deyən görkəmli siyasət qrossmeysteri Heydər Əliyevin yeganə amalı Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin inkişafını və möhkəmləndirilməsini, xalqımızın rifahını, təhlükəsizliyini və firavanlığı təmin edə biləcək hakimiyyət mexanizmi yaratmaq və onu etibarlı əllərə təhvil vermək olmuşdur.

"Vəzifədən ötrü yaşayan adamlar bədbəxt adamlardır" aforizminin müəllifi olan Heydər Əliyev "Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz"- deyərək, səhhəti bahasına yaratdığı müstəqil Azərbaycanın idarəetmə sükanını naşılara, siyasət hoqqabazlarına verə bilməzdi. Bu müdrik dövlət xadiminin siyasi xəttinə və idarəçilik mədəniyyətinə zidd idi. Ölkə başçısı kimi onu əvəz edəcək şəxs xalqın bəyəndiyi və müdafiə etdiyi Heydər Əliyev yolunun layiqli davamçısı olmalı, bu yolu inkişaf etdirməli, xalqını və vətənini sələfi qədər sevməli idi.

Azərbaycan xalqı Heydər Əliyevin siyasi kursuna alternativ görmədiyindən, prezidentin müəyyənləşdirdiyi daxili və xarici siyasət strategiyasını uğurla davam etdirəcək siyasətçi qismində onun komandasının ən istedadlı üzvü olan İlham Əliyev şəxsiyyəti üzərində dayandı.

Ümummilli liderimiz "O, siyasət sahəsində çox istedadlıdır. Hər bir peşə sahibi üçün genetik qabiliyyət olmalıdır, bu, hər kəsdə olmur. Onda isə

var" deyərək İlham Əliyevin siyasi varisliyə layiqli namizəd olduğunu bildirmişdi.

2003-cü ildə Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə bir daha Heydər Əliyev siyasi kursuna inamını, etibarını ifadə etdi. Prezidentliyinin ilk günlərindən özünü peşəkar siyasətçi kimi təsdiqləyən İlham Əliyevin siyasi- psixoloji portretinin əsasını təşkil edən komponentlər onun Azərbaycan siyasi arenası üçün son dərəcə uğurlu dövlət başçısı olduğunu sübut edir. O, öz siyasi simasında Qərb standartlarının - aristokratik siyasi rəftarın, rasional düşüncə tərzinin, praqmatizmin milli mentalitetlə son dərəcə dəqiqdiklə uzlaşdırılmış ansamblını yaratmığa nail olubdur. İlham Əliyev bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə yeni nəfəs, siyasi ab- hava və müasirlik gətiribdir.Başqalarından fərqli olaraq onun bir siyasətçi kimi formalaşmasına zəmin yaradan komponentlər sırasında siyasi romantizm, saxta vətənpərvərlik, arxaik siyasi texnologiyalar kimi amillər mövcud deyildir.

Bu gün Azərbaycan siyasətində proseslər elə bir dinamik və açıq müstəvidə cərəyan edir ki, insanların seçim və müqayisə etmək üçün kifayət qədər şansları vardır. Sözsüz ki, ümummilli lider Heydər Əliyev istisna olmaqla, öz prinsiplərinə sadiqlik və intellektual imkanları baxımından Prezident İlham Əliyev heç bir siyasətçiyə bənzəmir. O, Qərb standartlarını öz şəxsi simasında təcəssüm etdirən müasir siyasətçilər sırasında özünə layiqli yer tutmuşdur.

Dövlət başçısı seçilincəyə qədər İlham Əliyev istər Milli Olimpiya Komitəsinin prezidenti olarkən, istər ARDNŞ-nin birinci vitse-prezidenti, istərsə də Baş nazir kimi kifayət qədər böyük məsuliyyət tələb edən vəzifələrdə çalışarkən peşəkarlıq, qabiliyyət və əzmkarlıq nümunəsi göstərərək, cavabdeh olduğu sahələrdə opponentlərinin belə həsəd apardığı nailiyyətlər əldə etmişdir.

Eyni fikirləri İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi dövrdəki fəaliyyəti haqqında da söyləmək olar. Yüksək təşkilatçılıq bacarığı, intellekti və prinsipiallığı nəzərə alınmaqla, onun AŞPA-nın sədr müavini və büro üzvü vəzifələrinə seçilməsi təsadüfi olmayıb, yetkin və püxtələşmiş siyasətçiyə nüfuzlu təşkilatın verdiyi yüksək qiymət kimi dəyərləndirilməlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Heydər Əliyev idarəçilik məktəbindən bəhrələnərək bu məktəbin daha da təkmilləşməsinə təkan vermiş, onu müasir tələblər səviyyəsinə qaldırmışdır. Heydər Əliyevin xalqın etimadına və dəstəyinə arxalanaraq apardığı uğurlu daxili siyasət təcrübəsindən öyrənən İlham Əliyev həmin yolu məharətlə davam etdirir. Onun seçkilər ərəfəsində və seçkilərdən sonra bölgələrə səfərləri, ictimaiyyətin, sadə peşə adamlarının və əhalinin müxtəlif təbəqələri ilə görüşləri buna nümunədir. Belə görüşlər zamanı o, sadə xalqla təmasda olmaqla onların problemlərini öyrənir, ölkədəki daxili vəziyyətlə tanış olur, əhalini narahat edən problemlərin həlli ilə əlaqədar müvafiq tədbirlər görülməsi barədə obyektiv qərarlar qəbul etmək imkanı qazanır.

Heydər Əliyev idarəçilik irsinin əsas amillərindən biri olan ölkənin iqtisadi qüdrətinin artırılması, əhalinin sosial rifah halının yaxşılaşdırılması ənənələrinə sadiq olan İlham Əliyev Prezident olduğu dövr ərzində bu sahəni xeyli inkişaf etdirmişdir. Ölkənin sosial-iqtisadi inkişafı haqqında verdiyi fərman, regionların sosial-iqtisadi inkişafına dair təsdiq etdiyi Dövlət Proqram və əhalinin müxtəlif təbəqələrinin əmək haqlarının, müavinət və təqaüdlərinin dəfələrlə artırılması, sahibkarlığın inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlər, mövcud müəssisələrin işinin bərpası və genişləndirilməsi, yeni iş yerlərinin açılması sahəsində gördüyü işlər bu sahənin inkişafına ölkə Prezidentinin verdiyi önəmin əyani sübutudur.

Həyata keçirilən tədbirlər və sahibkarlığın inkişafına göstərilən qayğı regionların iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının da daha inkişaf etdirilməsi üçün möhkəm zəmin yaratmışdır.

Ölkədə bu gün də davam etdirilən ardıcıl və məqsədyönlü iqtisadi siyasət nəticəsində ötən il 41872,5 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuş, onun həcmi 2003-cü ilə nisbətən 10,2 faiz, yaxud 3,6 trilyon manat artmışdır. ÜDM-in əhalinin hər nəfərinə düşən həcmi 9,2 faiz artaraq 5114,8 min manat və ya 1041 ABŞ dolları təşkil etmişdir. 2003-cü il səviyyəsi ilə müqayisədə sənayedə - 5,7 faiz və kənd təsərrüfatında 4,6 faiz çox məhsul istehsal olunmuşdur.

2004-cü ildə ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların həcmi keçən ilə nisbətən 23,9 faiz artaraq 4056,3 milyon ABŞ dolları təşkil etmişdir. Sərmayələrin 98,2 faizi iqtisadiyyata birbaşa investisiyalar,

1,8 faizi isə maliyyə kreditləri şəklində daxil olmuşdur. Xarici investisiyaların 90,2 faizi neft sektoruna, qalanı isə sənayenin digər sahələrinə, habelə nəqliyyat, rabitə, ticarət, tikinti, kənd təsərrüfatı və s. sahələrə yönəldilmişdir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul edilməsindən keçən bir ildə ölkənin bütün regionlarında iqtisadiyyatın davamlı inkişafı sahəsində müsbət nəticələr əldə olunmağa başlamışdır.

2004-cü il ərzində 167,3 min yeni iş yeri açılmış, iş yerlərinin 90 faizi qeyri-dövlət sektorunun, mütləq əksəriyyəti qeyri-neft sektorunun payına düşmüşdür.

Əhalinin normal pul gəlirləri 20,7 faiz artaraq 30 trilyon manat olmuş, adam başına pul gəlirlərinin məbləği isə 3,7 milyon manata çataraq keçən ilki səviyyəni 19,6 faiz üstələmişdir.

Ölkə Prezidentinin 2004-cü ildə imzaladığı müvafiq fərmanlar əsasında minimum əmək haqqının məbləği 100 min manata, 2005-ci il yanvarın 1-dən isə 125 min manata qaldırılmışdır.

2004-cü ildə əhaliyə pensiya və müavinətlərin maliyyələşdirilməsi üçün ümumilikdə 1931 milyard manat vəsait yönəldilmişdir ki, bu da 2003-cü ilə nisbətən 289,3 milyard manat və ya 17,6 faiz çoxdur.

Cənab İlham Əliyev Heydər Əliyevin neft strategiyasının davamçısıdır. Məhz bu sahədə aparılan uğurlu siyasət nəticəsində 2004-cü ildə Qaraçuxur, Gürovdağ və Binəqədi neft yataqlarının daxil olduğu blokların işlənməsi sahəsində sazişlər imzalanmış, "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin tikintisinin maliyyələşdirilməsi sahəsində tədbirlər görülmüş, Azəri-Cıraq-Günəşli yataqları üzrə tammiqyaslı işlərin başlanmasına sanksiya verilmişdir.

Cənab İlham Əliyev ümummilli liderimiz kimi, xalqın mədəni-tarixi abidələrinin qorunmasına, Azərbaycan dilinin və mədəniyyətinin inkişafına xüsusi qayğı ilə yanaşır. Onun milli ensiklopediyanın hazırlanması, Azərbaycan və dünya klassiklərinin əsərlərinin latın qrafikası ilə nəşri, mədəniyyət və incəsənət sahəsində çalışanların əmək haqlarının artırılması, onlara fəxri adlar verilməsi, xüsusi təqaüdlər təyin edilməsi ilə bağlı gördüyü tədbirlər bu sahədə nəzərdə tutulan işlərin kiçik bir hissəsidir.

Dövlətimizin başçısı dahi siyasətçi Heydər Əliyevin siyasi-diplomatik sahədə apardığı işləri də günün tələbləri səviyyəsində uğurla davam etdirir. Onun xarici ölkələrə rəsmi səfərləri, orada apardığı uğurlu xarici siyasət öz bəhrələrini verməkdədir.

Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinin illik hesabatında Azərbaycan Respublikasının ərazi bütövlüyünün dəstəkləməsi, separatçı, qondarma Dağlıq Qarabağın tanınmaması barədə verilən bəyanatlar, Avropa Şurasının Parlament Assambleyasında Ermənistanın işğalçı dövlət, Qarabağ ermənilərinin separatçı kimi tanınması və bu barədə qətnamə qəbul edilməsi həmin siyasətin uğurlu nəticələridir.

Cənab İlham Əliyev tərəfindən aparılan balanslaşdırılmış müstəqil siyasət Azərbaycan dövlətinin nüfuzunu beynəlxalq aləmdə xeyli gücləndirmiş, qonşu ölkələrlə münasibətləri xeyli yaxşılaşdırmışdır.

Böyük siyasətdə özünü, eyni zamanda iqtisadçı, diplomat və məmur qismində təsdiqləyən İlham Əliyev bu gün uğurla Azərbaycan dövlətinə rəhbərlik edir.Onun rəhbərliyi altında ictimai-siyasi həyatın müxtəlif sferalarında ciddi nailiyyətlər qazanılmaqdadır.

İlham Əliyevin bugünkü fəaliyyəti, gördüyü işlər belə deməyə əsas verir ki, o, Heydər Əliyev ideyalarının sadəcə davamçısı yox, eyni zamanda bu ideyaları XXI əsrin tələblərinə, dövrün, zamanın ruhuna uyğun olaraq təkmilləşdirməyə və inkişaf etdirməyə qadir olan bir liderdir.

VAQİF ƏLİYEV
Sumqayıt şəhər İcra Hakimiyyətinin
başçısı, YAP İdarə Heyətinin üzvü

DÜNYANIN ƏN BÖYÜK AZƏRBAYCANLISI

Onunla hər bir azərbaycanlının öyünməyə, fəxr etməyə haqqı var.

Dahi şəxsiyyətlər tarixin ağır məqamlarında xalqın səsinə səs verərək tarixi şəraitin diqtəsinə xalqın cavab nidası kimi meydana çıxır, xalqın itirilmiş ümidlərini özünə qaytarır. Elə buna görə də xalq öz taleyini onlara etibar edir, onlara inanır və onların arxasınca gedir. Heydər Əliyev xalqımızın məhz bu cür inandığı, öz həyatını etibar etdiyi tarixi şəxsiyyətdir. Bu gün Heydər Əliyevi özünə düşmən, rəqib hesab edənlər də belə bir tarixi həqiqətlə razılaşmağa məhkumdurlar və özləri də etiraf edirlər ki, Heydər Əliyev milli taleyimizdə əvəzsiz bir rol oynayan, daha doğrusu milli taleyimizi müəyyənləşdirən əvəzolunmaz bir liderdir.

Qədim yunan filosofu Aristotel vaxtilə qeyd edirdi ki, insan səadətini arzularında yox, potensialında axtarmalıdır. Bu gün Azərbaycanda xəyallarda yaşayan öz qabiliyyətlərindən qat-qat böyük iddialarda olanlardan fərqli olaraq, Heydər Əliyev məhz siyasət üçün doğulub. O, şəraitdən asılı fəaliyyət göstərməyib, əksinə, şəraiti siyasi prosesləri istədiyi istiqamətə, xalqın, millətin və dövlətin mənafeyinə uyğun yönəldə bilirdi.

Düşünmədən və mübaliğəsiz demək olar ki, Azərbaycanın ən azı son 500 illik tarixində Heydər Əliyevə bərabər olan siyasi xadim yoxdur. Siyasi xadimin yetişməsi üçün nəhəng rəqiblərin mübarizə apardıqları siyasi məktəb olmalıdır. Heydər Əliyev dünyanın üçdə birinə hökm edən Sovetlər İttifaqının mübarizələrlə dolu məktəbini müvəffəqiyyətlə keçmişdir. Təkcə bu məktəbi uğurla keçdiyinə görə o millətimizin, xalqımızın tükənməz iftixar və qürur mənbəyi olmağa layiqdir. Öz siyasi fəaliyyətinin müstəsnalığı baxımından mövcud Azərbaycan, eləcə də keçmiş SSRİ məkanında Heydər Əliyevlə heç bir siyasi xadimi müqayisə etmək olmaz.

Bu Böyük İnsanın həyatına nəzər salanda aydın görünür ki, yarım əsrə bərabər bir zaman kəsiyində o öz şəxsi həyatını demək olar ki, yaşamamışdır. Bütün bu dövr ərzində xalqı, milləti üçün çalışdı. Azərbaycan

xalqının tarixini yaratdı. Bu Böyük İnsanın həyatı xalqımızın taleyinin, tarixinin çox qiymətli bir hissəsini təşkil edir. Ona görə də Azərbaycan xalqının son 50 illik tarixini tədqiq etmək, həmin dövrün ictimai-siyasi, sosial-psixoloji gerçəklərini öyrənmək istəyən tədqiqatçılar ilk növbədə Ümummilli liderimizin həyatını, fəaliyyətini dərindən öyrənməlidirlər. Bunsuz Azərbaycanın həmin dövr üçün tarixini sadəcə olaraq öyrənmək mümkün deyil.

Hələ Azərbaycana birinci rəhbərliyi dövründə Ümummilli liderimiz obyektiv inkişaf qanunlarına əsaslanaraq, respublikanın milli xüsusiyyətlərini nəzərə alaraq, cəmiyyətin sağlam qüvvələrinə arxalanmaqla geniş miqyaslı fəaliyyət proqramı hazırlamışdır. 1969-cu ildə Mərkəzi Komitənin avqust plenumunda çıxışı zamanı respublikamızın sosial-iqtisadi vəziyyətinin necə çətin olduğunu tutarlı faktlarla sübut etmişdir. Elə ilk gündən götürülmüş xətt ona ümumxalq məhəbbəti qazandırdı. İqtisadi cəhətdən geri qalan, zəif inkişaf etmiş Azərbaycan qısa müddət ərzində SSRİ-nin ən inkişaf etmiş respublikalarından birinə çevrilmişdi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə respublikamız sözün həqiqi mənasında nəhəng inşaat meydanını xatırladırdı. Məhz o illərdə respublikada, o cümlədən şəhərimizdə nəhəng sənaye müəssisələri tikilib istifadəyə verilmişdir. Məişət Kondisionerləri zavodu, Ayaqqabı fabriki, İstilik Elektrik Stansiyaları, Etilen-Polietilen, «Azərelektrotermin», Kompressorlar zavodu və onlarla digər müəssisələr dediklərimizə sübutdur.

1970-1980-ci illərdə Heydər Əliyevin diqqət mərkəzində duran ən vacib məsələlərdən biri elmin və təhsilin inkişafına diqqət və qayğının artırılması olmuşdur. Qeyd etmək lazımdır ki, 1970-1980-ci illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə beş yeni ali təhsil müəssisəsi yaradıldı, çoxlu yeni kafedralar, ixtisaslar açıldı. 1980-ci ildə artıq respublikamızda 136 fakültəni və 530 kafedranı birləşdirən 17 ali məktəb fəaliyyət göstərirdi. Bundan başqa SSRİ-nin ən qabaqcıl 5 ali məktəblərinin Azərbaycanda filialı açılmışdır. Məlumdur ki, 60-cı illərdə ali məktəblərə tələbə qəbulu ilə bağlı yaranmış qeyri sağlam meyllər respublikada böyük narazılığa səbəb olurdu. Cənab Heydər Əliyevin səyi ilə ali məktəblərə qəbul ümumrespublika səviyyəli mühüm kompaniya statusu qazandı. Məhz o vaxtlar dəbdə olan bir sıra ixtisaslara sadə adamların, fəhlə, kəndli uşaqlarının qəbuluna şərait yaradıldı. Eyni zamanda Azərbaycanın gənc

oğlan və qızlarının İttifaqın yüksək səviyyəli ali məktəblərində təhsil almaları üçün münbit şərait yaradıldı. Hər il 800-1000 tələbə təhsil almaq üçün SSRİ-nin ali məktəblərinə göndərilirdi. Artıq 1981-ci ildə Moskvanın, Sankt-Peterburqun, Ukraynanın, Belarusiyanın qabaqcıl ali məktəblərində 244 ixtisas üzrə 3600 azərbaycanlı gənc təhsil alırdı. Həmin dövrlərdə Azərbaycan təhsilinin inkişaf tarixinin ən yadda qalan səhifələrindən biri də milli hərbi kadrların hazırlanması idi. Azərbaycanın bu günkü müstəqilliyini o vaxtlardan görən Heydər Əliyev çox çətinlikləri, o vaxtkı sovet rəhbərliyinin yaratdığı maneləri cəsarətlə aradan qaldıraraq Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılmasına nail oldu. Ötən dövr bu addımın nə qədər gərəkli olduğunu sübut etdi. Bu gün müstəqil Azərbaycan ordusunda xidmətdə olan zabitlərin əksəriyyəti məhz həmin hərbi məktəbin məzunlarıdır.

1970-80-ci illərdə mənzil, məktəb, mədəniyyət obyektlərinin tikintisi geniş vüsət almışdır. Bu gün respublikamızda ən əlamətdar tədbirlərin keçirildiyi, «Respublika», «Gülüstan» sarayları məhz o dövrlərdə tikilib istifadəyə verilmişdir.

Tıkmək, abadlaşdırmaq, yaratmaq, insanların sosial həyat şəraitini yaxşılaşdırılması Heydər Əliyevin malik olduğu yüksək ideallardan irəli gəlir. Heydər Əliyevin o dövrdə həyata keçirdiyi geniş quruculuq işləri strateji xarakter daşımış Azərbaycanın bu günkü müstəqilliyinə xidmət etmişdir. Heydər Əiyev həm də yeni dövrün yaradıcıları, memarları arasında öz yeri, öz dəsti xətti olan hər iki dövrün əvəzolunmaz tarixi şəxsiyyətidir. Bunun səbəbi ondadır ki, Heydər Əliyev həm sovet dövründə, həm də sonra müstəqil Azərbaycana rəhbərliyi dövründə səmimi olaraq eyni əqidə və amala xidmət etmişdir. Bu amalın əsasını qüdrətli, suveren, müstəqil Azərbaycan dövlətinin yaradılması təşkil etmişdir. Mübaliğəsiz demək olar ki, bu dahi İnsanın həyatı və fəaliyyəti bütövlükdə vətənə, xalqa, millətə xidmət etalonudur.

Keçmiş SSRİ-də həyata keçirilən imperiya siyasətinin nəticəsində müttəfiq respublika rəhbərlərinin xəyallarına gətirməkdən belə ehtiyatlandıqları çoxlarına əfsanə kimi görünən bir sıra məsələlərin Azərbaycanda reallıqlığa çevrilməsi məhz Heydər Əliyev qətiyyətinin, uzaqgörənliyinin nəticəsi idi. 1978-ci ildə qəbul olunan Azərbaycan SSRİ-nin Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması Heydər Əliyevin

dilinə, dininə, milli dəyərinə bağlılığının əsl vətəndaş qətiyyətinin parlaq təzahürüdür. Azərbaycan dilinin rəsmi dil kimi konstitutsiyada təsbit olunması, həmin dövrdə dilimizin cəmiyyətdə statusunu artırdı, orta məktəblərdə Azərbaycan dilinin tədrisinə ayrılmış saatlar 40 faizədək çoxaldı.

Ümummilli liderimizin Sovet Azərbaycanına rəhbərliyi dövründə əldə edilən iqtisadi potensial, infrastruktur, elm və təhsilin inkşafı, müxtəlif sahələrdə çalışan yüksək hazırlıqlı kadr potensialı müstəqil Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsində çox qiymətli bir baza oldu.

Ümummilli liderimiz sadə əmək adamlarının, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin əməklərinin qiymətləndirilməsi, onları keçmiş SSRİ-nin ən yüksək mükafatlarına təqdim etməsi bu adamların daha yaxşı işləmələrinə, səylə çalışmalarına səbəb olurdu. O vaxt SSRİ-nin yüksək orden və medalları, fəxri adları ilə təltif olunanların sayına görə Azərbaycan əhalisinin sayına görə ondan qat-qat böyük olan, Ukrayna, Qazaxstan kimi respublikaları geridə qoyurdu. Bu onu göstərir ki, dünyanın ən böyük Azərbaycanlısı olan Heydər Əliyev bütün imkanlardan öz xalqı, respublikası üçün tam şəkildə və məharətlə istifadə etmişdir. O, sözün həqiqi mənasında əsl xalq, millət fədaisi idi.

Heydər Əliyevin hələ Sovet Azərbaycanına rəhbərliyi dövründə həyata keçirdiyi çoxşaxəli fəaliyyəti xalqımızda milli qürur, milli mənlik şüurunun formalaşmasına, azadlıq, müstəqillik duyğularının baş qaldırılmasına gətirib çıxarmışdı.

Hələ Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən O,müstəqillik, azadlıq ideyalarını təbliğ edən, yayan adamlara xüsusi imkanlar yaradırdı. Bu gün həmin adamlar özləri də qeyd edirlər ki, onları hansısa güclü bir əl müdafiə edir, cəzalanmalarına imkan vermirdi. Bu ümummilli liderimiz Heydər Əliyev idi. O öz şəxsi həyatını, işini risqə qoyaraq, gələcək müstəqil Azərbaycan respublikasının ilk rüşeymlərini yaradır və onu bütün təhlükələrdən qoruyurdu. Heydər Əliyevin bu dövrdə gördüyü işlər, bunun nəticəsində xalqımızda milli müstəqillik duyğularının, azadlıq ideyalarının oyanışı tədqiqatçılar, ilk növbədə həmin dövrü öyrənən tarixçilər tərəfindən öyrənilməmişdir. Hələ uzun illər Heydər Əliyevin həmin dövrləri əhatə edən fəaliyyəti tədqiqat obyekti olacaq, bununla bağlı cild-cild kitablar yazılacaqdır.

Ulu öndərimizin həm Azərbaycana rəhbərlik etdiyi on dörd il ərzində həm də Moskvada çalışdığı illərdə ermənilərin Azərbaycana qarşı separatçı hərəkətlərinin qarşısı qətiyyətlə alındığından 1987-ci ilin oktyabr ayınadək onlar torpaq məsələlərini qaldırmağa cəsarət etmədilər. Heydər Əliyevin Siyasi Büro üzvlüyündən istefasından iki həftə sonra ermənilər Azərbaycana qarşı torpaq iddiaları ilə çıxış etməyə başladılar. Bu bir daha onu sübut edirdi ki, Heydər Əliyev ermənilərin Azərbaycana qarşı həyata keçirməyə hazırlaşdıqları separatçı hərəkatın qarşısında bir sipər idi və erməni riyakarlığının əl-qol açmasına imkan vermirdi.

1987-ci ildən başlayaraq respublikamızda vəziyyət getdikcə gərginləşir, Qarabağ əldən gedir, soydaşlarımız öz yer-yurdlarından didərgin düşür, qətlə yetirilirdi. Respublika rəhbərliyi isə bu hallara biganə münasibət göstərirdi. 1988-ci ilin fevralın 27, 28-də ermənilərin əli ilə Sumqayıtda azərbaycanlılara qarşı qırğın törədildi. 1990-cı ilin 20 yanvarında Sovet ordusu xalqımıza qarşı soyqırım həyata keçirdi. Heydər Əliyev Moskvada təqiblərə məruz qalmasına baxmayaraq, hadisədən bir gün sonra Moskvanın «Baxiva» sanatoriyasında müalicə olduğu halda həyatını risqə qoyaraq, Respublikada baş verənlərə biganə qala bilməyərək Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlir, baş verən hadisələrə münasibətini bildirir, o vaxtkı Sovet və Azərbaycan rəhbərliyini konkret faktlarla ittiham edib, xalqımıza başsağlığı verərək Azərbaycanın haqq səsini dünyaya bəyan etdi. Bax budur, vətən sevgisi, əsl vətəndaş mövqeyi, vətəndaş təəssübkeşliyi.

Bu çıxışdan sonra Heydər Əliyevə qarşı təqib və təzyiqlər daha da gücləndi. Azərbaycana qayıtmağa isə müxtəlif manelər yaradıldı. Onun Bakıya gəlişi ərəfəsində xalqımızın ləyaqətli oğlu, Heydər Əliyevə dərin ehtiram bəsləyən və onun gəlişinə səy göstərən Əjdər Xanbabayev vəhşicəsinə qətlə yetirildi. Bütün bunlar böyük iradə və qətiyyət sahibi Heydər Əliyevi öz yolundan döndərə bilmədi. Əliyev Bakıya qayıtdı. Lakin ona qurub, yaratdığı, dünyanın ən gözəl şəhərlərindən birinə çevirdiyi Bakı şəhərində yaşamağa imkan vermədilər. Məcbur olub doğulub, boya-başa çatdığı qədim və ulu Naxçıvana getdi. Naxçıvan öz böyük oğlunu 1990-cı ilin iyul ayında böyük iftixar və fərəhlə qarşıladı.

Az sonra xalq Heydər Əliyevi Naxçıvan və Azərbaycan parlamentlərinə deputat seçdi. 1990-cı il noyabrın 17-də Naxçıvan MR-in parlamentinin ilk iclasına sədrliyi Heydər Əliyev etdi. Bu tarixi iclas idi. Həmin iclasda ilk dəfə olaraq indiki üçrəngli bayrağımız Azərbaycan dövlətinin bayrağı kimi qəbul olundu və iclas salonuna gətirildi. Naxçıvan MSSR-in adından «Sovet Sosialist» sözləri çıxarıldı. Muxtar Respublikanın ali orqanı «Ali Sovet» əvəzinə «Ali Məclis» adlandırıldı. Məhz həmin iclasda SSRİ ordusuna çağırış Azərbaycanda ilk dəfə olaraq ləğv edildi. Milli orduya çağırış haqqında qərar qəbul olundu.

Azərbaycan Ali Sovetinin deputatı kimi, Heydər Əliyev 1991-ci ildə Ali Sovetin sessiyyasında çıxış edərək Qarabağda və onun ətrafında baş verən hadisələrlə bağlı öz fikirlərini bildirdi, rəhbərliyi qətiyyətli addımlar atmağa, respublika əhalisinin təhlükəsizliyini təmin etməyə çağırdı. Eyni zamanda 1991-ci il martın 17-də SSRİ-nin saxlanıb-saxlanılmaması barədə referendumda iştirak etməməyə çağırırdı. Azərbaycanın müstəqilliyi, azadlığı, uğrunda çalışmaq lazım olduğunu bildirdi. O vaxt Naxçıvan MR-də Referendum keçirilmədi və tarix Heydər Əliyevin uzaqgörənliyini bir daha sübut etdi.

Naxçıvan MR-nə rəhbərlik etdiyi dövrdə blokadada olan Naxçıvan bir tərəfdə erməni təcavüzündən müdafiə edir, digər tərəfdən buranı sosial-iqtisadi inkişafının təmin edirdi. Naxçıvanda ərzaq qıtlığını məharətlə aradan qaldırdı.

Bunun üçün qonşu Türkiyə və İranla əlaqələrini daha da yaxşılaşdırdı, onlardan alınan yardımlar hesabına Muxtar Respublika əhalisinin tələbatı ödənilirdi. Heydər Əliyevin diplomatiyası MR ərazisinə sığmır, öz üfüqlərini genişləndirirdi. Məhz Heydər Əliyev nüfuzunun bəhrəsi idi ki, həmin dövr Türkiyənin baş naziri olan Süleyman Dəmirəl şəxsi təyyarəsini Naxçıvana göndərərək Heydər Əliyevi Türkiyəyə dəvət etdi. Bunun ardınca İran prezidenti Əli Əkbər Haşimi Rəfsəncani öz təyyarəsini Naxçıvana göndərdi. Bu hadisələrin hamısı ağır blokada şəraitində yaşayan Naxçıvanı mühasirədən qurtardı. Sədərəkdə "Ümid" körpüsü, Culfada, Şahtaxtıda körpülər açıldı. Bu hadisələr onu göstərir ki, Heydər Əliyev hələ Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi vaxtlarda Azərbaycanın gələcək inkişafının yeni konturlarını çəkirdi. Ümumiyyətlə, bu dahi şəxsiyyət harada yaşayıb, işləməsindən asılı olmayaraq, bütövlükdə Azərbaycan xalqı, Azərbaycan dövləti üçün çalışıb.

Həmin ərəfədə Bakıda, Respublikamızın paytaxtında hakimiyyət uğrunda mübarizələr, anarxiya, xaos baş alıb gedirdi. Qarabağ və onun ətra-

finda torpaqlarımız erməni işğalçıları tərəfindən bir-birinin ardınca zəbt olunur. Regionlarda özbaşınalıq, bəzi hallarda separatizm meylləri güclənirdi. Belə bir ərəfədə hakimiyyətdə olan AXC-Musavat cütlüyü cənab Heydər Əliyevin bacarığından təcrübəsindən istifadə etmək əvəzinə ona qarşı müxtəlif çirkin oyunlar hazırlayırdılar.

Vaxtilə Nəriman Nərimanovu qətlə yetirən Kreml labirintlərindən sağsalamat qurtarıb xalqını xilas etmək üçün vətənə qayıtmış Heydər Əliyev nəinki hakimiyyətə, heç Bakıya da yaxın buraxılmadı, hətta onu Naxçıvanda hakimiyyətdən götürməyə də cəhd olundu. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, həmin dövrdə Heydər Əliyev hakimiyyətdə olsaydı, bunca böyük fəlakətlərə və uğursuzluqlara düçar olmazdıq.

1993-cü ilin əvvəllərindən başlayaraq Respublikada ictimai-siyasi vəziyyət ağırlaşdı. May ayının sonu, iyunun əvvəllərində vəziyyət demək olar ki, tamamilə nəzarətdən çıxmış, idarəolunmaz forma almışdır. Rayonlar bir-birinin ardınca erməni işğalçıları tərəfindən zəbt olunur, separatizm meylləri güclənir, respublika vətəndaş müharibəsinə sürüklənirdi. Bu hadisələr qarşısında hakimiyyətin acizliyi, bacarıqsızlığı aydın görünürdü. Nə Bakıdakı mitinqlər, amnistiya haqqındakı fərmanlar, siyasi partiyaların məsləhətləşmələri nə də, İsgəndər Həmidovun "Boz qurd"larının hədə-qorxuları heç bir nəticə vermirdi. Dünən vəzifə, ad verib, şəninə tərifləri söylədikləri Surət Hüseynovun qarşısında bu gün aciz qalmışdılar.

Belə ağır faciəli günlərdə Azərbaycan xalqının ümid dolu nəzərləri Naxçıvana, bu qədim diyarda yaşayıb və fəaliyyət göstərən Dünyanın ən böyük Azərbaycanlısına-Heydər Əliyevə dikilmişdir. Xalq təkidlə onu Bakıya hakimiyyətə dəvət edirdi. Eyni zamanda hakimiyyətdə olan AXC-Musavat rəhbərləri də bir tərəfdən xalqın təkidi, digər tərəfdən də canlarını Surət Hüseynovun dar ağacından qurtarmaq üçün gün ərzində bir neçə dəfə Naxçıvana, Heydər Əliyevin arxasınca təyyarə göndərməyə məcbur oldular.

1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə Heydər Əliyev Bakıya qayıtdı. İyunun 13-də heç nəyə baxmayaraq Gəncəyə getdi, Surət Hüseynovla görüşdü. Onun silahlı qüvvəsini Heydər Əliyev öz dərin zəkası ilə ram etdi. 15 iyunda Milli məclisin sədri seçildi. Bir neçə gündən sonra prezident öz kürsüsünü qoyub gecəynən Kələki kəndinə getdi. Hakimiyyətin bütün ağırlığı Heydər Əliyevin üzərinə düşdü. Heydər Əliyevin uni-

kal fəaliyyəti nəticəsində Respublikamız vətəndaş müharibəsi, separatizm meyllərindən xilas oldu. Xalqımız Heydər Əliyevin 1993-cü ilin 15 iyununda hakimiyyətə qayıdışını əbədiləşdirdi, müqəddəsləşdirdi, onu Qurtuluş bayramı adlandırdı.

1993-cü ilin 15 iyunundan keçən dövr ərzində Respublikamızda Heydər Əliyevin rəhbərliyi ilə iki dəfə dövlət çevrilişinin qarşısı alındı. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlanan neft müqaviləsi bağlandı. Dünyanın aparıcı neft şirkətləri Azərbaycana cəlb olundu, onların külli miqdarda sərmayə qoymalarına şərait yaradıldı. Ermənistanla aparılan müharibədə atəşkəsə nail olundu. Bu böyük qayıdış Azərbaycanda dövlət quruculuğunun sürətlənməsinə səbəb oldu, dövlətçiliyimizi və suverenliyimizi qoruya bilən ordu formalaşdı, iqtisadiyyatın inkişafı, ictimai asayişin və sabitliyin bərpa olunması təmin olundu. Ötən 10 il müddətinə elmin, səhiyyənin, təhsilin, idmanın, mədəniyyətin inkişafı təmin olundu, bu sahədə çalışanlara dövlətin diqqət və qayğısı artırdı.

Bu qayıdış Azərbaycanın dünya dövlətləri içərisində öz layiqli yerini tutmasına səbəb oldu. Bu illər ərzində Azərbaycan Heydər Əliyevin apardığı siyasət nəticəsində bir çox beynəlxalq təşkilatların tam hüquqlu üzvünə çevrildi. Əlində Azərbaycanın xəritəsi dünyanı qarış-qarış dolandı, Azərbaycan həqiqətlərini dünyaya bəyan etdi. Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa, Rusiya kimi böyük dövlətlərə səfərləri, nüfuzlu beynəlxalq təşkilatlarda keçirtdiyi çoxsaylı görüşləri, böyük tribunalardan qətiyyətli, kəsərli çıxışları ilə yüz illər boyu kök salmış erməni təbliğatını darmadağın etdi, Azərbaycanın haqq səsini dünyaya çatdırdı. Bunun nəticəsidir ki, artıq dünya erməni yalanlarına inanmamağa başlayır, həqiqətin gözünə dik baxaraq, işğalçını, separatçını öz adı ilə çağırır. Budur Heydər Əliyevin diplomatik qabiliyyətinin təntənəsi.

Heydər Əliyev Azərbaycanı şimaldan və cənubdan mənqənəyə salıb sıxan, onu xarici ölkələrlə ənənəvi əlaqəsini kəsən qüvvələrə qarşı Şərq-Qərb dəhlizini açdı. Böyük İpək yolunun dirçəldilməsi ideyasından Azərbaycanı iqtisadi blokadadan çıxarmaq üçün məharətlə istifadə etdi. Böyük İpək yolunun reallaşdırılması təkcə Azərbaycanı deyil, bütün türk dünyasının dirçəlişində, onun mənəvi oyanışında misilsiz rol oynayacaqdır. Bütün təzyiqlərə, çətinliklərə baxmayaraq Heydər Əliyev Azərbaycan neftinin dünya bazarına çıxarılmasına nail oldu. Bu gün artıq iki marşrut-

la, Bakı-Novorasiysk və Bakı-Supsa neft kəmərləri vasitəsilə dünya bazarına çıxarılır. Eyni zamanda 3-cü böyük Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi uğurla davam etdirilir. Həmçinin Bakı-Ərzurum qaz kəmərinin də çəkilişi üçün son hazırlıq işləri gedir. Cənab Heydər Əliyevin iqtisadi siyasəti Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, xalqın sosial-rifah halının yaxşılaşmasına, respublikanın iqtisadi suverenliyinin təmin olunmasına yönəlmişdir.

Heydər Əliyev millətini hədsiz məhəbbətlə sevən, dünyanın harasında yaşamasından asılı olmayaraq onları bir, həmrəy görmək istəyən Böyük Azərbaycanlı idi. Bütün ölkələrə səfərləri zamanı iş qrafikinin gərgin olmasına baxmayaraq həmin ölkədə yaşayan həmvətənlərimizlə görüşüb onların problemləri ilə maraqlanır. Azərbaycan ətrafında sıx birləşməyə çağırırdı. Milli diasporanın formalaşması, inkişafı da bu Böyük İnsanın adı ilə bağlıdır. Dünya Azərbaycanlılarının birliyinə, həmrəyliyinə nail olmaq üçün vahid milli ideologiya, Azərbaycançılıq ideologiyasını işləyib hazırladı. 2001-ci ildə Bakı şəhərində dünya azərbaycanlılarının I-ci Qurultayını keçirməklə bu ideologiyanın həyata vəsiqə almasına, azərbaycanlılarda diaspora hərəkatının gücləndirilməsinə, birliyin və həmrəyliyin təməlinin qoyulmasına nail oldu. Heç təsadüfi deyil ki, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı bu dahi şəxsiyyəti özünün əbədi və əzəli Prezidenti sayır.

Ümummilli Liderimiz hakimiyyətdə olduğu müddət ərzində həmişə Sumqayıtla və sumqayıtlılara daim diqqət və qayğı ilə yanaşıb. Bu illər ərzində 16 dəfə şəhərimizə səfəri də dediklərimizə əyani sübutdur. Onun rəhbərliyi, diqqət və qayğısı nəticəsində şəhərimizdə onlarla sənaye müəssisəsi, yüzlərlə yaşayış binası tikilmiş, Sumqayıt böyüyüb, gözəlləşib Respublikanın ən inkişaf etmiş şəhərindən birinə çevrilmişdir.

1971-ci ildə Ümummilli liderimiz Sumqayıt şəhərinə ilk səfərini etdi. Bu səfər çərçivəsində şəhərdə inkişafın birtərəfli getdiyi, diqqətin ancaq ağır sənayeyə yönəldiyi, qadınların ağır işlərdə, gərgin əmək tələb edən sahələrdə çalışdığı bu Böyük İnsanın diqqətindən yayınmadı. Ağır əmək şəraitində çalışan insanların sosial-məişət şəraitinin yaxşılaşdırılması, sosial yönümlü obyektlərin tikintisinin aparılması bir məsələ kimi qarşıya qoyuldu. Şəhərdə mənzil tikintisinə xüsusi diqqət artırıldı, məktəb, xəstəxana, klub tikintisinə başlanıldı.

Ümummilli liderimizin gərgin zəhməti, qətiyyəti və uzaqgörən siyasəti nəticəsində ən müasir maşınqayırma müəssisəsi - Sumqayıt «Kompressorlar» zavodu Yaponiyanın «Nippon Elektrik İndastr» şirkətinin lisenziyası və avadanlıqları bazasında tikilib istifadəyə verildi.

Millətini böyük məhəbbətlə sevən, qadınlara daim xüsusi diqqət və qayğı göstərən Ümummilli liderimizin səyi nəticəsində Sumqayıt şəhərində qadın əməyinin yüngülləşdirilməsi məqsədilə iki fabrik, «Xovlu iplik» «Üst trikotaj» fabrikləri tikilib istifadəyə verildi. Şəhərin mədəni həyatını inkişaf etdirmək üçün Ü.Hacıbəyov adına «Kimyaçılar» mədəniyyət sarayı kimi möhtəşəm bir saray ucaldılmışdır.

1970-80-ci illərdə Sumqayıt şəhərində metallurgiya və kimya sənayesi inkişaf edərək, öz inkişafının ən yüksək həddinə çatmışdır. Ümummilli liderimizin şəhərin inkişafına olan diqqət və qayğısından danışarkən 1981-ci ildə tikintisinə başlanılan və bu gün kimya sənayesinin flaqmanı sayılan EP-300 qurğusunun tikintisini xüsusilə qeyd etmək lazımdır. Keçmiş SSRİ rəhbərliyinin müxtəlif maneələr yaratmaq cəhdlərinə baxmayaraq ümummilli liderimizin qətiyyəti sayəsində EP-300 qurğusu Sumqayıtda tikilib istifadəyə verildi və hazırda bu qurğu daxili və xarici bazarda böyük tələbata malik olan yüksək keyfiyyətli məhsul istehsal edir.

Müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə Yaponiyadan dövlət zəmanəti ilə götürülmüş kredit hesabına tikilmiş «Buxar generator» qurğusu kimya sənayesinin fasiləsiz elektrik enerjisi ilə təmin etməklə, istehsal olunan məhsulun maya dəyərinin aşağı düşməsinə, rəqabətli məhsul istehsalına şərait yaratdı.

Respublikamızın bütün əmək adamlarına olduğu kimi Sumqayıtın da əmək adamlarına daim qayğı göstərmişdir. Sumqayıt şəhərində xüsusi əməyi olan 11 nəfər onun hakimiyyəti illərində Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, yüzlərlə adam keçmiş SSRİ-nin və Azərbaycan SSR-in yüksək mükafatlarına layiq görülmüşdür.

Ulu öndərimizin Sumqayıt şəhərinə səfərlərinin hər biri şəhərin inkişafında ictimai mədəni həyatında mühüm iz qoymuşdur. Onun Sumqayıt şəhərində son, 2003-cü il 03 aprel tarixli səfəri Respublikamızın hər bir guşəsi kimi Sumqayıta olan dərin sevgisi, bir ata nəvazişi, şəhərin həyatında baş verən proseslərdən doğan bir nigarançılıq olmaqla şəhər və onun sakinlərinə olan xüsusi diqqət və qayğısının parlaq təzahürüdür. Bu səfər

şəhərin həyatında yeni bir səhifənin başlamasına, həyata keçirilən işlərin kəmiyyət və keyfiyyətinə, sumqayıtlıların əhval-ruhiyyəsinə əsaslı təsir göstərmiş, şəhər həyatına yeni bir dinamizm gətirmişdir. Sumqayıtlılar Ulu öndərimizin bu son səfərini hələ uzun illər minnətdarlıq hissi ilə xatırlayacaq, onun tövsiyələrinə əməl etməyə çalışacaq.

Ümumilli liderimizin xalqımız qarşısındakı xidmətləri deməklə, saymaqla qurtaran deyil. Onun böyük titanik fəaliyyəti ona ölməzlik əbədi yaşarlıq statusu qazandırmışdır. Onun şah əsəri olan müstəqil Azərbaycan Respublikası və xalqımız yaşadıqca Umimmilli liderimizin ideyaları yaşayacaq, nəsillərdən nəsillərə keçəcək, müqəddəsləşəcək, müqəddəslik simvoluna çevriləcəkdir. Onun parlaq əməllərinə, həmişəyaşar ideyalarına, cahanşümül fəaliyyətinə, vətəninə, xalqına təmənnasız sevgisinə görə hər bir azərbaycanlının dünyanın ən böyük Azərbaycanlısı olan Heydər Əliyevlə öyünməyə, fəxr etməyə haqqı var.

MƏLAHƏT HƏSƏNOVA
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

TÜRK DÜNYASININ QOŞA ZİRVƏSİ

Artıq bir ildən çox olacaq ki, biz dahi şəxsiyyət, ulu öndər, ümumilli liderimiz, xalqımızın mənəvi atası Heydər Əliyevin fiziki itkisinin qüssə və kədərini yaşayırıq. Bu itki haqda düşünərkən bəzən dünyanın və ya həyatın mənasız olduğu kimi fikirlərlə bədbinliyə qapılırsan...

Doğrudan da: «...kimlər gəldi, kimlər getdi...». Bu deyimin nə qədər böyük mənası və hikməti varmış... Bəşər tarixi yarandığı gündən bu günədək milyonlarla, hətta milyardlarla insanlar gəlib-gedib. Bu bir gerçəklikdir ki, onlar arasında elə insanlar, daha doğrusu, elə şəxsiyyətlər var ki, nəinki yüzilliklərdir ki, yaşayırlar, nə qədər ki, bəşəriyyət var onlar da yaşayacaqlar. «Tarixi yazan, tarixi yaradan, tarixin özü şəxsiyyətlər...»

Türk dünyasının görkəmli oğlu, eləcə də xalqımızın qüruru və şərəfi olan Heydər Əliyev də belə şəxsiyyətlərdəndir. Bu böyük şəxsiyyəti, onun irsini bir elmi mənbə kimi nəinki alimlər, tədqiqatçılar öyrənirlər, hətta əli qələm tutan, dili söz tutan hər kəs ona olan məhəbbət və hörməti təzahür etdirmək istəyirlər.

Bu gün Heydər Əliyev şəxsiyyətini, onun irsini öyrənən istər xarici, istər yerli tədqiqatçı-alimlər onu gah C.Vaşinqtona, gah A.Linkolna, gah da De Qola bənzədirlər. Lakin bu tarixi şəxsiyyətlərdən fərqli olaraq Heydər Əliyev dövlət quruculuğunda bənzəri olmayan problemləri gerçəkləşdirmişdir. Ən çox fərqləndirici və üstün, xüsusən nadir cəhətlərdən biri də odur ki, Heydər Əliyev bir birindən fərqli olan iki müxtəlif siyasi-sistemdə ən yüksək zirvəni fəth etmişdir.

Bu yaxınlarda Türkiyədən olan bir qrup siyasətçi həmkarlarımla az qala gecə yarısından keçənədək Türk dünyasının Böyük oğlu Heydər Əliyevin Türk dünyası üçün, xüsusən Türkiyə - Azərbaycan xalqları qarşısında müstəsna xidmətlərini bir daha böyük minnətdalığla xatırlamış M.K.Atatürk və H.Əliyevin XX əsrdə Türk Dünyası üçün Tanrı Vergisi, Türk Dünyasının Qoşa Zirvəsi olduğu ilə fəxr etmişik.

Bir millət iki dövlətin ədəbi liderləri olan Müasir Azərbaycan Dövlətinin Qurucusu Heydər Əliyev və Türkiyə Cumhuriyyətinin Qurucusu Mustafa Kamal Atatürk oxşar cəhətlərə malik əfsanəvi qəhrəmanlıqları ilə yaddaşlarda daima yaşayacaqlar. Bu gün hər iki şəxsiyyətin oxşar cəhətlərindən çox bəhs edilir, çox tarixi faktlar göstərilir. Bu böyük şəxsiyyətlər arasında qeyri-adi bənzərliyin bəzilərini xatırlatmaqla bir daha bunun şahidi olarıq.

Türkiyə Cumhuriyyətinin Qurucusu Mustafa Kamal Atatürk Osmanlı Dövlətində (İmperatorluqda) yüksək xidmətlərinə görə Paşa-General rütbəsinə qədər ucalmışdır. 1915-ci ildə Osmanlı Dövlətində Çanaqqala savaşında göstərdiyi qəhrəmanlıqlara görə 35 yaşında ikən Paşa rütbəsi verilmişdir. 1918-ci ildə İskəndəriyədə İldırım Orduları Komandanlığını yaradaraq buranı İnqilis işğalından qurtarmaq istəyir. Lakin Osmanlı Padşahı buna qarşı çıxır və Atatürkün bu Komandanlığını ləğv edərək onu İstanbula çağırır. 30 aprel 1919-cu ildə Padşahın əmri ilə o Samsona Ordu Müfəttişi kimi göndərilir. Osmanlının çökdüyünü və dünyadakı gedişatı anlayaraq, Yeni Türkiyə Cümhuriyyətini qurma planları ilə 1919-cu ilin iyul ayında Paşalığı (generallığı) buraxır və ilk dəfə mülki geyim geyir və Ərzurum Konqresini təşkil edir.

Bu dönəmdən başlayaraq Atatürk onunla həmfikir olan silahdaşlarını və Türk Millətini arxasınca apararaq Yeni Türkiyə Cümhuriyyətini qurur. Dağılmış bir imperatorluğun külləvi üzərində bu gün dünya birliyində önəmli yeri olan bir dövlətin qurulması Atatürkün adı ilə bağlıdır.

İtalyan, Alman, Fransız, Yunan və Qars Rus cəbhələrində qalıb gəlmiş, eləcə də Çerkez Ethem və bunun kimi bir çox daxili münaqişələri və vətəndaş müharibəsinin qarşısını almışdır. Atatürk dünyanın ən güclü ordularından birini Türk Ordusunun qurucusudur. O 1928-ci ildə Türk Əlifbası islahatını həyata keçirmiş, bugünkü Türk Maliyyə Sisteminin təməlini goymuşdur.

Çağdaş Azərbaycan Dövlətinin Qurucusu Heydər Əliyev Sovetlər Birliyində Dövlət Təhlükəsizlik Komitəsində sədr vəzifəsinə qədər irəli gələrək, general rütbəsinədək ucalmışdır. Heydər Əliyev 1969-cu ilin iyul ayında Azərbaycana rəhbər təyin edilmiş və 1982-ci ilədək Azərbaycanda çox ciddi strateji islahatlar həyata keçirmişdir. Sovetlər Sisteminin ən yüksək qurumu olan Siyasi Buroya ilk Azərbaycanlı kimi üzvüliyə seçilir.1982-cü ildə Sovet İmperiyasının ən yüksək vəzifələrindən birinə Nazirlər Kabineti sədrinin I müavini vəzifəsinə irəli çəkilir. Bu illərdə onun həyata keçirdiyi böyük miqyaslı islahatlar haqda bu gün hələ də Rusiya və eləcə də digər keçmiş Sovet respublikalarında böyük minnətdarlıq hissi ilə xatırlanır.

Ermənipərəst Qorbaçovun Sovet İttifaqını dağıtmaq niyyətini və Dağlıq Qarabağ problemindəki onun gizli siyasətini çox gözəl başa düşən Heydər Əliyev özünün barışmaz mövqeyini qətiyyətlə bildirmişdir. Ona görə də 1987-ci ildə Siyasi Buro üzvülüyündən uzaqlaşdırılmışdır. Sovetlərin çökməsini qabaqcadan görən Heydər Əliyev Siyasi Buronun üzvü olduğu üçün Moskvada onun üçün yaradılmış gözəl şəraitdən imtina etmiş 1990-cı ildə doğulduğu Naxçıvana getmiş (Atatürk Samsona gəldiyi kimi) və sadə vətəndaş kimi xalqın içində yaşamağa daha çox dəyər vermişdir. Azərbaycanda xüsusən Bakıda Xalq hərəkatı illərində Heydər Əliyev Türkçülük hərəkatını Naxçıvanda başlamış və qısa zamanda xalq Onu Naxçıvan Ali Məclisinə sədr seçmişdir. Hakimiyyətdə olan Xalq Cəbhəsinin səriştəsiz və bacarıqsız fəaliyyəti, Qarabağ problemi ilə bağlı uğursuz siyasət və daxili münaqişələr ölkədə vətəndaş müharibəsinə gətirib çıxarmışdı.

Həmin illərdə Rusiya Təhlükəsizlik xidmətlərinin və İranın Gizli xidmət Orqanlarının dəstəklədiyi R.Qazıyev, S.Hüseynov və Ə.Hümbətov kimi «komandirlər» Azərbaycanda Talış-Muğan və Ləzgistan Respublikaları kimi bölgələr qurmağa çalışırdılar. (Bu eyni ilə Atatürkün üzləşdiyi Çerkez Ethem probleminə bənzəyir). Bütün bunlar, eləcə də Ə.Elçibəyin rəhbərlikdən qaçması nəticəsində Azərbaycan bir dövlət kimi yox olma təhlükəsindəydi. Xalqın təkidi və tələbi ilə II dəfə ölkəyə rəhbərliyə gələn H.Əliyev bütün bu problemləri aradan qaldıraraq Azərbaycanı parçalamaqdan qurtarmışdır. Xalqımız hər ilin 15 iyun tarixini Azərbaycanın Qurtuluş günü kimi bayram edir. Bütün ömrünü xalqın yolunda şam kimi əridən əziz rəhbərimiz Heydər Əliyev qeyd etdiyimiz problemlərin həllindən sonra qısa müddət ərzində çox saylı islahatları gerçəkləşdirdi.

Heydər Əliyev Yeni Azərbaycan Dövlətini qurdu. Təməlini Sovet dönəmində qoyduğu bugünkü muasir Azərbaycan Ordusunu yaratmaqla qısa müddət ərzində elə bir ordu quruculuğu siyasəti formalaşdırdı ki, bu gün hər bir azərbaycanlı Ordumuzla fəxr edir və qürur duyur. Bir millət, iki

dövlət prinsipinə böyük önəm verən dahi rəhbər bu sahədə də Türk Ordusunun təcrübəsini də Milli Ordumuza gətirdi.

Heydər Əliyevin Azərbaycan Dövləti, Azərbaycan xalqı qarşısında o qədər xidmətləri var ki, bunu söyləməklə, yazmaqla, tədqiq etməklə bitmir, tükənmir. Bu yazıda onun ancaq tək xalqımız və dövlətimiz üçün yox, region üçün, bütövlükdə dünya üçün çox əhəmiyyətli olan bəzi işlərini xatırlayırıq. Ulu öndərin müdrik siyasəti nəticəsində qısa bir zamanda superdövlətlərin və supergüclərin Əsrin Neft müqaviləsi ilə Azərbaycana bağlaması, bunun ardınca yüzilliyin ən böyük neft layihəsi olan «3 dənizin əfsanəsi» adlanan Bakı-Ceyhan boru xətti, Qədim və tarixi İpək Yolu, Bakı-Ərzurum Qaz kəməri və s. layihələr gerçəkləşmişdir.Bütün bunların nəticəsində Bakı – Ceyhan Neft boru xətti layihəsi nəinki Azərbaycanın iqtisadi müstəqilliyinin qarantı oldu, bu boru xəttilə Azərbaycan Türkiyə ilə ayrılmaz hala gəlmişdir.

Heydər Əliyev Azərbaycanın gələcəyini bugünkü gənc nəsillə bağlayırdı. O hələ Sovet vaxtında hazırladığı və həyata keçirdiyi gənclərin Azərbaycandan kənar təhsil almaası sistemini Müasir Müstəqil Azərbaycanda da uğurla həyata keçirirdi. Bu gün minlərlə tələbə-gənc ölkədən kənarda, ən inkişaf etmiş ölkələrdə təhsil alırlar. O Azərbaycanda Olimpiya hərəkatının təməlini qoydu və inkişaf etdirdi. Bu gün Olimpiyaçılarımız aylı-ulduzlu, üç rəngli bayrağımızı ən yüksək zirvələrdə dalğalandırırlar.

Tarixçilər və sosioloqlar «Tarix təkrarlanır» deyirlər. Görünür bu fikir Türk Dünyasının iki ulu öndəri Muasir Azərbaycan Dövlətinin Qurucusu Heydər Əliyev və Türk Cümhuriyyətinin Qurucusu Mustafa Kamal Atatürk üçün deyilmişdir.

...Bu günlərdə xalqımız öz böyük oğlu Heydər Əliyevin doğum gününü qeyd edərək, bu böyük şəxsiyyətin xalqımız qarşısında müstəsna xidmətləri bir daha xatırlanacaq. Əslində xalqımız hər gün onu anır, onu xatırlayır, onun müqəddəs ruhu qarşısında baş əyir özü də kədərlə, qüssə ilə yox, gələcəyə nikbin gözlə baxaraq.

Qədirbilən xalqımız hər zaman əbədiyaşar Prezidentimiz Heydər Əliyevin canı qədər sevdiyi və bizlərə əmanət qoyduğu Azərbaycan Dövlətini göz bəbəyi tək qoruyacaq və Heydər Əliyev siyasətinin layiqli davamçısı Möhtərəm Prezident İlham Əliyevə daima sadiq qalacaq.

KƏRİM KƏRİMOV
Milli Məclisinin
İntizam komissiyasının sədri
YAP İdarə Heyətinin üzvü

HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN ƏBƏDİ İNTİBAH SİMVOLUDUR

Ümummilli liderimiz Heydər Əliyev haqqında şahidi və iştirakçısı olduğum hadisələri qələmə almaq təklifi məni xeyli düşünməyə vadar etdi. Tərəddüd etdim. Ona görə yox ki, o böyük insan haqda xatirələrim yoxdur. Son 12 ildə Heydər Əliyev partiyasının - Yeni Azərbaycan Partiyasının idarə heyətinin üzvü kimi, 1998-ci il prezident seçkilərində Heydər Əliyevin seçki qərargahının təşkilatı məsələlər üzrə sədr müavini kimi onunla çoxlu görüşlərimiz olub, televiziyada, yığıncaqlarda, xarici səfərlərdə onun çıxışlarını hamı kimi mən də diqqətlə izləmişəm və nəhayət ondan atalıq qayğısı görmüşəm. Sadəcə mən özümü qələm sahibi hesab etmirəm, fikirlərimdə subyektivliyə yol verməkdən ehtiyat edirəm, ən əsası isə o dahi insanın həyat və fəaliyyətində müşahidə etdiyim, şahidi olduğum hadisələri layiqincə, dolğun əks etdirməkdə, qələmə almaqda çətinlik çəkirəm. Nəzərə alsaq ki, onun ideyalarının bir qismi gələcək onilliklərdə reallaşacaq, deməli Heydər Əliyevin əsl qiymətini verməkdə bu gün acizəm. Keçən əsrin 70-80-ci illərində keçmiş Sovetlər imperiyasının ən yüksək vəzifələrində çalışarkən, gələcək Azərbaycanın müstəqilliyini görən və bu sahədə tədbirlər həyata keçirən Heydər Əliyevin ideyalarını onun özündən başqa heç kim dərk etmirdi.

Dahi şəxsiyyətlərin həyatını izlədikcə, onlarda çoxlu tale oxşarlığına rast gəlirik. Bizə daha yaxın və doğma olanlardan Məhəmməd peyğəmbərin, Mustafa Kamal Atatürkün və Heydər Əliyevin həyat və fəaliyyətlərindəki oxşar cəhətlərə nəzər salaq. Əvvəl başdan deyim ki, dünya miqyaslı bütün peyğəmbərlər və dövlət başçıları mürəkkəb dövrdə, tarixin sərt döngələrində həyata gəlib, fəaliyyətə başlayıblar. Həyat axarına düşmüş xalqlarda, millətlərdə, cəmiyyətlərdə dahi dövlət başçıları meydana gələ bilməz. Amerikanın, İngiltərənin, Fransanın, Almaniyanın, İtaliyanın tarix boyu çox görkəmli dövlət

başçıları olub. Tarixin sınağına tuş gələrkən, onların bir hissəsi müdriklik, qətiyyət göstərib xalqlarını bu sınaqdan şərəflə çıxara biliblər, xalqlarının əbədi məhəbbətinə nail olublar. Həyat axarına düşmüş, sabit inkişaf yolunda olan, xarici təhlükələrdən yaxa qurtarmış həmin dövlətlərdə bu gün dahi dövlət başçılarının meydana gəlməsi mümkün deyil, buna ehtiyac da yoxdur.

Məhəmməd peyğəmbərin, Mustafa Kamal Atatürkün və Heydər Əliyevin dünya səviyyəli şəxsiyyətlər kimi yetişmələri onların rəhbərlik etdikləri xalqların - ərəb, türk və azərbaycan xalqlarının tarixinin sərt dönüşünə təsadüf edir.

Məhəmməd peyğəmbər eramızın 570-ci ilində Məkkədə doğulub. Ərəb xalqı bu dövrdə millət kimi formalaşmamışdı. Ərəbistan yarımadasında və Afrikanın şimalında çoxsaylı ərəb qəbilələri əsasən köçəri həyat keçirirdi. Vahid dinləri yox idi, bütpərəstlik hökm sürürdü. Qonşu dövlətlərin – İranın, Bizans imperiyasının təcavüzlərinə layiqincə cavab verə bilmirdilər. Belə bir vəziyyətdən çıxış yolunu Məhəmməd peyğəmbər ərəb xalqının birləşməsində görürdü. Bütpərəstlik şəraitində bu mümkün deyildi. Hər qəbilənin öz sitayiş yeri və sitayiş simvolu – bütü vardır. Bütpərəstliyi ləğv etmək, xristianlarda olduğu kimi tək Allahlığa keçmək lazım idi. Bundan başqa zamanla uzlaşmayan qəbilə adət-ənənələrində dəyişiklik etmək, cəmiyyətdə humanizm prinsiplərini bərqərar etməyə ehtiyac vardı. Bu amal uğrunda Məhəmməd peyğəmbər ömrünün axırına qədər, 22 il mübarizə apardı. Bu yolda təhqirlərə, təqiblərə, maddi və mənəvi məhrumiyyətlərə və nəhayət, məcburi mühacirətə məruz qaldı, 622-ci ildə Məkkədən Mədinəyə köçdü.

Heydər Əliyev də Məhəmməd peyğəmbərin taleyini yaşadı. Xalqını xoşbəxt, vətənini azad, müstəqil görmək istəyən Heydər Əliyev də Məhəmməd peyğəmbər kimi təqib və təhqirlərə, maddi və mənəvi sıxıntılara, məcburi mühacirətə düçar oldu. Ona qarşı Moskva və Azərbaycan mətbuatında ardı-arası kəsilməyən böhtan və təhqirlərlə dolu yazılar dərc edildi. Doğma yurduna, Bakıya gəlişinə icazə verilmədi. Bu məqsədlə silahdaşı Əjdər Xanbabayev qətlə yetirildi, yaxınları, o cümlədən doğma qardaşı və silahdaşı Cəlal Əliyev təqiblərə məruz qaldı, Bakıdakı evi əlindən alındı, respublika Ali Sovetində o böyük şəxsiyyətə qarşı böhtan və təhqir kompaniyası təşkil edildi.

Məhəmməd peyğəmbərdən fərqli olaraq Heydər Əliyevin taleyinə ikiqat mühacirət yazılmışdı. O, 1990-cı ilin iyul ayının 20-də Bakıya, iki gün

sonra Naxçıvana mühacirət etmək məcburiyyətində qaldı. Heydər Əliyevin hər iki mühacirəti Məhəmməd peyğəmbərin mühacirətindən 1368 il sonra olsa da, eyni aya – iyul ayına təsadüf edir.

Məqsəd - ilk növbədə onun ürək, əsəb sistemini pozmaq, ömrünü qısaltmaq idi. Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş Moskva rəhbərliyi və onların respublikamızdakı nökərləri buna qismən nail oldular. Amma Allah öz mərhəmətini Azərbaycan xalqının üzərindən əskik etmədi, onu qoruyub saxladı, Azərbaycanın "olum, ya ölüm" dilemması qarşısında durduğu vaxt ali hakimiyyət kürsüsünə gətirdi. Heydər Əliyev tarixi missiyasını həyata keçirdi, respublikamızın müstəqilliyini, suverenliyini qoruyub saxladı, onu parçalanmaqdan xilas etdi, xalqımızın gələcək xoşbəxt, firəvan yaşayışının əsasını qoydu.

Mustafa Kamal Atatürk 1881-ci ildə Yunanıstanın Saloniki şəhərində anadan olmuşdur. 1918-1923-cü illərdə Türkiyədə milli-azadlıq hərəkatına rəhbərlik edib. Birinci dünya müharibəsində ağır məğlubiyyətə düçar olan və Avropada "xəstə adam" imici qazanmış Türkiyə Mustafa Kamal Atatürkün ölkənin milli müstəqilliyi, suverenliyi uğrunda apardığı mübarizədə qazandığı böyük qələbələri sayəsində demək olar ki, qalib ölkələrlə bir sırada durdu. Ölkə respublika elan edildi. İctimai-siyasi həyatın bütün sahələrində güclü islahatlar həyata keçirildi. Bütün bunlara baxmayaraq Türkiyənin Böyük Millət Məclisində Mustafa Kamal Atatürkün respublika prezidentliyinə namizədliyi irəli sürülərkən mübahisələr başladı. Yeni quruluşu qəbul edə bilməyən nüfuzlu məmurlar, paşalar Atatürkün namizədliyinə qarşı çıxdılar. Onlar Konstitusiyaya belə bir əlavə edilməsini tələb etdilər ki, kim Türkiyə Respublikasının sərhədlərindən kənarda doğulubsa, onun respublika prezidentliyinə namizədliyi irəli sürülə bilməz. Atatürk keçmiş Osmanlı imperiyasının ərazisində, indi isə Dünya Müharibəsinin şərtlərinə görə respublika hüdudlarından kənarda qalmış Yunanıstan ərazisində - Saloniki şəhərində doğulmuşdu. O, opponentlərinə izah etməyə çalışırdı ki, heç kəs doğulduğu yeri özü seçə bilməz, bu insan iradəsindən asılı deyil, taleyin işidir. Digər tərəfdən, doğulduğu yer, keçmiş Türkiyə ərazisidir.

Eyni hadisə 80 il sonra Heydər Əliyevin başına gəldi. Heydər Əliyevin prezident seçilməsinin qarşısını almaq üçün prezidentliyə namizədlər üçün yaş həddi qoyuldu. Namizədin yaşı 65-dən çox olmamalıdır. Heydər Əliyevin isə 69 yaşı vardı. Maraqlıdır ki, özlərini demokratik libasda qə-

ləmə verən cəbhəçilər də 1992-ci ildə hakimiyyətə gəldikdən sonra, prezidentliyə namizəd üçün qoyulmuş yaş senzini ləğv etmədilər. Əksinə, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri vəzifəsində çalışan Heydər Əliyevə qarşı qiyam təşkil etdilər. Doğma Kəlbəcərini işğal etmiş erməni dığalarına qarşı vuruşmaq əvəzinə daxili işlər naziri vəzifəsini tutan İsgəndər Həmidov hərbi formada televiziya ekranlarından Heydər Əliyevə meydan oxuyurdu. Aydındır ki, heç kim özünün yaş həddini müəyyən etmir, tənzim etmir. Bu taleyin işidir. Heydər Əliyev respublikasının müstəqilliyi və xalqının firavanlığı üçün əlindən gələni əsirgəməmişdi. Gələcək müstəqil respublikanın bazisini – maddi bazasını yaratmışdı, elmi-mədəni səviyyəsini qaldırmışdı, hətta hərbi kadrların hazırlanması üçün tədbirlər həyata keçirmişdi və nəhayət, idarəetmə və dövlətçilik işində misilsiz təcrübə toplamışdı. Belə bir insanı dövləti idarəetmədən kənarda qoymaq ən azı cinayət idi.

Belə bir şəraitdə Heydər Əliyevin hüquqlarını müdafiə etmək, yaş senzini ləğv etmək məqsədilə vətənpərvər ziyalılardan ibarət bir qrup Bakıda məqsədyönlü iş görür, əmək kollektivlərində təbliğat aparır, mitinqlər təşkil edirdi. Bu işin təşkilatçıları Murtuz Ələsgərov, Ziya Bünyadov, Sirus Təbrizli, Əli Nağıyev, Hacıbala Abutalıbov, Fərəməz Maqsudov, Zahid Qaralov, Əli İnsanov, Arif Rəhimzadə, Asya Manafova, Səfiyar Musayev, Şahlar Əsgərov, Ramiz Mirzəyev, Əli Əhmədov, Fikrət İsmayılov, Rızvan Vahabov, Yaqub Əliyev, Mixail Zabelin təvazökarlıqdan uzaq olsa da bu sətirlərin müəllifi və başqa yoldaşlar idilər. Partiyada gənclərin ilk qaranquşları hesab edilən Siyavuş Novruzov, Abdin Fərzəliyev, Vüqar Rəhimzadə gənclərin arasında Heydər Əliyev irsinin təbliğ edilməsində yorulmaq bilmədən çalışırdılar.

Əksəriyyəti qalın qafalılardan ibarət Ali Sovet yaş senzini götürmək istəmirdi. Eldar İbrahimov Ali Sovetdə deputatlar arasında yaş senzinin ləğv edilməsi ilə əlaqədar qətiyyətli iş aparırdı. 1992-ci ilin may ayında Ali Sovetin qarşısında Heydər Əliyevin hüquqlarını müdafiə məqsədilə mitinq təşkil edilmişdi. Mən də çıxış etdim, Heydər Əliyevin xidmətlərindən danışdım, çıxışımı Ali Sovetin deputatlarına və respublika rəhbərliyinə xitabən bu sözlərlə yekunlaşdırdım:

"Manqurd xislətli insanlar, Heydər Əliyevdə zəiflik əlamətləri axtarmayın, onun hər yumruğu Sizin başınızdan böyükdür".

Heydər Əliyevlə şəxsi tanışlığım 1992-ci ilin noyabr ayına təsadüf edir. Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilirdi. Nərimanov rayon təşkilat komitəsinin sədri kimi mən də konfransa nümayəndə seçilmişdim. Naxçıvan blokada şəraitində yaşayırdı. Güclü şaxta vardı. Konfrans C.Məmmədquluzadə adına dram teatrının binasında təşkil edilmişdi. Hamı paltoda oturmuşdu. Zalda mənfi dərəcə soyuq olduğundan bəziləri papaqlarını belə çıxarmamışdılar. Heydər Əliyev rəyasət heyətində tək oturmuşdu, kostyumda idi, çiyninə palto salmaq istədilər, razılıq vermədi. Yetmiş yaşı haqlamış Heydər Əliyev altı yüz nəfər nümayəndə qarşısında üç saatdan artıq çəkən konfransda yaşına irad tutanlara rəğmən nə qədər sağlam olduğunu nümayiş etdirdi. İlk dəfə qarşımda polad iradəli mətin insan görürdüm. Konfransda mən də çıxış etdim, nizamnaməyə, məramnaməyə dair təkliflərimi verdim, sonda Heydər Əliyevə müraciət etdim:

"Hörmətli cənab sədr! SSRİ maşınqayırma sənayesinin flaqmanı Bakı kondisionerləri zavodu Sizin övladınızdır. Onu Siz yaratmısınız. Övladınızın da iki övladı olub – Bakmil və Bakı məişət maşınları zavodu. Bunlar da Sizin nəvələrinizdir. Övladınızın və nəvələrinizin əmək kollektivlərinin salamlarını Sizə çatdırmaqdan şərəf duyuram. Nərimanov rayonu müəssisələrinin əməkçiləri Sizi Bakıda səbirsizliklə gözləyirlər".

Bu sözləri deməyə mənim ixtiyarım çatırdı. Təsis konfransı ərəfəsində Nərimanov rayonunun bütün iri müəssisələrində beş min nəfəri birləşdirən partiya özəklərimiz vardı. Mən onların xahişini yerinə yetirirdim.

Vida görüşümüzdə Heydər Əliyevi əmək kollektivləri adından bir daha Bakıya dəvət etdim. O, Nərimanov rayonu əməkçilərinə təşəkkürünü bildirdi. Görüşdüm, ayrıldım, beş addım aralanmışdım ki, arxadan güclü səs eşitdim: "Kərim müəllim, kollektivlərə çatdır, mən gələcəyəm", bir az pauza verib davam etdi: "mən mütləq gələcəyəm". Heydər Əliyev həyəcanlı idi. Yerimdə donub qalmışdım. 1992-ci ilin sonunda bütün millət Heydər Əliyevdən bu sözləri gözləyirdi. Sevincimdən qəhqəhə çəkib güldüm, əl çaldım, yoluma davam etdim. Uzun müddət o böyük insanla ilk görüşümün təsiri altında yaşadım.

YAP-ın təsis konfransından sonra partiya quruculuğu işi böyük vüsət aldı. Xalqımızın və dövlətimizin nicatını Heydər Əliyevdə görən əhalinin mütləq çoxluğu onun partiyasına üzv olmaq istəyirdi. Xarakterik bir epizodu misal gətirmək istəyirəm. 1993-cü ilin fevral ayında , iş planına uyğun olaraq Montin qəsəbəsinin daş karxanası adlanan yaşayış sahəsində partiyanın ilk ərazi təşkilatını yaratmalı idik. Bu ərazi Bağırov adlanan körpüdən Montin bazarı-

na qədər ərazini əhatə edir. Üç nəfər səhər saat 10-da işə başladıq. Bazar günü idi. Çiskin yağış yağırdı. Küçələr çirkli, zibilli idi. Yaşayış sahəsi əsasən "gecəqondu"lardan ibarət idi. Qapıları döyüb partiya yaratmaq istədiyimizi bildirirdik. Qapıların arxasından narazılıq, bəzən hətta kobud sözlər eşidirdik. Cəbhə hakimiyyəti vaxtında quldurluq hərəkətləri baş alıb getdiyindən, naməlum şəxslərə heç kim qapı açmaq istəmirdi. Xəbər verəndə ki, Heydər Əliyevin partiyasını yaradırıq, qapılar üzümüzə taybatay açılırdı. Qarşımıza çay qoyulur, yemək təklif edilirdi. Bu Heydər Əliyevin elçilərinə göstərilən hörmət idi. Partiyanın nizamnaməsini, məramnaməsini izah etməyə çalışırdıq, əhəmiyyət vermirdilər. Onları ancaq bir məsələ maraqlandırırdı. Heydər Əliyev necədir, Bakıya nə vaxt gələcək. Cavab verirdik ki, gəlişimizin məqsədi bir-birindən aralı düşmüş Heydər Əliyevçiləri bir təşkilatda birləşdirməkdir ki, onun Bakıya gəlişini sürətləndirək. Səhər saat 10-dan axşam saat 8-ə qədər 60-a yaxın məmzildə olduq, 100- yaxın adamı partiyaya qəbul etdik. (İlk illərdə partiyaya qəbul qaydası sadə idi. Siyahı tuturduq, partiyaya qəbul olmaq istəyənlər qol çəkirdilər, partiya üzvü hesab olunurdular.)

Partiyaya qəbul olunanlardan 6 nəfərdən ibarət təşkilat qrupu yaratdıq, işin davamını onlara həvalə etdik. İki həftədən sonra 300 nəfərdən ibarət ilk partiya təşkilatının təsis iclası keçirildi. Partiya qərargahının 150 nəfərlik iclas zalında (indiki Vergilər nazirliyinin Bakı şəhər departamentinin binasında) ilk ərazi təşkilatının üzvlərinin hamısını yerləşdirmək mümkün olmadı. 1993-cü ilin fevral-mart aylarında YAP Nərimanov rayon təşkilatı 40 ilk partiya təşkilatını özündə birləşdirdi. İndiki müxalifət partiyalarının əksəriyyəti Heydər Əliyev partiyasının ilk təşkilatlarından birinin üzvlərinin sayına həsəd apara bilər.

1992-1993-cü illərdə ictimai-siyasi vəziyyətin gərgin vaxtlarında Yeni Azərbaycan Partiyasının, yaranma zərurəti və rolu haqqında bəzən ziddiyyətli fikirlər səsləndirilir. Həmin dövrlərdə iki-üç kresloda oturmaq fikrində olub partiya quruculuğuna qoşulmayan məmurlar (təəssüflər olsun ki, onların bəziləri indi də həmin kreslolarda əyləşiblər), partiyanın tarixi rolunu azaltmağa, hətta danmağa cəhd göstərirlər.

Hərdən bəzi partiya veteranları tərəfindən belə bir fikir səsləndirilir ki, partiya quruculuğunda oddan-alovdan keçmişik. Həqiqətdə partiya veteranlarına qarşı təqiblər, hətta terror hadisələri olub. Murtuz Ələsgərovun qanına qəltan edilməsi, Sirus Təbrizliyə qarşı Naxçıvanda və Bakıda zorakılıq, partiya qərargahında Əli Nağıyevə, Siyavuş Novruzova, Abdin Fərzəliyevə qarşı silahlı basqın halları baş verib. Eldar İbrahimovu Azərbaycan Respublikası Ali Sovetinin sədrliyinə Heydər Əliyevin namizədliyini irəli sürdüyünə görə ölümlə hədələyirdilər. Təqiblərə, təhqirlərə məruz qalmışıq. Axşamlar evimizə qayıdarkən uzun müddət kənardan müşahidə aparmamış mənzilimizə daxil ola bilməmişik. Lakin istər partiya quruculuğunda, istərsə də Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə, böyük təhlükələrlə qarşılaşan, sui-qəsdlərlə üzləşən, obrazlı dildə desək odlu-alovlu, hətta ildırımlı yollar keçən Heydər Əliyev özü olub. Onu Allah qorudu. Heç kim Heydər Əliyev üçün partiya yaratmayıb. Biz sadəcə Heydər Əliyevçiləri, xalqı Heydər Əliyevin rəhbərliyi altında bir təşkilatda birləşdirmişik. Zəif barmaqları güdrətli yumruğa çevirmişik. Amma bu işi yorulmaq bilmədən, cəsarətlə, kişi kimi görmüşük. Təsis konfransından bir neçə ay keçmiş bu qüvvə dağ seli təsiri bağışlayırdı. Heç bir qüvvə, o cümlədən iqtidar, müxalifət onun qarşısında dayana bilmədi. Bu qüvvənin təşkilatçısı, ilhamvericisi Heydər Əliyev idi. Qısa müddətdən sonra o, ali hakimiyyətə qayıtdı.

Bizi ideya ətrafında yox, şəxsiyyət ətrafında partiya yaratmaqda ittiham edənlər vardı. Onlar başa düşmürdülər ki, Heydər Əliyev məhz ideyalarına görə dünyanın məşhur siyasətçisi, dahi şəxsiyyət adını qazanmışdır. Azərbaycan bu gün məhz Heydər Əliyevin ideyaları əsasında inkişaf edir, inamlı addımlarla gələcəyə doğru gedir.

İlkin vaxtlarda partiya üzvlərinin mütləq çoxluğunu yaşlı və orta nəslin nümayəndələri təşkil edirdi. Gənclər az idi. Bu da təsadüfi deyildi. Heydər Əliyev ittifaq rəhbərliyinə gedərkən, 1992-1993-cü illərdə gənclik yaşına çatanların 7-8 yaşları vardı. Onlar Heydər Əliyevin respublikaya rəhbərliyindəki xidmətlərini dərk etməmişdilər. Həddi-buluq və gənclik yaşlarında isə meydan hərəkatının, Xalq Cəbhəsinin təsiri altına düşdülər. Eyni zamanda, Moskvanın nökərləri Vəzirov və Mütəllimov respublikada Heydər Əliyevin əleyhinə qərəzli, böhtan kampaniyası təşkil etmişdilər. Gənclər həm də bu təbliğatın təsiri altında idilər. Heydər Əliyev partiyanın təsis konfransında gəncləri və qadınları partiyaya cəlb etmək tapşırığı verdi, bu işdə ən böyük təbliğatı da özü apardı.

Cəbrə hakimiyyətinin səriştəsizliyindən, uğursuzluğundan məyus olan, mövcud anarxiyanı, cəbhəçilərin başıpozuqluğunu, təcavüzkar separatçılığı, ölkənin parçalanmaq təhlükəsini görən və Heydər Əliyevin televizıya ekranlarından müdrik çıxışlarını izləyən gənclər həqiqətin, çıxış yolunun harada olduğunu dərk etdilər, Heydər Əliyev partiyasına – Yeni Azərbay-

can Partiyasına axışmağa başladılar. Hazırda 360 min nəfər partiya üzvləri arasında gənclərin və qadınların sayı ayrı-ayrılıqda 40 faizdən çoxdur.

Böyük siyasət ustası, diplomat Heydər Əliyevin məharəti hər sahədə özünü göstərirdi. 90-cı illərin əvvəllərində Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycanın hərbi texnikaya, döyüş sursatına böyük ehtiyacı vardı. Respublikamızı tərk edib gedən Rusiyanın hərbi birləşmələrindən onlara məxsus bütün silahları, hərbi texnikanı, döyüş sursatını, hərbi və mülki əmlakı, danışıqlar, müqavilələr əsasında istifadəyə tam yararlı halda almaq vacib idi. Lakin o vaxtkı respublika və cəbhə rəhbərlərinin səhlənkarlığı, naşılığı üzündən bunu etmək mümkün olmadı. Texnikanın yararsız, kazarmaların sökülmüş vəziyyətinin televiziya ekranlarından şahidi olduq. Yararlı silahlar siyasət dəllallarının əlinə keçdi, bu silahlardan siyasi hakimiyyət uğrunda mübarizədə istifadə edildi.

Sərişəsiz respublika rəhbərliyinə, başıpozuq cəbhəçilərə rəğmən Heydər Əliyev bu işi Naxçıvanda nümunəvi qaydada təşkil etdi. Ruslar 1946-cı ildən Naxçıvanda yerləşdirilən, əvvəllər sovet ordusunun tərkibində olan, sonralar Rusiyanın tabeçiliyinə keçmiş 75-ci motoatıcı diviziyanı öz silahları, hərbi texnikası və əmlakı ilə birlikdə Naxçıvandan aparmaq istəyirdilər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbərliyi Rusiya dövlətinin rəhbərliyi, habelə Rusiya Federasiyası Müdafiə Nazirliyinin rəhbərliyi ilə, Zaqafqaziya Hərbi Dairəsinin, o cümlədən Naxçıvandakı 75-ci motoatıcı diviziyasının komandanlığı ilə danışıqlar aparmış, diviziyanın aparılmasına mane olmuş, onun buraxılmasına, həmin diviziyaya məxsus olan bütün silahların, hərbi texnikanın, avadanlıq və döyüş sursatlarının Azərbaycan Milli Ordusunun Naxçıvanda yerləşən 5-ci ələhiddə motoatıcı briqadasının sərəncamına verilməsinə nail olmuşdur. Bu barədə müvafiq sənədlər imzalanmışdır. Bu, işin görünən rəsmi hissəsi idi. Silahları döyüşə tam yararlı vəziyyətdə almaq üçün diviziya rəhbərliyini maraqlandırmaq lazım idi. Onlar vətənlərinə məchul şəraitə qayıdırdılar. Onların qayıtdıqları yerlərdə mənzilləri, iş yerləri yox idi. Bu sahədə də Heydər Əliyev böyük diplomatik məharət, humanistlik nümayiş etdirdi. Özünün keçmiş ittifaq miqyasındakı hörmətindən istifadə edərək, 75-ci diviziyanın vətənə dönən rəhbərliyinin iş və mənzil problemlərini həll etdi. Bu silahlar Ermənistanın təcavüzünün qarşısını almaqda mühüm rol oynadı. Heydər Əliyev bu hadisədə bir daha ölkə rəhbərinə məxsus müdriklik nümayiş etdirdi.

Prezident olmaq xəyalına düşən cəbhəçilər rəhbər vəzifəyə irəli çəkilməyə başqa kateqoriyadan yanaşırdılar. Rəhim Qazıyevdən hansı keyfiyyətlərinə görə prezident olmaq istədiyini soruşanda, o, belə cavab vermişdi: "Nə üçün ordubadlı prezident ola bilər, şəkili prezident ola bilməz?" Göründüyü kimi, şərhə ehtiyac yoxdur.

Heydər Əliyevlə bağlı xatirələrim çoxdur, onlardan bir neçəsini hörmətli oxucuların nəzərinə çatdırmaq istəyirəm.

1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İtaliyaya rəsmi səfərində onu müşayiət edənlər arasında mən də vardım. Azərbaycanın Prezidentini Romada böyük təmtəraqla qarşıladılar. Səfər uğurla davam edirdi. Bir gün axşam saat 11 radələrində Heydər Əliyevin şərəfinə təşkil edilmiş ziyafətdən iqamətgaha qayıdırdıq. Maşın korteji Romanın məşhur fontanlar meydanında dayandı. Meydanın gecəsi də gündüzü kimi işıqlı olur. Heydər Əliyev maşından çıxan kimi, əsasən qadınlardan ibarət 15-20 nəfər xarici turist onu əhatəyə aldı, qucaqlayıb öpməyə, haləhvalını xəbər almağa başladılar. Heydər Əliyev onların kimliyi ilə maraqlandı. Məlum oldu ki, Rusiyadan gəliblər. Heydər Əliyev yarı zarafatla dedi ki, bəs mən elə bilirdim ki, siz məni artıq unutmusunuz. Onlarsa cavab verdilər ki, əziz Heydər Əliyeviç ruslar sizi nəinki unutmayıblar, əksinə sizi özlərinə Prezident görmək istəyirlər. Heydər Əliyev gülürdü, ölkə rəhbərliyində çalışdığı illərdəki fəaliyyətinin bəhrəsini görürdü. Qorbaçovun düşmənçilik hərəkətləri, xalqın ona olan məhəbbətini azalda bilməmişdi.

İtaliyaya səfərin son günlərini Neapol şəhərində olduq. Şəhərin relyefi, amfiteatr forması, Neopolitan körfəzi ilə təması tamamilə Bakını andırır. Adları başqa olsa da Neapolun Bayılı da var, Zığ burnu da. Yeganə fərq ondan ibarətdir ki, Neapolun Zığ tərəfində eramızın 79-cu ilində Pompey şəhərini lava və kül altında basdırmış Vezuni vulkanı var, Bakıda isə yoxdur.

Səfərimizin son günü Pompey şəhərində keçdi. Pompey Neapolun 16 kilometrliyində yerləşir. Qədim Roma imperiyasının ən möhtəşəm şəhərlərindən olub. Vezuvi vulkanı 40 kilometr məsafədə ətrafı, o cümlədən Pompey şəhərini qalın kül və lava qatı altında tamamilə basdırıb. Qazıntı işləri nəticəsində hazırda Pompey demək olar ki, tamamilə təmizlənib, açıq səma altında muzeyə çevrilib.

Heydər Əliyev təxminən 6 saat yorulmadan şəhəri gəzdi. Onun teatrları, idman meydanları, küçələri, evləri, möhtəşəm arxitektura abidələri, bir sıra mənzillərlə, müxtəlif istirahət yerləri ilə tanış oldu, hətta qədim romalıların

yaşayış tərzi ilə maraqlandı. Binaların tikintisində və küçələrin döşəməsində çaylaq daşından istifadə edilib. Səkilər küçələrdən xeyli hündürdə yerləşir. Küçələrin ortasında bulaqlar olub. Binaların tavanları lavadan yansa da daş divarları, balkonları olduğu kimi qalıb. Qədim şəhərdə arxitektura qaydalarına əməl edilməsi küçələrin, balkonların, meydanların, istirahət yerlərinin və abidələrin düzülüşü simmetriyası Heydər Əliyevi valeh etmişdi. Arabir dayanıb fikrə dalırdı. Bütün sahələrdə olduğu kimi memarlıq sahəsində yüksək səriştəsi olan Heydər Əliyev min illərin arxasından şəhərin o vaxtkı əzəmətliyini, səliqə-sahmanını görürdü. Ekskursiya zamanı bir neçə dəfə Bakı meri Rəfael Allahverdiyevi yanına çağırıb iki min il əvvəlki Pompey şəhəri ilə müasir Bakı şəhəri arasında müqayisə apardı və ona irad tutdu.

Partiyamızın yaradılmasından bir ay keçirdi, lakin partiyanın emblemi yox idi. Partiyamızın sədri partiya aparatına emblem hazırlamaq haqda göstəriş verdi. 1992-ci ilin dekabrında idarə heyətinin üzvləri akademik Fərəməz Maqsudovun kabinetində emblemlərə baxış keçirdi. İki nəfər mütəxəssis 80-dən çox rəngli emblem hazırlamışdı, masaların üstündə yer çatışmadı, onları döşəməyə düzdük. Rəsmlərdə Azərbaycan tarixinə, hərəkətdə və inkişafda olan yer və kosmik fəza cisimlərinə aid çoxsaylı simvollar vardı. Seçimin çoxluğu bizi çaşdırmışdı. Azdan seçim asandır, çoxdan çətindir. Bu işdə bizə kömək etmək üçün görkəmli memar Rasim Əliyev də tədbirə dəvət edilmişdi. 13 nəfər idarə heyəti üzvü, hərə öz seçimini etdi. Qərara aldıq ki, seçdiklərimizi Heydər Əliyevə göndərək, hansını bəyənsə o da partiyanın emblemi olsun. Heydər Əliyev xəbər tutanda ki, ona idarə heyətinin seçdiyi rəsmlər göndərilir, razılaşmadı, bütün rəsmləri göndərmək tapşırığını verdi. Gözləmədiyimiz hadisə baş verdi. Heydər Əliyev akademiklərin, professorların, ziyalıların seçə bilmədiyi bir rəsmi seçdi: İnkişafda olan ağacın mərkəzində, hərəkətdə olan səkkizguşəli ulduz və ulduzun da mərkəzində günəş şəkli olan rəmzi. Heydər Əliyevin xeyir-duası ilə bu rəsm partiyamızın emblemi oldu. Mütəxəssislərin fikrincə bu emblem siyasi partiyaların emblemlərinin ən uğurlusudur. Məlumat üçün deyim ki, partiya emblemının müəllifi Bakı şəhəri İcra hakimiyyəti Memarlıq və Şəhərsalma baş İdarəsinin rəis müavini Sədrəddin Əkbərovdur. Onun emblemləri bir sıra idarələrin, müəssisələrin, təşkilatların adlarını bəzəyir. Sədrəddin Əkbərovun dediyinə görə o, özünü bu sahədə kifayət qədər məlumatlı mütəxəssis hesab etsə də, partiya rəmzlərinin müzakirəsi zamanı Heydər Əliyev ona emblemlər, rəmzlər, simvollar haqda çoxlu yeni məlumatlar

verdi. Dünyanın bir sıra məşhur partiyalarının emblemlərinin mənasını açıqladı, qeyd etdi ki, Amerikanın respublikaçılar və demokratlar partiyalarının emblemlərində fil və eşşək şəkilləri onların dövlət və xalq naminə fil və eşşək kimi çalışacaqlarına, Türkiyənin "Ana Vətən" Partiyasının emblemində Türkiyənin xəritəsinin arı şanı formasında təsviri və üzərində arı şəkli partiyanın arı kimi işləyərək, bu şanı balla dolduracağına işarədir.

Kimsə öz dövründə peyğəmbər olmadığı kimi (Musa, İsa, Məhəmməd peyğəmbərlər) kimsə də öz dövründə dahi alim (Bruno, Qaliley, Kopernik), dahi dövlət başçısı (Napoleon, Atatürk) adını qazanmayıb. Onlar sağlığında layiq olduqları əsl qiyməti ala bilməyiblər. Bu tarixin ironiyasıdır. Həyatları amansız mübarizə şəraitində keçib, bu yolda çarmıxa çəkilib, odda yandırılıb, sürgün edilib, yaxşı halda ağır təqiblərə məruz qalıbdır. Zaman hər şeyi öz yerinə qoyub. Bu mənada Heydər Əliyev də istisna deyil. Əsla şübhəm yoxdur ki, müəyyən müddətdən sonra Azərbaycan xalqı iqtidarlı-müxalifətli onun ideyalarını, əməllərini bir nəfər kimi qəbul edib, xatirəsini əbədi əziz tutacaqlar. Buna çox qalmayıb. Zamana ehtiyac var.

Heydər Əliyevin Sovetlər dövründə, gələcək müstəqil Azərbaycan dövləti üçün gördüyü tədbirləri özündən başqa heç kimin dərk etmədiyi kimi, müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə gördüyü işləri də tam dərk etmək imkanında deyilik. Yazdıqlarımızın hamısını o dahi şəxsiyyətin parlaq obrazının açıqlanmasında yarımçıq hesab etmək olar. Hər halda mən özümü qələm sahibi hesab etmirəm, əgər bu yazımda səmimi şəkildə Heydər Əliyevin əziz xatirəsini əbədiləşdirmək üçün zərrə qədər iş görmüşəmsə bundan böyük mənəvi rahatlıq duyardım.

Tarixdə Səməndər adlı əfsanəvi quş obrazı var (qərbdə feniks adlanır). Səməndər quşu hər dəfə qocaldıqca, özünü yandırıb, külündən cavanlaşmış, yeniləşmiş formada həyata qayıdarmış. Səməndər quşu əbədi intibah simvoludur.

Heydər Əliyev həyatda Səməndərin real nümunəsidir. Əminəm ki, müstəqil Azərbaycanın gələcək hər bir nəslinin, onları əbədi intibaha səsləyən Heydər Əliyevi olacaq. Uzaqlaşdıqca yaxınlaşan Heydər Əliyevi.

YAQUB ƏLİYEV
Qaradağ rayon İcra Hakimiyyətinin başçısı,
YAP İdarə Heyətinin üzvü

HEYDƏR ƏLİYEV FENOMENİ

Heydər Əliyev haqqında çox yazılıb, bundan sonra da çox yazılacaq. Amma Heydər Əliyev şəxsiyyətini tam dolğun təcəssüm etdirməyə, onun parlaq şəxsiyyətini bütünlüklə göstərmək heç bir müəllifin imkanında olmayıb və yəqin ki, olmayacaq da. Çünki Heydər Əliyev bitməz, tükənməz bir kainat, kəşf olunması mümkün olmayan bir qalaktikadır. Heydər Əliyev haqqında yazmaq istəyən hər kəs yalnız bu qalaktikanın hər hansı bir hissəsi haqqında nəsə bir söz deməyə müvəffəq olur. Çünki bundan bir az artığına nail olmaq üçün xüsusi tədqiqata və xüsusi metodologiyaya ehtiyac var. Yəni bundan artığına nail olmaq üçün xüsusi elm sahəsinə ehtiyac var. Artıq yaranmaqda olan Əliyevşünaslıq elmi görünür ki, bu zərurətdən meydana gəlib.

Heydər Əliyev haqqında yazan hər kəs ilk növbədə əsərinin əvvəlində bu mövzunun son dərəcədə çətin olduğunu və qarşıya qoyduqları vəzifənin öhdəsindən gəlməyin mümkünsüzlüyünü bildirirlər və bununla da bir növ özlərini həm də «sığortalayırlar». Müəlliflərin bu mövqeyi başa düşüləndir. Baş vurulan mövzu çox çətin, nə qədər sadə görünsə belə, mürəkkəb və məsuliyyət tələb edəndir. Bu mövzu ilə bağlı nə qədər dərin tədqiqat aparsan belə, nə qədər tam məlumat versən belə, sonda yazmadıqlarının yazdıqlarından dəfələrlə çox olduğunun şahidi olursan. «Bir şəxsiyyət kimi Heydər Əliyev nə qədər açıq olsa da, müasirləri üçün sirr olaraq qalır. Bu gün Heydər Əliyev fenomenindən çox yazırlar. Bu məqalə, kitabça və əsərlərin müəllifləri onun – ölkəmizin tarixində bütöv bir dövrü təcəssüm etdirən əsl vətəndaşın, böyük şəxsiyyətin və qüdrətli Liderin, İnsanın müxtəlif cəhətlərini açıqlayırlar. Lakin onların hamısının yekdil rəyi belədir ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır».

Heydər Əliyev hamının anlayacağı qədər sadə, heç kəsin dərk etmədiyi qədər mürəkkəb şəxsiyyətdir.

Ən ziddiyyətli, ən gərgin, ən ağır situasiyalarda belə bu şəxsiyyətin fəaliyyətində bir ardıcıllıq hiss olunur. Bu şəxsiyyət heç nədən asılı olmayaraq heç vaxt özünü təkzib etmir. «Heydər Əliyev və tariximiz», «Heydər Əliyev və müasirləri», «Heydər Əliyev və gələcəyimiz» - sadaladığımız üç aspektdən bu dahi şəxsiyyəti təhlil edərkən görürük ki, bunlar bir-birindən ayrılmaz hissələrdi.

Heydər Əliyev tarix yaradan şəxsiyyətdir, o həmişə hadisələrə təsir edib, hadisələri yönəldib, istiqamətləndirib. Hadisələrin axarına düşüb getmək onun dəmir iradəsinə, möhkəm xarakterinə yad olub.

Yaddan çıxarılmaqda olan, təhrif edilən tariximizə ilk vətəndaş – rəhbər mövqeyi ilə yanaşan Heydər Əliyev olub. Tariximizə, tarixi şəxsiyyətlərimizə yeni münasibət Heydər Əliyevlə başlayır. O Azərbaycanda siyasi hakimiyyətə ilk gəlişindən az sonra göstərdi ki, Azərbaycan rəhbərliyinə Moskvanın «canişini» yox, milli ruhlu, xalqını sevən, torpağına bağlı olan bir şəxsiyyət gəlib. «Heydər Əliyev həm özünün nadir siyasi istedadı sayəsində, həm də milli dirçəlişin mükəmməl fəlsəfi konsepsiyasına əsaslanaraq müasir Azərbaycan adlandırdığımız bir məmləkəti, onun bu günkü həqiqətini, sabahkı gününün etibarlı bünövrəsini yarada bilmişdir. Formal səbəblərə görə deyil, ilk növbədə, məhz buna görə Azərbaycan tarixinin 1969-cu ildən bəri bütün dövrü Heydər Əliyevin adı ilə bağlıdır».

Heydər Əliyev 30 ildən artıq Azərbaycanda siyasi hakimiyyətdə olub. 1969-cu ildə ilk dəfə siyasi hakimiyyətə gələndə də onun qarşısında az iş durmurdu. Geridə qalmış, aqrar respublikanın gerilikdən çıxarıb öncüllər sırasına çıxarmaq gücündə yalnız Heydər Əliyev ola bilərdi. «Tikmək, qurmaq, yaratmaq Heydər Əliyev siyasətinin şüarı idi. O, bu şüarla əvvəl respublikanı, sonra Kremli və nəhayət böyük SSRİ-ni fəth etdi. Ən başlıcası Azərbaycan xalqının fitri quruculuq istedadını və əmək əzmkarlığını üzə çıxardı».

Azərbaycan xalqı istedadlı, ağıllı, zəhmətkeş və dözümlü xalqdır. Bu xalqla çox şeyə nail olmaq mümkündür. Lakin 1969-cu ilə qədər bir tərəfdən Azərbaycan rəhbərliyində olanların şəxsi liderlik keyfiyyətlərinin, digər tərəfdən mərkəzi hakimiyyətin Azərbaycan kimi respublikalarının inkişafında maraqlı olmaması respublikanın son dərəcədə geridə qalmasına səbəb olmuşdur. Mərkəzi hakimiyyət Azərbaycana və bir sıra respublikalara xammal bazası kimi baxır, onların inkişafına maraq göstərmirdi. Mərkəzin iradəsinin əksinə getmək isə mümkün deyildi.

Milli maraqları gözləməklə mərkəzi qanc edən siyasət yürütmək isə böyük siyasi bacarıq və güclü manevr qabiliyyəti tələb edirdi. Göstərilən bu keyfiyyətlər məhz Heydər Əliyevdə öz təcəssümünü tapmışdır.

Heydər Əliyev millətinə, xalqına qəlbdən bağlıydı. Qanıyla, hər bir hüceyrəsi ilə bağlıydı. Lakin millətə, xalqa bu qədər xidmət üçün təkcə bağlılıq kifayət etmir. Siyasətçi olmaq, rəhbər olmaq çox ağır işdir. Xüsusi ilə o zaman ki, ölkə Azərbaycanın vəziyyətində olsun. İstər indiki vəziyyətində, istər isə 60-cı illərin sonundakı vəziyyətində. Biz dövrləri müqayisə edən zaman yanlışlığa yol verə bilmərik. 60-cı illərin sonu da Azərbaycan üçün ürəkaçan dövr deyildi. Belə ki, Azərbaycanda Sovet hakimiyyəti qurulandan Stalinin ölümünə qədər erməni-daşnak və Stalin represiyaları hökm sürmüş, xalqın, millətin düşünən beynləri, görən gözləri hesab edilən şəxslər ya güllələnmiş, ya da sürgünlərdə çürümüşdür. Az-çox qalan ziyalıların isə beynlərindən hələ də represiyaların psixoloji təsiri getməmişdir.

Ölkədə milli kadrlar çox az, bəzi sahələr üzrə isə heç yox idi. Bu çətinliyin mənəvi-psixoloji tərəfi idi. Amma bəla bununla bitmirdi. Ölkə iqtisadiyyatı həddindən artıq acınacaqlı vəziyyətdə idi. Ölkə nəinki aqrar ölkə idi. Hətta aqrar sahəsi də pis vəziyyətdə olan ölkə idi. Normal suvarma sistemlərinin olmaması, kənd təsərrüfatı texnikasının qıtlığı, kənd təsərrüfatında demək olar ki, orta əsrlərdən qalma üsullardan istifadə və s. bu kimi hallar o günlərimizin acı reallığı idi. Bütün bunlarla yanaşı qeyd etsək ki, respublikada əsas vəzifə sahibləri erməni və ruslar idi və idarə və müəssisələrdə danışıqlar rus dilində gedir, mərkəz Azərbaycana və azərbaycanlılara ikinci növ respublika və xalq kimi baxırdı, onda respublikanın yaxın on illərdə asimilyasiya təhlükəsinin mövcudluğu üzə çıxar.

Biz indi qeyd edirik ki, 1993-cü ildə Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələrək, ölkənin məhv olmaq təhlükəsindən xilas etdi. Bəli, bu danılmaz həqiqət, inkarolunmaz faktdır. Amma 1993-cü ildə bunu hamı görürdü. Xalq da, erməni də, rus da, xarici də, iqtidar da və şübhəsiz Heydər Əliyev də görürdü ki, qədim tarixə malik bir dövlət məhv olub gedir. Və belə bir təhlükəli vəziyyətdə xalqın böyük oğlu meydana çıxıraq bütün təhlükələri aradan qaldırdı, Azərbaycan dövlətini xilas etdi. Cəmi dörd sözdən ibarət olan «Azərbaycan dövlətini xilas etdi» cümləsini ifadə etmək çox asandır, amma bunun arxasında nələrin və nələrin dayandığını düşünmək, dərk etmək çox çətindir.

Mən qeyd etdim ki, 1993-cü ildə Azərbaycan dövlətinin düşdüyü təhlükə açıq, görünən təhlükə idi. Amma 60-cı illərin sonundakı təhlükəni çox az adam görə bilərdi və söz yox ki, bu təhlükəni son detalına qədər Heydər Əliyev görürdü. Bu fenomenal şəxsiyyət hakimiyyətə gəlişindən az sonra ilk məqsədyönlü addımlarını atdı. İş mürəkkəb, son dərəcə çətin idi. Və həcminə görə bu iş çox böyük, həm də çoxsahəli idi. Burada qarşıda duran işlərin də vacibliyinə görə növbəliyini də yalnız Heydər Əliyev şəxsiyyəti müəyyən edə bilərdi. İlk növbədə iqtisadiyyatı qaldırmaq vacibdir, yoxsa milli kadrlar hazırlamaq, tarixi qorumaq lazımdır, yoxsa sabahı düşünmək, elmi inkişaf etdirmək lazımdır, yoxsa ana dilini inkişaf etdirmək və sair.

Bu məsələlərin hamısı olduqca vacib idi. Və bunların həlli elə olmalı idi ki, nə mövcud ictimai-ideoloji mühitdə əks-səda versin, nə də mərkəzi hakimiyyəti qıcıqlandırsın. Bütün bunları Heydər Əliyev etdi. Və elə etdi ki, hətta bunlara görə bəzən mükafatlandı da... Amma bu görünən tərəf idi. Hədsiz təyziqlər də var idi. Bütün bunlara görə edilən təzyiqlərə yalnız Heydər Əliyev dözə bilərdi, tab gətirə bilərdi.

Heydər Əliyev Azərbaycan xalqının gələcəyini fikirləşirdi. O, bilirdi ki, heç bir sahəni milli kadr olmadan inkişaf etdirmək mümkün deyil. Odur ki, o gənclərin Rusiyada ən adlı-sanlı, qabaqcıl tədris müəssisələrində təsil almasının qayğısına qalırdı. O, nəinki gəncləri həmin tədris müəssisələrinə göndərir, hətta onların təhsil prosesindəki problemləri ilə də maraqlanır, bu problemləri həll edir, bu kadrların müvafiq işlə təmin edilməsini, qabağa çəkilməsini təmin edirdi. Heydər Əliyev 1993-cü ildə yox, artıq 60-cı illərin sonundan millətə, xalqa «atalıq» missiyasını öz üzərinə götürmüşdür.

Heydər Əliyev çox tez-tez bu fikri səsləndirərdi ki, O, azərbaycanlı olması ilə fəxr edir. Bəli, Heydər Əliyev Ən böyük azərbaycanlı idi. Bununla belə O, yarımçıqlıq azərbaycançılığı qəbul etmirdi. Heydər Əliyev gənclərin rus dilində təhsil almasına pis baxmırdı, O, gözəl bilirdi ki, SSRİ boyda məkanda rus dilini bilmədən uğur qazanmaq olmaz. O, öz dilini bilməyən insanları qəbul etmirdi. O, bildirirdi ki, hər bir azərbaycanlı öz dilini bilməlidir. Mövcud rejimin imkan verdiyi bütün tədbirlərdə azərbaycan dilində çıxış edirdi. 1978-ci ildə Azərbaycan SSR-in konstitusiyası qəbul edilərkən O, böyük cürət və milli əzmkarlıq nəticəsində bu konstitusiyaya «Azərbaycan dilinin dövlət dili olması» müddəasını daxil

edə bildi. Və bunun üçün hansı təzyiqlərə məruz qaldı, hansı gərginliklər yaşadı bu haqda danışmağa lüzum yoxdur. Heydər Əliyev Azərbaycan tarixinin də, ədəbiyyatının da, incəsənətinin də qayğısına qalırdı.

Elm, sənət adamlarına qayğı, elm, təhsil müəssisələrinin tikilib istifadəyə verilməsi bu fikrimizə parlaq misaldır.

60-cı illərdə Azərbaycanın müstəqilliyindən danışmaq, heç kəsin ağlına gəlməzdi. Hətta bu barədə düşünən olsa belə bunun yaxın 50-100 ildə olacağını fikirləşməzdi. Amma Heydər Əliyev bir neçə on ildən sonra müstəqil yaşayacaq Azərbaycanın iqtisadi və texniki bazasını yaradırdı. Belə ki, həmin illərdə yaradılan və inkişaf etdirilən istehsal sahələri Azərbaycan müstəqillik qazandıqdan sonra gənc ölkə üçün həyati əhəmiyyət kəsb etdi. Heydər Əliyevin birinci siyasi hakimiyyəti dövründə yaradılan elektrik stansiyaları müstəqilliyin ilk illərində Azərbaycanı qonşu ölkələrin yaşadığı böhrandan xilas etdi. Düzdür, bu sahədə bir sıra çətinliklər oldu və bu çətinliklərin bir qismi hələ də mövcuddur. Amma Azərbaycanı digər müstəqillik qazanmış respublikalarla müqayisə etsək və bu zaman müharibə vəziyyətini də nəzərə alsaq onda Heydər Əliyevin bizə hələ birinci hakimiyyəti dövründə nələrin bəxş etdiyi dərk olunar.

Heydər Əliyevin 70-80-ci illərdə gördüyü işlər enerji sahələri ilə məhdudlaşmır. Həm də biz bu dahi insanın həmin illərdə gördüyü işləri sadalamaq fikrindən uzağıq. Və istəsək belə bunun öhdəsindən gələ bilmərik. Amma «Dərin Özüllər» zavodunun (indiki H.Əliyev adına Bakı Dərin Özülləri Zavodu), Bakı Məişət Kondensionerləri zavodu və sair bu kimi analoqları olmayan müəssisələrin Azərbaycanda tikilməsinə nail olmağı onun müstəqilliyimizin uzaqda olmadığına inandığını göstərən amillərdi.

Bəli bütün bunları ümumiləşdirsək bu qənaətə gəlirik ki, Heydər Əliyev elə birinci hakimiyyəti dövründə Azərbaycanın iqtisadi müstəqilliyinə nail olmuşdur.

Heydər Əliyev şəxsiyyətinin fenomenal keyfiyyətlərini onun hakimiyyətə ikinci gəlişindən sonrakı dövr daha qabarıq göstərir. Lakin Heydər Əliyevin birinci və ikinci siyasi hakimiyyətləri arasında olan dövrü heç vaxt unutmaq və yaxud bu dövrə az diqqət göstərmək olmaz. Mən deyərdim ki, bu dövr xüsusi diqqətlə öyrənilməlidir. Çünki bu dövr həm Azərbaycan tarixinin son dərəcə böhranlı, qarışıq bir dövrü və eyni zamanda Heydər Əliyev həyatının çətin sınaq dövrüdür. Lakin Heydər Əliyev şəxsiyyəti həmişə olduğu kimi bu illərdə də tam, bütöv, şərəfli, nümunəvi olub. Ona və onun xalqına qarşı olan xəyanət bu dahi şəxsiyyəti sındıra bilməyib. Həmişə olduğu kimi O uca olub, ucada olub. Xalqının səsinə, harayına səs verən Heydər Əliyev olub. Həmin illərdə Heydər Əliyev təkcə hakimiyyətdə olmayıb. Amma əvvəlki kimi xalqın lideri olubdur. Xalq onu özünün atası hesab edib, ona ümid bağlayıb və ona da güvənibdir. Təsadüfi deyil ki, Bakıda 20 yanvar qırğını törədiləndə də, Xocalı soyqırımı baş verəndə də və nəhayət 1993-cü ildə ölkənin ən çətin vaxtında, Azərbaycanın tarix səhnəsindən silinmək təhlükəsi yarananda da xalq Heydər Əliyevi arayıb, ona güvənibdir.

Qeyd etdik ki, Heydər Əliyev şəxsiyyətinin fenomenal keyfiyyətlərini onun hakimiyyətə ikinci dəfə gəlişindən sonrakı dövr daha qabarıq göstərir.

1993-cü ili xatırlayaq. Düzdür, indi bu qədər iqtisadi, siyasi, sosial inkişafdan sonra 1993-cü ili olduğu kimi xatırlamaq çətindi. Amma bu faktdır ki, artıq Azərbaycan adlı məmləkətin mövcudluğu təhlükə altında idi. Həmin situasiyanı dolğunluğu ilə təsvir etmək üçün tarixçilər belə bir «fraza» işlədirlər: «Heydər Əliyev oyuna mat vəziyyətində başladı və qalib gəldi».

Bu bəlkə də həmin dövrün reallıqlarını göstərmək üçün ən düzgün ifadələrdən biridir. Ümumən siyasəti şahmatla çox müqayisə edirlər. Amma siyasətlə şahmat arasında bir sıra fərqlər var.

Şahmatda oyunu həmişə eyni vəziyyətdən başlayır və iki tərəfin məqsədinə və arzusuna uyğun və bunun əksinə minlərlə variantlar üzrə inkişaf edir, bir məqsədə yönəlir –qələbəyə.

Amma siyasətdə oyunun başlanğıcı olmur, olsa da bir-birindən çox fərqli mövqelərdə ehtiva edir. Burada fiqurlar da şahmatda olduğu kimi sıra ilə qaydasında düzülməyib. Burada fiqurların şahmatda olduğu kimi konkret gücü və hərəkət istiqaməti yoxdur. Güclü şahmatçının məqsədi oyun qaydaları çərçivəsində fiqurların köməyi ilə rəqib şahı mat etməkdir. Amma siyasətdə rəqib şah yox, rəqib şahlar və müttəfiq şahlar olur, onları mat qoymaq lazım gəlir.

Güclü siyasətçinin məqsədi fiqurların gücünü qiymətləndirmə və oyunu öz qaydalarına uyğun keçirərək məqsədlərə nail olmaqdır. Burada məqsəd istənilən qədər ola bilər. Ümumilikdə şahmatçının gücü rəqibə qalib gəlməkdədirsə siyasətçinin gücü daha çox məqsədə nail olmaqdan ibarətdir.

Yəni şahmat və siyasət çox fərqli şeylərdir. Şahmat və siyasətin uyğunluğu baxımından yuxarıda söylənilən ifadə bəlkə də ən uğurlu ifadədir: «Heydər Əliyev oyuna mat vəziyyətdən başladı və qalib gəldi».

Və bu qələbə heç də asan olmadı. Bu «qələbə» ona görə və yalnız ona görə əldə edildi ki, bu qələbənin arxasında Heydər Əliyev var idi. Əslində bu bir qələbə deyildi, qələbələr silsiləsi idi və burada hər bir qələbənin çox güclü tərəflər üzərində əldə etmək lazım gəlirdi.

İlk qələbə bu oldu ki, Azərbaycan dövləti parçalanmaq, məhv olmaq təhlükəsindən xilas edildi. Müsavat-AXC cütlüyü ölkəni son dərəcə ağır duruma gətirib çıxarmış, maraqlı xarici qüvvələr isə bundan yararlanmaq fikrində idilər. Və demək olar ki, buna çox yaxın idilər. Bu ağır vəziyyəti yalnız Heydər Əliyev olduğu kimi qiymətləndirib qərar çıxara bilərdi. Təhlükə son dərəcə güclü, vaxt, imkan və digər resurslar isə yox dərəcəsində idi. Vəziyyətdən çıxış variantları görünmürdü. Heydər Əliyev bunlara baxmayaraq variant tapdı.

Qısa müddətdə Heydər Əliyevin apardığı siyasət nəticəsində bü təhlükəni aradan qaldırmaq mümkün oldu.

Ölkənin qarşısında isə daha böyük vəzifələr, daha böyük məqsədlər dururdu. Heydər Əliyev Azərbaycanın geridə qalmış ölkə və yaxud ortabab bir ölkə olması ilə barışa bilməzdi. Allahın böyüklük üçün yaratdığı dahi şəxsiyyətin xalqına, dövlətinə məhəbbəti tükənməz idi. O, Azərbaycanı dünyanın inkişaf etmiş ölkələr sırasında görmək istəyirdi. O istəyirdi ki, Azərbaycan xalqının dünya xalqları sırasında yeri özünə layiq yer olsun. Azərbaycanda həyata keçirilən hüquqi, demokratik dövlət quruculuğu işi yalnız xalqın, dövlətin marağı naminə həyata keçirilirdi.

Heydər Əliyev dəfələrdə qeyd edirdi ki, Azərbaycanda həyata keçirilən islahatlar yalnız ona görə keçirilir ki, bu ilk növbədə Azərbaycan üçün lazımdır.

Azərbaycan həmişə Şərqin ulduzu olub. Bu imicin yenidən qaytarılması üçün Heydər Əliyev nə lazımdırsa etdi. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Şərqdə ilk dəfə olaraq ölüm hökmü ləğv edildi. Bu böyük bir iş idi. Bu addım dünyaya sübut etdi ki, Azərbaycan adlı məmləkətdə böyük mənəvi və mədəni keyfiyyətlərə malik insanlar yaşayır. Uzun illər erməni təbliğat maşınının azərbaycanlılar haqqında yaratmaq istədiyi mənfi imicə bu addım öldürücü zərbə vurdu. Bu idi dahi şəxsiyyətin böyüklüyü.

1995-ci ilin noyabr ayında Azərbaycan ilk demokratik konstitusiyanı qəbul etdi. Bu konstitusiyanın yaradıcısı Heydər Əliyev idi. Hüquqi baxımdan çox mükəmməl bir sənəd olan bu akt, demokratiklik baxımından da dünyanın bütün demokratik institutlarının tələblərinə cavab verirdi. Bu sənəddə təsbit olunan hüquq və azadlıqlar bizim vətəndaşlarımız üçündür. Bu hüquqlardan və azadlıqlardan öz vətəndaşlarımız yararlanır. Amma bu aktın siyasi tərəfi də var idi. Bu konstitusiya həm də xalqı, dövləti bir növ təmsil edir, onun pasportu rolunu oynayır. Hətta tanımadığımız bir dövlət haqqında, onun siyasi-iqtisadi quruluşu ilə yanaşı, mənəvi-hüquqi keyfiyyətləri haqqında biz onun konstitusiyasına baxan zaman ətraflı məlumat əldə edə bilərik. Heydər Əliyevin yaratdığı bu şah əsər bizim dövlətin vətəndaşlarına verdiyi hüquq və azadlıqlarla yanaşı həm də ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir. Konstitusiyanın bu keyfiyyətini də Heydər Əliyev çox gözəl bilirdi və bu böyük hüquqi sənədin yaranıb meydana çıxması üçün hər şey etdi.

Biz belə bir ifadəni çox işlədirik ki, «dünya qloballaşır». Amma böyük şəxsiyyətlərin fonunda isə dünya kiçilir.

Heydər Əliyev dünya siyasətində və iqtisadiyyatında baş verən prosesləri çox gözəl bilir və onların inkişafına təsir imkanlarına malik bir şəxsiyyət idi. Onun çalışdığı ən böyük məqsədlərdən biri bu idi ki, Azərbaycan dünya ailəsinin tamhüquqlu üzvü olsun. Bunun üçün isə həm onun iqtisadiyyatı böyük dünya iqtisadiyyatının vacib elementinə çevrilməli, həm də ölkə siyasi cəhətdən elə böyük nüfuz qazanmalıdır ki, onun rəyi ilə beynəlxalq ictimaiyyət hesablaşsın. Bu məsələ çox çətin bir məsələdir. Hətta əhalisinin sayı on milyonlarla hesablanan dövlətlər bir çox hallarda bu işin öhdəsindən gəlmirlər. Lakin, həqiqət göz qabağındadır.

Heydər Əliyev kiçik bir ölkə ilə bu işin öhdəsindən gəldi.

Artıq heç bir regional layihə Azərbaycansız həyata keçirilmir. Artıq dünyada Azərbaycanın öz yeri, öz sözü var. Artıq Azərbaycan öz mövqeyini çəkinmədən ortaya qoyur.

Amma, heç kəsin inkar edə bilmədiyi bir həqiqət də var: Azərbaycanın dünyadakı yeri Heydər Əliyevin yeridir, Azərbaycanın dünyadakı sözü Heydər Əliyevin sözüdür. Azərbaycanın dünyadakı mövqeyi Heydər Əliyevin mövqeyidir.

ELDAR İBRAHİMOV
Milli Məclisin Aqrar siyasət
daimi komissiyasının sədri,
YAP Siyasi Şurasının üzvü

TARİXİN QİYMƏT VERDİYİ ŞƏXSİYYƏT

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyət dövrü Azərbaycan tarixinin parlaq səhifəsini, ölkənin dirçəliş, inkişaf mərhələsini təşkil edir. Bütün varlığı ilə xalqına bağlanan, azərbaycanlı olmasından qürur duyan bu böyük şəxsiyyətin taleyi Vətənin taleyi ilə eyni olub. Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində Azərbaycanı geridə qalmış aqrar ölkədən iqtisadiyyatı sürətlə inkişaf edən ölkəyə çevrildi, Azərbaycanın müstəqil yaşaması üçün möhkəm zəmin yaratdı. Xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən hakimiyyətə qayıdan görkəmli şəxsiyyət özünün titanik fəaliyyəti ilə müasir Azərbaycan dövlətinin qurucusu olduğunu sübut etdi.

Ümummilli lider, əsl Vətəndaş, böyük Şəxsiyyət, Azərbaycan xalqının milli sərvəti və taleyin Tanrı payı olan Heydər Əliyev fenomenindən çoxsaylı məqalələr, kitablar və tədqiqat əsərləri yazılsa da onun qüdrətini, istedadını hərtərəfli əhatə etmək çox çətindir. Mən bu məqaləmdə Heydər Əliyevin zamanın çox qısa bir kəsiyində 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında fəaliyyətinin bəzi anları haqqında söz açmaq istəyirəm.

Məlum olduğu kimi Heydər Əliyev 1969-cu ilin iyul ayında Azərbaycan Kommunist Partiyasının birinci katibi seçilməklə Azərbaycan Respublikasına rəhbərliyə başlamışdır. O, fəaliyyətə başladığı ilk gündən xalqına, millətinə bağlı olduğunu, hər bir azərbaycanlının taleyinə dərin məsuliyyət hissi ilə yanaşdığını, respublikanın və onun bölgələrinin iqtisadi və sosial inkişafına nail olmaq üçün əzmkarlıqla çalışdığını əyani surətdə göstərdi. Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1969-1982-ci illər ərzində Heydər Əliyevin apardığı titanik işlər, onun özünə və ətrafındakı rəhbər işçilərə qarşı olan tələbkarlığı, yüksək işgüzarlığı və tükənməz enerjisi sayəsində Azərbaycan Respublikası qısa bir müddət ərzində çox iri addımlarla iqtisadiyyatın və sosial həyatın bütün sahələrində keçmiş SSRİ məkanında geridə qalan bir respublikadan qabaqcıl respublikaya çevrildi. Məhz həmin illərdə Azərbaycanın iqtisadiyyatı möhkəmləndi, istehsal etdiyi rəqabət qabiliyyətli məhsullar dünyanın 65 ölkəsinə ixrac edilməyə başlandı. Azərbaycan Respublikası neft-maşınqayırma, kimya sənayesi, üzüm istehsalı və bir sıra digər sahələrdə SSRİ-də öncül sıraya çıxaraq beynəlxalq aləmdə tanınmağa başladı və müstəqil inkişafın əsasını qoydu.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə regionların inkişafına xüsusi diqqət və qayğı göstərirdi. Həmin vaxtlar Naxçıvan Muxtar Vilayət Partiya Komitəsində işləyirdim. Yadımdadır, bir dəfə Naxçıvanda Muxtar Respublikanın qazlaşdırılması ilə əlaqədar böyük bir müşavirə keçirildi. Həmin müşavirədə Heydər Əliyev Azərbaycan Respublikasının və Muxtar Respublikanın məsul işçilərini sorğu-suala tutur, problemin həllinə nail olmaq üçün bütün imkanları, mövcud potensialı aşkarlayıb səfərbər edirdi. Məsələyə belə ciddi və məsuliyyətlə yanaşma nəticəsində qarşıya qoyulan vəzifələr həmişə uğurla və vaxtında yerinə yetirilirdi.

Heydər Əliyev Azərbaycan Respublikasına və SSRİ-yə rəhbərlik etdiyi dövrlərdə onunla eyni səviyyəli rəhbər vəzifələrdə işləyən məmurlar üçün etalon idi. Onun liderlik məharəti, adamlarla təmasda olmaq qabiliyyəti hamını heyran edir, xoşniyyətli insanların diqqətini çəkir, bir çox bədxahlarda isə ona qarşı paxıllıq hissi yaradırdı. Bunun nəticəsi idi ki, 1987-ci ildə Heydər Əliyevə qarşı SSRİ rəhbərliyində, xüsusilə Qorbaçov tərəfindən aparılan təqiblərə cavab olaraq o, vəzifəsindən istefa verməyə məcbur oldu.

Heydər Əliyev bir neçə il Moskvada yaşadıqdan sonra SSRİ adlı imperiyanın məhv olacağına tam inandığından belə bir şəraitdə öz ölkəsində və doğma diyarı olan Naxçıvanda yaşamağa üstünlük verdi. O, 1990-cı il iyulun 22-də Naxçıvana pənah aparmalı oldu. Bu dövrdə Azərbaycanda və o cümlədən Naxçıvanda ermənilər və onların tərəfdarı olan Rusiya hərbçiləri ilə kəskin döyüşlər gedir, blokada şəraitində olan Naxçıvan həm müharibə edir, həm də yaranmış iqtisadi çətinlikləri aradan qaldırmağa çalışırdı. Azərbaycandan isə nəinki kömək gəlmir, əksinə onun torpaqları hərraca qoyulur, parçalanma təhlükəsi getdikcə dərinləşir və Azərbaycan adlı məmləkətin xəritədən silinməsi üçün real addımlar atılırdı. Belə bir

vəziyyətdə tanınmış siyasi xadim, həmişə Vətəni və Xalqı üçün böyük həvəslə çalışmış Heydər Əliyev Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi fəaliyyət göstərməsi naminə əsl mücadiləyə qalxdı. Bu məqsədlə də Naxçıvan əhalisi ona böyük etimad göstərərək 1990-cı ilin sentyabr ayında Muxtar Respublikanın Ali Sovetinə deputat seçdilər. 1990-cı ilin noyabrın 17-də Muxtar Respublikanın Ali Sovetinin birinci sessiyasında Heydər Əliyevin təşəbbüsü və təklifi ilə "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında" (muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı), "Naxçıvan MR ali dövlət hakimiyyəti orqanı haqqında" (Ali Sovet "Ali Məclis" adlandırıldı), "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" (Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağı muxtar respublikanın dövlət bayrağı kimi qəbul olundu) tarixi qərarlar qəbul edildi.

Heydər Əliyev imperiyanın çökməsini gördüyündən onun təklifi ilə Naxçıvan MR Ali Məclisi Azərbaycanda da anoloji qərarların qəbul edilməsi üçün Azərbaycan SSR Ali Soveti qarşısında məsələ qaldırdı. Lakın həmin vaxtlar Azərbaycan Respublikasına rəhbərlik edən Ayaz Mütəllibov Heydər Əliyevin nüfuzundan qorxduğuna, üstəlik İttifaq rəhbərliyinin göstərişləri ilə Naxçıvana və Heydər Əliyevə qarşı qərəzli mövqe tutduğuna görə bu istiqamətdə heç bir əməli tədbir görmədi.

Buna baxmayaraq Heydər Əliyev Azərbaycanın müstəqillik əldə etməsi üçün öz mübarizəsini davam etdirir, sessiyalarda və müxtəlif görüşlərdə müstəqil dövlət yaratmağın vacibliyini dönə-dönə təkrar edirdi. 1990-cı il noyabrın 21-də Ali Məclisin sessiyasında Heydər Əliyev çıxış edərək deyirdi: **"Biz Azərbaycanın istiqlaliyyəti haqqında danışmalıyıq. SSRİ Ali Sovetinin sessiyasında SSRİ prezidentinin çıxışından sonra 5 respublikanın nümayəndəsi çıxış edib müqavilədə iştirak etməyəcəklərini bildirdilər. Təəssüf ki, Azərbaycan Respublikasının nümayəndəsi çıxış edərək ittifaq müqaviləsini bəyəndiyini deyib və bunun bağlanması vacibliyini çox təkidlə irəli sürüb".**

Azərbaycan rəhbərlərinin xalqdan ayrı düşərək yalnız şəxsi mənafelərini güddüklərindən narahatlığını ifadə edən bu Böyük şəxsiyyət 1991-ci il martın 7-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxış edərək bildirdi ki, **"dərc olunmuş İttifaq müqaviləsinin layihəsi Ümumittifaq siyasi rəhbərliyi tərəfindən və xüsusən Qorbaçov tərəfindən bütün sovet xalqını yenidən aldatmaq cəhdinin təzahürüdür. Layihənin hazırlanmasında**

Azərbaycanın ali hakimiyyət orqanlarının iştirakı, onların respublikanı düzgün inkişaf yoluna istiqamətləndirə bilməməsi xəyanətə bərabər addımdır. Müttəfiq respublikaların suveren respublikalar ittifaqına qoşulması imperiyanı dirçəltmək cəhdindən başqa bir şey deyildir. Azərbaycan Respublikasından olan SSRİ Ali Sovetinin deputatları belə bir qanunun qəbuluna səs verməklə ölkələrinin bir daha müstəmləkə vəziyyətinə salınmasına razılıq vermişlər". Heydər Əliyev SSRİ-nin yaradılması haqqında mövcud müqavilədən bu layihəni ona görə daha mürtəce hesab edirdi ki, 1922-ci ildəki vəziyyətdən fərqli olaraq indi heç bir müstəqilliyi olmayan respublikalar birləşib oyuncaq ittifaq formalaşdırmalı idilər. Heydər Əliyev yeni dünya düzənində Azərbaycanın rolunu hələ Naxçıvanda ikən müəyyənləşdirir, imperiyanı yaşatmaq cəhdinin perspektivi olmadığını bəyan edirdi. Azərbaycan xalqının gələcəyini düşünən dahi şəxsiyyət söyləyirdi ki, **"1918-ci il mayın 28-i, 1920-ci il aprelin 27-28-i, 1922-ci il dekabrın 30-u və indiki dövr bir-biri ilə bağlı olan tarixi mərhələlərdir. Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu üçün biz bu barədə əsaslandırılmış qərar qəbul etməliyik ki, hansı səbəblərə görə ittifaq müqaviləsinin bağlanmasının əleyhinəyik və bu qərarı təxirə salmadan Azərbaycan Ali Sovetinə, SSRİ Ali Sovetinə göndərməliyik".**

Bakıda iqtidarda olanlar isə Naxçıvan Ali Məclisində qəbul edilən müdrik qərarlardan nümunə götürüb Azərbaycanın müstəqilliyi barədə real tədbirlər görmək əvəzinə ölkə tarixinə şərəf gətirəcək addımları bədnam subyektiv mülahizələri ilə dəyərləndirirdilər. 1991-ci ilin martında keçmiş SSRİ-nin saxlanmasına dair referendumun Naxçıvanda keçirilməməsi Azərbaycan xalqının müstəqillik istəyinin təzahürü idi.

Heydər Əliyev dözülməz şəraitdə olan Naxçıvanda yalnız həmin bölgə üçün yox, bütün Azərbaycanın müstəqilliyi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi mübarizə aparırdı. Onun uzaqgörən siyasəti sayəsində SSRİ-nin saxlanılmasına dair referendumun Naxçıvanda keçirilməməsi, Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 1990-cı il 20 yanvar faciəsinə siyasi qiymət verilməsi, dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması və bir sıra digər qərarlar Naxçıvanı müstəqillik uğrunda mücadilənin ön sıralarına çıxardı. Bu mücadiləyə isə Azərbaycanda alternativi olmayan dahi siyasətçi Heydər Əliyev başçılıq edirdi. Heydər Əliyev İttifaqda baş verən hadisələrə düzgün qiymət verir, ya-

ranmış vəziyyətdən istifadə edərək Azərbaycanın müstəqil, suveren bir dövlət kimi formalaşması üçün əlindən gələni edir, yorulmaq bilmədən çalışırdı. 1991-ci ilin martında keçmiş SSRİ-nin saxlanmasına dair referendum keçirilməsinin qəti əleyhinə çıxaraq Naxçıvan Muxtar Respublikası əhalisinin bu referendumda iştirak etməməsinə nail oldu. O, referendumun nəticələrinin saxtalaşdırılacağını bəyan edərək onun SSRİ-ni saxlamaq üçün heç bir hüquqi təminat verməyəcəyini, imperiyanın süqutunun yaxınlaşdığını və tezliklə sona çatacağını söyləyir. Naxçıvan Ali Məclisinin işini müstəqil dövlət quruculuğu istiqamətinə yönəldir. Azərbaycanın Ali Sovetindən də bunu tələb edirdi. Heydər Əliyevin qətiyyəti və uzaqgörən siyasəti sayəsində suverenlik yolunda böyük əngəl olan Kommunist Partiyasının Naxçıvan ərazisində buraxılması keçmiş müttəfiq respublikalar arasında ilk dəfə olaraq Naxçıvanda müstəqilliyə doğru çox mühüm mərhələnin qət olunması ilə nəticələndi.

Heydər Əliyev Naxçıvanda müstəqilliyimiz uğrunda siyasi problemlərin həlli ilə yanaşı bir deputat kimi Naxçıvanın erməni təcavüzündən mühafizə olunması üçün bütün qüvvəsini, mövcud imkanları səfərbər etməyə, muxtar respublikanın müdafiə qüdrətinin möhkəmləndirilməsinə sərf edirdi. Blokada şəraitində olmasına, Azərbaycan Respublikasından heç bir kömək almamasına baxmayaraq məhz onun yüksək təşkilatçılıq, insanlarda vətənə, xalqa məhəbbət və gələcəyə böyük inam yaratmaq qabiliyyəti nəticəsində Naxçıvan respublikasının ərazisi azğınlaşmış erməni qəsbkarlarından müdafiə olundu, itkilər azaldı.

Ulu öndərimizin həmin dövrdə yorulmaq bilmədən gördüyü bütün işlər mənim iştirakım və gözüm önündə baş verirdi. Belə ki, 1990-cı ilin sentyabrında keçirilən parlament seçkilərində Heydər Əliyev Azərbaycan Ali Sovetinə 340 saylı Nehrəm seçki dairəsindən, mən isə 342 saylı Cəhri seçki dairəsindən deputat seçilmişdik. Biz həm də Naxçıvan Ali Məclisinin deputatı idik.

Böyük siyasi xadim Heydər Əliyev istər siyasi qərarların, istərsə də muxtar respublikanın müdafiəsi, iqtisadiyyatının möhkəmləndirilməsi, insanların əzab-əziyyətdən qurtarması və digər məsələlərə dair bir deputat həmkar, yerli şəraiti daha yaxşı bilən təcrübəli mütəxəssis kimi mənimlə məsləhətləşir, götür-qoy edib sonra təkliflə çıxış edirdi. Mənim ictimai və dövlət xadimi kimi formalaşmağımda onun mənə göstərdiyi kömək, qayğı və məsləhətlər mühüm rol oynamışdır.

Azərbaycan Ali Sovetinin 1991-ci ilin mart sessiyasında 20 yanvar qırğınına və Dağlıq Qarabağ məsələsinə münasibətdə Azərbaycan hakimiyyətini ciddi tənqid etdiyinə görə Heydər Əliyevə qarşı bəzi öyrədilmiş deputatlar tərəfindən əsassız hücumlar edilməsini heç vaxt unuda bilmirəm. Vaxtilə çörək verdiyi, vəzifəyə qoyduğu adamlar ayaqlarını yerə döyür, böyük siyasətçinin danışmasına imkan vermirdilər. Heydər Əliyev belə vəziyyətdə də özünün Böyüklüyünü nümayiş etdirdi, ləyaqətsiz adamların ona qarşı olan hərəkətlərinə dözmək və səbr etməklə özünü möhkəm iradə sahibi olan insan kimi göstərdi, zalda əyləşən və televiziya ilə tamaşa edən insanların əksəriyyətinin bir daha böyük hüsn-rəğbətini qazandı. Mən həmin anlarda Heydər Əliyevin həqiqətən də dahi şəxsiyyət olmasını təkrarən yəqin etdim, onun yanında olmağımdan, azərbaycan xalqını belə dərin məhəbbətlə sevən bu Böyük insanla fəxr etdim, özümü ona daha yaxın və doğma hiss etdim. Həmin anlar yadıma düşəndə mən o hissləri təkrar yaşayır və Heydər Əliyevin liderlik qabiliyyətinə yenidən vururam.

Bu hadisə Naxçıvan əhalisi arasında da dərin əks-səda verdi və insanlar bir daha yəqin etdilər ki, ölkəmizi yaranmış dözülməz vəziyyətdən yalnız Heydər Əliyev çıxara bilər. Ona görə də xalqın təkidi ilə Heydər Əliyevin adi deputat kimi yox, Ali Məclisin sədri kimi fəaliyyət göstərməsi məsələsi gündəmə gəldi. Heydər Əliyevi isə heç bir vəzifə maraqlandırmırdı və o, dəfələrlə bildirmişdir ki, Naxçıvana, xalqının yanında olmaq, xalqın bu dar günündə ona arxa olmaq üçün gəlmişdir. 1991-ci ilin sentyabr ayında Naxçıvanda Naxçıvan şəhər icra hakimiyyətinin indiki binasında Ali Məclisin sessiyası keçirildi. AXC təmsilçiləri olan deputatlar buna mane olmaq istəsələr də adi insanlar və deputatlar birmənalı olaraq Heydər Əliyevin nəinki Naxçıvanda, bütün Azərbaycanda alternativi olmadığını qəbul edir və anlayırdılar ki, mürəkkəb və ziddiyyətli olan bu dövrdə blokada vəziyyətində yaşayan Naxçıvanda yalnız təcrübəli dövlət xadimi olan Heydər Əliyev Ali Məclisə sədr ola bilər və muxtar respublikanı erməni işğalından qoruyaraq sabitlik yarada bilər. Heydər Əliyev heç vaxt xalqın istəyinə qarşı çıxmadığından çoxsaylı insanların təkidi və deputatların böyük əksəriyyətinin iradəsi ilə hesablaşdı və o, Naxçıvan Ali Məclisinin sədr olmağa razılıq verdi.

Heydər Əliyev həmin vəzifədə işlədiyi müddətdə muxtar respublikanın müdafiə qüdrətinin gücləndirilməsi və ərazisinin etibarlı mühafizəsi, əmin-amanlığın bərqərar olunması, aqrar islahatlara başlanılması, əhalinin maddi və

sosial durumunun yaxşılaşdırılması və digər problemlərin daha düzgün və obyektiv həll olunması istiqamətində çox böyük ictimai-siyasi və iqtisadi əhəmiyyəti olan vacib məsələlərin həllinə nail oldu. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasından heç bir kömək almasa da müstəqil dövlət kimi özünün daxili və xarici siyasətini Heydər Əliyevin rəhbərliyi altında qurur və həyata keçirirdi. Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi İran İslam Respublikasına və Türkiyəyə səfərlər edərək blokada vəziyyətində olan Naxçıvanı həddən çox ağır vəziyyətdən qurtarmaq üçün iqtisadi əlaqələr qurur, onların siyasi dəstəyini alır və Naxçıvanın xilası üçün gərgin iş aparırdı. O, Azərbaycan Respublikasında müstəqil dövlət quruculuğuna Bakıda nə vaxt başlanmasını gözləmədən Naxçıvanda suveren dövlətin atributlarının yaranması üçün düşünülmüş addımlar atır, uzaqgörən qərarlar qəbul edirdi. Həmin dövrdə keçmiş sovet ordusunun Naxçıvan ərazisindən çıxarılması, Araz çayı üzərində Türkiyə və Naxçıvanı birləşdirən körpünün tikilməsi, kolxoz və sovxozlara məxsus mal-qaranın əhaliyə paylanması və bu kimi digər işlər yalnız dahi şəxsiyyətin uzaqgörən siyasətinin nəticəsi ola bilərdi. Hadisələrin sonrakı gedişi göstərdi ki, 1991-1992-ci illərdə Sovetlər İttifaqı kimi imperiyanın hələ mövcudluğu dövründə analoqu olmayan bu qərarları xalqın dəstəyini qazanan lider – Heydər Əliyev qəbul edə bilərdi və qəbul edirdi. Tarix Heydər Əliyevin nə qədər uzaqgörən dahi bir siyasətçi olduğunu təsdiq etdi və onun rəhbərliyi ilə Azərbaycanın müstəqilliyinin təməl daşı Naxçıvan Muxtar Respublikasında qoyuldu.

Heydər Əliyevi Ulu Tanrı təkcə Naxçıvana yox, həm də bütövlükdə Azərbaycana vaxtında yetirdi və o, əvvəlcə Naxçıvanı, sonra isə Azərbaycan Respublikasını nəinki məhv olmaqdan qorudu, həm də onların dirçəlməsi, bərpa olunması və inkişafı, Avropa və Dünya Birliyinə inteqrasiya olunmasını, Azərbaycan adlı məmləkətin varlığını və gündən-günə yüksəlişini təmin etdi. Heydər Əliyevin Azərbaycanın 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Onun qoyduğu irs hələ bundan sonra da uzun illər azərbaycan xalqına və vətənimizə xidmət edəcək, onlara şərəf gətirəcəkdir. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi olan Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır.

Onun ölümü xalqımız üçün böyük itki olsa da, müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycan tarixində misilsiz xidmətləri və onun xatirəsi qədirbilən xalqımız tərəfindən əbədiləşdirilir.

Ayrı-ayrı vətəndaşların, əmək kollektivlərinin, idarə və təşkilatların çoxsaylı müraciətləri nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının fərmanı ilə hazırda Ümummilli liderimizin adını daşıyan bir çox iri müəssisələr, beynəlxalq hava limanı, idman və konsert sarayları, küçə və prospektlər vardır. Heydər Əliyevin şərəfinə ölkəmizdə platin, qızıl və gümüş xatirə sikkələri buraxılır. Heydər Əliyevin əziz xatirəsi təkcə Azərbaycan Respublikasında deyil, həm də bir çox xarici ölkələrdə - Türkiyə, Gürcüstan, Ukrayna, Rumıniya və başqa ölkələrdə böyük hörmətlə yad edilir, ona xatirə abidələri ucaldılır, parklara, meydançalara, küçə və prospektlərə onun adı verilir.

Mən özümü xoşbəxt hesab edərək fəxr edirəm ki, Ulu öndərimizin adının əbədiləşdirilməsi, xatirəsinin yad edilməsində azacıq da olsa mənim də payım vardır. Belə ki, xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışı ilə daha çətin vəzifəni – xilaskarlıq və quruculuq işlərini həyata keçirən Heydər Əliyevin 1993-cü ildə Azərbaycan Respublikasının Ali Sovetinə sədr seçildiyi günün – 15 iyunun "Milli qurtuluş" günü elan olunması barədə 1997-ci il iyun ayının 17-də Milli Məclisdə ilk dəfə mənim səsləndirdiyim təklif on gün sonra Milli Məclisin gündəliyinə çıxarıldı və deputatlar tərəfindən dəstəkləndi. Beləliklə, bu böyük şəxsiyyətin Azərbaycan naminə gördüyü işlərin qiymətləndirilməsi istiqamətində müstəqil ölkəmizdə dövlət səviyyəsində ilk addım atıldı. Ölkə həyatının bütün sahələrində, o cümlədən aqrar sahədə aparılan islahatların müəllifi Ümummilli liderimiz Heydər Əliyevdir. Odur ki, "Heydər Əliyev və dövlətin aqrar siyasəti" adlı 700 səhifəlik kitabı son əsrdə Azərbaycan xalqının yetirdiyi ən böyük şəxsiyyət olan Heydər Əliyevin 80 illik yubileyinə hədiyyə etməyi özümə borc bildim.

Heydər Əliyevin fəaliyyətinə əsl qiyməti zaman verəcəkdir. Bundan sonrakı yeni şəraitlərdə Heydər Əliyev siyasətinin davam etdirilməsi, özülü Heydər Əliyev ideologiyası əsasında qurulan Azərbaycan dövlətinin əbədi yaşaması üçün hamımız bu böyük insanın həyatından və fəaliyyətindən nümunə götürməliyik.

FİKRƏT İSMAYILOV
YAP Siyasi Şurasının üzvü,
YAP Yasamal təşkilatının sədri

DAHİ ŞƏXSİYYƏT, ULU ÖNDƏR

Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində bəşəriyyətə böyük dühalar bəxş etmişdir; Nizami Gəncəvi, Əfsələddin Xəqani, Nəsrəddin Tusi, Əcəmi Naxçıvani, Məhəmməd Füzuli, Hüseyn Cavid, Səməd Vurğun;

- tam siyahısı olmayan bu dühaların hər biri ayrılıqda ədəbiyyat, incəsənət, elm, memarlıq və s. sahələrdə fəaliyyət göstərərək bəşər tarixinə öz töhfələrini vermişlər.

XX əsrdə Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi dühalar arasında geniş əhatəli dərin biliyə malik olan nadir şəxsiyyət Heydər Əlirza oğlu Əliyev diqqəti xüsusi cəlb edir.

Əliyevlər ailəsində bir Heydər kimi dünyaya göz açan bu insanı Allahtəla sanki Azərbaycan xalqının bütün ağrı acısını çiyninə almaq, onu məhv olmaqdan xilas etmək üçün yaratmışdır.

Görkəmli şəxsiyyətlər haqqında müdrik kəlamlar çox deyilmişdir. Ancaq şərqin böyük filosof-şairi Ömər Xəyyamın şəxsiyyətlər haqqında min il bundan əvvəl dediyi müdrik kəlam sanki Heydər Əliyev şəxsiyyətinə ünvanlanmışdır;

-Xilas etmək məhz Kamil insana xas olan keyfiyyətdir. Allahtəla kamil insanı həyata xeyirxah əməllər törətmək, xalqını xilas etmək üçün gətirir.

Kamil bir şəxsiyyət kimi formalaşma, cəmiyyətdə hörmət qazanmaq Heydər Əliyevdə özünü hələ uşaqlıq illərindən büruzə vermişdir. Heydər Əliyevin həmyaşıdları və müəllimləri o dövr Heydər Əliyev haqqında xatirələri böyük iftixarla yada salırlar. Bununla əlaqədar olaraq müəllim-tələbə münasibətləri haqqında bir xalq deyimini yada salaq;

- Adətən müəllim şagirdin və ya tələbənin yadında yaxşı qalır;

bu aydındır; şagirdin, tələbənin müəllimin yadında qalması uzun illər keçəndən sonra şagirdin (tələbənin) o dövrdəki hərəkətlərini müəllimin yada salaraq xatırlaması, xüsusi hallarda;-şagirdin fitri, nadir istedada

malik olması, müəllimin suallarına düzgün, məntiqi cavablar verməsi, şagirdin başqalarından fərqli diqqəti cəlb edən hərəkətləri davranışı sayəsində mümkün ola bilir.

Bu baxımdan Heydər Əliyevin müəllimi olmuş Tofiq Bəktaşinin dediklərindən;

- «Mən orta məktəb və texnikumda Heydər Əliyevə dərs dediyim vaxtlar onun suallara verdiyi düzgün, məntiqi səlis cavablar, o dövrdəki onun davranışı, hərəkətləri diqqətimi cəlb etmiş məndə belə bir qənaət yaranmışdır ki, bu uşaqda nə isə qeyri adi bir fitri istedad var, nə haqdasa dərin düşünür, fikirli davranırdı. Sanki onun daxilində «bir məşəl yanırdı». Bu məşəlin nə vaxtsa ölkəni işıqlandıracağına, xalqına xidmət edəcəyinə məndə bir inam yaranmışdır. Şükürlər olsun Allaha ki, mən o günü - Heydər Əliyevin dünya şöhrətli, nüfuzlu dövlət xadimi olduğu dövrü yaşadım!»

Yüzlərlə görkəmli alimlərin-akademiklərin vaxtilə müəllimi olmuş bu mahir pedaqoqun öz şagirdi haqqında uzaqgörənliklə duyduğu və böyük iftixarla dediyi fikir idi.

Heydər Əliyevdə olan bu fitri istedad, özünə qarşı olan tələbkarlığı, hər hansı bir işə qarşı məsuliyyətlə yanaşması onun keçmiş Sovetlər İttifaqının Dövlət Təhlükəsizlik Nazirliyi məktəbində, F.E.Djerzinski adına Ali Çekis məktəbində və Bakı Dövlət Universitetində təhsilini əla qiymətlərlə başa vurması, mətin, cəsarətli, peşəkar bir çekis, rəhbər kimi yetişməsində özünü bir daha təsdiqlədi.

Bu gün bir çox sosioloqlar, diplomatlar, hüquqşünaslar, görkəmli dövlət xadimləri Heydər Əliyevin beynəlxalq aləmdəki fəaliyyətini, nüfuzunu etiraf edərək, onu Corc Vaşinqton, Mustafa Kamal Atatürk, Şarl de Qol, Konrad Adenauer və başqaları ilə müqayisə edirlər. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, bu tarixi şəxsiyyətlərin fəaliyyət göstərdiyi dövrlə, XX əsrin axırları- Heydər Əliyev dövrünü- 1987-1994-cü illərlə müqayisə etmək düzgün olmazdı. Çünki Heydər Əliyev dövrü ictimai siyasi cəhətdən həddindən artıq keşməkeşli, qarışıq, mürəkkəb bir dövr idi. Azərbaycanda marağı olan xarici dövlətlər aşkar, gizli, iki cəbhəyə xidmət edən, öz mənafeləri üçün hər cürə təxribat törədən, vətəni satmağa belə hazır olan daxili xəyanətkar qruplaşmalar «hökmranlıq» edirdilər. Belə ağır bir şəraitdə fəaliyyət göstərən dahi şəxsiyyət Heydər

Əliyev öz ağlına, zəkasına, xalq arasında olan nüfuzuna, xalqın ona olan inamı sayəsində ölkəni məhv olmaqdan, siyasi xəritədən bir dövlət kimi silinməkdən xilas etdi. O dövrdə zaman faktorunu, əhalinin inkişaf səviyyəsini nəzərə aldıqda Heydər Əliyevin göstərdiyi qətiyyət, cəsarət, vətənpərvərliyi nəzərə alsaq, tam qətiyyətlə demək olar ki, Heydər Əliyevi başqaları ilə müqayisə etmək olmaz!

Heydər Əliyev çox uzaqgörən, hadisələrdən düzgün nəticə çıxaran, ölkə daxilində, xaricində baş vermiş hadisələri bir-biri ilə uzlaşdıran, bu hadisələrin nə ilə nəticələnəcəyini, cəmiyyət, xalq üçün nə verəcəyinin dərin təhlilini verə bilən əvəzsiz Dövlət xadimi, müdrik, kamil bir şəxsiyyət idi.

Heydər Əliyev irəli sürdüyü hər hansı bir iqtisadi-siyasi, diplomatik, məsələləri məntiqi cəhətdən o qədər dəqiqliklə əsaslandırırdı ki, onun təklifinə əlavə etmək, irad tutmaq belə mümkün deyildir.

Heydər Əliyevdə olan bu keyfiyyət onun Sovet İttifaqı Kommunist partiyasının Siyasi Şurasının üzvü, Nazirlər Kabinetinin birinci müavini olduğu dövrlərdə bir daha özünü təsdiqləmişdir.

Bununla əlaqədar olaraq onun əmək fəaliyyətinə başladığı vaxtlara nəzər salaq.

Heydər Əliyev Azərbaycan Respublikasında Dövlət Təhlükəsizliyk Komitəsində sədr olduğu vaxtlar yenə də xalqının mənafeyini hər şeydən yüksək tutaraq, o dövrdə bir neçə Azərbaycan ziyalısını, ədəbiyyat, incəsənət, elm xadimlərini kommunist partiyasının təqibindən xilas etmiş, bir çox sənət əsərlərinin səhnəyə, ekrana çıxmasına yol açmışdır ki, bu da onun varlığında məskən salmış, daxilindən gələn, xalqına, vətəninə olan sevgi-məhəbbətin təzahürü idi.

1960-cı illər Azərbaycan iqtisadi, sosial cəhətdən keçmiş Sovet respublikaları arasında axırıncı yerlərdən birini tuturdu.

Heydər Əliyevdə olan təşkilatçılıq, idarəçilik, insanlarla ünsiyyət yaratmaq, təsərrüfatçılıq keyfiyyətlərini nəzərə alaraq O, 1969-cu il 14 iyulda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə Birinci Katib seçildi.

Bununla da Heydər Əliyevin öz daxili potensial enerjisindən xalqı, vətəni üçün qurub yaratmaq, sözün əsl mənasında xalqına xidmət etməyin yeni mərhələsi başlandı. Bunu xüsusi qeyd etmək lazımdır ki, Heydər Əliyev hər iki dəfə ölkənin ağır vəziyyətində hakimiyyətə gəlmişdir.

Heydər Əliyevin respublikaya rəhbərliyə başladığı ilk günlərdən nizam-intizam yaratmaq, rüşvətxorluğa qarşı mübarizə aparmaq, əhalinin iqtisadi-sosial vəziyyətinin yaxşılaşdırılması sənaye və kənd təsərrüfatı sahəsində geniş masştablı islahatların aparılması ilə başladı. Heydər Əliyevin şəxsi nüfuzu sayəsində respublikanın dövlət büdcəsi Sovetlər İttifaqının hesabına ildən ilə artır, respublikada İttifaq əhəmiyyətli yeni, müasir sənaye müəssisələri, yeni elmi tədqiqat institutları, universitetlər yaradılır, yüz minlərlə Azərbaycan vətəndaşları üçün iş yerləri açılır, respublika əhalisinin güzəranı əsaslı surətdə yaxşılaşmağa başlayırdı.

Heydər Əliyev çox uzaqgörən müdrik bir Şəxsiyyət idi. O, Sovetlər İttifaqı da daxil olmaqla, beynəlxalq aləmdə baş verən hadisələri dərindən, məntiqi surətdə təhlil edərək, hadisələrin nə ilə nəticələnəcəyini uzaqgörənliklə müəyyənləşdirərək Azərbaycanın müstəqillik əldə edəcəyinə inanırdı. Heydər Əliyev hələ 1970-ci illərdə heç kəsin cəsarət edə bilməyəcəyi gələcək müstəqilliyimizin qorunması, hərtərəfli inkişafını təmin edəcək maddi texniki bazanın yaradılması üçün tədbirlər planını hazırlayıb, həyata keçirirdi. Məhz bunların məntiqi nəticəsidir ki, Sovet İmperiyasının şovinist rəhbərlərinin hökm sürdüyü bir şəraitdə böyük cəsarət, hünər, qətiyyət göstərərək 1973-cü ildə C.Naxçıvanski adına hərbi məktəbi yaratdı. Hansı ki, bu məktəb Müstəqil Azərbaycan Respublikasının ordu quruculuğu və ölkənin müdafiəsində mühüm rol oynayır.

Müstəqil Azərbaycan Respublikasının yüz il bundan sonrakı hərtərəfli inkişafının etibarlı təminatı olan Yeni Neft Strategiyası; «ƏSRİN MÜQAVİLƏSİNİN» (Neft Kontraktlarının) bağlanması, hasil olunan neft və qazın Beynəlxalq bazara, Avropaya çıxarılması üçün «BAKI-TİBİLİSİ-CEYHAN» neft kəmərinin, «BAKI-TBİLİSİ-ƏRZURUM» qaz kəmərinin, «MÜASİR BAKI NEFTAYIRMA ZAVODUNUN» bunlar kimi yüzlərlə mühüm əhəmiyyətli müasir emal və istehsal müəssisələrinin yaranmasının əsasını qoyub, zəmin yaradan, «DƏRİN ÖZÜLLƏR ZAVODUNU» məhs Sovetlər dövründə tikdirməsi, müasir elm, sənaye, dövlət idarəçiliyi üçün kadrların hazırlanması, qayğısına qalması ancaq Heydər Əliyev uzaqgörənliyi ilə mümkün oldu. Bütün bunlar Dahi Şəxsiyyətin Azərbaycan dövlətinin ilk növbədə iqtisadi cəhətdən müstəqilliyinin təmin olunması, onun qüdrətli dünyəvi bir dövlətə çevrilməsinin qayğısına qalması idi.

Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə birinci gəlişi Azərbaycanı iqtisadi və sosial gerilikdən xilas etdisə, 1993-cü ildə ölkə məhv olmaq ərəfəsində idi. Ölkədə qan tökülmüş vətəndaş müharibəsi başlamaq üzrə idi. Surət Hüseynovun toplarının səsi Novaidən gəlirdi, ölkə idarə olunmurdu, idarə edən də yox idi. Ölkədə hərcmərclik baş alıb gedirdi. Xalqın, ölkənin Heydər Əliyev zəkasına, dövlətçilik təcrübəsinə, beynəlxalq aləmdə qəbul olunmuş nüfuzuna ehtiyacı var idi.

Bu dövrdə Heydər Əliyev blokada şəraitində olan Naxçıvan MR Ali Məclisinin sədri idi. Bunu xüsusilə qeyd etmək lazımdır ki, məhz blokada şəraitində olan Naxçıvanın bir qarış torpağı belə Heydər Əliyevin təşkilatçılığı sayəsində erməni işğalçılarına verilmədi və Naxçıvanda uğurlu iqtisadi-sosial islahatlar keçirilməyə başlandı. Məhz Azərbaycanın belə bir ağır şəraitində o vaxtkı, iqtidarın dəfələrlə xahişinə əhəmiyyət verməyən Heydər Əliyev ayağa qalxmış xalqın təkidi, tələbi ilə 09 iyun 1993-cü ildə Bakı şəhərinə gəldi, elə həmin gün də Gəncə şəhərinə gedərək qiyamı yatırtdı, vətəndaş müharibəsinin qarşısını aldı. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gətirilməsi Azərbaycanın bir dövlət, xalq kimi məhv olmaqdan xilas edilməsi demək idi. Heydər Əliyev hakimiyyətə top, tüfənglə gəlməmişdi. O, məhz xalqın iradəsinə, xalqın ona olan inamına, məhəbbətinə arxalanaraq bu ağır məsuliyyətli işi öz üzərinə götürmüşdür. Hakimiyyətə gəldiyi gündən Dahi Öndər ilk növbədə mövcud olan;

- qeyri qanuni silahlı dəstələri ləğv edib, əmin-amanlıq yaratmaq;
- ordu quruculuğuna başlayıb, güclü ordu yaratmaq;
- xarici dövlətlərlə diplomatik əlaqələr yaradıb, xarici sərmayəni ölkəyə cəlb etmək kimi çətin, ağır problemlərin həlli ilə məşğul oldu və bununla da tez bir zamanda əhalinin iqtisadi, sosial vəziyyətini yaxşılaşdırdı.

Ölkədəki bu acınacaqlı şərait bir də onunla əlaqədar idi ki, bir qrup xəyanətkarlar tərəfindən zavod, fabriklər dağıdılıb talan olmuş, avadanlıqlar dəyər-dəyməzinə xarici ölkələrə satılmışdır, yenilərini isə tikmək, əhali üçün iş yerləri yaratmaq mümkün deyildi. Belə bir ağır şəraitdə ölkənin hansı təbii sərvətinə beynəlxalq aləmdə ehtiyac olduğu, ölkəyə xeyir gətirəcəyini uzaqgörənliklə müdrik siyasətçi kimi müəyyənləşdirən Heydər Əliyev Xəzər dənizinin dibindəki zəngin neft yataqlarından istifadə olunmasını ön plana çəkdi. Belə bir məqamda, Xəzəryanı dövlətlər və digərləri bu plana maneçilik törətmək istədilər. Beynəlxalq hüquq normalarına əsaslanan Heydər Əliyevin qətiyyəti, sücaəti, cəsarəti, beynəlxalq aləmdəki nüfuzu sayəsində 20 sentyabr 1994-cü ildə «ƏSRİN MÜQAVİLƏSİ» imzalandı!

Ulu Öndər Azərbaycanın Yeni Neft Strategiyasının gələcəyinə inanır və onun əhəmiyyətinin və bu strategiyanın düşünülmüş şəkildə həyata keçirilməsi haqqında demişdir:

«Xəzər dənizinin hüquqi statusu məsələsinin sahilyanı dövlətlər arasında həlli, onların suveren hüquqlarına hörmət, qarşılıqlı surətdə faydalı əməkdaşlıq ruhunda, dinc vasitələrlə, danışıqlar yolu ilə həyata keçirilməlidir. Sahilyanı dövlətlər arasında münasibətlərdə güc işlətməklə təzyiq göstərməyin və hədə-qorxunun hər hansı forma və metodlarından istifadə edilməsi yolverilməzdir».

Heydər Əliyev Neft strategiyasının ikinci əsas mərhələlərindən olan; - hasil olunmuş karbohidrogenlərin Beynəlxalq bazara ixrac olunması üçün «BAKI-TBİLİSİ-CEYHAN» neft kəmərinin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir:

«Bakı-Tbilisi-Ceyhan boru xəttinə dünyada daim çox böyük maraq, böyük diqqət, eyni zamanda müxtəlif tərəflərdən müqavimət var. Biz bu layihəni yerinə yetirəcəyik. Buna mənim heç bir şübhəm yoxdur!»

2005-ci ilin axırına kimi istifadəyə veriləcək bu beynəlxalq əhəmiyyətli dünya birliyinin mənafeyinə xidmət edəcək Şərq-Qərb dəhlizi-«HEYDƏR ƏLİYEV adına BAKI-TBİLİSİ-CEYHAN» neft kəmərinin reallaşması Heydər Əliyevin uzaqgörən, müdrik, uğurlu siyasətinin məntiqi nəticəsidir.

Əsrin Müqaviləsi imzalanandan sonra Müstəqil Azərbaycanın ilk uğurlu addımı xəyanətkar qüvvələrin dövlət çevrilişinə cəhdi ilə rastlaşdı. 04 oktyabr 1994-cü ildə qara qüvvələr dövlət çevrilişinə cəhd etdilər. Heydər Əliyev xalqın iradəsinə güvənərək bu həlledici məqamda topsuz, tüfəngsiz qara qüvvələrin qarşısına çıxdı və televiziya ilə gecə yarısı Heydər Əliyevin bir çağırışı ilə Bakının ətraf rayonlarından belə, yüz minlərlə Azərbaycan vətəndaşı Prezident Aparatının qarşısına axışdı, Bakı Metrosu, avtobuslar, hətta taksilər belə əhalini ödənişsiz Prezident Aparatının qarşısına çatdırırdılar. Xalq öz xilaskarının, dövlətinin müdafiəsinə

qalxdı. Yenə də Heydər Əliyev müdrikliyi, Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyevə olan ümumxalq məhəbbəti, inamı öz sözünü dedi, xəyanətkarların cəhdi baş tutmadı!

Bundan nəticə çıxarmayan xəyanətkarlar 1995-ci ilin 15-16 martında yenidən dövlət çevrilişinə cəhd etdilər. Onların bu cəhdi də boşa çıxdı. Bir daha sübut oldu ki, xalq öz lideri Heydər Əliyevi sevir, onun yeritdiyi siyasi xətti dəstəkləyir.

Ulu Öndər ölkədə əmin-amanlığı yaratdıqdan sonra Azərbaycanda əsaslı Dövlət quruculuğu, iqtisadi, aqrar sahədə islahatlar aparılmasına başladı. Heydər Əliyevin rəhbərliyi ilə Müstəqil Azərbaycan Respublikasının əsas Qanunu-Konstitusiyası hazırlandı və 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olundu. Demokratik prinsiplər əsasında qanunverici orqan-Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirildi.

Heydər Əliyevin müdrik daxili, xarici siyasəti, şəxsi nüfuzu sayəsində Gənc Müstəqil Azərbaycan Dövləti bir neçə Beynəlxalq təşkilatlara; Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT); Müstəqil Dövlətlər Birliyi (MDB); Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT); Avropa Şurası Partament Assambleyası (AŞPA) və başqalarına üzv seçildi.

Heydər Əliyev sözün əsl mənasında xalqın öndəri, ağsaqqalı idi. O, geniş əhatəli dərin biliyi sayəsində beynəlxalq aləmdə bütün səviyyələrdə böyük hörmət, nüfuzlu bir şəxsiyyət kimi qarşılanırdı. Bu təkzib olunmaz həqiqəti 1997-ci ildə Heydər Əliyevin Moskva səfəri vaxtı onun Rusiya Elmlər Akademiyası rəyasət heyətinin üzvləri, keçmiş Sovet-Rusiya elminin korifeyləri ilə görüşü zamanı bu görkəmli alimlərin Heydər Əliyevin çıxışına necə heyranlıqla qulaq asması sübut edir.

Bu hadisələrdən sonra mən Moskvada elmi ezamiyyətdə oldum. Bir neçə görkəmli alimlər; bunların sırasında görkəmli akademiklərdə var idi. Heydər Əliyev partiyasının üzvü, böyük bir rayon təşkilatının sədri kimi Heydər Əliyev haqqında daha ətraflı, məlumatlı olduğumu hesab edərək mənə:

- Heydər Əliyev ixtisasca kimdir?- dövlət xadimidir, maşınqayırandır, metallurqdur, həkimdir, memardır, tarixçidir və s. kimi suallarla müraciət etdilər. Mən Heydər Əliyevin belə geniş əhatəli, dərin biliyinin, hansı sahəsinə üstünlük verib, başqa sahələri ikinci dərəcəli hesab etmək kimi məsuliyyəti üzərimə götürmək qarşısında çətinlik çəkərək belə cavab verdim;- «Mən özüm də bilmirəm ki, o, hansı ixtisasın sahibidir. Bunu deməyə hər bir şəxsin hüququ vardır. Ancaq onu bilirəm ki, O geniş əhatəli, dərin biliyə malik olan nadir bir şəxsiyyətdir. Çünki O nədən, hansı mövzudan söhbət açırsa, o sahədə o qədər yüksək profesionallıqla çıxış edir ki, intellekt səviyyəsindən asılı olmayaraq hamı ona heyranlıqla qulaq asır». Baş verən hadisələr göstərir ki, hətta Rusiya vətəndaşları, elmi ictimaiyyəti uzun müddət Heydər Əliyevin bu çıxışının təsiri altında olmuşlar. Məhs Heydər Əliyevdə olan bu fitri istedad ona beynəlxalq aləmdə hörmət, nüfuz qazandırmış, hər yerdə PLANETİMİZİN AĞSAQQALI kimi qarşılanmışdır.

Heydər Əliyev Azərbaycanın gələcəyi qayğısına çox diqqət yetirirdi. Ələlxüsus gənclərin qayğısına qalır, onların ölkədəki qarışıqlıq dövründə qara qüvvələr tərəfindən cəlb olunduqları bəd əməllərdən çəkindirmək gəncləri təhsilə, elmə, idmana-sağlamlığa, yaradıcılığa cəlb etmək məqsədilə «Respublika Gənclər, İdman və Turizm Nazirliyi» və bütün regionlarda idman-olimpiya kompleksləri yaradılması məsələsini ön plana çəkdi. Gənclərin əxlaqını pozan gecə barları, kozinolar ləğv edildi. Milli mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişaf etdirilməsi məqsədilə bu dəyərlərimizin gənclərə aşılandırılması, nəsildən-nəsilə ötürülməsini cəmiyyət qarşısında bir vəzifə kimi qoydu.

Elmin, ədəbiyyatın, incəsənətin inkişafı Heydər Əliyevin həmişə diqqət mərkəzində olmuşdur. Buna misal olaraq, elm, ədəbiyyat, incəsənət xadimləri üçün fərdi təqaüdlərin təyin olunması əmək haqlarının artırılmasının, özəl universitetlər şəbəkəsinin genişləndirilməsini göstərmək olar. Bütün bunlarla yanaşı, ölkədə abadlıq və quruculuq işlərinin aparılması da Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Heydər Əliyev siyasətinin ardıcıl, uğurlu, layiqli davamçısı İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin başqa planları kimi, ölkədə abadlıq, quruculuq sahəsində də, uğurlu addımlar atılmış, «Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı» qəbul olunmuş və uğurla həyata keçirilir.

Öndər kimi Heydər Əliyevin keçdiyi həyat yolunu Azərbaycan Respublikasında birinci, ikinci hakimiyyəti dövrü fəaliyyətini;-onun idarə etmə üsulunu, məzmunlu-məntiqli, mənalı çıxışları, duzlu zarafatları, töv-

siyəsəti, geyimi və davranışından hətta tənbehlərindən belə ibrət götürmək, öyrənmək, təhlil etmək hər bir şəxs üçün çox faydalı olardı.

Ulu Öndər özündən sonrakı dövrlər üçün Azərbaycan Dövlətinin-diyarının qayğısına qalaraq çox uzaqgörənliklə planlar işləyib-hazırlamışdır.

Heydər Əliyev xalqın daha da xoşbəxt firavan gələcəyini təmin etmək məqsədilə Azərbaycan xalqına «üç Müqəddəs əmanət» qoymuşdur ki, onlardan,

- 100 il bundan sonra belə yüksələn xətt boyunca hərtərəfli inkişaf proqramı müəyyənləşdirilmiş, müstəqil, unitar, dünyəvi Azərbaycan dövləti;

- Məişətdə, ictimaiyyətdə, idarə etmədə, diplomatiyada, davranış və ünsiyyətdə Heydər Əliyev məktəbini keçmiş, Heydər Əliyev siyasətinin sədaqətli, etibarlı, ləyaqətli davamçısı İlham Heydər oğlu Əliyev;

- Azərbaycan xalqının inam, hörmətini qazanmış, analoqu olmayan, sıraları gündən-günə artan, ən mütərəqqi partiya olan Yeni Azərbaycan Partiyasıdır ki, Ulu Öndər bu partiyanın fəaliyyətini belə qiymətləndirirdi;

«Mən Yeni Azərbaycan Partiyası ilə bərabərəm və partiyanın bugünkü vəziyyətini görərkən çox sevinirəm və hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və fəaliyyət göstərəcəkdir!».

Heydər Əliyevin partiyaya verdiyi bu qiymət zaman keçdikcə həyatda özünü təsdiqləyir. Bunun məntiqi nəticəsidir ki, 26 mart 2005-ci ildə Yeni Azərbaycan Partiyası-Heydər Əliyev partiyasının III Qurultayı keçirildi və bu Qurultayda 360 mindən artıq partiya üzvlərini təmsil edən Qurultay nümayəndələri mütəşəkkillik, birlik, partiyaya, Heydər Əliyev siyasətinə sadiqlik göstərərək Yeni Azərbaycan Partiyası sədrliyinə yekdilliklə Heydər Əliyevin siyasi varisi Möhtərəm Prezidentimiz İlham Əliyevi seçdi.

Bu yazıda iradlar da ola bilər. Bu iradlar bir həqiqətlə əlaqədardır. Hər hansı bir mahir natiq Heydər Əliyev haqqında çıxış edib, tribunanı tərk edərkən düşünür. Heydər Əliyev fəaliyyətinin «bu» sahələrini ... nə səbəbə demədim.

Mahir yazıçı, jurnalist Heydər Əliyev haqqında yazısının son nöqtəsini qoyarkən təəssüflənir ki, Heydər Əliyevin fəaliyyətinin hansısa «sahəsini» niyə işıqlandırmadım.

Bütün bunlar Heydər Əliyev fəaliyyətinin geniş əhatəliliyi və dərin məzmunluluğundan yaranan etirafdır!

RÖVŞƏN MUSTAFAYEV
Azərbaycan Dövlət Quruculuğu və
Beynəlxalq Münasibətlər İnstitutunun direktoru

ŞƏXSİYYƏT VƏ ZAMAN

Biz XXI əsrə qədəm qoymuşuq. Görkəmli alim Tofflerə görə, bu əsr şəxsiyyət və biliklər əsridir. Odur ki, kimsə küçələrə çıxıb hay-küylə harasa getmək istəyirsə, bu, yalnız geriyə, bolşevizmə, kommunizm xülyalarına – keçmişə qayıdış yoludur.

Heydər Əliyev milli intellektual elita, yeni-yeni istehsal sahələri yaradır, uzunmüddətli neft və kommunikasiya müqavilələri, perspektivli layihələrə imza atmaqla respublikanı daim gələcəyə hazırladığı üçün, təsadüfi deyil ki, Azərbaycan xalqı hələ 1993-cü ildə XXI əsrə, yəni Heydər Əliyevə səs vermişdir.

Elə dəyərlər var ki, onu çox vaxt demokratiyanın sütunu adlandırırlar. Bu xalq hakimiyyəti, idarə olunanların razılığına əsaslanan hökumət, əksəriyyətin qaydaları, əsas insan hüquqlarına təminat, azad seçkilər, sosial və siyasi plüralizm, dözümlülük, praqmatizm və əməkdaşlıq dəyərləridir. Bunlar ümumən Perikl Afinası demokratiyasının dövründən bütün demokratiyalara xasdır. Yeri gəlmişkən deyək ki, demokratiya heç də zərif çiçək olmayıb, Pelopones müharibəsinin məğlubiyyətini dadsa da, təxminən 200 ildir ki, mövcuddur.

Azərbaycanda bütün çətinliklərə baxmayaraq, indi demokratik cəmiyyətin institusional əsasları yaradılmışdır. Yolumuz daşlı-kəsəkli olsa da, biz özümüzə əminik. İrtica qüvvələri ən iyrənc üsullarla belə bu irəliləyişə mane olmaq istəsələr də, demokratik proses dönməzdir. Siyasi hoqqabazları qəbul etməyən yolun məntiqi belədir.

Azərbaycan xalqı mövcud olduğu min illər ərzində çox sayda müxtəlif etnik və mənəvi materialı özündə cəmləşdirib əritmiş, mənimsəmiş, ayrı-ayrı baxışları, təsəvvürləri, demək olar, bütün dünya dinlərini öz mövcudluğu və inkişafına uyğunlaşdırmış, dünya gerçəkliklərinə yanaşmanın çoxcəhətliyi, çoxvariantlığı ilə fərqlənən Azərbaycan baxışını yaratmışdır. Azərbaycanın gələcəyin çağırışına cavab verməsi üçün özünü xatırlamaq bəs edirdi. Azərbaycan universiumunda dünya ilə müxtəlif qarşılıqlı əlaqə

variantları proqramlaşdırılıb və xalqın uzunmüddətli strategiyasını işləyib hazırlayarkən təfəkkürün bu sərvətindən, azərbaycanlıların dünyanın müxtəlifliyinə müvafiq tərzdə reaksiya verə bilmək qabiliyyətindən istifadə edilmişdir. Riyazi baxımdan bunu bitməz-tükənməz tənliklər şəklində vermək olar: onların hər birində konkret şəraiti özündə əks etdirən elementlər mövcuddur; hər bir tənliyin həlli və bu qərarların məcmusu daim dəyişən həyat haqqında Azərbaycan təsəvvürü deməkdir. Bu sərvət içərisindən şəraitə daha çox uyğun gələn və daha düzgün cavab verən variantları seçmək mümkündür. Çoxvariantlı təfəkkür daha çevik manevr etmək və dəyişən gerçəkliklərə dərhal uyğunlaşmaq üçün şərait yaradır. Strateji uzunmüddətli layihə 1993-cü ildə Azərbaycan üçün həyati əhəmiyyət kəsb edirdi. Eyni zamanda, hətta əzələdən çoxvariantlı və çoxmənalı təfəkkür üçün hesablanmış vəziyyətlərdə belə ehkamlar yaratmağa qabil inersiyaya əsaslanan şüur meyllərinin xüsusiyyətləri nəzərə alınmalıydı.

ABŞ, Rusiya, Çin kimi böyük dövlətlər belə təcridolunma siyasətini özlərinə rəva bilmirlər. Dünyaya çıxış Azərbaycana hava-su kimi lazım idi. Əlaqələrin getdikcə yüksələn xətlə genişlənməsi doktrinası da yeni strategiyanın başlıca əsasını təşkil etmişdir.

Dinamik, arası kəsilməyən genişlənmə fəlsəfəsi Azərbaycanın müstəmləkə təcridindən çıxma konsepsiyasıdır. Onun metodoloji əsasları Heydər Əliyev tərəfindən qoyulmuşdur. Buna qədər ölkənin dünya ilə ənənəvi əlaqəsi, əslində yalnız Moskva ilə əlaqələrlə məhdudlaşırdı. Heydər Əliyev konsepsiyasının həyata keçməsi birxətliliyi çoxxətliliklə əvəz etməyə imkan verdi. O, çox gözəl dərk edirdi ki, münasibətlərin daim inkişaf etdiyi bir zamanda təkcə qonşu ölkələr deyil, böyük dövlətlər də maraqlar dairəsinə düşə bilər və Azərbaycan da məhz onlar vasitəsilə dünyaya doğru irəliləməyə başlamış və belə əlaqələrin perspektivli mexanizmlərini işləyib hazırlamışdır.

Azərbaycan mənəviyyatı, üstəgəl müasir texnologiya, yeni elmi ideyaların mənimsənilməsi – tam ədalətli olaraq dünya siyasətinin patriarxı adlandırılan bir şəxsiyyətin – Heydər Əliyev konsepsiyasının prinsipləri bu düstur əsasında qurulmuşdur.

90-cı illərin əvvəllərində Sovet İttifaqının bütün keçmiş respublikalarını bürümüş ümumi böhranın obyektiv səbəbləri vardı. Onların da əksəriyyəti bu və ya digər şəkildə siyasi və elmi mətbuat səhifələrində işıqlandırılmışdır. Yeni müstəqil dövlətlərin düşdüyü və o zaman çoxları tərəfindən çıxılmaz kimi qəbul edilən vəziyyət əslində azadlığa və demokratiya cəhdlə yox, cəmiyyətin inkişafını ziddiyyətlərin mübarizəsi, faydasız toqquşmalar, hamının hamıya qarşı tükənməz müharibəsindən kənar təsəvvür etməyən "sovet təfəkküründən" stereotipləri ilə qabaqcadan müəyyənləşmişdir. Nə yazıq ki, yeni cəmiyyət qurarkən biz çox vaxt (ixtiyari və qeyri-ixtiyari) zorakılıq fəlsəfəsinə istinad edirdik. Və bir nəticə olaraq millət daxilində uzun müddət davam edən qarşıdurma, siyasi fikir ixtilafları, qarşılıqlı ittihamlar və s. az qala respublikanı qlobal siyasi və dönməz iqtisadi böhrana gətirib çıxaracaqdı.

Heydər Əlirza oğlu Əliyev tarixımızın ən mürəkkəb anında xalqın təkidi ilə respublikaya başçılıq etdi. O vaxt çoxları problemləri haylı-küylü meydanlarda, ictimai təkamülün təsirli vasitəsi (bəlkə də yeganə) olan intellekti sosial inkişafdan kənarda qoyaraq məsuliyyətsiz qəti bəyanatlarla həll etmək istəyirdi. O günlərin dramatik çarpışmalarının qarşıya qoyduğu mürəkkəb sualların cavablarını bilən savadlı, ağıllı insanlar, təcrübəli mütəxəssislər çaşqınlıq içində idilər, çox vaxt isə işdən kənarlaşdırılmışdılar. Məhz o vaxt, 90-cı illərin əvvəllərində təhlükəli ictimai xəstəlik, – öz nəticələrinə görə ölkənin təbii sərvətini dəyər-dəyməzinə satmaqdan daha fəlakətli təzahür olan "beyin axını"nın ilk əlamətləri görünürdü.

Heydər Əliyev ölkənin belə bir məsul məqamında bütün sağlam təfəkkürlü, savadlı insanları, intellektualları əməkdaşlığa çağırdı. Bu dünya görmüş, dahi şəxsiyyət onları dinləməyə hazır idi və Azərbaycanın rifahı naminə onların bilikləri, faydalı təkliflərini tətbiq etməyə yer də tapırdı.

Heydər Əliyev böhranı dəf etmək sahəsində xarici ölkələrin təcrübəsini fəal surətdə öyrənir, uğura aparan yolları arayır, respublikanın mötəbər xarici şirkətlərlə ciddi əməkdaşlığına dair fikirlər söyləyirdi.

Heydər Əliyevin bir siyasətçi kimi nadirliyi, bənzərsizliyi ondan ibarətdir ki, o, Azərbaycanın çiçəklənməsində marağı olanların hamısının mənafeyi naminə çıxış edirdi.

O, çox gözəl dərk edirdi ki, dünya təcrübəsinin öyrənilməsi və bizim şəraitə tətbiqi yalnız o vaxt bəhrə verə bilər ki, özümüzün inkişaf yolumuz, yəni inkişafın Azərbaycan yolu tapılıb açılmış olsun. Heydər Əliyev şəxsiyyətinin tarixi rolu məhz belə yolun onun tərəfindən tapılmasında və respublikanın artıq bu yolla ilk addımlarını atmasında büruzə verir.

Heydər Əliyev üstün strateji amil kimi dövlətin inkişafının bütün sahələrini əhatə edən proqramın işlənməsi və yaradılmasını irəli sürdü və bu zaman cəmiyyətin təkamülünün birinci dərəcəli amili kimi iqtisadi azad-

lığın rolunun güclənməsinə xüsusi əhəmiyyət verirdi. Bu məqsədlə o, Azərbaycanın sabahkı gününü əziz tutan hər bir kəsi fəal əməkdaşlığa çağırırdı. Uzaq 70-ci illərdə olduğu kimi, görkəmli siyasətçi tam səmimiyyətlə inanırdı ki, yalnız respublikanın intellektual potensialını dəqiq təşkil etməklə ən mürəkkəb məsələləri həll etmək olar: istər cəmiyyət və insanlar arasında münasibətlərin ahəngdarlığının konstruktiv proqramları olsun, istərsə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ hərbi münaqişəsinin tez bir zamanda həlli və dünya tərəfindən erməni təcavüzünün mühakimə edilməsi yolunda atılan addımlar.

Azərbaycan qədim mədəniyyətə, tarixə, zəngin təbii sərvətə, istedadlı, işgüzar insanlara malik ölkədir. Bu nəhəng qüvvələr elə bir şəxsin intizarında idilər ki, onları görə bilsin və yerlərini göstərsin.

Azərbaycan xalqı elə bir xalqdır ki, onun mənəvi inkişafı, artıq qeyd edildiyi kimi, atəşpərəstlikdən tutmuş iudaizmə, xristianlıqdan islamadək bütün dünya dinlərindən keçmişdir. Dəyərlərin belə spektri bizə haqq verir ki, nadir mənəvi qatışığın mövcudluğundan, xalqın dünyanı xüsusi dərketmə, təfəkkürün çoxvariantlığı ilə bağlı imkanlarından danışaq. Bu mənəvi başlanğıc Heydər Əliyevə – Azərbaycan dövlətçiliyini dirçəltmə təşəbbüskarına, milli uğura tez bir zamanda nail olunacağına inanmağa imkan verirdi.

Azərbaycan dünyəvi demokratik dövlət quruculuğuna başlayaraq ictimai-siyasi və sosial-iqtisadi münasibətlərin bütün sistemində köklü islahatlar aparılmasını qarşıya məqsəd qoymuşdur. Cəmiyyətdə plüralist münasibətləri təmin etməkdən ötrü hər cür şərait yaradılır. Milli, etnik və dini azlıqların hüquqlarının qorunmasına xüsusi əhəmiyyət verilir.

Konkret pozitiv nəticələr əldə edilmişdir. Bununla belə, son illərin hadisələri millətlərarası münasibətlərin harmonizasiya probleminə, vətəndaşların, o cümlədən qaçqınların hüquqi bazasının, onların sosial, hüquqi müdafiəsinin möhkəmlənməsinə və psixoloji reabilitasiyasına xüsusi diqqət yetirilməsini tələb edir. Bunu həyata keçirmək olduqca vacib idi, belə ki, etnik separatizm Azərbaycan müstəqilliyinə qlobal təhlükə kimi özünü büruzə verirdi.

Separatizm dövlətçiliyin, cəmiyyətin demokratik quruluşunun mövcudluğunun özünün dağıdılmasına yönəldilmiş siyasi proqramdır. Bu proqram millətlərin öz müqəddəratını həll etmək hüququ dövlətin ərazi bütövlüyü prinsipinin fövqündə dayanır kimi yanlış postulat üzərində qurulub.

Real hüquqi məkanda millətlərin öz müqəddəratını təyin etmək hüququnun bu cür şərhi mühüm qanunverici mənbələrə dirənir. Nə hüquq nəzəriyyəsində, nə milli qanunvericiliklərdə, nə də beynəlxalq hüquqi sənədlərdə heç işarə də vurulmur ki, "Hər bir millət dövlətdir" düsturu hər hansı dövlətin çoxetniklik təcrübəsinə qələbə çala bilər.

Öz müqəddəratını təyinetmə, ələlxüsus etnik qruplar üçün, ilk növbədə, daha geniş ictimai-siyasi prosesdə iştirak etmək hüququ deməkdir. Separatizm isə etnik variantda mövcud sistemdən çıxma və ya müəyyən etnik-mədəni birlik üçün dövlətçiliyi rəsmiləşdirmək məqsədilə həmin sistemin dağıdılması deməkdir. Separatçılar üçün öz müqəddəratını təyinetmə həmişə ümumi dövlətdən zorla qopma, siyasi və mədəni ayrılma mənasında olmuşdur.

SSRİ dağıldıqdan sonra separatizm postsovet məkanında inanılmaz dərəcədə siyasətin aparıcı amilinə çevrilmiş, beynəlxalq ictimaiyyətin gözündə cəzbedici "milli-azadlıq hərəkatı" nüfuzu qazanmışdır. Separatçı hərəkatların (həmişə neqativ sayılır) nəticələrinin təhlili zamanı nəzərə alınmırdı ki, SSRİ-nin dezinteqrasiyası kifayət qədər kortəbii baş versə də, dünya birliyi onu qəbul etmişdi. Belə bir konsensusa nail olunmuşdu ki, bu, etnik birliklərin öz müqəddəratını təyin etmək hüququnu həyata keçirmək cəhdlərinin nəticəsi yox, keçmiş ittifaq respublikalarının öz müstəqilliklərini bərpa etmələrinin tarixi qanunauyğun prosesidir.

Respublikaların ayrılması bütün tərəflərin qarşılıqlı razılığı əsasında baş vermişdir. Bu halda etnik icmalar yox, çoxmillətli dövlətlər (azərbaycanlıları, kürdləri, rusları zorla qovmuş Ermənistan istisna olmaqla) öz müqəddəratlarını təyin etmişlər. Separatçılar etiraz edə bilərlər ki, biz millətin azadlığı və milli müstəqillik uğrunda mübarizə aparmışıq. Lakin biz Azərbaycanda əmin olduq ki, erməni separatizmi təkcə dövlətləri yox, həm də etnosların yurdlarını məhv etməyə qadirdir. Məsələ ondadır ki, müəyyən rayonlarda etnik azlıqlar əksəriyyət təşkil edir və dövlətin köklü əhalisini, Qarabağda olduğu kimi, zorakılığa, qovulmaya, "etnik təmizləməyə", departasiyaya məruz qoyur. Separatizm sivil cəmiyyətin meyarları ilə bir araya sığmır. O, əgər coğrafi-siyasi mühəndislik sənətində dövlətlərin rəqabət aləti olmasaydı, heç vaxt qlobal problemə çevrilməzdi. Bu baxımdan etnik separatizm tez-tez özünü beynəlxalq terrorizm şəklində büruzə verir.

Terrorizmin peşəkarlaşma meyli ilə bağlı təhlükəni qiymətləndirməmək olmaz. Separatçılıq taktikasının dəyişməsi prosesi olduqca ağırdır və çox vaxt uğursuzluğa düçar olur. RAF (Qırmızı Ordu Fraksiyası) Almanı-

yada, İRO (İrlandiya Respublika Ordusu) Şimali İrlandiyada, ETA ("Bask vətəni və azadlığı") İspaniyada və ASALA, CSAQ (Ermənistan) bu gün peşəkar terrorçular təşkilatıdır və onların elə bir ağlabatan ideya və siyasi məqsədləri yoxdur. Onlar, hətta guya maraqlarını qoruduqları dairələrdə belə, azlıqların diktaturasıdır. Belə ekstremizmə qarşı yalnız, qayda-qanunun təminatçısı kimi hakimiyyət qoyula bilər.

Beynəlxalq terrorizmlə mübarizə problemindən danışarkən mən bir qədər Azərbaycanın NATO ilə əməkdaşlığı üzərində dayanmaq istərdim. Yeri gəlmişkən, ölkəmizlə Ukrayna arasında əməkdaşlığın keyfiyyətcə yeni istiqamətləri məhz bu "meydançada" formalaşır.

Ötən yüzilliyin son illəri dünya nizamında, o cümlədən Qərblə Şərq arasında münasibətlərdə köklü dəyişikliklərlə əlamətdardır. Avropanın siyasi xəritəsində belə mühüm dəyişikliklərə gətirib çıxaran proseslərin zəmini hələ 60-70-ci illərdə qoyulmuşdur. Söhbət üç mühüm hadisədən gedir: NATO-nun 1967-ci ildə bir tərəfdən Şimali Atlantika İttifaqının müdafiə potensialının yüksəldilməsi, digər tərəfdən Qərblə Şərq arasında münasibətlərdə gərginliyin zəiflədilməsini nəzərdə tutan Armel doktrinasını qəbul etməsi; Villi Brandtın təşəbbüsü ilə Almaniya Federativ Respublikasının "Ostpolitik" – Şərqi Avropa və SSRİ ilə qarşılıqlı münasibətləri pozitiv ruhda qurmaq istiqaməti qəbul etməsi; nəhayət, ATƏT-in 1975-ci ilin avqustunda ilk dəfə olaraq Qərblə Şərq arasında qarşılıqlı etimadın yüksəlişi ilə bağlı tədbirləri əhatə edən Helsinki yekun aktını qəbul etməsi.

1989-cu il hadisələri – Berlin divarının sökülməsi, Almaniyanın birləşməsi və sonradan Varşava Müqaviləsi Təşkilatının buraxılması nəticəsində belə təsəvvür oyanırdı ki, iki qütb arasında gərginlik aradan qalxmışdır. Bu hadisələrin ardınca, eləcə də Şərq blokunun lideri olan SSRİ-nin dağılması ilə yaranmış vəziyyət qlobal təhlükəsizlik problemlərinə yeni yanaşma tələb edirdi. Ayrı-ayrı blokların maraqlarını ifadə edən və Avropanı iki düşərgəyə bölmüş beynəlxalq strukturların yerinə vahid ümumavropa ittifaqı yaratmaq zərurəti yetişmişdi. Bu missiyanı Şimali Atlantika İttifaqı öz üzərinə götürdü. Üzvlərinin təhlükəsizliyinin təmin edilməsi kimi əvvəlki funksiyalarını saxlamaqla yanaşı, strateji xəttə köklü surətdə yenidən baxmalı idi. "Soyuq müharibə"nin doğurduğu təhlükənin əvəzinə yeniləri, ondan daha ciddi problemlər ortaya çıxmışdı. Bunlara keçmiş kommunist düşərgəsinin ərazisində etnik münaqişələri, iqtisadi və siyasi böhranları, atom silahına vahid nəzarətin itirilməsi və s. aid etmək olar. NATO yeni strategiyanı məhz təhlükəsizliyin təmin olunmasına xüsusi əhəmiyyət verməklə işləyib hazırlamalı idi.

Azərbaycanın müstəqillik əldə etməsi zaman etibarilə Avropada siyasi dəyişikliklərlə eyni vaxta düşmüşdü. NATO-nun Cənubi Qafqaza münasibətdə mövqeyi 10-11 yanvar 1994-cü ildə Brüssel sammitində qəbul edilmiş bəyannamədə ifadəsini tapmışdır. Həmin sənədin 21-ci maddəsində deyilir: "Cənubi Qafqazda vəziyyət əvvəlkitək xüsusi narahatlıqlar doğurur. Biz silahdan ərazilərin işğal olunması məqsədilə istifadə olunması əleyhinəyik. Bu bölgədə sülhə, sabitliyə və əməkdaşlığa nail olunmasının başlıca şərti Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə hörmətdir. Biz bütün dövlətləri BMT və ATƏT-in rəhbərliyi ilə bu bölgədə mövcud problemlərin həllinə yönəlmiş beynəlxalq səylərə qoşulmağa çağırırıq".

1994-cü ilin yanvarında keçirilmiş Brüssel sammitində sabiq SSRİ dövlətləri ilə əməkdaşlığın inkişafı üzrə yeni addımlar atıldı. Şimali Atlantika İttifaqının iştirakçı-ölkələrini və ATƏT-in üzvlərini "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etməyə çağıran bəyanat və çərçivə sənədinin qəbul edilməsi belə qiymətləndirilməlidir.

Görkəmli dövlət xadimi Heydər Əliyev Brüsseldə NATO-nun mənzil-qərargahına təşrif buyurarkən "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalamış və daha sonra Azərbaycanın etimadnaməsini NATO-nun baş katibinə təqdim etmişdir. Bu sənədlərdə dövlətin "Sülh naminə tərəfdaşlıq" proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün ayıra biləcəyi vəsait və qüvvə göstərilmişdir. Fikrimcə, dövlətlərimizin GUÖAM çərçivəsində inteqrasiyası məhz NATO-ya yönəlmiş və ölkəmizin Ukrayna ilə əməkdaşlığını təmin edən vektorla əlaqədar gözdən keçirilməlidir.

Bir tərəfdən Azərbaycan hökuməti, digər tərəfdən, yaxın qonşusu Gürcüstan, Ukrayna, Moldova hökumətləri arasında bağlanmış bir sıra ikitərəfli sazişlər GUÖAM-ın yaradılması üçün zəmin hazırlamışdır. Son illər imzalanmış ikitərəfli və çoxtərəfli müqavilə – hüquqi sənədlərə əsaslanaraq, ticarət-iqtisadi münasibətlərin inkişafı və dərinləşməsini, həmçinin ötənlərdə mövcud olmuş kooperasiya əlaqələrini nəzərə alaraq GUÖAM üzv ölkələri belə nəticəyə gəldilər ki, nəqliyyat, rabitə, energetika, maşınqayırma, kənd təsərrüfatı sahələrində əməkdaşlığa hər cür yardım edilməli, iqtisadiyyat, humanitar əməkdaşlıq, turizm və mədəniyyət sahəsində qarşılıqlı fəaliyyət göstərilməlidir.

GUÖAM çərçivəsində əməkdaşlığın əsas istiqamətləri kimi, dövlətlərin sabitliyi və təhlükəsizliyinin təmin olunması, ticarət-iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi və intensivləşdirilməsini göstərmək olar. Tərəflər əmin idi ki, ölkələr arasında dostluq münasibətlərinin inkişafı və dərinləşdirilməsi bərabərlik, mehriban qonşuluq, müstəqillik, qarşılıqlı fayda və biri-birinin suverenliyinə hörmət prinsipləri əsasında əməkdaşlığın daha yüksək səviyyəsinə nail olmaq üçün yeni-yeni imkanlar açır.

Əsas diqqət nəqliyyat dəhlizinin yaradılması və işə düşməsi ilə bağlı əməli tədbirlərin sürətləndirilməsi üzərində cəmlənmişdir. Qlobal əhəmiyyət daşıyan bu layihə blok ölkələrinin hərtərəfli inkişafının mühüm amilidir. Bununla əlaqədar xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan Gömrük Komitəsi Heydər Əliyev siyasətinin prinsiplərini rəhbər tutaraq bu məsələdə Ümumdünya Ticarət Təşkilatının imkanlarından fəal istifadə olunmasını təklif edir.

Məlumdur ki, neftin nəqli ilə bağlı Azərbaycan-Gürcüstan sazişi Ukrayna və Moldovanın iştirakı ilə bitkinləşmişdir. Azərbaycan və Ukrayna arasında imzalanmış 22 hökumətlərarası saziş bu ölkələr arasında artıq MDB çərçivəsində mövcud ittifaqı möhkəmləndirmək üçün layiqli əsas olmuşdur. Bunlardan ikitərəfli əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi, qarşılıqlı faydalı əməkdaşlıq, neft-qaz sahəsində əməkdaşlıq haqqında Bəyannaməni göstərmək olar. Sonuncunun əsasında Azərbaycan neftinin dünya bazarlarına nəqli üçün Ukrayna ərazisindən istifadə imkanları haqqında razılaşma durur. Nəzərdə tutulub ki, Azərbaycan nefti boru kəməri və ya dəmir yolu vasitəsilə Gürcüstanın Poti, yaxud Supsa limanlarına nəql olunacaq, sonra tankerlərlə Odessanın "Yujnı" limanına daşınacaq, oradan da tikilməkdə olan Odessa-Lvov (və ya Ujqorod) boru kəməri və sonra "Druj-ba" boru kəməri vasitəsilə Avropa ölkələrinə axıdılacaqdır.

1993-cü ilin mayında Avropa İttifaqının (Aİ) himayəsi ilə TASİS proqramı çərçivəsində Brüsseldə keçirilmiş beynəlxalq konfrans bu yolda ilk ciddi addım olmuşdur. İştirakçı-ölkələr burada "Avropa–Qafqaz–Asiya" (TRASEKA) nəqliyyat dəhlizinin yaradılması haqqında bəyannamə imzaladılar. Avropa–Asiya vahid nəqliyyat sistemində mühüm mövqelərdən birini tutan Azərbaycan əvvəlincilər sırasında TRASEKA proqramını müdafiə etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin məqsədyönlü, gərgin işi "Tarixi İpək yolu" Beynəlxalq konfransın Azərbaycanın paytaxtı Bakıda keçirilməsini qabaqcadan müəyyənləşdirmişdi. Konfransın gedişində "Beynəlxalq nəqliyyat

haqqında əsas çoxtərəfli saziş" imzalanmış, Bakı bəyannaməsi qəbul edilmişdir. 30-dan çox dövlət başçısının iştirak etdiyi bu toplantının qərarı TRASEKA nəqliyyat dəhlizi ətrafında inteqrasiya proseslərinə güclü təkan vermiş oldu. Beləliklə, layihə təkcə Xəzəryanı ölkələrinə yox, həm də Ukrayna, Türkiyə, Bolqarıstan, Moldova, Rumıniyanın fəaliyyət proqramına çevrildi.

Azərbaycan, Ukrayna, Gürcüstan, Moldova və Özbəkistanın GUÖAM çərçivəsində qarşılıqlı münasibətləri mövzusuna qayıdarkən qeyd etmək lazımdır ki, həmin münasibətlər tərəflərdən hər biri üçün üstün istiqamət təşkil edir. Blokda təmsil olunmuş ölkələr böyük təbii, maliyyə və insan ehtiyatları potensialına malikdirlər. GUÖAM ölkələrindən hər biri MDB çərçivəsində mümkün olmayan məqsəd və vəzifələri həyata keçirmək qüdrətindədir. Ukrayna böyük daş kömür yataqları, torf və uran ehtiyatlarına malik olmasına baxmayaraq, yenə də enerji asılılığını hiss edir. Transqafqaz kommunikasiya layihəsinin həyata keçirilməsi açıq-aşkar xarici təsiri azaldır. Digər tərəfdən Ukrayna Cənubi Qafqazda münaqişələrin siyasi yolla tənzimlənməsində nəzərəçarpacaq rol oynaya bilər.

GUÖAM dağıdıcı yox, yaradıcı potensial daşıyır, dövlətlərarası əlaqələrin möhkəmləndirilməsinə yönəlmişdir. Bu baxımdan GUÖAM qurumuna MDB-nin parçalanma əlaməti kimi yox, onun amorf vəziyyətdən struktur təşkilata keçidinin ümidverici əlaməti kimi baxmaq lazımdır. Yeni regional birlik (Şərqi Avropanın bəzi ölkələri də bu quruma üzv olmaq istəyir) Mərkəzi Asiya və Qafqazdan tutmuş Balkanlaradək sabitliyin möhkəmləndirilməsi və demokratik dəyərlərin inkişafı üçün real imkanlar yaradır.

Biz xalqımızın demokratik yol seçimindən təsadüfi danışmırıq. Azərbaycanda baş verən bir çox hadisələr bu və ya digər dərəcədə əsl, Avropa timsallı demokratiyanın inkişafı, vətəndaş özünüidarəetməsinin yeni təsisatlarının yaradılması və dövlət tərəfindən ictimai rəhbərlik prosesi ilə bağlıdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimi, Avropa Şurasına daxilolma, parlament seçkiləri, Qərb standartlarına uyğun yeni hüquqi bazanın işlənməsi, partiyalar və onların mətbu orqanlarının fəaliyyəti və s. – bütün bunlar hökmən demokratik prinsip və ənənələr prizmasından gözdən keçirilib qiymətləndirilir.

Ukrayna kimi suveren Azərbaycan da vətəndaşlar qarşısında maksimum siyasiləşmək, ictimai tənzim və özünüidarənin yeni mexanizmləri və təsisatlarından səmərəli istifadə etmək, hüquq məkanında istiqamət götürüb sərbəst hərəkət etməyi öyrənmək vəzifəsini qoyur. Bu gün demokratik,

dünyəvi dövlətin əsas konstruksiyası yarandığı bir zamanda nəinki passiv seyrçilikdən çıxmaq və ideoloji hipnozdan xilas olmaq, həm də barışmaz nihilizm, anarxist özbaşınalıq axınına düşməmək çox vacibdir. Demokratiya vətəndaşların azadlığa doğru elə bir yoludur ki, bunun bir tərəfini hüquq, digərini öhdəlik təşkil edir.

Azərbaycanın demokratik quruluşu hansı modellə gedir, hansı elementlərdən ibarətdir? Tarixi təcrübədən nəyi əxz edir və müasirləri üçün həyata keçirir? Bu suala bitkin cavabı Azərbaycan xalqının lideri Heydər Əliyev vermişdir. Onun sözlərinə görə, demokratik dövlət və cəmiyyət quruculuğu, demokratiyaya sahib olmaq uzun prosesdir. Heç bir ölkə hesab edə bilməz ki, o, bu prosesin sonundadır. Kommunist imperiyasının qoynundan çıxmış Azərbaycan, cəmiyyətin inkişaf etmiş demokratik formalarla idarə olunmasına təzəcə qədəm qoymuşdur. Bu istiqamətdə ən başlıcası yerinə yetirilmişdir: demokratiyanın gələcək binasının özülü rolunu oynayacaq struktur və təsisatlar yaradılmışdır. Biz hüquq, seçki proseduru, parlamentarizm, təhsil, səhiyyə, demokratiya, ekologiya təcrübəsi və s. sahələrində. Qərb standartlarına yiyələnərək müasir sivilizasiyaya daxil oluruq.

"İrəliləmiş demokratiya" ölkələrində mövcud şəraiti Azərbaycana şamil etmək düzgün olmazdı, lakin onların demokratik proseslərinin inkişafında oxşarlıq vardır. Əlbəttə, ölkənin siyasi iqlimində çox şey Ermənistanın təcavüzü və suveren Azərbaycanın ərazisinin 20 faizinin işğalı, bir milyon qaçqın və köçkünün mövcudluğu, Ermənistan silahlı qüvvələri tərəfindən qəsb edilmiş Azərbaycan torpaqlarında bütün infrastrukturun dağıdılması ilə müəyyənləşir. Bu hal transformasiya dövrünün vəziyyətini olduqca mürəkkəbləşdirir, daha yüksək həyat səviyyəsinə nail olmaq sürətini ləngidir. Eyni zamanda, ictimai təsisatlarda islahatlar aparılması, bazar iqtisadiyyatının yaradılması, separatizmin neqativ nəticələrinin yüngülləşdirilməsi, sosial və humanitar vəziyyətin yaxşılaşdırılmasına yönəldilmiş siyasət yürüdülməsi sahəsində əldə edilmiş uğurlar şübhəsizdir.

Heydər Əliyev Avropa Parlamenti nümayəndə heyəti ilə görüş zamanı bildirmişdir ki, Azərbaycan Avropa qitəsində yerləşir və Avropa ölkəsidir. Onun xarici və daxili siyasətinin vektorunu da bu müəyyənləşdirir. O, hər şeydən əvvəl, həm ölkə daxilində, həm də bölgədə siyasi, iqtisadi və sosial sabitliyə nail olunmasına yönəldilmişdir. Demokratiyanın Azərbaycan modeli milli ənənələri, ölkənin tarixi təcrübəsini Qərb dəyərləri ilə birləşdirərək peşəkarlıq və təcrübə baxımından güclü hakimiyyəti, cəmiyyətin bütün təbəqələri və partiyalar arasında münasibətlərdə dialoqluğu, bütün dünyanın üzünə açıq olmağı nəzərdə tutur. Təbii ki, bir də insanların demokratiya mədəniyyətinə yiyələnməyini. Bu mədəniyyət isə varisliyi və eyni zamanda özünüidarəetmə təsisatlarının yeniləşməsi, modernləşməsini nəzərdə tutur. Lakin unutmaq olmaz ki, demokratik inkişafın real əsasları real universal şəxsiyyətlə qoyulur.

Demokratiyanın antik dövrlərdə nə olduğu və kimin ona insan şəkli verdiyini gəlin yada salaq. Platonun "Meneksen" mükaliməsində deyilir: "Bizim dövlət quruculuğumuzun özü... zadəganlıq olmuş və vardır, bu idarə üsulu bizdə həmişə hökmfərma olmuş, indi də belədir. Bəziləri onu demokratiya adlandırır, digərləri daha nə cürsə – hərə öz bildiyi kimi, əsl həqiqətdə isə bu, xalqın bəyəndiyi, təqdir etdiyi yaxşıların idarə üsuludur. Yalnız bir meyar mövcuddur: hakimiyyətə cəsur və ya müdrik kimi tanınanlar sahib olur və idarə edir".

Göründüyü kimi, Platon "zadəgan" sözünə, müasir dillə desək, sinfi yox, tam demokratik xarakter verir. Seçimi mənəvi keyfiyyətlər, intellekt müəyyənləşdirir.

Platon zadəgan dedikdə, hər şeydən əvvəl, xalqın seçdiyini, cəsarətli qərarlar qəbul etməyə imkan verən iradənin, keyfiyyətin sinonimi kimi öz əqli, xeyirxahlığı, cəsurluğu ilə başqalarından fərqlənənləri başa düşür. Zamanın tələbinə müvafiq şəxsiyyətin meydana çıxmasında messianlıq, bəlkə də mistik nəsə var. Bu şəxsiyyət həmişə vaxtında, tarixin ən ağır anlarında mürəkkəb, taleyüklü vəzifələri yerinə yetirmək – Vətəni xilas etmək, xalqı azad etmək, ictimai strukturlarda islahatlar aparmaq üçün meydana gəlir.

Bu baxımdan Azərbaycanın bəxti gətirib: onun müasir tarixinin ən faciəli anlarında milləti xilas etmək missiyasını öz üzərinə xalqın lideri ola biləcək yeganə şəxs – Heydər Əliyev götürdü. O, sələflərindən fərqli olaraq, hakimiyyətdən şəxsi ambisiyalarına xidmət etmək üçün yox, əsas vəzifəni – dünyəvi demokratik dövlət qurmaq, cəmiyyəti modernləşdirmək və xalqı müasir sivilizasiyanın arzu edilən məskəninə gətirib çıxarmaq vəzifəsini yerinə yetirmək üçün istifadə edirdi.

İRADƏ HÜSEYNOVA
Təhsil nazirinin müavini,
YAP Siyasi Şurasının üzvü

AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ TARİXİNDƏ HEYDƏR ƏLİYEV İRSİ

Ötən əsrin sonlarında qlobal miqyasda cərəyan edən proseslər - Sovet imperiyasının süqutu, Qərb sivilizasiyasına inteqrasiya, demokratik siyasi sistem quruculuğu, dövlət idarəçiliyindəki inzibati-amirlik metodlarından plüralist sistemə keçid, planlı təsərrüfatdan bazar iqtisadiyyatına transformasiya və bu sıradan olan digər problemlər xalqın düşüncəsində dövlətçilik və siyasət məfhumları haqqında ciddi stereotiplər yaratmışdı. Bütün baş verənlərin fonunda isə ictimai rəydə hakimiyyət və siyasətə qarşı narahat hisslər güclənir, cəmiyyətdə gələcək barədə ümidsizlik kompleksi formalaşırdı. Ötən əsrin 80-ci illərinin sonlarında isə Azərbaycanda milli dövlətçilik mənafelərinə xidmət edən hakimiyyətin yoxluğu ölkədə idarəolunmaz bir vəziyyətin yaranmasına, cəmiyyətin daxilində qarşıdurmaların geniş vüsət almasına səbəb olmuşdu. Dövlətin mövcudluğunu şübhə altına alan ictimai-siyasi situasiya xalqın gələcəyə inamını qırmışdı. Lakin milli dövlətçilik düşüncəsinin formalaşmasına və ümumi maraqlara xidmət edən psixoloji atmosferin bərqərar olmasına gətirib çıxaran bir çox hadisələr bu təhlükənin qarşısının alınmasına şərait yaratdı. Xalq artıq ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi üçün qəti addımlar atmağın zəruriliyini dərk etməyə və bunun üçün çıxış yolları axtarmağa başladı. Bu proses uzun çəkmədi, 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə dövlətçilik institutunun əsl siması özünə qayıtdı. Xalqın **DÖVLƏTÇİLİK** barədə təsəvvürləri tamamilə dəyişdi.

Azərbaycan dövlətçiliyi tarixində Heydər Əliyev irsinin özünəməxsus cəhətləri, taktiki və strateji hədəfləri, konkret məqsədləri var. Bu irs dövlətin mövcud imkanlarından cəmiyyətin iqtisadi, siyasi, mədəni, elmi-texniki və digər sahələrdə inkişafına istiqamətlənib. İlk növbədə, Heydər Əliyevin dövlətçilik irsi 1991-1993-cü illərdə cəmiyyətin gözündən düşən dövlət-hakimiyyət vəhdətinin həqiqi simasını özünə qaytarıb. Artıq bu

məfhumlar nə AXC-Müsavat dövrünün kortəbii idarəçiliyini, nə də A.Mütəllibov rejiminin regional üstqurumunu xatırlatmır. Heydər Əliyevin dövlətçilik irsi milli maraqların istehkamı anlamında dərk edilir. İstər sovet dövründə, istərsə də dövlət müstəqilliyimizin bərpasından sonra böyük rəhbər misli görünməmiş bir səmimiyyət və sədaqətlə Azərbaycan xalqının müasir dünyanın mədəni və demokratik dəyərlərinə tapınan millətlərin cərgəsinə qoşulması, dirçəlməsi, tərəqqisi üçün gecəli-gündüzlü gərgin əmək sərf etmişdir.

Tarixi taleyimiz belə gətirib ki, Azərbaycan uzun illər yadelli işğalçıların fasiləsiz hücumlarına məruz qalmış, ikiyə bölünmüş, parçalanmış, müstəmləkə rejiminin ən ağır işgəncələri altında yaşamağa məcbur edilmişdir. Bütün bunlar azmış kimi, Sovet imperiyası illərində repressiyalar, ruslaşdırma siyasəti, İkinci Dünya Savaşının misli görünməmiş çətinlikləri ölkəmiz üçün kifayət qədər problemlər yaratmışdı. Doğrudur, xalqımız bütün məhrumiyyətlərə mətinliklə sinə gərərək öz varlığını, dilini, dinini, milli-mənəvi dəyərlərini qoruyub saxlamağı bacardı. Lakin bütün bu keyfiyyətləri ümumdövlət səviyyəsinə qaldıran və onu daha qlobal kontekstdə reallaşdırmağa çalışan Heydər Əliyev qısa zaman kəsiyində göstərilən sahələrdə möhtəşəm dəyişikliklər etmişdir. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycan aqrar ukladın dominantlığı şəraitindən qüdrətli sənaye respublikasına, intellektual səviyyəsi bütün müsəlman dünyası və Şərqə nümunə olan diyara çevrilmişdir. Heydər Əliyevin təmənnasız xidmətləri xalqımızın yaddaşına əbədi həkk olunmuş və tarix Azərbaycan xalqını müstəqil dövlətçiliyin qurulması zərurəti ilə üzləşdirəndə milli-ictimai yaddaşımızın silkələnməsi Heydər Əliyev obrazının siyasi təfəkkürdə dərhal üzə çıxması ilə nəticələnmişdi. Bu titanik şəxsiyyət yenə də xalqın və tarixin çağırışına cavab verərək, Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürmüş və onun sürətli icrasına başlamışdı.

Hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə Heydər Əliyev dövlət müstəqilliyinə zəmin yaradan siyasi, iqtisadi və hüquqi sahədə mühüm addımlar atmış və bu istiqamətdə çox ciddi nailiyyətlər əldə etmişdir. Həmin illərdə Azərbaycanda aparılan misli görünməmiş quruculuq işlərini dövlət müstəqilliyimizə təminat verən əsas amillər kimi nəzərdən keçirmək lazımdır. Tarixi faktlar təsdiqləyir ki, Azərbaycanın müstəqil-

liyə gələn yolu 1970-ci illərin əvvəllərindən başlayıb. Çox sonra Heydər Əliyev 1990-cı ildə Türkiyənin "Zaman" qəzetinə verdiyi müsahibədə bununla bağlı demişdir: "Mən SSRİ respublikalarının nə vaxtsa müstəqillik əldə edəcəklərini düşünürdüm. O illərdə Azərbaycanın da müstəqil dövlət olmasını arzu edirdim. Məni istefaya getməyə məcbur edənlərin əsas məqsədi Azərbaycanın müstəqillik qazanmasının qarşısını almaq idi". «Zaman» qəzeti (Türkiyə) 16 iyun 1992)

1970-ci illərdə Azərbaycanın müstəqil dövlət olaraq mövcudluğunun təmin edilməsinə yönələn bir sıra kardinal addımlar atıldı. Heydər Əliyevin gərgin əməyi sayəsində Azərbaycan 15 ilə aqrar ölkədən iri sənaye respublikasına çevrildi. Azərbaycanın neft emalı və neftmaşınqayırma, elektronika sənayesinin yüksək keyfiyyətli məhsulları, şərab məmulatları nəinki Sovet İttifaqı məkanında, eyni zamanda xarici ölkələrdə də geniş populyarlıq qazandı. İttifaq hökumətinin xüsusi qərarları ilə Azərbaycanda üzümçülük, pambıqçılıq və onların emal sənayesinin inkişafına yeni təkan verildi. Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti illərində həmin sahələrin inkişafı ilə kəndlərimizdə soydaşlarımızın yaşayış səviyyəsi qibtəolunacaq şəkildə yüksəldi, kəndlərimiz sosial-iqtisadi dirçəliş mərhələsinə qədəm qoydu. Palçıq evlər, daxmalar müasir, müasir kommunikasiyalı evlərlə əvəz edildi.

Lakin Heydər Əliyev fenomeninin unikallığı ondadır ki, o, öz siyasətini heç bir zaman birtərəfli qurmurdu. Ümummilli liderin gördüyü işlər kompleks tədbirlər sistemindən ibarət idi. Bu baxımdan, 1970-ci illərdə Azərbaycanda milli hərbi kadr hazırlığına başlanılması xüsusi olaraq maraq doğurur. Məlumdur ki, sovet hakimiyyəti illərində azərbaycanlılar hərbi kadr hazırlığına və SSRİ hərbi elitasına yaxın buraxılmırdılar. Halbuki, Azərbaycanın ərazisində SSRİ səviyyəsində strateji əhəmiyyət kəsb edən bir neçə ali hərbi məktəb var idi. Həmin məktəblərdə təhsil alan kursantların milli mənsubiyyəti Azərbaycan üçün həqiqətən acınacaqlı idi. Respublika ərazisində yerləşməsinə baxmayaraq, bu məktəblərin minlərlə məzunu arasında yalnız beş-altı azərbaycanlı var idi və onların da çoxu "beynəlmiləl" ailələrin üzvləri idilər. Təbii ki, bu tendensiya Heydər Əliyevi narahat etməyə bilməzdi. Dövlət başçısının şəxsi müdaxiləsi və qayğısı ilə 70-ci illərdən başlayaraq, Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa

başladı. (Heydər Əliyev «Təhsil millətin gələcəyidir», Bakı 2002) 1979-cu ilin statistikasına görə, kursantların 65 faizini azərbaycanlılar təşkil edirdi. Lakin bununla belə Heydər Əliyev milli hərbi kadr hazırlığı sahəsində daha bir kardinal addım atdı. Comşid Naxçıvanski adına hərbi litseyin yaradılması imkan verdi ki, gənclərin marağı hərbi sahəyə yönəldilsin. Birmənalı şəkildə etiraf edilməlidir ki, bu da Azərbaycanın dövlət müstəqilliyinə hesablanan addımlardan biri idi.

Etiraf olunmalıdır ki, intellektual baza olmadan dövlət müstəqilliyinin təmin edilməsi mümkün deyil. Statistik rəqəmlər təsdiqləyir ki, 1970-ci illərə kimi Cənubi Qafqaz respublikaları arasında azərbaycanlıların SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almalarına süni maneələr yaradılır, hətta müəyyən limit qoyulurdu. Azərbaycanlılara bir qayda olaraq əsasən ədəbiyyat, musiqi və s. sahələr üzrə ittifaq miqyaslı ali məktəblərdə təhsil almaq icazə verilirdi. Lakin 1970-ci illərdən başlayaraq bu istiqamətdə də ciddi dönüş əldə edildi və həmin dövrdən başlayaraq, hər il yüzlərlə azərbaycanlı ittifaqın ən nüfuzlu ali məktəblərinin iqtisadiyyat, hüquq, beynəlxalq hüquq, diplomatiya, texnika və s. kimi mühüm elmi sahələrinə təhsil almağa göndərilirdi. Bu siyasət Heydər Əliyev tərəfindən Azərbaycan dövlətçiliyinin intellektual bazasının yaradılmasına yönələn cəsarətli addımlar idi. Təbii ki, sonradan müstəqil dövlət quruculuğunda bu addımın oynadığı əvəzsiz rol göz qabağında idi.

Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin varlığını təsdiqləyən rəmzlərə və atributlara da münasibəti çox həssas olmuşdur. Hələ 1977-ci ildə Konstitusiya layihəsi qəbul edilərkən onun atdığı daha bir addımı məmnunluqla xatırlamaq olar. Tarixi fakt olaraq qeyd etmək yerinə düşər ki, o zaman SSRİ Konstitusiyası layihəsinin hazırlanması üçün yaradılan komissiyada Heydər Əliyev nəinki müsəlman-türk xalqlarını, hətta Cənubi Qafqazı təmsil edən yeganə siyasi xadim idi. Təbii ki, 1977-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycanın rəsmi dövlət dili kimi Azərbaycan dilinin qəbul edilməsi də ölkəmiz üçün tarixi nailiyyət oldu. Çünki bununla bağlı Kreml emissarlarının dəfələrlə Bakıya səfərlər edərək Heydər Əliyevi öz fikrindən daşındırmağa səy göstərdikləri məlumdur. Həmçinin, Azərbaycanın özündə də bəzi dairələr bundan istifadə edərək Kremli Heydər Əliyevə qarşı mübarizəyə çağırırdılar. Amma ümummilli lider nəinki fikrindən daşındı, hətta onun hakimiyyəti illərində Bakıda

Azərbaycan dilində dərs keçilən məktəblərin sayı artmağa başladı. Burada da faktlara müraciət etmək maraqlı olardı. Əgər 1970-ci illərə kimi, Bakıda rus dilində məktəblərin sayı Azərbaycan dilində təhsil verən məktəblərin sayı ilə müqayisədə 6040-a nisbətində idisə, Heydər Əliyevin hakimiyyəti illərində bu nisbət Azərbaycan məktəblərinin lehinə dəyişdi. Təsadüfi deyil ki, həmin illərdə SSRİ-də nəşr olunan yeganə "Türkologiya" jurnalı da məhz Bakıda çap olunmağa başlamışdı. Halbuki Moskva jurnalın çapına uzun müddət icazə verməmişdi.

Bütün bunlar tarixi faktlardır. Onlara əsaslanaraq cəsarətlə demək olar ki, Heydər Əliyevin 1969-1982-ci illərdəki fəaliyyəti Azərbaycanın dövlət müstəqilliyinə zəmin yaradılması kimi strateji məqsəd üzərində köklənmişdi. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı illərdə də ulu öndərimiz ciddi müqavimətlərə baxmayaraq, doğma Vətəni üçün əsil oğul sədaqətini nümayiş etdirmiş və 1983-1985-ci illərdə Azərbaycan ittifaq respublikaları sırasında ən çox diqqət yetirilən, daha çox vəsait ayrılan respublika olmuşdur. M.Qorbaçov qaraguruhu tərəfindən istefaya göndərildikdən sonra da Heydər Əliyev Azərbaycanda milli dövlətçiliyin qurulması uğrunda mübarizədən çəkinmədi. Sovet İmperiyası ən ağır və sarsıdıcı cavabı da məhz elə Heydər Əliyevdən aldı. 1990-cı ilin qanlı yanvar hadisələri zamanı ümummilli liderin ailə üzvləri ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək imperiya əleyhinə radikal bəyanatlarla çıxış etməsi Azərbaycanda gedən müstəqillik uğrunda gərgin mübarizəyə son dərəcə ciddi və müsbət təsir göstərdi.

1991-ci ilin iyulunda isə Heydər Əliyev Kommunist Partiyasından çıxması ilə bağlı verdiyi bəyanatda ilk dəfə olaraq müstəqil Azərbaycan dövlətçiliyinin siyasi əsaslarını tezislər şəklində ifadə etdi: **"Mən Moskvanın israr etdiyi İttifaq müqaviləsinin əleyhinə çıxmışam. Hər hansı müstəqil dövlətin tərkibində bir neçə müstəqil dövlət ola bilməz. Bütün respublikalara iqtisadi və siyasi müstəqillik verilməli, onların hüquqları tanınmalıdır. Azərbaycan Kommunist Partiyasına hakimiyyətdən əl çəkməyi, demokratik cəmiyyətin qurulması, siyasi plüralizmin təmin edilməsi üçün lazımi şərtlərin təmin edilməsini tələb edirəm".** («Heydər Əliyev: Müstəqilliyimiz əbədidir» 1-ci kitab, səh. 97)

Heydər Əliyev bu bəyanatı 1991-ci ilin iyulun 19-da imzalayıb. Halbuki, həmin dövrdə hələ Azərbaycanın dövlət suverenliyi barədə bəyannamə və dövlət müstəqilliyi barədə Konstitusiya Aktı qəbul edilməmişdi. Həmçinin, bu hadisənin 1991-ci ilin QKÇP prosesindən öncə baş verməsi göstərir ki, Heydər Əliyev siyasi intuisiyasına əsaslanaraq hadisələrin hansı səmtə inkişaf edəcəyini dəqiqliklə görürmüş. Təsadüfi deyil ki, Heydər Əliyev uzaqgörən siyasətçi kimi öz bəyanatında dövlət müstəqilliyi ideyalarının ilkin tezislərini irəli sürərək cəmiyyətin bu istiqamətdə səfərbər olunması naminə böyük addımlar atdı.

Bütün bunlar Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsində və bu istiqamətdə cərəyan edən proseslərin önündə getdiyini birmənalı olaraq təsdiqləyir. Lakin o da məlumdur ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində formal xarakter daşıyırdı. A.Mütəllibov ölkəni Moskvadan verilən direktivlərlə idarə edirdi. Azərbaycan dövlətçiliyinə qarşı ən real təhlükə isə AXC-Müsavat hakimiyyəti dövründə yarandı. Əbülfəz Elçibəy iqtidarının səriştəsizliyindən sui-istifadə edən xarici dövlətlər hər vəchlə Azərbaycanı hərbi-siyasi platsdarma çevirməyə cəhd göstərir, ölkədə dövlət idarəçiliyinin onların sifarişləri əsasında həyata keçirilməsinə çalışırdılar. 1993-cü ildə baş qaldıran bu tendensiya Azərbaycan dövlətçiliyini sarsıtmağa qadir idi. Lakin Heydər Əliyev Azərbaycan dövlətçiliyini səriştəsiz AXC-Müsavat hakimiyyəti ilə Surət Hüseynov qaraguruhu arasında gedən amansız mübarizələrin tapdağı altından xilas edə bildi.

1993-cü ildə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişi ilə Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı. Eyni zamanda, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev Azərbaycan dövlətçiliyini faciələrdən və iflasdan xilas edə bildi. 1994-cü ilin oktyabr hadisələri zamanı televiziya və radio ilə xalqa müraciətində milli təhlükəsizliyimizə qarşı yaranmış vəziyyətlə əlaqadar hamını həmrəy olmağa çağıran Heydər Əliyev deyirdi: **"Əziz həmvətənlər, Azərbaycan vətəndaşları! Bu ağır dəqiqələrdə bir daha sizə müraciət edirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlətçiliyini qorumaq üçün son nəfəsimə qədər, son damla qanıma qədər öz yerimdəyəm. Xalqla birlikdəyəm.**

Xalqın təhlükəsizliyini qorumağa çalışacağam. Bundan ötrü lazımi imkanlardan istifadə edəcəyəm. Eyni zamanda, əziz həmvətənlər sizə güvənirəm, sizə arxalanıram". («Heydər Əliyev «Müstəqilliyimiz əbədidi» 2-ci kitab, səh. 356)

Ümummilli liderimiz Heydər Əliyev siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik dövlət modeli konsepsiyasını həyata keçirməyə başladı. Həmin illərdə Heydər Əliyevin Azərbaycan dövlətçiliyi uğrunda apardığı fəal mübarizə insanı riqqətə gətirir. Onun ölkədə siyasi sabitliyi təmin etməsini Azərbaycan dövlətçiliyinə qarşı çıxan anarxist qüvvələrin məhvi kimi də dəyərləndirmək olar. Siyasi sabitlik imkan verdi ki, Azərbaycan dövlətinin iqtisadi və hüquqi əsasları formalaşdırılsın. Təsadüfi deyil ki, Heydər Əliyev anarxist qüvvələrin zərərsizləşdirilməsindən sonra hüquqi, iqtisadi və demokratik sahədə ciddi islahatlar proqramının həyata keçirilməsinə start verdi.

Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılmasıdır. 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoydu. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi. Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd müstəqil Azərbaycanın Konstitusiyası kimi tarixə yazıldı. («Azərbaycan» qəzeti, 12 noyabr 1995)

Məlumdur ki, 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu işləyə bilməmiş, SSRİ dağıldıqdan sonra müstəqilliyinin ilk dönəmində hakimiyyətdə təmsil olunan qüvvələr dövlətçiliyin əsasını təşkil edən bu sənədin hazırlanması və qəbul olunması istiqamətində heç bir əməli cəhd belə görməmişdir. Yalnız Heydər Əliyevin təşəbbüsü nəticəsində 1995-ci ilin may ayında müstəqil Azərbaycanın Konstitusiyasını hazırlamaq üçün komissiya təşkil edilmiş və dövlətçiliyin əsas atributlarından biri sayılan bu mühüm sənəd həmin ilin noyabr ayının 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuşdur. («Xalq qəzeti», 12 noyabr 1997)

1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynadı. Bununla da Azərbaycanın dünya dövlətləri sırasında özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində fəaliyyətin əsası qoyuldu. Heydər Əliyev siyasi kursu bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənir. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda mülki cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlmişdir.

Bu istiqamətdə Heydər Əliyevin gördüyü ən böyük işlərdən biri müstəqil Azərbaycanın uğurlu neft strategiyasının hazırlanaraq həyata keçirilməsidir. Azərbaycanın neft strategiyasının əsas prinsipləri ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır. Və bu strategiyanın həyata keçirilməsi iqtisadi maraqlarla yanaşı, milli təhlükəsizlik maraqlarının təmin olunmasına söykənir. Heydər Əliyevin həyata keçirdiyi uğurlu neft strategiyası təkcə dövlətin iqtisadi maraqlarının realizə olunmasına deyil, paralel olaraq dövlət müstəqilliyinin qorunub saxlanmasına yönələn siyasi xəttin yürüdülməsinə, buna uyğun situasiyanın formalaşdırılmasına xidmət edir. Məhz bu strategiya nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bilmiş və zaman-zaman qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur. Yeni dünya düzənində güc mərkəzləri arasında gedən mübarizənin məğzinə uyğun strategiya müəyyənləşdirməyə nail olmuş Heydər Əliyev son nəticədə Azərbaycanın hegemon supergüclərdən asılı vəziyyətə düşməsinin qarşısını nəinki ala bilmiş, eyni zamanda, Azərbaycanın bu subyektlər arasında mübarizənin xarakterini müəyyənləşdirməyə yönələn dövlət statusu qazanmasına nail olmuşdur.

XX əsrin sonlarından başlayaraq beynəlxalq aləmdə gedən proseslərin əsas mahiyyəti güc mərkəzlərinin qlobal enerji resurslarına nəzarəti təmin etməsi üzərində qurulub və mübarizənin əsas nəticəsi də məhz bu nəzarətin hansı formada təmin olunmasından asılı olacaq. Heydər Əli-

yev bu mübarizədən Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi üçün bacarıqla istifadə etmişdir. Bu nəticənin əldə olunmasında da əsas ağırlıq ölkənin uğurlu neft strategiyasının üzərinə düşür. 1994-cü ilin 20 sentyabrında dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi", bu mənada, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynadı. («Azərbaycan» qəzeti 22 sentyabr 1999)

Həmin saziş nəticəsində bütün dünyanın diqqət mərkəzinə çevrilən Azərbaycan eyni zamanda qlobal məkanda özünün statusunu müəyyənləşdirməyə nail ola bildi. Dövlət müstəqilliyinə dayanıqlı bu status əksər dövlətlərdən fərqli olaraq Azərbaycanın beynəlxalq subyektlərdən asılı tərəf kimi deyil, əksinə dünya birliyinin bərabərhüquqlu üzvü olması ilə ölçülür. Heydər Əliyev Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarına nəql edəcək Bakı-Ceyhan strateji neft kəmərini təkcə Azərbaycanın deyil, ümumilikdə Cənubi Qafqaz-Mərkəzi Asiya regionunun gələcək taleyini müəyyənləşdirəcək strateji layihəyə çevirməyi bacardı. Bu gün dünya dövlətlərinin regiondakı siyasətini məhz bu qlobal enerji layihəsinə nəzərən müəyyənləşdirməsi həm də Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin möhkəmləndirməsi yolunda apardığı gərgin işin əməli nəticəsi kimi qiymətləndirilməlidir.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunmasıdır. Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində bu problem öz həllini tam şəkildə tapmış və beynəlxalq təşkilatlarda bərabərhüquqlu səviyyədə əməkdaşlıq müstəqilliyin əsas dayaqlarından birinə çevrilmişdir. Bu gün Azərbaycan 300-dən çox beynəlxalq təşkilatla əməkdaşlıq edir. Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Müstəqil Dövlətlər Birliyi, GÖUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası İttifaq, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu qurumların tamhüquqlu üzvü olan Azərbaycan paralel olaraq Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı kimi dünyada gedən proseslərin istiqamətini müəyyənləşdirən qurumlarla yaradılan yüksək səviyyəli əlaqələr məhz Heydər Əliyevin gərgin əməyinin nəticəsidir.

Yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün coğrafi mövqeyindən, dünya miqyaslı coğrafi-strateji əhəmiyyətə malik təbii ehtiyatlarından, iqtisadi potensialından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq edərək Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrini səmərəli şəkildə həyata keçirir. (İlham Əliyev, Akif Muradverdiyev, «Azərbaycan neft dünya siyasətində» Bakı, 2002, səh.4)

Ulu öndərin dövlətçilik konsepsiyasının uğurlu istiqamətlərindən biri də ölkəmizin 2001-ci ilin yanvarın 25-də Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasıdır. Bu nüfuzlu qurumla hərtərəfli əməkdaşlıq edən ölkəmizin qazandığı ən mühüm nailiyyətlərdən biri müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycan nümayəndəsinin Avropa Şurasının rəhbərliyində təmsil olunmasıdır. Avropa Şurası Parlament Assambleyasının 2003-cü ilin yanvarında keçirilən qış sessiyasında Azərbaycanı bu nüfuzlu qurumda təmsil edən nümayəndə heyətinin rəhbəri İlham Əliyevin ATƏT-in vitse-prezidenti və Büro üzvü seçilməsi Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuzun ən uğurlu, ən bariz göstəricilərindən sayılmalıdır.

Heydər Əliyev dövlətçilik irsinin əsas istiqamətlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsidir. Əslində, ölkənin hərbi qüvvələrinin yaradılması dövlətçiliyin əsas atributu və qarantı hesab olunsa da, təəssüf ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuş qüvvələrin səbatsız siyasəti nəticəsində bu amil Azərbaycanın dövlətçiliyi üçün qarantiya deyil, təhlükəyə çevrilmişdi. Ordu quruculuğunda və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılmasında yol verilən kobud səhvlər son nəticədə ölkədə qanunsuz hərbi birləşmələrin timsalında vətəndaş müharibəsinin subyektlərinin meydana çıxmasına səbəb olmuşdu. Ordunun siyasiləşməsi, dövlətçilik prinsiplərinə əsasən deyil, şəxsi siyasi maraqlara nəzərən formalaşdırılması sonda Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükə mənbəyi idi. Yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu tendensiyaya qarşı ciddi mübarizə apardı və son nəticədə dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit, güclü silahlı qüvvələrin yaradılmasına nail oldu.

Bu gün Azərbaycan öz texniki və maddi təchizatına görə başqa dövlətlərin silahlı qüvvələrindən geri qalmayan hərbi qüvvələrə sahibdir. Bu da Heydər Əliyevin müstəqilliyin dövlətləşdirilməsi istiqamətində yürütdüyü radikal siyasətin əsas nəticələrindən biridir. Azərbaycan Silahlı Qüvvələri dövlətin ərazi bütövlüyünün təminatçısı olmaqla yanaşı, həm də beynəlxalq hərbi qurumlarla bərabərhüquqlu əməkdaşlıq edir. Heydər Əliyevin sayəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələr üçün milli kadr potensialının yaradılması istiqamətində ciddi işlər görülmüşdür. Dünyanın ən nüfuzlu hərbi məktəblərinə təhsil almağa göndərilən gənclərimiz Azərbaycanın müstəqilliyinin əsas qarantlarından biri olan ordunun güclənməsində mühüm rol oynayacaqdır. Bu gün Azərbaycanın əsgər və zabitləri dünyanın bir çox qaynar nöqtələrində fəaliyyət göstərən beynəlxalq sülhməramlı qüvvələrin tərkibində fəaliyyət göstərir və münaqişə zonalarında sülh və əmin-amanlığın bərqərar olmasında aktiv iştirak edirlər. Azərbaycan Silahlı Qüvvələri NATO kimi nüfuzlu qurumla əməkdaşlıq edir, bu hərbi alyansın "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində həyata keçirdiyi təlim proqramlarında aktiv fəaliyyət göstərir. Ölkədə hərbi məktəblərin fəaliyyətinin gücləndirilməsi, Silahlı Qüvvələr üçün kadrların hazırlanması işinə xüsusi diqqət ayıran Heydər Əliyevin müstəqilliyin qorunub möhkəmləndirilməsi istiqamətində gördüyü ən böyük işlərdən biri sözsüz ki, ayrı-ayrı dövlətlərlə hərbi sahədə əməkdaşlığın möhkəmləndirilməsidir.

Azərbaycanın müstəqilliyinin qorunmasında sözsüz ki, əsas ağırlıq ordu ilə yanaşı, həm də milli təhlükəsizlik sisteminin üzərinə düşür. Düşmən qüvvələrin Azərbaycana qarşı məkrli planlarının aşkara çıxarılmasında mühüm rol oynayan bu strukturların güclənməsi işinə xüsusi diqqət ayıran ulu öndər Heydər Əliyev 1998-ci ilin dekabrında Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasını təsis etdi. («Respublika» qəzeti, 12 dekabr 1998)

Heydər Əliyevin MTN sistemində milli kadrların yetişdirilməsinə yönəlik siyasəti öz bəhrəsini vermiş və məhz həmin kadrların fəaliyyəti nəticəsində Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlmiş yüzlərlə təxribatların qarşısı alınmışdır. Artıq Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları ölkəmizə qarşı yönələn hər cür neqativ fəaliyyətin üzə çıxarılmasını, sərhədlərin toxunulmazlığını təmin etməyə qadir şəkildə formalaşıb. Bütün bunlar mahiyyətcə Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdən müstəqilliyin dövlətləşdirilməsi istiqamətində apardığı uzaqgörən siyasətin uğurlu bəhrəsidir.

Heydər Əliyevin dövlətçilik irsi Azərbaycan cəmiyyətinin vahidliyinin təmin olunmasını özünün əsas strateji vəzifəsi hesab edir. Heydər Əliyev dövlətçilik irsinə görə, demokratiya üçün vacib olan başlıca şərt siyasi sabitlik və güclü dövlət hakimiyyətidir. Təsadüfi deyil ki, 1993-cü ildə başlanan proseslər cəmi iki il ərzində Azərbaycanda demokratikləşmə prosesinin inkişafı üçün real zəmin yaratdı, bu prosesə mane ola biləcək bütün xarici və daxili qüvvələr tamamilə neytrallaşdırıldı. Heydər Əliyevin simasında dövlətə ictimai inam bərqərar oldu, cəmiyyət başa düşdü ki, o həyatın ümidinə buraxılan, bədbin siyasi tale yaşamağa məhkum olunan «qara kütlə» deyil. Cəmi 10 il ərzində Azərbaycan cəmiyyətində bu qədər nəhəng dəyişikliklərə nail olmaq bir anda başa gəlməyib. Heydər Əliyev xarizması cəmiyyəti, bütövlükdə Azərbaycan dövlətçiliyini gələcəkdə ehtimal edilən bir sıra bəlalardan da qoruya bildi. Ölkədə elə bir siyasi sistem təşəkkül tapdı ki, burada istənilən problemin konkret həll mexanizmi mövcud oldu və bu gün ictimaiyyətin öz gələcək aqibəti haqda gümansızlığı yoxdur.

Bu tendensiya cəmiyyətdə 2003-cü il 15 oktyabr prezident seçkisindən sonra daha da möhkəmləndi. Həmin gün xalq Heydər Əliyevin dövlətçilik irsinin siyasi varisliyini təmin etmək üçün öz qəti və prinsipial mövqeyini ortaya qoydu. Bununla da Heydər Əliyev dövlətçilik irsinin həyata keçirilməsi istiqamətində qarşıya yeni vəzifələr çıxdı. Bu Heydər Əliyevin dövlət quruculuğu siyasətinin davamı, növbəti məntiqi mərhələsi idi.

Ulu öndərimiz Heydər Əliyev həyatı boyu həmişə xalqa arxalanmışdı. **"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".** («Heydər Əliyev «Müstəqilliyimiz əbədidir» 2-ci kitab, səh. 215) Müstəqil Azərbaycanın keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi

qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Heydər Əliyev Azərbaycan dövlətçiliyini iflasdan, Azərbaycan xalqını fəlakətdən qurtardı, dövlətçiliyi möhkəmlətdi, onu xain əllərdən, çevriliş, qiyam cəhdlərindən hifz edərək dirçəliş və inkişafa doğru yönəltdi, cəmiyyətdə özünəməxsus hissini bərpa etdi, sabitlik və firavanlığa təminat yaratdı. Onun Azərbaycanla, xalqımızla bağlı arzuları bitib-tükənməz idi, məhz bu arzu ilə o, dövlətimizin gələcəyi üçün misilsiz əhəmiyyəti olan böyük layihələrin, nəhəng işlərin təməlini qoymuşdu. Həmin layihələr, Heydər Əliyev xeyir-duası ilə başlanmış işlər hələ uzun illər Azərbaycanın inkişafını, güclənməsini, rifah və firavanlığını təmin edəcəkdir. Heydər Əliyev fəaliyyəti və əməlləri ilə bütöv bir siyasət məktəbinin qurucusu oldu, onun sayəsində müasir dünyanın politoloji leksikonuna "Heydər Əliyev siyasəti" istilahı daxil oldu. Bu tarazlı, bütün cəhətləri ölçülüb-biçilmiş və ən əsası, dövlətin təməl maraqlarını, onun perspektivini, cəmiyyətin bütün təbəqələrinin mənafelərini ehtiva edən, cəmiyyətdə ahəngdarlıq yaradan siyasətdir. Orta statistik azərbaycanlı ümummilli liderində müdriklik, qətiyyət, siyasi uzaqgörənlik, realizm və novatorluq kimi bütün zəruri keyfiyyətlər görürdü. Heydər Əliyev elə bir lider idi ki, Azərbaycanın bundan sonrakı bütün rəhbərləri üçün etalon rolunu oynayacaq, xalq, cəmiyyət seçdiyi bütün liderləri məhz onunla müqayisə edəcək. Heydər Əliyevin siyasətinin bundan sonra illər və yüzillər boyu davam etməsi Azərbaycan dövlətinin tərəqqisi üçün ən böyük təminatdır.

Şübhə yoxdur ki, Azərbaycan Heydər Əliyevin başladığı inkişaf yolu ilə gedəcək, Azərbaycanda Heydər Əliyevin dövlətçilik ənənələri davam edəcəkdir. Bu yolun Azərbaycan tarixində gerçək yeri məsələsinin hələ çox müzakirələrə səbəb olacağı şəksizdir. Amma önəmli olan bir amil xüsusi vurğulanmalıdır - bu yolun real alternativi yoxdur. Və bu gün mühüm olan amillərdən biri də odur ki, həmin siyasəti uğurla davam etdirən lider var. **"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"** («Xalq qəzeti» 4 oktyabr 2003-cü il) - deyə Heydər Əliyev 2003-cü il oktyabrın 3-də Azərbaycan xalqına müraciətində özünün siyasi varisini bu cür səciyyələndirmişdi. 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqının böyük əksəriyyəti ümummilli

liderimizin tövsiyəsinə və Heydər Əliyev dühasına sadiq olduğunu nümayiş etdirdi. Beləliklə, dövlətçiliyimizin siyasi varisliyi təmin edildi və yeni-yeni faciələrdən, fəlakətlərdən xilas olduq.

Təbii ki, Heydər Əliyev dövlətçilik irsinin varisliyinin təmin olunması sosial sifariş idi. Bu konsepsiyanın üstünlüyü, obyektiv xarakter daşıması Heydər Əliyevin hakimiyyətdə olduğu on ildə özünü dəfələrlə nümayiş etdirib. Zaman-zaman cəmiyyət belə bir siyasi iradə ortaya qoydu ki, mütləq bu kursun, aparılan siyasətin varisliyi təmin olunmalıdır. Cəmiyyəti narahat edən əsas faktor hakimiyyət sükanının yenidən təsadüfü şəxslərin, meydan eyforiyasından ayıla bilməyən diletantların əlinə düşməsi qorxusu idi. Xalqdan tələb edilirdi ki, ortaya siyasi iradə qoysun. Bu belə də oldu və xalqımız birmənalı olaraq İlham Əliyev fenomeni üzərində dayandı.

Azərbaycan 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində hakimiyyət dəyişikliklərinin və onların daşıyıcılarının sistemsiz, millətimizə baş ucalığı gətirməyən idarəçilik metodlarının ağır nəticələrini yaşamışdı. Xalqımız həm də 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn və qısa zaman kəsiyində ölkəni fəlakətlərdən qurtarıb müstəqil, demokratik və güclü Azərbaycan dövlətini yaradan Heydər Əliyev zəkasının, gərgin əməyinin və yenilməz iradəsinin məntiqi nəticəsi olan əmin-amanlığın, sabitliyin və iqtisadi dirçəlişin bəhrələrini görməkdə idi. Heydər Əliyev dövlətçilik ənənələrinin qorunub saxlanılmasına, onun müəyyən etdiyi kursun siyasi varisliyinin təmin olunmasına xalqın ciddi əhəmiyyət verməsi məhz bu məntiqə söykənir.

15 oktyabr seçkiləri təsdiqlədi ki, Azərbaycan xalqı ümummilli liderinin siyasi kursuna sadiqdir və bu kursun dövlətçiliyin təhlükəsiz və sabit şəraitdə inkişafına imkan verən yeganə strateji seçim olduğunu tam mənada dərk edir. Cənab İlham Əliyevin seçkilərdə qazandığı tarixi qələbə bunun ən bariz nümunəsi oldu. 15 oktyabr həm də Azərbaycanda möhkəm, heç bir qüvvənin sarsıtmağa gücü çata bilməyəcək siyasi həmrəyliyin, dövlət idarəçilik sisteminin mövcudluğuna dəlalət etdi və bu siyasi həmrəyliyi təmin edən bir nömrəli faktor Azərbaycanda artıq dövlətçilik şüurunun mövcud olması faktı ilə bağlıdır. Cənab İlham Əliyev andiçmə mərasimindəki nitqində ümummilli lider Heydər Əliyevin siyasi kursunu davam etdirəcəyini bildirdi. "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən

başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Mən bu yüksək kürsüdən əziz prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik. («Yeni Azərbaycan» qəzeti 1 noyabr, 2003)

Cənab İlham Əliyev prezident səlahiyyətlərinin icrasına başladığı ilk gündən etibarən iqtisadiyyatın inkişafının sürətlədirilməsinə və əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət yetirəcəyini nümayiş etdirdi. Dövlət başçımızın həm Nazirlər Kabinetinin ilk iclasındakı çıxışı, həm də "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanı da elə bu münasibətin əyani göstəricisi idi. Qeyd edək ki, sözügedən fərman ölkədə aparılan iqtisadi islahatların səmərəliliyini və sürətini artırmaq məqsədinə xidmət edirdi. Sənədə görə müxtəlif sahələrdə mövcud olan problemləri həll etmək və bütün ölkə miqyasında iqtisadi inkişafa nail olmaq üçün müasir dövrün reallıqlarına uyğun və bazar iqtisadiyyatı şəraitində özünü doğrulda bilən dövlət proqramlarının hazırlanması nəzərdə tutulurdu. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" da məhz cənab Ilham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanına uyğun olaraq hazırlanmışdı və onun bütün müddəaları ölkədə iqtisadi inkişafın sürətinin yüksəldilməsinə nail olmağa hesablanıb. Dövlət Proramında iqtisadiyyatın qeyri-neft sektorunun dirçəldilməsi məsələsi əsas istiqamət kimi göstərilib və qeyd etmək lazımdır ki, regionların inkişafı demək olar ki, əsasən qeyri-neft sektorunun dirçəldilməsini nəzərdə tutur.

Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi islahatlar statistik rəqəmlərdə öz əksini tapmışdır. Belə ki, 2004-cü ilin səkkiz ayı ərzində Azərbaycanda sənaye və kənd təsərrüfatı məhsullarının istehsalında ciddi artım müşahidə edilməyə başlamış, ümumi daxili məhsulun həcmi nəzərçarpacaq dərəcədə yüksəlmişdir. Qeyd olunan dövrdə Azərbaycanda ümumidaxili məhsulun artım sürəti 9,5 faizə çatmış, adambaşına düşən pul gəlirləri isə 19,3 faiz artmışdır. Orta aylıq əməkhaqqının miqdarında artım 24,2 faizə bərabər olmuşdur. Ölkə rəhbəri ötən ilin dekabrında Londonda olarkən mətbuat nümayəndələrinə bu barədə demişdir: «Ümumi daxili məhsul bu il 10 faiz artıbdır. Sərmayələr 40 faizdən artıq artmışdır. Dövlət idarələrində işləyənlərin maaşlarını nəzərəçarpacaq dərəcədə artırmışıq. Minimum əməkhaqqı bir neçə dəfə artmışdır. Sosial problemlərin həllinə böyük diqqət yetirilir». («Dirçəliş» jurnalı, 1-ci buraxılış 2005)

Prezident İlham Əliyev Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq Azərbaycanın dünyanın müxtəlif dövlətləri ilə əlaqələrinin daha da möhkəmlənməsinə, respublikamızın Avropaya inteqrasiyasının təmin olunmasına çalışmışdır. Onun ilk xarici səfərinin Fransadan başlaması da göstərdi ki, Azərbaycan Avropa ölkələri ilə əlaqələrin inkişafını prioritet vəzifələrdən biri kimi qiymətləndirir. Dövlət başçısı dünyada gedən mürəkkəb proseslərin və ziddiyyətlərin fonunda respublikanın siyasi müstəqilliyini daha da möhkəmləndirməyə nail olmuşdur. Prezident İlham Əliyevin xarici səfərlərinin siyahısına diqqət yetirdikdə bunu çox aydın şəkildə görmək mümkündür: Fransa, Rusiya, Slovakiya, Qazaxıstan, Özbəkistan, Türkiyə, Polşa, Belçika, Ukrayna, Gürcüstan, Moldova, Almaniya, ABŞ, Rumıniya, İran, Çin, İtaliya. Heç kimə sirr deyil ki, bu ölkələrin bəzilərinin əksər hallarda üst-üstə düşməyən özünəməxsus strateji maraqları var və onların regionda gedən proseslərə real təsir imkanlarına malik olduğunu danmaq mümkün deyil. Böyük dövlətlərin bir-birilə ziddiyyət təşkil edən maraqları fonunda Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və bu əks qütblərin hər biri ilə münasibətləri strateji tərəfdaşlıq səviyyəsində davam etdirmək olduqca çətin bir məsələdir. Cənab İlham Əliyev bu vəzifənin öhdəsindən layiqincə gələ bilmişdir.

Prezident İlham Əliyev daim cəmiyyətə əsl vətəndaşlıq hissləri aşılayıb. Bu fikri onun hələ 1997-ci ildə ABŞ-ın Kembric Universitetində çıxışı zamanı vurğuladığı bir məqam da təsdiqləyir: **"Biz xarici şirkətlərə deyirdik: Siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhvə yol versək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür heç bir səhfə yol verə bilmərik".** («İki sahil» qəzeti, 20 dekabr 1997)

Bu gün iftixar hissi ilə deyə bilərik ki, İlham Əliyev böyük cəsarət və iradə nümayiş etdirərək milli mənafelərin qorunması uğrunda daha əzmlə çalışır. Təqdirəlayiq haldır ki, Prezidentin xanımı Mehriban Əliyeva da Heydər Əliyev siyasi irsinin fundamental prinsiplərinə sadiq qalaraq Azərbaycan mədəniyyətinin mühafizəsi, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində səmərəli fəaliyyət göstərməkdədir. Məhz xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 1996-cı ildə yaradılmış "Azərbaycan mədəniyyətinin dostları" fondu xalqımızın mədəni irsinin bütün dünyada təbliğinə, qiymətli incəsənət abidələrinin qorunmasına xidmət edir. Azərbaycan mədəniyyətinə bu qədər yüksək qiymət verilməsi Prezidentin xanımının xalqımızın milli-mənəvi dəyərlərinə sosuz bağlılığının əyani təzahürüdür. Elə bunun nəticəsidir ki, ötən il Mehriban xanım Əliyeva YUNESKO kimi nüfuzlu bir təşkilatın xoşməramlı səfiri vəzifəsinə seçilmişdir. Bu onun mədəniyyətə xüsusi münasibətinin beynəlxalq təşkilatların da diqqət mərkəzində olduğunu təsdiqləyən əyani faktlardan biridir.

Bu gün Mehriban xanım Əliyeva yalnız mədəniyyətimizin və xalqımıza məxsus qiymətli incəsənət əsərlərinin qorunması sahəsində çalışmır, həm də kimsəsiz uşaqlara, qayğıya möhtacı olan yeniuetmələrə yardım göstərir. Onun təşəbbüsü ilə uşaq evlərinə, əlil və kimsəsizlərə maddi və mənəvi yardımlar edilir, bu insanların özlərini cəmiyyətin bərabərhüquqlu üzvü kimi dərk etməsi üçün bütün zəruri addımlar atılır. Onun həyata keçirdiyi bu tədbirlər həqiqətən də böyük qəlbə, yüksək mənəvi keyfiyyətlərə, humanist xarakterə malik olduğuna əyani sübutdur.

Mehriban xanım Əliyeva bu gün həm də "Heydər Əliyev Fondu"nun prezidenti kimi dövlətçilik tariximizdə müstəsna xidmətlər göstərmiş böyük bir şəxsiyyətin - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsinin qorunması və təbliği kimi ali bir missiyanı yerinə yetirir. Heydər Əliyevin irsinin qorunması və gələcək nəsilləri ötürülməsi isə Azərbaycan xalqının milli dövlətçilik şüurunun inkişafının və yetişməkdə olan gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasının ən vacib şərtlərindən biridir.

Mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində nümayiş etdirdiyi fəallıq, humanist fəaliyyəti Mehriban xanım Əliyevanın qısa vaxt ərzində yüksək nüfuz qazanmasını təmin etmişdir. Bu

günlərdə keçirilmiş sorğunun nəticələrinə uyğun olaraq onun "İlin qadını" adına layiq görülməsi bütövlükdə Azərbaycan xalqının bu nəcib insana yüksək hörmətinin təzahürü kimi qiymətləndirilməyə layiqdir.

Bu gün müstəqil Azərbaycana cavan, enerjili, gümrah, intellektual, vətənpərvər, ən əsası isə Heydər Əliyev kimi fenomen və dahi bir şəxsiyyətin ocağının istisində böyümüş, ərsəyə gəlmiş bir şəxsin - Prezident İlham Əliyevin rəhbərlik etməsi xalqımızın alın yazısıdır. Tanrı onun üzərinə tarixi bir missiya qoyub. Müdrük xalqımız ona olduqca çətin və şərəfli bir missiyanı əmanət edib. Elə bir missiyanı ki, bu günümüz və sabahımız yalnız və yalnız ondan asılıdır. Bu baxımdan, **Azərbaycan xalqı öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Bütün sahələrdə dinamik inkişaf, işgüzarlıq müşahidə edilir. Yorulmadan xalqın maraq və mənafeləri, firavan yaşayışı, təhlükəsizliyi uğrunda mübarizə aparan, Azərbaycana bacarıqla rəhbərlik edən liderin-Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyev dövlətçilik irsini uğurla davam etdirəcəyi danılmaz həqiqət kimi cəmiyyət tərəfindən böyük rəğbətlə qəbul olunur.**

HADİ RƏCƏBLİ
Milli Məclisin Sosial siyasət
daimi komissiyasının sədri

HEYDƏR ƏLİYEV - SİYASİ LİDER, DAHİ ŞƏXSİYYƏT

Heydər Əliyev fenomeni, siyasi istedadı və unikal şəxsiyyəti barədə külli miqdarda elmi məqalələr yazılmış, dünyanın əksər siyasi texnologiyalar üzrə ixtisaslaşan nəzəriyyəçiləri onun əsrlərə sığmayan titanik fəaliyyəti barədə ən müxtəlif prizmalardan tədqiqat işləri aparmışlar və zaman keçdikcə bu qəbildən olan yazılara həmişə ehtiyac olacaqdır. Biz Heydər Əliyevin siyasi dühasını həm siyasi elitanın formalaşdırıcısı və həm də əlahiddə götürülmüş siyasi lider kimi nəzəri-təcrübi kontekstdə öyrənməyi qarşımıza məqsəd qoymuşuq. Fikrimizcə, Heydər Əliyev şəxsiyyətinin həm Azərbaycan siyasətində siyasi elitanın banisi, müəllimi və həmişə istinad ediləcək rəhbəri kimi, həm də ayrıca fenomenal bir fərd kimi vəhdətdə öyrənilməsi böyük siyasi irs olaraq müasir, modern və sivil dövlətçiliyin əsaslarının nəzəri aspektləri baxımından xüsusi əhəmiyyətə malikdir.

Bəşər cəmiyyəti formalaşandan bəri hər bir ictimai-sosial varlıq, malik olduğu siyasi formasiyadan asılı olmayaraq, həmişə özünün inkişaf səviyyəsinə uyğun şəxsiyyət və liderə ehtiyac duymuşdur.

Hətta insanlar arasında fövqəlfərqliliyin əleyhinə çıxan, ictimai özünüidarəni başlıca ideyası və son məqsədi hesab edən kommunizm təmayüllü ölkələr də siyasi lider amili olmadan fəaliyyət göstərə bilməmişlər və bilmirlər. Bu da təbiidir. Bioloji və sosioloji fərd olaraq insanlar həmişə, digər məsələlərdə olduğu kimi, siyasi həyat və dünyagörüşlərində də oxşamaq istədikləri və ardınca gedəcəkləri "nümunəvi başçı" axtarışında olmuşlar. Bu axtarışlar insanlarda bioloji kod olaraq genlərdə və təhtəlşüurda yerləşdiyindən, bütün dövrlərdə və xalqlarda mövcud olacaq zəruri bir proses kimi həmişə davam edəcəkdir.

Odur ki, müasir dövrümüzdə də siyasət aləmi lider yetişdirməyin yeganə doğru mənbəyi olan siyasi elitasız keçinə bilmir və bu baxımdan biz, lider və şəxsiyyət barədə mülahizələrimizi "siyasi elita" və "lider" anla-yışlarının qa-

rşılıqlı müqayisəsi şəklində və nəzəri anlayışlarla praktiki nailiyyətlərin vəhdətində H.Əliyev şəxsiyyətinin timsalında diqqətinizə çatdıracağıq.

Siyasət aləminin aparıcı qüvvələrindən biri kimi siyasi elita müstəsna əhəmiyyətə malikdir. Doğrudur, kommunizm təmayüllü ölkələrdə siyasi elita rolunu cəmiyyətin mütləq əksəriyyətinin üzv olduğu və yeganə leqal qurum olan kommunist partiyası aparır və elə bu baxımdan da, son illərin təcrübəsi göstərdi ki, kommunist partiyası müasir siyasi elita kateqoriyasının bütün əlamətlərinə tam cavab vermir.

Siyasi elitanın nəzəri aspektləri

Siyasi nəzəriyyədə hamılıqla qəbul olunduğu kimi, siyasi elitaya iki istiqamətdə baxmalıyıq:

Birinci istiqamət siyasi elitanın daha geniş anlamda qəbulunu şərtləndirir ki, bura da bütövlükdə cəmiyyətin bütün təbəqələrinin yalnız müəyyən hissəsi, yəni sosial-iqtisadi dairələrin, ziyalıların, digər peşəkar təsisatların nüfuzlu və tanınmış nümayəndələri daxildirlər.

İkinci istiqamət daha dar çərçivədə və belə ifadə etmək mümkünsə, "peşə" mənasında başa düşülərək hakimiyyət sferasında və dövlət idarəçiliyi ilə (partiyalarla, digər siyasi strukturlarla) peşəkarcasına məşğul olan şəxslər qrupunu ehtiva edir.

Hər iki istiqamət formal olaraq özündə siyasi elitanın bütün komponentlərini əks etdirsə də, biz H.Əliyev şəxsiyyətinin siyasi elita ilə birbaşa bağlılığını qismən açmaq üçün daha uyğun gələn ikinci – peşəkar və ya başqa sözlə desək, hakimiyyət sferasına məxsus siyasi elitanın və onun yetişdirdiyi şəxsiyyət-liderin nəzəri təhlilini verməyə çalışacağıq.

Çünki birinci istiqamətə şamil olan siyasi elitanın mövcudluğu və ictimaiyyət tərəfindən qəbul edilməsi üçün onun hakimiyyətdə olması və ya hakim qüvvə olaraq cəmiyyətin fəaliyyət istiqamətlərini müəyyənləşdirməsi vacib şərt deyildir.

Odur ki, həm bu cəhətdən, həm də əsl şəxsiyyət və lider keyfiyyətlərini yetişdirməyə qabil olması baxımından fərqlənən ikinci istiqamətli siyasi elitanın öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Siyasi texnologiyalar və siyasi idarəetmə nəzəriyyəsində siyasi elitanın ən müxtəlif anlayışları və tərifləri mövcuddur. Fikrimizcə, siyasi elitanı anlayış olaraq belə xarakterizə etmək mümkündür:

Siyasi elita – hər hansı bir cəmiyyətin sosial maraqlarını əks etdirmək üçün yaranmış, müəyyən siyasi dəyərlərin və məqsədlərin formalaşmasına uyğunlaşmış və qərarların qəbulu prosesinə nəzarət edən şəxslər qrupudur.

Məlum olduğu kimi, hər bir fərd yerinə yetirdiyi vəzifələr, qarşısına qoyduğu məqsəd və hədəflər, habelə, oynadığı siyasi rol baxımından bir sıra spesifik funksiyalara malikdir. Bu baxımdan, siyasi elitanın funksiyalarına aşağıdakılar daxildir:

Siyasi elitanın funksiyalarından biri kimi, *səlahiyyətlilik və nəzarəti* fərqləndirmək olar. Siyasi elita ən vacib sosial məsələlərin həlli ilə bağlı qərarların qəbul edilməsi və eyni zamanda onların icrasına nəzarət mexanizmini özündə birləşdirir.

Siyasi elitanın digər bir funksiyası onun əhalinin müxtəlif təbəqələrinin *qrup maraqlarının formalaşdırması və təşkil etməsidir.*

Liderlik institutunun mahiyyəti

Siyasi elitanın ən mühüm elementi *siyasi liderdir.* Məhz siyasi lider hakimiyyət və idarəçilik sistemini fərdiləşdirərək müvafiq hakimiyyəti bütün cəmiyyətin və ya vətəndaş qruplarının nəzərində təcəssüm etdirir. Yəni, siyasi lider digər keyfiyyət və məziyyətləri ilə yanaşı, siyasi elitanı təşkil edən digər şəxslərdə fərqlənən xüsusi, spesifik bir fenomenə də malik olmalıdır.

H.Əliyev dünya siyasi arenasında özünü məhz belə lider kimi göstərdi. İstər Azərbaycana başçılıq etdiyi bütün dönəmlərdə, istər Moskvada SSRİ kimi nəhəng və qüdrətli bir dövlətin ən yuxarı hakimiyyət eşalonunda yüksək rəhbər vəzifələr daşıdığı vaxtlarda, istərsə də, çox qısa zaman kəsiyində işsiz qaldığı zamanda H.Əliyev sadə adamlardan tutmuş ən böyük siyasi xadimlərin də etiraf etdiyi kimi, əlahiddə istedadı və dühası baxımından həmişə fərqlənmişdir. İnsanları müəyyən bir ideya ətrafında və məqsəd uğrunda birləşdirə, səfərbər edə bilmək və bu zaman yaranacaq bütün mümkün çətinlikləri qabaqcadan görmək və onların həllinə əvvəlcədən hazır olmaq qabiliyyəti müəyyən vəzifə tutub-tutmadığından asılı olmayaraq H.Əliyevin ayrılmaz təbii xarakterik xüsusiyyəti idi və bu baxımdan o, bir çox siyasətçilərdən fərqlənirdi.

Dünya siyasət elminin banilərı və tanınmış fikir sahibləri, xüsusilə də filosoflar Konfuçi, Platon, Nitçşe, tarixçilər Heredat, Plutarx, psixoloqlar Tard, Freyd, sosioloq E.Dyürkqey və digərləri öz əsərlərində siyasi liderin fərdi şəxsi xarakteri ilə əlaqəli fərqli, bəzi hallarda isə bir-birini tam istisna edən məqamlardan yanaşmışlar.

Məsələn, XIX əsrin tanınmış fransız sosioloqu E.Dyürkqey qeyd edirdi ki, zaman keçə-keçə siyasi liderlərin cəmiyyətdə və tarixdə rolu azalacaq. Bu məsələ ilə əlaqədar əks mövqedə dayanan tanınmış psixoloqlardan Tard, Freyd, antropoloqlardan Halton öz əsərlərində liderin cəmiyyətdə dayanıqlı roluna davamlı ehtiyacın olmasını əsaslandırıb, konseptual baxımdan isbat etmişlər. Və tarix göstərdi, zaman da sübut etdi ki, həmişə, hər zaman siyasi liderlərin cəmiyyətdə yeri nəinki var, hətta zəruridir.

Siyasi liderlilik, hər şeydən əvvəl, istənilən insan cəmiyyətinin fəaliyyətinin universal və ayrılmaz mexanizmi kimi xarakterizə olunmalıdır. Eyni zamanda, lider "yuxarıların" və "aşağıların" münasibətlərinin saxlanılması, cəmiyyətin özünümühafizə və öz maraqlarının həyata keçirilməsi üçün bu münasibətlərin institutlaşdırılması elementidir.

Liderlər həyata keçirdikləri məqsədlərə nail olmaq üçün bir sıra zəruri keyfiyyət və məziyyətlərə malik olmalıdırlar ki, onların, da xüsusilə, vacib olanları üzərində dayanmaq istərdik.

Birinci cəhət şəxsi *"fərdi-insani" keyfiyyətləridir.* Karleyl nəzəriyyəsinə görə liderin şəxsi keyfiyyətlərindən çox şey asılıdır. Buraya liderin psixoloji, ideoloji və digər keyfiyyət göstəriciləri daxildir. Liderin şəxsiyyətinin bu xüsusiyyətləri, başqa sözlə *volyuntarist* keyfiyyətlər də adlanır.

Liderin ikinci geniş yayılan keyfiyyəti *"şəraitə uyğunlaşma konsepsiyası"* adlanır, yəni siyasi liderlik şəxsi keyfiyyətlərlə deyil, xarici amillərlə xarakterizə olunur. Bu konsepsiyaya görə lider şəraitə uyğun olaraq özünü göstərməli olur. Yəni, bu halda lider bəzən müharibə gedişində müharibə tələblərinə uyğun olaraq, quruculuq dövründə quruculuq keyfiyyətləri ilə səsləşən fəaliyyət göstərir. Lider şəraitin tələblərinə uyğun olaraq, özünün ənənəvi şəxsi keyfiyyətlərindən imtina edərək, insanların heç də həmişə xoşuna gəlməyən bir tərzdə hərəkətlər etmək məcburiyyətində qalır.

Liderin digər əlaməti *"şəxsi-şərait" keyfiyyətidir*, bu insanın həm şəxsi, həm də şəraitdən asılı olan keyfiyyətlərindən yaranır. Belə olan halda

siyasətçilər şəxsi keyfiyyətlərindən imtina etməyərək, onun öz təməl xüsusiyyətlərindən köklü fərqlənməyən, lakin konkret şəraitə uyğun gələn formasını tapmaq məcburiyyəti qarşısında qalırlar.

Liderin təbiətini və təyinatını xarakterizə edən müasir keyfiyyətlərdən biri də *"relyasion doktrina"dır*. Burada dəlillər və arqumentlər xarici mühitə, rəhbərin fərdi və şəxsi keyfiyyətlərinə, habelə, liderin davranışını müəyyən edən şəraitə və digər hallara kompleks, sistemli şəkildə baxılması əsasında qurulur. Bu nəzəriyyə çərçivəsində liderlərin səmərəli seçilməsinin və hazırlanmasının çoxsaylı metodikaları yaradılır.

Həmin dörd əsas istiqamət məhz şəxsiyyətin başlıca fəaliyyət nəzəriyyəsini özündə ehtiva edir.

Bu keyfiyyətlərin hamısını özündə kommunikativ şəkildə birləşdirə bilən Heydər Əliyevin məhz fərdi xüsusiyyətləri dünya siyasətçiləri tərəfindən birmənalı qəbul olunub və çox yüksək qiymətləndirilib.

Siyasi liderliyin daha tam, funksional xüsusiyyətləri ümumi dövlət idarəetməsi səviyyəsində daha parlaq təzahür edir. Bu siyasi institutun *ən əsas vəzifəsi* qərarların işlənməsi, hazırlanması qəbul və realizə olunmasını nəzərdə tutan çoxsaylı hərəkətləri; bu prosesdə iştirak edən strukturların fəaliyyətinin koordinasiyasını; bu və ya digər cəmiyyət stratlarının maraqlarının uzlaşdırılmasını və s. nəzərdə tutan geniş əhatəli *təşkilati-idarəetmə funksiyalarının* həyata keçirilməsidir. Yəni, başlıca məsələ idarəetmə və təşkilatçılıq bacarığıdır.

Siyasi liderin ikinci funksiyası münaqişələrin bütün təzahürlərinin minimuma endirə bilməsidir. Hakimiyyətin nümayəndəsi kimi onun fəaliyyəti mövqeyinin gücləndirilməsi, hakim rejimdə stabilliyin saxlanılması məqsədilə konfliktlərin minimallaşdırılmasını, siyasi diskussiyaların sakitləşdirilməsini, hakimiyyət uğrunda rəqabətin gərginliyinin azaldılmasını şərtləndirir. Siyasi liderlik – əsas etibarı ilə mövcud idarəçilik sisteminin stabillik amilidir.

Funksiyalardan biri də kommunikativlik bacarığıdır. Əhali ilə xüsusi əxlaqi-etik münasibətlərin subyekti olaraq siyasi lider kommunikativ funksiyanı da yerinə yetirir. Bununla da, o, cəmiyyətin nəzərində əhalinin hüquq və azadlıqlarının təminatı üzrə fərdi və siyasi məsuliyyətini və son nəticədə hakimiyyətin məcmu fəaliyyətini təcəssüm etdirir. Komunikativ funksiya cəmiyyətdə liderin apardığı ən vacib funksiyalardan biridir.

Digər bir funksiya liderin səfərbəredici funksiyasıdır. Liderin səfərbəredici funksiyası dövlətdə və cəmiyyətdə bu və ya digər konkret problemlərin həllinə əhalinin səfərbər edilməsi qabiliyyətində özünü təzahür etdirir.

Başqa bir keyfiyyət liderin yaradıcılıq qabiliyyətidir. Yəni, siyasi lider dövlət (siyasi) strukturlarının fəaliyyətini istiqamətləndirərək, özü yaranmış vəziyyətin çağırışlarına mahiyyət etibarilə yaradıcı cavab verməyə, onu adekvat qiymətləndirməyə, müvafiq layihələrə təşəbbüs verməyə, zəruri dəyişikliklərə imkan yaratmağa, idarəetmə fəaliyyətinin üsul və metodlarını təkmilləşdirməyə qabil olmalıdır.

Lider, eyni zamanda, birləşdirici funksiyaya da malik olmalıdır. Siyasi sinfin ali nümayəndəsi kimi lider hakim elitanı birləşdirmək, onun nüvəsini möhkəmləndirmək, müxalifət və digər qruplarla rəqabət qabiliyyətini yüksəltmək qabiliyyəti ilə fərqlənməlidir.

Bütün sadaladığımız funksiyalar nəzərə alınmaqla siyasi liderliyə belə tərif vermək mümkündür: *siyasi lider – ayrıca şəxsə (şəxslər qrupuna) dövlət (partiya, hərəkat, bölgə) miqyasında qərarların qəbulu prosesində həlledici səlahiyyətə və nüfuza malik olmasına görə müəyyən siyasi xətti həyata keçirmək imkanı yaradan xüsusi hakimiyyət institutudur.*

Beləliklə, biz bu nəzəri meyarları Heydər Əliyev şəxsiyyətinə tətbiq edərkən hər bir çərçivədə, hər bir funksiyada Heydər Əliyevin yüksək şəxsi keyfiyyətlərinin açıldığını görürük.

Liderin siyasi portretini tam açmaq üçün onun hissləri barədə də mütləq danışmaq lazımdır.

Siyasi liderləri hakimiyyətdə nəzarət səviyyəsinə (iqtidar və müxalifət); fəaliyyət miqyasına (ümummilli və bölgə); davranış stilinə (avtoritar və demokratik); rəhbərlik xarakterinə (formal və qeyri-formal); sosial dəyişikliklərə və islahatlara münasibətinə (mühafizəkar, islahatçı, doqmatik, fundamentalist); siyasi hərəkatın məqsədlərinə nail olmaqda oynadığı rola (ideoloq, idealist, praqmatik), rəqiblərə münasibətinə (razılaşdırıcı, fanatik) və. s. görə fərqləndirirlər.

Siyasi liderlərin klassik tipologiyasını tanınmış alim Verder veribdir. O, siyasi liderləri əsasən üç tipologiyaya ayırmışdır. Onlar aşağıdakılardır:

Ənənəvi tipologiyaya görə insanlar konkret (əsas etibarılə sənayeləşmədən əvvəlki) cəmiyyətdə dominant olan müəyyən ənənə və adətlərin təsiri ilə lider yerini tuturlar.

Səmərəli-legal tipologiyada lider müəyyən siyasi (bürokratik) prosedur və mexanizmlərin (seçkilərin) təsiri ilə öz statusunu alır.

Xarizmatik liderlər əhali tərəfindən tənqidsiz qəbul olunan və cəmiyyətdə böyük nüfuza malik olan şəxslərdir. Xarizmatiklər elə liderlərdirlər ki, xalq onları birmənalı, şəxsi keyfiyyətlərinə görə, siyasət olimpində mövcudluğundan asılı olmayaraq həmişə qəbul edir.

Heç təsadüfi deyildir ki, xalqımız Heydər Əliyev dühasında xarizmatik liderə xas olan bütün yüksək məziyyətləri görməklə ona Azərbaycanın ÜMUMMİLLİ LİDERİ adını vermişdir.

Mən Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi və təkrarolunmazlığını ümumiləşdirərək onun xarakterik obrazını özümün bir siyasət, dövlət adamı olaraq yetişdiyim və uzun illəri onunla təmasda olduğum, həyatımı əhatə edən mərhələlərdə verməyə çalışacağam. Odur ki, Heydər Əliyev dühası ilə ilk şəxsi görüşümün tarixinə bir az uzaqdan gəlmək istəyirəm.

Seçim ustası, insan sərrafı

1970-ci il idi. H.Əliyevin seçib Lənkərana yenicə şəhər partiya komitəsinə birinci katib təvsiyə etdiyi, onun yaxşı tanıdığı, uzun müddət Naxçıvanda komsomolda işləyən İsa Məmmədov rayonla tanış olur, müəssisələrə gedirdi. İstirahət günü idi, zavodun rəhbərliyi yerində yox idi. Səliqəli geyimli bir kişi həyət darvazasından içəri girdi. Zavodla maraqlanan bu adamla müəssisə haqqında çox sərbəst danışmağa başladım, istehsalla və digər məsələlərlə əlaqədar öz fikirlərimi və təkliflərimi bildirdim, onunla diskussiyaya girdim. Həmin adam mənə çox təəccüblə baxırdı ki, bu nə qədər ürəkli adamdır ki, rayon rəhbərilə belə danışır. Bu görüşdən bir həftə sonra komsomolun bir tədbirində çıxış etdim və İsa müəllim məni orada təkrarən gördü. Müəssisədəki nüfuzuma və ictimai işlərə xüsusi marağıma görə məni zavodun ilk komsomol təşkilatının katibi, sonra isə həmkarlar komitəsinə sədr seçmişdilər, rayon komsomol komitəsi ali orqanının üzvü idim.

Sonradan komsomolun ikinci katibliyinə namizəd axtarırdılar və mənim sənədlərim bir neçə digər şəxslərin sənədlərilə birlikdə Bakıya göndərildi. Beləliklə, mən Lənkəran şəhər komsomol komitəsinə ikinci katib seçildim və qısa müddətdən sonra məni ordu sıralarına apardılar.

Biz görürdük ki, cəmiyyətdə daha çox zəhmət çəkən adam barəsində onun sosial mənşəyinə fərq qoyulmadan ədalətli seçim var.

Heydər Əliyevlə ilk görüşüm məndə çox böyük, həyat fəaliyyətimin istiqamətini birdəfəlik müəyyən edən bir təəssürat yaratdı. Mən ilk dəfə 1972-ci il iyulun 4-də Heydər Əliyevin qəbulunda oldum və kasıb bir ailədən çıxmış, vəzifədə heç bir qohumu olmayan 24 yaşında bir gənc kimi Lənkəran şəhər komsomol komitəsinin birinci katibliyinə təvsiyə olunmuşdum. Yüksək vəzifəyə təyinatımın sevinci nə qədər böyük olsa da, məni valeh edən heyrətli və ibrətamiz təəssürat Heydər Əliyev şəxsiyyətinin ecazkarlığı idi. Mən həmin qəbulu quru, sxematik bir görüş təsəvvür edirdim, lakin canlı, hətta doğma və sərbəst mühitdə keçən bir söhbətin şahidi oldum. Qəbulunda olan şəxslərlə, xüsusilə də, gənclərlə dərhal dil tapıb, respublika rəhbəri vəzifəsinin ümumi xarakterik aurasından doğan sıxıntını dəf etmək, söhbəti sərbəst, lakin çox məhsuldar və işgüzar məcraya yönəltmək bacarığı onun nə qədər dərin psixoloji istedada malik olduğunun nümunəsi idi. Və o görüşdə mənə verilən tövsiyələr, onun yaratdığı şərait, mənim onunla fikir mübadiləsi imkanlarım H.Əliyev məktəbinin elə birinci dərsi idi. Bu dərslər istər onunla sonradan dəfələrlə şəxsi görüşlərim, istər qurultay, plenum və konfranslardakı çıxışları, istərsə də verdiyi göstərişləri bu BÖYÜK MƏKTƏBİN təkrarolunmaz və əvəzedilməz tədrisində ömrüm boyu davam edən ibrətamiz həyat universiteti idi.

H.Əliyev kadrların, ələlxüsus gənc kadrların təhsilinə xüsusi diqqət yetirirdi. Bakı Ali Partiya Məktəbi cənubi Qafqaz regionunun çox prestijli, yüksək kadrlar hazırlayan təhsil ocağına çevrilmişdi.

Ali Partiya Məktəbində oxumaq arzum həyata keçdi. Qrup nümayəndəsi seçildiyim məktəbi fərqlənmə diplomu ilə bitirdim. Təyinatımı AzKPMK-nın orqanı olan "Bakinski raboçi" qəzetinə verdilər.

Qəzet rus dilində olduğundan həm Moskvada, həm də Azərbaycan siyasi elitasında diqqətlə oxunur, yazılara o dəqiqə reaksiya verilirdi.

Burada çalışdığım iki il ərzində hər gün, hər an H.Əliyevin elə bil ki, yazdıqlarımı sətir-sətir oxuduğunu, mənimlə daim maraqlandığını güman edir və çox yüksək məsuliyyət hissi məni daim müşayiət edirdi.

Mənim üçün virtual olan bu gündəlik görüşlər və nəzarət, nəhayət, 1980-ci ilin avqust ayında yenə də gerçəkliyə çevrildi.

Düzlük və mənəvi saflıq simvolu

1980-ci ilin ortaları idi. Lənkəran şəhər İcraiyyə Komitəsinə sədrliyə namizəd axtarırdılar. İrəli sürülən bir neçə kadr sırasından KP MK-nın I katibi Heydər Əliyev məni seçmiş, mənim üzərimdə dayanmışdı.

Bu seçimdə mənim üçün bir neçə paradoksal məqamlar var idi. Birincisi, qəzet müxbirinin şəhər təsərrüfatına, ağır bir sahəyə irəli çəkilməsi, ikincisi, yaşımın 32 olması.

Çox böyük həyəcan və şok vəziyyətindən Heydər Əliyev məni tez çıxartdı. Məni unutmamışdı, mühəndis olduğumu, sənaye müəssisələrində, gənclər təşkilatında, mərkəzi mətbuatda çalışdığımı bilirdi. Səmimi, sakit, monoton söhbətin baş xəttində mənəvi saflıq, düzlük, halallıq və təmizlik dururdu. O söhbət həyatımın sonrakı etaplarında və bu gün də mənim qulaqlarımda daim səslənir.

H.Əliyev tövsiyələrinə əməl edən insanlar, vəzifəli şəxslər, siyasi-ictimai qurumların başçıları daim xeyir görmüş, son nəticədə bütövlükdə cəmiyyət bundan faydalanmışdır.

70-ci illər Lənkəranın intibah dövrləri idi. Rayon ümumittifaq bostanına çevrilmişdi, şəhərə daim Moskvadan, dünyanın bir sıra ölkələrindən nümayəndələr gəlirdi. Biz, bölgədə çalışan bütün siyasətçilər, təsərrüfavt başçıları, istehsalat adamları H.Əliyevin diqqət və qayğısını daim öz üzərimizdə hiss edirdik. Zəhmət, fədakarlıq, halallıq, mənəvi saflıq heç vaxt itmir, həmişə yüksək qiymətləndirilirdi.

Məni 1981-ci ilin dekabrının son günlərində Az.KP MK-ya, H.Əliyev şəxsiyyətinin bilavasitə rəhbərlik etdiyi aparatın ən aparıcı şöbəsinə - Təşkilat-partiya işi şöbəsinə inspektor vəzifəsinə irəli çəkdilər.

Sevindirici hal o idi ki, elə o günlər H.Əliyev dühasının yetişdirməsi olan Ramiz Mehdiyev bu şöbəyə müdir təyin olunmuşdu. Şöbə əməkdaşları rayonlardan H.Əliyev tələblərinə cavab verən zəhmətkeş ailələrdən sıxmış, halal, düz, təşəbbüskar, zirək və ağıllı gənclərdən komplektləşdirilirdi.

Şöbədə sağlam işgüzar və saf mənəvi mühit hökm sürürdü. Şöbənin Bakıda mənzili olmayan 7 əməkdaşı Ali partiya məktəbinin yataqxanasında yerləşdirilmişdi. H.Əliyev bizim rəhbərimiz, ata əvəzimiz, güvənc yerimiz və şəxsiyyətinə fanatik pərəstiş etdiyimiz kumirimiz idi.

Qayğıkeş insan

Yataqxana həyatı ailəli, rayonlardan yüksək vəzifələrdən gəlmiş bizlər üçün nə qədər ağır olsa da, heç kəs sızıldamır, narazılıq etmir, ailə ayrılığının çox da uzun olmayacağına hər birimiz inanırdıq. Bilirdik ki, bizi MK aparatına, öz yanına H.Əliyev gətirmişdi, özü seçmişdi, özü tapmışdı.

H.Əliyev aparatında gecə-gündüz, istirahət günü, vaxt məhdudiyyəti yox idi. Burada qaynar həyat, işgüzar mühit, yüksək intizam mövcud idi. İşçilərin böyük əksəriyyəti fədakar və yaradıcı əməyi ilə siyasi elita arasında seçilirdi. Aparatın həmkarlar təşkilatı H.Əliyevin göstərişi ilə işçilərin ərzaq, gündəlik tələbat və geyim təchizatı, özünün və ailəsinin istirahət, müalicə qayğıları, mənzillə təmin olunması məsələlərini daim diqqət mərkəzində saxlayırdı.

H.Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilməsi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi xəbəri bizi çox sevindirmişdi, bütün xalq bundan iftixar hissi keçirirdi. Biz də -aparatın yataqxanada qalan işçiləri mənim kiçik otağımda toplaşaraq məclis düzəltmişdik, sevincimizi bölüşürdük. Darısqallıq bizi sıxmırdı, dönə-dönə H.Əliyevlə bağlı xatirələrimiz yada salır, səhərin necə açıldığını hiss etmirdik.

Səhər saat 9-da işdə olmalıydıq, heç kəs gecə yatmamışdı. Mərkəzi Komitədəki iş otaqlarımıza səpələnmişdik, yorğun görünürdük. Şöbə müdirimiz hörmətli Ramiz Mehdiyev bizi otağına çağırdı. İlk sözü bu oldu: "H.Əliyev cənabları Moskvaya getməmişdən qabaq sizə mənzil ayırmaq tapşırığı vermişdir, sizi təbrik edirəm". Bizim sevincdən uçmağa qanadımız yox idi. H.Əliyevin mənimçün 1982-ci ildə ayırdığı xeyir-bərəkətli mənzildə bu gün də yaşayıram, ailə üzvlərim həmişə onu xoş xatirələrlə yad edir, bu qayğıkeş insanın ölməz ruhuna dualar edirik.

Siyasi iradə və cəsarət sahibi

Heydər Əliyev dühasının siyasi iradəsindən çoxlu misallar gətirmək olar. Bu iradə Gəncə hadisələrinin "çözülməsində", OMON-çular qiyamının yatırılmasında, Əlikram qaragüruhuna son qoyulmasında, iqtisadi islahatlarda, qiymətlərin liberallaşdırılmasında, torpaqların özəlləşdirilməsində,

Lissabon sammitində, yüzlərlə siyasi, beynəlxalq və ölkədaxili qərar, sərəncam və fərmanlarda özünü parlaq şəkildə sübut etmişdir.

Mən bütün bunlardan fərqli, ilk növbədə çox adi görünən, bəlkə də adi işgüzar səviyyədə qiymətləndirilə bilən, lakin əslində H.Əliyev qətiyyətindən və siyasi cəsarətindən xəbər verən şahidi olduğum bir epizoddan danışmaq istəyirəm.

1982-ci ilin avqust ayı idi. Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev Bakıya gəlmişdi. O dövrlər üçün bu respublikanın həyatında çox böyük hadisə idi. Nəhəng bir dövlətin başçısının yanında dolaşanlar, qorxudan tük tökür, bu xəstə, qoca Baş katibin qəzəbinə düçar olmaqdan qorxurdular.

Brejnev o vaxtkı Lenin sarayında nitq söyləməli idi. Tribunaya çıxan Baş katibin çıxışı elə bil yerinə düşmürdü. Hamı bir-birinə dəymişdi. L.İ.Brejnevin köməkçisinin aciz görkəmi zalda oturanların diqqətindən yayınmırdı.

H.Əliyev yerindən qalxıb qətiyyətlə əlində yeni məruzə mətni ilə tribunaya yaxınlaşdı. O, L.İ.Brejnevin oxuduğu mətni əlindən alıb yeni mətni ona verdi. Sən demə, Brejnev axşam şam süfrəsində oxuduğu mətni yenidən rəsmi mərasimdə oxuyurmuş. Məsələnin nə yerdə olduğunu, nəhayət, anlayan L.İ.Brejnev zarafatla bu xoşagəlməz insidentdən bir təhər sovuşdu.

Münaqişələri çözən lider

1993-cü ilin avqust ayının ortalarında mənim yaxşı tanıdığım və aramızda çox isti münasibətlər olan, dostum rəhmətlik Afiyəddin Cəlilov bizi - lənkəranlıların o vaxt vəzifədə çalışan böyük bir dəstəsini, Milli Məclisə - H.Əliyevin yanına dəvət etdi. Mən onda Nazirlər Kabinetində şöbə müdiri işləyirdim. Şeyxülislam Hacı Allahşükür Paşazadəni, Baş nazirin müavini Əskər Məmmədovu, ticarət naziri Rizvan Hüseynovu, Milli Məclisin deputatları Tapdıq Kamalovu, Hüseynağa Qəniyevi, Avtomobil naziri Arif Aslanovu və daha bir neçə əslən lənkəranlı olanları H.Əliyevin kabinetinə yığdılar.

O vaxtlar Ələkrəm Hümbətovla bağlı regionda çoxlu problemlər mövcud idi, hamı çaş-baş qalaraq bu məsələlərə rəhbər münasibəti gözləyirdi. Nəhayət, H.Əliyev hadisələrə öz münasibətini bildirdi və bizi bu hərəkata qarşı mübarizəyə çağırdı.

Görüş bitəndən sonra, Afiyyatdin Cəlilov məni ayrıca saxladı və dedi ki, cənab H.Əliyev məsləhət bilib ki, sən ora çatan kimi heç kimnən əlaqə saxlamadan Dilrubə Camalova ilə görüşəsən.

Həmən günü biz Bakıdan gecə yarısı çıxdıq və səhər saat 4.00-da Lənkərana çatdıq. Mən Camalovadan soruşanda ki, nə üçün cənab prezident məhz Sizə zəng etməyimi məsləhət bilib, o, məsələnin əsas mahiyyətini mənə açıqladı.

Dilrubə xanım bildirdi ki, mitinqin tarixi dəyişdirilib və bir gün önə çəkilib, insanlar elə bu gün şəhər İcra Hakimiyyətinin qarşısına toplaşıb, əlikramçılara son sözlərini deyəcəklər. Mənə tapşırılan vəzifə ondan ibarət idi ki, Ələkrəm Hümbətov nəyin bahasına olursa olsun, İcra Hakimiyyətindəki kabinetindən çıxarılsın.

Biz Lənkəranda olarkən H.Əliyevin burada gedən bütün proseslərə tam nəzarət etdiyini, ordu rəhbərliyinin, daxili qoşunların və digər müvafiq strukturların nümayəndələrinin, texnika və silahlı qüvvələrin də orada olduğunu gördük. Mən başa düşdüm ki, bizi Lənkərana göndərməklə dahi rəhbərimiz münaqişəni qansız, qurbansız dinc yolla həll etməyə üstünlük vermişdir.

Mən Tapdıq Kamalovla birgə çox böyük çətinliklə Ələkrəm Hümbətovun qəbuluna düşə bildik və onu (bu haqda mətbuatda müfəssəl və dəfələrlə yazıldığından bunun üzərində ətraflı dayanmaq istəmirəm) otaqdan çıxara bildik. Əlikram və onun rəhbərlik etdiyi qaragüruhçular xalqın gücü ilə darmadağın edildi. Sonradan möhtərəm H.Əliyev cənabları bunu heç vaxt yaddan çıxarmadı, qiymətləndirdi və daim ali məclislərdə qeyd edirdi.

Allah adamı

Mənim həyatda ən böyük xoşbəxtliyim 1994-cü ilin avqustunda Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin tərkibində Səudiyyə Ərəbistanında olmağım və Məkkə ziyarətimdir. Həmin səfər yaddaşımda H.Əliyev dühasını yeni çalarlarda, daha doğma, daha isti keyfiyyətlərdə kəşf etməyimdə misilsiz rol oynadı.

Havaya qalxandan bir az sonra H.Əliyev təyyarənin bizim üçün nəzərdə tutulmuş salonuna gəldi, adəti üzrə hamı ilə əl verib görüşdü. Təyyarədə o, hər birimizlə ayrı-ayrılıqda şirin söhbətlər edir, öz xüsusi hörmət və

məhəbbətimi bildirmək istəyirdi. Salonun ortasına çatanda bir anlıq fikrə gedib söhbətə yenidən başladı: "Görürsünüz, biz hakimiyyətə gəldik və siz də mənim yanımdasınız. Sizin hər birinizin xidmətiniz olub, zəhmətiniz var və mən məhz elə ona görə də sizi özümlə Məkkə ziyarətinə aparıram."

Səfər boyu təyyarə havaya qalxandan geri dönənədək olan bütün bu müddət ərzində dahi şəxsiyyətlə bağlı onlarla təəssürat və müşahidələrim oldu.

Səudiyyə Ərəbistanının "İslam Nicat Təşkilatı"nın rəhbərliyi ilə Ciddə şəhərində görüş vaxtı qurumun rəhbərliyi mənim onlarla əməkdaşlığımdan ağız dolusu danışır, mənim adımı tez-tez çəkirdi. Özümü çox pis hiss edirdim.Onları diqqətlə dinləyən H.Əliyev cənabları məni vəziyyətdən çıxartdı və dedi: "Hadi Rəcəblini çox tərifləditiniz, elə bu işləri mən ona tapşırmışdım. Odur ki, yenə də təşkilatınızla bağlı bütün məsələlərin həllini Hadi Rəcəbliyə tapşırıram. Bu mənim üçün - Nazirlər Kabinetinin şöbə müdiri üçün çox böyük etimad idi. Beynəlxalq səviyyəli prezident tapşırığının mənə verilməsi çox böyük əhəmiyyət və məna kəsb edirdi. Sonradan mərkəzi ofisi Moskvada yerləşən bu qurumu Azərbaycana gətirdik və onun possovet məkanında ofisini Bakıda yerləşdirdik. Onlar üçün Əzizbəyov heykəlinin yanında geniş bir neçə otaqdan ibarət ofis ayırdı.

Səfər boyu hər an gözüm dahi öndərimizdə, kommunist dövründən yaxşı tanıdığım bu böyük insanda idi.

Ziyarət prosedurlarına həssaslıq və incəliklə hazırlaşması, ibadətləri və ritualları dəqiq icra etməsi, üzündəki nurani cizgilər diqqətimdən yayınmırdı.

Bu dahi şəxsiyyətdən ötrü Kəbə qapılarını istisna hal kimi, Kralın tapşırığı ilə üzümüzə açmışdılar. Zəmzəm suyu olan bulaqların mənbəyi, Mədinədə Məhəmməd peyğəmbərin məzarı önündə namaz, şəhərin iyirmi metrlik dərinliyindəki təhlükəsizlik, kommunikasiya sistemləri ilə tanışlıq ancaq ona görə mümkün idi, onun üçün nəzərdə tutulmuşdu.

Onu ibadət edərkən görmüşəm, Qarabağ dərdlərimizin həllini Uca və Qadir Allahdan diləyərkən dinləmişəm,müqəddəs Qara Daşı öpərkən müşahidə etmişəm, Şeyx Allahşükür Paşazadə ilə dini mövzularda dialoqlarının şahidi olmuşam.

Mən bu səfərdə Heydər Əliyevi Allah adamı, iman sahibi, ibadət bilicisi kimi gördüm, tanıdım, bu keyfiyyətləri ilə onu özüm üçün yenidən kəşf etdim.

Unutsaq unudularıq

Heç yadımdan çıxmaz, 1999-cu ilin avqust ayında H.Əliyevin hakimiyyətə gəlişinin 30 illiyi xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qeyd olunurdu. Vaxtilə özünün təşəbbüsü və rəhbərliyi ilə tikdirdiyi "Əl oyunları" idman sarayında Heydər Əliyevin titanik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən bütün rayonların stendləri qurulmuşdu. Stendlərin yanında H.Əliyev dayanır, həmin rayondan olan fəallarla görüşür, çoxlu xatirələr yada düşürdü. Lənkəran rayonunun stendinin qarşısından H.Əliyev nədənsə dayanmadan ötüb keçdi. Bizim stenddən təxminən 20 addım aralanandan sonra, mən Heydər Əliyevi müşayiət edən bizim hörmətli indiki prezidentimiz İlham Əliyev cənablarına yaxınlaşdım və dedim ki, əgər mümkünsə H.Əliyev cənablarından xahiş edək ki, Lənkəran rayonunun stendinə də yaxınlaşsın. Təsəvvür edin ki, cənab İlham Əliyev bizim ümummilli liderimizə xahişimizi çatdırandan sonra, H.Əliyev dönüb geri qayıtdı və Lənkəran stendinin yanında dayandı. Hamı ilə salamlaşandan sonra, 70-ci illərdə Lənkəranın onunla bağlı şəkillərinə diqqətlə baxarkən ona yaxınlaşıb müraciətlə dedim: "Möhtərəm prezidentimiz. Lənkəran camaatının üzərində Sizin böyük haqqınız var. Sizin Lənkəranın o vaxtkı intibahında çox böyük xidmətlərinizi var. Siz o vaxtlar çox böyük işlər görmüsünüz, qurmusuz, tikmisiz, yaratmısız, lənkəranlılar o vaxt inkişaf ediblər, artıblar, pul sahibi, ev sahibi olublar."

H.Əliyev bir az geriyə çəkilərək əlini mənə uzatdı və dedi: "- Mənim Lənkəran üçün etdiyim xidmətlərdən ən böyüyü Hadi Rəcəblidir" və mənim tərcümeyi-halımı, bütün inkişafımı, hətta orduya getməmlə bağlı bütün xırda detalları belə həvəslə danışdı. Heydər Əliyev təkcə mənim deyil, yetişdirib ərsəyə gətirdiyi, özünün siyasət məktəbinin məzunlarının hamısının tərcümeyi-halını detallarınadək yadda saxlayan bir dühа idi və həmin görüş bunun daha bir bariz nümunəsi oldu.

Yaddaşında bizi yaşadan bu alicənab bir şəxsi, onun yetişdirməsi olan bizlər, ailə üzvlərimiz, nəvə-nəticələrimiz, bütün xalqımız heç vaxt unutmayacağıq. Bu əbədiyaşar liderlərin həyatda qazandıqları ən böyük nemətdir.

Onun siyasi liderlik məktəbi bundan sonra daha ətraflı öyrənıləcək, dünya idarəetmə metodologiyalarında və təcrübəsində hələ yüz illər də böyük müvəffəqiyyətlə istifadə olunacaq, nümunə göstəriləcəkdir.

MUSA MUSAYEV
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

ÜMUMMİLLİ LİDERİMİZ AZƏRBAYCANIN MÜSTƏQİLLİK SİMVOLUDUR

Azərbaycanda yolu 200 illik dolaylardan keçən bir «Qarabağ labirinti» vardır. Bu labirintin bütün incəliklərinə bələd olan, onun həlli istiqamətində yorulmadan var gücü ilə gecə və gündüz çalışan, ümummilli liderimiz, H.Əliyev olmuşdur. Yeni başlanan iyirmi birinci yüzilliyə biz, həll edilməmiş qalan Qarabağ probleminin üçüncü əsrinə qədəm qoyduq və Azərbaycanda cox təəssüf ki, böyük bir vaxt ərazisini əhatə edən bu problem öz miqyası etibarı ilə bütövlükdə Azərbaycan xalqını və bu xalqın tarixində az-çox adı və ünvanı olan bütün siyasətçiləri narahat edir.

Biz artıq on bir ildir ki, Qarabağ müharibəsinin atəşkəs dövrünü yaşayırıq. Amma real siyasi mənzərənin tarixi və tariximizdəki 70 illik sovet dövrü intervalı da elə əslində bu ümummilli dərdin atəşkəs dövrü adlandırıla bilər.

Qarabağ probleminin ağırlığını bütün siyasi xadımlərimiz sözün əsl mənasında dərk etsələr də, bu problemin çözülməsinə- özü də milli genefondumuzun və fiziki potensialımızın xilası ilə bəhəm çözülməsinə- öz siyasi enerjisini əməli şəkildə sərf edən yeganə Azərbaycan lideri də məhz H.Əliyev olmuşdur.

20-ci əsrin fəsadlı və ziddiyyətli illərinin burulğanından müdrikliklə çıxmış, doğma dilini, mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamış, dünya sivilizasiyasiyasının ən mütərəqqi cəhətlərini mənimsəməklə yeni iqtisadi inkişaf yolu tutmuş xalqımız, özünün qadir oğlu olan H.Əliyevin başçılığı ilə müstəqilliyimizin möhkəmlənməsi və tərəqqisi uğrunda əzəmətlə mübarizə aparmışdır.

Qarabağın erməni silahlı qüvvələri tərəfindən işğalının ilk günlərini yaxşı xatırlayırıq. Qarabağ müharibəsinin ilk gülləsi, əslində, 1987-ci ilin 21 oktyabrında siyasi büroda, Azərbaycan xalqına hər zaman mənəvi dayaq olan, onun milli mənlik şüurunun, siyasi təfəkküründün formalaşmasında əvəzsiz rol oynayan, öz diqtəsini beynəlxalq miqyasda qəbul etdirmək iqtidarında olan- H.Əliyevin Siyasi Bürodan uzaqlaşdırılması ilə, bolşevik ruhlu M.Qorbaçov tərəfindən atılmışdı. Hələ, o dövrün ağır təzyiqlərinə və gərgin iş prinsiplərinə baxmayaraq, ittifaq səviyyəsində qərarların cıxarılmasında yaxından iştirak etməsi, tarixi proseslərə real təsir etmək imkanına malik olması, məhz H.Əliyevin Azərbaycana qarşı irticaçı siyasətin həyata keçirilməsi yönümündə real təhlükə olduğunu göstərirdi. Bunu dərk edən Moskvanın mərkəzi orqanları öz mənfur niyyətlərinə nail olmaq üçün onu hər bir vəchlə siyasi arenadan uzaqlaşdırmağa çalışır, əvəzində, Azərbaycanda yerli hakimiyyət dairələrinə təsir göstərərək, onların sərişəsizliyindən, siyasi sadəlövhlüyündən, ölkədəki qeyri-qanuni hakimiyyət çəkişmələrindən məharətlə istifadə edirdilər. Azərbaycana qarşı illərdən bəri aparılan ideoloji, siyasi, mənəvi mübarizə isə, bütün bu hərcmərclik və özbaşınalıq mühitində, artıq hərbi müstəviyə keçmişdi.

O dövrdə respublika rəhbərliyinin mərkəzlə həmfikir olması nəticəsində, mərkəzin diktəsi altında yürüdülən qərəzli, irticaçı və etinasız siyasəti Azərbaycan xalqı bu gün də ölkəsinin, doğma torpağının ərazi bütövlüyünə, istiqlaliyyətinə qarşı yönəlmiş amansız təcavüz və qəsd kimi qiymətləndirir.

H.Əliyevin Vətənə məhəbbəti, prinsipiallığı onu hər zaman hər bir vəch və vasitə ilə, tutduğu vəzifədən, yaşadığı yerdən asılı olmayaraq, doğma xalqına mənəvi dayaq, dəstək olmağa sövq edib. Sovet imperiyasının Azərbaycanda qanlı aksiyalar həyata kecirdiyi, təcavüzkar siyasət yeritdiyi bir vaxtda onun dahi şəxsiyyət kimi qazandığı siyasi nüfuzundan savayı, hec nəyi yox idi, lakin buna baxmayaraq, Azərbaycan xalqının tarixi kökünə bəslədiyi dərin ehtiram, onun parlaq gələcəyinə olan inam, onu xalqının çətin dönəmində hər şeyi gözə alaraq, taleyüklü məsələlərin ağırlığını öz çiyinləri üzərinə götürməyə sövq etdi.

H.Əliyevin qarşısında duran, Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, ölkədə ictimai-siyasi sabitliyə nail olmaq istiqamətində təxirəsalınmaz vəzifələrdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qəti addımlar atmaqdan ibarət idi. H.Əliyev hakimiyyətə gəlişindən sonra Milli Ordumuzun formalaşması, onun döyüş qabiliyyətinin yüksəlməsi, torpaqlarımızın müdafiə olunması üçün geniş miqyaslı tədbirlərin həyata keçirilməsi nəticəsində hərbi qarşıdurmada tarazlıq yaradıldı.

Müharibə şəraitində olan, kecid dövrü yaşayan, Sovet imperiyasının təsirindən qurtarmağa çalışan bir ölkənin Ali Baş Komandanı olmaq, heç bir dəstək almadan strateji mövqe, xarici qüvvələrə qarşı prinsipiallıq nümayiş etdirmək, nəhayət, Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin keşiyində durub, onu qorumaq, böyük hünər və cəsarət tələb edirdi.

1993-cü il iyun ayının 15-də Heydər Əliyevin ali hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqil dövlətçiliyin əsaslarının formalaşması və vətəndaş cəmiyyətinin qurulması prosesi başlandı. Müdrik siyasətçi qısa bir vaxt ərzində vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, daxili və xarici düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi yox etmək planını puça çıxartdı. Müstəqillik hər bir vətəndaş üçün, bütöv bir millət üçün ən müqəddəs və ən şirin nemətdir. Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrəti və möhkəmliyi olmayan bir dövlətin azadlıq və müstəqilliyindən danışmaq qeyri-mümkündür. Bu gün müstəqil Azərbaycanın beynəlxalq nüfuzu və şöhrəti durmadan yüksəlməkdədir.

1993-cü ildə hakimiyyətə tarixi qayıdışından sonra, dövlət başçısının Ermənistan-Azərbaycan arasındakı münaqişənin aradan qaldırılmasına nail olmaq üçün apardığı məqsədyönlü fəaliyyət xüsusilə vurğulanmalıdır. Ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli və eləcə də çoxtərəfli görüşlərdə, beynəlxalq forumlarda, ATƏT-in Zirvə görüşlərində, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, həmçinin Ermənistan prezidenti ilə təkbətək danışıqlarda göstərdiyi ardıcıl səylər, ölkə başçısının yeritdiyi siyasətin mühüm hissəsini təşkil edirdi. Və bu fəaliyyətin labüd nəticəsi olaraq, Dağlıq Qarabağ münaqişənin tarixi və mahiyyəti, onun törətdiyi nəticələr dünya birliyinin nəzərinə çatdırıldı. Məhz Prezidentin təşəbbüsü, onun qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi nəticəsində 1994-cü ilin may ayının 12-də atəşkəs haqqında razılaşma əldə olundu. Beş ildən artıq bir müddət ərzində davam edən hərbi əməliyyatlar dayandırıldı, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ilkin şərait yaradıldı. Məhz onun gərgin iş prinsipi nəticəsində ATƏT-in Minsk qrupu çərçivəsində intensiv sülh danışıqları aparıldı. H.Əliyev problemin həlli üçün hərtərəfli düşünülmüş yetkin bir proqramla çıxış etdi: Əvvəla, problemi beynəlxalq səviyyəyə qaldırmaq, onun səbəblərini, tarixi köklərini dünya ictimaiyyətinə aydınlaşdırmaq, digər tərəfdən beynəlxalq təşkilatların timsalında ölkəmizə tərəfdaşlar tapmaq.

1992-ci il martın 24-də ATƏT-in Nazirlər Şurası Helsinkidə çağrılmış fövqəladə iclasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli tənzimlənməsinə nail olmaq üçün Minsk qrupunun yaradılması haqqında qərar qəbul edildi. Münaqişənin həllinin ATƏT müstəvisinə keçirildiyi 1993-cü ildən etibarən bu təşkilatla qarşılıqlı əməkdaşlıq Prezident H.Əliyevin səyləri ilə Azərbaycanın xarici siyasət kursunun əsas tərkib hissələrindən birinə çevrildi. Təkcə bir fakt kifayətdir ki, 1993-2000-ci illər arasında Prezident H.Əliyev ATƏT rəhbərləri və Minsk qrupunun təmsilçiləri ilə 130-dan cox görüş keçirmişdir. Dövlət başçıları və səlahiyyətli nümayəndələrlə bütün görüşlərində Ermənistan-Azərbaycan . Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur. NATO-un, MDB-in Zirvə görüşlərində, İslam Konfransı Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşlərində bu münaqişənin müzakirəsi diqqət mərkəzi olmuş, gündəlikdə ən aktual mövzu kimi saxlanmışdır.

Bu arada Azərbaycanda yaranmış nisbi sabitlik bir cox xarici dövlətlərin maraqlarının dövlətimizə yönəldilməsinə təkan verdi ki, bu da öz növbəsində Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasını təmin edirdi.

Qarabağ probleminin ədalətli həlli uğrunda Azərbaycan dövlətinin həyata keçirdiyi ardıcıl, prinsipial və qətiyyətli siyasi xətt, Azərbaycan Respublikasının konstruktiv mövqeyi dünya dövlətlərinə yaxşı məlumdur. Məhz Problemin sülh və danışıqlar yolu ilə həllinin əsas istiqamətləri 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə münaqişənin nizama salınmasının əsas formulu müəyyən olundu. Prezident H.Əliyevin çevik və dəqiq diplomatik addımları ilə Azərbaycanın dünya birliyi tərəfindən müdafiə olunmasına nail olundu. Ermənistan Respublikası istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa dövləti Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi və müdafiə etdi. Bununla da, münaqişənin sülh yolu ilə həlli üçün ədalətli hüquqi bünövrə yaradıldı və vasitəçilərin vəzifələri müəyyən olundu. Lakin, danışıqlar bu gün də davam edir və Azərbaycan xalqı öz ümummilli liderinin bütün çətinliklərə sinə gərərək, bu son dərəcə mürəkkəb və taleyüklü missiyanın öhdəsindən

uğurla gələcəyinə, bu münaqişənin Azərbaycanın milli maraqları zəminində həllini tapacağına, Azərbaycanın milli və dövlətçilik maraqlarını əzmlə qoruyacağına tam inanır və müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəm zəmin üzərində formalaşması, onun müstəqilliyinin əbədiləşməsinin və xoşbəxt gələcəyinin təminatını yalnız H.Əliyevlə bağlayır. 10 il tarixi baxımdan böyük bir müddət olmasa da, bu müddət ərzində görülən təqdirəlayiq işlər bizə bunu deməyə əsas verir.

Biz son üç əsrdə öz siyasi enerjisini H.Əliyev simasında ortaya qoya bilmiş bir Azərbaycanda yaşayırıq. Və bu gün sələflərindən dövlət başçımıza miras qalmış Qarabağ problemi ağır, əzablı və çəkilməz bir irsdir. Biz bəzən 200 illlik tarixin dərinliklərinə şaxələnmiş siyasi xəstəliyin əlacını qısa bir zaman kəsiyində həllini, özü də bir nəfərdən tələb edir və ifrata varırıq.

Ən dəhşətlisi isə budur ki, Şuşanı, Qarabağı düşmənə təhvil verənlər unudurlar ki, Qarabağ məhz o dövrdəki siyasi laqeydliyin, iqtidarsızlığın, vəzifə hərisliyinin qurbanına çevrildi və düşmənə təslim edildi. Məhz 1989-92-ci illərdə Azərbaycanda hakimiyyət başında olanların səriştəsizliyi, qətiyyətsizliyi və xəyanəti ucbatından torpaqlarımızın xeyli hissəsinin erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində, ağır vəziyyətə düşmüş bir milyondan artıq əhalinin problemləri taleyin ixtiyarına buraxılmış, onların həlli ilə bağlı sistemli heç bir iş görülməmişdir.

Bu günədək görülən işlər müqabilində, mən qəti şəkildə deyə bilərəm ki, yalnız H.Əliyev siyasi kursunun astanasından başlanan şərəfli yol bizi bütöv və daha yekdil bir əqidə ilə, milli şərəfimizin bu gün əsirlikdə olan mərkəzinə- Dağlıq Qarabağa aparıb çıxaracaq. Bunun üçün Azərbaycandakı bütün siyasi qüvvələrin Qarabağ probleminin həlli naminə ümumi bir hədəfə yönəlməsi tarixi zəruriyyətdir. Çünki, heç bir problem qarşılıqlı ittihamlar və söz davası idə çözülmür. Qarabağ problemi müxalifətin iqtidara qarşı mübarizəsinə əsas vermir, əksinə, müxalifətli və iqtidarlı bu tarixi faciənin qarşısının alınması istiqamətində məqsədyönlü iş aparılmasına təkan verir.

Dünya ictimaiyyətinə yaxşı məlumdur ki, ümummilli liderimiz Ermənistan-Azərbaycan münaqişəsinin ATƏT-in Minsk qrupunun fəaliyyəti çərçivəsində sülh yolu ilə, danışıqlar vasitəsilə həlli üçün gecə-gündüz yorulmadan ardıcıl və məqsədyönlü iş aparırdı. Və məhz bu əzmkarlığın

və uzun illərdən bəri aprılan düzgün siyasətin nəticəsidir ki, bu gün beynəlxalq aləmin diqqəti bu problemə yönəldilmişdir. Prezidentimiz, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri və mahiyyətini bütün xarici səfərlərdə, dövlət başçıları, iş adamları, ictimai siyasi xadımlərlə görüşlərində, beynəlxalq tədbirlərdə tarixi həqiqətlərə söykənən, inandırıcı faktlarla izah və sübut edərək, onu tam reallığı ilə dünya ictimaiyyətinə çatdırılmışdır. Ümummilli liderimiz Beynəlxalq aləmin nəzərini məhz Azərbaycan xalqının dəfələrlə deportasiyaya, soyqırıma və işğala məruz qalmasına, soydaşlarımızın doğma torpaqlarından qovulmasına yönəltmişdir. Təsadüfi deyil ki, xalqımıza qarşı dövlət səviyyəsində aparılan soyqırım siyasətinə qarşı ümummilli liderimiz H.Əliyevin rəhbərliyi dövrünə qədər heç bir siyasi, hüquqi sənəd qəbul edilməmiş, bu faciələrin üzərindən sükutla keçilmişdir. Bu tarixi missiyanı yerinə yetirərək, o, «Azərbaycanlıların soyqırımı haqda» fərman imzalamış və erməni faşizminin əsl mahiyyətini bütün dünya dövlətlərinə nümayiş etdirmişdir.

Ümumiyyətlə, H.Əliyevin milli mənafelərin ardıcıl həyata keçirilməsinə əsaslanan diplomatiyası böyük siyasi fəlsəfi məktəbdir. Və bu diplomatiyanın uğurla həyata keçirilməsində əvəzsiz xidmətləri olan H.Əliyev siyasi kursunun layiqli davamçısı, YAP-ın yetirməsi- Möhtərəm Prezidentimiz İ.Əliyevin həm ölkə daxilində, həm beynəlxalq miqyasda gördüyü işlər, qazandığı misilsiz nailiyyətlər onun aparıcı dövlət xadimi kimi parlaq perspektivlərə malik olduğunu sübut edir. Dünya siyasətində artıq inamla tanınmağa başlayan İ.Əliyevə bu gün Beynəlxalq aləmdə xüsusi diqqət göstərilir və ona göstərilən etimadı ləyaqətlə doğrultmağa calışır. O, öz məntiqi fikirləri və ədalətli mövqeyi ilə artıq dünya ictimaiyyətinin diqqətini özünə cəlb edə bilmiş və onun rəğbətini qazanmışdır. Bu isə Azərbaycanın mövcud problemlərinin tezliklə həllinə real şərait yaradır.

İ.Əliyev AŞPA-dakı böyük siyasi-diplomatik gedişləri ilə, Qarabağ probleminin tam ciddiyyəti ilə qabardılıb, Avropa parlamentarilərinin nəzərinə çatdırılmasında mühüm rol oynamışdır. O, Ermənistanın genişmiqyaslı təcavüzə başladığı andan ölkəmizin terror aktlarına məruz qaldığını konkret faktlarla beynəlxalq aləmə çatdırmışdır. Münaqişənin beynəlxalq hüququn hamı tərəfindən qəbul olunan norma və prinsiplərə uyğun olaraq həyata keçirilməsinin zəruriliyini, lakin münaqişənin bu müstəvidə is-

təndən həlli variantına Ermənistanın etinasızlığını AŞPA nümayəndələrinin nəzərinə çatdırmışdır.

Ə.Əliyevin milli dövlətçilik konsepsiyası, hazırk geosiyasi vəziyyətdə hər hansı etnik zəmində yaranmış münaqişənin və ya ərazi konfliktinin müharibə yolu ilə həllinin mümkün olmadığını göstərir. Onun fikrincə, bu gün Qarabağ problemi məhz Azərbaycanın ərazi bütövlüyünün tanınması çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun olaraq, beynəlxalq təşkilatların vasitəçiliyi ilə həll olunmalıdır. Bu problemin sülh yolu ilə həlli deməkdir.

Bu gün Azərbaycan dövlətinin xarici siyasətində Beynəlxalq hüquq normalarına yüksək səviyyədə bütün diplomatik gedişlərdə riayət edilməsi; dövlətimizə qarşı ədalətli mövqenin bərpasına, Beynəlxalq aləmdə Azərbaycana olan inamın artmasına, uzun müddətli faydalı əməkdaşlığa və dövlət maraqlarımızın beynəlxalq səviyyədə təmin edilməsinə yönəlmişdir. Bütün bunlar möhtərəm Prezidentimizin yeritdiyi münaqişənin danışıqlar və sülh yolu ilə həlli prinsipinin, ardıcıl və prinsipial şəkildə həyata keçirilməsinin labüd nəticəsidir.

Bu gün Azərbaycan xalqının, torpaqlarının 20%-in işğal altında olmasına, bir milyondan çox qaçqın və köçgünlərin yurdlarından didərgin düşdüyü bu ağır şəraitdə, məhz siyasi sabitliyin təmin olunduğu, qanunun aliliyinin hökm sürdüyü hüquqi dövlət quruculuğuna ehtiyacı vardır. Bu isə Heydər Əliyev siyasi kursunun əsas dayaq nöqtəsidir. O, müstəqil Azərbaycanın gələcək xoşbəxtliyinə zəmanət verən yeganə şəxsiyyətdir. Siyasi sabitliyin iqtisadi, mədəni və siyasi inkişafın dayağı olduğunu dərk edən H.Əliyev Azərbaycan-Ermənistan arasındakı ziddiyyətlərə son qoyulmasında konfliktin sülh yolu ilə həlli prinsipinin, nə qədər çətin olsa belə, labüdlüyünü bütün ikitərəfli və çoxtərəfli görüşlərdə vurğulamış, lakin şərait və mövcud vəziyyət tələb edərsə, Azərbaycan Ordusunun hər zaman Vətəni xarici yaddellilərin işğalından qorumağa hazır olduğunu, lazım gəldikdə, konfliktin müharibə yolu ilə həllinin mümkünlüyünü bəyan etmişdir. Məhz bu cür yanaşma, Azərbaycanın mövqeyini Beynəxalq arenada dəstəkləyəcək xarici qüvvələrin formalaşmasına təsir göstərmişdir. Dünyanın iri dövlətlərinin, Beynəlxalq təşkilatlarının bu gün bir cox hallarda ölkəmizə qarşı pozitiv mövqedən cıxış etməsi də məhz münaqişənin nizamlanması istiqamətində atılan uğurlu addımların sayəsində mümkün olmuşdur.

Ümummilli liderimiz H.Əliyevin müstəqilliyimiz uğrunda ən son xidmətlərindən biri planetimizdə sülhə, əmin-amanlığa böyük təhlükə olan beynəlxalq terrorizmə, ekstremizmə, təcavüzkar separatizmə qarşı Beynəlxalq koalisiyada Azərbaycanın iştirakını təmin etməsi, bunun müqabilində uzun müddət erməni terrorundan əzab çəkən xalqımızın haqq səsinin dünyaya çatdırması olmuşdur . Bu gün Azərbaycan NATO ilə əməkdaşlıq çərçivəsində məqsədyönlü iş aparılır və artıq 1998-ci ildən dövlətimiz NATO –un Parlament Assambleyasında müşahidəçi qismində iştirak etmiş, 2002-ci ilin noyabrında isə Parlament Assambleyasına assosativ üzvlüyə qəbul olunmuşdur. 2005-2006-cı illər üçün isə Azərbaycanın NATO-ya üzv qəbul edilməsi nəzərdə tutulur.

Təəssüflər olsun ki, bu gün özünü müxalifət adlandıranlar içərisində sağlam rəqabət aparmaq iqtidarında olmayan qüvvələr, prezidentin əməli fəaliyyətinə, onun Azərbaycanın gələcək inkişafı naminə gördüyü təqdirəlayiq işlərə kölgə salmağa çalışırlar. Onlar Qarabağ probleminin həllinə kömək etməkdənsə, özlərinin məsuliyyətsiz bəyanatları ilə məsələnin həlli prosesini daha da mürəkkəbləşdirir, Azərbaycanın milli maraqlarına və dövlətçiliyinə zidd müxtəlif fəaliyyətlərlə məşğul olurlar.

Müxalif qüvvələrin, guya, iqtidarın ölkənin suverenliyinə, ərazi bütövlüyünə laqeyd mövqe tutması barədə müxtəlif iddiaları və düşüncəsiz təbliğatı, yalnız onların siyasi dünyagörüşünün məhdudluğundan xəbər verir. Dağıdıcı müxalifət qeyri-konstruktiv mövqe tutaraq, müxtəlif bəhanələrlə zorakı metodlar tətbiq etməyə, iqtidara qarşı ideoloji məqsədi məlum olmayan müxtəlif kütləvi-siyasi aksiyalar keçirməyə, ölkədə xaos, özbaşnalıq yaratmağa, sabitliyi pozmağa hər əlverişli fürsətdə cəhd göstərir, lakin bütün bu cəhdlər hər dəfə xalqın kəskin etirazı və müqaviməti ilə üzləşir. Çünki, müxalifətin bu mövqeyi təkcə Azərbaycanın dövlət quruculuğuna qarşı deyil, bütövlükdə Azərbaycan xalqına, onun ali məqsədlərinə, humanizmə və tərəqqiyə qarşıdır.

Bu gün demokratik Azərbaycan dövlətində hansı əqidəyə etiqad göstərəcəyini, hansı amal uğrunda mübarizə aparacağını azad şəxsiyyət özü müəyyən edir. Və mövcud şərait bunu deməyə əsas verir ki, xalqımız tam mənada öz prezidentinə arxalanır, güvənir və hər zaman onu müdafiə etməyə hazırdır. Hətta, bir zamanlar ümummilli liderimiz H.Əliyev zəkasına, onun fitri istedadına, bacarığına şübhə edənlər, onun siyasi kursunu və

strategiyasını dərk etməyənlər belə, bu gün bunun bağışlanılmaz səhv, dövlətə və hüquqi cinayət olduğunu anlayır, bunu Azərbaycanın dövlət müstəqilliyinə qarşı təcavüz kimi qiymətləndirirlər.

H.Əliyevin yürütdüyü siyasət isə, Azərbaycan xalqı tərəfindən birmənalı şəkildə dəstəklənir. Çünki, Azərbaycanın tarixinə, onun dövlətçiliyinə misilsiz töhfələr verməklə yanaşı, bu siyasətin bəhrəsi hər bir azərbaycanlının gündəlik həyatında özünü əks etdirir və doğruldur. Bu isə sübut edir ki, H.Əliyev diplomatiyasının gücü real faktlara, möhkəm məntiqə, əməli işlərə əsaslanır və xalqın sosial rifahı- ayrı-ayrı şəxslərin ziddiyyətli, emosional çıxışları əsasında deyil, məhz vahid bir konsepsiya əsasında həyata keçirilən, dövlətin daxili və xarici siyasətini əks etdirən ardıcıl, prinsipial bir kursun sayəsində mümkün olmuşdur.

Azad və suveren Azərbaycanda ölkəni idarə etmək istənilən insanın və ya ictimai-siyasi qurumun arzusu və iddiası ola bilər, lakin hakimiyyətin, xalqın tələblərinə cavab verə biləcək, öz layiqli sahibini tapması xüsusilə zəruri və böyük məsuliyyət daşıyan bir öhdəlikdir. Və biz müqəddəs niyyətlərin gerçəkliyə çevrilməsi üçün üzərimizə düşən vəzifənin öhdəsindən ləyaqətlə gəlməliyik. Biz əminik ki, ümummilli liderimiz H.Əliyev siyasi kursunun davamçısı möhtərəm prezidentimiz İ.Əliyevin möhrü və imzası Azərbaycanın gələcəyinə, onun şanlı tarixinin yeni səhifələrinə atılacaq. Əzəmətli, yenilməz Sərkərdəmizin bütöv, vahid Azərbaycan uğrunda mübarizəsi əsrlər boyu tariximizə həkk ediləcəkdir.Və ulu Azərbaycan xalqı yalnız yenilməz sərkərdə, ümummilli liderimiz H.Əliyevin qalibiyyət bayrağı altında Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün müqəddəs zəfər döyüşlərinə atılmağa həmişə hazır, H.Əliyev siyasi kursunun layiqli davamçısı Möhtərəm Prezidentimiz İ.Əliyevin əmrinə müntəzir olacaqdır.

RİZVAN VAHABOV
Neft Kəmərləri İdarəsinin rəisi,
YAP Siyasi Şurasının üzvü

«Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, azərbaycanlıyam»
Heydər Əliyev

HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ BÖYÜK MƏKTƏBDİR

Bu gün bizim hər birimiz ümummilli lider möhtərəm Heydər Əliyevin keçdiyi həyat yoluna, qurduqlarına, yaratdıqlarına, qoyub getdiyi zəngin irsə nəzər saldıqca onunla qürur duyur, fəxr edirik. Mənalı bir ömür yolu keçmiş, ömrünün böyük bir hissəsini Azərbaycanın inkişafına, xalqın rifahının yüksəldilməsinə həsr etmiş bu dahi şəxsiyyət 1923-cü il may ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil almış lakin, başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

1941-ci ildə Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. O, 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə Leninqradda xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu ilin iyulunda keçirilən plenumunda Azərbaycan KP MK-nın birinci katibi seçilərək Respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. O, iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali

Sovet sədrinin müavini olmuşdur. 1987-ci ilin oktyabrında Sov.İKP MK Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xətlə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sov. İKP sıralarını tərk etmişdir.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqımızın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində inkişafı ümummilli liderimiz Heydər Əliyevin gərgin ictimai və siyasi fəaliyyətinin nəticəsidir. Hakimiyyətə gəldiyi ildən üzü bu tərəfə olan böyük bir dövr Azərbaycanın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur. Ulu öndərimiz birinci dəfə hakimiyyətə gələndə 1960-cı illərin axırlarında Azərbaycan iqtisadi və mənəvi tənəzzül dövrünü yaşayırdı. Bir çox sahələr üzrə-istər tikinti, istər kənd təsərrüfatı, istərsə də sosial, mədəni və iqtisadi sahələrdə respublikamız müttəfiq respublikalar arasında sonuncu yerlərdən birini tuturdu. Respublikada demək olar ki, heç bir plan yerinə yetirilmir, xüsusən də kənd təsərrüfatı üzrə məhsuldarlıq ildən-ilə azalırdı. Xalqımızın həyat səviyyəsi çox aşağı idi. Nəinki beynəlxalq aləmdə, hətta SSRİ məkanında belə Azərbaycanı tanıyan, Azərbaycan adlı bir millətin olduğunu bilib anlayan çox az idi. Hətta Moskvanın özündə belə biz azarbaycanlıları başqa millətlərlə qarışıq salırdılar. Məhz, belə bir çətin şəraitdə – 1969-cu ilin iyulunda cənab Heydər Əliyev Azərbaycanın rəhbəri oldu. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. Onun gəlişi ilə respublikamız sanki yeniləşərək, kənd təssərrüfatı, sənaye, tikinti, mədəni və sosial sahələrdə inkişafa doğru ciddi dönüş yarandı. Heydər Əliyev vəzifəyə başlayan kimi (avqust plenumu, 1969) korrupsiya, rüşvətxorluq, əliəyrilik, kadr siyasətində olan nöqsanlara qarşı kəskin mübarizəyə başladı, xüsusi bir tələbkarlıqla, prinsipiallıq və cəsarətlə bu işə girişdi. Onun bu cəsarətli addımı bütün SSRİ-də geniş əks-səda doğurdu. Kadr sahəsində yeniləşmə aparıldı, vəzifələrə gənc, cavan, prinsipiallığı və tələbkarlığı ilə seçilən adamlar gətirildi.

Güclü təşkilatçılıq qabiliyyətinə, tükənməz enerjiyə, insanları səfərbər etmək məharətinə malik olan bu müdrik insanın əvəzolunmaz gərgin zəhməti sayəsində qısa bir dövr ərzində respublikada sağlam, işgüzar, şərait yarandı. Bütün bunların nəticəsində Azərbaycan respublikaların Ümumittifaq yarışında qalib çıxaraq 12 il dalbadal keçici Qırmızı bayraqların sahibi oldu. Həmişə xalqa arxalanan, xalq sevgisi və məhəbbətindən bəhrələnən bu dahi insan öz vaxtının böyük bir hissəsini pambıq tarlalarında, taxıl zəmilərində, tikinti meydançalarında, müxtəlif sənaye sahələrində zəhmətkeş insanlarla keçirərək inkişaf yollarını axtarır, ilk növbədə xalqın maddi rifahının yaxşılaşması üçün respublika əhəmiyyətli islahatlar aparırdı.

Ümummmilli liderimiz Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu ildən başlayaraq 1982-ci ilə qədər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu dövrdə kənd təsərrüfatının inkişafında böyük nailiyyətlər əldə edilmiş, iqtisadiyyatda köklü struktur islahatları həyata keçirilmişdir. Azərbaycan bu illərdə neft məhsulları, neft avadanlıqları, polad borular, əlvan metallar, elektrik mühərrikləri, tikinti materialları və digər sənaye məhsulları üzrə keçmiş SSRİ-də aparıcı yerlərdən birini tuturdu. Həmin dövrdə respublikamızda buraxılan 330 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Hələ 50-60-cı illərdə Azərbaycan keçmiş sovet respublikaları arasında bütün sahələr üzrə olduqca geridə qalırdı. Bu elmi-texniki, iqtisadi və mədəni cəhətdən geri qalan respublikanı Möhtərəm Heydər Əliyev az bir vaxtda yüksək inkişaf yoluna çıxardı və qabaqcıl bir respublikaya çevirdi. Azərbaycan məhz onun sayəsində qısa zaman ərzində inkişaf etmiş nümunəvi bir respublika olmaqla SSRİ miqyasında geniş şöhrət qazandı. Məhz o illərdə bilavasitə Heydər Əliyevin iradəsi ilə SSRİ-nin maddi-texniki imkanları hesabına yaradılan güclü potensial sonralar müstəqillik yoluna qədəm qoyduğu ilk illərdə Azərbaycanı bir çox ciddi problem və çətinliklərdən qorudu. Hələ SSRİ-nin tərkibində olarkən Azərbaycanın sənaye, nəqliyyat və energetika sektorunda Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə elə nəhəng işlər görülmüşdü ki, digər sovet respublikaları həmin potensiala görə Azərbaycana sadəcə olaraq qibtə edirdilər.

Brejnevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə başçılıq etdiyi dövrdə ittifaq büdcəsindən məharətlə faydalana bilən, tükənməz enerjisi, qeyri-adi təşkilatçılıq bacarığı və rəhbərlik qabiliyyəti ilə seçilən möhtərəm Heydər Əliyev qısa müddətdə Azərbaycanı əsl tikinti meydançasına çevirmişdir. Yorulmaq və dincəlmək bilmədən çalışan, ölkəni kəndbəkənd, şəhərbəşəhər gəzərək yeni obyektlərin bünövrəsini qoyan, fabrik, zavod, müxtəlif istehsal müəssisələri tikdirən, yollar çəkdirib, körpülər, yeni qəsəbələr və yaşayış massivləri saldıran cənab Heydər Əliyev respublikamızın simasını büsbütün dəyişdi. Bu dəyişiklik və yeniləşmə təkcə ölkə həyatını və iqtisadiyyatı deyil, xalqın yaşayışını, elmi, mədəni səviyyəsini də əhatə edirdi.

Yetmişinci illər ərzində Azərbaycanın kəndlərində alçaq və palçıqdan ibarət komaların yerində müasir tipli mədəni,sosial obyektlər, yaşayış binaları tikilərək zəhmətkeşlərin istifadəsinə verilmişdir. Ali məktəblərdə yaradılan imkanlar fəhlə-kəndli balalarının bu təhsil ocaqlarına qəbulunu xeyli asanlaşdırmışdır. Hər il yüzlərlə gənc dövlətin vəsaiti hesabına keçmiş SSRİ-nın müxtəlif şəhərlərinə təhsil almağa göndərilirdi. Şəhərlər ilbəil böyüyür və gözəlləşir, yeni binalar tikilir, mikrorayonlar salınırdı. Bütövlükdə xalqın gəliri çoxalır, güzəranı yaxşılaşırdı.

1970-ci illə müqayisədə 1985-ci ildə taxıl istehsalı 1,8, pambıq, tərəvəz və meyvə istehsalı 2 dəfədən çox, çay yarpağı istehsalı 3,2 dəfə, üzüm istehsalı 5 dəfədən çox artmışdır. Respublikanın digər şəhərləri ilə yanaşı ölkə paytaxtı Bakının da inkişafı diqqət mərkəzində idi. 1969-cu ildən bu yana «Gülüstan» və «Respublika» sarayları, Prezident sarayı və Milli məclisin binası, «Moskva», «Azərbaycan», «Abşeron» mehmanxanaları, Olimpiya idman kompleksi və Əl oyunları idman sarayı, Yeni Əhmədli və Günəşli yaşayış massivləri, çoxlu sayda mikrorayonlar tikilib istifadəyə verildi. Bir-birinin ardınca çox mərtəbəli yaşayış binaları, metro stansiyaları tikildi. N.Nərimanova, M. Əzizbəyova, C. Cabbarlıya, Nəsimiyə, H. Cavidə, S. Vurğuna və başqalarına möhtəşəm abidələr ucaldılır, ədəbiyyat və incəsənət xadimlərinə yüksək fəxri adlar və dövlət mükafatları verilirdi.

Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Möhtərəm Heydər Əliyevin əməyi yüksək qiymətləndirilmiş, bir sıra yüksək mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, dörd dəfə Lenin ordeni, Qırmızı ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuş, Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi, Sovet dövlətinin ən güclü rəhbərlərindən biri kimi şöhrət qazanmışdır.

Bütün bu müsbət xüsusiyyətlərinə görə ümummilli liderimiz Heydər Əliyev o vaxtkı SSRİ rəhbərliyinin təşəbbüsü ilə Moskvaya dəvət edilərək SSRİ-də ən yüksək prostlardan biri ona həvalə olundu. Əlbəttə, bu böyük türk oğlunun Kremlə getməsi hər bir azərbaycanlıda yüksək qürur və iftixar hissi doğururdu. Hamı yaxşı bilirdi ki, böyük vətənpərvər və uzaqgörən dövlət xadimi Heydər Əliyevin Moskvada işləməsi Azərbaycanın yüksəliş və inkişafına müsbət təsir göstərəcəkdir.

Həmin dövrdə SSRİ kimi böyük bir imperiyanın rəhbərliyinə Qorbaçov kimi şovinist və iradəsiz birisi gətirilmişdi. Qorbaçov Heydər Əliyev kimi dahi siyasətçi və görkəmli dövlət xadimi qarşısında öz zəifliyini dərindən dərk edirdi. Elə bu səbəbdən də 1987-ci ildən başlayaraq SSRİ-nin ən nüfuzlu hökumət rəhbərini- Heydər Əliyevi sıradan çıxarmaq mövqeyi tutan Qorbaçov gələcək planlarında Azərbaycan xalqını təkləmək istədi. Amma Azərbaycanın dahi oğlu Heydər Əliyev xalqının təklənməsinə, onun ayaqlarda sürünməsinə imkan vermədi. Elə həmin vaxtlarda əli Azərbaycan xalqının qanına batmış cəllad Qorbaçovun fitvası ilə 1990-cı ildə Bakıda 20 yanvar faciəsi törədildi. Tərkibində erməni könüllüləri olan Moskvadan göndərilmiş cəza dəstələri yüzlərlə dinc və silahsız insanları gülləbaran etdilər, tankın və zirehli texnikanın altında əzdilər. Bu Azərbaycanın tarixində görünməmiş bir vəhşilik idi. Özünün o vaxt çox çətin şəraitdə yaşadığını, həyatının təhlükə altında olduğunu bilə-bilə xalqın qəhrəman oğlu Heydər Əliyev heç nədən çəkinmədən Moskvadakı Azərbaycan nümayəndəliyinə gedərək bu qanlı və amansız aksiyanı pisləyən ilk bəyanat verdi və onu törədənlərin tarix qarşısında cavabdehlik daşıyacağını söylədi. Bununla da 1990-cı ildə Bakıda qanlı yanvar gecəsini öz fərmanı ilə gerçəkləşdirən Qorbaçova ilk tutarlı cavabını verdi. Bu Qorbaçov imperiyasına ağır zərbə, onun süqutunu sürətləndirən xüsusi fakt oldu. Bu bəyanatdan sonra Azərbaycan xalqı özünü kimsəsiz, tənha hiss etmədi.

Vətənin ağır vəziyyətdə olduğunu görən ulu öndərimiz bu çətin günlərdə xalqla birlikdə olmaq, bilik və zəngin təcrübəsinə arxalanaraq Azərbaycanda yaranmış həlli çox çətin olan problemlərin aradan qaldırılmasına yaxından kömək göstərmək üçün Bakıya qayıtdı.

Ancaq Bakıdakı anti-milli hakimiyyət onun dönüşündən qorxaraq burada ona qarşı təxribatçı hərəkətlər etməyə cəhd göstərdi. Belə siyasi əxlaqsızlıqla məşğul oldan Azərbaycan hakimiyyətinin niyyətini başa düşən xalq Heydər Əliyevi qorumaq üçün ayağa qalxdı. Doğulub boya-başa çatdığı Naxçıvan torpağı və naxçıvanlılar onu gül-çiçəklə qarşılayıb ən əziz adamları kimi sevdilər, dəyərləndirdilər.

Bu dövrlərdə Azərbaycan Respublikası parçalanma qorxusu ilə üzləşirdi. Ermənilər Qarabağa, Naxçıvana irimiqyaslı hücumlar edir, kəndlərimizi viran qoyur, əhaliyə divan tuturdular. Azərbaycan hakimiyyəti isə həmin dövrdə Rusiyanın buyruq quluna çevrilərək, öz doğma xalqını və torpaqlarını qorumaq istəmirdi. Belə bir məqamda xalq Heydər Əliyevi özünə rəhbər görmək, vəhşi düşmənə qarşı dahi şəxsiyyətlə birgə mübarizə aparmaq istədi.

Naxçıvanda siyasi və iqtisadi gərginliyin cərəyan etdiyi həmin dövrdə yəni 17 noyabr 1990-cı ildə Muxtar Respublika Ali Məclisinin 1-ci sessiyası çağırıldı. O vaxtlarda sıravi xalq deputatı olan Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin sessiyada Azərbaycanın bir sıra problemləri və dövlət quruculuğu ilə bağlı bir sıra məsələlər müzakirə olundu. Keçirilən sessiyada Azərbaycanın müstəqil, demokratik bir dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm tarixi qərarlar qəbul edildi. Sessiyada lap əvvəl Naxçıvan MSSR adından «Sovet» və «Sosialist» sözləri çıxarıldı, onun Naxçıvan Muxtar Respublikası adlandırılması haqqında qərar qəbul edildi. Həmin sessiyada Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirildi. Onun Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması qərara alındı. Həmin ərəfədə, yəni Sovetlər Birliyinin yaşadığı və hökm sürdüyü bir dövrdə bu işləri görmək böyük cəsarət və uzaqgörənlik tələb edirdi.

Ən yaddaqalan gün isə Heydər Əliyevin 1991-ci ilin sentyabr ayının 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi oldu. Bu bilavasitə dövlətin və hakimiyyətin onun təcrübə və dünyagörüşündən istifadə etməsinə bilavasitə şərait yaradırdı. Bu bir həqiqətdir ki, hələ blokada şəraitində olan Naxçıvanda işləyəndə belə gördüyü bütün işləri ümumilikdə Azərbaycan dövlətçiliyinin qorunması naminə tənzimləyirdi. Cənubi Qafqazda xüsusi önəm daşıyan Azərbaycanda baş verən hadisələrlə maraqlanmaq istəyən beynəlxalq ictimaiyyətin nümayəndələrinin məhz Bakıya yox, birbaşa Naxçıvana üz tutması dövləti idarəetmə sahəsində təcrübəsi olmayan o dövrkü, cəbhə-müsavat iqtidarını qıcıqlandırırdı. Ulu öndərə olan siyasi qısqanclıqlarını gizlətməyən və xalqı çıxılmaz vəziyyətə salan iqtidar nümayəndələri bir-birindən təhlükəli addımlar atmaqla yenicə əldə edilmiş müstəqilliyi məhvə sürükləyir, dövlətçiliyimizi dağılmaq təhlükəsi ilə üz-üzə qoyurdu.

Ulu öndərimiz blokada şəraitində yaşayan Naxçıvanda işlədiyi çətin dövrlərdə Naxçıvanın başı üzərini almış qara buludları, siyasi fəlakətləri dəf edə bildi. Bu qədim diyarın ermənilər tərəfindən işğal olunma təhlükəsinin qarşısı alındı, onun muxtariyyət statusu qorunub saxlanıldı. Məhz həmin dövrlərdə Naxçıvanda dövlət çevrilişinə cəhd edən cəbhəçi bəylərin hakimiyyəti dövründə «Unitar dövlətdə muxtariyyət ola bilməz»ideyasını şüar edib əldə bayraq tutanlarla mübarizədə ümummilli lider demişdir: **«Mən həyatımdan keçərəm, lakin Naxçıvanı Azərbaycandan ayırmaram».** Dahi şəxsiyyət yaxşı bilirdi ki, Naxçıvanın muxtariyyətinin ləğv edilməsi, onun erməni işğalı ilə üzləşməsi, ermənilərə təslim edilməsi deməkdir. Naxçıvan MR Ali Məclisinə sədrlik etdiyi dövrdə Azərbaycanın qəhrəman oğlu Türkiyəyə ilk rəsmi səfərini edərək, Qars müqaviləsini yenidən gündəmə gətirib möhkəmlətdi.

Ümumiyyətlə, 1991-ci ilin sentyabrın 3-də Heydər Əliyev kimi millətsevər bir liderin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədr seçilməsi, təkcə Naxçıvanın deyil, həm də Azərbaycan xalqının xilas günü kimi dəyərləndirmək lazımdır. Çünki 1993-cü ildə onun xalqın tələbi ilə hakimiyyətə çağırılması o səbəbdən reallaşırdı ki, xalq onun Naxçıvanda apardığı cəsarətli, müdrik siyasəti bəyənmişdi. Millət anlayırdı ki, onu bu bəladan yalnız Heydər Əliyev qurtara bilər.

1992-ci ildə Azərbaycanın ağır günlərində xalqın mütərəqqi insanları-ziyalılar, mədəniyyət və elm xadimləri, sadə adamlar Heydər Əliyevin ətrafında birləşərək Yeni Azərbaycan Partiyasının yaradılması haqqında bəyanat verdilər. 1992-ci il oktyabrın 24-də ümummilli liderimiz ziyalıların müraciətinə cavab verərək YAP-ın yaranmasına və ona rəhbərlik etməyə razılığını birdirdi. Azərbaycanın müasir dövr tarixində son dərəcə

mühüm rol oynayan bu hadisə ölkədə yeni ictimai-siyasi situasiyanın yaranmasının. Azərbaycan dövlətçiliyinin xilası işinin başlanğıcı oldu. 1992-ci il noyabrın 21-də YAP-ın təsis konfransı keçirildi. Naxçıvanda keçirilən təsis konfransında dahi öndərimiz yekdilliklə YAP-ın sədri seçildi. Beləliklə, Azərbaycanın həyatında yeni dövr başladı.

1993-cü ilin iyununda Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Görkəmli dövlət xadimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev xlqın tələbi, AXC-Müsavat hakimiyyəti rəhbərliyinin israrlı xahişi və yalvarışlı müraciətləri əsasında iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Bu möhtəşəm bir qayıdış olmaqla, dövlət müstəqilliliyinin qorunmasına, Azərbaycanın bir dövlət kimi mövcudluğuna, Azərbaycanın gələcəyinin təmin edilməsinə verilən zəmanət idi.

Heydər Əliyev Bakıya gələndə artıq Gəncədə qardaş qırğını baş vermiş, ölənlər və yarananlar olmuş, dövlətə külli miqdarda maddi ziyan dəymişdi. Ən ağır itki isə xalqın yaşadığı ağır anlar, cəmiyyətə və xalqa vurulan ağır psixoloji zərbə, dövlətin imicinə dəyən zərər, itirdiyimiz hərbiçilər və mülki vətəndaşlar, yaralılar idi. 4 iyun hadisələri böhranın, süqutun tənəzzülün ən təhlükəli nöqtəsi, süqut edən qüvvə isə bü gün də hakimiyyətə nə yolla olur-olsun can atmağa çalışan AXC-Müsavat iqtidarı idi.

Heydər Əliyev Bakıya gələndən dərhal sonra Gəncəyə getdi, oradakı vəziyyətlə bilavasitə tanış oldu. Onun Gəncəyə getməsini iyun qarşıdurmasında iştirak edən tərəflərin hamısı, bütün ictimai-siyasi qüvvələr, yəni həm Surət Hüseynov və tərəfdarları, həm də Surət Hüseynovun hədələrindən qorxaraq hərəsi bir tərəfə dağılışan AXC-Müsavat komandasının rəhbərləri, eləcə də müxalifət partiyaları xahiş etmişdilər.

1993-cü ilin yazında ümummilli liderimiz Heydər Əliyev xalqın təkidi və tələbi ilə yenidən hakimiyyətə qayıdanda ölkədə sözün əsl mənasında xaos, anarxiya hökm sürürdü. Respublikadakı gərgin vəziyyət ucbatından müstəqilliliyin ilk iki ili tamamilə itirilmişdir. Belə ağır vəziyyətdə təbii ki, xarici təcavüz güclənir, daxili irtica baş qaldırırdı. Azərbaycan öz dövlət müstəqilliyini elan etdiyi 1991-ci il oktyabrın 18-dən ağır dövlət böhranının yarandığı 1993-cü il iyunun 4-ə dəkcəmi 19 ay ərzində 4 dəfə hakimiyyət dəyişikliyi, ciddi qarşıdurmalar baş vermişdi. Bu 19 ayda az qala hər həftə hər hansısa sahədə böhran yaranır, ölkə itkilərə məruz qa-

lırdı. Yenicə müstəqillik qazanmış Azərbaycanda bir-birinin ardınca dövlət çevrilişləri olur, hakimiyyət zorakı yollarla qəsb edilir və itirilir, hakimiyyətə hər dəfə də soriştəsiz, millətini sevməyən, şəxsi mənafeyini dövlət mənafeyindən üstün tutan adamlar, primitiv idarəçilər, yaramaz şəxslər gəlir, az qala hər ay bir siyasi partiya elan olunurdu. Digər tərəfdən də sosial-iqtisadi tənəzzül sürətlənir, hərbi və ictimai-siyasi durum getdikcə pisləşirdi. Dahi öndərimiz o dövrə qiymət verərək dövlət müstəqilliyinin 10-cu ildönümü ilə bağlı 2001-ci ilin oktyabrın 17 keçirilmiş mərasimdəki çıxışında demişdir: **«Biz sizinlə 1993-cü ili bir yerdə yaşadıq. Gərək bu, heç vaxt unudulmasın. Gərək heç kəs də bunu unutmasın ki, 1993-cü ildə Azərbaycan parçalanmaq, bir ölkə kimi, müstəqil dövlət kimi məhv olmaq təhlükəsi qarşısında idi. Azərbaycanda vətəndaş müharibəsi baş vermişdi. Azərbaycanan cənubunda yeni bir «cümhuriyyət» yaratmağa çalışdılar. Şimalında yeni hərəkat başladı, seperatçılıq meyilləri artıq özünü göstərdi. 1993-cü ildə Azərbaycan yanırdı. Ancaq xalq bu böyük sınaqdan çıxdı. Azərbaycanı məhv etmək istəyən qüvvələrin qarşısı alındı».**

1993-cü il iyunun 15-də Azərbaycan parlamentinin spikeri seçilən, iyunun 23-dən etbarən isə prezidentin səlahiyyətlərini icra etməyə başlayan H.Əliyev Azərbaycanı vətəndaş müharibəsindən və seperatizmdən, çörək problemindən, qardaş qırğınından, hərc-mərclikdən və daha neçə-neçə təhlükədən qurtardı. Bu, Azərbaycan tarixinin dönüş anı, əsl dövlət müstəqilliyinin başlanğıcı idi.

1993-cü il oktyabrın 3-də H. Əliyevin prezident seçilməsi ilə Azərbaycan müstəqillik, milli tərəqqi və sabitlik yoluna çıxdı. Ölkənin həyatında yeni mərhələ başlandı. Öncə dövlət böhranı aradan qaldırıldı, ictimai-siyasi sabitlik yaradıldı, qanunçuluq bərpa olundu, ölkə seperatizmdən və parçalanıb dağılmaqdan xilas edildi. Bununla da dövlət quruculuğu üçün əlverişli zəmin yaradıldı. Müdrik liderimiz əvvəlcə dövlət qurdu və vətəndaşların təhlükəsizliyini təmin etdi, sonra isə hüquqi-siyasi və sosial-iqtisadi islahatlar apardı.

1994-cü ilin sonlarına doğru ölkədə həyat öz axarına düşməyə başladı. Həmin il may ayının 12-də Ermənistanla atəşkəs haqqında saziş imzalandı. Bu, həmin dövr üçün müstəsna əhəmiyyətli tarixi bir qərar idi. Çünki Azərbaycan bununla vaxt qazanaraq milli ordunu qurmaq, cəmiyyəti böh-

ran vəziyyətindən çıxarmaq, iqtisadiyyatı dirçəltmək, büdcəni qaydaya salmaq, vətəndaşların həyat səviyyəsini nisbətən yaxşılaşdırmaq, respublika ərazisində sabitliyi bərpa etmək, Azərbaycana xaricdən olan təzyiqlərin qarşısını almaq, beynəlxalq əlaqələri sahmana salmaq, ölkədəki qanunsuz silahlı dəstələri zərərsizləşdirmək və s.üçün belə bir zamana ciddi ehtiyac duyulurdu.

Ümummilli liderimiz H. Əliyevin müstəqil dövlət quruculuğu işində ilk cidd addımlarından biri «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında» 9 avqust 1994-cü il tarixli fərmanı idi. Həmin fərman konstitusiyalı dövlət quruluşunun mühafizəsində, insan hüquq və azadlıqlarının cinayətkar qəsdlərdən qorunmasında, cinayətkarlığa qarşı mübarizədə və qanunçuluğun möhkəmləndirilməsində əsaslı dönüş yaratdı. O, respublika daxilində olan cinayətkar dəstələrə müharibə elan edəndə onlar dövlət başçısına qarşı hərbi müxalifətə keçdilər. Surət Hüseynovun oktyabr 1994-cü il və «OMON»-a başçılıq edən Rövşən və Mahir Cavadov qardaşlarının mart 1995-ci il dövlət çevrilişi cəhdləri H. Əliyevin dövlətçilik və qanunçuluq yoluna xaricdən idarə olunan müqavimət cəhdləri demək idi. 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi»nin imzalanmasına, ümumiyyətlə, Azərbaycanın tutduğu yola müqavimətin nəticəsi olan 4 oktyabr 1994-cü il qiyamı məhz H. Əliyevin sarsılmaz iradəsi və böyük təcrübəsi ilə yatırıldı. 1995-ci ilin mart dövlət çevrilişi cəhdinin qarşısı alındı. 1995-ci ilin ortalarına doğru ölkədə hərbi müxalifət, silahlı bandalar, mütəşəkkil və siyasiləşmiş cinayətkar qruplar birdəfəlik ləğv edildi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövr digər sahələrlə yanaşı demək olar ki, Azərbaycan neft sənayesinin inkişafının dirçəliş mərhələsi kimi tanınmışdır.

Ölkəmizin ən böyük nailiyyətlərindən biri dəniz neft-qaz yataqlarının kəşf edilməsi və işlənməsi olmuşdur. 1970-ci illərin əvvəllərindən etibarən Xəzərdə planlı surətdə geoloji-kəşfiyyat işlərinin təşkili və həyata keçirilməsi də ulu öndərimiz Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Bu nəhəng işlər neftçilərimizə dənizin daha dərin sahələrini mənimsəmək imkanı vermişdir.

Respublika rəhbərliyi tərəfindən qısa müddət ərzində görülən məqsədyönlü tədbirlər nəticəsində neft sənayesi möhkəmləndirilmiş və onun

çoxsahəli infrastrukturu yaradılmışdır. Azərbaycanda dəniz yataqlarının işlənməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək məqsədilə xüsusi gəmilər, texnika və avadanlıq gətirilmişdir. Möhtərəm Heydər Əliyevin xüsusi diqqəti sayəsində neft donanması əsas inkişaf dövrünə qədəm qoymuş və bu gün də «Xəzərdənizneftdonanması» geniş imkanlara malik, dünyanın ən böyük neft donanmalarından birinə çevrilmişdir. Bir-birinin ardınca Xəzərdə Günəşli, Çıraq, Azəri, və Kəpəz kimi yeni iri neft və qaz yataqları kəşf edilmişdir. Təkcə Günəşli yatağı sənaye işlənməsinə daxil edildikdən sonra Azərbaycanda neft hasilatının əsas həcmini təmin etdi. Bununla yanaşı neft emalı, neft-kimya sənayesi və neft maşınqayırmasının inkişafında böyük irəliləyiş olmuşdur. Belə ki, o zaman Bakının neft maşınqayırma zavodlarında respublikanın və bütün ittifaqın neft-qazçıxarma sənayesi üçün yüzlərlə yeni tipli maşınlar, avadanlıqlar, aparatlar və cihazlar istehsal olunurdu. Bilavasitə ümummilli liderimizin gərgin əməyi və fəaliyyəti nəticəsində 1979-cu ildə Sahil qəsəbəsində Sovet İttifaqında ən böyük zavodlardan sayılan dərin özüllər zavodu inşa edilmiş və həmin zavodun fəhlə və qulluqçuları üçün qəsəbə və sosial obyektlər salınmışdır.

Lakin tarixin belə bir təəssüf doğuran həqiqəti də var ki, bəzi neft çıxaran ölkələr bu qiymətli sərvətdən öz xalqlarının firavanlığı və tərəqqisi üçün istifadə etmək imkanından uzun illər məhrum olmuş, böyük dövlətlərin güclü təzyiqi nəticəsində müstəqil siyasət yeritmək imkanını itirmişlər. Həmin ölkələr öz təbii sərvətlərinin tam sahibi olmaq uğrunda həmişə mübarizə aparmış və öz məqsədlərinin həyata keçirilməsinə bu və ya digər dərəcədə nail olmuşlar. Bu baxımdan Azərbaycan xalqının da azadlıq və müstəqillik uğrunda mübarizəsi heç də asan olmamışdır.

1991-ci ilin oktyabr ayının 18-də müstəqillik aktının qəbul olunmasından sonra respublikamız bir çox problemlərlə üzləşdi. Xalqımız o dövrün sərişəsiz, başıpozuq hakimiyyət dəllallarının fəaliyyətsizliyi nəticəsində uçurum qarşısında dayanmışdır. Ayaz Mütəllibov, Müsavat-AXCP iqtidarı dövründə həm sosial-iqtisadi, həm də ictimai-siyasi cəhətdən atılan uğursuz addımlar eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə nüfuzuna da mənfi təsir göstərirdi. Uzunmüddətli müharibəyə çevrilmiş Dağlıq Qarabağ münaqişəsi, 1990-cı illərin əvvəllərində siyasi rəhbərliyin acizliyi əsl hərc-mərclik yaratmışdır. İstehsal sahələri və pillələri arasında əlaqə-

lər pozulmuş, təcrübəli kadrlar itirilmiş, hər yerdə laqeydlik, özbaşınalıq hökm sürür, uzun illər ərzində yaradılmış əsas fondlar və istehsal vasitələri dağıdılaraq talan edilmişdir.

Respublika ərazisində qeyri-sabitliyin mövcud olması, maliyyə və texniki təchizatın sıfra enməsi xalq təsərrüfatının bir çox sahələri kimi neft və qaz sənayesini də iflic vəziyyətə gətirib çıxarmışdır. İllərlə mövcud olan və səlis işləyən istehsalat əlaqələri pozulmuş, sərmayə qoyuluşu ixtisar olunmuş, kəşfiyyat və istismar qazmasının həcmi kəskin surətdə azalmış, nəticə etibarilə isə, neft və qazın hasilatı aşağı düşmüşdü. Maliyyə vəziyyətində, əsas fondların və neft avadanlıqlarının yeniləşdirilməsində böhran son dərəcə dərinləşmişdi. Həm iqtisadi, həm siyasi, həm hərbi və digər sahələrdə yaranmış böhran o dövrdəki iqtidarın bilavasitə səriştəsiz və təcrübəsiz fəaliyyətinin nəticəsi idi.

Ölkə rəhbərinin apardığı ardıcıl siyasi kurs, bir çox dövlətlərlə yaratdığı isti münasibət xarici ölkələrin ümumiyyətlə, beynəlxalq aləmin ölkəmizlə qarşılıqlı əlaqələr qurmasına gətirib çıxarmışdır. Hüquqi, dünyəvi, dövlət yaratmaq, iqtisadi islahatlar aparmaq və bazar iqtisadiyyatının prinsiplərinə yiyələnmək, xalqın azad şəkildə maddi və mənəvi cəhətdən təmin olunmasını fəaliyyətinin əsas istiqaməti seçən möhtərəm Heydər Əliyev iqtisadiyyatımızın dirçəldilməsi sahəsində böyük işlər görmüşdür. Əldə edilən çox mühüm strateji əhəmiyyət daşıyan nailiyyətlər arasında Azərbaycanın neft və qaz ehtiyatlarının və əlverişli coğrafi mövqeyinin üstünlüklərindən istifadə edilməsinə yönəldilmiş ümummilli liderimiz Heydər Əliyevin 1994-cü ildə yaratdığı və ötən zaman ərzində uğurla gerçəkləşən neft strategiyası və konsepsiyası xüsusi yer tutur.

1994-cü il sentyabrın 20-də neft müqavilələri bağlandı. Bununla da dövlət müstəqilliyinin iqtisadi təməli qoyuldu. «Əsrin müqaviləsi»ni müstəqil Azərbaycanın yeni neft strategiyasının başlanğıcı kimi dəyərləndirən H. Əliyev 2001-ci ilin oktyabrında dövlət müstəqilliyinin 10-cu ildönümü ilə bağlı məruzəsində deyirdi: **«Bəli, 1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi» Azərbaycanın düşmənlərinin köksünə bir süngü kimi sancıldı. Ona görə buna dözə bilmədilər. Azərbaycanda baş verən və dövlətçiliyin əleyhinə olan hadisələrin bir çoxu məhz bundan sonra başladı. Çünki daxildə olan adamlar da və xaricdə olanlar da bilirdilər ki, əgər Azərbaycan artıq bu cür addım atıbsa, deməli Azərbaycan bundan sonra daha da uğurlu addımlar atacaq. Azərbaycan iqtisadi cəhətdən inkişaf edəcək, qüdrətlənəcək, möhkəmlənəcək».**

Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, beynəlxalq aləmdə yüksək qiymətləndirilərək «Əsrin müqaviləsi» adını qazanmış bu saziş qanuni qüvvəsinə minərək, müasir Azərbaycanın tarixinə qızıl hərflərlə həkk olundu və Heydər Əliyevin neft strategiyasının şanlı səhifəsini açdı. Azərbaycan Xəzəryanı dövlət olaraq ilk dəfə Qərbin böyük neft şirkətləri ilə saziş imzalamaqla, ümumiyyətlə, Xəzər regionunda beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla da Prezident Heydər Əliyev Azərbaycanın perspektivinin bütün dünyada təsdiq olunmasına nail oldu. Transmilli şirkətlərin Azərbaycana gəlməsi yalnız sərmayə axını demək deyildi, bu həm də dünyanın ölkəmizə inamı idi. Məhz ümummilli liderimiz Heydər Əliyevin respublikada yaratdığı sabitlik, əmin-amanlıq xarici şirkətlərin ölkəmizə gəlməsinə yol açdı. İndiyə qədər Azərbaycan 14 ölkənin 30 iri şirkəti ilə ümumi həcmi 60 milyard ABŞ dolları olan 23 neft sazişi imzalayıb. Bu müqavilələr çərçivəsində görülən müştərək işlər ölkəmizdə mütərəqqi texnologiyaların gətirilməsi, neft sənayesinin infrastrukturunun yenidən qurulması, nəqliyyat və xidmət sahələrinin inkişafı, eləcə də minlərlə yeni iş yerlərinin açılması üçün geniş imkanlar yaratmışdır. Təsadüfi deyildir ki, Prezident Heydər Əliyevin 2001-ci il 16 avqust tarixli Fərmanına əsasən məhz hər il sentyabrın 20-i «Neftçilər günü» peşə bayramı kimi qeyd olunması qərara alınmışdır.

Ümummilli lider Heydər Əliyevin memarı olduğu Bakı-Tbilisi-Ceyhan neft boru kəməri haqlı olaraq yalnız iqtisadi deyil, həm də siyasi cəhətdən əhəmiyyətlidir. Çünki BTC yalnız Azərbaycanın deyil, regionun təhlükəsizliyini təmin etməyə yönələn layihədir.

Bəli, məhz dünya miqyaslı siyasətçi Heydər Əliyevin uzaqgörənliyi, dövlətin və ölkə iqtisadiyyatının inkişafının əsas qanunları və yolları haqqında dərin biliyə malik olması, zəngin rəhbərlik təcrübəsi, xalqına sədaqəti və Vətənə sonsuz məhəbbəti ona regionda analoqu olmayan nəhəng layihələri yaratmaq və onların həqiqi rəhbəri olmaq imkanı verdi. Artıq bu ideyalar reallığa çevrilməklə Azərbaycan xalqına öz zəngin bəhrələrini verməkdədir.

Heydər Əliyevin rəhbərliyi altında keçən 10 il növbəti onilliklərin təməli olan onillik idi. Azərbaycanın müstəqil dövlət kimi əldə etdiyi nə

varsa, hamısı məhz son onillikdə qazanılıb. Azərbaycan bu son on ildə həqiqətən müstəqil dövlət kimi formalaşıb, qüdrətlənib, demokratik dövlət imici qazanıb, sivil dünyaya sıx inteqrasiya olunub.

Hazırda Azərbaycan BMT, Avropa Şurası, ATƏT, İslam Konfransı Təşkilatı, GUƏAM və digər beynəlxalq və regional təşkilatların üzvü olmaqla yanaşı, NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramında da genişmiqyaslı fəaliyyət göstərir ki, bu da beynəlxalq siyasi aləmdə Azərbaycan dövlətinin və vətəndaşlarının hüquqlarının müdafiəsində müstəsna əhəmiyyət kəsb edir.

İndi müstəqil Azərbaycan Respublikası güclü, zəngin, nüfuzlu, sivil bir dövlətdir. Heydər Əliyev siyasəti olmadan bütün bu uğurlara nail olmaq heç vaxt mümkün deyildi və ola da bilməzdi.

Xalqımızın ümummilli lideri, görkəmli siyasi və dövlət xadimi, müdrik siyasətçi Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı, qurucusudur. Onun xalqımız qarşısında ən böyük xidməti və regionun aparıcı dövləti olan Azərbaycan dövlətini böhran və iflas mənqənələrindən xilas etməsi, stabil, inkişaf edən dövlət qurması oldu. Onun dövlət quruculuğu sahəsində qəbul etdiyi qərarlar, atdığı addımlar bu gün xalqımız tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan dövlətinin müstəqilliyinin, əbədiliyinin, dönməzliyinin təmini də müdrik dövlət xadiminin adı ilə bağlıdır. Heydər Əliyev daxili və xarici siyasətin necə aparılmasını və hansı nəticələr verməsinə daha çox diqqət yetirirdi. Məhz onun həyata keçirdiyi iqtisadi siyasət nəticəsində Azərbaycan regionun aparıcı və nüfuzlu bir dövlətinə çevrilmişdir. «Əsrin müqaviləsi» Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, Böyük ipək yolu və digər layihələrin həyata keçirilməsi, aqrar islahat, özəlləşdirmə və s. amillər ölkə iqtisadiyyatının inkişafına əsaslı təsir göstərən faktorlardır.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə olunmasında Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən-müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün bütün fəaliyyəti dövründə əzmlə səy göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul etmişdir.

Heydər Əliyev Azərbaycan torpağının xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermiş,

müstəqil Azərbaycan dövlətinin memarı kimi dövlətçiliyimizin ideya əsasını yaratmışdır. Bütün mənalı həyatını öz xalqının azadlığına, müstəqilliyinə və firavanlığına həsr etmiş bu dahi şəxsiyyət siyasi və dövlət xadimi kimi Azərbaycan xalqının tarixində dərin iz buraxmışdır. Azərbaycan xalqının gələcək nəsilləri bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən daim bəhrələnərək, onun zəngin ideyalarının qorunub saxlanılmasına və həyata keçirilməsinə nail olacaqdır.

Əbədi öndərimizin xalqa xidməti barədə əsrlər boyu danışılacaq, araşdırmalar aparılacaq, təməli qoyduğu milli dövlətçiliyimizin durmadan möhkəmləndirilməsi qürur hissi ilə vurğulanacaqdır. Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev ideyaları həmişə bizə xoşbəxtlik, ölkəmizə inkişaf bəxş edəcək. Çünki Zati-Aliləri öz ideyalarını reallaşdırmaq üçün güclü kadr potensialı yetişdirib. Əbədi rəhbərimiz Heydər Əliyev xalqa son müraciətində demişdir: **«İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək».**

Ölkəmizin iqtisadi, siyasi, mədəni diplomatik və digər sahələrində misilsiz xidmətləri ilə seçilən hörmətli Prezidentimiz İlham Əliyevin bu ideyaların layiqli davamçısı olması Azərbaycanın tərəqqisinə hərtərəfli zəmin yaradıb. Bütün bunları tam reallığı ilə dərk edən və yüksək qiymətləndirən xalqımız 1993 və 1998-ci illərdə olduğu kimi 2003-cü ildə də öz düzgün seçimini etdi.

Milli liderimizin dəfn mərasimində milyonların iştirakı, məzarının bir ziyarətgaha çevrilməsi və bu günə qədər məzarı önündən ziyarətçilərin ardı-arasının kəsilməməsi xalqın ona qarşı tükənməz rəğbətini göstərməklə, Azərbaycan yaşadıqca ulu öndərimizin əbədi olacağını bir daha təsdiqləyir. Bizim üzərimizə düşən ən əsas vəzifə isə ulu öndərimizin siyasi kursunun və dönməz ideyalarının həyata keçirilməsində onun layiqli davamçısı olan hörmətli Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək bu ideyaların həyata keçirilməsində ona dəstək olmaq, bununla da ümummilli liderimizin ruhunu şad etməkdən ibarətdir.

AĞABƏY ƏSGƏROV
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN DEMOKRATİK MƏTBUATININ BANİSİDİR

Demokratik mətbuat - demokratik cəmiyyət! Ymummilli lider Heydər Əliyevin yaratdığı azad, demokratik Azərbaycan dövlətinin tarixi, siyasi, hüquqi və sosial əsaslarından biri də məhz bu prinsip üzərində qərarlaşmışdır.

«Azad mətbuat-azad cəmiyyət» formulu ümummilli lider Heydər Əliyevin müstəqil, müasir, demokratik dövlət quruculuğu siyasətinin əsas nəzəri-konseptual mahiyyət və istiqamətlərindən biri olmuşdur.

Ymummilli lider Heydər Əliyevin demokratik hüquqi Azərbaycan dövləti quruculuğundakı tarixi xidmətləri və nailiyyətləri belə fikir yürütməyə əsas verir ki, O, azad mətbuata müstəqil dövlətçiliyin zəruri atributu, vacib şərti kimi yanaşmış və dövlət müstəqilliyinin mətbuat azadlığından kənarda mövcud ola bilməməsi həqiqətini Azərbaycan nümunəsində bir daha dünyaya sübut etmişdir.

Heydər Əliyevin 1993-cü ildən etibarən qurub-yaratdığı və başçılıq etdiyi müstəqil Azərbaycan dövlətində azad və demokratik mətbuat cəmiyyətin başlıca institusional əsasına, onun sosial-hüquqi sütunlarından birinə çevrilmişdir. Bu reallıq Heydər Əliyevin azad və demokratik cəmiyyət yaratmaq istiqamətindəki siyasi-tarixi fəaliyyətinin əsas prioritet xətlərindən olmaqla mətbuat, söz azadlığının hüquqi təminatında, Konstitusiya vasitəsilə vətəndaşlara siyasi azadlıq, siyasi plüralizm, söz və mətbuat azadlığı verilməsində və nəhayət, mətbuata azad və demokratik fəaliyyət üçün hər cür geniş imkanlar yaradılmasında, azad sözün Azərbaycan gerçəkliyinə çevrilməsində öz təsdiqini tapmışdır. Azərbaycanda 1993-2003-cü illərdə Heydər Əliyevin başçılığı ilə həyata keçirilən demokratik dövlət quruculuğunun, bütün sahələrdə aparılan demokratik islahatların, hüquqi cəmiyyətin formalaşdırılması yönümündə çoxtərəfli və kompleks həyata keçirilən nəzəri-konseptual əsaslı daxili siyasətin, milli dövlətçilik ənənələrinin yaradılması və

beynəlxalq aləmə inteqrasiya istiqamətində aparılan siyasi kursun - bütün bunların çox böyük uğurla nəticələnməsi öz real təsdiqini həm də Azərbaycanda azad, müstəqil və demokratik mətbuatın qərarlaşmasında, formalaşmasında, fəaliyyətində, nailiyyətlərində tapmışdır. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biri də məhz müstəqil Azərbaycan mətbuatını yaratması və inkişaf etdirməsidir. Bu gün birmənalı olaraq tam qətiyyətlə və fəxarətlə demək olar ki, azad və demokratik Azərbaycan mətbuatı müasir Azərbaycan cəmiyyətinin ən böyük tarixi nailiyyətlərindən biridir və bu nailiyyətin əsas müəllifi ümummilli lider Heydər Əliyevdir.

Heydər Əliyevin demokratik, humanist təbiətli siyasətçi və dahi şəxsiyyət olduğu bir də bununla əsaslana bilər ki, O, müstəqil və demokratik Azərbaycan dövlətini qurduğu zaman azad mətbuat siyasətini insan azadlığı kontekstində həyata keçirmiş və mətbuat azadlığına məhz insan azadlığının mühüm atributu kimi yanaşmışdır. Belə bir yanaşma isə ciddi elmi əsaslara və real faktorlara söykənir. Dünya demokratiya təcrübəsinin təsdiq etdiyi kimi, insan azadlığı demokratiyanın ən başlıca şərtidir. Bütün sivil ölkələrdə insan azadlığı cəmiyyətin söz, fikir, mətbuat azadlığından kənarda mövcud deyildir. Mətbuat azadlığı olmayan bir ölkədə insan azadlığının, demokratiyanın mövcudluğundan danışmaq qeyri-mümkündür. Söz, fikir azadlığı, vətəndaşların azad düşünmək hüququ və siyasi plüralizm məhz mətbuat azadlığı ilə bağlıdır. Tarixi təcrübənin diqtə etdiyi bu həqiqəti Heydər Əliyev müstəqil dövlət quruculuğunda ən zəruri və mühüm amil kimi nəzərə almış və Azərbaycanda azad mətbuatın yaranması, formalaşması, inkişafı istiqamətində dövlət siyasəti həyata keçirmişdir.

***

Heydər Əliyevin Azərbaycan milli mətbuatı qarşısındakı xidmətləri öz ictimai-siyasi miqyasına, tarixi əhəmiyyətinə və mahiyyətinə görə olduqca böyükdür.

Prezident Heydər Əliyevin qurduğu müstəqil və demokratik Azərbaycan dövlətində kütləvi informasiya vasitələrinin azad və müstəqil fəaliyyəti üçün, cumalistlərin hüquqlarının təmin olunması üçün köklü islahatlar aparıldı, demokratik qanunlar yaradıldı və bu qanunlar cəmiyyətin istifadəsinə verildi.

1993-2003-cü illər ərzində Heydər Əliyevin quruculuq və inkişaf yönümlü daxili və xarici siyasətinin uğurları Azərbaycanda kütləvi informasiya vasitələrinin fəaliyyətinə və inkişafına, bu sahədə beynəlxalq demokratik dəyərlərin və təcrübənin ölkəmizdə yayılmasına geniş imkanlar yaratdı.

Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi on il ərzində demokratik Azərbaycan dövlətinin siyasi və hüquqi təməl prinsipi olan mətbuat azadlığına dövlət siyasəti və ümummilli maraq səviyyəsində yanaşdı. Demokratik mətbuatın yaranması və formalaşması üçün lazım olan bütün imkanlar, o cümlədən, hüquqi baza meydana gəldi.

Məlum həqiqətdir ki, Heydər Əliyev hələ 1969-cu ildən - Azərbaycana rəhbərliyinin ilk mərhələsindən başlayaraq, siyasi fəaliyyətinin bütün dövrlərində kütləvi informasiya vasitələri ilə daim fəal ünsiyyətdə, sıx təmasda, diskussiyalarda olmuş, mətbuatın problemləri ilə maraqlanmış və onların həlli istiqamətində konkret addımlar atmışdır. Heydər Əliyev təbiətən qurucu, sivil, yaradıcı, proqressiv şəxsiyyət olduğundan özünün bütün dövlətçilik fəaliyyəti ərzində kütləvi informasiya vasitələrinin cəmiyyətdəki roluna, ictimai və sosial funksiyalarına, mətbuatın demokratik qayəsinə böyük əhəmiyyət və obyektiv qiymət vermişdir; milli mətbuatın fəaliyyətinə, inkişafına daim geniş imkan və şərait yaratmışdır. Özünün bütün siyasi və dövlətçilik fəaliyyəti dövrlərində Heydər Əliyev millətin taleyini, gələcəyini, inkişafını düşünərək, bu yolda kütləvi informasiya vasitələrinin roluna böyük əhəmiyyət vermişdir. Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər ərzində Heydər Əliyev Azərbaycanın iqtisadiyyatını, sənayesini, kənd təsərrüfatını, səhiyyəsini, təhsil və mədəniyyətini olduqca ağır durumdan, böhrandan xilas edərkən, Azərbaycanda böyük quruculuq işləri görərkən milli mətbuatın da qarşısında dayanan bir çox köklü məsələləri həll etmiş, onun gələcək perspektivlərini düşünmüş, gələcək müstəqil fəaliyyətinin əsaslarını yaratmışdır. O dövrdə Azərbaycanda bütün sahələrdə inkişafın və tərəqqinin əsasını qoyan Heydər Əliyev xalqın milli oyanışı, milli həmrəyliyi istiqamətində də bir çox mühüm tarixi xidmətlər göstərmişdir və bu işdə mətbuatın imkanlarından düşünülmüş şəkildə, uzaqgörənliklə istifadə etmişdir. Azərbaycan milli mətbuatının keçdiyi şərəfli tarixi yolu və mətbuatın milli oyanışda mühüm rol oynadığını yüksək qiymətləndirən dahi liderimiz Heydər Əliyev mətbuatın bu tarixi və sosial missiyasını öz hakimiyyəti illərində bərpa etmiş, mətbuatın inkişafına milli inkişafın ayrılmaz tərkib hissəsi kimi yanaşmışdır.

***

Heydər Əliyevin xalqın iradəsi ilə 1993-cü il iyun ayının 15-də yenidən hakimiyyətə qayıdışı Azərbaycan dövlətçiliyini və milli müstəqilliyi məhv olmaqdan xilas etdi. O cümlədən, həmin tarixdən etibarən Azərbaycan milli mətbuatı total sovet rejiminin təsiri ilə düşdüyü durğunluq və tənəzzüldən, siyasi-ideoloji asılılıqdan, şablonçuluq və qəlibçilikdən, mənfi stereotiplərdən, məhdudiyyətlərdən, fikir maneələrindən, sifarişli informasiya yaymaqdan, cəmiyyəti birtərəfli işıqlandırmaqdan xilas oldu.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan milli mətbuatı özünün müstəqillik tarixinə qədəm qoydu. Azərbaycan mətbuatının keyfiyyətcə yeni dövrü - intibah, tərəqqi, demokratiya, müasirləşmə dövrü başladı. Məhz 1993-cü ildən - Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından etibarən milli mətbuatın ən gözəl ənənələri məhv olmaqdan xilas edildi, milli mətbuat özünün çoxillik təcrübəsini qoruyub saxlamaq imkanları əldə etdi. Başlıcası, Heydər Əliyevin hakimiyyətə qayıdışı nəticəsində bütün sahələr kimi mətbuat da islahat, tərəqqi, demokratikləşmə yoluna qədəm qoydu.

Şərəfli tarixi yol keçən, özünəməxsus professional və mənəvi dəyərlərə malik olan Azərbaycan milli mətbuatı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müstəqil, azad və demokratik dövlət quruculuğu yönümündə apardığı islahatlar, həyata keçirdiyi məqsədyönlü dövlətçilik siyasəti sayəsində azadlıq və müstəqillik əldə etdi, tam hüquqi əsaslarla öz müstəqilliyinə nail oldu.

Müharibə şəraitində yaşayan Azərbaycanda islahatlar həyata keçirilməsi üçün, cəmiyyətin bütün sahələrində demokratik quruculuq işləri aparılması üçün, o cümlədən, mətbuatın qarşısında illərlə yığılmış problemlərin həll edilməsi üçün ictimai-siyasi sabitliyin yaradılması olduqca zəruri idi. Ümummilli lider Heydər Əliyev atəş və sabitliyə nail olmaqla - bu çətin və zəruri məsələnin öhdəsindən gəlməklə ölkənin siyasi, iqtisadi, sosial, demokratik-hüquqi inkişafı üçün real şərait və imkan yaratmış oldu. Məhz bu siyasi sabitlik ölkədə bütün sahələrin, o cümlədən mətbuatın da yeni-

ləşməsi, müstəqilləşməsi, demokratikləşməsi, özünütənzimləməsi, inkişaf etməsi üçün ilkin və zəruri şərtə çevrildi.

Ölkədə ictimai-siyasi sabitliyin bərqərar olunması, iqtisadi və sosial sahələrin inkişafı üçün dövlət proqramlarının işlənilməsi, qanunvericilik bazasının yaradılması, 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi ilə vətəndaşlara siyasi və hüquqi azadlıqlar verilməsi, ölkədə siyasi plüralizmə geniş meydan açılması, demokratik cəmiyyətin formalaşdırılması, müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyatda beynəlxalq əməkdaşlığın genişləndirilməsi, xarici beynəlxalq təşkilatlarla güclü əlaqələr qurulması, Azərbaycanın bir çox beynəlxalq konvensiyalara qoşulması, ölkədə aparılan hakimiyyət bölgüsü, insan haqlarının qorunması və təmin olunması istiqamətində dövlət tədbirləri, əhalinin sosial müdafiəsinin daim gücləndirilməsi, sosial rifah halının daim artırılması, qeyri-hökumət strukturunun formalaşması üçün imkanlar yaradılması - bütün bunlar öz növbəsində KİV-lərin fəaliyyətindəki bir çox maneələri aradan qaldırdı, KİV-lərin demokratikləşməsi, maddi-texniki bazasının möhkəmlənməsi və jurnalistlərin peşə fəaliyyətinin təkmilləşməsinə əsaslı zəmin yaratdı. O cümlədən, müstəqil qəzet və jurnalların, müstəqil televiziya və radio kanallarının, müstəqil nəşriyyat və mətbəələrin, müstəqil cumalist təşkilatlarının yaranması və azad fəaliyyəti üçün geniş imkanlar meydana gəldi. Xüsusilə də, qəzet və cumalların nəşri üçün lazım olan texniki avadanlıqların, mətbəə kağızının əldə edilməsində, qəzet-jurnalların nəşri, yayımı və satışında illərlə hökm sürən çətinliklərə, özbaşınalıqlara, qanunsuzluqlara, süni əngəllərə birdəfəlik son qoyuldu.

Azərbaycanda kütləvi informasiya vasitələrinin dövlət qeydiyyatındakı bürokratik əngəllər aradan qaldırıldı, qeydiyyat mexanizmi xeyli sadələşdirildi ki, bu da öz növbəsində azad və müstəqil mətbuatın yaranmasına təkan verdi, KİV-lərin kəmiyyət və keyfiyyət baxımından artımını təmin etdi. Ölkədə iqtisadi, sosial sahələrdə aparılan geniş demokratik islahatlar nəticəsində, azad bazar iqtisadiyyatının əsaslarının və prinsiplərinin ardıcıl şəkildə həyata keçirilməsi nəticəsində, sağlam rəqabətin yaranması və azad sahibkarlıq fəaliyyətinə geniş hüquqi imkanlar verilməsi nəticəsində kütləvi informasiya vasitələrinin maddi-texniki bazası xeyli dərəcədə müasirləşdi, gücləndi, KİV-lərin fəaliyyətində sürətlə yeniləşmə, irəliləyiş baş verdi. Jurnalistlərin azad peşə fəaliyyətini hüquqi baxımdan tənzimləyən, jurnalistikanın milli-mənəvi dəyərlərini qoruyan, jurnalistikanı müasir dünyəvi dəyərlər əsasında inkişaf etdirən qanunlar qəbul edildi. Jurnalistlərin peşəkarlıq baxımından daha da təkmilləşməsi, dünyada baş verən hadisələr haqqında informasiya əldə etməsi üçün real hüquqi və texniki imkanlar yaradıldı. Ölkədəki ictimai-siyasi sabitlik, uğurla həyata keçirilən siyasi, iqtisadi və sosial islahatlar, dövlət tərəfindən Azərbaycan dilinə, mənəvi dəyərlərə və milli ideologiyaya göstərilən böyük diqqət və qayğı, jurnalist hüquqlarının qorunması, müstəqil jurnalist qurumlarının yaradılması öz növbəsində Azərbaycan mətbuatının müstəqilləşməsi və inkişafı yolunda çox mühüm siyasi, hüquqi, iqtisadi, sosial amilə çevrildi. Bu imkanlar əsasında Azərbaycan mətbuatı özünün çoxillik təcrübəsini və mənəvi-əxlaqi ənənələrini bərpa etməyə, müasirləşməyə, beynəlxalq jurnalistikaya inteqrasiya etməyə nail oldu.

***

Konkret faktlara müraciət edək. 1994-cü ildə Azərbaycanda Avropa Şurası ilə əməkdaşlıq üzrə xüsusi proqram hazırlandı və Heydər Əliyevin fərmanı ilə təsdiq olundu. Həmin proqram çərçivəsində ölkəmizdə kütləvi informasiya vasitələrinin fəaliyyətinin Avropa standartlarına uyğunlaşdırılması, Avropa ekspertlərinin iştirakı ilə bu standartların tətbiq edilməsi istiqamətində də olduqca mühüm və əhəmiyyətli tədbirlər görüldü.

1995-ci il noyabr ayında referendum yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Bu, Heydər Əliyevin hüquqi demokratik dövlət quruculuğunda ən böyük tarixi nailiyyətlərindən biri oldu. Bütün demokratik dünya dövlətlərində olduğu kimi, Azərbaycanda da mətbuat azadlığına geniş hüquqi kontekstdə - söz azadlığı, vətəndaş azadlığı, insan hüquq və azadlıqları kontekstində yanaşan Prezident Heydər Əliyev müstəqil Azərbaycanın ilk Konstitusiyasında mətbuat azadlığının ilk hüquqi əsaslarını və təminatını yaratdı. Belə ki, Konstitusiyada kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən əsas prinsiplər, onların dövlət və vətəndaşlarla münasibətlərini nizamlayan, tənzimləyən bəzi mühüm müddəalar öz əksini tapdı.

Milli Məclis tərəfindən 9 sentyabr 1998-ci il tarixdə qəbul edilən «Məlumat azadlığı haqqında» Azərbaycan Respublikasının Qanunu və bu Qanunun tətbiq edilməsi barədə Prezidentin sərəncamı ölkədə söz, məlumat

və mətbuat azadlığı istiqamətində dövlətin atdığı növbəti uğurlu addım oldu. Məlumdur ki, müasir demokratik ölkələrdə məlumat azadlığı vətəndaşlara verilən ən əsas hüquq və azadlıqlardan biridir. Beynəlxalq təcrübə təsdiq edir ki, insanlara verilən məlumat azadlığı öz növbəsində mətbuat azadlığı üçün də vacib təminatdır. Bu mənada Azərbaycanda kütləvi informasiya vasitələrinin özünütənzimləməsi, onun azad fəaliyyəti, demokratikləşməsi yolunda «Məlumat azadlığı haqqında» Qanun böyük ictimai-siyasi və hüquqi əhəmiyyət daşımış oldu.

Azərbaycan Respublikasında mətbuat azadlığına təminat verən qanunvericilikdə əsas yerlərdən birini Prezident Heydər Əliyevin 6 avqust 1998-ci il tarixdə imzaladığı «Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» Fərman tutur.

Respublika Prezidenti Heydər Əliyev həmin Fərmanda illərlə davam edən problemi - mətbuatın azad və müstəqil fəaliyyətinin qarşısını alan senzuranı ləğv etmişdir. Belə ki, Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirrini mühafizə edən Baş idarənin, hərbi senzuranın və informasiya yayımı üzərində nəzarətin ləğvi barədə qərar vermişdir.

Başqa bir fakt. Azərbaycanda hər il 22 iyul gününün Milli Mətbuat Günü kimi keçirilməsi və həmin gün KİV işçilərinin dövlət tərəfindən və müstəqil jurnalist qurumları tərəfindən təltif olunması respublikada mətbuata dövlət qayğısının əyani nümayişidir. Qeyd etmək vacibdir KİV-lərin fəaliyyətinə böyük qiymət verən Prezident Heydər Əliyev hər il Mətbuat Günü bütün ölkə jurnalistlərinə rəsmi müraciət edərək onların peşə bayramını təbrik etmişdir. Prezidentin jurnalistlərin işinə, əməyinə, fəaliyyətinə böyük diqqət və qayğısının ifadəsi olan bu müraciətlər həm də jurnalistlər üçün proqram əhəmiyyəti daşıyan olduqca qiymətli sənədə çevrilmişdir.

Azərbaycan Respublikasında mətbuat azadlığına verilən hüquqi imkanlar, mətbuatın hərtərəfli inkişafı üçün göstərilən dövlət qayğası öz konkret təzahürünü daha bir sənəddə - «Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanında tapır. 27 mart 2000-ci il tarixli bu fərmanda milli mətbuatımızın 125 illik tarixi fəaliyyət və inkişaf yoluna geniş nəzər salınmış, XIX

əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycanda nəşr olunan ilk qəzet və jurnalların adları çəkilmiş, fəaliyyətləri təhlil olunmuş, onların xalqın ictimai-siyasi, mədəni inkişafında, maarifləndirməsində, milli-azadlıq mübarizələrində böyük xidmətləri qeyd olunmuşdur. 125 il ərzində ayrı-ayrı dövrlərdə nəşr olunan mətbu orqanlarının fəaliyyətində maarifpərvər ziyalıların milli şüurun inkişafı naminə böyük xidmətləri göstərilmiş və yüksək qiymətləndirilmişdir. Azərbaycan mətbuatının sovet dövründə də öz zəngin ənənələrinə sadiqliyi, milli mətbuatın qazandığı müsbət təcrübəni həyata keçirməsi və davam etdirməsi, ictimai-siyasi həyatda fəal rol oynaması, milli-mənəvi dəyərləri qoruması Prezident fərmanında öz əksini tapmışdır.

Prezidentin mətbuata ünvanladığı bütün bu müraciət və tövsiyələr, imzaladığı bu fərman və qərarlar KİV-lərin azad fəaliyyətinə, demokratikləşməsinə, onların maddi-texniki bazasının güclənməsinə, jurnalistlərin peşə əxlaqına riayət etməsinə, mətbuatın ictimai-sosial və maarifçilik rolunun güclənməsinə, cəmiyyətin informasiya tələbatlarının ödənilməsinə olduqca müsbət təsir göstərmiş, mətbuatın dünən, bu gün və gələcəkdə azad fəaliyyətinin, inkişafının təminatına çevrilmişdir.

***

Azərbaycan Respublikasının KİV haqqında qanunvericiliyində əsas yeri 7 dekabr 1999-cu il tarixdə Prezident Heydər Əliyev tərəfindən imzalanan «Kütləvi informasiya vasitələri haqqında» Qanun tutur. Bu Qanun Azərbaycan ictimai həyatına dövlətin mətbuat, fikir və söz azadlığı istiqamətində apardığı ardıcıl və məqsədyönlü siyasətin məntiqi və uğurlu nəticəsi kimi daxil oldu. «KİV haqqında Qanun» yalnız mətbuatın deyil, ümumilikdə demokratiya mədəniyyətinin inkişafına hüquqi əsas yaratdı.

Birincisi, Qanun qəbul edilənə qədər Azərbaycan Respublikasında söz, fikir, məlumat, mətbuat azadlığının təmin olunması üçün, KİV-lərin azad fəaliyyəti və inkişafı üçün, onun demokratikləşməsi və maddi-texniki bazasının möhkəmlənməsi üçün, jurnalist hüquqlarının təmin olunması üçün dövlət tərəfindən müəyyən qanunlar qəbul edilmiş və Prezident tərəfindən fərmanlar verilmişdir. Avropa Şurası ilə, beynəlxalq jurnalist təşkilatları ilə birgə seminarlar, mətbuat işçiləri ilə görüşlər keçirilmiş. Prezident jurnalistlərlə daim ünsiyyətdə olmuş, jurnalistlərin peşə hazırlığının

yüksək səviyyəsi üçün imkanlar yaradılmışdır. Bu istiqamətdə dövlətin yeritdiyi siyasət öz məntiqi davamını məhz «KİV haqqında» Qanunun qəbul edilməsində tapmışdır.

Digər tərəfdən, rəsmi statistikaya görə, 1998-ci ildə respublikada 300 qəzet, 70-dən çox jurnal, 20 teleradio, 20 informasiya agentliyi fəaliyyət göstərirdi. getdikcə artan bu göstəricilər Azərbaycanda siyasi plüralizmin, söz və mətbuat azadlığının mövcudluğunu təsdiq etsə də, eyni zamanda KİV-lərin fəaliyyətini hüquqi cəhətdən tənzimləyən, jurnalistlərin hüquq və vəzifələrini müəyyənləşdirən xüsusi qanunun yaranması zərurətini meydana çıxarmışdı. Məhz bu səbəblərə görə də, KİV haqqında qanun layihəsinin işlənilib hazırlanması üçün Prezident tərəfindən sərəncam imzalandı, xüsusi komissiya yaradıldı.

Qeyd etmək vacibdir ki, «Kütləvi informasiya vasitələri haqqında» Qanun layihəsinin hazırlanmasına peşəkar jurnalistlər, hüquqşünaslar cəlb olunmuşdular. Layihənin hazırlanması zamanı müasir dünyanın iyirmiyə qədər inkişaf etmiş demokratik dövlətinin təcrübəsindən, xarici ölkələrdə kütləvi informasiya vasitələrinin qanunvericilik bazalarından, beynəlxalq hüquq təcrübəsindən bəhrələnmiş, istifadə olunmuşdur. Ən başlıcası isə Qanun layihəsi respublikada geniş ictimaiyyətin müzakirəsinə verilmişdir. Bu da öz növbəsində sözügedən Qanunun daha demokratik əsaslarla qəbul edilməsi üçün real zəmin yaratmışdır. Bu müzakirələrdə siyasi mövqeyindən asılı olmayaraq bütün vətəndaşların, ziyalıların, başlıcası, jurnalistlərin bilavasitə iştirakı və müstəqil fikir bildirməsi, təkliflər irəli sürməsi üçün tam azad şərait, bütün mümkün imkanlar yaradılmışdır. Demək olar ki, ölkənin əksər kütləvi informasiya vasitələri bu müzakirələrdə fəal iştirak etmişlər. Müzakirələrdə peşəkar jurnalistlərlə yanaşı hüquqşünasların, vətəndaşların da fikirlərinə yer ayrılması, Qanun layihəsi haqqında müxtəlif diskussiyaların keçirilməsi, təklif və tənqidlərin bildirilməsi üçün geniş meydan verilməsi öz növbəsində «KİV haqqında» Qanunun demokratik hüquqi baza kimi işlənilməsi və qəbul edilməsinə səbəb olmuşdur.

Bu Qanun Azərbaycanda kütləvi informasiya vasitələrinin müstəqillik əldə etməsi, demokratikləşməsi, təkmilləşməsi yolunda cəmiyyətimizin, milli mətbuatımızın ən böyük nailiyyətlərdən hesab olunur. Müstəqil Azərbaycanda qəbul edilmiş ilk «KİV haqqında» Qanun məhz Heydər

Əliyevin genişmiqyaslı quruculuq siyasətinin, demokratik dövlətçilik siyasətinin tərkib hissəsi və uğurlu nəticəsi kimi qiymətləndirilir.

Bir daha vurğulayırıq ki, Qanunun qəbul edilməsi ilə Heydər Əliyev Azərbaycanda mətbuatın müstəqil fəaliyyəti üçün, bu günü və sabahı üçün, daim tərəqqi etməsi üçün, ölkədə söz və fikir azadlığının inkişaf etməsi üçün işıqlı yollar açdı.

Məhz Heydər Əliyevin rəhbərliyi ilə «KİV haqqında» Azərbaycan Respublikasının Qanununun hazırlanması və qəbul edilməsi bu sahədə olan bir çox ciddi problemlərin aradan qaldırılmasına, jurnalistlərin hüquq və vəzifələrinin müəyyən edilməsinə, KİV-lərin qanunvericilik bazasının yaranmasına, maddi-texniki bazasının gücləndirilməsinə, KİV-lərin demokratikləşməsinə hüquqi təminat və əsas yaratdı. Və bununla Azərbaycanda demokratik dövlətin, azad vətəndaş cəmiyyətinin daha bir mühüm atributu və şərti olan kütləvi informasiya vasitələrinin hüquqi əsasları, qanunçuluq bazası yarandı.

***

Ümummilli lider Heydər Əliyevin dövlət başçısı olaraq 1993-2003-cü illərdə xarici ölkələrə səfərləri də Azərbaycan mətbuatının inkişaf etməsinə güclü təsir göstərmiş və milli mətbuatımızın dünya miqyasına çıxmasına səbəb olmuşdur. Prezident Heydər Əliyev xaricdəki soydaşlarımızla görüşlərində Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün, Azərbaycanda gedən müstəqil dövlət quruculuğunu, demokratikləşmə proseslərini, uğurlu islahatları, respublikanın iqtisadi, sosial, mədəni həyatındakı yenilikləri, milli inkişafı beynəlxalq miqyasda yayımlamaq üçün onlara öz tövsiyələrini verirdi. Heydər Əliyev Azərbaycan ərazilərinin Ermənistan işğalı altında olduğu və Azərbaycan əleyhinə qərəzli təbliğatın, informasiya müharibəsinin aparıldığı bir zamanda dünya azərbaycanlılarını öz informasiya imkanlarını genişləndirməyə, Azərbaycan reallıqlarını dünyaya çatdırmağa dəvət edirdi. Məhz bu siyasətin nəticəsidir ki, azərbaycanlıların yaşadığı xarici ölkə və şəhərlərdə çoxlu sayda birliklər, təşkilatlar, mədəniyyət ocaqları meydana gəldi, azərbaycanlıların birliyinə xidmət edən Xaricdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycanın beynəlxalq aləmdə informasiya, yayım imkanları xeyli artdı. Məhz Heydər Əliyevin apardığı

siyasət və tövsiyələri sayəsində xarici ölkə və şəhərlərdə azərbaycanlılar tərəfindən qəzet və jurnallar dərc olundu. Beləliklə, Heydər Əliyevin sivil dövlətçilik siyasətinin nəticəsi olaraq, Azərbaycan milli mətbuatı yalnız Azərbaycan ərazisini əhatə etməyərək, artıq dünya miqyasında fəaliyyət göstərməyə başladı. İkincisi, dünya azərbaycanlılarının öz informasiya imkanlarını genişləndirməsi Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə daha operativ və obyektiv çatdırılmasına səbəb oldu. Yçüncüsü, bu mətbuat Azərbaycanın və azərbaycançılığın təbliğində, anti-Azərbaycan müharibəsinin zərərsizləşdirilməsində böyük siyasi, ideoloci rol oynadı. Dördüncüsü, dünya azərbaycanlılarının mətbuatı bütün dünyada azərbaycanlıların bir millət kimi həmrəyliyinə, birliyinə şərait yaratdı.

***

Azərbaycanda kütləvi informasiya vasitələrinin azad, müstəqil fəaliyyəti üçün təminat verən addımlardan biri də Azərbaycanın insan hüquq və azadlıqları, mətbuat azadlığı sahəsində müxtəlif beynəlxalq sazişlərə və konvensiyalara qoşulması oldu. Belə sənədlərdən biri də Avropa Şurasının İnsan Hüquqları üzrə Avropa Konvensiyasıdır ki, Azərbaycan Respublikası da bu Konvensiyaya qoşulmuşdur. Bundan başqa, Avropa Şurası Parlament Assambleyası tərəfindən 1970-ci ildə qəbul edilmiş «Kütləvi informasiya vasitələri və insan hüquqları haqqında Bəyannamə»yə Azərbaycan Respublikası da qoşulmuşdur. Bütün bu beynəlxalq sənədlərin respublika ərazisində hüquqi qüvvəyə minməsi və tətbiq olunması isə respublikamızda KİV-lərin fəaliyyətinin müasir beynəlxalq hüquq normalarına, beynəlxalq demokratik dəyərlərə uyğun tənzimlənməsi məqsədinə xidmət etmişdir.

Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin azadlığına, onların müstəqil fəaliyyətinə, demokratikləşməsinə və müasir tələblərə uyğunlaşmasına yaradılan hüquqi imkan və şərait beynəlxalq ictimaiyyət tərəfindən, bir çox nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirildi. Bu sahədə Azərbaycan dövlətinin apardığı mütərəqqi, demokratik siyasət və əldə edilən nailiyyətlər öz növbəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu gücləndirdi və öz real, uğurlu nəticəsini göstərdi: Azərbaycan Respublikası Avropa Şurasına ilk əvvəl

müşahidəçi qismində, 2001-ci ilin yanvar ayında isə bərabərhüquqlu üzv kimi qəbul olundu. Tam məsuliyyətlə demək olar ki, Azərbaycanın demokratik inkişaf, sivil dövlətçilik yolu tutmuş bir ölkə kimi Avropa Şurasına qəbul olunmasını əsaslandıran ən əsas şərtlərdən və göstəricilərdən biri də məhz söz, mətbuat, kütləvi informasiya vasitələrinin azadlığı sahəsində əldə etdiyi nailiyyətlər olmuşdur. Azərbaycan dövləti Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə sadiq qalaraq, onların həyata keçirilməsi sahəsində indi də real addımlar atmaqdadır. Belə ki, bu öhdəliklərə həm də kütləvi informasiya vasitələrinin müasir dünya standartlarına uyğun şəkildə fəaliyyəti, demokratikləşməsi və müstəqilləşməsi üçün daha geniş imkanlar yaradılması daxildir. Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən bu sahədə real addımlar atılmış, KİV-lərin inkişafını, özünütənzimləməsini, daha da demokratikləşməsini təmin edən, KİV-lərin fəaliyyət mexanizmini daha da təkmilləşdirən mütərəqqi qanunlar qəbul edilmiş, Prezident tərəfindən yeni fərman və sərəncamlar imzalanmış və bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bunlara misal olaraq, yenidən işlənilərək, daha təkmil variantda 2000-ci ilin fevral ayından qüvvəyə minən «KİV haqqında» Qanunu nümunə göstərmək olar. Bu Qanunda mətbu orqanlarının təsis edilməsi və rəsmi qeydə alınması mexanizmi sadələşdirilmiş, redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti əlavə dəyər vergisindən azad edilmiş, KİV məhsullarının, avadanlıqlarının idxal və ixracı üçün gömrük rüsumu ləğv edilmişdir.

2000-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində bir çox maddələr - «Müəlliflik hüququnun və əlaqəli hüquqların pozulması», «İnformasiya ehtiyatlarından istifadə qaydalarının pozulması», «İnformasiyanın mühafizəsi qaydalarının pozulması», «Kütləvi informasiya vasitələrinin yayılmasına mane olma», «Jurnalistlərin hüquqlarının pozulması», «Teleradio verilişlərindən istifadə qaydalarını pozma», «Kütləvi informasiya vasitələrinə sponsorluq etmə», «Kütləvi informasiya azadlığından və jurnalist hüququndan sui-istifadə etmə» - kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün, jurnalist hüquq və azadlıqlarının qorunması üçün hüquqi təminatın güclənməsinə səbəb olmuşdur.

Respublika Prezidenti Heydər Əliyevin daha iki fərmanını da xüsusilə qeyd etmək lazımdır. Bunlar 20 iyul 2000-ci il tarixdə Prezident tərəfin-

dən imzalanmış «Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında» və «Milli Mətbuat, Teleradio və İnternet Şurasının yaradılması haqqında» fərmanlardır. Bu fərmanların həyata keçirilməsinin nəticəsi olaraq, artıq bu gün respublikada Milli Mətbuat Şurası, Milli Teleradio və İnternet Şurası uğurla fəaliyyət göstərir, analoji xarici qurumlarla əməkdaşlıq edirlər. Başlıcası, bu qurumlar ölkə jurnalistlərinin peşə fəaliyyətində qanunçuluğun, etik normaların, obyektivliyin, milli maraqların, jurnalist hüquqlarının təminatında mühüm rol oynayır və ölkənin informasiya məkanının genişlənməsinə müsbət təsir göstərirlər.

Bir faktı da qeyd edək ki, 2002-ci ildə Milli Mətbuat Günü münasibətilə Respublika Prezidenti öz ənənəsinə sadiq qalaraq jurnalistlərə yenə də müraciət etdi, onlara peşə bayramı münasibətilə təbrik ünvanladı, dəyərli təklif və tövsiyələrini verdi və jurnalistlərə fəaliyyətlərində müvəffəqiyyətlər arzuladı. İyul ayının 22-də - Milli Mətbuat Günü Heydər Əliyev Prezident Sarayında bir qrup mətbuat rəhbərləri ilə rəsmi görüş keçirdi, bu görüşdə ölkə mətbuatının problemləri bir daha müzakirə edildi, KİV-in fəaliyyətinin tənzimlənməsi və özünütənzimləmə mexanizminin təkmilləşdirilməsi haqqında bir sıra yeni fikir və mülahizələr səsləndi. O cümlədən, KİV-lərin maddi-texniki bazasını inkişaf etdirmək, onların azad fəaliyyəti üçün daha geniş imkanlar yaratmaq məqsədilə Prezident Heydər Əliyevin kütləvi informasiya vasitələrinə uzunmüddətli kreditlər verilməsi haqqında Nazirlər Kabinetinə xüsusi göstərişlər verməsi də demokratik mətbuatımızın unudulmaz tarixi səhifələrindəndir.

Azərbaycanda müasir informasiya texnologiyalarının tətbiqi istiqamətində Heydər Əliyevin apardığı uğurlu siyasət, müxtəlif xidmət sahələrinin, o cümlədən, qəzet və jurnal nəşrinin kompüterləşdirilməsi istiqamətində əldə edilən yeniliklər, Azərbaycanın beynəlxalq İnternet şəbəkəsinə qoşulması Azərbaycanda KİV-lərin inkişaf etməsi və müasir dünya standartlarına uyğun fəaliyyət göstərməsi üçün olduqca mühüm rol oynadı. Heydər Əliyevin dövlətçilik siyasətinin ayrılmaz tərkib hissəsi olan beynəlxalq informasiya mübadiləsi ölkə mətbuatının İnternet şəbəkəsinə qoşulmasına və dünyaya yayımlanmasına səbəb oldu. Məhz bunun nəticəsidir ki, ölkədəki hər bir qəzet, jurnal və informasiya agentliyi gündəlik buraxılışlarını İnternet şəbəkəsi vasitəsilə Azərbaycanın və xarici ölkələrin oxucularına, o cümlədən dünya azərbaycanlılarına çatdırır, Azərbaycan həqiqətlərini dünyaya yayımlaya bilirlər. Qeyd edək ki, Prezident tərəfindən 17 fevral 2003-cü il tarixdə imzalanan «Azərbaycanın inkişafı naminə informasiya-kompüter texnologiyaları üzrə Milli Proqram» çərçivəsində ölkədə bir çox layihələr, tədbirlər həyata keçirilmiş, yeni dövlət proqramları meydana gəlmişdir. Bu siyasətin nəticəsi olaraq, Azərbaycanda fəaliyyət göstərən mətbuat orqanları və elektron KİV-ləri müasir texniki avadanlıqlara və imkanlara malikdirlər və bu imkan onların işinin keyfiyyətinə böyük təsir göstərir .

***

Ümummilli lider Heydər Əliyevin siyasi kursu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu reallıq öz əyani ifadəsini ölkənin siyasi, iqtisadi, sosial, mədəni inkişafına istiqamətlənmiş ardıcıl və uğurlu dövlət siyasətində tapır. Eyni zamanda Heydər Əliyev ideyaları, Heydər Əliyev siyasi kursu KİV-lərin azad və müstəqil fəaliyyət imkanlarında, söz və fikir azadlığının möhkəmləndirilməsində, siyasi plüralizmin cəmiyyətin bütün təbəqələrini əhatə etməsində, cəmiyyətin informasiya tələbatlarının ödənilməsində və informasiya mübadiləsinin gücləndirilməsində, KİV işçilərinə dövlət qayğısının artmasında, mətbuatda neqativ halların cəmiyyət tərəfindən qarşısının alınmasında, cəmiyyət-mətbuat əlaqələrinin intensivləşməsində və möhkəmlənməsində, mətbuatın bütün sahələrə təsir imkanlarının artmasında, onun ictimai həyatdakı funksiya və rolunun aktivləşməsində, mətbuatın informasiya, təbliğat və maarifləndirmə imkanlarının genişlənməsində öz həyatiliyini və reallığını bir daha sübut edir, bütün bunlarda öz uğurlu davamını tapır.

Ölkədə yüzlərlə müstəqil mətbu orqanının və informasiya agentliklərinin, müstəqil elektron KİV-lərin və mətbuat klublarının, müstəqil jurnalist qurumlarının və bu sahədə qeyri-hökumət təşkilatlarının azad fəaliyyət göstərməsi, jurnalistlərin seçki kampaniyalarında müşahidəçi qismində iştirak etməsi Azərbaycanda demokratiyanın, demokratik mətbuatın mövcudluğunu sübut və təsdiq edən inkaredilməz faktlardır.

XEYRƏDDİN QOCA
Yazıçı,
YAP Siyasi Şurasının üzvü

ZAMAN HƏMİŞƏ HEYDƏR ƏLİYEVİN XEYRİNƏ İŞLƏYİRDİ

1969-cu ilin isti yay günləri idi. İnstitutun ikinci kursunu bitirib yay tətilinə çıxmışdım. Tezliklə Azərbaycan rəhbərliyinin dəyişəcəyi haqqında söz-söhbətlər gəzirdi. Amma heç kim bilmirdi ki, ölkəmizin başçısı kim olacaq. Doğrusunu desəm, bu məsələ adi bir tələbə kimi məni o qədər də maraqlandırmırdı. Axı, o zamanın tələbələri indikilər kimi deyildilər, biz siyasətdən uzaq insanlar idik.

...Heydər Əliyev 1969-cu ilin 14 iyulunda Azərbaycan KP MK-nın birinci katibi seçildi. İyulun 15-də hamı 46 yaşlı cavan rəhbərdən danışırdı. İyirmi gün sonra Azərbaycan KP MK-nın 5 avqust tarixli növbədənkənar plenumunda Heydər Əliyev nəinki sovet Azərbaycanının vətəndaşlarını, bütün ittifaqı şoka salan proqram xarakterli çıxış etdi. **Təsəvvürünüzə gətirin, Azərbaycanın rəhbəri ölkədə rüşvətxorluğun tüğyan etdiyini, vəzifəli şəxslərin məsuliyyətsizliklərini, onların qanun pozuntularına yol verdiklərini, cəmiyyətdə sosial ədalətin pozulduğunu, fəhlə və kəndlilərin hüquqlarının lazımınca müdafiə edilmədiyini açıq-aşkar deyirdi.** Bu, dünyanın gərdişindən hələ tam müfəssəl baş açmayan mənim kimi 19 yaşlı gənc üçün deyil, yaşlı nəsil üçün də gözlənilməz və heyrətamiz təsir bağışlayırdı. Çünki o günə kimi 49 il ərzində mövcud olan sovet rejimində heç bir rəhbər cəmiyyətdə baş verən neqativ halları, ictimai-sosial prosesləri, rüşvətxor, sərişdəsiz məmurların əsil simasını belə aydınlığı ilə ifşa etməmişdi.

Sentyabr ayında dərslərimiz başlayanda auditoriyalarda hamı yeni rəhbərdən danışırdı. Məsələn, rəhbərin gizli şəhəri gəzməsi, mağazalara girməsi, qiymətlərlə maraqlanması... hamıya təəccüblü görünürdü.

Bir tələbə yoldaşımın danışdığı əhvalat isə həmin dövrdə rəhbər qətiyyətinin və ədalətin xofunun mövcudluğunu tam aydınlığı ilə göstərirdi: Tələbə yoldaşımın mağaza müdiri işləyən əmisi ondan Heydər Əliyevin

şəklini istəyirmiş. O da Heydər Əliyevin şəkli olan qəzeti götürüb əmisinin yanına aparıb və onun məqsədini soruşub. Mağaza müdiri qardaşı oğluna bir az utancaq formada cavab verib ki, "əşşi, bu yeni birinci katib canımıza vəlvələ salıb. Pıştaxta altında nə bir mal saxlaya bilirik, nə də malı baha sata bilirik. Bütün dükanları gəzir, "köhnə bazara təzə nirx qoymaq" istəyir. Onun şəkli mənə ona görə lazımdır ki, tanıyım, birdən buralara da gələr".

Heydər Əliyevi bir müddətdən sonra hamı tanımağa başladı və bu gənc rəhbər uzun onilliklər boyu rüşvətxorluq, vəzifə məsuliyyətsizliyi, sosial ədalətin kobud şəkildə pozulması kimi "bazarlara" nəinki "nirx" qoydu, bu "bazarları" dağıtdı...

70-ci illərin əvvəllərində mətbuatda çalışırdım - Heydər Əliyev və onun fəaliyyəti ilə daha yaxından tanış olmaq imkanım var idi. Heydər Əliyev rayonları gəzirdi, təsərrüfatlarda olurdu, bütün problemlərlə şəxsən özü maraqlanır və şəxsən özü həll edirdi. Həmin dövrdə fəhləyə, kolxozçuya, bir sözlə, bütün əmək adamlarına zəhmətlərinə görə layiq olduqları qiymətləri verirdi.

Heydər Əliyev cəmiyyətin yeni sosial vicdanını, əxlaqını müəyyənləşdirirdi. O, insanın zəhmətlə ucalmasının mümkün olduğunu minlərlə əmək qəhrəmanının simasında təsdiq etdirirdi. O, cəmiyyətdə haramla halalın konkret sərhədini cızır və halalla haramın nəticəsinin nə olacağını real insan talelərində əks etdirirdi.

70-ci illərdə Azərbaycan nə qazandı? Mən yüzlərlə yeni müəssisənin açılmasını, kəndlərə şəhər siması gətirilməsini, yeni istehsal sahələrinin yaradılmasını, neft, qaz, kimya sektorlarının ittifaqda öncül yerə çıxarılmasını saysız-hesabsız faktlarla xatırlamağa ehtiyac duymuram. Çünki Heydər Əliyevin şəriksiz müəllifi olduğu bu nailiyyətlər hər birimizin gözü qarşısındadır və bugünkü uğurlarımızın da bünövrə daşlarıdır.

Yaradıcı insan kimi məni Heydər Əliyev şəxsiyyətində ən çox cəlb edən xüsusiyyət onun malik olduğu cəsarət, fədakarlıq, qətiyyət, humanizm, mərhəmət, əsil vətəndaş mövqeyi, azərbaycançılıq hissləridir. Altmışıncı illərin sonları indi də yadımdadır. Ağdaşın bir kəndindən Bakıya oxumağa gələn gənc üçün buranın Azərbaycan paytaxtı, yoxsa Rusiyanın hansısa bir vilayəti olduğunu aydınlaşdırmaq çox çətin idi. Çünki insanların çoxu rusca danışırdı. Bu dildə o qədər də yaxşı danışa bilmə-

yən mənim kimi gənclər nəinki küçədə, ictimai yerlərdə, mədəniyyət obyektlərində, hətta dərs auditoriyalarında belə rişxəndə məruz qalırdıq.

Heydər Əliyevin 70-ci illərdə azərbaycanca danışmaqla bağlı öz məmurlarına, elm, sənət, ədəbiyyat xadimlərinə rəsmi göstəriş verməsi, özünün, demək olar ki, bütün tədbirlərdə məhz doğma ana dilində danışması bizim kimi gənclər üçün böyük dəstək, istinadgah idi, ən nəhayət, ürəyimizdən "tıkan çıxarırdı".

1978-ci ildə ümummilli liderimiz Azərbaycan dilini dövlət dili kimi Konstitusiyada təsbit etdirəndə isə artıq hər birimiz rahat nəfəs aldıq: Biz azərbaycanlı olduğumuzu daha gizlətmirdik! Biz öz vətənimizdə, nəhayət ki, öz dilimizdə danışa bilərdik! Biz Azərbaycan dilindən dövlət dili kimi istifadə edə bilərdik! Bəlkə də indi müstəqilliyimizin 13-cü ildönümü ərəfəsində olan, imzasını millətlərin imzası içərisində ləyaqətlə həkk etdirən Azərbaycan dövlətinin gənc vətəndaşı üçün bu hisslər tam aydın ola bilməz. Ancaq nəzərə almalıyıq ki, Heydər Əliyevin Azərbaycan dilinə, daha doğrusu, Azərbaycan varlığına, mənəviyyatına, ruhuna, milli-mənəvi dəyərlərimizə olan ehtiramının bu təzahürü saxta beynəlmiləlçilik təbliğatının bar-bar bağırdığı bir zamanda baş verirdi.

Heydər Əliyev Azərbaycan ədəbiyyatını "sovet şineli"ndən çıxardı! O, ədəbiyyatımıza Azərbaycan insanının obrazını gətirməyi tövsiyə etdi və buna nail oldu. O, ədəbiyyatımıza milli hisslərlə yanaşı, həm də tarixi ədalətsizliyin ən bariz nümunəsi olan, milli duyğularımızın ən canlı faciəsi kimi yaşanan Cənub mövzusunu gətirməyə müvəffəq oldu. Heydər Əliyev ədəbiyyat xadimlərinə sətiraltı ifadələrlə başa saldı ki, yaradıcılıqlarını bayağı sovet quruculuğu, kolxoz formalaşdırılması, sovet adamının yetişdirilməsi, beynəlmiləlçi təbliğatın aparılması kimi mövzularla məhdudlaşdırmasınlar. Yazıçılar, şairlər sovet insanının faciələrini, problemlərini, kolxoz quruculuğunun nöqsanlarını, beynəlmiləlçi təbliğatın acı nəticələrini öz yaradıcılıqlarında daha aydın əks etdirsinlər - bu idi Heydər Əliyevin ədəbiyyat xadimlərindən əsas umacağı və böyük fədakarlıqlar hesabına yaranmasına nail olduğu əsl Azərbaycan ədəbiyyatı!

Heydər Əliyev harada vardı, orada mütləq haqq-ədalət vardı. Azərbaycanın ən ucqar kəndindən ən xırda məişət probleminə görə rəhbərə müraciət edən kolxozçu bilirdi ki, uzağı bir aydan sonra onun istəyi təmin olunacaqdır. O dövrdə çoxunun "Heydər Əliyev xofu" kimi qiymətləndirdiyi hisslər əslində haqqın xofu, ədalətin təntənəsi idi. Heydər Əliyevin "Literaturnaya qazeta"da çap olunan "Qoy ədalət zəfər çalsın!" adlı müsahibəsində adi fikirlər əks olunmamışdı. Heydər Əliyev 5 avqust 1969-cu il plenumunda Azərbaycan cəmiyyətinin əsas nöqsanları kimi müəyyənləşdirdiyi problemləri lokal miqyasdan çıxardaraq bunu sovet cəmiyyətinin, kommunist quruluşunun ümumi qəbahəti kimi bəyan edirdi. Heydər Əliyev artıq dünyanın altıda birinə sahiblik edən ittifaqın haqq-ədalət mücahidi deyildi, o, dünyanın altıda birində haqqın, ədalətin bərqərar olunması üçün mücadilə aparan bir Kişi idi!

Təsadüfi deyildi ki, artıq uçurum qarşısında olan sovet quruluşuna yeni nəfəs gətirmək, ədalətsizlik məngənəsində çapalayan cəmiyyətdə haqqı bərpa etmək istəyən Yuri Andropov 1982-ci ildə Heydər Əliyevi İttifaq səviyyəsində rəhbər vəzifəyə - Nazirlər Soveti sədrinin birinci müavini postuna gətirdi. Heydər Əliyev yalnız "Kremlə sancılan əzəmətli türk bayrağı" deyildi, o, həm də dünyanın altıda birini yeni sistemlə, təkmil idarəçilik mexanizmləri ilə təzədən formalaşdırmaq istəyən komandanın rəhbərlərindən idi. Lakin başlanmış iş yarımçıq qaldı. Yuri Andropovun ölümü, bu yazıda adını çəkmək istəmədiyimiz nakəsin hakimiyyətə gəlməsi Heydər Əliyevin missiyasının davamına mane oldu. Bu qüdrət sahibinə qarşı başlanmış Kremldaxili intriqalar, məkrli kampaniyalar Heydər Əliyevin istefa ərizəsi yazması ilə nəticələndi. Ancaq Heydər Əliyevin "İttifaq əhəmiyyətli fərdi təqaüdçü" statusu bu şəxsin varlığını, siyasi mövcudluğunu unutdurmaq gücündə deyildi. Həmin illərdə rəsmi kabinetlərdən çıxarılan Heydər Əliyevin şəkilləri atılmırdı, sadə vətəndaşların evlərində ən layiqli yerlərdən asılırdı, demək olar ki, bütün sürücülərin maşınlarının kabinələrinə vurulurdu. Bu idi Heydər Əliyevə millətinin münasibəti! Xalq Heydər Əliyevi heç vaxt unutmurdu!

1988-ci ildə baş verən məlum hadisələrdən sonra isə bu böyük azərbaycanlını hamı axtarmağa başladı. Çünki nicat onda idi.

Heydər Əliyevə qarşı cılız xislətli adamlar hər cür rəzalət aparırdılar. Bütün qəzetlər, televiziya, radio "əliyevşina" barədə yazırdı, danışırdı. Ancaq bir fakta belə istinad edə bilmirdilər! İttifaqın baş nadanı Azərbaycanın baş təlxəyi ilə birlikdə bütün hüquq-mühafizə orqanlarını, istintaq-əməliyyat işçilərini ayağa qaldırsalar da, bütün sovet aparatı Heydər Əliyevə qarşı kompromat axtarışına çıxsa da, 1964-cü ildən rəhbər vəzi-

fələrdə işləyən bu şəxsiyyət barəsində bir cinayət faktı belə tapa bilmədilər. Bu idi Heydər Əliyev təmizliyi, saflığı, düzgünlüyü!

Həmin dövrdə bir qrup ziyalı ilə bərabər Azərbaycanda Heydər Əliyevin hüquqlarının müdafiəsi ilə məşğul idik. Mən bu işin həm də mətbuat üzrə əlaqələndiricisi sayılırdım. Hər gün onlarla məktub alırdıq. Bütün məktublar istisnasız olaraq sadə vətəndaşlar - kolxozçular, fəhlələr, təqaüdçülər tərəfindən göndərilirdi. Biz həm Heydər Əliyev kimi böyük qüdrət sahibini müdafiə etməkdən qürur duyur, həm də yüz minlərlə həmvətənimizin dəstəyindən mənəvi rahatlıq tapırdıq.

Heydər Əliyevin işığına toplaşanlar, onun böyüklüyünü, dahiliyini çəkinmədən, qorxmadan etiraf edənlər sırasında vəzifəli şəxslər yox idi. Bəli, Heydər Əliyev yalnız sadə vətəndaşların dəstəyinə güvənirdi, onun bu korrupsiyalaşmış, xalqın mənafeyinə zidd fəaliyyət göstərən məmurlarla heç bir siyasi-mənəvi bağlılığı yox idi.

Heydər Əliyev həmişə olduğu kimi, yenə də xalqın adamı idi, xalq da Heydər Əliyevin xalqı idi.

1990-cı ilin 22 iyununda Heydər Əliyev Moskvadan Azərbaycana qayıtmağa müvəffəq oldu. Heydər Əliyev yenə də öz missiyasında idi - o, xalqın sözünü deyirdi, millətin haqqını tələb edirdi, dövlətin mənafeyini qoruyurdu. Azərbaycanın gələcəyini düşünürdü.

90-cı illərin əvvəllərində Heydər Əliyev 1969-cu ildə olduğu kimi, yenə də qətiyyətli və tədbirli idi, 1982-ci ildə olduğu kimi, yenə də haqq-ədalət mücahidi idi. Ali Sovetin tribunasında sağından komblokun, solundan isə demblokun bağırtılarına baxmayaraq, Azərbaycanın səsini ucaldırdı. AXCP-dən olan deputatların belə, ittifaqın saxlanması ilə bağlı güzəştə getdiyi məqamda yalnız Heydər Əliyev müstəqilliyin tərəfdarı kimi çıxış edirdi. Artıq o, yüz minlərlə insanın xilaskar timsallı rəhbəri idi.

Heydər Əliyevin özünün etirazlarına baxmayaraq, nəhayət ki, Naxçıvan MR Ali Məclisinə rəhbərlik etməyə razılıq verdi. Böyük fəlakətlərin girdabında olan bu kiçik məkana nicat, yaşamaq ümidi gətirən Heydər Əliyev Naxçıvanı erməni təcavüzündən, iqtisadi səfalətdən qurtardı. Bu kiçik ərazidə Azərbaycanın müstəqil dövlətçilik simvollarını - bayrağı, gerbi bərpa etdi, "Sovet Sosialist Respublikası" sözlərini atdı. Yalnız bu cəsarətli addımdan sonra Azərbaycan Milli Məclisi Heydər Əliyevin müəllifi olduğu bu qərarları təsdiq etməyə məcbur oldu.

Azərbaycanın bir parçası olan Naxçıvanı xilas edən Heydər Əliyevə yardım göstərmək əvəzinə, ölkə rəhbərliyi hər cür maneə yaradırdı. 1992-ci il oktyabr ayının 24-də AXC-Müsavat iqtidarının siyasi avantürası "Heydər - Xalq" vəhdətinin təntənəsi nəticəsində iflasa uğradı.

Xalq Heydər Əliyevdən tələb edirdi ki, o, qurtuluş missiyasını, siyasi fəaliyyətini Naxçıvan miqyası ilə məhdudlaşdırmasın. Belə bir ziddiyyətli ictimai-siyasi proseslərin gərdişində Azərbaycanın bütün bölgələrindən gəlmiş insanların iştirakı ilə Heydər Əliyev partiyası - Yeni Azərbaycan Partiyası təsis edildi. Heydər Əliyevin liderliyi ilə bu partiya Azərbaycanda ilk dəfə olaraq sağlam əsaslarla, xalqın mənafeyinə uyğun fəaliyyət göstərən təşkilat oldu.

Növbədə bütün Azərbaycanın xilası dayanırdı. **1993-cü ilin 15 iyunundan Azərbaycan tarixinin Heydər Əliyevin müəllifliyi ilə qurtuluş mərhələsi başlandı.** Ötən on bir il bir daha sübut etdi ki, xalq bu böyük oğluna, əbədiyaşar liderinə inanmaqda, tapınmaqda səhv etməyib.

Heydər Əliyev Azərbaycanı bütün sahələr üzrə inkişaf etdirdi, sivil dünyanın ayrılmaz parçasına çevirdi. Azərbaycana demokratiya, siyasi sabitlik, iqtisadi inkişaf, sosial rifah gətirdi, insanlara təhlükəsiz həyat bəxş etdi. Ən nəhayət, Azərbaycan durduqca hakim mövqedə dayanacaq Heydər Əliyev siyasi kursunu yaratdı! O, Azərbaycanın yalnız bu gününü düşünmədi, nailiyyətlərimizin sabahını, dövlətimizin gələcəyini müəyyənləşdirdi. Azərbaycan xalqını "Heydər Əliyevsizlik dövründə məhv olacağıq" xofundan xilas etdi - **ən layiqli varisi olan cənab İlham Əliyevi millətə bəxş etdi. O, Azərbaycana ancaq həyatını yox, oğlunu da bağışladı!**

2003-cü ilin prezident seçkiləri ərəfəsində səhhətində ciddi problemlərin yaranmasına baxmayaraq, xalq Heydər Əliyevi yenə də lideri - prezidenti kimi görmək istəyirdi. 2003-cü il oktyabr ayının 2-də xalqa müraciətində şərəfli missiyasını İlham Əliyevin davam etdirməsi üçün öz millətindən dəstək istəyən Heydər Əliyev **"Ona özüm qədər inanıram"** fikrini ifadə etdi.

15 oktyabrda seçicilərin mütləq əksəriyyəti Heydər Əliyev siyasi kursuna səs verdi - ümummilli liderinin siyasi varisini prezident seçdi. Azərbaycan xalqı bu seçimi ilə bir daha bəyan etdi ki, Heydər Əliyev siyasi kursu daim hakim mövqedə dayanacaqdır!

2003-cü ilin 12 dekabrında Heydər Əliyev bizlərdən cismən ayrıldı. Onun vəfatı da ümummilli aksiyaya - bütün xalqın hüzn gününə çevrildi.

Heydər Əliyevin dəfn mərasimində fövqəldövlətlərin rəhbərlərinin, görkəmli ictimai xadimlərin iştirakı bir daha sübut etdi ki, **dünyanın ən böyk azərbaycanlısı həm də dünyanın ən böyük şəxsiyyətlərindən biridir.**

Heydər Əliyevi tanıya bilmişikmi, onun xidmətlərini layiqincə qiymətləndirməyi bacarmışıqmı?

1969-cu ilin 15 iyulunda Bakı küçələrində hər kəsin yeni rəhbərlə bağlı düşüncələrini ifadə etməsini yada salaraq ümummilli liderimizin məzarı üstündə onun ruhuna səslənən şükranları dinlədikcə özüm üçün bir daha aydınlaşdırdım ki, Heydər Əliyev mənalı, şərəfli ömür yaşadı və bütün həyatını Azərbaycan dövlətinə, xalqına həsr etdi.

Heydər Əliyev on minlərlə insana çox yaxşılıqlar etmiş, çoxlarının əlindən tutmuş, çoxlarına kömək göstərmişdir. Onun ədəbiyyat, incəsənət xadimlərinə daim xüsusi diqqət və qayğı göstərdiyi bütün xalqımıza məlumdur. O mənə nəinki xüsusi diqqət və qayğı göstərmiş, sözün əsl mənasında, həyata qaytarmışdır.

1999-cu ildə ürək ağrılarım başlamışdı. Onda Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsində işləyirdim. Həkimlər "anjo" deyilən tibbi müayinədən keçməyimi məsləhət gördülər. Mən isə onlara Bakıya gedib-gələndən sonra müayinədən keçəcəyimi bildirdim. Bir neçə gün Bakıda qalandan sonra eşitdim ki, cənab Heydər Əliyev Klivlenddə ürək əməliyyatından sonra Türkiyənin Antalya şəhərində dincəlir. Mən də ora getdim. Heydər Əliyevlə görüşdüm. Axşam Heydər Əliyevlə gəzintiyə çıxarkən onun cəld yerişlərlə bizi arxada qoyduğunu gördüm. "Cənab prezident, neçə əməliyyat keçirmisiniz ki, sizə çata bilmirik? - deyə soruşdum. Heydər Əliyev gülümsəyərək "Siz də adınızı cavan qoymusunuz" - dedi. Heç demə, Heydər Əliyev həkimlərin tapşırığını yerinə yetirirmiş və hər gəzintidən sonra onun nəbzini yoxlayırmışlar...

Ürək ağrılarım və sabahı gün "anjo" edəcəyim barədə heç kimə heç nə demədim. İstanbula qayıdıb alman xəstəxanasında müayinədən keçdim və o dəqiqə də məni xəstəxananın reanimasiya şöbəsinə göndərdilər. Bildirdilər ki, ürək damarlarının üçü kiräclənib, qanın işləməsinə manc olur. Bu da qorxulu və ağır vəziyyət hesab edilir. Ona görə də iki saatdan sonra ürəyimdə şuntlama əməliyyatı aparılmalıdır. Mən də razılıq verdim. Başqa əlacım yox idi. Ailəm, konsulluğun əməkdaşları tələsməməyimi, bir qədər gözləməyimi məsləhət görsələr də, onlara fikir vermədim. Lakin

ürəyimdə əməliyyat aparacaq həkimin "bəlkə də əməliyyatdan sağ çıxmadı, vəziyyəti çox ağırdır" deməsini eşidəndə əməliyyat haqqında razılığımı geri götürdüm və Antalyaya, Heydər Əliyevin qaldığı iqamətgaha zəng vurdum. Telefonun dəstəyini prezidentin mühafizə xidmətinin rəisi Vaqif Axundov qaldıraraq məni dinlədi və Heydər Əliyevə məlumat verildi. Mən telefonda gözləyirdim. İki-üç dəqiqədən sonra bildirdilər, Heydər Əliyev deyir ki, Nazirlər Kabinetinə tapşıracağam, əməliyyat üçün vəsait ayırsınlar. İstəyir Klivlendə getsin, istəyirsə Londonda əməliyyat etdirsin. Mən də Londona gedib əməliyyat etdirdim. Əlbəttə, ayrılan məbləğ Azərbaycanın Londondakı səfirliyinə köçürülmüşdü və Heydər Əliyev bu yardımı göstərməsəydi, indi həyatda yox idim...

Mən sadə kənd müəlliminin ailəsində dünyaya göz açmışam. Heç zaman arxamda heç kimim olmayıb. Əzablı yollardan keçmişəm. Təkcə Heydər Əliyevdən arxa, kömək görmüşəm. Onun ölkə prezidenti olduğu dövrdə millət vəkili olmuşam, baş konsul vəzifəsinə təyin edilmişəm. Kitablarım da Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə çap olunmuş, pyesim tamaşaya qoyulmuşdur. R.Behbudov adına Mahnı Teatrında yubileyim, Respublika sarayında əsərlərimdən ibarət "Satira gecəsi" keçirilmişdir. Əziyyətlərimin bəhrəsini görəndə az da olsa sevinmişəm. Ona görə də qəlbimdə həmişə Heydər Əliyevə minnətdar olmuşam. Qəlbimizi viran qoyan xəbəri eşitdiyim gecə böyük bir faciəni yaşadım. Demək olar, sabaha qədər televiziyaların kanallarında Heydər Əliyev haqqında minlərlə kadrlara bir daha diqqətlə baxdım, onun haqqında söhbətləri dönə-dönə dinlədim, dəyərli nitqinə, məntiqli danışığına yenidən heyran kəsildim. İndi bunların hər biri bizim üçün nə qədər qiymətlidir. Neçə ay idi ki, hamımız onun xoş, nurlu simasına həsrət qalmışıq. Hamımız onun üçün darıxmışıq. Son xəbər bizi yandırıb-yaxdı. Görün, biz kimi itirdik!..

Biz Heydər Əliyevi hər gün yenidən tanıyırıq. Hər yeni uğurumuz, nailiyyətimiz bu böyük insanı daha dərindən dərk etməyimizə əsas verir. Qələbə silsilələrimiz uzandıqca isə hər dəfə Heydər Əliyevi yenidən tanıyacaq, yenidən dərk edəcəyik. Ona görə də bu gün Heydər Əliyevə qiymət verməyə tələsməyək. Çünki onun xidmətlərini, fəaliyyətini malik olduğu ucalıqda qiymətləndirməyə hələ hazır deyilik. Zaman keçdikcə bu ucalığı daha yaxından görə biləcəyik. Zaman isə həmişə Heydər Əliyevin xeyirinə işləyib!..

NURLANA ƏLİYEVA
Dövlət Pedaqoji Kollecin direktoru,
YAP Siyasi Şurasının üzvü

ƏBƏDİYAŞARLIQ FƏLSƏFƏSİ

Heydər Əliyev milli-mənəvi dəyərlərin ən böyük daşıyıcısıdır

Əksliklərin vəhdəti üzərində qərar tutan ziddiyyətli dünyamızda vaxt da insana qarşı dayanıb. Bütün ömrümüz bu «mücərrəd rəqiblə» mübarizədə keçir, ya biz vaxtı yenirik, ya da o bizi. Anın gözlənilməz zərbələrindən çox arzularımız əlçatmazlığa çəkilir, çox istəklərimizə doğru sona qədər irəliləyə bilmirik. Vaxt qarşısında acizlik həqiqəti bizimlə əbədi yol yoldaşı olur.

Amma doğrudanmı vaxt üzərində zəfərimiz mümkün deyil?! Bəs zəka və cəsarətlərinin qüdrəti ilə zamanı öz istəklərinə uyğun ram edərək vaxtı tarixə çevirmiş şəxsiyyətlər?!

Və elə bu anda istisnalar başlayır...

...Əbədiyyətə qovuşmuş böyük dühalar barədə söhbət açarkən adətən onların bu fani dünyamızda yalnız cismən bizdən ayrı olduqlarını yazırlar. Əslində isə, onlar elə cismən də bizimlə birgədirlər. O insanlar fərd olaraq hər birimizin geyim, danışıq, davranış mədəniyyətimizdə, qabiliyyətlərimizdə, adət-ənənələrimizdə yaşayırlar. Çünki biz bu dəyərləri, qabiliyyətləri çox, ya az, fərq etməz, bacardığımız qədər onlardan, məhz onlardan əxz etmişik. Göz önündəki ən xoş reallıqlarda onların ürəyi döyünür. Çünki bu reallıqlar həmin şəxsiyyətlərin zəkasından, qurucu əməllərindən doğulub. Maddi aləmdə ən gözəl olan nə varsa, o, həmin dühaların cisminin bir parçasıdır. Bizi əhatə etmiş zamanda yaşayan tarixi şəxsiyyətləri zamanın müəlliflərı adlandırsaq, bu, fəlsəfi qanunauyğunluqlara zidd olmayacaq....

Dünyanın Azərbaycan adlı gözəl məkanında evlərin üzünün Günəşə doğru binə edilməsi, çay sularının axıb-daşıb sonda Xəzərin zümrüd hüdudsuzluğuna qovuşması kimi həyat mənzərələri fonunda bir ali həqiqət də ucalır. Bu həqiqət daxili dünyamızın əbədi sakininə çevrilmiş bir obraz üzərində intişar tapıb...

Konkret insanlar haqqında düşünərkən təsəvvürdə müəyyən assosiasiyaların yaranması təbii-psixoloji hadisədir. Çox maraqlıdır ki, neçə illər öncə də Heydər Əliyev barədə fikirlərimdə o həmişə öz tunc heykəli ilə yanaşı dayanırdı. Bəli, ulu öndər Heydər Əliyev hələ sağlığında ikən ürəklərdə öz heykəlini ucalda bilmişdi.

Şəxsiyyətin fəaliyyət göstərdiyi tarixi proses, bütünlükdə, böyük epoxalar kimi dövrdə təcəssüm olunan ümumi başlanğıca malikdir. Böyük hadisələr özəl, ayrıca əməllərdən baş vermir, bəzən tam kortəbii qaydada, ümumi şüur, ümumi instinktlərin və tələbatların təsiri altında meydana gəlir. Lakin bu heç də ümumən kütlənin fonunda fenomen şəxsiyyətin rolunu azaltmamalıdır. Çünki tarixdə hər şey şəxsiyyət tərəfindən, şəxsiyyət vasitəsilə həyata keçirilir. Tarixi hadisələrin ciddi təhlili zamanı görürük ki, ideyalar məhz şəxsiyyətlərdə təcəssüm olunur. Bəzi hallarda isə şəxsiyyət ideyanın rəmzinə, nişanına çevrilir. Heydər Əliyev adında təcəssüm edən ideya müstəqil, demokratik Azəpbaycan dövləti, inkişafa doğru hər gün bir qədəm də irəliləyən sivil bir xalqdır. O, bütün ömrünü bu ideyanın gerçəkləşməsinə həsr etmişdi...

Dünya şöhrətli rəssam Salvador Dalinin vaxtilə böyük rus çarı I Pyotr haqqında səsləndirdiyi fikirlər bu gün Heydər Əliyev şəxsiyyəti barədə düşüncələrdə tam yerinə düşür. Azərbaycanın ümummilli lideri Heydər Əliyev bəşər sivilizasiyasının indiyə qədər tanıdığı ən böyük rəssamlardan biri və bəlkə də birincisi idi. Heydər Əliyev öz arzularında, təxəyyülündə qurub yaratdığı Azərbaycanı olduğu kimi, vətənimiz boyda füsunkar bir tablo tək, əlvan boyalarla bu müqəddəs torpaq üzərinə köçürməyi bacarmışdı. Əl-ayağa dolaşanların cılız mancələrinə baxmadan, bütün şər-şəbədələrin, çəkişmələrin, dartışmaların fövqündə dayanaraq...

Vaxt öz mahiyyətindən irəli gələrək bütün narazılıqları, umu-küsüləri, giley-güzarları, qarşıdurmaları tez bir zamanda arxiv materialına çevirir. Müstəqil Azərbaycan dövləti, möhkəm özülə söykənən dövlətçiliyimiz, dünyaya açılmış qapılar, millətimizi uğurlu gələcəyə doğru aparan aydın, nurlu yol... Bizə bunlar qalır. Bu reallıqların hər birində ulu öndər Heydər Əliyevin imzası var. Və bu reallıqlar Heydər Əliyevin ruhunu xalqın ruhuna qovuşdurub - o, xalq üçün yaratdığı dəyərlərdə, ondan həyat dərsi, millətə, dövlətə sevgi nümunəsi, siyasi mədəniyyət, ədəb qaydaları əxz etmiş milyonların xatirəsində yaşayır və yaşayacaqdır... Bizlər hər addımda bu

fenomen şəxsiyyətin nəcib əməllərinin gerçək nəticələri ilə qarşılaşır və Heydər Əliyevin öz xalqına, dövlətinə böyük sevgisinə iman gətiririk.

Çağdaş Azərbaycanı Heydər Əliyevin şah əsəri adlandıranlara tam haqq qazandırıram. Heydər Əliyev Tanrının hər xalqa min ildə yalnız bir dəfə göndərdiyi nadir şəxsiyyətlərin ön sırasında dayanıb.

Heydər Əliyev bir zirvədir - ona doğru yalnız can atmaq olar. Əgər cəhdlərində davamlı olsan, bu zirvəyə doğru gedən yolda ən böyük nailiyyətlərin sahibinə çevrilə bilərsən. Lakin mənzil başına yetişmək istəyin bütün hallarda uğursuzluqla qarşılaşacaq. Çünki Heydər Əliyevi öyrəndikcə, onun şəxsiyyətinin qərar tutduğu mənəvi zirvə göz önündə daha da ucalır, bu zirvəyə aparan yollar daha da çətinləşir. Heydər Əliyev adının əhatə etdiyi mənəvi areal hüdudsuzdur. Bu adın ifadə etdiyi şəxsiyyət amlinin nəhəngliyinin miqyasını müəyyənləşdirə bilməzsən. İllər ötdükcə, bu miqyas böyüyür və artır...

Filosof Heraklit deyirdi ki, eyni çaya iki dəfə düşmək mümkün deyil. Bu əslində tarix və şəxsiyyət münasibətlərində də belədir. Heydər Əliyevi tarix yetişdirmişdi. Böyük insanı yetişdirən tarix bir daha təkrarlanmayacaq. Zamanın şərtləri isə çox dəyişkəndir. Kimsə Heydər Əliyev şəxsiyyətinə alternativ olmaq iddiasına düşə bilər. Amma vaxt yolun başındaca bu iddialar üzərindən bir xətt çəkir. Heydər Əliyevlə eyni dövrdə yaşayanlara, onu öz gözləri ilə görənlərə, ondan nələrisə öyrənənlərə isə Tanrı tərəfindən bu imkanla birgə fəxarət payı da verilib. Nə vaxtsa yaşımızın ixtiyar çağlarında gələcək övlad-uşaqlarımız məhz Heydər Əliyevlə eyni illəri yaşadığımız, eyni anları bölüşdüyümüz üçün bizə qibtə ilə baxacaqlar...

Heydər Əliyev şəxsiyyəti bütün sistem və ölçülərin fövqündədir. Fəqət bu ucalıq onun böyük dövlət xadimi, böyük ictimai xadim və bütün bunların hamısından da əvvəl Böyük Azərbaycanlı olması faktını qətiyyən kölgədə saxlamırdı. Bəli, Heydər Əliyev hər şeydən əvvəl zəmanəmizin ən Böyük Azərbaycanlısı idi və onun idealları bu həqiqətdən qida alırdı. O, arzularında yaşatdığı Azərbaycanı hələ birinci hakimiyyət dönəmindən qurmağa başlamışdı. O, Azərbaycan dövlətinin rəhbəri kimi fəaliyyətə başladığı ilk illərdən bütün islahatlarını bir həqiqətin istisnasız təsdiqinə yönəltmişdir: o, qeyri-müstəqil bir respublikanın təkcə bir başçısı yox, Liderdir. Azərbaycan xalqının ümummilli lideri...

Ölkəyə rəhbərlik missiyasını üzərinə götürdüyü ilk günlərdən Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin, iqtisadiyyatının, səhiyyəsinin inkişafı üçün Heydər Əliyevin misilsiz fəaliyyəti son dərəcə əhəmiyyətli nəticələri ortaya qoydu. Bu işləri ona qədərki heç bir rəhbərlə müqayisə edilməsi mümkün olmayan bir enerji, yüksək peşəkarlıq və uzaqgörənliklə həyata keçirdi.

Müxtəlif toplantılarda, görüşlərdə, müzakirələrdə onun yüksək məzmuna malik nitqləri, çıxışları və söhbətləri, verdiyi göstərişlər yalnız müdrik bir dövlət başçısının öz xalqının elminə, mədəniyyətinə, iqtisadiyyatına qayğısının parlaq ifadəsi olmaqla məhdudlaşmırdı. Bütün bunlar həmin sahələrin hər birinin inkişafını nəzərdə tutan, mükəmməl proqram, konsepsiya idi ki, onların bəhrəsini bizlər müstəqil Azərbaycanımızda görürük. Bu hər kəs tərəfindən etiraf edilən bir həqiqətdir ki, Heydər Əliyevin rəhbərliyə başlaması ilə sovetlər dövrünün son onilliklərində Azərbaycan cəmiyyəti millli şüurun formalaşması baxımından daha aktiv, məhsuldar mərhələyə qədəm qoymuş, ötən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərindən etibarən Azərbaycan bütün sahələr üzrə görünməmiş sürətlə inkişaf etmiş, ədəbiyyat, incəsənət, elm, təhsil məsələləri milli özünüdərkin çevik komponentlərindən birinə çevrilmişdi.

Fəqət Tanrının onun üzərinə qoyduğu müqəddəs missiya tək bununla tamamlanmayacaq, Heydər Əliyev 90-cı illərin əvvəllərində yenicə müstəqillik qazanmış Azərbaycanımızın tələtümlü ünlərində qüdrətli bir xilaskar kimi özünü yetirərək dövlətimizi, xalqımızı oddan-alovdan, qandan-qadadan qoruyacaq, bizi inkişafa, bəşəri dəyərlərə doğru aydın, işıqlı gələcəyə inamla süslənmiş rahat bir yola çıxaracaqdı...

Heydər Əliyev adı məğlubiyyət sözünü tarixin heç bir əyyamında yaxına buraxmayıb. Ona qarşı antitəbliğat kampaniyaları təşkil ediblər, fürsət düşdükcə dəstə-dəstə, qrup-qrup üzərinə hücum çəkiblər, məqamdan yararlanıb hüquqlarını pozmağa, ona ləkə vurmağa çalışıblar. Amma Heydər Əliyevi məğlub edə bilməyiblər, bunu heç kim bacarmayıb. Zaman kimsə Heydər Əliyevi məğlub qiyafədə görmək, «Heydər Əliyev mənə məğlub oldu» deyə tarix qarşısında öyünmək fürsəti verməyib. Heydər Əliyev məğlubedilməz şəxsiyyət idi! O, dünyaya sanki qələbələr üçün gəlmişdi. Azərbaycan xalqı ən çətin, mürəkkəb vəziyyətlərdə, ən çıxılmaz anlarda da arxayınlıq hissini itirmirdi. Çünki bütün mürəkkəblikləri

Heydər Əliyev şəxsiyyətinin qüdrəti qarşısında son dərəcə bəsit görünürdü. Ən azı düşünür və qəribə bir əminliklə Heydər Əliyevin ən qorxulu situasiyalar üzərində növbəti zəfərini alqışlamağa hazırlaşırdın və ümummilli liderin bütün maneələri dəf edib keçəcək addım səslərini eşidirdin.

İndiyə qədər fəlsəfi ədəbiyyatlarda şəxsiyyət amilinin müxtəlif şərtləri müəyyənləşdirilib. Şəxsiyyət o adamlara deyilir ki, onların mahiyyəti hər şeyi əhatə edir. Parlaq fərdi xüsusiyyətlərə malik hər kəs heç də şəxsiyyət sayıla bilməz. Adamların təkcə istedadı da burada köməyə yetişmir. Çünki çoxlu sayda ən istedadlı, nadir qabiliyyətə malik insanlar var. Lakin bu kəslər şəxsiyyət amilinin onların adı üzərində reallaşması üçün tələb olunan müqaviməti, qüdrəti ortaya qoymaq imkanına malik deyillər. Axı, şəxsiyyət hər şeydən əvvəl mənəvi varlıqdır. Elə istedadlı siyasətçilər, şairlər, rəssamlar, heykəltəraşlar var ki, onlar təbiətin bəxş etdiyi bu vergini bütünlüklə şəxsi faydasına, maddi qazanc əldə etməyə yönəltdi-yindən çoxları onların şəxsiyyətini şübhə altına alır. Hansısa filosof şəxsiyyəti hərəkətlərin və hərəkətlər imkanının vəhdəti kimi xarakterizə etmişdir. Şəxsiyyət bütövdür, bura ruh da, könül də, bədən də daxildir...

...Heydər Əliyev şəxsiyyətindən söhbət gedərkən, bura Azərbaycanı da əlavə etmək lazım gəlir. Çünki Heydər Əliyev şəxsiyyəti çoxdan, lap çoxdan Azərbaycanla bütövləşmiş. Heydər Əliyevin ruhu Azərbaycana, Azərbaycanın ruhu Heydər Əliyevə keçmişdi. **«Azərbaycan mənim ürəyimdir, nəfəsimdir, həyatımdır»** deyirdi ümumilli liderimiz! Və bu deyim yalnız onun dilində reallıqla tam üst-üstə düşürdü. Yalnız onun belə deməyə haqqı çatırdı. Çünki Azərbaycan gerçəkdən də Heydər Əliyevin ürəyi, nəfəsi, həyatı idi...

Onun Azərbaycanın milli-mənəvi dəyərlərinə ruhən bu qədər vurğunluğunun mübhəmliklərini də görünür, elə bu bağlılıqda axtarmaq lazımdır. Qloballaşan dünyada gündən-günə güclənən sivilizasiyalararası müharibələr milli-mənəvi dəyərlər məsələsini çağdaş zamanın ən aktual məsələlərindən birinə çevirməkdədir. Problemi aktuallaşdıran başlıca amil budur ki, total əxlaqın və çoxtərəfli inteqrasiyanın diqtələri bir çox hallarda əsrlərin mirasına - milli mənəvi dəyərlərə qarşı yönəlir və belə bir təhlükə Azərbaycanın da başı üzərində dolaşa bilərdi. Lakin Heydər Əliyevin öz vətəninə, xalqına bağlılığı bu təhlükə önündə də əzəmətli sipərə çevrilmiş oldu. Ümummilli liderin milli-mənəvi dəyərlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərindəndir.

Heydər Əliyevin milli-mənəvi dəyərlər məsələsində irəli sürdüyü prinsiplər, bu problemin həlli ilə bağlı müəyyənləşdirdiyi aydın xətt, atdığı addımlar bəzən əsl mahiyyəti üzrə şərh olunmur və elmi yanaşmalarda müəyyən yanlışlıqlara yol verilir. Ümummilli liderin bu sahədə xidmətlərinin sadəcə olaraq Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, elminə, təhsilinə, səhiyyəsinə yüksək qayğı kimi səciyyələndirilməsi bu işlərin gerçək miqyası üçün kifayət qədər dar çərçivədir. Çünki görülən bu işlər sadəcə qayğı olmaqla məhdudlaşa bilməz. Bütün bunlar ulularımızdan bizə gəlib çatan müqəddəs irsin göz bəbəyi tək qorunaraq gələcək nəsillərə əmanət edilməsi, Azərbaycan şüurunun, mentalitetinin, əxlaqının bütün dünyada təbliği, qəbul olunması üçün atılan düşülmüş, məqsədyönlü addımlardır.

Cağdaş nəzəriyyələr bu cür meylləri adətən mühafizəkarlıq nümunəsi kimi nəzərdən keçirir. Amma Heydər Əliyevin böyüklüyü ondadır ki, milli ənənələrimizə bu dərəcədə sadiqlik onun timsalında konservatizm meyli kimi görünmür. Cünki milli dəyərlərə sadiqlik Heydər Əliyevin demokratizminin inkarına yönəlməyib. O, öz düşüncələrində çox böyük ustalıqla milli və liberal dəyərlərin dialoqunu qura bilib.

Öz müsahibələrinin birində Heydər Əliyevin hələ keçmiş SSRİ rəhbərliyində təmsil olunarkən onun taleyindəki müsbət rolundan söhbət açan məşhur rus dissident yazıçısı, Nobel mükafatı laureatı Aleksandr Soljenitsının məlum etirafını xatırlayıram. Bu, ümumilikdə Heydər Əliyev demokratizminin etirafıdır. Bəli, Heydər Əliyev zəmanəsinin ən böyük demokratı idi. O, demokratiya anlayışının özünə də bir millilik gətirmişdi. Heydər Əliyevin demokratiya barədə aşağıda təqdim olunan fikirləri dünyanın ən dahi filosoflarının demokratiyaya dair baxışlar sisteminə aid edilə bilər: **«Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir».**

Bu, son qərinələrin «isti», «soyuq» müharibələrində əsl məzmununu itirərək dünya nəhənglərinin əlində gizli müstəmləkəçilik siyasəti alətinə çevrilmiş demokratiyanın öz məzmununa qaytarılması üçün bütün dünyaya

ünvanlanmış bir çağırışdır. Bu, gizli işğal siyasətini indi demokratiya niqabı arxasında həyata keçirməyə başlayanlara ünvanlanmış bir tənədir...

Kənar mədəniyyətlərlə təmas anlarında yabançı həyat tərzlərindən məhz nələri əxz etməli, nələri götürüb, nələri kənara qoymalı? Dünyanın ən böyük ideoloqları əsrlərcə bu suala cavab axtarmışlar, amma birmənalı cavab yenə də ortada deyil. Heydər Əliyev isə qüdrətli bir strateq kimi bu suala real addımlarla cavablandırmış oldu. Azərbaycanın qapıları ən ali bəşəri dəyərlərin üzünə məhz onun əlləri ilə açıldı. Lakin bu qapıdan həyatımıza daxil olan yeniliklər min illərcə tariximizlə yol gələn, bizi etnoslar içrə tanıdan dəyərlərlə mübarizəyə girişə bilmədi və yad mədəniyyət elementləri neçə illər sonra da milli ənənələr üzərində hakim mövqeyə sahib ola bilməyəcək. Çünki seçim əvvəldən dürüst aparılıb...

Heydər Əliyevin bu sahədə müəyyən etdiyi prinsiplərə hansı səmtdən yanaşırsan, yanaş fərq etməz, bu prinsiplərdə bütün cəhətlər üzrə dəqiq uzlaşmalar görəcəksən. Heydər Əliyevin irəli sürdüyü prinsiplər mahiyyət etibarilə Azərbaycan millətinin mənafelərini əsas götürür. Fəqət, eyni zamanda bu prinsiplər hansısa millətin mənafelərinə qarşı da yönəlməyib. Ulu öndərimizin irəli sürdüyü prinsiplər dünya xalqları sırasında azərbaycanlıların layiqli yerini müəyyənləşdirir. Lakin məlum prinsiplər bu sırada qeyri-millətlərin yerini də inkar etmir. Təsadüfi deyil ki, Azərbaycanda qonaq olan əcnəbilər bu Şərq ölkəsində müxtəlif dünyagörüşlərin, dini inancların, siyasi əqidələrin, fərqli mədəniyyətlərin bu dərəcədə normal, sivil dialoquna heyranlıqlarını gizlədə bilmirlər. Bu dialoq, ilk növbədə, böyük öndərimizin düşüncələrində qurulmuşdu. Keçmişin qiymətli əmanətlərini çağdaş təsəvvürlərin işığında təqdim etməyə, yaxud çağdaş təsəvvür və dünyagörüşlərini tarixin ərməğanları fonunda nəzərdən keçirməyə yalnız Heydər Əliyev nail ola bilərdi. Və o, buna nail oldu...

Sitayış etdiyimiz İslam dininin Azərbaycan insanının şüurunda kompleks halda, öz mahiyyətinə uyğun, məqsədli yozumların müdaxiləsinə uğramadan düzgün dərki ümummilli liderimiz üçün xalqımızın mənəvi dünyasında nəzərə çarpan ən aktual problemlərdən idi. Heydər Əliyev ötən yüzillik tariximizin islamşünaslıq elminin mənimsənilməsi baxımından bizim üçün itirildiyini böyük təəssüflə xatırlayır və ölkədə bu elmin inkişafını son dərəcə vacib sayırdı. Heydər Əliyevin baxışlar sistemində din yalnız ruhi, mənəvi dünyanın pəncərəsindən boylanır. Ümummilli liderimiz dinin siyasi alətə çevrilməsinə, insanların müqəddəs inanclarının siyasi proseslərin təsiri ilə tam adiləşib dəyərini itirməsinə heç vaxt imkan vermədi. Heydər Əliyev bu inancları bütün siyasi proseslərin fövqündə saxladı və qorudu...

Özümüzdən də xəbərsiz yaradılışımızdan bizimlə birgə ali bir duyğu doğulub köksümüzün altında göyərib boy göstərir. Həyatın əlavələrinə həmahəng gün keçdikcə daha da əlvanlaşan, daha da müqəddəsləşən, hiss və düşüncələrimizə hakim kəsilən o duyğu ən dar məqamlarda ən yaxın köməkçimizə çevrilir. Həyatdan əlimizi üzəndə o duyğu əlimizdən tutur, inamımızı, istinadgahımızı itirəndə o duyğu bizim üçün inama, istinadgaha çevrilir. Və nə vaxtsa o duyğunu Sevgi adlandırırıq. Mental yaddaşımız Leyli və Məcnun, Əsli və Kərəm, Yusif və Züleyxa, Tahir və Zöhrə, İlham və Fərizə misalında ilahi sevginin mükəmməl nümunələrini xatırlayır. Heydər Əliyev öz ömür-gün yoldaşı, mərhum akademik Zərifə xanıma olan sonsuz sevgisi və bu sevginin etirafı ilə mənəviyyat tariximizdə bütöv nəsillərə örnək ola biləcək bir sevgi rəvayəti də yaratdı.

Ümummilli liderimizin Azərbaycanın 90-cı illərin əvvəllərində ağır tənəzzül dövrünü yaşayan çağdaş ədəbiyyatımızı, mədəniyyətimizi, təhsilimizi, səhiyyəmizi necə dirçəldib ayağa qaldırdığını yada salıram. Onun xalqın öndə gedən simalarına isti münasibətini göz önünə gətirirəm. Heydər Əliyevin xalq mərasimlərində, teatr tamaşalarında, konsert proqramlarında iştirakını, insanlarla ünsiyyətini, məcburi köçkünlərin toy məclisində qol qaldırıb rəqs etməsini, uşaqlara sonsuz sevgisini xatırlayıram. Qəlbim riqqətə gəlir.

«Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam» deyən ümummilli liderimiz sanki Azərbaycana, azərbaycanlılara xas gözəl nə varsa, onların hamısını öz simasında bir araya gətirmiş və bununla özü də canlı Azərbaycana çevrilmişdi. Heydər Əliyev Azərbaycanın canlı təcəssümü idi sanki...

Heydər Əliyev bütün şərəfli və zəngin ömrü boyu Azərbaycanın milli-mənəvi dəyərlərinin böyük himayədarı oldu. Nə xoş ki, ümummilli liderimizin bu sahədə qoyduğu ənənələr müqəddəs bir miras kimi yenə də yaşadılır, qorunur. Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycan dövlətinə rəhbərliyinin ilk günündən bəyan etdi ki, Heydər Əliyev yo-

luna sadiq qalacaq, bu yolu layiqincə davam etdirəcək. Azərbaycan Prezidentinin fəaliyyəti bu bəyanata sadiqliyin bariz ifadəsidir. Və bu milli-mənəvi dəyərlərə münasibətdə daha aydın cizgilərlə görünür. İlham Əliyevin dövlətə rəhbərliyinin ilk günlərindən Azərbaycan ədəbiyyatına, elminə, mədəniyyətinə, təhsilinə diqqət və qayğısı əyani şəkildə sübuta yetirdi ki, o, bu sahədə də Heydər Əliyev məktəbinin prinsiplərinə sadiqdir.

Bu həqiqət hələ çoxdan, cənab İlham Əliyevin Azərbaycanın Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi dövrlərdən görünməyə başlamışdı. O günlərdə dünyanın bu mötəbər qurumunun rəhbərlərindən biri olaraq İlham Əliyevin əsas fəaliyyəti təcavüzkar Ermənistanın ümumilikdə mənəvi irsimizə vurduğu yaraları dünyaya nümayiş etdirmək, bu yaraların doğura biləcəyi fəsadların qarşısını almaq, həmin yaralardan şəfa tapmağımız üçün qətiyyətli addımların atılmasından ibarət idi.

İndi o, Azərbaycan dövlətinin prezidentidir. Və cənab İlham Əliyevin Prezidentlik fəaliyyəti bu istiqamətdə çoxsaylı addımlarla yadda qalmaqdadır. Yalnız bir faktı xatırlayaq, dövlət başçısı İlham Əliyev kiril qrafikası ilə çap olunmuş kitabların latın qrafikası ilə yenidən nəşri barədə sərəncamı ilə XXI əsrin ortalarına doğru itirmək təhlükəsi ilə üzləşdiyimiz mənəvi sərvəti yenidən bizlərə qaytardı...

Bu gün Prezident İlham Əliyevi Azərbaycanın milli-mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük. Ölkə rəhbəri bu dəyərləri göz bəbəyi kimi qoruyacağına, itkisiz, təhrifsiz gələcək nəsillərimizə ötürəcəyinə bütün azərbaycanlılar qarşısında, ən böyük Azərbaycanlı Heydər Əliyevin ruhu qarşısında and içib. Azərbaycan Prezidenti öz andına sadiqdir. Necə ki, bütün ömrünü öz xalqına qurban deyən ümummilli liderimiz bu andına sona qədər sadiq qaldı.

Azərbaycan Prezidentinin xanımı, ölkənin birinci ledisi Mehriban xanım Əliyevanın mənəvi irsimizin qorunması istiqamətində ortaya qoyduğu ardıcıl səylər də Azərbaycanın milli-mənəvi dəyərlərinə yüksək sayğının təzahürüdür. Təsadüfi deyil ki, bu istiqamətdəki fəaliyyətinə görə Mehriban xanım YUNESKO-nun «Xoşməramlı səfiri» statusuna layiq görüldü. Bu, ümumilikdə dünyanın Mehriban xanımın timsalında bütün Azərbaycan xalqına, milli mədəniyyətimizə, folklorumuza, tariximizə, dilimizə, incəsənətimizə göstərdiyi diqqət kimi qəbul olunmalıdır. Bu təyinat həm

də Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının öz fədakarlığını və bacarığını beynəlxalq miqyasda təsdiq etməsinə əyani bir sübutdur. Və ən nəhayət, bu ad Mehriban xanım Əliyevanın şifahi irsin və musiqi yaradıcılığı irsinin qorunub saxlanması, inkişafı sahəsində ortaya qoyduğu böyük zəhmətin xoş bəhrəsidir.

Müstəqillik nemətinə qovuşandan sonra dünya düzənində öz yerini yenicə möhkəmlədən Azərbaycan bu kimi töhfələrlə beynəlxalq birliyə inteqrasiya istiqamətində böyük imkanlar qazanır. Müstəqil dövlətimiz bu gün bütün dünyada aparılan mədəniyyətlərarası dialoqdan kənarda qala bilməz. Azərbaycan malik olduğumuz zəngin mədəniyyətlə bu dialoq prosesinin əsas iştirakçılarından birinə çevrilmək imkanına malikdir. Lakin bunun üçün hələ çox işlər görülməlidir. Bu zərurət Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxışlarında da ifadə olunmuşdur: ***"Biz bu istiqamətdə fəal iş aparırıq. Avropa ölkələri ilə, ümumən beynəlxalq qurumlarla həm siyasi, həm iqtisadi, həm də sosial səviyyədə geniş əlaqələrimiz vardır. Şübhəsiz ki, biz mədəni əməkdaşlıq sahəsində daha çox uğur əldə etməyi arzulayırıq".***

* * *

...Ola bilər ki, zaman hansısa şəxsə nə vaxtsa ona edilmiş yaxşılığı unutdursun. Ola bilər ki, şəxs ona edilmiş yaxşılığı layiqincə qiymətləndirmək imkanlarından uzaq olsun. Lakin Xalqın və Tarixin yaddaşı çox möhkəmdir. Hər hansı sapıntı onu öz qənaətindən döndərə bilməz.

Heydər Əliyevin Azərbaycan üçün gördüyü işlərin miqyası o qədər böyükdür ki, bunu sözlə yalnız belə ifadə etmək olar: Bütöv Xalqa və Tarixə yaxşılıq. İnsan üçün yaddaşlarda bu yaxşılığa müqabil daimi minnətdarlıq duyğuları ilə yaşamaqdan gözəl nə ola bilər?!

...Və əbədiyyət heykəlləri beləcə ucalmırmı?!

SUDEYİF İMAMVERDİYEV
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

QƏTİYYƏTLİLİK NÜMUNƏSİ

Azərbaycan dövlətçiliyinin inkişafında müstəsna rolu olan Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi xalqımızın yaddaşına əbədi yazılaraq daim yaşayacaq və gələcək nəsillərə ötürüləcək. H.Əliyev bütün ömrünü, zəkasını, yüksək fəallıqla fərqlənən fəaliyyətini xalqımızın səadətinə həsr etdi. Unikal analitik təfəkkürə malik böyük insan keçmişi dərin təhlil etmək bacarığına, bu günün tələblərini düzgün görə bilmək qabiliyyətinə və uzağa baxa bilmək istedadına malik bir şəxsiyyət idi.

Heydər Əliyevin həyatını təhlil edərkən bütün dövrlərdə – gənc yaşlarından dövlət rəhbərliyinə gələnə qədər və sonrakı illərdə onun saflığı insanı valeh edir. Onu heç bir dövrdə düşündüyündən, düz, əsaslı, ləyaqətli saydığı yoldan heç bir zaman yayındıra bilməyiblər. Şəxsi həyatı ilə bağlı bəzi səhifələr bu Böyük insanın ləyaqət, məğrurluq daşıyıcısı olmasına dəlalətdir. Stalinizm dövründə sevgilisi Zərifə xanımın atasının repressiyaya uğraması ilə bağlı yaranmış problemlərə münasibəti, Heydər Əliyevin mütləq sədaqətlilik nümunəsi olmasına sübutdur. Ola bilsin ki, kimsə işarə etdiyim hadisədən xəbərdardır, ola bilsin. Mənsə o dövrdəki baş verənləri bir daha nəzərə çatdırmaq istəyirəm və ona görə bunu edirəm ki, hər bir vətəndaş bu prosesdən, münasibətdən nəticə çıxarsın. Mərdlik və sədaqətli ola bilmək xüsusiyyəti insanın bütün fəaliyyət sahələrinə sirayət edir, onun xasiyyəti olaraq ona daim rəğbət gətirir.

Repressiyaya uğramış, keçən əsrin 50-ci illərinin əvvəllərində Azərbaycan KP rəhbərliyinin mənfi münasibət göstərdiyi bir şəxsin qızı ilə evlənmək istəyən o dövrdə dövlət təhlükəsizliyi komitəsinin zabitini nə gözləyə bilərdi? Yalnız repressiya, karyera itkiləri, ailə problemləri və bunlardan yaranan çətinliklər... Heydər Əliyev isə Zərifə xanımla münasibətlərinin təməlini qoyanda xanımın atası, xalqımızın ləyaqətli oğlu, böyük dövlət xadimi Əziz Əliyev dövlət rəhbərliyində əsaslı yer tuturdu. Repressiyaya uğramış belə bir kişinin qızı ilə münasibətləri kim yaşada bilərdi? Yalnız mərifət, ləyaqət, mərdlik duyğuları ilə zəngin bir insan. Qətiyyətlilik və ardıcıllıq kimi ali xüsusiyyətlər daşıyıcısı olan böyük öndərimiz Heydər Əliyev xalqımıza, vətənimiz Azərbaycana məhz bu xüsusiyyətləri ilə, bu ali keyfiyyətləri ilə bütün həyatı boyu xidmət etdi və mən deyərdim ki, xidmət etməkdədir.

Geriyə, Heydər Əliyevin keçdiyi həyat yollarına nəzər saldıqda onun dühasının, zəkasının, qətiyyətinin, yenilməzliyinin parlaq işığına qərq olursan, təmiz və möhtəşəm duyğularla zənginləşirsən. Onun ali insanı keyfiyyətlərinin mənbəyi Vətənə və xalqına olan sönməz və tükənməz məhəbbətdir. İctimai quruluşun, tabe olduğu təşkilatının necə olmasından, onun qarşısında hansı tələblər qoyulmasından asılı olmayaraq o, öz daxilindən gələn xalqına xidmət etmək istəyini həyata keçirməyə həmişə yol tapa bilmişdir. Heydər Əliyevin 1997-ci il iyulun 4-də Təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününə həsr olunmuş yığıncaqdakı nitqindən bir hissənin yada salınması yerinə düşür. O, 1950-ci ildə Leninqrad (indiki Sankt Peterburq) Təhlükəsizlik orqanlarının ali məktəbini bitirir, Bakıya qayıdaraq Təhlükəsizlik Komitəsinin Əks-kəşfiyyat şöbəsində bölmə rəisi, 1953-cü ildən isə şöbənin rəisi təyin olunur. Azərbaycanlının şöbə rəisi işləməsi nadir hadisə idi və ona görə də o, çox ehtiyatlı olmalı idi, heç bir təşəbbüsə yol verməməliydi ki, qeyri azərbaycanlı rəislərin qəzəbinə tuş gəlməsin, karyerasının qarşısının alınması üçün onlara əsas verməsin. Amma gör nə baş verdi. O, şöbə rəisi kimi böyük çətinliklərlə qarşılaşsa da, şöbəsində sağlamlaşma aparmaq, gənc azərbaycanlıları işə qəbul etmək sahəsində böyük fəallıq göstərir, fitnəkarlıqlarla qarşılaşır və bir müddət tutduğu vəzifədən də getməli olur. Mətinliyi, möhkəm iradəsi ilə qətiyyətlə öz mövqeyini müdafiə etməsi hesabına o, yenidən öz əvvəlki vəzifəsinə qaytarılır. Özü qeyd etdiyi kimi: «...Xatirimdədir, 1954-cü ilin əvvəli idi. Mən başladım təmizləmə işləri aparmağa. Bir dəfə, iki dəfə, üç dəfə bu addımları atdım və sonra, 1955-ci ildə də bunların, həmin o cəsarətli addımlarımın qurbanı oldum. Amma öz inadımdan dönmədim, həmin o təmizləmə işlərimə başladım».

1960-cı ildə Təhlükəsizlik Komitəsində ixtisar aparılır, beş şöbə birləşdirilir və Heydər Əliyev birləşmiş şöbəyə rəis təyin edilir və onun səyi, iştirakı hesabına azərbaycanlılar rəhbər vəzifələrdə əksəriyyət təşkil etməyə başlayırlar. Beləliklə, Sovetlər dövrünün rus şovinist iqliminin

rüşyan etdiyi bir dövrdə Heydər Əliyevin zəkaya, milli düşüncə məntiqinə söykənən cəsurluq və qətiyyətlilik öz bəhrəsini verir. O, 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə Komitənin sədri vəzifəsinə təyin olunur. Bu vəzifələrdə işləyərək Heydər Əliyev xalqımızın bir çox dəyərli insanlarını (o cümlədən tarixçi Ziya Bünyadovu, şair Bəxtiyar Vahabzadəni) repressiyadan xilas edə bilir, xalqımızın milli mənliyinin və şüurunun, milli ruhunun qorunması istiqamətində fəaliyyət göstərən ziyalılarımıza dəstək olur, arxa olur.

Onun qeyri adi zəka sahibi, yüksək təşkilatçılıq qabiliyyəti Sovetlər İttifaqı rəhbərliyinin diqqətindən yayınmır. Nəzərə alsaq ki, 60-cı illərin sonunda Azərbaycanda sənaye və kənd təsərrüfatı sahələrində sönüklük hökm sürürdü, o zamankı ittifaq rəhbərliyi Azərbaycan Respublikasında təsərrüfatı, xüsusən Sovet Dövləti üçün əhəmiyyət kəsb edən neft sənayesini və qeyri sahələri canlandıra bilən bir təşkilatçıya ehtiyac duyurdu. Bu səbəbdən 1969-cu ilin iyul ayında Heydər Əlirza oğlu AKP MK-nin birinci katibi vəzifəsinə irəli sürülür. Onun bu vəzifəyə gəlişi ilə Azərbaycanda ictimai və iqtisadi həyatda dönüş əmələ gəldi. Onun qətiyyətli addımları hesabına Azərbaycanda sənaye istehsalı ilbəil artmağa başladı, əmək məhsuldarlığı yüksəldi, kənd təsərrüfatının geridə qalması aradan qaldırıldı. Heydər Əliyevin respublika iqtisadiyyatının inkişafında dönüş yaratması SSRİ-yə böyük səs saldı, xalqımıza olan diqqət tamamilə dəyişdi. Az tanınan azərbaycanlı bütün SSRİ məkanında tamamilə fərqli münasibət görə bildi. Başlıcası o idi ki, Azərbaycanlının məfkurəsi dəyişdi, özünə inam hissi yüksəldi, xalqının Heydər Əliyev kimi oğlu olması ilə iftixar hissi ilə zənginləşdi. Əlbəttə, bu proses addım-addım Heydər Əliyev tərəfindən həyata keçirilən düşünülmüş siyasətdən doğurdu. O, Azərbaycan rəhbərliyinə gələndən bir neçə ay sonra, 1969-cu ilin noyabrında Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış etməsilə xalqımızın milli oyanışına böyük təsir göstərdi. Maraqlısı o idi ki, bu münasibətlə ona minnətdarlıq edənlərə o, belə dedi «burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük qəhrəmanlıq da deyildir.. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir».

Bəli, təvazökar insan olan xalqımızın sevimli oğlu əslində xalqımızın milli ruhunun yüksəlməsinə xidmət edərək, eyni zamanda öz karyerasını risk qarşısında qoyurdu, çünki rus Sovet rəhbərliyinin Şovinist meylləri gün kimi bütün SSRİ-xalqlarına yaxşı bəlli idi. Heydər Əliyev isə xalqımızın gələcəyinə xidmətlərini davam etdirirdi, abadlıq, şəhər və kənd tikinti işləri elə yüksək vüsət almışdı ki, onun bəhrələrini biz bu gün də görməkdəyik. Xalqımızın rifahını yüksəltməklə bərabər, onun gələcəyi üçün xüsusi əhəmiyyət kəsb edən, onun asılılıqsız fəaliyyət göstərə bilməsi üçün qətiyyətli addımlar həyata keçirilirdi. Onun təşəbbüsü ilə 1970-1975-ci illərdə Bakıda xarici Dillər İnstitutu, Mühəndis-Tikinti İnstitutu, Naxçıvanda Pedaqoji İnstitutu, Xankəndində (Stepanakertdə) Pedaqoji İnstitut açıldı. Axırıncının xüsusi əhəmiyyətini qeyd etmək lazımdır.

60-cı illərin əvvəllərində Stepanakertin özündə iş elə qurulmuş idi ki, azərbaycanlılar şəhərin özündə yox dərəcəsində idilər, bəlkə 4-5 azərbaycanlı ailəsi yaşayırdı. Orada Pedaqoji İnstitutun açılması, Azərbaycan dili və ədəbiyyatı fakültəsinin, rus dili fakultəsinin institutda olması azərbaycanlıların işə cəlb olunmasına xidmət edirdi. Bu işlərin, başqa sahələrin müxtəlif vəzifələrində azərbaycanlıların işlə təmin olunması hesabına Dağlıq Qarabağın mərkəzində azərbaycanlıların məskunlaşması böyük vüsət ala bildi.

Ümumiyyətlə, xalqımızı elmin bütün sahələrində savadlı görmək istəyi Heydər Əliyevi qətiyyətli addımlar atmağa sövq edirdi. Onun rəhbərliyi dövründə 70-ci illərdə Azərbaycanda 17 ali məktəb, 78 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Sovet ölkəsinin Moskva, Leninqrad, Kiyev, digər böyük şəhərlərin ali məktəblərinə, elmi mərkəzlərinə tələbə, elmi işçilər göndərilməsi işi daim həyata keçirilirdi. Bir misal dediyimə parlaq sübutdur: yalnız 1978-ci ildə SSRİ-nin 151 ali məktəbində Azərbaycandan 244 ixtisas üzrə 30 mindən çox tələbə təhsil alırdı. Aydındır ki, bütün bunlar xalqımızın asılılıqsız yaşamasına xidmət edən mühüm addımlar idi. Yalnız SSRİ dağılandan sonra cəmiyyət anladı ki, Heydər Əliyev ictimai quruluşun formasından asılı olmayaraq, xalqımızın inkişafına böyük təsir göstərə bilmişdi, onun müstəqil yaşaya bilməyinin təməlini qoya bilmişdi. O, getdiyi böyük yolun hara apara biləcəyinin mahiyyətini mütəfəkkir dərinliyilə görə bilirdi. Onun elm axtarışlarına, elmin bütün sahələrində, o cümlədən Azərbaycanda tədrisi təşkil olunmayan sahələrində, azərbay-

canlı mütəxəssislərin hazırlanması istiqamətində həyata keçirdiyi işlər, əlbəttə ki, onu SSRİ rəhbərləri ilə, SSRİ sahə nazirləriylə və s. üz-üzə qoyurdu. Amma onun qətiyyəti, böyük nüfuz sahibi olması, hər bir hərəkətinin düşünülmüş arqumentlərlə əsaslandıra bilməsi bu böyük işi qarşısı alınmaz edirdi. Xalqını mümkün qədər savadlı, elmli görmək istəyi Heydər Əliyevin düşüncəsinin mahiyyətini təşkil edirdi. Dahi Nizami Gəncəvinin «İsgəndərnamə»də İsgəndərin taxta çıxarkən verdiyi ilk fərmanla bağlı sözləri yerinə düşür:

O böyük, ağıllı, ayıq hökmdar
Öz şahlıq taxtında tutarkən qərar,
Əmr etdi, verildi belə bir fərman:
«Alimdir gözümdə ən əziz insan!
Elmlə, hünərlə! – başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!
Rütbələr içində seçilir biri –
Hamıdan ucadır alimin yeri!»
Belə qərar verdi: yanında ancaq
Hər kəs öz elmi ilə bir yer tutacaq.
Hamı elmə, fənnə elədi rəğbət,
Çünki elmə təşviq edirdi dövlət.
Elmə hörmət qoydu böyük hökmdar,
Elmlə ucaldı dünyada insan.

Xalqımızın inkişafı ilə bağlı heç bir sahə onun diqqətindən yayınmırdı. Sovet ordusunda azərbaycanlı zabitlərin azlıq təşkil etməsi onu narahat edir və Naxçıvanski adına zabit sənətinə bilavasitə aparan, hərbi orta məktəbin 1971-ci ildə Bakıda təşkilinə nail olur. Sovet rəhbərliyi, Sovet ordusu hərbi komandanlığının razılığını almaq müşkül bir iş idi. Amma Heydər Əliyevin qətiyyəti, məntiqi qarşısında müxalif fikirlər tab gətirmədi. Sovet dövründə təməli qoyulmuş azərbaycanlı zabitlərin hazırlanması işinin bəhrələrini xalqımız Azərbaycan müstəqilliyinə qovuşanda daha aydın gördü və görməkdədir.

Ümumiyyətlə müxtəlif hərbi sahələrdə azərbaycanlıların təhsil almasının vacibliyini bilərək o, Bakı Ümumqoşun Komandirləri məktəbinin rəisindən bu işin aktiv aparılmasını daim tələb edirdi və istəyinə nail olurdu. 70-ci illərdə MK-də növbəti tələbə qəbulu ərəfəsində müşavirədə Heydər Əliyevin bir qeydi deyilənlərə misaldır. O, Ümumqoşun Komandirlər məktəbinin rəisinə belə deyir: «Yerli əhalinin nümayəndələrini təyyarəçilik məktəblərinə göndərmək lazımdır. Təyyarəçilər hazırlamaq lazımdır. Bu günlərdə kosmonavtlar dəstəsinin tərkibi ilə maraqlandım. Dəstəyə bir nəfər də olsun azərbaycanlının cəlb olunmamasından narazılığımı bildirdim. Mənə məlumat verdilər ki, kosmonavtlar dəstəsinə ancaq təyyarəçilik məktəblərini bitirənləri götürürlər. Bu məsələ ilə də maraqlandım. Aydın oldu ki, SSRİ-nin təyyarəçilik məktəblərində Azərbaycanın yerli əhalisinin bir nəfər də olsun, nümayəndəsi təhsil almır. Bəs siz hara baxırsınız?!».

Baxın, beləcə zamanı qabaqlayıb XXI əsrə yolu görən xalqımızın şərəfli oğlu Heydər Əliyev böyük cəsarətlə, qətiyyətlə vətənimizə xidmət edirdi.O, çox mancələri dəf etməli idi. Bakı Ümumqoşun Komandirləri məktəbi SSRİ Müdafiə Nazirliyinin tabeliyində olan bir müəssisədir. Orada aparılan işlərə təsir etmək imkanını daha əlverişli etməkdən ötrü Almaniya Demokratik Respublikasında xidmət edən azərbaycanlı general Valeh Bərşadlı Bakıdakı Ümumqoşun Komandirləri məktəbinə rəis vəzifəsinə gətirilir və ona general leytenant rütbəsi verilməsinə nail olur.

Hər bir xalqın milli dəyərlərinə söykənməsi prosesi onun dilinin yaşaması və dövlət səviyyəsində işlənməsinə tam bağlıdır. 1977-ci il oktyabrın 7-də SSRİ-nin yeni Konstitusiyası qəbul edildi. Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya Komissiyası Azərbaycan SSR-nin yeni konstitusiya layihəsini hazırladı, ümumxalq müzakirəsinə verdi və sonra müzakirənin yekunları haqqında Azərbaycan SSR Ali Sovetinin sessiyasında 21 aprel 1978-ci ildə məruzə edərək Azərbaycan dilinin dövlət dili olmasını yeni konstitusiyada öz əksini tapmasını bəyan etdi. Bu iş bilavasitə Heydər Əliyevin təşəbbüsü, mübarizəsi hesabına vüsət almışdı və həmin dövr üçün çox cəsarətli, qətiyyətli bir addım idi.

Bu hadisəni, artıq Azərbaycanın müstəqilliyi dövründə, 31 oktyabr 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Heydər Əliyev belə yada saldı: «Ancaq bu maddə (1978-ci ilin konstitusiyasında 73-cü maddə) Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yox-

dur ... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz konstitusiyamıza yazmalıyıq və yazacağıq».

Keçən əsrin 70-ci illərində Heydər Əliyevin təşkilatçılığı hesabına Azərbaycan bütün respublikalar içərisində on il dalbadal Ümumittifaq yarışında qabaqcıllar sırasında oldu. 1976-cı ildə böyük siyasi və təşkilatçılıq fəaliyyətinə görə Heydər Əliyev Sovet İKP MK Siyasi bürosu üzvlüyünə namizəd seçilir, 1972-ci ilin 24 avqustunda isə ona, o dövrün ən yüksək Dövlət mükafatı sayılan, Lenin ordeni və «Oraq və çəkic» qızıl medalı təqdim edilməklə Sosializm Əməyi qəhrəmanı adı verilir. Yüksək mənəvi dəyərlər daşıyıcısı olan bu mətin insanın fəaliyyəti, qazandığı yüksək rütbələr SSRİ məkanında bütün azərbaycanlıların həyatına, inkişafına, tədrisinə öz müsbət təsirini göstərirdi.

1982-ci ilin sonunda Heydər Əliyev Sovetlər İttifaqında yüksək vəzifəyə irəli çəkilərək SSRİ Nazirlər Sovetinin birinci müavini təyin edilir. 1983-cü ilin mayında anadan olmasının 60 illiyi ilə əlaqədar Heydər Əliyev ikinci dəfə Sosyalist Əməyi Qəhrəmanı, Lenin ordeni və «Oraq və çəkic» qızıl medalı ilə təltif edilir. SSRİ-nin görkəmli rəhbərlərindən biri kimi dünyada şöhrət qazanır, xalqımızın başını yüksəklərə ucaldır. Özü ucaldıqca o, Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın dəyərli təsərrüfat, ədəbiyyat və mədəniyyət xadimlərinin böyük dəstəsinə SSRİ-nin yüksək mükafatlarının, adlarının verilməsini təmin edirdi. Məlumdur ki, hər belə istəyə nail olmaq asan iş deyildi, bundan ötrü o, müxtəlif Moskva səviyyəsində olan maneələri dəf etməli, SSRİ rəhbərliyinə təsir etməli idi. O, xalqımızın ruhunu, mənəviyyatını yüksəltmək istiqamətdə əzmlə fəaliyyət göstərirdi. Keçən əsrin 30-cu illərində repressiya qurbanı olmuş dahi Hüseyn Cavidin məzarını uzaq sibir çöllərində tapmaq, onun cəsədinin qalıqlarını Azərbaycana gətirib Cavidin dünyaya gəldiyi Naxçıvan torpağında dəfn etmək qərarını vermək, bu qərarı həyata keçirmək Heydər Əliyevin xalqımızın mədəni tarixi irsinə olan məhəbbəti və hörmətinə bağlı cəsarətli addımlarından biri idi. O, xalqına xidmət edən, tarixi dəyərlərini qoruyan hər bir azərbaycanlını qorumağı özünə borc bilirdi. Belə hadisələr çox olmuşdur. Onlardan biri 1972-ci ildə Azərbaycan Ensiklopediyasının Baş redaktoru Rəsul Rzanın rəhbərliyi ilə «Azərbaycan SSR xəritələri» (Azərbaycan və rus dilində) adlı atlasın nəşri ilə bağlıdır. Atlas çap olunandan sonra Azərbaycan tarixi xəritələrinin hazırlanmasında və çapında iştirak edən alimlərimizi «sapı özümüzdən olan baltalar», erməni tarixçiləri Moskvanın köməyilə «millətçi», «burjua məfkurəçiləri», «Sovet hökumətinin və Rusiyanın düşmənləri» adları ilə damğalamağa çalışdılar. Yalnız Heydər Əliyevin cəsarətlə, qətiyyətlə bu işə qarışması sayəsində KQB-nin alimlərimizə qarşı nəzərdə tutduğu repressiyaların qarşısı alındı.

1982-1987-ci illərdə Heydər Əliyev Moskvada SSRİ rəhbərliyində olduğu dövrdə Azərbaycanın inkişafı üçün əlindən gələni edirdi. O, Moskvada xalqımızı qoruyan «Böyük qalamız» idi. 1985-ci ildə SSRİ-də hakimiyyətə gələn Qorbaçov Heydər Əliyevə qarşı ədalətsiz mövqe tutaraq onu vəzifəsindən kənarlaşdırmağa çalışırdı. Ermənilərin təsiri altına düşmüş Qorbaçov 1987-ci il oktyabrın 21-də Heydər Əliyevi Sov.İKP MK Siyasi bürosu üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrindən kənarlaşmasına nail oldu.

Bu hadisədən az vaxt keçdikdən sonra Azərbaycana qarşı hücumlar gün bəgün aktivləşməyə başladı. Heydər Əliyev bu prosesləri belə təsvir edir. «Siyasi bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadiyyat üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbekyan Parisdə keçirdiyi bir mətbuat konfransında «Dağlıq Qarabağ Ermənistana verilməlidir» demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdı. Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan əvvəlcədən hazırlanmışdı, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm».

İstefaya-pensiyaya çıxdıqdan sonra Heydər Əliyev KQB-nin nəzarəti və təqibləri şəraitində yaşamasına baxmayaraq, ləyaqətlə ona qarşı olan təxribatlara cavab verirdi. Təqiblər, təxribatlar davam etsə də, o, «mən heç vaxt susmamışam» deyə 1988-ci ildə «Literaturnaya qazeta»-da onun haqqında dərc olunmuş böhtançı yazıya tutarlı cavab göndərir.

Qarabağ məsələsi ortaya atılan vaxt o, Moskvada ciddi narahatlıq keçirir, Qorbaçovla görüşmək istəyir. Buna nail olmadıqda o dövrdə SSRİ rəhbərləri Luqaçovla, Çebrikovla, Kryuçkovla görüşüb Qarabağ məsələsinin həll edilməsi barədə danışmaq istəyir. Onların cavabı isə Heydər

Əliyevə belə olur: «Biz Qarabağda erməni-azərbaycanlı münaqişəsi ilə bağlı problemi özümüz həll edəcəyik».

Təəssüflə qeyd olunmalıdır ki, 1988-ci ildən Qarabağ məsələsi ortaya atılan zaman o dövrdə Azərbaycana rəhbər olanlar səriştəsiz, qətiyyətsiz fəaliyyətləri ilə xalqımızın hiddətinə səbəb olmuşdular. Azərbaycan xalqı öz azadlıq mübarizəsinə qalxaraq səriştəsiz dövlət rəhbərlərinin istefasını tələb etməyə başlayır.

1990-cı il yanvarın 20-nə keçən gecə Azərbaycanda azadlıq mübarizəsini boğmaq məqsədilə Bakıya iri hərbi hissələr yeridildi və yüzlərlə dinc sakinlər qətlə yetirildi. Xalqımızın bu ağır günlərində dövlət rəhbərləri gizlənmişdilər, vətənimiz başsız qalmış idi. 20 yanvarda Moskvada Heydər Əliyev bu xəbəri eşidir, həyəcan keçirir, qəzəblənir. Yanvarın 21-də O, öz övladları İlham Heydər oğlu ilə, Sevil xanım Heydər qızı ilə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək yığıncaqda çıxış edir və Bakıda baş vermiş hadisələrə öz münasibətini bildirir, xalqımıza başsağlığı verir. Heydər Əliyev ilk dəfə olaraq 20 yanvar hadisəsinə siyasi qiymət verir: «...Mən bu hadisəni hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüququ dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm».

O, cəsarətlə baş vermiş hadisələrin müqəssirlərini göstərir, o dövrdə Azərbaycan KP birinci katibi olan Vəzirovun rəhbər kimi yaramazlığını söyləyərək qeyd edir ki, «Sovet ordusunun, SSRİ DİN-nin böyük kontingentinin Bakı şəhərinə yeridilməsi haqqında qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Ona görə də qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır».

Əziz oxucu! Moskvada, qüdrətli Sovet dövlətinin güc strukturlarının gerçəkliyi və Heydər Əliyevə qarşı olan təqiblərin olmasını nəzərə alsaq, Heydər Əliyevin qeyd etdiyim bu qətiyyətli addımına nə ad vermək olar?! Bu qəhrəmanlıq idi, öz xalqına olan böyük məhəbbətin təzahürü idi, xalqımızın oduna yanmağa hazır olmaqla bərabər, ona havadarlıq etmək, dəstək verib ruhunu qaldırmaq istəyi idi.

İndi bu hadisələr tarixə keçmişdir. Onların barəsində az yazılmayıb, amma unutqanlığa da yol vermək olmaz. Bu Heydər Əliyevin öz həyatı barədə düşünmədən atdığı addım idi. Mən bilavasitə, səmimi bir şəraitdə Onun özündən eşitdiklərimi qələmə almaq istəyirəm. Hadisə belə olmuşdu.

...1997-ci il yanvarın 15-də M.N.Qədirli adına Həvzə Klinik Xəstəxanasının uroloji şöbəsində mən xalq şairimiz Bəxtiyar Vahabzadəyə cərrahi əməliyyat aparmışdım. Yanvarın 19-da prezident Heydər Əliyev xəstəxanaya Bəxtiyar müəllimin görüşünə gəldi (nə böyük alicənablıq!!). Mən müalicə həkimi olaraq xəstə və aparılmış əməliyyat barədə məruzə etdim. Bəxtiyar müəllimin vəziyyəti yaxşılaşmaqda davam edirdi. Ona görə də Prezidentimiz müalicənin gedişi ilə maraqlanandan və müalicənin uğurla getməsi barədə məlumat aldıqdan sonra səmimi söhbət etdi. Necə deyərlər, söz-sözü çəkər, Bəxtiyar müəllim 1990-cı ilin yanvar hadisələrini və Heydər Əlirza oğlunun o hadisələrlə bağlı Moskvadakı çıxışını yada saldı. Heydər Əliyev o günləri belə yada saldı.

«Bəli, yanvarın 21-də mən Moskvada çıxış etdim. İndi bunu demək istəmirəm, o vaxt mən Moskvada təcrid edilmiş, cəmiyyətdən tamamilə uzaqlaşdırılmış və təqib altında olan bir adam idim. Məni daim təqib edirdilər. Hətta hazırlaşırdılar ki, orada məni həbs etsinlər. O vaxt mən Moskvada deyildim. Xəstə idim, Moskvadan kənarda sanatoriyada müalicə olunurdum. Axşam bu hadisəni eşitdim, gecə ikən Moskvaya gəldim. Uşaqlarım –oğlum İlham, qızım Sevil, qızımın əri Mahmud evdə idilər. Onlara dedim ki, mən oraya (Azərbaycan nümayəndəliyinə. S.İ.) getməliyəm. Bildirdilər ki, axı bu təhlükəlidir. Onlar mənim ətrafımda olan vəziyyəti bilirdilər. Onların üçü də ayağa durdu və dedilər ki, ata biz də sizinlə gedirik. Dedim ki, siz getməyin. Bəlkə təkcə Mahmud mənimlə getsin, siz getməyin. Çünki orada cürbəcür hadisələr ola bilərdi. Nə olursa, qoy mənimlə olsun, heç olmasa sizinlə olmasın. Oğlum dedi ki, yox, mən də gedirəm. Hətta qızım uşaqlarını evdə qoyub dedi ki, mən də gedirəm. Yaxşı ki, o vaxt kimsə lentə alıb – oğlumla, qızımla, qızımın əri ilə birlikdə oraya gəldik. Necə deyərlər, sözümü də dedim, münasibətimi də bildirdim. Mən-vəzifədə olmayan bir adam, orada münasibətimi bildirdim, amma vəzifədə olan adamların heç biri bu faciəyə münasibətini bildirmədi, bəyanat vermədi». Gətirdiyim bu sətirlər Heydər Əliyevin danışıqlarının kiçik bir hissəsidir. Şair sözü ilə desək, ey insanlar! Siz bu Cəsarətə, bu qətiyyətə, öz xalqına bağlılığa, lazım olanda onun yolunda öz həyatını düşünmədən verməyə hazırlığa nə deyirsiniz?!

Heydər Əlirza oğlu danışdıqca mən onun həmən anı, 21 yanvar günü atdığı addımın ərəfəsini yaşadığını duyurdum. O, o anın həyəcanını ya-

şayırdı. Üzü sərtləşmişdi, ümumiyyətlə, gərgin idi. Övladlarına olan məhəbbəti, bir ata kimi onları qorumağa borclu olması duyğularını Vətənino olan məhəbbət üstələyirdi, xalqına dayaq olmaq, məhz xalqını qorumaq məsuliyyəti onun qətiyyətlə qəbul etdiyi qərarını dönməz edirdi. O, öz övladlarını da, özünü də Xalqın bir hissəsi sayaraq möhtəşəm, ülvi bir məqsədlə qəbul etdiyi qərarı həyata keçirməli idi. Mən onun söhbətini eşitdikcə böyük həyəcan keçirirdim.

Heydər Əliyevin həm özünün, həm də övladlarının qəhrəmanlığına heyran olmuşdum, onlara baş əyirdim, xalqımızın məhz belə övladları olmasından qəlbim iftixarla dolmuş idi.

Bir anlığa yaddaşım məni tarixdə həkk olmuş bir hadisəyə apardı. Rusiyaya təcavüz etmiş Napoleon qoşunlarına qarşı Borodino meydanında general Rayevskinin gənc zabit oğlu ilə yanaşı, əllərində qılınc düşmən üzərinə yürüş etdikləri canlandı. Mən o anda Heydər Əliyevi övladları ilə birlikdə əllərində qılınclə düşmən üzərinə addımlayan görürdüm. Bu mənim anlamımda Böyük qəhrəmanlıq və faciəvi bir an idi. Qəlbimin döyüntüsünü duyurdum, gözlərimin yaşlarını saxlaya bilmədim (mən indi də bu sətirləri yazarkən həyəcan keçirirəm, gözlərim yaşarır), üzümü yana çevirdim, gözlərimi sildim. Çətinliklə də olsa, özümü ələ ala bildim...

İndi geriyə baxarkən, bir daha yəqin edirsən ki, Heydər Əliyev həyata öz xalqına xidmət etməkdən ötəri gəlibmiş. Bu yolda onu məhv etmək olardı, amma onun üzərində qələbə çalmaq mümkün deyildi. Mən əminəm ki, xalqımız 21 yanvar 1990-cı ildə olan Heydər Əliyevin qətiyyətli əməlini, cəsarət nümunəsi kimi heç bir zaman unutmayacaq.

Prezidentimiz xəstəxanada Bəxtiyar müəllimlə görüşündə onun barəsində xeyli xoş sözlər dedi, ruhunu qaldırdı. Yataqda olan xəstə üçün isə bu çox böyük dayaqdır, onun sağalmasını tezləşdirən amillərdəndir. Sevimli Prezidentimiz Heydər Əliyev son dərəcə nəcib insan olaraq xəstəxanadan gedəndə məndən də öz xoş sözlərini əsirgəmədi:

«...Təşəkkür edirəm ki, cərrahımız belə yaxşı əməliyyat aparıbdır. O, yeni Azərbaycan Partiyasının üzvüdür və həmin partiyanın siyahısı ilə Milli Məclisə deputat seçilib. Bax, Milli Məclisdə belə cərrahlarımız var. Biz bununla da fəxr etməliyik. Fəxr etməliyik ki, Milli Məclisimizdə bu cür mütəxəssislər, ziyalı adamlar var. İndi Milli Məclisimiz keçmişdə Milli Məclisdə olan bazarkomlardan ibarət deyil. Xalqı təmsil eləyən belə

ziyalılardır, sizsiniz, elm adamları, bilikli adamlardır. Mən çox məmnunam, sağ olun».

Xalqımızın 1990-cı ilin ağır günlərində Heydər Əliyev onunla birlikdə olmaq istəyir. Nə Moskvadakı, nə də Bakıdakı rəhbərlər onun Azərbaycana gəlməyini istəmirdilər, müxtəlif təxribatlar törədirdilər. Xalq isə iradəsi və xahişi ilə onu dəstəkləyərək Bakıya, sonra Naxçıvana gəlməsinə nail oldu, onu Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin və Azərbaycan Respublikasının xalq deputatı seçir.

«El gücü, sel gücü». Bakıdakı rəhbərliyin təxribatları əbəs bir iş idi. 1991-ci il sentyabrın 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyası Heydər Əlirza oğlunu Ali Məclisin sədri seçir. Onun təşkilatçılığı hesabına Naxçıvan erməni təcavüzünə sinə gərir, sovet dövləti dağılan kimi Sovet qoşunlarının Naxçıvan Muxtar Respublikasından çıxarılmasına nail olur.

1993-cü ilin iyununda xalqın təkidi ilə Azərbaycan rəhbərliyinə qayıdan Heydər Əliyev böyük çətinliklərlə üzləşir. Hərc-mərclik, anarxiya, vətəndaş müharibəsi, vətənin parçalanma təhlükəsi, Ermənistanın təcavüzü, iqtisadiyatın enməsi, əhalinin sosial vəziyyətinin kəskin pisləşməsi, 1994 və 1995-ci illərdə dövlət çevrilişlərinə cəhdlər, dövlət başçısına qarşı terroristik aktların hazırlanması və s.- Heydər Əliyev bunlarla üzləşməli olur. Yalnız onun idarəçilik talantı və qətiyyətli addımları sayəsində addım-addım təhlükələr sovuşurdu. Əslində yalnız 1996-cı ildən bəriyə vətənimiz, Azərbaycan cəmiyyəti demokratik dövlət quruculuğu sayəsində böyük uğurlar əldə edə bildi, siyasi və məhkəmə – hüquqi islahatları həyata keçirdi.

Heydər Əliyevin idarəçilik zəkası, qətiyyətlə həyata keçirdiyi islahatlar hesabına bu gün Azərbaycanda qüdrətli professional hakimiyyət, güclü intizam və qanunilik hökm sürməkdədir. Bizim, hər bir Azərbaycan Vətəndaşının borcu isə Heydər Əliyevin irsinə sadiq qalmaqdan ibarət olmalıdır.

ƏHMƏD VƏLİYEV
Odlar Yurdu Universitetinin rektoru

HEYDƏR ƏLİYEV İRSİ: REALLIQLAR VƏ FAKTLAR

1. Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı xidmətləri. O, Azərbaycan üçün nə edib?

H.ƏLİYEV... Bu ad özünü azərbaycanlı sayan hər kəsin qəlbində sadəliyi, xeyirxahlığı, səmimiyyəti, alicənablığı, vətənpərvərliyi və bütün digər yüksək insani dəyərliliyi ilə unudulmaz izlər buraxan müqəddəs varlığı etiva edir. Bu adda yüksək alilik, kamillik, uzaqgörənlik,əzəmətlilik, dahilik,fədakarlıq və müsbət şəxsi keyfiyyətlər yaşanır. Habelə şax qaməti, şux yerişi, iti yaddaşı, zəhmli baxışı, səlis danışığı , məğrur duruşu, tükənməz səbr və enerjisi ilə bənzərsiz və heyrətdoğurucu bir sima canlanır bu ifadədə. Taleyinə durub- dayanmadan, yorulub-usanmadan qurub, yaratmaq və yaşatmaq, özü üçün deyil, milləti, dövləti üçün yaşamaq yazılmışdı sanki bu fədakar ömrə. Bütün əziyyətlərə baxmayaraq o, taleyinə hakim çıxdı, Azərbaycan adlı bir müstəqil dövlət qurdu,onun sabitliyini, dönməzliyini təmin etdi, milli mənəvi dəyərlərimizə qayıdışın, milli özünüdərkin əsasını qoydu. Azərbaycanlı adını öz adı ilə birlikdə bəşəriyyətə tanıtdı, Azərbaycan bayrağını dünyada ucaltdı. Bir sözlə, H. Əiyev yeni bir Azərbaycan yaratdı. Elə bu səbəbdəndir ki, H.Əliyev ifadəsi siyasi şüurlarda, gündəlik həyatımızda «Azərbaycan» sözünün sinonimino çevrilib-insanlar «Azərbaycan»deyəndə Heydər Əliyevi, Heydər Əliyev deyəndə Azərbaycanı göz önünə gətirirlər. Bu kəlmələr artıq 36 ildir ki, paralel işlənir və bir-birini tamamlayır. Bu da səbəbsiz deyil. Azərbaycan dövlətinin və xalqının taleyi H.Əliyevin taleyi idi. Və əksinə. Bu böyük insan özünü sözün bütün mənalarında Azərbaycana fəda etdi.

H.Əlyevi «XX və XXI əsrlərin ictimai fenomeni» adlandırırlar. O, iki müxtəlif ictimai-siyasi sistem çərçivəsində, iki fərqli zəmanədə-1969-1982 və 1993-2003-cü illərdə Azərbaycana başçılıq etmək, ölkəsini inkişaf etdirmək, düşmənlərdən qorumaq yükünün ağırlığını öz çiyinlərində

düz bir qərinə mətanətlə və fəxrlə daşıdı. Və bu fədakarlığı ilə xalqının qəlbində əbədiləşdi.

H.Əliyev əzəmətli bioqrafiyası və möhtəşəm taleyi olan nadir bir şəxsiyyət, ictimai-tarixi fenomen idi. Belə fenomenal siyasi bioqrafiya hər kəsə nəsib olmur. H. Əliyevin taleyinin möhtəşəmliyi bunda idi ki, o, ən azı yarım əsr ərzində demək olar ki, öz şəxsi həyatını yaşamadı, bütün həyatını xalqına həsr etdi. Azərbaycan uzun illər Heydər Əliyevin çiyinləri üzərində dayandı. H.Əliyevin gördüyü işlər Azərbaycanın hər qarışında hiss olunur. H.Əliyev sözün həqiqi mənasında tarix yaradan əzəmətli dahi idi. O, düz yarım əsr ərzində Azərbaycan xalqının və dövlətçiliyinin tarixini yaratdı. Belə şəxsiyyətlərin həyatı isə adətən bütöv bir xalqın taleyinə dönür.

Bu böyük azərbaycanlının tariximizdəki yeri, missiyası və Azərbaycan qarşısındakı misilsiz xidmətləri barədə indiyədək çox deyilib və yazılıb. Amma etiraf edək ki, indiyədək H.Əliyevə həsr olunmuş çoxsaylı kitabların, məqalələrin, araşdırmaların müəllifləri onun bütün aspektlərini tam açmağa müvəffəq olmayıblar. H.Əliyevin siyasi portretini tam dolğunluğu ilə yaratmaq müşkül işdir. Çünki bu, bütöv bir dövrü təsvir etməyə cəhd göstərmək demək olardı. Bütöv bir dövrü təsvir etmək isə son dərəcə çətindir. H.Əliyev bütöv bir tarixi epoxanın simasıdır. H.Əliyev çağdaş tariximizə Azərbaycan dövlətinin rəmzi, millətin xarakterinin, varlığının daşıyıcısı, millət atası kimi düşüb.

H.Əliyev şəxsiyyətinin nadirliyi və əzəmətliliyi təkcə onun bu sadalanan bir qisim qeyri adi insani dəyərlərə malik olması ilə deyil, eyni zamanda ondan doğan misilsiz əməli xidmətləri ilə bağlıdır. Heç təsadüfi deyil ki, İndira Qandi demişdi: «hər bir insanın qiyməti onun xidməti ilə ölçülür.»Bu baxımdan H.Əliyev möhtəşəmliyi, müdrikliyi, əvəzolnmazlığı onun qeyri adi şəxsi keyfiyyətləri və xalqa xidmətləri kompleksliliyi ilə izah ediləndir.

Azərbaycan gerçəkliklərini anlamaq üçün H.Əliyevin Azərbaycan qarşısındakı xidmətlərini dərk etmək lazımdır. H.Əliyevin Azərbaycan üçün etdikləri həddən artıq böyük və əhatəlidir. Onun qeyri adi dərəcədə geniş spektrə malik dövlətçilik fəaliyyətinin bəzi məqamlarını sərf-nəzər edəndə qarşımızda böyük bir salnamənin səhifələri açılır. Azərbaycanın son 36 illik tarixi ərzində xalqın ictimai- siyasi, sosial-iqtisadi və mədəni

həyatının bütün sahələrində dirçəliş müşahidə olunub ki, bu da H.Əliyevin tarixi xidmətlərinin yalnız bir fraqmentidir. H.Əliyev 1969-cu ildə birinci dəfə hakimiyyətə gələndə Azərbaycan iqtisadi və mədəni tənəzzül zolağında idi. Ən böyük gerilik isə milli özünüdərk sferasında idi.

H. Əliyev Azərbaycana 1969-82-ci illərdə-sovet sisteminin ən güclü dövründə başçılıq etmişdi. Onun rolunun misilsizliyi təkcə elə bu dövrdən görünür. O, təbii sərvətlərlə zəngin, lakin infrastrukturu, güclü kadr bankı olmayan, intellektual potensialı dağınıq olan bir ölkədə cəmi 10-12 ilə möhkəm bir özül yaratdı və özünü əvəzsiz siyasi xadim kimi təsdiqlədi. H.Əliyev o vaxt ifrat inzibatçılığın qalıqlarını və səriştəsizliyi aradan qaldırdı, yeni iş üslubu yaratdı. Uzun müddətli inkişaf strategiyası hazırlayan H.Əliyev Azərbaycanın iqtisadi, intellektual, mədəni, elmi-texniki resurslarını səfərbər etdi, bütün mövcud potensialı milli dirçəliş yönündə hərəkətə gətirdi. Milli elita 1969-cu ildən formalaşmağa başladı. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın I katibi seçilən H.Əliyev Azərbaycanı azərbaycanlılara, azərbaycanlıları isə özünə qaytardı. Milli ruhlu sənət əsərləri məhz bu dövrdən sonra yaranmağa, mili ziyalılarımızın böyük bir dəstəsi məhz H.Əliyevin xüsusi himayədarlığı ilə sovet cəza aparatından xilas olmağa başladı.

H.Əliyevin hakimiyyətə gəlişi ilə gerçəkləşməyə başlayan siyasət mahiyyətcə gələcəyə hesablanmışdı. Bu, özünün 1991-ci ildən sonra daha qabarıq göstərdi. SSRİ-nin dağılmasından sonra Azərbaycana həmin dövrdən böyük bir infrastruktur miras qaldı. Əgər 70-80-ci illər boşuna keçsəydi, Azərbaycan 80-ci illərin sonlarında özünü müstəqil şəkildə dolandıra bilən iki-üç respublikadan biri ola bilməzdi.

H.Əliyevə qədərki Azərbaycan sənayesindən danışarkən yalnız neft hasilatının adını çəkmək mümkündürsə, 70-ci illərdə qurulan sənaye-istehsal kompleksi həm də inkişaf etmiş çoxşaxəli neft-kimya, neft emalı, neft maşınqayırması, elektroenergetika, maşınqayırma, metallurgiya, məişət kimyası, boru-prokat və s. sahələrin təşəkkülü demək idi. H.Əliyev 60-cı illərə qədərki sənayecə asılı Azərbaycanı 70-80-ci illərdə sənaye ölkəsinə, istehlakçı ölkədən istehsal ölkəsinə çevirdi. Əgər 70-ci illərə qədər Azərbaycanda cəmi 233 iri və orta sənaye müəssisəsi vardısa, təkcə 70-ci illərdə 213 belə müəssisə tikilmişdi. 70-ci illərdə istehsal olunan ümumi daxili məhsul 1945-1970-ci illərdə istehsal olunan ümumi daxili məhsuldan çox idi. H.Əliyev Azərbaycanı iqtisadi asılılıqdan xilas etdi, ölkəni dotasiyasız yaşayan yeganə sovet respublikasına çevirdi.

70-80-ci illərdəki iqtisadi tərəqqi sosial infrastrukturun yaradılmasını da zəruri edirdi. Bu illərdə ölkədə tikinti-abadlıq işləri, elm, təhsil, mədəniyyət ocaqları tikintisi geniş vüsət almışdı. 70-80-ci illərdə 6 yeni ali və 12 orta ixtisas məktəbi yaradıldı, 100-dən çox yeni kafedra, 40-dək yeni fakültə, 100-dək yeni ixtisas açıldı, vacib sahələr üzrə mütəxəssis hazırlanmasına nail olundu. H.Əliyev Azərbaycanın gələcəyini düşünərkən milli kadrların hazırlanmasına xüsusi önəm verirdi. SSRİ-nin 170 aparıcı elm-təhsil ocağı H.Əliyevin sayəsində azərbaycanlı gənclərin üzünə açıldı. 10 mindən çox gənc onun səyi ilə SSRİ-nin ən nüfuzlu ali məktəblərinə təhsil almağa göndərildi.

Milli Ordunun təməlini də H.Əliyev qoyub. 1971-ci ildə Azərbaycanda C.Naxçıvanski adına hərbi məktəb yaradıldı. Bu asan məsələ deyildi. Lakin H.Əliyev hər cür müqavimətə sinə gərdi və Azərbaycanın indiki günlərində – Ermənistanın təcavüzünə məruz qaldığımız vəziyyətdə bizə hava-su kimi lazım olan bu hərbi məktəbi yarada bildi. H.Əliyev 70-80-ci illər milli intibahının memarı olaraq azərbaycanlıları öz milli kökünə qaytardı, milli-siyasi kimliyimizin təsdiqlənməsi, milli yaddaşımıza qayıtmağımız üçün cəsarətli addımlar atdı. Azərbaycan dilinə dövlət dili statusu verildi və bu, 1978-ci il Konstitusiyasında təsbit edildi. Qısası, Azərbaycan 13 ildə sürətlə inkişaf edərək SSRİ-də 3-4 qabaqcıl respublikadan birinə çevrildi, bizdə isə möhkəm bir dövlətçilik təfəkkürü yarandı.

H.Əliyevin fəaliyyətinin ikinci dövrü müstəqil dövlətçilik tarixi mizlə bağlıdır. H.Əliyev 1993-cü ilin iyununda xalqın tələbi ilə müstəqil Azərbaycana rəhbərlik etməyə başladı. Azərbaycanın müstəqillik, dövlətçilik tarixi çətin sınaqların tarixidir. Bu tarixdə ağır imtahanlar,itkilər,qələbələr var. Azərbaycan öz azadlığı uğrunda mübarizəyə hələ 1988-ci ildə qalxsa da, öz müstəqilliyini 1991-ci il oktyabrın 18-də elan etsə də, gerçək milli-siyasi azadlığın nə demək olduğunu bizə yalnız Ümummilli liderimiz H.Əliyev anlatdı. Ölkəyə 34 il rəhbərlik edən H.Əliyevin həyatının son on ili müstəqil Azərbaycanla bağlıdır. O, müstəqilliyi hər şeydən üstün tutur, onu «ölkəmizin tarixində çox böyük əhəmiyyətə malik olan hadisə»adlandırırdı. H.Əliyev bu müstəqilliyi möhkəmləndirdi və onu dönməz etdi. Prezident İ.Əliyevin sözləri ilə desək, «İndiki müstəqil Azər-

baycan dövləti Heydər Əliyevin şah əsəridir». Bu dövləti H.Əliyev qurub. Bu sərbəstlik, təhlükəsizlik, sabitlik, sosial-iqtisadi inkişaf məhz H.Əliyevin zəhmətinin nəticəsidir.

H.Əliyev 1969-1982-ci illərdə Azərbaycana bir insanın göstərə biləcəyindən artıq xidmət göstərmişdi. Bununla belə, onun siyasi bioqrafiyasının ən əhəmiyyətli mərhələlərindən biri müstəqil Azərbaycanla bağlıdır. H.Əliyev müstəqillik Azərbaycana 10 ildən artıq – 1993-cü il iyunun 15-dən 2003-cü il oktyabrın 15-dək rəhbərlik etdi. O, dövlət başçısı seçiləndə Azərbaycan müstəqil idi. Amma necə müstəqil? Bu müstəqillik sırf formal xarakter daşıyır və dövlətçiliyin mahiyyəti baxımından heç bir məzmun kəsb etmirdi. 1991-ci il oktyabrın 18-dən dövlət böhranının yarandığı 1993-cü il iyunun 4-dək – 19 ay ərzində! – 4 dəfə hakimiyyət dəyişikliyi, onlarla ciddi qarşıdurma baş vermişdi. Bu 19 ayda az qala hər ay hansısa sahədə böhran yaranır, ölkə itkilərə məruz qalırdı, cəmiyyətdə total ümidsizlik vardı, sosial-iqtisadi tənəzzül sürətlənərək hərbi-siyasi böhranla çulğaşırdı... H.Əliyev tarix səhnəsinə məhz bu məqamda çıxdı. Çıxdı və ölkəni xilas etdi. Onun bu sahədəki xidmətlərini bir yazıda əhatə etmək mümkün deyil. Buna görə də bəzi məqamların qısa xülasəsini verəcəyik. Beləliklə, H.Əliyev erası müstəqil Azərbaycan üçün nə demək idi? Bu 10 ildə hansı ən vacib işlər görüldü?

BİRİNCİSİ, iyunun 9-da xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn, iyunun 15-də parlamentin spikeri seçilən, iyunun 23-dən etibarən isə Prezidentinin səlahiyyətlərini icra edən H.Əliyev Azərbaycanı səriştəsiz hakimiyyətdən, vətəndaş müharibəsindən və separatizmdən, çörək problemindən, qardaş qırğınından və daha neçə təhlükədən qurtardı. Üzdəniraq «TMR», «Sadval»kimi separatçı bandalar zərərsizləşdirildi. H.Əliyevin 1993-cü il oktyabrın 3-də mütləq çoxluğun iradəsi ilə Prezident seçilməsi tariximizin dönüş anı oldu. Azərbaycanın həyatında yeni mərhələ başlandı.

İKİNCİSİ, 1994-cü ilin sonlarına doğru ölkədə həyat öz axarına düşməyə başladı. 1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişi imzalandı. Azərbaycan bununla vaxt qazandı. Milli Ordunu qurmaq, böhrandan çıxmaq, dövlət təsisatlarını yaratmaq, iqtisadiyyatı dirçəltmək, xaricdən olan təzyiqləri neytrallaşdırmaq, beynəlxalq əlaqələri sahmana salmaq, silahlı cinayətkar bandaları, hərbi müxalifəti zərərsizləşdirmək, sabitlik yaratmaq üçün bu möhlətə ehtiyac vardı. H. Əliyev dahiyanə gediş

edərək bu addımı atdı. H.Əliyevin o zaman xüsusi diqqət yetirdiyi məsələlərdən biri daxili vəziyyətin sabitləşdirilməsi, qanunçuluğun bərqərar edilməsi idi.

ÜÇÜNCÜSÜ, 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi» imzalandı, Azərbaycan qapılarını Qərbə açdı, ölkəyə sərmayə və yeni texnologiyalar axını başladı, Azərbaycan nəhəng regional layihələrin müəllifi kimi bölgənin liderinə çevrildi. Neft müqavilələri Azərbaycana indiyədək yüz milyonlarla dollar xalis gəlir, on minlərlə yeni iş yeri, Qərb texnologiyaları və sərmayələri və s.-lə yanaşı, daha bir başlıca şey – gələcəyə böyük ümid verib. Xarici ekspertlər Azərbaycanın neft strategiyasını şərh edərkən bu məqama diqqət yetirirlər ki, Azərbaycanın belə nəhəng geopolitik uğurlarının əsasında H. Əliyevin siyasi məharəti, uzaqgörənliyi, sarsılmaz iradəsi və düzgün kadr siyasəti dayanır.

H. Əliyevin neft strategiyası Azərbaycanı milli intibah yoluna çıxarıb. Ölkəmiz adambaşına düşən xarici sərmayələrə görə Şərqi Avropada birinci yerdədir. Müqavilələr üzrə neft-qaz sektoruna 60 milyard dollar xarici sərmayə qoyulacaq, yeni texnologiyalar gətiriləcək, on minlərlə yüksək maaşlı iş yerləri açılacaq. Hazırda əhalinin 20 faizi neft-qaz sektorunda çalışır. Azərbaycanın 30 illik dövrü əhatə edən neft müqavilələrindən əldə edəcəyi gəlir 210-215 milyard dollar olacaq!

1999-cu ildə H.Əliyevin təşəbbüsü ilə Dövlət Neft Fondu yaradıldı və neftdən götürülən vəsait burada cəmləşir. Qısa müddətdə fonda 1 milyard dollara yaxın vəsait toplanıb. 2005-ci ildən etibarən fondun illik mədaxili 500 milyon, 2008-ci ildən 1 milyard dollar təşkil edəcək. Onda əmək haqqını, müavinətləri, pensiyaları xeyli artırmaq, yeni müəssisələr yaratmaq, öz bazarımızı yerli məhsullarla doldurmaq mümkün olacaq. Bu, xalqın rifahını yüksəltməyə, Azərbaycanı isə inkişaf etmiş ölkələr sırasına çıxarmağa hesablanan rasional siyasətdir. Azərbaycanın neft strategiyası təkcə sırf iqtisadi layihə deyil. Bu strategiya və onun komponentləri kimi çıxış edən Bakı-Ceyhan neft və Bakı-Tiflis-Ərzurum qaz kəməri, həmçinin Böyük İpək Yolu layihələri həm də böyük siyasi, geostrateji və beynəlxalq əhəmiyyət daşıyan nəhəng bir doktrina deməkdir. H.Əliyevin bu strategiyası bütün Avrasiya məkanında yeni qüvvələr nisbəti, yeni hərbi və geosiyasi balans yaratdı. Bu strategiya nəinki təkcə Cənubi Qafqazın,ümumiyyətlə, bütün Avrasiyanın simasını dəyişdi.

DÖRDÜNCÜSÜ, Azərbaycanda hüquqi, dünyəvi, sivil və demokratik dövlət, mülki cəmiyyət quruculuğu başlandı, senzura və ölüm hökmü ləğv edildi. 1995-ci ilin ortalarından etibarən demokratiyanın inkişafı, hüquqi dövlət, mülki cəmiyyət quruculuğu, demokratik təsisatların yaranması, çoxpartiyalılığın, söz, mətbuat və fəaliyyət azadlığının bərqərar edilməsi prosesi sürətləndi. 1995-ci il noyabrın 12-də keçirilən və müstəqil Azərbaycanın tarixində ilk demokratik qanunverici orqanı formalaşdıran parlament seçkiləri ilə eyni gündə keçirilmiş referendum ölkənin yeni Konstitusiyasının qəbul edilməsi ilə nəticələndi. Seçicilərin 94,8 faizinin səs verdiyi yeni Konstitusiya müstəqil Azərbaycanın ilk Konstitusiyası idi. Onun 158 maddəsindən 48-i insan hüquq və azadlıqları məsələsinə həsr olunub. Bu Konstitusiya Azərbaycanda hüquqi dövlət quruculuğunun əsasını qoydu. Demokratikləşmə prosesi yeni Konstitusiyasının qəbul olunması ilə daha dinamik fazaya qədəm qoydu.

H. Əliyev insan hüquq və azadlıqları məsələsinə böyük əhəmiyyət verirdi. Onun 22 fevral 1998-ci il tarixli fərmanı insan hüquqlarının qorunması sahəsində dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirdi. İnsan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı hazırlandı və 1998-ci il iyunun 18-də təsdiqləndi. Ölkəmiz insan hüquqları ilə bağlı 180-dən artıq beynəlxalq konvensiya və sazişə qoşulub. Azərbaycan ölüm hökmünü ləğv edən ilk Şərq ölkəsidir və biz buna da yalnız H.Əliyevin Prezidentliyi dövründə nail olmuşuq. Prezident H.Əliyev 1995-ci ildə əfv və amnistiya təsisatlarını bərpa etdi. 1996-cı ildən indiyədək 7 amnistiya aktı və 38 əfv fərmanı imzalanıb və üst-üstə 100 mindən çox məhbus bağışlanıb.

Demokratik təsisatların inkişafı, mülki cəmiyyət qurulması istiqamətində də xeyli iş görülüb. Siyasi partiyalar, QHT-lər və KİV haqqında qanunlar Avropa standartlarına uyğunlaşdırılıb, demokratik Seçki Məcəlləsi qəbul olunub. Azərbaycanda hazırda 1500-dək QHT, 60-dək siyasi partiya, 40-dan çox həmkarlar ittifaqı, 35 hüquq müdafiə təşkilatı, 600-dək KİV sərbəst fəaliyyət göstərir. Söz, fikir və məlumat azadlıqlarının təmin edilməsi sahəsində 6 avqust 1998-ci il tarixli fərman imzalayan Prezident H.Əliyev bununla AXC-Müsavat hakimiyyəti dövründə xeyli gücləndirilmiş senzuranı birdəfəlik ləğv etdi. KİV 1998-ci ilin sonunda MDB-də ilk dəfə olmaqla əlavə dəyər vergisindən azad olundu. 2001-ci ildə Mətbuat

və İnformasiya Nazirliyi ləğv edildi, bu da dövlətin azad mətbuata müdaxiləsini xeyli azaltdı. Mətbuata maddi-texniki yardım göstərilməsi ilə bağlı bir neçə fərman və sərəncam imzalandı. H.Əliyev bununla bir daha göstərdi ki, o, ölkədə söz, mətbuat və fəaliyyət azadlığının əsas təminatçısı, insan hüquqlarının etibarlı qarantıdır. Qısası, H.Əliyev erası vətəndaş cəmiyyətinin sürətlə qurulması dövrüdür.

BEŞİNCİSİ, 1995-ci ildən sonra ölkədə kompleks sosial-iqtisadi və hüquqi-siyasi islahatlar həyata keçirildi. «Torpaq islahatı haqqında» qanunla MDB məkanında ilk dəfə olaraq torpağın xüsusi mülkiyyətə verilməsi və onun alqı-satqı obyekti olması öz əksini tapdı. Nəticədə 2 milyon hektara yaxın əkinə yararlı məhsuldar torpaq əvəzsiz olaraq vətəndaşlara verildi, 870 minə yaxın ailə torpaq mülkiyyətçisi oldu. İslahatlar nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı 1995-2000-ci illərdə 23 faiz artdı.

Azərbaycanda yerli sahibkarların ilk qrupları 1995-ci ildən sonra meydana çıxıb. 1995-ci ilin martında ölkədə ictimai-siyasi sabitlik tam təmin edilməndən sonra Prezident H.Əliyevin «Dövlət əmlakının özəlləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» fərmanı ilə iş adamlarına yaşıl işıq yandırıldı. 1995 və 2000-ci illərdə qəbul olunmuş I və II Dövlət Özəlləşdirmə proqramları, 1997-2000-ci illərdə kiçik və orta sahibkarlığa Dövlət Yardımı Proqramı, Sahibkarlığa Kömək Milli Fondu, Sahibkarlıq Şurası və Orta Sahibkarlığın İnkişaf Agentliyi, sahibkarlığa maliyyə, informasiya və məsləhət xidmətləri göstərən strukturların yaradılması, sahibkarlığın inkişafını nəzərdə tutan 1996 və 1999-cu tarixli fərmanlar iş adamlarının ictimai və maddi mövqeyinin gücləndirilməsinə yönəlik addımların natamam siyahısıdır.

2002-ci il sentyabrın 10-da Prezident H. Əliyev sahibkarlığın inkişafına dövlət himayəsi haqqında fərman imzaladı. Bu məqsədlə 2003-05-ci illər üzrə büdcədən 250 milyard, o cümlədən 2003-cü ildə 50 milyard manat vəsait ayrılıb. Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında fərman iqtisadi demokratiyaya dəstək idi. Bütün bunların məntiqi nəticəsi odur ki, Azərbaycanda ÜDM-in illik artımı 10-12 faiz təşkil edir. Bu isə bütün postkommunist məkanı ölkələri arasında ən yüksək göstəricidir. Ölkədə adambaşına düşən milli gəlir 2001-ci ildəki 275 dollardan 2005-ci ildə 750 dollara yüksəlib.

ALTINCISI, milli-mənəvi dəyərlərimizə dövlət himayədarlığı xeyli güclənib, dilimizin ictimai statusu möhkəmləndirilib. Hələ XIX əsrin ikinci yarısından gündəmdə olan latın qrafikalı əlifbaya keçid H.Əliyevin adı ilə bağlıdır. Prezident H.Əliyev 2001-ci il iyunun 18-də «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» fərman imzalamaqla ölkənin sosial-mədəni və ictimai-siyasi həyatında köklü keyfiyyət dəyişikliyi yaratdı. Fərman dövlət dilinin funksionallığının artırılmasını təmin edir, onun aparıcı dil statusunu təsbit edir. 2001-ci il avqustun 1-dən əlifba islahatlarını – latın əlifbasına keçidi nəzərdə tuturdu. H.Əliyev 2003-cü il yanvarın 2-də dövlət dili haqqında qanunun tətbiq edilməsi haqqında fərman imzaladı və dövlət dilinin tətbiqi məcburi xarakter aldı. H.Əliyevin bu addımları ilə milli ziyalılarımızın bütöv bir nəslinin uğrunda çalışdığı məqsədə nail olundu. Bu, «Hər bir xalqın ana dilindən əziz heç nə ola bilməz» deyən H.Əliyevin ən böyük xidmətlərindən biridir.

YEDDİNCİSİ. Azərbaycanın beynəlxalq nüfuzu H.Əliyev dövründə xeyli artdı. Azərbaycan indi BMT-nin və Avropa Şurasının tamhüquqlu, NATO-nun isə assosiativ üzvüdür, beynəlxalq strukturlara inteqrasiya olunub, çoxsaylı beynəlxalq konvensiyalara qoşulub, MDB, İKT kimi nüfuzlu qurumlarda təmsil olunur, türk və ərəb-müsəlman dünyasında özünün məxsusi rolu ilə seçilir. Azərbaycanın daha bir funksiyası onun beynəlxalq əhəmiyyətli iqtisadi layihələrə, məsələn, Bakı-Ceyhan neft və Bakı-Ərzurum qaz kəmərləri, Böyük İpək Yolu (TRASECA) kimi nəhəng kommunikasiya layihələrinə müəlliflik etməsi ilə müəyyən olunur.

Bir sözlə, H.Əliyevin rəhbərliyi altında keçən 10 il növbəti onilliklərin təməli olan onillik idi. Azərbaycanın müstəqil dövlət kimi əldə etdiyi nə varsa hamısı məhz bu onillikdə qazanılıb. 1993-2003-cü illərdə Azərbaycanda baş verən dəyişiklikləri müşahidə edəndə bəzən inanmaq olmur ki, bütün bunlar bunca qısa müddət ərzində baş verib.

Azərbaycanın H.Əliyevin Prezidentliyi dövründə əldə etdiyi nailiyyətlər tarix baxımından incələnəndə ortaya çıxan mənzərə həqiqətən də heyrətamizdir. Fəlsəfə elmləri doktoru professor R.Mehdiyev «Dönüş onilliyi» adlı məqaləsində H.Əliyevin Azərbaycan üçün gördüyü işlərin qısa xülasəsini aşağıdakı şəkildə idarə edir... «Prezident Heydər Əliyev ölkəni parçalanmaqdan xilas etdi, iqtisadiyyatı bərpa etdi, xalqın hakimiyyət hüququnu təmin etdi, müxalifətin hüquqlarını qorudu, mətbuata azadlıq verdi».

«Bizə güclü Azərbaycan lazımdır» şüarını irəli sürmüş H.Əliyevin 12 il əvvəl təqdim etdiyi bu konsepsiya hələ bir neçə onilliklər üçün keçərli olacaq. Biz H.Əliyev ideyalarının praktiki əhəmiyyətini hələ uzun onilliklər sonra da görəcəyik. H.Əliyev bütün fəaliyyəti boyunca milli genofondumuzu, milli sərvətlərimizi, milli simamızı, məfkurəmizin təmizliyini qorudu, bizi buna öyrətdi. Əliyevşünas müəlliflər bu fikirdədir ki, H.Əliyevin fəaliyyəti Azərbaycan ziyalılarının bir çox nəsillərinin yaratdığı milli ideyalar sistemi ilə həmahəngdir.

H.Əliyev Azərbaycana təkcə suveren dövlət, möhkəmləndirilmiş müstəqillik, tərəqqi, azadlıq yox, həm də gələcəyə inam və gələcək inkişaf üçün hazır proqram – milli mövcudluq və ümummilli tərəqqi proqramı əmanət qoyub getdi. H.Əliyev öz üslubunu və məktəbini yaratmış dövlətçi şəxsiyyət idi. Onun Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri də özündən sonra mükəmməl siyasi idarəetmə və dövlətçilik məktəbi yaratması, Prezident İlham Əliyevin şəxsində güclü lider yetişdirməsidir.

Milyonçu Musa Nağıyevin inşa etdirdiyi İsmailiyyə binasının yuxarı hissəsində belə bir ifadə var: «Ey müsəlmanlar, Sizin əsriniz Sizinlə ölür, övladlarınızı öz əsrləri üçün hazırlayın».

Bu ifadənin fonunda H.Əliyev nə qədər əzəmətli görünür. O öz övladı İlham Əliyevi Azərbaycan xalqı naminə öz əsri üçün hazırlayıb.

2. İlham Əliyev Heydər Əliyev irsinin layiqli davamçısıdır. O, böyük öndərimizin etimadını doğrultdu.

Ümummilli liderimiz H.Əliyev xalqa 1 oktyabr 2003-cü il tarixli məşhur müraciəti ilə siyasətdən getdi. Lakin bu, Azərbaycanı tərəqqiyə və sabitliyə qovuşdurmuş siyasi xəttin sonu demək deyildi. Bütün xalq bunu birmənalı şəkildə qəbul edirdi ki, H.Əliyev siyasi kursu mütləq davam etdirilməlidir. Bu zərurət öz əksini böyük öndərimizin həmin müraciətində də tapırdı. O, İ.Əliyevi öz siyasətinin yeganə layiqli davamçısı kimi xarakterizə edərək xalqı gənc liderin ətrafında birləşməyə çağırmışdı. İ.Əliyev də cəmiyyətdə tərəqqi və sabitlik kursunun yeganə davamçısı, H.Əliyev siyasi irsinin alternativsiz varisi kimi qəbul edilirdi. Bununla belə, o vaxt bir çoxlarında müəyyən narahatçılıq da vardı: H.Əliyevsiz necə

olacaq, gənc varisi onu lazımi qədər əvəz edə biləcəkmi? Doğrudur, ümummilli liderimiz bu narahatçılığa heç bir əsasın olmadığını öz müraciətində açıqlamışdı: «Mənim siyasi varisim İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini, iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də YAP bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər, inanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».

Cəmiyyət də İ.Əliyevə inanır və onu Prezidentliyindən çox şey gözləyirdi. Amma bunu da qəbul etmək gərəkdir ki, H.Əliyevdən sonra yaxşı Prezident olmaq elə də asan iş deyildi. H.Əliyev yaxşı prezidentin parlaq nümunəsi idi. İ.Əliyev də H.Əliyev kimi yaxşı prezident olmağa məhkum idi. Çünki H.Əliyevdən sonra yaxşı Prezident olmamaq Azərbaycan reallıqlarında sadəcə mümkün deyildi. Cəmiyyət yaxşı Prezidentin nə demək olduğunu artıq 10 il idi ki, bilirdi. İ.Əliyevin üzərinə düşən yükün ikiqat ağır olması əsasən bununla şərtlənirdi. O, bir tərəfdən öz konstitusion borcunu yerinə yetirməli, xalqın səsinə layiq olduğunu sübut etməli, digər tərəfdənsə H.Əliyevin etimadını doğrultmalı idi. İ.Əliyev başlıca sosial sifarişin nədən ibarət olduğunu dərk etdiyini sərgiləyərək topluma konkret cavab verdi: «Mən yaxşı Prezident olacağam».

Azərbaycanda ilk növbədə sosial məsələlərə böyük diqqət göstərilməsini vacib sayan İ.Əliyev «Azərbaycan vətəndaşları daha yaxşı yaşamalıdır» şüarı ilə işə başladı və öz strateji məqsədinin nədən idarət olduğunu açıqladı: «Biz Azərbaycan xalqı üçün işləyirik. Onlar bizə bu etimadı göstərib və biz də bu etimadı doğrultmalıyıq».

Ölkədəki ictimai-siyasi sabitlik və sosial-iqtisadi sferadakı nailiyyətlər sosial yönümlü dövlət quruculuğu prosesinin gücləndirilməsi üçün ideal imkanlar açıb. Bu prosesin təməli H.Əliyevin Prezidentliyi dövründə qoyulub və bu sahədə böyük uğurlar əldə edilib. Prezident İ.Əliyev H.Əliyevin bu sahədəki siyasətini də uğurla davam etdirir. Onun son il yarımda bu istiqamətdə atdığı addımlar H.Əliyevin elan etdiyi sosial rifah xəttinin dəyişilməz olduğunu bir daha göstərdi. İ.Əliyevin proqramı 7 əsas bənd-

dən ibarət idi və bura: 1) sabitlik və inkişaf; 2) Qarabağın işğaldan azad edilməsi; 3) işsizliyin ləğvi; 4) insanlara layiqli həyat; 5) neft gəlirinin ümummilli tərəqqi işinə yönəldilməsi; 6) etibarlı sosial müdafiə; 7) güclü dövlət vəd edən bəndlər daxil idi.

Seçkiqabağı və sonrakı çıxışlarda xalqın rifah halının yaxşılaşdırılacağını deyən İ.Əliyev bu vədlərini yerinə yetirir. O, bəyan edirdi ki, regionların inkişaf proqramı həyata keçiriləcək, zəif inkişaf etmiş regionlarda sahibkarlığın inkişafı gücləndiriləcək, güzəştli vergi sistemi tətbiq ediləcək, regionlara sərmayə qoyuluşu təşviq olunacaq, «Yoxsulluğun azaldılması» dövlət proqramı həyata keçiriləcək, maaşlar və işsizliyə görə müavinətlər müntəzəm artırılacaq, aztəminatlılara dövlət qayğısı gücləndiriləcək, pensiya islahatları həyata keçiriləcək, müavinət və pensiyaların minimum həddi, tələbələrin təqaüdü artırılacaq. İ.Əliyev 2003-cü il oktyabrın 31-də Prezident kimi and içərkən bəyan edirdi ki, onun əsas məqsədi xalqın firavanlığı, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsidir. O, H.Əliyevin başladığı sosial-iqtisadi və hüquqi-siyasi islahatların davam etdiriləcəyini, xalqın güzəranının köklü surətdə yaxşılaşdırılacağını, 5 ildə 600 min yeni iş yerinin açılacağını, söz, mətbuat və vicdan azadlığının bundan sonra da təmin olunacağını, milli-mənəvi sərvətlərimizin qorunacağını, ölkəyə əsl demokratik dəyərlər əsasında başçılıq edəcəyini vurğulamışdır.

İ.Əliyevin Prezidentliyi ilə Azərbaycanın tarixində keyfiyyətcə yeni mərhələ başladı. Bu mərhələnin əsas mahiyyəti isə H.Əliyevin Azərbaycanda yaratdığı sabitliyin və inkişafın davamlılığının təmin edilməsidir. H.Əliyev son 10 ildə Azərbaycana cəmiyyətin ondan gözlədiyi hər şeyi – sabitlik, əmin-amanlıq, qanunçuluq, dövlətçilik, milli rifah, sosial-iqtisadi və hüquqi-siyasi islahatlar, milli-mənəvi dəyərlərimizə sayğı və s. verdi. Cəmiyyət indi də Prezident İ.Əliyevin fəaliyyətinin real nəticələrini görür. Həmin nəticələri konkret faktorların dili ilə göstərək.

İqtisadiyyat İ.Əliyevin Prezidentliyi dövründə böyük sürətlə inkişaf edib və ölkəyə sərmayə axını güclənib. Bütün maliyyə mənbələri hesabına Azərbaycan iqtisadiyyatına 22 milyard dollar sərmayə qoyulub ki, bunun da çox böyük hissəsini xarici investisiyalar təşkil edir. Xarici sərmayələrin cəlbi sayəsində 2003-cü ildə 32,7 min, ötən il isə daha 42 min vətəndaş işlə təmin olunub. Hazırda özəl sektorda 2 milyon 650 min nəfər

çalışır. İqtisadiyyata qoyulan xarici investisiyaların həcmi 2004-cü il ərzində 48 faiz artaraq 4 milyard dollara bərabər olub.

İ.Əliyevin Prezidentliyi dövründə sosial yönümlü dövlət quruculuğu prosesi yeni mərhələyə qədəm qoyub. Bu uğurların əsası Prezident İ.Əliyevin «sınaq ili» adlandırdığı və hərtərəfli inkişafın yeni mərhələsinin başlanğıcı olan 2004-cü ildə qoyulub. Son il yarımda ölkənin sosial-iqtisadi mənzərəsində müsbətə doğru ciddi dəyişikliklər olub. Nazirlər Kabinetinin Prezident İ.Əliyevin sədrliyi ilə ötən il dekabrın 7-də keçirilən və 2004-cü ilin yekunlarında həsr olunmuş iclasında Prezident əsasən 2 məsələyə toxundu. Birinci məqam 2004-cü ilə yekun vurulması, ikinci məqam isə 2005-ci ildə ölkəni gözləyən inkişaf perspektivləri ilə bağlı idi. Cəmiyyəti ən çox maraqlandıran məsələ ölkəni gözləyən sosial-iqtisadi inkişaf meylləri və Qarabağ məsələsi ilə bağlı idi. Prezident Bakı-Ceyhan kəmərinin 2005-ci ilin ikinci yarısında istifadəyə verilməsi və böyük neft ixracının başlanması ilə əlaqədar Azərbaycanın 2005-ci ildə iqtisadi cəhətdən daha sürətlə inkişaf edəcəyini, bu tərəqqinin hər şeydən öncə sosial yönümlü dövlət quruculuğu sahəsində müşahidə olunacağını bildirmişdi.

Ötən il yarımda sosial məsələlərə böyük diqqət göstərildi, maaşlar, pensiyalar, minimum əməkhaqqı qalxdı. 2004-cü ilin əvvəlində minimum əməkhaqqı 45 min manat idi. Sonra isə 100 min manat oldu. Prezident dekabrın 7-dəki çıxışında minimum əməkhaqqının 2005-ci il yanvarın 1-dən 125 min manat olacağını qeyd etmişdir. 125 min manatı daha son həddi saymadığını deyən dövlət başçısı minimum əməkhaqqının qaldırılmasını, ümumiyyətlə, xalqın rifah halının yaxşılaşdırılmasını hökumət üçün çox önəmli məsələ adlandırmışdı: «Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşamalıdır və daha da yaxşı yaşayacaq».

Prezident bu çıxışında 2005-ci ildə görüləcək işlər haqqında tam təsəvvür yaradaraq bəyan etmişdi ki, 2005-ci ildə Azərbaycanı böyük sosial tərəqqi və iqtisadi artım gözləyir. ÜDM-in təxminən 14, büdcə gəlirlərini 25, orta əməkhaqqının 22 faiz artacağını bildirən Prezidentin bu dedikləri özünü doğrultdu. Azərbaycan ÜDM artımının indiki səviyyəsi ilə kifayətlənməyəcək və bu sahədə davamlı artım müşahidə olunacaq. ÜDM artımı 2006-cı ildə 24.9, 2007-ci ildə isə 30,1 faizə yüksələcək. Son il yarımda ÜDM-də 10, əhalinin pul gəlirlərində 20, yeni orta əmək haqqında isə 26 faiz artım müşahidə olunur. 1995-2003-cü illər arasında ÜDM 90

faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, orta əmək haqqı 6 dəfə, pensiyalar 8 dəfə artıb.

Sosial sahə 2005-ci ilin ilk günlərində Prezident İ.Əliyevin diqqət mərkəzində oldu. O, ötən il dekabrın 29-da imzaladığı bir neçə fərman və sərəncamla minimum əməkhaqqının məbləğini yanvarın 1-dən 125 min manata qaldırdı. Minimum əmək haqqının artırılması son 3 ildə artıq beşinci dəfədir ki, həyata keçirilir. Həmin gün imzalanan digər fərmana görə, işləməyən əmək pensiyaçılarının pensiya və müavinətlərinin ümumi məbləğinin minimum həddi bütün əlavə və müavinətlərlə birlikdə artırılaraq 125 min manat həddində müəyyən olundu. Prezident dekabrın 29-da bir sıra musiqi kollektivlərinin (7 kollektivin) əməkdaşlarının maaşını orta hesabla iki dəfə artırdı. Əmək haqqının və müavinətlərin artımı ilə bağlı fərmanlar üst-üstə 537 min nəfərə şamil olunur. Prezidentin sosial sferanın inkişafına yönələn addımları qaçqınları və məcburi köçkünləri də əhatə etdi. Belə ki, qaçqın-köçkünlərə yemək xərci üçün verilən aylıq müavinətlərin məbləği dövlət başçısının 29 dekabr tarixli sərəncamı ilə bir qədər də artırıldı.

H.Əliyev kursu ölkəyə elə bir inkişaf sürəti verib ki, bunun pozitiv təsirləri hələ uzun illər hiss olunacaq. Bu stimulu 2004-cü ildə də hiss etdik. Bu müddət ərzində müsbət iqtisadi təmayüllər daha da gücləndi. Orta aylıq əmək haqqı hazırda 478 min manat təşkil edir və bu rəqəmin 2005-ci ildə bir qədər də artırılması proqnozlaşdırılır. Xarici ticarət dövriyyəsində 40 faiz artım müşahidə olundu ki, bu da ölkənin sosial-iqtisadi inkişafının daha bir pozitiv göstəricisidir. Azərbaycan sürətlə varlanır. 1993-cü ildə cəmi bir neçə milyon dollarlıq valyuta ehtiyatlarının bu gün 2 milyard dollara bərabər olması faktı mövcud mənzərəni real təsvir edir.

Prezident İ. Əliyevin sahibkarları dəstəkləməsinin, sahibkarlara kömək məqsədilə ötən il onlara 100 milyard manat kredit ayrılmasının nəticəsi olaraq bu gün ÜDM-də özəl sektorun payı 74 faizə yüksəlib, gələn il isə həmin rəqəmin 77 faizə qalxacağı proqnozlaşdırılır. Dövlət azad iqtisadi fəaliyyəti dəstəkləməkdə davam edir, sahibkarlara bu il 200 milyard manat kredit veriləcək.

Bölgələrdə iqtisadi canlanma yaranıb, əyalətdə hətta xarici məhsul ixrac edən yeni müəssisələr işə salınıb, regionlarda yeni iş yerləri açılıb.

Son il yarımda ölkədə 110 mindən artıq iş yeri açılıb ki, onların da 100 mindən artığı bölgələrin payına düşür.

Ötən dövr sosial problemlərin çözülməsi sahəsində atılan fundamental addımlarla yadda qaldı. Bu dövrdə maaşlar, pensiyalar, digər sosial ödəmələrdə böyük artım müşahidə olunub. 2004-cü ildə büdcədən maliyyələşən, təhsil, səhiyyə, mədəniyyət, incəsənət və mətbuat, sosial təminat, kənd təsərrüfatı və digər sahələrdə çalışan işçilərin – təxminən 538 min nəfərin maaşı artıb. Bu məqsədlə 2004-cü il iyulun 1-dən ilin sonunadək büdcədən 108 milyard manat əlavə vəsait, 2005-ci ildə isə daha 216 milyard manat ayrılıb. 2004-cü ildə Prezidentin 16 və 19 aprel, 26 və 30 iyun, 5 iyul, 4 noyabr tarixli fərman və sərəncamları ilə alimlərin, daxili işlər və milli təhlükəsizlik orqanları işçilərinin və hərbçilərinin maaşı, Çernobil əlillərinin müavinəti, aspirant və tələbələrin təqaüdləri artırılıb. Azərbaycanda son 5 ildə adambaşına düşən gəlir 9-11 faiz artıb, son 3 il ərzində bu göstərici artaraq 550 dollardan 750 dollara çatıb.

Qarabağ müharibəsinin qurbanı olan 1 milyon qaçqın-köçkün soydaşımızın sosial problemlərinin həlli H. Əliyev tərəfindən ən aktual vəzifə kimi qarşıya qoyulmuşdu. Əsası ümummilli liderimiz tərəfindən qoyulan DNF-da toplanan ilk vəsaitdən ayırmalar onun müvafiq sərəncamları ilə məhz qaçqın-köçkünlərin sosial problemlərinin həlli məqsədi daşıyır. Bu məqsədlə ayrılmış vəsait hesabına 6410 fərdi yaşayış evi, 3150 yerlik 18 məktəb, 18 uşaq bağçası,16 tibb məntəqəsi tikilib, yol, su və elektrik xətti, suvarma kəməri və s. sosial obyektlər istifadəyə verilib.

Prezident 2004-cü il 1 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət proqramı»nın bu istiqamətdə xüsusi əhəmiyyəti var. Proqramda 110 min köçkünün yaşayış şəraitinin yaxşılaşdırılması, 30 min iş yerinin yaradılması nəzərdə tutulur. Büdcədə köçkünlərin sosial müdafiəsi üzrə ayrılan vəsait hər il artır. Təkcə gələn il artım 100 milyard manat olacaq. Söylənənləri belə ümumiləşdirmək olar: 2004-cü il Azərbaycanın sosial-iqtisadi həyatının bütün sahələrində uğurlu olub və konkret nəticələr əldə edilib. Prezident İlham Əliyevin təbirincə, ölkə H.Əliyevsiz keçirdiyimiz bu sınaq ilindən ləyaqətlə çıxdı.

İ.Əliyevin Prezidentliyi dövründə vətəndaş cəmiyyəti təsisatları gücləndirilib, 4 əfv fərmanı imzalanıb, hökumətin fəaliyyətinə ictimai nəzarət daha səmərəli olub, korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair proqram qəbul olunub, vəzifəli şəxslərin hüquqi və mənəvi məsuliyyəti artırılıb, büdcə vəsaitlərinin xərclənməsinə ictimai nəzarət gücləndirilib, dövlət və hərbi qulluqçuların, sərhəd, vergi, polis və gömrük orqanlarının əməkdaşlarının maaşı artırılıb və s. Ən başlıcası isə H.Əliyevin bizə əmanət qoyub getdiyi dövlət müstəqilliyi, sosial-siyasi sabitlik qorunub saxlanılıb və daha da möhkəmləndirilib. Gənc Prezident əslində cəmiyyətin ondan gözlədiklərini edib. Yəni o, məhz belə işləməli idisə, elə də işləyib və işləməkdə davam edir. Zənnimizcə, son il yarımın ən əsas nəticəsi də elə budur.

H.Əliyevin işləyib hazırladığı balanslaşdırılmış xarici siyasət, regional təhlükəsizlik və əməkdaşlıq siyasəti bu müddət ərzində İ.Əliyev tərəfindən uğurla davam etdirilib. Azərbaycanın beynəlxalq mövqeyi bir qədər də möhkəmləndirilib, ən başlıcası isə Qarabağ münaqişəsinin həlli istiqamətində dönüş yaranıb. ABŞ, AŞ, Türkiyə, Rusiya və İranla, həmçinin regional qurumlarla əlaqələr; təcavüzkar Ermənistanın cilovlanması və cəzalandırılması, Qarabağ probleminin həlli, Cənubi Qafqazda təhlükəsizlik və sabitlik məsələsi Prezident İ.Əliyevin xüsusi önəm verdiyi məsələlər olub.

Prezident H.Əliyev Azərbaycanı bütün regionun liderinə çevirdi. Prezident İ.Əliyev isə Azərbaycanın bu statusunu qoruyub saxlayıb və daha da inkişaf etdirib. Azərbaycanla hesablaşırlar. O cümlədən Qafqazdakı proseslər məsələsində hesablaşırlar və bu da H.Əliyevin son 10 ildə yürütdüyü siyasətin – Azərbaycanın mövqeyini gücləndirmək siyasətinin məhsuludur. Qlobal siyasətdə Azərbaycanın rolu artıb, Azərbaycanın Qərblə əlaqələri möhkəmlənib, Qərbə inteqrasiya sürətlənib, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Rusiya, Türkiyə kimi aparıcı dövlətlərlə əlaqələr sıxlaşıb. Qloballaşma şəraitində Azərbaycanın yerini müəyyənləşdirmək; Azərbaycanın BMT, NATO, Avropa Şurası, ATƏT, İKT və digər mötəbər beynəlxalq qurumlarla əlaqələrinin sıxlaşdırılması; beynəlxalq terrorizmlə mübarizənin davamlı olması və s. Prezident İ.Əliyevin fəaliyyətində aparıcı yerdə dayanır. AŞ PA kimi mötəbər təşkilat Azərbaycanın təkidi ilə Ermənistanı işğalçı dövlət kimi tanıyıb.

İctimai-siyasi sabitlik və qanunçuluq möhkəm şəkildə qorunub, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində ciddi addımlar atılıb. Prezident İ.Əliyev Milli Ensiklopediyanın hazırlanması, millilik baxımından

böyük əhəmiyyət kəsb edən klassik ədəbiyyatın latın qrafikası ilə təkrar kütləvi nəşri barədə imzaladığı sərəncamlarla milli mədəniyyətin inkişafı yolunda böyük xidmət göstərib. İ.Əliyev siyasi mədəniyyətin və sivil, demokratik siyasi mübarizə qaydalarının bərqərar edilməsinin, həmrəyliyin, anlaşmanın, ölkədaxili siyasi harmoniyanın, müxtəlif ictimai-siyasi qüvvələr arasında dialoq və əməkdaşlığın qarantı kimi çıxış edib. O, dialoqa hazır olduğunu həm seçki qabağı çıxışlarında, həm də Prezident kimi artıq bir neçə dəfə bəyan edib. İ.Əliyevin Azərbaycanda siyasi qarşıdurmaların və siyasi əxlaqsızlığın kökünü kəsmək istəyi və əzmi onun bu sahədə də H.Əliyev siyasətinə sadiqliyini göstərir.

Bunlar ənənəvi siyasətin – ümummilli liderimiz H.Əliyevin sosial tərəqqi və demokratikləşmə xəttinin-İ.Əliyev tərəfindən uğurla davam etdirilməsinin ayrı-ayrı epizodlarıdır. Prezidentliyə namizəd olan İ.Əliyev 2003-cü ildə bəyan edirdi ki, H.Əliyevin sosial tərəqqi xətti davam etdiriləcək. Prezident İ.Əliyev bu bəyanatının ehtiva etdiyi məsələlərin prinsipcə hamısını realaşdırıb və reallaşdırmaqda davam edir. Azərbaycanda müşahidə edilən hərtərəfli tərəqqini H.Əliyev başlayıb, cəmiyyətimizin yeni tipli cəmiyyətə transformasiyanın ilkin zəruri şərtləri məhz H.Əliyev tərəfindən son 10 ildə hazırlanıb. Bu işi yeni dövrün – XXI əsrin lideri, Yeni Azərbaycanın yeni Prezidenti, Qərb demokratizminin əsas tələb və postulatlarına, müdrik Şərqin ənənələrinə və dəyərlərinə dərindən bələd olan Avropa təfəkkürlü və Şərq mentalitetli İ.Əliyev yerinə yetirir.

FƏTTAH HEYDƏROV
Milli Məclisin deputatı

HEYDƏR ƏLİYEV İDEYALARI AZƏRBAYCAN XALQININ MİLLİ SƏRVƏTİDİR

Hər bir xalqın millət kimi formalaşması və dövlət yaradaraq, özünü tarixdə təsdiq etməsi prosesi, həmçinin onun tərəqqi yönümü müəyyən irsin mövcudluğu kontekstində cərəyan edir. Bu irslərin hər biri özünəməxsusdur, aid elədiyi xalqın milli dəyərlərini, mental keyfiyyətlərini, şüurunu, təfəkküründü, psixologiyasını ehtiva edir. Bu irslərin fərqli xüsusiyyətləri mənsub olduğu xalqların tarixi inkişaf yollarının, onların dövlət yaratmaq missiyalarının istiqamətini müəyyənləşdirir. Tarix sübut edir ki, məhz millətin qabiliyyət və həmrəylik hisslərini əks etdirən irsi onu bütün sınaqlardan üzü ağ çıxardır, zəfərə, təkamülə aparır. Yaxud da böyük bir imperiyaya, misilsiz hərbi və coğrafi nüfuza malik olan hansısa bir xalq məhz bacarığının və daxili birliyinin yetərincə olmaması səbəbindən adi bir təkandan müvazinətini itirir, tarixin yeni iztehzası – kölə taleyi ilə üzləşir.

Dünyanın ən böyük azərbaycanlısı

Bəşəriyyətin minilliklərlə ölçülən mövcudluq salnaməsinin təsdiq etdiyi ali həqiqətlərdən biri də odur ki, bu irslər əsasən xalqların üzdə olan rəhbərlərinin, sərkərdələrinin, görkəmli şəxsiyyətlərinin fəaliyyəti ilə səciyyələnir. Bu insanların şəxsi keyfiyyətləri fonunda milli iradə formalaşır, milli inkişaf yolu müəyyənləşir, milli dövlətçilik bərqərar olur, ən nəhayət, milli irs yaranır. Məhz bu baxımdandır ki, «Dünya tarixi əslində, böyük şəxsiyyətlərin avtobioqrafiyasıdır» - mülahizəsi öz həqiqilik əmsalını daim artırır.

Hazırda «Azərbaycan» adlanan bu coğrafi ərazi - məmləkət türk əsilli bir xalqın keçməkeşli taleyinin, zəfər və faciə tarixinin, yüksəliş və əsarət

illərinin nəticəsi olaraq məskunlaşdığı torpaq, yaratdığı dövlətdir. Çin sədd-indən Avropayadək, Sibir çöllərindən Hind okeanınadək, Orhun abidələrindən Misir məbədlərinədək olan böyük ərazilərdə hakimi-mütləq olmuş, bu torpaqlara savaşdan öncə mədəniyyət gətirmiş müzəffər bir millətin – türk millətinin oğuz soyuna mənsub olan Azərbaycan türkləri öz tarixi irsləri ilə müxtəlif zamanlarda dünya düzəninin müəyyənləşməsində iştirak etmişlər. Xalqımızın malik olduğu irs onun milli xüsusiyyətlər məcmusunun əməli təcəssümüdür. Bu irs ləyaqəti, bacarığı, səxavəti, dövlətə sevgini, torpağa bağlılığı, zəhmətkeşliyi əsk etdirir. Bu milli keyfiyyətlər toplusunun bəzi hallarda nankorlar tərəfindən yanlış məcraya yönəldilməsi, sonuncuyyətdən doğan sadəlövhlükdən sui-istifadə edərək xalq arasında birliyin pozulması, vahid hədəfdən yayınmaq kimi hallar nəticə etibarilə milli faciələrlə, müstəqilliyin itirilməsi ilə yekunlaşmışdır. Bu faktlar bir daha sübut edir ki, xalqın başında dayanan rəhbər, millətinin müqəddəratı üçün məsuliyyət daşıyan sərkərdənin şəxsi keyfiyyətləri həm də dövlətlərimizin, xanlıqlarımızın taleyini müəyyənləşdirən vacib amilə çevrilmişdir.

Azərbaycan öz qüdrətli övladları ilə dünya elminə, iqtisadiyyatına, sənayesinə, siyasətinə, diplomatiyasına böyük töhfələr bəxş etmişdir. Dədə-Qorqud şəcərəsindən boy ataraq Babək, Nizami, Nəsimi, Füzuli, Mirzə Cəlil zirvələrinə yetişən, Yusif Məmmədəliyev, Lütvi Zadə yüksəkliklərində qərar tutan, bu gün üçrəngli milli bayrağımızı dünyanın ən ali arenalarında şərəflə dalğalandıran cahangirlərimizin zəfərlərində davam edən müqəddəs yolda «Dünyanın ən böyük azərbaycanlısını» müəyyənləşdirmək heç bir çətinlik yaratmır. Minlərlə soydaşımız qabiliyyətləri, vətənə bağlılıqları ilə bu ada layiq olduqlarını təsdiqləyiblər, milli irsimizə öz qiymətli izlərini həkk etdiriblər. Lakin bu şərəfət silsiləsində Heydər Əliyev imzası xüsusi görünür. Dünyanın ən böyük azərbaycanlısı adlanmağa mənəvi haqq qazanır.

Heydər Əliyev Azərbaycan xalqının malik olduğu potensialın, ali şüurun, modern təfəkkürün, bir sözlə, milli enerjinin ən bariz nümunəsidir. Heydər Əliyev şəxsiyyəti Azərbaycan tarixinin ən məşhur isimlərinin malik olduğu keyfiyyətlərin küll halında məcmusudur. Dədə Qorqudun barışdırıcılıq və birləşdiricilik ənənələri, Şah İsmayılın güclü və qüdrətli dövlət qurmaq bacarığı, Babəkin və Cavad xanın istibdada qarşı xalqın müqavimətini təşkil etmək səyi, Mirzə Fətəli, Mirzə Cəlil, Üzeyir bəy, Əli bəy Hüseynzadənin maarifçilik fəaliyyəti bu insanın şəxsi keyfiyyətlərində birləşirdi. Heydər Əliyev həm də kamil siyasi məktəbin yaradıcısı, mükəmməl dövlətçilik və idarəçilik sisteminin banisi, milli inkişafı şərtləndirən irsin müəllifidir.

Heydər Əliyev minilliklər boyu davam edən tariximizin yalnız 35 ilinə sahiblik edir. Lakin əsrin üçdə birini ehtiva edən bu zaman kəsiyinin mahiyyətində xalqın minilliklərlə intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrildi. Bu 35 il Azərbaycanda müstəqilliyin nəhayət ki, əbədi, daimi dönməz xarakter almaq, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş olaraq dərk etməsi və millət tək mövcudluğuna qədər inkişafı kimi misilsiz tarixi prosesi əhatə edir. Bir sözlə, bu xalq əsrlər boyu qazandığı nailiyyətləri, ali keyfiyyətləri Heydər Əliyev epoxasında təkmilləşdirərək sistem halına saldı və millət kimi mövcudluğunu, dövlət qurmaq haqqını, özünü idarə etmək bacarığını ən yüksək həddə nümayiş etdirdi.

Heydər Əliyev müasir, sivil, demokratik dəyərlərə sahib, azad, müstəqil yaşayan bir milləti dünyaya təqdim etdi! Heydər Əliyev bütün bəşəri dəyərləri özündə əks etdirən, ən ali ənənələri yaşadan və modern yeniliklərə qovuşan, yeni dünya düzənində əhəmiyyətli yer tutan dövlət yaratdı! Nəticə etibarilə indi Heydər Əliyev faktoru Azərbaycan dövləti və Azərbaycan xalqı ilə birlikdə vahid tam təşkil edir. Və bu vəhdət o, cismani həyatda olmadıqda belə öz qüdrətini, təntənəsini yaşayır.

Ancaq bu yol böyük fəlakətlərdən, çətinliklərdən, xəyanətlərdən, sarsıntılardan keçdi...

Sovet Azərbaycanında milli irsin yaradıcısı

Heydər Əliyev Azərbaycan tarixinin ən ziddiyyətli illərinin birində – 1923-cü ildə, ölkənin ən mürəkkəb bölgəsində – 3 dövlətlə həmsərhəd ərazidə yerləşən, ana vətəndən isə uzaq düşən Naxçıvanda dünyaya gəldi. Yaşadığı dövrün xarakterik məziyyətləri, həmçinin bölgənin coğrafi həssaslığı bu insanda hələ yeniyetməlik dövründə dövlətinin və xalqının taleyi ilə bağlı çoxsaylı suallar yaradırdı. Şübhəsiz ki, bu suallar cavabsız idi. Lakin nəzəri biliklər və təcrübə Heydər Əliyevdə get-gedə bitkin təsəvvür formalaşdırır, ölkənin və millətin müqəddəratı ilə bağlı aydın məram yaradırdı.

Bu ali insanın ömür yolunun başlanğıcı «çekist» məktəbindən - Dövlət Təhlükəsizlik Komitəsindən keçdi. Heydər Əliyev əməliyyat müvəkkilliyindən komitə sədrinə qədər keçdiyi yolda Azərbaycanın da məngənəsində olduğu rejimin öz kadrlarından gözlədiyi öhdəliklərin heç birini yerinə yetirmədi. Nə azərbaycanlı millətçilərin ifşası ilə bağlı istintaq apardı, nə də bu məqsədlə ona tapşırılmış əməliyyat tədbirlərini «uğurla» başa vurdu. Apardığı istintaq işlərinin nəticəsinə görə isə heç bir azərbaycanlı siyasi motivə görə məsuliyyət daşımırdı. Heydər Əliyevin DTK sədri olduğu müddətdə bu qurumun kontingentində mütləq əksəriyyət təşkil edən erməni-rus millətinin təmsilçilərinin mövqeyi qısa zaman ərzində azərbaycanlılarının kütləvi işə götürülməsi hesabına zəiflədi. Elə bu fakt Heydər Əliyevin həyatının və fəaliyyətinin DTK dövrünü tam əks etdirməyə yetərlidir. 1967-ci ildə Azərbaycanda Novruz bayramının geniş şəkildə qeyd olunmasına şərait yaradılmasında və bu mərasimə etiraz edən qüvvələrin susdurulmasında göstərdiyi böyük xidmətlərə görə Heydər Əliyev tariximizdə əbədi yaşamaq haqqı qazanıb!

1969-cu ilin 14 iyulunda Azərbaycana rəhbər təyin olunması isə Heydər Əliyev üçün dövlətə və xalqa xidmət üçün daha geniş imkan, vasitə yaratdı. Heydər Əliyevin ilk idarəçiliyi 13 il 4 ay çəkdi. Bu epoxanı tam mənasında dərk edə bilmişikmi?

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə məsul vəzifələrdə çalışmışam. Əvvəlcə Ordubad rayon Partiya Komitəsində II katib, sonra həmin rayonda və Culfada Birinci katib, Naxçıvanda əhaliyə məişət xidməti və mədəniyyət naziri işləmişəm. Bu müddətdə Heydər Əliyev şəxsiyyətini, həmçinin onun cahanşümul fəaliyyətini həm vətəndaş, həm də dövlət aparatının əməkdaşı kimi müşahidə etmişəm. Həmin illərin uğur təzahürləri tək Azərbaycanın iqtisadi gücünün artırılıb, iqtisadi muxtariyyətin bərqərarı ilə yekunlaşmadı. Bu, milli-mənəvi, mədəni, ədəbi yüksəlişlərlə, əsl azərbaycanlı düşüncə tərzinin və şüurunun yaranması ilə davam etdi. Saxta beynəlmiləlçilik dalğasında milli mənliyini itirən, dilini unudan, kimliyini danan, tarixindən imtina edən, əcdadından dönən... azərbaycanlı dövlətin təzyiqi ilə qarşılaşdı. Bəli, Heydər Əliyev azərbaycanlıya azərbaycanlı olduğunu qəbul etdirmək, Azərbaycana Azərbaycan ruhunu qaytarmaq üçün bütün administrativ resursları ilə hücuma keçmişdi.

Həmin dövrün ən qabarıq xüsusiyyətlərindən biri də o idi ki, Mərkəzi Komitənin adi instrukturu da işə götürülmək üçün şəxsən «birincinin» imtahanından keçməli idi. İmtahan isə nə partiya tarixindən, nə beynəlmiləlçilik təbliğatından, nə də Lenin prinsiplərindən idi. Birinci katibin ilk sualı Azərbaycan dilini hansı səviyyədə bilməsi, sonrakı suallar isə Dədə-Qorqud haqqında hansı təsəvvürlərin olması, Cəfər Cabbarlının hansı dramını oxuması, bir sözlə, Azərbaycan xalqının tarixi keçmişini yaşadan məsələlərlə bağlı olurdu. Heydər Əliyevin bu orijinal mahiyyətli və milli ruhlu imtahanın sorağı tez bir zaman ərzində ölkəyə yayıldı. 2 il ərzində DTK-nı milliləşdirən bu insan qısa müddət ərzində də Azərbaycan kommunistlərinin rəhbər heyətini, yerli komitələrini «təmizlədi».

Heydər Əliyev fəaliyyətinin ilk illərində ali və orta məktəblərinin sayının bir neçə dəfə artırılması, milli ədəbiyyata, folklora, mədəniyyətə və incəsənətə dövlət qayğısının gücləndirilməsi barədə qərarlar verildi, 1978-ci ildə isə Azərbaycan dili dövlət dili kimi ölkə Konstitusiyasında təsbit edildi. Ümumiyyətlə doğma dilimizə qayğı, diqqət Heydər Əliyev tərəfindən dövlətin vacib vəzifəsi kimi müəyyənləşmişdi. Hələ birinci katib kimi fəaliyyətə başlamasından cəmi 3 ay sonra – 1969-cu ilin noyabr ayında Azərbaycan Dövlət Universitetinin (indiki BDU) 50 illik yubiley mərasimində rəsmi çıxışı Azərbaycan dilində etməklə (o dövrdə bu tipli çıxışlar istisnasız olaraq rus dilində olurdu) bu dilin statusunu yüksəltdi. Beləliklə, Heydər Əliyev Sovet Azərbaycanının rəsmi həyatında doğma dildə danışmaq ənənəsinin əsasını qoydu və bunu hər bir vətəndaşdan daim tələb etdi.

Heydər Əliyevin sayəsində Azərbaycanda Azərbaycan ruhu və azərbaycanlı mahiyyəti hakim idi. Azərbaycan heç vaxt olmadığı kimi azərbaycanlıların idi. Milli ruh, milli mənəviyyat, milli keçmiş, milli ıntıbah artıq adi söz deyildi, bunlar cəmiyyətin və vətəndaşın əsas xüsusiyyət göstəriciləri idi. Heydər Əliyev Azərbaycanı müstəmləkə kimi deyil, iqtisadi və milli-mənəvi muxtariyyatı olan ölkə tək yaşadırdı. Heydər Əliyev fəaliyyəti ilə tarixə ibrət dərsi verirdi ki, ən qəddar tiranların idarəçiliyində, ən qanlı imperiyaların məngənəsində olanda da öz ölkənə, xalqına xidmət edə bilərsən.

Növbədə məmləkətimizin «altına qoyulmuş gec partlayan bomba» - Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycan üsul-idarəsini bərpa etmək idi. Rəhbərimiz DQMV-də meydan sulayan erməni hikkəsini ustalıq-

la yatırdı, bütün azərbaycanlıları, Qarabağı ermənilərə «göz dağı» etdi. Heydər Əliyev müxtəlif üsullardan və vasitələrdən istifadə etməklə Dağlıq Qarabağ ərazisini azərbaycanlılaşdırırdı. Əgər, 1970-ci illərin əvvələrində DQMV-nin ümumi əhalisinin 18 faizi azərbaycanlı idisə, bu rəqəm 1970-ci illərin axırlarında 23 faizə çatmış, 1980-ci illərdə isə 30 faizi keçmişdi. Azərbaycana inkişaf, rifah bəxş edən Heydər Əliyev bu prosesə Dağlıq Qarabağ ərazisində xüsusi diqqət ayırırdı.

Heydər Əliyevin Dağlıq Qarabağda yaşayan azərbaycanlıların təhsilinə olan qayğısı sayəsində çoxlusayda yeni məktəb binaları inşa edildi. Yeni yaradılmış təhsil ocaqlarının kadr potensialını həll etmək məqsədilə dahi rəhbərimiz Xankəndidə pedaqoji institut açdırdı. Heydər Əliyev Qarabağ ərazisində azərbaycançılığın simvolu sayılan Şuşaya xüsusi diqqət ayırırdı. Şəhərdə kurort kompleksinin inkişaf etdirilməsi məqsədilə böyük işlər görüldü. Dahi Üzeyir Hacıbəyovun abidəsi, şairə Natəvanın büstü, Vaqifin məqbərəsi. Şuşada Tarix muzeyi, Bülbülün ev muzeyi, Poeziya evi, Xalça evi, Şəkil qalereyası məhz 70-ci illərdə ərsəyə gəldi.

Zirvələrə Heydər Əliyevlə yanaşı, Azərbaycan da ucalırdı

Heydər Əliyev hər sahədə istiqamətverici olaraq hamını fəaliyyətini məhz milli mahiyyətə yönəltməyə səfərbər edirdi. Azərbaycan tarixinin yenidən yazılması, tədqiq edilməsi üçün böyük fədakarlıqlar göstərən əbədiyaşar liderimiz Moskvanın təzyiqlərinə baxmayaraq bu ali niyyətinə də nail oldu və Kremlin az qala şovinist kimi günahlandırdığı tarixçi alimləri dövlət mükafatları ilə təltif etdi. Heydər Əliyevin təşəbbüsü ilə Mərkəzi Komitə hər bir rayonda tarix-diyarşünaslıq muzeyinin yaradılması ilə bağlı qərar qəbul etdi. Bu qərar Azərbaycanın qədimdən türk torpağı olmasını təsdiq etmək məqsədi daşıyırdı. Heydər Əliyev ədəbiyyat xadimlərini 30-cu illərdən etibarən qadağan olunmuş mövzuları yenidən işləməyə çağırdı və onlara toxunulmazlıq təminatı verdi. Artıq Azərbaycan ədəbiyyatında intibah dövrü başlamışdı. Təsadüfi deyildi ki, o zamanlar ittifaqda yazıçı və şairlərin dissedentliyi, onların təqib olunması kütləvi hal alsa da, bu prosesə Heydər Əliyevin sayəsində Azərbaycanda rast gəlinmədi. Çünki bütün ədəbiyyat xadimləri rəhbərinin himayəsində toxunulmaz idi.

Heydər Əliyev üçün milli irsin qorunması və inkişaf etdirilməsi prosesində ən vacib məsələ kimi təhsilə qayğı dayanırdı. Fəaliyyəti müddətində orta ümumtəhsil məktəblərinin sayını 3 dəfə, texniki-peşə məktəblərinin sayı isə 2 dəfə çoxaltmış, ali məktəblərin sayını isə 12-dən 17-ə çatdırmışdır. Birbaşa Heydər Əliyevin qayğısı və himayəsi sayəsində maarif işçiləri SSRİ-nin yüksək orden və medalları ilə təltif edilmiş, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, SSRİ və respublika Ali Sovetlərinə deputat seçilmişlər.

Heydər Əliyevin Azərbaycan qarşısındakı əvəzsiz xidmətlərindən biri də 1970-1980-ci illərdə şəxsi təşəbbüsü və qayğısı ilə respublikadan kənarda, SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 80-dən artıq ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına şərait yaratmasıdır. Əgər 1969-cu ilədək bu tələbələrin tərkibində azərbaycanlıların sayı cəmi 40 faiz təşkil edirdisə, 1980-ci ildə bu göstərici 97,6 faizə qədər yüksəldi. Heydər Əliyev bu tendensiyanı SSRİ-nin ali hərbi məktəblərinə oxumağa gedənlərin tərkibində də qoruyurdu. Bir məqamı da qeyd edim ki, Heydər Əliyev hər il avqustun sonunda tələbələrin rəsmi yola salınma mərasimi təşkil edir, onların sosial yaşayışına daim kömək ediləcəyini bildirir, ən nəhayət isə «Biz sizi Azərbaycandan kənara ona görə göndəririk ki, kamil mütəxəssis kimi Azərbaycana qayıdasınız, öz ölkənizə xeyir verəsiniz» - nəsihətini söyləyirdi.

Bununla yanaşı, Azərbaycanda hərbi məktəblər yaradılır, gənclərimizin bu tədris müəssisələrində oxumaları üçün dövlət tərəfindən xüsusi səy göstərilirdi. Bir sözlə, Heydər Əliyev hələ 70-ci illərdə müstəqil Azərbaycan üçün kadr korpusu formalaşdırırdı!

Heydər Əliyev Azərbaycanı böyük bir tikinti meydanına, quruculuq məkanına çevirmişdi. Kəndlərə şəhər siması gətirən rəhbər bu məntəqələrdə müasir tipli məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, ictimai-işə obyektləri inşa etdirirdi. Şəhərlərdə hər kvartalda yeni fabrik və zavodların açılması ənənə halını almışdı. Azərbaycan yeni mikrorayonlar, park və xiyabanlar, küçə və meydanlar hesabına böyüyərək gözəlləşdi. "Gülüstan" və "Respublika" sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehmanxanaları, Əl oyunları sarayı və Olimpiya İdman Kompleksi, metro stansiyaları və digərləri həmin dövrdə tikilmiş, N.Nərimanova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə abidələr qoyulmuşdur.

Azərbaycan dövlətinin memarı olan Heydər Əliyev həm də sözün həqiqi mənasında memar idi. Şəxsən şahidi olduğum bir hadisəni daim xatırlayıram. 1979-cu ildə Heydər Əliyevin yanında Naxçıvan şəhərinin baş planı müzakirə olunurdu. İclasda müvafiq idarələrin rəhbərləri ilə yanaşı, muxtar respublikadan da xeyli məsul vəzifəli şəxs iştirak edirdi. Müzakirələrin gedişində Heydər Əliyev Əliş Ləmbəranskiyə xitabən, «tikinti ilə bağlı milli konsepsiyamız varmı?» - sualını verdi. Cavab belə oldu ki, belə bir konsepsiya yaxın vaxtlarda hazırlanacaq. Heydər Əliyev özünə xas tərzdə gülümsünərək, «Naxçıvanda Mömünə Xatun məqbərəsi Əcəmi memarlıq məktəbinin indi də yaşayan kamil nümunəsidir. Siz qarşıdakı 20 il üçün bu məktəbdən bəhrələnin, sonrakı dövr üçün isə istəsəniz, yeni konsepsiya hazırlayarsınız». Yəni, əbədiyaşar liderimiz hətta memarlıq məsələlərində də milli xüsusiyyətləri qoruyurdu.

Heydər Əliyev Sovet Azərbaycanında milli iqtisadiyyatı da bərqərar etdirdi. Mərkəzin həyata keçirdiyi bütün respublikaların biri-birindən iqtisadi və xammal asılılığı siyasəti Azərbaycanda ulu öndərimizin səyi ilə dayandırıldı. Yeni istehsal sahələri ölkənin iqtisadi müstəqilliyinin daha da artmasını şərtləndirirdi. Əhalinin sosial durumu qat-qat artırdı. Sənaye, kənd təsərrüfatı, istehsal dinamik inkişaf edirdi. Ölkədə yüzlərlə yeni sənaye müəssisəsi istismara verilmişdir. Sənayedə əmək məhsuldarlığı 2 dəfə, milli gəlirin həcmi 2.5 dəfə artmışdır və qeyd edilən 13 il ərzində istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ilə bərabər idi. Bu rəqəmlərin quru statistik mahiyyətində əslində, böyük Azərbaycan quruculuğu dayanırdı. Neft sektoruna diqqət isə xüsusi əlahiddə əhəmiyyət kəsb edirdi. Ötən əsrin 70-ci illərindən etibarən isə neft sənayemiz yeni inkişaf mərhələsinə qədəm qoydu. Neft sektorunda bilavasitə Heydər Əliyevin adı ilə bağlı olan nailiyyətlər miqyasca geniş, həcmcə isə böyük idi. Yeni buruqlar kəşf edilmiş, sənaye istehsalı artımı neftdə 3 dəfə, qaz sektorunda isə 2 dəfə çoxaldı. Ən mühüm cəhətlərdən biri də o idi ki, əgər 70-ci illərədək Azərbaycanın bütün qazancı ittifaq büdcəsinə axaraq, respublikaya yalnız «qəpik-quruş» qalırdısa, ulu öndərimizin hakimiyyətə qayıdışından sonra bu vəsait mərkəzdən iri məbləğdə vəsait ayırmaları şəklində yenidən ölkəmizə qayıdırdı və bu pulun hesabına Azərbaycan dinamik inkişaf edirdi.

Heydər Əliyev yalnız Azərbaycanı yenidən quraraq inkişaf etdirmirdi, həm də ölkəmizi dünyaya tanıdırdı. Onlarla ədəbiyyat və incəsənət xadimi,

sənətkar, müxtəlif peşə sahibləri qədirbilən rəhbərin sayəsində ittifaqın ali fəxri adları, dövlət mükafatları ilə təltif edilmişdilər. Bu şəxslər yalnız zəhmətlərinə görə mükafatlandırılmırdılar, onların təltifləri həm də bütün ittifaqa – 300 milyon sovet insanına Azərbaycanın neçə qüdrətli şəxsiyyətlərə, bu xalqın isə bacarıqlı vətəndaşlara malik olmasını göstərmək məqsədi daşıyırdı. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının klassiklərinin və müasirlərinin əsərləri müxtəlif dillərə tərcümə edilir, teatrlarımız bütün ittifaq boyu qastrol səfərlərinə gedir, rəssamlarımızın sərgiləri, müğənnilərimizin konsertləri Sovetlər Birliyinin hətta ən ucqar məntəqələrində belə təşkil olunurdu. Bütün ittifaq Azərbaycanı yenidən tanıyırdı.

Heydər Əliyev Azərbaycanı bütün dünyaya yeni qiyafədə təqdim edirdi, özü yüksəldikcə Azərbaycanı da zirvələrə ucaldır, milli irsi daim inkişaf etdirildi!

Yeni missiya

1982-ci il! Heydər Əliyev artıq dünyanın altıda birini təşkil edən böyük bir dövlətin ən ali rəhbərliyində dördüncü adam idi (Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən yüksək yalnız üç post var idi: baş katib, Ali Sovetin sədri və Nazirlər Sovetinin sədri). «Kremlə sancılan əzəmətli Türk Bayrağı» ittifaqın bütün sənayesinə, iqtisadiyyatına, təsərrüfatına, elminə, təhsilinə, mədəniyyətinə, səhiyyəsinə, tikintisinə, bir sözlə, bütün strateji sahələrinə birbaşa rəhbərlik edirdi. O, Siyasi Büronun üzvü kimi dövlətin xarici və daxili siyasətini müəyyənləşdirən əsas simalardan sayılırdı.

Bu, Azərbaycana və azərbaycanlıya olan çox böyük etimad idi. Bu, yalnız bir fərdin yüksəlişi deyildi, bütünlüklə dövlətimizin və xalqımızın uca zirvəni fəth etməsi idi. Bu, siyasət fatehi ilə qürur duyan kiçik bir məmləkətin misilsiz sevincinin növbəti təzahürü idi. Azərbaycanı böyük tikinti meydanına çevirən Heydər Əliyev fəaliyyətini indi daha geniş müstəvidə davam etdirirdi. Brestdən Vladivostokadək, Norilskdən Həştərxana qədər on minlərlə tikinti meydanının, Baykal-Amur Magistralının baş inşaatçısına çevrilən bu böyük Azərbaycanlının xidmətlərini indi keçmiş müttəfiq respublikalarda böyük hörmətlə xatırlayırlar. Bu müddətdə Heydər Əliyev şübhəsiz ki, vətənini unuda bilməzdi. Həmin illərdə mərkəzdən Azərbaycana ayrılan vəsaitlərin həcmi dəfələrlə artırılmış, respublikada gedən quruculuq işlərinə daha geniş və münbit zəmin yaranmışdı.

İttifaqda «yenidənqurma» adı altında aparılan dağıdıcılıq fəaliyyəti şübhəsiz ki, ilk öncə peşəkarları, qabiliyyətli insanları hədəfə almalı idi. Belə də oldu. Heydər Əliyev yeni sınaqların astanasında idi. Yeni rəhbərliyin cəsarətinə sığışdırıb açıq apara bilmədiyi, ancaq pərdəarxasında daim genişləndirdiyi intriqalar, partiya yoldaşlarının buqələmun xislətləri, onun xofu ilə yaşayan sərişəsiz kadrların irəli çəkilməsi, daha sonra isə baş katibin xeyir-duası ilə Ermənistanın separatçı meyllərinə münbit şəraitin yaradılması, Azərbaycana qarşı mənfi münasibətin daha da kəskinləşməsi, ən ağrılısı isə respublikada onun siyasi kursuna xəyanət edilməsi Heydər Əliyevi mənən ağrıdırdı. Bu müddətdə Azərbaycandan aldığı təskinlikverici teleqramların sayı günü-gündən artdığı kimi, bu məmləkətdən onun əleyhinə Kremlə göndərilən donosların da sayı çoxalırdı. Bu, xəyanət idi! Bu, bütün dahilərin taleyidir ki, Heydər Əliyev də bu taleyi bölüşməyə məhkum idi!

Heydər Əliyev müqavimət göstərməyi əbəs saydı və istefa ərizəsini yazmağa heç bir çətinlik çəkmədi. O, bir daha sübut etdi ki, hakimiyyət onun üçün məqsəd deyil, sadəcə dövlətinə və xalqına, ona etimad bəsləyənlərə xidmətdir. Daşıdığı vəzifə nə qədər yüksək olsa da, malik olduğu hakimiyyət nə qədər alı səciyyə daşısa da, Heydər Əliyevin yalnız elə quruca adı bu iyerarxik məqamlardan həmişə yüksəkdə dayanıb. Vəzifələr ona hörmət gətirməyib, O, bütün vəzifələrə şərəf bəxş edib.

1987-ci ilin noyabrının birinci ongünlüyündə Heydər Əliyev vəzifəsindən və Siyasi Büro üzvlüyündən istefa verdi. 1987-ci ilin noyabrının ikinci ongünlüyündə Dağlıq Qarabağ münaqişəsində 60 il davam edən atəşkəs pozuldu. Heydər Əliyevin vəzifəsizliyinin on günlüyünü ermənilərin belə qeyd etməsi, bu kişinin mübaliğəsiz olaraq, AZƏRBAYCANIN GÜCÜ olduğunu ən bariz şəkildə göstərirdi.

Yeni rəhbərlik Heydər Əliyev kursundan sapdığı üçün Azərbaycan ən qanlı faciələrlə baş-başa qaldı. Onun böyük zəhmət və əziyyətlərlə qurduğu dövləti çox asanlıqla dağıtdılar, böyük fədakarlıqlar hesabına yenidən azərbaycanlının torpağına çevirdiyi əraziləri separatçılara peşək etdilər. Əliyevsizlik Azərbaycana bax beləcə, baha başa gəldi...

Artıq Heydər Əliyevə qarşı qanlı repressiya maşını işə düşmüşdü. Ailəsi olmazın problemlərə düçar edilmişdi. Oğlu İlham və qızı Sevil iş yerlərini itirmişdilər. Bakıda yaşayan qohumları daim təhlükə içində idilər. Onunla Azərbaycanda əlaqə saxlayanların da günü xoş keçmirdi. Onu Azərbaycana qayıtmağa da qoymurdular. Ancaq o, nə geri çəkildi, nə də sındı.

Çünki bilirdi ki, dövləti və xalqı onu gözləyir. Kreml və Bakı rəhbərliyi hətta ən qanlı terror ssenariləri, mənəvi təzyiqlərlə də Heydər Əliyev qarşısında tərksilah oldular. 1990-cı ildə Heydər Əliyev Azərbaycana qayıtdı.

Artıq onun Azərbaycanda yürüdəcəyi yeni fəaliyyətin konturlarını xalq müəyyənləşdirmişdi, özü də Heydər Əliyevlə məsləhətləşmədən. Onun davamlı etirazlarına baxmayaraq, deputatlığa namizədliyi irəli sürüldü, kəskin şəkildə imtinasına əhəmiyyət vermədən xalq onu Azərbaycanın və Naxçıvanın Ali Sovetlərinə deputat seçdi. Bu, Azərbaycanın strateji seçimi idi. Özünün qəti etirazlarına, rəsmən imtinasına baxmayaraq Naxçıvan sakinlərinin uzunmüddətli mitinqlərindən sonra Muxtar Respublikanın Ali Məclisinə rəhbərlik etməyə razılaşır. Heydər Əliyev xalqın arzu və istəkləri ilə yenidən siyasi olimpə doğru irəliləyirdi. Həmin dövrün canlı şahidi kimi, Heydər Əliyevin komandasında nazir postunu tutan şəxs olaraq o hadisələri indi də qürur hissi ilə xatırlayıram.

Naxçıvan Azərbaycanın müstəqillik savaşının ideya və real fəaliyyət mərkəzinə çevrildi. Məhz ilk dəfə Naxçıvanda dövlət atributları rəsmən qəbul olundu, bayrağımız rəsmi formada dalğalandı, «Sovet Sosialist» sözündən imtina edildi, Sovet qoşunları ərazini tərk etdi, sərhəd məntəqələrində Azərbaycan bayrağı ucaldıldı, tarixi ədaləti və müstəqil dövlətçilik prinsiplərini bərqərar edən fərmanlar imzalandı. Heydər Əliyevin bu təşəbbüslərini sonradan Azərbaycan Milli Şurası da rəsmiləşdirməyə məcbur oldu. Heydər Əliyev Azərbaycan məkanında əsl müstəqillik və layıqli dövlətçilik nümunəsini formalaşdırdı. Blokadada olan bölgəni yaşatmağa müvəffəq oldu. Əhalinin təhlükəsizliyini təmin etdi. İşğalın qarşısını aldı. Xalqın qarşısında müqayisə üçün iki siyasi xətt var idi: siyasi intriqa və dövlətə xəyanət timsallı avantüristlər, yaxud da dövləti qorumağı, vətəndaşı yaşatmağı bacaran kamil idarəçilik sistemi. Seçim Azərbaycanın xeyrinə idi. 1993-cü ilin iyun hadisələri Azərbaycanın intizarla sözünü gözlədiyi insanın hakimiyyətə dönüşünü tezləşdirdi.

Azərbaycanın taleyində yeni səhifə açıldı. Milli irs yenidən davam etdirildi.

Əbədiyyətə çevrilən ömür

... O günlərdən cəmi 12 il ötür. Bu 12 ilin fəlsəfi mahiyyətində bir əsrlik prosesin yükü olsa da, tarixi xronologiya baxımından çox qısa za-

mandır. O qədər qısa ki, nə həmin dövrü unutmaq, nə də bu müddətdə baş verən dəyişiklikləri, misilsiz intibahı danmaq mümkündür.

Heydər Əliyev Azərbaycana qurtuluş, nicat, qüdrətli ordu bəxş etdi, ölkəyə sabitlik, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi, vətəndaşına ən ali hüquq və azadlıqlar, sərbəstlik, təkmil Konstitusiya, azad və ədalətli seçkilər, xalqın səsi ilə ərsəyə gələn parlament verdi. Heydər Əliyev MDB-də ilk dəfə olaraq torpaq islahatı apardı və torpağı minilliklərlə ölçülən tariximizdə ilk dəfə olaraq kəndliyə təmənnasız bağışladı. Heydər Əliyev neftı «fəlakət mənbəyindən» yüksəlişin əsas amilinə və ümumxalq sərvətinə çevirdi, xalqı mülkiyyətçiyə, sahibkara, pul yiyəsinə çevirdi, halallıqla dolanmağı və çörək qazanmağı öyrətdi, məcburi köçkünü bataqlıqdakı çadırdan müasir evlərə köçürdü, dünyanı, beynəlxalq təşkilatları qarış-qarış gəzərək Azərbaycanın haqq səsini qəbul etdirdi və Ermənistanın təcavüzkar siyasətini ifşa edərək, qələbəməzin siyasi, diplomatik və informativ zəminini formalaşdırdı.

Heydər Əliyev Azərbaycanda vətəndaş qarşıdurmasını yox etdi, vətəndaş birliyini, sülhünü və həmrəyliyini yaratmaq məqsədilə on minlərlə insana amnistiya və əfv tətbiq etdi, hətta onun fiziki qəsdinə çalışan cinayətkarları bağışladı. Heydər Əliyev Azərbaycan insanına güclü və qüdrətli dövlət, Azərbaycana isə uğurunda canından keçəməyə hazır olan vətəndaşlar bəxş etdi. Heydər Əliyev elə bir siyasi kursun əsasını qoydu ki, bu kurs Azərbaycan durduqca məmləkətimizin dövlətçilik konsepsiyası kimi yaşayacaq!

Heydər Əliyev üçün qeyd edilən uğurlardan da fövqəl dayanan bir məsələk, məram var idi: milli-mənəvi dəyərləri əks etdirən ideologiya əsasında dövlət quruculuğunu aparmaq, milli irsi məhz bu yönümdə formalaşdırmaq! Heydər Əliyev xalqa, dövlətə Azərbaycançılıq ideologiyası bəxş etdi. Artıq Azərbaycançılıq ideologiyası bu istiqaməti formalaşdırmaq, milli-mənəvi dəyərlərin qorunması və təbliğ edilməsi sahəsində irəliləyişlərə nail olmaq baxımından mükəmməl ideoloji zəmin və sənəd kimi özünü təsdiq edib. Azərbaycançılıq ideologiyası əslində, milli-mənəvi dəyərlər sistemində tətbiq olunması və daim öyrənilməsi vacib olan mükəmməl nəzəri-praktik ideoloji bazadır.

«Bizim üçün bir tarixi amil – Azərbaycançılıq idealogiyası var» deyən Heydər Əliyevin qənaətincə, bu, Azərbaycan insanının dövlətçilik düşüncəsinin əsasını təşkil edən milli, mənəvi, mədəni, ədəbi, tarixi, siyasi, iqtisadi dəyərlər sisteminin ümumiləşdirilmiş məcmusudur. Ölkə prezidentinin fikirlərinə diqqət yetirək: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq... Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir».

Heydər Əliyev üçün ana dili Azərbaycançılığın başlanğıc məqamı, təməl prinsipidir. Məhz bu baxımdan rəhbərimiz tam aydınlığı ilə anlayırdı ki, xalqına milli-mənəvi dəyərlərini aşılamaq üçün ilk növbədə ona dilini qaytarmaq və sevdirmək lazımdır: «Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir»

Heydər Əliyev Azərbaycan dilini həm də dünya azərbaycanlıları üçün birləşdirici faktor kimi də qiymətləndirirdi. 1993-cü ildən etibarən ulu öndərimiz Azərbaycandan kənarda yaşayan həmvətənlərimizin təşkilatlanması, ən əsası onların özlərini azərbaycanlı hesab etmələri, bəzən unutduqları dillərinə, mədəniyyətlərinə, milli-mənəvi dəyərlərinə qayıtmaları üçün xüsusi fəaliyyət mexanizmi müəyyənləşdirdi və buna uyğun olaraq da əməli işə başladı. Ümummilli liderimiz bütün xarici səfərlərində istisnasız olaraq həmin ölkədə yaşayan Azərbaycan diasporası ilə görüşür, onların təşkilatlanması, dövlətlərinə, Azərbaycanda yaşayan soydaşlarına, mentalitetlərinin meyarlarına daha sıx bağlı olmaları üçün müdrik ağsaqqal tövsiyələri verirdi. Heydər Əliyevin bu fikirləri xüsusilə məzmunlu və əhatəlidir: «Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlılar üçün doğma vətəndir, hansı ölkədə yaşamasından asılı olmayaraq azərbaycanlı öz ana dili-

mı, dinini, milli ənənələrini heç zaman unutmamalıdır. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim, zəngin mədəniyyətə malik olan Azərbaycan kimi vətəni vardır. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında Azərbaycan Respublikası kimi müstəqil bir dövlət durur».

Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin noyabr ayının 9-10-da Bakıda keçirilən Dünya azərbaycanlılarının birinci qurultayı Azərbaycan diasporasının təşkilatlanması istiqamətində dönüş mərhələsinə çevrildi. Bu alı tədbirdə çıxış edən dövlət başçımız dünya azərbaycanlılarının qarşısında dayanan məqsədlər, vəzifələr, missiyalar barəsində, diasporaların işini effektiv və məhsuldar qurmaq yönümündə konseptual fikirlərini səsləndirdi. «Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik... Azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir, şerlərimiz, mahnılarımız, incəsənətimiz, xalqımıza mənsub olan adət-ənənələrimizdir».

Bu gün Azərbaycan Heydər Əliyevin müəyyənləşdirdiyi yolla yeni qələbələrə, daha geniş miqyaslı inkişafa doğru gedir. Heydər Əliyevin irsi bu gün etibarlı əllərdədir. Ulu öndərimizin «Mən Ona özüm qədər inanıram» - deyə qiymət verdiyi Prezident İlham Əliyev Azərbaycanda təməlini Heydər Əliyevin qoyduğu milli inkişaf strategiyasını böyük uğurlarla layiqincə davam etdirir. Bütün bu nailiyyətlərə əsasən, indi tam əminliklə söyləmək olar ki, Heydər Əliyevin yaratdığı irs Azərbaycanda əbədi mütləqiyyətini qoruyacaq, daim xalqın və dövlətin istinadgahı olacaq. Bu irs vətənpərvərlik, peşəkarlıq, milli ləyaqət və əxlaq, modernistlik, zəhmətsevərlilik kimi xüsusiyyətləri, Azərbaycançılıq ideologiyasını ehtiva edir.

Heydər Əliyevin ən böyük irsi isə Müstəqil, Qüdrətli, Yeni Azərbaycandır!

Demək, Azərbaycan yaşadıqca Heydər Əliyev irsi də yaşayacaq!

Bu isə əbədiyyət ömrü, yəni Heydər Əliyev ömrüdür!..

İSGƏNDƏR QULİYEV
Milli Məclisin deputatı

HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI YENİ KONSTİTUSİYANIN MEMARIDIR

XX yüzilliyin son onilliyində dünya birliyində baş verən böyük tarixi proseslər bir sıra başqa xalqlar kimi Azərbaycan xalqına da xoşbəxtlik gətirdi. Xalqımız müstəqil, suveren Azərbaycan dövlətini yaratmağa nail olmuşdur. Bu fonda milli müstəqilliyimizin əsas atributu olan Azərbaycan Respublikası Konstitusiyasının (Əsas Qanunun) qəbul olunması xüsusi əhəmiyyət kəsb edir. Məhz bu Konstitusiya vasitəsilə varlığımız, müstəqilliyimiz, suverenliyimiz, hüquqlarımız bir daha təsdiq olunmuş, dünya birliyinə bəyan edilmişdir. Eyni zamanda bu Konstitusiya ilə və demokratik təsisatlar sahəsində ən önəmli nailiyyətlər qazanmış ölkələrin Konstitusiyaları ilə tanış olarkən bir daha yəqinlik hasil edir və inanırsan ki, Azərbaycan Respublikasının Konstitusiyası dünyada mövcud olan ən demokratik Konstitusiyalardan biridir.

Konstitusiyamızın dərin məna və məzmuna malik olması, əvvəldən axıra qədər onun hazırlanmasına, ərsəyə gətirilməsinə Azərbaycan xalqının dahi rəhbəri, böyük mütəfəkkir və nəzəriyyəçi, müasir dünyamızın məşhur siyasətçisi Prezident Heydər Əliyevin rəhbərlik etməsilə bağlıdır. Konstitusiyanın məzmununun əsas istiqamətlərindən onun bölmə və fəsillərində, mübaliğəsiz demək olar ki, hər bir maddəsində Heydər Əliyev zəkası, Heydər Əliyev təfəkkürü, onun tövsiyyələri müdrik fikir və ideyaları, təcrübəsi, dəst-xətti aydınca hiss olunmaqdadır.

1995-ci il noyabrın 10-da Azərbaycan Respublikasının yeni Konstitusiyasını hazırlayan komissiyanın son iclasındakı çıxışında Prezident Heydər Əliyev, Konstitusiya Komissiyasının bütün üzvlərinin layihənin hazırlanmasında olduqca səmərəli, faydalı, tarixi xidmətlərini vurğulamaqla həmçinin onu da qeyd etmişdir ki: "Komissiyanın sədri kimi şəxsən mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına

xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd-siyasi, hüquqi sənəd yaratmışıq".

Bütün bunları nəzərə alaraq haqqımız var deyək ki, məhz Azərbaycan Respublikasının Prezidenti, Azərbaycanın yeni Konstitusiyası layihəsini hazırlayan komissiyanın sədri cənab Heydər Əlirza oğlu Əliyev Azərbaycanın yeni Konstitusiyasının memarıdır. Bu yeni Konstitusiya xalqımızın ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin şah əsəridir.

Bəs, bu Konstitusiya necə hazırlanmışdır və onun əsas cəhətləri hansılardır? Əvvəlcə onu qeyd edək ki, bizim xalqımızın müstəqil Konstitusiya yaradıcılığı təcrübəsi olmamışdır. Tariximizə nəzər salsaq aşağıdakı mənzərənin şahidi olarıq: Azərbaycan Demokratik Respublikası ancaq Konstitusiya aktı qəbul etmişdir, 1920-ci ildə məlum səbəblər üzündən onun Konstitusiya qəbul etmək məramı baş tutmamışdır.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci il mayın 6-da Bakıda fəhlə, kəndli, qızıl əsgər və matros deputatları Sovetlərinin Birinci ÜmumAzərbaycan qurultayında ilk Azərbaycan SSR Konstitusiyası qəbul edildi. Bu Konstitusiya RSFSR-in 1918-ci ildə qəbul etdiyi konstitusiyadan iqtibas idi və əhalinin bütün təbəqələrinin mənafeyini təmsil etmirdi. Daha sonra 1922-ci il dekabrın 10-da Bakıda Zaqafqaziya Sovetlər qurultayı çağırırdı. Qurultayda ZSFSR-in yaradılması rəsmiləşdirildi. Qurultay ZSFSR-in Konstitusiyasını qəbul etdi və Zaqafqaziya Federasiyasının ali orqanını-Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsini seçdi. Guya müstəqil dövlətlərin birliyi olan ZSFSR-özü müstəqil bir subyekt kimi yeni bir ittifaqa –Sovet Sosialist Respublikaları İttifaqına daxil oldu. 1922-ci il dekabrın 30-da SSRİ və onun Ali Qanunvericilik –SSRİ MİK-si və İcra XKS orqanları yaradıldı. 1924-cü ildə isə SSRİ-nin Konstitusiyası qəbul olundu. Göründüyü kimi 1922-ci ilin dekabrından 1936-cı ilə qədər faktiki olaraq Azərbaycanda üç konstitusiya-Azərbaycan SSR-in, ZSFSR-in və SSRİ-nin Konstitusiyaları paralel fəaliyyət göstərmişlər. Daha sonra Azərbaycanda 1937 və 1978-ci illərdə qəbul olunmuş konstitusiyalar da SSRİ-

nin 1936 və 1977-ci illərdə qəbul etdiyi konstitusiyaların demək olar ki, eyni idi.

1991-ci ilin 18 oktyabrında Azərbaycan Respublikası Ali Soveti Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya qanunu qəbul etdi. Bu da tələm-tələsik hazırlanmışdı. Azərbaycan vətəndaşlarının real hüquq və vəzifələrini heç də tam əks etdirmirdi. Suveren Azərbaycan dövlətində Konstitusiya boşluğu hava, su kimi hiss olunurdu. Bu reallığı və konstitusiya qəbuluna olan tarixi zərurəti nəzərə alaraq bu istiqamətdə böyük əməli işlərə başlanıldı. Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Respublika Prezidenti Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası yaradıldı. Çox geniş tərkibdən ibarət olan bu komissiyaya respublikamızın məşhur dövlət xadimləri, hüquqşünasları, siyasətşünas alimləri, ictimai xadimləri və s. daxil edildilər.

Prezidentin İcra Aparatının rəhbəri fəlsəfə elmləri doktoru, prof.Ramiz Mehdiyevin rəhbərliyi ilə yaradılan işçi qrupu da çox gərgin işləyirdi. Görülən işlər işçi qrupunda, Prezidentin rəhbərliyi ilə yeni Konstitusiyanı hazırlayan komissiyanın iclaslarında dəfələrlə müzakirə olunmuş, hazırlıq prosesində dünyanın ən demokratik ölkələrinin konstitusiyaları da dərindən öyrənilir, müqayisə və təhlil edilib ümumiləşdirilir. Azərbaycan üçün ən məqbul olan cəhətlərə istinad edilirdi.

Məlumdur ki, bəzən konstitusiyalar onu qəbul edən xalqın, xalqların,yaxud dövlətin mənsub olduğu dini ehkamların, təsiri ilə yaxud hakim sülalənin mənafeyinə uyğun, yaxud dövlətin daxil olduğu beynəlxalq hərbi,siyasi, maliyyə və s.qurumların təsiri ilə qəbul edilir. Bir çox ölkələrdə isə adətən konstitusiyalar parlamentlərdə müzakirə və qəbul olunur.

Sovetlər hakimiyyəti dövründə istər ümumittifaq, istərsə də respublika miqyasında qəbul olunmuş konstitusiyaların heç biri referendum vasitəsilə qəbul edilməmişdir. Bir sıra dövlətlər konstitusiyasız da keçinirlər. Hətta qəbilə, tayfa ənənələri, dini təlimlər, şəriət və s. ilə rahatca idarə olunan xalqlar, ölkələr vardır.

Tarixi təcrübə sübut etmişdir və edir ki, ən demokratik, əhalinin bütün təbəqələrinin mənafeyini hərtərəfli təmsil edən konstitusiyalar məhz ümumxalq səsverməsi(referendum) vasitəsilə qəbul olunan konstitusiyalardır. Məhz Azərbaycan Respublikasında qəbul ediləcək Konstitusiyanın da

ümumxalq səsverməsi (referendum) vasitəsilə qəbul olunması barədə qərar qəbul edildi. Bu, bir tərəfdən sivilizasiyalı ölkələrin demokratiya sahəsində əldə etdikləri təcrübəyə, nailiyyətlərə söykənmək, digər tərəfdən indiki çox çətin, olduqca mürəkkəb, keşməkeşli bir tarixi dövrdə bilavasitə bütöv xalqın tarixi müqəddəratında mühüm rol oynayacaq sənədin ən yüksək hüquqi qüvvəyə malik olan Konstitusiyanın məhz xalqın öz iradəsi ilə qəbul olunmasını dəstəkləmək idi.

Layihə hazırlanarkən bəzi məsələlərin müzakirəsi geniş ictimaiyyətin iştirakı ilə həyata keçirilirdi. Belə məsələlərdən biri Konstitusiya layihəsinə dövlət dili kimi hansı dilin daxil edilməsi idi. Məlum olduğu kimi, bu xeyli mübahisələrə səbəb olmuşdur. Şübhəsiz ki, bir az qabaq Azərbaycan Respublikasının dövlət dilinin türk dili elan edilməsi və ümumiyyətlə, Azərbaycan dilinin türk dili adlanıb-adlanmaması barədə olan mübahisələr idi. Dahi Prezidentimiz Heydər Əliyevin bu məsələ barədəki çıxışları, söylədiyi dərin elmi-nəzəri fikirlər, irəli sürdüyü qiymətli təkliflər bu çətin məsələnin müzakirəsinə aydınlıq gətirdi.

Məlumdur ki, Azərbaycan xalqının keçmiş və indiki nəsillərinin ən böyük nailiyyətlərindən biri öz dilini yaratması, tarix boyu çox böyük təhlükələrə, amansızlıqlara məruz qalmasına baxmayaraq, onu qoruyub saxlaması və zənginləşdirməsidir. Azərbaycan dili türk dilləri ailəsində özünə şərəfli yer tutur və indi bu dildə təxminən 60 milyona yaxın adam danışır. Türk dilləri ailəsinə mənsub olan bütün xalqlar, millətlər bu dili birbaşa, asanlıqla başa düşürlər. Bu dildə zəngin mədəniyyət yaradılmışdır. Yer kürəsinin müxtəlif guşələrində Azərbaycanlılar yaşayır. Hamısı da məhz Azərbaycanlı adlanır, bu adla çoxlu müxtəlif cəmiyyətlər, elmi mərkəzlər təşkil etmişlər. Onu da yaddan çıxartmaq olmaz ki, müasir dövrdə erməni tarixçiləri sübut etməyə çalışırlar ki, guya indiki Azərbaycan ərazisində, ümumiyyətlə, Azərbaycanlılar yaşamayıb, burada cəmi bir neçə dağınıq türk tayfaları olub ki, onlar da Orta Asiyadan köçüb gəlmədilər, guya bu torpaqlar əzəli erməni torpaqlarıdır. Əgər biz indi Azərbaycan adından imtina edib, yenidən türk adına qayıtsaq onda tarixi saxtalaşdıran riyakar erməni alimlərinin dəyirmanına su tökmüş oluruq. Türk dilləri ailəsinə mənsub olan ayrı-ayrı xalqların mənsub olduqları dövlətlərdə öz xüsusi dilini dövlət dili elan etməsi heç də ümumdünya türkçülük məfkurəsinin, ideologiyasının formalaşmasına və türk dilli xalqların yaşadıqları coğrafi məkanlar arasında

iqtisadi inteqrasiyanın və hər cürə əlaqələrin genişlənməsinə mane ola bilməz. Bu proseslər isə indi sürətlə getməkdədir.

Nəhayət, uzun müzakirələr və elmi praktik əsaslandırmalardan sonra müdrik şəxsiyyət Heydər Əliyevin təklifi ilə Konstitusiyamıza Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olmasını təsbit edən maddə-21-ci maddə daxil edildi. Həmçinin orada qeyd edilmişdir ki, Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir. Göründüyü kimi dil haqqında maddədə respublikamızda yaşayan azsaylı xalqların və etnik qrupların milli mənafeyi də ciddi surətdə qorunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının – Əsas Qanunun ən diqqətəlayiq cəhətlərdən biri də Azərbaycan Respublikasının Konstitusiyasında tez-tez dəyişikliklər və əlavələr edilməsi cəhdlərinin qarşısına sədd çəkilməsidir. Şübhəsiz ki, zəmanə,insanlar,nəsillər, ictimai mühit və şərait dəyişir.Bu nöqteyi nəzərdən vaxtilə ən ideal hesab edilmiş konstitusiyalara da zəmanənin, tarixi şəraitin tələbi ilə əlavələr edilməsinə və mövcud maddələrin yeni redaktəsinə, yaxud dəyişdirilməsinə ehtiyac duyulur və bu zaman şübhəsiz ki, dəyişikliklər edilməlidir. Lakin siyasət meydanına və hakimiyyətə gələn yeni-yeni qüvvələr unutmamalıdırlar ki, öz şəxsi qrup və partiya ambisiyaları üçün mövcud konstitusiyanı öz mənafelərinə uyğunlaşdırmamalıdırlar. Əksinə, öz fəaliyyətlərini konstitusiyaya uyğun qurmalıdırlar. Belə olduqda ölkədə də sabitlik olar. Çünki ölkənin ümumxalq səsverməsi (referendumu) ilə qəbul olunmuş Konstitusiyasına riayət edilməsi ölkədə sabitliyin qarantıdır.

Konstitusiyaya dəyişiklik edilməsi ilə bağlı olan ibrətamiz bir keçmişi yada salmaq maraqlı olar. Məsələn, 200 il bundan əvvəl ABŞ-da qəbul edilmiş Konstitusiya indi də fəaliyyətdədir və ona cəmi 26 düzəliş, əlavələr edilmişdir. 1978-1995-ci il 12 noyabra qədər Azərbaycan Respublikasının Konstitusiyası və Konstitusiya Aktında nə az, nə də çox –400 dəyişiklik edilmişdir.

Konstitusiyanın-Əsas Qanunun uzunömürlüyünün iki mühüm tərəfi vardır: onlardan birincisi, Konstitusiyanın müasir dövrü və gələcək perspektivləri nəzərə alınmaqla yüksək keyfiyyətlə hazırlanmasıdır. Konstitusiya layihəsi hazırlanarkən Əsas Qanunun uzunömürlü olması əsas meyar kimi götürülmüşdür. Azərbaycan Respublikasının Prezidenti Heydər

Əliyev Azərbaycan Respublikasının Konstitusiyasının layihəsini hazırlayan komissiyanın iclasındakı çıxışında demişdir:"Konstitusiyamızın müddəaları həm bu günümüz üçün, həm də gələcəyimiz üçün yazılmalıdır.Biz çalışmalıyıq ki, Konstitusiyamız üçün bir dövrü əhatə edə bilsin, demirəm ki, daimi olsun, amma Konstitusiyamızın dəyişikliklərə, əlavələrə ehtiyac olmasın. Ona görə də biz Konstitusiyanın layihəsini hazırlayərkən həm bugünkü şəraiti, həm də gələcəyi görməliyik. Elə etməliyik ki, Konstitusiyamız bu gün üçün də, uzaq gələcək üçün də yararlı olsun". Məhz belə meyarlara cavab verən layihə hazırlanmış və ümumxalq süzgəcindən keçdikdən sonra qəbul olunmuşdur. Bu Konstitusiya böyük bəşəri dəyərlərə və məzmuna malik bir Qanundur.

İkincisi isə, Konstitusiyanın özündə ona tez-tez əlavə və dəyişikliklər edilməsi cəhdlərinin qarşısının alınmasını təmin edən xüsusi maddələrin daxil edilməsidir. Yeni Konstitusiyaya məhz belə maddələr daxil edilmişdir.

Konstitusiyamızın XI fəsli – 153,154,155-ci maddələri Azərbaycan Respublikasının Konstitusiyasında dəyişiklik edilməsini imzalayır. 152-ci maddədə yazılmışdır ki, Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər. Həm də bu təklif yalnız Milli Məclis, yaxud Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülməli və bu barədə Azərbaycan Respublikası Konstitusiyası Məhkəməsinin rəyi olmalıdır.

Konstitusiyanın XII fəsil-156,157,158-ci maddələrində Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr edilməsi qaydaları öz yığcam əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasına əlavələri Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikası Milli Məclisinin azı 63 deputatı (deputatların cəmi isə 125dir) təklif edə bilərlər. Konstitusiyaya əlavələr Azərbaycan Respublikası Milli Məclisində 95 səs çoxluğu ilə Konstitusiya qanunları şəklində qəbul edilir.Həm də Konstitusiyaya əlavənin edilməsi elmi və praktiki surətdə əsaslandırılmalı, bundan sonra o, Milli Məclisdə 2 dəfə səsə qoyulmalı, həmçinin Milli Məclisdə səsvermələr arasında 6 ay vaxt keçməlidir. Hər iki səsvermədə təklif qəbul edilərsə, sonra hər iki səsvermədən həm birinci, həm də ikinci səsvermədən sonra imzalanmaq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim olunur. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında təkliflər Azərbaycan Respublikası Prezidenti tərəfindən ikinci səsvermədən sonra imzalandıqda qüvvəyə minir və Konstitusiya qanunu hesab olunur. Məlum olduğu kimi Prezident Heydər Əliyevin 2002-ci ilin iyun ayının 22-dəki fərmanına müvafiq olaraq ölkəmizdə qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunmasının daha etibarlı təmin edilməsi məqsədilə Konstitusiyada dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Referendum aktı layihəsini ümumxalq müzakirəsinə çıxarıldı. 2002-ci ilin avqustun 24-də bu məsələ ilə bağlı ümumxalq səsverməsi- referendum keçirildi və qəbul edilərək 2002-ci ilin sentyabrın 19-da qüvvəyə minmişdir.

Konstitusiyamızda ən ciddi məsələlərdən biri hakimiyyətin dövlət orqanları arasında bölüşdürülməsidir.Qeyd etmək lazımdır ki, tarixən mövcud olmuş dövlət quruluşu barədə hüquqi-siyasi təlimlər arasında hakimiyyətin bölüşdürülməsi konsepsiyası mühüm yer tutmuşdur. Hələ keçmiş dövrün mütəfəkkirləri Aristotel, Paduyalı, Mərsili, C.Lok və başqaları deyirdilər ki, dövlətin fəaliyyəti yekcins deyildir və bir neçə fəaliyyət növünü-qanunvericilik fəaliyyətini, qanunların icrasını, ədalət mühakiməsini özündə birləşdirir.Bu ideyalara əsaslanaraq XVIII əsrdə yaşamış fransız filosofu və tarixçisi Ş.Monteskye hakimiyyətin bölüşdürülməsi nəzəriyyəsini yaratmış və bu da klassik nəzəriyyə kimi qəbul edilmişdir.Onun fikrincə düzgün qurulmuş dövlətdə vahid hakimiyyət ola bilməz.O, cəmiyyətdə bir-birindən asılı olmayan üç hakimiyyətin-qanunverici, icra və məhkəmə hakimiyyətinin olması ideyasını müdafiə edirdi. Həm də bu hakimiyyətlərin bir şəxsin, ya orqanın əlində hər hansı şəkildə birləşdirilməsi mütləq mənafeyin unudulmasına, sui-istifadə təzahürlərinə aparıb çıxarır və şəxsiyyətin siyasi azadlığı ilə bir araya sığmır. Demək olar ki, Ş.Monteskye onun yuxarıda göstərilən təlimi öz dövründə və sonrakı, o cümlədən müasir dövrdə birmənalı qarşılanmasa da, sivilizasiyalı ölkələrdə əsas model kimi qəbul olunmuşdur. Bununla bərabər müasir dünyamızda hakimiyyətin bu üç hissəsi-qanunverici, icraedici, məhkəmə hakimiyyətləri arasında bölgü onlara verilən səlahiyyətlər heç də eyni deyildir. Bəzən qanunverici orqan olan parlamentlərin funksiyası heç də qanunvericiliklə məhdudlaşmır, qanunların icrasına da müdaxilə edir, yuxarı eşolonda kadr dəyişikliyi ilə də məşğul olurlar. Yaxud heç də prezidentlərin hamısı eyni hüquqlara malik deyillər və s.

Azərbaycan üçün prezidentli respublika üsul-idarəsi əsas götürülməklə üç hakimiyyətin –qanunverici, icraedici və məhkəmə hakimiyyətləri olmaqla üç forması məqbul sayılmışdır. Hakimiyyət bölgüsündə ən müvəffəqiyyətli cəhətlərdən biri Respublika Prezidentinin dövlətin və hökumətin başçısı olmasıdır Nazirlər kabineti prezidentin icra strukturlarından biridir-ən yuxarı pilləsidir Dünya ölkələrinin praktikası göstərir ki,icra, yaxud icraya nəzarət funksiyasının hakimiyyət strukturları arasında müştərəkləşməsi heç də yaxşı nəticələr vermir.Əksinə,bu hal mütəmadi olaraq siyasi böhranlara, hədsiz dərəcədə parlament seçkilərinə, kabinet dəyişikliklərinə səbəb olur. Məsələn, İtaliyada ikinci dünya müharibəsindən sonra baş vermiş hökumət dəyişikliklərinin sayı, ümumiyyətlə,müharibədən sonrakı illərin sayından çox olmuşdur.

Konstitusiyamızda mühüm cəhətlərdən biri də Respublikanın Prezidentinin seçilməsi və yenidən seçilməsi üsulu, ona verilən səlahiyyətlərin dairəsi diqqəti cəlb etməyə bilməz. Konstitusiyanın 101-ci maddəsində yazılmışdır: Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir. Həmin maddədə o da qeyd olunmuşdur ki, heç kəs iki dəfədən artıq təkrarən Azərbaycan Respublikasının Prezidenti seçilə bilməz. Ümumən prezidentli respublikalarda Prezidentlər əsasən 4-7 il müddətlərinə seçilirlər.ABŞ-da bu 4-ilə, AFR-də 5 ilə,Fransada və İtaliyada 7 il müddətinə, Suriyada isə 8 il müddətinə seçilirlər. Yeri gəlmişkən , elə ölkələr də vardır ki, burada prezidentlik üsul-idarəsi tədricən mütləq monarxiyaya çevrilir.Bir sıra ölkələrdə dövlət başçısı vəzifəsinə təkrar seçilmək imkanı üçün məhdudiyyət yoxdur.Praktikada bu ona gətirib çıxarır ki, bir dəfə prezident seçilmiş şəxslər on illər boyu həmin vəzifəni tutmaqda davam edirlər. Azadlığa çıxan ölkələrdə ömürlük prezidentlik təsisatının qanunla təsbit edilməsi hallarına getdikcə daha tez-tez rast gəlmək olur. Bir çox hallarda dövlət başçısına müxtəlif dəbdəbəli titullar da qoşulur və bunlar qanunvericilik yolu ilə təsbit edilir, məsələn Zairdə dövlətin başçısı millətin atası, Malazidə isə "böyük elmlər magistri" adlanır.

Qeyd etmək lazımdır ki, əvvəlki Konstitusiya layihəsi 5 bölmə, 13 fəsil, 199 maddə və 7 keçid müddəalarından ibarət idi. Layihənin ümumxalq müzakirəsi zamanı üç mindən çox təklif irəli sürülmüşdür.Nəticədə ümumxalq səsverməsinə (referenduma) təqdim olunan layihə 5 bölmə,12 fəsil, 158 maddə və 12 keçid müddəalarından ibarət olmuşdur.

Referendumda səsvermə siyahılarına daxil edilmiş Azərbaycan Respublikasının vətəndaşlarının 86 faizi iştirak etmişdir. Səsvermədə iştirak etmiş 3.556.277 seçicidən 3.267.538 nəfəri, yəni 91,9 faizi təklifə "hə" cavabı verərək müstəqil Azərbaycan Respublikasının ilk konstitusiya layihəsinin qəbul olunmasına tərəfdar çıxmışlar. Beləliklə, Azərbaycan Respublikasının yeni Konstitusiyası 1995-ci il noyabrın 12-də referendumunda qəbul olunmuş və 1995-ci il noyabrın 27-də qüvvəyə minmişdir.Bu Konstitusiyanın ən mühüm müsbət məziyyətlərindən biri odur ki, Konstitusiyanın bütün maddələri çox aydın, yığcam, anlaşıqlıdır. Respublikamızın hər bir vətəndaşı öz hüquqlarını, öz vəzifələrini aydın dərk edir.

Konstitusiya qəbul edildikdən sonra artıq o ali qanunverici orqan olan Milli Məclis, Respublikanın Prezidenti və Respublika Nazirlər Kabineti-bütövlükdə qanunverici, icraedici və nəzarətedici orqanlar üçün hüquqi baza təşkil etməkdədir.

Konstitusiyanın qəbul edilməsi muxtar qurum kimi Naxçıvan Muxtar Respublikası üçün də yeni Konstitusiyanın qəbulu zəruriyyətini ortaya çıxardı. Böyük cəsarətlə demək olar ki, məhz hörmətli Prezidentimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası üçün də hazırlanmış Konstitusiyasının müəllifidir. Məlumlur ki, NMR –in əsas səlahiyyətləri, hüquqları Azərbaycanın referendum vasitəsilə 1995-ci il 12 noyabrda qəbul olunmuş Konstitusiyada öz əksini tapmışdır. Bu Konstitusiyanın 8-ci fəsli "Naxçıvan Muxtar Respublikası" adlanır. Əsas qanunun 134-141-ci maddələri Naxçıvan Muxtar Respublikasının statusuna, hakimiyyətin bölünməsi prinsipi məsələlərinə həsr olunmuşdur. Muxtar dövlət burada ən vacib amil hesab edilir. Nəzəri cəhətdən burada bir problem vardır ki, o da Azərbaycanın unitar dövlət elan edilməsi ilə Naxçıvanın statusu məsələsidir. Digər tərəfdən də Naxçıvana verilən xüsusi status hələ əvvələr Beynəlxalq müqavilələr əsasında təşkil edilib. Müxtəlif səbəblər-xüsusilə bədxah qonşular olan ermənilərin uzun illər ərzində yeritdikləri məkrli təcavüzkar siyasəti nəticəsində Naxçıvan ərazi cəhətdən Respublikanın böyük ərazisindən ayrı düşüb. Bu səbəblər üzündən Naxçıvanın müstəqil qurum kimi saxlanılması çox vacibdir. Bütün bunlar əsas götürülərək məhz Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Respublikasının ayrıca Konstitusiyasını hazırlamaq üçün Komissiya və işçi qrupları yaradıldı. Konstitusiya layihəsi bir neçə dəfə geniş müzakirə

edilmiş və müzakirə əsasında meydana çıxmış fikirlər, təkliflər cəmlənib müqayisə edilmiş, ən yaxşıları qəbul edilmişdir.

1998-ci il yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclası olmuşdur.Komissiyanın iclasındakı çıxışında hörmətli Prezidentimiz Heydər Əliyev NMR üçün Konstitusiya layihəsi hazırlanarkən Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanması təcrübəsindən geniş istifadə edildiyini göstərmişdir. NMR üçün Konstitusiya layihəsi bir neçə Beynəlxalq təşkilatlara, o cümlədən .Avropa Şurasına, AvropaBirliyinin İqtisadiyyat Komissiyasına, Venesiya Komissiyasına və Fransadakı Beynəlxalq İnstituta təqdim olunmuş və müsbət rəylər, təkliflər alınmışdır. 9 fəsil və 648 maddədən ibarət olan bu Konstitusiya layihəsi də məhz dərin elmi mühakimə və böyük dövlət quruculuğu təcrübəsinə malik olan hörmətli Prezidentimiz Heydər Əliyevin gərgin əməyinin və fitri istedadının nəticəsidir. Cəsarətlə demək olar ki, hər iki yeni Konstitusiya onun zəngin yaradıcılığının zirvəsidir.

Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması dünyaya qovuşmağın əsas yoludur.Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir.

Hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində 50-dək beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Dövlətimizin inkişafında misli-bərabəri olmayan, hüquqi sənəd kimi Konstitusiyamızın öyrənilməsi, onun meydana gəldiyi tarixi şərait, Konstitusiya Komissiyasının gərgin və səmərəli fəaliyyəti və nəhayət, zəmanəmizin böyük siyasətçisi və dövlət quruculuğu sənətkarı olan Prezident Heydər Əliyevin müstəsna rolu geniş göstərilməlidir.

Bu Konstitusiya Azərbaycan xalqının böyük oğlu, xalqımızın ümumilli lideri Heydər Əliyev zəkasının xalqımıza növbəti hədiyyəsidir. Bütün dünyada və vətənimiz doğma Azərbaycanda bütün hüquq və vəzifələrimizin rəmzi və təminatçısı olan bu Konstitusiyanı göz bəbəyi kimi qorumaq, ondan irəli gələn vəzifələrimizi yerinə yetirmək,"Azərbaycanın vətəndaşıyam!" deyən hər bir kəsin şərəfli borcudur.

Biz hüquqlarımızı tələb etməklə vəzifələrimizi də dərk etməli və onu yerinə yetirməliyik. Hər bir sadə vətəndaş da,"yol kəsənlər"də "cib kəsənlər" də "şapka qoyanlar" da, ümumiyyətlə, bütün ixtiyar sahibləri birdəfəlik və həmişəlik başa düşməlidirlər ki, artıq belə təfəkkür tərzi ilə yaşamağın və işləməyin vaxtı sona yetmişdir.

Tarixdə real olaraq öz xidmətləri ilə mənsub olduqları xalqların həyatında, müqəddəratında böyük rol oynamış insanlar şərəfli yer tutur, xalqlar onlara böyük ehtiram göstərirlər. Makidoniyada İsgəndər, ərəblərdə Məhəmməd Peyğəmbər, Çində Sun-Yat-Sen, Hindistanda Mahatma Qandi və Cavahirlə Nehru, ABŞ-da Corc Vaşinqton, Franklin Delano Ruzvelt, Fransada Napoleon və general De Qoll, Almaniyada Bismark və Adenauer, Türk xalqları içərisində Atilla, Çingız Xan, Batı xan, Əmir Teymur, Atatürk və Süleyman Dəmirəl belə şəxsiyyətlərdir.

XI-XII əsrlərdə Gürcüstanda yaşamış və çarlıq etmiş Baqrationlar nəslindən olan David(1073-1125-ci illər) müəyyən qədər şəhərlər, yollar, körpülər salınmasında, karvansaralar tikilməsində xidmətlərinə görə "Qurucu David" adı ilə tarixə düşmüşdür. Fransanın mərhum Prezidenti XX əsrin son rübünün məşhur siyasi xadimi Fransua Mitteran da Fransa xalqının tarixinə ona görə düşmüşdür ki,onun təşəbbüsü ilə Parisdə və əyalətlərdə 50 yə qədər böyük "mədəni tikinti" həyata keçirilmişdir. Sözsüz ki, Böyük Laurun və Parisdəki Milli Kitabxanasının layihəsi onun ən uğurlu təşəbbüslərindəndir.

Heydər Əliyev isə bütün yeni Azərbaycanı tikdirmişdir, qurub yaratdı, Azərbaycan xalqına bu tarixi xoşbəxtlik məhz XX əsrdə nəsib olmuşdur. Bu xoşbəxtliyin açarı Heydər Əliyev şəxsiyyətindədir. Bütün xalqımız bu nadir insana möhkəm arxa olmaqla taleyimizi də ona tapşırmışdıq.Əminik ki, dünya birliyində şərəfli və mötəbər mövqeyi olan Azərbaycan və onun müdrik xalqı ulu Öndər Heydər Əliyev siyasi kursunun layaqətli davamçısı praqmatik düşüncəli Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf edəcəkdir.

Bəli, kim XX əsrin dahilərindən birini görmək istəyirsə, məhz Heydər Əliyev şəxsiyyəti və fəaliyyəti ilə tanış olsun.

MİRİ QƏNBƏROV
Milli Məclisin deputatı

MİNİLLİYİN ZİRVƏSİNDƏ

Azərbaycan ötən əsrin əvvəllərində qazandığı dövlət müstəqilliyini yalnız XX əsrin axırlarında bərpa etməsinə baxmayaraq, əslində bu tarixi hadisənin təməli ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ildə Respublikanın siyasi rəhbərliyinə gəlişi ilə qoyulmuşdur. Tarixi xronoloji inkişaf baxımından həyat artıq sübut etmişdir ki, Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərliyi dövrünü əhatə edən 1969-1982-ci illər ölkəmizin inkişafının intibah dövrü olmuşdur. Əgər həmin dövrdə Azərbaycan istər sosial-iqtisadi, istərsə də ictimai-mədəni sahələrdə dinamik və güclü inkişaf yolu keçməsəydi, demokratik idarəetmənin ilk rüşeymləri yaranmasaydı, milli-mənəvi dəyərlərə qayıdışın əsası qoyulub inkişaf etdirilməsəydi, bugünkü müstəqilliyimiz reallığa çevrilməzdi.

Bu gün hər birimiz qürur hissi ilə deyirik: Müstəqil Azərbaycan dövlətinin vətəndaşıyam. Fəxr etməyə haqqımız var. Artıq Azərbaycan dünya birliyində özünəməxsus yer tutur. Ən böyük nailiyyətimiz də Azərbaycanın müstəqillik qazanmasıdır.

Əslində ümummilli liderimiz, əbədi prezidentimiz Heydər Əliyev demişkən: «Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır».

Bu həqiqətən də belədir. 1950-1960-cı illəri çox yaxşı xatırlayıram. Böyük Vətən Müharibəsindən çıxan ölkə keçən əsrin 50-ci illərində ağır vəziyyətdə idi. 60-cı illərdə isə respublika rəhbərlərinin başı intriqaya qarışmışdı. Kənd təsərrüfatı tənəzzül keçirirdi. Sənaye ləng inkişaf edirdi. Demək olar ki, tikinti getmirdi. Kənd əhalisinin əksəriyyəti çiy kərpicdən tikilmiş daxmalarda yaşayırdı. Bakı şəhərində inşaat işi getmədiyindən on minlərlə sakin illərlə mənzil növbəsi gözləyirdi.

Təkcə bir faktı deyim ki, işin düzgün qurulmaması ucbatından rayonlarda pambıq yığımı dekabrın sonlarına qədər davam edirdi və 250 min tondan çox məhsul yığılmırdı.

Respublikanın ümumi mənzərəsi Moskvanı narahat etməyə bilməzdi. Ən əsası Azərbaycanda intriqalara son qoymaq, sağlam ab-hava yaratmaq zəruri problem kimi qarşıda dururdu. Respublikanı bu vəziyyətdən yalnız bir nəfər xilas edə bilərdi. O da keçmiş Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Heydər Əliyev idi. 1969-cu ildə Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndə ən mütərəqqi proqramla fəaliyyətə başladı. İlk növbədə bütün qüvvələri kənd təsərrüfatının dirçəldilməsinə səfərbər etdi. Bununla yanaşı texniki bazanın yaradılmasına diqqəti artırdı. Daha sonra sənayenin kompleks inkişafı və geniş miqyaslı tikinti-inşaat işlərinin aparılması istiqamətində səyini artırdı. Qısa müddətdə respublikada sağlam ab-hava və çox işgüzar mühitin yaradılmasına nail oldu.

İldən-ilə inkişaf edən Azərbaycan keçmiş ittifaq respublikaları arasında birincilik qazandı. Ən əsası kəndlərin sosial- mədəni həyatı büsbütün dəyişdi.

Kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artdı. Pambıqçılıq, üzümçülük, tütünçülük və digər kənd təsərrüfatı sahələrində görünməmiş nailiyyətlər qazanıldı. Respublikamızda pambıq istehsalı 240-320 min tondan 1 milyon tona, üzüm istehsalı 2 milyon tona, tərəvəz istehsalı 2 milyon tona çatdırılmışdır. Pambıq və üzüm yığımı dövründə Heydər Əliyev rayonlarda zona müşavirələri keçirirdi. Bu tədbirlərdə bütün əlaqədar nazirlik və idarələrin rəhbərləri də tam heyətdə iştirak edirdi. O zaman respublikanın bütün rayonlarını tikinti və təsərrüfat malları, mebel və avtomaşınlarla bilavasitə rəhbərlik etdiyim- «Azəritttifaq»ın Tikinti və Təsərrüfat Mallarının Satışı İdarəsi təchiz edirdi. Şəxsən mən Heydər Əliyevin keçirdiyi səyyar müşavirələrin bir çoxunda iştirak etmişəm. Birinci katib əvvəlcə sahələri gəzər, vəziyyətlə şəxsən tanış olardı. Sonra gördüyü nöqsan və qüsurları müşavirədə bir-bir həmin sahəyə cavabdeh şəxslərin nəzərinə çatdırardı.

Tənqid etməklə bərabər, yaxşı işləri də təqdir edər və öz dəyərli məsləhətlərini verərdi. Rayonlarda ictimaiyyətlə görüşərkən mal təminatı ilə bağlı sorğular da aparar, insanların ehtiyaclarını öyrənərdi. Bəzən elə vaxt olurdu ki, respublikaya gətirilən avtomobillərin 200-300-ü birbaşa Bərdə, Cəlilabad və digər rayonlara göndərilirdi. Rayon və kəndlərdə mədəniyyət evləri, klublar, kitabxanalar, yeni tipli məktəblər istifadəyə verildi, yeni tibb ocaqları və s.açıldı. Bundan başqa insanların yaşayış evləri ilə təmin olunması istiqamətində böyük işlər görüldü.

60-cı illərdən ev növbəsində dayanan on minlərlə insanın əksəriyyəti yeni mənzillərlə təmin edildi ki, bu da Əhmədli qəsəbəsinin və Günəşli yaylası, yeni mikrorayonların tikilməsinin nəticəsi idi. O dövrdə Bakıda çoxmərtəbəli binaların sayı sürətlə artmağa başladı.

Yaxşı xatırlayıram ki, Sov.İKP MK-nin katibi Zemyanin Azərbaycana gələrkən indiki Heydər Əliyev adına saraydakı çıxışı zamanı bildirmişdi ki, Bakıda inşa edilən binalar rus meşələrini xatırladır. Bu ittifaq rəhbərliyinin Heydər Əliyevin fəaliyyətinə verdiyi qiymət idi.

Eləcə də 70-82-ci illərdə Azərbaycanda xalq təsərrüfatının bütün sahələrində böyük uğurlar qazanıldı. Bakı, ümumiyyətlə, Azərbaycan əsl inşaat meydanını xatırladırdı. Fabrik və zavodlar, inzibati binalar, məktəblər, yaşayış evləri, yollar, körpülər, ticarət obyektləri tikilir, iqtisadiyyat sürətlə inkişaf edirdi. Sənaye məhsulları istehsalının həcmi 2,7 dəfə, xalq istehlakı mallarının həcmi 3 dəfə artmış, respublikamız sənaye və kənd təsərrüfatının inkişafına görə ittifaq göstəricilərini qabaqlamışdır. Bakı Məişət Kondinsionerləri Zavodu Heydər Əliyevin qətiyyəti nəticəsində Azərbaycanda tikildi.

Bu dövrdə Bakıda bir neçə metro stansiyası açıldı.

1982-ci ilin qızıl bir payız günü Sov. İKP Siyasi Bürosunun üzvü Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildikdən sonra Azərbaycan iqtisadiyyatının inkişafına böyük diqqət göstərirdi. Bu dövrdə ittifaq miqyasında sənaye və kənd təsərrüfatı sahələrinin dirçəldilməsi sahəsində də ciddi işlər görüldü və bu, Heydər Əliyevin nüfuzunu daha da artırmışdı.

2002-ci ilin noyabrında Bakı Metropoliteninin 35 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə müxtəlif ölkələrdən olan nümayəndələr iştirak edirdilər və mən onların Heydər Əliyev Nazirlər Soveti Sədrinin birinci müavini işləyərkən SSRİ-də metro nəqliyyatının, sənaye və kənd təsərrüfatının inkişafına göstərdiyi diqqət barədə söylədikləri fikirləri qürurla xatırlayıram. Lakin bu, eyni zamanda bəzilərini narahat edirdi. Sov. İKP MK-nin baş katibi seçilmiş Mixail Qorbaçov Heydər Əliyevə qarşı təzyiq kompaniyasına başladı. Çünki Heydər Əliyevin varlığı Azərbaycanla bağlı məkirli planın həyata keçirilməsinə mane olurdu.

1990-cı ildə törədilmiş 20 yanvar faciəsindən dərhal sonra Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin binasına gələrək, SSRİ rəhbərliyini, o cümlədən Mixail Qorbaçovu kəskin tənqid etməsi ona qarşı təzyiqlərin güclənməsinə səbəb oldu. Bu çıxışı ilə Heydər Əliyev özünün və ailəsinin taleyini risk altına qoyurdu, amma buna baxmayaraq o, ən çətin məqamlarda xalqla bir yerdə olduğunu sübut etdi.

Özbəkistan Prezidenti İslam Kərimov Heydər Əliyev haqqında demişdir: «Siz bütün çətinliklərdən, ən ağır sınaqlardan keçməyi bacaran rəhbərlərdənsiniz, ona görə də, demək istəyirəm ki, belə rəhbəri olan xalq xoşbəxdir».

Bu hələ bir yazıda əhatə edə bilmədiyimiz tam olmayan siyahısıdır. Lakin bu təkzib olunmaz faktlar bizə onu deməyə əsas verir ki, müasir müstəqil Azərbaycan dövlətinin iqtisadi və geoloji əsasları 70-ci illərdə məhz Heydər Əliyev tərəfindən yaradılmışdır. Amma çox təəssüf ki, 1991-1993-cü illərdə respublikaya rəhbərlik etmiş Ayaz Mütəllibov iqtidarı və AXC-Müsavat cütlüyü bu əlverişli imkandan nəinki istifadə edə bilmədilər, əksinə ölkəni elə bir vəziyyətə qoydular ki, sonradan xalqın istəyi ilə yenidən hakimiyyətə qayıtmış Heydər Əliyev hər şeyi sıfırdan başlamalı oldu.

Təkidli tələblərdən sonra xalqın iradəsini nəzərə alan Heydər Əliyev 1993-cü ilin 9 iyununda Naxçıvandan Bakıya gəldi və 15 iyunda Azərbaycan Respublikasının Ali Sovetinə sədr seçildi. Bu andan müstəqil Azərbaycan dövlətinin qurtuluş tarixi başlayırdı.

Heydər Əliyev respublikada hökm sürən siyasi xaosu, ictimai qeyri-sabitliyi aradan qaldıra bildi. Bu, dövlətin ayağa qaldırılması və inkişaf etdirilməsi üçün olduqca vacib şərt idi. Ölkəmiz öz tarixinin ən sabit və uğurlu dövrünü yaşamaqdadır. Heç şübhəsiz ki,bütün bunlara görə ümummilli liderimiz Heydər Əliyevə minnətdar olmalıyıq.

Onu da qeyd edim ki, ümummilli liderimizin ölkəyə yenidən rəhbərliyi dövründə- 1994-2000-ci illər iqtisadiyyatda sürətli inkişaf dövrü olmuşdur. Həmin vaxt daxili məhsulun istehsalı 40 faiz, sənaye məhsullarının istehsalı 13 ,4 faiz, kənd təsərrüfatı məhsullarının istehsalı 19 faiz artmış, inflyasiyanın səviyyəsi isə 8 dəfə azalaraq 1994-cü ildəki 16 faizdən 2 faizə düşmüşdür. Ölkə iqtisadiyyatının bütün sahələrində həyata keçirilən liberallaşma prosesinin nəticəsində həmin dövrdə ölkənin xarici ticarət dövriyyəsinin həcmi 2,1 dəfə artaraq 1,4 milyard ABŞ dollarından 2,9 milyard ABŞ dollarına çatmışdır. Əvvəlki illərlə müqayisədə 2000-ci ildə 87,8 faiz çox mal ixrac edilmişdir. Ona görə də indi ölkəmizdə əvvəlki kimi xaricdən gətirilən mallara artıq o qədər də ehtiyac qalmayıb. Azər-

baycan özü-özünü dolandıran müstəqil dövlətdir. 1995-2000-ci illərdə Azərbaycanda əhalinin orta aylıq əmək haqqı 14 dəfə artmışdır. Ölkəmizdə əmək haqqının belə bir sürətli artımı inflyasiyanın çox aşağı olması, istehlak qiymətlərinin aşağı düşməsi şəraitində baş verir. Bütün bunlar ulu öndərimiz Heydər Əliyevin məntiqli daxili və xarici siyasəti, idarəetmədəki zəngin təcrübəsi, biliyi, uzaqgörənliyi sayəsində əldə edilmişdir.

Məhz dahi şəxsiyyətin uğurlu siyasi gedişləri sayəsində Azərbaycanın beynəlxalq imici gündən-günə artmışdır. 2001-ci il yanvar ayının 26-da Azərbaycan Respublikası ən mötəbər beynəlxalq təşkilatlardan biri olan Avropa Şurasının tam hüquqlu üzvlüyünə qəbul edildi. Bununla da Azərbaycan dünyanın inkişaf etmiş aparıcı demokratik dövlətləri ailəsinin bərabər hüquqlu üzvü oldu. Bu tarixi hadisə yalnız Prezident Heydər Əliyevin Azərbaycanda demokratik və hüquqi dövlət quruculuğu istiqamətində atdığı ardıcıl addımları sayəsində mümkün oldu. Məhz ümummilli liderimiz Heydər Əliyevin xidmətidir ki, hazırda Azərbaycan dünyanın sivil, demokratik, qanun hakim olduğu bir dövlət, azad cəmiyyət kimi qəbul olunur.

Xalqımızın ümid, dayaq yeri olan ümummilli liderimiz Heydər Əliyevin müdrik kəlamlarından birini xatırlatmaq yerinə düşərdi: «Əhalinin müdafiəsinin yaxşılaşdırılması hər vaxt dövlətin diqqət mərkəzində olan məsələdir. Ölkənin sosial- iqtisadi imkanları yaxşılaşdıqca və büdcənin mədaxili artdıqca, müvafiq olaraq əhalinin pul gəlirləri də artırılacaq».

Heydər Əliyev nadir yaddaş, sahibi ,fenomen şəxsiyyət idi. Ulu öndərimiz hər bir şəxsə gördüyü işə görə qiymət verirdi. Dahi şəxsiyyət bacarıqlı, yüksək ixtisaslı kadrların qədrini bilir, onların gördükləri uğurlu işləri yüksək qiymətləndirir, qayğısına qalardı. Mən 32 il onunla işləyən bir şəxs kimi bunun canlı şahidi olmuşam. Ümummilli liderlə şəxsən 10-12 dəfə görüşüm zamanı gülərüz, mehriban çöhrəsi,xoş rəftarı və ciddi görkəmi məndə yüksək, unudulmaz təəssürat yaratdı.

Heç yadımdan çıxmaz, 2000-ci ildə Prezident parlamentə seçilmiş deputatları qəbul etdi və çox səmimi söhbətimiz oldu. Tövsiyə etdi ki, doğulduğumuz el-obanı, seçicilərimizi yaddan çıxarmayaq. Xüsusən dağ rayonlarının, uçqar bölgələrimizin sakinlərinin dərdinə-sərinə yarayaq. O, müdrik el ağsaqqalı kimi üzünü bizə tutub dedi: «Bu gün adamların ümidi sizədir. Siz xalqın elçiləri kimi onları dövlətdə təmsil edirsiniz. Gərək onların qayğı və problemlərini həll edəsiniz ki, dövlətdən narazı qalmasınlar».

Artıq o vaxtdan 4 ildən çox vaxt keçib. Hər dəfə deputat seçildiyim Lerik-Lənkəran bölgəsində bir iş görəndə-çaylar üzərində körpü saldıranda, şəhidlər kompleksi tikdirəndə, yollar, bulaqlar çəkdirəndə ,şəhid ailələrinə, müharibə əlillərinə, Beləsuvarda, Mingəçevirdə, Ağdaşda. Bakıda məskunlaşan qaçqınlara və köçkünlərə yardım edəndə, bir sözlə, hər addımımda bu müdrik insanın işıqlı siması gözlərim önünə gəlir. Allahımdan çox razıyam ki, belə bir dünya şöhrətli tarixi şəxsiyyətin müasiri olmuşam və ömrümün 32 ilini onun rəhbərliyi altında çalışmışam. Mən qətiyyətlə, deyərdim ki, Azərbaycanın çoxəsrlik tarixinin 34 ili quruculuq, inkişaf illəri Prezident Heydər Əliyevin uzaqgörən siyasəti ilə bağlıdır. Bu siyasətin nəticəsində Azərbaycan yeni əsrə, yeni minilliyə müstəqil güclü dövlət kimi qədəm qoydu və bu yolda inamla irəliləyir.

Heydər Əliyev irsi sirli bir dünyadır. İllər, qərinələr keçsə də, minilliklər ötsə də, dahi şəxsiyyətin irsini araşdırıb başa çatdırmaq qeyri-mümkündür. Heydər Əliyev siyasi məktəbi xalqa, millətə düz yol göstərən, müstəqil dövlətimizin demokratiya yolunda inamla irəliyə doğru aparan bir məktəbdir.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ümummilli liderimiz Heydər Əliyev haqqında demişdir: «Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm».

Azərbaycan xalqı üçün yeganə təsəllı yeri Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi, onun ideyalarını həyata keçirən, ənənələrini yaşadan proqmatik düşüncəli, müdrik şəxsiyyət İlham Əliyevin Prezident seçilməsidir. Ümummillli liderimiz Heydər Əliyev bu gün həyatda olmasa da onun idarəçilik prinsipləri davam etdirilir. Prezident İlham Əliyev kimi siyasi xadimin rəhbərliyi altında Azərbaycanın beynəlxalq aləmdəki mövqeyi gündən-günə möhkəmlənir, nüfuzu artır.

Ümummilli liderimiz Heydər Əliyev 2003-cü il oktyabr ayının 1-də Azərbaycan xalqına müraciətində qeyd etmişdir ki, İlham Əliyev yüksək intellektli, proqmatik, düşüncəli ,müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev dövlət müstəqilliyinin qorunması, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi və iqtisadiyyatımızın dünya standartları səviyyəsinə çatdırılması üçün əzmlə çalışır. İmzalanmış tarixi Fərman və Sərəncamlar, regional layihələr tərəqqinin yeni mərhələsinin başlanğıcından xəbər verir. Möhtərəm Prezidentimiz İlham Əliyevin dövlət quruculuğunda atdığı qəti addımların nəticəsidir ki, Avropa Birliyi Azərbaycanla siyasi və iqtisadi əməkdaşlıq etməyə hazır olduğunu tam əminliklə bildirmişdir.

Prezident İlham Əliyev Fransa Respublikasına rəsmi səfər etdiyi zaman Fransa Prezidenti Jak Şirak İlham Əliyevlə bağlı öz çıxışında qeyd etmişdir: «Şübhəm yoxdur ki, Siz Heydər Əliyevin fəaliyyətini davam etdirməyə mütləq çalışacaq və Azərbaycanı demokratiya və hüquqi dövlət quruculuğu yolu ilə irəli aparacaqsınız».

Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Heydər Əliyev dövründə yaradılmış zəngin dövlətçilik irsindən xalqımızın hələ neçə-neçə nəsilləri bəhrələnəcək. Onun qurub - yaratdığı müstəqil Azərbaycan əbədi yaşayacaqdır. Çünki bu dövlətin başçısı görkəmli ictimai-siyasi xadim cənab İlham Əliyevdir.

HACIMƏMMƏD RAMAZANOV
Milli Məclisin deputatı,
YAP Zaqatala rayon təşkilatının sədri

HEYDƏR ƏLİYEV İRSİ VƏ MƏNƏVİ TƏRBİYƏ

Heydər Əliyevin həyatını və fəaliyyətini obrazlı surətdə ifadə etmək elə də asan deyil. Çünki onun həyatının hər bir anı, fəaliyyətinin hər bir istiqaməti o qədər mənalı və genişdir ki, bunu bir yazıya sığışdırmaq müşkül işdir. Böyük mənəvi keyfiyyətlərin və bəşəri dəyərlərinin daşıyıcısı olan ümummilli liderimiz, şübhəsiz, ötən əsrin ən böyük siyasi liderlərindən, əvəzsiz dövlət xadimlərindəndir. Biz bunu dünyanın müxtəlif ictimai-siyasi xadimlərinin, politoloqlarının dilindən eşitmişik. Lakin bunlar kənar müşahidələr olduğundan bizim üçün Heydər Əliyev fenomeninin əsl mahiyyətini açıqlamır.

Heydər Əliyev Azərbaycan xalqı və Azərbaycan üçün kimdir? Bax, bu sualın cavabı ilk baxışdan bir qədər anlaşılan və asan görünsə də, əslində, xeyli düşüncə tələb edən işdir. Əvvəla, Azərbaycanda ictimai-siyasi, mədəni-mənəvi, sosial- iqtisadi həyatın elə bir sahəsi, elə bir bucağı varmı ki, orada Heydər Əliyevin adını çəkməmək mümkün olsun? Ümummilli liderimiz xalqın mənəviyyatı, milli dəyərləri ilə birbaşa bağlı olan əvəzsiz bir şəxsiyyətdir. Onun həyat və fəaliyyətinin hər bir anı xalqla bağlıdır və bu səbəbdən Azərbaycan xalqını Heydər Əliyev kimi, Heydər Əliyevi azərbaycanlılar kimi tanıyan yoxdur. Bəlkə də bu cümləyə bir şüar kimi baxanlar var. Amma əslində "Heydər Əliyev - xalq, xalq - Heydər Əliyev birliyi əbədidir" kəlməsi bu böyük şəxsiyyətlə mənsub olduğu xalqı vəhdətdə göstərmək üçün çox uğurlu tapıntıdır.

Azərbaycan və Azərbaycan tarixini Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil. Məhz həmin mümkünsüzlük onun bütöv obrazını bir yazı ilə xarakterizə etməyə imkan vermir. Amma bu imkansızlığın özü elə Heydər Əliyevin bir şəxsiyyət kimi böyüklüyünə, sözün bütün mənalarına dəlalət edən, onu bir qaçılmaz fakt kimi ortaya qoyan amildir.

XX əsrin yetişdirdiyi nadir tarixi şəxsiyyət olan Heydər Əliyev şərəfli və mənalı ömrünün yarısından çoxunu Azərbaycan dövlətinin tərəqqisinə

və çiçəklənməsinə həsr etmişdir. Azərbaycan Respublikanın əldə etdiyi bütün nailiyyətlər və uğurlar bu böyük insanın adı və fəaliyyəti ilə bağlıdır. Heydər Əliyev Azərbaycan xalqının əsrlər boyu arzusunda olduğu müstəqilliyi reallığa çevirdi və gələcək nəsillərə müstəqil, demokratik Azərbaycan Respublikasını ərməğan qoydu. Məhz bu baxımdan cəsarətlə demək olar ki, sabah da, gələcəkdə də Heydər Əliyev deyəndə müstəqil Azərbaycan Respublikası anılacaq, Azərbaycan xalqı deyəndə onun ümummilli lideri Heydər Əliyev xatırlanacaq.

Bu görkəmli şəxsiyyətin respublikamıza ilk dəfə rəhbərlik etdiyi illərdə Azərbaycanda böyük quruculuq və yaradıcılıq dövrü yaşandı, bütün sahələrdə güclü inkişaf və tərəqqi əldə olundu, yüzlərlə yaşayış məntəqəsi, məktəblər, sənaye və kənd təsərrüfatı obyektləri inşa edildi.

1969-1982-ci illərdə xalqımızın böyük oğlu Heydər Əliyevin respublikamızda gördüyü irimiqyaslı və əzəmətli işləri keçmiş Sovetlər Birliyi tərkibində müstəqilliyimizə doğru atılan ilk iqtisadi addımlar kimi xarakterizə etmək olar. Həmin illərdə Azərbaycanın gələcəyi naminə hesablanmış müdrik daxili siyasət nəticəsində xalqın milli mənlik şüurunun inkişaf etdirilməsi, tarixi ənənələrin, dilin qorunması istiqamətində mühüm nailiyyətlər əldə edildi. Bu iş öz növbəsində milli mentalitetin formalaşmasında əhəmiyyətli rol oynadı.

1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməklə öz xilaskarlıq missiyasını yerinə yetirdi, müstəqilliyimizi və dövlətçiliyimizi məhv olmaqdan xilas etdi, respublikada hökm sürən xaos aradan qaldırıldı, çox qısa müddət ərzində dövlət quruculuğunun bütün istiqamətlərində məqsədyönlü və səmərəli iş aparıldı, hər bir sahədə konkret vəzifələr müəyyənləşdirildi. "Azərbaycan dünyaya günəş kimi doğacaq" deyən əbədiyaşar Prezidentimiz 1969-1989-cu illərdə başladığı işləri 1993-cü ildə yenidən qətiyyət və müdriklıklə davam etdirdi və Azərbaycan dünya dövlətləri sırasında öz layiqli yerini tutdu. 4 sentyabr 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev YAP-ın İdarə Heyətinin Siyasi Şurasının, Partiyanın qurultayına hazırlıq üzrə Təşkilat Komitəsinin üzvləri və Mərkəzi Aparatın rəhbər işçiləri ilə görüşdə həmin anları belə dəyərləndirdi: "Sonra gedən proseslər Azərbaycanda vəziyyəti tamamilə bərbad hala salmışdı. Belə bir vaxtda, 1993-cü ildə mən buraya gələrkən öz məsuliyyətimi hiss edirdim. Ona görə gəlmək istəmirdim. Ancaq eşidəndə ki, mənim doğma vətənim, mənim doğma torpağım dağılır - uzun müddət bu vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, biz burada nələr etmişik və bu dağılır - şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm".

Heydər Əliyev fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsidir. Bütün mənalı həyatını xalqına bəxş etmiş müdrik rəhbər və dahi şəxsiyyətin zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Azərbaycan xalqının neçə-neçə nəsilləri bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən Azərbaycanımızın inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır. Milli liderimizin zəngin siyasi irsinin qorunması, öyrənilməsi günümüzün ən ümdə məsələlərindəndir.

Bu bir həqiqətdir ki, Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yol, əslində 1969-cu ildən başlamış və azərbaycanlılığın ən parlaq səhifəsi də məhz bu dövrdən etibarən yazılmışdır. Heydər Əliyev o dövrün hakim ideologiyasının qadağalarına baxmayaraq Azərbaycanda milli-mənəvi dəyərlərin tamamilə sıxışdırılmasına nəinki yol verməmiş, əksinə onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır. Heydər Əliyev həyatının bütün dönəmlərində xalqımızın dərin tarixi köklərə malik mədəni irsini ləyaqətlə qorumuşdur.

Milli liderimizin ölkəyə bir qərinədən artıq rəhbərliyi dövründə təhsilə, elmə, mədəniyyətə - bütövlükdə xalqın intellektual səviyyəsinin yüksəldilməsinə qayğı hər zaman prioritet istiqamətlərdən biri olmuşdur. Təhsilə, elmə, mədəniyyətə qayğı bu böyük şəxsiyyətin aparıcı əlaməti, onun ziyalılığının, maarifpərvəriyinin mühüm təzahürü idi. Heydər Əliyev uzaqgörənliklə azərbaycanlı gəncləri gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərdi. O illərdə Azərbaycan üçün ən zəruri ixtisaslar üzrə 15 mindən artıq mütəxəssis hazırlandı. Bu yolla Azərbaycan Respublikasının elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirildi.

Xalqımızın işıqlı gələcəyinə əmin olan müdrik rəhbər Azərbaycanın gənc nəslinə, onun problemləri və qayğılarına həmişə diqqətlə yanaşırdı

və "cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indiki gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır" - deyirdi. Ümummilli liderimiz Azərbaycan gənclərinin II forumunda dedikləri Azərbaycanın bir-birini əvəz edəcək yeni-yeni nəsillərinə ünvanlanmışdı: Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Özlərini müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməlidir. Azərbaycanın gələcəyi, ölkəmizin bu günü və gələcəyi həmişə parlaq, işıqlı olacaqdır".

Dinə, mənəvi dəyərlərə həssas münasibət milli lider kimi Heydər Əliyevin fəaliyyətində əhəmiyyətli yer tuturdu. O, xalqımızın bütün gözəl ənənələrini, İslam dininin dəyərlərini incəliyinə qədər bilirdi, ona əməl edirdi. Heydər Əliyevin sayəsində İslam dininə təxminən bir əsrə yaxın fasilədən sonra yenidən böyük inam və iman hissi dirçəldi və bu, hədsiz rəğbət, məhəbbət hissinə çevrildi. Milli liderimiz çox gözəl bilirdi ki, mənəviyyatsızlıq tarix boyu bütün cəmiyyətlərə, eləcə də, bəşəriyyətə danılmaz bəlalar və müsibətlər gətirmişdir. Təzə Pir məscidində dindarlarla görüşündə Heydər Əliyev bu məsələyə xüsusi münasibət bildirmişdi: "Azərbaycan xalqı uzun müddət öz dinindən məhrum olmuşdu. Bu, əlbəttə, bizim üçün acınacaqlı haldır. Ancaq bu nə sizdən, nə də məndən asılı idi. Ola bilər ki, bu Allahın işidir. Bu da bir imtahandır ki, görsünlər insan öz dinindən məhrum olandan sonra nə bəlalara düşür və öz dininə qayıdandan sonra nə qədər xoşbəxtlik əldə edir".

Xalqımızın tarixinə kölgə salan, həyatımızdan heç cür silib ata bilmədiyimiz o günlərə artıq ömrümüzə daxil olmuş müstəqillik, azadlıq, iqtisadi-mədəni tərəqqi fövqündən baxırıq. O böyük şəxsiyyətin fəaliyyəti nəticəsində din-imanımızın bütün dəyərləri həyatımıza yenidən qayıtmış, sıralarına yeniləri qatılan ibadətgahlarımızda imanımıza nur səpən müqəddəslik çırağı yandırılmışdır. İndi hər evi, hər ocağı "Qurani-Kərim"in qüdrətli hikmətinin ziyası işıqlandırır. Xalqımızı artıq xeyirxahlığa, nəcibliyə, səmimi ünsiyyətə, dostluğa və qardaşlığa, birliyə və vəhdətə dəvət edən müqəddəs kitabı yalnız olduğu ərəb dilində deyil, həm də ana dilində mütaliə edir.

Müstəqil dövlət quruculuğunun mühüm atributlarından və təsisatlarından olan təhsil, elm və mədəniyyət sahəsində qazanılmış bütün nailiyyətlər Heydər Əliyevin adı və titanik fəaliyyəti ilə bağlıdır. Heydər Əliyev müəllimlərin, elm və mədəniyyət xadimlərinin yaxın dostu, sirdaşı idi. Onun millətin mənəvi dəyərlərinin formalaşmasında xüsusi rola malik olan ziyalılara münasibəti də özünəməxsus idi:

"Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir - bunlar fitri istedada malik olan nadir adamlardır və öz mədəniyyəti, yaradıcılığı, fəaliyyəti ilə bizim cəmiyyətin mədəni səviyyəsini qaldırır".

Mədəni irsimizin qorunub saxlanılmasında, inkişaf etdirilməsində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında Heydər Əliyevin çox böyük və əvəzsiz xidmətləri var. Ədəbiyyat, teatr, kino, musiqi, rəssamlıq və bir çox sahələrdə əldə etdiyimiz inkişaf və tərəqqi əbədi liderimizin adı ilə bağlıdır. Çox gərgin iş rejiminə baxmayaraq Heydər Əliyev həmişə vaxt tapıb mədəniyyət ocaqlarını ziyarət edər, mədəniyyət və incəsənət xadimlərinin yubiley və yaradıcılıq gecələrində müntəzəm şəkildə iştirak edərdi. Təsadüfi deyil ki, mədəniyyət işçiləri və sənət adamları ilə hər görüşü əsl bayrama çevrilərdi. Bu iş öz növbəsində sənətkarları ruhlandırar, Azərbaycan mədəniyyətinə və incəsənətinə yeni-yeni töhfələr bəxş edərdi. Xalqının incəsənəti və mədəniyyəti ilə daim fəxr edən, ondan diqqət və qayğını heç zaman əsirgəməyən dahi rəhbərin mədəniyyətlə bağlı fikirləri də çox əhəmiyyətlidir: "Bu gün xalqımız daha sıx birləşməlidir; bu işlə mədəniyyət öz işini görməlidir. Çünki insanları yalnız mənəviyyat birləşdirir. Heç bir sahə mədəniyyət qədər xalqı birləşdirə bilməz". Sovetlər birliyi dövründə Azərbaycan ədəbiyyatının və incəsənətinin beynəlxalq arenaya çıxışı üçün əlindən gələni edən və bununla da Azərbaycanı dünyaya tanıdan Heydər Əliyev müstəqillik illərində Azərbaycan mədəniyyətinin və incəsənətinin şanlı salnaməsini yazdı.

Heydər Əliyev böyük qurucu idi. Hansı sahəyə nüfuz edirdisə, orada yeniliklər yaradır, əsaslı bir iş görürdü. Həm də onun fəaliyyəti təkcə bu günlə məhdudlaşmır, gələcəyə ünvanlanırdı. Məsələn, 70-ci illərə qədər Azərbaycanda tarixi, arxeoloji və memarlıq abidələrimizə bəslənən biganə münasibət hamımıza bəllidir. Heydər Əliyev xalqımızın qədim və şanlı tarixinə, milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə bəslənən bu müna-

sibəti kökündən dəyişdi. 1981-ci ildə Heydər Əliyevin sərəncamı ilə yaradılan Arxeologiya və Etnoqrafiya İnstitutunun apardığı genişmiqyaslı və planlı tədqiqat işləri nəticəsində qədim tariximizin qaranlıq səhifələri üzə çıxdı.

Milli liderimiz özünün misilsiz insani keyfiyyətləri - müdrikliyi və mənəvi paklığı, səmimiyyəti və doğruluğu sayəsində Azərbaycan xalqının qəlbində özünə möhtəşəm abidə ucaltmış, milli dövlətçiliyə sədaqətini özünün yorulmaz fəaliyyətində dönə-dönə sübut etmişdir. Dahi insanlara xas olan bütün mənəvi keyfiyyətlər onun şəxsində kamilliklə əks olunmuşdu: dərin zəka, siyasi uzaqgörənlik, fenomen yaddaş, dərin məntiq, böyük vətənpərvərlik. Ümumiyyətlə, Heydər Əliyevin gördüyü əzəmətli işlərə və onun şəxsiyyətinə layiqli qiymət vermək və gələcək nəsillərə çatdırmaq üçün şübhəsiz, ayrıca bir elmi-tədqiqat müəssisəsinin yaradılmasına ehtiyac var. Təkcə "Heydər Əliyev və Azərbaycan dili" mövzusunu götürsək, onun nə qədər geniş və dərin bir mövzu olduğunu görərik.

Müstəqilliyimizin ən böyük nailiyyətlərindən biri dilimizdir. Azərbaycan dili Azərbaycan xalqının əzəli və əbədi bir sərvətidir. Dilimizin böyük qayğıkeşi Heydər Əliyevin ana dilinə məhəbbəti o qədər güclü idi ki, onun qorunması, inkişafı, zənginləşməsi sahəsində o istər imperiyanın hökm sürdüyü dövrdə, istərsə də müstəqillik illərində əlindən gələni maksimum həyata keçirdi. Sovet dövlətinin çox qüdrətli bir dövründə Heydər Əliyev Azərbaycan dilinin dövlət dili olması barədə Konstitusiyaya xüsusi maddənin nəinki yazılmasına, eyni zamanda əlavə bir abzasın daxil edilməsinə də nail oldu... Konstitusiyanın qəbul olunduğu dövr, onun törətdiyi çətinliklər nəzərə alınarsa, bu böyük rəhbərin öz xalqına, öz dilinə, həqiqətən, qəhrəmanlığa bərabər xidmət idi. Heydər Əliyevin sayəsində Azərbaycan dili faktiki xidməti olaraq Müstəqil Azərbaycan Respublikasının dövlət dilinə çevrildi.

Heydər Əliyev ömrünün sonunadək Azərbaycanı yüksəltmək, inkişaf etdirmək naminə əlindən gələni əsirgəmirdi. Bu gün ümummilli liderimizin yolunu onun siyasi məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ləyaqətlə davam etdirir. Hələ 1999-cu ildə milli liderimiz cənab İlham Əliyev barədə fikirlərini belə ifadə etmişdi: "...İlham Əliyev həm birliyə, həm təcrübəsinə, həm də ağlına, həm də insani keyfiyyətlərinə görə Azərbaycanın siyasi səhnəsində görkəmli

bir adamdır. Hər bir belə adamın şübhəsiz, gələcəyi də ola bilər... Gələcəkdə də bunu cəmiyyət, vətəndaşlar deyəcəkdir, ayrı heç kəs deyə bilməz". Bəli, 2003-cü ilin 15 oktyabr günü qədirbilən xalqımız öz sözünü dedi, etimad göstərdiyi liderə səs verdi, ölkəmizi böyük tərəqqiyə aparan yolun - Heydər Əliyev yolunun davam etdirilməsinin möhkəm əsasını qoydu.

Bütün bunlar bir daha sübut edir ki, milli liderimiz Heydər Əliyevin əməlləri, onun müəyyənləşdirdiyi siyasət ölməzdir. Onun ölməz xatirəsi Azərbaycan xalqı durduqca yaşayacaqdır. Bu həqiqəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Heydər Əliyev Fondu"nun təntənəli açılışı zamanı bir daha təsdiqlədi, Azərbaycanda aparılan daxili və xarici siyasətin doğru olduğunu bəyan etdi: "Bu gün Heydər Əliyev bizimlə deyil, amma onun fiziki yoxluğu bizi ruhdan salmamalıdır. Onun ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, Azərbaycançılıq fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir. Hamımızın borcudur ki, biz doğma Vətənimizi onun yolu ilə irəliyə aparaq. Hamımızın borcudur ki, onun siyasətini yaşadaq, Azərbaycanı gücləndirək və onun istədiyi kimi, onun yolu ilə gələcəyə aparaq. Mən əminəm və şübhə etmirəm ki, biz bunu edəcəyik".

Bəli, Azərbaycan xalqı müdrik Heydər Əliyevin irsini ləyaqətlə davam etdirən gənc və istedadlı Prezidentinə inanır və onun simasında Azərbaycanı firavanlığa və əmin-amanlığa inamla aparan rəhbərini görür.

Azərbaycanın sabahı və gənc nəslin parlaq gələcəyi naminə ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti, fəlsəfi siyasi ideyaları, o cümlədən bütün nəsillərə nümunə olaraq şəxsiyyəti dəqiqliklə öyrənilməli, sistemləşdirilməlidir. Azərbaycanımızın dünya birliyində öz layiqli yerini tutması, elmimizin, mədəniyyətimizin beynəlxalq arenada daha yüksək zirvələr fəth etməsi üçün Heydər Əliyevin irsindən öyrənməli və öyrətməliyik.

RİZVAN CƏBİYEV
Milli Məclisin deputatı

İyirminci əsr liderlər əsridir.
Əsrin lideri isə Heydar Əliyevdir.
E.Şevardnadze

BU DÜNYADAN HEYDƏR KEÇDİ...

Həyatda elə tarixi günlər var ki, bizdən uzaqlaşdıqca onun dəyəri daha aydın görünür. 1993-cü ilin 15 iyunu məhz belə bir tarixi hadisələrdəndir. Həmin gün qartal göyərçin yuvasından uçdu və möhtəşəm qanadlarını Azərbaycanın başı üzərində açdı. Vətəndaş müharibəsi həddinə çatan, ordusu, dövlətçiliyi dağılıb məhv olan, düşmən qarşısında diz çökdürülən millətimiz Tanrının qoruduğu qüdrətli əllərə tapşırıldı.

15 iyun qayıdışı barədə çox deyilib, ancaq, 15 iyun Qayıdışının milli, fəlsəfi, siyasi, iqtisadi qiyməti, Azərbaycan tarixində yeri və rolu barədə əsil qiyməti gələcək nəsillər verəcək.

15 iyun elə bir məşəldir ki, bizdən sonrakı bütün nəsillər bu məşəldən od alacaq, ona tapınacaq və bu məşələ baxıb tarixin dolanbac yollarında istiqamət götürəcəklər. Öz əsrlərində seçilməyi, xalqa ləyaqətli xidmət nümunəsi göstərməyi bacaranlar əsil qəhrəmanlardır, onlar bütün dövrlərdə müasir olurlar. Heydər Əliyev kimi.

Doxsan üçüncü ildə Heydər Əliyevin siyasi hakimiyyətə Qayıdışı labüd idi, zəruri idi və bunu Azərbaycan xalqının milli mənafeyi tələb edirdi. Bu Qayıdışı təkcə Gəncə hadisələrinin nəticəsi kimi qələmə verənlər, ən azından yanılırlar. Gəncə qiyamı Heydər Əliyevin siyasi hakimiyyətə Qayıdışının nə səbəbi, nə də nəticəsi deyildir.

Sonsuz kainatda hər şey bir-biri ilə sıx bağlıdır və heç də Uca Tanrının iradəsindən kənarda baş verə bilməz. Heydər Əliyev Ulu Tanrının sevib-seçdiyi insandı və çox çətin tarixi missiyanı yerinə yetirmək üçün doğulmuşdu: O, yetmiş ildən bəri yarımçıq qalan ümidlərimizin, xəyallarımızın memarı olmalı idi. Yetmiş il dərdlərimizi içimizdə dəfn etmişdik, yetmiş il kədərimizi, acılarımızı göz yaşlarımızla suvarmışdıq. Tanrı bu

millәti bir əsrdə iki dəfə cəzalandıra bilməzdi. Qətlə yetirilmiş arzularımızın İntiqamçısı mütləq doğulmalıydı, göz yaşlarıyla suvardığımız yaralarımızın loğmanı hökmən qayıtmalıydı. Bu 15 iyunda da, ondan gec və ya tez də baş verə bilərdi. Azərbaycan millətinin ağır dərdlərini öz qüdrətli çiyinlərində daşımaq üçün, Tanrının müəyyənləşdirdiyi tarixi missiyanı yerinə yetirmək üçün.

Yaxşı yadımdadır, 15 iyunun Qurtuluş günü kimi bayram edilməsi barədə Milli Məclisdə məsələ müzakirə olunurdu. Müxalifətçi deputatlardan biri bütün kinini verdiyi suala tökərək yerindən ucadan bağırdı: "Axı? Azərbaycanı kimlərdən və nələrdən qurtarıb bu Heydər Əliyev?" Başqa bir deputat da eynən həmkarı kimi qışqıraraq ona belə cavab verdi: " Sizi Surət Hüseynovun kəndirindən qurtarıb!" Ancaq bu kəndir təkcə Surət Hüseynov "fenomenini" becərib yetişdirənlərin yox, bütün Azərbaycan xalqının boğazına keçmişdi. Azadlığımız, müstəqilliyimiz dar ağacına çəkilmişdi, bu günümüz, sabahımız, bir millət kimi varlığımız ölümə məhkum idi.

"Heydər Əliyev Azərbaycanı kimlərdən və nələrdən qurtardı?" Sual kinlə deyilmişdi, amma tarix bu sualın cavabını kinsiz və qərəzsiz, səbr və soyuqqanlılıqla verdi. Yaddaşı və fantaziyası gödək olanlar xalqımızın yetmiş il ürəyində basdırdığı azadlıq həsrətinin, milli dövlətçiliyimizin köksünə sancılmağa hazır olan süngünü görmürdülər, görmək istəmirdilər. Zaman o zamandı ki, Müsavat-AXCP cütlüyünün səriştəsiz, cinayətkar rəhbərliyi sayəsində Azərbaycanda xaos, hərc-mərclik baş alıb gedirdi. Qarı düşmənin məkri və hiyləsi ilə kənd və şəhərlərimiz acı-acı tüstülənən tonqala dönmüşdü, müharibəyə can atan əsgərlərimizin döyüşkən ruhu qırılmışdı, gözünü qırpmadan ölümün üstünə yeriyən cavanları arxadan vururdular ki, silahını və meyidini satsınlar. Milli Qəhrəman səviyyəsinə qədər ucaldılan bir komandiri həbs edərkən onun evinin zirzəmisindən 300 nəfər əsgərin meyidi tapılmışdı. Cinayətkar dəstələr Azərbaycanı bürümüşdü, şayiə yayıb əhalini kənd və şəhərlərdən qovur, sonra onların əmlaklarını qarət edirdilər. İnsanın bu gün belə deməyə dili gəlmədiyi, milli qeyrətimizə xəncər kimi saplanan bu acı, utanc verici olaylar, nə yazıq ki, səriştəsiz və cinayətkar hakimiyyətin bəzə "bəxş" etdiyi reallıq idi. Bir yanda "Talış-Muğan Respublikası" qurulmuşdu, o biri yanda xalqımızın milli mübarizə əzmini qırmaq istəyən xarici dövlətlərin fitvasıyla kürdlər, ləzgilər, digər etnik

qruplar baş qaldırmışdı. Rusiyadan birbaşa yardım alan Surət Hüseynovun quldur dəstəsi Bakını təhdid edirdi. İnsanlar qorxu içində yaşayırdılar, nəinki gecələr, hətta gündüzlər də heç kəs başını evdən bayıra çıxara bilmirdi. Açıq, dilənçilik artıq fəlakət həddə çatmışdı.

Bütün Azərbaycan xalqı yaxın keçmişimizin bu faciəli mənzərəsinin canlı şahididir. Biz mənəvi terror həddinə çatan o acı günləri yaşamağa məhkum edilmişdik. Müsavat-AXCP cinayətkar hakimiyyətinin yetirdiyi millət vəkili isə Heydər Əliyevin cəsarəti, əzmi və qətiyyəti sayəsində yaradılan rahatlıq içində, xalqımızın faciəli günlərini unudaraq kinlə soruşurdu:" Azərbaycanı kimlərdən və nələrdən qurtardı Heydər Əliyev?" Bu sualın cavabı ordusu, dövlətçiliyi günbəgün möhkəmlənən, iqtisadiyyatı durmadan inkişaf edən, xaosa, hərc-mərçliyə inamla qalib gələn qüdrətli çağdaş Azərbaycandır. Azərbaycan xalqı ölkəni xilas etdiyinə görə öz böyük oğluna, prezident Heydər Əliyevə həmişə xilaskar deyəcək və ona minnətdar olacaqdır!

Mustafa Kamal Atatürkə sui-qəsddə ittiham olunan maliyyəçi Cavid məhkəmədə çox kinli bir nitq söyləmişdi: "Ölkə ağır vəziyyətə düşüb. Dövləti idarə edənlərə qarşı xalqın qəzəbi günbəgün artır. Ölkə rəhbərləri ambisiyalı və qabiliyyətsizdir. Qazinin Türkiyəni xilas etmək üçün hazırladığı proqram absurtdur və onu hazırlayanın bacarıqsızlığını ortaya qoyur. Başlanğıcdan real olmadığı üçün bu proqram məhvə məhkumdur. Mustafa Kamal Türkiyəni məhvə aparır. Cənablar, bu cinayətdə iştirak edəcək qədər sadəlövh olmayın".

Kinli suallar verməyə adət elәyən bizim hakimiyyət hərisləri müxalifət qəzetlərində, parlament kürsüsündə, söz deməyə imkan olan hər yerdə Heydər Əliyevin ünvanına eyni məzmunlu, bəzən daha kəskin fikirlər səsləndirirdilər. Lakin tarix Cavidlərin, İsa Qəmbərovların, Rəsul Quliyevlərin deyil, Mustafa Kamal Atatürkün və Heydər Əliyevin uzaqgörənliyini təsdiq etdi. Bu gün Mustafa Kamal da, Heydər Əliyev də təkcə Türkiyənin və Azərbaycanın yox, bütün türk dünyasının ürəyində özlərinə əbədi heykəl ucaldıblar.

Heç bir bəlağətli söz ruhu dilənçi olanın eybini örtə bilməz. Zaman coşqun dağ çayı kimi axıb gedir, daş- kəsəkləri, tör-töküntüləri də özü ilə söküb aparır, təkcə əməllər, ideyalar və bu ideyaları həyata keçirən böyük şəxsiyyətlər əbədi yaşayırlar.

Rahat, isti kabinetlərdə oturub Heydər Əliyevi tənqid etməyə, söyməyə, gördüyü işləri inkar etməyə nə var ki! Bu gün Heydər Əliyevin gördüyü işləri inkar edənlərə, onu ən ağır sözlərlə ittiham və təhqir eləyənlərə mənim yazığım gəlir. Tarixin küləyi onların hamısını süpürüb zibilliyə atacaq. Onları türkiyəli Cavidin aqibəti gözləyir, şərəfsiz və faciəli aqibəti. İşıq olan yerdə həmişə kölgə də olur. Ancaq bulud günəşin üzünə kölgə salsa da, bundan günəşin parlaqlığı əksilməz.

Diqqətlə öyrəndikcə türk dünyasının iki böyük oğlu – Mustafa Kamalla Heydər Əliyevin talеyində nə qədər bənzər cəhətlər tapılır. Təsadüfmü, Tanrının lütfümü bulmirəm, hər ikisi Əlirza kişinin oğludur. Hər ikisi uşaqlıqda gizlin-gizlin şerlər yazıb, amma böyüdükdə ikisi də general oldu, biri hərbi, o biri təhlükəsizlik sahəsində. Mustafa Kamalın 1919-cu il may ayının 19-da Samsuna Dönüşə Türkiyə tarixində nə qədər əhəmiyyət kəsb edirsə, Heydər Əliyevin 1993-cü il iyun ayının 15-dəki qayıdışı da Azərbaycan üçün o qədər önəm daşıyır.

Hər ikisinə dağıdılmış, yarımçılpaq ölkə miras qalmışdı, hər ikisi yandırılmış torpaqların külü üzərində qüdrətli dövlət qurdu. Dostları, yaxın ətrafı hər ikisinə xəyanət etdi, bu xəyanətlər onları sarsıtdı, amma mübarizə əzmlərini qıra bilmədi. Hər ikisinə dəfələrlə sui-qəsd olundu, amma Ulu Tanrı sevib-seçdiyi insanları hər dəfə cəlladlardan qorudu. Hər ikisi müxalifət tərəfində layiq olmadıqları təhqir və tənqidləri məruz qaldılar.

Mənəvi cəhətdən sarsıtmaq üçün hər ikisini dünyada hər şeydən çox sevdikləri, uğrunda ölümə belə hazır olduqları, həyatlarının, yaşamlarının mənası saydıqları xalqdan qoparıb almağa çalışıblar.

Mustafa Kamal deyirdi: "Mənim məqsədim müstəqil və güclü Türkiyə yaratmaqdır. Türk xalqını gələcəyə aparmaq yolunda qarşıma çıxan bütün maneələri bu gündən sonra da qorxub-çəkinmədən dağıdacağam. Mən ordunu fəth etdim. Mən hakimiyyəti fəth etdim. Bu gecə edam edilən insanlar mənə mane olmaq istəyirdilər. Onlar məni bütün həyatımın mənası olan türk xalqından ayırmaq istəyirdilər. Mən onları əzdim, xalqla arama girmək istəyənləri həmişə bu cür əzəcəm. Qoy bunu hamı bilsin. Məni öldürməyə cəhd etmək, Türkiyəni öldürməyə cəhd etməkdir. Türkiyə mənim sayəmdə azad nəfəs alır, mən Türkiyənin sayəsində yaşayıram!"

Bakıya qayıtdığı ilk gün parlamentdəki çıxışında Heydər Əliyev deyirdi: "Mən hiddətlənirəm ki, Azərbaycan bərbad vəziyyətdədir, bəzi adam-

lar barmaq-barmağa vurmayıblar. Azərbaycandan kənarda gəzirlər, kabinetlərdə cürbəcür işlərlə məşğul olurlar, indi də başlayıblar işarə vurmağa ki, kimsə kreslo tutmaq istəyir. Mən kreslo istəmirəm, mən vəzifə istəmirəm. Mən xalqımla bir yerdə olmaq və bu ağır günündə ona kömək etmək üçün respublikaya qayıtmışam. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

Mustafa Kamalı da, Heydər Əliyevi də hakimiyyəti qeyri-qanuni yolla ələ keçirməkdə, demokratik dəyərlərə sadiq olmamaqda, hətta diktatorluqda ittiham ediblər. Qərbli müxbir Villi Sperko Türkiyənin xarici işlər naziri Tevfiq Rüştüyə belə bir sual verir: «Sizə elə gəlmirmi ki, Mustafa Kamalın Türkiyədə yaratdığı rejim demokratiya pərdəsi altında qurulan diktaturadır?"

Tevfiq Rüştü qərbli müxbirə bizim cızmaqaraçı tənqid həvəskarlarının da qulaqlarında sırğa olacaq çox gözəl dərs verir: "Siz buna diktatura deyirsiniz? Qulağınıza necə xoş gəlir, elə də adlandırın. Ancaq tək bircə şeyi bilmənizi istəyirəm. Sizin "diktatura" adlandırdığınız o şey bütöv bir millət tərəfindən məmnuniyyətlə qəbul olunur. Xalq sizin "diktator" adlandırdığınız adama "Qazi" deyir. Çünki o, Türkiyəni heçdən yaradıb, köləlik zəncirindən azad edib, əyilmiş qəddini düzəldib. Xalq dövlət başçısı kimi öz liderinə inanır, bütün həyatını, bütün gələcəyini ona etibar edir. Sizin nə ad qoyduğunuzun bizim üçün əhəmiyyəti yoxdur!"

Fransa "TV-5" televiziya kanalının müxbiri 1997-ci ildə Heydər Əliyevə belə bir sual vermişdi: "Siz sərt hökmdar kimi ad çıxarmısınız. Sizi hətta ziyalı müstəbid adlandırmışlar. Vəziyyətin qeyri-sabit ola biləcəyi müsəlman dövlətində Siz özünüzü müxalifətlə kifayət qədər sərt aparırsınız. Amma bununla yanaşı, Azərbaycanda demokratiya var".

Görün Heydər Əliyev bu suala necə cavab verir: "Bilirsinizmi, belə bir fikirlə razı deyiləm ki, mən sərt siyasət yeridirəm... Qanunsuz, hüquqa zidd olan hallardan heç biri dəstəklənə və ya onlara yol verilə bilməz. Müxalifətin bəzi adamları isə olduqca çox qanunsuz əməllərə əl atırlar... silahlı dəstələrdən istifadə edirlər. Təbiidir ki, biz bu cür müxalifətə qarşı qanunun müvafiq tədbirlərini görmüşük və görəcəyik. Bizim üçün Azərbaycanın milli mənafeyi hər şeydən yüksəkdə durur".

Türkiyə Cümhuriyyəti Mustafa Kamalın balası idi və o öz uşağının tərbiyəsini xain əllərə etibar edə bilməzdi, etibar etmək istəmirdi.

Azərbaycan Respublikası da Heydər Əliyevin balasıdır, əlindən tutub ayağa qaldırdığı, kamala yetirdiyi balası. Həyatda kövrək addımlarını atan respublikanın taleyini o, naşı əllərə, xain əllərə tapşıra bilməzdi, tapşırmazdı və tapşırmadı.

Mustafa Kamal deyirdi: "Xalqım öz iradəsi ilə özünə yeni bələdçi, yeni başçı seçənə qədər mən onun əlindən tutub irəli aparacam. Yalnız o zaman mənim missiyam başa çatacaq və mən sakit halda çıxıb gedəcəyəm. Qətiyyən bundan tez olmayacaq!"

Heydər Əliyev isə dönə-dönə təkid edirdi ki, mənim vəzifəyə, kresloya ehtiyacım yoxdur, ancaq xalqım fəlakətə düçar olanda mən kənarda qala bilmərəm. "Sobesednik" jurnalının müxbiri ilə söhbət zamanı H.Əliyev deyir: "Mən peyğəmbər deyiləm, sabah nə olacağını bilmirəm. Ancaq bir şeyi çox dəqiq bilirəm: bu dəhşətli anda hər şeyi atıb getmək adamlara xəyanət etmək deməkdir. Xalqım mənə inam, etibar göstərdiyi qədər mən onun yanında və arxasında olacağam!"

Marqaret Tetçer deyirdi: "Heydər Əliyev yorulub usananacan xalqının yanında və arxasında qalacaq, ancaq nə qədər ki, Azərbaycanın Heydər Əliyevə ehtiyacı var, o heç vaxt yorulub usanmayacaq!"

Tanrı seçəni xalq da seçər!

Heydər Əliyev bütün ömrü boyu sutkada 18-20 saat yorulub-usanmadan işləməyə adət etmişdi. Bütün digər normal insanlar bu cür yaşam tərzinə heç bircə il davam gətirə bilməzdilər. Amma Heydər Əliyevin daxili enerjisi gözəgörünməz qüvvə tərəfindən sanki idarə olunurdu. Bir dəfə, düz on iki il bundan əvvəl "Rossiyski fermer" qəzetinin müxbiri Heydər Əliyevə belə bir sual ünvanlamışdı: "sirr deyilsə, Siz bu qüvvəni haradan alırsınız, axı, bu yaxınlarda yetmiş yaşınız tamam oldu!"

"Görünür, təbiətin özü mənə hansısa qüvvə verib – deyir Heydər Əliyev. Xarakterim isə qüvvə və bacarığımı səfərbərliyə almağa vadar edir".

Heydər Əliyev şəxsiyyətini okeanda üzən nəhəng aysberqə bənzətmək olar. Aysberqin daxili gücü, onu hərəkətə gətirən enerji görünməyən hissəsində, suyun altındadır. Biz aysberqin yuxarı hissəsini görürük, suyun altında nə baş verdiyindən heç vaxt xəbərimiz olmur.

"Heydər Əliyev barədə hər şey məlumdur, həm də heç nə məlum deyil". Bu sözlər də "Sobesednik" jurnalının müxbirinə məxsusdur. Heydər Əliyev hamının tanıdığı adi, çox sadə, gülərüz, mehriban bir insan idi.

Onunla söhbət etmək, dil tapmaq çox asandı. Yüksək nitq məharəti kimi, yüksək dinləmək mədəniyyəti vardı. Eyni zamanda Heydər Əliyev heç kəsin tanımadığı, heç kəsin baş açmadığı sirli-sehrli, xarüqələr yaradan möcüzəli bir şəxsiyyət idi. Tanrı Heydər Əlirza oğlundan heç nəyini əsirgəməmişdi: görkəm, ağıl, zəka, qətiyyət, cəsarət, polad iradə vermişdi ona. Ancaq üç nişanə onu başqalarından çox-çox fərqləndirir və Heydər Əliyev müəmmasını Tanrı dərgahına yüksəldirdi: fenomenal yaddaş, bitib-tükənməyən və sehirli şəkildə idarə olunan daxili enerji və bir də möcüzəli gözlər. Bu gözlərin cazibəsi və təsiri dünyada heç nə ilə ifadə oluna bilməz. Rentgen şüası kimi insanı ortasından dəlib keçən, vəziyyətdən asılı olaraq qəribə şəkildə rəngini dəyişən, gah gecənin özü kimi zil qara rəngə çalan, gah qırçın ləpəli Xəzər kimi maviləşən, gah da açıq-boz polad çaları verən bu gözlərin sehrindən, cazibəsindən çıxmaq mümkün deyildi! Məhz bu gözlərin sayəsində müsahibləri Heydər Əliyevin yanında özlərini həmişə şagird kimi hiss edirdilər.

İyirminci əsrin Heydər Əliyev möcüzəsi yəqin ki, hələ uzun illər və uzun əsrlər tarixçiləri, filosofları, siyasətçiləri, politoloqları heyrətə gətirəcək. Siyasət aləminə tufan kimi, qasırğa kimi daxil olan Heydər Əliyev çox qısa zaman kəsiyində böyük bir imperiyanın dövlət zirvəsini fəth etdi, milyonlarla sadə insanın qəlbini çaldı və minlərlə kinli, məkrli düşmən qazandı.

Xalqın təkidli tələbiylə doxsan üçüncü ildə Heydər Əliyevi hakimiyyətə gətirənlər onu Yusif Sərrac kimi qurban vermək istəyirdilər. Öz dar ağılları ilə düşünürdülər ki, Heydər Əliyev Surət Hüseynovla Əlikram Hümbətovun silahlı dəstələri qarşısında uzun duruş gətirə bilməz və hər iki tərəf bir-birini sıradan çıxarar, onlar təzədən meydana çıxıb at oynadarlar. Hər şeyi hesablamışdılar, təkcə Heydər Əliyev dühasının nəyə qadir olduğunu unutmuşdular. Sonra Heydər Əliyevin keçəcəyi körpünü partlatmağı planladılar, daha sonra prezidentin uçduğu təyyarəni raketlə vurmaq istədilər. Amma yenə yaddan çıxartdılar ki, ölümün gözünə dik baxanları məğlub etmək olmaz. Uca Tanrının qoruduğunu heç kəs öldürməyə qadir deyil. Siyasət oyununda ən güclü qrossmeysterləri belə mat qoymağı bacaran Heydər Əliyevin çiynində Tanrı əli vardı, onun qəlbi Tanrı nuruyla işıqlanır və gecə-gündüz yanaraq mayak kimi qaranlıqda Azərbaycana yol göstərirdi.

Ötən günlər təkcə yaşanan ömür deyil, həm də torpaq qarşısında, Vətən qarşısında, insanlar qarşısında ödənən borcdur, gələcək nəsillərə ərməğandır. Bu borc heç vaxt itmir, əbədiyaşardır, nəsillərdən nəsillərə ötürülür.

Deyirlər ki, tarix təkrarı xoşlamır, bu dəyirmanda üyüdən də, üyüdülən də bir-birinə bənzəməz. Tarix təkcə ötüb keçənlər deyil, həm də olmuşların, ötmüşlərin bizə verdiyi ibrət dərsidir.

Bu dünyadan bir Heydər Əliyev keçdi. Tarixə, dünyaya, insanlara siyasət dərsi, natiqlik dərsi, quruculuq dərsi, sadəlik dərsi verən Heydər Əliyev! Ölümə qalib gələn və ölümsüzlüyə qovuşan Heydər Əliyev. Tarixi tarixçilərdən, ədəbiyyatı ədəbiyyatçılardan, memarlığı memarlardan yaxşı bilən Heydər Əliyev. Mən bu sətirləri yazdıqca sözlərin bu qədər sönüklüyündən heyrətə gəlirəm.

Heydər Əliyev böyüklüyü sözlərin dar, məhdud çərçivəsinə sığmır, ən tutumlu, ən bəzəkli, ən işıqlı sözlər də onun böyüklüyü önündə sönük görünür. Amma gözəl natiq olan Heydər Əliyev öz çıxışlarında bircə dəfə də bəlağətli sözlərə, bər-bəzəkli ifadələrə yol vermədi. Çünki o, yaxşı bilirdi ki, həqiqətin ən birinci nişanəsi sadəlikdir və aydınlıqdır. Heydər Əliyev həqiqəti sevirdi və həyatda özü bir həqiqət mücəssəməsi idi.

Dünyaca ünlü şəxsiyyətlərdən danışanda biz bəzən ən adi həqiqəti unuduruq, unuduruq ki, böyük şəxsiyyətlərin fəzilətləri onların sadəliyindədir. Sadə insan, ən adi vətəndaş ömrü yaşayan Heydər Əliyev hakimiyyət piramidasının ən yüksək zirvəsini fəth edəndə də sadə insan kimi qaldı, həmişə öz xalqının yanında və qəlbində oldu.

Heydər Əliyev tarixi yazmırdı, onu çiyinlərində irəli aparırdı. Bu qüdrətli çiyinlərdə Azərbaycanın özü boyda dərd, ələm daşınırdı!

Heydər Əliyev tarixdə qurucu hökmdar kimi yaşayacaq. Yeni Azərbaycanımızın qurucusu kimi. Heydər Əlirza oğlu Herakl kimi təkcə "Avgi tövləsini" təmizləmədi, həm də bu "tövlənin" yerində uca, təmiz və işıqlı binalar tikdi, qüdrətli dövlət yaratdı.

Fələyin çərxi həmişə dayanmadan, nəfəs dərmədən fırlanır, cəsarətlini, qəhrəmanı, ömrünü xalqının yolunda şam kimi gilə-gilə əridənləri təkrar-təkrar imtahana çəkir, sınayır, bərkə-boşa salır və boynuna əbədi şöhrət çələngi taxır.

Onun uzun və mənalı həyatında hər şey olub: sevinc də, kədər də, eniş də, yoxuş da, qələbə də, məhrumiyyət də, məhəbbət də, nifrət də. Sovet

imperiyasının ən aparıcı liderlərindən biri olduğu zaman da, göz dustağı olduğu vaxt da o heç dəyişməyib. Elə əvvəlki sadə və mətin, cəsarətli və qətiyyətli, iradəli və inadkar, hər şeyə qane olan və eyni zamanda barışmaz bir insan kimi qalıb Heydər Əliyev.

Heydər Əliyevin həyatını onun özündən yaxşı kim bilə bilər? Heydər Əliyevin sadə, amma təsirli çıxışlarını oxuduqca, verdiyi müsahibələri vərəqlədikcə bu nadir və bütün zamanlarda yeri doldurula bilməyəcək insanın keşməkeşli ömür yolu bir nağıl kimi göz önündən keçir.

Bu nağılın kiçik bir parçasını sizinlə paylaşmaq istərdim.

Sual: "Deyəsən Sizi öldürmək istəyirdilər?"

Cavab: "Qardaşımın evində qalırdım. Gecənin bir vədəsi xeyirxah bir adam qapını döydü və mənə dedi ki, ciddi tədbir hazırlanmışdır, evə atəş açа bilərlər. Burdan gedin. Səhər saat 5-də qardaşımla aeroporta yollandım".

"Sobesednik" jurnalına müsahibədən.

Sual: İsteriya vəziyyətində olan ölkəni necə idarə etmək olar?

Cavab: Onların bir "müqəddəs" prinsipləri vardı; dövlət işi sarıştəsiz adamlara, hətta adi aşpazlara həvalə olunurdu. ... Açığını desək, respublika demək olar ki, idarəolunmaz olmuşdu. Çünki prezident yox idi, baş nazir yox idi, o artıq çoxdan istefa vermişdi, tək mən qalmışdım. Belə bir vəziyyətdə mən həmin vəzifələri öz üzərimə götürdüm".

"Ostankino" dövlətlərarası televiziya şirkətinə müsahibədən.

Sual: Sizi hakimiyyətə dəvət edən insanlarla ilk görüşünüz necə keçdi?

Cavab: Mən onların cinayətkar idarəetmə üsulu barədə nə düşünürdümsə, üzlərinə dedim. İsa Qəmbərov dözməyib dilləndi: biz elə düşünürdük ki, Siz gəlib bizə məsləhət verəcəksiniz, Siz isə bizə ittihamnamə oxuyursunuz. Bəli, görüşümüz məhz belə keçdi!

"Sobesednik" jurnalına müsahibədən.

Sual: Sizə kələk gəlmək olmaz?

Cavab: Heç cəhd göstərmək də lazım deyil.

Sual: Siz kommunist ideallarına inanırdınız. Bu gün nəyə inanırsınız?

Cavab: Haqqa-ədalətə. Mən ki, qayıtmışam, deməli təcrübəm, zəkam, biliyim adamlara lazım olmuşdur!

Sual: Siz xarakter etibarı ilə yaradıcı adamsınız. Həyatınız boyu heç nə dağıtmamısınız?

Cavab: Bakıdakı uçuq-sökük daxmaları dağıtmışam. Adamlar həmin daxmalarda yaşamır, zillət çəkirdilər.

"Sobesednik" jurnalına müsahibədən.

Sual: Deyəsən Siz artıq ateist deyilsiniz?

Cavab: Bəli, mən Allaha inanmağa başlamışam. Məni bu inama həyatda qarşılaşdığım sınaqlar, ictimai şüurda baş vermiş köklü və böyük dəyişikliklər, sırf şəxsi səbəblər gətirib çıxarmışdır.

Sual: Heç Sizə xəyanət ediblərmi?

Cavab: Mən həyatda çox sarsıntılar keçirməli oldum. Onlara yalnız möhkəm əsəblər və güclü xarakter sayəsində dözmək mümkün idi. Yüksək vəzifələrə irəli çəkdiyim, təyin etdiyim, inandığım adamlar mənə xəyanət etdilər... Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla vicdanlılığı hər bir kəs özü seçir.

Sual: İndi başlıca arzunuz nədir?

Cavab: Xalqım üçün firavanlıq və əmin-amanlıqdan başqa ayrı bir arzum yoxdur. Bütün varlığımı, bütün qüvvə və bacarığımı mən bu amala həsr etmişəm.

"Ostankino" dövlətlərarası televiziya şirkətinə müsahibədən.

Zamana qalib gəlməyin tək bircə yolu var: dərin zəka, öz xalqına sonsuz məhəbbət və son nəfəsədək cəsarətli mübarizə. Heydər Əliyev öz həyatı ilə bizlərə necə yaşamağın və zamana necə qalib gəlməyin yolunu öyrətdi.

MUSA URUD
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

QƏDİM TORPAĞIN BÖYÜK OĞLU

Azərbaycan türklüyü iyirminci əsrdəki milli varlığı və inkişafı üçün, iyirmi birinci əsrdə əldə edəcəyi nailiyyətləri və tərəqqisi üçün birmənalı olaraq, öz böyük oğlu, ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətini qurmuş və on il ərzində ona böyük müvəffəqiyyətlə rəhbərlik etmiş möhtərəm cənab Heydər Əliyevə minnətdardır, onun dühasına, onun iradəsinə, onun dövlətçilik və milli birlik uğrunda ardıcıl, yorulmaz, qalibiyyətli mübarizəsinə borcludur.

Azərbaycanın 1969-cu ildən bəri ictimai-siyasi, sosial-iqtisadi və digər sahələrdə əldə etdiyi bütün nailiyyətlər birmənalı olaraq, bu xalqın müdrik oğlu, dünya şöhrətli siyasətçi, bütün ömrünü xalqının xoşbəxtliyi uğrunda mübarizəyə həsr etmiş dahi şəxsiyyətin – cənab Heydər Əliyevin adı ilə, onun uzaqgörən siyasəti və uzunillik yorulmaz mübarizə yolu ilə bağlıdır. Cənab Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəldiyi zamandan başlayaraq, Azərbaycan xalqının həyatında böyük bir yenilşmə, Azərbaycanın tarixində böyük dəyişikliklər həyata keçirilmiş, məmləkətimizin intibah mərhələsi başlanmışdır.

Məhz 1969-cu ilin 14 iyulunda Azərbaycanın bütün tarixi boyunca ən böyük ictimai siyasi xadimi, görkəmli dövlət başçısı, ümummilli lideri olmuş bütün dünyanın tanıdığı və böyüklüyünü dostun da, düşmənin də etiraf etdiyi Tarixi Şəxsiyyət – Heydər Əlirza oğlu Əliyev Azərbaycanda ali siyasi rəhbərliyə gəldi – Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçildi.

Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlməsi illərcə yağış yağmayan, bulaqları quruyan, torpağı qovrulub sovrulan, barını qəhər kəsmiş, dağlarının otu yanmış, yollarını toz basmış, aran günəşi altında ləhləyən Azərbaycanın səmasında barlı-bəhərli yağışdan xəbər verən şimşək çaxması, göy-gurultusu kimi bir şey idi. Bu gündən başlayaraq, gerilik, atalət basmış, fərasətsiz rəhbərliyinin fəaliyyətsizliyi nəticəsində yazıq, sahibsiz, fağır günə düşmüş, az qala öz kasıb qismətı ilə barışmaqda olan Azərbaycan xalqının silkələnib oyanma, qalxıb dirçəlmə günləri, taleyində böyük milli dönüş tarixi başladı.

Öz mübariz, səfərbərədici, ilhamverici və tələbkar hayqırtısı ilə Atatürksayağı xalqın ağır günündə irəliyə sıçramış bu rəhbər adam ali vəzifəyə seçiləndən sonra qısa müddət ərzində çox yatmışları oyatdı, çox azmışları haqqın yoluna qaytardı, təkcə Azərbaycan xalqına deyil, o vaxtkı SSRİ-nin bütün ittifaq respublikalarına, eləcə də Mərkəzi hakimiyyətə bəyan etdi ki, bu cür yaşamaq və işləmək olmaz, hər şey yeniləşməlidir, canlanmalıdır, dirçəlməlidir, mütərəqqiləşməlidir.

Tarixdə demək olar ki, bütün rəhbərlər yenilikçi, mütərəqqi konsepsiya ilə hakimiyyətə gəliblər, çox gözəl sözlər danışıblar, gözəl ideyalar irəli sürüblər. Yalnız o rəhbərlər tarixdə qalıblar ki, onlar öz dediklərini həyata keçiriblər, işdə, əməldə sübut ediblər və bu fəaliyyətləri ilə millətin, dövlətin tarixində yüksəlişə, dirçəlişə nail olublar. Azərbaycan xalqının əbədi ümummilli lideri Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü ondadır ki, onun ideyaları, gördüyü işlər, həyata keçirdiyi tədbirlər bir, yaxud bir neçə il üçün deyil, bir neçə onilliklər, bir neçə nəsillər, bütöv bir epoxa üçün düşünülmüş, nəzərdə tutulmuş, planlaşdırılmışdır.

Heydər Əliyev 1969-cu ilin 14 iyulundan Azərbaycanda hər şeyi yeniləşdirmək, saflaşdırmaq, dirçəltmək, inkişaf etdirmək, ölkəni çiçəklənən bir diyara çevirmək, xalqı xoşbəxt gələcəyə çatdırmaq uğrunda, böyük amallar uğrunda fəaliyyətə, mübarizəyə başladı.

Azərbaycan mədəniyyətinin və elminin çiçəklənməsi, iqtisadiyyatın, kənd təsərrüfatının inkişaf etməsi, sənaye potensialının intensiv artırılması, geniş sosial proqramların həyatda gerçəkləşdirilməsi məhz bu böyük tarixi şəxsiyyətin respublikaya rəhbərliyi dövrünə təsadüf edir.

Onun bu zaman kəsiyində gördüyü nəhəng işlər əsrə bərabər olan Heydər Əliyev erası kimi tarixə düşmüş və qədirbilən xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. Heydər Əliyev dəfələrlə həyatını təhlükə qarşısında qoyaraq vətənimizin azadlığı və müstəqilliyi naminə şərəfli mübarizəyə qalxmış, millətimizin ən böyük təəssübkeşi, dövlətçiliyimizin qurucusu, ölkəmizin rəhbəri kimi tarixi missiyanı öz üzərinə götürmüş, Azərbaycanımızı fəlakətlərdən xilas etmişdir.

Məhz buna görədir ki, Vətənimizin və xalqımızın taleyi təhlükədə olduğu bir vaxtda Azərbaycan xalqı öz xilasını yenə də cənab Heydər Əliyevdə gördü və gələcək xoşbəxtliyini Onunla bağladı. Cənab Heydər Əliyev 1993-cü ildə respublikaya rəhbərliyi yenidən öz üzərinə götürməklə Azərbaycanın dövlətçiliyinin təməlini qoydu, milli müstəqilliyinin və dövlət suverenliyinin qorunub saxlanılmasına, daxili və xarici düşmənlərin dağıdıcı, separatçılıq hərəkətlərinin dəf edilməsinə nail oldu.

Şübhəsiz ki, Vətən və xalq qarşısındakı misilsiz xidmətlərinə görə cənab Heydər Əliyevi anamız Azərbaycanın hər bölgəsində, hər rayonunda, hər kəndində qədirbilən xalqımız öz doğması, əzizi kimi ürəkdən sevir, öz milli varlığının, əmin-amanlığının, sosial rifahının və sabaha inamının qarantı kimi məhz Heydər Əlirza oğlunun dövlətçilik strategiyasını görür və yüksək qiymətləndirir.

Dünyanın hansı bucağında yaşamasından asılı olmayaraq, ürəyində Azərbaycan sevgisi, qanında milli təəssübkeşlik duyğusu olan hər bir azərbaycanlı Heydər Əliyevi öz doğması bilir, onun uca adı ilə öyünür, fəxr edir, bu müqəddəs adın kölgəsində özünü daha da güclü, daha da inamlı hiss edir.

Öz xalqının şəksiz və şəriksiz lideri, bu böyük insana olan milyonların sevgisi və qüruru içərisində, yəqin ki, Naxçıvan və Zəngəzur camaatının payı bir qədər artıqdır. Hər halda bu camaat belə hesab edir. Bu da təbiidir. Heydər Əliyev 1923-cü ilin gözəl bir yaz günündə – mayın 10-da Azərbaycanımızın ən qədim şəhərlərindən olan, milli varlığımızın ləyaqətli daşıyıcısı, mərd mübariz insanları ilə tanınan, Qafqazda sivilizasiyanın mərkəzlərindən biri sayılan tarixi Naxçıvan torpağında dünyaya göz açmış, burada böyümüş, məktəbə getmiş, təhsil almış, ilk əmək fəaliyyətinə başlamışdır. Bu mənada naxçıvanlılar özlərini cənab Heydər Əliyevə "bir köynək yaxın" sayırlar və bu inamlarında tamamilə haqlıdırlar.

Zəngəzur camaatı da naxçıvanlılar kimi cənab Heydər Əliyevi daha çox özlərininki sayırlar və onların da bu istəkləri əsassız deyildir. Ən azı ona görə ki, bütün Azərbaycan xalqının fəxri, vüqarı olan bu böyük şəxsiyyət öz soy-kökü ilə Zəngəzur torpağına, Azərbaycanın qədim torpaqları sayılan bu dağlar diyarına bağlıdır.

Əslində Naxçıvan da, Ərdəbil də, Zəngəzur da, Qarabağ da vaxt ilə anamız Azərbaycanın aralarında heç bir sərhəd, heç bir bölgü olmayan

bütöv əraziləri, zaman-zaman bir-biri ilə qaynayıb-qovuşmuş, qohumlaşmış türk ellərinin ata-baba torpaqları olmuşdur. Bu torpaqlar arasında sərhədlər sonradan çəkilmişdir. Əgər xanlıqlar dövründə bu sərhədlər şərti xarakter daşıyırdısa, 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsi Azərbaycanı iki yerə bölməklə, həm də Rusiyanın himayəsinə keçmiş şimal torpaqlarımızı qubernıyalara ayıraraq tarixi əlaqələri, ənənələri qırmağa, birliyimizi sarsıtmağa, isti münasibətlərimizi soyutmağa çalışdı.

1828-ci ildə Naxçıvanın Təbrizə yolunu kəsdilər... 1920-ci ildə isə İrəvanı Naxçıvandan ayırdılar. Ərikli dağının qol-budağını budadılar. Zəngəzuru mələdə-mələdə Naxçıvandan və Qarabağdan qopardılar, Naxçıvanla Qarabağ arasına ayrılıq yayılğı sərdilər.

... 1918-ci il Sisyana qarğış kimi, taun kimi, yanğın və zəlzələ kimi gəldi. Bu qədim Azərbaycan torpağında daş daşın üstündə qalmadı.

Daşnak Andronik Ozanyanın başçılıq etdiyi 10 min nəfərdən artıq erməni ordusu Zəngəzurda böyük talan və qırğınlara başladı. İnsanları yalnız türk və müsəlman olduqlarına görə qətlə yetirdilər, didərgin saldılar, ev-eşiklərini talan edib yandırdılar.

Zəngəzur camaatının bir hissəsi Naxçıvana, bir hissəsi isə Qarabağa pənah apardı. Daşnaqların işgəncə və təqiblərindən canını götürüb Naxçıvana qaçan Sisyanın Comərdli kəndinin camaatı arasında Azərbaycan xalqının milli iftixarı, Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevi dünyaya bəxş etmiş Əliyevlər ailəsi də var idi. Bu ailə mahalda öz mərdliyi, igidliyi ilə sayılıb-seçilən Comərdin və dövrünün tanınmış adamı olan Urudlu Kərbəlayı Abasqulunun nəsli kimi tanınmış və hörmət qazanmışdı.

Cənab Heydər Əliyevin ulu babası Comərd kişi qardaşı Alagöz Məhəmmədlə birlikdə Comərdli kəndinin bünövrəsini qoymuşlar. Kənddəki bütün ailələr bu iki qardaşın törəmələri olmaqla demək olar ki, bir-birinə qohumdurlar. Comərdli camaatının Sisyanın digər qədim azərbaycanlı kəndləri olan Urud, Şəki, Ərəfsə, Dəstəgird və s. kəndlərlə də yaxın qohumluq əlaqələri vardır.

Akademik Cəlal Əliyev "Elm həqiqətdir" kitabında öz ailələrinin nəsil şəcərəsini belə göstərir. Əliyevlər ailəsinin soy ağacı:

Comərd – Süleyman – Məhəmməd – Comərd – Əli - Kərbəlayı Cəfər – Əlirza

Əlirza Kərbəlayi Cəfər oğlunun anası urudlu Gülcahan Kərbəlayi Abbasqulu qızının soy ağacı:

Qulu – Behbudalı – Isgəndər – Cəfərqulu – Hüseynqulu – Məmmədqula – Nəcəfqulu – Kərbəlayi Abbasqulu – Gülcahan

İzzət xanım Cəfərqulu qızı Əliyevanın ata nəslinin soy ağacı:

Əbdüləli – Ağamalı- Məmmədəli – İmamqulu – Cəfərqulu – Kərbəlayi Abdulla – Məmmədəli – Cəfərqulu – (İzzət xanım Əliyevanın atası)

İzzət xanım Cəfərqulu qızı Əliyevanın ana xətti ilə nəsil şəcərəsi:

Güllübəyim – Tacıxanım – Bibixanım – Səkinə – Sarabəyim (İzzət xanım Əliyevanın anası)

Bu böyük və son dərəcə istedadlı ailənin nəsil şəcərəsi ulu babaları Comərd kişidən başlayaraq, üzü bəri bütün nümayəndələri öz azərbaycanlı soy-kökünə, milli varlığına, dini inamına, vətəninə və xalqına bağlı mərd-mübariz insanlar olmuşlar.

Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycana xalqımızın xilaskarı, ümummilli lider Heydər Əliyevi, akademik Həsən Əliyev, akademik Cəlal Əliyev, akademik Aqil Əliyev kimi elm korifeylərini, Azərbaycan Respublikasının Prezidenti, qloballaşan dünyanın siyasi mənzərəsində xüsusi dəsti xətti ilə seçilən, görkəmli siyasi xadim cənab İlham Əliyevi töhfə etmiş bu qüdrətli nəslin genoloji soy ağacı ətraflı öyrənilməli, müxtəlif aspektlərdən tədqiq edilməlidir. Bu Heydər Əliyev fenomeninin izahına, onun fövqəlinsan dühasının haradan qaynaqlanmasına aydınlıq gətirə bilər. Məsələ burasındadır ki, cənab Heydər Əliyevin mənsub olduğu nəsil XX əsrdə 50-dən artıq alim, elm və incəsənət xadimi yetirmiş, bu nəsil Azərbaycanın bütövlüyü uğrunda Qarabağda gedən döyüşlərdə 10-dan çox şəhid vermişdir ki, onlardan ikisinə – Aqil Sahib oğlu Quliyevə və Fəxrəddin Vəlyəddin oğlu Nəcəfova vətənin ən yüksək fəxri adı – Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir.

Əlirza kişinin oğlanları Həsən Əliyev və Hüseyn Əliyev Comərdli kəndində dünyaya göz açmış, burada böyümüş, Vətən torpağının əsrarəngiz gözəllıyini burada duymuş və uşaq yaddaşlarında əbədi həkk etdirmişlər.

Xalqımıza qarşı ermənilər tərəfindən 1918-ci ildə törədilən deportasiya və soyqırım faciələri hər bir azərbaycanlı ailəsini sarsıtmış, bu sarsıntı və iztirab nəsildən-nəsilə insanların içərisində, yaddaşında yaşamışdır.

Əliyevlər ailəsi də bu hadisələrdə öz yurdlarını, əziz adamlarını itirmiş, əzab-əziyyətlər çəkmiş, məhrumiyyətlər görmüşdür.

Azərbaycan milli torpaqşünaslıq və ekologiya elmlərinin banisi, Milli Akademiyamızın yaradıcılarından biri, görkəmli ictimai-siyasi xadim akademik Həsən Əlirza oğlu Əliyev bu qanlı qırğınların canlı şahidi kimi ömrünün son günlərinə qədər həmin hadisələri xatırlayır, comərdlilərin qeyri-bərabər döyüşdə düşmənə qarşı necə fədakarlıqla döyüşməsini, kəndlərinin dağıdılıb yandırılmasını, bir əmisinin atın tərkinə aldığı 10 yaşlı oğlunun arxadan atılan erməni gülləsindən ölməsini, digər əmisinin isə arvadı və südəmər körpə qızı ilə kəndin kənarındakı bir mağarada gizlənməsini, ermənilərin mağaraya hücumu zamanı isə son patrona kimi atışdığını, axırda isə daşnaqların mağaraya girərək əmisinin başını kəsdiyini, əmisi arvadını və südəmər uşağı isə süngü ilə min bir əzab verərək öldürdüklərini, Comərdli camaatının çoxlu itkilər verdikdən sonra dağlarla qaçaraq, Naxçıvana pənah aparmasını yana-yana, erməni daşnaqlarına qarşı sonsuz bir nifrət hissi ilə danışırdı.

Şəfiqə xanım Əliyeva "Mənim anam" kitabında ailələrinin 1918-ci ildə üzləşdiyi müsibətləri çox səmimi və təsirli bir şəkildə belə təsvir edir:

"Ermənilərin Zəngəzur torpağına olan təcavüzü anamın ömür kitabında gənclik xatirələrinin ən acı səhifələridir. Öz torpağından didərgin düşənlər Naxçıvanın ətrafında olan kəndlərdə – Qazançı, İşıqlar, Cəhri və Milax kəndlərində məskunlaşırlar. Atam Əlirza və anam İzzət xanım isə Naxçıvana gəlirlər. Lakin anamın çəkdiyi müsibətlərin hamısından dəhşətlisi Comərdlidən qaçarkən yolda gördüyü mənzərə olub. Çox sevdiyi, gözəlliyi, boy-buxunu ilə öyündüyü 23 yaşlı qardaşı Heydərin ölümü onu sarsıdıb. Anamı qaçqın düşmək ağrısından daha çox sevimli qardaşının ölümü yandırırdı. Düz on beş il anam bacı, qardaşlarının sağ olub, olmamasından xəbər tuta bilməyib. Bir gün isə qardaşı övladlarının sağ olması xəbərini ona verirlər. Özü nəql edirdi ki, qardaşlarımın ətrini yenicə tapdığım övladlarımdan alanda elə bil dünyaya təzədən gəldim. Məsmə, Səkinə, Rzaqulu, Humay... Onlar anam üçün artıq yoxluğa çevrilmiş bacı-qardaş tapıntısına bərabər sevinc idilər.

Atamla anam Naxçıvanda məskunlaşdıqdan sonra üç qardaşım, mən və bacım dünyaya gəlmişik. Həyatı dərk edəndən anamın gözlərində kədər görmüşəm. Atam dəmiryolçu idi. Səhər gedib axşama kimi çalışar, öz ha-

lal qazancı ilə balalarını böyüdərdi. Zəhmətkeş, dinc ailəmiz olub. Anam "erməni" kəlməsinə belə nifrət edərdi. Çünki ermənilərin onun ailəsinə vurduğu zərbənin acısını çəkmək asan məsələ deyildi. Elə buna görə də yaraşıqlı, mehriban baxışlarından həmişə hüzn və küsgünlük boylanardı. Bacı, qardaş itkisindən doğan hüzn".

Sovet hökuməti qurulduqdan sonra Zəngəzur camaatı yavaş-yavaş öz doğma yurdlarına qayıtsa da, geriyə dönməyənlər də istisna deyildi. Geriyə qayıtmayanlar arasında comərdlilərdən də xeyli ailələr var idi. Bu insanları qınamaq da düzgün deyildi. Kənd yandırılmış, ev-eşik dağıdılmış, var-dövlət talan edilmiş, qırğınlar zamanı ailə üzvlərinin çoxu vəhşicəsinə qətlə yetirilmişdi. Digər tərəfdən, elə ailələr var idi ki, məskunlaşdıqları yerdə artıq özlərinə az-çox güzəran yaratmış, iş tapmış, öz həyatını dinc axara sala bilmişdi. Naxçıvana pənah aparmış 110 evli Comərdli camaatından 1930-cu ildə geriyə yalnız 25 ev qayıtmışdı. Qalan camaat Naxçıvanın müxtəlif yaşayış məntəqələrində məskunlaşmış, bəziləri isə köçüb Bakıya, Azərbaycanın digər yerlərinə getmişdilər. Yeri gəlmişkən, qeyd edək ki, 1918-ci il qırğınında Comərdli kəndindən 20-yə yaxın ailə dağ yolları ilə Kəlbəcərə getmiş, orada məskunlaşaraq Comərd kəndinin binasını qoymuşlar. Kəlbəcərin Comərd kəndi 1993-cü ildə Kəlbəcər işğal olana qədər mövcud olmuşdur.

Comərd kişinin nəslindən olan bir çox ailələr, o cümlədən Əlirza Əliyevin ailəsi də Naxçıvanı özlərinə ikinci vətən seçərək öz sonrakı taleləri bu qədim torpağa bağladılar.

Əliyevlər ailəsi Naxçıvanda məskunlaşdıqdan sonra da uzun illər Zəngəzurla əlaqələrini kəsməmiş, Comərdli, Urud, Şəki və s. kəndlərdə yaşayan qohumları, dostları ilə get-gəl etmiş, onların xeyir-şərində iştirak etmişlər.

Əlirza kişinin oğlanları Həsən, Hüseyn, Heydər, Cəlal, Aqil Əliyevlər müxtəlif vaxtlarda ata-baba yurdlarında olmuş, qan qohumları ilə görüşmüş, yay tətilində bu dağlar diyarında havalarını dəyişmiş, istirahət etmişlər.

Heydər Əliyev yeniyetmə vaxtlarında təxminən 3 il dalbadal yay tətilində istirahət etmək üçün Naxçıvanın bürküsündən sərin, saf havalı və soyuq bulaqlı, bağlı-bağatlı Urud kəndinə gəlib, Urudlu qohumlarının, atasının və özünün dostlarının evində yaşayıb. Heydər Əliyevin tay-tuşları olmuş, onunla yoldaşlıq, dostluq etmiş, Urudlu ağsaqqalların bir çoxu ilə söhbət etdikdə onların hamısı Heydər Əliyevin gənclik dövrü ilə bağlı eyni fikri söylədilər: O olduqca ağıllı, təfəkkürlü, savadlı, istedadlı bir gənc idi. Kəndə gələndə bütün kənd cavanları onun başına yığışardı. Onda insanları asanlıqla öz ətrafına toplamaq, onları idarə etmək, onlara rəhbərlik etmək bacarığı var idi (90, 186).

Cənab Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə, respublikanın hüdudlarından kənarda qalan torpaqlarımızı, orada yaşayan azərbaycanlıları bir an da olsun unutmamış, onların maddi, mədəni, sosial şəraitlərinin yaxşılaşdırılması, həmin insanların içərisindəki Azərbaycan ruhunun yaşaması, mübarizə aparması və qalib gəlməsi üçün aşkar və gizli şəkildə, o dövrün imkanları daxilində əlindən gələni etmişdir.

Məhz cənab Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə yetmişinci illərin əvvəllərindən Dağıstanda, Gürcüstanda və Ermənistanda tez-tez Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilməyə başladı.

Bu proqram çərçivəsində respublikanın tanınmış elm, mədəniyyət, incəsənət xadimləri "vətənin qıraqda qalan yerləri"ndə yaşayan soydaşlarımızla görüşür, onların mənəvi tələbatlarının ödənilməsinə yardımçı olurdular. Bu mənada Zəngəzur da istisna deyildi. Bakıdan, Ağdamdan, Füzulidən, Naxçıvandan Zəngəzura tez-tez teatr, konsert qrupları gəlir, kənd-kənd gəzərək, konsertlər, tamaşalar verirdilər. Azərbaycanda istehsal olunmuş kinofilmlərin Zəngəzurun azərbaycanlı kəndlərinə gətirilməsi ötən əsrin 70-80-ci illərində adi hala çevrilmişdi.

Bütün Zəngəzur camaatı bilirdi ki, onlara Azərbaycan tərəfindən göstərilən bu qayğı və diqqət bilavasitə möhtərəm Heydər Əliyevin qayğısı və diqqətidir. Bütün Zəngəzur camaatı bilirdi ki, Azərbaycan Respublikasının KP MK-nın birinci katibi Heydər Əliyev həm də Ermənistan SSR-də yaşayan azərbaycanlıların dayağıdır, arxasıdır.

Zəngəzur azərbaycanlıları cənab Heydər Əliyevin diqqət və qayğısını həmişə yüksək qiymətləndirir, həmişə bu böyük insanın müqəddəs adı ilə öyünür, qürrələnir, ondan qürur duyurdular.

Cənab Heydər Əliyevin birbaşa göstərişi ilə 1974-cü ildə Zəngəzurla Bakı ilə birləşdirən Sisyan-Bakı avtobus xətti açıldı. Sisyan rayonu ilə Bakı şəhəri arasında gündəlik avtobus marşrutunun açılması Sisyan və Gorus azərbaycanlılarının həyatında inqilaba bərabər bir hadisə idi. Çünki o

vaxta qədər Qafan və Meğri azərbaycanlıları Bakı və Azərbaycanın bir sıra digər rayonları ilə Qafan – Bakı və Culfa -Bakı dəmiryolu vasitəsilə birbaşa əlaqə saxlaya bilirdilərsə, Sisyan və Gorus azərbaycanlılarının belə bir imkanı yox idi.

Cənab Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü olarkən də Zəngəzuru unutmamış, bu bölgənin geosiyasi əhəmiyyətini, gələcəkdə Azərbaycanın həyatında mühüm rol oynaya biləcəyini nəzərə alaraq Bakı ilə Naxçıvanı (gələcəkdə isə Türkiyəni) birləşdirəcək transregional avtomobil magistralının çəkilməsi barədə SSRİ Nazirlər Sovetinin qərarının verilməsinə nail oldu. Təəssüflər olsun ki, SSRİ-nin dağılması bu böyük strateji əhəmiyyətli qərarın icrasını yarımçıq qoydu.

Zamanın qısa bir kəsiyində dövr Əliyevlər ailəsinə dönük çıxdı. Bu dönüklük həm də bütövlükdə Azərbaycan xalqına, Azərbaycan məmləkətinə olan qısqanc, düşmənçilik münasibətinin ifadəsi idi. Azərbaycan xalqının qüdrətli oğlu Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 14 il ərzində ölkəni o vaxtkı SSRİ-nin ən varlı, ən qabaqcıl, ən inkişaf etmiş respublikalarından birinə çevirmiş, SSRİ kimi fövqəldövlətin rəhbərliyində təmsil olunduğu illərdə isə dünyada böyük siyasi xadim kimi tanınmışdı. Belə bir liderin varlığı Azərbaycan xalqının düşmənlərini, ilk növbədə isə erməni millətçilərini rahat buraxmırdı.

Zamanın tərəzisi əyilir, şər Mixail Qorbaçov adlı bir şeytanın timsalında göyərib qalxırdı. İstedadı, savadı, nüfuzu, idarəetmə qabiliyyəti və bir çox digər keyfiyyətləri ilə Heydər Əliyevdən çox-çox geridə qalan Mixail Qorbaçov ona həsəd aparır, qısqanclıq edirdi. Məhz bu qısqanclıq səbəbindən, onun yanında dururkən, danışarkən cılız görünməyin qorxusundan Sov. İKP-nın o vaxtkı Baş Katibi Mixail Qorbaçov Heydər Əliyevi SSRİ-nin rəhbərliyindən kənarlaşdırmaq üçün bəhanə axtarır. Lakin heç bir əsaslı dəlil-sübut tapa bilmir....

1987-ci ildə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən və Sov. İKP MK üzvlüyündən istefa verdikdən sonra həm Moskvada, həm də Bakıda Əliyevlər ailəsinə qarşı son dərəcə ədalətsiz və çirkin bir kampaniya başlanmışdı. Sanki bu qüdrətli nəslin Azərbaycan xalqı üçün etdiyi yaxşılıqların qisasını alırdılar. Ən ağrılısı isə bu idı ki, baltanın böyüyünü "özümüzünkülər" götürmüşdülər. Akademik Həsən Əliyev 19 il rəhbərlik etdiyi instituta daha "gərək olmadı", akademikin oğlu, görkəmli memar Rasim Əliyev, qardaşları akademik Cəlal Əliyev, professor Aqil Əliyev heç bir səbəb göstərilmədən vəzifələrindən çıxarıldılar.

Öz ömrünü-gününü, istedadını, bacarığını, elmini doğma xalqına sərf etmiş bir nəslə qarşı misli görünməmiş mənəvi terror başlandı, bu terror Əbdürrəhman Vəzirovun rəhbərliyi dövründə xüsusilə gücləndi.

Lakin cənab Əliyevin müdrikcəsinə dediyi kimi, tarix hər şeyi öz yerinə qoydu, Heydər Əliyevi yenidən siyasət olimpinin zirvəsinə qaldıran zaman, Mixail Qorbaçov və Əbdürrəhman Vəzirov kimi diletantları layiq olduqları yerə – siyasət tarixinin zibilliyinə tulladı.

Cənab Heydər Əliyev bütün ömrü boyu Azərbaycan xalqına sədaqətlə, sidq-ürəklə xidmət etmiş, özünün dediyi kimi, həyatını bağışladığı xalqının xoşbəxtliyi yolunda şam kimi yanmış, bu xalqın ən ağrılı-acılı günlərində, ən ağır dəqiqələrində də dəfələrlə həyatını təhlükə altında qoyaraq öz xalqı ilə birlikdə olmuş, öz xalqına həyan durmuşdur.

1990-cı ilin 20 Yanvar gecəsində Azərbaycan xalqının vicdanı ləkəli, əli qanlı cəlladı Mixail Qorbaçov xalqın iradəsini, azadlıq əzmini qırmaq məqsədilə, özünün Bakıdakı quyruq bulayanları əbdürrəhman vəzirovların və ayaz mütəllibovların daxili dəstəyi ilə Bakıya – dinc, əliyalın əhalinin üzərinə qoşun yeritdi, qətliam törətdi, "Qanlı 20 Yanvar Bakı faciəsi" kimi tarixə düşən bir cinayətə imza atdı. Xalq sarsıldı, xalq matəmə batdı, xalq dövlətə, kommunist partiyasına, rəhbərə, hərəkat liderlərinə az-çox olan inamını bir dəfəlik itirdi.

Ə. Vəzirov və A. Mütəllibov Moskvaya Qorbaçovun yanına, xalqı qırğına vermiş Rəhim Qazıyev və Nemət Pənahlı İrana qaçdılar. AXC sədri Ə. Elçibəy İsmayıllıda, İsa Qənbərov və Pənah Hüseynov kimi avantüristlər isə Bakı ətrafı kəndlərdə gizləndilər.

Belə bir zamanda cənab Heydər Əliyevin gur, qəzəbli, əzəmətli, hiddətindən mis kimi cingildəyən ittihamedici səsi bütün dünyaya yayıldı: "Bakıda Sovet qoşunları tərəfindən Azərbaycan xalqına qarşı törədilən qanlı hadisə hüquqa, əxlaqa, mənəviyyata ziddir, xalqa qarşı tarixi cinayətdir".

Həyatını risk altında qoyaraq, o, oğlu İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı Nümayəndəliyinə gedir, mətbuat konfransında çıxış

edərək, Azərbaycanda qan axıdılmasına, günahsız insanların qətlə yetirilməsinə görə Sovet rəhbərliyini və ilk növbədə M. Qorbaçovu kəskin ittiham edir. H. Əliyev qətiyyətlə və əsaslandırılmış surətdə izah edir ki, məsələnin siyasi yolla nizama salınması, xalqla dialoq üçün real imkanlar olsa da, onlardan istifadə edilməmişdir. Bu gün – 12 il ötdükdən sonra biz onun nə dərəcədə haqlı olduğunu görürük: bəli, bu imkanlardan istifadə edilməmişdi. Şüurlu olaraq.

..."20-si axşam xəbər tutdum ki, onlar Bakıya qoşun yeridiblər. Həmin axşam isə Qorbaçov televiziya ilə çıxış etdi. Mən ona qulaq asdım, baxdım. Və ayın 21-də Moskvaya gəldim, evə gedib ailə üzvlərimlə görüşdüm. Öyrəndim ki, Moskvada yaşayan azərbaycanlıların əksəriyyəti Bakıdakı hadisələrlə əlaqədar Daimi Nümayəndəliyə yığışıblar. Təbii ki, mən kənarda qala bilməzdim. Mən azərbaycanlıyam, bu, mənim ölkəmdir, bu, mənim xalqımdır. Qərara aldım ki, oraya, Daimi Nümayəndəliyə gedim".

Heydər Əliyevin səsini bütün dünya eşitdi. Bu, həqiqətin səsi idi. Bundan dərhal sonra onu, onun bütün ailə üzvlərini təqib etməyə başladılar. Belə ki, İlham Əliyevi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda müəllimlikdən azad etdilər.

Ümummilli liderimiz dəfələrlə tariximizin öyrənilməsi, onun düzgün qiymətləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, dilimiz, dinimiz, soy-kökümüz, tarixi torpaqlarımız haqqında proqram xarakterli dəyərli fikirlər söyləmiş, tarixi qərarlar qəbul etmiş, elm, sənət və dövlət adamlarının qarşısında mühüm vəzifələr qoymuşdur.

XX əsrdə xalqımızın başına gələn müsibətlər, xüsusilə ermənilər tərəfindən ölkəmizə qarşı əsassız olaraq irəli sürülən torpaq iddiaları, törədilən soyqırım və deportasiya aktları, bu hadisələrin ətraflı öyrənilməsi və onlara düzgün tarixi, hüquqi, siyasi qiymət verilməsi məsələləri Heydər Əliyevin daim önəm verdiyi məsələlərdəndir.

Xalqımıza qarşı edilən haqsızlıqlara, bir neçə dəfə törədilən soyqırım aktlarına və deportasiyalara uzun müddət siyasi-hüquqi qiymət verilməmiş, hətta bu barədə danışmaq və yazmaq yasaq edilmişdir. Təəssüflər olsun ki, müstəqilliyimizi əldə etdikdən sonrakı ilk illərdə də bu sahəyə olan laqeydlik buzu əriməmişdir.

Problemi həll etmək üçün əvvəl onu bilmək, ətraflı öyrənmək, səbəblərini araşdırmaq, nəticəsini proqnozlaşdırmaq gərəkdir. Məhz ermənilər

tərəfindən bizə qarşı 1905, 1918, 1948-52-ci illərdə törədilmiş soyqırım və deportasiya aktları barədə bilgilərimizin kifayət qədər olmaması səbəbindən 1988-ci ildə Qarabağ separatizmi başlayanda erməni məkrinin miqyasını müəyyən edə bilmədik, mübarizəmizin düzgün taktikasını seçə bilmədik, informasiya müharibəsini uduzduq. Qərbi Azərbaycan torpaqlarını itirdik, 200 minə yaxın soydaşımız ata-baba torpaqlarından – Zəngəzurdan, Dərələyəzdən, Vedibasardan, Göyçədən, Dağ Borçalıdan – Lori-Pəmbəkdən didərgin düşdülər, daha sonra 1990-cı ilin 20 Yanvar faciəsi, 1992-ci ilin Xocalı faciəsi, Şuşa itkisi ilə qarşılaşdıq. Torpaqlarımız işğal olundu, bacı-qardaşlarımız öz Vətənimizdə məcburi köçkünə çevrildilər, qədim-qayım ellərimiz dağıdıldı, ilan mələyən çöllərdə çadır şəhərcikləri tikməli olduq.

Yenə də imdadımıza Böyük Tanrının göndərdiyi Böyük İnsan – Cənab Heydər Əliyev yetişdi. Çağırışımızı eşitdi, köməksizliyimizi, kimsəsizliyimizi gördü, çarəsizliyimizi hiss etdi, canından əziz bildiyi Vətənimin naminə, özündən çox sevdiyi xalqının xatirinə yenidən böyük siyasətə qayıtdı, yenidən ölkəyə rəhbərlik etmək yükünü öz polad çiyinlərinə götürdü.

Cənab Heydər Əliyevin 1993-cü ilin iyununda ikinci dəfə respublikaya rəhbərliyi öz üzərinə götürməsi bir xilaskarlıq missiyası idi.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Milli Məclisi 15 iyun gününü Milli Qurtuluş günü elan etmişdir.

Məhz 15 iyundan sonra ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, hakimiyyət böhranı aradan qaldırıldı, Azərbaycanın başı üstündən Domokl qılıncı kimi asılmış separatizm və parçalanma təhlükəsi sovuşdu, müstəqil Azərbaycanın dövlətçiliyinin bünövrəsi qoyuldu, ölkədaxili sabitlik bərqərar oldu, müharibə dayandırıldı, münaqişə sülh danışıqları müstəvisinə keçirildi, sosial-ictimai, siyasi-iqtisadi həyatın bütün sahələrində təkamül başladı, ötən on ildə Azərbaycan yüz illik bir tarixi yol keçdi, dünya dövlətləri və millətləri sırasında öz inamlı imzasını qoydu, ən əsası isə odur ki, xalqın öz dövlətinə və rəhbərinə olan dönməz inamı nəinki sarsılmadı, dəfələrlə sınaqlardan çıxaraq daha da möhkəmləndi.

Məhz bu gündən sonra başladı xalqın və dövlətçiliyin xilası. Məhz bu gündən sonra başladı müstəqil Azərbaycan dövlətinin quruculuğu.

Məhz cənab Heydər Əliyev Ermənistan və Azərbaycan arasında uzun müddətdən bəri davam edən qanlı müharibəni dayandırmağa, atəşkəs elan

etməyə, münasibətləri aydınlaşdırmağı sülh danışıqları müstəvisinə keçirməyə nail oldu.

Qarabağ probleminin təkcə ölkədaxili məsələ olmadığını bir dövlətin – Ermənistanın, digər dövlətə – Azərbaycana ərazi iddiasından doğan bu silahlı münaqişənin geopolitik, dünyanın müxtəlif aparıcı dövlətlərinin iqtisadi, siyasi və hərbi maraqlarının toqquşduğu və bu maraqlardan asılı bir problem olduğunu məhz cənab Heydər Əliyev ilk dəfə dünyaya bəyan etdi, neçə illərdən bəri məruz qaldığımız informasiya blakadasını dağıtdı, Azərbaycan həqiqətlərini dünyaya çatdırdı.

Neçə illərdi ki, üzləşdiyimiz və içərisində yaşadığımız Qarabağ problemino konseptual baxımdan, sistemli şəkildə yanaşmağın gərək olduğunu məhz bizə və dünyaya Heydər Əliyev öyrətdi. Heydər Əliyev öyrətdi ki, tarixi analogiyalar aparmadan, ötən dövrdəki hadisələrlə müqayisə etmədən, "erməni məsələsi"nin tarixi, siyasi, dini, etnik köklərini araşdırmadan bu məsələyə düzgün qiymət vermək, bu məsələni ədalətli həll etmək mümkün deyildir.

"Tarix hər şeyi öz yerinə qoyur", "Tarix heç nəyi silmir" deyən Heydər Əliyev xalqımızın və dövlətçiliyimizin tarixinə həmişə çox böyük həssaslıqla yanaşmışdır. Xalqımızın XX əsrdə məruz qaldığı deportasiya və genosid aktlarına hüquqi, siyasi qiymət verilməsi də Prezident Heydər Əliyevin fərmanları ilə reallaşdı.

Cənab Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixdə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlardan kütləvi surətdə deportasiya haqqında" Fərmanı ilə ermənilərin fitnəsi ilə Sovet hökuməti tərəfindən xalqımıza qarşı törədilmiş kütləvi deportasiyası aktı dünyaya bəyan edildi, Azərbaycan xalqının milli, tarixi hüququnun pozulması pislənildi, bu akt cinayət kimi, ən adi hüquq normalarına zidd olan, totalitar rejimin repressiya tədbiri kimi qiymətləndirildi.

Prezident fərmanı ilə bu tarixi ədalətsizliyə siyasi qiymət verildi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradıldı.

Heydər Əlirza oğlunun 1993-cü ildə yenidən hakimiyyətə gəlişi ilə Azərbaycan dağılmaq və məhv olmaq təhlükəsindən xilas edilməklə bərabər, xalqımıza qarşı törədilən deportasiya və soyqırımı siyasətinin davamına son qoyuldu. Heydər Əlirza oğlunun 1998-ci ilin 26 martında imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı ilə xalqımıza qarşı edilmiş bu tarixi cinayət bütün dünyaya bəyan edildi, ona siyasi qiymət verildi, işğalçı və cinayətkar öz adı ilə çağırıldı.

Cənab Heydər Əliyev öz ata-baba yurdlarından didərgin salınmış insanların hüquqi, mənəvi, maddi, sosial problemlərinə həmişə böyük həssaslıqla yanaşmış, bu insanların məskunlaşma, sosial müdafiə, adaptasiya və reinteqrasiya məsələlərinə daim qayğı və diqqət göstərilmişdir.

Cənab Prezidentin 22 avqust 2001-ci ildə imzaladığı "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması haqqında" Fərman qaçqın soydaşlarımıza Prezident qayğısının, dövlət qayğısının bariz nümunəsidir. Fərmanda göstərilir ki, XX əsrdə müxtəlif dövrlərdə 2 milyona yaxın soydaşımız öz tarixi vətənindən zorla köçürülmüş, etnik təmizləmə siyasətinin qurbanına çevrilmişdir. Cənab Heydər Əliyevin bu fərmanı qaçqınların status, məskunlaşma, məşğulluq, hüquqi, sosial müdafiə problemlərinin həllində yeni addım, əsaslı dönüş nöqtəsi olmuşdur.

Ümummilli liderimizin böyük siyasi uzaqgörənliklə müəyyən etdiyi, ədalətə, sülhə və beynəlxalq hüquq normalarına əsaslanan Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir; dünyada Azərbaycanın tərəfdaşları çoxalır, nüfuzlu beynəlxalq təşkilatlarda ölkənizin mövqeyini dəstəkləyən qərarlar qəbul edilir, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə çözülməsi perspektivi artır. Ərazi bütövlüyü məsələsində Azərbaycan Prezidentinin qətiyyətli və prinsipial mövqeyi ordumuzun və bütövlükdə Xalqımızın qələbə inamını daha da möhkəmləndirir.

Qələbəmiz isə realdır və uzaqda deyildir.

...Həm də ona görə ki, Heydər Əliyev yolu həmişə işıqlı, qalibiyyət və zəfər yoludur.

MƏMMƏD ƏLİZADƏ
Siyasi Partiyaların Məşvərət Məclisinin sədri

XALQIN OĞLU

Tarixi yaradan xalq, xalqı idarə edən şəxsiyyətdir — liderdir. Hər bir xalqın tarixində misilsiz rol oynayan dahi şəxsiyyətlər -liderlər olmuşdur, var və olacaq.

Məmləkətlərin tarixinə nəzər salmaq kifayətdir ki, şəxsiyyətlərin öz xalqı üçün necə misilsiz xidmətlər göstərdiklərinin şahidi olasan.

I Pyotr (Rusiya), Corc Vaşinqton (ABŞ), Oliver Kromvel (Böyük Britaniya), Cüzeppe Haribaldi (İtaliya), Şarl de Qol (Fransa), Mahatma Qandi (Hindistan), Mao Tzedun (Çin), Atatürk (Türkiyə) öz xalqlarının azadlığı, istiqlaliyyəti uğrunda fövqəlinsan fitrəti göstərmiş, ölkələrinin müstəqil — bağımsız dövlət kimi güclənib möhkəmlənməsində Tanrının bəxş etdiyi ilahi zəkadan istifadə etmişlər.

Müqəddəs kitablarda yazılır ki, Allah-Təala insanı özünəoxşar yaratdı və öz ruhundan- insanlara da pay verdi. Allah-Təalanın bəxş etdiyi ilahi zəkasını insanlıq naminə, Vətən və xalq naminə şam kimi əridən qüdrətli kişilərdən biri də Türk dünyasının dahi oğlu, o taylı-bu taylı Azərbaycanın minilliklər ərzində yetirdiyi qüdrətli şəxsiyyətlərdən biri olan böyük insan, uzaqgörən siyasətçi, ədalətli rəhbər, bütöv şəxsiyyət — Heydər Əlirza oğlu Əliyevdir.

Məlumdur ki, hər bir müdrik şəxs öz gələcəyini görmək istəyirsə, öncə öz keçmişinə nəzər salmalı, millətinin və məmləkətinin tarixini öyrənib təhlil etməli, hansı soya, hansı kökə bağlandığını bilməlidir. Çox da uzağa getmək lazım gəlmir. 200 il Vətənimiz Azərbaycanın bir parçası İran, bir parçası Rusiya himayəsində qaldı. Axır ki, XX əsrin 18-20-ci illərində Azərbaycan Demokratik Respublika kimi yaşadı və az da olsa uğurlar qazandı. Müstəqilliyimizdən bayrağımız yadigar qaldı. M.Ə.Rəsulzadə dedi: "Bir kərə yüksələn bayraq bir daha enməz". Bayrağımız bir də 70 ildən sonra yüksəldi. Azərbaycan müstəqil demokratik respublika oldu. 70 il ərzində Azərbaycan xalqı çox çətin, keşməkeşli və şərəfli bir ömür yaşadı. 30-cu illərdən başlayaraq, öncə varlı-dövlətli sayılanlar, bəylər, mülkədarlar, fabrik-zavod sahibləri "qulaq" edildilər, sürgünlərdə can qoydular, güllələndilər, üzlərinə nahaqdan ölüm hökmü oxundu. 37-ci il tarixdə repressiya ili kimi tanındı. Görkəmli elm, sənət, mədəniyyət adamlarımız, siyasətçilərimiz böhtana düşüb dünyasını dəyişməli oldular. Cavid kimi şairlərimiz siyasətin məkrinə qurban getdilər. İmanlı kişilərin cibinə "Quran" əvəzinə Allahsızlıq vəsiqəsi qoydular.

1939-45-ci illərdə İkinci Dünya müharibəsi Qırmızı imperiyanın başını qatdı. Azərbaycan xalqı Vətən uğrunda çoxlu qurban verdi: 600 mindən çox azərbaycanlı şəhid oldu. Həzi Aslanov kimi sərkərdələrimiz, Mehdi Hüseynzadə kimi partizanlarımız, Ziya Bünyadov kimi qəhrəmanlarımız xalqımızın başını ucaltdı. Lakin hələ də repressiya dalğası çəkilmirdi. Böyük Vətən Müharibəsinin qələbəsinə donmayan benzini və nefti ilə misilsiz uğur gətirən Yusif Məmmədəliyevin ölümü müəmmalı oldu. Heydər Hüseynov kimi dahi alimimiz şah damarını kəsərək intihar etmək məcburiyyətində qaldı. Müharibədən sonrakı illərdə camaatın altından döşəklərini götürüb sökür, içinin yununu aparırdılar ki, dövlətə lazımdır. Achq aman vermirdi. Adamlar qaşınırdı, bit-birə canlara daraşırdı. İşıq yox, qaz yox, su yox, çörək yox! Nəhayət, Nikita Sergeyeviç Xruşşov dövründə az da olsa, azad nəfəs almaq çoxlarına müyəssər oldu, repressiya qurbanlarına bəraət verildi. Mir Cəfər Bağırov güllələnmə cəzasına məhkum olundu. Qanıçən Lavrenti Pavloviç Beriya öldürüldü. Azərbaycana rəhbərlik öncə kənd təsərrüfatı mütəxəssisi akademik İmam Daşdəmir oğlu Mustafayevə, sonra həkim-akademik Vəli Yusif oğlu Axundova tapşırıldı. Amma nədənsə camaatımızın güzəranını yaxşılaşdırmaq mümkün olmurdu. Müharibənin vurduğu ağır yaralar sağalmaz olmuşdu. Belə bir çətin məqamda Sov.İKP MK, şəxsən Baş katib Leonid İliç Brejnev Azərbaycandakı ağır vəziyyət barədə düşünməli oldular. Azərbaycana rəhbərliyi elə bir ləyaqətli, qabiliyyətli, qətiyyətli azərbaycanlıya tapşırmaq lazım idi ki, xalqı fəlakətdən qurtara bilsin, geriliyə, atalətə son qoysun, xalqın birliyinə, yekdilliyinə nail olsun, vətəndaşları qurub-yaratmağa səfərbər etsin. Azərbaycanın zəngin yeraltı və yerüstü sərvətlərindən barınmağın yollarını arayıb tapsın; sənayenin, kənd təsərrüfatının, elmin, texnikanın, mədəniyyətin inkişafına və tərəqqisinə zəmin yaratsın. Bütün bunlardan da öncə böyük siyasətdə naşı olmasın, lazım gələndə ölkənin təhlükəsizliyinin və bütövlüyünün təminatına iqtidarı çatsın. Belə bir zəkalı, çevik və müdrik şəxsi çox axtarmalı olmadılar.

O zaman Dövlət Təhlükəsizliyi Komitəsinə əsasən rus əsilli şəxslər başçılıq edirdi.

Çox heyrətamiz və hər bir azərbaycanlı üçün fəxr etməli hadisə idi ki, Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinə azərbaycanlı, əsli-nəsli, soykökü ilə uludan-uluya türk olan Heydər Əlirza oğlu Əliyevin rəhbərliyini məsləhət bildilər. Dövlət Təhlükəsizliyi Komitəsinə təhlükəsizlik generalı Heydər Əliyevin sədr seçilməsi Azərbaycan xalqının özünə inamını artırdı.

İllər keçdi, Heydər Əliyev daha da yetginləşdi və ümumxalq nüfuzu qazandı. Azərbaycanın çox-çox vətəndaşını böhtandan, şərdən qorudu, arxa durdu, kömək əlini uzatdı, yolundan sapanları düz yola dəvət etdi.

Hələ 1952-ci ildə Heydər Əliyevin böyük qardaşı akademik Həsən Əliyev Azərbaycan KP MK-nın katibi seçilmişdi və tezliklə ölkəmizdə kənd təsərrüfatının, ekologiyanın, coğrafiyanın, ümumən biologiya elmlərinin inkişafına münbit şərait yaratmışdı.

Heydər Əliyevin digər qardaşı Hüseyn Əliyev "Kommunist" qəzetinin baş rəssamı idi., xalq rəssamı kimi bir çox ölkələrdə olmuş, böyük sənət əsərləri ilə hörmət qazanmışdı. Digər qardaşı Azərbaycan MEA müxbir üzvü Aqil Əliyev iqtisad elminin inkişafında özünə məxsus uğurlar qazanmışdı. Sonradan Azəbaycan elminin korifeylərindən biri olacaq akademik Cəlal Əliyev o zaman biologiya elminin sayəsində çox gənckən böyük uğurlar qazanmışdı. Onun yetirdiyi barlı buğda sortları aclığın qarşısını almaqla, ölkəni bol çörəklə təmin etməklə bəhrə verməkdə idi.

Bacısı Şəfiqə xanım hələ gənc yaşlarından təvazökar olmuş, sadə kütləyə böyük ehtiramla yanaşmışdı və buna görə də həyatını orta məktəb müəllimliyinə həsr etmişdi. Bacısı Rəfiqə kimyanı seçmişdi, apardığı tədqiqatlarla Bakı Universitetində ehtiram qazanmışdı. Bildiklərini tələbələrə öyrədirdi. Beləliklə, bu istedadlı ailənin övladlarında hər biri tamam başqa-başqa ixtisas seçmişdi. Heç şübhəsiz ki, Heydər Əliyev həyatın çətin sınaqlarından uğurla çıxmasında belə bir istedadlı, namuslu, ləyaqətli ailənin xüsusi rolu olmuşdur.

Heydər Əliyev kimi böyük şəxsiyyətin yetişməsi Onu boya-başa çatdırmış Qədim və zəngin Naxçıvanın mühiti ilə də bağlıdır. Naxçıvan torpağı Hinduşah Naxçıvani, Əcəmi Naxçıvani, Əhməd Naxçıvani, Hətəm bəy Ordubadlı, Cəmşid Naxçıvanski, Bəhruz Kəngərli, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Məmməd Araz kimi tarixə düşmüş böyük şəxsiyyətlər yetirmişdir. Bu siyahını istənilən qədər genişləndirmək olar. Sovet dövründə ərsəyə gələn zəka sahiblərinin bir qismi nin də adını çəkməyə dəyər ki, Naxçıvanın nə cür inkişaf etmiş bir diyar olmasına şəkk-şübhən qalmasın. Akademik Yusif Məmmədəliyev, Həsən Abdullayev, Fəraməz Maqsudov, Eldar Salayev, Cümşüd Zülfüqarlı, İsmayıl İbrahimov, Şirəli Məmmədov, Asəf Nadirov, Cəlal Əliyev, Əhməd Mahmudov, habelə MEA-müxbir üzvü və professorlardan Əhməd Mahmudov, Musa Rüstəmov, Kamran Rəhimov, Yusif Seyidov, İbrahim Baqırov, Firudin Hüseynov və başqalarının hər biri Azərbaycan elminə öz töhfələrini vermişlər. Naxçıvan torpağı diplomat İbrahim Əbilov, vitse-admiral Həmid Qasımbəyov, general-mayor Bahadur Hüseynov və onlarla siyasətçi, diplomat, hərbçi, dövlət xadimi yetirmişdir. Belə bir zəka ocaqında doğulması və ilk gənclik illərini orada yaşaması Heydər Əliyevin genetik istedadının çiçəklənməsi və parlaq şəxsiyyət kimi yetişməsində inkaredilməz faktorudur.

1969-cu ildə Azərbaycan Respublikasına, çoxmillətli Azərbaycan xalqına rəhbərlik etməyi Azərbaycanın böyük oğlu Heydər Əliyevə tapşırdılar. O zaman bizim nəsil çox gənc idi. Amma hamısı yadımdadır ki, Azərbaycan xalqı bayram içindəydi. Hamı şadlanır, imkanı olan qurban kəsirdi ki, nəhayət Azərbaycana cavan, istedadlı, yaradıcı, qurucu bir şəxs başçılıq edəcək. 46 yaşı yeni tamam olmuş Heydər Əliyev yorulmaq bilmədən çalışır, düşünür, inkişaf yollarını axtarırdı. Tezliklə Onun böyük əməyi bəhrəsini verdi. Azərbaycan ittifaq miqyasında ön cərgələrdən birini tutdu. Pambıqçılıq, üzümçülük, baramaçılıq, taxılçılıq, bağçılıq və digər kənd təsərrüfatı sahələrində rekord nəticələr qazanıldı. Sənaye sürətlə inkişaf etdirildi. Tikinti-abadlıq işlərinə geniş vüsət verildi. Təkcə bir faktı qeyd edim ki, kondensioner zavodunun tikilisi Azərbaycan üçün böyük uğur idi.

Heydər Əliyev elmin inkişafına xüsusi qayğı ilə yanaşırdı. O dövrdə istedadlı və ümidverici alimlər inkişaf etmiş ölkələrin elm ocaqlarında təcrübələr keçməyə göndərildi. Azərbaycan alimlərinin ixtiralarının və kəşflərinin sayı, çəkisi, sanbalı artırıldı.

Elmin istehsalatda tətbiqi üzrə səmərəli işlər aparılırdı, ağır-zəhmətli əl-əməyini məhsuldar dəzgahlar əvəz etdi. Xalqın qüdrəti qat-qat yaxşılaşdırıldı.

Heydər Əliyev əmək və sənət adamlarına ehtiramla yanaşır, onların yaradıcılığının çiçəklənməsi üçün hər cür şərait yaradılmasını tələb edirdi.

Onlarla şair, nasir, dramaturq, ssenarist, müğənni, rəssam, heykəltəraş, artist, memar, İttifaq əhəmiyyətli adlar, o sıradan Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti, Lenin və SSRİ dövlət Mükafatları və s. fəxri titul və mükafatlara layıq görülməsinə zəmin və şərait yaratdı. Bir çox sənətkarımıza YUNESKO səviyyəsində təntənəli yubiley mərasimi keçirilməsinə nail oldu.

Heydər Əliyev kadr siyasətində regionçuluq, yerlibazlıq, qohumbazlıq və təmənna təyinatlara xitam verdi. Mütəxəssislərə bilik və bacarığına görə iş tapşırdı. Ən bacarıqlıları irəli çəkdi. Nəticədə İttifaq miqyasında xüsusən, də Paytaxt Moskvada yüksək postlarda azərbaycanlı kadrların sayı və xüsusi çəkisi artdı.

1982-ci ildə Heydər Əliyev Sov. İKP MK-nin siyasi bürosunun üzvü və SSRİ Nazirlər Sovetinin sədrinin I müavini vəzifəsinə irəli çəkildi. Onun yerinə - Azərbaycan KP MK -nın I katibi vəzifəsinə Kamran Bağırov təyin edildi. Heydər Əliyevin Moskvaya dəvətindən Azərbaycan xalqı həm qürur duydu, həm də qismən kədərləndi ki, Azərbaycan xalqının böyük oğlu - qayğıkeş rəhbəri bir növ Azərbaycandan uzaqlaşdırıldı.

Heydər Əliyevin Moskvada fəaliyyəti dövründə Onun kuratoru olduğu sahələr inkişaf etdi. Xüsusən, Dünyanın ərazicə ən böyük dövləti olan SSRİ-nin Sibir ucqarı ilə birbaşa əlaqəsini təmin edən "Baykal-AMUR" Magistralının çəkilməsində Heydər Əliyevin böyük təşkilatçılıq istedadı üzə çıxdı.

Heydər Əliyevdən sonra Azərbaycana rəhbərlik edən Kamran Bağırov Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibov cənabları Azərbaycanda Heydər Əliyevin yaratdığı inkişaf kursunu Heydər Əliyev qətiyyəti ilə davam etdirə bilmədilər. Bir sözlə, onlardan heç biri sözün həqiqi mənasında Heydər Əliyevi əvəz edə bilmədi və təbii ki, bilməzdi də.

İş elə gətirdi ki, Sov.İKP MK-nın Siyasi bürosunun sədri Mixail Sergeyeviç Qorbaçov yenidənqurma kursu altında ölkəni yenidən qurmaq əvəzinə söküb xaraba qoydu.

SSRİ kimi nəhəng bir ölkənin dağılmasının digər bir amili M. S. Qorbaçovun yanlış kadr siyasəti idi. İşdə heç bir qüsura yol verməyən, əməyi Siyasi büro üzvlərinin qəlbində qibtə hissi doğuran Heydər Əliyevin istefaya göndərilməsi də kadr siyasətinin yanlışlığına dəlalət edirdi. Nəhayət SSRİ parçalandı. Yerinə müstəqil respublikalar yaradıldı. Azərbaycanda müstəqillik qazandı. Keçid dövrünün Azadlıq hərəkatının lideri Əbülfəz Qədirqulu oğlu Əliyev istefaya məcbur edilmiş eks-prezident Ayaz Niyazi oğlu Mütəllibovdan sonra Azərbaycan Respublikasının prezidenti seçildi. Bu zaman, artıq Heydər Əliyev vətənə gəlmiş, Naxçıvan Muxtar Respublikası Milli Məclisinin sədri, Azərbaycan Respublikası Milli sədrinin müavini seçilmişdi.

AXC-Müsavat cütlüyü hakimiyyəti idarə edə bilmədi. Ermənistanla müharibə apardığımızı nəzərə almayaraq didişməyə, çəkişməyə girişdilər. Surət Hüseynov qiyamı, Əlikram Hümbətov separatizmi daxili gərginliklər Əbülfəz Əliyevi prezidentlik postunu boş qoyub Naxçıvana - Kələki kəndinə getməyə, İsa Qəmbərovu Milli Məclisin sədrliyindən istefa verməyə məcbur etdi. Xalqın tələbi ilə Heydər Əliyev iqtidar tərəfindən Bakıya dəvət edildi və demək olar ki, yekdilliklə Milli məclisin sədri seçildi. 1993-cü ilin payızında Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi.

Heydər Əliyev ölkədə regionçuluq siyasətini dəyişdi, xalqı vahid cəbhədə səfərbər etdi. Və cəbhədə dönüş yaratdı. Çoxları hələ də dərk etmirlər ki, əgər Qarabağ cəbhəsində Azərbaycanın nəzərəçarpacaq uğurları olmasaydı, onda Ermənistan tərəfi atəşkəsə razı olardımı. Heydər Əliyev ağıllı bir siyasətçi kimi, öncə cəbhədə dönüş yaratdı. Və nəhayət Ermənistanı Atəşkəs masası arxasında əyləşməyə məcbur etdi.

Atəşkəsdən sonra surətçilərin qiyamının, Əlikramçıların separatizminin ağır nəticələrini ağıl və tədbirlə zərərsizləşdirib aradan qaldırdı.

Daxili sabitliyə nail oldu. Hər cür qanunsuzluq və dərəbəylik hallarının qarşısı qətiyyətlə alındı.

Mütəllibovun "istefasına" güclə nail olandan sonra bəzi arxain qüvvələr 1993-95-ci illərdə fasilələrlə törəşdilər, ölkə prezidentinə suiqəsd və çevriliş cəhdlərinə risq taramına getdilər... bəs axırı necə oldu? Xalqa arxalanmayan, dövlətçiliyə arxa çevirən kimsələr zamanənin sınağından çıxmadı.

Heydər Əliyevdən əvvəl hakimiyyətdə olan AXC-Müsavat iqtidarı xarici siyasət xəttində bir çox əyintilərə yol verdilər. Baxmayaraq ki, 30 milyon Azərbaycan türkü indiki İran dövlətində - Güney Azərbaycanda ya-

şayır. Əbülfəz Elçibəy Vahid Azərbaycan ideyasını gündəmə gətirməklə, əslində, İran dövlətinin ərazi bütövlüyünə qarşı söz demiş olar və İran-Azərbaycan münasibətlərini soyuq müharibə məcrasına doğru yönəltmiş olurdu. Özünü birbaşa Türkiyə Respublikasına tutan Əbülfəz Elçibəy 300 illik od qonşumuz Rusiya ilə münasibətlərin nizamlanmasına nail ola bilmədi. Bundan çevikliklə istifadə edən Ermənistan Respublikası Rusiya və İranla isti münasibətlər yaratmaq yolunda bir sıra uğurlu gedişlər etdi ki, bu da ilk növbədə Qarabağ cəbhəsində Azərbaycanın Mövqelərinin qismən zəifləməsinə gətirib çıxardı.

Heydər Əliyev xarici siyasət kursunu köklü şəkildə işləyib yenidən qurdu. Azərbaycanın dünya dövlətləri sırasında layiqli yer tutması üçün Heydər Əliyev neft faktorundan müdrikliklə istifadə etdi. Belə ki, hələ I dünya müharibəsində Bakı nefti kifayət qədər şöhrət qazanmışdı. II Dünya müharibəsində Qafqazın xarabazara çevrilməsinin qarşısı ona görə çevik şəkildə alındı ki, Bakı nefti düşmənin əlinə çatmasın. O, zaman yer kürəsində istehsal edilən mavi yanacağın yarıdan çoxu Bakı neftinin payına düşürdü. Azərbaycan alimi dünya şöhrətli kimyaçı Yusif Məmmədliyevin donmayan benzini məhz Bakı neftindən alması Bakını yer kürəsinin neft paytaxtı kimi məşhurlaşdırdı. Bəziləri mırıldanır ki, bəs bizim pambığımız, baramamız, üzümümüz də çoxdur və bundan da fayda görərdik. Pambığın vətəni Özbəkistan, üzümün vətəni Moldova olan təqdirdə bizim xarici siyasətimizə bunlardan nə fayda... Amma neft... İstənilən ölkənin xarici siyasətinin üzünü qara neft ağarda bilər, əgər o ölkənin doğurdan da yetərincə nefti varsa, Azərbaycanın yetərincə nefti olarkən nə üçün bu neftdən mənəvi və maddi fayda götürə bilməyək! Heydər Əliyev xarici siyasətin bir əlini neftə doğru uzatdı və "Əsrin müqaviləsi"ni bağlamağa nail oldu. Bu müqavilənin ardınca yeniləri gəldi və "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin çəkilişi reallaşdı. Azərbaycan sənayesinə milyonlar yatırıldı. İnkişaf etmiş ölkələrin nəhəng şirkətləri ARDNŞ-lə neft müqavilələrini bağlayaraq, Azərbaycan neftinin idxalı və ixracı sahəsində payçı oldular. Beləliklə də, Azərbaycan Respublikası istər Qərb, istərsə də Şərq ölkələrinin gözündə yenə də neft maqnatı kimi yenidən canlandı. Belə olan təqdirdə, özgə torpaqları ilə özünə dövlət "quran" acıkişik Ermənistanın Azərbaycana təzahürü və bizimlə yenidən Silahlı müdaxiləyə cəhd göstərməsi Azərbaycanda neft maraqları olan ABŞ,

Böyük Britaniya, Rusiya Federasiyası və digər nəhəng dövlətlərin mövqeləri ilə üst-üstə düşmür. Neft faktoru ilə yanaşı, Azərbaycanın geosiyasi baxımdan sərbəstliyi xüsusən İpək yolunun strateji bir məqsədi olması baxımından xüsusi əhəmiyyət kəsb etməsi də Zamanın tələbinin Azərbaycanın xeyrinə işləməsinə zəmin yaratmışdır.

Müdrik siyasətçi Heydər Əliyev bütün bu məqamları incəliklə düşünür və Azərbaycanın xarici siyasətinin formalaşmasında nəzərə alırdı.

Heydər Əliyev xarici siyasətdəki özündən əvvəlki iqtidarlardan miras qalan çatışmazlıqları və naqisliklər birbəbir islah edib sağlam xarici siyasət yolunu yaratdı. Məlum 907-ci sənəddən bəzi bir çox erməniyönümlü qərar və qətnamələrin qarşısı alındı. Azərbaycana qarşı Beynəlxalq erməni lobbisinin yalan və böhtan kampaniyası dayandırıldı. Beynəlxalq Azərbaycan diasporu yaradıldı və əlaqələndirildi.

Heydər Əliyev pay torpaqlarının kəndlilərə paylanmasından əyintiləri islah etməklə, kənd təsərrüfatında aqrar sektoru gücləndirdi, nəticədə ərzaq çatışmazlığının qarşısı alındı. Kənd təsərrüfatı məhsulları istehsalında aqrar sektorun payı qat-qat artdı.

Heydər Əliyev Azərbaycan iqtisadiyyatına xarici kapital qoyuluşu üçün sərbəst, azad şərait yaratdı, iş adamlarının canının, malının qorunmasına, hüquqlarının təminatına qarant verdi.

1988-ci il prezident seçkilərində müxalifət mətbuatını şantaj ilə dezinformasiya yoluna istiqamətləndirən müxalifət liderləri heç nəyə nail olmadılar. Azərbaycan xalqı yenə də öz müdrik rəhbəri Heydər Əliyevə səs verdi. Heydər Əliyev dahi siyasətçi, müdrik insan, layiqli vətəndaş olmaqla yanaşı, həm də söz sərrafı idi. Onun müdrik kəlamlarından biri belədir: "Allah-Təala kimə nə qədər ömür verdiyini özü bilir". Allah-Təala fövqəlinsan kimi yaratdığı və nurlu zəkasından ayırdığı pay dahi Heydər Əliyevə 80 il ömür vermişdi. Heydər Əliyev ona verilən ömrü bütöv, kamil şəxsiyyət kimi yaşadı və müdrikliyin ali zirvəsinə ucaldı. Bu gün Heydər Əliyev bizdən cismən ayrılmışdır, ruhən bizimlədir və daima bizimlə olacaqdır. Bu gün Heydər Əliyevin ucaltdığı böyük dövlətçilik yolu ilə Azərbaycan Respublikası inamla addımlayır.

Bu gün Heydər Əliyevin ucaltdığı böyk dövlətçilik maşınının sükanı qüdrətli əllərdədir. 2003-cü ildə Azərbaycanda Prezident seçkilərində iqtidarlı-müxalifətli 11 nəfər mübarizə aparmalı idi. Heç şübhəsiz ki, bu

mübarizədə yenə də xalqın dəstəyi ilə Heydər Əliyev qalib gələcək idi. Amma, çox təəssüflər olsun ki, O, Allah-Təalanın ona verdiyi ömür payını yaşayıb dünyasını dəyişdi. Müdrik Azərbaycan xalqı seçim üçün çox düşünmədi. Heydər Əliyev ocağının yetirməsi, Əliyevlər nəslinin layiqli davamçısı İlham Əliyevə səs verən Azərbaycan xalqı indi artıq bu qənaətə gəlmişdir ki, İlham Əliyevə səs verməklə heç də yanılmayıb. Dahi öndərimiz Heydər Əliyevin dövlətçilik xəttini uğurla davam etdirən İlham Əliyev daxili və xarici siyasətdə Heydər Əliyevin yaratdığı müstəqillik yolu ilə mətin addımlar atır. İlham Əliyev kadr siyasətində də təcrübəli şahmatçı gedişləri edir. Nisbətən cavan olan Elmar Məmmədyarovun Xarici işlər naziri, general Eldar Mahmudovun Milli təhlükəsizlik naziri təyin edilməsi, mən deyərdim ki, dahiyanə şahmat gedişlərinə bənzəyir. Daxili İşlər Nazirliyinin məsul əməkdaşının başçılıq etdiyi qətllər və adam oğurlayanlar bandasının təkbaşına (Respublika Prokurorluğu və Daxili İşlər Nazirliyinin köməyi olmadan) zərərsizləşdirilməsi Milli Təhlükəsizlik Nazirliyinin rəhbəri general Eldar Mahmudovun parlaq qələbəsidir. Belə müdrik kadr seçiminə görə Azərbaycan prezidenti İlham Heydər oğlu Əliyevə hər bir namuslu Azərbaycan vətəndaşı kimi mən də dərin minnətdarlığımı bildirirəm.

Ümummilli liderimiz Heydər Əliyev insan hüquqlarına böyük ehtiramla, həssaslıqla yanaşırdı: açıq sözə, müstəqil əqidəyə, mətbuat və informasiya azadlığına geniş meydan vermişdi. Hətta ən qatı müxalifət qəzetlərini belə mətbəə borclarından təmənnasız azad etməsi faktı yaddan çıxmayıb və çıxmaz da. "Yeni Müsavat", "Bakı-Xəbər" "Azadlıq" və başqa hay-küylü, şər-böhtan yazan qəzetlər dövlət mətbəəsində müəyyən qayğı ilə çap olunur. Budur Heydər Əliyev demokratiyasının bəhrəsi. İnsana və insanlığa qayğı və ehtiramına görədir ki, indi Azərbaycan xalqı Heydər Əliyevin türbəsini müqəddəs tutur, Onun məzarını ocaq kimi ziyarətgaha çevirir. Onun şəxsiyyətini bir daha öyrənir, onun keçdiyi şərəfli ömür yolunun davamçısı olmaqla fəxr edir. Bir sözlə, Heydər Əliyev ənənələrini qorumağı və yaşatmağı müqəddəs borcu bilir.

BƏKİR NƏBİYEV
AMEA-nın akademiki

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

Tarix boyu nəsilbənəsil, dönə-dönə təsdiq olunmuş bir həqiqət var ki, böyük dövlət xadimləri bir qayda olaraq xalq tarixinin taleyüklü dönüş və inkişaf mərhələsində meydana çıxır və öz cahanşümul əməlləri ilə təkcə öz xalqının yox, bəşəriyyətin hafizəsinə əbədilik həkk olunurlar. Heydər Əliyev Azərbaycan xalqının XX əsrdə yetirdiyi belə nadir simalardan biri, bir sıra çox unikal keyfiyyətlərinə görə heç kəslə müqayisə edilə bilməyən yeganə dövlət başçımız olmuşdur. O, yüksək dövlətçilik təfəkkürü ilə elmi-humanitar təfəkkürü çox uğurla özündə birləşdirən, həqiqətən də nadir bir öndər idi.

H.Əliyevin keçdiyi mənalı ömür yolu çox ibrətamiz hadisələrlə zəngindir. Məruzəm yığcam olsun deyə, mən onlardan yalnız birəcəyini qeyd edəcəyəm. Bildiyimiz kimi, 1993-cü il H.Əliyevin, həm də Azərbaycan xalqının həyatında çox keşməkeşli bir dövrlə əlamətdar oldu. Bu zaman xalqın əli silahlı, tanklı-toplu oğullarının bir qismi bədxahların təhriki ilə dövlətçiliyimizə qarşı çıxmışdı. Ölkə vətəndaş müharibəsinə həmlə idi. Hətta bəzi yerlərdə qardaş qanı da tökülmüşdü. Xalq şairi Fikrət Qocanın obrazlı şəkildə dediyi kimi, H.Əliyev «cibində bir tapança güllәsi də olmadan» zühur edib öz iti ağlı, ötkəm iradəsi, səriştəli tədbirləri, daşdan keçən mötəbər sözü ilə xalqı fəlakətdən, mənasız qırğından xilas etdi. Azərbaycan Müstəqil Respublikasını, onun suverenliyini məhv olmaq təhlükəsindən qurtardı.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin «Heydər Əliyevin siyasi portretinin cizgiləri» adlı çox maraqlı məqaləsində ümummilli mənəvi vəhdətin Heydər Əliyev tərəfindən yaradılmış konsepsiyasında mühüm yer tutan bir problemdən – Azərbaycan dili məsələsindən bəhs edilir. Lakin həmin məqalədə öz əksini tapmış bir müddəa ümummilli liderin yalnız Azərbaycan dili konsepsiyasına deyil, onun bütün siyasi, ictimai fəaliyyətinə, çox zəngin elmi-tarixi irsinə də güzgü tutur. Həmin müddəada deyilir: «Heydər Əliyevin siyasi və mənəvi irsinə hər dəfə

müraciət edəndə bu irsdə Azərbaycan xalqının mənəvi-əxlaqi həyatının necə dərin problemlərinin öz əksini tapdığının şahidi olursan».

Həmin problemlərdən biri bilavasitə Azərbaycan ədəbiyyatı ilə bağlıdır. H.Əliyev, ümumiyyətlə, ədəbi-estetik dəyərlərin, o cümlədən də ədəbiyyatımızın nadir qədirşünas bilicilərindən idi. Bununla belə, ümummilli liderimiz həm də Azərbaycan ədəbiyyatını dərin bir məhəbbətlə sevir, onun tarixinin tədqiqi və təbliği üçün, ədəbiyyatımızı yaradanlara qayğı göstərilməsi üçün böyük işlər görürdü.

H.Əliyev bir rəhbər, lider, dövlət başçısı kimi insan fəaliyyətinin hansı sahəsinə müraciət edibsə, onların hamısında yüksək peşəkarlıq nümayiş etdirmiş, adamlara həmişə gərək olan çox qiymətli örnəklər qoyub getmişdir. Bu, doğrudan da belədir. Həmin sözləri deyərkən yadıma 1998-ci il düşür. O zaman Elmlər Akademiyasının Ədəbiyyat, Dil və İncəsənət Bölməsi prezidentin 75 illiyi münasibətilə tədbirlər planında onun humanitar sahədəki fəaliyyətinə dair bir kitab nəşr etməyi nəzərdə tutmuşdu. Biz konkret işlə məşğul olmağa başlarkən gördük ki, sözü gedən problemi həll etmək üçün bir kitab qətiyyən kifayət etmir. Tezliklə qüvvələrimizi səfərbərliyə alıb üç ayrıca kitab hazırlamalı olduq: «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı», «Heydər Əliyev və Azərbaycan incəsənəti» və nəhayət, «Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili».

Mən fəxr edirəm ki, Akademiyadakı ədəbiyyatçı, dilçi və sənətşünas həmkarlarımla birgə hazırladığımız hər üç kitaba müqəddimə yazmışam və onların üçünün də məsul redaktoruyam. Bu kitablar üzərində çalışarkən bir daha bütün varlığımla inandım ki, H.Əliyev böyük dövlət xadimi olmaqla yanaşı, həm də Azərbaycan mənəviyyatının ən mühüm sahələrinə dair dərin biliklərə sahib olan böyük Azərbaycan ziyalısıdır.

H.Əliyevin ictimai-siyasi fəaliyyətinin güşə daşlarını təşkil edən çox mühüm məqsədlərindən biri müasirlərimizdə tarixi yaddaş duyğusunu daha da qüvvətləndirmək idi. Böyük məşəqqətlər bahasına öz müstəqil dövlətini yaratmış və onu müvəffəqiyyətlə sabaha aparan xalqın prezidenti haqlı olaraq bu qənaətdə idi ki, öz dilini, ədəbiyyatını bilməyən, öz incəsənətindən xəbərsiz olan, mütəraqqi adət-ənənələrini dərindən mənimsəməyən bir toplum əcdadlarının yaratdığı mənəvi sərvətlərin həqiqi varisi, torpağın əsl sahibi ola bilməz.

• • •

70-80-ci illərdə vəzifə borcumla əlaqədar olaraq o vaxt mən Nizami adına Ədəbiyyat muzeyinin direktoru idim; həm Elmlər Akademiyası, həm də Yazıçılar İttifaqı xətti ilə keçirdən elmi, ədəbi, mədəni tədbirləri hazırlayanlardan biri olmuşam və bu sahədə H.Əliyevin təşkilatçılıq işini dönə-dönə yaxından müşahidə etmişəm. O zaman Azərbaycanda keçirilən beynəlxalq elmi simpoziumlar, Nizaminin 840 illik, Nəsiminin 600 illik, M.F.Axundovun 170 illik, H.Cavidin 100 illik yubileyləri, keçmiş İttifaq üzrə Ədəbiyyat həftələri, Mədəniyyət günlükləri hər şeydən əvvəl Azərbaycanı, onun qədim tarixə malik mədəni sərvətlərini dünyaya tanıtdırmaq məqsədi güdür və yaxşı da somara verirdi.

«Kitabi-Dədə Qorqud»un 1300 illiyi, ana dilli poeziyamızın dahiyanə nümunələrini yaratmış Məhəmməd Füzulinin 500 illiyi münasibətilə ölkəmizdə və onun xaricində keçirilmiş mütəşəkkil tədbirlər, elmi konfrans və simpoziumlar, müxtəlif dillərdə nəşr olunmuş ədəbi, elmi və elmi-kütləvi kitablar, məqalələr, sayı-hesabı bilinməyən televiziya və radio verilişləri, nəhayət, bu gün ümummilli liderimiz Heydər Əliyevin şərəfli adını daşıyan saraydakı möhtəşəm beynəlxalq zirvə tədbirləri Füzulinin və «Dədə Qorqud»un Azərbaycan mənəviyyatına daha dərindən hopması ilə məhdudlaşıb qalmadı. Təşəbbüskarı və təşkilatçısı Heydər Əliyev olan və Azərbaycan tarixinə qızıl hərflərlə yazılan «Füzuli-500» və «Kitabi-Dədə Qorqud-1300» tədbirləri ölkəmizin beynəlxalq imicinin yüksəlişinə də qüvvətli bir təkan oldu.

Mən həm ölkəmizdə, həm də xaricdə keçirilən bu tədbirlərin demək olar ki, hamısının iştirakçısı olmuşam. Qoy, hörmətli diplomatlarımız məndən inciməsinlər; bu iki yubiley tədbirinin Müstəqil Azərbaycan Respublikasına gətirdiyi mənəvi dividendi onlar – diplomatlarımız bir neçə il ərzində əldə edə bilməmişdilər.

Dahi Azərbaycan şairi, haqlı olaraq bütün türk dünyası poeziyasının babası kimi şərəflən dirilən Məhəmməd Füzulinin zirvə toplantısı 8 noyabr 1996-cı ildə Bakıda keçirilmiş 500 illik yubiley təntənələri isə həqiqətən də müstəqil Azərbaycanın tarixində ilk və əsl ümumxalq mədəniyyət bayramına çevrildi. Bu tədbirə xüsusi rövnəq verən amillərdən biri də o idi ki, yubiley komitəsinin təqribən 3 il ərzində apardığı vüsətli hazırlıq işlərinə onun sədri, Prezident Heydər Əliyev cənablarının şəxsən özü rəhbərlik etmişdi. Təntənəli yubiley gecəsindəki məşhur nitqində o, böyük

iftixar duyğusu ilə dedi ki, Füzuli yubileyi ilə əlaqədar mərasimlər təkcə Azərbaycanda yox, dünyanın bir sıra ölkələrində də keçirilmiş, ədəbiyyatımızı, mədəniyyətimizi daha da şöhrətləndirmişdir.

Şairlə bizi 500 illik bir zaman məsafəsi ayırdığına baxmayaraq onun irsinin bu gün də öz fikri-bədii əhəmiyyətini qoruyub saxladığını yüksək qiymətləndirən Heydər Əliyev haqlı olaraq belə hesab edirdi ki, Füzuli öz əsərlərində saf məhəbbət duyğularını, sədaqət və etibarı tərənnüm etmiş, o, həmişə insanları vətənə, torpağa, ülvi duyğulara, sədaqətə dəvət etmişdir. Doğrudan da «bunların hamısı 500 il əvvəl olduğu kimi, bu gün də insanlar üçün ən vacib lazım olan yüksək mənəvi keyfiyyətlərdir».

Heydər Əliyev Füzuli irsinin beynəlxalq əhəmiyyətini açıqlayarkən bu cəhətə diqqəti xüsusi olaraq cəlb edir ki, şairin əsərlərindən irəli gələn ideyalar təkcə Azərbaycan xalqının, yalnız türk xalqlarının deyil, bütün islam dünyasına mənsub xalqların mədəniyyətində, ədəbiyyatında yeni-yeni böyük əsərlərin yaranmasına səbəb olmuşdur. Onun haqlı qənaətinə görə, Füzulinin ən böyük xidmətlərindən biri öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, yüksəklərə qaldırmasından ibarət olmuşdur.

Türkiyədə, İranda, Fransada, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Dağıstanda keçirilmiş bu tədbirlərin bir çoxunda iştirak etmiş Akademiya əməkdaşlarından biri kimi mən hər yerdə, hər dəfə bu mərasimlərin Azərbaycan poeziyasının, elmimizin və mədəniyyətimizin parlaq nümayişinə çevrildiyinin dönə-dönə şahidi olmuşam; bu nəhəng tədbirlər silsiləsinin təşkilatçısı və ilhamvericisi olan Prezidentimizə dərin minnətdarlıq duyğuları yaşamışam.

* * *

Ədəbi yığıncaqlardakı nitqlərində H.Əliyev Azərbaycan klassik sənətkarlarının, görkəmli müasir şair, nasir və dramaturqlarının həyat yolu və yaradıcılığı haqqında danışarkən onların ədəbi-ictimai fikir tariximizdə rolunu və xidmətlərini həmişə obyektiv qiymətləndirir, bədii yaradıcılığın həyati qaynaqları, ənənələrə sədaqət və novatorluq problemləriylə bağlı maraqlı mülahizələrini söyləyirdi. Bu baxımdan, XX əsr ədəbiyyatının ən aktual məsələlərindən birinə onun məhz tarixilik prinsipi ilə yanaşaraq aydınlıq gətirdiyini ayrıca qeyd etmək lazımdır.

Məlum olduğu kimi, sovet dövründə yaşayıb artıq dünyasını dəyişmiş bir sıra görkəmli qələm sahiblərimiz, o cümlədən də xüsusən S.Vurğun, S.Rüstəm, R.Rza kimi şairlərimiz vaxtilə kommunist partiyası və Lenin haqqında da əsərlər yazmışlar. İndi elə adamlar tapılır ki, həmin şer və poemaları əsas götürərək onların müəlliflərinin bütün yaradıcılıqlarının üstünə kölgə salmağa çalışırlar. Belə bir yanaşma tərzini qəbul etməyən Prezident böyük şairin 90 illiyi təntənələrindəki çıxışlarında demişdir: «S.Vurğun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbi S.Vurğun əsərlərində də öz əksini tapıbdır. Bu gün heç kəs buna görə S.Vurğunun əvəzindən üzr istəməməlidir. S.Vurğunun bütün əsərlərilə Azərbaycan xalqı əvvəldən fəxr edir və bundan sonra da fəxr edəcəkdir. S.Vurğun komsomola həsr etdiyi poemasında da, kommunist partiyasına həsr etdiyi «Zamanın bayraqdarı» poemasında öz əqidəsinə xidmət edib, öz əqidəsinə sadiq qalıbdır, eyni zamanda yüksək şer sənətini nümayiş etdiribdir».

Adları H.Əliyev tərəfindən çəkilən əsərlərin özündə də şairlərimizin sənətkarlığı, söz üzərində işləmək istedadı dönə-dönə parlamışdı. O da nəzərə alınmalıdır ki, S.Vurğun «Vaqif», «Fərhad və Şirin», «İnsan» mənzum dramları, «Aygün» mənzum romanı, «Bakının dastanı» poeması, «Azərbaycan», «Yandırılan kitablar», «Mən tələsmirəm» şerləri kimi ədəbiyyatımızın xəzinəsini zənginləşdirən onlarla digər əsərlər də yazmışdır. Eyni sözləri «Füzuli», «Qızılgül olmayaydı» poemalarının, «Kefli İsgəndər», «Sarı dana», «Pəncərəmə düşən işıq», «İti yazan qızlar» kimi o zaman müəllifdən böyük cəsarət tələb edən qiymətli şerlərin müəllifi R.Rza, cənub şerləri silsiləsi Azərbaycan poeziyasında yeni istiqamət açan, «Çiçək mağazası», «Azərbaycana gəlsin», «Xatırlayın» kimi əsərlərin müəllifi Süleyman Rüstəm haqqında da demək mümkündür.

Sonralar özünün haqlı olaraq dönə-dönə etiraf etdiyi kimi, respublikanın rəhbəri vəzifəsində işə başladığı ilk illərdən etibarən Heydər Əliyev öz zəngin təcrübəsi, yüksək intellekti, xalqın mənəviyyat xəzinəsinə məhəbbəti və qayğısı sayəsində Azərbaycan dilinin, ədəbiyyatının və incəsənətinin inkişaf perspektivlərinə dair uzunmüddətli siyasət işləyib hazırlamış və hər cür müqavimətlərə, mürəkkəbliklərə baxmayaraq, onu ardıcıllıqla həyata keçirmişdir. Vaxtilə keçmiş İttifaqda və dünyanın bəzi digər ölkələrində şöhrəti yayılmış görkəmli şair və ədiblərimizdən

S.Rüstəm, R.Rza, M.İbrahimov və S.Rəhimova, bəzi incəsənət xadimlərinə o zamankı SSRİ-nin ən yüksək fəxri adı hesab edilən Sosialist Əməyi Qəhrəmanı adının verilməsi çox əlamətdar bir hadisə idi. Biz yaxşı xatırlayırıq ki, bu cür təltifi əks etdirən hər bir fərman keçmiş Sovet İttifaqının Mərkəzi Televiziya kanalı və əsas qəzetləri ilə bütün ölkəyə və xaricə çatdırılır, dünyada müəyyən əks-səda verir, hər dəfə bu münasibətlə Azərbaycanımızın mübarək adı dönə-dönə çəkilir, dostları sevindirdiyi kimi xəbis düşmənlərimizi pərt edirdi.

Bəli, adı çəkilən qələm sahibləri eyni şərəfə layiq görülmüş Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov kimi yüksək istedadlı soydaşları ilə birlikdə Azərbaycan xalqının başını dünya ictimaiyyəti qarşısında daha da ucaltmış olurdular.

Xalqın ədəbiyyatı, mənəviyyatı sahəsində xüsusi xidmətləri olmuş sənətkarlarımız indi müstəqil Azərbaycan dövlətinin fərqlənmə nişanları ilə təltif edilirlər. Nadir istedadlarla zəngin olan Azərbaycan ədəbiyyatında ürəklərə yol tapmaq, öz yaradıcılığında mühüm keyfiyyətlərilə fərqlənmək, seçilmək, maddi və mənəvi mükafatlar almaq son dərəcə mürəkkəb bir işdir. Çağdaş ictimai fikrimizi sanballı poeziya nümunələrilə zənginləşdirdikləri üçün xalq şairlərimizdən Xəlil Rza (ölümündən sonra), Bəxtiyar Bahabzadə, Məmməd Araz və Mirvarid Dilbazinin yüksək dövlət təltiflərinə layiq görülməsini ədəbi, elmi ictimaiyyətimiz, poetik sözün xiridarları böyük razılıq duyğusu ilə qarşılamışdı. Vətən övladı və vətəndaş kimi ali məqsədləri eyni olan bu şairlərin hər biri ədəbiyyatımızda özünəməxsus yeri, üslubu, xidmətləri olan orijinal istedad sahibləri kimi tanınır. Bunu təkcə Azərbaycanda yox, İranda, Türkiyədə, keçmiş SSRİ-dən qopub müstəqillik qazanmış bir sıra ölkələrdə də dönə-dönə etiraf etmişlər.

Mənsub olduğum ziyalılar nəslinin bir çox nümayəndələri şahiddirlər ki, H.Əliyevin şəxsi təşəbbüsü və çox ciddi səyləri nəticəsində yazıçıların 1981-ci ildə keçirilmiş VI qurultayının gündəliyinə ilk dəfə olaraq Cənubi Azərbaycandakı ədəbi proses haqqında məsələ salınmış və bu barədə geniş məruzə dinlənmiş, Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı məsələlərilə məşğul olan xüsusi katib ştatı təsis edilmiş, akademiyanın Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatını araşdıran ayrıca şöbə fəaliyyətə başlamışdır. 4 sanballı cilddə,

təqribən 1600 kitab səhifəsində işıq üzü görmüş «Cənubi Azərbaycan ədəbiyyatı antologiyası» uzun illər xalq yazıçısı, akademik Mirzə İbrahimovun başçılıq etdiyi həmin şöbənin fəaliyyətinin ən yaxşı göstəricilərindən biri olaraq qalmaqdadır.

Prezidentimizin «Müstəqillik yolunda» kitabının bir yerində deyilir: «Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini təbliğ edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlər sırasında xüsusi yer tutur».

Mən bu mətni dönə-dönə oxuyur və görürəm ki, öz tarixinin çox təlatümlü, məsul, mürəkkəb, lakin həm də şərəfli mərhələsini yaşayan Azərbaycanda nəzəriyyəni təcrübə ilə böyük uğurla birləşdirən, öz fikirlərini ictimai həyatımızın, beynəlxalq əlaqələrimizin müxtəlif sahələrində yüksək istedadla təbliğ edən, çoxsahəli siyasi-ictimai, diplomatik, nəhayət, elmi-nəzəri fəaliyyəti ilə cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən ən böyük Azərbaycan vətəndaşı, elə məhz bizim ümummilli liderimiz Heydər Əliyev cənablarının özü olmuşdur.

ASLAN ASLANOV
AzərTAc-ın Baş direktoru

HEYDƏR ƏLİYEV VƏ AZƏRTAC

Martın 1-də Azərbaycan Dövlət Teleqraf Agentliyinin - AzərTAc-ın 85 illiyi tamam olmuşdur. Agentliyin 85 illik ömrünün tam bir qərinəsi bilavasitə ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu dövrə təsadüf edir. Bu gün AzərTAc-ın beynəlxalq əlaqələrinin genişlənməsi, dünya informasiya məkanına çıxması məhz ulu öndərimizin qayğısı sayəsində mümkün olmuşdur.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev həm də müasir mətbuatımızın inkişafında əvəzsiz xidmətlər göstərmiş, onun böyük qayğıkeşi və himayədarı olmuşdur. Bu bir həqiqətdir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərliyə başlayanda respublikamız uzun illər tərkibində olduğu Sovetlər İttifaqında da o qədər tanınmırdı. Doğrudur, xalqımız bütün dövrlərdə dünya şöhrətli ədəbiyyat, mədəniyyət, elm xadimləri yetirmişdi və onların xidmətləri həmin sahələrin mütəxəssislərinə yaxşı bəlli idi. Lakin bütövlükdə, Azərbaycanın bir ölkə, respublika kimi həm keçmiş İttifaqda, həm də getdikcə dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun müdrik, uzaqgörən siyasəti, yorulmaz fəaliyyəti, doğma xalqına sonsuz məhəbbəti sayəsində 1970-80-ci illərdə respublika nəinki gerilikdən, ətalətdən xilas oldu, İttifaqda ön sıralara çıxdı, eyni zamanda, Azərbaycan dünyanın diqqətini cəlb etməyə başladı. Qətiyyətlə demək lazımdır ki, Azərbaycan mətbuatının, xüsusilə də Azərbaycan Dövlət Teleqraf Agentliyinin - keçmiş Azərinformun inkişafı da yüksəliş yoluna qədəm qoymuş respublikamızın əldə etdiyi uğurlarla sıx bağlı olmuşdur. Yəni iqtisadiyyatı, sənayesi ildən-ilə görünməmiş sürətlə inkişaf edən, bütünlüklə yenidən qurulan Azərbaycanda mətbuat, xüsusilə də informasiya agentliyi diqqətdən kənarda qala bilməzdi. Heydər Əliyev Azərinformun rəhbərliyi ilə müntəzəm olaraq görüşür, respublikanın informasiya siyasətinin təkmilləşdirilməsi ilə əlaqədar konkret tapşırıqlar verir, dəqiq fəaliyyət istiqamətini müəyyənləşdirirdi. Bununla yanaşı, o, Azərinformun maddi-texniki bazasının möhkəmləndirilməsinə, iş şəraitinin yaxşılaşdırılmasına, problemlərin vaxtında həll olunmasına diqqət yetirirdi. Təsadüfi deyil ki, məhz o dövrdə Azərinformun işçilərinin böyük bir hissəsi mənzillə təmin olundu, dövlət mükafatları ilə təltif edildilər.

Respublika rəhbərinin köməyi sayəsində Azərinform çox nüfuzlu bir quruma çevrildi. Heydər Əliyevin diqqəti, qayğısı ilə əhatə olunmuş agentliyin əməkdaşları respublikanın əzəmətli yüksəlişindən bəhs edən xəbərləri ilə böyük sovet imperiyasının əsas informasiya qurumunun - SİTA-nın teletayp lentlərində daha çox yer tutmağa nail olurdular. Azərbaycandakı misli görünməmiş quruculuq işləri haqqında informasiyalar "SİTA xəbər verir" qrifi ilə Moskvanı aşıb bütün dünyaya da yol açırdı. Əlbəttə, o dövrdə bu, heç də asan məsələ deyildi. Lakin Heydər Əliyevin şəxsi nüfuzu, qüdrəti bütün sədləri aşmağa imkan verirdi. SİTA kimi dünyanın nəhəng informasiya maşınının sükançıları artıq SSRİ rəhbərliyinin də böyük rəğbət bəslədiyi, hesablaşdığı Heydər Əliyevin sayəsində Azərbaycanın qazandığı böyük uğurlar barədə xəbərləri, həm də dünyaya yaymağa, Azərinforma hər cür kömək göstərdiklərini sübut etməyə çalışırdılar. Məhz 1970-ci illərdə SİTA özünün Moskvadakı baş ofisini ilk dəfə tam kompüterləşdirməyə başlayanda Heydər Əliyevə hörmət əlaməti kimi İttifaq respublikaları arasında birinci olaraq Azərinformu o dövrün müasir "Videoton", bir qədər sonra isə "Olivetti" markalı kompüterləri ilə təchiz etdilər. Beləliklə, Azərinform da SİTA-nın müttəfiq respublikalardakı filialları arasında ön mövqeyə çıxmağa nail oldu. Azərinformun xəbərləri hər gün SİTA-nın gündəlik lentlərində müntəzəm yer alırdı.

Lakin çox təəssüf ki, 1987-ci ildə Heydər Əliyev Siyasi Büronun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən sonra Azərinformun həyatında da tənəzzül dövrü başlandı. Azərbaycana səriştəsiz, idarəetmə bacarığı olmayan, xalqdan uzaq insanların rəhbərlik etdiyi illərdə Azərinform vaxtilə gərgin səylər hesabına qazandığı nüfuzunu itirirdi. 1990-cı ildə sovet qoşunları Bakıda 20 Yanvar qırğını törətdilər, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal etdilər, 1992-ci ildə Xocalı yer üzündən silindi. Lakin Azərinform xalqın haqq səsini dünyaya çatdıra bilmədi. Azərbaycan, sözün əsl mənasında, informasiya blokadasında qaldı, ermənilərin yalan və uydurmaları isə bütün dünyaya yayılırdı.

Ayrı-ayrı siyasi oyunbazların diqqətindən kənarda qalmış AzərTAc o dövrün çətinliklərinə tab gətirməyərək daha da ağır vəziyyətə düşdü, hətta dövlət büdcəsindən maliyyələşdirmədən də çıxarılaraq, əslində, heç bir statusu olmayan bir quruma çevrildi.

Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən siyasi rəhbərliyə gəldikdən sonra AzərTAc-a münasibət dəyişdi və birinci növbədə, bu informasiya qurumunun statusunun müəyyənləşdirilməsi və onun normal fəaliyyətinin təmin edilməsi üçün təsirli tədbirlər görüldü.

Qətiyyətlə deyə bilərik ki, mətbuatın cəmiyyətdə rolunu, təsir gücünü Azərbaycanda dövlət rəsmilərindən ilk dəfə məhz Heydər Əliyev lazımınca qiymətləndirmişdir. Doğrudur, sovet dövründə indiki anlamda azad mətbuat yox idi. Müstəqil qəzetlərdən, özəl telekanallardan söhbət belə gedə bilməzdi. Həddindən artıq ciddi senzura fəaliyyət göstərirdi, xüsusən tənqidi yazılarda müəyyən edilmiş çərçivələrdən kənara çıxmaq olmazdı. Lakin Heydər Əliyev Azərbaycanda yerli mətbuata imkan daxilində sərbəstlik verir, onun ictimai mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına qayğı göstərirdi. Mətbuatın hər hansı ciddi çıxışı onun diqqətindən yayınmırdı.

Heydər Əliyev Azərbaycan mətbuatı qarşısındakı ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, o, mətbuatımızın həmişə milli ruhlu olması barədə düşünür, yeri gələndə cürbəcür təzyiqlərdən qoruyurdu.

Bu mənada onun 1997-ci ilin oktyabrında Azərbaycan yazıçılarının X qurultayında dediyi sözlər çox xarakterikdir: "...Məsələn, mən "Qobustan" jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim, millətçilik ideyaları yayır, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu "Qobustan" jurnalına. Görürdüm burada bunların dedikləri şey yoxdur, amma bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də "Qobustan" jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm - "Qobustan" jurnalı o vaxt çox böyük işlər gördü.

Amma təkcə "Qobustan" jurnalı deyildi. "Azərbaycan" jurnalını, "Ulduz" jurnalına götürün. Bunlar dövlət jurnalları idi, amma bu jurnallarda siz nə istəyirdiniz, onu da edirdiniz, heç bir məhdudiyyət yox idi. Kim nə istəyirdi, onu da dərc edirdi. Mən bu gün iftixar hissi ilə deyə bilərəm:

1969-cu ildən - Azərbaycanın rəhbəri olduğum zamandan indiyə qədər bir şairin, bir yazıçının əsəri qadağan edilməyibdir, bir şairin, bir yazıçının əsərinin qarşısı alınmayıbdır".

Bu Heydər Əliyevin milli ideyaya - azərbaycanlılığa bağlılığını göstərən məqam olmaqla yanaşı, onun həm də milli mətbuata, Azərbaycanın milli-mənəvi dəyərlərini yayan və təbliğ edən kütləvi informasiya vasitələrinə qayğısının bir nümunəsidir. Yeri gəlmişkən, həmin qurultaydan az sonra Prezident Heydər Əliyevin imzaladığı Fərmanla "Azərbaycan", "Qobustan", "Ulduz", "Литературны Азербайджан" jurnalları və "Ədəbiyyat qəzeti" dövlət büdcəsinin vəsaiti hesabına nəşr edilməyə başladı. Bu, prostsovet məkanında ilk belə hadisə idi.

"Mən o jurnalistə minnətdar olacağam ki, nöqsanları üzrə çıxarsın və biz də işimizdə bundan istifadə edək", - deyən Heydər Əliyev bununla azad mətbuata həm də güclü mənəvi dəstək verir, KİV işçilərini mövcud nöqsanların aradan qaldırılması işində fəal iştirak etməyə çağırırdı. Bu, dövlətin söz və fikir azadlığına, mətbuatın roluna verdiyi böyük ictimai dəyər kimi qiymətləndirilməlidir.

Heydər Əliyevin ölkədə söz və mətbuat azadlığının tam bərqərar olması istiqamətində atdığı ən ciddi addımlardan biri senzuranın ləğv edilməsi idi. Prezidentin 1998-ci il avqustun 6-da imzaladığı" Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində əhəmiyyətli bir addım oldu.

Eyni zamanda, həmin Fərmanla Nazirlər Kabinetinə kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılmasını, onlara dövlət qayğısının artırılmasını nəzərdə tutan tədbirlər proqramının layihəsini hazırlamaq tapşırılmışdı. Nəticədə, kütləvi informasiya vasitələri 1998-ci ilin sonundan etibarən əlavə dəyər vergisindən azad olundu. Onu da deyək ki, bu güzəştin illik məbləği 7 milyard manat təşkil edirdi. Bu, bütün MDB məkanında analoqu olmayan bir hadisə idi. Prezident Heydər Əliyevin 2000-ci il martın 6-da imzaladığı Sərəncamla isə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması haqqında tədbirlər Proqramı" təsdiq olundu.

2001-ci dekabrın 18-də Prezident Heydər Əliyev ölkənin əsas kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatlarının rəhbərlərini qəbul edərək, onlarla mətbuatın problemləri barədə geniş fikir mübadiləsi aparmışdı. Həmin görüşdən sonra müstəqil qəzetlərin "Azərbaycan" nəşriyyatında olan borclarının ödənilməsi "dondurulduq", qəzet kağızı idxalına dövlət rüsumunun ləğvi, qəzetlərin iqtisadi müstəqilliyinin artırılması, onlara güzəştli kreditlərin verilməsi kimi vacib məsələlər həll edildi.

Ümumiyyətlə, ümummilli liderimiz müstəqil Azərbaycanda mətbuatın problemlərinin həlli ilə bağlı 10-dək Sərəncam və Fərman imzalamışdır.

Bütün bunların nəticəsidir ki, Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görüldü. Bu qərar 62 respondent - kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatlarının rəhbərləri və ekspertləri arasında keçirilmiş sorğunun nəticələrinə görə qəbul edilmişdi. Ulu öndərimizin təqdimat mərasimində dediyi "Azərbaycanın böyük tarixi var. Bu böyük tarixə nəzər salsaq görərik ki, heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır, fikir bu qədər azad olmayıbdır, mətbuat bu qədər azad olmayıbdır", - sözləri indi də aktual səslənir.

Xüsusi vurğulamaq istərdim ki, ümummilli liderimizin siyasi hakimiyyətdə olduğu illərdə Azərbaycan jurnalistləri onunla ünsiyyət sayəsində yeni bir məktəb də keçmişlər. Bu gün bu məktəbi haqlı olaraq, Heydər Əliyevin jurnalistika məktəbi adlandırırlar.

Ulu öndərimizin 1995-ci ildən etibarən Azərbaycan Dövlət Teleqraf Agentliyi ilə bağlı imzaladığı Fərman və Sərəncamlar AzərTAc-ın işinin yaxşılaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi üçün hərtərəfli zəmin yaratmışdır.

"Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" Prezidentin 3 mart 1995-ci il tarixli Fərmanının məqsədi dövlət səviyyəsində rəsmi xəbərlərin xalqa çevik çatdırılmasında, Azərbaycan haqqında operativ məlumatların beynəlxalq miqyasda geniş yayılmasında agentliyimizin imkanlarından daha dolğun istifadə edilməsinə şərait yaratmaq idi.

Bu Fərmanla Azərbaycan Teleqraf Agentliyi əsasında Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi yaradıldı. Bu, hər şeydən əvvəl, AzərTAc-a rəsmi dövlət informasiya orqanı statusu verilməsi demək idi. Fərmanda Nazirlər Kabinetinə AzərTAc-ın maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması və onun dünya standartları səviyyəsində fəaliyyət göstərməsi üçün lazımi tədbirlər görmək tapşırılmışdı.

Fərmanın icrası ilə bağlı Nazirlər Kabineti iyulun 3-də "Azərbaycan Teleqraf Agentliyinin (AzərTAc-ın) yenidən təşkil edilməsi haqqında" qərar qəbul etdi. Agentlik, əsasən dövlət büdcəsindən maliyyələşdirilməyə keçirildi. Bundan əlavə, Maliyyə Nazirliyinə agentliyin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılmasını və digər zəruri ehtiyacları təmin etmək məqsədi ilə lazımi vəsait ayrılması tapşırıldı. AzərTAc-ın Türkiyədə, ABŞ-da, İranda, Almaniyada, İngiltərədə, Türkmənistanda, Rusiyada, Gürcüstanda və Özbəkistanda müxbir məntəqələrinin açılmasına icazə verildi.

Ümummilli liderimiz AzərTAc-ın müasir tələblər səviyyəsində fəaliyyət göstərməsini, işçilərin maddi təminatının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayırdı. 1996-cı il iyunun 29-da "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) işinin yaxşılaşdırılması haqqında" Sərəncamda Nazirlər Kabinetinə tapşırıldı ki, agentliyin işinin spesifik xüsusiyyətlərini, müasir dövrdə dövlət siyasətinin həyata keçirilməsində rəsmi informasiya işinin böyük əhəmiyyətini nəzərə alaraq, müstəsna hal kimi, işçilərin əmək haqqını AzərTAc-ın rəhbərliyi tərəfindən təqdim olunmuş dərəcələr səviyyəsində müəyyən etsin və bu məqsədlə lazımi vəsait ayırsın. Sənədə görə, xarici ölkələrdə müxbir məntəqələrinin açılması və onların fəaliyyətinin maliyyələşdirilməsi məsələləri 1996-cı ilin ikinci yarısında həll edilməli idi. Şəhər və rayonların icra hakimiyyəti başçılarına isə AzərTAc-ın zona informasiya mərkəzlərinin fəaliyyəti üçün lazımi şərait yaratmaq tapşırıldı. Sərəncamın icrasını təmin etmək üçün respublika hökuməti oktyabrın 31-də müvafiq qərar qəbul etdi.

Prezident Heydər Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində respublikamızın beynəlxalq əlaqələri genişlənir, müstəqil dövlətimizin dünya miqyasında nüfuzu artır, ölkəmizdə gedən hüquqi dövlət quruculuğuna beynəlxalq aləmdə maraq güclənirdi. Belə bir şəraitdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün agentliyin fəaliyyətinin günün tələbləri səviyyəsində təkmilləşdirilməsi tələb olunurdu. Bunu nəzərə alan ümummilli liderimiz 2000-ci il yanvarın 17-də "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin (AzərTAc) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Fərmanla AzərTAc

Nazirlər Kabinetinin tabeliyindən çıxarılaraq, Prezidentə tabe olan müstəqil qurum - Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırıldı. Həmin Fərmana əsasən, agentliyin tərkibində xarici dillərdə xəbərlər hazırlayan və yayan baş redaksiya yaradıldı, digər müvafiq tədbirlər görüldü.

Həmin il martın 1-də agentliyimizin 80 illiyi tamam olurdu. Şübhəsiz ki, bu əlamətdar hadisə Heydər Əliyev kimi həssas insanın diqqətindən yayına bilməzdi. Ulu öndərimiz fevralın 29-da Azərbaycan Dövlət Teleqraf Agentliyinin kollektivinə təbrik məktubu ünvanladı. Məktubda deyilirdi: "Son illər AzərTAc-ın fəaliyyətində xüsusi dönüş yaranmış, onun maddi-texniki bazasının gücləndirilməsi, işinin təkmilləşdirilməsi və daha operativ, səmərəli təşkili üçün mühüm tədbirlər görülmüşdür". Məktubda kollektivin vəzifələri də konkret şəkildə müəyyənləşdirilirdi: "AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır. Bu gün Azərbaycan dövləti ölkə Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı siyasi plüralizm prinsiplərinə sadiq qalaraq, kütləvi informasiya vasitələrinin inkişafı üçün hərtərəfli şərait yaratmışdır və bu sahədəki səylər bundan sonra da dönmədən davam etdiriləcəkdir".

Martın 15-də Nazirlər Kabineti Prezidentin 17 yanvar tarixli Fərmanının icrası ilə bağlı müvafiq qərar qəbul etdi. Qərara əsasən, AzərTAc-ın maddi-texniki bazasının müasir tələblər səviyyəsinə çatdırması, o cümlədən xarici ölkələrdəki müxbir məntiqələrinin texniki avadanlıqla təchiz olunması məqsədilə 500 milyon manat, 2000-ci il yanvarın 17-dən etibarən əməkdaşların əmək haqqının 50 faiz artırılması ilə əlaqədar 373,5 milyon manat vəsait ayrıldı.

2001-ci il iyunun 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycan" Dövlət Teleqraf Agentliyi (AzərTAc) haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Fərman imzaladı.

Qayğıkeş insan, müdrik siyasətçi agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsinə yox, həm də işçilərin maddi təminatına da diqqət yetirirdi. 2002-ci il dekabrın 28-də "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) işçilərinin maddi təminatının yaxşılaşdırılması haqqında Sərəncam bunun bariz nümunəsi idi. Sərəncama görə baş direktorun, onun birinci müavini və müavininin aylıq vəzifə maaşı, müvafiq olaraq nazirin, onun birinci müavini və müavininin aylıq vəzifə maaşı səviyyəsində müəyyən edildi, digər işçilərin aylıq vəzifə maaşları 1,5 dəfə artırıldı. Bundan əlavə,

istirahət və bayram günləri də daxil olmaqla, agentliyin gecə-gündüz fasiləsiz fəaliyyət göstərməsini təmin etmək məqsədilə işçilərin əmək haqlarına əlavələr və digər ödənişlər müəyyənləşdirildi.

Bütün bunların sayəsində agentliyin maddi-nexniki bazası möhkəmləndirildi, ən müasir avadanlıq alındı. 2003-cü ilin martında AzərTAc üçün xaricdən respublikada analoqu olmayan fotolaboratoriya alınıb quraşdırıldı.

Ulu öndərimizin bu diqqət və qayğısının onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi kollektivimizin üzvlərini bütün imkanlardan istifadə edərək daha böyük səylə çalışmağa ruhlandırır.

Müstəqil Azərbaycanın rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada yayılması Heydər Əliyevin ən böyük arzularından biri idi. Fərəhlə deyə bilərik ki, hazırda AzərTAc dünyanın İTAR-TASS, Anadolu Agentliyi, Sinxua, ANSA (İtaliya), BTA (Bolqarıstan) kimi tanınmış agentlikləri ilə ikitərəfli əməkdaşlıq haqqında sazişlər imzalamışdır. Bu sazişlərin bilavasitə tərəfdaşlarımızın təşəbbüsü ilə imzalanması AzərTAc-ın beynəlxalq miqyasda nüfuzunun getdikcə artmasının daha bir sübutudur.

2004-cü ilin sentyabrında isə agentliyimizin həyatında çox əlamətdar hadisə baş vermiş, AzərTAc Asiya və Sakit Okean Ölkələri informasiya Agentlikləri Təşkilatının (OANA) tam hüquqlu üzvü olmuşdur. Bunun sayəsində AzərTAc-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 34 ölkənin 39 informasiya agentliyi istifadə edə bilir. AzərTAc isə, öz növbəsində, həmin agentliklərin OANA-nın saytına daxil olan bütün informasiyalarından istifadə etmək imkanı qazanmışdı.

Xatırladaq ki, Azərbaycan informasiya agentliyi bu təşkilatda təmsil olunan dördüncü MDB dövlətidir. Ümumiyyətlə, indi AzərTAc hər gün dünyanın 60-dan çox ölkəsinə Azərbaycan, ingilis və rus dillərində xəbərlər göndərir.

Ümummilli liderimizin qarşımıza qoyduğu tələblərdən biri xarici dövlətlərdəki səfirliklərimizə Azərbaycanın gündəlik həyatı barədə operativ informasiya əldə etmək imkanı yaratmaq idi. AzərTAc-ın yeniləşdirilmiş saytı bunu təmin etmişdir. Yeri gəlmişkən xatırladım ki, agentliyimizin saytına gün ərzində 1000-dən çox müraciət olur. AzərTAc-ın saytı BMT-nin Cenevrə ofisinin İnformasiya Mərkəzinin internet-səhifəsində yerləşdirilmişdir. AzərTAc İspaniyanın "Aktualidad" jurnalının təsis etdiyi "Nüfuz və

keyfiyyətə görə" beynəlxalq mükafatına (2004-cü il), xüsusi keyfiyyət və yüksək texnologiya üçün Madriddəki Biznes Təşəbbüsü Mərkəzinin "Avropaya qapı" beynəlxalq qızıl mükafatına (2005-ci il) layiq görülmüşdür.

Azərbaycan xalqının ümummilli liderinin ruhu şad ola bilər, bu gün AzərTAc onun istədiyi səviyyəyə yaxınlaşmaqdadır. İnformasiyaların toplanması, hazırlanması və ötürülməsində maksimum operativliyə nail olmaq üçün yeni yollar axtarılır, texniki-təşkilati tədbirlər görülür. Bütün bunlar getdikcə öz bəhrəsini verir, gündəlik informasiyaların həcmi on dəfədən çox artmışdır. Daha bir neçə xarici ölkədə müxbir məntəqələrinin açılması nəzərdə tutulur.

Danılmaz həqiqətdir ki, xalqımızın, bütün türk dünyasının dahi oğlu Heydər Əliyev vaxtilə respublikamız ətrafında yaranmış informasiya blokadasının yarılmasında misilsiz xidmətlər göstərmişdir. O, Azərbaycan həqiqətlərinin dünyaya yayılması üçün hər bir imkandan istifadə edirdi. Fəxr edirik ki, ulu öndərin bu fəaliyyətinə AzərTAc da öz töhfəsini verməyə çalışmışdır.

Hazırda Azərbaycanda çoxsaylı qəzet və jurnallar çıxır, özəl informasiya agentlikləri fəaliyyət göstərir, bu təbiidir. Amma arzu edərdim ki, həmkarlarımız faktlara, hadisələrə münasibətdə peşə etikasını gözləsinlər, kimlərinsə ambisiyasına, siyasi maraqlarına xidmət etməyə çalışmasınlar, şayəni informasiyaya çevirməsinlər. Bu yol cəmiyyətə yalnız ziyan vurur. Bu günlərdə AzərTAc öz həyatında əlamətdar bir hadisəni, ölkəmizdə ilk informasiya agentliyinin yaranmasının 85 illiyini qeyd etmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə əməkdaşlarımızdan bir qrupunun "Tərəqqi" medalı ilə təltif edilməsi və "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi kollektivimizə daha bir sevinc bəxş etmişdir. Biz bunu təkcə AzərTAc kollektivinin əməyinə deyil, həm də zəngin ənənələri olan bu il 130 illiyini qeyd edəcək Azərbaycan mətbuatının, müstəqil dövlətimizin, xalqımızın milli mənafelərinə sədaqətlə xidmət edən, jurnalist adını uca tutan bütün həmkarlarımızın işinə verilən yüksək qiymət kimi qəbul edirik. Yüksək mükafata görə dövlətimizin başçısına sonsuz minnətdarlığımızı bildiririk. Ulu öndərimizin siyasi xəttinin bütün istiqamətlərdə davam etdirilməsi, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun daha da yüksəldilməsi, respublikamızın dinamik sosial-iqtisadi inkişafına nail olunması sahəsində Prezidentimizin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlərin informasiya təminatı, müstəqil respublikamız haqqında həqiqətlərin dünyada daha geniş yayılması üçün kollektivimiz bundan sonra da bütün imkanlarını səfərbər edəcəkdir.

NOVRUZ QULİYEV
Milli Məclisin deputatı,
AMEA-nın müxbir üzvü

QƏTİYYƏT NÜMUNƏSİ

XX əsr Azərbaycan tarixinin ən yaddaqalan siması olan Heydər Əliyevin qeyri-adi irsi olduqca zəngin və əhatəlidir. İllər keçdikcə artıq başarı sərvətə çevrilən bu irsin əhəmiyyətini daha çox dərk edir, şəhrinə daha çox düşür, vətəni necə sevmək, xalqa necə xidmət etmək nümunəsi olan şəxsi həyatını və fəaliyyətini örnək kimi qəbul edirsən.

Heydər Əliyevi və dünya xalqlarının digər görkəmli insanlarını müqayisə etdikdə (hər cür müqayisə qüsurlu olsa da) hamımızın müasiri olan və xalqımızın milli sərvəti sayılan bu şəxsiyyətdə daha unikal keyfiyyətlərin cəmləşdiyini görürsən. Həddindən artıq humanist, insanpərvər, dinləməyi bacaran, başqalarının fikrinə hörmət bəsləyən, istedadlı, zəhməti dəyərləndirən, taleyüklü məqamlarda doğru yol seçən, çoxsaylı problemlər sırasında daha vacibinin həlli üzərində dayanan, ən əsası isə azərbaycanlı olduğundan qürur duyan Heydər Əliyev Azərbaycan və dünya tarixinin yetişdirdiyi görkəmli xadimlərdən çox fərqlənirdi. Heydər Əliyevi həyatının tətatümlü günlərində belə sındırmaq, yolundan döndərmək düşmənlərinə müyəssər olmadı. O, bütün anlarda qətiyyətli idi və həm özünə, həm də Azərbaycana qarşı mübarizə aparan müvəqqəti səlahiyyət sahiblərinin gələcəkdə lənətlənəcəyini yaxşı bilirdi. Hakimiyyətinin birinci mərhələsində və xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonrakı on il ərzində Heydər Əliyev Azərbaycanı qətiyyətlə yeni müstəqil sivil dövlət quruculuğuna doğru apardı. Heydər Əliyev bütöv, əqidəli şəxsiyyət idi və bu mənada onun həyatını, fəaliyyətini müxtəlif mərhələlərə bölənlərlə mən razı deyiləm.

Heydər Əliyevin gücü nədə idi? 1993-cü ildə ölkənin vətəndaş müharibəsi ilə üzləşdiyi, bütün sahələrdə dövlət böhranının baş verdiyi şəraitdə hakimiyyətə dəvət olunan ulu öndərimizin nəzarətində heç bir silahlı qüvvələr yox idi. Azərbaycan xalqının ümummilli lideri necə oldu ki, ağır vəziyyəti sabitləşdirə, məmləkətimizi yenidən parçalamaq istəyənlərin

niyyətini puça çıxara bildi? 1994-cü ilin oktyabrında nə üçün Heydər Əliyevin bir çıxışı ilə on minlərlə insan gecəyarısı Prezident sarayının ətrafına yığıldı, öz dövlətini, öz Prezidentini qorumağı vətəndaş borcu hesab etdi? Ulu öndərimizin həyatını vərəqlədikcə, onun Azərbaycanın və imperiyanın yuxarı eşelonlarına doğru uzanan yolda qarşılaşdığı çətinlikləri, maneələri öyrəndikcə dərk edirsən: Heydər Əliyevin gücü bütün varlığı ilə xalqına, vətəninə bağlı olmasında idi. O, ilhamını, gücünü, qüdrətini xalqından alırdı, xalq Onun ən böyük dayağı idi. Azərbaycan və Heydər Əliyev - bir-birindən ayrılmaz hesab olunan və bir-birinə bağlı olan bu iki qüvvə həm də bir-birinin simvolu idi. Azərbaycan xalqı həqiqətən qüdrətli, istedadlı xalqdır ki, müxtəlif mühitlərdə nizamilər, füzulilər, xətailər yetirdi, son əsrdə isə bəşəriyyətə Heydər Əliyev adlı düha bəxş elədi. Heydər Əliyev **«Qafqazın patriarxı», «bəşəriyyətin azərbaycanlı dahisi»** adını sağlığında qazanmış dövlət xadimi idi.

Azərbaycanın ən ucqar və sərt diyarında doğulub boya-başa çatmış istedadlı bir gənc hamının həsəd apardığı müəllim, tanınmış memar da ola bilərdi. Heydər Əliyev hansı sahəyə istiqamətlənməyindən asılı olmayaraq lider idi. Görünür, hər kəsin taleyi bu dünyaya qədəm basan andan onun alnına yazılır- deyənlər yanılmırlar. Lakin yeganə bir istisna var: Heydər Əliyev vəzifə pillələrində özünün hədsiz zəhmətsevərliyi, tükənməz enerjisi və nadir idarəçilik qabiliyyəti sayəsində irəliləyirdi, bütün hallarda da seçimin düzgün olduğunu sübut edir, sovet dövründə Azərbaycan üçün xarakterik hakim kommunist partiyasının formalizm naminə təyin etdiyi şəxs imicini darmadağın edirdi. 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilən 46 yaşlı Heydər Əliyev elə ilk plenumdaca Azərbaycan dilində çıxış etməklə köhnə stereotipləri puça çıxardı. O dövrün siyasi xadimlərinin güclü cəhətlərini və zəifliklərini öyrənən, zəngin təbii sərvətlərinə, istehsal potensialına baxmayaraq Azərbaycanın keçmiş sovet məkanında geridə qalmış respublikalar sırasına düşməsinin səbəblərini araşdıran Heydər Əliyev elə ilk anlardan dünya səviyyəli və peşəkar dövlət xadimi olduğunu sübuta yetirdi. Onun fikrincə, Azərbaycanda ilk növbədə milli-mənəvi ruh yüksəldilməli, azərbaycanlıların öz ənənələrinə, köklərinə bağlılığı sürətləndirilməli, xalqın müstəqil yaşaya bilməsi üçün lazım olan maddi-texniki baza yaradılmalı idi. Heydər Əliyevdən əvvəlki respublika rəhbərlərində çatışmayan keyfiyyət məhz bu idi:

onların hər biri adi nomenklatur məmur kimi respublikada mərkəzin siyasətini həyata keçirmişdilər, bu siyasətin Azərbaycan xalqının mənafeyinə zidd olan məqamlarında cəsarət, qətiyyət nümunəsi göstərib öz sözlərini deməmişdilər, Azərbaycanın sosial-iqtisadi inkişafının geridə qalmasından narahat olub məsələ qaldırmamışdılar, imperiyanın imkanlarını ölkə, xalq naminə səfərbər etməmişdilər və bütün bunlar da rüşvətxorluğun, korrupsiyanın, kölgə iqtisadiyyatının çiçəklənməsinə gətirib çıxarmışdı. O dövrdə Azərbaycanda hakimiyyətə Heydər Əliyev gəlməsəydi, respublikanın indiki halı necə olacaqdı- bu da dərin tədqiqat mövzusudur. Fakt budur ki, Heydər Əliyev durğunluq girdabında çabalayan, bir çox düşmənlərin qara istəklərinin reallaşması üçün münbit zəmin yaranan Azərbaycanın simasını tamamilə yeniləşdirdi, torpaq iddialarının gerçəkləşməsi üçün fürsət axtaran ermənilərin arzularını gözündə qoydu. Ulu öndərimiz xalq təsərrüfatının bütün sahələrində islahatlar apararkən belə bir tezisi diqqətə çatdırdı ki, əmək şan-şöhrət işidir. Zəhməti ilə ucalmaq istəyən kənd təsərrüfatı işçisinə, fəhləyə, eləcə də partiya- sovet işində çalışanlara, mədəniyyət xadimlərinə imkanlarından istifadə etmək, istedadlarını nümayiş etdirmək üçün hər cür şərait yaradılır və bütün bunlar onların həyat səviyyəsinin yaxşılaşmasına bilavasitə təsir edirdi. Azərbaycanın rəhbər şəxslərinin fəaliyyətində şəffaflıq təmin olunur və onların bir çox hallarda müşahidə olunduğu kimi, «dissertasiya» oyunlarına, ali məktəblərin dəbdə olan fakültələrini inhisara almalarına son qoyulurdu. Zahiri görkəminə və insanlarla ünsiyyət yaratmaq qabiliyyətinə görə əvəzsiz olan Heydər Əliyev xalqın inamını məhz fəaliyyətinin bu mərhələsində qazandı. Həddindən artıq sadə görünən və daim insanlar arasında olmağa can atan Heydər Əliyev ədalət mücəssəməsi idi: ona ünvanlanan müraciətlərin biri belə cavabsız qalmırdı.

Sonralar bu dövrü «Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında» adlı müraciətində (29 dekabr 2000-ci il) Heydər Əliyev belə dəyərləndirmişdi: **«Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get- gedə daha dərindən inteqrasiya olunması hələ 1970- 1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır». Bu potensialı Heydər Əliyev yaratmışdı. Həmin illərdə adambaşına düşən gəlir iki dəfə, sənaye istehsalı üç dəfə,**

kənd təsərrüfatı məhsulları istehsalı iki dəfə artmışdı. Taxıl, pambıq, üzüm, heyvandarlıq məhsulları istehsalı Heydər Əliyevin hakimiyyətinin birinci mərhələsində ən yüksək səviyyəyə qalxmışdı. Heyvandarlıq sahəsindəki artımda Rusiyadan, Belarusdan, Ukraynadan gətirilmiş cins heyvanların rolu böyük idi. Respublikanın bütün bölgələri inkişaf etmiş, hətta ən ucqar kəndlərdə belə sosial obyektlər tikilmiş, əhali mavi qaz, elektrik enerjisi ilə təmin olunmuşdu. Adamların güzəranı tamamilə dəyişmişdi. 250 iri həcmli zavod tikilmiş, müəssisələr qabaqcıl avadanlıq və texnologiyalarla təchiz edilmişdi. Dərin özüllər zavodu, məişət kondisionerləri zavodu, Azərelektroterm İstehsalat Birliyi, nəhəng inzibati və yaşayış binaları bilavasitə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə tikilmişdi. Müasirlərdən biri xatırlayır ki, Heydər Əliyev hətta binaların interyerinə də xüsusi diqqət yetirirdi, Azərbaycan xalçalarının ornamenti, rəngi və s. ilə otaqdakı digər əşyaların uyğunluğunu şəxsən yoxlayır, unikal zövq sahibi olduğunu sübuta yetirirdi. Heydər Əliyev bütün varlığı ilə milli şəxsiyyət olduğundan burada da milli dəyərlərə, əsrlərin sınağına tab gətirərək bu günümüzə gəlib çatmış özünəməxsus çalarların dövlət-ictimai əhəmiyyətli binalarda əksini tapmasına çalışırdı. Bəli, ölkə tarixini, SSRİ-nin yaranması prosesini, türk xalqlarının azadlıq idealları uğrunda mübarizə əzmini yaxşı bilən Heydər Əliyev Azərbaycanın müstəqilliyinin yenidən bərpa olunacağını görür və bunun üçün təminatlar yaradırdı.

Ötən əsrin 70-80-ci illərində Heydər Əliyev professional kadrların yetişdirilməsinə məhz bu baxımdan qayğı ilə yanaşırdı. Ali məktəblərdə baş verən neqativ hallara qarşı kəskin mübarizə aparır, qəbul prosesində şəxsən iştirak edir, fəhlə-kəndli balalarının əlçatmaz hesab etdikləri ixtisaslar üzrə ali təhsil almasına imkan yaradırdı. Hər il yeni təhsil ocaqları açılır, minlərlə gənc respublikadan kənarda təhsil almaq üçün SSRİ-nin aparıcı ali məktəblərinə qəbul olunurdu. Heydər Əliyevə qədər azərbaycanlıların SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almasına süni maneələr törədilirdi. Faktların dili ilə desək, 1965- 1970-ci tədris ilində SSRİ-nin ən böyük ali təhsil ocaqlarında 210 erməni, 250 gürcü oxuyurdusa, azərbaycanlıların sayı bir neçə nəfərlə məhdudlaşırdı. Bu limit dövlət səviyyəsində qoyulmuşdu, daha acınacaqlısı o idi ki, azərbaycanlıların əsasən ədəbiyyat, musiqi və s. sahələrdə ittifaq miqyaslı ali məktəblərdə təhsil al-

malarına icazə verilirdi. 70-ci illərdən başlayaraq azərbaycanlılar demək olar ki, bütün vacib ixtisaslar üzrə sovet dövlətinin ali təhsil müəssisələrində oxumağa göndərildi və onların sayı ildən- ilə artdı. Heydər Əliyev adətən tədris ilinin başlanması ərəfəsində onlarla görüşür, dəyərli məsləhətlər verir, kamil mütəxəssis kimi geri qayıdıb öz imkanlarını Azərbaycanın çiçəklənməsi naminə səfərbər etməyə çağırırdı. O, müstəqil Azərbaycanın intellektual mülkiyyətini yaradırdı.

Azərbaycan ərazisində strateji əhəmiyyət kəsb edən bir neçə ali hərbi məktəb olsa da, azərbaycanlılar hərbi kadr hazırlığına və SSRİ hərbi elitasına yaxın buraxılmırdı. Həmin məktəblərdə təhsil alan kursantların milli mənsubiyyəti Azərbaycan üçün həqiqətən dözülməz idi. Azərbaycan ərazisində yerləşməsinə baxmayaraq, bu məktəblərin minlərlə məzunu arasında həmvətənlərimizi barmaqla saymaq olardı. 70-ci illərdən başlayaraq Bakıda ali hərbi məktəblərə (Ali Ümumqoşun Komandirləri məktəbi və Zığdakı hərbi dəniz qüvvələri məktəbi) qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı. Nəticədə 1979-cu ilin statistikasına görə kursantların 65 faizini azərbaycanlılar təşkil edirdi. 1971-ci ildə Heydər Əliyev daha bir qətiyyətli addım atdı: milli hərbi kadrların hazırlanmasına xidmət edəcək Cəmşid Naxçıvanski adına internat məktəb- hərbi lisey yaradıldı. Məktəbin on illik yubileyində iştirak edən Heydər Əliyev deyirdi: «Əsas budur ki, belə bir məktəbin açılması özünü doğrultdu və qarşısında qoyulan vəzifəni layiqincə yerinə yetirir». Böyük siyasi baxışları ilə gələcəyi görən Heydər Əliyev mövcud hərbi məktəblərin strukturunu tamamilə yeniləşdirməklə və yeni hərbi məktəb yaratmaqla suveren Azərbaycan dövlətinin gələcəyinə hesablanmış addımlar atdı. Bunlar müstəqil Azərbaycanın milli hərbi kadrlarının yetişdirilməsində baza rolunu oynadı.

Bu dövrdə Heydər Əliyevin Azərbaycan mədəniyyətinin sovet məkanında və beynəlxalq aləmdə təbliği üçün oynadığı rol misilsizdir. «**Biz gözəl incəsənətə, mədəniyyətə, heyranedici xalq musiqisi və onun əsasında inkişaf edən professional musiqiyə malikik**»- bu, Heydər Əliyevin sözləridir. Ulu öndərimizin şəxsi təşəbbüsü ilə Bakıda dünya standartlarına cavab verən Respublika, Cülüstan, idman sarayları, opera studiyası, xoreoqrafiya məktəbi tikilmiş, opera və balet, mahnı teatrları əsaslı təmir olunmuş, musiqili komediya teatrı, demək olar ki, yenidən inşa edilmişdi.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin ev muzeyləri açılmış, heykəlləri ucaldılmışdı. Əvvəllər əsərlərinə və özünə qadağa qoyulan şair və yazıçıların yubileyləri ittifaq miqyasında qeyd edilirdi. Heydər Əliyev Cəfər Cabbarlını, Nəsimini, Nəriman Nərimanovu, Üzeyir Hacıbəyovu, Hüseyn Cavidi... Azərbaycan xalqının parlaq simaları kimi təqdim edir, onların əsərlərinin fəlsəfi mahiyyətini açmaqla xalqımızın zəngin fikir, təfəkkür tarixinə malik olduğunu göstərir, azadlıq, müstəqillik amalından heç vaxt dönmədiyini ifadə edirdi. Heydər Əliyev bütün mədəni tədbirlərdə iştirak edir, simfonik, klassik musiqidən ibarət konsertlərdə olur, Azərbaycan və dünya mədəniyyətinin incilərindən, istedadlı ifalardan, rəsm əsərlərindən zövq almağı bacarırdı. Azərbaycan rəhbərini ziyalılarla azərbaycançılıq, vətənpərvərlik, aşkarlıq, saflıq hissləri bağlayırdı və Heydər Əliyev müstəqil fikirli ziyalıların dövlət səviyyəsində himayədarı idi. Moskvada çapına icazə verilməyən «Türkologiya» jurnalının bu dövrdə Bakıda çap olunmağa başlaması da təsadüfi sayılmamalıdır.

Heydər Əliyev Azərbaycanın bütün sahələrinin inkişaf tarixini yaxşı bilir, nöqsanları, çətinlikləri ölkənin öz potensialı və imperiyanın imkanları hesabına aradan qaldırır və hər istiqamət üzrə heyrətamiz nəticələr qazanırdı. Heydər Əliyev Azərbaycanı dirçəltmək işinə bütün varlığı ilə girişmişdi. Azərbaycanın neft-qaz hasilatında, neft məhsulları istehsalında SSRİ miqyasında qabaqcıl yerə çıxmasında ulu öndərimizin müstəsna xidmətləri vardı. Yerli neft maşınqayırmasının rolu nəinki Azərbaycanın, hətta Türkmənistanın, Qazaxıstanın, Tümenin karbohidrogen yataqlarının kəşfiyyatında və işlənməsində başlıca idi. Ölkəmizin kənardan enerji asılılığı tamamilə aradan qaldırılmışdı. Azərbaycan ixracatçı ölkəyə çevrilmişdi, Lənkəran Ümumittifaq bostanı adlandırılmışdı. Bir sözlə, Azərbaycan müstəqil yaşamağa qadir üç respublikadan birinə çevrilmişdi.

Doğrudan da, liderlərin öz xalqına münasibətindən çox şey asılıdır. Xalqı, vətəni üçün cahanşümul fəaliyyətinə görə Heydər Əliyevin hakimiyyət ierarxiyasında irəliyə doğru addımlaması və öz tükənməz potensialını sərf etmək üçün ona daha geniş meydan verilməsi tək Azərbaycan xalqının yox, bütün türk dünyasının şərəf duyduğu hadisə idi. Heydər Əliyev SSRİ kimi nəhəng imperiyanın maşınqayırma və yüngül sənaye, nəqliyyat və rabitə, həmçinin səhiyyə, elm, mədəniyyət və təhsil kimi mühüm sahələrinə rəhbərlik edirdi. Baykal-Amur magistralının tikintisi

üçün yorulmadan çalışırdı. Sovet dövlətinin rəhbərlərindən biri kimi bir çox xarici ölkələrə səfərlərdə nümayəndə heyətlərinə basmaqəlib, formal stereotipləri aşaraq elə rəhbərlik edirdi ki, bu gün də həmin səfərlərin iştirakçıları hörmət və ehtiramlarını gizlətmirlər. Heydər Əliyevin ölkəyə və xaricə rəsmi səfərlərini hazırlayan keçmiş SSRİ DTK-nın generalı Vladimir Medvedyev Vyetnama səfərin necə hazırlandığından danışır: **«O vaxt ölkə çoxillik müharibədən yenicə özünə gəlirdi. Orada hərc-mərclik hələ çox idi, dağıntılar isə ondan da çox idi. Üstəlik səfərin proqramı olduqca geniş idi. Narahat olmağa başladım: Heydər Əliyevi belə yerə necə gətirməli? Məsələn, poladəritmə zavodunun köhnə marten sobalarının yanında metal qırıntıları arasında mərmilər gördüm. «Qorxmayın, onlar partlamayacaq»- deyə məni inandırmağa çalışırdılar və mərmiləri oradan yığışdırmaqdan imtina etdilər. Heydər Əliyev oraya gələndə mən, əlbəttə, mərmilər barədə ona məruzə etdim və soruşdum ki, olmazmı zavoda getməsin. Lakin sözündən dönmək Heydər Əliyevə xas olan xüsusiyyət deyildi. Dedi: «Olmaz, orada insanlar bizi gözləyirlər, getmək lazımdır». O, həmişə belə idi»**. Azərbaycan xalqının ümummilli liderinin qətiyyətli, sözübütöv, həddindən artıq səmimi olduğunu, qarşısındakı məqsədə çatmaq üçün özünün şəxsi həyatını, təhlükəsizliyini düşünmədiyini sübut edən bu kimi faktlar müstəqillik illərində onlarla olubdur.

Elə həmin Medvedyev Heydər Əliyevin Moskvada işləyərkən nəhəng ölkənin nəqliyyat sahəsində qayda-qanun yaratdığını, qaz sənayesinin inkişafı üçün təxirəsalınmaz tədbirlər gördüyünü xatırlayaraq bildirir : **«Mənə elə gəlir ki, o vaxt Moskvada toplanmış təcrübə Heydər Əliyevin artıq müstəqil Azərbaycanda həyata keçirməyə başladığı iri layihələrin konsepsiyası üçün əsas oldu. Şimal- Cənub, Qərb- Şərq (indi TRASEKA) kimi yeni strateji nəqliyyat dəhlizləri və Bakı- Tbilisi- Ceyhan neft kəməri, ola bilsin, məhz onda düşünülmüşdü. Yeri gəlmişkən, Xəzərin neft ehtiyatları vaxtilə sovet mütəxəssisləri tərəfindən kəşf edilmişdi, Heydər Əliyev onlara yaxşı bələd idi. Hərdən mənə elə gəlir ki, artıq onda o, özünün bəzi arzularında Azərbaycanın müstəqil inkişafının mümkünlüyünü nəinki istisna etmir, onu hətta müəyyən şəkildə planlaşdırırdı»**. Nəzərə alsaq ki, bu sözləri sovet dövlətinin rəhbərlərinin mühafizəsinə uzun müddət başçılıq etmiş şəxs deyir və Heydər Əli-

yevin hakimiyyətinin birinci mərhələsində Azərbaycanın müstəqil inkişafını təmin edən fövqəladə fəaliyyətinə əsaslanır, onda bizim belə söyləməyə tam haqqımız vardır ki, ulu öndərimiz canından artıq sevdiyi doğma Vətənin yenidən azad olunacağına inanırdı. Heydər Əliyev 1990-cı ilin əvvəllərində Türkiyənin «Zaman» qəzetinə verdiyi müsahibədə açıq şəkildə etiraf edirdi ki, 70-ci illərdə SSRİ-nin tənəzzülə doğru getdiyini sezdiyindən çalışırmış ki, Azərbaycan üçün uğurlar qazansın: **«Mən SSRİ respublikalarının nə vaxtsa müstəqillik əldə edəcəklərini düşünürdüm. O illərdə Azərbaycanın da müstəqil dövlət olmasını arzu edirdim. Məni istefaya getməyə məcbur edənlərin əsas məqsədi Azərbaycanın müstəqillik qazanmasının qarşısını almaq idi»**.

Heydər Əliyevin parlaq şəxsiyyəti, tükənməz yaradıcılıq qabiliyyəti, müxtəlif səmərəli ideyalarını həyata keçirmək cəhdi dağılmaqda olan imperiya çərçivəsinə sığışmırdı. Bütün türk dünyasının lideri üstəlik qeyri-sabit, əməlləri ilə insanlarda ikrah doğuran, mənəvi tənəzzülə uğrayan və karyera düşkünləri olan imperiya rəhbərlərinin qısqanclığı, həsədi ilə üz-üzə gəlmişdi. Ən pisi də o idi ki, onların lakeyləri qiyafəsinə girən ermənilərin Azərbaycana yönəlik yırtıcı fəaliyyəti üçün əlverişli zəmin yaranmışdı. Heydər Əliyev imperiya başçılarına öz ağlı, müstəqilliyi, sayıqlığı, uzaqgörənliyi, milli siyasətə qarşı dözülməz münasibəti ilə mane olurdu. Heydər Əliyev son illər ərzində ermənilərin Azərbaycana qarşı yeni ərazi iddiasını reallaşdırmaq yolunda da ən böyük maneə idi və çox təəssüf ki, o dövrdə Azərbaycana rəhbərlik edənlərlə Heydər Əliyevi cismən və mənən məhv etmək istəyən ermənilərin, onlara açıq-aşkar himayədarlıq edən imperiyanın niyyətləri arasında heç bir fərq yox idi. 1988-1993-cü ildə bir-birini tez-tez əvəz edən, bir-birinə düşmənçiliklə yanaşan respublika iqtidarları da Azərbaycan xalqının ən böyük sərvəti olan bu nadir şəxsiyyəti qorumadı, əksinə, qərəzli hücumların, əsassız təzyiqlərin edilməsi üçün zəmin yaratdı.

Lakin Heydər Əliyev ali insan, böyük düha kimi cılız, primitiv adamların dar, müvəqqəti, yalnız şəxsi mənafelərinə hesablanmış hisslərinin fövqündə dayanaraq Azərbaycanın müstəqilliyi uğrunda açıq mübarizəyə girişdi. İmperiyanın milli siyasətinə, yeni ittifaq qurmaq, respublikaların suverenliyinə mane olmaq cəhdlərinə etiraz etdi, sovet dövlətinin tarixi ərzində öz xalqına qarşı misli görünməmiş təcavüz aktı törədəndə isə ağır

ittihamdan çəkinmədi. 1987-89-cu illərdə Azərbaycanda öz xalqının güzəranının çətinləşdiyini ürək ağrısı ilə müşahidə etdiyini deyən ulu öndərimiz 20 Yanvar faciəsindən sonra vətənə qayıtmaqdan çəkinmədi. Yanvar faciəsi ümummilli liderin yenidən fəal siyasətə qayıtmasına təkan verdi: hadisədən dərhal sonra- 21 yanvar 1990-cı ildə şəxsi təhlükəsizliyini unudaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyev Bakı şəhərinə təcavüz olunması barədə qərar qəbul edən insanların hərəkətlərini siyasi səhv adlandırdı, ağır faciənin törədilməsində günahkar olan respublika və imperiya rəhbərlərini ittiham etdi. Heydər Əliyev elə bu çıxışında 20 Yanvar faciəsinə ilk siyasi qiymət verdi, imperiyanın dünyaya meydan oxuduğu vaxtda onu Azərbaycan xalqına qarşı genosid siyasəti yeritməkdə təqsirləndirdi və qətiyyətlə «soyqırıma yol verənlərin hamısı layiq olduğu cəzanı almalıdır» dedi. O dövrdəki Azərbaycan rəhbərləri ümummilli liderin bu çıxışını siyasi tezis kimi qəbul etsəydilər, az sonra Naxçıvandakı fəaliyyətinə əsasən müvafiq addımlar atsaydılar, bu gün ölkəmiz müttəfiq respublikaların «suverenliklər paradı»nda birinci olması ilə öyünərdi. Ölkəmiz referendum yolu ilə dövlət müstəqilliyini o vaxt təsdiq etdi ki, artıq imperiya mövcud deyildi. Azərbaycan parlamentindəki çıxışları, SSRİ Nazirlər Sovetinin partiya təşkilatına yazdığı ərizədə kommunist partiyasından üz döndərməsinə səbəb olan halları aşkar söyləməsi, Azərbaycan ziyalılarına verdiyi cavab ümummilli liderimizin xalq üçün, ölkə üçün prinsipial mübarizəsində ardıcıl olduğunu sübut edir. Elə buna görə də 1993-cü ildə Azərbaycanın müstəqilliyini itirmək, ərazisinin yeni parçalanmalara məruz qalmaq təhlükəsini hiss edəndə müdrik xalqımız öz böyük oğlunu yenidən hakimiyyətə dəvət etdi.

Bu, Heydər Əliyevin ikinci dəfə xilaskarlıq missiyasına başlaması demək idi. Bu, elə bir dövr idi ki, heç kim bilə-bilə özünü odun- alovun içinə atmazdı. Bu, Azərbaycanın tarixində elə faciəli an idi ki, dərəbəylik, hərc-mərclik, silahlı dəstələr tüğyan edirdi, daxildəki vəziyyətin ağırlığından istifadə edən Ermənistan ölkənin içərilərinə doğru irəliləyirdi, torpaqlarımızı qorumalı olan hərbi birləşmələr ayrı-ayrı siyasi partiya sədrlərinin iddialarını reallaşdırmaq vasitəsinə çevrilmişdi. Şimalda, cənubda separatizm meylləri güclənmişdi, ölkə rəhbərlərinin hərəsi bir tərəfə qaçıb canlarının hayına qalmışdı. Xalqın Heydər Əliyevə olan inamı və Hey-

dər Əliyevin xalqı xilas etmək istəyi olmasaydı, bugünkü Azərbaycanın mövcud olacağının təsəvvür etmək çox çətindir.

Həmin ilin oktyabrın 3-də keçirilən Prezident seçkiləri öz mütəşəkkilliyinə və yekdilliyinə görə Azərbaycanın seçki tarixində analoqu olmayan hadisə idi. Səsvermədə iştirak edən vətəndaşların 98,8 faizi Heydər Əliyevi ölkə rəhbəri görmək istədiyini bildirdi. Bu yüksək etimada görə bütün vətəndaşlara dərin minnətdarlığını bildirən Heydər Əliyev andiçmə mərasimindəki nitqində dedi: **«Belə bir yüksək və məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Məni xalqımla birləşdirən arzu məcbur etdi ki, belə bir məsul vəzifəni öz üzərimə götürüm. Əmin etmək istəyirəm ki, xalqımın ümidlərini doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm»**.

Xalqla ünsiyyətlərinin birində ulu öndərimiz bildirmişdi: **«Mən dediyim hər bir kəlmənin məsuliyyətini daşıyıram»**. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 34 il onun verdiyi vədlərin, dediyi sözlərin real həyatda əksini tapması ilə müşayiət olunubdur. 1969 və 1993-cü illərdə onun hakimiyyətə gəlişi insanları mənəvi böhrandan, gələcəyə ümidsizlikdən xilas edibdir. Heydər Əliyev millət atası, müstəqil Azərbaycan dövlətinin qurucusu adını özünün titanik fəaliyyəti, xalqına, dövlətinə, vətəninə sevgisini əməli işi ilə sübut etməsi nəticəsində qazanmışdı. Azərbaycanın zəngin tarixini, dövlətçiliyini əks etdirən Heydər Əliyev irsinin böyük dəyər kəsb etməsinin səbəbi də elə budur.

...1991-ci ildə imperiyanın dağılması ilə əlaqədar müstəqillik əldə edilməsinə, xalqın öz sərvətlərinə sahib olmasına, yaradılmış böyük potensiala baxmayaraq xalq təsərrüfatının bütün sahələrində istehsal ildən-ilə aşağı düşür, adamların vəziyyəti getdikcə pisləşirdi. Kənd təsərrüfatı, heyvandarlıq, sənaye bərbad halda idi, ümumiyyətlə, müstəqil dövlətin hansı istiqamətdə inkişaf edəcəyi, ölkənin coğrafi imkanlarından, təbii sərvətlərindən nə məqsədlə istifadə olunacağı barədə təsəvvür belə yox idi. Üstəlik, dövlət çevrilişləri cəhdləri, ulu öndərin həyatı üçün yaradılan təhlükələr vəziyyəti daha da gərginləşdirirdi. O ağır illərdə Heydər Əliyev nə qorxdu, nə də çəkindi, ən çətin məqamlarda xalqına arxalandı, insanları köməyə çağırdı. Heydər Əliyevin bir müraciəti ilə 1994-cü ilin soyuq oktyabr gecəsində Prezident sarayının ətrafına on minlərlə adam- qadınlar, yaşlılar, gənclər toplaşdı. Azərbaycan dövlətçiliyini, Heydər Əliyevi müdafiə etdi. Mən bilmirəm, dünya tarixində rəhbərlə xalq birliyinin təcəssümü olan belə riqqətedici anların analoqu olubmu? Özlərini siyasətçi və lider hesab edən hansı insana indiyədək bu miqyasda böyük dayağa sahib olmaq müyəssər olub? Xalqların tarixində ölkəni xarabalıqlar üzərində dirçəldən və az müddətdə stabil inkişaf yoluna çıxaran şəxsiyyətlər həqiqətən az-az olubdur.

Azərbaycanda Qərb standartları yönümündə hüquqi, dünyəvi, demokratik dövlət qurmaq, əvvəlki mülkiyyət münasibətlərindən tamamilə fərqlənən bazar iqtisadiyyatı yaratmaq, sivil dünyanın insan hüquqları sahəsində əldə etdiyi dəyərləri mənimsəmək və ölkəni Avropaya, bütün dünyaya öz ənənələri, həqiqətləri ilə tanıtmaq Heydər Əliyevin əsas məqsədi idi. 1994-cü il sentyabrın 20-də böyük dövlətlərin təzyiqlərinə, Xəzərin statusu ilə bağlı qaldırılan əsassız hay-küylərə baxmayaraq dünyanın ən böyük şirkətləri ilə «Əsrin müqaviləsi» imzalandı. Bu, dağılmış iqtisadiyyatı bərpa etmək üçün ən yaxşı vasitə idi. Xarici investorların Azərbaycan rəhbərinə inamı olmasaydı, yatırdıqları sərmayənin təhlükəsizliyinə təminat yaradılmasaydı, onlar Xəzərin Azərbaycan sektorunda bu gün dünya səviyyəli enerji layihələrinin həyata keçirilməsinə başlamazdılar. Heydər Əliyev əsrin böyük tikintilərindən olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəmərinin marşrutunun seçilməsində də öz qətiyyətli sözünü dedi. Həm Gürcüstana, həm Türkiyəyə səfərlərində məhz Heydər Əliyevdən «BTC nə vaxt reallaşacaqdır» deyə soruşulması təsadüfi deyildi. Yalnız Azərbaycan xalqının ulu öndərinə üç dənizin əfsanəsini həyata keçirmək, region ölkələrinin rifahını, təhlükəsizliyini təmin etmək, müxtəlif dinlərə, dillərə məxsus insanları bir amal ətrafında birləşdirmək nəsib oldu. Heydər Əliyev bütün varlığı ilə birləşdirici amil idi.

1994-cü ilin mayında atəşkəs elan olunmasını, 1995-ci ilin noyabrında təsbit olunan bir sıra hüquqlarla hətta sivil ölkələrin konstitusiyalarını qabaqlayan Əsas Qanunumuzun qəbul edilməsini, 1996-cı ildən başlayaraq iqtisadi göstəricilərdə irəliləyişlər əldə edilməsini, 1997-ci ilin noyabrında «Əsrin müqaviləsi» çərçivəsində Xəzərin Azərbaycan sektorunun dərinliyində yerləşən «Çıraq» yatağından ilk neft hasil olunmasını yada salmaq istəyirəm. Ümumiyyətlə, Heydər Əliyevin fəaliyyəti dövründə elə

bir il olmayıbdır ki, hansısa əlamətdar hadisə ilə xarakterizə edilməsin. Qonşu dövlətlərlə qozulmuş münasibətlərin bərpası, dünyanın bütün ölkələri ilə qarşılıqlı faydalılıq zəminində əlaqələr qurulması, Azərbaycanın əsas problemində münasibətdə informasiya blokadasının yarılması bilavasitə Heydər Əliyevin xidmətləridir. 1998-ci ildə «Moskovski komsomolets» qəzeti bu böyük şəxsiyyətin nəhəng fəaliyyətinə heyrətini gizlətməyərək yazırdı: «**Heydər Əliyev xaricdə olarkən adamların Azərbaycanda görməyə vərdiş etdikləri Heydər Əliyevdən çox fərqlənir. ABŞ-da konqresmenlərin ayrı- seçkilik qoyan düzəlişləri ləğv etməsinə nail olmaq üçün o, Azərbaycana qarşı ədalətsizlik törədildiyini onların hər birinə sxem üzərində şəxsən izah etməkdən çəkinmirdi. Qarabağ problemi barədə heç nə bilməyən və onun harada yerləşdiyini dumanlı şəkildə təsəvvür edən adamların qarşısında çıxış etməyi və onlarla ünsiyyətdə olmağı Əliyev özü üçün əksiklik saymırdı. Miqyas baxımından onunla heç müqayisə edilə bilməyən siyasətçiləri inandırırdı. Lazımdırsa, deməli, etməlidir. O, ABŞ-a səfəri zamanı danışıqlarda və görüşlərdə 150 saat danışmışdı. O, xalqının, dövlətinin mənafeyi nəyi tələb edirsə, onu da edir**». 1996-cı ildə Lissabonda ATƏT-in sammitində Heydər Əliyev kəskin bəyanatla çıxış etdi: «**Ermənistan silahlı qüvvələrinin tam və qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılması, qaçqın- köçkünlərin daimi yaşayış yerlərinə köçürülməsi haqqında BMT TŞ-nin 4 qətnaməsi və sədrin 6 bəyanatına Ermənistan tərəfindən əhəmiyyət verilmir**». Lissabon sammitində ilk dəfə olaraq 54 səsdən 53 səs çoxluğu ilə üç bənddən ibarət qətnamə qəbul olundu: münaqişə tərəflərinin ərazi bütövlüyünün tanınması; Dağlıq Qarabağa Azərbaycanın tərkibində ali özünüidarə statusu verilməsi; Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin olunması. Heydər Əliyevin qətiyyəti, bütün sammitə etdiyi protest nəticəsində əldə edilmiş bu sənəd Dağlıq Qarabağ münaqişəsinin qanun çərçivəsində həlli yolunu ilk dəfə müəyyənləşdirdi. Sülhsevər Azərbaycanın xarici siyasətinin ilk böyük qələbəsi Heydər Əliyevin səyi nəticəsində qazanıldı.

Məhz bu cür prinsipial fəaliyyət nəticəsində müstəqilliyimizin onuncu ildönümündə artıq ölkə həyatının bütün sahələrində aparılan islahatlar öz bəhrəsini vermiş, müstəqil dövlət üçün lazım olan təsisatlar yaradılmış, Azərbaycanın beynəlxalq aləmdə mövqeləri möhkəmləndirilmişdi. Bu barədə danışarkən Heydər Əliyev deyirdi: «**Tarixən çox qısa bir müddət ərzində biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq, çox şeyə nail ola bildik. Biz bütün çətinliklərə baxmayaraq liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolu ilə irəlilədik. Biz insan haqlarının qorunmasını önə çəkdik, vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı sistem yaratdıq. Biz müddəalarının üçdə biri insan haqlarının və əsas azadlıqlarının qorunmasına həsr olunmuş yeni Konstitusiya qəbul etdik. Şərqdə ilk dəfə ölüm hökmünü aradan qaldırdıq, yeni qanunvericilik sistemini yaratdıq, prezident, parlament və bələdiyyə seçkiləri keçirdik. Bir sıra mühüm siyasi və iqtisadi islahat apardıq və aparırıq**».

Bu gün Heydər Əliyev cismən aramızda olmasa da, onun ideyaları, həyata keçirdiyi islahatlar barədə məhz indiki zamanda danışırıq. Azərbaycan tarixində artıq ikinci haldır ki, varislik ənənələri ləyaqətlə qorunur: birinci dəfə Heydər Əliyev XX əsrin əvvəlində yaradılmış ilk müstəqil cümhuriyyətimizin yarımçıq qoyduğu işləri başa çatdırdı-nəinki başa çatdırdı, Azərbaycanın davamlı inkişafını təmin etdi, dövlətimizi dünya birliyinin fəal, nüfuzlu subyektlərindən birinə çevirdi. İkinci dəfə cənab İlham Əliyev 1993-cü ildən təməli qoyulmuş siyasəti uğurla davam etdirərək Azərbaycanı regionun ən qüdrətli dövləti sırasına qaldırdı, Ermənistanın işğalçı simasını beynəlxalq ictimaiyyətə tanıtdı, vətəndaşların rifah halının ildən-ilə yaxşılaşması üçün tədbirlər gördü, ölkənin hərtərəfli inkişafını təmin edən xətt yeritdi. Azərbaycan xalqının tarixi sərvəti və qiymətli irsi olan Heydər Əliyev epoxasının davam etdiyini bütün sahələrdə ilbəil qazanılan uğurlardan görmək olar. 1993-cü ildəki tənəzzüllə müqayisədə tərəqqidən xəbər verən rəqəmlərə istinad etməkdən çəkinməyək: 1995-ci ildən 2003-cü ilədək ümumi daxili məhsulun (ÜDM) həcmi 90 faiz artıbdır. Xarici ticarət dövriyyəsi dörd dəfə çoxalıbdır. Orta əməkhaqqı 6 dəfə, pensiyalar 8 dəfə çoxalıbdır. Bütün maliyyə mənbələri hesabına Azərbaycan iqtisadiyyatına 22 milyard dollar məbləğində sərmayə qoyulubdur. 2004-cü ildə bütün sahələrdə inkişaf müşahidə olunubdur. 110 mindən artıq iş yeri açılıb, ÜDM-də özəl sektorun payı 74 faizə çatıbdır. Əməkhaqqının, təqaüdlərin, digər sosial müavinətlərin vaxtında verilməsi adi hal

alıb. Dövlət daim sosial yönümlü siyasət yürüdür və əhaliyə verilən ödənişlərin məbləği ildən-ilə artır. Özü də bu artım inflyasiyanı üstələyir. Minimum əməkhaqqı az müddət ərzində 45 min manatdan 125 min manata çatıbdır. Ötən il ÜDM-in həcmi 10,2 faiz, əhalinin pul gəliri 20 faiz, orta aylıq əmək haqqı 26 faiz artıbdır. Ölkənin valyuta ehtiyatları 1,8 milyard dolları ötüb keçibdir. Unudulmaz Heydər Əliyevin əsərlərindən biri olan BTC bu il işə salınacaq, Azərbaycana cari ildə daha böyük gəlirlər daxil olacaqdır.

Ümummilli liderimiz həmin günü - Bakı neftinin Ceyhan limanına çatacağı günü səbirsizliklə gözləyirdi və əmin idi ki, həmin anın şahidi olacaqdır. Fikrimcə, xalqların tarixində yüz, min ildə bir dəfə görünən parlaq insanlar Günəşə bənzəyirlər. Zaman onları bizdən nə qədər çox uzaqlaşdırdıqca biz bir o qədər çox onun hərarətini, şəfqətini, qüdrətini, böyüklüyünü hiss edirik. Bu mənada Heydər Əliyev Azərbaycan mövcud olduqca yaşayacaq, öz işıqlı irsi ilə tarixi haqları bərpa olunmuş xalqımızın əbədiyyətə qədər bu ecazkar məmləkətdə firavan həyat sürməsini təmin edəcəkdir.

HEYDƏR ƏLİYEV İRSİ VƏ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN TƏMƏL PRİNSİPLƏRİ

ZİYAFƏT ƏSGƏROV
Milli Məclis sədrinin müavini,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEV VƏ HÜQUQİ DÖVLƏT QURUCULUĞUNUN ƏSAS PRİNSİPLƏRİ

Tarix zəif və aciz xalqları sevmir. Çünki, zəif və acız xalqlar güc və zor qarşısında diz çökərək göz yaşları ilə tarıxın səhifələrinə bədnamlıq yazırlar. Tarix mübariz və qəhrəman xalqları sevir. Çünki, həmin xalqlar tarixi yaşadır və onun səhifələrinə şərəf salnaməsi yazırlar. Xalqın qəhrəmanlığı isə onun ayrı-ayrı tarixi şəxsiyyətlərinin xalqın mübarizə yolunda göstərdiyi şücaətlərində və qəhrəmanlıqlarında öz ifadəsini tapır. Bu, xüsusilə milli dövlətin təşəkkülü və qurulması prosesində özünü daha bariz göstərir. Dövlət müstəqilliyini əldə etdikdən sonra hər bir xalq qarşısında duran başlıca vəzifə milli dövlətini qurmaq və onu inkişaf etdirməkdir. Tarixi təcrübə onu göstərir ki, milli dövlət quruculuğunda konkret tarixi şəxsiyyətlərin rolu əvəzsizdir. Milli dövləti qurmaq, hər şeydən əvvəl milli maraqlar və məqsədlər ətrafında xalqın ümumi iradəsini səfərbər etməyi, bu iradəni onun varlığını yaşatmaq və təhlükəsizliyini təmin etmək istiqamətinə yönəltməyi tələb edir. Bu şərəfli və çətin bir vəzifənin həyata keçirilməsi isə görkəmli şəxsiyyətlərin iştirakı olmadan qeyri-mümkündür. Bu baxımdan müasir Azərbaycan dövlətinin qurulmasında Heydər Əliyev şəxsiyyəti müstəsna rola malikdir. Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur.

Müasir Azərbaycan dövlətinin qurulması heç də asan bir iş deyildir. Bu, ən azı dünyada mövcud siyasi reallıqların, siyasi qüvvələr nisbətinin, hamılıqla qəbul olunmuş bəşəri dəyərlərin nəzərə alınmasını və onların əsrlərlə Azərbaycan xalqının yaddaşında kök salmış milli-mənəvi dəyərlər ilə uzlaşmasını təmin etməyi tələb edirdi. Bu yerdə Heydər Əliyevin 2001-ci il yanvarın 25-də Strasburqda Avropa Şurasının binası önündə Azərbaycan Respublikasının dövlət bayrağının ucaldılması münasibəti ilə söylədikləri fikirləri yada salmaq yerinə düşərdi: **"Tarixi yolların qovuşuğunda yerləşən ölkəmizin Avropa Şurasına qəbul olunması həm**

Azərbaycan üçün, həm də bu təşkilat üçün çox mühüm hadisədir. Biz Ümumavropa dəyərləri xəzinəsinə öz töhfəmizi gətirməyə hazırıq. Bu töhfələr həm Avropada demokratik sabitliyin möhkəmləndirilməsinə, həm də avropalıların Şərq xalqlarının tarixi taleyini daha yaxşı və daha dərindən dərk etməsinə kömək edəcəkdir.

Bu, bir tərəfdən, qabaqcıl demokratik ideyaların, hüquqi baxışların yayılması, digər tərəfdən isə bütün xalqların milli-mənəvi xüsusiyyətlərinə hörmət bəslənilməsi üçün yaxşı zəmin olacaqdır...”

Göründüyü kimi, yuxarıda qeyd edilən məsələlərin həlli xalqın varlığını özündə təcəssüm etdirən Heydər Əliyev zəkası və müdrikliyi olmadan mümkün deyildir.

Azərbaycan Respublikası Ali Sovetinin sədri kimi ilk çıxışında Heydər Əliyev demişdir: **“Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanunun pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikamız bir sənə bundan öncə başladığı yola davam etməlidir. Bu, düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq olacağam”.**

Məhz bu çıxışında Heydər Əliyev Azərbaycanda hüquqi dövlətin qurulmasının təməl prinsiplərini müəyyən etmişdir. Həmin prinsiplər aşağıdakılardır:

tarixi varisliyin qorunması;
demokratiyanın inkişafı;
siyasi plüralizm;
qanunçuluq;
iqtisadiyyatda sərbəstlik (mülkiyyətin müxtəlif formalarına əsaslanan bazar iqtisadiyyatının inkişafı);
azadlıq;
insan hüquq və azadlıqlarının qorunması.

Bu günümüzün müstəqil Azərbaycan Respublikası XX əsrin əvvəllərində təşəkkül tapmış Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Əsrin əvvəllərində dünya siyasətində aparıcı rol oynayan və dünya siyasətinə təsir edə bilən dövlətlər arasındakı strateji maraqların təsir dairəsinin bölüşdürülməsi zamanı mövcud fikir ayrılığı nəticəsində başlanan Birinci dünya müharibəsi, Rusiyada sovet hakimiyyətinin qurulması və Rusiya imperiyasının parçalanması ilə bağlı siyasi şərait Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) yaranmasında mühüm rol oynamışdır. Varislik prinsipinin səciyyəvi xüsusiyyətləri haqqında Heydər Əliyev demişdir: **“Azərbaycan Xalq Cümhuriyyəti az müddət yaşayıbdır. Ancaq o, XX əsrdə Azərbaycan xalqının həyatında tarixi bir mərhələ olub və xalqımızın gələcəyinin, müstəqilliyinin, azadlığının, suverenliyinin təməlini qoyubdur.**

... Azərbaycan Respublikasının Milli Məclisi Xalq Cümhuriyyətinin yaratdığı parlamentin indi də varisidir. Varislik həmişə, eyni zamanda, böyük məsuliyyət demək olubdur. Varislik o demək deyil ki, sən o hadisəni olduğu kimi təkrar edəsən, yaxud o səviyyədə yaşayasan. Hər bir varis varislik prinsipini əziz tutaraq o dövrün, o hadisənin varisi olaraq o hadisəni, o dövrü, o quruluşu daha da yüksəklərə qaldırmalıdır...”

Sağlam vətəndaşları yalnız sağlam cəmiyyətdə yetişdirmək mümkündür. Ən böyük tərbiyəçi düzgün və ədalətli quruluşa malik cəmiyyət ola bilər. Çünki vətəndaşların tərbiyəsində cəmiyyətin formalaşdırdığı psixoloji, siyasi, mədəni və digər amillərin rolu əvəzsizdir. Cəmiyyət millətin ruhunu əks etdirən bir aynadır. Bu aynaya baxmaqla biz millətin yaxşı və pis cəhətlərini görə bilərik.

Demokratiya bu gün dünyanın ikişaf strategiyasının əsasını təşkil edən ən əhəmiyyətli siyasi-hüquqi kateqoriyadır. Məhz, ona görədir ki, Azərbaycan Respublikası Konstitusiyasının preambulasında «demokratik quruluşa təminat vermək» ifadələri işlədilmişdir. Həmin ifadələrlə, hər şeydən əvvəl, demokratik prinsiplər əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının formalaşmasında, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsində dövlət qarşısında duran və yerinə yetirilməli olan vəzifələr əhatə olunur.

Demokratiya son dərəcə geniş bir anlayışdır. O, cəmiyyətin siyasi sisteminə nüfuz edərək dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının

təşkili və fəaliyyəti prinsipi kimi, siyasi rejim, ən nəhayət, insan və vətəndaşın hüquqi vəziyyəti kimi təzahür edir. O, siyasi hakimiyyətlə, cəmiyyətin siyasi sistemi ilə bağlı olan və müasir dünyada strateji əhəmiyyəti ilə seçilən ictimai - siyasi rejimdir. Siyasi kateqoriya kimi demokratiyanın inkişaf səviyyəsi ölkə əhalisinin dövlət işlərində, ölkənin siyasi həyatında nə dərəcədə fəal iştirak etməsi və ölkədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının nə dərəcədə müdafiə olunması ilə ölçülür. Yalnız demokratik cəmiyyətə xas olan hüquq prinsiplərini tanıyan, həmin prinsipləri təmin və müdafiə edən, habelə öz fəaliyyətində hüququ rəhbər tutan və insan hüquqlarını və azadlıqlarını təmin etməyi özünün başlıca məqsədi hesab edən dövlət hüquqi dövlət hesab edilə bilər.

Hüquqi dövlətin formalaşması asan bir proses olmayıb, ictimai şüurda və psixologiyada böyük keyfiyyət dəyişikliklərini tələb edir.

Qanunun aliliyinin və ictimai həyatın bütün sahələrində qanunçuluğun təmin edilməsi, hakimiyyətin bölünməsi prinsipinin həyata keçirilməsi, dövlət hakimiyyəti orqanları tərəfindən vətəndaşların hüquqlarının və azadlıqlarının qorunması, o cümlədən vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq hüquqi dövlətin ən başlıca əlamətlərindən biridir.

Hüquqi dövlət quruculuğu prosesində qanunçuluq prinsipi xüsusi əhəmiyyəti ilə seçilir. **"...Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanunun pozulmasına yol verilməməlidir".** Bu sözlərlə qanunçuluq prinsipinin əsas mahiyyəti kifayət qədər açıqlanmışdır. Qanunçuluq hər kəs tərəfindən normativ hüquqi aktların dəqiq və dönmədən əməl olunmasında və həyata keçirilməsində ifadə olunan hüquqi rejimdir.

Qanunçuluq əsasən aşağıdakı məsələləri özündə ehtiva edir:

1) qanunların və digər normativ hüquqi aktların qəbul edilməsi;

2) qanunların icra edilməsi və onlara əməl olunması;

3) qanunların icrasına nəzarətin həyata keçirilməsi.

Bir çox hüquq ədəbiyyatlarında qanunların qəbul edilməsi qanunçuluq prinsipi ilə əhatə olunmur və o, bu prinsipdən ayrı izah edilir. Azərbaycanın dövlət müstəqilliyinin son on ilində hüquqi dövlət quruculuğu prosesində doğan təcrübə onu göstərir ki, qanunların və digər normativ hüquqi aktların qəbul edilməsi qanunçuluğun əsas tərkib hissəsi olub onunla üzvi surətdə bağlıdır. Müstəqillik əldə etdikdən sonra milli maraqların qorunması dövlətin başlıca vəzifələrindən biri olmuşdur. Bu sahədə qanunçuluğun təmin edilməsi Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının, daha sonra isə "Milli Təhlükəsizlik haqqında" Azərbaycan Respublikası qanunlarının qəbul edilməsinə gətirib çıxartmışdır. Bu qanunlar qəbul edilmədiyi vaxtda belə ayrı-ayrı normativ hüquqi aktlarda öz əksini tapmış milli maraqlar qanunçuluğun təsiri altında idi. Lakin qanunçuluğun təsir qüvvəsi xüsusi xarakter daşıyan müvafiq normativ hüquqi aktların qəbul edilməsini şərtləndirirdi.

Beləliklə, qanunçuluq normativ hüquqi tənzimlənməsinə ehtiyac duyulan ictimai münasibətlərin aşkar edilməsi və hüquqi dəna salınması prosesini də ehtiva edən siyasi-hüquqi prosesdir.

Qanunların icrası üzərində nəzarət dövlət hakimiyyəti orqanlarının təkcə qanunların icrasına deyil, həm də bu icra üzərində nəzarətə əsaslanan fəaliyyətində tapır. Qanunçuluğun məzmununa dövlət orqanlarının yalnız vəzifələrə əməl etməsi və onların icrası deyil, həm də qanunların yerinə yetirilməsi üzərində nəzarət daxildir.

Demokratiyanın mühüm ünsürlərindən biri cəmiyyətdə söz azadlığına, mətbuat azadlığına yer verilməsi, siyasi plüralizmin təmin edilməsidir. Siyasi plüralizm cəmiyyətin dinamik inkişafına təkan verir, hamının rəyi əsasında dövlət əhəmiyyətli məsələlərin həllinə imkan yaradır. Cəmiyyətin siyasi sistemində xüsusi rola malik olan siyasi partiyalar siyasi hakimiyyətin formalaşmasında iştirak edir, cəmiyyətdə bu və ya digər məsələlər barəsində müxtəlif rəylərin formalaşmasına öz təsirini göstərir. Bu haqda Heydər Əliyev belə demişdir: **"Azərbaycanda siyasi plüralizm varsa, deməli, siyasi müxalifət olmalıdır. Siyasi müxalifətin olması hər bir dövləti həm totalitarizmdən xilas edər, həm də dövlət siyasətinin aparılmasında dövləti daha da sayıq saxlayar".**

Müasir dövrdə vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasında və onların müdafiəsində siyasi sistemin ən əhəmiyyətli institutu kimi dövlətin rolu əvəzedilməzdir. Dövlətin ali vəzifəsi vətəndaşlarının rifahının və sosial vəziyyətinin yaxşılaşdırılması, onların hüquqlarının və azadlıqlarının təmin olunması olduğu kimi, vətəndaşların da başlıca vəzifəsi dövlət orqanları tərəfindən müəyyən edilmiş qaydalara əməl etməkdir. Dövlətlə onun vətəndaşları arasında qarşılıqlı münasibətlərin bu şəkildə qurulması hüquqi dövlətin və vətəndaş cəmiyyətinin əsas tələblərindəndir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci

maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin alı məqsədi kimi təsbit olunmuşdur. İnsan və vətəndaş hüquqlarına və azadlıqlarına verilən belə yüksək qiymət, hər şeydən əvvəl, Azərbaycan dövlətinin bəşəri dəyərlərə sadiqliyindən və inkişaf etmiş dünya dövlətləri sistemində özünə layiqli yer tutmaq niyyətindən irəli gəlir.

Bu gün hamılıqla qəbul edilmiş bir həqiqətdir ki, hansı ölkədə yaşamasından asılı olmayaraq insan hüquqları beynəlxalq hüququn müdafiəsi altındadır və o, bütün bəşəriyyətin nailiyyətidir. İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi müasir Azərbaycanın dövlət quruculuğu prosesinin aşağıda qeyd edilən hər bir dövründə diqqət mərkəzində olmuşdur. İnsan hüquq və azadlıqlarının qorunması və təmin edilməsi ilə bağlı bəşəriyyətin verdiyi önəmi düzgün qiymətləndirərək Heydər Əliyev demişdir: **"Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malik olmalıdır".**

Müasir Azərbaycan dövlətinin quruculuğu prosesini şərti olaraq üç dövrə bölmək olar:

1) birinci dövr (1991-1993-cü illər);

2) ikinci dövr (1993 iyun -1995-ci illər);

3) üçüncü dövr (1995-ci ildən bu günə qədər).

Azərbaycan tarixində mövcud olmuş **birinci dövrü** siyasi romantizm dövrü adlandırmaq olar. Bu dövrdə demək olar ki, dövlət quruculuğu sahəsində heç bir iş görülməmişdir. İctimai həyatın bütün sahələrinin islahatlara ehtiyacı olduğu bir vaxtda hakimiyyət daxilində mövcud çəkişmələr bu islahatların aparılmasının qarşısını alırdı. Bu dövr həyati reallıqlar ilə uzlaşmayan, hələ vaxtı yetişməyən və həyata keçirilməsi çətin olan siyasi məqsədlərin və ideyaların geniş kütləyə təlqin etdirilməsi ilə xarakterizə olunurdu.

1992-ci ildə xalqın mövcud siyasi hakimiyyətə qarşı barışmaz müqaviməti Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəlişinə real şərait yaratdı. Lakin bu hakimiyyətin ömrü aşağıdakı səbəblərdən çox uzun sürmədi və sürə də bilməzdi. **Birincisi,** yeni ictimai-siyasi quruluş köklü siyasi, iqtisadi və inzibati islahatların aparılmasını tələb edirdi. **İkincisi,** dövlət hakimiyyəti orqanlarında qərar tutan AXC kadrlarının inzibati idarəçilik

təcrübələrinin olmaması dövlətin qarşısında duran strateji vəzifələrin yerinə yetirilməsi işini çətinləşdirirdi. **Üçüncüsü,** xalqın etibarını qazanan və onun iradəsini milli maraqlar və məqsədlər ətrafında səfərbər etməyə qadir olan ümummilli liderin olmaması.

Azərbaycan dövlətinin quruculuğu prosesinin **ikinci dövrü** (1993 iyun - 1995-ci illər) ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ilin iyun ayının 9-da Bakıya qayıdışı və onun daha sonra Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi vaxtı ilə üst-üstə düşməklə Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edilməsi dövrünü əhatə edir. Bu dövrün siyasi mənzərəsinin daha aydın başa düşülməsi məqsədi ilə Heydər Əliyevin aşağıdakı sözlərini yada salmaq yerinə düşərdi: **"Əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər mübarizə aparacağam. Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir Prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram".** Şübhəsiz, bu sözləri yalnız millətinə və xalqına bağlı olan böyük dövlət adamı söyləyə bilərdi.

Bu dövrün əsas vəzifəsi aşağıdakı məsələlərin həllinə istiqamətlənmişdir:

1) Azərbaycanın dövlət müstəqilliyini qorumaq;

2) vətəndaş müharibəsi təhlükəsinin olduğu bir zamanda dövlət aparatında inzibati idarəetmənin normal fəaliyyətini təmin etmək;

3) mövcud daxili və xarici təhlükələrdən milləti və dövləti qorumaq;

4) ölkənin iqtisadi, siyasi və digər sahələrində formlaşmaqda olan yeni ictimai münasibətlərin tələblərinə cavab verən normativ hüquqi baza yaratmaq.

Son dövrün tarixi onu göstərir ki, Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərlik etdiyi bu dövrdə yuxarıda qeyd edilən vəzifələr şərəflə yerinə yetirilmiş, Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının işlənib hazırlanması və qəbul edilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Yeni Konstitusiyanın işlənib hazırlanması və qəbul edilməsi müstəqillik əldə etdikdən sonra Azərbaycan dövlətinin qarşısında duran ən başlıca vəzifələrdən biri olmuşdur. Bu məqsədlə 1991-ci il fevralın 9-da Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikası Konstitusi-

yasının yeni layihəsinin işlənib hazırlanması haqqında" qərar qəbul etmişdir. Daha sonra, yəni 1993-cü il dekabrın 6-da "Azərbaycan Respublikasının ilk milli Konstitusiyası layihəsinin hazırlanması haqqında" Azərbaycan Respublikası Milli Məclisinin daha bir qərarı qəbul edilmişdir. Lakin adı çəkilən qərarlarda Konstitusiya layihəsini hazırlayan komissiyaların yaradılmasına və onların tərkibinin təsdiq edilməsinə baxmayaraq, dövlət rəhbəri səviyyəsində buna layiqincə diqqət yetirilməməsi, dövlət quruculuğu prosesində Konstitusiyanın müstəsna rolunun başa düşülməməsi həmin komissiyaların fəaliyyətini heçə endirmişdir.

Bütün bunları nəzərə alaraq, ümummilli liderimiz Heydər Əliyevin son bir neçə ildə apardığı müdrik daxili və xarici siyasətin nəticəsi kimi Azərbaycan Respublikasının Milli Məclisi 1995-ci il mayın 2-də Azərbaycan Respublikasının Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibini müəyyən edən yeni qərar qəbul etmişdir. Həmin qərara uyğun olaraq ümummilli liderimiz Heydər Əliyev Komissiyanın sədri olmuşdur. Komissiyanın tərkibi sədr müavinindən və 32 üzvdən ibarət idi. İşin həcmi, əhəmiyyəti nəzərə alınmaqla, o cümlədən ayrı-ayrı vətəndaşlar, təşkilatlar və dövlət orqanları tərəfindən daxil olan təkliflərin dərindən öyrənilməsi məqsədi ilə Komissiyanın 1995-ci il 5 iyun tarixli qərarı ilə işçi qrupu yaradılmışdır. Aparılan bu böyük işin yekunu olaraq yeni Konstitusiya layihəsi 1995-ci il oktyabrın 15-də ümumxalq müzakirəsinə çıxarılmış, 1995-ci il noyabrın 12-də isə müstəqil və suveren Azərbaycan Respublikasının ilk milli Konstitusiyası ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş və bununla da müasir Azərbaycan dövlətinin quruculuğu prosesinin ikinci dövrü uğurla başa çatmışdır.

Ölkənin düşdüyü ağır vəziyyət – ölkə daxilində vətəndaş qarşıdurması və Ermənistan Respublikası ilə müharibə vəziyyəti dövlət quruculuğu prosesinə öz mənfi təsirini göstərməyə bilməzdi. Dövlət müstəqilliyini və ölkənin ərazi bütövlüyünü qorumaq dövlət rəhbərliyi qarşısında başlıca vəzifə olaraq qalmaqda idi. Bütün bunlar nəzərə alınmaqla bu dövrdə "Sərhəd qoşunları haqqında", Hərbi vəziyyət haqqında" "Daxili qoşunların statusu haqqında", "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin İntizam nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Qarnizon və Qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Daxili Xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir.

Bu dövrü xarakterizə edərkən Heydər Əliyev demişdir: **"1995-ci ilə qədər ölkə bu gərgin proseslərin içərisində, ağır vəziyyətdə yaşayırdı. Belə bir ağır dövrdə biz Azərbaycanın müstəqilliyini elan etdiyi zaman verdiyi bəyanatı əsas götürdük. Çünki, bu bəyanat bizim ürəyimizdən gələn bəyanat idi. Ona görə də bütün çətinliklər içərisində dövlət quruculuğu prosesini apardıq".**

Azərbaycanda dövlət quruculuğu prosesinin **üçüncü dövrü** 1995-ci ildən - Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edildiyi gündən yaşadığımız günlərə qədər davam etməkdədir. Bu dövrün qarşısında duran strateji vəzifələri xarakterizə edərkən Heydər Əliyev söyləmişdir: **"1995-ci ildə ilk Konstitusiyanın qəbul edilməsi, ilk dəfə demokratik şəraitdə ali qanunvericilik orqanının seçilməsi Azərbaycanın gələcəyi üçün ən böyük əsaslardan oldu.**

Ondan sonrakı dövr Azərbaycanda qanunçuluğun, demokratiyanın, iqtisadiyyatın inkişaf etdirilməsi və bunların hamısının nəticəsində Azərbaycanda ictimai-siyasi vəziyyətin ilbəil sabitləşməsi dövrüdür. Bunlar bugünkü reallıqlardır".

Azərbaycan Respublikasının Konstitusiyası hüquqi dövlət quruculuğu prosesinin normativ hüquqi özəyi olmaqla Heydər Əliyev tərəfindən söylənilmiş təməl prinsipləri özündə əks etdirmişdir. İctimai həyatın bütün sahələrinə nüfuz edən bu Ana Qanun dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin əsaslarını və statusunu müəyyən edərək hüquqi dövlət quruculuğu prosesinə böyük təkan vermiş oldu. Bu barədə Heydər Əliyev demişdir: **"Azərbaycanda müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi 1995-ci ildən böyük vüsət aldı. Bunun əsasını da Azərbaycanın qəbul etdiyi Konstitusiya təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçilik möhkəmlənib, demokratik prinsiplər bərqərar olubdur".**

Əvvəlki dövrlərdən fərqli olaraq bu dövrdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən çoxlu sayda qanunlar qəbul edilmişdir. Əgər 1993-cü ilin iyun ayından başlayaraq 1995-ci ilin noyabr ayınadək cəmi 70 qanun qəbul edilmişdirsə, təkcə 1996-cı ildə 157 qanun qəbul edilmişdir. Ümumiyyətlə, 1996-cı ildən bu günədək Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 1476 qanun qəbul edilmişdir. Bu dövrdə Azər-

baycanda hüquqi dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi iqtisadi, siyasi və məhkəmə-hüquq islahatlarının hüdudları və sürəti haqqında təsəvvür əldə etmək üçün aşağıdakı illərdə qəbul edilən qanunların sayını nəzərdən keçirək:

1996-cı il – 157 qanun;
1997-ci il – 177 qanun;
1998-ci il – 161 qanun;
1999-cu il – 154 qanun;
2000-ci il – 168 qanun;
2001-ci il – 173 qanun;
2002-ci il – 146 qanun;
2003-cü il – 127 qanun;
2004-cü il – 223 qanun.

Qəbul edilən qanunlar ictimai həyatın müxtəlif sahələrinə toxunmaqla hüquqi dövlət quruculuğu işinə öz töhfələrini verməkdədir. Hüquq - məhkəmə islahatlarının həyata keçirilməsi, dövlət hakimiyyəti orqanlarının hüquqi statusunun dövlət hakimiyyətinin bölünməsi nöqteyi-nəzərindən müəyyən edilməsi yuxarıda göstərilən qanunların başlıca məqsədlərindən biri olmuşdur. Heydər Əliyevin təbirincə desək: **"Hər bir qanunun arxasında Azərbaycanda dövlət quruculuğunu təmin etmək, iqtisadi islahatları həyata keçirmək, siyasi islahatları həyata keçirmək, sosial islahatları həyata keçirmək məsələləri durur".**

Dövlət quruculuğu prosesinin bu dövründə xüsusi əhəmiyyəti ilə seçilən bir sıra qanunlar qəbul edilmişdir. Həmin qanunlar aşağıdakılardır:

İqtisadi və aqrar sahədə - "Dövlət büdcəsi haqqında", "Azərbaycan Respublikasının milli bankı haqqında", "Azərbaycan Respublikasında bank və bank fəaliyyəti haqqında", "Təbii inhisarlar haqqında", "Kiçik sahibkarlığa dövlət müdafiəsi haqqında", "Mahiyyə-sənaye qrupları haqqında", "Müflisləşmə və iflas haqqında", "Qiymətli kağızlar haqqında", "Tender haqqında", "Müəlliflik və əlaqəli hüquqlar haqqında", "Torpaq islahatı haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Meliorasiya və irriqasiya haqqında", "Torpaq vergisi haqqında", "Toxumçuluq haqqında" və s.

Sosial və mədəni sahədə - "Sığorta haqqında", "Sosial sığorta haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Ahıllara sosial xidmət haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında" və s.

Məhkəmə və hüquq mühafizə orqanlarının fəaliyyəti sahəsində - "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Ədalət mühakiməsinin rəsmi embleması haqqında", "Hakimlərin xüsusi geyimi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Polis haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" və s.

Bu dövrdə aparılan məhkəmə-hüquq islahatlarının və hüquq sisteminin inkişafı aşağıdakı məcəllələrin qəbul edilməsini şərtləndirmişdir: Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Vergi Məcəlləsi, Gömrük Məcəlləsi, Mülki Məcəlləsi, Mülki Prosessual Məcəlləsi, Əmək Məcəlləsi, Ailə Məcəlləsi, Seçki Məcəlləsi.

Bu dövrdə həyata keçirilən dövlət quruculuğu prosesinin əhəmiyyətli xüsusiyyətlərindən biri yerlərdə yerli özünüidarəetmə orqanlarının yaradılması və fəaliyyət göstərməsi sahəsində "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyələrin Nümunəvi Nizamnaməsi", "Bələdiyyə qulluğu haqqında" və sair mühüm qanunların qəbul edilməsidir.

Yerli özünüidarəetmə cəmiyyətin idarə olunmasında vətəndaşların iştirakının formalarından biridir. Bilavasitə yerli əhalinin iradəsi zəminində formalaşan və real səlahiyyətlərə malik olan yerli özünüidarəetmə orqanlarının əhəmiyyəti ondan ibarətdir ki, bu orqanların köməyi ilə yerli əhalinin maraqlarını təmin edən məsələlərin həllinə yönəlmiş qərarların qəbulunda onların birbaşa və ya öz nümayəndələrinin vasitəsi ilə iştirakına hüquqi təminat verilir.

Yerli özünüidarəetmə orqanları yaradılarkən Avropa dövlətlərinin bu sahədə mövcud təcrübəsi öyrənilmiş və yerli özünüidarəetmə orqanlarının

statusu Azərbaycan reallıqları nəzərə alınmaqla müəyyən edilmişdir. Heydər Əliyevin sözləri ilə desək: **"Dövlət qurulduqca tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir".**

Bələdiyyələrin yaradılmasımasında başlıca məqsəd ölkədə əsası qoyulmuş demokratik prinsiplərin yerlərdə inkişafını təmin etmək, onu daha da dərinləşdirmək olmuşdur.

Bu dövrdə qəbul edilən qanunların əhəmiyyətini qeyd edərkən Heydər Əliyev söyləmişdir: **"Bu qanunlar Azərbaycanda müstəqil dövlətin inkişafı, iqtisadi islahatların aparılması üçün, qanunun aliliyini təmin etmək, hüquqi dövlət yaratmaq üçün çox əhəmiyyətli olmuşdur".**

Dövlət quruculuğu prosesinin son dövrü ictimai həyatın bütün sahələrinin hüquqi tənzimlənməsi işinin əsasən tamamlanması ilə xarakterizə etmək olar. Bu dövr haqqında Heydər Əliyev belə söyləmişdir: **"Azərbaycanın keçmiş sosialist ictimai-siyasi, iqtisadi sistemindən yeni sistemə keçirmək prosesini biz bu illərdə apardıq və buna nail olmuşuq".**

Tarixi şəxsiyyətlər milləti onun düşdüyü ən ağır sınaqlardan şərəflə çıxardaraq yaşatdığı kimi, millət də öz böyük şəxsiyyətini yaşatmağa, onun adını uca tutmağa borcludur. Azərbaycan xalqı xoşbəxtdir ki, onun taleyi tarixin ən ağır sınaqlarından onu şərəflə çıxardaraq dünyaya tanıdan, onu yaşadan böyük bir şəxsiyyətin - Heydər Əliyevin adı ilə bağlı olmuşdur.

ƏLİ HÜSEYNOV
Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının sədri

HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏTİN BANİSİDİR

Bəşər tarixinin ən qüdrətli dövlət və siyasət adamları, dahi və müdrik şəxsiyyətləri sırasında layiqli yer tutan ümummilli liderimiz, böyük öndərimiz Heydər Əliyevin zəngin irsi müstəqil Azərbaycan dövlətinin inkişafı və tərəqqisi yolunun etibarlı bələdçisi olmaqla, indiki və gələcək nəsillər üçün əvəzsiz sərvət, böyük qürur və iftixar mənbəyidir. Bu irsi öyrənmək və təbliğ etmək bizim hər birimizin məsul və şərəfli borcudur.

XX-XXI əsrlərin qovuşuğunda otuz ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi dahi və uzaqgörən şəxsiyyət, öz xalqını və vətənini canından artıq sevən ən böyük azərbaycanlı, şərəfli adı bizim üçün həmişə əziz və unudulmaz olan Heydər Əliyevlə bağlı olmuşdur. Bu illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının yüksəlişi ilə əlamətdar olmuşdur. Bütün həyatını və siyasi fəaliyyətini böyük tarixi keçmişi və zəngin mədəniyyəti ilə fəxr etdiyi xalqının və vətəninin tərəqqisinə həsr etmiş Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxaraq, ölçüyəgəlməz irəliləyişə nail olmuşdur. Çoxəsrlik dövlətçilik tariximizdə müstəsna yeri olan ümummilli liderimizin fəaliyyəti təkcə Azərbaycan üçün deyil, həm də postsovet məkanı üçün mühüm əhəmiyyət daşımaqla yanaşı, dünya miqyasında gedən proseslərə də təsir göstərmişdir.

...1969-cu ilin iyulunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Xalqımızın mənəvi-əxlaqi dəyərlərinə söykənən geniş miqyaslı tədbirlər həyata keçirilməsi sayəsində insanlarda nəinki milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi, həmçinin, onların ictimai fəallığının və işgüzarlığının yüksəlməsinə təkan verdi. Milli qürur hissinin güclənməsi, milli şüurun yüksəlməsi sosial-iqtisadi və mədəni həyatın bütün sahələrinin dirçəlişi üçün zə-

mün oldu. Bu, xalq ruhuna dərindən bələd olan respublika rəhbərinin təşəbbüskarlığının və uzaqgörənliyinin nəticəsi idi. Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan verdi. Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyi, beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyası hələ 1970-1980-ci illərdə təməli Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.

XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərlə sadıq müstəqil bir dövlət kimi formalaşması böyük öndərimizin titanik siyasi fəaliyyətinin nəticəsi, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə onun hakimiyyətə qayıdışının bəhrəsidir.

Dünya siyasətinin tanınmış simalarından biri, Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəl "Qardaşım, dostum prezident Heydər Əliyev" məqaləsində ümummilli liderimizin həmin dövrdəki tarixi missiyasını çox düzgün ifadə edərək yazmışdır: "Çörçill ingilis millətinə 40 il xidmət etdi, ancaq bu xidmətin sonunda, 1940-cı ildə lazım oldu. O zaman Çörçillin edəcəyi xidməti göstərəcək ikinci adam yox idi. Bəşər tarixində insanlar hər zaman millətinə xidmət edir, ancaq bəzən lazım olurlar. Ruzveltin 1942-ci ildə, De Qollun 1958-ci ildə, Adenauerin 1946-cı ildə lazım olduğu kimi... Hörmətli Heydər Əliyev Azərbaycan millətinə çox xidmət etmişdir, amma 1993-cü ildə lazım idi. Onun gördüyü işi görəcək başqa heç kim yox idi. Yaxşı ki, O, vardı! Biz belə düşündük və haqlı çıxdıq!"

Hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının əsas istiqaməti kimi müəyyənləşdirdi.

"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin onuncu ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 mart 2001-ci il tarixli fərmanında deyilir: "Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini əldə etməsi keçmiş SSRİ-də və bütün dünyada 80-ci illərin ortalarından başlayaraq gedən ictimai-siyasi proseslərin labüd nəticəsi idi. Bu obyektiv tarixi gerçəklik SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarix səhnəsindən çəkilməsinə və nəticə etibarilə müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxardı. Bunun ardınca yeni müstəqil dövlətlərin, eləcə də Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması beynəlxalq hüquq normalarının qanuni təzahürü oldu".

Həmin dövrdə həlli vacib olan məsələlərdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan müharibəsinin gedişinə təsir göstərə biləcək qəti addımlar atılması idi. Bunsuz ölkənin ərazi bütövlüyünü qorumaq, daxili ictimai sabitliyə nail olmaq mümkün deyildi. Milli Ordunun döyüş qabiliyyətinin artırılması və geniş miqyaslı müdafiə tədbirlərinin həyata keçirilməsi, döyüşçülərdə yaranan ruh yüksəkliyi sayəsində düşmənə qarşı bir neçə uğurlu hərbi əməliyyat aparıldı. Belə şəraitdə beynəlxalq qüvvələrin təsiri altında münaqişə tərəfləri atəşi dayandırmaq barədə razılığa gəldilər. Bu barədə saziş 1994-cü ilin mayında imzalandı və münaqişənin dinc vasitələrlə aradan qaldırılmasına prioritet istiqamət sayıldı. Ötən on bir ildə bu istiqamətdə göstərilən səylər konkret nəticə verməsə də, atəşkəs rejimi Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirən amillərdən biri olmuşdur.

Belə bir faktı qeyd etməyə dəyər ki, Heydər Əliyevin ölkə iqtisadiyyatında köklü dəyişikliyə gətirib çıxaran və müstəqil dövlətimizə beynəlxalq nüfuz qazandıran yeni neft strategiyasının həyata keçirilməsinə məhz atəşkəsdən sonra başlanıldı və 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı.

Lakin müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın bünövrəsinin qoyulması Azərbaycanı yenidən anarxiya və başıpozuqluq girdabına salaraq, bundan öz mənfəətləri naminə istifadə etmək istəyən daxili və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlərin göstərilməsi müstəqil dövlətçiliyimiz növbəti sınaqlar oldu. Azərbaycan Prezidenti Heydər Əliyevin qətiyyəti, xalqın öz qüdrətli liderini qızğın

şəkildə dəstəkləməsi nəticəsində bu təhlükəli cəhdlərin qarşısı alındı, ölkədə hakimiyyəti zor və silah gücünə ələ keçirmək ənənəsinə birdəfəlik son qoyuldu.

1993-1995-ci illər müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılmışdır. İctimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti oldu və ümummilli liderimizə dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq, geniş miqyaslı və ardıcıl islahatlar aparmaq üçün əlverişli imkan yaratdı.

Böyük öndərimiz yaxşı bilirdi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Konstitusiyanın – Əsas Qanunun rolu qat-qat artır.

Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirilməsi ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi həmin il noyabrın 12-də keçirilən referendumda – ümumxalq səsverməsində qəbul edilmişdir. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında (Əsas Qanununda) yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər fundamental hüquq və azadlıqları öz əksini tapmışdır.

Ölkəmizdə müasir dövlət quruculuğunun həyata keçirilməsinin, bəşəri-demokratik dəyərlərə uyğun dövlətçilik təsisatları və cəmiyyət modeli formalaşdırılmasının hüquqi əsasları yarandıqdan sonra Azərbaycanın müstəqilliyi möhkəmləndirildi, əbədi və dönməz xarakter almışdır.

1995-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövlət olmaqla, dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, gərgin zəhməti və təşəbbüskarlığı, yaradıcı dühası və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi.

Bu illərdə Konstitusiyada təsbit olunmuş hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi formalaşmış, icra, qanunvericilik və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir. Ölkəmizdə müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin, kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün yaradılmış şərait həqiqi memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimizdə siyasi plüralizmin, fikir azadlığının, demokratiyanın bərqərar olduğunu bariz şəkildə təsdiqləyir. Ümummilli liderimiz vicdan və azadlıqlarının təmin edilməsini, tolerantlıq mühitinin formalaşmasını əsl vətəndaş cəmiyyətinin formalaşdırılması üçün mühüm amil sayırdı və respublikaya rəhbərliyi dövründə bu amilləri dövlət həyatının ayrılmaz hissəsinə çevirmişdir. Heydər Əliyevin bilavasitə təşkilatçılığı və rəhbərliyi ilə ölkəmizin məhkəmə-hüquq sistemi beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulmuşdur. Bu sahədə aparılan islahatlar hüquqi dövlət quruculuğunun uğurla həyata keçirilməsi, ölkəmizdə insan hüquqlarının təmin edilməsi və qorunması üçün böyük əhəmiyyət kəsb etmişdir.

Böyük öndərimizin ölkəyə rəhbərliyi dövründə dövlət quruculuğunda, insan hüquqları və azadlıqlarının təmin edilməsi yolunda mühüm işlər görülməsi ilə yanaşı, digər istiqamətlərdə də möhtəşəm nailiyyətlər qazanılmışdır. Möhkəm maddi-texniki bazaya və yüksək döyüş qabiliyyətinə malik güclü ordunun formalaşması ümummilli lider və böyük sərkərdə kimi Heydər Əliyevin dövlətçilik fəaliyyətinin ən parlaq nəticələrindəndir. Onun gərgin diplomatik səyləri və şəxsi nüfuzu sayəsində müstəqil respublikamız bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və öz beynəlxalq mövqeyini möhkəmləndirmişdir. Heydər Əliyevin xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmağa yönəlmişdi. Bu siyasət indi də uğurla davam etdirilir, öz düşgətələyiq bəhrələrini verir.

Bu gün Azərbaycan dövlətçiliyinin ən mühüm problemi ölkənin ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistan Respublikasının təcavüzü nəticəsində işğal altına düşmüş ərazilərimizin azad edilməsi, viran qoyulmuş kənd və şəhərlərimizin bərpa olunması, sayı bir milyona çatan və

uzun müddətdən bəri məşəqqətli köçkün həyatı sürən soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması Azərbaycan dövlətinin qarşısında çox məsul bir vəzifə, ən vacib məqsəd kimi durur. Müstəqil dövlətçiliyimizin banisi, müasir müstəqil Azərbaycanın memarı, böyük öndərimiz Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev xalqımıza hədsiz mərhumiyyətlər, müstəqil dövlətimizə böyük itkilər gətirmiş təcavüzə son qoyulması üçün çoxşaxəli və səmərəli hüquqi-diplomatik addımlar atır. Bütün bunların nəticəsidir ki, indi dünya birliyi Azərbaycanın haqlı olduğunu, Ermənistanın işğalçı və təcavüzkar siyasət yeritdiyini daha yaxşı anlayır. Heç təsadüfi deyildir ki, Avropa Şurasının Parlament Assambleyasının 2005-ci il qış sessiyasının qəbul etdiyi qətnamədə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı bir daha təsdiqlənmiş, onun təcavüzkarlıqdan əl çəkməsi tələb olunmuşdur.

Öz şərəfli və möhtəşəm fəaliyyəti ilə doğma vətəninin və xalqının adını əlçatmaz zirvələrə ucaltmış möhtərəm Heydər Əliyev daim böyük qürur hissi ilə deyirdi: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

Azərbaycanın bu günkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Bu gün xalqımız möhtərəm Heydər Əliyevin siyasi varisi – yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev dövlətimiz qarşısında taleyüklü məsələləri, xalqımızın dəstəyi ilə başa çatdıracaq, möhtərəm Heydər Əliyevin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirəcəkdir.

SİYAVUŞ NOVRUZOV
Milli Məclisin deputatı,
YAP İdarə Heyətinin üzvü

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN SİYASİ SİSTEMİ

Azərbaycanda siyasi sistemin təşəkkül tapmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidməti vardır. Onun 30 ildən artıq bir müddətdə Azərbaycanda siyasi hakimiyyətin başında olması faktının özü çağdaş Azərbaycanın siyasi sisteminin formalaşmasında Heydər Əliyev fenomeninin hansı rola malik olmasını aydın şəkildə göstərir. Çünki məhz siyasi hakimiyyət siyasi sistemin elementlərinin təmərküzləşməsi və formalaşması baxımından ən vacib amildir. Siyasi sistemdə cəmiyyətin həyatının bütün yönləri – cəmiyyətin mövcudluğunun iqtisadi şərtləri, cəmiyyətin sosial və milli strukturu, ictimai şüurun vəziyyəti və səviyyəsi, mədəniyyət və s. — öz əksini tapır. Məhz siyasi sistem vasitəsilə cəmiyyətin əsas maraqları, sosial prioritetlər müəyyənləşdirilir ki, sonralar onlar siyasətdə möhkəmlənir..

Siyasi sistem özündə müxtəlif profilli komponentləri cəmləşdirən çoxfunksiyalı strukturdur və bu sistemin hər bir kompanenti özünün xüsusi strukturuna və ifadə xüsusiyyətlərinə malikdir. Belə çox funksiyalı strukturu təşkil edən ayrı-ayrı komponentlərin (institusional, funksional, requlyativ, kommunikativ, ideoloji profilli kompanentlər) formalaşmasında Heydər Əliyev fenomeninin rolunu bir məqalə çərçivəsində şərh etmək çox çətindir. Buna görə burada Azərbaycanın siyasi sisteminin bəzi komponentlərinin formalaşmasında Heydər Əliyevin rolu problemi üzərində dayanacaq, bu məsələ ilə bağlı mülahizələri şərh edəcəyik.

Cəmiyyətdəki siyasi proseslərə əhəmiyyətli dərəcədə təsir göstərən siyasi institutlardan ən başlıcaları dövlət və siyasi partiyalardır. Məlum olduğu kimi, dövlət və siyasi partiyalar xüsusi siyasi institutlardır. İctimai təşkilatlar, peşə və yaradıcılıq ittifaqları, xüsusi siyasi institutlar olmasa da, bu qrupa yaxınlaşır. Cəmiyyətdə hakimiyyətin mərkəzi institutu dövlətdir.

Azərbaycan özünün dövlət müstəqilliyini 1918-ci ildə elan etsə də, Azərbaycan Demokratik Cümhuriyyətinin mövcud olduğu 23 ay ərzində siyasi sistemin tam bərqərar olmasından danışmaq mümkün deyil. Belə qısa bir müddət ərzində siyasi sistemin bütün kompanentlərinin formalaşmasını güman etməyin özü belə absurddur. 1920-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini itirdi və 1991-ci ilə qədər SSRİ-nin tərkibində qaldı. 1991-ci ildən sonra Azərbaycanda siyasi sistemin formalaşmasından danışmaq olar. 1991-1993-cü illər Azərbaycanın dövlətçilik tarixinin ən keşməkeşli dövrü kimi tarixə düşdü. Öz şəxsi mənafelərini dövlətin və millətin mənafeyindən üstün tutan, müəyyən mənsəb əldə etmək üçün hər cür siyasi oyunbazlıqla məşğul olan şəxslər Azərbaycanı elə bir həddə gətirib çıxarmışdılar ki, müstəqil dövlətçilik yollarında özünün ilk kövrək addımlarını atan Azərbaycan artıq dövlət müstəqilliyini itirməyin astanasında idi. Cəbhədəki uğursuzlar, Gəncədəki qiyam, Azərbaycanın cənub və şimal bölgələrində separatçılıq meyllərinin artması (Talış-Muğan respublikasının elan olunması, «Sadval» təşkilatının fəallaşması və s.), dərin iqtisadi böhran, əhalinin sosial vəziyyətinin günbəgün pisləşməsi Azərbaycan dövlətçiliyini süquta yaxınlaşdırırdı. Xalqın tələbi ilə 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev qətiyyətlə həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan bir tərəfdən siyasi və dövlət böhranından xilas oldu, digər tərəfdən isə iqtisadi böhran mənqənəsindən də qurtardı. Heydər Əliyevin qısa müddət ərzində respublikada sabitlik yaratması, vətəndaş müharibəsinin qarşısının alması, dünyanın nüfuzlu dövlətləri, beynəlxalq təşkilatları ilə əlaqələri möhkəmlətməsi, Azərbaycan xalqının düşmənlərini narahat edirdi və onlar öz bəd əməllərini həyata keçirmək üçün ölkə daxilindəki həmfikirlərinin köməyi ilə vətəndaş qarşıdurması yaratmağa cəhd edirdilər. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişlərinə cəhdlər məhz xarici qüvvələrdən dəstək alan daxili düşmənlərin xalqa arxadan vurduğu zərbə idi. Heydər Əliyev müdrikliyi, Heydər Əliyev zəkası Azərbaycanı düşdüyü bu təlatümlərdən xilas edə bildi və müstəqil dövlətimiz sabaha inamla baxmağa başladı. Hələ 1993-cü il iyunun 15-də Milli Məclisdə çıxışı zamanı Heydər Əliyev demişdi: «Mən buraya vəzifə üçün gəlməmişəm. Mən bu böyüklüyü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim». Bu böyük şəxsiyyət millət qar-

şısında verdiyi sözün üstündə durdu və yeritdiyi məqsədyönlü siyasətlə Azərbaycanın müstəqilliyini dönməz etdi. Siyasi sistemin ən vacib institusional kompanentlərindən biri olan dövləti qorumaqla Heydər Əliyev Azərbaycanın siyasi sistemini məhv olmaqdan qurtardı.

Dövləti məhv olmaqdan xilas edən Heydər Əliyev Azərbaycanda hüquqi dövlət quruculuğuna başladı. Hüquqi dövlət ideyasının tarixi çox qədimdir və antik dövr mütəfəkkirləri (məsələn, Platon) bu münasibətlə dəyərli fikirlər söyləmişlər. Hüquqi dövlət ideyasının dəyəri hakimiyyətin mənbəyinin xalq hesab olunması və dövlətin cəmiyyətə tabe edilməsindədir. Yəni hüquqi dövlət anlayışı bəşər sivilizasiyasının ən böyük nailiyyətlərindən biri sayıla bilər. Heydər Əliyev hüquqi dövlət quruculuğu prosesində bu məsələnin ən vacib problemlərini daim diqqətdə saxlamış, hüquqi dövlətin əsas prinsiplərini ardıcıllıqla tətbiq etmişdir. Heydər Əliyevə görə, hüquqi dövlət hüququn, qanunun aliliyinin əsas götürüldüyü dövlətdir. Başqa sözlə desək, siyasi hakimiyyətin fəaliyyəti və təşkilinin hüquqi formaları, onun hüquq subyekti kimi ayrı-ayrı fərdlərlə qarşılıqlı münasibəti hüquqi dövləti ortaya çıxarır. Heydər Əliyevin hüquqi dövlət quruculuğu sahəsindəki fəaliyyətinin təhlili göstərir ki, bu böyük tarixi şəxsiyyət hüquqi dövlət quruculuğu prosesində aşağıdakı prinsiplərin qorunmasına xüsusi fikir vermişdir:

1. Qanunun aliliyi prinsipi. Bu prinsip ictimai həyatın bütün sferalarında qanunun aliliyini tələb edir. Başqa sözlə, bu prinsipə görə, dövlətin ali orqanının bütün konstitusiya proseduralarını gözləməklə qəbul etdiyi qanun, hansı dərəcədə yüksək və avtoritetli olmasından asılı olmayaraq, hökumətin sərəncamları, partiya qərarları ilə dəyişdirilə və ləğv oluna bilməz. Bütün ictimai fəaliyyət qanuna ciddi əməl olunması şəraitində həyata keçirilməlidir.

2. Vətəndaşların hüquq və azadlıqlarının reallığı prinsipi. Hüquqi dövlət quruculuğunun bu prinsipi insanların hüquq və azadlıqlarının qanunla tətbiq olunmasını nəzərdə tutur və bu zaman xüsusi qeyd olunur ki, insan hüquq və azadlıqları hakimiyyət tərəfindən ona «hədiyyə» edilmir, əksinə bu hüquq və azadlıqlar insan dünyaya gəldiyi vaxtdan ona məxsusdur. Heydər Əliyev hüquqi dövlət quruculuğunun bu prinsipinə həmişə sadiq olmuşdur.

3. Dövlətin və şəxsin qarşılıqlı cavabdehliyi prinsipi. Bu prinsip dövlətlə şəxs arasındakı münasibətləri tənzimləyir. Dövlət qanunlar qəbul etməklə vətəndaşlar, ictimai təşkilatlar, digər dövlətlər və beynəlxalq icti-

maiyyət qarşısında öz üzərinə bir çox öhdəliklər qəbul edir. Bununla bərabər dövlətin və cəmiyyətin qarşısında cavabdehlik də hüquqi dövlət quruculuğunun əsas cəhətlərindəndir.

4. Hakimiyyətin qanunverici, icraedici və məhkəmə hakimiyyətinə bölünməsi prinsipi. Bu prinsip hakimiyyətin bir şəxsin, orqanın, yaxud sosial təbəqənin əlində cəmlənməsinə yol verməmək məqsədini güdür. Hakimiyyətin bölünməsi dövlətin və hüququn inkişaf səviyyəsinin əlamətidir. Heydər Əliyevin hüquqi dövlət quruculuğunun bu prinsipinə də tam əməl edirdi. 1995-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı mövcud qanunvericiliyə uyğun olaraq Milli Məclis üzvlərinin 15 faizi icra strukturunda işləyə bilərdi. Bu onunla bağlı idi ki, 1995-ci ildə Azərbaycanda dövlət quruculuğu hələ başa çatmamışdı və bu səbəbdən də hakimiyyət bölgüsündən danışmaq hələ tez idi. Lakin 2000-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirildiyi zaman bu disbalans ləğv edildi, qanunverici hakimiyyətlə icraedici hakimiyyət bir-birindən ayrıldı. Bu faktın özü Heydər Əliyevin hüquqi dövlət quruculuğuna hansı səviyyədə önəm verdiyini bir daha aydın şəkildə göstərməkdədir.

5. Qanunların yerinə yetirilməsinə effektiv nəzarətin mövcudluğu prinsipi. Buraya məhkəmə, prokuror nəzarəti, arbitraj və s. daxildir.

Heydər Əliyevə görə, hüquqi dövlət quruculuğu son məqsəd sayıla bilməz. Onun fikrincə, hüquqi dövlət insanların sosial-tarixi baxımdan şərtlənmiş ictimai münasibətlərdəki azadlıqlarının müdafiəsidir. Azadlığın xarakteri və məzmunu, eləcə də həcmi cəmiyyətin inkişaf səviyyəsi ilə müəyyənləşdirilir. İnsanların sərbəst toplaşma, fikir, vicdan azadlıqlarının qorunması Azərbaycanda kifayət dərəcədə təmin olunur ki, bu da öz növbəsində Azərbaycandakı hüquqi dövlətin göstəricisi sayıla bilər. Bir cəhəti də qeyd edək ki, hüquqi dövlət quruculuğu bu gün də Azərbaycanda davam edir və Heydər Əliyevin bu sahədəki ideyaları ardıcıl şəkildə həyata keçirilir.

Siyasi sistemin institusional komponentlərindən biri siyasi partiyadır. Siyasi partiya siyasi hakimiyyəti ələ almaq, yaxud siyasi idarəetmədə iştirak etmək istəyən, idealları və maraqları ümumi olan şəxslərin könüllü siyasi ittifaqıdır. Məhz siyasi hakimiyyətə can atmaq, hakimiyyət mexanizmində iştirak siyasi partiyanı digər təşkilat və hərəkatlardan fərqləndirən əsas əlamətlərdir. Müasir Azərbaycanın siyasi həyatında 40-dan artıq partiya fəaliyyət göstərir. Lakin bu partiyaların təşkilatlanma dərəcəsi, əhali

arasındakı nüfuzu bir-birindən kəskin şəkildə fərqlənir. Bəzi partiyalar yalnız paytaxt Bakıda və paytaxta yaxın bir–iki rayonda yerli strukturlara malikdir. Bəzi siyasi partiyaların yalnız Bakıda fəaliyyət göstərdiyini söyləmək olar. Bəzi partiyaların yalnız sədri və kağız üzərində adı mövcuddur. Yalnız Yeni Azərbaycan Partiyasının Azərbaycan Respublikasının bütün yaşayış məntəqələrində yerli təşkilatları var. 360 mindən artıq adamı öz sıralarında birləşdirən Yeni Azərbaycan Partiyası kütlələri öz arxasınca aparmağa qadir olan yeganə siyasi partiyadır. Çünki bu, partiyanın yaradıcısı Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyevdir. Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi həyatına müxalifət partiyası kimi gəlsə də, qısa bir müddətdən sonra iqtidar partiyası oldu. Yeni Azərbaycan Partiyasının əldə etdiyi bütün nailiyyətlər bu böyük şəxsiyyətin – Heydər Əliyevin adı ilə bağlıdır. Yeni Azərbaycan Partiyasının III qurultayı partiya sıralarının monalitliyini aydın şəkildə göstərdi. Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi həyatında müxtəlif funksiyaları yerinə yetirir. Bunlardan birincisi və ən başlıcası odur ki, Yeni Azərbaycan Partiyası dövlət və xalq arasındakı qarşılıqlı əlaqəni həyata keçirir, bu əlaqəni tənzimlyir. Ayrı-ayrı sosial qrupların maraqlarını aydınlaşdıraraq, Yeni Azərbaycan Partiyası onları elə şəkildə ümumiləşdirir ki, dövlət orqanlarının fəaliyyətində bu cəhətlər öz əksini tapır.

Yarandığı gündən bəri Yeni Azərbaycan Partiyası cəmiyyətin inkişafının strategiyasını müəyyənləşdirməyə cəhd edir, müxtəlif proqramlar hazırlayır, dövlətin və hökumətin seçdiyi kursun düzgünlüyünü Azərbaycan əhalisinə çatdırmaqda müstəsna rol oynayır. Bundan əlavə, Yeni Azərbaycan Partiyası partiya liderlərinin, peşəkar siyasətçilərin, partiya ekspertlərinin və analitiklərinin formalaşmasında əhəmiyyətli işlər görür. Ümumən, Yeni Azərbaycan Partiyası bütün parametrlər üzrə Azərbaycandakı digər partiyalara örnək ola bilər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Yeni Azərbaycan Partiyasını yaratmaqla Azərbaycanın siyasi sisteminin formalaşmasına böyük töhfə verdi.

Müasir Azərbaycanın siyasi sisteminin əsas komponentlərindən biri siyasi sabitlikdir. Biz siyasi sabitlik dedikdə cəmiyyətin elə dayanıqlı vəziyyətini nəzərdə tuturuq ki, daxili və xarici faktorların təsirinə baxmayaraq özünün strukturunu və ictimai dəyişikliklərə nəzarət etmək imkanını saxlayır və bu şəraitdə effektiv inkişaf edir. Heydər Əliyev Azərbaycanın si-

yasi sisteminə sabitlik gətirdi. Bu böyük şəxsiyyət siyasi sabitliyi dəyişməyən, daşlaşan, inkişafdan qalan bir xüsusiyyət kimi qəbul etmirdi. Heydər Əliyevə görə, sabitlik daimi yeniləşmək prosesi idi, sistem daxilindəki sistem əmələ gətirən və sistem fərqləndirən proseslərin qarşılıqlı tarazlığı idi. Məhz Heydər Əliyevin zəkası Azərbaycan siyasi sistemində siyasi tarazlığı, sabitliyi sistemin komponenti kimi müəyyənləşdirə bilirdi. Bu böyük tarixi şəxsiyyət siyasi sabitliyi ictimai inkişafın keyfiyyət göstəricisi kimi, məqsəd, dəyər və onların reallaşdırılması üsullarının ümumiliyini özündə əks etdirən müəyyən ictimai qayda-qanun kimi başa düşürdü. Heydər Əliyevə görə, siyasi sabitlik, eyni zamanda sosial-iqtisadi və siyasi həyatın subyektlərinin xarici və daxili pozucu təsirlərə qarşı durması və neytrallaşdırılması bacarığı idi. Bu mənada sabitlik ictimai sistemin inkişafının ən vacib mexanizmi kimi qəbul olunmalıdır.

Bəşər tarixi göstərir ki, siyasi sabitlik 2 üsulla – ya diktatura, ya da demokratiyanın geniş və hərtərəfli inkişafı – əldə olunur. Birinci yolla, yəni, diktatura yolu ilə əldə olunan sabitlik uzun ömürlü olmur, illüziya xarakteri kəsb edir, çünki geniş xalq kütlələri belə sabitliyin yaradılmasında iştirak etmir. Geniş sosial baza, inkişaf etmiş vətəndaş cəmiyyəti və demokratiyaya əsaslanan siyasi sabitlik isə uzunömürlü olur. Çünki siyasi sabitlik cəmiyyətin özünün daxilindəki münasibətlərin xarakterindən asılı olduğu kimi, siyasi rejimin müxtəlif sosial qrupların maraqlarını nəzərə alması və onları uzlaşdırılmasından, həmçinin əhalinin mövcud siyasi hakimiyyətə münasibətindən də asılıdır. Məhz bu cəhətləri dərindən təhlil edən Heydər Əliyev demokratiyaya, xalq kütlələrinə arxalandı və onun seçimi Azərbaycanda siyasi sabitliyin formalaşması ilə nəticələndi. Azərbaycanda siyasi sabitliyi yaratmaq üçün Heydər Əliyevin seçdiyi demokratiya yoluna sədaqəti, onun hakimiyyətə qayıdışının ilk günlərindən aydın idi. Hələ 1993-cü il avqustun 23-də Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini yerinə yetirərkən televiziya ilə xalqa müraciət edən Heydər Əliyev deyirdi: «Mən bəzi adamlara demişəm. Şəxsən mənim heç bir silahım yoxdur: nə topum, nə tapançam, nə də avtomatım var. Mənim idrakım var, iradəm var və xalq mənə ümid bəsləyirsə, xalq mənə bu səlahiyyəti vermişdirsə xalqı bu ağır vəziyyətdən çıxarmağı öz öhdəmə götürmüşəmsə, güman edirəm ki, xalq məni müdafiə edəcəkdir. Ona görə də nə çevrilişdən qorxuram, nə mənə qarşı terror aktları hazırlayan qüvvələrdən qorxuram. Heç bir şeydən qorxmuram. Demişəm və indi də deyirəm. Həyatımın bundan sonrakı hissəsini xalqa bağışlamışam. Xalq onu harada kəsərsə, orada da kəsiləcəkdir. Mən həyatımı xalqın sərəncamına vermişəm. Hər dıqəqə, hər saat, gecə-gündüz xalqa xidmət edirəm. Heç bir qüvvəyə xidmət etmirəm. Heç bir qüvvə də mənə təzyiq edə bilməz».

Ümumən, mövcud siyasi rejimin diktaturaya deyil, demokratiyaya əsaslanması siyasi sabitliiyin uzunömürlülüyünü şərtləndirir, iqtisadi, syiasi, mədəni tərəqqinin əldə olunmasına əsas yaradır.

Məlum olduğu kimi, demokratiya və seçki anlayışları bir-biri ilə sıx bağlıdır. Başqa sözlə desək, demokratiyaya gedən yol obyektiv seçkilərdən keçir. Seçkilər demokratiyanın təkcə ən vacib əlaməti olmayıb, eyni zamanda onun vacib şərtidir. Seçki sistemi siyasi sistemin tərkib hissəsidir. Seçki sisteminin özü də müxtəlif komponentlərdən təşkil olunur ki, bunların da içərisində daha ümumi olan seçki hüququ və seçki prosesi komponentlərini xüsusi qeyd etmək lazımdır. Seçkinin ümumi, bərabər, gizli və birbaşa olması demokratiyanın təntənəsi hesab oluna bilər. Azərbaycan Respublikasının seçki sistemi demokratik seçkilərin bütün tələblərinə cavab verir. Belə ki, burada məhdud (senzli), qeyri-bərabər, dolayı (çoxdərəcəli) və açıq səsvermə öz əksini tapmayıb. Seçmək və seçilmək hüququ cəmiyyətin birinci dərəcəli hüququdur. Azərbaycan Respublikasının seçki sistemi mojaritar sistemə əsaslanır. Bu sistemə görə mövcud qanunvericilik əsasında öz rəqibi ilə müqayisədə səslərin çoxunu qazanan namizəd seçilmiş hesab olunur. Elmi ədəbiyyatda mojaritar sistemi «finişə birinci çatanın sistemi» adlandırılır.

Azərbaycanda seçki sisteminin təşəkkülü və formalaşmasında Heydər Əliyevin böyük xidməti danılmazdır. Bu böyük syiasi xadim inzibati-amirlik metodundan demokratiyaya keçidin xüsusiyyətlərini dərindən bildiyindən seçki sistemində keçid dövrünün xüsusiyyətlərinə müvafiq qaydada formalaşdırdı. Məsələn, Milli Məclisə seçkilər zamanı 125 deputat yerinin 100-nə mojaritar, 25-nə isə proporsional qaydada seçkilər keçirilirdi. Qarışıq seçki sistemindən istifadə olunmasında məqsəd yeni müstəqillik əldə etmiş dövlətlərdə siyasi sistemin əsas komponentələrindən biri olan çoxpartiyalılığa geniş yer vermək, təkpartiyalılıqdan çoxpartiyalılığa keçidi təmin etmək idi. Azərbaycanda siyasi sistemin formalaşması üçün Heydər Əliyevin yürütdüyü bu siyasət öz bəhrəsini verdi. Artıq bu gün Azərbaycanın siyasi həyatında sağ, sol təmayüllü və mərkəzçi olmaq etibarı ilə 40-dan artıq si-

yasi partiya fəaliyyət göstərir və rəqabət aparır. Belə halda təkpartiyalılığa qayıdışdan danışmaq mümkün deyil. Çeşidli ideologiyalara xidmət göstərən ayrı-ayrı partiyalar cəmiyyətdə müəyyən mövqe qazandıqdan sonra qarışıq seçki sistemindən istifadə olunmasının əhəmiyyəti yox idi. Məhz buna görə də 2002-ci il avqust ayının 24-də Azərbaycan Respublikasının Konstitusiyasına bəzi əlavə və dəyişikliklər edilməsi ilə bağlı keçirilən referendumda qarışıq seçki sistemindən mojaritar seçki sisteminə keçildi.

Siyasi sistemin əsas komponentlərindən biri siyasi rejimdir. Siyasi rejim anlayışı altında siyasi sistemin strukturlarının nizamlı qarşılıqlı əlaqəsi, həmçinin hakimiyyəti həyata keçirmək və siyasi məqsədlərə çatmaq üçün istifadə olunan metodların cəmi başa düşülür. Siyasi rejimin məhz bu cür definisiya olunması siyasi sistemin dinamik, funksional xarakterini ortaya çıxarır. Politoloji ədabiyyatda siyasi rejimin keyfiyyət xarakteristikası insan azadlığı və hüquqlarının həcmi, dövlət hakimiyyətinin həyata keçirilməsinin metodları, dövlət və cəmiyyət arasındakı qarşılıqlı münasibətlərin xarakteri, siyasi məsələlərin həllinə cəmiyyətin təsirinin olub-olmaması, siyasi institutların formalaşdırılması üsülları və s. ilə ölçülür.

Siyasi rejimlərin müxtəlif təsnif və tipologiyası mövcuddur. Bu təsniflərin içərisində ən geniş yayılanı siyasi rejimlərin diktatura və demokratiyaya bölünməsidir. Heydər Əliyev Azərbaycan demokratik siyasi rejimin formalaşması üçün bütün bacarığından istifadə etdi. O, demokratiyanın xalqın hakimiyyəti kimi başa düşürdü və bilirdi ki, xalq hakimiyyəti xalq tərəfindən həyata keçirilməlidir. Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıtdığı vaxt ölkədəki siyasi rejimi anarxiya adlandırmaq olar. Dövlət və hökumət strukturları iflic vəziyyətində idi və heç kəs üzərinə düşən vəzifəni yerinə yetirmək istəmirdi. Dövləti və hökuməti idarə etmək sahəsində heç bir səriştəsi olmayan, yalnız özlərini düşünən bir qrup adamın öz mənafeləri naminə hakimiyyəti ələ keçirməsi Azərbaycanda anarxiya yaratmışdı və ölkəni məhvə aparırdı. Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən yalnız Heydər Əliyev qurtara bilərdi və Heydər Əliyev də bu işi görmək üçün demokratiya yolunu tutdu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il noyabrın 28-də xalq nümayəndələrinin ümumrespublika toplantısında söylədiyi yekun sözündə demokratik dəyərlərin qorunması ilə bağlı deyirdi: «Biz humanist, demokratik dövlət qururuq, demokratik prinsiplər əsasında yaşamaq

istəyirik. İnsan hüquqlarının, insan şəxsiyyətinin qorunmasına çalışacağıq. Ancaq gərək insan da dövlətin qanunlarına riayət etsin. Dövlətin qanunlarına əməl etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır. Başqa yol yoxdur. Biz özbaşınalığa, hərc-mərcliyə yol verə bilmərik. Bu müddətdə, keçdiyimiz dövrdə, təəssüf ki, belə hallara yol verilmişdir. Oktyabr hadisələri göstərdi ki, bunlara yol vermək mümkün deyildir. Şəxsiyyətindən, keçmiş xidmətlərindən, adından-sanından asılı olmayaraq hər kəs qanuna tabe olmalıdır. Qanunun aliliyi hamı üçün eyni olmalıdır – adi vətəndaş üçün də, vəzifəli şəxs üçün də, prezident üçün də. Mən də qanunun aliliyinin keşiyində duracağam. Bu hadisələrdən çıxaracağımız birinci nəticə və qanunun keşiyində duran bütün adamlardan mənim tələbim ondan ibarətdir ki, qanunu qorumaq, onu tətbiq etmək, cinayət göstərmiş adamların hamısını məsuliyyətə cəlb etmək, cəzalandırmaq lazımdır. Azərbaycanda demokratik prinsiplər bundan sonra da bərqərar olacaqdır. Respublikamızda fikir, söz, insan azadlığı var və bunların hamısı bundan sonra da qorunub saxlanılacaqdır». Heydər Əliyevin bu sözlərindən onun hələ 1994-cü ildə hansı prinsiplərə, hansı dəyərlərə üstünlük verdiyi aydın şəkildə görünür. Məhz bu prinsipləri, bu dəyərləri əldə rəhbər tutan bu böyük tarixi şəxsiyyət Azərbaycanda demokratik siyasi rejimin bərqərar olmasını təmin elədi və Azərbaycanın siyasi sisteminin formalaşmasına xidmət etdi.

Azərbaycanda siyasi mədəniyyətin inkişafında Heydər Əliyevin rolu əvəzolunmazdır. Onun yaratdığı və rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası yüzlərlə siyasətçi üçün əsil məktəb rolunu oynadı. Bu gün təkcə iqtidarda deyil, eləcə də müxalifətdə olan bir çox siyasətçilər – partiya liderləri və funksionerləri, ictimai təşkilatların rəhbərləri Heydər Əliyev məktəbinini nümayəndələri sayıla bilərlər. Çünki Heydər Əliyevdən təkcə iqtidar deyil, eləcə də müxalifət çox şey öyrənib.

Ümumən, çağdaş Azərbaycanın siyasi sisteminin elə bir komponenti yoxdur ki, orada Heydər Əliyevin izi görünməsin. Siyasi sistemlər, o cümlədən də Azərbaycanın siyasi sistemi daim inkişafdadır. Bizi əhatə edən ətraf aləmin dəyişmə tempinə uyğun olaraq siyasi sistemlərdə də köhnələr yenilərı ilə əvəz olunur ki, bu da dialektikanın inkişaf qanunlarına tamamilə uyğundur. Azərbaycanın siyasi sistemi artıq sabitləşmə dövründədir və inkişafının bu səviyyəsinə görə xalqımızın böyük oğlu Heydər Əliyevin siyasi fəaliyyətinə borcludur.

YAQUB MAHMUDOV
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

AZƏRBAYCAN TARİXİNƏ HEYDƏR ƏLİYEV BAXIŞI və ya XALQIMIZIN MİLLİ DİRÇƏLİŞ KONSEPSİYASI (bir müraciətin hikməti)

Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah kimi qüdrətli şəxsiyyətlər bəxş etmişdir. Əsrlər keçdikdən sonra – XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, De Qoll kimi nadir tarixi simaları sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu.

Mənəvi sərvətlər xəzinəmizə nadir töhfə

Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına Müraciəti yaşadığımız eranın XX və XXI yüzilliklərinin, İkinci və Üçüncü minilliklərinin qovşağında **xalqımızın mənəvi sərvətlər xəzinəsinə daxil olmuş nadir incidir.**

"Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında" adı ilə dünyanın müxtəlif ölkələrinə səpələnmiş 60 milyonluq xalqımıza ünvanlanmış bu Müraciət, heç şübhəsiz, gələcək qərinələrdə, minilliklərdə də öz qiymətini, aktuallığını saxlayacaq misilsiz elmi-nəzəri ümumiləşdirmədir.

Dünyanın ən nadir tarixi şəxsiyyətlərindən birinin təfəkküründən süzülüb gələn, zəngin dövlətçilik təcrübəsinə malik olan dahi dövlət xadiminin həyat təcrübəsinə və şəxsi müşahidələrinə əsaslanan bu qiymətli əsər zaman-zaman tarixçilər, filosoflar, ədəbiyyatşünaslar, dilçilər, mədəniyyətşünaslar, sosioloqlar, iqtisadçılar və başqa sahələrdən olan alimlərin, yaradıcı ziyalıların neçə-neçə nəsilləri tərəfindən öyrəniləcək, tədqiq olunacaq, yeni-yeni əsərlərin meydana gəlməsinə yol açacaq, xalqımızın işıqlı gələcəyə gedən yoluna nur çiləyəcəkdir.

Ulu keçmişimizin və müasir tariximizin ensiklopedik şərhini, gələcək inkişafımızın elmi-nəzəri proqnozlarını verən bu əsərdə xalqımızın keçdiyi tarixi yola dərindən nəzər salınır, mühüm tarixi proseslərə, hadisələrə, tarixi şəxsiyyətlərə obyektiv qiymət verilir, prinsipial münasibət bildirilir. Bu baxımdan, **"Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında" adlı irihəcmli Müraciət bütün tarix elmimiz üçün örnək ola biləcək çox dəyərli bir tarix əsəri, onun müəllifi isə bütün tarixçilərimizin öndəri olan qüdrətli bir tarixçidir.**

Dövrə verilən qiymət və nəsillərə xəbərdarlıq

Heydər Əliyev təfəkküründən məhsulu olan bu qiymətli əsərdə tariximizin bir çox problemləri ilə bağlı olaraq tədqiqatçılara konkret və prinsipial istiqamət verilir. Onların bəzilərinə nəzər salaq.

Böyük dövlət xadimi, hər şeydən əvvəl, bəşəriyyətin yaxın keçmişinə – yenicə ayrıldığımız XX yüzilliyə son dərəcə sərrast və konkret qiymət verir. Özü də bu qiymətləndirmə zamanı ayrı-ayrı siyasi hadisələr, proseslər deyil, müasir dünyamızda insanlığı irəli aparan başlıca amil, daha doğrusu, *sürətli elmi-texniki tərəqqi* ön plana çəkilir, sonra isə başqa amillər sıralanır. Həm də bu sıralanma zamanı *yeni suveren dövlətlərin yaranması* kimi mühüm tarixi reallıq xüsusi qeyd olunur.

Azərbaycan prezidentinin yenicə ayrıldığımız XX yüzilliyə verdiyi qiymət tarixi reallığı zərgər dəqiqliyi ilə əks etdirir: ***«Başa vurduğumuz yüzillik bəşəriyyətin yaddaşında sürətli elmi-texniki tərəqqi ilə və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və yeni suveren dövlətlərin yaranması ilə, "soyuq müharibə"nin doğurduğu gərginliklə, sülh, sabitlik və əmin-amanlıq naminə göstərilən kollektiv səylərlə qalacaqdır».***

Doğma xalqımızın, müstəqil Azərbaycanımızın gələcəyini düşünən dövlət xadimi hazırkı dövrə qiymət verərkən və müasir mərhələdə bəşəriyyətin başlıca inkişaf meyllərini müəyyən edərkən də öz narahatlığını unutmur. Müasir dünyada gedən obyektiv və qanunauyğun proseslərə dərindən bələd olan prezident Heydər Əliyev real gerçəkliyə əsaslanan belə bir elmi nəticəyə gəlir ki, *hazırkı dünyanın başlıca inkişaf meylləri mədəni inteqrasiya və qloballaşmadır.* Xalqının taleyi ilə yaşayan **Böyük Azərbaycanlı** qeyd edir ki, müasir mərhələdə bəşəriyyətin qaçılmaz inkişaf yolu olan *inteqrasiya* və *qloballaşmada hər bir ölkənin səciyyəvi milli cəhətləri*

də nəzərə alınmalıdır. Ölkə başçısı, əlbəttə, doğma Yurdunu düşünərək, bu mühüm məsələnin üzərində xüsusi olaraq dayanır və göstərir ki, *qloballaşmanın bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür.*

Böyük dövlət xadimi aşağıdakı uzaqgörən fikirləri ilə öz həmvətənlərinə, ümumiyyətlə, gələcək nəsillərə xəbərdarlıq edir ki, müasir dünyaya qovuşarkən ulularımızın bizə əmanət qoyduğu milli-mənəvi dəyərləri itirməsinlər, onu göz bəbəyi kimi qorusunlar, müqəddəs tariximizi əcnəbilərin ayaqları altına atmasınlar, başqa sözlə, müasir dünyaya inteqrasiya prosesində xalqımız özünün milli-mədəni varlığını qoruyub saxlaya bilsin. Böyük Azərbaycanlının zamanı qabaqlayaraq irəli sürdüyü müdrik və uzaqgörən ideya millətimiz üçün, bütün gələcək nəsillərdən ötrü dahiyanə xəbərdarlıqdır!

Dünya inkişafının indiki mərhələsinin başlıca meylləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifahı halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır. Təbii ki, qloballaşmanın bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür (H.Ə.Əliyev)

İnteqrasiya və *qloballaşma* problemləri ilə bağlı olaraq dünya xalqları və ölkələrinin taleyi üçün ümumi narahatlıq keçirən böyük dövlət adamı öz xalqının, öz ölkəsinin gələcəyi üçün xüsusi narahatlıq keçirir. Dahi şəxsiyyət xüsusi olaraq vurğulayır ki, xalqımız dünyada öz yerini tutmaq üçün bir çox sahələrdə sıçrayışa nail olmalı, qabaqcıl texnologiyalara yiyələnməli, ən müasir proqramlar həyata keçirməlidir: ***«Azərbaycan hələ də müasir texnologiyaların mənimsənilməsi və geniş istifadə olunması yolunda bir çox çətinliklərlə qarşılaşır. Bəşəriyyətin qədəm qoyduğu müasir inkişaf mərhələsində öz layiqli yerimizi tapmaq üçün gərək biz zamanın tələbləri ilə uyğunlaşa bilək, qarşımızda duran bir çox ciddi problemləri həll etməyə qadir olaq, ümdə vəzifələrimizə uyğun müvafiq proqramları həyata keçirməyə nail ola bilək».***

XX yüzilliyin xalqımızın tarixindəki yerini zərgər dəqiqliyi ilə müəyyən edən böyük siyasətçi *müstəqil Azərbaycan dövlətinin yaradılmasını ən böyük nailiyyət* hesab edir, ölkəmizin *demokratik, hüquqi, dünyəvi* dövlət kimi dünyaya qovuşmasını yüksək qiymətləndirir.

Yeri gəlmişkən, müxtəlif güc mərkəzlərinin qarşılaşdığı, dinlərin, mədəniyyətlərin, etnosların qovuşduğu Azərbaycanın strateji inkişaf yolunun düzgün müəyyən olunması kimi çox böyük tarixi xidmət məhz Heydər Əliyevə məxsusdur. **Demokratik, hüquqi, dünyəvi dövlət yaratmaq!** – Azərbaycanın bundan başqa doğru-düzgün, perspektivli inkişaf yolu yoxdur. Daha doğrusu, Azərbaycandan ötrü bu yolun alternativi yoxdur!

Heydər Əliyevin xalqa Müraciətində XX yüzillikdəki ən mühüm tarixi nailiyyətimizə və Azərbaycanın müasir durumuna xüsusi diqqət yetirir. Müraciətdə qeyd olunduğu kimi, tarixən qısa müddət ərzində ən müasir demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlləri qoyulmuş, dünyanın ən mütərəqqi təməl qanunlarından biri olan Konstitusiyamız qəbul olunmuş, hakimiyyətin ayrı-ayrı qollarının formalaşdırılmasına başlanmış, həyatın bütün sahələrində əsaslı islahatlar həyata keçirilmişdir: ***«XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Məhz bu müddət ərzində Azərbaycan xalqı öz müstəqil dövlətinin Konstitusiyasını qəbul etmiş, qanunvericiliyini, hakimiyyətin bölünmə prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdıraraq digər dövlətlərlə hərtərəfli əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Bu illər ərzində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmişdir».***

Neftimiz və neft strategiyamız

Ölkə başçısı ötən müddət ərzində, xüsusi neft siyasəti strategiyasının işlənib hazırlanmasını və həyata keçirilməyə başlanmasını xalqımızın mühüm uğuru hesab edir: ***«Azərbaycan öz milli neft strategiyası və konsepsiyasını həyata keçirməyə başlamış, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələr bağlayaraq dünya iqtisadiyyatına qovuşmasını təmin etmişdir».***

Göründüyü kimi, Müraciətdə müasir mərhələdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında və möhkəmləndirilməsində *neft*

amilinə xüsusi diqqət yetirilir. Bu, bir həqiqətdir ki, prezident Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq xalqın bu mühüm sərvətinin milli müqəddəratımızda oynadığı rolu dərindən araşdıran, düzgün qiymətləndirən, xüsusilə, *neft amilindən* Azərbaycanın xarici siyasətində istifadə olunması konsepsiyasını hazırlayıb həyata keçirən dövlət xadimidir. Heydər Əliyev məhz özünün neft strategiyası ilə tarix boyu Cənubi Qafqazda üstünlüyü əldə saxlamaq üçün daim "erməni kartı"ndan istifadə edən qüvvələrə qalib gəldi. Bu, əslində, Azərbaycanın diplomatiya tarixində yeni kəşf, yeni istiqamətdir. Bir sözlə, dahi siyasətçinin neft strategiyası "erməni kartı"na qalib gəldi. Bu, göz qabağındadır.

Azərbaycanın tarixi keçmişinə dərindən bələd olan ulu öndər Heydər Əliyev Müraciətdə, çox düzgün olaraq, neftin XX yüzilliyin tarixində, xüsusilə xalqımızın və ölkəmizin iqtisadi tərəqqisinin sürətləndirilməsində misilsiz rol oynadığını göstərir: ***«Başa çatmaqda olan XX əsr Azərbaycan xalqının taleyində mühüm rol oynamış bir dövr olmuşdur. Bəzi siyasətçilər XX əsri neft əsri adlandırırlar. Həqiqətən də neftin bu əsrdə dünya siyasətində və iqtisadiyyatında oynadığı müstəsna rol danılmazdır. Azərbaycanın dünyada məhz neft mərkəzlərindən birinə çevrilməsi bizə bir çox xalqların neçə-neçə əsr ərzində çatdığı zirvələri qısa müddətdə fəth etmək imkanı verdi»***.

Neft, tarix boyu, bir çox digər nadir məhsullarla, sərvətlərlə yanaşı, ayrı-ayrı xalqların tarixində və dünyanın beynəlxalq münasibətlərində mühüm rol oynamışdır və bu rolunu müasir mərhələdə daha geniş miqyasda davam etdirməkdədir. Bu qiymətli məhsul tarixi şəraitdən asılı olaraq, onun sahibi olan bəzi xalqlara firavanlıq gətirmiş, bəzilərini isə fəlakət girdabına yuvarlatmışdır. Bu baxımdan, neftin *bəşəriyyətin həyatında misilsiz rol oynadığını, hələ qədim dövrlərdən Odlar Yurdu Azərbaycanın ən mühüm sərvətlərindən biri olduğunu* qeyd edən böyük siyasətçi, eyni zamanda, onun həm ayrı-ayrı ölkələrin xarici siyasətinin, həm də beynəlxalq siyasətin təsirli amilinə çevrildiyini göstərir. Bununla əlaqədar olaraq Heydər Əliyev belə bir tarixi gerçəkliyi də diqqət mərkəzinə çəkir ki, *bu qiymətli sərvətin sahibi olan bəzi xalqlar ondan uzun illər ərzində öz firavanlıqları və tərəqqiləri üçün istifadə etmək imkanından məhrum olmuş, böyük dövlətlərin güclü təzyiqinə məruz qalmışlar.*

Son dərəcə qiymətli sərvətimiz olan neftimiz, daha doğrusu, Bakı neftinə yiyələnmək üçün səngimək bilməyən beynəlxalq rəqabət ötən tarixi

dövr ərzində bizim xalqımıza da misilsiz fəlakətlər gətirmiş, hətta müstəqilliyimiz yolunda ən ciddi əngəllərdən birinə çevrilmişdir: ***«Neftin elmi-texniki tərəqqidə, dünya iqtisadiyyatının inkişafında oynadığı böyük rol XX əsrdə onu ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin, beynəlxalq siyasətin təsirli amillərindən birinə, mühüm coğrafi-siyasi və coğrafi-strateji amilə çevirdi. Neft mənbələri, neft bazarları uğrunda gedən kəskin mübarizə dünyada qüvvələr nisbətinin formalaşmasına, beynəlxalq siyasətin gedişinə öz güclü təsirini göstərdi. Tarixin belə bir təəssüf doğuran gerçəkliyi də var ki, bəzi neftçıxaran ölkələr bu qiymətli sərvətdən öz xalqlarının firavanlığı və tərəqqisi üçün istifadə etmək imkanından uzun illər ərzində məhrum olmuş, böyük dövlətlərin güclü təzyiqi nəticəsində müstəqil siyasət yeritmək imkanını itirmişlər. Həmin ölkələrin xalqları öz təbii sərvətlərinin tam sahibi olmaq uğrunda həmişə mübarizə aparmış və öz məqsədlərinin həyata keçirilməsinə bu və ya digər dərəcədə nail olmuşlar»*** **(H.Ə.Əliyev).**

Heydər Əliyev xalqımıza Müraciətində dünyada, o cümlədən keçmiş SSRİ ərazisində neft hasilatı, mütərəqqi qazma üsulları, xüsusilə dənizdə neftçıxarma texnologiyalarının hazırlanması, kadr hazırlığı, həmçinin bir çox başqa sahələrdə Azərbaycan xalqının aparıcı rolu və tarixi xidmətlərini ilk dəfədir ki, həm görkəmli dövlət xadimi, həm də doğma yurdun təəssübkeşi olan **Böyük Azərbaycanlı** kimi olduqca yüksək qiymətləndirir. Yaşadığımız günlərədək bizim xalqımızın bu sahədə ümumdünya tarixindəki rolunu heç kəs prezident Heydər Əliyev qədər hərtərəfli və sərrast qiymətləndirə bilməmişdir. Bu da təsadüfi deyil. Çünki Azərbaycanda neft hasilatı və neft sənayesinin müasir tərəqqiyə qovuşması məhz Heydər Əliyevin adı ilə bağlıdır – həm sovet hakimiyyəti illərində, həm də müstəqil yaşadığımız müasir mərhələdə!

«XX əsrdə Azərbaycanın neft hasilatı, o cümlədən Xəzər dənizində neftçıxarma sahəsindəki uğurları yüksək qiymətə layiqdir. Dünyada neft hasilatı sahəsində həyata keçirilmiş işlərin bir çoxu öz başlanğıcını Azərbaycandan götürmüşdür. Neçə-neçə qazma üsulları, neft texnologiyaları, dənizdə neft çıxarılması üçün yaradılmış nadir Neft Daşları şəhəri Azərbaycan mütəxəssislərini bu sahədə dünyada aparıcı mövqelərə çıxartdı. Keçmiş SSRİ-nin yeni yaranan neft rayonlarının "İkinci Bakı", "Üçüncü Bakı" adlandırılması buna əyani sübutdur. Ölkəmizdə neftçıxarmanın inkişafı elmin kimya, neft kimyası, geologiya kimi, sənayenin

neft maşınqayırması, neftayırma, boru-prokat istehsalı, kimya, neft kimyası kimi sahələrinin yüksək almasına təkan verdi. Azərbaycanda neftlə bağlı sahələr üzrə böyük alim və mütəxəssislər ordusu yarandı.»

«Əvvəlki nəsillərin görkəmli nailiyyətlərini inkişaf etdirərək müstəqil Azərbaycanın bu günü və sabahı üçün böyük tarixi əhəmiyyət kəsb edən neft strategiyasının hazırlanması və həyata keçirilməsi gələcək nəsillər üçün xoş güzəranın təməlini qoydu» (H.Ə.Əliyev).

Prezident Heydər Əliyev dünya azərbaycanlılarına Müraciətində bir xalq rəhbəri olaraq neftimizin misilsiz sərvət kimi məhz Azərbaycan xalqına məxsus olduğunu və onun gələcəkdə *xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədə* xidmət edəcəyini bir daha təsdiqlədi. Bu baxımdan, Azərbaycan prezidenti doğma xalqına, bir dövlət başçısı kimi, etibarlı təminat verir, onun gələcəkdə xoş güzərana qovuşacağını xüsusi qeyd edir. Ölkə başçısının neft siyasəti, onun həmin sahədə həyata keçirdiyi müdrik islahatlar bu nurlu niyyəti, humanist siyasəti aydın sübut edir. Azərbaycanın tarixində ölkə rəhbərləri içərisində ilk dəfə məhz Heydər Əliyev qiymətli sərvətimiz olan neftdən təkcə iqtisadi yüksəliş üçün deyil, eyni zamanda, müstəqilliyimizin möhkəmləndirilməsindən ötrü də özünəməxsus müdriklik və uzaqgörənliklə istifadə etdi. ***«Təbii ki, neft özlüyündə bizim üçün heç də məqsəd deyildir. O, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi, yeni sahələrin yaradılması, xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədlərimizin uğurla həyata keçirilməsi üçün güclü bir vasitədir, əlverişli bir mənbədir. Tam qətiyyətlə demək olar ki, bu vasitədən səmərəli və məqsədyönlü istifadə etməklə, bu mənbədən lazımınca bəhrələnməklə biz yaxın gələcəkdə Azərbaycanı ən yüksək həyat səviyyəli ölkələrdən birinə çevirə biləcəyik. Əslində, yüzilliyin son günlərində biz "Əsrin Müqaviləsi"nin, neft strategiyamızın uğurlu olduğunun bir daha şahidi olduq».***(H.Ə.Əliyev)

İnsan amili, xalqın zəka potensialı və keçmiş irsə münasibət

Müasir dünya siyasətinin nəbzini daim öz əlində saxlayan və bəşəriyyətin inkişaf meyllərini dərindən izləyən dahi siyasətçi *inteqrasiya* və *qloballaşmanın* getdikcə daha güclü reallığa çevriləcəyini nəzərə alaraq doğma xalqının gələcək taleyindən narahat olur. Bu baxımdan, böyük siyasətçi başlıca çıxış yolunu *ilk növbədə Azərbaycanda mövcud olan qüdrətli insan potensialında görür. İnsan amilinə, tarixdə xalqın roluna və zəka potensialına – intellektual potensiala* xüsusi qiymət verən, onu önə çəkən dahi siyasətçi bu mühüm problemə tarixi planda yanaşır və xalqımızın yaradıcı dühasına yüksək qiymət verir: ***«Məhz Azərbaycan xalqının intellektual və yaradıcı imkanları ötən əsrdə, başa çatmaqda olan minillikdə dünya mədəniyyətinə bir çox maddi və mənəvi sərvətlər bəxş etməsi üçün zəmin yaratdı».***

Məhz bu problemin qoyuluşunda **Heydər Əliyevin tarixə baxışının dirçəliş ideologiyasına əsaslandığı** son dərəcə aydın nəzərə çarpır. Xalqın böyük oğlu, doğma Azərbaycanın misilsiz təəssübkeşi bugünkü nəsilləri, bütün müasirlərimizi zəngin tarixi irsimizə layiq olmağa çağırır: ***«Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır».***

Heydər Əliyevin xalqımızın zəka potensialına bəslədiyi dərin inam hissi və verdiyi yüksək qiymət yaxın keçmişin bir xatirəsini gözlərim önündə canlandırdı: *Altayşünasların Koreya Respublikasında (Cənubi Koreya) keçirilən beynəlxalq konqresinə getmişdim. Ölkənin müxtəlif şəhərlərində məruzələrlə çıxış edirdim. Bir dəfə təyyarə ilə Koreya yarımadasının lap cənubundakı Pusan şəhərindən Seula qayıdırdıq. Uçuş zamanı ölkənin bütün ərazisinə nizamsız şəkildə, adda-budda səpələnmiş təpələri seyr edərkən məni müşayiət edən türkoloq dostum Xana zarafatla sataşdım: – "Ölkənizin çox kasıb təbiəti var. Bu cür şəraitdə xalqınızı necə yaşadırsınız?!". Zarafatım Xanı bərk tutdu və söz altında qalmadı. – "Bizim başlıca sərvətimiz gördüyünüz təpələr deyil. Əsas var-dövlətimiz, bax, burdadır" – deyə başının lap ortasını göstərdi və bununla koreya xalqının intellektual inkişaf səviyyəsinə – zəka potensialına işarə etdi! Çox keçmədən Xan sözünü tamamladı: "Bir azdan biz Amerikanı da, Yaponiyanı da arxada qoyacağıq. Özünüz görəcəksiniz!"...*

...Prezident Heydər Əliyevin xalqımızın zəka potensialına dərin inamı hər bir Azərbaycan vətəndaşında gələcəyə böyük ümidlər oyadır. Çox keçməz ki, müstəqil Azərbaycanımız da neçə-neçə ölkələri arxada qoyar!..

"...Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir"

Dövrümüzün böyük dövlət xadimi olmaqla yanaşı, həm də **qüdrətli tarixçi** olan Heydər Əliyevin qələmindən çıxmış **"Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında"** adlı Müraciət tarix elmimizin inkişafına təkan verəcək konseptual əsərdir. Bu qiymətli elmi-nəzəri ümumiləşdirmədə əvvəldən axıradək, bütünlüklə Azərbaycanın keçdiyi tarixi yola nəzər salınır, tariximizin ayrı-ayrı dövrləri, mərhələləri prinsipial şəkildə dəyərləndirilir, bir çox hadisələrə, proseslərə yeni qiymət verilir, ayrı-ayrı hallarda isə **tarixşünaslığımızda ilk dəfə olaraq dövrləşdirmə aparılır**.

Fikrimizcə, Heydər Əliyevin irəli sürdüyü bir ideya, yəni coğrafi amilin, daha doğrusu, Azərbaycanın Şərqlə Qərbi əlaqələndirən mühüm mövqedə yerləşməsinin tarixən xalqımızın inkişafının müxtəlif sahələrində, o cümlədən mədəniyyətimizin formalaşmasında dərin iz buraxması ideyası alimlərimiz qarşısında yeni tədqiqatlardan ötrü geniş meydan açır.

Sovet dövründə tarixçilərimizin və bütövlükdə tarix elmimizin qarşılaşdığı ən ağır əngəllərdən biri də bu idi ki, əldə konkret və zəngin maddi dəlillərin – arxeoloji qazıntı materiallarının olmasına baxmayaraq heç cür "sübut etmək" mümkün deyildi ki, Azərbaycan ibtidai insanların formalaşdığı ərazilərdən olmaqla dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olmuşdur. Bu baxımdan, tarixçi prezidentin yurdumuzu *insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən, ən qədim insan məskənlərindən biri* adlandırması tarix elmimizə çox qiymətli töhfə, tarixçilərimizə isə misilsiz elmi istiqamət və çıxış meydanıdır. Bizə belə gəlir ki, ən qədim tariximizin araşdırıcıları bundan belə Heydər Əliyevin Müraciətində müəyyən olunmuş elmi-nəzəri ümumiləşdirmələrdən istiqamət götürməlidirlər, daha doğrusu, tarix elmimizin dirçəlişinin bünövrəsində məhz ölkə prezidentinin irəli sürdüyü ideyalar, elmi-nəzəri müddəalar, yeniliklər durmalıdır: *«Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o, həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür–Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri,*

Kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur».

Azərbaycan – Şərq və Qərb sivilizasiyalarının qovuşduğu məkan!

Ən qədim zamanlardan başlayaraq, tariximizin ayrı-ayrı mərhələləri dərin elmi əsaslarla təhlil olunan və obyektiv surətdə qiymətləndirilən Müraciətdə eramızdan əvvəl Birinci minilliyin sonu və eramızın Birinci minilliyinin əvvəlindəki dövrə xüsusi diqqət yetirilir.

Böyük dövlət xadimi və tarixçi kimi prezident Heydər Əliyevin bu dövrə xüsusi əhəmiyyət verməsi əbəs deyil. Çünki məhz bu dövrdə Azərbaycan bütün coğrafi istiqamətlərdən, xüsusilə Şərqdən və Qərbdən daha çox siyasi və mədəni təsirlərə məruz qalır, Şərq və Qərb sivilizasiyalarının qarşılaşıb qovuşduğu məkana çevrilir, təkallahlı dinlərin ilkin formalaşdığı və yayıldığı ərazilərdən birinə çevrilir. Xalqımızın, dövlətçiliyimizin, elmi-mədəni irsimizin, ictimai-siyasi baxışlarımızın formalaşmasında çox mühüm dönüş baş verir. İslam dininin yayılması, xüsusilə bu dinin birləşdirici rolu sayəsində ən qədim sivilizasiya ocaqlarından biri olan Azərbaycan ərazisində dünyanın ən qədim və özünəməxsus mədəniyyətlərindən birinin daşıyıcılarından olan Azərbaycan xalqı formalaşır.

Dünyanın ən böyük türk – islam etnoslarından biri olan xalqımızın özünəməxsus keyfiyyətləri Müraciətdə ilk dəfədir ki, elmi cəhətdən tam sərrastlığı ilə, özü də konkret şəkildə dəyərləndirilir: *«Eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyinin əvvəlində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan–Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştlik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur. Karvan yollarının üstündə yerləşərək, "Böyük İpək yolu"nun mühüm mərkəzlərindən biri olmuş Azərbaycan müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir».*

İslamın qəbulundan sonra geniş islam – türk dünyasına qovuşan Azərbaycan xalqı eramızın İkinci minilliyində daha da tərəqqi etdi, özünün qabaqcıl mədəniyyətini həm Şərqə, həm də Qərbə yaydı. Xalqımız çox geniş Avrasiya coğrafi məkanında mədəniləşdirici rol oynadı. Təbiidir ki, özü də ümumbəşəri dəyərlərdən bəhrələnərək daha da zənginləşdi. Bu mühüm məqam, daha doğrusu, xalqımızın həm *dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr verməsi*, həm də ümumiyyətlə insanlığın *mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratması* ideyası tarixə **Heydər Əliyev baxışının əsasında duran milli qürur və humanizm fəlsəfəsidir**. Məhz bu ideya tariximizin göstərilən Müraciətdə elmi cəhətdən tam formalaşdırılmış millî dirçəliş konsepsiyasının mayasını təşkil edir.

Bu həqiqəti daha aydın təsəvvür etmək üçün xalqımızın və Yurdumuzun böyük təəssübkeşinin Müraciətdə bütün xalqımıza bəyan etdiyi çox qiymətli elmi ümumiləşdirmələrə diqqət yetirmək kifayət edər!

***«İkinci minilliyin tarixi ayani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəsti-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Bizim əcdadlarımız ibtidai insanın mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istərsə də, bu günümüzə qədər gəlib çatmış şifahi xalq ədəbiyyatı və yazılı ədəbi irsimiz sübut edir».*(H.Ə.Əliyev)

"Kitabi-Dədə Qorqud" Azərbaycanda hələ bizim eramızdan əvvəl mövcud olmuş böyük bir mədəniyyətdən xəbər verir...

Tarixçi-prezident yuxarıdakı elmi nəticənin tarixi reallıq olduğunu sübut etmək üçün məhz onun qayğısı və fərmanı ilə 1300 illiyi qeyd olunmuş "Kitabi-Dədə Qorqud"u – bütün əvvəlki tariximizlə İkinci minilliyi birləşdirən misilsiz mənəvi mədəniyyət abidəmizi yada salır. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq xalqımızda milli mənlik şüurunun oyanışında misilsiz xidmətləri olan Heydər Əliyev həmişə maddi və mənəvi mədəniyyətimizin inkişafına xüsusi qayğı, himayə göstərmişdir. Nadir şəxsiyyətlərimizin şərəfinə ucaldılmış abidələr də, tarixi-mədəniyyət abi-

dələrimizin və dahi şəxsiyyətlərimizin yubileylərinin beynəlxalq miqyasda qeyd olunması da, zorakı deportasiyalar, soyqırımları barədə tarixi fərmanlar da məhz bu nurlu niyyətin bariz nümunələridir. Heydər Əliyev şəxsiyyəti bütün ömrü boyu xalqımızın öz torpağında qədim mədəniyyət yaratdığını, dünyanın ən qədim oturaq mədəniyyətə malik olan xalqlarından biri olduğunu elmi surətdə əsaslandırmış, bu həqiqəti bütün dünyaya bəyan etmişdir. "Kitabi-Dədə Qorqud" dastanlarının xalqımıza məxsus olduğunu təsdiqləyən tarixi fərman və bu abidəmizin 1300 illiyinin dünya miqyaslı bayram təntənəsinin məhz Azərbaycanda – paytaxtımız Bakıda keçirilməsi Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətlərindən biridir. ***«2000-ci ildə 1300 illik yubileyini təntənə ilə qeyd etdiyimiz "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm bir abidəyə malik olmaq da onu göstərir ki, bu torpaqda hələ bizim eramıza qədərki dövrdə böyük bir mədəniyyət mövcud olmuşdur».***(H.Ə.Əliyev)

Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanına verdiyi qiymət qorqudşünaslığın mövcud olduğu bütün dövr ərzində hələ heç bir alim və ya dövlət xadimi tərəfindən verilməmişdir. **Böyük Azərbaycanlı, dahi dövlət xadimi** və **qüdrətli tarixçinin** bu qəhrəmanlıq abidəmizə yanaşma metodu da tamamilə yeni və yeni olduğu qədər də aktualdır. Tarixçi- prezident Dədə Qorqud boylarını təcavüzkarlara qarşı mübarizə baxımından bu günlərimizlə əlaqələndirir. Eposun mahiyyətcə **qəhrəmanlıq ideologiyası** olduğunu qeyd edən Heydər Əliyev vətən ovladlarını işğal olunmuş torpaqları qaytarmaq üçün yurd təəssübkeşliyinə, mübarizəyə – oğuz igidləri kimi doğma torpaqlarımız uğrunda düşmən üzərində qələbə çalmağa, lazım gələrsə, bu yolda canlarından keçməyə hazır olmağa çağırır: ***«"Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş, böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir. Eposun əsas mahiyyətini qəhrəmanlıq ideologiyası təşkil edir. Ölkəmizin yaşadığı bugünkü mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır».***

İntibah anlayışı, intibah dövrü və tarixi şəxsiyyətlərimiz haqqında

Prezident Heydər Əliyevin dirçəliş konsepsiyasının tarix elmimizə bəxş etdiyi ən nadir töhfələrdən biri də Azərbaycan intibahına verilən qiymətdir.

Nə qədər təəssüf və təəccüb doğursa da, müxtəlif sahələrdən olan tədqiqatçılarımız tariximizdə **intibah** anlayışının möhkəmləndirilməsi üçün xalqımızın layiq olduğundan az iş görmüşlər. Əslində isə Ərəb xilafətinin süqutundan sonra dövlətçiliyimizin dirçəlişi və siyasi oyanışımız sayəsində iqtisadiyyatımızda və mədəniyyətimizdə də böyük intibah baş vermişdi. "Kitabı-Dədə Qorqud"la başlanan bu oyanış mədəniyyətimizin **Nizami** zirvəsinə ucalmış, **Qaraqoyunlular**, **Ağqoyunlular** və **Səfəvilər** dövrlərində də davam etmişdir. Bu baxımdan, prezident Heydər Əliyevin intibah dövrünü, intibah anlayışını tarixşünaslığımızda möhkəmləndirməsi, Cavanşir, Babək, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai kimi tarixi şəxsiyyətlərimizə yüksək qiymət verməsi təkcə elmimiz deyil, xalqımız qarşısında da misilsiz xidmətdir. Tariximizin İntibah dövrünə verdiyi aşağıdakı qiymətlə ölkə başçısı, sanki, bu gün siyasi dirçəlişə nail olmuş doğma xalqını – Yer kürəsinin müxtəlif qitələrinə və məmləkətlərinə səpələnmiş 60 milyonluq dünya azərbaycanlılarını **Yeni Azərbaycan intibahına** səsləyir: ***«Şərqdə, o cümlədən Azərbaycanda təşəkkül tapmış intibah dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir. Bu intibah Azərbaycan xalqının həyatın müxtəlif sahələrində qazandığı böyük uğurlarının məntiqi nəticəsi idi».***

«Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir». **(H.Ə.Əliyev)**

Azərbaycanı, xalqımızı iki yerə bölən müqavilələr...

Sovet dövründə yuxarıdan qoyulmuş yasaqlar nəticəsində tariximizin ən təhrif olunmuş səhifələrindən biri də Gülüstan və Türkmənçay müqavilələrinə verilən qiymət idi. Həmin müqavilələrə tarixi reallığı kobud surətdə təhrif edərək *"Azərbaycanın Rusiyaya birləşməsi"*, *"könüllü surətdə Rusiya*

tərkibinə daxil olması", nəhayət *"birləşdirilməsi"* kimi qondarma qiymətlər verilməsi, *"işğal"*, *"ilhaq olunma"*, *"bölünmə"*, *"böhtdürülmə"* ifadələrini işlədənlərin təqib olunması yadımızdan çıxmayıb. O da yaxşı yadımızdadır ki, 60-cı illərin sonu–70-ci illərin əvvəllərində həmin məsələ ilə əlaqədar öz içərimizdən olan çuğullar erməni millətçiləri ilə və onların Moskvadakı ideoloqu L.S.Şaumyanla birləşərək Rəsul Rza başda olmaqla Azərbaycan ensiklopediyaçılarına (o cümlədən həmin sətirlərin müəllifinə) və xalqımızın qabaqcıl ziyalılarına divan tutmağa çalışarkən bizim hamımızı məhz xalqımızın cəsarətli lideri Heydər Əliyev xilas etmiş, hətta heç birimizə adicə partiya cəzası belə verilməmişdi. Bu gün hər bir azərbaycanlı üçün qürur mənbəyidir ki, dahi rəhbər Gülüstan və Türkmənçay müqavilələrinə *Azərbaycanımızın, tarixi torpaqlarımızın, xalqımızın iki yerə parçalanması, bölünməsi kimi qiymət verir, müstəqil Azərbaycan Respublikasını dünyaya səpələnmiş azərbaycanlıların vətəni, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın və mədəniyyətin məbədi kimi dəyərləndirmişdir:*

«Tarixi proseslərin gedişi ona gətirib çıxartdı ki, 1813 və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanı, onun tarixi torpaqlarını parçaladı, xalqımızı iki yerə böldü. Bu gün tam qətiyyətlə demək olar ki, bütün dünyaya səpələnmiş azərbaycanlılar müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayır, onu milli dövlətçiliyin, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın və mədəniyyətin məbədi kimi yüksək qiymətləndirirlər. Bu, XX əsrdə təşəkkül tapmış azərbaycançılıq ideyalarının böyük vüsət almasının məntiqi nəticəsidir».

XX əsr tariximizin Heydər Əliyev dövrləşdirməsi

Müraciətdə XIX əsrin sonlarından başlayaraq, Azərbaycanın ümumdünya tarixi inkişaf prosesində fəal rol oynamağa başlamasına xüsusi diqqət yetirilir. Prezident Heydər Əliyev tariximizin bu dövrünü sadəcə olaraq yüksək qiymətləndirməklə kifayətlənmir, ona mahiyyətcə tamamilə yeni qiymət verir, bu dövrdə *iri sənaye şəhərinə çevrilmiş Bakını bütün Qafqazın iqtisadi mərkəzi kimi dəyərləndirməklə*, əslində, "Bakı istisna edilməklə Azərbaycanı geridə qalmış feodal-patriarxal ölkəsi" hesab edən Stalin "konsepsiyasını" tarixin tullantıları içərisinə atır: ***«XIX əsrin sonu – XX əsrin əvvəlləri dünyada yeni münasibətlərin bərqərar olduğu bir dövr kimi Azərbaycan xalqının həyatının bütün sahələrində də öz təsi-***

rini göstərmişdir. Bu dövrün ictimai prosesləri iri sənaye şəhərinə çevrilmiş Bakını bütün Qafqazın iqtisadi mərkəzi etmişdir».

Elmi təfəkkürümüzün inkişafında xüsusi səhifə olan **"Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında"** əsərində XIX–XX yüzilliklərin tarixinə xüsusi diqqət yetirilir. Xalqımızın siyasi dirçəliş və dövlətçiliyimizin bərpası uğrunda mübarizəsində, tarixi taleyimizdə çox mühüm rolu olmuş, eyni zamanda, ayrı-ayrı prosesləri, hadisələri, tarixi şəxsiyyətlərinin fəaliyyəti dəhşətli dərəcədə təhrif edilmiş XX yüzilliyin Heydər Əliyev tərəfindən araşdırılması xüsusilə diqqətəlayiqdir. Ömür yolu bu əsrdə keçmiş, ağır və gərgin mübarizələrlə dolu bir həyat yaşamış, Azərbaycanın, SSRİ-nin və ümumiyyətlə, dünyanın tarixi taleyində qüdrətli bir dövlət xadimi kimi mühüm rol oynamış və həmin əsrin ən nadir tarixi şəxsiyyəti zirvəsinə yüksəlmiş Heydər Əliyevin XX yüzilliyin tarixini araşdırması, onun ayrı-ayrı dövrlərinə, hadisələrinə, proseslərinə qiymət verməsi, əslində, gələcəkdə həmin tarixin doğru-düzgün işıqlandırılması üçün çox qiymətli bir ilk mənbə, istiqamətverici elmi xəzinə olacaqdır.

Ən başlıcası budur ki, **Müraciətdə ilk dəfə olaraq dərin elmi-nəzəri təhlil əsasında XX yüzilliklərdəki tariximiz dövrləşdirilir.** Özü də bu dövrləşdirmə xalqımızın keçdiyi tarixi inkişaf yolunun reallıqlarını əks etdirir.

XX əsr tarixinin Heydər Əliyev dövrləşdirilməsində bu yüzillikdə baş vermiş iki başlıca tarixi hadisə – əsrin əvvəlində yaranmış Azərbaycan Xalq Cümhuriyyəti və əsrin sonunda əbədi bərqərar olmuş müstəqil Azərbaycan Respublikası əsas götürülür.

Beləliklə, XX yüzilliyin tarixi dörd mərhələyə ayrılır:

Birinci mərhələ – Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün tarixi zəminin yetişməsi dövrüdür. Bu dövrü sadəcə olaraq **Ərəfə** də adlandırmaq olar. Həmin dövr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə başa çatır.

İkinci mərhələ – Azərbaycan Xalq Cümhuriyyəti dövrüdür (1918–1920).

Üçüncü mərhələ – 1920-ci ilin Aprel işğalından başlanan sovet dövrüdür. Həmin dövr 1991-ci il oktyabrın 18-də "Müstəqillik Haqqında Konstitusiya Aktı"nın qəbul olunması ilə başa çatır.

Dördüncü mərhələ – 1991-ci ilin oktyabrından başlanan müstəqillik dövrüdür, daha doğrusu, müstəqilliyimizin bərpası dövrüdür.

Fikrimizcə, həm tarixi reallıq, həm də dərin elmi-nəzəri əsaslara söykənməsi baxımından **Heydər Əliyev xalqımızın XX yüzillikdəki tarixini elə dövrləşdirmişdir ki, bu tarixi başqa cür dövrləşdirmək, ümumiyyətlə, mümkün deyil. Və yaxud, bu dövrləşdirmədən kənara çıxmaq, sadəcə olaraq, tarixi saxtalaşdırmaq demək olardı.**

Yeri gəlmişkən, belə bir cəhəti xüsusi olaraq qeyd etmək lazımdır ki, **Heydər Əliyev təfəkküründən məhsulu olan Müraciət XX əsr tariximizin güzgüsüdür. Bu sənəddə ötən yüzillikdə yaşadığımız tarixin bütün mərhələlərinə, ayrı-ayrı proseslərinə və hadisələrinə, habelə tarixi şəxsiyyətlərimizə aydın, konkret və düzgün qiymət verilir.**

XX əsr tariximizin **Birinci Mərhələsini** və ya Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına doğru gələn yolu nəzərdən keçirən Heydər Əliyev göstərir: ***«XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxartdı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı. Bu dövrü XX əsr Azərbaycan tarixinin BİRİNCİ MƏRHƏLƏSİ adlandırmaq olar».***

XX əsr tariximizin **İkinci Mərhələsinə**, yəni Azərbaycan Xalq Cümhuriyyəti dövrünün bütün prosesləri və hadisələrinə ilk dəfə ən bitkin elmi-nəzəri və siyasi qiyməti özünün müxtəlif çıxışlarında məhz Heydər Əliyev vermişdir. Bu dövrə böyük siyasətçimiz tərəfindən verilən konkret və birmənalı qiymət belədir: ***Azərbaycan üçün İKİNCİ MƏRHƏLƏ çar Rusiyası dağılandan sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövrdür».***

Cümhuriyyət dövrünü *"ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövr"* kimi qiymətləndirən Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin müxtəlif sahələrindəki fəaliyyətini yüksək dəyərləndirir. Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski və bir çox başqa ictimai-siyasi xadimlərin *Cümhuriyyətin yaradılmasındakı müstəsna xidmətlərini* xüsusi qeyd edir: **"Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Usubbəyov, Mehdi bəy Hacınski, Məmməd Yusif Cəfərov, Xudadat bəy Rəfibəyov, Əkbər ağa Şeyxülislamov, Teymur bəy Makinski, Sə-**

məd bəy Mehmandarov, Əliağa Şıxlinski, Sultan Məcid Qənizadə, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şəfi bəy Rüstəmbəyov kimi görkəmli ictimai xadimlərin xatirəsini qədirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir". Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolunu və Cümhuriyyət xadimlərinin fəaliyyətini belə qiymətləndirir: *«Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır».*

Qeyd etmək istərdik ki, XX əsr tariximizin **Üçüncü Mərhələsini** şərh edərkən Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq məhz Heydər Əliyev tariximizin "**sovet dövrü**" adlandırılan həmin dövrün ilk iki ilini – 1920–1922-ci illəri, daha doğrusu, 1920-ci ilin aprel işğalından 1922-ci ildə SSRİ-nin yaradılmasına qədərki dövrü *müstəqilliyin saxlanılması dövrü* kimi qiymətləndirmişdir. Göstərilən dövrdə Azərbaycanın bir müstəqil dövlət qurumu kimi yaşadığını sübut etmək üçün Heydər Əliyevin gətirdiyi faktların hamısı tarixi gerçəklikdir. İndi də Heydər Əliyevin həmin iki ilə – 1920–1922-ci illərə verdiyi obyektiv tarixçi qiymətinə nəzər yetirək: *«ÜÇÜNCÜ MƏRHƏLƏ 1920-ci ilin aprelindən başlanır. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra da, o öz müstəqilliyini saxlamış, aprelin 30-da Rusiya ilə Azərbaycan arasında hərbi-iqtisadi müqavilə imzalanmışdı. Azərbaycanda xarici ölkələrin nümayəndəlikləri, o cümlədən Rusiya konsulluğu da fəaliyyət göstərirdi. Azərbaycanın bu dövrdə yürütdüyü uğurlu siyasətin təzahürlərindən biri kimi Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində aparılan işlər, Moskva və Qars müqavilələri, Genuya konfransı sayıla bilər. 1920-ci ildə Bakıda Şərq xalqlarının birinci qurultayı keçirildi. Bolşeviklər Şərq ölkələrinin yeni inqilabi dəyişikliklərə can atmaq arzusunda olmadıqlarını gördükdən sonra, öz siyasi məqsədləri naminə Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması ideyasından əl çəkdilər».*

Heydər Əliyevin xalqa Müraciəti tarixə obyektiv baxış nümunəsidir. Daha sərrast deməyə çalışsaq, tarixdə xalqın rolunu unudanlara tutarlı bir

alim cavabıdır. Belə cavaba isə bu gün çox, lap çox ehtiyac var. Çünki yaxın keçmişdə bəzi cahillər tariximizin "sovet dövrünün" üzərindən xətt çəkməyə çalışır, əmək və müharibə qəhrəmanlarını, o zaman fəaliyyət göstərmiş görkəmli ziyalıları gözümçıxdıya salır, onların fəaliyyətini heçə endirməyə çalışır, hətta onları lağa qoymaqdan da çəkinmirdilər. Heydər Əliyev isə Müraciətdə belələrinə kəskin və birmənalı cavab verir: *«1922–1991-ci illər Azərbaycanda Sovet hakimiyyətinin qurulması və 70 il ərzində Azərbaycanın Sovet hakimiyyəti, Sovet dövləti çərçivəsində yaşaması dövrünü əhatə edir. Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmışdır».*

Tarix elmimizin Heydər Əliyev konsepsiyasında İkinci Dünya müharibəsinə mahiyyətcə yeni səpkidə, yəni faşizmə qarşı kollektiv mübarizə səpkisində qiymət verilir. Bununla da, böyük siyasətçi, həm İkinci Dünya müharibəsi cəbhələrində həlak olmuş və faşizmə qarşı ölüm-dirim mübarizəsi aparmış Vətən övladlarının tarixi xidmətlərinə qara yaxmağa çalışanlara özünün obyektiv və kəskin cavabını bəyan edir, həm də alimlərə tarixi obyektiv işıqlandırmaq yolunu göstərir. Həmin yolun konkret məzmunu isə belədir: *«İkinci Dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr olmuşdur. İtaliyada və Almaniyada meydana çıxmış faşizm hərəkatı təkcə həmin ölkələrin xalqlarının deyil, bütün bəşəriyyətin həyatını böyük təhlükəyə məruz qoydu. Faşizm ideologiyası qısa müddət ərzində bir çox ölkələrin iqtisadi imkanlarından istifadə etməklə real dağıdıcı qüvvəyə çevrildi, dünya "olum, ya ölüm" dilemması qarşısında qaldı».* **(H.Ə.Əliyev)**

Müraciətin müəllifi – öz xalqının təəssübkeş oğlu bununla kifayətlənməyərək bir az da irəli gedir və öz fikrini lap açıq bildirir: *«Biz fəxr edirik ki, dünyanın bu taleyüklü probleminin həll olunmasında – faşizm üzərində qələbədə Azərbaycan xalqının da mühüm payı olmuşdur».*

Heydər Əliyev XX yüzilliyin 70-ci illərində geniş Sovet məkanında Azərbaycanın rolunu qaldırarkən Bakı neftçilərinə xüsusi qayğı göstərirdi. O zaman Bakıya "**Qəhrəman şəhər**" adı verilməsi üçün **Böyük Azərbaycanlının** bu sahədə tarixi tədqiqatları dərinləşdirmək barədə göstəriş verdiyi də yadımızdan çıxmayıb. Yaşadığımız günlərdə Heydər Əliyevin xalqa Müraciətindən çox aydın görünür ki, bu böyük şəxsiyyət "sovet dövründə" Azərbaycan neftçilərinin əməyinə layiqincə qiymət verilməməsindən nə qədər narazı imiş. Xalqımızın layiq olduğu, lakin o zaman

verilməyən qiyməti Müraciətdə tarixçi-prezidentin özü vermişdir: *«Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları verdilər. Mübaliğəsiz demək olar ki, İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin əldə edilməsində Bakı nefti həlledici amillərdən biri olmuşdur. Müharibənin ağırlığının böyük bir hissəsini öz üzərinə götürmüş Sovet ordusunun dənizdə, quruda və havada düşmən üzərində üstünlük qazanmasında Bakı nefti misilsiz rol oynamışdır. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, o dövrdə hər beş təyyarə, tank və avtomaşından dördü Bakı mədənlərindən çıxarılaraq Bakının neft emalı zavodlarında istehsal olunmuş benzinlə işləyirdi».*

Heydər Əliyevin xalqımızın İkinci Dünya müharibəsi cəbhələrində göstərdiyi qəhrəmanlığa verdiyi qiymət bu gün ərazisinin 20 faizindən çoxu müvəqqəti olaraq əlindən çıxmış Vətən oğullarına əsl vətənpərvərlik çağırışıdır: *«İkinci Dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox döyüşlü və qəhrəman xalqdır».*

Bu, inkarolunmaz bir tarixi reallıqdır ki, Azərbaycanın müstəqilliyə gələn mübarizə yolunda, oyanışında 1969-cu ildən başlanmış geniş quruculuq işlərinin mühüm rolu olmuşdur. Həmin illərdə həyatın müxtəlif sahələrində baş vermiş dirçəliş milli-azadlıq ideyalarının da canlanmasına səbəb olmuş və nəticə etibarilə o zaman Azərbaycan bugünkü müstəqillik dövrü üçün hazırlanmışdır. Müstəqilliyə qovuşmaq məramı daşıyan bütün bu quruculuq-hazırlıq işlərinin başında məhz haqqında bəhs etdiyimiz Müraciətin müəllifi – Heydər Əliyev şəxsiyyəti dururdu. Lakin xalqa Müraciətində Vətənin böyük oğlu bu əzəmətli quruculuq işlərində öz rolunu qeyd etməyi lazım bilməsə də (və ya təvazökarlıqdan kənar saysa da!) bu böyük həqiqəti qədirbilən xalqımız unutmamışdır! Digər tərəfdən də, yaşlı nəsil 70–80-ci illərin əvvəllərindəki böyük quruculuq işlərinin, o zaman yaşadığımız firavan həyatın və milli oyanışın canlı şahidləridir! Müraciətdə həmin dövrə verilən yığcam qiymət belədir: *«Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi».*

«1970–1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur. SSRİ hökuməti Azərbaycanla əlaqədar, respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Azərbaycan xalqı üçün, həqiqətən tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70–80-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdi». (H.Ə.Əliyev)

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və Moskvada fəaliyyət göstərərkən doğma yurdun keşiyində durduğu dövrdə – 1969–1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2.5 dəfə artmışdı. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 3500 azərbaycanlı oğlan və qız göndərilmişdi.

Beləliklə, Müraciətdə göstərildiyi kimi, *«Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına getgedə daha dərindən inteqrasiya olunması hələ 1970–1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır».*(H.Ə.Əliyev)

Həqiqətən də Heydər Əliyevin apardığı dərin düşünülmüş, uzaqgörən və strateji məqsədə – azad və müstəqil yaşamaq imkanımızın təmin olunmasına yönəlmiş böyük quruculuq işlərinin nəticəsində SSRİ dağılarkən ancaq iki respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilərdi. Bu respublikalardan biri, məhz Azərbaycan idi.

Yuxarıda göstərilən tarixi reallıqlar Heydər Əliyevin xalqa Müraciətində gəldiyi aşağıdakı konkret elmi-nəzəri nəticənin də inkarolunmaz həqiqət olduğunu bir daha sübut edir: *«Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır».* (H.Ə.Əliyev)

Heydər Əliyevin Azərbaycan xalqına Müraciətində SSRİ-nin dağılması ərəfəsində baş verən proseslər, qondarma "Dağlıq Qarabağ problemi", xalq-azadlıq hərəkatı, 20 Yanvar qırğını, o dövrdəki respublika rəhbərliyinin xəyanətkar siyasəti, Azərbaycan Xalq Cəbhəsi hərəkatının fəaliyyəti, bir sözlə, 1993-cü ilədək davam edən daxili-siyasi proseslər, hadisələr addım-addım izlənilir, obyektiv qiymətləndirilir və həmin dövrün tarixi sətirbəsətir gələcək nəsillərə təqdim edilir.

Heydər Əliyev 80-ci illərin sonu – 90-cı illərdəki ümumdünya miqyaslı tarixi hadisələr kontekstində Azərbaycanın düşdüyü vəziyyətə nəzər salarkən göstərir: ***«O dövrdəki Azərbaycan rəhbərliyi sadə bir həqiqəti nəzərə almırdı ki, dünyanın siyasi mənzərəsi böyük surətlə dəyişməkdə idi. Yeni coğrafi-siyasi vəziyyət yeni strategiyaların formalaşmasını tələb edirdi və günün bu tələblərinə Azərbaycan, təəssüf ki, cavab verə bilmədi».***

Müraciətdə qondarma "Dağlıq Qarabağ böhranı"nın başlandığı dövrdə Azərbaycanın kommunist rəhbərliyi ilə Xalq Cəbhəsi rəhbərlərinin, yəni hər iki qüvvənin ölkənin ərazi bütövlüyünün pozulmasına qarşı deyil, əslində hakimiyyət uğrunda mübarizə apardığı qeyd olunur. Təcrübəli siyasətçi real vəziyyəti bütün dəqiqliyi ilə belə qiymətləndirir: ***«Azərbaycan Xalq Cəbhəsi hərəkatı qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, dərin elmi təhlil və siyasi proqnozlar əsasında ümummilli platforma yaratmaq əvəzinə, populist çıxışlara və meydan əhval-ruhiyyəsinə üstünlük verdi. Nəticədə Kommunist Partiyası–Xalq Cəbhəsi xətti üzrə formalaşmış qarşıdurma hakimiyyət uğrunda mübarizə müstəvisinə yönəldildi».***

Obyektiv tarixi gerçəkliyi əks etdirən bu qiymət Müraciətdə aşağıdakı şəkildə tamamlanır: ***«Əfsuslar olsun ki, xalq adından çıxış edən bu insanlar öz şəxsi maraqlarını, öz şəxsi ambisiyalarını, hakimiyyət hərisliyini ümummilli mənafelərdən üstün tutdular».*** **(H.Ə.Əliyev)**

Heydər Əliyevin Müraciətində qondarma "Dağlıq Qarabağ problemi"nə tarixin və zamanın süzgəcindən keçmiş aşağıdakı qiymət verilir: ***«Əgər Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi, Azərbaycana qarşı torpaq iddiaları dururssa, digər qütbündə, – nə qədər acı olsa da, bunu etiraf etmək lazımdır, – bizim bəzi siyasətçilərimizin səriştəsizliyi, hakimiyyət hərisliyi, hədsiz-hüdudsuz şəxsi ambisiyaları durur».***

Göründüyü kimi, bu qiymət o zamankı reallığın özüdür. Həmin acı həqiqəti başqa cür qiymətləndirmək tarixi reallığı danmaqdan başqa bir şey olmazdı. Bəs o zaman xalqımıza bunca müsibətlər bahasına başa gəlmiş bu faciənin qarşısını almaq mümkün idimi?! Bu çətin suala təcrübəli siyasətçi belə cavab verir: ***«Amma yaxın və uzaq tarix göstərir ki, bütün bu hücumlara, bütün bu təqiblərə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi. Əgər bütün Azərbaycan xalqını hiddətləndirən, vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli qürur, milli oyanış, milli dirçəliş hisslərindən konstruktiv şəkildə istifadə olunsaydı, biz bu gün Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmazdıq».***

Bu sərrast və qiymətli cavabda açıq qalan (daha doğrusu, böyük dövlət xadiminin bilərəkdən açıq qoyduğu!) bir fikir ancaq bundan ibarətdir: ƏLBƏTTƏ, O ZAMAN DAĞLIQ QARABAĞ FACİƏSİNİN QARŞISINI ALMAQ MÜMKÜN OLARDI, BU ŞƏRTLƏ Kİ, AZƏRBAYCANA HEYDƏR ƏLİYEV KİMİ TƏCRÜBƏLİ BİR SİYASƏTÇİ, MİLLİ TƏƏSSÜBKEŞLİYİ HƏR ŞEYDƏN ÜSTÜN OLAN BÖYÜK AZƏRBAYCANLI BAŞÇILIQ ETMİŞ OLAYDI!

Müraciətdə göstərildiyi kimi, o zamankı *Azərbaycan rəhbərliyinin bu məsələdə tutduğu laqeyd mövqe isə öz xalqına qarşı əsl cinayət idi.*

"Dağlıq Qarabağ problemi" və 20 Yanvar qırğınının bütün tarixini, onun əsas məqamlarını həqiqətdə olduğu kimi gələcək nəsillərə bəyan edən Müraciətdə *Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin 1990-cı il yanvarın 20-də fövqəladə vəziyyət elan edilmədən Bakını zəbt etməsi və bunun xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edildiyi* açıqlanır. *Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın əksər siyasi və dövlət rəhbərlərinin gəlməməsi, respublika rəhbərliyinin, hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməməsi, xalqın taleyinə biganə qalması qeyd edilir, bununla onların törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdikləri göstərilir.*

Müraciət çox qiymətli bir ilk mənbə kimi xalqımızın gələcək nəsillərinə son dərəcə acı bir həqiqəti də açıqlayır: ***«Hələ Azərbaycanda Sovet hakimiyyəti dövründə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütlələri tərəfindən yığılıb dövlət istintaq komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən Azərbaycandan çıxarılıb aparılmışdı. O dövrdə Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanları müva-***

fiq istintaq tədbirləri həyata keçirməmiş, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən mühüm arxiv sənədləri bütövlüklə və ya qismən məhv edilmişdi». **(H.Ə.Əliyev)**

Bütün bunların başlıca səbəbi o idi ki, göstərilən dövrdə keçmiş sovet respublikalarının, demək olar ki, hamısında yerli rəhbərlər öz xalqları ilə birləşdiyi halda, bütün bu respublikalarda, hətta Rusiya Federasiyasının özündə belə, dövlət suverenliyi haqqında aktlar, bəyannamələr qəbul olunduğu halda: *«O zamankı respublika rəhbərliyi Azərbaycanın dövlət müstəqilliyinə var gücü ilə müqavimət göstərir və onun artıq dağılmış SSRİ-dən çıxmasına hər vəchlə mane olurdu».* **(H.Ə.Əliyev)**

Prezident Heydər Əliyevin Müraciəti daha bir mühüm məsələyə doğru-dürüst, tarixi reallığa əsaslanan və obyektiv həqiqəti əks etdirən qiymətin verilməsi baxımından da misilsiz tarixi sənəddir. Həmin məsələ də bundan ibarətdir ki, bəzi müxalifət liderləri XX yüzilliyin 80-ci illərində "Dünya sosializm birliyi" deyilən sistemin və ona başçılıq edən SSRİ-nin dağılmasına gətirib çıxaran prosesləri, dünya miqyasında gedən qlobal dəyişiklikləri "görməyərək" və ya "görməzliyə vuraraq" Azərbaycanın dövlət müstəqilliyi əldə etməsini "öz xidmətləri" kimi qələmə verir, bununla da xalqın azməlumatlı dairələrini öz arxalarınca aparmaq üçün dəridən-qabıqdan çıxırlar. **Heydər Əliyev öz Müraciətində həm dünya tarixinin dərin bilicisi, həm də böyük nəzəriyyəçi-siyasətşünas kimi belələrinə çox aydın cavab verir:** *«Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi 80-ci illərin birinci yarısından başlayaraq, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsi idi. Bu tarixi və obyektiv proseslər nəticədə SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarixi səhnədən çıxmasına və müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bunun ardınca baş verən hadisələr – yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir hal və beynəlxalq hüquq normalarının qanuni təzahürü idi. Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin müstəsna xidmətləri hesab etmək olmaz. Bu, tarixi obyektiv proseslərin qanunauyğun nəticəsi, taleyin Azərbaycan xalqına və bütün keçmiş SSRİ respublikalarının xalqlarına əvəzsiz töhfəsi idi».*

Öz fikrini tamamlayan dahi siyasətçi həmişə, həyatının bütün məqamlarında doğma xalqının rolunu yüksək qiymətləndirdiyi kimi, bu mühüm məsələyə münasibətində də əvvəlki ənənəsinə sadiq qalır: *«Keçdiyimiz tarixi yola nəzər salarkən aydın olur ki, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və bu sərvətin ayrı-ayrı qurumların, şəxslərin inhisarına alınması heç cür yolverilməzdir».*

XX əsr tariximizin elmi dövrləşdirməsini vermiş böyük tarixçi-siyasətşünas Heydər Əliyev 1991-ci il oktyabrın 18-də "Müstəqillik haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi ilə XX əsr Azərbaycan tarixinin **DÖRDÜNCÜ MƏRHƏLƏSİNİN** başlandığını qeyd edir və bu tarixi dövrün başlıca məziyyətini belə qiymətləndirir: *«Biz o vaxtdan azad, sərbəst yaşayırıq, müstəqil dövlətik. Xalqımız öz taleyinin, torpaqlarının, öz ölkəsinin sahibidir».*

Müraciətdə düzgün olaraq **Dördüncü mərhələ** iki dövrə ayrılır: **1991–1993-cü illər dövrü** və **1993-cü ildən sonrakı dövr.**

Heydər Əliyev öz Müraciətində, əvvəlki mərhələlər və dövrlər kimi, "Müstəqillik haqqında Konstitusiya Aktı"nın qəbul olunmasından (18.X.1991) 1993-cü ilin iyun günlərinədək davam edən dövrü də dərin və hərtərəfli elmi təhlil süzgəcindən keçirir, həmin dövrün bütün hadisələrinə həm ölkədaxili proseslər, həm də ümumdünya hadisələri kontekstində yanaşır, müqayisələr aparır, baş vermiş bütün reallıqları zəngin təcrübəli bir siyasətçi kimi dəyərləndirir və belə bir nəticəyə gəlir ki, **"1991–1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qalmışdı"**. Çünki, Müraciətdə göstərildiyi kimi, *«Bu dövrdə hökumətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət həm də ardıcıl, prinsipial bir kursun olmaması idi. Dövlət idarəçiliyi vahid bir konsepsiya və sistem əsasında deyil, ayrı-ayrı məsul vəzifə sahiblərinin qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar, əksər hallarda bir-birini təkzib edən ziddiyyətli və emosional çıxışlar üzərində qurulmuşdu».* **(H.Ə.Əliyev)**

İndi isə, gəlin, bu mühüm elmi nəticəni tamamlayan və Heydər Əliyev təfəkküründən məhsulu olan Müraciətdən götürdüyümüz aşağıdakı **kəlamlara**, daha doğrusu, **dəyər ölçülərinə** diqqət edək: *«Hakimiyyətdə olan siyasi qüvvələr tərəfindən tez-tez səsləndirilən məsuliyyətsiz bəyanatlar müstəqil Azərbaycan dövlətinin ali məqsədləri və vəzifələri, prinsipləri*

və istiqamətləri haqqında beynəlxalq aləmdə yanlış rəy yaradır, onun sivil dünya dövlətlərindən təcrid edilməsinə səbəb olurdu».

«Belə düşüncəsiz və səriştəsiz siyasət qısa vaxtda AXC – Müsavat hakimiyyətinin ölkə daxilində öz nüfuzunu büsbütün itirməsinə, ölkəmizin regionda və dünyada təklənməsinə, respublika ətrafında faktiki olaraq antiazərbaycan koalisiyasının formalaşmasına gətirib çıxardı».

«Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi».

«Vəziyyət elə təhlükəli xarakter almışdı ki, 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən və yaxud səriştəsizlikdən yaranan idarəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı». **(H.Ə.Əliyev)**

1991–1993-cü illəri yaşayanlar o illərin acı həyat təcrübəsindən yaxşı bilirlər ki, Heydər Əliyevin Müraciətindən – yaxın keçmişin real tarix salnaməsindən götürülmüş yuxarıdakı elmi dəyər ölçülərinə heç nə əlavə etmək mümkün deyil!

Beləliklə, 1993-cü il iyunun ilk günlərində müstəqilliyimiz, bütün Azərbaycanımız məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı, uçurum qarşısında idi. Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı – dünyanın bu böyük siyasət dahisini hakimiyyətə gətirdi. Bununlada Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. Bir sözlə, **1993-cü** ildə Müstəqil Azərbaycan Respublikasının tarixində yeni dövr – **Heydər Əliyev dövrü** başlandı.

Müraciətdə bu böyük tarixi həqiqət çox yığcam və adi bir cümlə ilə şərh olunub: ***«1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi və müstəqil dövlətçilik tarixinin ikinci dövrü başlandı».*** **(H.Ə.Əliyev)**

Heydər Əliyevin xalqa Müraciətində 1993-cü ilin iyun günləri ərəfəsindəki tarixi şərait, o zaman xalqımız və ölkəmiz qarşısında duran olduqca mürəkkəb vəzifələr, onun öz rəhbərliyi altında az vaxt içərisində görülmüş çox böyük və mühüm işlər bütün reallığı ilə öz əksini tapmışdır: ***«1993-cü ilin iyunundan başlayaraq, ilk növbədə hakimiyyət boşluğu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış separatçı qüvvələr və parçalanma meylləri sağlam düşüncəli vətəndaşların, xalqın böyük əksəriyyətinin fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edilməyə başlandı, Azərbaycan dövlətçiliyinə, müstəqilliyə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi və cəzalandırıldı. Dövlət qurumları ilə xalqın birliyi, yekdilliyi təmin edildi, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarda dövlətə və Vətənə mənsubluq hissləri aşılanmağa başlandı».***

İyun günlərində xalqın qarşılaşdığı bu ağır problemlərin necə aradan qaldırıldığını özünəməxsus soyuqqanlılıqla şərh edən dahi dövlət xadimi tarixin onun üzərinə qoyduğu son dərəcə mürəkkəb və taleyüklü çətinliklərin aradan qaldırılmasında *zaman və şəxsiyyət* amilindən, daha doğrusu, tarixi şəxsiyyətin rolundan bəhs etmir (əlbəttə, özü haqqında olduğu üçün!). **Azərbaycanı isə o zaman tarixi şəxsiyyət xilas etdi, məhz Heydər Əliyev şəxsiyyəti!**

Tariximizin 1993-cü ilin iyun günlərindən sonrakı dövründə qazanılmış bütün uğurlarımızın baş səbəbi də məhz qüdrətli tarixi şəxsiyyətlə bağlıdır, HEYDƏR ƏLİYEV şəxsiyyəti ilə! Bütün bu müddət ərzində **Azərbaycan xalqının başında məhz belə bir qüdrətli siyasətçi durur – düşmənlərin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onların aramsız olaraq dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə onilləri – yüzilləri qabaqlayan, qalın-qalın siyasət divarlarının arxasında nələr baş verdiyini ovcunun içərisindəki kimi görən Heydər Əliyev başçılıq edir Azərbaycana! Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkrlərinin, hiylələrinin və ən müasir silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bilir!**

Müstəqillik tariximizin – 1993-cü il iyunundan sonrakı dövrünün – ən mühüm nailiyyətlərindən biri də tariximizin Heydər Əliyev konsepsiyasının formalaşmasının başa çatmasıdır. Əsrin, minilliklərin qovşağında dünyanın bütün azərbaycanlılarına Müraciətdə **Böyük Azərbaycanlı** həmvətənlərimizə, bütün soydaşlarımıza bu sahədə əldə olunanları, tarix elmimizin və tarixi tədqiqatların əsas məram və prinsiplərini belə bəyan edir: ***«Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi ta-***

rixtimizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə açа bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir».(H.Ə.Əliyev)

Dünyanın çoxsaylı xalqlarından, türk dünyasının isə ən böyük xalqlarından biri olan Azərbaycan xalqına müasir dünyada özünün çox mürəkkəb problemlərini həll etmək, qədəm qoyduğumuz XXI yüzillikdə və Üçüncü minillikdə taleyüklü sınaqlardan zəfərlə çıxa bilməkdən ötrü ağır vəziyyətlərə duruş gətirmək psixologiyası, məğlubedilməzlik ruhu, tarixi keçmişimizin qəhrəmanlıq səhifələrini dirçəltmək əzmkarlığı aşılamaq son dərəcə vacibdir. Bu gün hər bir yurddaşımız öz tarixini daha dərindən öyrənməli, ona yiyələnməli, keçmişdə baş vermiş acı səhvlərin bir daha təkrar olunmasına yol verməmək ruhu ilə yaşamalıdır. Bu baxımdan, prezident Heydər Əliyevin Dədə Qorqud dastanlarının 1300 illiyi, xalqımıza qarşı həyata keçirilmiş soyqırımları, sürgünlər, o cümlədən soydaşlarımızın əzəli ata-baba yurdlarından – Qərbi Azərbaycandan (sonralar Ermənistan adlanan ərazidən) zorakı deportasiyası, Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi barədə verdiyi fərmanlar və tarixi çıxışları ilə yanaşı onun dünya azərbaycanlılarına Müraciəti də milli oyanışımızda, xalqımızın özünü dərketmə prosesində, milli-mənəvi dirçəlişimizdə çox mühüm rol oynayacaqdır.

Prezident Heydər Əliyevin "Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında" adlı Müraciəti xalqımızı, dünyanın müxtəlif guşələrinə səpələnmiş bütün azərbaycanlıları, hər bir soydaşımızı, ilk öncə Azərbaycan gəncliyini yeni – böyük Azərbaycan intibahına səsləyən çağırışdır!

ŞAHİN MƏMMƏDOV
Samux rayon İcra Hakimiyyətinin başçısı,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEV İRSİ VƏ AZƏRBAYCANÇILIQ

İdeologiya hər bir cəmiyyətin konkret siyasi situasiyalara aid inkişaf xəttini müəyyənləşdirən ideya və dəyərlər sistemi kimi nəzərdən keçirilir. Cəmiyyətlərin ideologiyasız yaşaması və yaxud inkişafı mümkün deyildir. Çünki yalnız ideologiya insanları ümumi məqsədlər ətrafında səfərbər etməyə qadirdir və onların fəaliyyətinin koordinasiya olunması, eyni zamanda ictimai münasibətlər sisteminin tənzimlənməsi üçün böyük siyasi və psixoloji əhəmiyyət kəsb edir.

Müasir dünyada ideologiyasız dövlət qurmağın mümkünsüzlüyü aksioma kimi qəbul edilməkdədir və bu heç də təsadüfü deyildir. Dövlət ictimai konsensusun, ümumi razılaşmanın məhsuludur və hər bir cəmiyyətdə konsensusun əldə edilməsi üçün hamının eyni dərəcədə inandığı konsepsiyanın irəli sürülməsi tələb olunur. Bu mənada ideologiyanı yaratmadan dövlətin özünü formalaşdırmaq mümkün deyildir. Çünki istənilən cəmiyyətin siyasi elitası «biz dövlət yaradırıq» fikirini elan edərkən, istər-istəməz ictimaiyyətdə belə bir sual meydana çıxacaq: biz bu dövləti niyə və necə yaradacağıq. Təbii ki, təklifi irəli sürənlər bu suala cavab verməlidirlər və həmin cavab qurulacaq dövlətin ideoloji konsepsiyası rolunu oynayır.

1991-ci ildə bütün digər müttəfiq respublikalar kimi, Azərbaycan da öz müstəqilliyini elan edərkən müstəqil dövlət quruculuğu prosesinin konkret olaraq hansı konsepsiya əsasında həyata keçiriləcəyi hələ məlum deyildi. Cəmiyyət özü üçün birmənalı şəkildə bazar iqtisadiyyatına və demokratiyaya keçidə üstünlük verdiyini müəyyənləşdirsə də, bu prosesin necə başa veriləcəyi aydınlaşdırılmamışdı. Ölkənin daxilində cərəyan edən hadisələr isə ictimai-siyasi gərginliyi artırır, siyasi fikir ayrılıqlarının dərinləşməsinə səbəb olurdu. Bu tendensiya 1993-cü ilin əvvəllərinə qədər davam etdi.

Şübhəsiz ki, müstəqilliyin ilk illərində Azərbaycanda ictimai-siyasi vəziyyətin dramatikləşməsinin, eyni zamanda siyasi fikir ayrılıqlarının dərinləşməsinin əsas səbəblərindən biri məhz cəmiyyətin bütün təbəqələrinin

qəbul edə biləcəyi siyasi liderin yoxluğu idi. Azərbaycan Şərq ölkəsi olduğundan burada xilaskar lider axtarışı bütün ekstremal situasiyalarda cəmiyyətin ən optimal seçim variantına çevrilir. 90-cı illərin əvvəllərində isə Azərbaycanda hakimiyyətdə olan siyasi qüvvələr ümumi sosial ehtiyaca çevrilmiş və ictimai iradənin təzahürü kimi özünü göstərən bu istəyi nəzərə ala bilmədilər. Azərbaycan xalqı isə vəziyyətdən çıxış yolunu artıq özü üçün müəyyənləşdirmişdi: Heydər Əliyevi hakimiyyətə dəvət etmək.

1993-cü ildə Heydər Əliyev xalqın təkidli tələblərindən sonra hakimiyyətə qayıtdıqdan sonra milli dövətçiliyin möhkəmləndirilməsi istiqamətində çox qətı addımlar atdı. Qısa vaxt ərzində ölkədə ictimai-siyasi sabitlik bərqərar edildi və bu Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin ən prinsipial əsaslarından biri kimi çıxış etdi. Heydər Əliyev ölkədə davamlı iqtisadi inkişafa nail olmağın konkret yollarını müəyyənləşdirdi. Azərbaycan transregional layihələrin həyata keçirildiyi mühüm ölkəyə çevrildi. Xarici siyasət konsepsiyasında hələ 1991-ci ildə qəbul olunmuş «Müstəqillik haqqında Konstitusiya Aktı»nda elan edilmiş «Azərbaycan bütün dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın tərəfdarıdır» prinsipi real həyatda öz təsdiqini tapmağa başladı. Lakin bütün bunlar Heydər Əliyevin həyata keçirdiyi strategiyanın praktik təzahürləri idi. Bu strategiyanın əsasında isə Azərbaycanda milli dövlətçiliyin strateji inkişaf xətti kimi özünü təsdiq etmiş təkmil bir ideoloji konsepsiya – «Azərbaycançılıq» dayanırdı.

Heydər Əliyevin irəli sürdüyü Azərbaycançılıq ideologiyası cəmiyətdə milli, siyasi və mənəvi birliyin təmin olunmasına istiqamətlənmişdir. Bu ideologiya milli-tarixi təkamül prosesinin həqiqi istiqamətlərini müəyyənləşdirən və Azərbaycan xalqının milli-mənlik şüurunun formalaşmasında yeni bir mərhələnin əsasını qoymuş unikal bir konsepsiya idi.

Azərbaycançılıq ideologiyası milli dövlətçilik şüurunun yaranması, suveren dövlət təsisatının formalaşdırılması və xalqımızın tarixi yaddaşının bərpasına xidmət edən yeni ictimai münasibətlər sisteminin bərqərar edilməsinə gətirib çıxardı. Görünür elə bu səbəbdəndir ki, bu gün Heydər Əliyev bütün Azərbaycan vətəndaşları tərəfindən milli dövlətçiliyin şəriksiz müəllifi kimi qəbul edilməkdədir.

Heydər Əliyev, «Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insandır» deyirdi. Bu qiymətli fikir ümummilli liderin müstəqil Azər-

baycanın vətəndaşlarını necə görmək arzusunu özündə ifadə edirdi. Heydər Əliyev özü məhz bu cür – mənsub olduğu cəmiyyəti düşünərək yaşayırdı və bütün vətəndaşların eyni amala xidmət etməsini arzulayarkən də əsl vətənpərvər mövqeyini nümayiş etdirirdi.

Milli dövlətçilik düşüncəsi artıq XX əsrin sonları, XXI əsrin əvvəllərində vahid ideoloji konsepsiya kimi özünü təsdiq etmişdir. Azərbaycanın ümumi sosial-siyasi inkişafı, cəmiyyətdaxili münasibətlər sistemi məhz bu ideologiyaya əsaslanırdı. Tarixi proseslərin mürəkkəb ictimai-siyasi xarakterini ardıcıl şəkildə araşdırarkən bunu görməmək sadəcə mümkün deyildir və etiraf etmək lazımdır ki, əgər Azərbaycan dövlətinin varlığını qoruyub saxlamaq üçün belə bir ideologiya irəli sürülməsəydi, Azərbaycan xalqının XX əsrin mürəkəb geosiyasi və iqtisadi reallıqları fonunda özünütəsdiqi də mümkün olmazdı.

«Azərbaycanın dövlət müstəqlliyi Azərbaycan xalqının tarixi nailiyyətidir» - deyən Heydər Əliyevin ən böyük xidmətlərindən biri də bundan ibarətdir ki, o azərbaycanlıların vahid bir etnik-siyasi toplum kimi tanınmasını təmin edən ideologiya yaratmaqla, həm də yeni və sağlam nəslin yetişdirilməsi üçün kifayət qədər mükəmməl bir şərait formalaşdırdı. Nə qədər çətin və ağrılı mərhələlərdən keçsə də Heydər Əliyevin yaratdığı Azərbaycançılıq ideologiyası tarixin sınaqlarından uğurla çıxa bildi və bu onun müəllifinin kifayət qədər müdrik şəxsiyyət olduğunu təsdiqləyən növbəti faktdır.

Azərbaycançılıq ideologiyası milliliklə müasirliyi, dinə sonsuz inamla tolerantlığı, demokratik düşüncə ilə dövlətçilik şüurunu elə mükəmməl bir səviyyədə özündə birləşdirir ki, onun söykəndiyi dəyərlər sistemi bütövlükdə Azərbaycan xalqının ümumi xarakterini müəyyənləşdirir. Bu ideologiya adi bir həyat hadisəsi yox, müasir dünyanın mürəkkəb geosiyasi reallıqları fonunda öz xalqının milli mentalitetinə və demokratik prinsiplərə əsaslanan qüdrətli dövlət yaratmış böyük bir siyasi xadimin idarə etdiyi tarixi proses kimi özünü göstərmişdir. Heydər Əliyev Azərbaycançılıq ideologiyasının həyata keçirilməsini başlıca vəzifələrdən biri kimi qiymətləndirirdi: «Bu ideologiyanı qurmaq, yaratmaq, təşkil etmək, eyni zamanda əməli sürətdə həyata keçirmək lazımdır».

Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyllərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi ahəngdar şəkildə özündə birləşdirən Azər-

baycançılıq ideologiyası məhz buna görə də çox müxtəlif coğrafi regionlarda, siyasi-sosial sistemlərdə, mədəni mühitlərdə formalaşmış bütün Azərbaycanlılar üçün cəlbedici və perspektivlidir. Azərbaycançılıq məfkurəsinin belə sistemli xarakteri cəmiyyəti vahid ideyalar ətrafında birləşdirmək işini daha müvəffəqiyyətlə həyata keçirməyə imkan verən əsas amillərdən biridir.

Azərbaycançılıq ideologiyasının digər bir vacib xüsusiyyəti onun daxili rəngarəngliklə bərabər, konseptual bütövlüyü, milli özünüdərkə imkan verən tamlığı, müəyyənliyidir. Digər ideoloji meyllərdən - islamçılıqdan, avropaçılıqdan, türkçülükdən, avrasiyaçılıqdan fərqli olaraq, azərbaycançılıq hər bir azərbaycanlının milli özünədərkinə, milli müəyyənliyinə, özünü digər toplumlardan fərqləndirməsinə imkan verir. Şübhəsiz ki, yenicə azadlığa qovuşmuş Azərbaycan cəmiyyəti üçün həm ayrı-ayrı fərdlərin azərbaycanlı kimi milli özünədərki, həm də onların vahid milli ideya ətrafında birləşməsi baxımından bu çox mühüm amildir.

Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarının vahid amal ətrafında birləşdirilməsini də nəzərdə tuturdu. Məlum olduğu kimi, milli həmrəylik hər bir xalqın tarixi inkişafını, iqtisadi və siyasi yüksəlişini təmin edən əsas amillərdən biri kimi çıxış edir. Bu gün dünyanın ən inkişaf etmiş dövlətləri məhz məxsus olduqları xalqların vahid ideya ətrafında birləşməsi nəticəsində belə yüksək nailiyyətlərə qovuşa bilmişlər. Bu baxımdan müstəqil Azərbaycan dövlətinin indiyə qədər əldə etdiyi uğurlarda milli həmrəylik faktorunun rolu danılmazdır. Məhz bu həmrəylik xalqımızı ən çətin vaxtlarda tarixin sınaqlarından üzüağ çıxardı, respulikamızın müstəqil dövlət kimi dünya siyasi arenasında özünütəsdiqinə imkan yaratdı. Sovet İttifaqının dağılmasından sonra bütün keçmiş müttəfiq respublikalarda özünü büruzə verən siyasi xaos və anarxiya Azərbaycanda xalqın ümumi həmrəyliyinin və birgə iradəsinin sayəsində aradan qaldırıldı.

Azərbaycan istiqlaliyyətini bərpa etdikdən sonra milli birliyin təminatı, dünya azərbaycanlılarının vahid milli mənafe ətrafında birləşdirilməsi dövlət quruculuğunun əsas vəzifələrindən biri kimi ortaya çıxdı. Müstəqilliyə yeni qədəm qoymuş ölkədə bu mühüm vəzifənin yerinə yetirilməsi bir çox ideoloji, siyasi, sosial-iqtisadi məsələlərin həllinə bağlı idi. Ancaq milli potensialın dünya miqyasında səfərbər edilərək vahid məqsədə yönəldilməsi dövlətçiliyin qorunmasına və inkişafına zəmin olduğundan ölkəmizdə az müddətdə bu sahədə sözün həqiqi mənasında mühüm işlər görüldü. Dünya-

nın müxtəlif yerlərində məskunlaşmış azərbaycanlıların müttəşəkkil diaspor kimi formalaşması, lobbiçiliyin təşkili Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Bu isə respublikamızda aparılan dövlət siyasətinin ümummilli mənafelərə əsaslandığını göstərirdi. Azərbaycan Respublikası dünya azərbaycanlıları tərəfindən xalqın milli tarixi təkamül prosesinin məntiqi nəticəsi olaraq qəbul edilməyə başlamışdı.

Uzun illər ərzində totalitar bir sistemin amansız qanunları altında yaşamış Azərbaycanda dövlət maraqları ilə milli mənafeyin vəhdətinə əsaslanan yeni dövlət quruculuğunun start götürməsi ictimai şüurda inqilabi hadisə, milli təkamüldə keyfiyyətcə yeni mərhələ idi. Bu mərhələnin səciyyəvi cəhətlərindən biri də dünya azərbaycanlılarının vahid amal ətrafında birləşdirilməsi istiqamətində atılmış addımlar oldu. 2001-ci ildə Bakıda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi Azərbaycan tarixinə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsi prosesinin başlanğıcı kimi daxil oldu. Qurultaydakı çıxışında ümummilli lider Heydər Əliyev tədbiri dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində mühüm hadisə kimi xarakterizə etmişdi: «Bu qurultay dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin yaranması və inkişaf etməsi sahəsində mühüm əhəmiyyətə malikdir və demək olar ki, müstəqil Azərbaycanın həyatında tarixi hadisədir. Bu gün keçirilən qurultay xaricdə yaşayan soydaşlarımızın daha da həmrəy olması, təşkilatlanması üçün yeni bir mərhələnin başlanğıcıdır».

Bu mühüm hadisədən sonra Azərbaycan dövləti bütün dünya azərbaycanlılarının tarixi və siyasi istinadgahına, dayaq nöqtəsinə çevrilmişdir. Tarixi prosesləri mürəkkəb ictimai-siyasi xarakterini ardıcıl şəkildə araşdırarkən çox aydın şəkildə görünür ki, Azərbaycan dövlətinin varlığını qoruyub saxlamaq mümkün olmasaydı, onda Azərbaycan xalqının və deməli həm də onun dünyanın müxtəlif nöqtələrinə səpələnmiş nümayəndələrinin taleyi şübhə altında qala bilərdi. Heydər Əliyevin tarixi xidmətlərindən biri də bundan ibarətdir ki, o dünya azərbaycanlılarının vahid bir etnik-siyasi toplum kimi tanınmasını təmin edən ideologiya yarada bilmişdir.

Azərbaycançılıq ideologiyasının yeni cəmiyyət quruculuğunda stimulverici amilə çevrilməsi Azərbaycanda həqiqi milli dövlətin formalaşmasını şərtləndirir. Heydər Əliyev bu ideologiyanı irəli sürməklə bütün sosial təbəqələri, siyasi qütbləri və cərəyanları eyni məqsəd ətrafında birləşdirməyin konkret yolunu göstərdi. Azərbaycançılıq ideologiyasının təməl

prinsiplərindən biri və bəlkə də birincisi milli dövlətçilik anlayışı ilə bağlı idi. Milli dövlətçilik bütün azərbaycanlılar üçün eyni səviyyədə cazibə qüvvəsinə malik fundamental vəzifə kimi nəzərdən keçirilirdi.

Azərbaycançılıq ideologiyası Azərbaycan Respublikasının hər bir vətəndaşının və Azərbaycanın hüdudlarından kənarda yaşayan hər bir azərbaycanlının ümumi maraqlarının reallaşdırılması mexanizmi kimi cəmiyyətə təqdim olunmuşdur. Bu yanaşma ictimai şüurda yeni steorotiplərin formalaşmasının əsasını qoydu. Azərbaycanlılar ölkənin gələcək rifahının və təhlükəsizliyinin təmin olunması üçün vahid ideya ətrafında birləşməyin zəruriliyinə dərk etməyə başladılar. Və yalnız bundan sonra respublikada ictimai-siyasi sabitliyin yaradılması, iqtisadi islahatların həyata keçirilməsi, beynəlxalq aləmlə münasibətlərin tənzimlənməsi üçün real psixoloji zəmin formalaşdı.

Bütün bunlar bir daha göstərir ki, Azərbaycan xalqının ümummilli lideri möhtərəm Heydər Əliyevin milli dövlətçilik tariximizdə müstəsna rol oynadığı bizim hamımızın şahidi olduğumuz adi və adi olduğu qədər də böyük bir həqiqətdir. Azərbaycanın mürəkkəb bir tarixi şəraitdə dövlət müstəqilliyini qoruyub saxlamağa müvəffəq olması, ölkəmizdə həyata keçirilən qlobal iqtisadi layihələrin uğurlu nəticələri, beynəlxalq münasibətlər sistemində Azərbaycanın mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi Heydər Əliyevin fədakar siyasi fəaliyyətinin məntiqi təzahürü kimi tarixə düşmüşdür. Bu mənada böyük liderin xatirəsinin milli yaddaşımızın və tarixi şüurumuzun şərəfli bir hissəsinə çevrildiyi heç kimdə şübhə doğurmur.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda böyük bir ideoloji doktrinanın, milli dövlətçilik fəlsəfəsinin və milli mənlik şüurunun formalaşmasının əsasını qoymuşdur. Məhz ümummilli liderimizin fədakar mübarizəsi sayəsində son on il ərzində ölkəmizdə həyata keçirilən islahatların miqyası və nəticələri belə deməyə əsas verir ki, artıq respublikamızda cəmiyətin bütün sosial təbəqələrinin mənafelərini müdafiə etmək gücünə malik dövlət qurulmuşdur və onun daha da inkişaf etdirilməsi üçün tələb olunan zəruri potensial formaladırılmışdır.

Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna rolunu qısa şəkildə bu cür də qiymətləndirmək olar: Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi və Azərbaycançılıq ideologiyasının şəriksiz müəllifidir.

Bütün bu qeyd olunan məqamlar Heydər Əliyev haqqında Azərbaycanda uzun illərdən bəri formalaşmış və möhkəmlənmiş ictimai təsəvvürləri

özündə ehtiva edir. Xalqımızın son beş yüz illik tarixində milli dövlətçiliyimizin formalaşmasında Heydər Əliyev qədər böyük rol oynamış ikinci bir şəxsiyyət tapmaq mümkün deyildir və bu danılmaz həqiqət tarixin istənilən mərhələsində, hətta yüz illər bundan sonra da öz aktuallığını qoruyub saxlayacaqdır.

Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası müstəqil Azərbaycan dövlətçiliyinin ideya-siyasi məzmununu, onun söykəndiyi dəyərlər siteminin mahiyətini özündə ehtiva edən mükəmməl bir konsepsiyadır. Ümummilli liderimizin Azərbaycan xalqının inkişaf və tərəqqi yolu kimi irəli sürdüyü bu konsepsiya ona tarixin yaddaşına əbədi olaraq həkk edilmək haqqı qazandırmışdır.

Bu da təbiidir. Heydər Əliyev elə bir tarixi şəxsiyyətdir ki, onun siyasi fəaliyyətinin araşdırılmasına həmişə ehtiyac duyulacaqdır. Bu gün Azərbaycançılıq ideologiyası Azərbaycan dövlətinin inkişaf modeli kimi qəbul edilməkdədir. Heydər Əliyevin yaratdığı mükəmməl idarəetmə sistemi Azərbaycanın bir dövlət olaraq iqtisadi və siyasi anlamda möhkəmlənməsinə və dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşına çevrilməsinə rəvac vermişdir və bütün bunlar hamının gözü qarşısında həyata vəsiqə qazanmış tarixi nailiyyətlərdir.

Yuxarıda qeyd olunmuş məqamlar tam qətiyyətlə söyləməyə imkan verir ki, Azərbaycançılıq ideologiyası Heydər Əliyev siyasi irsinin ən qiymətli nümunələrindən biri olaraq qalacaqdır. Bu ideologiyanın mövcudluğu nəticə etibarilə həm də Azərbaycan dövlətinin mövcudluğu deməkdir. Çünki Azərbaycançılıq Azərbaycanın yeganə və alternativsiz inkişaf konsepsiyasıdır.

Ən müxtəlif nəzəriyyələrdə dövlət ictimai həyatın təşkilinin ayrı-ayrı fərdlərin cəhdləri ilə yaradıla bilməyən mürəkkəb və təkrarsız forması kimi nəzərdən keçirilir. Müasir siyasi konsepsiyalarda belə bir qənaət tam qətiyyətlə vurğulanır ki, heç bir dövlət cəmiyyətin ötəri məqsədləri əsasında formalaşmır, əksinə insanları hər zaman ümumi ictimai məqsəd, konkret ideyalar birləşdirir. Hər hansı cəmiyyətdə insanları birləşdirən və onların fərdi maraqlarını kompleks şəkildə özündə ifadə edə bilən ideyalar olmadan dövlətin yaranması və inkişafı mümkünsüzdür.

Bununla belə tam əminliklə demək olar ki, heç bir nəzəriyyə dövlətin yaranmasında və yaşamasında şəxsiyyətlərin rolunu inkar etmir. Çünki məhz konkret şəxsiyyətlər cəmiyyəti ümumi, elan edilmiş, lakin hələ hə-

yata keçirilməmiş ideyalar ətrafında birləşdirməyə qadirdir. Cəmiyyətin siyasi və iqtisadi mənafeləri, gələcək haqqında təsəvvürləri məhz ayrı-ayrı şəxsiyyətlərin təklif etdiyi və hamını inandıra bildiyi reallaşdırma mexanizmləri əsasında gerçək həyat hadisəsinə çevrilə bilər. Bu mənada Heydər Əliyev siyasi irsinin Azərbaycan tarixindəki rolunu araşdırarkən bu böyük dövlət xadiminin şəxsi siyasi keyfiyyətlərini diqqət mərkəzində saxlamaq lazım gəlir. Heydər Əliyev təklif etdiyi ideyalara bütün cəmiyyəti inandırmağı bacarırdı. Onun siyasi fəaliyyətinin bütün mərhələlərində biz bunun əyani şahidi oluruq.

Azərbaycançılıq ideologiasının bir konsepsiya olaraq mükəmməl xarakter daşıması onun cəmiyyət həyatının bütün sahələrinin inkişaf istiqamətlərini dəqiq şəkildə müəyyənləşdirə bilməsindədir. Burada iqtisadiyyatın, siyasi həyatın, milli dövlətçiliyin, milli-mənəvi dəyərlərin qorunmasının, xalqın elmi intellektual potensialının zənginləşdirilməsinin, ölkənin yeni dünya düzəninə inteqrasiyasının, demokratikləşmənin – bir sözlə bütün sahələrin ümummilli mənafelər kontekstində inkişafının konkret istiqamətləri və prinsipləri öz əksini tapmışdır.

Bu gün XXI əsrin əvvəllərində Azərbaycan siyasi münasibətlər sisteminin inkişaf səviyyəsinə, iqtisadi tərəqqinin sürətinə görə əksər postsovet ölkələrini geridə qoyur. Bu nailiyyətin əsasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ötən əsrin 90-cı illərində Azərbaycanda hakimiyyətə gəlişinin doğurduğu məntiqi nəticələrin rolu həlledici olmuşdur. Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyasının başlıca məqsədi respublikanı beynəlxalq münasibətlər sisteminin bərabərhüquqlu üzvünə çevirmiş, iqtisadi inkişafın əsaslarını müəyyənləşdirmişdir. Bu gün Azərbaycan yeni bir mərhələyə qədəm qoymaqdadır. Azərbaycan Prezidenti İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, Heydər Əliyevin müstəqil respublikamıza rəhbərlik etdiyi on il ərzində ölkədə davamlı inkişafa nail olmaq üçün mükəmməl baza yaradılmışdır. Bu baza məhz ümummilli liderimizin müəllifi olduğu milli inkişaf konsepsiyasının fundamental prinsipləri əsasında formalaşdırılmışdır. Böyük Heydər Əliyevin əsasını qoyduğu bu konsepsiya - Azərbaycançılıq ideologiyası müstəqil Azərbaycan dövlətinin müasir dünyanın mürəkkəb geosiyasi şərtləri daxilində inkişafını təmin etməyə qadir milli inkişaf modeli kimi hər zaman öz aktuallığını saxlayacaqdır.

MİRKAZIM KAZIMOV
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

AZƏRBAYCANÇILIQ – HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU PRİNSİPİDİR

Azərbaycan xalqının çoxəsrlik tarixinin son yüzilliyində yetirdiyi dahi və ən böyük şəxsiyyətlərindən biri olan Ümummilli liderimiz Heydər Əliyevin öz xalqı və dövləti qarşısında xidmətləri misilsizdir. XX əsrin siyasi tarixində ən yüksək zirvəyə yüksəlmiş Böyük öndər özünün 80 illik şanlı həyatının yarım əsrdən çoxunu Azərbaycana, onun sosial-iqtisadi tərəqqisinə, dövlət müstəqilliyinin bərpasına və möhkəmləndirilməsinə, dünya birliyinə qovuşmasına, xalqın rifah halının yaxşılaşdırılmasına həsr etmişdir. Bu dahi şəxsiyyətin ürəyi öz xalqı ilə, öz vətəni ilə birgə döyünürdü. İyirminci yüzilliyin böyük mütəfəkkir-şəxsiyyəti kimi tarixə qovuşmuş Heydər Əliyev özü bunu belə ifadə edirdi: "Mən bütün həyatımı Azərbaycana, xalqıma həsr etmişəm. Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram".

Heydər Əliyevin ən böyük xidmətlərindən biri ölkədə Azərbaycançılıq ideologiyasının yaranmasını və möhkəmlənməsini, onu bütün dünyada yaşayan 50 milyondan artıq Azərbaycanlının milli ideyasına, ümummilli ideologiyasına çevirməsi oldu.

Dünya azərbaycanlılarının birinci qurultayındakı geniş nitqində Azərbaycan dövlətinin əsas ideyasından danışan Ümummilli liderimiz Heydər Əliyev qeyd edirdi ki, "hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Heydər Əliyev Azərbaycançılıq ideologiyasını şüar və ya bir çağırış kimi irəli sürməmişdi. O bildirirdi ki, bu ideologiyanın əsasını millilik, dövlətçilik, müstəqillik, dünyəvilik, insanlar – vətəndaşlararası bərabərlik və bütövlükdə milli tərəqqi təşkil edir. Azərbaycançılıq ideyası ətrafında öl-

kədə yaşayan bütün xalqlar, milli-etnik qruplar və azlıqlar – talışlar, ləzgilər, avarlar, tatlar, kürdlər, udinlər, kumıklar və başqaları birləşir. Müxtəlif milli-etnik qrupların yaşadığı çoxdinli, çoxmillətli, çoxdilli Azərbaycan üçün reallıq olan bu ideologiya çox məqbuldur.

Müəllifi Heydər Əliyev olan Azərbaycançılıq ideologiyasının mərkəzində bütün Azərbaycan cəmiyyətinin birliyi, vəhdəti, vətəndaşların talleyi durur. O, Azərbaycanın hər bir vətəndaşının prezidenti, lideri olduğu kimi, onun yaratdığı ideologiya da ölkənin hər bir sakininə xidmət edən ideologiyadır. Böyük Öndərin ali məqsədi, ideyası, həyat qayəsi Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, ölkənin iqtisadi tərəqqisini, xalqın rifahını yüksəltmək idi. Dövlət başçısı, siyasi lider olaraq Heydər Əliyev milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq ölkənin bütün vətəndaşlarının hüquqlarının qorunmasının təminatçısı idi. Ulu öndər qeyd edirdi ki, ölkə əhalisinin tam əksəriyyəti azərbaycanlıdır. "Azərbaycanlı" məfhumu isə çox geniş və əhatəlidir. Xalqımızın minilliklərdən gələn kökünə baxsan, bir qismi o kökdən, bir qismi bu kökdən gəlib. Amma bu insanların hamısı əsrlər boyu bir millət – azərbaycanlı kimi formalaşıb. "Azərbaycanlı" sözü bu ərazidə birləşdirici rolunu oynayıb.

"Azərbaycançılıq" məfhumunda birləşdirilən və bir sıra mühüm cəhətləri: dil, adət-ənənə, mədəni-mənəvi və dini dəyərləri və digər amilləri əhatə edən milli ideologiyamız daha yığcam və konkret olur.

Azərbaycançılığın əsas amili olan Azərbaycan dili ən birləşdirici amildir. Azərbaycan ərazisində əsrlərlə yaşayan və bu yerlərin daimi sakinləri olan milli-etnik qrup və azlıqlar Azərbaycan dilində sərbəst danışır, bir çoxları özlərini "azərbaycanlı" adlandırırlar. Müxtəlif mənşəli azərbaycanlılar eyni coğrafi ərazidə, mədəni-mənəvi mühitdə formalaşmaqla yanaşı, ümumi dil kimi qəbul olunmuş Azərbaycan dilini yaxşı bilir, əksəriyyəti bu dildə təhsil alır, bədii nümunələr yaradır, elmi tədqiqatlar aparır. Yüzilliklərlə birgə yaşayış, birgə təsərrüfat fəaliyyəti, qarışıq nikahlar, Azərbaycan xalqının yalnız milli müstəvidə deyil, həm də etnik müstəvidə bir millət – Azərbaycanlı kimi formalaşmasının əlamətidir.

Azərbaycançılığın əsas amili, sementləşdirici elementi milli dil – Azərbaycan dili amilidir. Azərbaycançılıq ideyasının möhkəmlənməsində, ümummilli ideya statusu almasında Böyük öndər əsas və başlıca yeri Azərbaycan dilinə verirdi. Bu məqsədlə o, latın əlifbasına keçmək barədə qərar qəbul etdi. İndi ölkədə bütün dövlət və qeyri-dövlət qurumları

yalnız latın qrafikasından istifadə edir. Bu da xalqımızın milliliyini, azərbaycançılığını göstərən mühüm amildir. Dövlət ana dilinin, dövlət dilinin inkişaf etdirilməsi üçün ardıcıl tədbirlər müəyyənləşdirib həyata keçirir.

Böyük öndər dilə münasibətdən danışarkən qeyd edirdi ki, "hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanmasında öz xidmətini göstərmişdir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatçılarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. İndi bizim dilimiz zəngindir, məlahətlidir, şirindir və bütün fikirlərin ifadə edilməsi üçün böyük söz ehtiyatına malikdir".

Ümummilli liderimiz Azərbaycançılığı yaşatmaq, onu xalqımızın daimi olaraq milli ideologiyası etmək üçün millətimizə, dünyada yaşayan bütün azərbaycanlılara ana dilinə xüsusi diqqət yetirməyi tövsiyə edirdi. Ulu öndər dünya azərbaycanlılarının birinci qurultayındakı tarixi nitqində qeyd edirdi ki, "xalqları dil qədər, milli-mənəvi ənənələr qədər birləşdirən başqa bir vasitə yoxdur. Mən arzu edərdim ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər. Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Bizdən sonra gələn nəsillər, sizin, bizim övladlarımız azərbaycançılığı daha yüksəklərə qaldırsınlar. Azərbaycan dilini, milli-mənəvi dəyərlərimizi daim yaşatsınlar".

Hər bir xalqın əlindən alınan hər şeyi bərpa etmək mümkündür, ancaq onun dili əlindən alınarsa, o, məhvə məhkum olur. Dilini itirməklə xalq özünü itirir. Ulu öndər Heydər Əliyevin böyüklüyü və dahiliyi ondadır ki, o, ana dili – Azərbaycan dilinin qorunub saxlanmasını xalqın varlığının, dövlətin müstəqilliyinin əsası sayırdı.

Azərbaycançılıqda dini amil, ilk növbədə islam dini xüsusi əhəmiyyət kəsb edir. O da çox önəmlidir ki, bizdə nə fanatizm, nə də dini ekstremizm və başqa dinlərə pis münasibət halı var. Azərbaycanda islam dini başqa dinlərdən fərqli olaraq, dini etiqadla yanaşı, eyni zamanda həyat tərzi və mənəvi əxlaqdır. Bu baxımdan islam amili ölkə həyatında dindən çox birləşdirici amil kimi özünü büruzə verir və dillə bərabər "Azərbaycançılıq" ideologiyasının əsas elementi olaraq qalır. Bu vacib xüsusiyyətə diqqət yetirən Ulu öndər qeyd edirdi ki, "hər xalqın öz adət-ənənəsi var,

öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənəmizlə fəxr edirik. Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq".

Xalqımızın milli inkişafında, özünü tanıtmasında ədəbi fikrin və milli folklorun böyük təsiri olmuşdur. Bu baxımdan xalqın həyata və dünyaya baxışı, milli xarakteri bədii əsərlərdə və şifahi ədəbiyyatda öz əksini tapmışdır.

Azərbaycançılıq ideologiyası Qərb və Şərq dəyərlərinin sintezindən yaranan bir xəttdir. Azərbaycanın Avropa ilə Asiyanın qovuşuğu olan bir coğrafi məkanda yerləşməsi, müəllifi Böyük Heydər Əliyev olan Azərbaycanın neft strategiyası, Bakı-Ceyhan və Bakı-Ərzurum kimi nəhəng neft-qaz nəqli layihələri, TRASEKA Avropa-Asiya nəqliyyat dəhlizi layihəsi kimi qlobal və transmilli xarakter daşıyan layihələrin mərkəzində bizim ölkənin olması Azərbaycançılıq ideologiyasını milliliklə yanaşı, özünəməxsus dünyəvilik səviyyəsinə də qaldırır.

Azərbaycançılıq unikal bir ideologiyadır. Bu məfhumda mədəni inteqrasiya, mədəniyyətlərarası dialoq, ünsiyyət, mədəni dəyərlərin birləşdirici xüsusiyyətləri yüksək dərəcədə kamil və cəzbedicidir. Ona görə azərbaycançılıq ilk növbədə, öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub-saxlamaq deməkdir. Bu baxımdan o milli olmaqla yanaşı, həm də bəşəridir, dünyəvidir. Azərbaycançılıq bir təlimdir. O elə bir təlimdir ki, burada dövlətin və cəmiyyətin mənafelərinə xidmət edən məqbul amillər, əməllər və tədbirlər toplanmışdır.

Tarixdən məlum olduğu kimi, Azərbaycan min illər boyu müharibələr meydanı olub. Yer kürəsində çox az ölkə var ki, Azərbaycan qədər müxtəlif imperiyalar arasında bölgü predmeti olsun. Kimin əsarətinə keçməsindən asılı olmayaraq xalq öz dilini və dini etiqadını qoruyub saxlayıb. İstər yerli xalq olan Azərbaycan xalqı, istərsə də gəlmə xalqlar birbirlərinin mənəvi dəyərlərindən, adət-ənənələrindən özləri də bilmədən bəhrələnib, daha da zənginləşiblər. Azərbaycan xalqının humanistliyi, xeyirxahlığı, mərhəmətli olması da elə bundadır.

Bəşəriyyətin ilk insan məskənlərindən biri Azərbaycan olduğundan dini etiqadların, mənəvi inamların ilk yeri də bizim məmləkət olub. Azərbaycan qədim zamanlardan Qafqaz regionunda, bütün Şərqdə əhalisi ən çox olan məkanlardan biri olub. Burada insanların çoxsaylı olması Azərbaycanın əlverişli iqlim şəraiti, münbit torpağı, təbii sərvətlərinin zənginliyi, beynəlxalq ticarət və nəqliyyat yollarının üzərində yerləşməsinin nəticəsidir. İlk insan məskənləri və mədəniyyət abidələri – Azıx mağarası, Daşsalahlı, Tağlar mağarası, Naxçıvandakı Kültəpə, Cənubi Azərbaycandakı Göytəpə, Qobustan və Gəmiqaya Azərbaycandadır. Milyon il bundan əvvəl bu torpaqlarda məskən salan insanların nə milləti vardı, nə dini. Amma bu məkan Azərbaycan idi, öz təbiəti, dağları, çayları ilə. Və burada yaşayanlar bizim əcdadlarımız idi. Qədim tarixi mənbələr azərbaycanlı etnosunun öz mənbəyini eramızdan əvvəl üçüncü minillikdən götürdüyünü təsdiqləyir. Azərbaycan minilliklər əvvəl də, indi də bir dilə və bir dinə deyil, çox dillərə və dinlərə qulluq edən və özünü bu yerlərin sakini hesab edən azərbaycanlıların yurdudur.

Peyğəmbərimiz Məhəmməd əleyhissalam bütün insanları bərabər tutmağı, bütün dinləri müqəddəs saymağı məsləhət görürdü. Azərbaycan elə bir ölkədir ki, burada müxtəlif millətlər və dinlər yanaşı yaşayır. Hələ qədim zamanlardan heç kəs Azərbaycanı millətçilikdə və dini fundamentalizmdə günahlandıra bilmir. Bu indi də belədir. Azərbaycana düşmən qüvvələr bu torpağı özünə vətən seçən xalqları bir-birinə qarşı qoymaq üçün milli ərazi qurumları yaratmaq ideyalarını ortaya atmaqla. Azərbaycanı parçalamağa çalışırlar. Müxtəlif zamanlarda müharibələr meydanına çevrilən Azərbaycan ilkin insan məskəni kimi ayrı-ayrı vaxtlarda farslar, ərəblər tərəfindən işğal olunmuş, öz əhalisini burada yerləşdirmişlər. Sonralar ruslar, yəhudilər, kürdlər, digərləri bu yerlərə gəlmiş, özləri ilə dinlərini də gətirmişlər. Daha sonralar rus imperiyası bu əraziləri işğal edəndə başqa diyarlardan məqsədli olaraq ermənilər bu məmləkətin münbit torpaqlarına gətirib yerləşdirmişdir. Nəticədə qədim türkdilli tayfaların əzəli məskəni olan Azərbaycan çoxmillətli, çoxetniklikli, çoxdilli, çixdinli, müxtəlif adət-ənənəli bir ölkəyə çevrilmişdir. Və beləliklə Azərbaycan böyük dünyanın kiçik bir modelidir – mikrodünyadır. Belə bir dünya və məkanı qorumaq ilk növbədə biz azəri türklərinin – azərbaycanlıların borcudur.

Bu gün Azərbaycanda yaşayan milli azlıqlar öz dilləri ilə yanaşı, Azərbaycan dilində çox səlis və şirin ləhcə ilə danışır, əsasən islam dininə xidmət edir, eyni zamanda, çoxdinliliyi qoruyub saxlayırlar. Bu xalqlar azərbaycanlılarla yanaşı, Azərbaycan milli mədəniyyətini, musiqisini, şeriyyatını, adət-ənənələrini hərtərəfli mənimsəyir, özünüküləşdirirlər. Beləliklə, vahid milli azərbaycanlı mədəniyyəti, adət-ənənəsi ölkədə yaşayan bütün millətlərin adət-ənənəsinə çevrilir.

Müasir azərbaycanlı çox yaxşı başa düşür ki, yalnız xristianlığa və yalnız islama xidmət edən xalqlardan, millətlərdən fərqli olaraq o, mənə-

viyyatların sintezinin daşıyıcısıdır. Təəssüflər olsun ki, biz bu mənəviyyat zənginliyimizdən hərtərəfli istifadə edə bilmirik.

Bu gün Azərbaycan dövlətçiliyinin ideoloji əsasını müəllifi və yaradıcısı Böyük Öndər, ümummilli liderimiz Heydər Əliyev olan Azərbaycançılıq ideologiyası təşkil edir. Müasir Azərbaycan açıq vətəndaş cəmiyyəti quran bir dövlət kimi bütün dinlərin, təriqətlərin, etiqadların, şərq və qərb mədəniyyətlərinin, digər mənəvi və bəşəri dəyərlərin sintezindən ibarət bir dünyadır. Azərbaycan dövləti, Azərbaycan xalqı bütün dünya üçün açıqdır, dünyanın elə bir ölkəsi, elə bir guşəsi yoxdur ki, həmin yerlərlə bizim mədəni, mənəvi bağlılığımız olmasın. Dövlətimiz çox düzgün olaraq özünün xarici siyasətində bu amilə xüsusi diqqət yetirir.

Azərbaycan rəhbərliyi ölkəmizin regionda, bütün dünyada mövqeyini müəyyən edərkən yalnız türk dünyasına, İslam birliyinə, Rusiya, İran, yaxud Qərbə bağlanan siyasəti məqbul saymır. Ölkə rəhbərliyi balanslaşdırılmış siyasətin tərəfdarıdır, belə siyasəti də aparır. Tarixən bu yerlərin sakini və sahibi olan, buranı özləri üçün vətən seçən etnik qrupların maddi, mədəni və mənəvi irsi Azərbaycan adlı keçmiş, bu gün və gələcək deməkdir. Heydər Əliyev çox düzgün olaraq qeyd edirdi ki, "indi hər bir azərbaycanlı qürur hissi keçirə bilər ki, mən azərbaycanlıyam, mənim millətimin dövləti var, mənim millətim, ölkəm vardır".

Azərbaycançılıq ideologiyasının əsasını təşkil edən prinsiplər müəllifi Ümummilli liderimiz Heydər Əliyev olan ilk milli Konstitusiyamızda öz əksini tapmışdır:

- Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir.
- Azərbaycan xalqı vahiddir. Onun vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir.
- Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir.
- Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir.
- Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.
- Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

- Hər kəsin dünyaya gəldiyi gündən toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.
- Hamı qanun və məhkəmə qarşısında bərabərdir.
- Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.
- İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.
- Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz.
- Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.
- Hər kəsin fikir və söz azadlığı vardır. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz. İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.
- Hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.
- Hər kəsin azadlıq hüququ vardır. Hər kəsin mülkiyyət hüququ vardır. Bu hüquq, o cümlədən mülkiyyət hüququ qanunla qorunur.
- Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək hüququ vardır və sair.

Bütövlükdə Konstitusiya maddələrinin hamısının üçdə bir hissəsi insan və vətəndaş hüquqları və azadlıqlarını əhatə edir. Bu müddəalarda isə milli, dini, dünyəvi məsələlərə xüsusi diqqət yetirilir.

Ümummilli liderimiz Heydər Əliyev dünya azərbaycanlılarının birinci qurultayında çox düzgün olaraq qeyd etmişdir ki, "Azərbaycan dünyəvi dövlətdir və dünyəvi dövlət kimi dünyada öz yerini tutubdur. Hüquqi, demokratik və dünyəvi dövlət – bunlar bizim dövlət quruculuğunda əsas prinsipimizdir. Həyatımızda da əsas prinsip budur. Biz bu yol ilə gedirik və bundan sonra da gedəcəyik".

Beləliklə, azərbaycançılıq ideologiyası bir çox mahiyyətə malik bir təlimdir.

Bu, ilk növbədə müstəqil bir dövlət kimi ərazisində məskunlaşmış, burada daimi yaşayan hər bir insan üçün həyat tərzidir. Bu insan irqindən, milliyyətindən, dinindən, danışdığı dildən asılı olmayaraq Azərbaycanın tam hüquqlu vətəndaşıdır və dövlətin Konstitusiyaya və qanunlarla ona verdiyi bütün hüquq və azadlıqlardan istifadə edir.

Azərbaycançılıq milli ideologiya kimi ölkə həyatında öz yerini tutmalıdır. Dinindən, dilindən, mənsub olduğu millətdən asılı olmayaraq hər kəs Azərbaycan dövlətini, Azərbaycan xalqını təmsil etməsindən qürur duyur, yaşadığı, vətəndaşı olduğu bu ölkənin şərəfini qoruyur. Bu zaman şəxsi və ictimai mənafelər birləşdirilir.

Sözü gedən bu milli ideologiya bir millətin – ölkənin əsas əhalisini təşkil edən azəri türklərinin ideologiyası demək deyildir. Milli deyəndə hansısa bir millətdən söhbət getmir. Milli deyəndə, bu dövlət siyasəti məfhumudur. Bu ideya ölkənin bütün vətəndaşlarının maraqlarına və mənafelərinə yönəldilmiş bir siyasətdir.

Azərbaycançılıq ideologiyası ölkədə yüz illərlə yaşayan onlarla milləti, etnik qrupları bir demokratik, müstəqil, sivil dövlətdə birləşdirən, bu xalqların vahid vətəndaş cəmiyyətində inkişafına, tərəqqisinə, mənəvi yüksəlişinə xidmət edən bir təlimdir. Bu ideologiyanın ali mahiyyəti və bəşəriliyi də məhz bundadır. Böyük öndər, ümummilli liderimiz Heydər Əliyev bu baxımdan demişdir: "doğma, canım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır".

Sovetlər dönəmində 70 il ərzində Şimali Azərbaycanda yaşayan azərbaycanlıların digər ölkələrdə məskunlaşmış öz soydaşları ilə əlaqələri son on ildə olduğu kimi belə geniş də sıx deyildi. Müstəqilliyini bərpa etmiş Azərbaycan dövləti gənc olduğu kimi bütün dünyada yaşayan azərbaycanlıların da birliyi, həmrəyliyi də, yaratdıqları milli icmaları və təşkilatlanmaları da gəncdir. Bu gün Azərbaycan xalqı bir millət olaraq dünyada özünü tanıdır. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi "xaricdə yaşayan azərbaycanlılar daha sürətlə təşkilatlanır. Bütün bunlar əsas verir ki, deyək xalqımız azərbaycançılığı yaşadacaq, daimi edəcək, əbədi edəcəkdir".

SƏYYAD ARAN
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

ƏDALƏTLİLİK – HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU PRİNSİPLƏRİNDƏN BİRİ KİMİ

Müstəqillik əldə etmək, dünya ölkələri sırasına adını yazmaq çox böyük, ağlasığmaz dərəcədə fundamental işdir, lakin bundan daha çətini, daha ağrılısı müstəqilliyi qoruyub saxlamaq, dövlətçiliyi daha da inkişaf etdirməkdir. Xüsusən müstəqillik, azadlıq, qalibiyyət eyforiyası keçib getdikdən sonra inkişaf, təkamül gözləyən xalq öz gözlədiyini almadıqda ruhdan düşür, get-gedə öz rəmzi atributlarına belə etinasızlaşır. Gözlədiyini almadıqca millət, xalq depressiyaya məruz qalır və içindən sınır.

İnsanlar eyni zəkaya, ağıla, fiziki və mənəfi keyfiyyətlərə malik olmadıqları kimi, cəmiyyətdə və həyata da da eyni mövqeyə malik deyillər. Fransa akademiyasının üzvü, Nobel mükafatı laureatı Anri Berqson «Yaradıcı təkamül» əsərində yazırdı: «Ən qüdrətli dövlətlər belə sosial ədalət prinsipinə riayət etmədikdə məhvə məhkumdurlar». (Moskva. İzdatelstvo «Pravda» 1987, səh.152).

İstər 1969-cu ildə hakimiyyətə gəldikdə, istərsə də 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə ikinci dəfə artıq müstəqillik yolunu seçmiş Azərbaycana ulu öndər kimi qayıtdıqda, yəni hakimiyyətin bütün dönəmlərində ümummilli liderimiz Heydər Əliyev sosial adalət prinsipinə xüsusi fikir vermişdir.

Bu xətt Heydər Əliyevin bütün həyatı boyu qoruduğu və davam etdirdiyi ən başlıca pirinsiplərdən biri olmuşdur. İnsanlar daim fikir verirlər, gündəlik müzakirə edirlər, göz qoyurlar: ölkədə baş verən hadisələrə, ictimai-siyasi proseslərə, hətta məişət zəminində olmuş hadisələrə rəhbər, başçı necə reaksiya verdi, yanaşma tərzi birtərəfli olmadı ki, nəyinsə naminə, kiminsə kimi olduğuna görə birinə kökə, o birinə kötək düşmədi ki, bir sözlə, qurunun oduna yaş da yanmadı ki, və s. və i.

Bəli, məhz yaşı qurunun oduna yandırmayan, hər bir insanın layiqli qiymətini almasına çalışan, ictimai-siyasi proseslərdən tutmuş məişətdəki

davranışlarında da dövləti intizama, borc hissinə, milli əxlaqa, səmimi yoldaşlıq duyğusuna malik olan insanlar həmişə ulu öndərimizin qayğısını və sayqısını hiss etmişlər.

Düzdür, hüquqi dövlətdə də hər bir insan özünün fərdi keyfiyyətlərindən asılı olaraq hamı üçün yaradılan bərabər şəraitdən, qanun və insanlar qarşısındakı bərabərlikdən məharətlə istifadə edib maddi və mənəvi tələbatlarını eyni dərəcədə ödəyə bilmir. Sadə desək: «Beş barmağın beşi də bir olmur». Lakin sosial yönümlü iqtisadiyyata malik olan ölkələrdə dövlət vergi, sosial və məqsədli yardım mexanizmlərindən istifadə edərək, cəmiyyətin ən imkanlı təbəqələrinin imkansızlara yardımını və onların yaşayışı üçün minimum həyat şəraitinin təmin olunmasını təşkil edir.

Ulu öndərimiz dövləti, dövlətçiliyi inkişaf etdirməklə, möhkəmləndirməklə yanaşı çox yaxşı bilirdi ki, dövlət möhkəmləndikcə paralel proses baş verəcək, yəni güclü dövlət son dərəcədə öz vətəndaşlarının rifahının yüksəlməsinə yardımçı olacaq. Bunun ilk rüşeymləri özünü çox gözlətmədi; Azərbaycanımız möhkəmləndikcə sosial yönümlü fərman və sərəncamlar bir-birinin ardınca sıralanmağa başladı.

Dünya yarandıqdan, daha doğrusu, planetimiz ayrı-ayrı ölkələrə bölündükdən sonra iki tendensiya yönümündə mübahisələr bitib tükənmək bilmir. Bir qism filosoflar sosial yönümlüyün insanlığa zərərli olduğunu qeyd edirdilər. Məsələn, alman filosofu F.Nitsşe, ingilis sosioloqu Helbert Spenser... Spenser «Sosiologiyanın əsasları» kitabında sübut etməyə çalışırdı ki, sosial yönümlülük mühitində kütləvi tənbəlləşmə baş verir və nəticədə tənbəllər zəhmətkeşlərin, çalışqanların hesabına yaşayır, gün keçirirlər.

Əksinə, digər qism fikir korifeyləri cəmiyyətdə sosial yönümlülüyü dövlətin əsas sütunlarından, dayaqlarından biri sayırdılar. Məsələn, fransız filosofu Alfred Fulye, amerikan sosioloqu Uold Lester Frenk və başqaları. Uold Lester Frenk «Tətbiqi sosiologiya» əsərində şəxsi monopoliyaların əleyhinə çıxır, insanlığın xilasını humanist, sosial yönümlülüyün kütləviləşməsində görürdü. Məqsədimiz bu iki əzəli-əbədi tendensiyanın hansının düzgün olub-olmadığını araşdırmaq mümkün olmadığından məsələni dərinləşdirməkdən vaz keçirik. Lakin XX əsrin sonlarında və XXI əsrin əvvəllərində dünya qloballaşmaya doğru gedərkən görəsən daim xalqımızın gələcəyini düşünən, onun sabahını fikirləşən dahi öndərimiz nələri öncədən görürdü və niyə məhz ikinci yolu seçmişdi? Dünya sivilizasiya tarixinin mükəmməl bilicisi olan Heydər Əliyevin təkcə hüdudsuz humanizmindən irəli gələn hisslər idimi bu?

Zənnimcə, Heydər Əliyev kimi müdrik siyasətçi və dövlət xadimi dövləti idarəçilikdə yalnız humanizmdən qaynaqlanan prinsipləri ön plana çəkə bilməzdi. Buna daha tutarlı, daha dərin səbəblər olmamış deyildi. Heydər Əliyev kimi müdrik dövlət xadimi yaxşı başa düşürdü ki, artıq özünü dünya arenasında təsdiq etmiş qüdrətli dövlətlər iki yoldan hansını istəsələr seçə bilərlər. Azərbaycan kimi müstəqillik yollarında kövrək addımlar atan bir dövlətinsə qeyri-ədalətli səmtə yön alması gələcəkdə arzu edilməz fəsadlar yarada bilər və bu da milləti dövlətdən incik salaraq müstəqilliyimizə real təhlükə yaradardı.

Digər tərəfdən sosial ədalətə söykənən fərman və sərəncamların özünü çox gözlətməməsi həm də ölkədəki «beyin axını»nın qarşısını almaq üçün vacib idi. Çünki dünəninə qiymət verməyənin, keçmişinə güllə atanın sabah topa tutulacağı şəksizdi. Bunun AXC-Müsavat hakimiyyəti dövründə şahidi olduq. Mənəvi dəyərlərimizə qiymət verilməməsi o üzdəniraq hakimiyyətin ən böyük səhvlərindən idi.

Heydər Əliyev xalqın içindən çıxmış böyük, nəhəng şəxsiyyət idi, xalqını, mənsub olduğu millətini dərin məhəbbətlə sevirdi. Ona görə ki, xalqını, millətini yaxşı tanıyırdı və onun bitməz-tükənməz potensialına dərindən bələd idi.

«Əgər ölkəmizdə bir ağac kəsilərsə, sanki mənim qolum kəsilir» - deyərək torpağının cansız təbiətinə hədsiz humanizm nümayiş etdirən böyük insanın həmin torpağın övladlarına, oğul və qızlarına sevgisi də sonsuzdu və o öz xalqına qarşı sosial ədalətlilik prinsipindən özgə başqa yol seçə bilməzdi. O düşmənə qarşı nə qədər sərt və amansız idisə, zəiflərə və köməksizlərə dayaq və arxa idi. Zəiflər, yaşlılar və təqaüdçülər onun humanizminə, onun ədalətinə arxalanırdılar. Təsadüfi deyildir ki, o vaxtı prezident Heydər Əliyevin fərmanı ilə iki yüzə yaxın qocaman elm, texnika və mədəniyyət xadimlərinə prezident təqaüdü verilməyə başladı. Azərbaycanın sənaye və kənd təsərrüfatı sahəsində böyük əməkləri olmuş adlı-sanlı insanlar – Sosialist Əməyi Qəhrəmanları (onlar çox az miqdarda təqaüd alırdılar, xəstə və yaşlı adamlar tam ümidsizliyə qapılmışdılar) sözün əsl mənasında maddi və mənəvi cəhətdən xilas oldular. Bu tendensiya sonralar ölkənin gənc istedadlarına da şamil edildi.

Heydər Əliyev dünənə hörmətlə yanaşaraq bu günün memarlığı ilə yanaşı, sabahın xoşbəxt, firavan konturlarını cızırdı.

Vaxtilə filosof-şair Mir Möhsüm Nəvvab yazırdı: (Əziz Şərif «Mir Möhsüm Nəvvab» Bakı, Azərnəşr, səh.13) «Böyüklük ən ağır vaxtlarda xalqın imdadına yetişməkdir». Bu baxımdan ümummilli liderimiz, böyük öndərimiz Heydər Əliyev dəfələrlə Azərbaycan xalqının çətin dövründə, tarixin ağır dönəmlərində xalqın təkidli tələbinə hay vermiş, öz xalqına arxa durmuş və ölkəni, milləti ağır vəziyyətdən çıxarmışdır. Belə bir humanist şəxsiyyət qeyri-ədalətli yol seçə bilərdimi? Əsla!

Yeni Azərbaycan Partiyasının yaradıcısı və qurucusu məhz buna görə partiyanın sosial yönümlü olmasını önə çəkdi. Müstəqilliyimizin memarı heç yerdə haqqı nahaqqa vermədi, həmişə zəiflərin yanında oldu, arxasızlara arxa durdu. Hər bir azərbaycanlının probleminə öz şəxsi problemi kimi yanaşdı, xalqın rifahı yolunda gecə-gündüz yorulmaq bilmədən çalışdı. «Əl tutmaq Əlidən qalıb», - məsəlini öz həyat kredosuna çevirdi. O yalnız tək-tək həmvətənlərinin əlindən tutmadı, öz xalqının əlindən yapışıb xoşbəxt, firavan gələcəyə doğru addımladı.

Allah Heydər Əliyevi öz xalqını həm müdafiə etmək, həm xilas etmək, həm də işıqlı və xoşbəxt gələcəyin əbədi yoluna çıxarmaq üçün dünyaya gətirmişdi. İndi Heydər Əliyev missiyasını Heydər Əliyev siyasi məktəbinin ən parlaq davamçısı İlham Əliyev yerinə yetirir. Antik yunan filosofu Anaksaqorun dediyi kimi: «Heç bir xeyirxah iş nəticəsiz qalmır». (Юлий Иосифович Кариплитски «Сократ и Анаксагор» Москва, Издательство «Наука» 1980, səh. 82). Artıq Heydər Əliyevin arzularının bir çoxu həyata keçmişdir. İrəlidəsə bizi daha böyük işlər və daha firavan gələcək gözləyir!

RƏBİYYƏT ASLANOVA
Milli Məclisin deputatı

"Bizim tutduğumuz yol doğru yoldur, ədalətli yoldur. Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, onu əbədi etməkdən ibarətdir. Həyata keçirdiyimiz daxili və xarici siyasət, müstəqilliyimizin təminatıdır. Kim bu yolda bizə mane olursa, o maneələri biz aradan götürməyə qadirik"

Heydər Əliyev

HEYDƏR ƏLİYEV İRSİ VƏ MİLLİ SUVERENLİK PRİNSİPİ

Dünyada baş verən qarşılıqlı inteqrasiya meyllərinə, "qloballaşma" anlayışı ilə ifadə edilən proseslərə dair həm elmi müstəvidə, həm kütləvi informasiya vasitələrində, həm də adi şüur səviyyəsində gedən müzakirə və mübahisələri səthi izləyən insanları ən çox düşündürən suallar yığcam şəkildə əsasən bir mövzu ilə bağlıdır: qloballaşma prosesində, "milli dövlət, milli suverenlik" kimi prinsiplər nə kimi məzmun və mahiyyət dəyişiklikləri kəsb edir? Bəşər həyatının bütün sahələrinə nüfuz edən yeni inkişaf meylləri "milli suverenlik" prinsipinə necə təsir göstərir?

Bəhs olunan mövzuya dair elmi ədəbiyyatda "milli dövlətçilik və suverenlik" anlayışlarını asanlıqla tarixin "arxivinə" vermək, milli dövlət fenomeninin böhran yaşadığını sübut etmək cəhdləri də az qala üstünlük təşkil edir. Bu çox həssas problemin bir yazı çərçivəsində əhatəli şərhi və izahı çox çətin olsa da, onun əsas müddəalarına dair öz münasibətimizi bildirməklə müəyyən təsəvvür yaradılacağına ümid edirik.

Şübhə yoxdur ki, qloballaşma prosesləri dövlətçilik, yəni milli dövlətçilik məsələlərinə ciddi sirayət edir və bu baxımdan, prosesin mahiyyəti milli dövlət fenomeninə və milli suverenlik prinsipinə toxunulmadan düzgün anlaşıla bilməz. Müstəqilliyimin ikinci onilliyinə qədəm qoyduğumuz, milli dövlətçiliyimizin əsaslarının yaradıldığı bir dövr-

də milli və bəşəri, lokal və qlobal amillərə, düzgün elmi əsaslarla söykənən münasibətin formalaşdırılması çox mühüm məsələdir. XX əsrdə ən böyük tarixi nailiyyətimiz olan milli dövlətçiliyimiz və suverenliyimizin qədrini, dəyərini dərk etdiyimiz bir dövrdə "milli-dövlət" anlayışının böhran yaşaması, "milli suverenlik" prinsipinin "transformasiyası" kimi məsələlərin gündəmə gəlməsi, elmi ədəbiyyatda da tez-tez səslənməsi real təhlükədənmi xəbər verir? Bu baxışlarda həqiqət vardırmı? Hər tərəfdə milli qurumlara laqeydliklə müşayiət olunan qloballaşma, modernləşmə kimi səciyyələndirilən proseslərin getdiyi bir vaxtda, milli suverenliyin əvəzsiz, qeyd-şərtsiz dəyərə malik olması fikrinə kökləyən xalqın ictimai şüurunda bu əks mahiyyətli məqamlar ziddiyyət və şaşqınlıq yarada bilərmi?

Dünyanın klassik modelinin dəyişdiyi və dünya sisteminin çoxtərəfli transformasiyaya uğradığı şəraitdə milli dövlətçilik ideyası, onun gələcək perspektivləri yeni baxış, yeni münasibət tələb edir. Qlobalizmlə regionalizm arasında qarşıdurma nəticə etibarı ilə milli dövlətçilik ideyasına öz təsirini göstərəcəkmi, demokratik rejimləri, milli suverenliyi qorumaq əzmində olan dövlətlərin varlığı təhlükəyə məruz qalacaqmı?

Dünyanın restrukturizasiyası heç bir regiondan yan keçmir, ölkələri, siyasi təşkilatları, ictimai hərəkatları əhatə edərək proseslərə öz təsirini göstərir. Əslində bəşəriyyətin tarixi, müxtəlif mərhələlərdə siyasi, ideoloji, iqtisadi, hərbi maraqların təsiri və təzyiqi altında sərhədlərin pozulması müəyyən dövlətlərin məhv olması, yenilərinin yaranması tarixidir.

Bəlkə bugünkü proseslərə də "hər bir yeni çoxdan yaddan çıxartdığımız köhnədir" prinsipi ilə yanaşmalıyıq. Sivilizasiyanın sürətli inkişafı ilə insanın gedən proseslərə adaptasiya imkanları arasındakı ziddiyyət bizdə bu şübhələri yaratmırmı? Suallar çox olsa da, bu bir həqiqətdir ki, bu gün dünyada gedən qloballaşma proseslərinin bütün regionlarda milli dövlətlərə göstərdiyi əsas təsirin nəticələri məlumdur: Oxşar və fərqli cəhətlərə baxmayaraq əsasən milli dövlətlər öz səlahiyyət və funksiyalarının bir qismini "yuxarı" - dövlətlərarası, beynəlxalq qurumlara, digər qismini "aşağı": ərazi və bələdiyyə (munisipal) orqanlara ötürür, dövlətin forma və prioritetləri dəyişir, demokratik meyllər artır. Bundan əlavə iqtisadi-maliyyə, informasiya-kommunikasiya və s. tipli beynəlxalq qarşılıqlı inteqrasiya sahələri milli suverenlik çərçivəsində baş verən hadisələrin ənənəvi

sərhədlərini xeyli genişləndirmişdir. Qloballaşma milli dövlət suverenliyi müstəvisində prinsipial olaraq yeni bir məqam üzə çıxarır: Tarixi olaraq yalnız dövlətin müstəqil qərar qəbul etdiyi dövlətdaxili məsələlərə ümumdünya, transnasional qurumların fəal nüfuzu, iri sərmayənin qlobal məkanda mancəsiz axını, hərbi-siyasi sahədə qərarların beynəlxalq hüquq normalarına əsaslanaraq qəbul edilməsi tələbi və s. suverenliyin ənənəvi başa düşülən mənasını və hüdudlarını "daraldır". Dünya iqtisadiyyatı və siyasətinin yeni, qeyri-dövlət subyektləri qismində çıxış edən qurumların ortaya çıxması ilə beynəlxalq maliyyə institutları və transnasional birliklərin getdikcə artan təsiri, dövlətlərarası sərhədlərdən sərbəst axan informasiya amilini önə çəkən kütləvi informasiya vasitələrinin geniş vüsətli inkişafı, milli dövlətçiliyin fəaliyyət spektrində öz əks sədasını verir, onun çərçivəsinin daha aydın müəyyənləşdirilməsini şərtləndirir.

Milli dövlət qərarların qəbul edilməsi müstəvisində ortaya çıxan yeni beynəlxalq qarşılıqlı fəaliyyət subyektlərini nəzərə alaraq, öz münasibətlərini bir neçə səviyyəyə yönəltməli və qaydaya salmalı olur. İlk növbədə də bu "fövqəlmilli", dövlətlərarası struktur və qurumları ənənəvi hakimiyyət iyerarxiyasına ahəngdar şəkildə daxil etməklə yeni, özünəməxsus idarəetmə sisteminin formalaşması ilə müşayiət olunur.

Baş verən proseslər diqqətlə izlənilərsə, qloballaşmanın siyasi nəticələri sırasında milli dövlətin suverenliyinin nəinki məhdudlaşdırılması, əksinə onun əməli, gerçək siyasi subyekt, həm də qlobal tamlığın təzahür etdiyi dünyada siyasi qərarların qəbul edilməsi sahəsində ən mühüm, əvəzsiz həlqə kimi mühüm statusa malik olduğu aydınlaşır. Ənənəvi məlum olan hərbi-siyasi funksiyalar, siyasi, iqtisadi və ictimai fəaliyyətin hüquqi çərçivəsinin müəyyən edilməsi, qanunların icrasını diqqət mərkəzində saxlamaq və s. kimi geniş müstəviyə, qlobal cəmiyyət və dövlətin üzvü olmaqdan irəli gələn vəzifə, öhdəlik, məsuliyyət və tələblər də əlavə olunur. Qloballaşma, milli dövlətinin fəaliyyətinin tamamilə fərqli, yeni bir beynəlxalq mühitdə qurulmasını hər an diqqət mərkəzinə çəkir.

Bütün bunlar milli suverenlik prinsipinin "tənəzzülü", "aradan çıxması" kimi baxışlara təkan verir. Lakin bir məsələ var ki, burada söhbət suverenlik prinsipinin "köhnəlməsindən" deyil, dünya miqyasında baş verən köklü dəyişikliklərdən gedir. Yəni, milli suverenliyin (tarix boyu dəfələrlə olduğu kimi) başqa dövlətlər tərəfindən pozulması, ona qəsd edilməsi deyil, milli

və başqa, qlobal və lokal tale və müstəvilərin bir-birinə həddsiz yaxınlaşması və çulğaşması nəticəsində yerdəyişmə baş vermişdir: əgər əvvəllər dövlətin mənafeyi birinci, beynəlxalq birliyin tale və mənafeyi məsələsi ikinci (arxa planda) idisə, hazırda dünyanın ümumi-qlobal taleyi və mənafeyi önə çıxmışdır. Başqa sözlə bu iki aspektin tip bir-birindən təcrid edilmiş şəkildə təhlili qeyri-realdır. Milli dövlətçiliyin maraq və mənafeyi yalnız konkret milli dövlətlərin deyil, dünya birliyinin qəbul etdiyi beynəlxalq münasibət və hüquq normalarının nəzərə alınması ilə gerçəkləşdirildiyi üçün yeni münasibətlərin bütün hallarda – qlobal cəmiyyətin bilavasitə daxili problemi olduğu məlum olur.

Bu baxımdan qlobal cəmiyyət sistemində dövlətlərarası, beynəlxalq münasibətlərin əhəmiyyəti, aktuallığı getdikcə daha çox artır, lakin bunlar dövlətlərarası problem olmaqdan daha çox, qlobal cəmiyyətin ümumi daxili problemi kimi də qəbul edilir. Belə problemlərə beynəlxalq qurumların təsiri və marağı, onların həllində iştirakı, gedişatına "müdaxilə" etməsi, milli suverenlik prinsipinin yox olması, böhranı kimi deyil, ümumi tale və mənafeyin diktəsindən irəli gələn fəaliyyətin zəruriliyi kimi qəbul edilməlidir. Bu vəziyyət dünyadakı ümumbəşəri, qlobal problemlərin həllinə əhəmiyyətli təsir göstərə biləcək qlobal nüfuz mərkəzinin, vahid dünyanın qlobal siyasi sisteminin yaradılması prosesinin başlanğıc götürdüyünə dəlalət edir.

Məhz ona görə də bu "başlanğıc" prosesi demək olar ki, " dünya lideri" olmaq, proseslərə təkbaşına müdaxilə etmək kimi cəhdlərlə müşayiət olunarsa, son nəticədə yeni "imperializmin" başqa təzahürü kimi vəziyyətin yaranmasına səbəb ola bilər. Bu da öz məntiqi sonluğunu - yəni bütün imperiyaların yaşadığı aqibətin yaşanılacağını zərurətə çevirir. Dünyanın yeni siyasi təşkilatlanma prosesinin getdiyi indiki dövrdə 7-8, yaxud 10-15 aparıcı ölkənin qərarlarının mühüm əhəmiyyətə malik olması, üstünlük təşkil etməsi heç də o demək deyil ki, bu ölkələrin öz vəzifələrini "dünyanın iqtisadi, siyasi inkişafının gedişini idarə və ona nəzarət edir, edəcək və etməliyik" kimi başa düşməlidirlər. 11 sentyabr hadisələri göstərdi ki, nə bütövlükdə Qərb, nə də hər hansı bir ölkə "təklikdə" bu vəzifənin öhdəsindən gəlməyə qadir deyildir. Lakin eyni zamanda da dünyanın geniş vüsət alan inteqrasiya proseslərinin yönəldilməsinə bütövlükdə olmasa da, bir çox sahələrdə, bir çox məsələlərdə təsir göstərə bilən müəyyən qlobal

qurum və təsisatların mövcudluğunu indiki reallıq zərurətə çevirir. Bəşəriyyətin ümumi taleyini gündəmə gətirən, onları məqsədəuyğun məcraya yönəldə biləcək müasir qlobal siyasi-iqtisadi təşkilatlanma sistemi formalaşma mərhələsində olduğu üçün dünya siyasəti mövcud imkanlarından çıxış edir. Bu sistemin məhz milli suverenlik prinsipinə, milli dövlətçiliyə nə dərəcədə həssas olması, onun belə demək olarsa taleyini, bir neçə on ildən sonra dünyanın gələcəyi üçün hansı müsbət nəticələri əldə edəcəyini bilavasitə müəyyən edir və edəcəkdir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev qeyd edir ki, "müasir qlobalaşma prosesləri inkişaf etməkdə olan cəmiyyətləri həyat tərzinin, dəyranış və hətta qəribə olsa da, təfəkkür formalarının qərbləşməsi dilemması qarşısında qoymuşdur. Qərbləşmə daxili siyasi determinantlara təsir göstərərək milli ənənələrin, adətlərin, bəzən də tarixin ağırlıq mərkəzini dəyişdirir... Qərbləşmə modernləşmə əlaməti altında baş verir. Onun açıq cəmiyyətlərə və avtarkiya cəmiyyətlərinə təsiri əhəmiyyətli dərəcədə fərqlənir. Əgər o, bəzi ölkələrdə siyasi və sosial-iqtisadi həyata yeniliklər gətirərək cəmiyyətin dayaqlarını təkmilləşdirirsə, digər ölkələrdə diffuziya baş verir, sonra da tarixən təşəkkül tapmış normalar və adət-ənənələr gizli şəkildə yox olub gedir... Lakin qərbləşmə və onu müşayiət edən mədəni inqilab yeni dəyərlərin sahibləri üçün heç də həmişə uğurla nəticələnməmişdir. Bu zaman milli suverenliyin məhdudlaşması və sərhədlərin silinməsi tradisionalist və modernist qrupların mənafelərinin toqquşmasına gətirib çıxarır ki, bu toqquşma da qərbləşmə cərəyanlarının təsiri altına düşür. Bu halda müqavimət son dərəcə sərt olur və yeni səmərəli mədəni inqilabın mümkünlüyü heçə enir. İranda 1979-cu il inqilabına tradisionalistlərin və modernistlərin məhz bu cür toqquşması səbəb olmuşdur. Dövlətin və cəmiyyətin gələcəyi ənənə ilə qərbləşmə arasında qarşıdurmadan sonra dövlətin hansı yolu seçməsindən asılıdır".

Milli dövlətçilik, dünyanın bütün dövlətlərinin təşkilatlanmasının əsas prinsipi və modelidir. Milli dövlət-dövlət suverenliyinin başlıca daşıyıcısı, qarantıdır. Milli suverenlik – hər bir xalqın (millətin) öz ictimai-siyasi quruluşunu, ərazi bütövlüyünü, iqtisadi müstəqilliyini, mədəniyyətini və s. azad seçmək hüququ, yəni öz taleyini özünün həll etməsi hüququdur. Dövlət ali, son məqsəd, ali dəyərdir, əks təqdirdə o suveren deyil, o öz tamlığının, müstəqilliyinin qarantı deyil, suveren hakimiyyətsiz milli dövlət yoxdur.

Suverenlik Vahid və bölünməzdir və xalqa məxsusdur. Hər bir dövlət suveren olmalı, suveren olmaq üçün isə özünü milli dövlət elan etməli, onun mövcudluğunu başqa ölkələr tanımalıdır, milli dövlətlərin sərhədləri toxunulmazdır və birtərəfli qaydada dəyişdirilə bilməz.

İctimai-siyasi təşkilatlanmanın milli dövlətçilik modeli, bütün dövlətləri beynəlxalq münasibətlərin vahid bərabərhüquqlu üzvləri kimi müqayisə və qəbul etməyə imkan verir.

Qloballaşma dövründə qarşılıqlı təsir və inteqrasiya proseslərinin yüksək sürəti dövlətləri və onların bir-birinə münasibətini sistemə çevirir. Milli dövlətlərin hamısı yekdil olaraq bu sistemin dayanıqlı olması qayğısına qalmalıdırlar. Bu heç də həmişə belə olmur. Qlobal dünya sisteminin mövcudluğuna təhlükə yaradan dövlətlərin fəaliyyəti kollektiv hərəkətlərlə pislənsə, onlar təcrid olunsalar da belə, millilik və millətçilik anlayışlarının məzmununun dəyişdirilməsi cəhdi, başa düşülməməsi, bilərəkdən və ya bilməyərəkdən dünya sisteminin tarazlığının pozulması, sərhədlərin yenidən "biçilib-tikilməsi" cəhdləri bu gün qloballaşan bəşəriyyətin taleyi üçün təhlükə yaradan amillər sırasında birincidir.

XX əsrin sonlarında dünyanın siyasi xəritəsində məlum hadisələrin baş verməsi nəticəsində müstəqil dövlətlərin sayının durmadan artmasına rəğmən onların mövcud olduğu sərhədlərin toxunulmazlığı, beynəlxalq münasibətlərin əsas prinsipi kimi bir daha möhkəmləndirildi, təsdiq edildi.

Milli dövlətçiliyin və suverenlik prinsipinin, müasir dünyanın ictimai-siyasi təşkilatlanmasının əsas modeli kimi məqbul sayılması, "millilik" anlayışına unikal bir status verilmişdir. Millilik hər hansı bir dövlətin legitimliyinin əsaslandırılması üçün birinci (və hələlik yeganə) şərt və vasitə kimi tanınmışdır.

Lakin məhz bu unikallığın, özəl mahiyyətin təhrif olunması, başqa sözlə desək, anlayışın universallıq kimi aspektlə varislik və bağlılığının unudulması, yaxud bilərəkdən nəzərə alınmaması bəzi üzdəniraq ideoloqların elmi-siyasi cəhətdən qeyri-real, nəticələri baxımından təhlükəli sayılan xülya və niyyətlərinə rəvac vermişdir. XX əsrin sonlarına doğru dövlət suverenliyinin əldə olunması prosesini müşayiət edən sərhədlərin toxunulmazlığı prinsipinin kobud şəkildə pozulması, millilik və millətçi-şovinizm anlayışlarının eyniləşdirilməsi nəticəsində ortaya çıxan silahlı separatizm və terror kimi hadisələr də paralel olaraq getmişdir. "Milli azadlıq hərəkatı" adlandırılaraq müstəqil dövlətimizin ərazi bütövlüyünü pozan, tarixdə dəfələrlə sərhədlərini genişləndirmək məqsədini güdən, millət-dövlətlərin formalaşma prosesinin getdiyi XX əsrin əvvəllərində olduğu kimi bu dəfə də baş qaldıran erməni millətçi-şovinizmi yenidən məhz dalğada təşəkkül tapdı. Əlbəttə, təəssüflə qeyd edə bilərik ki, ilk zamanlar öz siyasi-ideoloji doktrinalarını həyata keçirən Qərb dövlətləri, ümumiyyətlə də dünya ölkələri, Dağlıq Qarabağ problemində ilk vaxtdan adekvat mövqe və münasibət göstərə, müvafiq tədbirlər həyata keçirə bilmədi, təcavüzkar ermənilərin tələbləri müdafiə olundu. Dağlıq Qarabağ problemi ilə bağlı bu gün beynəlxalq təşkilatlarda qəbul olunan sənədlər, "soyuq siyasət buzunun" əriməyə başlaması Ulu öndərimizin beynəlxalq siyasət meydanında atdığı uğurlu addımların nəticəsidir. Ötən illər ərzində ulu öndərimiz Heydər Əliyevin titanik əməyi və fəaliyyəti sayəsində dünyada Dağlıq Qarabağda baş verən proseslərin mahiyyəti ilə tanış olmağa doğru böyük irəliləyiş getdi. Bu gün dünya ictimaiyyəti daha qətiyyətlə belə bir fikirdə yekdil olmaqdadır: separatçı rejimlər, suverenlik və sərhədlərin toxunulmazlığı prinsipini pozmaqla, qloballaşan dünya üçün ən böyük təhlükə mənbəyidir.

"Müstəqil" bəyan edilməsinə baxmayaraq, bu günə qədər dünyanın heç bir ölkəsi tərəfindən legitimliyinin tanınmaması, "uydurma Dağlıq Qarabağ respublikası"nın, elə "uydurma" qurum olduğuna yaxşı dəlalət edir. Belə qurumlarla "strateji əməkdaşlıq" edən, onları silahla və s.-lə təmin edən, onları dəstəkləyən dövlətlər də öz gələcəyini və təhlükəsizliyini ciddi şübhə altına alır. Separatçı, "terrorist və diktator rejimlərin öz "azadlıqları" uğrunda mübarizə apardıqlarını söyləyərək, qeyri-real siyasət yürüdən belə dövlətlərdə ictimai rəy və KİV-lər – bu cür siyasətin, dünya birliyi ailəsinin layiqli üzvü olmaq kimi mövqeyə ziyan gətirdiyinə dair geniş müzakirələrə təkan vermişdir. Silahlı separatizmə "ikili standartlar" münasibətindən yanaşmağın ziyanı da məhz qloballaşma prosesinin indiki mərhələsində özünü aşkar göstərməkdədir. Çünki, qloballaşma "millilik" anlayışının "etnik millətçilik, etnokratiya, şovinist-irqi" təfəkkür tərzi ilə qarışıq salındığını qabarıq şəkildə üzə çıxarır. Millilik həm etnik, həm də bəşəri (universal-qlobal) səviyyələri özündə ifadə etdirən bir fenomendir. Millilik, etnik ekstremizm kimi başa düşüldükdə, müxtəlif siyasi-ideoloji məqsədlərə xidmət edir, yaxud müxtəlif qüvvələr tərəfindən istifadə olunur. Bəşəriyyət

milli-mədəni müxtəlifliyin vəhdətində təzahür edir və yalnız müxtəlifliyi deyil, vəhdəti də nəzərə alan millilik dünyanın gələcək inkişafının pozitiv potensialı rolunu oyaya bilər.

Burada bir daha milli dövlət və milli suverenliyin "böhranı və yox olacağı"na dair elmi ədəbiyyatda" söylənən fikirlərə qayıdaq.

Millətin ictimai-siyasi-mədəni birlik kimi, bəşəriyyətin mövcudluğu üçün ən dayanıqlı, optimal birlik olması fikrinin vaxtı keçdiyini irəli sürən baxışlar nəyə əsaslanır? Bu sualın cavabı ictimaiyyətə qismən məlumdur: Qloballaşmanın unifikasiya kimi başa düşülməsi, informasiya –telekommunikasiya texnologiyalarının "sərhədləri" anlayışının məzmununu dəyişməsi, qlobal ünsiyyət mexanizmlərinin səviyyəsinin artması bəzi alimlərin "millilik və millət" anlayışlarının "köhnəlməsi" qənaətinə gəlməsini şərtləndirmişdir. Lakın, bu bir daha qeyd edirik ki, səthi, dərinliyə varmayan təhlilin nəticəsidir.

Millilik-dövlətçiliyin təməl prinsiplərindən biri kimi yalnız siyasi, ictimai deyil, həm də mənəvi-mədəni, ruhi çalarları özündə birləşdirən bir fenomendir. Milliliyin təməlində - milli ruh və milli şüur qərar tutur və bu ictimai, siyasi, iqtisadi, mənəvi, fəlsəfi, estetik, dini baxış və təsəvvürlərin məcmuyunu əks etdirir. Dünyanın qlobal inteqrasiya səviyyəsinin artması, sıxlaşması gedişində "millilik" anlayışı necə yox ola bilər? Əksinə, gedən proseslər millətlərin mənəvi müqavimət qüvvəsini artırır. Hər bir insan üzvü, təmsilçisi olduğu mədəniyyətin daşıyıcısı kimi "milli-mədəni genotipə" malik olduğu kimi, hər bir dövlət, ölkə də həmin insanların birliyindən ibarətdir. Hər hansı bir mədəni-milli yaddaşa malik olmayan insan olmadığı kimi, bu amillərin fövqündə duran ölkə və ya dövlətin də olması qeyri-real fikirdir. Buna görə də qloballaşmanın bir yeganə-qlobal düşüncə və deməli bir "yeganə qlobal dövlət" yaradacağı fikri absurd bir fikirdir. Qlobal cəmiyyət, qlobal dövlət sistemi yalnız müxtəlif unikal dövlətlərin inteqral cəmindən formalaşa, onların vəhdətindən yarana bilər. Formasiya statusundan asılı olaraq ölkələrin ierarxik quruluşunu formalaşdıran planetar Federasiya perspektivsiz ideyadır, utopiya xarakterli proqnozdur. Dünya birliyi, ümumplanetar sivilizasiya abstrakt kateqoriyadır. Onun sərhədi, rəsmi institutları, müxtəlif resurslar üzərində nəzarət funksiyası yoxdur. Əslində dünya birliyi-dövlətlər və xalqların ümumi maraq, vahid məqsəd naminə müxtəlif münasibətlər qurmaq istəyidir. Lakin bu birliyə nə dərəcədə nail olunub. Teyyar de Şarden yazırdı: "Bəşəriyyətin

bütövləşməsindən böyük qüvvə alınması gözlənilir. Lakin bu qüvvənin həmişə idarə edilə biləcəyi sual altındadır".

Bu da həqiqətdir ki, qloballaşma müxtəlif dövlətlərin könüllü ya könülsüz dialoq və ünsiyyətinə, lokal çərçivələrdən çıxaraq yaxınlaşmasına şərait yaradır, bunu zərurətə çevirir. Məhz bu zərurətin birtərəfli şişirdilməsi, milli dövlətçilik və suverenliyin gələcəyinə dair birtərəfli mövqeləri ortaya çıxarmışdır.

Dünyada baş verən hadisələr milli dövlətçilik maraqlarını "ləğv etmir". Məsələnin mahiyyəti əslində başqa müstəvidədir. Tarixdən məlumdur ki, dünya inkişafının keçid, dəyişiklik adlandırılan məqamlarında dövlətçilik və onun maraqlarının zamanın tələblərinə uyğun qurulması problemi bütün ölkələr qarşısında durmuşdur.

Hazırda dünya dövlətləri məhz belə bir transformasiya çağını, keyfiyyət dəyişikliyini yaşayırlar. Belə dövrlərdə hər bir ölkə dəyişikliklərin labüdlüyü meyli ilə milli dövlətçilik maraqlarının bu dəyişikliklərə uyğun çevik mexanizmini yaratmaq zərurətini həll etməli olurlar. Əgər "milli dövlətçilik" deyilirsə, burada həm "millilik " həm də "dövlətçilik" mənafelərinin vəhdətdə iştirak etdiyini unutmaq olmaz. Məlumdur ki, müxtəlif siyasi şəraitdə, müxtəlif qüvvələr millilik və dövlətçilik anlayışlarını bir-birindən öz məqsədlərinə uyğun təcrid edir, ictimai şüurun bu mövzuya həssas münasibətini manipulyasiya edirlər. Dövlətçiliyin maraq və mənafelərini arxa plana keçirərək milli maraqlar adı ilə öz şəxsi niyyətlərini həyata keçirirlər. Bütün hallarda millilik və dövlətçiliyin həssas və kövrək ahəngi, bütövlüyü nəzərə alınmadıqda nəticələr istənilən kimi olmur.

İlk baxışdan oxşar problemləri birdəfəlik həll etmiş kimi görünən ABŞ-da da bəhs edilən mövzu diqqət mərkəzindədir. ABŞ-ın dövlət katibi, Kondoliza Rayz Amerikanın milli maraqlarını dəqiq müəyyənləşdirməyən, beynəlxalq qurumlara daha çox diqqət yetirən, milli maraqları "humanitar beynəlxalq maraqlarla" əvəz edən siyasətin dövlətçilik mənafeyinə zidd olduğunu söyləmişdir.

Tarixdən bu da məlumdur ki, hər hansı bir dövlət, məhz dəyişikliklərə çevik uyğunlaşma siyasətini yürütməklə, yeniliklərin bütün müsbət potensialından səmərəli istifadəni təmin edən struktur və mexanizmlər yaratmaqla, millilik və dövlətçiliyin ideal balansını da, strateji perspektivini də təmin edə bilmişlər.

Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik siyasətinin bu baxımdan nəticələri günümüzün reallığı və ən böyük uğurlarımızdır. Dövlət müstəqilliyinin bütün sahələrdə möhkəm təməllərinin qurulması ilə bərabər, Azərbaycanın dünyaya tanıdılması, siyasi sabitliyin təmin edilməsi, iqtisadiyyata aparıcı beynəlxalq təşkilatların maliyyə və sərmayə qoyuluşunun cəlb edilməsi kimi müdrik siyasət dünya inkişafının mövcud meyllərini nəzərə almaqla həyata keçirilmiş, Azərbaycanın suverenlik statusunun mövcud problemlərin həlli mexanizmində hər an qətiyyətlə vurğulanmışdır. Ulu öndərimiz dəyişən dünyanın indisi və gələcək perspektivlərinə adekvat cavab verən dövlətçilik siyasətinin əsas istiqamətlərinin strategiyasını Azərbaycana irs qoyub getmişdir.

Ölkəmizin geosiyasi mövqeyini, təbii ehtiyatlarını, insanların potensialını nəzərə alaraq onu müasir dünyada baş verən proseslərin, beynəlxalq fəaliyyətin əsas subyektlərindən biri kimi inkişaf etdirmək bu irsin tərkib hissələrindən biridir. Azərbaycan bu illərdə demokratik, hüquqi, dünyəvi dövlət kimi dünyada özünütəsdiq dövrünü yaşamış və ona nail olmuşdur. Bu gün qlobal cəmiyyətin siyasi, iqtisadi, mədəni, ictimai və s. sahələrində inteqrasiyanın vacibliyi barədə prezident İlham Əliyev cənabları qeyd edir: "Dünyada hər şey qarşılıqlı bağlılıq təşkil edir. Bunu bütün ölkələr nəzərə almalıdır. Dünya cəmiyyətinə biganə qalmaq, ona sayğısızlıq göstərmək heç bir yaxşı nəticəyə gətirib çıxara bilməz. Bəli, bu reallıqları biz nəzərə almalıyıq. Lakin öz taleyimizi yalnız özümüz həll edirik".

Müstəqil, qüdrətli dövlətin formalaşması, onun iqtisadi firavanlığının təmin edilməsi ilə bilavasitə əlaqədardır. Müstəqillik illərində reallaşdırılan, bu gün dönmədən davam etdirilən iqtisadiyyatın modernləşdirilməsi xətti, ölkəmizin qlobal – beynəlxalq əmək bölgüsündə öz yerini tutması üçün böyük perspektivlər açır.

Ənənəvi və modernləşmiş sivilizasiyaların qovşağında yerləşən ölkəmiz qlobal cəmiyyətə inteqrasiya və milli-mədəni özünəməxsusluq yolunu seçmişdir. Azərbaycan dinamik, müstəqil siyasət yeridərək, yeni dünya nizamının yaranmasında fəal iştirak edərək qlobal dünyanın tərkib hissəsinə çevrilir. Başqa ölkənin ərazi bütövlüyünə qəsd edən bir qurumun, milli suverenlik prinsipini pozduğuna, dünyanın sülh və təhlükəsizlik yolunda maneələr yaratdığına dünya dövlətlərini inandırmağa çox çətin də olsa nail olur. Millətçi-separatizmin müasir dünyanın qlobal reallığına deyil, vaxtı keçmiş sərsəm

xülyalara xidmət etdiyi aydın olur. Tarixin heç bir dönəmlərində dünya birliyinə inteqrasiya və milli təhlükəsizliyin, suverenliyin təmin olunması kimi ilk baxışda paradoksal-əks görünən iki proses bu qədər çulğaşmamışdır. Milli mənafe anlayışı, həm dünyanın müasir inkişaf meyllərinə cavab verən, həm də baş verən proseslərə dinamik adekvat fəaliyyətlə qoşulmağı təmin edən siyasətin məzmun və mahiyyətini əks etdirir. Dünyanın get-gedə aydın sezilən vəhdətinin formalaşması, universalizm ideyalarının birtərəfli şərhinə səbəb olmuşdur. Bəşəriyyətin varlığının onun çoxçalarlı müxtəlifliyindən kənarda təsəvvüredilməzliyi fikri hər dəfə unudulanda tarix özü bu baxışlara düzəliş edir, onları sınağa çəkir. Milli özünəməxsusluğu arxa plana keçirərək, bütün dünyanı modernləşdirməyin mümkünlüyünə dair mövqelər, XX əsrdə özünü doğrultmadı. Məlum oldu ki, bütün dövrlərdə universallıq, unikallıqla vəhdətdə götürüldükdə bəhrələrini verə bilir. İnnovasiyalara çevik reaksiya verilməsi ilə, dəyişikliklər gedişində varisliyi təmin edən sabit, dayanıqlı amillərin sintezi inkişafı daha uğurlu məcraya yönəldir. Bütün bu proseslər içərisində bulunan bəşəriyyət Kopernik və Qalileyin elmdəki çevrilişlərindən az əhəmiyyətli olmayan dəyişikliklər ərəfəsindədir. Akademik Vernadski yazırdı: "Biz zəif ruhlu insanların yaşadığı böhranı deyil, minillikdə bir dəfə olan elmi fikirdəki dəyişikliklərin çətinliyini yaşayırıq".

Bəşəriyyət seçim qarşısındadır. Ona verilən seçim azadlığından düzgün istifadə etmək imkanı onun gələcək varlığını təmin edən əsas şərtdir. E.Fromm yazırdı: "İlk dəfə tarixdə insan nəslinin fiziki varlığının xilası onun ürəyinin radikal dəyişməsindən asılı olacaq".

Müasir dünyanın sosial-iqtisadi, siyasi inkişafının magistral meyllərinin təhlil edilməsi, qloballaşma prosesləri ilə sıx əlaqədardır. Bütün planeti əhatə edən bu proseslərdə ölkəmizin yeri, rolu iştirak formalarını və imkanlarını bilmək üçün baş verən proseslərdə dünyanın inkişaf etmiş sayılan ölkələrinin beynəlxalq inteqrasiya xüsusiyyətlərini, dəyişiklik və islahatlara necə nail olduqlarına bələd olmaq vacibdir. Bu gün informasiya-texnologiyaları sahəsində inqilab, həmişə mövcud olan qarşılıqlı yaxınlaşma proseslərinə görünməmiş vüsət, dinamizm vermişdir.

Bəhs etdiyimiz mövzu kontekstində qarşıya çıxan suallar başqa cür də səslənir. Qarşısıalınmaz görünən bu prosesdə lokal-regional müstəvidə gedən inteqrasiya yoxsa qlobal müstəvidə gedən unifikasiya meylləri üstünlük təşkil edəcəkdir?

Şübhəsiz ki, lider ölkələr öz sosial, siyasi, iqtisadi, milli inkişaf modellərini, yerdə qalan ölkələrə qəbul etdirməyə səy göstərmə – bu həmin ölkələrin siyasətinin həm müsbət, həm də mənfi, zəif tərəfini təşkil edir. Bu bərabərhüquqlu tərəflərin könüllülük əsasında qarşılıqlı zənginləşmə istəyinin ifadəsi olmalıdır. Lakin o da məlumdur ki, heç də bütün ölkələr təklif edilən yeni, mütərəqqi (və ya başqa) model, standart, bilik və texnologiyaları asanlıqla mənimsəyə və ya gerçəkləşdirə bilmirlər, istənilən halda milli və bəşəri potensialın ahəngdar inkişaf nöqtələrinin müəyyənləşdirilməsi birmənalı deyil, mürəkkəb prosesdir.

Müstəqillik illərində ölkəmizin iqtisadiyyatına birbaşa sərmayə qoyuluşu, birgə beynəlxalq layihələrlə uzunmüddətli əməkdaşlığın təməlinin möhkəmləndirilməsi, təbiidir ki, öz növbəsində davranış stereotiplərinin, işgüzarlıq mədəniyyətinin standartlarının dəyişilməsini, insanlar və ölkələr arasında inam və etibarın artmasını tələb edir. Məlumdur ki, qlobal əməkdaşlıq da, qlobal rəqabət və yarış da, qeyri səmərəliliyin, uğursuz fəaliyyətin istənilən nəticə və təzahürlərinə qarşı barışmaz münasibətdədir.

Bu gün inkişafın liderləri ola bilən ölkələr məhz bu şərtlərə əməl etdiyi, qlobal meylləri sezdiyi və ona qoşula bildiyi üçün həmin mövqeləri əldə etmişlər.

Dünya inkişafının müasir real meyllərinin "bizim üçün" də işləməsini, həm Azərbaycanın ümumi iqtisadi potensialı, həm geosiyasi mövqeyi, həm Ulu Öndərimizin yaratdığı siyasi sabitlik vəziyyəti, həm də prezidentimiz İ.Əliyevin yeritdiyi dinamik, fəal milli dövlətçilik siyasəti təmin edə bilər və edəcəkdir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev hesab edir ki, "qloballaşma dövründə milli suverenliyin məhdudlaşmasından biz inteqrasiya prosesinin əlverişli meyllərinin milli məkanda assimilyasiyası üçün imkan kimi istifadə etməli, ardıcıl, ölçülüb-biçilmiş və əlaqələndirilmiş siyasət yeritməliyik. Bu, xüsusilə sivilizasiyalı daxili siyasi məkanın formalaşması proseslərinə aiddir. Həmin məkanın əsasını ölkənin inkişafına, onun iqtisadiyyatının modernləşməsinə və müasir Azərbaycan cəmiyyətinin mənəvi-əxlaqi əsaslarının möhkəmlənməsinə kömək edə biləcək qüvvələr təşkil etməlidir... Qazanılmış nailiyyətlərin dərk edilməsi, azərbaycançılıq konvergensiyasında və konfessiyalararası dialoqda ifadə olunmuş milli

"mən"in qorunub saxlanması və varisliyinin təmin edilməsi güclü və müstəqil dövlət quruculuğunda birinci dərəcəli vəzifədir. 1993-cü ildən sonra Azərbaycanda görülmüş işlər aydın şəkildə sübut edir ki, milli inkişaf strategiyası sabit və təhlükəsiz siyasi və iqtisadi inkişafa, milli suverenliyin və sosiomədəni məkanın dəyişməzliyinin təmin olunmasına yönəlmiş öncül vəzifələrin dərk edilməsinə əsaslanır".

Bu gün yenidən milli dövlətçilik, milli suverenlik kimi prinsiplərin məzmununun baş verən köklü dəyişikliklər kontekstində təhlil etmək əvəzinə, onların "vaxtının keçdiyini" söyləmək də (müasir politologiya ədəbiyyatda), milliliyin "irqi şovinizm" kimi başa düşülməsi təhrif olunmuş mövqedir. Bəşəriyyət, milli ilə bəşəri, lokal və qlobal, unikal və universal qatların kövrək ahəngini təmin etməklə əbədiyaşar bir nizam modeli formalaşdıra bilər. Azərbaycan öz nadir, ortaq milli-mədəni sərvətləri və dövlətçilik təcrübəsi ilə belə nizam modeli üçün örnək rolunu oynaya biləcək bir məkandır.

ŞAHLAR ƏSGƏROV
Milli Məclisin Elm və təhsil məsələləri
daimi komissiyasının sədri,
YAP İdarə Heyətinin üzvü

"Biz düz yolla - haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır".

Heydər Əliyev

HEYDƏR ƏLİYEVİN LİBERAL-MAARİFÇİLİK İDEYALARI

Heydər Əliyev 1993-cü ilin iyun ayında ikinci dəfə hakimiyyətə qayıdarkən Azərbaycan böhranlar sistemi içərisində boğulurdu. Bu böhranların əsas yaranma səbəbi cəbhədə uğursuzluqlar və real mərkəzi hakimiyyətin - mərkəzi dövlət qurumunun iflici ilə bağlı idi. Bir çox nazirlər və bölgə rəhbərləri özlərini hakimi mütləq kimi aparırdı. Ölkə parçalanmaq və məhv olmaq həddinə çatmışdı.

Azərbaycan xalqının dostu Süleyman Dəmirəlin dediyi kimi ölkəyə xilaskar lazım idi:

*"1993-cü ilin iyun ayında, yəni müstəqilliyinin 2-ci ilində Azərbaycan vətəndaş müharibəsi astanasına gəldi. Azərbaycan Respublikası 1920-ci ildə olduğu kimi yıxılacaqdımı, ayağa qalxacaqdımı? Bir **xilaskar** lazım idi".*

Xalqın adından 91-lər Heydər Əliyevi Bakıya dəvət etdilər. O, Bakıya qayıdışının motivlərini belə şərh etdi:

"Respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm".

"Nə etməli?" sualı o zamanlar H.Əliyevin qarşısında duran həyatı və dövləti əhəmiyyət kəsb edirdi.

Atəşkəs

Böyük öndər Heydər Əliyev iki vacib problemi prioritet seçərək nə etməli sualına cavab verdi. Birincisi, nisbi sabitlik yaradaraq, 1994-cü ilin mayında cəbhədə atəşkəsə nail oldu. O, Üzünü parçalanmaqda olan bölgələrin əlahisinə tutaraq dedi: *"Biz nazik sapın üstüylə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun, ərazi bütövlüyü təmin edilsin, Azərbaycan müharibə şəraitindən çıxsın".*

Dövlət quruculuğu

Sovet dönəmində yarımmüstəqil olan dövlətimiz AXC rəhbərliyi zamanında yeni dövlət qurulmadan darmadağın edildi. Ölkə dövlətçilik ənənələri əsasında dövlətsizlik şəraitində yaşayırdı. Ləngimədən yeni bir dövlət qurmaq Heydər Əliyev tərəfindən ikinci prioritet kimi seçilmişdi. O deyirdi: *"Azərbaycan Respublikasının prezidenti kimi mənim borcum, vəzifəm və məqsədim ondan ibarətdir ki, Azərbaycanda həqiqi, demokratik cəmiyyət yaransın".*

Dövlət bir sosial institut olaraq 10 min ildir ki, mövcuddur və ictimai maraqların təzahür və cəmiyyətin müəyyən ideyalar ətrafında strukturlaşmış formasıdır. Gecikmədən belə bir təsisat yaratmaq qarşıda duran vacib məsələlərdən idi. H.Əliyev deyirdi: *"Müstəqilliyimizi möhkəmləndirmək üçün qarşımızda bir çox mühüm vəzifələr də durur. Bu vəzifələr dövlətçiliyi möhkəmləndirmək üçün islahatlar keçirməkdən, iqtisadi, siyasi, ictimai sahələrdə islahatlar aparmaqdan, respublikamızda **hüquqi demokratik** dövlət yaratmaqdan, cəmiyyətimizi tam demokratik bir cəmiyyətə çevirməkdən, insan hüquqlarının qorunması, adamların azad - asudə yaşamasını təmin etməkdən ibarətdir".*

Heydər Əliyev o zamanki çətin dövrdə dövləti qurmağın sirrini, elmi və siaysi konstruksiyası üçün lazım olan dövləti detalları - siyasəti, iqtisadiyyatı, mənəviyyatı lazımi istiqamətdə aparmaq üçün tələb olunan, bilgiyə, təcrübəyə, iradəyə malik idi. Sosialist dəyərlər sisteminə yox deyilmişdir. Yeni dəyərlər sistemi lazım idi. Bu dəyərlər sistemi bəşəri dəyərlər sistemi olmalı idi. Bildiyimizdən imtina etmişdik. Bilmədiyimizə tərəf gedirdik. "Tarix - inam ulduzu altında insanların azadlığa gedən yoludur" - deyiblər. Bu yolda ölkəyə Heydər Əliyev rəhbərlik edirdi.

Filosof Bernin bir fikrində deyilir: **"Bir dəyərlər sistemindən digər dəyərlər sisteminə keçmək üçün üç nəsil dəyişməlidir"**. Deməli, yol uzundur. Bu dövr keçid dövrü adlanır. Keçid dövrü dövlət quruculuğunun başlandığı və qurtardığı dövrüdür. Keçid dövründə ideya mənbəyi prezidentdir. Yeri gəlmişkən qeyd edək ki, stabil quruluşlarda ideya mənbəyi xalq və onun seçilmiş nümayəndələridir. **A.Şopenhauerin** fikrincə: **"Hökmdarlar yetişmir, onlar anadan hökmdar doğulurlar"**. Heydər Əliyevin keçid dövrünün müddətini qısalda biləcəyinə heç kəs şübhə etmirdi. Heydər Əliyevin keçid dövrünün müddətini qısalda biləcəyinə heç kəs şübhə etmirdi. O, yeni dövləti qurmaq üçün liberal-demokratik dəyərlər sistemini seçərək dövlət quruculuğunda istifadə edəcəyi prinsipləri belə bəyan etmişdi:

"Respublikamızda hüquqi dövlət quruculuğu, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığı, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir".

Ulu öndər dövlət quruculuğu zamanı milli və bəşəri dəyərlərin vəhdətindən, tarixi ənənələrdən istifadə ediləcəyi haqda əhalıyə vaxtaşırı məlumat verirdi:

"Dövlət qurulduqca nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadəyə edilir".

H.Əliyev əhaliyə müraciət edir, gələcəyə baxmağı tövsiyə edir və hər bir kəsi dövlət quruculuqunda öz töhvəsini verməyə çağırırdı.

"Keçid dövrünə fəlsəfi baxış" kitabımda (Bakı, 1998, səh. 73) mexaniki olaraq dövlət maşını yan-yana qoyulmuş, bir-biri ilə əlaqədə olan üç qutu, üç stəkan kimi təsəvvür edilmişdir. Sol stəkana ölkənin potensialı (iqtisadi və intellektual) tökülür, sağ stəkana xalqın xoşbəxt yaşama arzusu toplanır. Orta stəkan çevrici aparatdır, potensialı arzuya çevirir. Dövlət aparatının bu modeli böyük öndərin aşağıdakı fikirləri ilə həmahəng səslənir:

"Siz gələcək övladlarımızı, nəvələrinizi də düşünməlisiniz ki, onlar necə yaşayacaqlar. Əgər biz bu dövləti, demokratik, hüquqi dövləti, bazar iqtisadiyyatı yolu ilə gedən dövləti qursaq və bunu qurmalıyıq - Azərbaycanın iqtisadi potensialı o qədər böyükdür ki, onu beləliklə, hərəkətə gətirib Azərbaycanın iqtisadiyyatını inkişaf etdirəcəyik və ölkəmizin hər bir vətəndaşına normal, firavan həyat sürməyi təmin edə biləcəyik. Bu, bizim hamımızın vəzifəsidir. Təkcə Prezidentinin yox, hər bir vəzifəli şəxsin vəzifəsidir, hər bir vətəndaşın vəzifəsidir. Çünki bu ölkə bizimkidir, bu xalq, bu dövlət bizimkidir".

Liberal-demokratik dəyərlər

"İnsan üçün, xalq üçün hər şeydən qiymətli, hər şeydən əziz müstəqillikdir, azadlıqdır".

Heydər Əliyev

Böyük öndər geniş mənada liberal-demokratik dəyərlər sistemi və maarifçilik ideyaları, lokal mənada dövlətçilik, siyasət, ideologiya, iqtisadiyyat, mənəviyyat haqqında istiqamətverici fikirlərini müxtəlif görüşlərdə, müşavirələrdə söyləyirdi. Bu fikirlərin geniş əhali kütləsinə, xalqa çatdırılması üçün KİV və TV kanallarının potensialından maksimum istifadə edirdi. TV kanalları vasitəsi ilə əhalini maarifləndirən bu fikirlər şübhəsiz onun siyasi və ümumi mədəni səviyyəsinin kifayət qədər yüksəlməsinə səbəb olur və səbəbdən də belə verilişlər Açıq Universitet təsiri bağışlayırdı.

Liberal-demokratik dəyərlər sisteminin əsas müddəalarına Bakıya qayıdışdan öncəki dövrlərdə yazılmış sənədlərdə rast gəlirik. Böyük öndər 24 oktyabr 1992-ci ildə ölkənin 91 ziyalısına yazdığı cavabda açıq cəmiyyət üçün zəruri olan müddəalardan geniş istifadə etmişdir. Həmin cavabdan bir neçə fikrə diqqət yetirək. Naxçıvandan Azərbaycanın gələcəyi belə görünürdü:

- Azərbaycanın müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və heç cür yol vermək olmaz ki, bu ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına çevrilsin;
- Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və qoruya bilərsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar;
- Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadəyə yol verilməməlidir;
- Müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir;
- Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır.

1992-ci ildə Yeni Azərbaycan Partiyasının Nizamnaməsinin məqsəd və vəzifələri maddələrində liberal-demokratik ideyaları geniş istifadə edilmişdir. Orada deyilir: *"Yeni Azərbaycan Partiyasının* ***ali məqsədi*** *Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutması, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, sabit və sosial yönümlü iqtisadiyyatın yaradılması, irqindən, millliyyətindən, sosial mənşəyindən, dilindən və dinindən asılı olmayaraq şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli və etibarlı müdafiəsinin təmin edilməsi, qanunçuluq, möhkəm əmin-amanlıq, ictimai həmrəylik və firavan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin formalaşdırılması və insanların müstəqil dövlətçilik ətrafında birləşdirilməsindən ibarətdir" (Maddə 1).*

Yeni Azərbaycan Partiyasının Nizamnamə və Proqramının H.Əliyev tərəfindən yazılması 91-lərə və partiyanın qızıl fonduna bəllidir. Nizamnamənin 2-ci maddəsində H.Əliyev partiya qarşısınla aşağıdakı vəzifələri yerinə yetirməyi vacib sayırdı:

• **müstəqil, demokratik, hüquqi, dünyəvi və sosial yönümlü dövlətin qurulması naminə** birgə səy göstərmək istəyən Azərbaycan vətəndaşlarını öz ətrafında birləşdirmək və partiya işinə cəlb etmək;

• peşəkar idarəetmə və **demokratik prinsiplər** əsasında dövlət quruculuğunu inkişaf etdirmək, **siyasi, hüquqi, iqtisadi və sosial** islahatları dərinləşdirmək üçün əsaslı təkliflər, proqramlar və platformalar hazırlamaq;

• **qanunçuluğa hamılıqla hörmət edilməsi, qanunların icrasının dönmədən təmin edilməsi, ictimai həyatın bütün sahələrinin demokratikləşdirilməsi** məqsədilə geniş siyasi fəaliyyət göstərmək;

• **bazar iqtisadiyyatının və azad sahibkarlığın inkişafı yolu ilə** istehsalın yüksəldilməsinə, vətəndaşların rifah halının təmin olunmasına, ölkədə fəal sosial siyasətin həyata keçirilməsinə nail olmaq;

• **çoxpartiyalı sistemə, demokratik hakimiyyətə və siyasi plüralizmə əsaslanan** dövlət idarəçiliyi və vətəndaş cəmiyyətini inkişaf etdirmək;

• **qanunların və digər normativ hüquqi aktların layihələrinin müstəqil ictimai ekspertizasını keçirmək, onların təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;**

• **şəxsiyyətin hüquq və azadlıqlarının, şərəf və ləyaqətinin hərtərəfli müdafiəsinə,** vətəndaşlar arasında qarşılıqlı anlaşmanın, inamın və humanitar əlaqələrin inkişafına kömək etmək;

• **millətlərin, etnik qrupların, mədəniyyətlərin və dinlərin azad inkişafına nail olmaq;**

• Azərbaycan dövlət müstəqilliyinin, milli təhlükəsizliyinin qorunması mövqeyindən çıxış etmək, bütün dünyada sülhün, dövlətlər, xalqlar arasında əməkdaşlığın inkişafına və Azərbaycanın dünya birliyində layiqli təmsil olunmasına çalışmaq, beynəlxalq normalara hörmətlə yanaşmaq, dünya sivilizasiyasının nailiyyətlərindən geniş istifadə etmək.

YAP-ın Nizamnaməsində öz əksini tapmış bu liberal-demokratik ideyalar sonralar Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul olunmuş Konstitusiyasında (1995-ci il) geniş istifadə edilmişdir. Konstitusiyamızın maddələrinin üçdən biri insan hüquq və azadlıqlarını əhatə edir.

Yeni Konstitusiya və yeni prioritetlər

H.Əliyev "Экономическая газета"nın müxbiri Nikolay Trasenko ilə 4 mart 2000-ci ildə etdiyi söhbətdə deyir:

"Bilirsiniz ki, zənnimcə, bizim hamımızın, - mən Sovetlər İttifaqı dağıldıqdan sonra dövlət müstəqilliyi qazanmış ölkələri nəzərdə tuturam, - eyni problemlərimiz, eyni bir yolumuz var. Yəni biz sosialist iqtisadi sistemdən imtina etdik, demokratiya, bazar iqtisadiyyatının inkişafı, özəlləşdirmə, sahibkarlar, ***mülkiyyətçilər*** *yaranması yoluna qədəm qoyduq. Artıq başqa yol yoxdur".*

Yeni Azərbaycanın yeni bünövrəsi və dövlət quruculuğunun prioritetləri və strateji inkişaf yolu konstitusiyada qoyulmuşdur. Yeni konstitusiyada diqqət mərkəzinə kütlənin yox, fərdin qayğıları, hüquqları, azadlıqları çəkilir. Misal üçün, təhsil sahəsinə tətbiqdə bu o deməkdir ki, əgər sovetlər dönəmində kütləni təhsilli etməklə fərdi təhsilləndirirdiksə, indi prioritet dəyişir. Fərdi təhsilli etməklə kütləni təhsilli etmək üçün tutacaqdır. Bu cür liberal dəyərlər əsas qanunda geniş əks olunmuşdur. Misal üçün, qanunun bir neçə müddəasına diqqət yetirək. Konstitusiyanın ikinci bölməsində əsas hüquqlar, azadlıqlar barədə 48 maddə vardır. Orada "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipləri", "Bərabərlik hüququ", İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi", "İnsan və vətəndaş hüquqlarının təminatı" kimi xarakterik maddələr əksini tapmışdır. "Bərabərlik hüququ" maddəsində (M. 24) yazılır:

"III. Dövlət irqindən, millliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, si-

yası partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".

Sonralar Heydər Əliyev Konstitusiyanın Azərbaycan cəmiyyətində oynadığı rolu belə dəyərləndirmişdir:

• *Azərbaycanda müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi 1995-ci ildən böyük vüsət aldı. Bunun əsasını da Azərbaycanın qəbul etdiyi Konstitusiya təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçilik möhkəmlənib, demokratik prinsiplər bərqərar olubdur;*

• *Müstəqil Azərbaycanın Konstitusiyası ölkəmizdə yeni dövlət quruculuğu üçün, dövlət fəaliyyətinin və cəmiyyətin inkişafının gələcək modeli üçün hüquqi əsas yaratdı. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun ədəbi, dönməz xarakter alması baxımından tariximizin ən məhsuldar dövrünün təməli qoyuldu.*

Tarixi bəyanat

Müstəqilliyimizin 10 illik yubileyində çıxış edən ümummilli lider Heydər Əliyev keçdiyimiz çətin və şərəfli tarixi yolu belə qiymətləndirdi:

"Mən tam əminəm ki, biz on il böyük yol keçərək, ağır yol keçərək müstəqilliyimizi qoruyub saxlaya bildiksə, onu möhkəmləndirə bildiksə, Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlət yarada bildiksə, bu dövlətin bütün təsisatlarını yarada bildiksə, demək, Azərbaycanın gələcəyi üçün çox əsaslı, çox möhkəm bir təməl qoymuşuq. Biz oz üzərimizə düşən ***missiyanın*** *birinci, ən çətin hissəsini yerinə yetirmişik".*

Ölkəmizdə onlara dövlət mətbuatı, yüzlərlə müstəqil KİV-in, bir neçə dövlət və özəl TV kanalının, 50-yə yaxın siyasi partiyanın olmasına baxmayaraq, heç kəs Azərbaycan üçün fövqəladə əhəmiyyət kəsb edən bu tarixi bəyanatı layiqincə qiymətləndirə bilmədi: **"Biz öz üzərimizə düşən missiyanın birinci, ən çətin hissəsini yerinə yetirmişik"** təntənəsi diqqəti cəlb etmədi. Bir siyasi partiya lideri, bir şair və ya yazıçı, bir ziyalı, bir jurnalist dövləti qurduğuna görə böyük öndərə minnətdarlıq etmədi və soruşmadı ki, **"möhtərəm cənab prezident, bəs missiyanızın ikinci hissəsi nədir?"**

Nə Milli Elmlər Akademiyası, nə universitetlər cəmiyyətdə dövlət aparatının rolu ilə bağlı elmi konfranslar çağırıb prezidentimizin **"Ölkəmizdə hüquqi islahatlar aparılıbdır, iqtisadi islahatlar aparılıbdır, məhkəmə islahatları aparılıbdır. Azərbaycanda dövlət qurulubdur"** bəyanatını elmi müstəvidə müzakirə etmədilər. Axı, həyatımızda adi yox, fövqəladə hadisə baş vermişdi. Böyük öndər H.Əliyevlə bağlı yazılmış kitablarda, dissertasiyalarda belə təhlilə rast gəlmək mümkün deyil. Kitabların forması məzmununu tamamlamır. Çox vaxt forma çox cəlbedici, məzmun isə çox dayaz olur. Bəzən hiddət doğuran materiallara da rast gəlmək mümkündür. Dissertasiya müdafiələri H.Əliyevin elmi-siyasi dünyagörüşünün müddəalarını öyrənmək araşdırmaq niyyəti ilə yox, fürsətdən istifadə edib elmi ad almaq niyyəti ilə edilir. Bizim üçün çox üzücü olacaq, əgər H.Əliyev haqqında dəyərli kitabı bir xarici vətəndaş yazsa.

1918-1920-ci illərdə Azərbaycan müstəqilliyini bəyan etmiş, ancaq dövləti qurub axıra çatdıra bilməmişdi. Bu işi edə bilmədiyinə görə də süqut etmişdir. Çünki 23 aya dövlət qurmaq çətin bir işdir. 1920-ci ilin aprel ayından 1991-ci ilin oktyabr ayına qədər Azərbaycan müstəqil yox, yarımmüstəqil və totalitar dövlət kimi fəaliyyət göstərmişdir. Ölkə prezidenti müstəqilliyin 10-cu ildönümü günü dövləti qurduğunu bəyan edir, heç kəs bu tarixi fikrin dəyərini qiymətləndirə bilmir. Anlamır ki, Azərbaycanda tarixi hadisə baş vermişdi. Son 100 ildə ilk dəfə ölkədə müstəqil və hüquqi-demokratik dövlət qurulmuşdur. Niyə iqtidarlı-müxalifətli bütün siyasi partiyalar ona təbrik teleqramları göndərmədilər, görüş istəyib öz minnətdarlıq və ehtiramlarını bildirmələdirlər? Hesab edirəm ki, bu siyasi partiyalara rəhbərlik edən insanlar, nə 1920-ci il ADC süqutunun, nə də 1992-ci il AXC hakimiyyətinin süqutunun səbəblərini hələ analiz edib öyrənməyiblər. Onlar Azərbaycan ərazisinin 114 min kv.km-dən (1920) 86,6 min kv. km-ə (1992) qədər azalması səbəblərini hələ təhlil edib öyrənməyiblər. Öyrənsəydilər hökmən Heydər Əliyevi təbrik edərdilər və ona öz ehtiram və minnətdarlıqlarını bildirərdilər və tarixi bəyanatı, tarixi sevinclə qarşılayardılar. Bütün bunları və cəmiyyətdə gedən müsbət və mənfi halları inert və soyuq münasibətləri görəndə istər-istəməz fikirləşirsən ki, ölkəmizdə ictimai şüurun inkişafı, ümumi inkişafdan çox geri qalır.

Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar **Strasburqda** (Yanvar 2001) təntənəli mərasimdə Azərbaycan

Respublikasının prezidenti Heydər Əliyev gənc dövlətimizin başəri və Avropa dəyərlərinə münasibətini belə ifadə etdi:

"1991-ci ildə Sovet İttifaqının dağılması ilə əlaqədar Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Azərbaycan yalnız son 10 ildə deyil, tarixin son iki əsri ərzində ardıcıl olaraq Avropaya, Qərb mədəniyyətinə, ümumbəşəri dəyərlərə can atmışdır. Şərqlə Qərbin, Avropa ilə Asiyanın kəsişdiyi nöqtədə yerləşən Azərbaycan dinlərin, tarixlərin və mədəniyyətlərin qovuşduğu mərkəzə, iki qitə və iki sivilizasiya arasında körpüyə çevrilmişdir. Azərbaycan xalqı öz Şərq köklərindən ayrılmayaraq, Qərb sivilizasiyasının sintezinə əsaslanan nadir bir mədəniyyət yaratmış olur. Qərbin mütəraqqi dəyərlərini Qafqazda, Yaxın və Orta Şərqdə yaymışdır. Məhz Avropa ilə sıx və məqsədyönlü təmasının nəticəsidir ki, XIX əsrin ortalarından başlayaraq müsəlman Şərqində ilk qəzeti, ilk Avropa tipli məktəbləri, ilk teatrı, ilk yenilikçi ədəbiyyatı və ictimai fikri, nəhayət, demokratik respublika tipli ilk dünyəvi dövləti 1918-ci ildə Azərbaycan xalqı yaratmışdır...

*1991-ci ildə dövlət müstəqilliyi qazanan Azərbaycan birmənalı şəkildə Avropaya, onun humanist və demokratik dəyərlərinə inteqrasiya yolu tutdu. Tarixən çox qısa bir müddət ərzində biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq, çox şeyə nail ola bildik. Biz bütün çətinliklərə baxmayaraq, **liberal iqtisadiyyat** və **sivil cəmiyyət** quruculuğu yolu ilə irəlilədik. Biz insan haqlarının qorunmasını önə çəkdik, vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı siyasi sistem yaratdıq. Biz müddəalarının üçdən biri insan haqlarının və insan azadlıqlarının qorunmasına həsr olunmuş yeni Konstitusiya qəbul etdik. Şərqdə ilk dəfə ölüm hökmünü aradan qaldırdıq, yeni qanunverici sistem yaratmaq, prezident, parlament və bələdiyyə seçkiləri keçirdik".*

Həmin gün AŞPA sessiyasında çıxış edən Azərbaycan Respublikasının prezidenti fürsətdən istifadə edərək diqqəti yenə də ölkədə gedən liberal-demokratik dəyişikliklərə yönəldir:

*"Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, suveren hüququndan istifadə edərək 1995-ci ildə **Azərbaycan Respublikasının Konstitusiyasını** qəbul etmişdir. Bu sənəd demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuş və onun inkişafının yollarını müəyyən etmişdir...*

*Genişmiqyaslı islahatlar sayəsində iqtisadiyyatda tənəzzül aradan qaldırılmışdır. Azərbaycanın iqtisadi strategiyası iqtisadi fəaliyyətin liberallaşmasına, inhisarçılığa son qoyulmasına və **özəl sektorun inkişafına** əsaslanır. Azərbaycanda özəlləşdirmə prosesi gedir, torpaq islahatı aparılır".*

Heydər Əliyev tərəfindən aparılan liberal-demokratik islahatların tətbiqi Azərbaycana nə verdi? - sualına lakonik belə cavab vermək olar. Bu islahatların nəticəsində cəmiyyətimizin qazandığı uğurlara qısaca nəzər salaq:

- Ölkədə dəfələrlə demokratik seçkilər keçirildi; Hər sonrakı seçkinin əvvəlkindən daha demokratik olduğunu beynəlxalq müşahidəçilər də təsdiqləyirlər;
- Tarixi qərar qəbul edilərək torpaqlar əhaliyə paylandı;
- Aqrar sahədə özəlləşmə aparılaraq kolxozlar və sovxozlar ləğv edildi və nəticədə ölkədə ərzaq bolluğu yarandı; çörək qıtlığına son qoyuldu;
- Sənaye sahəsində özəlləşmə prosesi həyata keçirilir; sahibkarlar sinfinin, orta təbəqənin yaranması üçün şərait yaradılır.

Rüşvətlə mübarizənin fəlsəfəsi

İdeal cəmiyyət qurmaq deyil. Çünki cəmiyyət qurmaq mümkün deyil. Çünki insan faktoru maneçilik törədir. Böyük Britaniyanın sabıq Baş naziri Marqaret Tetçer "Dövləti idarəetmə məharəti" kitabında insan naqisliyi ilə bağlı yazır: *"Respublika idarəçilik formasının mahiyyəti insanın qüsurlarına qarşı mübarizə aparmaqdır"*. Deməli, real cəmiyyətlərin ən alisində belə insan faktoru rol oynayacaqdır. Heydər Əliyev söhbətlərinin birində söyləmişdir: *"İnsan cəmiyyəti, dövlət yaranandan korrupsiya olubdur. Ancaq onunla mübarizə də olubdur"*.

Bir çox dövlət başçılarının rüşvətə qarşı apardığı ciddi mübarizə tarixin yaddaşında qalmışdır. İran şahı **Kambiz** rüşvətxor məmurların dərisini soydurar və bu dərini onun kreslosunun üzərində çəkdirərək yeni vəzifə alan şəxsi otuzdurarmış. Ancaq bununla belə, rüşvətə inzibati yolla son qoymaq mümkün olmamışdır.

İnsan təbiətcə tənbəl və acgöz məxluqdur. Öz ehtiyacını təmin etmək üçün qanuni və qanunsuz üsullardan istifadə edir. Çox vaxt şəxsi mənafeyini ictimai və dövlət mənafeyindən üstün tutur. Rüşvət bu istəkləri həyata keçirmək üçün bir vasitədir. Rüşvətin yayılma dərəcələrinə görə qu-

quruluşlar bir-birindən fərqlənərək sivil və qeyri-sivil cəmiyyətlərə bölünürlər. Ancaq müxtəlif sahələrdə elmi yolla rüşvətlə mübarizə aparmaq, onu küncə sıxmaq da mümkündür. Bu müddəanı sübut etmək üçün ölkəmizin çörək təsərrüfatına nəzər salaq.

Azərbaycanda 1990-cı illərin əvvəllərində rüşvətə ən çox uğramış müəssisələr çörək zavodları olmuşdur. Şükürlər olsun, indi bu sahədə rüşvət yoxdur. Nə baş vermişdir? İnsanların çörəyə ehtiyacı azalmışdı? Bəlkə, insanlar müqəddəs dəyərlər sistemini mənimsəmişdilər? Onların heç biri olmamışdır.

Baş verən budur ki, quruluş elə dəyişmişdir ki, dövlət bu sahənin idarə olunmasından öz əlini çəkmişdir. Çörək təsərrüfatı özəl əllərə verilmişdir. Başqa sözlə, ulu öndər Heydər Əliyev dövlət quruculuğunda liberal-demokratik dəyərlərə üstünlük verərək, bu sahənin özəlləşməsi üçün hər cür şərait yaratmışdı. Özəlləşmənin hikmətini aydınlaşdırmaq üçün ona bir az da işıq salaq.

Özəlləşmənin hikməti

Vətəndaş cəmiyyətinin mahiyyəti ondan ibarətdir ki, insanlar bir-birinin tələbatını ödəyə bilirsə, dövlət bu işə maneçilik törətməməli, əksinə, onun inkişafı üçün normativ-büquqi baza yaratmalıdır. Birinin gündəlik çörəyə ehtiyacı varsa, başqa birisi isə bu işi uğurla görə bilirsə, dövlət bu işə ancaq köməklik göstərməlidir. Çünki dövlətin burada qazancı soxdur: birincisi, dövlət üçün vergi ödəyicilərinin sayı artır; ikincisi, yeni iş yerləri açılır; üçüncüsü, sistemdən rüşvət qoyulur. Bütün bunlar sivil dövlət üçün çox böyük göstəricilərdir. Birinci iki qazancın mahiyyəti aydındır. Üçnücü qazanc faktoruna diqqət yetirək.

Sovetlər dönəmində çörək istehsalı prosesinin iki tərəfi var idi. Bu prosesin idarəedən (aktiv) thrhfi dövlht (zavodun direktoru timsalında), idarəolunan (passiv) tərəfi isə istehlakçılar (alıcılar) idi. Bəşəriyyətin inkişaf tarixi göstərir ki, ta qədim zamanlardan indiyə kimi həmişə şirinlik, hədiyyə (rüşvət) idarə olunandan idarəedən tərəfə axıbdır. Çörək zavodu timsalında bu o deməkdir ki, rüşvət istehlakçıdan idarəedənə (çörək zavodunun direktoruna) tərəf axıbdır. Sual olunur: bu prosesdə rüşvətə yox demək mümkündürmü? Əlbəttə, mümkündür. **Bunun üçün elə etmək lazımdır ki, prosesin aktiv tərəfi (idarəedən) istehlakçılar, passiv tərəf**

isə istehsalçılar olsun və dövlət 3-cü subyekt kimi bu prosesi idarə etməkdən əl çəksin. Çörək problemi alıcı ilə satıcının, başqa sözlə, istehsalçı ilə istehlakçının (xidmət göstərəndə müştərinin) qarşılıqlı işi olmalıdır. Burada başqa subyektə yer olmamalıdır. Sovetlər zamanında məhz süni şəkildə üçüncü subyektin müdaxiləsi rüşvətə əsas yaratmışdı. O zamanlarda rüşvətə qarşı mübarizə aparılıb və onun nəzarətdə saxlamaq üçün inzibati metodlarından istifadə olunurdu. Bu isə rüşvəti daha da artırırdı.

Demokratik Qərb cəmiyyətlərində rüşvətlə mübarizəni inzibatı yox, liberal metodlarla aparırlar. Müəssisələr elə qurulur ki, prosesin idarə edən tərəfi istehlakçılar (müştərilər), idarəolunan tərəfi isə istehsalçılar (xidmət göstərənlər) olurlar. Bu səbəbdən də istehsal müəssisəsi istehlakçıları (müştəriləri) cəlb etmək məqsədilə çörəyin keyfiyyətini və xidmət mədəniyyətini daim artırır ki, rəqabətə davamlı müəssisəyə çevrilə bilsinlər.

Hal-hazırda ölkəmizdə ərzaq boldur. Çünki bu dediklərimiz ət, süd də digər ərzaq məhsullarının istehsalına da eyni dərəcədə aiddir və artıq bu proseslərin dövlət simasında üçüncü subyekti yoxdur. İndi ət, yağ, süd və s. istehsalçıları ilə istehlakçılar (müştərilər) arasında kolxoz sədri, sovxoz direktoru, partkom (başqa sözlə, insanların fəaliyyət azadlığını ədindən alan, təşəbbüsünü boğan) timsalında dövlət adamı yoxdur. Ölkədə ərzaq bolluğu yaranmasının elmi-fəlsəfi səbəbi bunlardır. Bu münasibət təhsil, mədəniyyət, turizm müəssisələri üçün də doğrudur.

Liberal-maarifçilik ideyaları

"Mən fəxr edirəm ki, azərbaycanlıyam".

Heydər Əliyev

Heydər Əliyevin liberal-maarifçilik ideyaları çoxcəhətlidir. O, elm, təhsil, mədəniyyət, mənəviyyət, idman, məişət və digər sahələr haqqında dəyərli fikirlər, kəlamlar söyləmişdir. Müstəqillik, milli birlik, vətənpərvərlik, azərbaycançılıq ideyaları Heydər Əliyevin çıxışlarının leytmotivini təşkil edir. Azərbaycan cəmiyyətinin inkişafı üçün dəyərli olan bu fikirlərin alimlərimiz tərəfindən araşdırılmaması, öyrənilməməsi təəssüf doğurur.

Böyük öndər təkrarçılığı sevməzdi, ancaq bir ifadəni: **"Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və sarsılmazdı"** - dönə-dönə

təkrar edirdi. Yüz illərlə müstəqil yaşamayan bir ölkənin vətəndaşları üçün bu çox önəmli və dəyərli ifadədir. Hesab etmək olar ki, bu ifadə ictimai şüura yeridilə bilibdir. Ona çox yerdə rast gəlirik, çox insanlardan eşidirik. Qeyd etmək lazımdır ki, dövlətin əbədi olması, onun qüdrətli olması dövlət mənafeyi ilə şəxsi mənafe arasındakı fərqdən asılıdır. H.Əliyev bu kəlamında dövləti mənafenin digər mənafelərdən üstün olmasını nəzərdə tutur.

Azərbaycan dilində danışan, vətəni sevən, yeni milli konsepsiyanı qəbul edən hər kəs azərbaycanlıdır. Bu müddəanı H.Əliyev ideologiyasının, bəlkə də, 1-ci müddəası hesab etmək olar, çünki Azərbaycan sözü ölkənin bütün vətəndaşlarını birləşdirir və identikləşdirir.

Təhsildə ikidillilik birlik probleminə əngəl yaradır. Sovetlər təhsilin iki dildə aparılması, bizi azərbaycandilli azərbaycanlılara və rusdilli azərbaycanlılara parçalamışdı. Deməli, başqa dili təhsilə gətirməklə xalqı parçalamaq, onu müxtəlif dünyagörüşlü, müxtəlif mədəniyyətli, mentalitetli etmək olar. Beləliklə, bu nəticəyə gəlmək olar ki, öz dilimizdən geniş istifadə etmək bizi birləşdirər. Bu səbəbdən böyük öndər düzgün yolu bizə belə göstərir:

"İndi biz müstəqil dövlətik. Bizim dövlət dilimiz, ana dilimiz Azərbaycan dilidir. Tədris hər yerdə Azərbaycan dilində getməlidir".

Dövlətin qorunmasında milli birliyin rolu danılmazdır. Gənc dövlət üçün, torpağı düşmən tapdağı altında olan millət üçün milli birlik daha vacibdir. Azərbaycana gələn xarici qonaqların bir qismi **"sizə birlik lazımdır"**, digər bir qismi isə **"sizə demokratiya lazımdır"** deyirlər. Şübhəsiz, bizə həm birlik, həm də demokratiya lazımdır. Ancaq birincilərin bizə dost olmalarına şübhə etmirəm. Bizə birlik arzulayanlar dövlətimizin qüdrətlənməsini, demokratiyanı qabardanlar isə gənc dövlətimizin zəifləməsini və hərcmərcliyin baş alıb getməsini istəyirlər. Bu səbəbdən də böyük öndər deyir:

"Düşmənin Azərbaycanı parçalamaq, dağıtmaq, torpaqlarımızın bir qismini ələ keçirmək planlarının qarşısını almaq üçün, buna sinə gərmək üçün, bu planları pozmaq, Azərbaycanı qorumaq üçün hamının ***bir məqsədi olmalıdır"***.

Bu günümüzün və gələcəyimizin təminatının milli birlikdə olmasını, birliyin dövlətin və xalqın taleyində oynadığı rolu ümummilli liderimiz belə dəyərləndirmişdir:

• *"Mən Azərbaycan Prezidenti kimi ...bu gün deyirəm: "Azərbaycan özündə bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada soydaşlarımızın bir olması vacibdir".*

• *"Xalqımızın birliyi və qələbəyə inamı gələcək uğurlarımızın təməlidir";*

• *"Əgər bir azərbaycanlı ilə bir ermənini təkbətək meydana salsan, azərbaycanlı heç vaxt kürəyini yerə verməz. Heç vaxt! Amma millətimizi bu cür qəhrəman etmək bir iki adamın işi deyildir. Bu, xalqın hamısının birlikdə işidir və xalqa rəhbərlik, başçılıq, sərkərdəlik edən adamların işidir. Xalqımızda bu qüdrət, cürət, qəhrəmanlıq keyfiyyətləri var";*

• *"Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür".*

Amerikalı Jan Kalitisk ilə söhbət zamanı (3.03.2000) H.Əliyev iqtidar, müxalifət, demokratiya problemlərinə toxunur:

• *"İnsanlar bu mədəniyyəti - demokratiya mədəniyyətini müxalifət mədəniyyətini, iqtidar mədəniyyətini mənimsəməlidirlər. Bunun üçün zaman və bir də istək lazımdır";*

• *"XX əsr bəşər tarixində böyük dəyişikliklər əsri olmuşdur. XIX əsrin sonunda və XX əsrin əvvəllərində Azərbaycanın vətənpərvər, mütəfəkkir insanları ölkəmizdə millətin içərisində olan müstəqillik arzularını gücləndirmək üçün milli oyanış, milli özünütanıtma, öz millətini qiymətləndirmə fikirlərini ardıcıl olaraq oyatmağa başlamışdılar".*

1990-cı ilin 20 Yanvar qırğını ilə bağlı ulu öndər deyir:

"Xalqımız o günü heç vaxt unutmayacaqdır. Çünki, o, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildi, bu bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimiz qəhrəmanlarıdır".

Örnək mədəniyyət

H.Əliyevin liberal-maarifçilik ideyalarını bir məqalədə əks etdirmək mümkün deyildir. Bu mövzu ayrıca bir möhtəşəm elmi tədbirin, konfransın müzakirə obyektidir. Bu səbəbdən də məqaləni Heydər Əliyevin örnək mədəniyyətindən bir-iki misalla yekunlaşdırmaq istəyirəm.

1995-ci ildə Bakı Dövlət Universiteti Azərbaycan prezidenti Heydər Əliyevi Elmi Şuranın qərarı ilə fəxri doktor seçdi. Bu fəxri diplomu hazırlatmaq mənə həvalə edildi. Mən Bakı ustalarının gücündən istifadə

edərək, nəfis edilmiş bir diplom hazırladıb rektora təqdim etdim. Ancaq böyük öndər diplomu qəbul etmədi və dedi ki, hələ saxlayın.

YAP-ın yaranmasının növbəti ildönümü ilə bağlı keçirilən respublika tədbirində çıxış edənlər müxtəlif təkliflər irəli sürürdülər. Onlardan bəziləri böyük öndərə milli qəhrəman kimi üksək ad verilməsini təklif edirdi. YAP-çıların buna haqqı da var idi. Çünki ölkə 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrindən keçmişdi.

Tədbirin sonunda çıxış edən YAP sədri Heydər Əliyev bu məsələlərə də toxundu və dedi ki, mənim təltif olmamla bağlı partiya üzvləri tərəfindən süxtəlif təkliflər səsləndi. Bu yaxınlarda Bakı Dövlət Universiteti mənə fəxri doktor adı vermişdi. Ancaq siz bilin ki, Azərbaycan xalqı mənə ən yüksək vəzifəni etibar etmiş və özünə prezident seçmişdir. Mənə daha heç bir rütbə, dərəcə lazım deyil. Kimə lazımsa, onu mən onlara verəcəyəm.

Analoji hadisə Milli Elmlər Akademiyası tərəfindən də olmuşdur. MEA-nın Rəyasət Heyəti Heydər Əliyevə akademik adının verilməsi ilə bağlı qərar qəbul etmişdir. Səhərisi gün bütün dövlət qəzetlərində H.Əliyevin MEA-nın rəhbərliyinə məktubu dərc olundu. H.Əliyev bu adı da qəbul etmədən imtina etdi.

Rusiyanın nüfuzlu teleproqramı **"İkiqat portret"**-də H.Əliyevə və E.Şevardnadzeyə jurnalist "Sizin dostunuz varmı?" sualı ilə müraciət edir. E.Şevardnadze: "Bəli, var" - söyləyə də, böyük öndər Heydər Əliyev "yox" cavabı vermişdir. Çünki N.Əliyev böyük dövlət adamı idi. O, bütün vətəndaşlarını özünə dost bildiyi halda bunların arasından heç kimi seçmədi.

Ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının lideri olduğundan onun Azərbaycana və azərbaycanlılara arzusu bu məqalə üçün yaxşı sonluqdur:

"Harada yaşamasından asılı olmayaraq, hər bir ailəyə, hər bir azərbaycanlıya xoşbəxt həyat və xoşbəxt gələcək arzulayıram. Qoy çaylarımız qurumasın! Qoy ağaclarımız kəsilməsin! Qoy çırağımız sönməsin!"

HÜSEYN PAŞAYEV
YAP-ın Mətbuat Xidmətinin rəhbəri,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN MİLLİ İNKİŞAF KONSEPSİYASININ MÜƏLLİFİDİR

İndi biz elə bir dövrdə yaşayırıq ki, artıq ictimai münasibətlər sistemini və bəşəriyyətin sosial-siyasi inkişafını siyasətdən kənarda təsəvvür etmək sadəcə mümkün deyildir. Etiraf etmək lazımdır ki, hətta iqtisadi və mədəni, sosial və elmi sahələrdə də siyasət amili öz sözünü deyir. Siyasət cəmiyyətin ümumi inkişafını, onun tabe olduğu qanunları və yaxud qanunauyğunluqları tənzimləyən, bəzən isə hətta müəyyən edən unikal bir dəyərlər sistemi kimi hər bir fərdin həyatında öz təcəssümünü tapmaqdadır.

Siyasət cəmiyyətin həyatının tərkib hissəsi, istiqamətverici qüvvəsidir. O konkret şəxslərin və ya qrupların məşğul olduğu xüsusi bir sənət kimi deyil, məhz cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarının müəyyənləşdirildiyi müstəvi kimi qəbul olunur. Lakin heç şübhəsiz ki, siyasətlə ən yüksək səviyyədə məşğul olmaq və onu öz xalqının tarixi mənafelərinin reallaşdırılması vasitəsinə çevirmək bacarığı heç də bütün siyasət adamları üçün xarakterik olan keyfiyyət deyildir. Görünür, elə buna görədir ki, müxtəlif dövrlərdə yaşamış mütəfəkkirlər onu müxtəlif cür təsnif etmişdilər. Məsələn, Jan Jak Russo siyasəti hər bir fərdin anadan olduğu gündən etibarən yaşamaq, azadlıq, təhlükəsizlik və mülkiyyət hüquqlarının qorunması mexanizmi kimi səciyyələndirirdi. Makiavelli isə onu məqsədə çatmaq üçün dövlətin əlində vasitə kimi xarakterizə edirdi. Amma bütün ziddiyyətlərə baxmayaraq bu gün tam əminliklə demək olar ki, siyasət cəmiyyətin həyatında müəyyənedici faktordur və ümumi maraqlara xidmət etdikdə daha çox qiymətli olur.

Şübhəsiz ki, siyasətlə məşğul olan hər bir şəxsin özünəməxsus davranış kodeksləri, fəaliyyət üslubu, əsaslandığı maddi-mənəvi dəyərlər və ideyalar mövcud olur. Bunlarsız siyasətdə uğur qazanmaq çox çətindir.

Ideologiya siyasətin və ya siyasi fəaliyyətin növəsidir. Siyasətlə məşğul olan hər bir şəxsin siyasi liderə çevrilməsi prosesi onun cəmiyyətə təklif etdiyi ideyalar və dəyərlər sisteminin mahiyyətindən asılıdır. Bu ideyalar ilk növbədə ümumilikdə cəmiyyətin, daha sonra həmin cəmiyyətdə yaşayan hər bir fərdin və ən nəhayət, ideya müəllifinin özünün maraqları üzərində qurulur.

Lakin istənilən halda cəmiyyətin maraqları daha ön planda olmalıdır, çünki bu, siyasi liderin özünün maraqlarına daxil olan əsas məsələdir. Başqa cür desək, siyasi lider üçün ictimai maraqlar həmişə həlledici rol oynayır. Siyasət arxalandığı sosial qrupların maraqlarını adekvat ifadə etdikdə və onları cəmiyyətin ümumi mənafelərilə uzlaşdırdıqda daha effektli və uzunömürlü olur. Yəni siyasi lider hökmən özünü cəmiyyətə qarşı qoymaqdan çəkinməlidir, təbliğatı ictimai rəyin tələb etdiyi standartlara uyğun olaraq formalaşdırmalıdır. Bununla yanaşı, siyasətin ən mühüm prinsiplərindən biri başqa siyasi qüvvələrin maraqlarına hörmətlə yanaşmaqdan ibarətdir. Bu, siyasətdə uzun illərdən bəri formalaşmış və artıq doqma kimi qəbul edilən çox vacib prinsipdir.

Hər bir siyasi lider öz ideyalarını cəmiyyətə qəbul etdirdikdən sonra onun həyata keçirilməsini təmin edir. Təklif olunan ideyalar praktik halda özünü doğrulda bilirsə, bu, artıq həmin liderin uzaqgörənliyini sübut edən inkarolunmaz fakt rolunu oynayır. Bu baxımdan Azərbaycan müstəqillik tarixini təhlil edərkən ümummilli lider Heydər Əliyevin milli dövlətçiliyin inkişaf strategiyasına çevrilmiş fəaliyyətini daha dərindən araşdırmaq zərurəti ortaya çıxır. Heydər Əliyevin milli dövlətçilik konsepsiyasının əsasında minilliliklə müasirliyin unikal bir harmoniyasını görmək mümkündür. Bu konsepsiya Azərbaycanın beynəlxalq münasibətlər sistemində heç bir başqa dövlətin təsirindən asılı olmayan müstəqil subyekt kimi formalaşmasının və özünütəsdiqinin əsasını təşkil edir. Heydər Əliyevin milli dövlətçilik konsepsiyası davamlı ictimai-siyasi sabitlik, iqtisadi inkişaf, demokratik islahatlar kimi mühüm prinsipləri özündə ehtiva edir.

Heydər Əliyev cəmiyyətin bütün təbəqələrini öz ətrafında birləşdirməyə qadir xarizmatik lider kimi qəbul olunurdu və ictimai rəyin göstəricisinə çevrilmiş bu fikrin yaranmasında ümummilli liderimizin hələ 70-ci illərdə sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə əldə olunmuş nailiyyətlər həlledici rol oynamışdır. Heydər Əliyev məhz həmin dövrdə

Azərbaycanı Sovetlər İttifaqının iqtisadi baxımdan ən müstəqil respublikalarından birinə çevirmişdi. Onun həyata keçirdiyi iqtisadi islahatlar İttifaqın ən geridə qalmış respublikalarından biri kimi tanınan Azərbaycanı qabaqcıllar sırasına çıxardı.

Heydər Əliyevin hakimiyyətə gəlişinə qədər Azərbaycanda ictimai həyatın bütün sahələrində böhran hökm sürürdü. İqtisadi tənəzzülün dərinləşməsi, idarəetmə sistemində qüsurların artması nəticəsində respublikada elə bir durum yaranmışdı ki, gələcək haqqında optimist düşünməyə imkan verən heç bir real arqument tapmaq mümkün deyildi.

Heydər Əliyev idarəetmə sistemində yüksək fəallıq və intizam yaratmağı əsas vəzifələrdən biri kimi qiymətləndirirdi. Çünki yalnız belə olduqda bütün sahələr üçün xarakterik olan bir çox problemin həllinə nail olmaq mümkün idi. Dəmir iradəsi və xüsusi siyasi istedadı sayəsində Heydər Əliyev qısa vaxt ərzində respublikada ciddi intizam yaratmağa müvəffəq oldu və bu intizam bütün idarəetmə aparatının fəaliyyətində özünü açıq şəkildə büruzə verirdi. Həm ayrı-ayrı dövlət orqanlarında, həm də müəssisə və zavodlarda qanunçuluq ön plana çıxmağa başladı ki, bunun da nəticəsində ümumi inkişafın təmin edilməsi mümkün oldu.

Ümummilli liderimiz Heydər Əliyev mütəxəssis azlığını aradan qaldırmaq, həm də sağlam milli kadrların yetişdirilməsinə nail olmaq məqsədilə təhsil sahəsində əsaslı dönüş yaratmaq məqsədilə bir sıra tədbirlər həyata keçirdi. Respublikada yeni ali təhsil ocaqları yaradıldı, orta məktəblər tikildi, ucqar rayonlarda təhsilin səviyyəsinin yüksəldilməsi üçün bir çox islahatlar həyata keçirildi. Onun təşəbbüsü ilə 1969-cu ildən sonra 80-ci illərin əvvəllərinə qədər üç min beş yüzdən çox azərbaycanlı SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində təhsil almaq imkanı əldə etdi. Bu milli kadr potensialının zənginləşdirilməsində, respublikanın inkişafına töhfə verə biləcək gəncliyin yetişdirilməsində böyük rol oynadı.

1977-ci ildə Sovetlər İttifaqının yeni Konstitusiyasını işləyib hazırlayan komissiyanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-nin tərkibindən çıxarılıb Ermənistan SSR-ə birləşdirilməsi barədə təklifi Heydər Əliyevin qəti və sərt etirazı nəticəsində qəbul olunmadı. Bu böyük rəhbərin öz xalqının milli maraqlarına nə qədər ürəkdən bağlı olduğunu təsdiqləyən daha bir fakt idi.

Heydər Əliyev bütün siyasi karyerasını, bəzi hallarda isə hətta həyatını risk altına qoyaraq respublikada milli şüurun inkişafına, mənəvi dəyərlərin qorunmasına istiqamətlənmiş bir çox mühüm addımlar atdı. Azərbaycanın görkəmli ziyalıları, tanınmış yazıçı və şairləri, mədəniyyət xadimləri Sovet cəza maşınının təqiblərindən xilas oldu, cəmiyyətdə milli özünüdərk hissi güclənməyə başladı. 1978-ci ildə qəbul olunmuş Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi Heydər Əliyevin milli-mənəvi dəyərlərə nə qədər yüksək qiymət verməsinin ən bariz təzahürü idi.

Heydər Əliyevin həyata keçirdiyi siyasətin real nəticəsi bu oldu ki, Sovet İttifaqının süqutu ərəfəsində Azərbaycan SSRİ-dən ayrı yaşamağa qadir üç müttəfiq respublikadan biri idi. 1993-cü ildə Azərbaycan parçalanma təhlükəsi ilə üz-üzə qalanda cəmiyyətdə qəti olaraq belə bir qənaət formalaşdı ki, ölkəni bu ağır vəziyyətdən yalnız Heydər Əliyev qurtara bilər. Bu qənaətin yaranmasında 70-ci illərin təcrübəsi az rol oynamamışdı.

SSRİ-nin süqutundan sonra bütün postsovet məkanında özünü göstərən mürəkkəb problemlər Azərbaycandan da yan keçmədi. Xarici təzyiqlərin ölçüyəgəlməz miqyası, daxili siyasi çəkişmələr fonunda müstəqilliyin itirilməsi təhlükəsini artırırdı. Respublikaya müxtəlif dövrlərdə rəhbərlik edən hakimiyyət komandalarının naşı siyasəti cəmiyyətin ümumi maraqlar ətrafında səfərbərliyə alınmasına, mövcud problemlərin kompleks şəkildə həllinə imkan yaratmırdı.

Xalqın təkidli tələbləri sayəsində hakimiyyətə gələn Heydər Əliyev ölkədə davamlı ictimai-siyasi sabitliyin yaradılmasını təmin etdi və bu, Azərbaycan tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli liderimizin qətiyyəti sayəsində Azərbaycanda silahlı müxalifətçilik ənənələrinə son qoyuldu və bununla da, Azərbaycanda milli dövlətçiliyin konkret inkişaf strategiyasının müəyyənləşdirilməsi istiqamətində ilk ciddi və qəti addım atıldı. Sabitliyin təmin olunması mahiyyət etibarilə müstəqilliyin möhkəmləndirilməsinin ən ümdə şərtlərindən biri kimi çıxış edirdi və bu baxımdan, 90-cı illərin əvvəllərində respublikada həyata keçirilmiş tədbirlərin real siyasi məzmunu məhz milli dövlətçilik ideallarının gerçəkləşdirilməsinə istiqamətlənmişdi.

Ciddi xarici təzyiqlərlə üzləşməsinə və mürəkkəb geosiyasi reallıqlar əhatəsində yaşamasına baxmayaraq, Azərbaycan bu çətin mərhələdə nə-

inki öz istiqlaliyyətini qoruyub saxlaya bildi, həm də onu daha da möhkəmləndirdi, milli dövlətçilik ənənələrinin inkişafına nail oldu. Bu, ilk növbədə ümummilli lider Heydər Əliyevin kifayət qədər mükəmməl xarakter daşıyan siyasətinin doğurduğu məntiqi reallıq kimi qiymətləndirilməlidir. Məhz bu siyasətin nəticəsində Azərbaycan real siyasi və iqtisadi təhlükələrdən qurtularaq öz suverenliyini qoruyub saxlaya bildi.

Xarici siyasət məsələlərində Azərbaycanın tam müstəqil siyasət yürütməsi bütövlükdə dövlətçiliyin möhkəmləndirilməsini stimullaşdıran əsas amillərdən biri hesab olunurdu. O dövrdə Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bəzi Qərb dövlətlərində belə düşünürdülər ki, Azərbaycan daha çox Şimalyönümlü siyasət yürüdəcək və buna görə də rəsmi Bakı ilə əlaqələr ikinci plana keçirilirdi. Lakin Prezident Heydər Əliyev tamamilə fərqli siyasi kursa üstünlük verərək, öz ölkəsinin milli maraqlarına uyğun bir strategiya seçdi. Qərblə inteqrasiya və bütün yaxın qonşularla münasibətlərin əməkdaşlıq çərçivəsində inkişafı Azərbaycanın müstəqil xarici siyasət strategiyasının əsas istiqamətləri kimi özünü göstərirdi. Bu, Qərbin Azərbaycana birmənalı olmayan münasibətini nəzərəçarpacaq dərəcədə, həm də müsbət mənada dəyişdi.

Ümummilli liderimizin müstəqil Azərbaycana rəhbərliyi dövründə qazanılmış ən böyük nailiyyətlərindən biri də cəbhə xəttində atəşkəsin əldə olunması faktı ilə bağlıdır. Çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müharibə vəziyyətinin mövcudluğu Azərbaycana səmərəli iqtisadi əlaqələr qurmaq imkanı vermirdi. Elə buna görə də Prezident Heydər Əliyev atəşkəs sazişinin əldə olunmasını təmin etmək üçün regiona təsir imkanlarına malik nüfuzlu dövlətlərlə danışıqların intensivləşdirməyə xüsusi diqqət yetirməli oldu. Atəşkəsin əldə olunması Azərbaycanda islahatların sürətləndirilməsinə, ölkədə əmin-amanlığın bərqərar edilməsinə, siyasi münasibətlər sisteminin təkmilləşdirilməsinə və bütövlükdə dövlət quruculuğu prosesinin daha rasional səviyyədə təşkilinə şərait yaratdı.

Bütün bunların həyata keçirilməsi ölkənin qarşısında bir nömrəli problem kimi dayanırdı və onların birinin həlli digərinin də həllinə əlavə imkanlar açırdı. Yəni, atəşkəsin əldə olunması daxili sabitliyə təminat verirdisə, sonuncu da öz növbəsində iqtisadi resursların ümumi inkişafa yönəldilməsinə şərait yaradırdı. Proseslərin səbəb-nəticə qanunları ilə tənzim

layihəsini xarakterizə edən bu mühüm nailiyyətlər ölkəyə investisiya axınını da artırdı və cəmiyyətdə ciddi yüksəliş start götürməyə başladı.

1994-cü ilin 20 sentyabrında Bakıda Xəzər dənizinin Azərbaycana aid hissəsində «Azəri», «Çıraq», «Günəşli» yataqlarının işlənilməsi haqqında saziş – "Əsrin müqaviləsi" imzalandı. Bu razılaşmada dünyanın ən iri neft şirkətləri (ABŞ-ın «Amoko», «Yunokal», «Penzoyl», Böyük Britaniyanın bp, «Remko», Norveçin «Statoyl», Rusiyanın «Lukoyl», Türkiyənin «Türk Petrolları», Səudiyyə Ərəbistanının «Delta», iştirak edirdi.

Bu tarixi sazişin imzalanması ilə bütün Cənubi Qafqazda yeni bir dövr başlanmışdı. Məsələnin ən vacib məqamlarından biri bundan ibarət idi ki, neft ehtiyatlarının istismarında demək olar ki, regiona təsir imkanlarına malik bütün ölkələr – Böyük Britaniya, ABŞ, Rusiya, Fransa, İran, Türkiyə və digər dövlətlərin şirkətləri iştirak edirdilər. Yeni faktiki olaraq bütün maraqlı tərəflərin iqtisadi mənafeləri bu və ya digər dərəcədə nəzərə alınmışdı. Amma bu müqavilədən ən böyük payı, həm iqtisadi, həm də siyasi mənada məhz Azərbaycan götürdü. Çünki "Əsrin müqaviləsi" Azərbaycanda yeni iqtisadi münasibətlər sisteminin bərqərar edilməsinə və ölkənin ümumi inkişafının sürətləndirilməsinə imkan yaratdı.

"Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi məkanına sürətli interqrasiyasını, xarici investisiyaların cəlb edilməsini, beynəlxalq aləmdə etibarlı iqtisadi və siyasi tərəfdaşlar qazanılmasını təmin etdi. Məhz neft ehtiyatlarının istismarından əldə olunmuş gəlirlər hesabına Azərbaycan qısa vaxt ərzində iqtisadi tənəzzülün ağır nəticələrindən qurtuldu, cəmiyyətdə sabitliyin bərqərar edilməsi, vətəndaşların sosial həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm islahatlar aparıldı.

Bu hadisənin əhəmiyyəti yalnız neft istehsalının vəd etdiyi gəlirlərin böyük həcmi ilə ölçülmürdü. Azərbaycan hökuməti neft layihələrindən əldə etdiyi gəlirləri iqtisadiyyatın digər mühüm sahələrinin inkişafına yönəltmək barədə hələ müqavilələr imzalanmamışdan əvvəl düşünürdü ki, bu da ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi yeni iqtisadi inkişaf strategiyasının fundamental prinsiplərindən biri idi. Neft sazişləri Azərbaycanda ictimai-siyasi sabitliyin vacib şərtlərindən biri kimi çıxış etdiyindən ölkədə ümumi inkişafın təmin olunmasına da öz töhfəsini verdi.

Xəzərin Azərbaycan sektorundan hasil edilən neftin dünya bazarlarına çıxarılması Azərbaycanın geosiyasi və iqtisadi əhəmiyyətini artıran əsas

faktorlardan biri kimi qiymətləndirilir. Məhz ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində neftin Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəqli barədə əldə olunmuş razılaşma karbohidrogen ehtiyatlarının daha etibarlı və təhlükəsiz yolla nəqlini təmin etmişdir. Qeyd edək ki, 2005-ci ildən etibarən bu kəmər vasitəsilə neft ixracının başlayacağı gözlənilir. Tikintisi 2,95 milyard ABŞ dollarına başa gələcək boru kəməri nəinki respublikamızın, həm də bütün regionun tarixində yeni bir tərəqqi dövrünün əsasını qoyur. 1760 kilometr uzunluğunda boru kəməri gündə bir milyon barel neftin dünya bazarlarına çıxarılmasını təmin edəcəkdir.

1995-ci ildən başlayaraq Azərbaycanda tənəzzül dövrünü yaşayan bütün sahələrdə stabillik müşahidə edilməyə başlandı. Hökumətin ciddi islahatlara başlaması üçün əlverişli şərait yarandı. Bu islahatlar inflyasiyanın qarşısının alınmasına, ümumi daxili məhsulun artımına və cəmiyyətin sosial həyatının yaxşılaşdırılmasına əlverişli stimul yaratdı. Heydər Əliyevin müdrik siyasəti sayəsində nəinki makroiqtisadi sabitliyə nail olmaq, həm də mühüm struktur dəyişikliklərini həyata keçirmək, iqtisadi inkişafın və əhalinin maddi rifahının yüksəlişini təmin etmək mümkün oldu.

Müstəqil Azərbaycana rəhbərlik etdiyi on il ərzində Heydər Əliyev respublikada milli dövlətçiliyin real inkişaf modelini yaratmağa müvəffəq oldu. Heydər Əliyevin qurduğu dövlət bütün Azərbaycan xalqının tarixi səciyyə daşıyan milli azadlıq idealının real təcəssümü olmuşdur və bu dövlət ictimai statusundan, siyasi baxışlarından asılı olmayaraq bütün azərbaycanlıların maraqlarını qorumaq gücünə malikdir. Heydər Əliyevin tarixi xidmətlərinin mahiyyəti əslində elə milli dövlətçilik təfəkküründə formalaşdırılması prosesinin məzmununu ifadə edir və bu baxımdan cəmiyyətin ona münasibətində nəzərə çarpan heyranedici rəğbət hissinin səbəblərini başa düşmək çətin deyildir.

Heydər Əliyevin Azərbaycan siyasətinə gətirdiyi ideyalar və dəyərlər yeni bir siyasi məktəbin formalaşması üçün zəmin olmuşdur. Heydər Əliyevin təklif etdiyi və həyata keçirdiyi ideyalar nəzəri xarakter kəsb etmirdi, çünki bu ideyalar öz mənbəyini real həyatdan və böyük bir dövlət xadiminin zəngin təcrübəsindən götürürdü. Bu, Heydər Əliyev siyasi məktəbini bütün digər siyasi cərəyanlardan və məktəblərdən fərqləndirən ən səciyyəvi cəhətidir. Heydər Əliyev Azərbaycan xalqının çoxəsrlik zəngin dövlətçilik təcrübəsini, müasir Avropa dəyərlərini və Şərq mentalitetini

özünün daxili harmoniyasına tabe edən və onları ümummilli maraqlar kontekstində istiqamətləndirməyə qadir milli inkişaf konsepsiyasının əsasını qoymaqla tarixdə özünə əbədi yer qazanmışdır. Dünyanın iki əks qütbünün Qərbin və Rusiyanın maraqlarının kəskin şəkildə toqquşduğu regionda, bu qütblərin hər ikisi ilə ziddiyyətdə olan, dini dəyərlərə əsaslanan islam dövlətinin qonşuluğunda türkçülüyü, Avropalılığı və islama sədaqəti özündə birləşdirən müasir dövlət modelini yaratmağın nə qədər çətin olduğunu izah etməyə ehtiyac yoxdur. Heydər Əliyev belə bir çətin vəzifənin öhdəsindən layiqincə gəldi. O, yalnız yeni dövlət modeli yaratmadı, həm də 70 il ərzində sosializm yarışlarından nəfəsi kəsilmiş bir cəmiyyətdə yeni ictimai formasiyaya keçidin əsaslarını müəyyənləşdirdi. Bütün bu xidmətləri onu Azərbaycan xalqının ümummilli lider kimi ali bir mərtəbəyə yüksəltdi.

Cəmiyyətin Heydər Əliyev fenomeni haqqında təsəvvürləri ümummilli liderə etimad kompleksini özündə ehtiva edir və onun siyasi irsinə sahiblik hissinin bütün sosial təbəqələri əhatə etməsinin də səbəblərini burada axtarmaq lazım gəlir. Azərbaycanda Heydər Əliyevin siyasi kursu məhz bu kontekstdə öz ifadəsini tapdı ki, xalqın böyük əksəriyyəti bu kursun davam etdirilməsi arzusunu ortaya qoymaqla, əslində Heydər Əliyev siyasi irsinə sahiblik etmək iddiasını göstərdi. Heydər Əliyevin ideyaları XXI əsrin Azərbaycanında milli dövlətçilik ideologiyasının fəlsəfi-siyasi əsaslarının müəyyən edilməsini təmin etmişdir. Onun siyasi irsi müasir Azərbaycan dövlətinin inkişafının və tərəqqisinin əsasını təşkil edir. Heydər Əliyev siyasi kursunun davam etdirilməsi Azərbaycan dövlətçiliyinin yaşaması üçün lazımdır və buna görə də cəmiyyətin Heydər Əliyevə münasibətinin motivləri öz xalqının tarixində dönüş yaratmış tarixi şəxsiyyətlərə münasibətin fəlsəfi məzmununda heç nə ilə fərqlənmir. Azərbaycan xalqının ona sarsılmaz inamını ifadə edən bu amillər bir daha təsdiqləyir ki, müasir Azərbaycan dövlətinin öz mövcudluğunu qoruyub saxlaması üçün Heydər Əliyevin siyasi irsinə istinad etməyə həmişə böyük ehtiyac olacaqdır.

ALQIŞ HƏSƏNOĞLU
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEVİN MİLLİ HƏMRƏYLİK FORMULU

XX yüzillik Azərbaycan tarixinə silinməz möhürünü vurdu. Artıq ötən əsri arxada qoymuşuq. Lakin yaşadığımız tarixi dönəmin yaddaşımızda, düşüncəmizdə, təfəkkür tərzimizdə, ümumiyyətlə, cəmiyyətimizin həyatında buraxdığı təəssüratlar hələ də müzakirə obyekti olaraq qalır.

Ötən əsrdə Azərbaycan ikinci dəfə müstəqilliyini əldə etdi. Azərbaycan insanının şahidi olduğu bu iki tarixi hadisənin əhəmiyyətini, milli və strateji mahiyyətini anlatmağa yəqin ki, o qədər də ehtiyac yoxdur. Çünki millətin tarixi varlığını, onun bəşər sivilizasiyasındakı yerini və rolunu aşkarlamaq, üzə çıxarmaq onun nəyə qadir olduğunu sübut etmək üçün müstəqillik-azadlıq imkanından yararlanması vacib və arzuolunan şərtdir. Azərbaycan bu zəruri şərtlərdən yararlana bildi. Birincidə tarixi situasiyanın mürəkkəbliyindən irəli gələn səbəblərin diqtəsi ilə Azərbaycan öz müstəqilliyini qoruya bilmədi. İkincidə isə öncəkindən fərqli olaraq artıq sosial-iqtisadi dayaqları formalaşmış, siyasi elitasında diqqəti cəlb edəcək yetkin şəxsiyyətləri olan bir respublikanın qarşısında açılan müstəqillik mənzərəsi dayanmışdı. Bu mənzərəni ani bir halda məhv etmək, yaxud xırda bir səhvlə onun mövcudluğuna xələl gətirmək olardı. Digər tərəfdən isə tarixi proseslər elə bir həddə gəlib çatmışdı ki, sabah nəyin baş verəcəyindən asılı olmayaraq Azərbaycan insanı seçdiyi bu yolun əzabına qatlaşmağı özünə borc bildi. Bu yolda qanını və canını əsirgəmədi.

XX əsri qanlı rejimin tör-töküntülərindən, his-pasından, qorxu-ürküsündən silkinə-silkinə başa vurduq. Azərbaycan ötən əsrdə əldə etdiyi müstəqilliklə yeni - XXI əsrə suveren, azad respublika olaraq daxil oldu. Nə qədər çətin, nə qədər mərhumiyyətli olsa da, biz bu yolu şərəflə başa vurduq.

1991-ci ilin oktyabrında müstəqilliyini əldə etmiş Azərbaycan ilk dövrlərdə müəyyən problemlərlə qarşılaşmalı oldu. Ötən əsrin əvvəlində olduğu kimi, yenə də bu problemlərin kökündə yenicə azadlığa çıxmış dövləti əzmək, onu yenidən əsarətin buxovuna salmaq dayanırdı. Bu, əlbəttə ki, xarici müdaxilənin yaratdığı əngəllər idi. Digər tərəfdən isə daxili qüvvələrin

sərtəssüzlüyü, azadlıq havasından başı dumanlanmışların utopik ideyaları yenicə qurulmuş dövləti məhvə sürükləyən mühüm amillərdən idi. Amma zaman hər şeyi öz yoluna qoyur. Artıq uçurumun addımlığında olan Azərbaycanın 1993-cü ildən xalqımızın ümummilli lideri Heydər Əliyevin etibarlı idarəçiliyinə keçməsi müstəqil gənc respublikamızın şərəfli gələcəyinə ümidləri artırdı, inamı sönmüşlərin ürəyində bir inam nuru alovlandırdı.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri çoxdur. Bu yazıda onlardan biri MİLLİ HƏMRƏYLİK üzərində dayanacağıq.

Bu, məlum faktdır ki, hər bir xalqın mayası məhz həmrəylik üzərində qurulub. Tarix boyu millətlərin öz müqəddəratını həll etmək məsuliyyəti də nəticə etibarilə milli həmrəylik sayəsində baş tutub. Azərbaycan xalqı da bu sırada istisna deyil. Hələ Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində Azərbaycana rəhbərlik etdiyi dönəmlərdə xalqımızda müşahidə olunan həmrəylik işartıları məhz milli liderə, ona olan etibara inama işarə idi. Düzdür, ona qədər uzun illər əsarətdə qalmış milli özünüdərk prosesindən kənarlaşdırılmış Azərbaycan xalqının birdən-birə həmrəylik anlayışını bütünlükdə qavraması, ən başlıcası isə onun milli nöqteyi-nəzərdən daxili süzgəcindən keçirməsi olduqca çətin idi. Lakin rəhbərin milli proseslərə, xalqın içindən gələn tarixi faktlara olan bağlılığı, ən əsası isə bu proseslərin bilavasitə iştirakçısına çevrilməsi onu bütün sahələrdə xalqı ilə bağladı, həmrəylik məsələsində də həmçinin. 60-cı illərdən Azərbaycanın bütün sferalarında, xüsusən də cəmiyyətin hələ yetişməkdə olan gənclik qüvvəsində açıq-aşkar sezilən demokratik ab-hava və bu əhval-ruhiyyəyə çağırış da liderin rəhbərlikdə olduğu müddətdə daha da qüvvətləndi. Təsadüfi deyil ki, həmin dövrdə ədəbiyyatda, musiqidə, rəssamlıqda, ümumiyyətlə, sənətin bütün sahələrində yaranıb formalaşan demokratik eyforiya mərkəzin qəzəb dolu diqqətindən yayına bilməzdi. O zamanın gənc yazarlarından olan xalq şairi Vaqif Səmədoğlu müsahibələrinin birində belə bir ifadə işlətmişdi: «O dövrdə bizi repressiyalardan Heydər Əliyev xilas etdi». Məsələyə bir qədər dərindən yanaşsaq görərik ki, Heydər Əliyev faktiki olaraq sovet dövlətinin məmuru idi. İmperiya məmuru isə bütün hallarda xalqının deyil, ilk növbədə dövlətin maraqlarına xidmət etməli idi. Heydər Əliyev isə bu iki amili bir arada, cəm halda çox gözəl ümumiləşdirə bildi. Elə ötən əsrdə rast gəldiyimiz başçılardan fərqli olaraq o rejimin at oynatdığı bir dövrdə xalqının düşünən beynini məhv olmaq təhlükəsindən xilas etdi, onu yaşatdı. Sonralar rejimə göstərdiyi bu «haqsızlığın» əvəzini ondan çıxdılar. Amma bütün

hallarda onun xalqı və qan qardaşları qarşısındakı xidmətləri, onun millətinin övladları ilə nümayiş etdirdiyi həmrəylik gələcəyin böyük tarixi dövrünə, yetişməkdə olan Azərbaycan insanına nümunə oldu.

İllər çox sürətlə gəlib keçdi. Məhz xalqı qarşısındakı böyük xidmətlərinə, imperiyanın maraqlarının ziddinə getdiyinə görə vaxtaşırı təzyiqlərə məruz qalan dahi şəxsiyyəti milləti doğma torpaqda böyük qürur və fəxarətlə qarşıladı. Heydər Əliyev yenə də, bu dəfə fərqli ortamda müstəqil, azad Azərbaycanın başındaydı. Xalq öz liderini lazımınca qiymətləndirməyi bacardı. Öz varlığı, gücü, unikal siyasi gedişləri ilə yaxın xarıcın hələ də soyumadığı qəzəbinin epicentrində dayanan Heydər Əliyev dühasının xalq üçün nə qədər qiymətli olduğunu təkcə bir fakt belə təsdiqləyir. 1995-ci ilin oktyabr hadisələrindən bizi o qədər də böyük zaman məsafəsi ayırmır. Ölkənin çətin duruma düşdüyü bir vaxtda xalqın liderə qarşı nümayiş etdirdiyi həmrəylik özünün bütün tərəfləri ilə Azərbaycana istiqamətlənmiş nəzərlərin önünə bir sual işarəsi qoydu. Bakının mərkəzində millətin həmrəylik göstəriləri müasir Azərbaycanın tarixinə qızıl hərflərlə yazılacaq bir epoxa idi. Təbii ki, proseslərin məhz bu nöqtəyə gəlib çıxması elə-belə baş vermədi. Bu, ilk növbədə ondan irəli gəldi ki, artıq Heydər Əliyev Azərbaycan xalqını formalaşdıra bilmişdi. Millətin bütün təbəqələrində milli şüura, milli həmrəyliyə bir etiqad, bir həssaslıq yaranmışdı. Yazıçı Əkrəm Əylislinin «Bu xalq Heydər Əliyevin xalqıdır. Bu xalqı Heydər Əliyev formalaşdırıb» deyimi ümummilli liderin öz milləti üzərində haqq-sayını qiymətləndirmək baxımından nə qədər qiymətli idisə, böyük siyasətçinin öz xalqının gələcəyinə, onun dünya millətləri sırasında yerinə hesablanmış gərgin zəhmətin bəhrəsi idi. Heydər Əliyev bu tarixi missiyanın da öhdəsindən uğurla gəldi.

Digər tərəfdən xalqımızın mənəvi-əxlaqi birliyinin əsasında duran amillər bu formalaşma prosesini elə bir mərhələyə gətirib çıxardı ki, artıq Heydər Əliyev - xalq həmrəyliyi rəhbər-xalq kontekstindən çıxaraq milli zəminə keçdi. Artıq milli həmrəylik müasir Azərbaycan gerçəkliyində kütləvi hərəkata çevrildi. Müstəqillik dönəminin ötən mərhələləri bunu tam isbatlayır. Bu tarixi dövrün bir kökü də ona dayanır ki, xalqın milli düşüncəsi 70 illik əsarətin gətirdiyi mərhumiyyətlərə baxmayaraq o qədər də erroziyaya uğramamışdı. Sadəcə olaraq söndürülmüş milli düşüncə ocağını alovlandırmaq, demokratik fikirli insanların dəstəyi ilə bu prosesin kütləviliyinə nail olmaq üçün onu son nöqtəyədək çəkib aparmaq lazım idi. Təsadüfi deyil ki, bu məsələ Azərbaycanın milli-strateji maraqlarının əsas tərkib his-

səsi olaraq XXI əsrdə də xalqımızın qarşısında həllini gözləyən tərəfləri ilə qalmaqdadır. Narahatlığa əsas verməyən cəhətlərdən biri isə budur ki, milli həmrəyliyin əsas aparıcı qüvvəsi sayılan Azərbaycan gəncliyinin təlim-tərbiyəsi yerindədir. Vətəni sevməyin onun bütövlüyünün, toxunulmazlığının, suverenliyinin qorunması, ən əsası isə vətənpərvər olmağın mühüm cəhəti hesab edilən milli həmrəyliyin Heydər Əliyevin sayəsində gəncliyin düşüncə tərzinə çevrilməsi bu yöndə aparılan siyasətin təntənəsidir.

Milli həmrəylik həm də xaricdə məskunlaşmış Azərbaycan diasporunun fəaliyyəti ilə sıx bağlıdır. Təsadüfi deyil ki, uzun illər qapalı qalmış sərhədlərin açılmasından sonra yalnız qohum-qardaşın aranması, həsrətin tikanlı simlərinin qırılması ilə başlanan bu proses az sonra öz düzəninə qədəm qoydu. Burada da məxsusi, ölçülüb-biçilmiş siyasət öz işini gördü. Həm Azərbaycan, həm də dünya kontekstində bütün azərbaycanlılara ünvanlanmış milli həmrəylik siyasəti nəhayət ən ali mərtəbədə - dövlət səviyyəsində öz təsbitini tapdı. Dünyanın harasında yaşamasından asılı olmayaraq Azərbaycanı bütün azərbaycanlıların vətəninə, vahid mərkəzinə, döyünən ürəyinə çevirmək istəyi Heydər Əliyev dəst-xəttinin ən parlaq və uğurlu istiqaməti idi. Artıq dünyaya səpələnmiş azərbaycanlıların düşüncəsində bir milli həmrəylik həniri tisi də var idi. Bu nuru 2001-ci ilin noyabrında Bakıda keçirilən Dünya Azərbaycanlılarının I qurultayında Heydər Əliyev bəxş etdi. Bu günün reallığı isə artıq o həniri tinin böyük əks-səda ya, tarix boyu xalqımızın üzləşdiyi problemlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması baxımından daha qlobal hərəkata çevrildiyinin şahidiyik. Bu faktın özü onu deməyə əsas verir ki, milli həmrəyliyin malik olduğu gücü, qüdrəti istənilən halda məhv etmək mümkün deyil və bu, ilk növbədə xalqın iradəsinin zıddına getməkdir. Və yaxud da xalqın iradəsinin ziddinə getmək son nəticədə milli həmrəyliyi şərtləndirən amilə çevrilir. Heydər Əliyev isə tamam başqa ampulada xalqını sevməklə, azərbaycanlı olduğunu dönə-dönə, özü də ən yüksək tribunalardan bəyan etməklə milli həmrəyliyə nail oldu.

Amma hazırda dünyanın siyasi simasında hər an belə nəzərə çarpan dəyişilmələr konkret olaraq haqqında bəhs etdiyimiz bu məsələyə bizi mümkün qədər fərqli prizmadan baxmağa vadar edir. Bu da ilk növbədə Azərbaycanda milli həmrəyliyi bütün dövrlər üçün zəruriləşdirir. Həmçinin onu əldə etməyin çətin olduğunu şərtləndirir. Hələ uzaq keçmişə nəzər salsaq, görərik ki, tarix boyu Azərbaycan xalqı qədər parçalanmaya, bölünməyə meyl edən az xalqlar olub. Təbii ki, bunun da öz səbəbləri var.

1. Taleyüklü məsələlərdə ortaq məxrəcə gələ bilməməyimiz, parçalanmaya meylli olmağımız.
2. Azərbaycanın yerləşdiyi mühüm geostrateji region.
3. Erməni faktoru.

Birinci məqam ondan ibarətdir ki, biz bir çox hallarda ortaq məxrəcə gələ bilmirik. Xüsusən də taleyüklü məsələlərin həllində bu, özünü daha qabarıq büruzə verir. Birləşməkdənsə parçalanmağa üz tuturuq. Bilmirəm, bu milli özəllikdir, yoxsa yox, amma Azərbaycan insanını asanlıqla aldatmaq bir müddətə də olsa, başını tovlamaq mümkündür. Fikrimcə, Heydər Əliyevdən bizə miras qalan dövlətçilik modelini göz bəbəyimiz kimi qorumalıyıq. Bu modelə görə ölkədə yalnız iki əsas siyasi güc mərkəzi ola bilər - xalq və onun arzu və istəklərinin, habelə dövlətin rəsmi ifadəçisi kimi dərk olunan Prezident. Bu modelin tərəfləri arasında qarşılıqlı etimad hökm sürməli, onlar birbaşa, vasitəçilər olmadan hər gün, hər saat sıx ünsiyyət saxlamalıdırlar. Hakimiyyət mənsubları arasında nüfuz dərəcələrinin müəyyənləşdirilməsinə yönəldilmiş hər hansı cəhdlərin qarşısı sabitliyə xələl gətirəcək hal kimi ani olaraq alınmalıdır. Çünki Heydər Əliyev dövlətçilik modelinin azacıq təhrif edilməsi cəmiyyətdəki sabitliyi, tarazlığı poza bilər. Azərbaycan Prezidenti İlham Əliyev bunu yaxşı bildiyi üçün tez-tez bölgələrə səfərlərə çıxır, bütün mümkün vasitələrdən istifadə edərək dövlətin səsini paytaxtdan əyalətlərə çatdırır, ən başlıcası isə xalqla çox səmimi davranır.

İkinci, bəlkə də ən mühüm səbəblərdən biri Azərbaycanın yerləşdiyi regionun strateji cəhətdən mühüm nöqtədə olması ilə bağlıdır. Azərbaycan Şərq-Qərb dəhlizi adlanan Böyük İpək yolunun üstündə yerləşir və dünyanın tarixən istər siyasi, istər sosial baxımdan əks qütblərin rolunu oynamış sivilizasiyalar arasında körpü rolunu oynayır. Bir çox nöqteyi-nəzərlərdən bu fakt Azərbaycanın sosial-iqtisadi inkişafı üçün müsbət fakt kimi qiymətləndirilsə də, fikrimizcə, dövlətçilik baxımından vətənimizin yerləşdiyi coğrafi mövqe heç də ideal sayıla bilməz. Hətta adi məntiqlə yanaşdıqda belə, körpü üzərində ev tikmək absurd məsələdir. Tarixən hamının karvansara, tranzit məntəqəsi, bir qədər də kobud desək, ayaqaltı kimi baxdığı Azərbaycanda müasir standartlara uyğun normal, demokratik Avropa tipli dövlətin qurulması üçün burada gözü olan bir çox dövlətlərin maraqlarını uzlaşdırmaq lazım gəlirdi. Heydər Əliyev ölçülü-biçili siyasəti sayəsində bunu əldə edə bildi. Regionda balanslaşdırılmış siyasət yürütməsi nəticəsində yenicə müstəqilliyini əldə etmiş Azərbaycan üçün ən böyük nailiyyəti qazandı.

Üçüncü mühüm cəhət isə, əlbəttə ki, uzun illər bizi qarabaqara izləyən erməni faktoru ilə bağlıdır. Məlumdur ki, ermənilər hər zaman azərbaycancanlılara qarşı ardıcıl, sistemli şəkildə mübarizə aparıblar. Bu mübarizənin də kökündə, əlbəttə ki, xalqımızı parçalamaq, onu soyqırım siyasətinə məruz qoymaq, dünya ictimaiyyətinə azərbaycanlıları qaniçən, quldur simasında təqdim etmək. Təəssüf ki, bir çox hallarda öz istəklərinə nail olan ermənilərin bu siyasəti hələ də öz mövqeyini dəyişməyib. Bu gün ermənilər yenə də tariximizi, mədəniyyətimizi saxtalaşdırmaqla dünya ictimaiyyətini inandırmağa çalışırlar ki, əslində bu, onların tarixi, onların mədəniyyətidir. Maraqlı məqam ondan ibarətdir ki, bədnam qonşularımız uzun bir tarixi dövr ərzində apardıqları bu mübarizədən yorulmur, onları saxta ideyalar ətrafında birləşdirən amillər əskilməkdənsə çoxalır. Biz isə yaxın tariximizdə üzləşdiyimiz bəlaları, ermənilərin başımıza açdığı müsibətləri hələ indi-indi dünyanın diqqətinə çatdırmağa başlamışıq. Deməli, yenə də məsələ gəlib o nöqtəyə dirənir ki, bəli, biz bəzən taleyüklü məsələlərdə həmrəy ola bilmirik. Təbliğat isə öz işini görür. Ermənilərin öz təbliğatlarını hansı istiqamətdə qurduqları hamımıza aydındır. Bu təbliğatın gücünə də bələdik. Bəzən həmin təbliğat respublikamızın daxilinə də nüfuz edir, bir çox qüvvələrin əlində fürsətə çevrilir. Bu gün beynəlxalq təşkilatların Azərbaycanda insan haqlarının qorunması ilə bağlı yaydığı bəyanatların kökündə həm də erməni təbliğatı dayanır. Baxmayaraq ki, bu sahədə Ermənistandakı vəziyyət Azərbaycandakından qat-qat aşağı səviyyədədir. Təəssüf doğuran məqam həm də ondan ibarətdir ki, hazırda Azərbaycanın sosial strukturlarında olan bəzi qüvvələr də bu məsələdən lazımınca yararlanaraq xarici təşkilatların danos verən qüvvələrinə çevrilib. Odur ki, biz erməni məsələsində də həmrəy ola bilmirik. Baxmayaraq ki, ən böyük həmrəyliyi elə bu istiqamətdə həyata keçirməliyik.

Bu gün dünyanın düzəni elə bir forma kəsb edir ki, bəzən vətənpərvərlik hisslərinə yer qalmır. Amma Vətən, doğulduğumuz, yaşadığımız torpaq elə bir cazibə qüvvəsinə malikdir ki, o, hər zaman bizi özünə çəkir, bizi vətənpərvər olmağa vadar edir. Azərbaycanın müstəqil olmağını hələ də bağışlaya bilməyənlərin mövcudluğunu nəzərə alsaq, bir daha aydın olar ki, bizim üçün milli həmrəylik bütün dövrlərdə zəruridir. Və zəruri olan milli həmrəyliyi həyatımızın mühüm tərkib hissəsinə çevirmək də ilk növbədə bizim vətəndaş məsuliyyətimizdən irəli gəlməlidir.

FİRDOVSİ ƏLİYEV
Ekologiya və Təbii Sərvətlər Nazirinin müavini,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN TARİXİNİN İNTİBAH DÖVRÜNÜN MÜƏLLİFİDİR

Azərbaycanın minillik tarixi ərzində dövlətçilik maraqlarından çıxış edən, elmin, təhsilin, mədəniyyətin inkişafına qayğı ilə yanaşan Heydər Əliyev şəxsiyyəti ilə müqayisə olunacaq ikinci bir rəhbər tapmaq çətindir. Ümumiyyətlə, yaradıcı prizmadan yanaşılsa belə, Heydər Əliyev şəxsiyyətinə bənzəyəcək obrazın yaradılması olduğu qədər mürəkkəb və çətindir. Ona görə ki, Heydər Əliyev kimi şəxsiyyətlər, onun taleyi, keçdiyi ömür yolu, arxasınca qoyub getdiyi izlər yalnız Ulu Yaradanın seçib-sevdiyi insanlara məxsusdur. Onların ömür yolu isə şərəfli, müqəddəs olduğu qədər də çətin və ağırdır. Heydər Əliyev məhz belə bir mürəkkəb, çətin, eyni zamanda övladı olduğu xalqın taleyində, tarixində şərəfli və müqəddəs bir tale yaşamış, ömür sürmüşdür.

Heydər Əliyev adı məhz xalqının, millətinin, dövlətinin intibahı ilə bağlıdır. Azərbaycan mədəniyyətini inkişaf etdirən, yüksəklərə qaldıran, dünyaya tanıdan, elmin inkişafına qayğıkeşliyi ilə seçilən, xalqın keçmişini özünə qaytaran və tanıtdıran, millətin dilini rəsmiləşdirən, nəhayətdə, Azərbaycan dövlətini və dövlətçilik ənənəsini yaradan, inkişaf etdirən, bir sözlə, intibahımız məhz bu dahi şəxsiyyətlə – Heydər Əlirza oğlu Əliyevlə bağlıdır.

Azərbaycanın dirçəliş və tərəqqisinin bünövrəsi məhz cənab Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlişindən sonra qoyulmuşdur. Dövrün mürəkkəbliyi ondan ibarət idi ki, on illər boyu Sovet rejimi xalqın genində, şüurunda əhəmiyyətli stereotiplərlə yanaşı, çox ciddi mənfi steorotiplərin formalaşmasına səbəb olmuşdu. Heydər Əliyev məhz belə bir mürəkkəb, çətin tarixi şəraitdə ölkədə milli şüurun oyanışına, xalqın yüzillər ərzində formalaşmış, lakin son onillərdə süni surətdə kiracələşdirilmiş tarixi adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunmasına, dirçəldilməsinə və inkişafına xüsusi diqqətlə yanaşmışdır. Heydər Əliyevin o dövrdə ölkədə rəhbər vəzifəyə irəli çəkilməsi Azərbaycanda

milli-mənəvi intibah prosesinin əsasını qoymuş oldu. Bu intibahı təkcə bu dəyərlərlə qiymətləndirmək olmazdı. Milli-mənəvi oyanış, eyni zamanda Azərbaycanda cəmiyyət həyatının bütün sahələrində özünü açıq-aydın büruzə verən dirçəlişlə, sürətli inkişafla düz mütənasib idi. Milli-mənəvi oyanış Azərbaycanın yeni, intibah dövrünü səhifələyirdi.

Bu dövrün səciyyəvi xüsusiyyətlərindən biri də ölkə iqtisadiyyatının dirçəlişi, sürətli inkişafı, mədəniyyətin, elmin, incəsənətin çiçəklənməsi idisə, başlıca məqam daha irəli, daha perspektiv ideya və məqsədlərə köklənmişdi. Azərbaycan bu dövrdə gələcək, müstəqil Azərbaycan dövlətinin təməl prinsiplərinin müəyyənləşməsi istiqamətində, suveren Azərbaycan dövlətinin bünövrəsinin, dövlətçilik şərtlərinin formalaşması yönümündə çox ehtiyatla, təmkinlə inkişaf edirdi. Bu intibah Heydər Əliyev şəxsiyyəti ilə, onun hər bir addımı ilə qırılmaz bağlı idi. Azərbaycan Heydər Əliyevin simasında sözün əsl mənasında intibah mədəniyyətini əxz edirdi. Bunu tarixi şərait tələb edirdi. Bu tarixi şəraiti Heydər Əliyev yaratmış və O, yaratdığı tarixi şəraitin çox incə və olduğu qədər də mürəkkəb pillələrini inamla irəliləyirdi, yüksəlirdi. Onun bu yüksəlişi Azərbaycanın yüksəlişi idi. Azərbaycan Heydər Əliyev ilə, Heydər Əliyev Azərbaycan ilə yüksəlirdi.

Bu dövrün xarakterik cizgilərindən biri də ondan ibarətdir ki, Azərbaycan digər mədəniyyətlərin əhatəsində, konkret siyasi rejimdə, asılılıqla, qeyri-sərbəstlikdə və millətlərin kosmopolit hibridi şəraitində inkişaf edirdi. Millətin varlığını sübut edən ən birinci şərt olan dil, konkret məkanda və zamanda Azərbaycan dili isə bu dövrdə ən yaxşı halda ədəbi dil statusunda idi. Azərbaycan dili ikinci növ dil, qeyri-sivil dil hesab olunurdu. Məhz belə bir şəraitdə əsl vətəndaş, həqiqi azərbaycanlı və millətini sevən, böyük şəxsiyyət obrazının ən mükəmməl cizgilərini özündə ifadə edən Heydər Əliyev rəsmi dövlət tədbirlərində ana dilində – Azərbaycan dilində çıxışlar etməyə başladı. Bu, o dövrün şüurlarında əsl inqilab idi, böyük partlayış idi. Respublikanın birinci şəxsinin bu addımı gözlənilən deyildi. Bu gözlənilməzlik paslanmış şüurları oyatdı, millətin milli-mənəvi dərkini özünə qaytardı. Bu, xalqın öz tarixi köklərinə qayıdışını və milli-mənəvi dəyərlərinə bağlılığını rəsmi səviyyədə nümayiş etdirən ilk ciddi hadisə – tarixi hadisə idi.

Zəngin milli-mənəvi dəyərlərimizdən bəhrələnən qədim Azərbaycan mədəniyyəti XX əsrdə həqiqətən misilsiz, tarixi bir inkişaf yolu keçmiş-

dir. Mədəni irsimizin qorunub saxlanmasında, dirçəlməsində, inkişaf etdirilməsində, təbliğində, beynəlxalq aləmdə, dünya miqyasında tanınmasında ümummilli lider Heydər Əliyevin müstəsna tarixi xidmətləri olmuşdur.

Azərbaycan mədəniyyətinin, elminin, ədəbiyyatının, ən nəhayətdə dövlətçiliyinin ən böyük nailiyyətləri görkəmli ictimai-siyasi xadim, dövlət xadimi, mütəfəkkir, maarifçi və sözün əsl mənasında əvəzsiz ziyalı Heydər Əliyevin adı ilə bağlıdır. Məhz buna görə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrü Azərbaycanın tarixində intibah dövrü adlandırmaq olar. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər Azərbaycan mədəniyyətinin yüksəlişi, çiçəklənməsi, cəmiyyət həyatının bütün sahələrinin sürətli inkişafı, zənginləşməsi, geniş miqyasda təbliği, bütün dünyaya tanıdılması illəridir.

Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə respublikamızın həyatının bütün sahələrində Heydər Əliyev böyük uğurlara, nailiyyətlərə müvəffəq olmuşdur. Və tale elə gətirmişdir ki, O, Azərbaycana rəhbərlik etdiyi zaman başladığı tarixi missiyanı, şərəfli və müqəddəs yolu sonradan müstəqil, suveren Azərbaycan dövlətinin Prezidenti kimi uğurla, ardıcıl şəkildə davam etdirmişdir. Heydər Əliyev Azərbaycan həyatında misilsiz yeniliklərin ideoloqu, təşəbbüsçüsü, ilhamvericisi və təşkilatçısı olmuşdur. O, bütün bu xarakterlərin və addımların sözün əsl mənasında sahibidir. Heydər Əliyev ideya ilə çıxış edir, onu əsaslandırır, istiqamətləndirir və təşkilati işlərə tamam başqa bir sahənin əvəzsiz dahisi kimi dəhiyanə rəhbərlik edirdi. Və bütün bu cizgilər Heydər Əliyev şəxsiyyətini tamamlayırdı.

Heydər Əliyevin mədəniyyətə, ədəbiyyata, incəsənətə bağlılığı, onu duyması fitri istedadından, yaradıcı təbiətindən və ən başlıcası vətənə, millətə, onun mənəvi dəyərlərinə böyük sevgisindən irəli gəlirdi. Heydər Əliyevin «Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır» – fikri də bu sevgidən, millətə, xalqa, dövlətə olan məhəbbətdən qaynaqlanırdı.

Kommunist rejiminin sərt diqtəsi altında yaşadığımız bir dövrdə Heydər Əliyev xalqımızın ən görkəmli oğul və qızlarını, ziyalılarını repressiyalara məruz qalmaqdan, dissident həyatı sürməkdən xilas etdi, elmi-mədəni-mənəvi potensialımızdan ümummilli inkişafımızda səmərəli formada istifadə olunmasına nail oldu.

1969-cu ildən başlayaraq ölkə iqtisadiyyatında nəzərə çarpan, açıq müşahidə olunan sürətli inkişaf, sənayenin və xalq təsərrüfatının digər sahələrinin dirçəldilməsi, əhalinin sosial güzəranının yaxşılaşdırılması, mədəni dirçəliş, elmi tərəqqi və sair göstəricilər Heydər Əliyevin xalqının böyük vətənpərvər oğlu, millətinə və millətinin dövlətini hər şeydən uca tutan insan olduğunu dəyərləndirən amillərdir. Bu xüsusiyyətlər yüzillərdə tək-bir rast gəlinən Heydər Əliyev kimi əvəzsiz dahilərə məxsusdur. Heydər Əliyevin dahiliyi də bu keyfiyyətdən, bu xüsusiyyətlərdən bəhrələnirdi, qaynaqlanırdı.

Ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə respublikamız çox qısa zaman kəsiyində sosial, iqtisadi və mədəni inkişaf səviyyəsinə görə sovet respublikaları arasında ön sıralara çıxdı.

1978-ci ildə Azərbaycanın yeni Konstitusiyasının qəbulu zamanı Heydər Əliyev Azərbaycan dilinin rəsmi dövlət dili kimi təsbit olunmasına nail oldu. Əslində, bu mahiyyət etibarilə Moskvanın rəsmi siyasətinə zidd addım idi və çox təhlükəli xarakter daşıyırdı. Lakin bütün təhlükəli məqamlara, təzyiqlərə və təkidlərə baxmayaraq, Heydər Əliyev öz arzu və istəyini həyata keçirməyə müvəffəq oldu.

Azərbaycan dilinin rəsmi dövlət dili statusu alması xalqın milli-mənəvi ruhunu canlandırmaq, onun milli dəyərlərinə, tarixi köklərinə bağlılığını qoruyub saxlamaq baxımından misilsiz tarixi əhəmiyyət kəsb edirdi. Bu, Heydər Əliyevin qələbəsi, Heydər Əliyevin xalqına, millətinə sevgisinin, bağlılığının doğurduğu təntənə idi.

Heydər Əliyev 1982-ci ildə Moskvada Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə gedəndə Azərbaycanda gələcək tərəqqi və inkişaf üçün geniş baza qoyub getmişdi. O, bu addımını Azərbaycanın gələcək inkişafının strateji planlarına əsaslı təməl, baza yaratdıqdan sonra atmışdı. Bu zaman Azərbaycanda imperiya siyasətinin dayaqları zəifləmiş, sənaye sektorunun xüsusi çəkisi xeyli dərəcədə artmış və sürətli iqtisadi dirçəlişə nail olunmuşdu. Cəmiyyət həyatının bütün sahələrində milliləşdirmə çox incə tərzdə, ehtiyatla və uzaqgörən strategiya ilə həyata keçirilirdi. Elmin, mədəniyyətin, ədəbiyyatın, incəsənətin inkişafında əsaslı bir dönüş yaradılmışdı. Bütün bunlar milli-mədəni intibaha, Azərbaycanın intibahına real zəmin yaradan və daha uzaq perspektivdən müjdələr verən amillər idi. Heydər Əliyev bu böyük işləri ilə sabahın Azərbaycanının təməl daşlarını, bünövrəsini qoyurdu. Xal-

qın inamını, keçmişini, tarixini, mədəni irsini özünə qaytarılmaqla milli azadlıq və dövlət müstəqilliyi istiqamətində mübarizə bütövlükdə hər bir Azərbaycan övladının ayrı-ayrılıqda idealına, həyat devizinə, yaşam simvoluna çevrilmişdi. Bu dövrdə milli ideologiyanın, dövlətçilik ənənəsinin nəzəri-praktik bazası yaradılmış və yeni güc qazanmışdı. Əsl qələbə, ən böyük nailiyyət də məhz bu idi. Bu nailiyyət, bu qələbə Heydər Əliyevin idi. Heydər Əliyevin qələbəsi isə mənsub olduğu xalqın, millətin – bütövlükdə Azərbaycanın qələbəsi idi. Azərbaycan öz tarixinin intibah dövrünü yaşamağa başladı. Azərbaycan intibahının müəllifi xalqının böyük oğlu, sözün əsl mənasında mütəfəkkir düşüncəsini dahi sərkərdə və rəhbər qətiyyəti ilə tamamlayan və məhz bu ittifaqın qarşılığında tarix yaradan böyük Heydər Əliyev idi.

- Heydər Əliyev Azərbaycanda ötən əsrin 70-80-ci illərində sürətli inkişaf edən sənaye sahələri yaratdı.

- Heydər Əliyev həmin dövrdə paralel olaraq keçmiş sovet məkanının ən inkişaf etməkdə olan kənd təsərrüfatını yaratdı.

- Heydər Əliyev hakimiyyətdə olduğu bu illərdə mədəniyyətin, mədəni irsin inkişafına nail olmaqla bərabər, çox güclü elmi və kadr bazası, potensialı formalaşdırdı.

- Heydər Əliyev Azərbaycanda geniş şəhərsalma mədəniyyəti formalaşdırdı və bunu əməli surətdə həyata keçirdi.

- Bu gün Azərbaycanın taleyində xüsusi əhəmiyyət kəsb edən neft strategiyası məhz Heydər Əliyevin adı ilə qırılmaz bağlıdır.

- Heydər Əliyev şüurlarda inqilabi sıçrayışa nail oldu.

- Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin qurucusu və banisidir.

- Heydər Əliyev Azərbaycana demokratik ənənə gətirdi. Azərbaycan məhz onun uzaqgörən fəaliyyəti sayəsində demokratik inkişaf yolu seçərək, bu istiqamətdə çox mühüm addımlar atdı, uğurlar qazandı.

- Heydər Əliyev müstəqil Azərbaycanın Yeni Konstitusiyasının memarıdır, müəllifidir.

- Heydər Əliyev Azərbaycan xalqının tarixində, gələcək inkişaf yolunda, milli şüurun inkişafında müstəsna əhəmiyyətə malik Azərbaycançılıq məfkurəsinin müəllifidir.

- Heydər Əliyev bütün dünya azərbaycanlılarının vahid məqsəd ətrafında, Vətən adı, Azərbaycan adı ətrafında birləşməsi yönümündə tarixi analoqu olmayan addımlar atdı.

Heydər Əliyev milli sərvətlərimizin göz bəbəyi kimi qorunması, ətraf mühitin mühafizə olunması istiqamətində milli ideologiyanın müəllifidir.

Bu gün Azərbaycan torpaqlarını müdafiə qüdrətinə malik, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq - ölkəmizin ərazi bütövlüyünü təmin etmək gücünə malik milli ordumuz məhz Heydər Əliyevin adı ilə bağlıdır.

1969-cu ilə qədər Azərbaycan keçmiş Sovet İttifaqının geridə qalmış, iqtisadi cəhətdən zəif inkişaf etmiş respublikası idi. Heydər Əliyev 1969-cu ildə rəhbər vəzifəyə təyin olunduqdan sonra milli gəlirin artırılması, istehsal strukturlarının yaradılması istiqamətlərini yaratdı. Struktur islahatları nəticəsində ölkədə yeni iş yerlərinin açılması, ixracatyönümlü sahələrin inkişafı və mənfəətlə işləyən müəssisələrin səmərəliliyinin artırılması əsas istiqamət kimi götürüldü. Planlı təsərrüfat sistemində kənd təsərrüfatı, sənaye və digər infrastruktur sahələrinin kompleks inkişafı respublikamızın sosial və iqtisadi inkişafı üçün əsaslı bünövrə yaratdı.

1993-cü ildə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev ölkə iqtisadiyyatının yeni inkişaf modelini yaratdı. Bu, bazar iqtisadiyyatı inkişafına yönəlmiş transformasiya modeli idi. Heydər Əliyevin hakimiyyətinin ilk mərhələsində islahatların zəruriliyi, bu islahatların əsas istiqamətləri, aparıcı sahələrin dünya iqtisadi sisteminə inteqrasiyası və dünyanın qloballaşan sistemində inkişafının hüquqi bazası və təşkili problemləri həll olundu. Və bu gün sürətlə inkişaf edən Azərbaycan iqtisadiyyatı məhz Heydər Əliyevin adı ilə qırılmaz bağlıdır. Heydər Əliyev Azərbaycan iqtisadi sisteminin çox gözəl bilicisi idi.

1969-cu ilə qədər iqtisadiyyatın əsas sahələrindən biri olan kənd təsərrüfatı böhran və tənəzzül içərisində idi. Ölkədə kənd təsərrüfatının əsasən suvarılan əkinçilik sisteminə söykəndiyini nəzərə alaraq, Heydər Əliyev irriqasiya – meliorasiya qurğuları tikintisinin genişləndirilməsi və keyfiyyətinin yaxşılaşdırılması, torpaqların yuyulması işlərinin sürətləndirilməsini ön plana çəkdi. Kənd təsərrüfatının maddi-texniki bazasının genişləndirilməsi və daha da gücləndirilməsi, istehsal sahələrinin kompleks mexanikləşdirilməsi və sair sahələrdə həyata keçirilən zəruri tədbirlər sayəsində Azərbaycan çox qısa zaman kəsiyində bu sahənin inkişaf tempinə görə digər sovet respublikalarını geridə qoydu.

Heydər Əliyev ölkədə elmi və kadr potensialının yaradılması və daha da gücləndirilməsi istiqamətində də çox əhatəli tədbirlər həyata keçirdi. Ümummilli liderimiz azərbaycanlı gənclərin respublikanın ictimai-siyasi

həyatında və idarəetmə strukturlarında fəal iştirakının təmin olunmasını əsas istiqamətlərdən biri hesab edərək şəxsi təşəbbüsü ilə minlərlə gəncin keçmiş sovetlər İttifaqının ən mötəbər ali təhsil müəssisələrinə göndərilməsinə nail oldu. Bu proses 70-ci illərin əvvəllərindən Sovet İttifaqının son günlərinə qədər davam etdi. Məhz bu dövrdə Heydər Əliyevin bilavasitə qayğısı sayəsində təhsil almış honum gənclər Azərbaycanın güclü kadr bazasını gücləndirdi. Müstəqil Azərbaycanın cəmiyyət həyatının idarə olunmasında, dövlət idarəçiliyinin həyata keçirilməsində, yeni siyasi və iqtisadi sisteminin tələblərinə uyğun islahatların həyata keçirilməsində məhz bu gənclərin danılmaz xidmətləri olmuşdur.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr şəhərsalma mədəniyyətinin çox geniş intişar tapması ilə yaddaşlarda qalmışdır.

Bakı məhz bu dövrdə öz simasını tanınmaz dərəcədə dəyişmiş, paytaxt milliləşmiş, o cümlədən ölkənin digər şəhər və qəsəbələrinin inkişafı üçün müqayisəolunmaz tədbirlər həyata keçirilmişdir.

Tarixdən də bəlli olduğu kimi, məhz şəhərsalma mədəniyyətinin geniş inkişafı xalqın intibah mədəniyyətinin əsas tərkib hissəsi kimi səciyyələnmişdir.

Azərbaycanın neft sənayesi özünün 150 illik tarixi ərzində böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı yalnız ötən əsrin sonlarında müstəqillik qazandıqdan sonra bu əvəzsiz milli sərvətdən bəhrələnmək imkanı qazandı. Bu imkanı reallığa çevirən isə Heydər Əliyev fenomenidir. Heydər Əliyev 1969-cu ildən başlayaraq neft sənayesinin inkişafı naminə əvəzsiz xidmətlər göstərmişdir. Bu sahədə əldə olunmuş bütün uğurlar ümummilli liderimizin adı ilə bağlıdır. Qətiyyətlə demək lazımdır ki, bu dövr Azərbaycanın neft sənayesinin inkişaf salnaməsinin diqqəlayiq mərhələsi kimi tanınmışdır. Bu gün Azərbaycanın tarixi taleyinin müəyyənləşməsində xüsusi yeri və rolu görünən Əsrin neft müqaviləsinin və Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin – əfsanədən reallığa çevrilən böyük layihənin reallaşması məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev, nəhayət, müstəqil Azərbaycanın banisi və qurucusudur. Azərbaycan özünün dövlət müstəqilliyini 1991-ci ildə elan etməsinə baxmayaraq, ölkədə xaos və anarxiya hökm sürürdü. Formal müstəqillik qazanmış Azərbaycanın tutduğu inkişaf yolu, müstəqilliyi şərtləndirən amillər tez-tez dəyişən mövcud hakimiyyətlər tərəfindən məhv edilirdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev

Azərbaycanı dağılmaq və məhv olmaq təhlükəsindən xilas etdi. Çox uğurlu daxili və xarici siyasət çox qısa zaman kəsiyində Azərbaycanın dövlətçilik atributlarının və müstəqilliyin qorunub saxlanmasını şərtləndirən amillərin formalaşmasına səbəb oldu. Həyata keçirilən uzaqgörən siyasət nəticəsində Azərbaycan dünya birliyinin tam bərabərhüquqlu üzvünə çevrildi.

Heydər Əliyevin tam müstəqil və demokratik Azərbaycan dövləti qurmaq istiqamətində atdığı mühüm addımlardan biri 1995-ci ildə müstəqil Azərbaycanın Yeni Konstitusiyasının qəbulu və ilk dəfə olaraq çoxpartiyalı sistem əsasında parlament seçkilərinin keçirilməsi oldu. Heydər Əliyev ölkədə insan hüquqlarının tam müdafiəsi, azad vətəndaş cəmiyyətinin formalaşması, kütləvi informasiya vasitələrinin tam sərbəstliyinin təmin olunması, senzuranın ləğvi və sair istiqamətlərdə mühüm tədbirlər həyata keçirdi. Və bütün bunların məntiqi nəticəsi olaraq, Azərbaycan 2001-ci ildə Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edildi.

Heydər Əliyevin Azərbaycançılıq ideyası Azərbaycanın bütövlüyünün qorunub saxlanması və bütün dünya azərbaycanlılarının vahid məqsəd ətrafında birləşməsi amalını güdür. Azərbaycançılıq ideologiyası və Azərbaycan diasporu məfhumları bir-birini tamamlayıb və ümumi Vətən və Azərbaycan məfkurəsinə, Azərbaycan dövlətçiliyi ideyasına xidmət edir. Azərbaycan diasporunun ümummilli ideya ətrafında birləşən fəal qüvvə kimi ortaya çıxması isə ilk növbədə Heydər Əliyevin 30 ildən artıq bir dövr ərzində möhtəşəm siyasi fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının inkişafı ilə bağlıdır.

Azərbaycanın nadir təbiətinin, milli sərvətlərimizin, onun ətraf mühitinin mühafizə olunması milli strategiyanın hazırlanması, bu strategiyanın gerçəkləşməsini və həyata keçirilməsini qarşısına məqsəd qoymuş Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması və bu istiqamətdə qazanılmış uğurlar məhz ümummilli lider Heydər Əliyevin adı ilə qırılmaz bağlıdır.

Beləliklə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər Azərbaycan tarixinin intibah dövrü kimi səciyyələnir. Bu intibah Heydər Əliyev şəxsiyyəti, təəssübkeşliyi, Vətənə məhəbbəti ilə intişar etmişdir. İntibah Azərbaycanın, Azərbaycan xalqının yüksəlişi, tərəqqisi idi. Azərbaycan Heydər Əliyev ilə, Heydər Əliyev Azərbaycan ilə yüksəlirdi. Bu yüksəlişi bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

SEYFƏDDİN QƏNDİLOV
Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının rektoru

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN RƏHBƏRLİK MƏHARƏTİ VƏ DÖVLƏTÇİLİK TƏCRÜBƏSİ BÜTÜN DÖVRLƏR ÜÇÜN ƏHƏMİYYƏTLİDİR

Üçüncü minilliyə özünün müstəqilliyini möhkəmlətməklə daxil olan Azərbaycan artıq beynəlxalq aləmdə öz yerini təsdiq etmiş, hüquqi, demokratik dövlət kimi özünəməxsus inkişaf yolu keçmişdir. Azərbaycanın dövlətçilik tarixi müxtəlif mərhələlərdən keçmiş, öz qədim və zəngin ənənələrinə söykənmişdir.

Aydın bir həqiqətdir ki, hər bir dövlətin möhtəşəmliyi, qüdrəti xeyli dərəcədə zaman və şəxsiyyət amilindən çox asılıdır. Son dərəcə çətin və taleyüklü məsələlərin aradan qaldırılmasında son düzgün qərarı verən dövlət başçısı öz xalqını, çoxsaylı insanları təhlükədən qurtarmaqla cəmiyyəti dağılmaqdan xilas edir və dövləti qoruyub saxlayır. Məhz belə insanlar haqqında deyilmişdir ki, dövləti yalnız müdrik şəxsiyyətlər xilas edə bilərlər.

Azərbaycan xalqını dəfələrlə üzləşdiyi faciələrdən xilas edən, qoruyub saxlayan Ümummilli liderimiz Heydər Əliyev kimi, O, nəinki respublikamızda, Avropada, Qərb ölkələrində, Şərq aləmində, bütövlükdə Türk dünyasında ulu öndərliyini dəfələrlə təsdiq etmiş müdrik şəxsiyyət olan Heydər Əliyevin dövlətçilik ənənəsi, təcrübəsi hər kəsi heyrətləndirəcək qədər zəngindir.

Hər bir xalqın tarixi pasportu olan salnaməsində onun dövlətçilik ənənələri xüsusi əhəmiyyət daşıyır. Odur ki, maraqlı anları olan tariximizin, ötən əsrin axırlarında baş verən hadisələrini özündə əks etdirən səhifələrinə müraciət edənlərin sayı bu gün daha çoxdur. Bu da təbiidir. Bu baxımdan, o illərin dövlətçilik təcrübəsini öyrənmək istəyənlər üçün Ümummilli liderimiz Heydər Əliyevin şəxsiyyəti, idarəçilik səriştəsi zəngin bilik və təcrübə mənbəyidir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik erası o qədər zəngin, keşməkəşli və maraqlıdır ki, o, bütün heydərsevərləri daim düşündürür və maraqlandırır. Bu böyük şəxsiyyətin dövləti idarəetmə təcrübəsinə həsr edilən yüzlərlə kitablar yazılmasına baxmayaraq onun bu zəngin təcrübəsi və səmərəli fəaliyyətinin təhlilinə ehtiyac duyulan hələ açılmamış səhifələri var və bunlar öz tədqiqatçılarını gözləyir. Məlumdur ki, tarixi şəxsiyyət adını qazanmaq hər dövlət başçısına nəsib olan xoşbəxtlik deyil. Bunu qazanmaq üçün ilk növbədə xalqın qarşısında böyük xidmətlərin, tarixdə izin, xalqın qəlbində məhəbbətin, əbədi yerin olmalıdır. Yəni Ümummilli lider adını sağlığında qazanmış ulu öndər Heydər Əliyev kimi.

Özündən sonra çox zəngin dövlətçilik təcrübəsini bizə miras qoymuş bu müdrik insanın fəaliyyəti çoxşaxəli olub.

Elə götürək 1960-cı illərin sonlarını.

Bunun üçün Heydər Əliyevin dövlətə rəhbərlik missiyasının əvvəlinə təsadüf edən o illərdə Azərbaycandakı ictimai, siyasi, iqtisadi vəziyyəti yada salmaq kifayətdir. Məlum olduğu kimi, 60-cı illərin ortalarında Azərbaycan keçmiş ittifaq respublikaları içərisində bütün göstəricilər üzrə çox geridə qalır, daha doğrusu axırıncı yerdə dururdu. Ona görə də respublikamız daim tənbeh, tənqid və məzəmmət olunurdu. Bu isə xalqın izzət və şərəfinə, ləyaqətinə toxunurdu. Belə bir anda respublikaya rəhbərlik etməyə başlayan Heydər Əliyevin səyi və böyük təşkilatçılıq bacarığı nəticəsində ölkədaxilində vəziyyət təbii ki, Azərbaycana olan münasibət də dəyişdi.

XX-ci əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyevin rəhbərlik məharəti nəticəsində Azərbaycan cəmiyyət həyatının bütün sahələrində nəinki sürətli yüksəliş mərhələsinə qədəm qoymuş, yeni intibahını yaratmış, həm də bu intibahın növbəti zəruri pilləsi olan azadlıq mübarizəsinə hazırlanmışdır. 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində müstəqillik hərəkatının geniş vüsətinə aparan çətin, ziddiyyətlərlə dolu tarixi yolun mühüm, bəlkə də həlledici mərhələlərindən biri şübhəsiz, 70-ci illərin Ümummilli yüksəlişi və onun sayəsində Azərbaycan xalqının daha qabarıq mübarizlik ruhunun formalaşması olmuşdur. Bu illərdə Azərbaycanda milli özünüdərk prosesi xüsusilə qüvvətlənmişdir. Həmin proses çətin illərdə Heydər Əliyev tərəfindən çox böyük həssaslıq və uzaqgörənliklə idarə olunur və tənzimlənirdi. Sovet sisteminin ağır təzyiqlərinə baxmayaraq Heydər Əliyev son dərəcə yüksək məharəti, böyük bacarığı, nadir rəhbərlik istedadı ilə Azərbaycanın strateji maraqları naminə ciddi addımlar atırdı. Keçmiş SSRİ-nin ayrı-ayrı respublikalarında siyasi rejimin əleyhinə çıxış edən elm və mədəniyyət xadimləri, ziyalılar təqiblərə, təhdidlərə məruz qaldıqları halda, Heydər Əliyevin vaxtında Azərbaycanda yaradıcı ziyalılar üçün siyasi cəhətdən sərbəst düşüncə və iş şəraiti yaradılmışdı.

Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində milli azadlıq və milli özünüdərk ruhunun açıq və gizli təbliği üçün həmin illərdə yaradılmış şərait sonrakı mərhələlərdə öz bəhrəsini verdi. M.Qorbaçov başda olmaqla keçmiş SSRİ rəhbərliyinin 80-ci illərin axırlarında Azərbaycana qarşı təzyiqlərin artdığı, Azərbaycanı parçalamaq, onun inkişafının və müstəqilliyə gedən yolunun qarşısını almaq məqsədilə qondarma "Dağlıq Qarabağ məsələsi"nin ortaya atıldığı vaxtda Azərbaycan xalqının yüz minlərlə oğul və qızları ayağa qalxdı. Bu, böyük xalq hərəkatının başlanğıcı idi. Bu, bir həqiqətdir ki, həmin hərəkatın siyasi, iqtisadi, mənəvi-psixoloji təməli məhz 70-ci illərdə - Heydər Əliyevin Azərbaycanda siyasi rəhbər olduğu dövrdə qoyulmuşdu. Tam qətiyyətlə demək olar ki, xalq hərəkatının sonralar geniş vüsət ala bilməsinin banisi və ilhamvericisi Ümummilli liderimiz Heydər Əliyev olmuşdur.

Heydər Əliyevin çox cəhətli fəaliyyətinin bütün mərhələlərinə yaxşı bələd olan və onu yüksək qiymətləndirən Azərbaycan xalqı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan və onun qarşılaşdığı bütün çətinlikləri və ziddiyyətləri yaşamağa məhkum edilmiş Naxçıvanda sabitliyin, əmin-amanlığını məhz bu böyük dövlət xadiminin müdrikliyinin, siyasi təcrübəsinin və iradəsinin nəticəsində əldə edildiyini yaxşı bilirdi. Buna görə də 1993-cü ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, xaosun, başıpozuqluğun kuliminasiya nöqtəsinə çatması ilə Azərbaycanda vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalq təkidlə Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və bu iş bir növ Ümummilli hərəkata çevrildi. Bu müdrik siyasət adamının, təcrübəli və iradəli dövlət xadiminin hakimiyyətə tarixi qayıdışı məhz bu şəraitdə və belə baş verdi.

Azərbaycan tarixinin Heydər Əliyev dövrü özünün yeni, daha şərəfli, daha əzəmətli mərhələsinə daxil oldu.

Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edən 14 ildə o, yorulmadan çalışan, daim xalqının gələcək taleyini düşünən dövlət başçısı kimi - imperiya əsarətində olmağımıza baxmayaraq, həmişə milli maraqlarımıza xidmət edən taleyüklü məsələlərin həllinə daha çox diqqət yetirirdi. Onun rəhbərliyi altında Azərbaycan yüksək tərəqqi yoluna qədəm qoydu. Cəmiyyət həyatının bütün sahələrində əsaslı dəyişikliklər baş verdi. Xalqı ilə yanaşı, o, özü də yüksəldi. Heydər Əliyevin şöhrəti hər yerə yayıldı.

Azərbaycana rəhbərliyinin birinci dönəmində respublikanın inkişaf etdirilməsi əsas vəzifə kimi onu düşündürürdüsə, hakimiyyətə qayıdışı daha ciddi, məsuliyyətli problemlərlə bağlı oldu. Ümummilli lider "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" adlı müraciətində xüsusi qeyd edərək deyirdi ki, "1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm, ya ölüm" dilemması qarşısında qalmışdı" – bu həqiqətən belə idi. Ümummilli lider belə deməklə, Azərbaycan xalqının düçar olduğu faciəyə dəqiq qiymət verdi. Haqlı olaraq bildirdi ki, o dövrdə hökumətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət həm də ardıcıl, prinsipial bir kursun olmaması idi. Belə ki, dövlət idarəçiliyi bir konsepsiya və sistem əsasında deyil, ayrı-ayrı məsul vəzifə sahiblərinin qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar, əksər hallarda bir-birini təkzib edən ziddiyyətli və emosional çıxışlar üzərində qurulmuşdu.

Sağalmaz yaramız olan 20 Yanvar, Xocalı kimi dəhşətli faciələr də məhz belə məsuliyyətsiz, səriştəsiz rəhbərliklərin nəticəsində mümkün oldu.

Ümumiyyətlə, 1990-1993-cü illərdə respublikada cərəyan edən hadisələr mürəkkəbliyi və açılmaz düyünləri ilə ən təcrübəli insanları belə ciddi sual qarşısında qoymuşdu. İnsanlar üzləşdiyi bəlalardan çaşıb qalaraq nə edəcəklərini, necə hərəkət edəcəklərini bilmir və qaranlıqlar içərisində yol axtarırdılar. Hər an ölkədə geniş miqyasda vətəndaş müharibəsi, qardaş qırğını baş verə bilərdi. Təhlükənin ən qorxulusu isə Azərbaycanı parçalamaq istəyindən irəli gələn xain niyyətli planların mövcudluğu idi. Belə bir anda Heydər Əliyev yenidən xalqının köməyinə gəldi, əsl xilaskarlıq missiyasını yerinə yetirdi.

İyun hadisələri kimi yadda qalan 1993-cü il hadisələri həm respublikanın, həm də xalqın həyatında dönüş yaratdı. Belə fəlakətli anda heç kimin fiziki və əqli gücü çatmayan məsuliyyəti üzərinə götürən milli lider Heydər Əliyev xalqımızın ümid yeri, pənahı oldu. Bu böyük siyasət adamı hakimiyyətə gəlməklə çox qəti və sərrast addımlar atdı. Konkret şəraitə uyğun dərin düşüncəli, konkret əməli gedişlər etməklə dünyanın ən mahir siyasət adamlarını belə heyrətdə qoydu. İyun günlərindəki vəziyyəti dəyişməklə düşmənlərimizin qərəzli, xain planlarını pozdu, onları məyus etdi, hadisələrin istiqamətini dəyişdi. O günlərdə qarşılaşdığımız ağır, çətin problemlərin aradan qaldırılmasını soyuqqanlılıqla təhlil edib çıxış yolları axtaran bu müdrik dövlət xadiminin həmin dövrdə gördüyü işləri öz sözləri ilə desək, daha məqsədəuyğun olar: "1993-cü ilin iyunundan başlayaraq ilk növbədə hakimiyyət boşluğu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış separatçı qüvvələr və parçalanma meylləri sağlam düşüncəli vətəndaşların, xalqın böyük əksəriyyətinin fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsinin qarşısı alındı. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edilməyə başlandı. Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi və cəzalandırıldı. Dövlət qurumları ilə xalqın birliyi, yekdilliyi təmin edildi, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarda dövlətə və vətənə mənsubluq hissləri aşılanmağa başlandı."

Sözdə asan görünən bu işlərin yerinə yetirilməsi üçün zaman, gərgin fəaliyyət, dünyada baş verən hadisələrdən bəhrələnməklə düşünülmüş, siyasi sanbalına görə fərqlənən diplomatik addımlar atılması tələb olunurdu.

Bütün bunlar Heydər Əliyev zəkasının, onun müdrik rəhbərliyinin, zəngin dövlətçilik təcrübəsinin yenidən hakimiyyətə qayıtdığı dövrün ilk bəhrələri idi.

Azərbaycan dövlətçiliyinin xilaskarı Heydər Əliyevin siyasi rəhbərliyə yenidən qayıdışı ilə Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, habelə xarici siyasətində əsaslı dönüş yarandı və müstəqil dövlət quruculuğu prosesi başladı.

Heydər Əliyevin Azərbaycana rəhbərlik dövrünün ikinci mərhələsi nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən illərə təsadüf etsə də, ona xas olan siyasi müdriklik, illərlə toplanmış böyük dövlətçilik təcrübəsi, iradə yenilməzliyi və ən başlıcası doğma vətənini

düçar olduğu bəlalardan xilas etmək istəyi ölkəmizi sürətlə fəlakətə sürükləyən təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə, azadlığa, firavan gələcəyə inamını qaytarmağa qadir olan amil kimi özünü təsdiqlədi. Bu illərin ən mühüm nəticəsi, hər şeydən əvvəl müstəqilliyimizin dönməz, əbədi xarakter alması, erməni təcavüzünün qarşısının alınması və ölkəmizin ərazi bütövlüyünü təmin etmək uğrunda apardığımız mübarizənin real bəhrələr astanasına gəlib çatmasına nail olması idi. Digər mühüm nəticə isə ondan idarət idi ki, qeyd olunan mərhələdə yaradılmış sabit siyasi durum, mənəvi-psixoloji atmosfer şəraitində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirilmiş, bu sahədə həyati əhəmiyyət kəsb edən bir çox dıqqətəlayiq tədbirlər həyata keçirilmişdir.

Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanda cəmiyyət həyatının bütün sahələrində geniş islahatlar aparıldı.

1993-cü ildən etibarən götürülən siyasi xəttin əsas üstün cəhətlərindən olan demokratik, hüquqi dövlət quruculuğu yönümündə ardıcıl, məqsədyönlü tədbirlərin həyata keçirilməsi ölkəmizdə demokratiyanın, insan hüquq və azadlıqlarının fundamental prinsiplərin qərar tutmasına zəmin yaratmışdır. 1995-ci ildə ölkənin bəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyasının qəbul edilməsi, çox partiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, konstitusiya məhkəməsinin fəaliyyətə başlaması, bir sıra mühüm qanunların qəbulu, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlətin qurulmasına imkan yaratdı.

1994-cü ilin sentyabrından «Əsrin müqaviləsi» adı almış irimiqyaslı neft sazişinin bağlanması, sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar yeni-yeni müqavilələrin imzalanması ölkəmizin iqtisadi potensialının dirçəlməsi, iqtisadiyyata bu gün lazım olan milyard dollarla xarici sərmayənin Azərbaycana axması üçün geniş imkanlar yaratdı.

Dünyanın 15 ölkəsinin 30 ən iri şirkəti ilə bağlanmış 21 neft müqaviləsinə əsasən Azərbaycana 60 milyard dollardan çox xarici sərmayə qoyulması gözlənilirdi ki, bu da ölkənin iqtisadi sistemini, müvafiq infrastrukturu cana gətirəcək güclü maliyyə mənbəyi idi. Lakin neft müqavilələrinin əhəmiyyətini təkcə iqtisadi kateqoriyalarla müəyyənləşdirmək onun tarixi mənasını azaltmaq olardı. Dünyanın aparıcı dövlətlərinin ən qüdrətli şir-

kətlərinin iştirak etdiyi, sərmayə qoyduğu neft müqavilələri Azərbaycanın coğrafi-strateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirən amil funksiyasını da həyata keçirir.

Böyük dövlət xadimi kimi Heydər Əliyevə xas olan ən mühüm keyfiyyətlərdən biri idarəçilikdə demokratik metodlara, aşkarlığa, kadrların yaradıcılıq təşəbbüskarlığına geniş meydan verməsi idi.

İstər siyasi hakimiyyətinin birinci dövründə, istərsə də müstəqil Azərbaycana rəhbərlik etdiyi son 10 ildə yalnız vətənini və xalqını düşünən Heydər Əliyevin ürəyi müstəqilliyimizin möhkəmləndirilməsi, xalqın xoşbəxtliyi üçün çırpınırdı. O, Azərbaycanın ən çətin anlarında üzərinə düşmüş xilaskarlıq missiyasını ləyaqətlə yerinə yetirmiş, bu yolda heyrətamiz fədakarlıqlar göstərmiş, xalqı bir çox müdhiş bəlalardan hifz edə bilmişdir. Bu gün hər birimizin taleyində dahi müasirimiz, görkəmli dövlət xadimi və siyasətçi Heydər Əliyev dühasının bir zərrəsi var. Onun həyatı və siyasi fəaliyyəti, şəxsiyyəti siyasi tariximizin ayrılmaz bir hissəsini təşkil edir. Dünya səviyyəli siyasətçi Heydər Əliyev elə zəngin siyasi irs qoyub ki, ondan hələ neçə-neçə nəsillər bəhrələnəcəkdir.

Az bir vaxtda biri-birindən vacib problemlərin həllinə ömrünün 10 ilini sərf edən Ümummilli lider Heydər Əliyevin dövlətçilik təcrübəsi sayəsində az əvvəl hamının əlini üzdüyü Azərbaycan Cənubi Qafqazda lider dövlət mövqeyini qazandı. Buna görə də xalqımızın XX əsr tarixinə qızıl hərflərlə yazılan və heç bir zaman unudulmayacaq xidmətləri ilə seçilən Ümummilli lider Heydər Əliyevin adı müstəqilliyimiz kimi həmişə əbədi olacaqdır.

Əsrlərin qovşağında suverenliyimizi qoruduğu kimi, respublikamın qüdrətlənməsi istiqamətində də mühüm islahatlar həyata keçirən Ümummilli lider Heydər Əliyev bizim üçün bugünkü Azərbaycanı yaratdı, onun müəllifi oldu.

XX əsrdə, xüsusilə son 12 ildə Heydər Əliyevin göstərdiyi çoxcəhətli fəaliyyətinin mahiyyəti və nəticəsi bütün dövlət başçılarını, siyasətçiləri, tarixçiləri düşündürür və maraqlandırır. Bütün bunlar onu deməyə əsas verir ki, biz qarşıdakı illərdə də məhz Heydər Əliyevin hazırladığı siyasəti davam etdirməklə müstəqilliyimizi və dövlətçiliyimizi qoruyub saxlaya bilərik.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın tarixində əbədi qalacaqdır. Məhz ona görə ki, əməlinin miqyasına və əhəmiyyətinə görə xalqın

həyatında başlıca rol oynayan və beynəlxalq əhəmiyyətli çoxsaylı layihələrin təşəbbüskarı və müəllifidir. Heydər Əliyev təkcə milli tariximizi deyil, dünya tarixini mükəmməl bildiyi üçün beynəlxalq aləmdə baş verən qlobal hadisələrdən vaxtında nəticə çıxararaq gələcək inkişafımızı düzgün prioritetlər əsasında müəyyənləşdirmiş, istiqamətləndirmiş və həyata keçirmişdir.

Təsadüfi deyil ki, bu gün Ukrayna kimi bir ölkədə Heydər Əliyev adına Sosial-Siyasi Elmlər İnstitutu təşkil edilib və onun zəngin dövlətçilik təcrübəsi öyrənilir. Çünki XX əsrdə yetişən dövlət xadimləri içərisində onun özünəməxsus yeri və nüfuzu var.

Ümummilli lider Heydər Əliyevi Vətən, xalq təəssübkeşliyindən döndərmək mümkün deyildi. Dağlıq Qarabağ probleminin həlli istiqamətində gördüyü işlər, respublikanın inkişafı, əhalinin maddi yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün keçirdiyi islahatlar, insan hüquqlarının qorunması naminə atdığı addımlar bunu bir daha sübut etdi.

Heydər Əliyevin siyasi xətti bu gün də cənab prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun təhsili, zəngin idarəçilik təcrübəsi, milli-mənəvi dəyərlərə bağlılığı, xeyirxahlığı bugünkü fəaliyyətində də özünü bariz şəkildə göstərir.

Xalqımızda irsə, ənənəyə həmişə hörmət və inam olmuşdur. Keçmişə sədaqət duyğuları Prezident İlham Əliyevin fəaliyyətində bu gün aydın hiss edilir.

Prezident İlham Əliyevin fəaliyyəti bir daha sübut edir ki, Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasət kursu hər zaman üçün gərəkli və əhəmiyyətlidir.

Artıq Avropa dövlətlərinin, Qərbin, bir çox nüfuzlu beynəlxalq təşkilatların Azərbaycanın sülhsevər haqlı, ədalətli mövqeyini dəstəkləməsi, respublikamıza diqqətin artması da məhz belə siyasətin tətbiqi nəticəsində mümkün olmuşdur.

İlham Əliyevin bugünkü fəaliyyəti, gördüyü işlər, keçirdiyi görüşlər, qəbul etdiyi qərarlar onu deməyə əsas verir ki, o, Heydər Əliyev ideyalarının davamçısı olmaqla yanaşı, eyni zamanda həmin siyasəti XXI əsrin tələblərinə, dövrün, zamanın ruhuna uyğun təkmilləşdirəcək və daha da inkişaf etdirəcək dövlət başçısıdır.

XANHÜSEYN KAZIMLI
Milli Məclisin deputatı,
Sosial Rifah Partiyasının sədri

HEYDƏR ƏLİYEV İDARƏETMƏ MƏKTƏBİ

Ölkədə və onun hüdudlarından çox-çox uzaqlarda qəbul edilmiş bir həqiqətdir ki, Azərbaycan xalqının ümummilli lideri, görkəmli siyasət və dövlət xadimi Heydər Əliyev özünün idarəetmə mədəniyyəti, dərin siyasi biliyi, diplomatik gedişləri ilə Azərbaycanda kamil bir idarəetmə məktəbinin əsasını qoymuşdur. Elə bir məktəbin ki, daim politoloqların, iqtisadçıların, hüquqşünasların, filosofların, sosioloqların və digər elm sahələrinin mütəxəssislərinin diqqətini cəlb edərək onların tədqiqat obyektinə çevriləcəkdir. Digər tərəfdən isə bu məktəb sözün həqiqi mənasında dövləti idarəetmə sahəsində bir nəzəri və praktiki bilıklər mənbəyidir. Hazırda Heydər Əliyev idarəetmə məktəbinin dövləti və cəmiyyəti idarəetmə sisteminə, ictimai həyatın bütün sahələrində inkişafa verdiyi töhfələr geniş tədqiqat obyektinə çevrilməkdədir.

Ona görə də Əliyev idarəetmə məktəbinin mahiyyətini aydınlaşdırmaq, bu məktəbin görünməyən tərəflərini tədqiq etmək üçün müasir sosioloq və filosofların qəbul etdiyi müxtəlif metodoloji yanaşmalardan istifadə etmək məqsədəuyğun olardı. İlk növbədə qeyd edək ki, həm sovet dövründə, həm də Azərbaycanın müstəqilliyi şəraitində Heydər Əliyev idarəetmə məktəbinin təşəkkülündə iki əsas istiqamət qabarıq şəkildə diqqəti cəlb edir. Bunlara maddi istehsalın inkişafının idarə olunmasını və mənəvi istehsalın inkişafının idarə edilməsini aid etmək olar.

Hər iki istiqamətin də öz mürəkkəb strukturu vardır. Maddi istehsalın inkişafının idarə olunması özündə aşağıdakıları ehtiva edir: a) ölkə iqtisadiyyatının məqsədyönlü inkişafına, yəni xalqın maddi rifahının artırılmasına yönəlmiş fəaliyyət; b) iqtisadiyyatın bütün sahələrinin daha da inkişafı istiqamətində fəaliyyət. Bu, sosializm şəraitində sosialist təsərrüfatını, müstəqil Azərbaycan reallıqlarında isə formalaşmaqda olan bazar münasibətləri sistemini və bütövlükdə dövlət təsərrüfatını inkişaf etdirmək deməkdir. Bu fəaliyyətin real bəhrəsini bu gün görməmək mümkün deyil: ölkəmizin iqtisadi qüdrəti inkişaf edir, xalqın rifahı get-gedə yüksəlir.

Hər şeydən əvvəl qeyd etməliyik ki, Heydər Əliyev sovet idarəçilik prinsiplərindən və iqtisadi sistemindən maksimum istifadə edərək Azərbaycanın, hətta ittifaq dövlətinin tərkibində belə, güclü və qüdrətli olmasını təmin etməyə çalışmışdır.

Heydər Əliyev idarəetmə məktəbinin başlanğıc mərhələsi olan sovet dövrünün, fikrimizcə, aşağıdakı bəzi məqamlarına diqqət yetirmək vacibdir. Məlum olduğu kimi, sovet dövründə Azərbaycan da digər müttəfiq respublikalar kimi partiya və mərkəzi hökumətin qəbul etdiyi qərar və göstərişlər əsasında idarə olunurdu. Təcrübəli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin digər rəhbərlərdən fərqi və üstünlüyü onda idi ki, o, bütövlükdə idarəetmə, xüsusilə də iqtisadiyyat və təsərrüfat sahələrinin idarə olunması məsələlərində qərar qəbul edərkən hər şeyi götür-qoy edir, necə deyərlər «lehinə» və «əlehinə» prinsipini əsas götürür, milli, tarixi və mədəni həyatın xüsusiyyətləri ilə bağlı məsələlərə dərindən diqqət yetirirdi. Heydər Əliyev istehsal subyektlərinə də xüsusi diqqət və qayğı ilə yanaşırdı. Bu və ya digər istehsal sahəsinin inkişafı perspektivlərinə dair hər hansı qərarın qəbul olunmasından əvvəl Heydər Əliyev həmin sahənin spesifik xüsusiyyətlərini öyrənir, bu sahədə əldə edilmiş təcrübədən elmi bəhrələnmə metoduna üstünlük verirdi. Nəticədə sənaye sahəsinin inkişaf etdirilməsinə dair müzakirələrdə Heydər Əliyev ömrü boyu bu sahədə çalışan mütəxəssislərdən, kənd təsərrüfatı mövzusunda keçirilən diskussiyalarda isə, deyək ki, ən təcrübəli aqronomdan daha sanballı çıxış edir, həmin sahələrin mütəxəssislərindən daha səmərəli təkliflər verirdi. Uzun illər SSRİ Dövlət Plan Komitəsinin sədri olmuş və Heydər Əliyevi yaxından tanıyan Nikolay Baybakovun dediyi fikirlər bu cəhətdən maraqlıdır: "Heydər Əliyev hərtərəfli biliyə malik bir insan idi. O, sonradan həll etməli olduğu məsələləri həmişə çox diqqətlə öyrənirdi." Butun bu xüsusiyyətlər isə onun istehsal sahələrinin idarə olunması istiqamətində özünəməxsus idarəetmə mexanizmini formalaşdırırdı. Deməli, Heydər Əliyev idarəetmə məktəbinin dərin elmi əsasları vardır. Maddi istehsalın idarə olunması məsələlərinin həlli prosesində o, işçilərin istehsal təcrübəsini, peşə hazırlığını, texniki savadını, siyasi tərbiyə işinin vəziyyətini, milli və yaş-cins tərkibini təfərrüatı ilə öyrənirdi. Belə ki, əgər gündəlikdə Azərbaycan üçün tamamilə yeni olan istehsalın təşkili məsələsi dururdusa Heydər Əliyev əvvəlcə kadr problemlərini, sonra isə bilavasitə istehsal məsələlərini həll edirdi. Məsələn vaxtilə Bakı şəhərində inşa olunan Məişət Kondisionerləri Zavodu keçmiş

Sovet İttifaqında bu növ ilk müəssisə idi və ona görə də həm istehsal, həm də istehsaldan kənar sahələr üzrə işə, demək olar ki, sıfırdan başlanılmışdı. Bu isə təbii ki, böyük təşkilatçılıq qabiliyyəti, yüksək idarəçilik səriştəsi, ən başlıcası isə yeni idarəetmə formalarından istifadə etmək bacarığı tələb edirdi. Deməli, Heydər Əliyevə hələ sovet dövründə iqtisadiyyatın idarə olunması, istehsalın təşkili və inkişafı məsələlərində daim yeniliyə əsaslanan idarəçilik xüsusiyyətləri xas olmuşdur. Təsadüfi deyil ki, onun bütün siyasi və praktik fəaliyyəti yaradıcılıqla, yeni və daha mütərəqqi idarəetmə vasitələrinin axtarışı ilə xarakterizə olunur. Nəzərə alsaq ki, ötən əsrin 80-ci illərində Sovet İttifaqına əksəriyyəti 70 yaşı çoxdan keçmiş təbiətən mühafizəkar adamlar rəhbərlik edirdi, onda yeniliyə meylli və öz işində daim mütərəqqi ideyalara arxalanan Heydər Əliyevin hansı çətinliklərlə üzləşdiyini təsəvvür etmək çətin olmazdı. Lakin bütün bu çətinliklərə sinə gərən Heydər Əliyev elə həmin illərdə - SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri olduğu vaxtda da öz idarəetmə prinsipləri ilə işləyir, bu prinsipləri tətbiq etməklə yeni idarəetmə məktəbi təcrübəsini zənginləşdirirdi. Elə butun bunların nəticəsidir ki, idarəetmə obyektini və idarəçilik fəaliyyətinin həyata keçirildiyi sistemi dərindən bilmək, zəngin dövlət idarəçilik təcrübəsi, müxtəlif xarakterli informasiyadan səmərəli istifadə etmək bacarığı ona idarəçilik sahəsində həmişə uğur gətirmişdir. Heydər Əliyev Sov. İKP Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən yüksək idarəçilik səriştəsi tələb olunan bir sıra nazirlik və baş idarələrə kuratorluq etmişdir. O dövrdə istər səhiyyə, istər elm, istərsə də nəqliyyat sahələrində həmin illərdə Sovet İttifaqı səviyyəsində qazanılan bir çox uğurlu yeniliklərin başında da məhz Heydər Əliyev durmusdu. Dediklərimizi sübut etmək üçün təkcə SSRİ dəmiryolu nazirliyi kimi çətin bir sahədə onun fəaliyyətindən kiçik bir nümunə göstərmək kifayətdir. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunduğu dövrdə dəmiryolu nəqliyyatı və dəmiryolla daşımalar sahəsində vəziyyət olduqca ağır idi. Dəmiryolu qatarları və digər avadanlıqlar çatışmırdı, əmək və istehsalat intizamı çox aşağı idi. Ölkə bu sahədə hər ay böyük itkilər verirdi. Dəmir yollarının vəziyyətini və xalq təsərrüfatının bu mühüm sahəsinin xüsusiyyətlərini öyrənərkən Heydər Əliyev ilk baxışda sadə, amma çox rasional təklif irəli sürmüşdü - qatarlarda vaqonların sayını bəzi hallarda iki dəfə, mümkün olarsa daha çox artırmaq. Bu təklifi verəndə də Heydər Əliyev ənənəsinə sadiq idi - təklifini elmi cəhətdən

düzgün əsaslandırılmışdı. Qısa vaxtdan sonra onun konkret və rasional əsaslandırılmış təklifləri sayəsində ziyanla işləyən bu sahə gəlirli iqtisadi strukturaçevrilmişdi.

Ötən əsrin 90-cı illərində sosializmdən kapitalizmə keçid dövründə vəziyyət prinsipial şəkildə dəyişməyə başladı. Məlum olduğu kimi bu prosesdə başlıca faktor istehsal vasitələri üzərində mülkiyyət formalarının dəyişməsi idi. Sosialist mülkiyyətindən imtina edən cəmiyyət xüsusi mülkiyyəti bərqərar etmək kimi çox mürəkkəb reallıqla üzləşməli olmuşdu. Bu sosial-siyasi faktor nəticəsində idarəçilik prinsiplərində də dəyişikliklər baş vermiş, ölkənin iqtisadiyyatına, sənayenin və kənd təsərrüfatının bütün sahələrinə, yəni ölkədə istehsal olunan hər şeyə dövlətin birbaşa müdaxiləsinə son qoyulmuşdu. 90-cı illərin əvvəllərində bütün keçmiş SSRİ məkanında, o cümlədən Azərbaycanda da belə bir yanlış fikir formalaşmışdı ki, guya sabit iqtisadi inkişaf üçün yalnız iqtisadi azadlıqlar və özünüidarəetmə mühitinin mövcud olması kifayətdir. Ona görə də həmin illərdə ictimai münasibətlər sahəsində islahatların başlıca vəzifələrindən biri kimi dövlət idarəçiliyində inzibati metodlarla mübarizə götürülürdü. Nəticədə ölkəmizdə (həmçinin bütün postsovet məkanında) ictimai həyata dövlətin təsiri, güclü bazar iqtisadiyyatına malik ölkələrə nisbətən son dərəcə zəif olmuşdu.

İqtisadiyyata, bütövlükdə dövlət idarəçiliyinə belə səthi baxış və münasibətlərin nəticəsidir ki, 90-cı illərin əvvəllərində bütün keçmiş Sovet İttifaqı miqyasında iqtisadiyyatda tənəzzül başlamışdı. Müttəfiq respublikalarda hakimiyyət başına populist şüarlar müəllifləri olan yeni siyasətçilərin gəlişi dövlət idarəçiliyində ciddi problemlər yaratmışdı. Təzəcə müstəqillik qazanan Azərbaycan Respublikası da bu cəhətdən istisna təşkil etmirdi. Ölkə miqyasında başlanmış azadlıq hərəkatının dalğalarında hakimiyyətə gələn təcrübəsiz siyasətçilər dövlət idarəçiliyi sahəsində sərişitəsiz olduqlarını anlayanda isə artıq gec idi. İqtisadiyyat, demək olar ki, iflic vəziyyətə düşmüş, xalqın həyat şəraiti ağırlaşmış, ölkənin idarəetmə sistemində xaos yaranmışdı. Və həmin xaos və tənəzzülün müəllifləri özləri də anlamağa başlamışdılar ki, ölkəni bu vəziyyətdən zəngin idarəçilik təcrübəsi olan yeganə bir şəxs – Heydər Əliyev çıxara bilər.

Haqqında söhbət açdığımız idarəetmə məktəbinin bir üstünlüyü də özünü bu problemə münasibətdə göstərir: Heydər Əliyev müstəqil dövlətə rəhbərlik etdiyi ilk illərdə tez nəticə verən, amma daimi inkişafa zəmin yaratmayan populist addımlara deyil, problemin bütövlükdə həllini nəzərdə tutan iri-

miqyaslı islahatlara üstünlük vermişdir. Ona görə də ölkədə iqtisadi inkişaf bir neçə il sonra1995-ci ildən sonra başlamış və dönməz xarakter almışdır.

Bütün bunlar sübut edir ki, Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk illərdə ölkənin iqtisadi, təsərrüfat, mənəvi-mədəni və sosial həyatının inkişafının dövlət tərəfindən idarə olunması prosesi yeni sosial keyfiyyətlər kəsb etməyə başlamışdır. Bu kontekstdə Heydər Əliyev ideyalarına əsaslanan müasir idarəetmə sisteminin bəzi məqamlarını nəzərdən keçirək.

Məlum olduğu kimi, maddi istehsal sahəsində bir çox idarəetmə vəzifələri yeni dövrdə dövlət tərəfindən deyil, xüsusi sektorun özü tərəfindən həll olunur. Başqa sözlə, dövlət özünün bir sıra idarəçilik funksiyalarından məhrum olur. Lakin bu heç də o demək deyil ki, dövlət bununla xalq qarşısında iqtisadiyyatın, elmin, mədəniyyətin, təhsilin, səhiyyənin və kənd təsərrüfatında xidmətin vəziyyəti üçün məsuliyyəti öz üzərindən götürür. Əksinə, bütün ölkə iqtisadiyyatı üçün xalq qarşısında hansısa xüsusi firma deyil, məhz dövlət məsuliyyət daşıyır. Ona görə də dövlətin bütün həyatının idarə olunması məsələsində Heydər Əliyev öz diqqətini aşağıdakı məqamlar üzərində cəmləşdirir.

Birincisi, dövlət ölkənin və cəmiyyətin iqtisadi inkişaf strategiyasını müəyyənləşdirir. Bu strategiyanın reallaşmasında başlıca amil birbaşa dövlət idarəçiliyidir; hər şeydən əvvəl iqtisadiyyatın dövlət sektorunun idarə olunmasıdır. Bu məsələdə digər bir amil isə kredit mexanizminin - ümumdövlət əhəmiyyəti kəsb edən istehsal sahələrinə dövlət tərəfindən maliyyə dəstəyi vasitəsilə iqtisadiyyatın inkişafına dolayı təsir göstərməkdir. Bu amil əhalinin sosial tələbatlarının ödənilməsində, onun maddi rifahının yaxşılaşdırılmasında mühüm faktordur.

İkincisi, dövlətin məqsədyönlü iqtisadi siyasətinin həyata keçirilməsində ən mühüm şərtlərdən biri respublikanın iqtisadiyyatına xarici investisiyaların cəlb olunmasıdır. Bu sahədə Azərbaycanın uğurları göz qabağındadır: bizdə onlarla birgə müəssisələr, yaxud maddi nemətlər istehsal edən xarici strukturlar yaradılmışdır. İlk baxışda elə görünə bilər ki, həmin strukturların fəaliyyətinə Azərbaycanın heç bir dəxli yoxdur. Amma əslində isə onların hamısı öz fəaliyyətini müəyyən beynəlxalq müqavilələr və Azərbaycan Respublikasının qanunlarına uyğun həyata keçirir. Belə bir faktı da nəzərə almaq lazımdır ki, həmin müəssisələr də, bu cür qanunların işlənib hazırlanması da ölkəmizin həyatında yenilikdir. Çünki

Azərbaycan vahid sovet dövlətinin tərkibində olarkən xarici tərəfdaşlarla birbaşa əlaqə yaratmaq imkanından məhrum olduğu üçün, bu sahədə də təcrübə qazanmamışdır. Həmin strukturlar ölkəmizin iqtisadi infrastrukturunda yenilik olsa da onların qarşılıqlı münasibətləri, prinsipləri daha çox Heydər Əliyev ideyalarından bəhrələnir. Bu ideyalar və onların prinsipial əhəmiyyətini isə o, dünyanın müxtəlif ölkələrinin biznesmenləri və işgüzar dairələrinin nümayəndələri ilə həm Azərbaycanda, həm də xarici ölkələrə səfərləri zamanı keçirdiyi çoxsaylı görüşlərində bəyan etmişdir. Prezident Heydər Əliyevin fəaliyyətinin bu aspekti, şübhəsiz ki, idarəetmə məktəbinin çox mühüm məqamı, iqtisadiyyatın xüsusi sektorunun inkişafının tənzimlənməsində və onun idarə olunmasında dövlətin iştirakının yeni formalarının axtarışı və deməli, ümummilli liderin yeni şəraitdə yeni idarəetmə məktəbinin formalaşması prosesinin göstəricisidir. Dövlət sovet dövründə inhisarına aldığı bir çox sahələri, məsələn, ticarət və kənd təsərrüfatını birbaşa idarə etmək imkanlarından məhrum olunmuşdur. Amma reallıqlar göstərir ki, həmin sahələrin inkişafında dövlətin xalqın rifahı ilə bağlı olan maraqları həmişəki kimi mühüm əhəmiyyət kəsb edir.

Yeri gəlmişkən, burada bir məqamın da üzərində dayanmağa ehtiyac duyulur. Uzun illər planlı təsərrüfat sahəsində yaşamağa uyğunlaşmış əhali yeni dövrdə xüsusi mülkiyyətin geniş yer almasına inamsızlıqla yanaşardı. Heydər Əliyev isə iqtisadiyyatın inkişafında özəl sektorun önəmli rolunu dərk etdiyindən bu sahənin inkişafına xüsusi əhəmiyyət verirdi. Belə bir şəraitdə köhnəliklə yeniliyin ziddiyyəti labüd idi. Məsələn, yeni idarəçilik prinsipləri, deyək ki, nəqliyyat sahəsində, konkret olaraq səmişindaşımada özəl sektora üstünlük verilməsini tələb edirdi. Belə yeniliyə alışmayan əhali bu addımın müsbət nəticələrinə o qədər də inanmırdı. Amma Heydər Əliyev bu yolun doğruluğunu bildiyi üçün bütün ziddiyətlərə, bütün etirazlara məhəl qoymadan bu sahənin özəl sektora etibar edilməsinə üstünlük verdi. Qısa vaxtdan sonra hamı bu sahədə yaranan inkişafla razılaşmalı oldu. Deməli, Heydər Əliyev yeni idarəçilik metodunun üstünlüklərinə arxalanaraq yeni ideyalara inanır, bu yolla qətiyyətlə addımlayırdı. Xalq isə Heydər Əliyev idarəetmə məktəbinə inandığı üçün bu yolun doğruluğuna şübhə etmirdi. Bəli, Heydər Əliyev idarəetmə sisteminin başlıca üstünlüklərindən biri də budur.

Yuxarıda qeyd olunduğu kimi, Heydər Əliyevin idarəetmə məktəbi bir sıra spesifik xüsusiyyətlərə malikdir. Bunlardan biri də, həmin məktəbin

ümummilli liderin həyatının müxtəlif dövrlərində (sovet və postsovet) müxtəlif nəzəri prinsiplərə, hüquq normalarına, mənəvi və əxlaqi qanunlara söykənməsidir. Ona görə də SSRİ dövründə və SSRİ-nin dağılmasından sonrakı mərhələdə onun dövlət xadimi kimi idarəçilik praktikasında bəzən müşahidə olunan kənarlaşmalar yalnız həmin siyasi sistemlərin özünün ziddiyyətləri kimi qəbul edilməlidir. Başqa sözlə, bu faktor ziddiyyətlərin dialektikası çərçivəsində başa düşülməlidir.

1969-cu ildən - respublika rəhbərliyində fəaliyyətinin ilk günlərindən müstəqil dövlətə başçılıq etdiyi illərə qədər həmişə kadr siyasətini ön plana çəkmişdir. Daha doğrusu, Heydər Əliyev həmişə kadrlarla, konkret insanla işə xüsusi qayğı ilə yanaşmışdır. Bu da təsadüfi deyil. İnsan, bacarıqlı kadr və yaxşı mütəxəssis mürəkkəb idarəetmə pilləsinin mühüm amilidir. Heydər Əliyevin idarəetmə məktəbində kadrlara, mütəxəssislərə qayğı ilə yanaşmasının başlıca səbəbi məhz bununla - idarəetmə mexanizmini təşkil edən bütün pillələri düzgün qurmaq istəyi ilə bağlıdır.

Heydər Əliyev dövlət idarəçiliyi sahəsində çalışanların mənəvi və əxlaqi keyfiyyətlərinə xüsusi əhəmiyyət verir, bu məsələni daim diqqətdə saxlayırdı. O, idarə edənlərin professional keyfiyyətlərini və onların heç də yüngül olmayan əməyini yüksək qiymətləndirərək daim bir məqamı vurğulayırdı ki, vəzifəyə irəli çəkilən hər bir şəxs yüksək mənəvi keyfiyyətlərə malik olmalıdır. Hətta ixtisaslı mütəxəssis olsa belə mənəviyyatca qüsurlu şəxsin hər hansı kollektivə rəhbərlik etməyə haqqı yoxdur. Bu məsələdə də Heydər Əliyev ənənəsinin formalaşdığını vurğulamaq yerinə düşər. Çünki mənəvi tərbiyə məsələləri hələ sovet dövründə Heydər Əliyev üçün prioritet olmuşdur.

Heydər Əliyev hesab edirdi ki, kollektivdə mənəvi durum və psixoloji mühit bütövlükdə cəmiyyətin mənəvi durumundan və hər bir üzvünün mənəviyyatından asılıdır.

Heydər Əliyev mənəviyyat sferasına aid həm qlobal, həm də lokal miqyaslı məsələlərin həllində, milli mentalitetin xüsusiyyətlərini və bəşəri dəyərləri nəzərə almaqla misilsiz qabiliyyət və bacarıq nümayiş etdirirdi. Heydər Əliyevin məktəbinə görə dövləti və cəmiyyəti idarə etmək bütün subyektiv və obyektiv amilləri nəzərə almaqla yeni-yeni idarəçilik mexanizmlərinə yiyələnmək və bunları həyata tətbiq etmək deməkdir. Heydər Əliyevin dövlət idarəçiliyi məktəbinin başlıca prinsipləri maddi və mənəvi istehsalın nəzəri cəhətdən əsaslandırılması, siyasi və ideoloji

baxımdan təkmilləşdirilməsi prosesində formalaşmışdır. Nəticədə maddi istehsalın inkişafı mənəvi istehsalın inkişafı ilə paralel aparılmışdır.

Maddi və mənəvi dəyərlər istehsal edənlərin fəaliyyətini aktivləşdirmək bütün dövrlərdə son dərəcə mühüm məsələ sayılmış, bu gün də öz aktuallığını saxlamaqdadır. Bu kontekstdə istehsal subyektlərinə diferensiasiyalı yanaşmaq Heydər Əliyev məktəbinin mühüm prinsiplərindən biridir. Onun fikrincə, dar spesifik əməliyyatları icra edən sıravi işçinin funksiyalarını və rolunu istehsala rəhbərlik edənlərin və bu sahədə aparıcı rol oynayan mütəxəssislərin fəaliyyəti ilə eyniləşdirmək yolverilməzdir.

Heydər Əliyevin nəzərincə, ictimai istehsalda, ölkənin iqtisadiyyatının inkişafında insan faktorunun müəyyənləşdirilməsində ən mühüm meyar onun yüksək peşəkarlıq səviyyəsi, öz fəaliyyətində elm və texnikanın son nailiyyətlərindən istifadə etmə bacarığıdır. Mükafat və təltiflər də buna görə verilməlidir. 1970-1983-cü illərdə Azərbaycanda təkcə kənd təsərrüfatı sahəsində yüzlərlə istehsalat qabaqcılları – adi manqa başçıları, briqadirlər, kolxoz sədrləri, sovet və komsomol işçiləri, o dövrün ali mükafatları - Sosialist Əməyi Qəhrəmanı, Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşlar. Heydər Əliyevin idarəetmə məktəbindəki bu xüsusiyyətlər müstəqil Azərbaycana rəhbərliyi dövründə də davam etdirilmişdir. Bütün bunlar təsadüfi deyil. Tanınmış mütəxəssislərin qənaətinə görə, idarəetmə üsulları idarəetmənin məqsədlərinə çatmaq üçün insanlara təsir vasitəsidir. Bu vasitələr sırasında iqtisadi, inzibati-hüquqi və sosial-psixoloji idarəetmə üsulları xüsusi fərqləndirilir.

Qeyd etmək yerinə düşər ki, Heydər Əliyev öz idarəetmə təcrübəsində illərin sınağından keçmiş bu üsulların hamısından elmi cəhətdən bəhrələnmişdir. Lakin o da vurğulanmalıdır ki, Heydər Əliyev idarəetmə məktəbində əsas idarəetmə üsulu kimi məhz sonuncuya - sosial-psixoloji üsula daha çox üstünlük verilmişdir. Çünki Heydər Əliyev bir mütəfəkkir kimi insanların psixologiyasını yaxşı bildiyindən öz idarəetmə təcrübəsində bu üsulu daha üstün hesab etmişdir. Ona görə də bu gün müstəqil Azərbaycanın iqtisadiyyatını inkişaf etdirərkən, bazar iqtisadiyyatı prinsiplərini möhkəmələndirərkən, regionların inkişafı və yeni iş yerlərinin açılmasını planlaşdırarkən, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən möhtərəm Heydər Əliyevin hələ 70-80-ci illərdə istehsalı və iqtisadiyyatı idarə etmə məktəbinin bu mühüm prinsipləri rəhbər tutulmaqdadır.

Təbii ki, söhbət heç də həmin prinsiplərin mexaniki tətbiqindən getmir. Dövr, zaman və cəmiyyətin inkişaf səviyyəsi ortaya yeni reallıqlar çıxarır. Yeniləşmə prosesində, xüsusi mülkiyyət münasibətləri və bazar iqtisadiyyatı şəraitində zəngin idarəetmə məktəbinin imkanlarından daha yaradıcı şəkildə istifadə olunur.

Haqqında söhbət gedən məktəbdə həm nəzəri-praktik, həm də ideoloji baxımdan diqqəti cəlb edən cəhətlərdən biri də Heydər Əliyevin mənəvi istehsalın - bilik istehsalının, elmin, incəsənətin, mədəniyyətin, təhsil sisteminin təşkili və inkişafının, cəmiyyətin və millətin mənəvi və əxlaqi sahələrinin inkişafının idarə olunması prinsipləridir.

Heydər Əliyevin mənəvi istehsalı idarəetmə məktəbi özündə dünya təcrübəsini, milli spesifika ilə xalqın, cəmiyyətin, ölkənin tarixi, mədəniyyəti və praktik həyatı ilə bağlı olan hər şeyi cəmləşdirmişdir. Ona görə də onun cəmiyyətin həyat fəaliyyətinin sahələrinin inkişafını idarəetmə ideyaları özlüyündə unikal məzmuna malikdir. Məsələn, elmin idarə olunmasının müxtəlif aspektlərinə toxunarkən o, bir neçə başlıca prinsipləri göstərmişdir. Heydər Əliyevin fikrincə, elm sahəsinin idarəçiliyi yalnız əmr və göstərişlərlə mümkün deyil, çünki elmin öz təbiəti bunu qəbul etmir. Hətta sovet dövründə Heydər Əliyev elm və elmi müəssisələrin idarə olunmasında sərt inzibati metodların əleyhinə olmuşdur. O, həmişə elmi müəssisələrdə və kollektivlərdə özünüidarə və özünütəşkil prinsiplərindən istifadə etməyə üstünlük vermişdir.

Ona görə də öz çıxış və nitqlərində informasiya və kommunikasiya sistemlərindən hərtərəfli istifadəni vacib sayan Heydər Əliyev eyni zamanda cəmiyyətin insan potensialına və insanların real tələbatlarının ödənilməsinə üstünlük vermişdir. Çünki o, realistdir və bir dövlət xadimi kimi fantaziyanı qəbul etmir. Məsələn, söhbət hansısa elm sahəsindən gedəndə o, hökmən son nəticə ilə maraqlanır. Bu zaman qeyd etmək vacibdir ki, Heydər Əliyevi heç bir halda hər şeyi «xalis» gəlirə müncər edən praqmatiklərə aid etmək olmaz. Çünki o, dövr miqyasında, tarixi məkan və zaman ölçülərində düşünür. Ondan ötrü məcmu nəticə - millətin və cəmiyyətin tərəqqisi, ölkənin çiçəklənməsi və daha da inkişafıdır. Özü də o, Azərbaycanı tanıtmaq məsələsinə xüsusi əhəmiyyət verir: əgər elmin, incəsənətin, təhsilin, yaxud səhiyyənin inkişafı bu yolla deyil, başqa yolla gedərsə, Azərbaycan dünyada, Avropada, yaxud Qafqaz regionunda hansı yeri tutar. Deməli, sağlam yarış ideyası, Heydər Əliyev idarəetmə məktəbinin mühüm və ayrılmaz komponentidir.

Mənəvi istehsal sisteminin inkişafı və fəaliyyətinin idarə olunmasında Heydər Əliyevin xüsusi diqqət yetirdiyi belə bir mühüm aspekt də var: burada söhbət mənəvi istehsalın bu və ya digər növünün cəmiyyətdə rolunun fərqləndirilməsindən gedir. Mənəvi istehsalın hər bir növü, məsələn, elm, din, incəsənət, təhsil və digər sahələr başqalarının funksiyalarına müdaxilə etmədən yalnız özünün spesifik funksiyasını yerinə yetirir. Din elmin vəzifəsini yerinə yetirməməli, incəsənət dinin rolunu oynamamalı, ideologiya isə fəlsəfənin, yaxud iqtisadiyyat elminin funksiyasını icra etməməlidir. Funksional fəaliyyət təyinatına görə həyata keçirilmədikdə biz yalnız kədərli faktlarla üzləşməli oluruq. Məsələn, cəmiyyətin və dövlətin fəaliyyətində, fərdin həyatında dinin rolunun həddən artıq şişirdilməsi dini fanatizmə gətirib çıxara bilər ki, bu da hakimiyyəti həyata keçirən dünyəvi dövlət üçün qəbuledilməzdir. Məhz bu mövqedən çıxış edən Heydər Əliyev özünün dövlətçilik fəaliyyətində həmişə dəqiq mövqe tutmuşdur: tarixi, mənəvi dəyər və ümumbəşəri mədəniyyətin bir hissəsi olan dinə ehtiram və hörmət və sosial tərəqqinin tələblərinə zidd hadisə kimi dini fanatizmi rədd etmək! Heydər Əliyev üçün İslam dininə hörmət və ehtiram, həm də digər dinlərə hörmət və ehtiramla səciyyələnmişdir. Onun qənaətinə görə, dini dözümlülük - tolerantlıq özü cəmiyyətin inkişafına xidmət edir. Bu mənada Bakı İslam Universitetinin rektoru Hacı Sabir Həsənlinin aşağıdakı fikirləri maraqlıdır: "Azərbaycan tolerantlıq sahəsində dünyanın ən inkişaf etmiş demokratik ölkələrinə belə nümunə ola bilər. Tolerantlıq demokratiyanın əlamətidir. Bütün bunlar cənab Heydər Əliyevin düşünülmüş, müdrik siyasəti nəticəsində mümkün olmuşdur." (Xalqa bağışlanılan ömür. Bakı, 2004. səh.129)

Beləliklə, Heydər Əliyevin mənəvi istehsalın inkişafına metodoloji yanaşma prinsiplərində aşağıdakı məqamları göstərmək olar: maddi və mənəvi istehsal, iqtisadiyyat və mədəniyyət, sosial və siyasi sahələr - hamısı qarşılıqlı əlaqədə olan və bir-birinə təsir göstərən amillərdir. Bu amillərdən birinin güclənməsi digərlərinin gücləndirilməsi deməkdir. Heydər Əliyev idarəetmə məktəbinin başlıca prinsiplərinin təhlili isə göstərir ki, Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə yuxarıda sadalanan amillər daim qarşılıqlı əlaqədə və inkişafda olmuşdur. Deməli, maddi və mənəvi istehsal, iqtisadiyyat və mədəniyyət, sosial və siyasi sahələrin qarşılıqlı əlaqədə inkişafı Heydər Əliyev idarəetmə məktəbinin ən xarakterik cəhətlərindən biri və birincisidir.

ASƏF HACIYEV
Milli Məclisin deputatı,
AMEA-nın müxbir üzvü

DÖVLƏTÇİLİK DƏRSLƏRİ

Mən həyatımın qalan hissəsini xalqıma bağışlayıram.

1993-cü ildə Azərbaycan bəlkə də tarixinin ən ağır günlərini yaşayırdı. Ölkə vətəndaş müharibəsi və parçalanma təhlükəsi qarşısında idi. Hakimiyyətsizlik baş götürüb gedirdi. Silahlı dəstələr, idarəolunmayan, dövlətçilikdən uzaq olan insanlar ölkədə meydan sulayırdı. Ölkənin aparıcı siyasi gücə, liderə ehtiyacı vardı. Bu vəziyyətdə kimsə öz üzərinə bu ağır yükü götürmək istəmirdi. Naxçıvandan ucalan bir səs gəldi və tanınmış siyasətçi - Heydər Əliyev bu ağır yükü öz üzərinə götürərək yeni müstəqil Azərbaycanın qurucusu oldu. 1993-cü ildə Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra Qərb mətbuatı yazırdı: "Azərbaycan elə bir vəziyyətdədir ki, hətta Heydər Əliyev kimi tanınmış və təcrübəli siyasətçi çətin ona kömək etsin". Amma o hamını təəccübləndirdi. Heydər Əliyev qısa bir zamanda qanunsuz silahlı dəstələrin fəaliyyətinə son qoyaraq, ölkədə hökm sürən özbaşınalığı aradan qaldırdı. Heydər Əliyev Azərbaycanda stabillik, iqtisadiyyatda dönüş yaratdı. Görəsən qısa bir zamanda bunlara nail olmaq necə mümkün oldu? Bunun kökündə bir amil dururdu. Heydər Əliyev Azərbaycan xalqına, onun dövlətçiliyinə və mədəniyyətinə olan məhəbbətini, bütün gücünü və təcrübəsini səfərbər edərək, həyatının qalan hissəsini xalqına və ölkəsinə bəxş edərək ölkəmizi beynəlxalq arenaya çıxardı. Belə fəaliyyətin nəticəsində "Əsrin kontraktı" imzalandı, ölkə iqtisadiyyatına böyük investisiyalar qoyuldu, yüzlərlə iş adamları, dünyanın tanınmış şirkətləri Azərbaycanda fəaliyyətə başladı.

1995-ci ildə Heydər Əliyev Danimarkada olarkən Azərbaycanda ona qarşı sui-qəsd hazırlanırdı. Bəzi dövlət xadimləri ona Azərbaycana getməyi məsləhət görmürdülər, bir müddət gözləməyi təklif edirdilər. Ancaq Heydər Əliyev ölümdən qorxmadı, dərhal Azərbaycana döndü və ölümə qarşı gedərək ona qalib gəldi.

Oktyabr hadisələri zamanı Heydər Əliyevin bir çağırışı ilə yüz minlərlə azərbaycanlı gecə yarısı meydana toplaşıb onun siyasətini dəstəkləyərək Azərbaycanda quruculuq proseslərinə dəstək verdilər. Çünki Heydər Əliyev üçün həyatda bir müqəddəs məqsəd var idi - müstəqil və güclü Azərbaycanın yaradılması və o buna nail oldu. Heydər Əliyev qısa bir zamanda Azərbaycanı dünyaya tanıtdı və dövlətimizə, xalqımıza beynəlxalq aləmdə nüfuz qazandırdı.

1998-ci ildə BMT-nin Baş Katibi Butros Qali Heydər Əliyevlə görüşərkən demişdi:

"Mən Azərbaycan xalqının tarixinə və mədəniyyətinə böyük hörmət bəsləyirəm və tanınmış siyasətçi Heydər Əliyev bu zəngin tarixin və mədəniyyətin parlaq təzahürüdür".

Xalqın dəstəyinə arxalanan Heydər Əliyev, həyatının qalan hissəsini xalqına bağışlayaraq şah əsəri olan müstəqil Azərbaycanın qurucusu oldu.

Elmlər Akademiyası Azərbaycan xalqının sərvətidir və qorunub saxlanılmalıdır.

SSRİ parçalandıqdan sonra Azərbaycanda Elmlər Akademiyası ağır günlərini yaşayırdı. Bir tərəfdən maddi problemlər akademiyanın işini iflic vəziyyətə gətirmişdi, digər tərəfdən isə hakimiyyətdə olan güclər Akademiyanın bağlanmasını təklif edirdilər. Amma dünyanın inkişafı göstərirdi ki, elmsiz, təhsilsiz olan ölkənin gələcəyi yoxdur. 1993-cü ildə Bakıya gələn Heydər Əliyev ilk görüşünü məhz Elmlər Akademiyasında keçirdi, müstəqilliyini bərpa etmiş Azərbaycanın gələcək problemlərini Akademiyada çalışan ziyalılarla müzakirə etdi. Heydər Əliyev 2001-ci ildə öz sərəncamı ilə Akademiyaya Milli statusu verərək ona yeni nəfəs gətirdi. Akademiyanın üzvləri və orada çalışan insanlar üçün lazımi iş şəraiti yaradıldı, məvacibləri artırıldı. Bir dövlət xadimi kimi Heydər Əliyev ölkənin inkişafını və gələcəyini elmin yüksəlişi ilə bağlayırdı. Heydər Əliyevin bir dövlət xadimi kimi elm və təhsil sahələrinin idarə olunmasında, təşkil olunmasında böyük təcrübəsi var idi. Hələ SSRİ zamanında o Sov.İKP Mərkəzi Komitəsinin Siyasi Bürosunda elm və təhsil məsələlərinə rəhbərlik edirdi. Azərbaycanda elm sahəsində əldə olunan uğurlar məhz Heydər Əliyevin rəhbərlik etdiyi illərə təsadüf edir. Məhz, Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan alimləri SSRİ-nin elm sahəsində olan ən yüksək mükafatlarına layiq görüldü. Bu, ölkədə elm və təhsil sahəsində aparılan uğurlu siyasətin nəticəsi idi. Azərbaycan xalqının elmi və mədəni sərvətlərini qoruyub inkişaf etdirmək Heydər Əliyevin hər zaman prioritet məqsədlərindən biri olub. Onun hakimiyyəti zamanı incəsənət, elm və təhsil xadimlərinə göstərilən diqqət bunları təsdiq edir. Konsert zallarında dünyanın tanınmış mədəniyyət və incəsənət xadimlərinin adları səsləndi. Azərbaycanın incəsənət xadimləri üçün Prezident təqaüdləri təsis edildi və fəxri adlar verildi. Elm və təhsil sahəsində Heydər Əliyevin apardığı islahatlar nəticəsində bu sahədə çalışan insanların həyatlarında dönüş yaradıldı, onların sosial həyatı dəyişdi. 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə yüzlərlə azərbaycanlı gənclər SSRİ-nin aparıcı ali məktəblərinə təhsil almağa göndərilirdilər. 80-ci illərdə belə gənclərin sayı 1000-ə çatdı. Sonralar bu ənənə Azərbaycanda hakimiyyətdə olan şəxslər tərəfindən düşünülməmiş şəkildə ləğv edildi. Nəhayət, Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra, bu ənənə 1995-ci ildə məhz onun tərəfindən bərpa olundu və bu gün müxtəlif ölkələrdə təhsil almış insanlar elmin müxtəlif sahələrində həm ölkəmizdə, həm də Azərbaycanın hüdudlarından kənarda uğurla çalışır və ölkəmizi müxtəlif beynəlxalq qurumlarda ləyaqətlə təmsil edirlər. Bu gün azərbaycanlı gənclər nəinki Rusiyanın, həmçinin Avropanın, Amerikanın aparıcı ali məktəblərinə təhsil almağa göndərilirlər. Azərbaycanda xüsusi istedada malik olan gənclər üçün Prezident təqaüdü təsis olunub. Bu 1970-ci ildə Heydər Əliyev tərəfindən qoyulan ənənənin davamı idi. Azərbaycanın gələcəyini elmin inkişafı ilə bağlayan Heydər Əliyev ölkəmizin və xalqımızın sərvəti olan Elmlər Akademiyasını xilas etdi, qorudu və onun inkişafı üçün lazımi tədbirlər gördü.

Heydər Əliyev elm və təhsil sahələrində gördüyü quruculuq xidmətlərinə görə dünyanın bir neçə aparıcı universitetlərinin fəxri doktoru seçilmişdir. Onlardan M. V. Lomonosov adına Moskva dövlət universitetini, ABŞ-ın Linkoln universitetini, Bilkənt və digər universitetləri qeyd etmək olar.

Azərbaycanın müstəqilliyi daimidir, dönməzdir və əbədidir.

1991-ci ildə Azərbaycanın müstəqilliyi bərpa olundu. Ermənistan tərəfindən Azərbaycana olan təcavüz davam edirdi və müxtəlif ölkələr təzyiqlər göstərib şəxsi maraqlarını ölkəmizdə həyata keçirməyə cəhd edirdilər. Belə təzyiqlərə dözüb, müstəqillik yolunu uğurla davam etdirmək ancaq böyük şəxsiyyətlərə və dövlət xadimlərinə məxsus olur. 1993-cü il-

də ölkənin ağır vəziyyətində Heydər Əliyev Azərbaycanda təkrar olaraq hakimiyyətə gəldi və ölkənin müstəqilliyini qoruyub saxladı və Azərbaycanı dünyaya tanıtdı. Ölkənin ağır günündə, oktyabr hadisələri zamanı onun çağırışı ilə yüz minlərlə insanlar gecəyarı meydana toplaşıb Heydər Əliyev siyasətinə, ölkəmizin gələcəyinə və müstəqilliyinə səslərini ucaltdı. Bu, müstəqillik yolunda atılan cəsarətli və düşünülmüş addım idi. Heydər Əliyevin hakimiyyəti zamanı müstəqil Azərbaycan dünyanın ən nüfuzlu təşkilatlarına qəbul olundu: Avropa Şurası, Qara dəniz İqtisadi Əməkdaşlıq təşkilatı, NATO Parlament Assambleyasının assosiativ üzvü və s. Heydər Əliyev müstəqil Azərbaycanı ən yüksək siyasi tribunalarda ləyaqətlə təmsil edirdi.

Ölkə Prezidenti dünyanın bütün qitələrinə dəvət olunmuşdur və ona orada ən yüksək hörmət və ehtiram göstərilmişdir. Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında və s. və hər zaman Heydər Əliyev Azərbaycanın həqiqətlərini dünya ictimaiyyətinə çatdırmışdı. Azərbaycanın liderini dünyanın aparıcı siyasətçiləri rəsmi dəvət edib ona xüsusi diqqət göstərirdilər.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda hakimiyyətə gəlməsi dünya xəritəsində kiçik olsa da, amma formalaşmış siyasəti olan müstəqil Azərbaycan dövlətinin yaradılması ilə müşahidə olunur. Heydər Əliyevin Lissabon sammitində atdığı addımlar göstərdi ki, Azərbaycanın müstəqilliyi daimidir və güclü əllərdədir. Lissabon zirvə toplantısı Azərbaycanın müstəqilliyində Heydər Əliyev siyasətinin dönməzliyini, qətiyyətliyini göstərdi və orada qəbul olunan, 52 ölkənin liderləri tərəfindən imzalanan bəyanat Heydər Əliyev siyasətinin təntənəsi olaraq, ölkəmizin müstəqilliyinin möhkəmlənməsində uğurlu və tarixi bir addım oldu. Heydər Əliyev siyasəti Azərbaycanın müstəqilliyinin daimiliyini, dönməzliyini və əbədiliyini təsdiq etdi.

Mən Azərbaycanlıyam və bununla fəxr edirəm.

XX əsrin sonunda Prezident Heydər Əliyev tərəfindən dünyaya səslənən bu sözlər bəlkə də bəzi siyasətçilərə qəribə gəldi. Amma zaman göstərdi ki, bu sözlərdə dərin məna vardır. Məhz, XX əsrin ikinci yarısında siyasətdə səmimiyyət elementləri aşkar olunur və aydın olur ki, uğurlu siyasət xalqın tarixinə, mədəniyyətinə söykənərək xalqa olan səmimi məhəbbət əsasında qurulmalıdır. XX əsrin ikinci yarısında səmimiyyət dünya siyasətçilərinin çıxışlarında müşahidə olunur. ABŞ Prezidenti Con Kennedinin məşhur sözləri "Soruşma Amerikadan o sənin üçün nə edib: soruş özündən sən Amerika üçün nə etmisən" buna bir nümunədir. Amma bunları dərk edib yaxından tanış olmaq üçün xalq öz mədəniyyətinin və tarixinin incəliklərini yaxından bilməli, onları dərindən başa düşməlidir. Bununla bağlı Heydər Əliyev Azərbaycanda latın əlifbasına keçmək haqda 2000-ci ildə Sərəncam imzaladı və latın əlifbasında böyük sayda kitablar nəşr olundu. Qısa zamanda bu qədər dəyərli kitabların nəşr olunması ölkəyə yeni nəfəs - təhsil nəfəsi gətirdi. Dünya və Azərbaycan klassiklərinin, müasir yazıçıların əsərləri qısa zamanda Azərbaycanda nəşr olundu. Təntənəli şəkildə Dədə Qorqudun 1300 illiyi keçirildi. Azərbaycanın mədəniyyətinə, tarixinə, adət və ənənələrimizin bərpa olunub inkişaf etdirilməsinə xüsusi diqqət yetirildi. Hələ Sovetlər zamanında Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın böyük oğlu Hüseyn Cavidin məzarının uzaq Sibirdən vətəninə gətirilməsi onun cəsarətini və xalqımızın irsinə olan böyük məhəbbətini təsdiq edir. Digər tərəfdən bu addım gənc nəsil üçün bir nümunə və örnək idi - neçə insan öz xalqının mədəniyyətinə hörmət edib onu dəyərləndirməlidir. Heydər Əliyevin hakimiyyəti zamanı ölkədə hər bir sahəyə ciddi diqqət ayrılırdı. Elm, təhsil, idman, mədəniyyət və digər sahələrdə tanınmış azərbaycanlılar ölkəmizi dünyaya tanıtdı, ona şərəf gətirdi. Bu, xalqına səmimi məhəbbət üzərində qurulan, Azərbaycan vətəndaşlarını dünya miqyasına çıxarıb onlarla fəxr edən Heydər Əliyev siyasəti idi.

1984-cü ildə SSRİ-də antialkoqol kampaniyası adı ilə Sovet Respublikalarında, həmçinin Azərbaycanda üzüm bağlarının məhv etmə prosesi başladı. O vaxt SSRİ-nin siyasətçilərindən heç kəs öz etirazını bildirmədi. Ancaq Heydər Əliyev tutduğu vəzifəsini itirməkdən qorxmayaraq, öz etirazını bildirdi. O, deyirdi: "Bu qədər zəhmət və əziyyətlə yetişdirilmiş üzüm sahələrinin məhv olunmasına imkan vermək olmaz" Azərbaycanın o vaxtki rəhbərliyi hətta, Moskvaya Heydər Əliyevin bu hərəkətinə öz etirazlarını söyləmişdilər. Amma Heydər Əliyev öz fikrindən dönmədi. Bu gün bar verən üzüm bağları və onun əsasında inkişaf edən şərabçılıq belə cəsarətin əsasında mümkün oldu.

Bu gün Azərbaycanın hansı guşəsinə baxsaq orada Heydər Əliyev izi var. Ölkəmizdə olan əksər böyük tikintilər Heydər Əliyevin adı ilə bağ-

lidir. Gülüstan və Respublika (Heydər Əliyev) Sarayları, Binə (Heydər Əliyev) hava limanı, kondisioner zavodu və s.

Heydər Əliyev Azərbaycanda iki dəfə, biri-birinə oxşamayan zamanda hakimiyyətdə oldu və hər zaman onun üçün müqəddəs olan Azərbaycan xalqının mənəvi dəyərlərini qorudu və onun inkişafı üçün lazımı tədbirlər gördü. Nə Sovet hakimiyyətinin kommunist ideologiyası, nə də müstəqillik illərinin çətinlikləri Heydər Əliyevi bu yoldan döndərə bilmədi.

Heydər Əliyevə Konrad Adenauerin konstruktivliyi, Franklin Ruzveltin reformatorluğu, general de Qollun qətiyyətliliyi, Con Kennedinin səmimiliyi və Uinston Çörçilin geniş miqyaslı düşüncə tərzi məxsus idi. O, bu keyfiyyətləri özündə cəmləşdirərək onları gözə görünməyən, incə şərq müdrikliyi ilə birləşdirdi. Heydər Əliyevin qətiyyətliyi və konstruktivliyi Azərbaycanı parçalanmaqdan xilas etdi, islahatçılığı isə ölkəni böhrandan qurtarıb irəli addımlamağa imkan verdi. Onun geniş düşüncəsi "Əsrin kontraktı"nın imzalanmasına imkan verdi və bunların kökündə ancaq ona məxsus olan vətənpərvərlik və səmimiyyət dururdu.

Tarixə nəzər salsaq görürük ki, hər ölkənin tarixi Prezidentləri olub. Britaniyalılar Uinston Çörçili xatırlayaraq ona "Heykəldən uca olan" siyasətçi deyirlər. Amerika Birləşmiş Ştatlarında bu gün hər bir amerikalı ölkəsinin tarixinə nəzər salaraq dahi Prezident Franklin Ruzvelti xatırlayaraq onun səmimi sözlərini yada salırlar:

"Həmrəylik əsas amildir. Bununla biz, bir qorxudan başqa hər şeyə qalib gələ bilərik". Heydər Əliyev qorxudan çəkinmədi və ona qalib gəldi. O, ölkə vətəndaşlarına görünməyən güc gətirərək onlarda müstəqil Azərbaycanın gələcəyinə böyük inam yaratdı. Ölkədə stabillik yarandı, insanların çalışması üçün lazımı şərait yaradıldı, ölkəyə dünyanın tanınmış xadimləri ayaq basdı. Bunun kökündə dövlətçilik, Azərbaycan xalqının mədəniyyətinə olan məhəbbət və ehtiram, dərin siyasət və Heydər Əliyev siyasətində xüsusi yer tutan səmimilik dururdu.

Bu gün müxtəlif ölkələrin liderləri və dövlət xadimləri siyasətə səmimiyyəti gətirməyə cəhd edəndə, azərbaycanlılar dahi Prezident Heydər Əliyevi yada salırlar və onun unudulmaz sözlərini fəxrlə təkrar edirlər. **Mən azərbaycanlıyam və bununla fəxr edirəm.**

MİXAİL ZABELİN
Milli Məclisin deputatı,
YAP İdarə Heyətinin üzvü

ÖLKƏNİN MÜDAFİƏ QÜDRƏTİNİN MÖHKƏMLƏNMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

Bu 1993-cü ilin iyununda olmuşdur. Əhalinin müxtəlif zümrələrinin nümayəndələrinin xahişi ilə Bakıya gələn N.Əliyev krizisdən çıxış yollarını axtarmağa başladı. Gəncədə qan tökülür, Sürət Hüseynovun hərbi hissələri Bakıya tərəf gəlir, vətəndaş müharibəsi başlaya bilər. Heydər Əliyev hadisə yerinə getmək qərarına gəldi.

Qabaqcadan oralarda onu nə gözləyəcəyini bilmək çətin idi. Qarşı - qarşıya durmuş qüvvələrin toqquşması, siyasətçilərin ambisiyalı çəkişmələri, hakimiyyət iflası, ölkənin içərilərinə doğru hərəkət edən erməni qoşunlarının təhlükəsi, - bütün bunlar ziddiyyətlərin dolaşaq düyünlərini yaradırdı. Belə çətin şəraitdə heçnə onun şəxsi təhlükəsizliyini təmin etmirdi.

Ölkənin xilas olunmasını anlayan Heydər Əliyev Gəncəyə yola düşdü. Müşayiətsiz, müdafiəsiz getdi, yalnız jurnalistləri özü ilə dəvət etdi. Keçən illərdə olduğu kimi, bilavasitə döyüşçülərin və komandirlərin yanına getdi. Onu burada yaxşı tanıyırdılar, ona inanırdılar, ona ümid bəsləyirdilər.

15 gün qiyamçıları dilə tutdu: vətəndaş müharibəsi - Azərbaycanın məhvidir, hansı ki, Ermənistanın hərbi işğalını əks etdirir. İndi artıq təsəvvür etmək çətindir ki, Heydər Əliyev qiyamçıları necə şəxsi söhbətləri ilə inandıra bildi. Sürət Hüseynovla söhbətlərində, o, hansı dəlillər və sübutlarla inam yarada bildi, müsahibini necə etdi və ona təsir edə bildi - bəlli deyil. Ən başlıcası budur ki, vətəndaş müharibəsi dayandı.

Bütün yayı və payızın əvvəlini respublika daimi gərginliklə yaşardı. Qətllər və sui qəsdlər adi fona çevrildi. Rusiyanın və Türkiyənin xidmət orqanları inamla öz oyunlarını oynayırdılar. Hər şey yeni dövlət çevrilişinə axıb tökülürdü. Heydər Əliyevin yalnız bir şansı var idi - birbaşa xal-

qa müraciət etmək. Cəmi bir neçə saata mövqeyini əldən vermiş Hüseynov məğlubiyyətə düçar oldu. Məlum oldu ki, bu ana qədər H.Əliyev hiss olunmadan necəsə Hüseynov "korpusu" ilə başara bilən ordunu yığıb hazırladı. O, eyni zamanda, növbəti dəfə, Prezident sarayı qarşısında toplaşmış adamların etibarını qazana bildi. Bundan sonra silahlı hərəkətə keçmək mümkün oldu.

Bundan sonra isə Heydər Əliyevi yeni dövlət çevrilişi təhlükəsi gözləyirdi. Onunla birlikdə Kopenhaqendə Avropa sammitində iştirak edən Türkiyə prezidentindən öyrəndi ki, sabah, o evə qaydına zaman, nə baş verəcək. Dəmirəl ona xəbər verdi ki, qayıdarkən onun təyyarəsi vurulacaq. Dəmirəllə söhbətdən sonra Əliyev o saat Bakıya uçdu. Terroristlər onun belə tez qayıdacağını gözləmirdilər. Xüsusi təyinatlı polis dəstəsinin qiyamını bir neçə gün ərzində yatırtdılar.

Beləcə, addımbaaddım, igidlik, bacarıq və müdriklik göstərərək, N.Əliyev ölkəni fəlakətdən xilas etdi. Bu hələ yalnız başlanğıc idi. Qarşıda milləti birləşdirmək, idarəetməni nizama salmaq, xalqın mənəvi ruhunu yüksəltmək, ordu yaratmaq, ölkənin müstəqilliyini və dövlətçiliyi qorumaq lazım idi.

Bütün bu nəhəng işlər bir nəfər tərəfindən yerinə yetirilə bilərdimi? Öz gərgin əməyi ilə, vətən naminə, H.Əliyev sübut etdi ki, o, hər şeyə qadirdir. Azərbaycan üçün həlledici olan bu məsələləri yalnız o həll edə bilərdi. Və o, ona xas olan səy və gərginliklə bu işlərin həyata keçirilməsinə başladı.

Onun fəaliyyətinin əsas istiqaməti - cəbhəni möhkəmlətmək, ordunu gücləndirmək və əsgər və zabitlərin mənəvi ruhunu yüksəltmək idi. Heydər Əliyev səylə bu problemlərin həlli ilə məşğul olur, şəxsən briqadalar formalaşdırır, qoşunları təlimatlandırır, cəbhəyə, bilavasitə ön cəbhəyə gedirdi. Cəbhədə vəziyyətlə tanış olmaq vacib idi, qarşı qarşıya durmuş qüvvələrin güc balansını öyrənmək, Müdafiə nazirliyini möhkəmlətmək, döyüş qüdrəti olan hissələr yaratmaq, ordunu texniki cəhətdən təchiz etmək üçün imkanlar axtarmaq, kadrlar seçmək lazım idi.

Heydər Əliyev yenidən cəbhəyə qayıdır, döyüş gedən rayonlara gedir.

...Bu axşam Bakının dəmiryol vağzalı adamsız idi. Vaqzalətrafı meydanı zəif fanarlar işıqlandırırdı. Yollarda bir neçə sərnişin qatarı dayanmışdı. Mülki paltarda olan adamlar stansiyanın yerlərinə baxırdılar. Silahlı gözətçilər vaqzalyanı meydanı qoruyurdular. Heç kim bilmirdi ki, bu gecə Ali Baş Komandan, ölkənin Prezidenti cəbhəyə yola düşür.

Qatar ahəstə yola düşdü və gecənin qaranlığında bir dəqiqədən sonra gözdən itdi. Heydər Əliyev duyğulu idi. O, fikrini cəmləşdirirdi. Ali Baş Komandan təkərlərin ahəngdar taqqıltısı altında nə fikirləşirdi? Bu kecə onun beynində hansı qərarlar yetişirdi?

Bahar gəldi. Respublikanın cənub rayonlarında təbiət öz bahar paltarını erkən geyir, badam yetişir. Bir neçə rayonda əkinçilər artıq sahələrə çıxmışdılar.

Qarabağ müharibəsinin cəbhələrində qızğın döyüşlər gedir. Füzuli və Beyləqan istiqamətlərində qanlı döyüşlər gedir. Düşmən müdafiə xəttini yarmağa çalışır. Martın ilk günlərindən başlayaraq, erməni silahlı qüvvələri fəal hücuilar edirlər. Lakin, Azərbaycan Ordusunun silahlı qüvvələri öz müdafiə xəttlərində möhkəm durur, düşmənə bir metr də torpaq verilmir.

Murovdağ aşırımında da döyüşlər səngimir. Polkovnik Cəbrayılovun başçılığı altında olan briqadanın müvəffəqiyyətli əməliyyatları nəticəsində buradakı, düşmənin Gəncəyə tərəf hücuma keçmək üçün planlaşdırdığı "yanıq" bağlanmışdı.

Goranboy və Tərtər istiqamətlərində rəqib güclü qüvvələr toplayır, yeni hücumlara hazırlaşırdı. Qarabağ müharibəsi öz məhvərini səngitmir, özünə günü-gündən daha çox canlı və maddi xammal cəlb edirdi.

Hər iki tərəfdən itkilər artırdı. Hər gün müharibə evlərə yeni qara xəbərlər gətirirdi. Münaqişənin siyasi orbitinə yeni ölkələr və təşkilatlar cəlb edilir. Beynəlxalq ictimaiyyət Qafqaz ixtişaşının dayanması yollarını axtarır. Lakin, işğalçı və onu müdafiə edən qüvvələr atəşkəs üçün danışıqlar aparmaq istəmirlər.

Heydər Əliyev, xalqın əlindən Azərbaycan Respublikasının prezidenti mandatını alaraq, gərgin surətdə, birbaşa hərbi problemlərlə məşğul olmağa başladı. Müdrik və təcrübəli bir siyasətçi kimi, o, başa düşür ki, siyasi, iqtisadi, diplomatik və hərbi tədbirlərin kompleksi (toplusu) lazımdır ki, Qarabağ düyününü köklü surətdə məhv edəsən. Xalqın etibarına və dünyada böyük nüfuza malik olduğuna rəmən, o, qətiyyətlə və gərginliklə işləyir.

..."Hər halda bir qısa vaxtda ordunu yarada bildik" - düşünürdü baş komandan. - Və o, döyüş qabiliyyətlidir, həm də düşmənə ciddi müqavimət göstərir. Mənim cəbhəyə birinci gedişimdən sonra döyüşçülər və koman-

dırlər bir addım da geri çəkilməmiş, əmri yerinə yetirmişlər. Hələ gör Füzuli və Beyləqan istiqamətlərində neçə gərgin döyüşlər gedirdi! İndi ordu mənim olduğum yerlərdən 40 km irəli çəkilmişdir. O, hücum ilə Horadizi götürmüşdür. Biz təkcə o yox, başqa istiqamətlərdə də irəliləmişik. Bir tərəfdə - 40 kilometr, o biri tərəfdə isə - 30 5ilometr. Əgər birlikdə götürsək, onda bizim ordu 120 kilometr irəliləyib. Düşmən atəşkəsə riayət etmir. Və orada ona güclü zərbələr endirməkdən başqa bir şey qalmır.

Gəncə istiqamətində də çətin vəziyyət yaranıb. Amma orada da bizim tərəfimizdən tədbirlər görülüb. Aşırıma təcrübəli komandirlər və döyüş qabiliyyətli qoşunlar göndərilib. Onlar düşməni Murovdağdan keçməyə qoymazlar. Bu istiqamət bizim üçün strateji əhəmiyyətə malikdir. Gəncəni tutmaqla hədələyərək, bəzi qüvvələr məni Azərbaycana xəlvəl gətirə biləcək sənədləri imzalamağa sövq edirlər. Bu heç vaxt ola bilməz.

Başqa cürə ola da bilməzdi. Heydər Əliyev həmişə mənəvi prinsiplərə və ölkənin yüksək maraqlarına xidmət etmişdi. O, belə tərbiyə olunmuş və ailədə belə yönəm almışdı.

Səhər tezdən prezident cənub-qərbi bölgəyə gəldi. Dəmiryol vağzalında. İmişlidə, onu ətraf rayonların başçıları qarşıladılar. Vağzalyanı meydanda yüzlərlə adam toplaşmışdı. Sakinlər və qaçqınlar Heydər Əliyevi hərarətlə qarşıladılar. Burada müharibənin qurultusu eşidilmir, amma onun nəticələri hər yanda hiss olunurdu.

Prezident rayonun ərazisində qaçqınlar üçün tikilmiş çadır şəhərciyini ziyarət etdi. Onun sakinləri çəkdikləri əzablardan, müharibəni törədənlərdən danışdılar və onları lənətlədilər.

Artıq bir neçə ildir ki, insanlar çadır şəhərciklərində yaşayırlar. Tezliklə bir nəsl əmələ gələcəkdir. Bunlar Qarabağ münaqişəsinin qurbanlarıdırlar. Həm də bir böyük sayda qaçqınlar. Onların çəkdikləri əzablara cavab verən olacağmı? Milyondan çox adam öz doğma yurdlarına qayıtmaq, iş tapmaq, təsərrüfatla məşğul olmaq istəyir.

Respublika üçün çətindir. Xammal çatışmır. Müharibə maddi sərflər tələb edir. Prezident üçün insanların dərdlərini görmək çətindir. Onlara nə cavab versin, əzab çəkən insanlara necə kömək etsin?

Çadır şəhərciklərindəki yaşayışla tanış olub, insanları sakit edib, başçılara tapşırıqlar verən Heydər Əliyev, əvvəlcə Füzuli, sonra da Beyləqan rayonlarına yola düşdü. Orada müharibənin nəfəsi kəskin hiss olunurdu:

hər tərəfdə dağıdılmış kəndlər, baxımsız qalmış çöllər, yığılmamış üzüm məhsulları. Bununla yanaşı azad olunmuş kəndlərə, öz doğma yurdlarına sakinlər qayıdır.

Füzuli rayonunda o, 1993-cü ilin dekabr ayında oldu. O zaman burada səngərlər var idi, cəbhə xətti buradan keçirdi. İndi bura bizim qoşunların arxa cəbhəsidir. Keçən dövr ərzində rəqibə ciddi zərbə endirilmiş, və o, on kilometrlərlə geri oturulmuşdur.

Ali Baş Komandan yüksək hərbi komandanlığın iştirakı ilə komandaşlab məşqi keçirdi, ordu quruculuğu məsələlərini, müdafiə tədbirləri təşkilatının problemlərini müzakirə etdi. O, cəbhənin ən yanar nöqtələrində oldu, ön cəbhədə əsgərlərin hərbi hazırlığı ilə tanış oldu.

Cəbhədə çətinliklər az deyil. Soyuq, məişət avadanlıqlarının çatışmamazlığı, hərbi sursatın çatışmaması. Ən əsası isə - ölmək təhlükəsi. Bu təhlükə ön cəbhədə olan hər kəsin başının üstünü kəsdirib. Beləcə, günügündən, aydan aya, ildən ilə davam edir. Bəziləri bir müddət vuruşur, heç bir ara almır, digərləri elə ilk gündən həlak olurdu. Bu da bir qismətdir.

Səfərin sıx qrafikinə baxmayaraq, Prezident, ön cəbhədə, bir çox hissələrdə oldu. Səngərlərin birində, o, Xocalı rayonunun Kuropatkin kəndində anadan olmuş pulemyotçu Adil Vəkilova, cavan əsgərlə söhbət etdi. Adil düşmənlə qəhrəmancasına vuruşurdu. Prezident xatirə olaraq ona qol saatı bağışladı.

Ali Baş Komandanın gəlişi cəbhədə iti surətlə bütün hissələrə yayıldı. Əsgər teleqrafı dəqiq işləyir. Hər bir döyüşçü Heydər Əliyevi görməyi arzu edirdi. Ön cəbhədə xalq prezidentini görmək hər bir döyüşçü üçün həqiqi xoşbəxtlik idi.

Cəbhə xətti üzrə on kilometrlərlə keçən Prezident, Bərdəyə gəldi. İcra hakimiyyətinin binasının qarşısında onu rayon başçıları, birləşmə komandirləri, polis rəisləri, hərbi komissarlar, prokurorlar gözləyirdi.

Ali Baş Komandan vəziyyətlə tanış oldu, birləşmə komandirləri ilə söhbət etdi. Onu ən çox Gəncənin taleyi narahat edirdi. Məruzə üçün Heydər Əliyev briqada komandiri podpolkovnik Cəbrayılovu dəvət etdi.

- Özünüz haqqında danışın, - deyə o, briqada komandirindən xahiş etdi.

- 1958-ci ildə hərbçi ailəsində anadan olmuşam. 1979-cu ildə ümumhərbi məktəbini bitirərək vzvod komandiri vəzifəsində sovet ordusu qoşunlarının tərkibində Almaniyaya hərbi xidmətə yola salınmışam.

- Sizin Almaniyadakı hərbi xidmətiniz necə keçib?

- Mən yaxşı hərbi hazırlıq və ciddi komandirlik məktəbi keçmişəm. Biz sizə münnətdarlıq ki, siz bizi, Azərbaycan zabitlərini hərbi birləşmələrə xidmət etməyə göndərmisiniz.

- Deməli, o zaman biz düzgün qərar qəbul etmişdik, - dedi Heydər Əliyev. Mən o vaxt Moskva məmurları ilə möhkəm vuruşmalı oldum.

Bir azca fasilə verəndən sonra Heydər Əliyev soruşdu:

- Söyləyən, düşmən geniş hücuma keçsə, siz Gəncəni qoruya bilərsinizmi?

- Yoldaş general, Gəncənin müdafiəsi təmin olunub. Düşmən oranı ala bilməz. Biz buna yol vermərik, - deyə Cəbrayılov qətiyyətlə cavab verdi.

- Nə. Bax görürsünüzmü? Bu yüksəklikdən biz düşməni atəşə tuturuq. Amma düşməndə daha iki əsas yüksəklik var. Ömər və Güzgü. Biz onlara həmlə etməyi planlaşdırırıq.

- Onların hündürlüyü nə qədərdir? - soruşdu baş komandan.

- Üç min metrdən çoxdur, - deyə briqada komandiri cavab verdi.

- Briqadanın müdafiəsi necə təşkil olunub?

- Bütün cəbhə hissələri boyu dərin eşelonlaşdırılmış müdafiələr yaradılmışdır.

- Deməli, Gəncə bizim sahədə etibarlı müdafiədədir?

- Elədir ki var, - dedi Cəbrayılov.

- Yaxşı. Düşmənə aman verməyin və müdafiəni zəiflətməyin.

Briqada komandiri Ali baş komandanın hərbi biliklərinə məətəl qaldı. O, briqadanın fikirlərini düqqətlə izləyir, batalyon və rotaların düzülüşü ilə maraqlanır, dağlarda bölmələrin hərəkət taktikasını öyrənir, briqadanın komanda tərkibi ilə tanış olurdu.

Bölmələrdə mənəvi yüksəliş hökm sürürdü. Bu amildən istifadə etmək lazım idi, belə ki, hücum dəstələri Ömər təpəsinə (yüksəkliyinə) hazırlığı qurtarırdılar. Əməliyyat gecəylə başlandı. Mərkəzdən və şimaldan hücum edən qruplar gündüz artıq yaxın döyüşlərə girmişdilər. Düşmən geri çəkilməyə başladı. Babakişiyevin qrupu, təpə ilə bir neçə kilometr gedərək, yüksəkliyə qalxdı.

...Gecənın bir yarısı növbətçi briqada komandirini oyatdı.

- Yoldaş komandir, ölkə Prezidenti xətdədir.

- Vəziyyəti danışın, - deyə Heydər Əliyev xahiş etdi.

- Murovdağ aşırımını azad etmək üçündöyüşürük. Dünən həmləylə Ömər yüksəkliyini aldıq.

- Aldınız? - Ali Baş Komandan yenidən soruşdu.

- Elədir ki, var, - deyə briqada komandiri təsdiq etdi.

- Bəs Güzgü?

- Hələ yox. Bu yüksəklik növbədədir.

- Bəs siz niyə özünüzü təqdim etmirsiniz? - soruşdu prezident.

- Bağışlayın Heydər Əliyeviç, axı mən bilmirəm, hansı işlə bağlı mən təqdim olunmalıyam?

- Sizə "polkovnik" rütbəsinin verilməsi münasibətilə.

- Təşəkkür edirəm. Mənim üçün, bir zabit kimi, bunu sizin dilinizdən eşitmək çox böyük bir şərəfdir. Sizin etimadınızı doğrultmaq üçün əlimdən gələni edəcəyəm.

- Tabeliyinizdə olanları qoruyun və onların qayğısına qalın, - deyə Heydər Əliyev sözünün sonunda dilləndi.

Ali Baş Komandan olmaqla, Heydər Əliyev həmişə əlini müharibənin nəbzində tutmuşdu. O, düşmənlə üz-üzə duran hərbi birləşmələrin nömrələrini əzbər bilir, onların yerləşməsi və döyüş taktikasını öyrənir, dıqqətlə cəbhədə olan ən kiçik dəyişiklikləri izləyirdi.

Prezidentin briqadaya zəngi həm də başqa bir əsas rol oynayırdı. O, komandir və döyüşçüləri döyüş işlərinə həvəsləndirir, qoşunların mənəvi ruhunu yüksəldirdi. Əsgərlər və zabitlər öz Prezidentlərinə hədsiz dərəcədə inanırdılar. Həyat sübut etdi ki, bu belədir. Onun cəbhəyə birinci səfərindən sonra, 1993-cü ildə Azərbaycan Ordusu tutduğu mövqelərdən geri çəkilmədi. Əksinə, düşmənin tutduğu ərazilərdən bir hissəsi azad edildi.

Milli ordunun dirçəlməsi, onun hissələrinin döyüş bacarığının artması - 1993-cü ilin sonunda, 1994-cü ilin əvvəlində bir sıra hərbi əməliyyatların həyata keçirilməsinə imkan verdi.

Ermənilərə məlum oldu ki, qələbə marşları və yüngül qələbələr artıq olmayacaq. Müharibə artıq daralırdı. İnsanlar məhv olur. Maddi nemətlər tükənir.

Ən əsası - Azərbaycanda artıq hakimiyyətsizlik yoxdur, özgə torpaqlarını tutmaq üçün düşmənin istifadə etdiyi dərəbəylik və səndələmə yoxdur. İndi hakimiyyət başında müdrik, qətiyyətli və möhkəm siyasətçi olan Heydər Əliyev var. O, təxribatlara yol verməz, geri çəkilməz və xalqını

atmaz. O, xalqı birləşdirməyi və ruhlandırmağı bacarar. O, düşünür ki, bu lazımsız müharibəni necə dayandırsın. Sülh danışıqlarına gedəkmi? Amma sülh təklifi artıq bir neçə dəfə elan olunmuşdur, lakin bundan sonra düşmənin daha böyük hücumu başlanmışdı. Hər necə olsa, sülh müvəqqəti olacaqdır, çünki bizim ərazilərimizin bir hissəsi düşmən tərəfindən tutulmuşdur. Azərbaycan heç vaxt öz torpaqlarını düşmənə verməyə razı olmaz. Nə qədər ki, bu torpaqlar qaytarılmayıb, bölgədə möhkəm sülh ola bilməz.

Amma, hər hansı bir müharibə gec-tez sülh ilə nəticələnir. Müdrik siyasətçi bunu başa düşür. Toplar susandan sonra, həqiqət üzə çıxacaqdır. Prezident bax bunu düşünür. Xalq bunu arzu edir. O xalq ki, sevməyi, əzab çəkməyi, dözməyi və xeyirxah olmağı bacarır. O, öz düşmənlərinə kin saxlamır. Yer üzündə həyatın, uşaqların, qocaların, güllələr altında ölənlərin və dəhşətli faciələr görmüşlərin xatirəsinə l, əzabkeşlərlə barışmağa belə hazırdır.

1994-cü ilin may ayında atəşkəs imzalandı və artıq neçə ildir ki, davam edir. Müharibə dayanıb.

Minlərlə cavanın həyatı qorunub, saxlanılıb. Buna görə atalar, analar və uşaqlar bizim generala - Heydər Əliyevə sağ ol deyirlər.

O, təkcə ümummilli lider deyil, həm də dahi humanist, ümumbəşəri dəyərlər uğrunda mübariz idi. Hakimiyyətə qayıtdığı ilk günlərdən heyrətamiz uzaqgörənliklə dövlətin müdafiə qüdrətli silahlı qüvvələrinin təşkil olunmasının vacibliyini hiss etmiş, onun inkişafının ən doğru mexanizmini təyin etmişdi. Gəlin yada salaq, cəmi on il bundan öncə ölkənin Silahlı Qüvvələrinin yaradılması nə qədər səy tələb edirdi. Bu fövqəladə çətin iqtisadi şəraitdə və bundan asan olmayan daxili siyasi şəraitdə olmalıydı.

SQ-in idarə orqanı kimi yaradılmış Müdafiş Nazirliyi faktiki olaraq normal işləyirdi. Müxtəlif silahlı birləşmələr və digər yaranmalar əslində ona tabe olmurdular, onlar bəzi siyasi qurumların və hətta ayrı-ayrı adamların mənafeyinə xidmət edirdilər. Kasıb dövlət büdcəsindən müdafiəyə ayrılan vəsait həmişə öz təyinatı üzrə deyil, bəzən gizli məqsədlərlə istifadə olunurdu. Dövlət xəzinəsi faktiki olaraq boş idi...

Bu düzgünlükləri aradan qaldırmaq və cavan müstəqil Respublikanı xilas etmək üçün ən şərt hərəkətlər və fövqəladə tədbirlər həyata keçirmək lazım idi. Elə bu vaxtda, və xüsusən bu gün, on il keçəndən sonra,

aydın oldu ki, heç kim, Heydər Əliyevdən başqa xalqı və dövləti bu çətin və demək olar ki, çıxılmaz vəziyyətdən xilas edə bilməz. Ali Baş Komandanın gördüyü tədbirlər nəticəsində 1993-1994-cü illər ərzində SQ-ın quruculuğunda köklü dəyişikliklər baş verdi. Vahid komanda rəhbərliyi və orduya vahid rəhbərlik prinsiplərində birgəlik təmin edildi, intizam və qayda-qanun yarandı, vahid təhsil metodları və şəxsi heyətin tərbiyəsi təmin olundu, idarəetmənin əsas orqanı kimi ştablar yaradıldı və möhkəmləndirildi, hərbi doktrinanın ölkənin müdafiəsi və onun təhlükəsizliyi üzrə müasir gerçəkliklərə cavab verən əsas istiqamətləri işlənib hazırlandı.

Hərbi quruculuğun ən əsas vəzifəsini Heydər Əliyev hazırlıq, seçim və hərbi kadrların yerləşdirilməsində görürdü, o, başa düşürdü ki, məhz bunlar ölkənin müdafiə qüdrətində dövlətin həlledici qüvvəsini təşkil edir.

Heydər Əliyevin təşəbbüsü ilə indiyə qədər görünməmiş miqyasda milli hərbi kadrların hazırlanması başlandı ki, bunun da digər ittifaq respublikalarında analoqu yox idi. Sanki uzaq perspektivi görərək, bizim liderimiz, Azərbaycanda ilk dəfə olaraq, Moskvanın qarşıdurmasına baxmayaraq, C.Naxçıvanski adına xüsusiləşdirilmiş internat-məktəbi təşkil etdi. Onun öz şəxsi ifadəsinə görə, 1971-ci ildə bu hərbi litseyin yaradılması Azərbaycanın gələcəyinə yönəlmişdir. İlk dəfə olaraq, Azərbaycandan hər il yüzlərcə abiturient Silahlı Qüvvələrin demək olar ki, bütün növləri və təyinatlı üzrə imtahansız, elə buradaca hərbi məktəblərə daxil olurdu.

Azərbaycan millətindən olan hərbi qulluqçulardan respublika ərazisində fəaliyyət göstərən hərbi hissələrə və birləşmələrə rəhbər vəzifələrə irəli sürülmək üzrə fəal və zərif işlər aparılırdı. Nümunə kimi, Mərkəzin etibar etməməsi və özünü sığorta etməsi nəticəsində, keçən əsrin 60-cı illərində Azərbaycan ərazisindəki sərhəd qoşunlarında rəhbər vəzifələrdə təkcə bir böyük zabit var idi. Heydər Əliyevin rəhbərlik etdiyi 10 il ərzində zastava komandiri, sərhəd qoşunları komendantları, hətta ayrıca hissələrin komandirləri, dəstə komandirlərinin müavinləri vəzifələrində onlara azərbaycanlı, böyük zabit, o cümlədən polkovnik hərbi rütbəsində zabitlər meydana çıxdı.

Bununla yanaşı, hakimiyyətə gəldiyi vaxta yaxın Silahlı Qüvvələrdə milli kadrlar kəskin surətdə çatışmırdı. Bu problemin həll olunmasında həlledici rolu, bizim lider, ölkədə hərbi elmin müasir tələblərinə cavab verən hərbi təhsil sisteminin səhin qurulmasında görürdü.

Bu gün, Azərbaycanda Hərbi - Hava Qüvvələri Akademiyası, Milli Təhlükəsizlik Nazirliyinin akademiyası, bir neçə hərbi məktəb müvəffəqiyyətlə fəaliyyət göstərir. Onlar ən müasir hərbi texnika və avadanlıqlarla təchiz olunmuşlar. Onları tam əsasla Heydər Əliyevin övladları hesab etmək olar. Bundan əlavə, hərbi kadrların hazırlanması sisteminə bizim zabitlərin bir sıra inkişaf etmiş ölkələrin ali hərbi-təhsil ocaqlarında təhsili də daxildir.

Heydər Əliyev özünə məxsus müdriklik və qətiyyətlə Silahlı Qüvvələrin mənəvi-psixoloji hazırlığının artırılması, şəxsi heyətin ruh yüksəkliyi uğrunda mübarizə aparırdı. O göstərirdi ki, Azərbaycan əskərləri və zabitləri daima vətənə öz dövlətinə sədaqət hissilə yaşamalıdırlar. Tez-tez səngərlərdə, ön cəbhədə və poliqonlarda hərbi hissələrə, sərhədyanı yerlərdə hərbçilərlə ruhlandırırdı.

Qardaş Türkiyə ilə artan hərtərəfli hərbi həmkarlıq xüsusi əhəmiyyət kəsb edirdi. Hərbi qulluqçuların hərbi təlimlərdə iştirakı, iki ölkə müdafiə idarələri rəhbərlərinin qarşılıqlı görüşləri, birgə məşqlər, hərbi əməkdaşlığın gələcək inkişafına xidmət edirdi.

Azərbaycan Silahlı Qüvvələrinə verilən yüksək beynəlxalq qiymət barədə Azərbaycan qoşun hissələrinin Kosovo, Əfqanıstan və İrakda sülh missiyalarını həyata keçirmələri sübutdur.

İllər keçir, işğalçı isə hələ də tutduğu torpaqları azad etmir. Doğma torpaq ağlayır, kömək diləyir, xalq isə sakit yaşamaq imkanından məhrumdur. Onun sülhsevərliyi, kompromisə can atması arzu olunan nəticəni vermir. Bu sülhsevərliyin də ehtiyatı günü-gündən azalır, həyat qüvvəsi verən bir bulaq kimi quruyur.

Qədim Azərbaycanın səxavətli torpağı, dahi şairlərin, musiqiçilərin, rəssamların vətəni öz xilaskarını gözləyir. O, dünyaya uzunömürlülər və müdriklər bəxş etmişdir. Lakın, onu incidəndə, onun şərəfini əldə silah qorumaq üçün müharibələr əmələ gəlir. Keçmişdə də belə olmuşdur, indi də belə olacaqdır. Buna sübut Heydər Əliyevin yaratdığı Azərbaycan Silahlı Qüvvələridir.

FUAD ƏLƏSGƏROV
Prezidentin İcra Aparatının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASI GƏLƏCƏYƏ ÜNVANLANMIŞ PROQRAMDIR

Hər bir dövlət müxtəlif tarixi inkişaf mərhələlərində özünün keçmişi, bu günü və gələcəyi ilə şərtlənən həyati əhəmiyyət kəsb edən bir sıra məsələlərlə üzləşir və onların həlli üçün ən optimal yolu müəyyən etmək seçimi qarşısında qalır. Bu zaman cəmiyyətin yetkinliyi milli maraqların düzgün dərk edilməsi və bu milli maraqlara cavab verən ən məqbul inkişaf yolunun seçilməsində özünü göstərir. Tarixə müraciət etsək, görərik ki, bütün dövrlərdə milli maraqların düzgün müəyyən edilməsində və onlara dönmədən riayət edilməsində dövlət başçısının şəxsiyyəti böyük rol oynayır. Müasir Azərbaycan dövlətçiliyinin əsaslarını qoymuş milli öndərimiz Heydər Əliyev öz dühası ilə qarşıdakı bir çox onilliklər üçün millətimizin və dövlətimizin hərtərəfli inkişaf və milli təhlükəsizliyinin təmin olunması istiqamətlərini müəyyən etmişdir. Məhz ümummilli liderimizin uzaqgörən diplomatiyası, uğurlu daxili və xarici siyasəti sayəsində ölkədə siyasi sabitliyin bərqərar edilməsi dövlətin dayaqlarının möhkəmləndirilməsinə, həyatın bütün sahələrini bürümüş tənəzzülün qarşısının alınmasına, ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsinə, iqtisadiyatın sağlamlaşdırılmasına – bir sözlə dövlətin daxili və xarici təhlükəsizliyinin təmin edilməsinə gətirib çıxardı.

Azərbaycanın milli maraqlarının hərtərəfli təmini hər zaman ümummilli liderimizin fəaliyyət prioriteti olmuşdur. SSRİ dövründə də, ölkəmiz müstəqilliyini əldə etdikdən sonra bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üzləşdiyi ağır illərdə də, dövlət quruculuğunun əsasları qoyulduqdan sonra onun təməllərinin möhkəmləndirilməsi mərhələsində də ölkəsinin və xalqının milli maraqlarının qorunmasını düşünmüş və onun milli təhlükəsizlik strategiyasını müəyyən etmişdir. Dahi siyasət

nəhəngi olan Heydər Əliyev bütün həyatını yalnız Azərbaycan xalqına xidmətə və onun maraqlarının qorunmasına həsr etmişdir. Heydər Əliyev Azərbaycan xalqının tarixi nailiyyəti olan dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsini öz həyatının başlıca məqsədi elan edir və bu tarixi məsuliyyəti öz üzərinə götürdüyünü dəfələrlə bildirir. Azərbaycan dövlətinin müstəqilliyinin dönməz və əbədi olduğunu çıxışlarında daima vurğulayan ümummilli liderimiz bu müstəqilliyi möhkəmləndirməyi və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövlətini çatdırmağı indiki nəslin qarşısında duran başlıca vəzifə kimi müəyyən edir.

Böyük və şərəfli dövlət idarəçiliyi yolu keçmiş ümummilli liderimiz Heydər Əliyev hər zaman ölkəmizin geostrateji mövqeyinin verdiyi bütün üstünlüklərdən maksimum istifadə etməklə sözün əsl mənasında müstəqil Azərbaycan dövlətinin qurulmasına nail ola bilmişdir. Məhz onun müdrik siyasəti, müxtəlif çətin vəziyyətlərdən məharətlə çıxma və hər bir imkandan ölkəsinin, xalqının mənafeyi üçün istifadə etmə, müxtəlif siyasi qütblər arasında çevik manevr etmə qabiliyyəti sayəsində dünyanın iri güc sahibləri ilə tarazlaşdırılmış münasibətlər qurmaq mümkün olmuşdur.

Milli təhlükəsizlik sahəsində ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın milli maraqlarının təmin olunması istiqamətində formalaşdırdığı siyasi kursu konseptual baxımdan gələcəyə ünvanlanmış proqram kimi qiymətləndirmək olar. Hazırda bu kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Belə ki, təməli məhz ümummilli liderimiz tərəfindən qoyulan prinsiplər əsasında 2004-cü il iyunun 29-da «Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olunur. Milli təhlükəsizliyin əsasını Azərbaycan vətəndaşlarının marağı, onların maraqlarından doğan cəmiyyətin maraqları və bütövlükdə dövlətimizin maraqları təşkil edir. Dövlət isə vətəndaş, cəmiyyət və dövlətin inkişafının təmin edilməsi vasitəsi kimi çıxış edir.

Qanunda *«milli təhlükəsizlik - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsi»* kimi müəyyən olunur. İnsan, cəmiyyət və dövlətin təhlükəsizliyi bir-biri ilə sıx surətdə bağlıdır. Həmin qanunda təhlükəsizliyin üç səviyyəsi müəyyən olunur. *İnsanın təhlükəsizliyi, cəmiyyətin təhlükəsizliyi, dövlətin təhlükəsizliyi* – bu üç element milli təhlükəsizliyin daxili aspektini təşkil edir. Öz növbəsində *daxili təhlükəsizlik* ölkədə siyasi, iqtisadi və sosial sabitliyin, cəmiyyətdə vətəndaş həmrəyliyinin qorunması üçün müvafiq şəraitin yaradılmasını əhatə edir.

Milli təhlükəsizliyin xarici aspekti isə Azərbaycanın milli maraqlarının həyata keçirilməsi məqsədilə fəal xarici siyasi və iqtisadi fəaliyyətin təmin olunmasını nəzərdə tutur. Başqa sözlə, *xarici təhlükəsizlik* ölkəmizin həyati əhəmiyyətli mənafelərinin kənardan mümkün risk, təhlükə və təhdidlərdən qorunması üçün siyasi-diplomatik və ya hərbi, yaxud eyni zamanda həm diplomatik, həm də hərbi tədbirlər kompleksinin həyata keçirilməsini əhatə edir.

Fəaliyyət müddətinə görə daimi və müvəqqəti və ya uzun müddətli və qısa müddətli maraqlar fərqləndirilir. Onlar təmin olunduqca başqaları ilə əvəz edilə bilərlər. Milli maraqlar bir çox faktorların – daxili və xarici, siyasi, iqtisadi, təbii, ekoloji və texnogen faktorların təsiri altında formalaşır. Sonuncular da öz növbəsində zaman, məkan, mühit və inkişaf səviyyəsinin təsiri altındadır.

Hər hansı bir dövlətin milli təhlükəsizlik konsepsiyası işlənib hazırlanarkən milli maraqların formalaşmasına təsir göstərən bütün faktorlar nəzərə alınır. Məsələn, superdövlətlərlə, iri, regional dövlətlərin milli maraqlarının müəyyən edilməsi meyarlarını, onların təmin olunması vasitələrinə yanaşmanı eyniləşdirmək olmaz. Belə ki, superdövlətlərin, iri dövlətlərin milli maraqları məkan baxımından qlobal xarakter daşıyır, digər dövlətlər isə milli maraqları kontekstində onlarla regional, strateji əməkdaşlıq edirlər.

Azərbaycanın milli maraqlarının formalaşmasına təbii, coğrafi faktorların spesifik təsirini görmək çətin deyil. Belə ki, ölkəmiz geostrateji mövqeyinin verdiyi üstünlüklərdən istifadə etməklə yanaşı, həm də onun doğurduğu bir sıra təhlükələrlə üzləşir. Təbiət faktoru ölkəmizi enerji və sair təbii ehtiyatlar baxımından regionun ən zəngin dövlətinə çevirir. Özü-özlüyündə zəngin enerji ehtiyatlarına malik olan dövlətlərə müəyyən problemlər də yaradır. Bu onların digər dövlətlərin diqqət mərkəzində olması və daim təsir dairələri uğrunda mübarizə predmetinə çevrilməsi ilə izah olunur. Yalnız təbii ehtiyatlardan düzgün istifadə olunması belə təhlükənin qarşısını ala bilər. Bu baxımdan ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş və hazırda Prezident İlham

Əliyev tərəfindən davam etdirilən neft strategiyası həmin təhdidlərin qabaqlanmasına, neftdən gələn gəlirlərin ölkənin iqtisadi inkişafına və xalqın sosial rifahının təmin olunmasına yönəlib. Digər tərəfdən uğurla həyata keçirilən neft strategiyasının əsas məqsədi Azərbaycanı regionun liderinə çevirmək və dünya birliyində özünə layiqli yer tutmasını təmin etməkdir. Bu isə region dövlətlərinin hər bir addımını adekvat qiymətləndirməyi və tarazlığı, strateji tərəfdaşlığı qoruyub saxlamağı şərtləndirir.

Həyati maraqlar baxımından digər təsiredici faktor Dağlıq Qarabağ probleminin mövcudluğudur. Ölkə ərazisinin 20%-nin Ermənistan tərəfindən işğal olunması faktoru ərazi bütövlüyünün bərpa edilməsini daxili və xarici siyasətin prioritet xətti kimi müəyyən olunmasını zəruri edir. Başqa sözlə, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipləri ilə bağlı olan milli maraqlar həyati maraqlardır və əslində dövlətin xarici siyasət fəaliyyətinin başlıca faktoru kimi çıxış edir. Bir qayda olaraq həyati maraqlar daimi xarakter daşıyır. Milli maraqların başlıca komponenti isə məhz dövlətin özünü qorumasıdır.

Milli təhlükəsizlik konsepsiyasının formalaşmasına təsir göstərən faktorlar əslində ölkəmizin milli maraqlarının dairəsini, milli təhlükəsizlik siyasətini, onun strategiya və taktikasını formalaşdırır, milli təhlükəsizlik konsepsiyasının qəbulunu, onun normativ hüquqi bazasının müəyyən olunmasını şərtləndirir.

Bu baxımdan Azərbaycan Respublikasının müstəqil, suveren, demokratik dövlət kimi inkişafı naminə milli təhlükəsizlik siyasətinin hüquqi əsaslarının möhkəmləndirilməsinə yönəlmiş tədbirlərə son dövrdə xüsusi diqqət yetirilmişdir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə göndərilmiş «Milli təhlükəsizlik haqqında» və «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. «Milli təhlükəsizlik haqqında» Qanunda ilk dəfə olaraq ölkəmizin milli təhlükəsizliyinin, milli təhlükəsizliyinə təhdidlərin və milli maraqların anlayışları verilmiş, milli təhlükəsizliyin obyektləri və subyektləri göstərilmişdir.

Ölkəmizin həyati maraqlarının ümumi istiqamətləri Azərbaycan Respublikasının Konstitusiyasının preambulasında öz əksini tapmışdır: *«Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq; Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;*

vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq; xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq; ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək; ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək».

Ümummilli liderimiz Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra milli təhlükəsizlik sahəsində formalaşdırdığı aparıcı istiqamətlər, eləcə də Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin proqram xarakterli çıxışları, ilk növbədə isə onun dövlət başçısı vəzifəsində fəaliyyətə başlaması münasibətilə andıçmə mərasimində söylədiyi nitqi həmin konsepsiyanın ümumi prinsiplərini müəyyən edir. Bunlar *daxili və xarici siyasətdə varislik, beynəlxalq hüquq prinsipləri əsasında ölkənin ərazi bütövlüyünün təmin olunması, ölkə daxilində və beynəlxalq münasibətlərdə sülh və sabitliyə nail olunması, müdafiə sisteminin gücləndirilməsi və beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiya, subregional, regional və qlobal səviyyədə iqtisadi əməkdaşlıq, ölkə daxilində iqtisadi inkişaf üçün əlverişli şəraitin yaradılması və sosial rifaha nail olunması* prinsipləridir.

Həmin prinsiplər əsasında 2004-cü ildə qəbul olunmuş «Milli təhlükəsizlik haqqında» Qanun bu sahədə bir çox məsələlərə aydınlıq gətirir və gələcək milli təhlükəsizlik konsepsiyasının hüquqi əsaslarını yaradır, daha konkret istiqamətlərini müəyyən edir. Qanunda milli maraqlar *«Azərbaycan xalqının fundamental dəyər və məqsədlərinin, habelə insanın, cəmiyyətin və dövlətin inkişaf və tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusu»* kimi göstərilir.

Buradan belə nəticəyə gəlmək olar ki, təhlükəsizlik anlamı son dövrlərdə özünə yeni komponentlər daxil etmişdir. O, artıq ənənəvi hərbi təhlükəsizlik konsepsiyası ilə məhdudlaşmır. Sosial fəaliyyətin rəngarəngliyinə görə həmin maraqlar bütün sahələrdə - siyasi, iqtisadi, sosial, hərbi, texnoloji, informasiya və sair sahələrdə öz əksini tapır. Hazırda təhlükəsizlik sahəsində siyasət dövlət tərəfindən həyata keçirilən çoxsaylı funksiyaların uzlaşdırılmasını və inteqrasiyasını tələb edir. Buna müvafiq olaraq «Milli təhlükəsizlik haqqında» Qanunda da siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, elm, mədəniyyət və mənəviyyat sahələri fərqləndirilmiş və hər bir sahəyə aid əsas milli maraqlar müəyyən olunmuşdur.

Qanuna görə Azərbaycan Respublikasının *siyasi sahədə* əsas milli maraqlarına dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü; konstitusiya quruluşunun qorunması, demokratik, hüquqi, dünyəvi dövlətin mövcudluğu; Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması; vətəndaş cəmiyyətinin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması; ictimai-siyasi sabitliyin təmin edilməsi; dünya azərbaycanlılarının həmrəyliyi; xaricdə yaşayan həmvətənlərimizin hüquqlarının müdafiəsi; Azərbaycanın dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşaması, bərabər tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişafı, Avropa və dünya birliyinə inteqrasiya; beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzunun artırılması aid edilmişdir.

Azərbaycan Respublikasının *iqtisadi sahədə* əsas milli maraqları iqtisadi potensialın artırılması; bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi; iqtisadi sabitliyin təmin olunması; iqtisadiyyatın inkişafı üçün daxili və xarici investisiyalardan ötrü əlverişli şəraitin yaradılması; təbii və maddi sərvətlərin qorunması və səmərəli istifadə edilməsi; regional və dünya bazarlarının formalaşdırılmasında və fəaliyyət göstərməsində azad və bərabər hüquqlu iştirakın təmin edilməsidir.

Ölkəmizin *sosial sahədə* əsas milli maraqları Azərbaycan xalqının genofondunun qorunması, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi məqsədilə səhiyyə və sosial müdafiə sisteminin səmərəli fəaliyyət göstərməsidir.

Qanuna görə Azərbaycan Respublikasının *hərbi sahədə* əsas milli maraqları – dövlətin müdafiə qüdrətinin, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin komplektləşdirilməsinin, döyüşə və səfərbərliyə hazırlığının, hərbi-texniki təchizatının təmin edilməsidir.

İnformasiya sahəsində Azərbaycanın əsas milli maraqlarına məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsi; informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi; informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi; dünya rabitə və informasiya sisteminə daxil olma aid edilmişdir.

Qanunda göstərilmişdir ki, Azərbaycan Respublikasının *ekoloji sahədə* əsas milli maraqları - cəmiyyətin yaşayışı üçün təhlükəsiz ekoloji və texnoloji şəraitin yaradılmasıdır.

Nəhayət, qanunda Azərbaycan Respublikasının *humanitar* (elm, mədəniyyət və mənəviyyat) sahədə də əsas milli maraqları müəyyən edilmişdir. Bunlar Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması və ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi, elmi potensialdan səmərəli istifadə olunması və onun artırılmasıdır.

Milli maraqların qanunda sadalanması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, milli maraqlar milli təhlükəsizliyin təmin edilməsi siyasətinin və strategiyasının bünövrəsini təşkil edir. Məhz onlar dövlətin daxili və xarici siyasətinin məqsədlərini müəyyən edir.

Müasir dünyamız üçün maraqların münaqişəsi xarakterikdir və bu münaqişənin doğurduğu təhdidləri aradan qaldırmaq üçün maraqları balanslaşdırmağa ehtiyac vardır.

Maraqların xarakterindən asılı olaraq həmin təhdidləri təsnifləşdirmək olar. Məsələn, milli təhlükəsizliyə təhdidlər xarici və daxili, real və potensial, qlobal və regional, bilavasitə (birbaşa) və bilvasitə (yanaqı) təhdidlərə bölünür.

Azərbaycan qanunvericiliyi milli təhlükəsizliyə təhdidlər deyəndə milli maraqların həyata keçirilməsinə mane olan və ya onlara təhlükə yaradan şərait, proses və amilləri nəzərdə tutur. Bu təhdidlər mümkünlüyündən asılı olaraq potensial və real, mənbədən asılı olaraq xarici və daxili təhdidlərə bölünür. Milli təhlükəsizliyə təhdidlər sosial fəaliyyət sferasından asılı olaraq siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekologiya, elm, mədəniyyət və mənəviyyat sahələrində təzahür edir.

Xarakterinə görə təhdidlər fərqlənməklə müxtəlif əhəmiyyətli nəticələrə səbəb olur. Onlar artıb-azaldıqca milli təhlükəsizlik üçün də əhəmiyyətləri dəyişir. Məhz buna görə milli maraqlardan çıxış edərək dövlətin resurslarını düzgün bölüşdürmək üçün prioritet təhdidləri düzgün müəyyən etməyin və proqnozlaşdırmağın müstəsna əhəmiyyəti vardır.

Belə ki, uzaq olmayan keçmişimizə nəzər yetirsək görərik ki, yenicə müstəqilliyini əldə etmiş Azərbaycanda dövlət idarəçilik sisteminə gəlmiş səriştəsiz insanların rəhbərliyi dövründə ölkənin parçalanması, Ermənistan tərəfindən işğal olunmuş ərazilərin sürətlə genişlənməsi təhlükəsi var idi. Bu ilk növbədə yararsız idarəçilik nəticəsində o vaxtkı ölkə rəhbərliyinin daxili və xarici təhlükəsizliyə real və potensial təhdidləri görə və dərk edə bilməməsi, onların qarşısını almaq iqtidarında olmaması

və milli maraqların təmini üçün zəruri tədbirləri görməməsi ilə izah olunur.

Məhz belə bir şəraitdə xalq yeganə ümid yeri – ümummilli liderimiz Heydər Əliyevə müraciət etdi və ondan millətimizin və ilk addımlarını atan dövlətçiliyimizin məhv olma təhlükəsini aradan qaldırmaq, həyati maraqlarını qorumaq üçün hakimiyyətə qayıtmasını xahiş etdi.

Əslində bu qayıdış ölkədə illik «ənənə» şəklini almış dövlət çevrilişlərinə və hakimiyyətin qanunsuz yolla dəyişdirilməsi praktikasına birdəfəlik son qoydu. Ölkə daxilində siyasi, hərbi, iqtisadi, sosial və hüquqi islahatların həyata keçirilməsi üçün davamlı sabitlik şəraiti yaradıldı.

Ölkə daxilində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında bütün fəaliyyət istiqamətlərində köklü islahatlar həyata keçirilməyə başlandı. Demokratik plüralizm, insan hüquq və azadlıqlarının və hüquq qaydasının təmini aparılan hüquqi islahatların fundamental prinsipləri kimi elan edildi. Bazar iqtisadiyyatına keçid və ölkənin iqtisadi tənəzzüldən çıxarılması, xarici investisiyaların müxtəlif sənaye sahələrinə, neft və qeyri-neft sektoruna cəlb olunması iqtisadi islahatların başlıca məqsədi qismində müəyyən olundu. Əhalinin rifahını yaxşılaşdırmaq məqsədilə sosial yönümlü iqtisadi inkişaf prioritet sırasında göstərildi.

Azərbaycan beynəlxalq münasibətlərdə beynəlxalq hüququn müstəqil subyekti kimi öz mövcudluğunu təsdiq etdi. Ümummilli lider dünyanın iri dövlətləri ilə tarazlaşdırılmış münasibətlər qurmağa və milli maraqlara zidd olan heç bir güzəştə getmədən onları uzlaşdırmağa və digər dövlətlər tərəfindən Azərbaycana bir dövlət kimi hörmət edilməsinə nail oldu.

Bu baxımdan xarici və daxili təhlükəsizliyin sıx qarşılıqlı əlaqəsi özünü açıq şəkildə büruzə verir. Belə ki, daxili təhlükəsizlik, başqa sözə sabit davamlı daxili inkişaf təmin edilmədən xarici təhlükəsizliyi təmin etmək də mümkün deyil.

Azərbaycan üçün milli təhlükəsizliyin həm daxili, həm də xarici aspektini təşkil edən, onların qarşılıqlı əlaqə və təsiri ilə şərtlənən mühüm faktor Dağlıq Qarabağ problemidir. Ümummilli liderimiz 1994-cü ildə atəşkəsə nail olmaqla münaqişənin dinc yolla həlli istiqamətinə üstünlük verdi, bununla insan tələfatının qarşısını aldı, ölkədə sabit iqtisadi-sosial inkişafa çatmaq məqsədilə neft müqavilələrinin imzalanmasını, milli ordumuzun gücləndirilməsini və hüquqi, iqtisadi, sosial islahatların həyata keçirilməsini təmin etdi.

Ulu öndərimizin sözləri ilə demiş olsaq, biz münaqişənin sülh yolu ilə həll olunmasına çalışacağıq. Eyni zamanda, biz həmişə torpaqlarımızı müdafiə etmək qabiliyyətinə malik olmalıyıq, torpaqlarımızı müdafiə etməyə hazır olmalıyıq. Belə ki, sülh o şərtlə ola bilər ki, Azərbaycanın işğal olunmuş torpaqları işğalçı silahlı dəstələrdən azad edilsin. Azərbaycanın ərazi bütövlüyü təmin olunsun, işğal altında olmuş ərazilərə, torpaqlara onların öz sakinləri qaytarılsınlar, Azərbaycanın sərhədləri toxunulmaz olsun, tamamilə bərpa edilsin. Bununla bərabər, bunların nəticəsində Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək müxtariyyət verilsin. Azərbaycan bu prinsiplər əsasında böyük sülhə nail olmaq istəyir.

Ümummilli liderimiz məhz bu prinsiplərə uyğun olaraq Dağlıq Qarabağın işğaldan azad edilməsi ilə əlaqədar diplomatik mübarizə strategiyasının iki istiqamətini müəyyən etdi - bir tərəfdən regionda marağı olan dövlətlərlə ikitərəfli danışıqların aparılması, digər tərəfdən isə beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əsaslarda ölkəmizin həyati xarakter daşıyan milli maraqlarının, ilk növbədə isə dövlət suverenliyi və ərazi bütövlüyünün təmini məqsədilə çoxqütblü danışıqların aparılması və bu təşkilatların təsir mexanizmlərindən işğalçı Ermənistana qarşı təzyiq vasitəsi kimi istifadə edilməsi taktikasını seçdi. Əsası ümummilli lider tərəfindən qoyulan bu strategiya hazırda da davam etdirilir.

Bu strategiyaya sadiq qalan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə və birmənalı şəkildə bildirmişdir ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyi ilə bağlı heç vaxt heç bir kompromisə gedilməyəcəkdir.

Diplomatik istiqamətdə əldə edilən uğurlar Azərbaycanın ərazi bütövlüyünün sülh yolu ilə bərpa ediləcəyi ümidlərini daha da artırır.

Münaqişənin sülh yolu ilə həllinə hazır olduğunu bildirən dövlət başçısı BMT Baş Məclisinin 59-cu sessiyasında Dağlıq Qarabağ münaqişəsinin həllinə «ikili standartlar» prinsiplərindən yanaşılmasını qəti şəkildə pisləmiş, bu mövqeni problemin dondurulmasına yönələn xətt kimi dəyərləndirmişdir. O, öz çıxışında BMT Təhlükəsizlik Şurasının Qətnamələrinə məhəl qoymayan, hərbi təcavüzün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistanın nəticə etibarı ilə işğal olunmuş Azərbaycan torpaqlarında Ermənistan əhalisinin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi qəddar siyasət yürütdüyünü və bunun beynəlxalq hüququn, xüsusilə, Müharibə zama-

nı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə pozduğunu qeyd edir.

Həm Azərbaycanın, həm də Ermənistanın vahid Avropa hüquq məkanında yaşadığını nəzərə alsaq təbii sual yaranır. Dağlıq Qarabağ kimi "özünü elan etmiş rejimlər" hansı hüquq normalarını rəhbər tutur? Belə rejimlər beynəlxalq hüquq məkanından kənardır və əgər belə demək olarsa, «hüquqi fiksiyadır».

Azərbaycan Prezidentinin BMT Baş Məclisinin 59-cu sessiyasında çıxışından sonra bu qurumun sülhü bərpa etmə və sülhyaratma potensialından istifadə genişlənir. Dağlıq Qarabağ və ətraf rayonların ermənilərlə qanunsuz məskunlaşdırılması problemi Baş Məclisin müzakirəsinə çıxarılır və müvafiq qətnamə layihəsi irəli sürülür. Məhz BMT səviyyəsində bu addım atıldıqdan sonra ATƏT-in işğal olunmuş ərazilərin ermənilərlə qanunsuz məskunlaşdırılması faktlarının müəyyən edilməsi üzrə Missiyası təşkil olunur. Missiya üzvləri işğal olunmuş rayonlara səfər etdikdən sonra hazırladıqları məruzədə bu ərazinin ermənilərlə məskunlaşması faktını və Ermənistanın məsuliyyət daşıdığını yanakı da olsa, etiraf edirlər. Missiyanın müəyyən etdiyi faktlar Azərbaycan tərəfinin məlumatlarına yaxındır. Bununla demək olar ki, Azərbaycan bütövlükdə bu istiqamətdə bütövlükdə ümumi məqsədinə nail olmuşdur və məskunlaşma məsələsinin BMT Baş Məclisinin 60-cı sessiyasında təkrar müzakirəyə çıxarılmasına səy göstərəcək. Belə ki, artıq iki tərəfli səviyyədə aparılan danışıqlar BMT Təhlükəsizlik Şurasında dəstək qazanmağa da əsas verir.

Digər tərəfdən regional səviyyədə aparılan diplomatik fəaliyyət də öz bəhrəsini vermişdir. Belə ki, martın 25-də Avropa Şurası Parlament Assambleyasının sessiyasında qəbul olunan qətnamədə «Azərbaycan ərazisinin böyük bir hissəsinin hələ də Ermənistan qoşunlarının işğalı altında olduğu və separatçı qüvvələrin hələ də Dağlıq Qarabağ regionuna nəzarət etdiyi» qeyd olunur. «Assambleya üzv dövlət tərəfindən xarici ərazinin işğal edilməsini bu dövlətin Avropa Şurasının üzvü kimi öhdəliyinin ciddi pozulması olduğunu bir daha təkrar edir və münaqişə ərazisindən olan məcburi köçkünlərin təhlükəsizlik şəraitində və ləyaqətlə öz evlərinə qayıtmaq hüquqlarının olduğunu bir daha təsdiqləyir». Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğalı faktının AŞPA tərəfindən tanınması gələcəkdə artıq AŞ Nazirlər Komitəsi səviyyəsində məsələnin müzakirəyə çıxarılmasına və hüquqi müstəvidə bir sıra mexanizmlərdən istifadə edilməsinə əsas verəcək.

«Assambleya Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Nazirlər Şurasının 1992-ci ilin mart ayında Helsinkidə münaqişənin dinc yolla həllinə yönələn danışıqlar üçün forumun təmin edilməsi məqsədilə Minskdə Konfrans keçirmək barədə razılığa gəldiyini xatırladır. Azərbaycan, Ermənistan, Belarus, keçmiş Çexiya və Slovakiya Federal Respublikaları, Fransa, Almaniya, İtaliya, Rusiya Federasiyası, İsveç, Türkiyə və ABŞ o zaman bu konfransda iştirak etmək barədə razılığa gəlmişlər. Assambleya bu dövlətləri münaqişənin dinc yolla həllinə nail olmaq üçün səylərini artırmağa çağırır və onların Assambleyadakı milli nümayəndə heyətlərini hər il Hökumətlərinin bu istiqamətdə gördüyü işlər barəsində Assambleyaya məruzə etməyə dəvət edir. Assambleya Bürodan xüsusilə bu nümayəndə heyətlərinin başçılarından ibarət Xüsusi Komitə yaratmağı xahiş edir». Bu isə öz növbəsində ATƏT-lə əlaqəli işləmək və ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar prosesinə təsiri gücləndirmək imkanı verəcək.

Ərazi bütövlüyündən başqa, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərdən biri də terrorizmdir. Beynəlxalq terrorçuluqla mübarizə aparmaq məqsədilə dövlətimiz beynəlxalq antiterror koalisiyasına qoşulmuş və həmin koalisiyada fəal iştirak edərək zəruri qanunverici, təşkilati və əməli tədbirlər həyata keçirir.

Terrorizm təcavüzkar separatçılıq, mütəşəkkil cinayətkarlıq, narkotik vasitə, silah və insan alveri ilə sıx bağlıdır. Münaqişə bölgələri, o cümlədən işğal edilmiş və nəzarətdən kənar ərazilər terrorçu və cinayətkar qruplaşmaların güclənməsi üçün münbit şərait yaradır. Beynəlxalq hüquq normalarını, demokratik dəyərləri və insan hüquqlarını ciddi şəkildə pozan işğalçı rejimlər nəinki öz əhalisi, həm də digər ölkələrin əhalisi üçün real təhlükə yaradır.

Mütəşəkkil cinayətkar fəaliyyət, xüsusilə onun təzahür formalarından olan, artıq milli dövlət sərhədlərini adlamış terrorizm bütün ölkələrin maraqlarına toxunan qlobal təhlükəyə çevrilərək dünya ictimaiyyətini təhdid edir. Azərbaycan Respublikası bununla mübarizədə beynəlxalq birliyin səylərini tam müdafiə etməklə siyasi, iqtisadi, dini və digər motivlərindən asılı olmayaraq, terrorizmin bütün forma və təzahürlərinə qarşı birmənalı mövqe tutur. Ölkəmiz üçün uzunmüddətli planda bey-

nəlxalq terrorizmlə mübarizənin məqsədi yalnız ayrı-ayrı terrorçu təşkilat, qrup, yaxud şəxslər deyil, həm də onu doğuran səbəb və mənbələrin aradan qaldırılması olmalıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası terrorizmlə mübarizə sahəsində bütün beynəlxalq hüquqi sənədlərə qoşulmuşdur.

«Terrorçuluqla mübarizə haqqında» Qanun bu sahədə mühüm dövlətdaxili normativ-hüquqi aktlardan biridir. Son dövrdə terrorçuluğa görə cinayət məsuliyyəti gücləndirilmiş, terrorçuluğun maliyyələşdirilməsi cinayət əməli kimi tanınaraq ölkənin cinayət qanunvericiliyinə müvafiq dəyişikliklər edilmişdir.

Həmin qanunda Azərbaycan Respublikasında terrorizmlə mübarizənin hüquqi və təşkilati əsasları tənzimlənir, terrorizmlə mübarizə aparan dövlət orqanlarının fəaliyyətləri əlaqələndirilir, həmçinin bu orqanların və vətəndaşların hüquq və vəzifələri ehtiva edilir. Terrorizmə qarşı mübarizə yalnız normativ-hüquqi aktların qəbulu ilə məhdudlaşmır, həm də müvafiq təşkilati və əməli tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Hüquq mühafizə orqanları beynəlxalq terror aktlarının təşkilində, maliyyələşdirilməsində, himayə olunmasında və törədilməsində günahkar şəxslərin aşkarlanması və cinayət məsuliyyətinə cəlb olunması üçün bütün zəruri tədbirləri görürlər.

Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə fəal mövqeyi ölkəmizin ötən əsrin 90-cı illərində ölkə daxilində aqressiv erməni etnik separatizminin doğurduğu terrorizmlə üz-üzə qalması və onun neytrallaşdırılması zərurəti, bunun qonşu dövlətlər tərəfindən etinasız qarşılanması, digər tərəfdən isə Qafqazda terrorizm təhdidlərinin real olması ilə izah olunur. Əslində aqressiv separatizm və ekstremizmin siyasi, dini və digər təzahürləri bir zəncirin halqalarıdır. Məhz aqressiv separatizm bir çox qanunsuz terror əməllərinin mənbəyi kimi çıxış edir. Bu problemlər xüsusilə Qafqaz regionunda kəskin şəkildə özünü büruzə verir. Belə ki, Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya kimi separatçı rejimlər terror fəaliyyəti üçün əlverişli şərait yaradır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti təhlükəsizlik sahəsində dövlətlərin səylərinin birləşdirilməsinin zəruriliyini dəfələrlə qeyd etmiş, kollektiv təhlükəsizlik sisteminin mövcudluğunu qarşısıalınmaz zərurət kimi qiymətləndirmişdir.

Qeyd edilməlidir ki, regional təhlükəsizliyin təmin olunmasında ATƏT və NATO xüsusilə fərqlənir. Azərbaycan ATƏT-in Minsk qrupu

vasitəsilə özünün ən böyük problemi – Dağlıq Qarabağ münaqişəsini həll etməyə çalışır. Digər tərəfdən Azərbaycan NATO-nun yardımı ilə öz hərbi gücünü təkmilləşdirmək və kollektiv təhlükəsizlik sahəsində əməkdaşlıq etmək istiqamətində fəaliyyətini daha da intensivləşdirir.

Milli təhlükəsizliyin digər əsas komponentlərindən biri də demokratik inkişaf, insan hüquq və azadlıqlarının təmini məsələsidir.

Müasir dövrdə demokratiya hər hansı bir dövlətin başlıca inkişaf göstəricisi hesab olunur və milli maraqlar sistemində öz əksini tapır. Azərbaycan qanunvericiliyi milli təhlükəsizliyin təmin olunmasının üç məqsədini – insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyi məqsədlərini müəyyən edir. "Milli təhlükəsizlik haqqında" Qanuna görə insanın təhlükəsizliyi – insanın hərtərəfli inkişafı üçün əlverişli şəraitin mövcudluğu, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində ümumdövlət tədbirlərinin həyata keçirilməsi məsələlərini əhatə edir. Bu baxımdan, Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarının təmin edilməsini dövlət siyasətinin həlledici istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edir.

Ümummilli liderimiz cənab Heydər Əliyev tərəfindən başlanan hüquqi islahatlar 2003-cü ilin oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyev tərəfindən davam etdirilir. Ölkədə həyata keçirilən hüquqi islahatların növbəti mərhələsi məzmun baxımından qanunvericiliyin təkmilləşdirilməsinə, implementasiyasına, formalaşdırılmış qanunvericilik bazasının işləməsinin effektivliyinin artırılmasına, Avropa hüquq məkanına inteqrasiyanı gücləndirmək üçün beynəlxalq hüquq normalarının lazımi şəkildə tətbiqinə yönəlib.

Daxili təhlükəsizliyin mühüm komponentlərindən biri olan ictimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının, demokratik təsisatların qorunması ilə bağlı Prezident İlham Əliyev Azərbaycanda demokratiyanın daha da inkişaf etdiriləcəyini, siyasi plüralizmin, söz azadlığının təmin olunacağını bəyan etmişdi.

Belə ki, son illər ərzində demokratiyanın inkişafı, o cümlədən fundamental insan azadlıqlarının təmin olunması istiqamətində mühüm addımlar atılmışdır.

2004-cü il aprelin 29-da Avropa Şurası Parlament Assambleyasında çıxış edərkən dövlət başçısı Azərbaycanın bu quruma üzv olduğu üç il ərzində demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, qanunve-

riciliyin Avropa standartlarına uyğunlaşdırılması, vətəndaş cəmiyyətinin qurulması istiqamətində böyük yol keçdiyini xatırladaraq bu xəttin ardıcıl surətdə davam etdiriləcəyini, ölkəmizin Avropanın demokratik dəyərlərinə tam sadiq qalacağını bildirmişdir.

Hüquq siyasətinin varisliyini təmin edərək və müasir dövrün inkişaf perspektivlərini nəzərə alaraq möhtərəm Prezidentimiz məhkəmə hakimiyyətinin, vəkilliyin, penitensiar sistemin fəaliyyəti, insan alveri, korrupsiya ilə mübarizə sahələrində qanunvericiliyin təkmilləşdirilməsi təşəbbüsü ilə çıxış etmişdir.

Bu dövr ərzində insan hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlət siyasətinin prioritetlərindən biri olmuşdur. Məsələn, 2003-cü il dekabrın 23-də *Konstitusiya Məhkəməsinin* fəaliyyətini təkmilləşdirmək məqsədilə Avropa Şurasının Venesiya Komissiyası ilə birgə hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında" yeni qanun qəbul edilmişdir. Həmin qanunla hər kəsin onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının, bələdiyyələrin normativ aktlarından, məhkəmə aktlarından Konstitusiya Məhkəməsinə şikayət vermə mexanizmi müəyyən edilmişdir. Konstitusiya Məhkəməsi vətəndaşların şikayətləri üzrə artıq 30 qərar çıxarmışdır.

Aparılan hüquqi islahatların yeni mərhələsi kimi, demokratik *cəmiyyətdə məhkəmə hakimiyyətinin* müstəqilliyini təmin etmək, hakimlərin seçilməsində şəffaflığa nail olmaq məqsədilə hakimlərin seçilməsi, təyin olunması və onların fəaliyyətinin qiymətləndirilməsi, o cümlədən hakimlərin seçilməsi üzrə müstəqil orqan olan Seçki Komitəsinin yaradılması, hakimlərin səlahiyyət müddətinin onların fəaliyyətinin obyektiv meyarlara uyğun dəyərləndirilməsi əsasında artırılması istiqamətində Avropa Şurası ilə həyata keçirilmiş əməkdaşlıq nəticəsində "Məhkəmə-Hüquq Şurası haqqında" Qanun qəbul edilmiş, "Məhkəmələr və hakimlər haqqında" Qanuna müvafiq dəyişiklik və əlavələr edilmişdir.

Vəkillər və vəkillik institutunun təkmilləşdirilməsi də aparılan hüquqi islahatların tərkib hissəsidir. Qanunun 1999-cu ildə qəbul olunmasına baxmayaraq, onun tətbiqi zamanı yaranan bir sıra çətinlikləri aradan qaldırmaq məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlıq nəticəsində qanun təkmilləşdirilmişdir. Dəyişikliklər vəkillərin və vəkillik təsisatının müstəqilliyinin daha yüksək səviyyədə təmin edilməsinə, bu təsisatın fəaliyyətində özünüidarə prinsipinin daha geniş şəkildə tətbiq edilməsinə

yönəlmişdir. Ən əsas məsələ isə odur ki, qanundan bəzi diskriminasiya xarakterli normalar çıxarılaraq vəkillər və pullu hüquqi xidmət göstərmək üçün lisenziyası olan şəxslər arasında fərq aradan qaldırılmış və bu iki qrup hüquqşünasları birləşdirən yeni Vəkillər Kollegiyası yaradılmışdır. Eyni zamanda, dəyişikliklərdə Vəkillər Kollegiyasının üzvü olmaq istəyən digər hüquqşünaslar üçün şəffaf prosedurlar əsasında qəbul imtahanlarının keçirilməsi, bununla da vəkillər korpusunun genişləndirilməsi nəzərdə tutulmuşdur.

İnsan hüquqlarının təmin edilməsi sahəsində əsas təsisatlardan biri olan İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu 2002-ci ildən fəaliyyətə başlamışdır. Ombudsman bu sahədə görülmüş işlər barədə illik hesabatla Milli Məclisdə çıxış etmiş və həmin hesabatı Azərbaycan Respublikasının Prezidentinə təqdim etmişdir. Bundan əlavə Azərbaycanın bölgələrində Ombudsmanın regional mərkəzləri yaradılmış, bu da onun işinin səmərəliliyini artırmışdır.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının və onun 1, 4, 6 və 7 saylı Protokollarının ratifikasiya edilməsi ölkə vətəndaşlarının hüquq və azadlıqlarına daha bir təminat vermişdir.

Ölkəmiz bununla həm də İnsan Hüquqları üzrə Avropa məhkəməsinin yurisdiksiyasına daxil olmuşdur. Azərbaycanın Avropa Şurasına qəbulundan cəmi bir il keçdikdən sonra hüquqlarının pozulduğunu iddia edən Azərbaycan Respublikasının hər bir vətəndaşı öz hüquqlarının bərpası üçün bütün dövlətdaxili prosedurlar tükəndikdən sonra Avropa məhkəməsinə müraciət etmək hüququ əldə etmişdir.

Qeyd edilməlidir ki, insanların təhlükəsiz şəraitdə yaşamaq hüququnun təmini birbaşa kriminogen durumun nəzarətdə olma dərəcəsindən asılıdır. Nəzarət nə qədər zəifdirsə, insanların və bütövlükdə cəmiyyətin təhlükəsizliyinin təmini bir o qədər çətin olur və son nəticədə ölkədə qeyri-sabitliyə, daxili təhlükəsizliyə təhdidlərin realaşmasına gətirib çıxarır. Bunu yaxın tariximizin misalında görmək o qədər də çətin deyil. Belə ki, 1992-ci ildə ictimai-siyasi vəziyyətin qeyri-sabitliyi, hakimiyyət boşluğu və qanunların işləməməsi nəticəsində cinayətkarlıq 43% artmış və bu da növbəti illərdə kriminogen şəraitə öz mənfi təsirini göstərmişdir. Cəzasızlıq şəraitindən istifadə edən cinayətkarlıq mahiyyətcə daha təhlükəli olmuş, kəmiyyətcə zorakı xarakterli və tamah məqsədi güdən cinayətlər üstünlük təşkil etmişdir.

Son illər hüquq mühafizə orqanları tərəfindən cinayətkarlıqla mübarizənin gücləndirilməsi, cinayətlərin qarşısının alınması və açılması istiqamətində görülmüş kompleks tədbirlər nəticəsində 2004-cü ildə qeydə alınmış cinayətlərin sayı əvvəlki illərlə müqayisədə kəskin surətdə azalmışdır. Belə ki, 1992-ci ildə Azərbaycanda əhalinin hər 100 min nəfərinə 307 cinayət faktı qeydə alınmışdısa, 2004-cü ildə bu rəqəm 205 olmuşdur.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin humanist siyasətini davam etdirərək imzaladığı 6 əfv fərmanı ilə 1092 şəxsi əfv etmişdir.

Cinayət-hüquq siyasətinin liberallaşdırılması, cinayətkarlığın səviyyəsinin aşağı düşməsi ölkədə ictimai-siyasi sabitliyin davamlılığını, daxili təhlükəsizliyin nəzarət altında olmasını göstərir.

Belə ki, son dövrdə Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində böyük ictimai əks-səda doğurmuş, əmin-amanlığın və ictimai asayişin pozulmasına yönəlmiş adam öldürmə, adam oğurluğu və digər xüsusilə ağır cinayətlərin üstü açılmış və həmin cinayətləri törədən cinayətkar dəstə zərərsizləşdirilmişdir.

Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları ilə keçirilən görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev böyük peşəkarlıqla keçirilən şərti olaraq «Qara kəmər» əməliyyatının Azərbaycan dövlətinin öz vətəndaşlarını qorumağa qadir olduğunu bir daha göstərdiyini bildirmişdir.

Bununla Azərbaycan bir dövlət kimi öz gücünü göstərdi. Dövlət öz vətəndaşlarının və bütövlükdə xalqın mənafelərini, dövlətin milli maraqlarını qorumağa qadir olduğu, onun dövlətçilik təməllərinə hər hansı təhdidlərin effektiv şəkildə qarşısını almaq qabiliyyətində olduğunu bir daha sübut etdi.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyətinə ünvanlanmış 28 mart 2005-ci il tarixli müraciətində qeyd edir ki, 86 il öncə yaradılmış milli təhlükəsizlik orqanları milli maraqları, ölkəmizin milli təhlükəsizliyini təmin edən nüfuzlu güc strukturuna çevrilmişdir. Milli təhlükəsizlik orqanlarında vətənə, dövlətə və xalqa əsl sədaqət ideyalarını formalaşdıran Heydər Əliyev ənənələri bu gün də yaşadılır, böyük əzm və uğurla davam etdirilir.

ABUTALIB SƏMƏDOV
Milli Məclisin deputatı,
Azərbaycan Naminə Alyans partiyasının sədri

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN TƏMİN OLUNMASI UĞRUNDA MÜBARİZƏSİ

1987-ci il oktyabrın 21-də Sovetlər İttifaqının paytaxtı Moskva şəhərində dünya tarixinin gedişinə təsir edən son dərəcə mühüm bir hadisə baş verdi. Həmin gün Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumu «səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar» öz ərizəsi əsasında imperiyanın ən nüfuzlu rəhbərlərindən biri olan böyük dövlət xadimi Heydər Əliyevi Siyasi büro üzvlüyündən azad etdi. İstefa verdikdən sonra Heydər Əliyevin Moskvada Dövlət Təhlükəsizliyi Komitəsinin nəzarəti altında ev dustağı kimi saxlanmasından və baş verən hadisələrə müdaxilə imkanından məhrum olmasından istifadə edən və çoxdan girəvə gözləyən ermənilər və onların Kremldəki havadarları Qarabağı Azərbaycanın nəzarətindən çıxarmaq istiqamətində ardıcıl addımlar atmağa başladılar. İstefadan dərhal sonra, 1987–ci il noyabrın ortalarında M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Parisin «İnterkontinental» otelində Fransanın erməni institutu və erməni veteranları Assosiasiyasının təşkil etdikləri ziyafətdə çıxış edərək Dağlıq Qarabağın Ermənistana birləşməsinin zəruri olması barədə bəyanat verdi. Onun söylədiyi sərsəm fikirlər «Humanite» qəzetinin 18 noyabr 1987-ci il tarixli nömrəsində dərc olundu. XX əsrin ən dəhşətli faciələrindən birinin başlanğıcı bu cür qoyuldu və sonradan akademik Aqanbekyan bu istiqamətdə heç bir açıq fəaliyyət göstərməsə də, bəzi görüşlərdə həmin bəyanatın doğru olmadığını etiraf etsə də (onun səmimiliyi ciddi şübhə doğururdu) hər halda dəhşətli cinayətin, faciənin startı verilmişdi.

Parisin «İnterkontinental» otelində verilən bəyanat tezliklə xaricdə çıxan erməni qəzet və jurnallarının mərkəzi mövzusuna çevrildi. Erməni təşkilatları: «İnqilabi daşnaklar», «Erməni inqilabçıları ittifaqı», «Kəndli azadlığı», «Kilikiya», «Gənc erməni daşnakları» və digər partiyalar fəallaşdılar. Bunun nəticəsində qısa müddətdə Dağlıq Qarabağın Azərbaycanın nəzarətindən çıxarılması istiqamətində son dərəcə təhlükəli addımlar

atıldı. Böyük maliyyə imkanlarına malik olan erməni təşkilatları ABŞ-da növbəti prezident seçkilərinə gedən hazırlıqdan ustalıqla istifadə etdilər. Respublikaçılar partiyasının 1987-ci ilin sonlarında Nyu-Orleanda keçirilən qurultayında qəbul edilən proqrama erməni lobbisinin təsiri altında bir bənd salındı. Həmin bənddə «Sovet İttifaqının öz müqəddaratını təyin etmək uğrunda mübarizə aparan xalqlarını dəstəkləmək» nəzərdə tutulurdu.

Moskvadakı erməni lobbisi də ABŞ-dakı ermənilərdən geri qalmaq istəmir və malik olduğu böyük imkanlardan istifadə edərək planlarını reallaşdırmağa çalışırdı. Burada mərkəzi fiqurlar müşavir A.Aqanbekyanla yanaşı Baş katib M.Qorbaçovun köməkçiləri Şahnazarov və Brutens, hökumətin başçısı N.Rıjkovun yaxınlığında olan Sitaryan və Xaçaturov idilər.

Yuxarıda qeyd olunduğu kimi A.Aqanbekyanın fitnəkar bəyanatı boş yerdə ortaya çıxmamış, həmin addımın atılmasına hərtərəfli hazırlıq görülmüşdü. Bütün 1987-ci il ərzində Yerevandan və Moskvadan gələn emissarlar DQMV əhalisi ilə məqsədyönlü iş aparmış, imza toplanışını təşkil etmiş və bütün bu işlərin maliyyələşdirilməsi üçün vəsait toplamaqla məşğul olmuşdular. Ümumiyyətlə, DQMV-in Azərbaycandan qoparılması istiqamətində məqsədyönlü fəaliyyət XX əsrin əvvəllərindən başlanmış və bu istiqamətdə müxtəlif cəhdlər göstərilmişdi. Hər dəfə imperiya daxilində sarsıntılar başlayarkən əlverişli imkandan yararlanmağa çalışan ermənilər Qarabağı Azərbaycandan qoparmağa çalışmışdılar. İlk belə cəhd 1918-ci ildə edilmiş, daşnakların qonşu Gürcüstana və Azərbaycana ərazi iddiaları ucbatından Cənubi Qafqazda vəziyyət son dərəcə mürəkkəbləşmişdi. Həm Gürcüstanın Cavaxetiya, həm də Azərbaycanın Qarabağ, Zəngəzur və Naxçıvan bölgələrini ələ keçirməyə can atan ermənilər qanlı qırğınlar törətməkdən belə çəkinməmişdilər. Lakin əsrin əvvəllərində Qarabağın Azərbay-candan qoparılması erməni əhalisi arasında ciddi dəstək qazanmamış və bunu erməni liderlərinin özləri etiraf etmək məcburiyyətində qalmışdılar.

Zaqafqaziyanın kommunist liderlərindən biri olan Levon Mirzoyan de-yirdi: «Qarabağ məsələsi» deyilən problem yoxdur. Erməni kəndlisi deyir ki, Bakı və Ağdamla sıx əlaqə olmadan o yaşaya bilməz. Ona yalnız Qarabağın aran hissəsinə gedən yolların təhlükəsizliyi və mədəni inkişaf lazımdır».

Anastas Mikoyan hələ bolşeviklərin hakimiyyəti qəsb etmədikləri dövrdə, 22 may 1919-cu ildə V.Leninə məlumatında deyirdi: «Erməni hökumətinin agentləri olan Daşnaklar çalışırlar ki, Qarabağı Ermənistana birləşdirsinlər. Ancaq bu Qarabağ əhalisi üçün Bakıdakı həyat mənbəyindən məhrum olmaq və heç bir əlaqəsi olmayan Yerevana bağlanmaq deməkdir. Erməni kəndliləri beşinci qurultayda Azərbaycana qoşulmaq barədə qərar qəbul edib».

Cənubi Qafqazdakı hər üç dövlət öz müstəqilliyini itirdikdən, respublikalarda sovet hakimiyyəti qurulduqdan sonra da ermənilərin ərazi iddiaları bitmədi və üç il davam etdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekreti ilə Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olundu. Bakıda imzalanan həmin dekretdən bir ay sonra Dağlıq Qarabağ Muxtar vilayətinin mərkəzi Şuşadan Xankəndinə köçürüldü və Stepanakert adlandırıldı.

Cəhdlərinin boş çıxdığını görən ermənilər bir müddət sakitləşdikdən sonra 1930-cu ildə yenidən fəallaşdılar. İttifaq rəhbərliyinin Abxaziya ilə Gürcüstanın münasibətlərini müzakirə etməsindən istifadə edərək Qarabağı Azərbaycandan ayırmağa çalışdılar. Bu istiqamətdə atılan addımlar da heç bir nəticə vermədi.

Aradan illər keçdikdən sonra SSRİ Ali Soveti Rəyasət heyətinin sədri vəzifəsini tutan A.Mikoyan 1964-cü ilin əvvəllərində Krımın Ukraynaya verilməsindən istifadə edərək Qarabağı Ermənistana birləşdirməyi təklif etdi. Onun bu təklifindən hiddətlənən N.Xruşşov ona kəskin cavab verdi: «Mən Qarabağ ermənilərini bir sutka ərzində Ermənistana köçürmək üçün 12 min hərbi yük maşını verə bilərəm».

Moskvanın bu münasibətindən azğınlaşan ermənilər vilayətdə qarşıdurma yaratdılar. Nəticədə ölənlər və yaralananlar oldu. Tökülən qanlardan sonra bir qədər sakitləşən erməni millətçiləri 1968-ci ildə yenidən vəziyyəti gərginləşdirməyə çalışdılar. Bu cəhdlərin də qarşısı Azərbaycan və İttifaq rəhbərliyi tərəfindən qətiyyətlə alındı.

Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirmək cəhdləri ermənilər tərəfindən sonralar da dəfələrlə edildi. Lakın bu cəhdlər respublikamızın rəhbəri H.Əliyevin kəskin təpkisi ilə üzləşib nəticə vermədi. «1969-cu il iyulun 14-dən 1982-ci ilin dekabrın 3-nə kimi Azərbaycan KP MK-nın birinci katibi olmuşam. Bu müddətdə Azərbaycan ərazisinin bir qarışı da Ermənistana verilməyib. Bu faktdır. Baxmayaraq ki, Ermənistan tərəfindən ayrı-ayrı yollarla torpaqların alınmasına cəhdlər olurdu, lakin mən onların qarşısını həmişə almışam.»[1]

Təəssüf ki, böyük dövlət xadimindən sonra Azərbaycanın rəhbəri seçilən Kamran Bağırov respublikamızın maraqları naminə tələb olunan qətiyyəti nümayiş etdirə bilmədi. Onun bu mövqeyindən istifadə edən ermənilər xeyli Azərbaycan ərazisini ələ keçirməyə müvəffəq oldular.

Yalnız 1990-cı ilin ortalarında H.Əliyevin Naxçıvana gəlməsindən sonra respublikamızın ərazi bütövlüyünü təmin etmək naminə məqsədyönlü fəaliyyət başladı və bu qədim Azərbaycan torpağı Dağlıq Qarabağ uğrunda mübarizənin mərkəzinə çevrildi. Bütün vasitələrlə Azərbaycan rəhbərliyinin Qarabağ probleminin parlamentdə müzakirəsindən qaçdığı dövrdə Naxçıvan Ali Məclisi öz iclaslarında ardıcıl olaraq bu məsələni qaldırır və respublika rəhbərliyini oyatmağa çalışırdı. Təsadüfi deyil ki, Ali Məclis özünün elə ilk iclasında Qarabağda və ətraf rayonlarda yaranmış vəziyyəti ətraflı müzakirə etdi. İclasa sədrlik edən H.Əliyev DQMV-nin 1988-ci ilin əvvəllərindən Azərbaycan dövlətinin nəzarətindən çıxdığını və respublika hökumətinin orada özünün hakimiyyət hüquqlarını həyata keçirə bilmədiyini bəyan etdi.

Sonradan, 1991-ci il fevralın 5-də işə başlayan on ikinci çağırış Azərbaycan Ali Sovetinin birinci sessiyasında söz alan H.Əliyev ciddi, proqram xarakterli çıxışında Qarabağ konfliktinin köklərini araşdırıb respublika və ittifaq rəhbərliyini problemin həlli istiqamətində heç bir əməli iş görməməkdə ittiham edərək, Azərbaycanın düşdüyü ictimai-siyasi böhrandan çıxış yollarını göstərdi. Dağlıq Qarabağın artıq Azərbaycan hakimiyyətinin nəzarətindən çıxdığını və hadisələrin son dərəcə təhlükəli istiqamətdə davam etdiyini diqqətə çatdıran böyük dövlət xadimi təcili tədbirlər görməyə çağırdı. Təəssüf ki, bunun əvəzində ona öyrədilmiş müxtəlif deputatlar tərəfindən ləyaqətsiz böhtanlar atıldı və real heç bir iş görülmədi. Nəticədə, respublika ərazisinin bir hissəsi ermənilər tərəfindən işğal olundu, Azərbaycanın ərazi bütövlüyü pozuldu. Dövlətçiliyimiz üçün son dərəcə təhlükəli olan bu proses AXC-Müsavat hakimiyyəti dövründə də davam etdi və iqtidarın naşılığı, qorxaqlığı yeni ərazilərin işğalına şərait yaratdı.

Xalqın tələbi və AXC-Müsavat iqtidarının israrlı xahişləri ilə 1993-cü ilin yayında Bakıya gələn Heydər Əliyev həmin ilin iyun, iyul və avqust aylarında xarici qüvvələrin köməyi ilə hakimiyyəti ələ keçirməyə çalışan qrupların qarşısını qətiyyətlə aldı. Böyük Xilaskarın atdığı müdrik addımlar sayəsində ölkəni vətəndaş müharibəsi və parçalanmaq təhlükəsindən

xilas etmək mümkün oldu. Bununla belə, bir tərəfdən hakimiyyət uğrunda mübarizə aparan bəzi şəxslərin xəyanətkarlığından, digər tərəfdən Azərbaycanda yaranmış əlverişsiz vəziyyətdən yararlanmağa çalışan ermənilərin və onların havadarlarının hücumları nəticəsində daha bir neçə rayon işğal olundu. Düşmən hərbi birləşmələrinin genişmiqyaslı hücumları davam etdiyi şəraitdə ordumuzun nə qədər hazırlıqsız olduğu və ayrı-ayrı siyasi qüvvələrə xidmət etdiyi özünü daha bariz şəkildə nümayiş etdirdi.

Vəziyyət son dərəcə mürəkkəb və ağır idi. Tez bir zamanda respublikanı düşdüyü dərin böhrandan çıxarmaq, müxtəlif dövlətlərin Azərbaycana qarşı hazırladıqları təxribatların qarşısını almaq və ölkəni normal inkişaf məcrasına salmaq lazım idi. Erməni-rus birləşmiş hərbi qüvvələrinin hücumlarının, qanlı döyüşlərin davam etdiyi şəraitdə bu məqsədlərə nail olmaq qeyri-mümkün idi. Ancaq başqa yol da yox idi. Nəyin bahasına olursa-olsun Azərbaycan tez bir zamanda düşdüyü dərin böhrandan çıxarılmalı və əldə olunmuş müsbət nəticələr möhkəmlənməli idi. Aydın idi ki, qısa müddət ərzində qüdrətli ordu yaratmadan hərbi əməliyyatların gedişini Azərbaycanın xeyrinə dəyişdirmək, mənfur erməni planlarının qarşısını almaq mümkün olmayacaq. Necə olursa-olsun erməni-rus birləşmiş hərbi qüvvələrinin hücumlarının qarşısı alınmalı və atəşkəs haqda saziş imzalandıqdan sonra ciddi şəkildə ordu quruculuğuna başlanılmalı idi. Ancaq atəşkəsə necə nail olmalı? Bir-birinin ardınca rayonları işğal edən ermənilərin hadisələrin onların xeyrinə inkişaf etdiyi şəraitdə belə bir saziş imzalamayacaqları aydın idi. Deməli, atəşkəs sazişinə ermənilərin razılaşması üçün Azərbaycan ordusu mütləq öz gücünü göstərməli və ermənilərı sülhə məcbur etməli idi. Bəs, tam formalaşmamış və ayrı-ayrı qruplara xidmət edən ordunun gücünü necə nümayiş etdirməli? Vəziyyətin ağırlığı ilk növbədə bu amillə bağlı idi-atəşkəsə nail olmaq üçün güclü ordu, güclü ordu yaratmaq üçünsə mütləq atəşkəsə nail olmaq lazım idi. Vaxt itirmək məhvə bərabər idi.

Bir tərəfdən təcili, döyüşlər gedə-gedə yeni ordu yaradılmalı, digər tərəfdən ölkəni iqtisadi böhrandan çıxarmaq üçün ciddi addımlar atılmalı idi. İqtisadi inkişafa nail olmaq üçün ilk növbədə əvvəlki iqtidarların bütün cəhdlərinə baxmayaraq imzalaya bilmədikləri və son nəticədə onların istefasına gətirib çıxaran neft kontraktı imzalanmalı idi. Yenicə başlanan 1994-cü ildə Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifə bu

iki məqsədə nail olmaqla yanaşı, ölkə daxilində sabitliyi təmin etməkdən, qanunsuz silahlı dəstələri ləğv etməkdən və işğal olunmuş əraziləri azad etməkdən ibarət idi. Həmin dövrdə məhv olma, parçalanma həddinə gətirilmiş Azərbaycanda bu məqsədlərə nail olmaq son dərəcə çətin, əksər mütəxəssislərin fikrincə isə qeyri-mümkün idi. Ciddi təhlillər əsasında bu nəticəyə gələn və əslində tamamilə haqlı olan mütəxəssislər yalnız bir şeyi nəzərə almamışdılar. 1994-cü ilin əvvəlində olduqca ağır və fəlakətli vəziyyətdə olan Azərbaycan dövlətinə dünyanın ən böyük siyasətçilərindən biri- Heydər Əliyev başçılıq edirdi. Və həmin günlərdə xalqın böyük siyasətçiyə olan sonsuz inamı və dəstəyi ən ağır vəziyyətdən çıxmağa, ən çətin, hətta qeyri-mümkün sayılan problemlərin öhdəsindən gəlməyə imkan verə bilərdi. Bu inama, bu dəstəyə güvənən H.Əliyev 1994-cü ilin əvvələrində uçurum kənarında dayandırmağa nail olduğu Azərbaycanı böhrandan çıxarmaq üçün ağır döyüşə başladı.

Böyük öndərin rəhbərliyi altında 1994-cü ilin ilk günlərində əks hücuma keçən hərbi qüvvələrimiz çox mühüm qələbələr qazandılar. Yalnız bundan sonra yeni torpaqlar ələ keçirə bilməyəcəklərini anlayan ermənilər atəşkəs haqqında saziş imzalamaq məcburiyyətində qaldılar. Dövlətçiliyimiz üçün son dərəcə mühüm əhəmiyyətə malik olan bu saziş 1994-cü ilin mayında imzalandı. Həmin hadisədən bir qədər sonra daha bir mühüm addım atıldı və «Əsrin müqaviləsi» imzalandı. Bu addım həm Azərbaycanın iqtisadi vəziyyətini yaxşılaşdırmağa, həm də ərazi bütövlüyümüzün təmin olunması istiqamətində zəruri işlər görməyə imkan verdi. Dağlıq Qarabağ uğrunda mübarizənin yeni mərhələsi başlandı. Beynəlxalq təşkilatlarda, ilk növbədə ATƏT çərçivəsində dövlətimizin fəaliyyəti xeyli gücləndi.

Azərbaycanın 1992-ci ilin yanvarında ATƏT-ə üzv qəbul olunmasına baxmayaraq, təəssüf hissi ilə qeyd etmək lazımdır ki, ilk dövrlər bu mötəbər təşkilatın imkanlarından istifadə edərək Dağlıq Qarabağ probleminin aradan qaldırılması istiqamətində nəinki heç bir iş görülməmiş, əksinə bu beynəlxalq təşkilatla münasibətdə yol verilən ciddi səhvlər dövlətimizin nüfuzuna böyük zərbə vurulmuşdu. Respublikamızın bu nüfuzlu beynəlxalq təşkilatla münasibətlərində xalqımızın strateji maraqları üzərində qurulmuş, hərtərəfli düşünülmüş, aydın, ardıcıl və prinsipial kurs yalnız 1993-cü ilin ikinci yarısında, böyük Heydər Əliyevin AXC-Müsavat iqtidarının xahişi ilə hakimiyyətə qayıtmasından sonra başlandı. Azər-

baycan Prezidenti sülhün və təhlükəsizliyin təmin olunmasında, xüsusilə dövlətimiz üçün mühüm əhəmiyyətə malik olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında ATƏM-in və onun yaratdığı Minsk qrupunun oynayacağı rola böyük əhəmiyyət verirdi

1994-cü ildə, xüsusən may ayında atəşkəs əldə olunduqdan sonra, ATƏT-in Budapeşt sammitinin yaxınlaşması ilə əlaqədar olaraq, Azərbaycan diplomatiyası öz fəallığını daha da artırdı. Əsas diqqət sülh sazişi imzalandıqdan sonra regiona Rusiya hərbi hissələrinin təkbaşına nəzarət etməsinin qarşısını almağa yönəldilmişdi. Baxmayaraq ki, Rusiya yaranmış mürəkkəb vəziyyətdən istifadə edərək atəşkəs haqqında saziş imzalandıqdan dərhal sonra öz hərbi qüvvələrini Azərbaycan ərazisində yerləşdirmək üçün təzyiqləri artırmışdı.

Azərbaycan rəhbərliyinin ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsində Budapeşt sammitində ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi gündəliyə salındı və müzakirə olundu. Samitin qəbul etdiyi sənədlər içərisində dövlətimiz üçün mühüm əhəmiyyətə malik olan «Dağlıq Qarabağ münaqişəsinə dair ATƏM-in rolunun müəyyənləşdirilməsi» adlanan sənəddə qeyd olunurdu ki, görüş iştirakçıları 1994-cü il mayın 12-də tərəflər arasında Rusiyanın vasitəçiliyi ilə və ATƏM-in Minsk qrupu ilə əməkdaşlıq sayəsində atəşkəs haqqında bağlanmış sazişin davam etməsini bəyənirlər. İştirakçı dövlətlər BMT Təhlükəsizlik Şurasının münaqişəni sülh yolu ilə həll etmək səylərini alqışlayırlar. Onlar tərəfləri intensiv, məhsuldar, birbaşa danışıqlara çağırır, ATƏM-in səylərinin və köməyinin artırılacağını öhdələrinə götürürlər.

Həmin qətnamənin dördüncü maddəsində deyilirdi ki, münaqişədə olan tərəflərin rəyi ilə sülh sazişinin bağlanması çoxtərəfli sülhməramlı qüvvələrin yerləşdirilməsinə imkan yaradır. Görüş iştirakçıları bu qüvvələrin yerləşdirilməsini təmin etmək barədə öz iradələrini bəyan etmişlər. Onlar ATƏM-in sədrindən xahiş etmişlər ki, bu barədə planı mümkün qədər tez hazırlasın, o cümlədən sülhməramlı qüvvələrin tərkibi müəyyənləşdirilsin. Bu işdə ATƏM-in sədrinə Minsk konfransının və Minsk qrupunun həmsədrləri kömək edəcək və BMT Baş katibi tərəfindən də yardım göstəriləcəkdir. Ümumi məsləhətləşmələrdən sonra ATƏM-in sədri Vyanada yüksək səviyyəli planlaşdırıcı qrup yaradacaq, bu qrup qüvvələrin miqdarı və xarakteri, komanda, nəzarət, rabitə qüvvələri və ehtiyatların yerləşdirilməsi, qoşulma qaydalarını və qoşulmaq istəyən dövlətlərlə müqavilə

qaydalarını hazırlayacaqdır. BMT bu işə texniki yardım və ekspertlərlə kömək edəcək. ATƏM qüvvələrinin yerləşdirilməsi üçün Təhlükəsizlik Şurasından siyasi dəstək alacaqdır.

Budapeştdə başlayan böyük iş iki il sonra Portuqaliyanın paytaxtında keçirilən növbəti sammitdə uğurla davam etdirildi və mühüm nəticələr əldə olundu. Lissabonda keçirilən ATƏT sammitində üç gün davam edən ağır mübarizə Heydər Əliyev şəxsiyyətinin, Heydər Əliyev siyasətinin möhtəşəm qələbəsi ilə nəticələndi. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin ümumi prinsipləri barədə Azərbaycanın mövqeyinin ATƏT-in 52 dövləti tərəfindən birmənalı şəkildə dəstəklənməsi bir daha sübut etdi ki, böyük dövlət xadimi Azərbaycanın son dərəcə ümidsiz görünən beynəlxalq vəziyyətini kökündən dəyişməyə nail olmuşdur. Portuqaliyanın paytaxtında münaqişənin tarixi ərzində ilk dəfə dünya dövlətləri Ermənistan – Azərbaycan qarşıdurmasının aradan qaldırılmasında məhz Azərbaycanın təklifini və mövqeyini müdafiə etdiklərini rəsmi şəkildə bəyan etdilər. «Azərbaycan bu münaqişənin tarixi boyu onun həllinə nail olmaq üçün məhrum olduğu, ehtiyac duyduğu böyük beynəlxalq himayəni qazandı.

Lissabon sammitindən sonra ATƏT-in Minsk qrupunun həmsədrlərini sayı üç oldu. Rusiya ilə birlikdə Fransanın həmsədr olmasının qarşısını almaq üçün Azərbaycan prezidenti 1996-cı ilin son günü ABŞ-ın həmsədrliyə namizədliyini irəli sürdü və məqsədinə nail oldu. Həmin hadisə barədə sonralar dövlət müşaviri V.Quluzadə deyirdi: -«ABŞ-ı kənarda qoyaraq Fransanı Minsk qrupunun həmsədrliyinə keçirmək istəkləri barədə yeni il gecəsi ərəfəsində xəbər tutdum. H.Əliyevin evinə zəng etdim, o, işə gəldi. Bundan sonra Xarici işlər naziri H.Həsənovu tapdıq. 15 dəqiqə ərzində etiraz notasının mətnini hazırladıq, onu vaxtında, il başa çatmamış göndərdik və uzun mübarizədən sonra ABŞ-ın Minsk qrupunun həmsədri olmasına nail olduq». Böyük siyasətçinin bu addımı sonrakı proseslərə öz təsirini göstərdi və hazırlanan təkliflərdə Lissabon prinsiplərinin əks olunmasında mühüm rol oynadı. Minsk qrupu həmsədrlərinin hazırladıqları təkliflər barədə prezident Heydər Əliyev deyirdi: «Birinci təklif, «paket həll» təklifi 1997-ci ildə iyun ayında verildi. Biz onu qəbul etdik ki, görək, irəliyə gedə bilirik, yoxsa yox. Hətta xatirimdədir, mən avqustun 1-də Vaşinqtonda, Ağ evdə Klintonla görüşərkən, o bunu çox yüksək qiymətləndirdi. Hətta məndən xahiş etdi, siz öz çıxışınızda deyin ki,- çünki

o da çıxış etdi, nitq söylədi, mən də, - bunu qəbul edirsiniz. Dedim. Ermənistan bunu qəbul etmədi.

Ondan sonra ikinci təklif, «mərhələli həll» təklifi verildi. Biz onu yenə qəbul etdik. Ona görə yox ki, o bizim üçün əlverişli idi. Düzdür, o, əvvəlkindən bir az əlverişli idi. Amma biz istəyirdik ki, bir balaca hərəkət olsun. Ermənistan bunu da qəbul etmədi.

Nəhayət, Ermənistanda Ter-Petrosyan ikinci təklifi qəbul etdi. Biz Strasburqda birgə bəyanat verdik ki, bunun əsasında işləyək».

Lakin həmin təklifin əsasında işləmək Cənubi Qafqazın ən stajlı prezidenti olan L. Ter-Petrosyana qismət olmadı. Baş nazir R.Koçaryanın hərbi dairələrlə birlikdə hazırladığı hərbi qiyam qarşısında geri çəkilmək məcburiyyətində qalan Ermənistan prezidenti Azərbaycanın günbəgün, saatbasaat gücləndiyi və ermənilər qarşıda ağır günlərin gözlədiyi barədə xəbərdarlıq etməkdən başqa bir şey edə bilmədi.

Ermənilər üçün fəlakətlə nəticələnən Lissabon sammitindən bir qədər sonra, «Nezavisimaya qazeta»nın 15 noyabr 1997-ci il tarixli nömrəsində dərc etdirdiyi «Müharibə yaxud sülh. Ayılma anı» adlı məqaləsində Levon Ter-Petrosyan Dağlıq Qarabağ probleminin nizamlanmasına yeni münasibət bildirdi və Azərbaycanın israr etdiyi mərhələli sülh planına tərəfdar olduğunu bəyan etdi. İstefa ərəfəsində əleyhdarlarına və tərəfdarlarına müraciət edən sabiq prezident həmin məqalədə bir neçə məqama xüsusi diqqət yetirməyi xahiş edir və acizanə surətdə bildirirdi ki, «Ermənistanın dünyada vəziyyətini möhkəmləndirmək artıq mümkün deyil, çünki beynəlxalq birlik Yerevanın Qarabağ məsələsilə bağlı mövqeyini qətiyyətlə qəbul etmir.

İkincisi və daha mühüm əhəmiyyətə malik olanı ölkədə sosial-iqtisadi vəziyyət ən aşağı səviyyədə də olsa sabitləşməsinə baxmayaraq yaxın illərdə qarşısı alınmaz şəkildə pisləşəcək. Buna görə də bu barədə indidən düşünmək və regionda baş verən dəyişikliklərə uyğunlaşmaq lazımdır».

Bu sözləri söyləyərkən L.Ter-Petrosyan şübhəsiz ki, ABŞ-ın regionda çəkisinin artmasını, Azərbaycanın bu amildən bacarıqla istifadə etməsini nəzərdə tutur və Ermənistanın Rusiya yönlü siyasətinin ona heç nə verməyəcəyini nəzərə çatdırmaq istəyirdi.

Məqalədə Levon Ter-Petrosyan deyirdi ki, «realist olmaq lazımdır və başa düşmək lazımdır ki, beynəlxalq birlik uzun müddət Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyətlə barışmayacaq, çünki bu vəziyyət Cənubi

Qafqazda regional əməkdaşlığa və təhlükəsizliyə manc olur. Eyni zamanda qərbin neft maraqlarının qarşısında maniəyə çevrilir. Tez yaxud gec tərəflərə kompromis proqram, yəni nizamasalma proqramı təklif olunacaq və onun qəbul olunması üçün təzyiqlər göstəriləcək. Nə Azərbaycan, nə Ermənistan, nə də Qarabağ kompromistlərdən qaça bilməyəcəklər və bu reallıqla barışmalı olacaqlar. Əslində Qarabağın və Ermənistanın rəqibi beynəlxalq birlikdir. Bu o, beynəlxalq birlikdir ki, biz ona meydan oxuyuruq.

...Rusiyada hansı hakimiyyətin olmasından asılı olmayaraq bu hakimiyyət heç vaxt Qarabağın müstəqilliyini tanımayacaq, çünki özünün tərkibində «20 Qarabağ» var. Və son nəticədə Rusiyanın və hər hansı bir böyük dövlətin oyuncağı olmaq özlərini manyakçasına aldatmaqla məşğul olan ermənilərin həyat tərzinə çevriləcək. Gəlin özümüzü aldatmayaq və yalan ümidlərlə yaşamayaq. Qarabağ uğurunda, Qarabağın müstəqilliyi uğurunda mübarizədə bizim müttəfiqimiz yoxdur və biz meydanda tək qalmışıq.

Ermənistanla Qarabağ bu gün heç vaxt olmadığı qədər güclüdürlər. Ancaq əgər konflikt aradan qaldırılmasa həm Ermənistan, həm Qarabağ müqayisəyə gəlməz dərəcədə zəifləyəcəklər. Bu gün qəbul etmədiklərimizi gələcəkdə biz xahiş edəcəyik ancaq ala bilməyəcəyik. Bu dəfələrlə bizim tariximizdə baş verib»[1].

Bu bəyanatdan sonra, 1988-ci il fevralın 3-də Ermənistan prezidenti L.Ter-Petrosyan istefa vermək məcburiyyətində qaldı və vəzifəsini tərk etdi. Beləliklə, «Miatsum» hərəkatının liderlərindən biri, «Qarabağ» cəmiyyətinin və Erməni ümummilli hərəkatının (Xalq cəbhəsinin) başçısı uğur qazanmağa heç bir ümidinin qalmadığını etiraf edərək siyasi hakimiyyətdən çəkildi. Bu addım artıq təkcə bir şəxsin siyasi iflası deyildi, bütövlükdə Dağlıq Qarabağı Azərbaycandan qoparmağa çalışanların sarsıdıcı məğlubiyyətə uğrayaraq böyük ümidlərlə başladıqları hərəkatın ağır məğlubiyyətlə sona çatdığını bəyan etmələri idi. Bu hadisə hamıya sübut etdi ki, Dağlıq Qarabağı Azərbaycandan ayırmaq mümkün olmayacaq və bu torpaq əbədi olaraq respublikamızın ayrılmaz tərkib hissəsi kimi yaşayacaq, inkişaf edəcək. Bu xalqımızın uzun illər həsrətlə gözlədiyi möhtəşəm bir qələbə idi. Bəşər tarixində ən böyük dövlət xadimlərindən biri olan Heydər Əliyevin böyük fədakarlığı, qətiyyəti, vətən, xalq sevgisi sayəsində Azərbaycanın qazandığı möhtəşəm bir qələbə.

Bu qələbədən sonra Heydər Əliyev apardığı uğurlu danışıqları dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin bir addımlığına qədər gətirib çıxarmağa nail oldu. Xüsusilə, İstambulda keçiriləcək ATƏT sammiti ərəfəsində sülh sazişini imzalamaq tamamilə real idi. Lakin yenə də Ermənistanda baş verən hadisələr sülh prosesinə ağır zərbə vurdu və aparılan böyük işin nəticəsiz qalmasına səbəb oldu. Ermənistan parlamentinin sədri Karen Dəmirçiyanın və digər yüksək vəzifəli şəxslərin hamının gözü qarşısında güllələnməsi parlamentlər tarixində bənzəri olmayan hadisə idi. Bu qırğın bütün dünyaya bir daha göstərdi ki, Ermənistan kimi dövlətlə sülh danışıqları aparmaq və real nəticəyə nail olmaq nə qədər çətindir. Həmin hadisədən sonra danışıqları davam etdirən Heydər Əliyev Paris və Ki-Uest danışıqlarında sülh sazişinə gəlmək üçün əlindən gələni etdi. Lakin çox təəssüf ki, Böyük Xilaskar özünün əsas işi saydığı Dağlıq Qarabağ məsələsini həll edib sona çatdıra bilmədi. 2003-cü il prezident seçkilərində səhhəti ilə əlaqədar axıra qədər iştirak edə bilməyən ümummilli liderimiz Azərbaycan xalqına müraciət edərək gələcəyə olan böyük inamını dilə gətirdi-:**«İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm»**. Şübhə yoxdur ki, Heydər Əliyevdən sonra Azərbaycana rəhbərlik etmək şərəfinə layiq görülən prezident İlham Əliyev Böyük Xilaskarın başladığı bu müqəddəs işi ləyaqətlə davam etdirəcək və dahi Azərbaycanlının arzularını reallığa çevirəcək. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qələbə ilə başa çatdığı həmin tarixi gündə Böyük Xilaskarın məzarı üstünə axışan milyonlarla insan göz yaşları içərisində Heydər Əliyevin müqəddəs ruhuna dualar edərək:- «Ruhun şad olsun, Böyük Xilaskar, sənin həyatda ən böyük arzun yerinə yetdi. Qədim Qarabağ torpağı Azərbaycanındır və bundan sonra heç bir qüvvə Qarabağı Azərbaycandan ayıra bilməyəcək»-deyəcəklər.

VAHİD NOVRUZOV
Auditorlar Palatasının sədri

HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA DEMOKRATİK İQTİSADİ İSLAHATLARIN BANİSİDİR

Ümummilli liderimiz Heydər Əliyevin tarix və millət qarşısında misilsiz xidmətlərindən bəhs edərkən onun 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi rəhbərliyə qayıdışından sonrakı dövrə təsadüf edən təxminən 10 illik fəaliyyətini xüsusi dəyərləndirmək tələb olunur. Bu zərurət, hər şeydən əvvəl, ondan irəli gəlir ki, dövlət müstəqilliyimizin bərqərar olması və dönməz xarakter alması, müstəqil Azərbaycan Respublikasında demokratik dövlət quruculuğunun möhkəm təməlinin qoyulması naminə Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və uğurla həyata keçirilmiş daxili və xarici siyasət strategiyası məhz həmin dövrdə real məzmun və məna kəsb etmişdir. Məhz Heydər Əliyevin həmin dövrdəki titanik fəaliyyətinin nəticəsi olaraq, tarixən qısa bir zaman kəsiyində məntiqi bir ardıcıllıqla:

Azərbaycanda vətəndaş müharibəsi alovları söndürülmüş;

baş qaldırmaqda olan separatçılıq meyllərinin kökü kəsilmiş və dövlətimiz xanlıqlara parçalanmaq təhlükəsindən xilas edilmiş;

iflic vəziyyətində olan hakimiyyət strukturlarının dolğun fəaliyyəti bərpa olunmuş;

nizami ordu quruculuğuna başlanmış, Ermənistanın Azərbaycana qarşı hərbi ekspansiyası dayandırılmış və 1994-cü ildə atəşkəsin əldə edilməsinə nail olunmuş;

böhran və tənəzzül içərisində olan milli iqtisadiyyatın maddi-maliyyə dayaqlarını əldə etmək üçün Azərbaycanın yeni neft strategiyası formalaşdırılmış və 1994-cü il sentyabrın 20-də «Əsrin kontraktı»nın imzalanması ilə xarici investisiyaların ölkəmizə axını üçün möhkəm zəmin yaradılmış;

iqtisadiyyatın bazar prinsipləri əsasında inkişafını təmin etmək üçün dövlət mülkiyyətinin özəlləşdirilməsi və MDB-də misli-bərabəri olmayan radikal aqrar islahatlar həyata keçirilmiş;

bazar infrastrukturlarının formalaşması və azad sahibkarlığın hərtərəfli inkişafı üçün müvafiq qanunvericilik bazası yaradılmış;

dövlət idarəetmə sistemində geniş islahatlar aparılmış;

Azərbaycanın beynəlxalq birliyə intensiv inteqrasiyası təmin edilmişdir.

Bütün bunlar isə nəticə etibarilə Azərbaycan Respublikasını Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda dünya siyasətinin başlıca geostrateji maraq mərkəzinə, iqtisadi cəhətdən dinamik surətdə inkişaf və tərəqqi edən bir diyara çevirmişdir.

Yetmiş ildən artıq müddət ərzində totalitar bir rejim şəraitində, nəhəng imperiyanın milli ucqarlarından biri kimi mövcud olmuş, müstəqilliyinin ilk illərində naşı siyasətbazların əli ilə bütün hakimiyyət-idarəetmə strukturları dağıdılıb sıradan çıxarılmış, iqtisadiyyatı tənəzzül həddinə çatdırılmış, ərazisinin beşdə bir hissəsi işğal altına düşmüş, əhalisinin 1 milyon nəfərdən çoxu ata-baba yurdlarından, doğma ev-eşiklərindən didərgin salınaraq qaçqın və məcburi köçkün taleyini yaşamağa məcbur edilmiş bir respublikanı məhz Heydər Əliyev siyasəti – onun demokratik hüquqi dövlət quruculuğu və sosial-iqtisadi inkişaf konsepsiyası siyasi-hərbi qeyri-müəyyənlikdən əmin-amanlıq və sabitliyə, sosial-iqtisadi tənəzzüldən dinamik inkişafa, tərəqqi və yüksəlişə qovuşdurmuşdur.

Heydər Əliyevin dövlət quruculuğu strategiyasının ana xəttini təşkil edən cəmiyyətin demokratikləşdirilməsi tendensiyası müstəqil Azərbaycan Respublikasını bütün dünyada tanıtmış və ölkəmizin dünya birliyində öz layiqli yerini tutması, beynəlxalq aləmdə gedən proseslərə fəal şəkildə inteqrasiya olunması üçün möhkəm zəmin rolunu oynamışdır.

Hələ 1994-cü ilin yayında – dövlət müstəqilliyimizin kövrək olduğu, ölkədə ictimai-siyasi sabitliyin tam bərqərar olmadığı bir vaxtda Azərbaycan prezidenti demişdi: «Biz respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir».

Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyasında «iqtisadi islahatlar» ifadəsi altında Azərbaycan iqtisadiyyatını bazar prinsipləri əsasında qurmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və dövlət mülkiyyətinin özəlləşdirilməsini həyata keçirmək, azad sahibkarlığa, vətəndaş təşəbbüskarlığına geniş imkanlar yaratmaq, milli iqtisadiyyatımızı inkişaf et-

miş ölkələrin iqtisadi sistemləri əsasında yenidən qurmaq və dünya iqtisadiyyatına fəal inteqrasiya başa düşülür.

Azərbaycanın sərbəst iqtisadiyyat yolunu tutmasını bəyan edərkən Heydər Əliyev bu yolda obyektiv çətinliklərin olacağını, qarşıya çoxlu maneələrin, süni əngəllərin çıxa biləcəyini də aydın dərk edir və özünün siyasi iradəsinə, xalqın dəstəyinə arxalanaraq bildirirdi ki, ölkəmizdə demokratik islahatlara, bazar islahatlarına yönəldilmiş strategiya həyata keçirilir və heç kəs Azərbaycan xalqını tutduğu yoldan geri çəkilməyə məcbur edə bilməz. Bütün mürəkkəbliklərinə, çətinliklərinə baxmayaraq, dünya üçün təbii proses olduğuna görə bu yolun qət edilməsi labüddür, xalqımızın da, dövlətimizin də mənafeyinə və istəyinə tamamilə uyğundur. Bu yolu qət etmək ona görə labüddür ki, müstəqil dövlət kimi, Azərbaycan gələcəkdə də bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı iqtisadi və siyasi münasibətlər əsasında dünya birliyinin fəal iştirakçısı olmağı nəzərdə tutaraq, öz müstəqilliyini daha da möhkəmləndirmək və inkişaf etdirmək üçün bu yolla getməlidir.

1997-ci ilin aprelində ölkəmizdə iqtisadi islahatların gedişinə həsr olunmuş müşavirədə Heydər Əliyev islahatların hazırlanması və həyata keçirilməsinə başlanması yolunda hansı maneələrin qarşıya çıxdığını və ölkə rəhbərliyinin bu maneələrə qarşı münasibətdə necə böyük prinsipiallıq göstərdiyini nəzərdə tutaraq deyirdi: «Keçən illərdə bəziləri hesab edirdilər ki, Ermənistanla hərbi münaqişə mövcud olduğu, ölkəmizin ərazisinin bir qismi işğal altında olduğu, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan didərgin düşüb köçkün vəziyyətində, ağır şəraitdə yaşadığı bir halda respublikamızda islahatlar keçirilməsi mümkün deyil, yaxud, ümumiyyətlə, lazım deyil. Digərləri isə çox böyük «qəhrəmanlıqlar» göstərmək istəyirdilər. Onlar deyirdilər ki, nəyin bahasına, necə olur-olsun, islahatları tezliklə keçirmək, indiyədək dağılmayanları da dağıtmaq lazımdır, hər şey dağılmalıdır. Onlar belə hesab edirdilər ki, həmin dağılanların yerində guya yeni bir möcüzə əmələ gələcəkdir... Biz isə nə o cür, nə də başqa cür mənfi fikirlərin təsiri altına düşmədik. İşimizi planlı, təmkinli, düşüncəli aparmaqla məşğul olduq. ... Hər işi təmkinlə, ağılla görmək lazımdır. Respublikanın mövcud sərvətlərini qoruyub saxlamaq, dağıntının qarşısını almaq, dağıntıya yol verməmək, ölkənin mülkiyyətini qoruyub saxlamaq yolu ilə islahatları həyata keçirib, dövlət mülkiyyətini xalqın, vətəndaşların mülkiyyətinə çevirmək lazımdır».

İqtisadi islahatların keçirilməsi müddətinə real münasibət bəsləyən Heydər Əliyev öyrədirdi ki, «iqtisadi islahatların həyata keçirilməsi asan məsələ deyildir. Kim isə hesab edir ki, iqtisadi islahatları bir günə, iki günə, bir aya, iki aya, üç aya həyata keçirmək, ondan istədiyimiz nəticəni əldə etmək olar. Şübhəsiz ki, bu, səhv fikirdir. İqtisadi islahatlar keçirmiş ölkələrin təcrübəsi də bunu sübut edir. Əvvələn, bu təcrübə iqtisadi islahatların həyata keçirilməsinin necə çətin olduğunu, ikincisi, onun nə qədər vaxt tələb etdiyini göstərir. Üçüncüsü isə bu islahatların aparılması dövründə müsbət nəticə alana qədər nə qədər yeni çətinliklərin meydana çıxdığını göstərir. Biz bunların hamısını nəzərə almalıyıq».

Başqa sözlə, Heydər Əliyev iqtisadi islahatlar həyata keçirilərkən iqtisadi qanunların və dünya təcrübəsinin əsas götürülməsini, islahatların sistemli və kompleks aparılmasını, milli iqtisadiyyatın real vəziyyəti və potensial imkanları, respublikadakı sosial-siyasi durum, əhalinin həyat səviyyəsi nəzərə alınmaqla, sosial təmayüllü bazar iqtisadiyyatı prinsiplərinə əsaslanmasını zəruri sayırdı. Yeri gəlmişkən, Heydər Əliyevin müəyyən etdiyi və ardıcıllıqla həyata keçirdiyi sosial təmayüllü iqtisadi inkişaf modeli bazar mexanizminə əsaslanan qarışıq, səmərəli bir iqtisadiyyat modelidir və bu modeldə keçid dövründə dövlətin güclü tənzimləyici rolu üstünlük təşkil edir, mülkiyyət çoxnövlülüyü xüsusi mülkiyyətlə dövlət mülkiyyətinin bir-birini tamamlamasına, onların hüquq bərabərliyinin ümumi qəbul edilməsinə əsaslanır; dövlət əhalinin gəlirləri, məşğuliyyət, səhiyyə, təhsil, mədəniyyət və iqtisadiyyatın sosial müdafiəyə ehtiyac duyan digər sahələrində güclü sosial təminat siyasətini yeridir.

Yeni Azərbaycan quruculuğunun arxada qalan illəri Heydər Əliyevin iqtisadi strategiyasının haqlı olaraq sosial yönümlü bazar iqtisadiyyatı prinsiplərinə əsaslanmasının həyatiliyini və alternativsizliyini sübuta yetirmişdir. Eynilə Heydər Əliyevin iqtisadi konsepsiyasına görə, islahatların üç mərhələdə həyata keçirilməsinin – birinci mərhələdə güclü dövlət tənzimlənməsi yolu ilə böhrandan çıxmaq; ikinci mərhələdə iqtisadiyyatın sabitliyini təmin etmək; üçüncü mərhələdə isə iqtisadiyyatın dirçəlişinə və yüksələn xətlə dinamik inkişafına nail olmaq vəzifələrinin həllinə yönəldilməsinin məqsədəuyğunluğunu təsdiq etmişdir.

1996-cı il iyulun 12-də «Torpaq islahatı haqqında» Azərbaycan Respublikası Qanunu layihəsinin müzakirəsinə həsr edilmiş iclasda Heydər Əliyev

deyirdi: «Torpaq ölkənin, millətin, xalqın ən yüksək, ən qiymətli sərvətidir. İndi biz bu torpağı xalqa paylayırıq, özü də pulsuz paylayırıq. Demək, bu, demokratiya sahəsində, iqtisadi islahatların həyata keçirilməsi sahəsində bizim ən yüksək səviyyəli addımımız, tədbirimizdir. Yenə də deyirəm, ətrafımıza baxarkən, - Rusiyanın özünə, Orta Asiyaya, Ukraynaya, Belarusa baxarkən, bu məsələnin onlarda hələ nə qədər aşağı səviyyədə olduğuna baxarkən, respublikamızın ərazisinin 20 faizi işğal olunduğu halda, işğal edilmiş torpaqlardan nə qədər insanın qaçqın vəziyyətində yaşadığı halda, belə ağır şəraitdə yaşayan respublikada bu cür cəsarətli, radikal addım atmağımız onu göstərir ki, biz həqiqətən iqtisadiyyatımızı bazar iqtisadiyyatı, müasir tələblərə uyğun olan sistem prinsipləri əsasında qururuq və quracağıq».

Ümumiyyətlə, Heydər Əliyevin iqtisadi siyasəti bazar islahatlarının məntiqi ardıcıllıqla və sistemli şəkildə aparılmasına əsaslanır, bunların da başlıca istiqamətləri arasında dövlət mülkiyyətinin özəlləşdirilməsi müstəsna yer tutur. Ulu öndərin özü də bu barədə deyirdi ki, «islahatların əsasını mülkiyyət formasının dəyişdirilməsi təşkil edir... Respublikada bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçmək üçün mülkiyyət forması dəyişməlidir, özəlləşdirmə getməlidir». Heydər Əliyev anlamında özəlləşdirmənin sosial-iqtisadi məqsədi hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək və əhalinin həyat səviyyəsini yüksəltmək, iqtisadi məqsədi isə sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaqdır. Sonuncu isə daha vacibdir. Çünki Heydər Əliyevə görə, «bazar iqtisadiyyatı tək elə bir özəlləşdirmədən, xüsusi mülkiyyət yaratmaqdan ibarət deyil... bazar iqtisadiyyatı istehsal ilə bazar arasında olan əlaqədir. İstehsal gərək bazar ilə bağlı olsun, bazarın konyunkturası ilə bağlı olsun...».

Heydər Əliyevin düşüncəsinə görə, dövlət mülkiyyətinin özəlləşdirilməsi mülkiyyət formasının dövlətsizləşdirmə yolu ilə mexaniki olaraq dəyişdirilməsi demək deyildir; bu, sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olması deməkdir, milli iqtisadiyyatın dünya iqtisadi-təsərrüfat sisteminə qovuşması, formasiya dəyişikliyi, insanların şüurunda, həyat tərzində, idarəetmədə çevriliş deməkdir. Buna görə də o, özəlləşdirməni ağılla, təmkinlə, gecikmədən, ancaq sürətlə aparmağı tövsiyə etməklə, bu prosesi iki əsas prinsip əsasında həyata keçirməyi məqsədəmüvafiq hesab edirdi: birincisi, dövlət əmlakının özəlləşdirilməsində sosial ədalətin qorunması; ikincisi, özəlləşdirmənin optimal müddətdə apa-

rılması. Ölkə başçısının «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməli tədbirlər haqqında» 1995-ci il 8 mart tarixli fərmanında da bir sıra digər zəruri şərtlərlə yanaşı, özəlləşdirmə prosesində əhalinin bütün təbəqələrinin sosial müdafiəsini təmin edən tədbirlərin həyata keçirilməsi və xüsusən Vətəni qoruyarkən həlak olmuş şəhidlərin ailələrinin və qaçqınların sosial müdafiəsinin təmin olunması önə çəkilirdi. Digər tərəfdən də, Heydər Əliyevin tələbi ondan ibarət idi ki, özəlləşdirmə qanun çərçivəsində, dövlət əmlakının, dövlətin varidatının qorunması yolu ilə getsin. Eyni zamanda, bu prosesin gedişi zamanı adamlara şərait yaratmaq lazımdır ki, onlar özəlləşdirmədən səmərəli istifadə edib, təşəbbüskarlığı artıra bilsinlər, istehsal artırıla bilsin və son nəticədə bütün bunlar xalqın rifahının yaxşılaşmasına gətirib çıxarsın. Heydər Əliyev deyirdi: «Özəlləşdirmə və yaxud da mülkiyyətin xüsusiyyətə verilməsi bir ondan ibarət deyil ki, bu, dövlət mülkiyyətində idi, verdim xüsusi mülkiyyətə. Xüsusi mülkiyyətçi bu əmlakdan nə cür istifadə edəcəkdir? Torpaqdır, yaxud istehsal müəssisəsidir, yaxud ticarət müəssisəsidir, məişət müəssisəsidir – bundan nə cür istifadə edəcək? Əgər bazarın tələblərinə uyğun istifadə eləyə biləcəksə, özü üçün, eyni zamanda bizim iqtisadiyyatımız üçün yaxşı nəticə əldə edəcəkdir. Çünki o, istehsalı artıracaq, istehsalı artıranda büdcəyə verilən vergilər artacaqdır. Həm bazar təmin olunacaqdır, həm də dövlətin mənafeləri təmin olunacaqdır».

Postsovet məkanının bir sıra ölkələrinə nisbətən Azərbaycanda özəlləşdirmə bir qədər gec başlansa da, mövcud təcrübənin diqqətlə öyrənilməsi sayəsində ölkəmizdə bu prosesin özünəməxsus modeli hazırlanmış, bunun da nəticəsində həm «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı» və həm də «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı» çərçivəsində həyata keçirilmiş tədbirlərin səmərəsinin qat-qat artırılmasına, mülkiyyət çoxnövlülüyünün bərqərar olması üçün real zəmin və bərabər imkanlar yaratmaqla, azad sahibkarlığın və vətəndaş təşəbbüskarlığının inkişafına, bazar iqtisadiyyatının dərin kök atmasına, ölkənin xarici iqtisadi əlaqələrinin genişlənməsinə və iqtisadi səmərəliliyin yüksəlməsinə səbəb olmuşdur.

Ölkə iqtisadiyyatında mülkiyyət çoxnövlülüyünün bərqərar edilməsində aqrar islahatlar əvəzsiz rol oynamışdır. Hələ 1994-cü ildə, kənd tə-

sərrüfatında iqtisadi islahatlar barədə müxtəlif, bir-biri ilə ziddiyyət təşkil edən baxışların mövcud olduğu bir dövrdə Heydər Əliyev qətiyyətlə deyirdi ki, «... iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatında da nicat yolumuz, perspektivimiz, gələcəyimiz iqtisadi islahatların aparılmasındadır. Kənd təsərrüfatı sahəsində iqtisadi islahatlar aparılması strateji yolumuzdur və biz bu yolla da getməliyik».

Daha iki il sonra – 1996-cı il iyulun 12-də «Torpaq islahatı haqqında» Azərbaycan Respublikası Qanunu layihəsinin müzakirəsinə həsr edilmiş iclasda o deyirdi ki, əgər biz bazar iqtisadiyyatı yolu ilə gediriksə, deməli, bazar iqtisadiyyatı prinsiplərini də tətbiq etməliyik: «Torpağın xüsusi mülkiyyətə verilməsi fikrində mən bu gün yox, lap əvvəldən olmuşam. Lakin eyni zamanda mən bu islahatların aparılması barədə ictimai rəyin də formalaşmasını istəyirəm... Bütün bu islahatların keçirilməsində kütlənin bunu qavraması, buna alışması, ictimaiyyətin buna alışması əsasdır... Ola bilərdi ki, mən öz fikrimi əvvəldən komissiyanın üzvlərinə qəbul etdirəydim və vəzifəmə, eyni zamanda mənə olan hörmətə görə onların bəziləri səslərini çıxarmayaydı ki, bir halda prezident belə deyib, biz nə edək, prezidentin fikri ilə razılaşmaq lazımdır. Amma mən istəmirəm belə olsun. İstəyirəm ki, hər bir kəs – komissiyanın üzvü də, başqası da bunu dərk etsin».

Təbiətən demokrat olan Heydər Əliyev bütün qərarların, xüsusən də dövlət və xalq üçün taleyüklü qərarların məhz demokratik prinsiplər əsasında, xalqın geniş təbəqələrinin rəyi nəzərə alınmaqla, demokratik ruhda qəbul edilməsini və qəbul olunmuş qərarların icrasının daxili tələbata çevrilməsini zəruri sayırdı. Heydər Əliyev deyirdi: «... Respublikanın prezidenti kimi mən dövlət orqanlarından aldığım məlumatlar, təkliflərlə yanaşı, eyni zamanda sərbəst iqtisadiyyatla, sahibkarlıqla məşğul olanlardan da məlumatlar, təkliflər, məsləhətlər almaq istəyirəm. Bu o demək deyil ki, verilən hər bir təklif, irəli sürülən hər bir məsələ olduğu kimi qəbul edilə bilər. Ancaq belə müzakirələr, danışıqlar bundan sonra görəcəyimiz işlərə çox kömək edə bilər».

Bu fikrin davamı olaraq, 1996-cı il iyulun 19-da Nazirlər Kabinetinin respublikada sosial-iqtisadi sahənin inkişafına həsr olunmuş geniş iclasında o deyirdi: «Mən Azərbaycan kəndinin hər bir incəliyini bilirəm, kəndlinin psixologiyasını bilirəm, torpaqla bağlı olan adamların psixologiyasını bilirəm. Ona görə də... bu gün təkrar olaraq deyirəm ki, mən bu müddətdə çalışırdım ki, bizim insanlar, xüsusən kənddə yaşayan insanlar özləri inansınlar, bilsinlər ki, bu yol bizim üçün, doğrudan da, uğurlu yoldur və bu yolla daha yaxşı nailiyyətlər əldə edə bilərik. Bu yol müstəqil Azərbaycanın gələcəyi üçün yeganə yoldur».

Torpağın əvəzsiz olaraq şəxsi mülkiyyətə verilməsi Heydər Əliyevin iqtisadi siyasətinin zirvəsi sayılmalıdır. Torpaq islahatı Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı vəzifələrinə uyğunlaşdırmaq, formalaşmaqda olan yeni münasibətlər əsasında inkişaf etdirmək yönümündə atılmasını Heydər Əliyevin zəruri saydığı ən ümdə addımlardan biri idi və onun özgünlüyünün başlıca xüsusiyyəti bundan ibarətdir ki, aqrar islahatların həyata keçirilməsi üçün vacib olan mükəmməl qanunlardan ibarət möhkəm hüquqi baza və bu qanunların həyata keçirilməsi üçün işlər, çevik mexanizmlər ümummilli liderimizin səyləri, şəxsi qayğısı və diqqəti sayəsində, bu sahədə keçmiş SSRİ məkanında heç bir nümunə olmadan, heç bir müvafiq təcrübə olmadan yaradılmış və bu baza əsasında MDB məkanında misli-bərabəri olmayan radikal torpaq islahatı həyata keçirilmişdir.

Torpaq islahatının birinci mərhələsinin gedişində Azərbaycanda təqribən 3 milyon 200 min vətəndaş torpaq mülkiyyətçisinə çevrilmiş və bu mərhələ aqrar sahənin sıçrayışla inkişaf etməsinə zəmin hazırlamaqla bərabər, yeni hüquqi münasibətlər sisteminin də yaranmasına səbəb olmuşdur. Torpaq islahatlarının həmin münasibətləri nizamlamaq məqsədi daşıyan ikinci mərhələsi isə torpaq mülkiyyətçilərinin öz torpaq paylarından sərbəst şəkildə və səmərəli istifadə etməsinə şərait yaratmaq. Azərbaycanda torpaq münasibətlərini bütün dünyada qəbul edilmiş standartlara uyğunlaşdırmaq üçün vacib tədbirlər kompleksini işləyib hazırlamaq və həyata keçirmək məqsədlərinə xidmət edir.

Ölkəmizdə həyata keçirilən torpaq islahatları və bu islahatlar nəticəsində torpaqların xüsusi mülkiyyətə verilməsi insanların torpağa münasibətini köklü surətdə dəyişmişdir. Öz torpağının, yəni mülkiyyətinin tamhüquqlu sahibi olan Azərbaycan kəndlisi artıq sahibkardır, torpağını əkib-becərir, ondan bəhrələnir və eyni zamanda, millı sahibkarlar təbəqəsinin təmsilçisi kimi, ölkə iqtisadiyyatının inkişafına, ölkənin iqtisadi qüdrətinin artmasına konkret töhfəsini verir.

Mülkiyyət çoxnövlülüyünün bərqərar edilməsi ölkədə sərbəst iqtisadiyyatın, azad sahibkarlığın inkişaf etməsi üçün əlverişli zəmin yaratmışdır. Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyasında azad sahibkarlığın, özəl bölmənin inkişafı üçün zəruri şəraitin təmin edilməsi mühüm yer tutur. Heydər Əliyev deyirdi: «İstəyirik ki, insanlar mülk sahibi olsunlar, əmlak sahibi olsunlar, sahibkar olsunlar»; bu şərtlə ki, gərək «bizim sahibkarlarımız qanuna riayət etsinlər, qanuni yolla getsinlər. Onlar qanuni yol ilə gedərək həqiqi sahibkar ola bilərlər». Məhz buna görə Heydər Əliyev dövlət orqanlarından tələb edirdi ki, «qanuni yolla sahibkarlıq etməkdə sahibkarlara maneçilik törətməsinlər, əngəllər yaratmasınlar, mane olmasınlar, qanuni tələbləri yerinə yetirərkən onları rüşvət verməyə sövq etməsinlər, rüşvət almasınlar, onlarla birlikdə qanunu pozmasınlar», «sahibkarlığın inkişaf etdirilməsi üçün indiyə qədər yaradılan və mövcud olan əngəllər aradan götürülsün, sahibkarlara onların normal fəaliyyət, qanuni fəaliyyət göstərməsi üçün şərait yaradılsın, kömək edilsin».

Bu başlıca prinsiplər Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi naminə Heydər Əliyevin daim rəhbər tutduğu, onun təşəbbüsü ilə qəbul edilmiş qanun və məcəllələrdən, imzaladığı fərman və sərəncamlardan, təsdiqlədiyi dövlət proqramlarından qırmızı bir xətt kimi keçən prinsiplər olmuşdur. Məhz bunun sayəsində indi Azərbaycanda milli sahibkarların böyük bir ordusu meydana gəlmiş, özəl bölmənin payı iqtisadiyyatda 75 faizı keçmişdir.

İqtisadi və sosial inkişaf strategiyası cəmiyyətin ali məqsədləri kompleksində mövcud imkanlardan səmərəli istifadə hallarını axtarmaq və onları əlaqələndirmək metodlarını əhatə edir. Bu mənada Heydər Əliyevin formalaşdırdığı və uğurla həyata keçirdiyi yeni neft strategiyası müstəsna əhəmiyyətə malikdir. 1994-cü il sentyabrın 20-də imzalanmış «Əsrin müqaviləsi» və sonrakı illərdə dünyanın 14 ölkəsinin 33 aparıcı neft şirkəti ilə bağlanmış müqavilələr dövlət müstəqilliyinin möhkəmləndirilməsində və Azərbaycan iqtisadiyyatının dirçəldilməsində mühüm rol oynamaqla bərabər, bütövlükdə sosial-iqtisadi inkişafın və tərəqqinin möhkəm özülü olmuş, Azərbaycanın dünyaya açılmasında əvəzsiz rol oynamışdır.

Dünya iqtisadiyyatına inteqrasiya və Azərbaycanın digər ölkələrlə əməkdaşlığı Heydər Əliyev iqtisadi strategiyasının əsas istiqamətlərindəndir. Bu mənada onun belə bir fikri inkaredilməzdir ki, ölkələrin iqtisadi

sahədə bir-biri ilə düzgün qurulmuş ikitərəfli əməkdaşlığı, bir tərəfdən bu əlaqələrdə iştirak edən hər bir dövlət üçün mənfəətlidirsə, digər tərəfdən də iqtisadi inteqrasiya bütövlükdə dünya iqtisadiyyatının inkişafının yeganə yoludur. Heydər Əliyevin iqtisadi strategiyasında xarici iqtisadi əlaqələrin milli iqtisadi maraqların gözlənilməsinə təminat verən bir tərzdə, yəni bir tərəfdən ölkəyə xarici investisiyaların cəlb edilməsi, onların respublika ərazisində ümumdövlət siyasətinə uyğun yerləşdirilməsi, digər tərəfdən isə respublikanın ixrac potensialının inkişaf etdirilməsi, milli ixracatçıların əlaqələndirilməsi və onların maraqlarının müdafiə olunması istiqamətində qurulması başlıca prinsipdir. Heydər Əliyev deyirdi: «Biz dünyaya açıq bir ölkəyik. Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qururuq, demokratik cəmiyyət formalaşdırırıq. Bütün sahələrdə, o cümlədən iqtisadiyyat sahəsində ölkəmizi dünya iqtisadiyyatına bağlamaq istəyirik. Bu baxımdan ölkəmizin böyük təbii sərvətlərini hərəkətə gətirmək üçün, onu inkişaf etdirmək üçün şübhəsiz ki, bizim xarici şirkətlərlə, xarici ölkələrlə, xarici sərmayəçilərlə sıx əməkdaşlığımız lazımdır. Azərbaycana sərmayə gətirmək lazımdır. Azərbaycana sərmayə qoyuluşunu təmin etmək lazımdır. Bunun üçün isə – hər bir şirkətin, hər bir bankın, hər bir ölkənin başqa bir ölkədə sərmayə qoyması üçün, iş görməsi üçün birinci növbədə ictimai-siyasi vəziyyət, durum və ictimai-siyasi vəziyyətin sabitliyi nəzərə alınır».

Heydər Əliyev xarici investorları Azərbaycanla əməkdaşlığa sövq etmək üçün ölkədə hər cür şərait yaradılmasını, xarici investorların, Azərbaycanda işləmək istəyən iş adamlarının fəaliyyətinin ən əlverişli şəkildə təmin edilmək üçün hüquqi baza yaradılmasını və kifayət qədər güzəştlər verilməsini daim diqqət mərkəzində saxlayırdı. Bütün bunların nəticəsidir ki, indi Azərbaycan təkcə MDB məkanında deyil, Şərqi Avropa dövlətləri arasında da xarici investisiyanın cəlb olunmasına görə öncül yerlərdən birini tutur.

Heydər Əliyev islahatlarının bir qolunu da maliyyə, vergi və bank sistemində aparılan islahatlar təşkil etmişdir. Bu da ondan irəli gəlir ki, 90-cı illərin əvvəllərində ölkə iqtisadiyyatını bürümüş ağır böhran maliyyə, vergi və bank sistemində özünü daha qabarıq şəkildə büruzə verirdi. Ümumiyyətlə, həmin dövrdə maliyyə sahəsində böhranı dərinləşdirən bir çox səbəblər mövcud idi ki, bunlara da əsas etibarilə pul-kredit siyasətindəki ciddi qüsurlar, dövlət müəssisə və təşkilatlarının maliyyə və kredit eh-

tiyatlarının səmərəsiz istifadə olunması, onların əsassız olaraq qeyri-dövlət strukturlarına axıdılması, bank və vergi sistemindəki nöqsanlar və korrupsiya, qiymət siyasətinin həyata keçirilməsi, əmək haqqının və valyuta bazarının tənzimlənməsi ilə bağlı dəqiq mexanizmin olmaması aid edilə bilər. Cəmiyyət həyatının bütün digər sahələrində olduğu kimi, maliyyə münasibətlərinin sağlamlaşdırılmasında da Heydər Əliyevin rəhbər tutduğu başlıca prinsiplər qanunun aliliyinin təmin edilməsi, intizamın möhkəmləndirilməsi, korrupsiyaya, rüşvətxorluğa, vəzifədən sui-istifadə hallarına qarşı ardıcıl mübarizə təşkil etmişdir. Vergi sistemində qayda yaradılması, kredit resurslarından səmərəli istifadə olunması, bank sisteminin beynəlxalq standartlara uyğun şəkildə qurulması, qiymətqoyma sahəsində həyata keçirilən zəruri tədbirlər, başlıcası isə maliyyə nəzarətinin sivil formalarının, o cümlədən auditin tətbiqi ölkədə maliyyə münasibətlərinin sağlamlaşdırılmasında əvəzsiz rol oynamışdır. Heydər Əliyev deyirdi: «Biz bütün sahələrdə qayda-qanunun möhkəmlənməsinə nail olmalıyıq. Nizam-intizamı, qayda-qanunu pozan şəxslərə qarşı ciddi tədbirlər görülməlidir. Hamımız bilməliyik ki, demokratik, hüquqi dövlət, cəmiyyət eyni zamanda intizam, hörmət və ehtiram, dövlətin qanunlarına lazımınca əməl olunmasını tələb edir». Bu, bütövlükdə Heydər Əliyev islahatlarının demokratizmini təmin edən başlıca şərtlərdən biri olmuş və belə bir şərt olaraq qalmaqdadır.

* * *

Heydər Əliyevin müəyyənləşdirdiyi və uğurla həyata keçirdiyi demokratik iqtisadi islahatlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ardıcıl səyləri və məqsədyönlü fəaliyyəti sayəsində müasir mərhələdə yeni məzmun və məna kəsb etmişdir. «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 2003-cü il 24 noyabr tarixli fərman, Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008-ci illər), korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər) və digər mühüm dövlət sənədləri Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının reallaşdırılmasına, son nəticə etibarı ilə ölkənin inkişaf və tərəqqisinə, Azərbaycan xalqının rifahının durmadan yaxşılaşdırılması məqsədlərinə xidmət edir.

ƏLİ ƏLİRZAYEV
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

NEFT SƏNAYESİNİN SOSİAL-İQTİSADİ MAHİYYƏTİ VƏ ONUN TƏDQİQİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

Azərbaycanın iqtisadi müstəqilliyinin maddi-maliyyə əsasını Heydər Əliyev neft potensialının iqtisadi dövriyyəyə cəlb edilməsində görürdü. Ona görə də 1998-ci ildə xalqın təklifi ilə hakimiyyətə gələn H.Əliyev 40 min ABŞ dolları həcmində olan neft kontraktlarına razılıq verməklə, onun miqyasını, həcmini, iştirak payını müəyyən edən və Azərbaycan iqtisadiyyatının perspektiv inkişafına zəmin yaradan «Əsrin müqaviləsi»nin nəzəri və praktiki aspektlərini hazırladı.

Neft-qaz sənayesi Azərbaycan iqtisadiyyatında tarixi rol oynamaqla ölkə iqtisadiyyatının ayrı-ayrı dövrlərdə və dövlətçilik formalarında ölkənin tələbatını ödəmək üçün strateji əhəmiyyət kəsb edib. Onun kompleks kimi formalaşması Azərbaycan iqtisadiyyatının əmək bölgüsündə ixtisaslaşma səviyyəsini və onun rolunu müəyyənləşdirir. Neft qaz sənayesi sahə kimi əmək prosesi olmaqla inkişaf edib, inkişaf üçün elmi-texniki tərəqqinin və kadr potensialının formalaşmasına səbəb olur. Neft «potensialı» özünün formalaşma və strukturuna görə digər sahələrdən fərqlidir. Neft-qaz sənayesi proses olaraq ekoloji, geofiziki amillərdən asılı olmaqla, onun spesifikası daha çox gəlirlər gətirmək qabiliyyətinə malikdir. Neft hasilatı, satışı və emalı arasında tarazlı inkişaf olmazsa, hər bir sahənin istehsal güclərinin uyğun gəlməməsi itkilər və yaxud neft məhsulunun tam istehsal tsikli keçmədən satılmasına gətirib çıxarır. Ona görə də prezident H.Əliyev bu sahənin kompleks təhlili və inkişaf meylləri tədbirlərini yaratmaq üçün hər bir göstəricisinin dinamikasını, meyllərini tədqiq edib, perspektiv nəticələrə gəlmək yollarını vermişdir.

Neft - sənaye sahəsi olmaqla elmi-texniki və intellektual potensialın istifadəsi və inkişafı üçün əsas baza rolunu oynayır. Belə ki, neft sənayesi, elmi-texniki tərəqqi ilə yanaşı, yüksək keyfiyyətli məhsul istehsalına gətirib çıxaran texnoloji proseslərin məcmuu kimi çıxış edir. Ona görə də neft sənayesində neftin emal dərinliyi onun hər tonundan alınan ikinci və

üçüncü məhsulların təkrar emalı üçün şərait yaradır. Ona görə də neft istehsal edən ölkələrin iqtisadi potensialının spesifik xüsusiyyətləri və ixtisaslaşma səviyyəsi mövcuddur.

Xarakterik cəhət olan neft kompleksi, onun hasilatı və emalı üçün zəruri olan maşınqayırma, kimya elektronika, avtomatlaşdırma və planlaşma sahələrinin qarşılıqlı təsiri ilə müəyyənləşir. Azərbaycanda neft potensialının, hənçinin kadr potensialının formalaşması onun elmi bazasının inkişafı ilə bağlıdır.

Neft sahə olaraq hər bir ölkədə çəkilən xərc və əldə olunan mənfəətlə iqtisadi səmərə əldə edir. Bu xərclərin aşağı salınması, onun təşkili və idarə edilməsi təcrubəsindən və spesifik xüsusiyyətlərindən asılı olmaqla formalaşdırılır və idarə olunur. Ona görə də neft hasilatı və istifadəsinin elmi əsaslarla qurulması onun kəşfiyyatı, ehtiyatları və istismarı kimi ayrı-ayrı sahələrin və sistemaltı fəaliyyətlərin qarşılıqlı əlaqəsi modernləşdirilməsi problemləri ilə bağlıdır.

Digər sahələrdən fərqli olaraq neft hasilatı ölkə üçün gəlir gətirən sahədir. Onun hasilatı və istifadəsində Azərbaycan üçün spesifik xüsusiyyətlər mövcuddur. Neft dövlət mülkiyyətində olmaqla, onun dövlət təşkili və idarə olunması dövlətin strateci məqsədləri və bölgü prinsipləri əsasında baş verməlidir. Dövlət mülkiyyətində olan neft hasilatı dövlət proqramları əsasında reallaşır. Dövlətin strateji inkişaf konsepsiyası neft sənayesinin perspektivi, neft hasilatı və onun istifadəsinin alternativ variantlarından ən əlverişlisi və ölkənin milli maraqlarını təmin edən istiqamətləri əsas götürülür. Respublikada aparılan konseptual inkişaf istiqamətləri neft amilini nəzərə almaqla əsaslandırılır, idarə olunur və perspektiv dövrdə onun təkrar istehsalı üçün tədbirlər proqramı hazırlanır. Neft hasilatının məhz islahatlar dövründə beynəlxalq səviyyəli kontraktlar ilə həyata keçirilməsi ölkənin iqtisadi potensialının, SSRİ dövlətinin dağılması və islahatlar şəraitində təsərrüfat əlaqələrinin pozulması dövrü üçün zəruri mənbə kimi özünə yer tapmalıdır.

Müstəqillik şəraitində neft potensialı respublikada iqtisadi islahatların reallaşması üçün maliyyə mənbəyi funksiyasını oynayır. Bu məqsədlə xarici şirkətlərin neft hasilatı üçün cəlb edilməsi, müəyyən investisiya şəraitinin yaradılması və pay bölgüsü sistemində maraqların tarazlığı, vergi, idxal-ixrac şəraiti, öhdəliklər və məsuliyyətlər sistemi yaratmaq vəzifələri Azərbaycan dövlətinin neft strategiyası kimi formalaşmağa və inkişaf

etməyə başladı. Neft strategiyası öz mahiyyəti və struktur etibarilə məqsədli proqram yanaşma metodologiyasının Azərbaycan neftı şəraitində nəzəri və praktiki aspektlərinin üzvü vəhdətidir.

Neft sahəsi maraqların kəsişdiyi, renta münasibətləri, təbii sərvətin istifadəsində ayrı-ayrı subyekt və obyektlərin iştirak payının nəzərə alınması, daha çox perspektiv inkişaf problemləri ilə bağlı olan təsərrüfat fəaliyyəti olmaqla, özünəməxsus göstəricilər sistemi amilləri və tənzimləmə metodları tələb edir. Neft sahəsinin əsas iqtisadi mənası onun ümumi daxili məhsulun formalaşmasında, investisiya qoyuluşlarının istifadəsində, əməyin xarakteri və məzmununun formalaşmasında özünəməxsus xüsusiyyətlər kəsb edir. Azərbaycan Respublikasında neft sektoru SSRİ məkanından fərqli olaraq ölkənin mərkəzləşdirilmiş resursları və gəlirlərinin formalaşmasında bir başa rol oynayır. SSRİ dövründə neft sektorunun rolu ancaq Azərbaycan əhalisinin iş yerləri ilə təmin olunması və həmin sahənin maddi-texniki bazasının genişlənməsi ilə artım əldə etmək məqsədi üçün çəkilən xərclərdən ibarət olmuşdur. Xalis mənfəət SSRİ mərkəzləşdirilmiş gəlirlərin tərkib hissəsi olmaqla, ancaq sosial normalar çərçivəsində ayrılırdı. Respublikanın digər sahələri öz gəlirləri hesabına və mərkəzləşdirilmiş plan əsasında inkişaf etdirilirdi.

Müstəqillik şəraitində neft gəlirlərindən iqtisadi artım, sosial-iqtisadi inkişaf və əhalinin rifahı baxımından istifadə edilməlidir. Azərbaycanın neft potensialının perspektivini nəzərə alaraq onun istifadəsinin əsas istiqamətlərini respublikanın konseptual inkişaf istiqamətlərində axtarmaq H.Əliyevin neft strategiyasının əsas məqsədidir. Fikrimizcə, bu konseptual istiqamətlərinin qoyuluşunu aşağıdakı istiqamətlərin tədqiqi və idarə edilməsi, təsərrüfat mexanizminin təkmilləşdirilməsində axtarmaq lazımdır. Bu istiqamətlərin hər biri özünün meyar və göstəricilərini, tənzimləmə mexanizmlərini və sosial-iqtisadi nəticələrini kəsb edir. Prezident İ.Əliyevin iqtisadi siyasətini aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

1. Sosial-iqtisadi inkişafın sürətlənməsi konsepsiyası baxımından neft strategiyası sürətlənmə strategiyasının obyektiv zəruriyyətindən meydana çıxır. O, iqtisadi artım və sosial inkişaf meyarları aspektindən təhlil edilməli və proqnozlaşdırılmalıdır.

2. Konseptual istiqamətlərin sosial prioritetləri ilə neftin rolu aşağıdakı istiqamətlərdə uzlaşmalıdır:

a) regionların sosial-iqtisadi inkişafı;

b) yoxsulluğun ləğvi;

c) qütbləşmənin iqtisadi əsaslarının və formalaşma meyllərinin obyektiv təsviri və perspektiv meyllərin dövlət tənzimlənməsi;

ç) inteqrasiya proseslərində ixracat yönlü siyasətin həyata keçirilməsi;

d) iri korporasiyaların və transmilli kampaniyaların inkişafı ilə yerli əhalinin maraqlarının təmin olunması;

e) respublikada neft sektorunun inkişafı ilə büdcə-maliyyə siyasətində inkişaf üçün zəruri istiqamətlərin müəyyənləşdirilməsi.

Bu gün respublikada konseptual inkişaf istiqamətlərində Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, Avropa İqtisadi Birliyinin tələbləri baxımından baş verən dəyişmələrin, yaxud proqnozlaşdırılan tədbirlərin neft amilini qiymətləndirməklə modefikasiyası aşağıdakılardan ibarətdir:

a) daxili bazarın qorunması və sahibkarlığın inkişafı;

b) iş yerlərinin itirilməsi, yaxud yeni iş yerlərinin açılması;

c) qiymət dəyişmələrinin proqnozlaşdırılması ilə kompensasiya mexanizmlərinin tətbiqi;

ç) rifahın dinamikası və sosial təminat problemlərinin həlli;

d) inflyasiyanın sosial-iqtisadi nəticələrinin qiymətləndirilməsi və tədbirlərin əsaslandırılması.

II. Sosial-iqtisadi inkişafda həyata keçirilən himayəçilik tədbirlərinin maddi-maliyyə, təşkilati əsaslarını yaratmaq:

a) büdcə siyasətinin təkmilləşdirilməsi onun daha çox investisiya yönlü olması;

b) investisiyanın təşviqi və inkişafla uzlaşması;

c) regionlara güzəştli kredit və ünvanlı investisiya verilməsi;

ç) sahibkarlığın region fəzası üzrə stimullaşdırılması;

d) büdcədən kənar fondların istifadəsinin səmərəsinin artırılması;

e) neft qiymətlərinin dəyişməsinin dövlət büdcəsində nəzərə alınması;

ə) pensiya islahatlarının keçirilməsi yolu ilə yaşayış minimumuna yaxınlaşmanın sürətlənməsi.

Bugünkü iqtisadiyyatda islahatların səmərəsində inhisarçılıq və antiinhisar fəaliyyətinin qanunvericilik bazası, onun tənzimlənməsi, ixrac və idxal siyasəti sürətlənmə üçün əsas amildir. Bu məqsədlə aşağıdakı amilləri tənzimləmək vacibdir:

a) gömrük rəsminin səmərəli təşkili;

b) idxalda inhisarçılığın qarşısının alınması;

c) dövlətin inhisar rolu əvəzinə onun antiinhisar tədbirlərinin gücləndirilməsi;

ç) müəyyən güzəştlərin ləğvi ilə yanaşı, ona bərabər ödəmə sistemlərinin tətbiq edilməsi.

Yuxarıdakı konseptual inkişaf istiqamətlər neft sektorunun iqtisadi yükünü, onun mexanizm kimi istifadəsini müəyyənləşdirir. Ona görə də neft sektoruna ayrıca bir sahə kimi yox, vahid iqtisadi sistemin məqsədləri və resursları tarazlığında həlledici idarə obyekti kimi baxırıq. İstənilən idarəetmə obyekti qanunvericilik və mexanizmlər sistemi ilə tənzimlənir. Neft sektorunun fərqli cəhəti, onun adi istehsal sahəsi kimi səmərəli meyarı, maksimum mənfəət götürməklə yanaşı, həmin mənfəətin səmərəli istifadəsi ilə ölçülür. Ona görə də neft sektorunu tədqiq edərkən biz istehsal xüsusiyyətlərindən daha çox onun sosial-iqtisadi nəticəsi, yaxud neftlə bağlı məsələlərin spektral təsviri ilə məşğul oluruq. Neft məhsullarının təkrar istehsal prosesi nəticəsində onun istehlak dəyərinin dəyişmə profili çox saxəli olduğu üçün, onun istehsal və istehlak arasındakı şəkildə məşğuliyyət və gəlirlərin yenidən bölgüsü daha geniş əhatə dairəsinə malikdir. Ona görə də neft gəlirlərinin proqnozuna, formalaşması amillərinə ümumi iqtisadi inkişafın makrosəviyyəli problemi kimi baxmaq ayrıca tədqiqat predmetidir. Müasir dövrdə neft gəlirlərinin iqtisadi-siyasi mahiyyətini müəyyən edən konkret proqramlar və istifadəsini tənzimləyən normativ-hüquqi aktlar mövcuddur.

Neft gəlirləri, onun xərcləri müstəqil tədiyyə balansı kəsb etməklə ölkənin maliyyə-kredit sistemində vergi gəlirləri, sosial müdafiə və həmçinin birbaşa və büdcə vasitəsi ilə bölgü və yenidən bölgü münasibətlərində aparıcı həlqə olduğu üçün iqtisadi idarəetmə sisteminin sahə baxımından deyil, makrosəviyyəli təhlil və proqnozu metodologiyası baxımından xeyli əhəmiyyətlidir.

Bu əsaslara neft sektorunun makrosəviyyəli iqtisadi problemlər kimi baxılmasına, onun əsas strategiyasına H.Əliyevin baxışı, sahə daxili və sahədən kənarda digər funksional iqtisadi sistemlərin əlaqəsi formasında tədqiq etməyə və idarə etməyə imkan verir.

Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri bu mərhələlərdə əsas sintetik göstəricilərin dəyişmə dinamikası və restruktizasiya strategiyası neft gəlirlərinin bütün sahələr üçün ortaq olmasını daha prioritet istiqamətlər üzrə aparılmasını tələb edir. Azərbaycan Respublikasının dövlət gəlirləri və əhali gəlirləri arasında tarazlılığın və neft gəlirlərinin hər iki

mənbəyə təsiri neft gəlirlərinin sonrakı inkişafı ilə bağlıdır. Bu gün Azərbaycanda dövlət gəlirlərinin formalaşmasında əsas mənbələrdən biri neft gəlirləri olmaqla, dövlət xərclərinin müdafiə olunan xərclərini və investisiyanın əsas hissəsini təşkil edir. Əgər neft gəlirləri olmazsa, artıq formalaşmış potensial xərcləri ödəmək imkanının olması proqmatik idarəetmə problemidir. Neft sektorundan mövcud iqtisadi inkişafa ayrılan vəsait sonrakı artım üçün kifayət edəcəkmi? Bu məsələlər neftdən gələn gəlirlərin istifadə üsulları və mexanizmlərinin elmi əsaslarla sosial-iqtisadi inkişafın proqnozunun əsas prioritetləri ilə bağlanması metodologiyasının adekvatlığı dərəcəsindən asılıdır.

Qeyri-neft sektoru bu gün Azərbaycan iqtisadiyyatında oynadığı rolun gələcəkdə multiplikasiya effekti hesabına artmağını təmin etməlidir. Ona görə də perspektiv proqnozlarda xarakterik cəhət bir tərəfdən neft sektorunun rolunu digər sahələrin inkişafından sonra əvəz edilməsi strategiyası əsas aparıcı meyl kimi qəbul olunur.

Belə ki, büdcə proqnozlarında 2005-ci ildə ÜDM-un tərkibində neft sektorunun payı 50% proqnozlaşdırılır. Əgər digər sənaye sahələrinin də rolunu nəzərə alsaq, onda sənaye potensialı 53%-ə qədər yüksəlir. Təbii ki, sənayenin payının neft sektoru hesabına formalaşması, fikrimizcə, respublikada digər sahələrin az inkişafını göstərir. Bu da öz növbəsində sənaye potensialının rolunu iqtisadi inkişafda azaldır.

Dövlət gəlirlərinin formalaşmasında neft gəlirlərinin rolu birbaşa vergilər və mənfəətdən ödəmələr yolu ilə baş verir. Dünya praktikasında neft gəlirlərinin yığılması və istifadəsi iqtisadi imkanlar strategiyasına uyğun qurulur. Təbii ki, bu metodoloji prinsiplərin məqsədi eyni olsa da, forma və vəsaitləri, spesifik olaraq ölkə iqtisadiyyatının inkişaf səviyyəsi və islahatların dərinliyi müddəti, həmçinin əhalinin rifahının mövcud vəziyyəti və perspektivdə yüksəldilməsi tədbirləri ilə müəyyənləşir. Azərbaycanda keçid dövrünün xarakteri ərazi bütövlüyünün təmin olunması və əhalinin həyat səviyyəsində differensiasiya neft gəlirlərinin hələ iqtisadiyyatın tam səmərəli olmayan mərhələsində istifadə edilməsi, həmin vəsaitin effektivsizliyinə səbəb ola bilər. Ona görə də xüsusi hal olan Neft Fondunun yaradılması yolu ilə reallaşdırılır. Neft Fondu məqsədli maliyyə vəsaiti olub, neft gəlirlərini özündə birləşdirməklə respublikanın sosial-iqtisadi inkişafına yönəldilən, idarə olunan pul vəsaitidir. Neft Fondunun gəlirlər və xərclər balansı hər il tarazlaşdırılmaqla ictimaiyyətə bəyan edilir.

Neft Fondu, Sosial Müdafiə Fondu və digər büdcədən kənar fondlar ölkədə maliyyə balansının tərkib hissəsi olmaqla, onun artması və azalması dövlət büdcəsində və yuxarıdakı fondların dəyişməsində özünü göstərir. Neft Fondu təşkilatı forma olaraq ölkənin maliyyə potensialının tərkib hissəsi kimi, pul-kredit dövriyyəsində baş verən dəyişmələrə uyğun olaraq deformasiyaya məruz qala bilər. Ölkədə olan inflyasiya səviyyəsi hər hansı layihənin dəyərinin dəyişməsi, fondun alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb ola bilər. Ona görə də Neft Fondunun istifadəsi və saxlanılmasının meyarı onun indeksasiyası prosesini nəzərə almalıdır. Ona görə də Neft Fondunun idarə edilməsi müəyyən risklərlə bağlıdır. Təbii ki, inflyasiya hər bir daşınmaz əmlakın dəyərini, əgər mənəvi aşınmaya məruz qalınırsa, artıra, yaxud dəyərinin artırılmasına gətirib çıxara bilər. Ona görə də uzunmüddətli neft layihələrinin inflyasiya nəticəsində qiymətinin dəyişməsi metodoloji baxımdan qiymətləndirilməlidir.

Neft sahəsi kompleks sahə və təsərrüfat fəaliyyəti olduğu üçün onun istehsalı, daşınması və emalı prosesləri hər biri ayrılıqda və sistem halında vahid dəyərin istehsalı və istehlakını özündə birləşdirir.

Bazar iqtisadiyyatı şəraitində respublikada transformasiya mərhələləri və spesifik xüsusiyyətləri neft sektoruna bir başa və dolayısı yolla təsir edir və onun planlaşması və idarə olunmasının bazar tipli modelini yaradır. İlkin növbədə neft strategiyası məhsullarına ehtiyacını və valyuta gətirmək tələbatını nəzərə alaraq artım modelinə və bölgü prinsiplərinə uyğun planlaşdırılır.

Neft resurslarının formalaşma mənbələri daxili və xarici resursların cəlb edilməsinin prinsipləri və maraqların təmin olunmasının iqtisadi mexanizmlərini formalaşdırır. Beynəlxalq səviyyəli kontraktlarda iştirak payına uyğun olaraq mənfəət neftinin bölünməsi arasında stimullaşdırma mexanizmlərinin tətbiqi və investisiyanın təşviqi mexanizmləri əsaslandırılır. O cümlədən, resursların qiymətləndirilməsi, mənfəət neftinin hesablanması metodikası əsaslandırılır. Neft hasilatı renta münasibətləri və differensial şəraitlərlə bağlı olduğu üçün xərclərin hesablanmasında müxtəlif resursları vahid ölçü və qiymətləndirmə metodikasına gətirilməsi «gətirilmiş məsrəf» metodikası ilə tətbiq etmək olar.

Bu metodikanın əsas cəhəti ondan ibarətdir ki, müxtəlif əlverişli təbii şəraitdən asılı olaraq çəkilmiş məsrəflər az olarsa, onda mənfəət nefti yüksək ola bilər, bu da kontraktda iştirak edən şirkətlərin eyni məsrəfdə

müxtəlif gəlir əldə etməsinə səbəb ola bilər. Məhz bu qeyri-bərabərliyin qarşısını almaq üçün orta mənfəət norması və orta məsrəf xərcləri əsas baza olaraq eyni xərcdə eyni mənfəət götürmək prinsipi tətbiq edilməlidir.

İnvestisiyanın təşviqi kontraktlarda beynəlxalq səviyyəli maraqlara uyğun reallaşır, müştərək əməliyyatların həyata keçirilməsi üçün gətirilən avadanlığın gömrük vergilərindən azad edilməsi mənfəət neftinin daşınması zamanı xərclərdən başqa ödəmələrin bərabər normativlər, yaxud güzəştli xərclər vasitəsi ilə tətbiqi metodikası tətbiq edilir. İnvestisiya qoyuluşunda risk dərəcəsi sahibkarın sərəncamında qaldığı üçün iştirak payından asılı olaraq idarəetmə və kadr potensialının seçilməsində risk sahibinin üstünlükləri təmin olunur. Ona görə də risklərin bölgüsü, səlahiyyət və öhdəliklərin bölgüsü prinsipləri ilə kəmiyyətcə uyğunlaşır.

Azərbaycan Respublikası xarici şirkətlərlə neft müqavilələrində tərəfdaş kimi iştirak etməklə, özünün formalaşmış neft potensialını, kadr potensialını və yaradılmış infrastrukturu istifadə etmək və əvəzində mənfəət neftindən pay almaq səlahiyyətləri vardır. Həmçinin respublikada təbii sərvətin yerli resursların istehlak məqsədi ilə istifadəsində bazar iqtisadiyyatı qanunauyğunluqlarına uyğun olaraq müəyyən əlavə resurslara görə ödəmə formasında haqq ola bilir. Təbii ki, bu haqq şəklində ödəmələr həmin resursların bazar iqtisadiyyatı şəraitində təkrar istehsalı və təbii resursların qiymətləndirilməsi metodikası ilə bağlıdır. Təbii resursların qiyməti həmin resursların elə satış qiymətinə bərabər götürülür ki, onun banklara qoyulmasında əldə alınan faiz normasına bərabər olsun.

Neft ixracatyönlü məhsul olduğu üçün onun satışı və daxili tələbat üçün istifadəsi, strateji inkişaf istiqamətlərindən və menecment idarəçiliyindən asılı olaraq alternativ texnoloji proseslər və yaxud marketinq planlaşması üçün adekvat iqtisadi obyektdir. Bu problemlərin tədqiqi hər biri öz sahəsində spesifik qiymətləndirmə, proqnozlaşdırma və qərar qəbulu etməyə imkan verir.

Neft məhsulları bu baxımdan dünya qiymətlərinin dəyişməsindən asılı olaraq ahəngdar tənzimlənən proses olaraq idarə olunmalıdır.

Əgər neftin satış qiyməti artırsa, bu ixrac edən ölkələr üçün gəlir mənbəyi olmaqla daha çox ixracata iqtisadi cəhətdən meyl yaradır. Ancaq neft məhsullarının dünya qiymətlərinin artması bütövlükdə dünya bazarında bahalaşmaya gətirib çıxarır. Bu da öz növbəsində idxal məhsullarının

qiymətini artırır. Nəticədə neft hasilatı üçün zəruri olan texnologiyaların qiyməti artır, dolların alıcılıq qabiliyyəti azalır. Neft həcmini alan ölkələr əlavə dollar emissiyasına gedir. Bu da avro və dollar bazarında fəaliyyət göstərən şirkətlərin və dövlətlərin daxili qiymətlərinin dəyişməsinə və investisiyası çox olan ölkələrin dollar bazarından asılılığını artırır. Məhz belə problemlərin həlli ümumi effektin aşağı düşməsinə səbəb olur.

Emissiya gəlirlərinin artması dünya bazarında dollar və avroya olan tələbatla ölçülür. Bu da öz növbəsində valyuta bazarının genişlənməsi və inkişaf etmiş ölkələrin qloballaşma şəraitində daha da iqtisadi gücün artmasına, keçid dövrü yaşayan ölkələrin həmin ölkələrdən geri qalmasına səbəb olur. Neft gəlirlərinin bölgüsü onun qiymət dəyişməsindən, yaxud idarə edilməsi aspektlərindən və mülkiyyətin istifadə edilməsi formasından və həmin təsərrüfatın təşkilatı quruluşundan asılı olaraq formalaşma xüsusiyyətləri və dinamikası tədqiqat obyekti olaraq idarə olunur. Neft hasilatı və bölgüsünün respublikadaxili münasibətlərə təsiri tənzimləmə obyekti olaraq, təkcə Azərbaycan iqtisadi islahatlar çərçivəsində deyil, həmçinin beynəlxalq iqtisadi qurumlar və maliyyə korporasiyaları tərəfindən tövsiyələrlə tənzimlənir. Beynəlxalq qurumlar investisiya, yaxud uzunmüddətli kreditlərin verilməsində müəyyən şərtlərin daxili real iqtisadi sektorlarda tətbiq olunmasına öhdəçilik formasında idarəetmə mexanizmi kimi tətbiq edirlər. Belə ki, Beynəlxalq Valyuta Fondu (BVF) enerji resurslarının qiymətinin təqribən yüksəldilməsi və dünya qiymətlərinə yaxınlaşmasını, həmçinin güzəştlərin ləğvi, neft gəlirlərinin aşkarlığı və onun büdcə vasitəsi ilə xərclənməsi tədbirlərini öhdəçilik kimi Azərbaycan iqtisadiyyatının transformasiyası modelinə əlavələr kimi diktə edir. Təbii ki, bu tələblər Azərbaycan iqtisadiyyatının transformasiyası modelinin əsas cəhətlərini, onun ardıcıllarını və neft strategiyasının xüsusiyyətlərini formalaşdırır.

İslahatlar şəraiti bir sıra sosial nəticələri ilə səciyyələnir. Bu nəticələrin proqnozlaşdırılması bir sıra kompleks maliyyə və təşkilati tədbirlərin hazırlanmasına gətirib çıxarır. Bu məqsədlə neft sahəsinin idarə edilməsi üçün iqtisadi və qlobal səviyyəli sosial-iqtisadi meyarlar tətbiq olunur. Belə tədbirlərin əsasını neft gəlirlərinin sosial təminat və büdcədənkənar fondlar vasitəsi ilə bu sahədə işləyənlərin şəraitinin yaxşılaşdırılmasına, büdcə gəlirlərinə ayırmalar yolu ilə sosialyönlü siyasətin həyata keçirilməsinə, vəsaitlərin təmin edilməsinə yönəlməlidir.

Neft sahəsi təsərrüfat fəaliyyəti olmaqla mülkiyyət münasibətlərindən asılı olmayaraq digər sahələrlə və beynəlxalq səviyyəli xüsusi şirkətlərlə müqavilələr və maraqlar əsasında təşkil olunur. Neft sektorunun Dövlət idarəetmə sistemi və dövlət qarşısında müəyyən vəzifələri və səlahiyyətləri uyğun idarəetmə mexanizmləri vasitəsi ilə həyata keçirilir. Əsas mexanizm vergilər və gəlirlər mexanizmidir. Neft şirkəti təşkilati quruluş olaraq ixracat vergilərindən başqa digər vergiləri mənfəət neftinin hesabına ödəməklə reallaşdırır, əlavə dəyər, mənfəət, əmlak və uyğun olaraq idxal-ixrac vergisinə məruz qalır.

Neft hasilatı beynəlxalq müqavilələr əsasında fəaliyyət göstərdiyinə və onun daşınması üçün infrastruktura xərcləri sərf olunduğu üçün vergiqoyma da qarşılıqlı effekt və milli qanunlar əsasında tənzimlənir. Vergi güzəştləri hökumətlərarası bərabər prinsiplər əsasında tərtib olunur. Əgər hər hansı ölkənin məhsulları digər ölkəyə vahid məqsəd üçün aparılanda vergi güzəştləri tətbiq olunursa, onda digər ölkənin də həmin ölkəyə daşınan məhsullarına eyni vahid güzəştləri tətbiq olunmalıdır. Ona görə də neft kontraktlarında məhz vergi güzəştləri bütün tərəflər üçün bərabər həcmdə və eyni prinsiplər əsasında tərtib olunur.

Neft sektorunun sosial mahiyyəti onun iqtisadi artımı və əhalinin rifahında rolu ilə qiymətləndirilir. Belə ki, neft sənayesində işləyənlərin orta aylıq əmək haqqısı digər sahələrdən və iqtisadiyyat üzrə orta aylıq səviyyədən xeyli yuxarıdır. Neft Fondundan dövlət büdcəsinə ayrılan vəsait hesabına sosial müdafiə xərcləri daha böyük üstünlük təşkil edir. Həmçinin neft gəlirlərinin bir hissəsi respublikada qaçqın və köçkünlərin güzəştlərini ödəmək üçün ayrılır.

Neft sənayesi hesabına yaradılan istehsal infrastrukturu yeni iş yerlərinin açılmasına səbəb olur, həmçinin neft kontraktları ilə əlaqədar respublikada işləyən xarici vətəndaşların gəlirlərinin xərclənməsi hesabına xidmət sferası genişlənir. Xarici vətəndaşlar istehlak tələbatını respublikada istehsal olunan kənd təsərrüfatı məhsulları və xidmət sferası ilə ödəməklə bu sahələrin inkişafını artırır və əhalinin gəlirlərinin artım mənbəyi rolunu oynayır.

Bir sıra rayonların təbii iqlim, coğrafi şəraiti respublikada turizmin fəaliyyətini genişləndirir, həmin regionlara xarici vətəndaşları cəlb etməklə, əlavə gəlir mənbəyi və məşğulluq sferası kimi inkişaf edir. Quba, Xaçmaz, Şamaxı, Şəki və digər regionlarda salınan otel-təsərrüfatı, yeməkxanalar və digər xidmət növləri həmin regionların kompleks inkişafı və əhalisinin maddi vəziyyətini yaxşılaşdırmaq üçün əsas mənbələrdən biridir.

Neft hasilatının xarici şirkətlərə çatan payının daşınması ayrı təsərrüfat fəaliyyəti olmaqla, beynəlxalq layihələr başa çatdıqdan sonra, Azərbaycanın sosial-iqtisadi inkişafı üçün yerli əhəmiyyətə malikdir. O cümlədən, Bakı-Tiflis – Ceyhan neft kəmərinin əsas sosial-iqtisadi rolu həmin regionlarda əhalinin məşğul olan hissəsini artırmaq, infrastrukturun daha geniş inkişafını təmin etməkdən ibarətdir. Bakı-Ceyhan neft kəmərinin, Bakı-Ərzurum qaz kəmərinin çəkilməsi və onların sonrakı istifadəsi Azərbaycan iqtisadiyyatında strateji investisiya layihələri olmaqla, respublikanın regionlarında əhalinin həyat səviyyəsinə, onların regionda məşğulluğuna və sonrakı illərdə daima gəlir gətirən potensial kimi respublikanın siyasi, iqtisadi təhlükəsizliyi üçün qlobal əhəmiyyət kəsb edir. Məhz bu perspektiv layihələr, həmçinin yaranmış magistralın beynəlxalq daşımalar üçün əlverişli variant olaraq, ayrı-ayrı ölkələrin neft və qaz məhsullarını daşımağa şərait yaradır. Ona görə də neft hasilatı, qaz nəqli, ölkənin tranzit rolunu artırır, Qərb və Şərq ölkələri arasında TRASEKA proqramının reallaşması və uyğun olaraq infrastrukturun formalaşması üçün ən əlverişli şərait yaradır. Neft və qaz kəmərlərinin tam gücü ilə istifadəsi, sahibkar şirkətlərin, onların dövlətlərinin Azərbaycana olan iqtisadi və maliyyə axınının daha da artmasına səbəb olacaq.

Neft sahəsinin çox məqsədli və strateji əhəmiyyətini nəzərə alaraq onun təşkili və idarə edilməsinin bir sıra metodoloji cəhətləri və tədqiqi xüsusiyyətləri meydana çıxır ki, həmin xüsusiyyətləri əvvəlcədən müəyyən etmək, yaxud əməli idarəetmə üsullarını tətbiq etməklə səmərəli fəaliyyəti təmin etmək olar. Neft kontraktlarının əməli idarə edilməsi üçün yaradılan təşkilatlar və Azərbaycan Neft Şirkəti arasında təsərrüfat əlaqələri ilə yanaşı, əmək bölgüsü və kommersiya mənafeyinə əsaslanan prinsiplər və qaydalar müəyyən edilir. Beynəlxalq kontraktlar Milli Məclis tərəfindən təsdiq olunan müqavilələr əsasında tənzimlənir. Neft məhsullarının topdan satışı, onun məhsullarının qiymətləndirilməsi və marketinq strukturunun proqnozlaşdırılması hər bir sahənin rentabellik səviyyəsini və onun mənfəətinin artırılması məqsədi ilə idarə olunur. Neft sektorunun idarə edilməsi sahə və ərazi idarəetmə prinsiplərinin vəhdət formasında təşkil olunur.

Regionun kompleks inkişafı və onun inteqrasiya prioritetləri idarəetmə prioriteti olaraq təşkil olunur.

QƏRİB MƏMMƏDOV
Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri

HEYDƏR ƏLİYEV TORPAQ İSLAHATLARI AQRAR TARİXİMİZDƏ NADİR HADİSƏDİR

Danılmaz faktdır ki, XX əsrin sonunu əhatə edən 35 ildən çox bir müddətdə Azərbaycan xalqının tərəqqisi, sosial-iqtisadi, elmi-mədəni inkişafı, dövlətçiliyimizin möhkəmləndirilməsi, 70-ci illərdə respublikamızda orta təbəqənin formalaşdırılması və nəhayət dünyada baş verən ictimai-siyasi proseslər nəticəsində müstəqilliyimiz əldə edildikdən sonra onun qorunub saxlanılması, ölkə daxilində ictimai-siyasi sabitliyin yaradılması, demokratik təsisatların bərqərar edilməsi, Azərbaycanın dünyada tanıdılması, gənc və müstəqil dövlətin beynəlxalq aləmdə layiqli yerini tutması, onun regional mərkəzə çevrilməsi kimi digər yüzlərlə tarixi əhəmiyyətli proseslər məhz Azərbaycan dövlətçiliyinin qurucusu H.Əliyevin adı ilə bağlıdır.

Bu böyük insan Azərbaycana rəhbərlik etdiyi dövürdə xalqımızın xoşbəxtliyi və dövlətçiliyimizin inkişafı üçün gördüyü işləri, əlbəttə bir neçə məqalə və ya bir neçə kitabla əhatə etmək olmaz. Yuxarıda sadaladıqlarımıza əlavə olaraq daha bir fikri qeyd etmək lazımdır ki, Azərbaycanda sənayeləşmənin kütləviləşməsi, regionlara yayılması, Bakı şəhərinin milliləşdirilməsi, milli şüurun inkişafı, vətəndaşlara dövlətçilik ənənələrinin aşılanması, azərbaycançılığın ideoloji-siyasi konsepsiya halına gətirilməsi və Milli birliyin başlıca təminatçısı qismində ictimai şüurda aparıcı mahiyyət kəsb edən əsas faktor səviyyəsinə qədər yüksəldilməsi və s. kimi yüzlərlə tarixi əhəmiyyətli işlər məhz onun adı ilə bağlıdır. Bu baxımdan Azərbaycan Respublikasının 1993-2003-cü illəri əhatə edən müstəqillik dövrü ölkəmizin dövlətçilik tarixi baxımından o qədər əhəmiyyətlidir ki, bu dövr uzun illər tarixçilərin, politoloq və sosioloqların diqqət mərkəzində olacaqdır. Qətiyyətlə demək olar ki, söylədiyimiz zaman kəsiyi, yəni dövlətçiliyimizin memarı Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi yeni era siyasi baxımdan olduqca cəlbedici, maraqlı və əhəmiyyətli olduğu kimi, iqtisadi baxımdan da bir o qədər diqqətəlayiq və mühüm olmuşdur. Çünki bu illərdə həyata keçirilən tədbirlər bir tərəfdən ölkədə siyasi hərc-mərcliyin, anarxiyanın, vətəndaş qarşıdurmasının, sosial narazılıqların, mənəvi aşınmanın, ərazi işğalının qarşısını almaqla yanaşı, başqa bir tərəfdən dövlət institutlarının yaradılması, onların fəaliyyəti, mexanizmlərinin bərpa edilməsi, demokratik təsisatların formalaşdırılması, mədəni-humanitar dəyərlərin, mənəvi meyarların, milli özünüdərkin bərpası, eyni zamanda maddi iqtisadi vəziyyətin yaxşılaşdırılması və iqtisadi dirçəlişin təməllərinin əsasının qoyulması ilə müşahidə edildi.

Bu silsilədə Böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin aqrar-iqtisadi siyasəti də özünəməxsus yer tutmaqdadır.

Bəlli olduğu kimi, hər bir suveren dövlətin sabit və dünya tərəfindən qəbul olunmuş dövlət atributları vardır və məhz onlar bu siyasi vahidi bir dövlət kimi xarakterizə edir. Bu atributlardan biri də torpaq, ərazi atributudur. Yəni hər bir dövlət konkret sərhədlərlə müəyyənləşdirilmiş konkret əraziyə malikdir. Bu atribut özünün çox mürəkkəbliyi və çox şaxəliyi ilə fərqlənən bir sahədir. Dövlətin ərazisi onun əksər fəaliyyət sahələri üçün bazadır, yəni həm siyasi, həm iqtisadi, həm də demoqrafik sahələrin fəaliyyətində Dövlətin yerləşdiyi ərazi, torpaq amili əsas aparıcı amillərdən biri, bəlkə də birincisidir.

Torpaq birinci növbədə iqtisadi amildir və yaxud daha dəqiq desək, bütün maddi nemətlərin yaradılması üçün əsas bazadır. İnsanın təbii ehtiyaclarının ödənilməsi yolunda fəaliyyət göstərən və torpaqla bilavasitə əlaqədar olan aqrar sektorun fəaliyyəti və inkişafı birinci növbədə torpaq amili, sonra isə ondan istifadənin vəziyyəti ilə bağlıdır. Hətta ilkin baxışda torpaq amili ilə bilavasitə əlaqəsi olmayan sənaye istehsalatı da bu və ya digər dərəcədə torpaq, onunla bağlı digər resurslarla əlaqəlidir.

Məhz yuxarıda göstərdiyimiz əsaslardan çıxış edərək dövri mətbuatda dəfələrlə göstərmişik ki, torpaq, onunla bağlı münasibətlər bütün dövrlərdə ölkənin taleyini həll edən əsas amil və faktorlardan biri olmuşdur.

Məlumdur ki, çox da uzaq olmayan keçmişimizə qədər Azərbaycan digər sovet respublikaları kimi Sovetlər İttifaqının tərkibinə daxil idi və iqtisadiyyatının bütün sahələri sovet iqtisadi modelinə uyğun qurulmuşdu. Bu iqtisadi modelin yararsızlığını isə zamanla sübut olundu.

1991-ci ildə Sovetlər İttifaqının dağılmasından və Azərbaycanın müstəqillik əldə etməsindən sonra ölkə qarşısında iqtisadiyyatın zamanın tələb-

formə uyğun olaraq yenidən qurulması kimi həyati əhəmiyyətli problem dayanırdı. Sovetlər İttifaqında mövcud olan asılı iqtisadiyyat sisteminin dağılması digər respublikalar kimi Azərbaycanı da ağır iqtisadi böhrana salmışdı. Respublikanı bu böhrandan çıxarmağın yeganə və düzgün yolu ölkə iqtisadiyyatını qısa bir müddətə yeni iqtisadi əsaslarla bərpa etmək idi ki, bunun da həyata keçirilməsi üçün ilk növbədə torpaq islahatları aparılmalı idi.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının bugünkü iqtisadi, siyasi, mədəni tərəqqiyə çatması, müstəqil dövlət kimi təşəkkül tapması və formalaşması ötən əsrin 90-cı illərində çox mürəkkəb kataklizmlərdən keçərək tarixin bu çətin sınağından üzü ağ çıxması, ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bütün bunlarla yanaşı, əlbəttə torpaq islahatları da bu böyük dövlət xadiminin aqrar siyasətinin məhsuludur. Əsası məhz ulu öndərimiz Heydər Əliyev tərəfindən hələ Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə Culfa rayonunun Şurut və Gal kəndlərində həyata keçirilməklə qoyulan torpaq islahatları, onun Respublika Prezidenti seçilməsindən sonra, bütün ölkəyə tətbiq edilməyə başlandı. Bu proses dünyada analoqu olmayan bir şəkildə, yəni torpaqların pulsuz olaraq, əvəzsiz pay kimi vətəndaşlara verilməsi ilə həyata keçirildi. 1995-ci ildən başlayaraq torpaq islahatlarının həyata keçirilməsi ilə bağlı mükəmməl hüquqi baza yaradıldı. 52-dən artıq Fərman, Sərəncam və digər hüquqi aktlar hazırlandı.

Qısa bir müddətdə onun təşəbbüsü və rəhbərliyi ilə ümumxalq müzakirələrindən sonra torpaq islahatı proqramı hazırlandı və bu proqram əsasında torpaq islahatlarının həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı. «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının 16 iyul 1996-cı il tarixli Qanunu, «Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında» Azərbaycan Respublikasının 22 dekabr 1998-ci il tarixli Qanunu, «Torpaq icarəsi haqqında» Azərbaycan Respublikasının 12 mart 1999-cu il tarixli Qanunu, Azərbaycan Respublikasının 25 iyun 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Torpaq Məcəlləsi», «Torpaq bazarı haqqında» Azərbaycan Respublikasının 7 may 1999-cu il tarixli Qanunu da daxil olmaqla qəbul edilmiş fərman, qanun və digər hüquqi normativ aktlar respublikamızda torpaq islahatlarını həyata keçirməyə əsaslı zəmin yaratdı. *«Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə»* Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1997-ci il tarixli 534 saylı Fərmanından sonra islahatların sürətlə həyata keçirilməsi prosesi başladı.

Azərbaycanda həyata keçirilən torpaq islahatlarından danışarkən qeyd etmək lazımdır ki, H.Əliyevin torpaq islahatları MDB məkanında analoqu olmayan bir prosesdir. Respublikanın kənd təsərrüfatının inkişafında mühüm nailiyyətlər əldə edilməsinə səbəb olan bu islahatların digər dövlətlərdə həyata keçirilən analoji islahatlardan 3 mühüm fərqini göstərmək olar.

Birincisi, Azərbaycanda torpaq ölkə başçımızın təşəbbüsü ilə vətəndaşlara pulsuz olaraq əvəzsiz verilir. Nəticədə 3 milyon 500 minə qədər insan torpaq mülkiyyətçisinə çevrilir. Bu isə yeni, güclü mülkiyyətçilər sinfi yaratmaqla, yeni torpaq əkinçi münasibətləri formalaşdırır, torpaqdan səmərəli və məhsuldar istifadəetməni şərtləndirir, torpağa qayğı və doğma münasibəti zəruri edir.

İkincisi, torpaqların ən yararlısı və keyfiyyətlisi özəlləşdirilir. Başqa sözlə, MDB məkanının digər ölkələrindən fərqli olaraq vətəndaşa yararsız və ya az yararlı torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən yararlı və münbit torpaqları verilir. Eyni zamanda Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinə öz mülkiyyətlərindəki torpaq sahələri üzərində müstəsna hüquqlar, alqı-satqı, bağışlama, icarəyə və ya istifadəyə vermə, vərəsəlik, girov qoyma və s. kimi hüquqlar verilir ki, bu da Azərbaycanda torpaq islahatlarının keçmiş SSRİ-nin digər respublikalarında olduğu kimi formal deyil, əsaslı zəmində və fundamental şəkildə həyata keçirildiyini sübut edir.

Üçüncüsü, respublikamızın ərazisində yaşayan bütün vətəndaşlara harada yaşamasından və kimliyindən asılı olmayaraq torpaqlardan istifadə və icarə hüququ verilir, eyni zamanda Azərbaycanın hər bir vətəndaşı torpaq alqı-satqısı prosesində, torpaqla bağlı müxtəlif müqavilə və əqdlərin bağlanmasında iştirak edə bilər. Başqa sözlə, torpaq əmlakçısına çevrilmiş 3 milyon beş yüz minə yaxın subyektdən başqa respublika əhalisinin yerdə qalan hissəsi də torpaq - vətəndaş münasibətlərindən kənarlaşdırılmır. Yəni hər bir Azərbaycan vətəndaşı respublikamızda formalaşan torpaqla bağlı yeni mülkiyyət münasibətlərində birbaşa iştirakçı ola bilir.

Xüsusilə qeyd etmək lazımdır ki, məhz cənab H.Əliyevin təşəbbüsü ilə Azərbaycanda Azərbaycan vətəndaşı olmayan fiziki və hüquqi şəxslərə torpağa mülkiyyətçilik hüququ verilməmişdir ki, bu da nəinki mühüm iqtisadi, həmçinin ciddi siyasi əhəmiyyət daşıyır.

Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev ölkəmizin digər sosial-iqtisadi məsələlər ilə yanaşı, aqrar sektoru da daima diqqət mərkəzində saxlayır. Bütün sahələrdə olduğu kimi, bu sahədə də böyük tarixi şəxsiyyət dövlətimizin qurucusu Heydər Əliyevin siyasi kursunu davam etdirir. Bu prinsipal yanaşmanın və ardıcıl siyasətin nəticəsində hazırda torpaq islahatlarının birinci mərhələsi başa çatdırılıb və digər mərhələləri ilə bağlı Komitə tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilməkdədir. Birinci mərhələdə respublikamızda mövcud olmuş 2031 təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək, onların əkinə yararlı münbit torpaqları əhaliyə paylanılmışdır. Hər bir subyektə verilən torpaq onlara mülkiyyət hüququnu təsdiq edən hüquqi sənəd, Dövlət aktları ilə rəsmiləşdirilərək, naturada sahiblərinə tanıdılıb. Bu mərhələdə işğal olunmuş rayonlarımız istisna olmaqla ölkəmizdə torpaq payı almaq hüququ olan 872 855 ailədən 867 773-nə torpaq payı verilib. Bu isə 3 412 228 subyekt deməkdir. Ölkəmizdə torpaq islahatı 99,3% yerinə yetirilib. Yalnız 3 təsərrüfatda (Xaçmaz rayonunda Müqtədir, Qusar rayonunda Qazıməmməd və Şamaxı rayonunda M.Ə.Sabir) islahatlar obyektiv səbəblərdən başa çatdırılmayıb. Torpaq islahatları nəticəsində torpaq üzərində üç mülkiyyət forması müəyyənləşib. Azərbaycanın vahid torpaq fondunu təşkil edən 8 641 506 hektar torpaq sahəsindən 4 913 639 hektarı; başqa sözlə 56,9%-i dövlət mülkiyyətində saxlanılıb, 2 032 744 hektarı yəni 23,5%-i bələdiyyə mülkiyyətinə verilib, 1 695 123 hektarı yəni 19,6%-i isə xüsusi mülkiyyətə ayrılıb.

Birinci mərhələdə görülən işləri ulu öndərimiz çox yüksək qiymətləndirərək demişdir ki, biz torpaq islahatının aparılmasında radikal tədbirlərə əl atmışıq. Deməliyəm ki, nəticə idealdır. Özü də bu, hələlik başlanğıcdır (10).

İşğal altında olan 10 rayonun (Xocalı, Şuşa, Xocavənd, Kəlbəcər, Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) 810 kəndinin 516 245 nəfər subyektinə isə məlum səbəblərdən xüsusi mülkiyyətə hələlik pay torpağı verilməmişdir.

Vətəndaşların qanuni istifadəsindəki (fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların, dövlət bağçılıq təsərrüfatının idarəçiliyindəki bağların) torpaqların onların mülkiyyətinə verilməsi ilə bağlı Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən xeyli işlər görülmüşdür. Belə ki, respublika üzrə mövcud 4551 kənd və qəsəbənin 3 192 yaşayış məntəqəsinin həyətyanıları altında olan torpaq sahələrində çöl ölçmə işləri artıq tamamlanmışdır. Qalan kəndlərdə isə bu işlər davam etdirilir. 1831 kənd üzrə 487.035 subyektə isə qanuni istifadəsində olan həyətyanı sahələri ilə bağlı Şəhadətnamələr işlənib vətəndaşlara təqdim edilmişdir. Ümumiyyətlə, respublikanın 65 rayonu üzrə mövcud olan 4551 kənd və qəsəbədən 797-si işgal altındadır, 43-ü statusu olmayan yaşayış məntəqələridir, Naxçıvan MR-nın 228 kəndində yaşayan vətəndaşlara mülkiyyət hüququna dair Şəhadətnamələr hazırlanaraq verilmişdir.

Bundan əlavə, 2000-2004-cü illərdə şəhər və şəhər tipli qəsəbələr üzrə vətəndaşların qanuni istifadələrində həyətyanı və bağ sahələri olan 10 989 mülkiyyətçiyə (vətəndaşa) hüquqi sənədlərin verilməsi üçün yerquruluşu işlər görülmüşdür.

2004-cü ildə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində 450 yaşayış məntəqəsində vətəndaşların qanuni istifadəsində olan həyətyanı sahələrə onların mülkiyyət hüququnu təsdiq edən şəhadətnamələr hazırlanıb verilmişdir ki, bu da 158120 ailəni əhatə edir. 2005-ci ildə daha 218 yaşayış məntəqəsində bu işlər davam etdiriləcəkdir.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi olaraq gördüyümüz işlərdən biri də 1999-cu il 24 dekabr tarixində ölkə Prezidenti tərəfindən imzalanmış «Bələdiyyələrin əraziləri və torpaqları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 237 nömrəli Fərmandan irəli gələn tapşırıqların yerinə yetirilməsidir. Respublikamızda mövcud olan 2737 bələdiyyə vahidinə, onların mülkiyyətində olan torpaq sahələrinə mülkiyyət hüququna dair Şəhadətnamələrin hazırlanması üçün yerquruluşu sənədlərinin işlənməsi davam etdirilmiş, 1917 bələdiyyə üçün belə sənədlər hazırlanmışdır. Mövcud olan bələdiyyələrin, o cümlədən 60 şəhər bələdiyyəsinin torpaqları ərazi hüdudları daxilində onlara ilkin olaraq tanıdılmışdır. Mülkiyyət hüququna dair veriləcək Dövlət aktları isə şəhər kadastrının mürəkkəbliyi və yerli icra hakimiyyətləri ilə mülkiyyətlərin qarşılıqlı tanınması olmadığına görə hələlik mümkün olmamışdır.

2004-cü ildə bələdiyyələrin mülkiyyətinə aid olan torpaqların onlara mülkiyyət hüququ verən dövlət aktlarının hazırlanması məqsədilə natura-da qonşuluqları və döngə nöqtələrinin kordinatları müəyyən edilməklə, 280 bələdiyyənin ərazisi, torpaqları və hüdudlarını özündə əks etdirən hüquqi sənədlərin hazırlanması işinə başlanmış, 52 bələdiyyənin belə sənədləri hazırlanmış, qalanlarının üzərində isə son tamamlanma işləri aparılmışdır. 709 bələdiyyə vahidi üçün isə müvafiq hüquqi sənədlərin hazırlanması işi 2005-ci ildə həyata keçiriləcəkdir.

«Torpaq bazarı haqqında» Azərbaycan Respublikası Qanununun və torpaq alqı-satqısı ilə bağlı digər qanunvericilik aktlarının tələblərinə uyğun olaraq ötən dövr ərzində 14003 torpaq alqı-satqısı əməliyyatı aparılmış və yeni torpaq mülkiyyətçilərinin adına müvafiq hüquqi sənəd işlənib dövlət qeydiyyatına alınaraq sahiblərinə təqdim edilmişdir. «Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi qaydaları»nın tələblərinə müvafiq olaraq dövlət və bələdiyyə mülkiyyətinə aid torpaqlardan icarə qaydasında torpaq ayrılmış, 6156 icarəçiyə, torpaqdan müvəqqəti istifadəyə dair Şəhadətnamələr hazırlanıb təqdim edilmiş və bağlanmış icarə müqavilələri dövlət qeydiyyatına alınmışdır.

2004-cü ildə 7535 torpaq alqı-satqısı, 2433 isə icarə müqaviləsi əsasında müvafiq olaraq mülkiyyət hüququna və istifadə-icarə hüququna dair şəhadətnamələr hazırlanıb vətəndaşlara verilmişdir. 2005-ci ildə vətəndaşların müraciəti əsasında bu işlər davam etdiriləcəkdir.

Bəlli olduğu kimi, torpaq islahatları həyata keçirilərkən mövcud olan bütün təsərrüfatların yerqurluşu işləri, keçmiş SSRİ dövründə köhnə geodeziya alətləri ilə aparılmış sənədlər əsasında götürülmüşdür. Bu isə torpaq islahatı ilə bağlı yerqurluşu işlərinin aparılmasında müəyyən çətinliklərə səbəb olmuşdur. Hazırda isə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində bu işləri həyata keçirmək üçün ən müasir alətlər, qlobal mövqe müəyyən etmə cihazları (CPS) və s. alınmışdır ki, bu da bizə gördüyümüz işləri demək olar ki, xətasız yerinə yetirməyə imkan verir. Həm də bu xəritələr üzərində mövcud coğrafi, fiziki və s. zəruri məlumatlarla yanaşı, ayrı-ayrı mülkiyyət formalarına dair mühüm göstəricilər də öz əksini tapır.

Bu günə kimi müasir avadanlıqların vasitəsilə **949 təsərrüfatın** elektron kadastr xəritələri hazırlanmışdır.

Şəhər kadastrının yaradılması ilə əlaqədar Bakı şəhərinin Səbayil, Yasamal, Nərimanov, Nizami, Xətai, Nəsimi, Binəqədi, Sabunçu, Qaradağ rayonlarının, Salyan şəhərinin, Neftçala şəhərinin elektron-kadastr xəritəsinin tərtib edilməsi üçün 1:2000 miqyasda olan planşetlər müasir avadanlıqların vasitəsi ilə kompyuterin yaddaşına yığılmışdır.

2004-cü ildə 149 təsərrüfatın elektron xəritələri hazırlanıb 2005-ci ildə daha 130 təsərrüfatda bu işlərin davam etdirilməsi nəzərdə tutulur.

Komitədə Azərbaycan Respublikasının 1:600000 miqyaslı siyasi-inzibati xəritəsi, Azərbaycan Respublikasının fiziki xəritəsi, Dünyanın siyasi xəritəsi, Azərbaycan və həmsərhəd ölkələr xəritəsi, 1:100000 miqyaslı 14 rayonun məlumat xarakterli xəritəsi hazırlanıb nəşr edilmişdir. 1:500-1:50000 miqyaslı müxtəlif nomenklaturalı topoqrafik plan xəritələr nəşr edilmişdir.

Bundan başqa, 2004-cü ildə 15 təsərrüfatda torpaq monitorinq xəritələri tərtib edilmiş 2005-ci ildə daha 15 təsərrüfatda bu işlərin davam etdirilməsi nəzərdə tutulur. Ümumiyyətlə, 2004-cü ildə Mövzu xəritələri üzrə 1:150 min miqyasında Naxçıvan Muxtar Respublikasının siyasi-inzibati və ümumcoğrafi xəritələri, 1 : 600 min miqyasında Azərbaycan Respublikasının ekoloji qiymətləndirmə xəritəsi, 1:1 mln miqyasında Azərbaycan Respublikasının turist xəritəsi, 1:600 min miqyasında Azərbaycan Respublikasının susuz ərazilər xəritəsi, Azərbaycan Respublikasının fiziki xəritəsi nəşr edilmişdir. Azərbaycan Respublikasının torpaq və torpaq-aqrokimya Atlasının tərtibatı davam etdirilmiş və tərkibində nəzərdə tutulan xəritələrin 80%-nin rəngli nümunələri nəşr edilmişdir.

Respublika əhalisinin və tədris müəssisələrinin tələbatını ödəmək məqsədilə, 6-cı, 7-ci və 8-ci sinif şagirdləri üçün müxtəlif atlaslar, dünyanın siyasi xəritəsi, 1:1,5 mln miqyasda Azərbaycan Respublikasının siyasi-inzibati xəritəsi Azərbaycan, rus, ingilis dillərində 1:600000 miqyasda «Azərbaycan Respublikasının siyasi-inzibati xəritəsi» və digər xəritələr nəşr edilmişdir.

2005-ci ildə digər dövlət tapşırıqlarını yerinə yetirməklə bərabər «Azərbaycan Respublikası Torpaq və Aqrokimya» Atlasının tərtibatını davam etdirmək, IX sinif üçün sosial-iqtisadi coğrafiya Atlasının, Azərbaycan Respublikasının Coğrafiya Atlasının yenidən tərtibatı və nəşri, Azərbaycanın ümumcoğrafi (1:500 000 miqyasında), siyasi-inzibati (1:300 000

miqyasında) xəritələri, 600 nomenklatura - topoxəritələrin nəşri və 150 nomenklatura diopozitivlərin hazırlanması və müqavilə işlərinin artırılması, atlas-xəritə satışının genişləndirilməsi planlaşdırılır.

Bununla yanaşı, geodeziya, topoqrafiya və kartoqrafiya fəaliyyətində də son üç ildə ciddi uğurlar qazanılmışdır. Belə ki, 2001-2004-cü illər ərzində respublikanın ərazisində qlobal mövqe müəyyənetmə sistemləri ilə 7 ədəd 0-cı sinif Peyk Geodeziya Şəbəkəsinin mərkəzləri qurulub müşahidə olunmuşdur. İkinci mərhələdə 137 ədəd 1-ci sinif Peyk Geodeziya Şəbəkəsinin mərkəzləri qurulub müşahidə olunmuşdur.

2004-cü ildə Aerouçuş materialları mövcud olan Şamaxı, Beyləqan, Qazıməmməd və Biləsuvar obyektlərində 1:2000 miqyasında çöl toplanalma işləri başa çatdırılmışdır. Ümumilikdə isə 2004-cü ildə müəssisə üzrə 3525 trianqulyasiya və poliqonometriya məntəqəsi, 245 nivelir nişanı müayinə edilmiş, 50 dəst geodeziya məntəqələrində mərkəzlər basdırılmış, 888,24 kv.km 1:2000, 851,45 kv.km 1:10000 miqyaslarında topoqrafik planların yeniləşdirilməsi, 837,37 kv.km stereotopoqrafik planalma, 57,50 on.km nivelirləmə, 63 vərəq 1:50000, 42 vərəq 1:25000 miqyaslarında xəritətərtibatı, 338 vərəq xəritələrin nəşrə hazırlanması və 36 obyektin layihə-smeta işləri yerinə yetirilmişdir.

2004-cü ildə ən böyük nailiyyətlərdən biri də ilk dəfə olaraq 1:10000 və 1:25000 miqyaslarında «Xəritətərtibatı-89 I, II, III, IV və V sahə» obyektlərində və 1:2000 miqyasda «Sumqayıt şəhəri» obyektində yeni üsulla rəqəmli xəritələrin hazırlanması sayıla bilər.

2005-ci ildə 1:50000 miqyasda mövcud olan rəqəmli ümumcoğrafi xəritələrin əsasında müvafiq miqyasda topoqrafik xəritələrin hazırlanması, ölkənin yüksəklik şəbəkəsinin yoxlanması və bərpası məqsədi ilə Ələt-Xaşuri xətti üzrə I sinif nivelirləmə, Azərbaycan Respublikası Peyk Geodeziya şəbəkəsi üzrə ölçmə işlərinin nəticələrinin emalı (tarazlaşdırılması), «Xəritətərtibatı-85» obyektindən növbədə olan ərazilərdə sahəvi topoqrafik xəritələrin yeniləşdirilməsi, Horadiz, Bəhramtəpə, Şahsevən, Mərəzə, Liman, Xızı, Giləzi və Hindarx qəsəbələrinin 1:2000 və 1:5000 miqyasda topoqrafik planlarının yeniləşdirilməsi işləri həyata keçiriləcəkdir.

Torpaq tədqiqatları üzrə 19 rayonun 446 bələdiyyəsinin 134 200 hektar kənd ətrafı örüş sahəsinin torpaq tədqiqatı işləri görülmüşdür.

Geobotaniki tədqiqat üzrə; 47 bələdiyyədən 39-da kənd ətrafı örüş sahəsində geobotaniki tədqiqatlar aparılmış, torpaqların bonitirovkası üzrə (Biləsuvr, Beyləqan və İmişli rayonlarının) 43 min hektar sahədə bonitet kartoqramı tərtib edilmiş, yay və qış otlaq sahələrinin səmərəli istifadəsinə dair müvafiq işlər aparılmışdır;

Respublikanın 51 rayonunda başlanmış iqtisadi qiymətləndirmənin tam başa çatdırılması üçün son tamamlama işləri görülür.

2004-cü ildə respublikanın rayonlarında 403,6 min hektar yay və qış otlaq sahələrində çöl-tədqiqatı yerquruluşu işləri yerinə yetirmişdir. Bundan 231,8 min hektar sahədə görülən çöl-tədqiqatı işləri başa çatdırılmış, 171,8 min hektar sahədə görülən işlər isə tamamlanmaq üzrədir.

Yay və qış otlaq sahələrində aparılan yerquruluşu işləri ilə yanaşı, həmin sahələrdə 511,2 min ha sahədə torpaq tədqiqatı, 234,9 min hektar sahədə geobotaniki tədqiqat işləri də aparılmışdır. Aparılan torpaq tədqiqatı işlərindən 294,6 min hektar, geobotaniki tədqiqatı işlərindən isə 135,4 min hektar sahədə görülən işlər başa çatdırılmış, 216,6 min hektar sahədə torpaq tədqiqatı, 99,5 min hektar sahədə geobotaniki tədqiqat işləri davam etdirilir. Hesabat ilində İmişli, Yevlax, Ağcabədi və Ağstafa rayonlarının 183 obyekt üzrə 237,1 min ha sahədə yay və qış otlaqlarının bonitirovkası başa çatdırılmışdır.

2004-cü ildə 13 rayonun 420 bələdiyyəsinin ümumi istifadəsində olan 374,1 min hektar örüş sahəsində irimiqyaslı torpaq tədqiqatı işləri aparılmışdır. 179 bələdiyyənin ərazisində 113,7 min hektar sahədə görülən işlər başa çatdırılmış qalan 241 bələdiyyə üzrə 260,4 min ha sahədə işlər davam etdirilir. Bunlarla yanaşı, 52 bələdiyyənin istifadəsində olan 46,4 min hektar kəndyanı örüş sahəsində geobotaniki tədqiqat işləri də başa çatdırılmışdır. 219 bələdiyyə torpaqları üzrə 152,4 min ha sahədə bonitirovka işləri də aparılmışdır. 2005-ci ildə bu sahədə qalan işlər davam etdiriləcəkdir.

2004-cü il ərzində respublikanın 51 rayonunda torpaqların iqtisadi qiymətləndirilməsi üçün ilkin statistik məlumatlar toplanmış, 12 rayonda torpaqların iqtisadi qiymətləndirilməsi tam başa çatdırılmış, qalan rayonlarda bu istiqamətdə işlər davam etdirilir.

Respublikamızda aparılan torpaq islahatları digər MDB ölkələrinin daima marağına səbəb olmuş bu istiqamətdə Azərbaycanda torpaq islahatla-

rının aparılması prosesini əhatə edən hüquqi bazanın öyrənilməsinə maraq göstərilmiş və prosesin idarə edilməsi və həyata keçirilməsi mexanizmlərinə xüsusi diqqət yönəldilmişdir. Həmin məqsədlə Ukrayna, Rusiya, Belorusiya, Qazaxıstan, Dağıstan və s. kimi ölkələr Azərbaycan təcrübəsindən yararlanmaq qərarına gəlmişlər. Hazırda həmin ölkələrin müvafiq qurumları ilə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında sıx əməkdaşlıq mövcuddur. Təsadüfi deyildir ki, MDB üzvü ölkələrin Torpaq Münasibətləri və Yerquruluşu İşləri Üzrə Dövlətlərarası Elmi Problemlər Şurasının sədri Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının akademiki, İqtisadiyyat elmləri doktoru, professor Nikolay Komov «Yerquruluşu və Torpaq İstifadəçiliyinin Rusiya Modeli» adlı kitabında Azərbaycanda həyata keçirilən torpaq islahatları, onun hüquqi bazası, prinsipləri və icra mexanizmləri haqqında geniş məlumat verərək bu təcrübədən faydalanmanın yararlı olacağını vurğulamışdır. Bundan başqa, Qazaxıstan Respublikası Torpaq Ehtiyatlarının İdarə Edilməsi Agentliyi tərəfindən nəşr edilən «XXI Əsrin Astanasında Torpaq İslahatları Strategiyası» kitabında da Azərbaycanda həyata keçirilən torpaq islahatlarından geniş söhbət açılır, onun elmi-hüquqi əsasları haqqında geniş məlumat verilir və təqdirəlayiq bir model kimi təqdim edilir. Əlbəttə, bütün bunlar xalq arasında deyildiyi kimi, «Heydər Əliyev torpaq islahatları»nın nə qədər dərin elmi-təcrübi metodologiyaya söykəndiyini sübut edir.

Qeyd etməliyəm ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 24 noyabr 2003-cü il tarixli Fərmanında göstərdiyi kimi, regionlarda iqtisadiyyatın inkişafının stimullaşdırılmasına uyğun olaraq Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi bu istiqamətdə də fəaliyyəti gücləndirmişdir. Belə ki, hazırda Komitənin icra etdiyi fəaliyyət sahəsinin əhəmiyyətli bir hissəsi məhz regionlarda həyata keçirilir. Bildirməliyəm ki, respublikanın Quba, Xaçmaz, Şəmkir, Şəki, Ağsu, Gəncə, Ucar, Lənkəran, Salyan, Füzuli rayonlarında hazırda on regional Mərkəz fəaliyyət göstərir ki, bunlar da həmin regionlarda qismən əhalinin işlə təmin olunmasına köməklik göstərir, eyni zamanda torpaqla bağlı bu və ya digər hüquqi əqdlərin bağlanması, müvafiq sənədlərin əldə edilməsi məqsədi ilə vətəndaşların Bakıya gəlməsi ilə əlaqədar problemləri aradan götürür. Elə, fiziki və hüquqi şəxslərin adına işlənilən mülkiyyət, istifadə

və icarə hüququna dair sənədlərin hazırlanılması, qeydiyyatı və verilməsi də Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Regional Torpaq Qeydiyyatı Mərkəzləri vasitəsilə həyata keçirilir.

Bundan başqa, respublikamızın on rayonunda Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Yerquruluşu Layihə İnstitutunun Rayonlararası Yerquruluşu İdarələri də fəaliyyət göstərir ki, bunlar da regionlarda həm işsizliyin aradan qaldırılmasına kömək etmiş olur, həm də yaranmış problemlərin və mübahisələrin yerindəcə həll olunmasını təmin edir ki, bu da sözü gedən Fərmanın 7-ci bəndində mərkəzi və yerli icra hakimiyyətlərinə vətəndaşların müraciətlərinə vaxtında baxılması ilə verilən tapşırıqların Komitədə tələb olunan səviyyədə icra olunması mexanizmini yaradır. Cənab Prezidentimiz İlham Əliyevin müvafiq fərmanından sonra istər regional Mərkəzlərin, istərsə də Rayonlararası Yerquruluşu İdarələrinin fəaliyyətinin gücləndirilməsi, kadr bazasının möhkəmləndirilməsi, texniki imkanların daha da artırılması istiqamətində ciddi işlər görülür. Qeyd etməliyəm ki, həmin regionlarda bu günə qədər 110 əlavə ştat vahidi yaradılmış və yerli sahəvi ixtisaslı mütəxəsislərin işə götürülməsi davam etdirilir. Bundan başqa, 215 ştat vahidi üzrə mütəxəsislər isə mövsümi olaraq işə götürülür.

2004- cü ildə, Mərkəzi Aparatın Dövlət müfəttişləri tərəfindən Bakı və Sumqayıt şəhər və Abşeron rayon şöbələri ilə birlikdə Bakı şəhərinin ayrı-ayrı rayonlarında, Sumqayıt şəhərində və Abşeron rayonunda komunikasiya xətləri üzərində və onların yaxınlığında tikilmiş qanunsuz yaşayış evləri və digər obyektləri müəyyənləşdirmişdir.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Azərbaycan Respublikasının iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edən Azərbaycan-Gürcüstan-Türkiyə boru kəmərlərinin (Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum) həyata keçirilməsi üçün, bu layihələrin mühüm və həlledici hissəsi olan torpaqayırma, geodeziya, topoqrafiya və mühəndisi geodeziya işləri ilə bağlı xeyli mühüm işlər görmüşdür. Belə ki, qısa müddətdə kəmərlərin keçdiyi 13 rayon üzrə uzunluğu 443 km olan əvvəlcə 500 m-lik, sonradan isə konkret olaraq 44 m-lik tikinti dəhlizinə və 58 m-lik mühafizə zolağına aid, cəmi 4508 hektar torpaq sahəsinin ilkin torpaqayırma sənədləri hazırlanmış və təhvil verilmişdir.

Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində məcburi köçkün düşmüş və çadır düşərgələrində müvəqqəti yer-

ləşdirilmiş məcburi köçkünlərin və erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış qaçqınların müvafiq rayonların ərazilərində məskunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 22 avqust tarixli 562 saylı, 2001-ci il 07 sentyabr tarixli 577 saylı və 2002-ci il 13 may tarixli 700 saylı Fərmanlarından və həmin Fərmanlara müvafiq olaraq Nazirlər Kabinetinin Sərəncamlarından irəli gələn torpaqayırma işləri və yayşayış məntəqələri tikiləcək ərazilərin və məcburi köçkünlərə müvəqqəti istifadə üçün veriləcək torpaq sahələrinin plana alınması ilə bağlı Komitə tərəfindən operativ tədbirlər görülmüşdür. Bu vaxtadək Goranboy rayonunda 8674 ha, Abşeron rayonunda 34 ha, Şəmkir rayonunda 14 ha, Biləsuvar rayonunda 54 ha, Füzuli rayonunda 4500 ha, Yevlax rayonunda 15 ha, Ağdam rayonunda 2005 ha və Ağcabədi rayonu ərazisindən 49 ha olmaqla, cəmi 20 693 hektar torpaq sahələri sənədlərlə və naturada ayrılıb qaçqın və məcburi köçkünlərə təhkim edilmişdir.

Torpaq islahatlarının, habelə aqrar sektorda aparılmış digər köklü islahatların nəticəsidir ki, respublikamızda istehsal olunan kənd təsərrüfatı məhsullarında hər il dinamik artım müşahidə edilməkdədi. Bircə onu demək kifayətdir ki, bu gün Azərbaycan kənd təsərrüfatı məhsullarını idxal etmir, ayrı-ayrı növləri üzrə onu ixrac edir.

Ölkəmizdə aqrar sahənin inkişafında daha böyük nailiyyətlərin əldə edilməsi üçün cənab Prezidentimiz İlham Əliyev tərəfindən ardıcıl tədbirlər həyata keçirilməkdədir. Regionların inkişafının sürətləndirilməsi ilə ölkə başçımızın 2003-cü il noyabr ayının 24-də imzaladığı Fərman aqrar sahənin inkişafına da böyük təkan vermiş, bu bölmədə çalışan insanlara əlverişli şəraitin yaradılmasına səbəb olmuşdur. Görülən işlər, ölkə rəhbərinin aqrar sahəyə qayğısı respublikamızda kənd təsərrüfatının inkişafına təminat verən ən əhəmiyyətli faktordur.

Sadalanan faktorlardan göründüyü kimi, bu gün respublikamızın ictimai, siyasi, iqtisadi, mədəni, ideoloji və s.həyatının bütün istiqamətlərində olduğu kimi, aqrar sektorda da ulu öndərimiz Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilməkdədir. Bu ardıcıllıq və prinsipallıq isə Azərbaycan Respublikasının dinamik inkişafı formulasının əsasıdır.

ƏLİ HƏSƏNOV
Prezidenti İcra Aparatının İctimai –siyasi şöbəsinin müdiri,
YAP İdarə Heyətinin üzvü

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏT PRİORİTETLƏRİNİN MÜƏYYƏNLƏŞMƏSİ

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin və beynəlxalq münasibətlər sistemində iştirakının cəmi 14 yaşı var. Bu dövr həm də Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi ilə müşayiət olunduğundan dövlətin rastlaşdığı bütün problemlər onun xarici siyasətinə də öz təsirini göstərmişdir. SSRİ-nin və keçmiş sosialist birgəyaşayış tərzinin təsirindən qurtarmaq, müstəqil xarici siyasət kursu formalaşdırmaq, onun əsas prioritetlərini, məqsəd və vəzifələrini, istiqamətlərini müəyyən etmək, dünya siyasəti müstəvisinə çıxmaq və beynəlxalq münasibətlər sisteminə qatılmaq gənc və təcrübəsiz dövlət üçün o qədər də asan bir iş deyildi. Odur ki, müstəqilliyin ilk illərində ölkənin xarici siyasət kursunda və hökumətin bu yönlü fəaliyyətində ciddi nöqsanlar, ziddiyyətli, qeyri-müəyyən və qeyri-ardıcıl qərarlar da olmuşdur ki, bütün bunlar Azərbaycanın həm daxili həyatına, müstəqil dövlət quruculuğu prosesinə, həm də onun dünya siyasəti və beynəlxalq münasibətlər sisteminə qatılması işinə öz mənfi təsirini göstərmişdir.

Hər bir dövlət öz xarici siyasəti qarşısındakı vəzifələri həyata keçirmək üçün uzunmüddətli strateji və operativ cari fəaliyyət proqramı hazırlayır. Uzunmüddətli strateji fəaliyyət proqramı dövlətin gücü, qüdrəti, resursları, dünya siyasətindəki rolu və yerindən asılı olaraq müxtəlif məqsəd və vəzifələr üzərində qurulur. Bunların sırasında ən vacibləri və həyati əhəmiyyət kəsb edənləri sırasına ölkənin müstəqilliyinin qorunmasını, dünyaya müvəffəqiyyətli inteqrasiya və beynəlxalq münasibətlər sistemində özünə layiq yer tutmasını, ərazi bütövlüyü və suveren hüquqlarının təmin edilməsini, vətəndaşlarının firavan həyatını təmin etmək məqsədilə xarici aləmin imkanlarından istifadə edilməsini və s. aid edirlər. Uzunmüddətli xarici siyasət strategiyası konkret zaman, məkan və şəraitə uyğun olaraq dövlətlər cari xarici siyasət proqramının hazırlanmasını və

yürüdüləcək siyasətin, görüləcək işlərin prioritetlərinin (mövcud zaman, məkan və şəraitdə reallaşdıracağı birinci dərəcəli vəzifələr) müəyyən edilməsini tələb edir. Əslində xarici siyasət sahəsindəki prioritetlər dövlətin uzunmüddətli xarici fəaliyyətinin tərkib hissəsi, qarşısında duran vəzifələrin daha dəqiqləşdirilmiş, qruplaşdırılmış, təsnifatlaşdırılmış və mövcud zaman, məkan çərçivəsində önə çıxarılmış hissəsidir.

Ölkənin xarici siyasət prioritetləri tədqiqatçıların fikrinə görə, dövlətin rəsmi və qeyri-rəsmi institutlarının, vətəndaş cəmiyyətinin və ictimaiyyətin tələb və istəklərinin sintezi nəticəsində formalaşmış ümumi rəy əsasında müəyyən olunur. Ümumi rəyin fəaliyyət proqramına çevrilməsi və milli səviyyədə həyata keçirilməsinin koordinasiyasını dövlət öz institutları, hüquqi və fiziki şəxsləri vasitəsilə reallaşdırır. Xarici siyasət prioritetlərinin koordinasiyasını həyata keçirən əsas institut Xarici İşlər Nazirliyi hesab olunur. Bu nazirlik mövcud zaman, məkan və şərait çərçivəsində dövlətin ictimai tələblərini öyrənir, ümumiləşdirir, xarici aləmlə təmasda onun reallaşması proqramını hazırlayır, dövlətin ali rəhbərliyinə təqdim edir və həyata keçirilməsi işini təmin edir. Prioritetlərin reallaşması işində Xarici İşlər Nazirliyi həm dövlətin bütün mövcud resurslarını və gücünü, həm də ölkə vətəndaşlarının, dövlətə loyal münasibəti ilə seçilən siyasi partiya, ictimai təşkilatların, ayrı-ayrı hüquqi və fiziki şəxslərin imkanlarını səfərbər edir. Bu mənada xarici siyasət və onun prioritet vəzifələrinin həlli tələbləri milli birliyin yaranmasında stimul kimi çıxış edir. Xüsusən, böhran və müharibə vəziyyətlərində, ölkənin milli təhlükəsizliyi, ərazi bütövlüyü və xalqın həyatı üçün təhlükə yarandığı məqamlarda insanlarda vətənpərvərlik hisslərinin güclənməsi, maraqların və baxışların yaxınlaşması baş verir. Bu hisslərdən düzgün istifadə olunan, millətinin istək və arzuları mövcud şəraitə və zamana görə doğru istiqamətləndirilən, real iqtisadi, siyasi, hərbi, demoqrafik və s. imkanları nəzərə alınan ölkələrdə prioritetləri reallaşdırmaq mümkün olur. Əks təqdirdə, millət qeyri-real və avantürist addımlara sövq olunar ki, bu da onun başqa dövlət və xalqlarla qarşıdurmasına səbəb ola bilər.

Ümumiyyətlə, dövlətin xarici siyasət prioritetlərinin həlli onun obyektiv, yaxud subyektiv dəyərləndirilməsindən, dövlətin istək və arzularının real vəziyyətə uyğunlaşdırılmasından asılıdır. Çünki beynəlxalq aləmin siyasi, iqtisadi, hərbi, demoqrafik, informasiya imkanları və şəraiti qlobal-

laşma nəticəsində elə bir vəziyyətə gətirilmişdir ki, burada nəyin milli marağa uyğun gəlib-gəlməməsini müəyyənləşdirmək çox çətindir.

Ölkənin xarici siyasət prioritetləri açıq diplomatiyaya aid edilir və bir qayda olaraq dövlət başçıları, xarici siyasət idarələri bu barədə açıq danışırlar. Prioritetin istinad qaynağı milli və milli-dövlət maraqları hesab olunur ki, bunun da əsasını hər bir ölkənin ali qanunu olan Konstitusiya təşkil edir.

Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri və prioritetləri Azərbaycan dövlətinin Konstitusiyasında əks olunmuşdur. Dövlət başçısı Konstitusiya tələblərindən çıxış edərək hər bir konkret zaman, məkan və şərait çərçivəsində xarici siyasət prioritetlərini müəyyən edir, onun reallaşdırılmasını təmin edir.

Müstəqilliyinin ilk ilində (1991-1992) Azərbaycanın hakimiyyət dairələri müstəqil xarici siyasət fəaliyyətini formalaşdırmaq, onun beynəlxalq münasibətlər sisteminə qatılmasını təmin etmək üçün demək olar ki, heç bir ciddi iş görməmişlər. Tədqiqatçılar bunu o dövrdə ölkəyə rəhbərlik edən A. Mütəllibov hökumətinin SSRİ-nin bərpa olunacağına bəslədiyi ümid və buna görə də Azərbaycanı müstəqil dövlət kimi təsəvvür etməməsi ilə əlaqələndirirlər.

1992-ci ildə ölkədə baş verən hakimiyyət dəyişikliyi və AXC-Müsavat qüvvələrinin rəhbərliyə gəlməsi də Azərbaycanın xarici siyasət fəaliyyətinin lazımi səviyyədə qurulmasına, onun vəzifələrinin, istiqamətlərinin və prioritetlərinin düzgün müəyyən edilməsinə, beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasına müsbət təsir göstərmədi. Bu hökumətin yürütdüyü radikal, ziddiyyətli və qeyri-müəyyən xarici siyasət kursu tezliklə Azərbaycanı beynəlxalq təcridolunmaya sürükləyərək onun milli dövlətçiliyini təhlükə qarşısına qoydu.

Ölkənin milli maraqlarını, onu əhatə edən qonşu və region dövlətlərinin imkan və mövqelərini, dünya siyasəti və beynəlxalq münasibətlərin mahiyyəti və reallıqlarını, planetin birgəyaşayış normalarını müəyyən edən böyük dövlətlərin, beynəlxalq təşkilatların, güc mərkəzlərinin maraq və mənafe çərçivələrini, onlara təsir imkanlarını düzgün qiymətləndirə bilməyən AXC-Müsavat hökuməti çox ağır bir beynəlxalq münasibətlə üzləşdi. O dövrdə cərəyan edən proseslər və Azərbaycanın üzləşdiyi ciddi beynəlxalq problemlər göstərdi ki, bu hökumətin xarici siyasət fəaliyyəti heç bir reallığa, ölkənin real maraqlarına, mövcud imkanlarına və resurslarına uyğun gəlməyən illüziyalar üzərində qurulubmuş.

Hakimiyyət dairələrində ölkənin xarici siyasət perspektivləri, dünya dövlətləri arasında qazanacağı uğurlar, beynəlxalq münasibətlər sistemində tutacağı yer haqqında müəyyən qədər eyforiya mövcud idi. Dövlətin mövcud xarici siyasət resurslarının məhdudluğu, dünya dövlətləri üçün kəsb etdiyi iqtisadi, siyasi və mədəni əhəmiyyətin düzgün dərk edilməməsi və şişirdilməsi, beynəlxalq münasibətlərin axarının, tendensiyalarının, ölkələrin real maraqlarının nəzərə alınmaması bu işdə müvəffəqiyyət qazanmağı mümkünsüz edirdi. Ölkə rəhbərlərində belə bir fikir formalaşmışdı ki, SSRİ-nin tərkibindən çıxmaq, demokratik inkişaf və Qərbə inteqrasiya kursu elan etməklə bütün dünya ölkələrinin etimadına və dəstəyinə nail olunacaq, Azərbaycanı dərhal "Ümumavropa" evinə qəbul etdirəcək və ölkənin iqtisadi inkişafı üçün dünya dövlətlərindən hərtərəfli yardım alacaqlar. Əlbəttə, bu meydan hərəkatından, Qərb dəyərləri və Qərb ölkələri haqqında müxtəlif təbliğat vasitələrinin ideoloji təsirindən doğan eyforiyadan başqa bir şey deyildi.

Halbuki müstəqilliyin ilk ilində Azərbaycanın xarici siyasət prioritetləri bir neçə əsas vacib sahə üzərində qurulmalı idi:

1. Ölkənin daxilində düşünülmüş siyasət yürütməklə bütün vətəndaşların, milli, sosial təbəqələrin, siyasi, ictimai və digər resursların Azərbaycanın müstəqil dövlətçiliyi və ərazi bütövlüyünün qorunması ətrafında səfərbər edilməsi;

2. Bütün xarici siyasət resursları, diplomatik və siyasi imkanlardan istifadə etməklə Azərbaycanın müstəqil dövlətçiliyinə qarşı yönəlmiş təhlükələrin aradan qaldırılması, milli təhlükəsizliyinin təmin edilməsi, erməni separatçılarının və Ermənistan qoşunlarının ölkənin ərazilərini işğal etməsinin qarşısının alınması, bu məqsədlə bölgədə və dünyada müttəfiqlərin qazanılması, əleyhdarların bitərəfləşdirilməsi;

3. Dünya siyasətinə təsir imkanı olan böyük dövlətlərlə, beynəlxalq və regional təşkilatlarla, xarici ölkələrdə Azərbaycanın qlobal maraqlarını müdafiə edə biləcək institutlarla, kütləvi informasiya vasitələri ilə, diaspora mərkəzləri və başqa qurumlarla hərtərəfli işin aparılması, Azərbaycanın onlar üçün kəsb edəcəyi əhəmiyyətin anladılması;

4. SSRİ zamanında ölkənin mövcud olan iqtisadi, siyasi, sosial, mədəni əlaqələrinin müstəqil dövlət maraqları çərçivəsində qiymətləndirilməsi və tənzimlənməsi, bu əlaqələrin alternativlərinin aranması və xarici siyasət orientasiyalarının yumşaq formada, tədricən, milli maraqlara müvafiq şəkildə dəyişdirilməsi;

5. Regionda ölkənin maraqlar çərçivəsinin, bu yöndə region dövlətləri ilə əlaqə sisteminin, üst-üstə düşən və kəsişən məqamların tədqiq olunması, çevik və operativ fəaliyyət proqramının hazırlanması və həyata keçirilməsi.

Əlbəttə, bu siyahını istənilən qədər uzatmaq olar. Əsas məsələ ondadır ki, 1992-1993-cü illərdə Azərbaycan rəhbərliyi nəinki bu prioritet vəzifələri müəyyənləşdirib həyata keçirə bilmədi, əksinə, həm daxildə, həm də xaricdə çox ziyanlı bir siyasət sərgiləyərək ölkəni çətin duruma saldı. Hakimiyyət dairələri daxili və xarici resursları ölkənin milli maraqlarının qorunmasına nəinki səfərbər edə bildi, əksinə, nə vaxtsa, hansısa emosional şəraitdə səslənən "türkün türkdən başqa dostu yoxdur", "İran ağlını başına yığmalı və Cənubi Azərbaycan məsələsini həll etməlidir", "Orta Asiya dövlətləri müstəqilliklərini özləri qazanmayıb, yaxud qeyri-demokratik ölkələrdir, odur ki, onlarla münasibət qurmaq olmaz", "Rusiya ilə bizim haqq-hesabımız hələ irəlidədir", "Çində insan hüquqları pozulur" və s. bəyanatlarla Azərbaycanı həm daxildə, öz vətəndaşları arasında, həm regionda, həm də xarici aləmdə çox çətin duruma saldı. Xarici siyasət sahəsində yaşanan problemlərin daxildə baş alıb gedən özbaşınalıq, siyasi böhran, vətəndaş qarşıdurması ilə müşahidə olunması, erməni işğalçılarının bir-birinin ardınca Azərbaycan torpaqlarını işğal etməsi və bunun qarşısını almaq üçün mövcud hakimiyyətin ciddi bir iş görə bilməməsi müvafiq olaraq o dövrdə ölkəyə rəhbərlik edən insanların taleyini həll etdi.

Azərbaycanda hakimiyyətə gələn Prezident Heydər Əliyev qısa müddətdə Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşdırılması və beynəlxalq münasibətlər sisteminə qatılması üçün çox mühüm işlər gördü. İlk növbədə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün lazımi tədbirlər görüldü, onun xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi və iqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda təmsil olunan, üst-üstə düşən, kəsişən maraq dairələri müəyyənləşdirildi. Beynəlxalq münasibətlərin yeni düzəni, dövlətlərarası əlaqələrin yeni prinsipləri, beynəlxalq hüququn təsir gücü və dairəsi, dünyanın böyük dövlətlərinin, regionun aparıcı ölkələrinin və bey-

nəlxalq təşkilatların Azərbaycanla bağlı yürütdüyü və yürüdə biləcəyi siyasət təhlil edildi.

Dünyada baş verən qloballaşma, demokratikləşmə və beynəlxalq inteqrasiya fonunda gənc bir dövlətin birmənalı müstəqil xarici siyasət kursunun müəyyən edilməsi çox çətin idi. Xüsusən nəzərə alınsa ki, Rusiya, İran Qərbyönümlü xarici siyasətə xüsusi qısqanclıq və həssaslıq nümayiş etdirirdi, qonşu Ermənistan ərazi iddiası ilə ölkəyə işğalçı ordu yeritmişdi və Azərbaycan beynəlxalq təcridolunmaya salınmışdı ki, ondada Azərbaycanın xarici siyasət fəaliyyətinin hansı çətin şəraitdə həyata keçirildiyini təsəvvür etmək olardı. İlk növbədə Azərbaycanın bir dövlət kimi gələcək dünya nizamında yeri, daxili və xarici siyasətinin xarakteri və prioritetləri müəyyən edilməli, Qərbə, Şərqə, yoxsa Rusiyaya və keçmiş SSRİ məkanında mövcud olan dövlətlərin birliyinə inteqrasiya xətti seçilməli, ölkənin təhlükəsizliyi hansısa mövcud beynəlxalq təhlükəsizlik sistemləri ilə əlaqədə, yoxsa müstəqil, bitərəf şəkildə təmin olunmalıdır. Bütün bu məsələlər ətrafında operativ, lakin düşünülmüş, hərtərəfli ölçülüb-biçilmiş qərarlar qəbul edilməli idi.

1993-1994-cü illərdə Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasətinin və beynəlxalq münasibətlər sistemində təmsilçiliyinin strateji və cari vəzifələri, xarici aləmlə əlaqələrin konturları, prioritetləri müəyyən edildi.

Beləliklə, göründüyü kimi 1993-cü ildən başlayaraq Azərbaycanın xarici siyasəti özündən müştəbehlik üzərində qurulmuş illüziyalardan, "demokratik utopizm"dən xilas olaraq real və praqmatik məzmun kəsb etmişdir. İlk növbədə ölkənin pozulmuş ərazi bütövlüyünün bərpası, işğalçıların Azərbaycan torpaqlarından çıxarılması, dövlət müstəqilliyinin möhkəmləndirilməsi və onun təhlükəsizliyinin təmin edilməsi kimi vəzifələrin həllində beynəlxalq aləmin dəstəyi qazanılmışdır.

1991-93-cü illərdə xarici aləmin kəşfiyyat və xəfiyyə poliqonuna çevrilmiş, siyasi, hərbi, dini, missioner təşkilatların dərin yuva saldığı ölkənin milli təhlükəsizlik məsələləri həll edilmişdir.

Azərbaycanın düşmənləri səviyyəsinə qaldırılmış iri region dövlətləri – Rusiya və İranla, erməni lobbisinin təsiri ilə Azərbaycana qarşı sanksiyalar qəbul etmiş ABŞ-la, Fransa və İngiltərə ilə, Orta Asiyanın qonşu türk respublikaları və başqa dövlətlərlə münasibətləri səhmana salınmışdır.

Beynəlxalq və regional təşkilatlarla əlaqələr intensivləşdirilmiş, onların imkanlarından Azərbaycanın problemlərinin həlli istiqamətində istifadə etmək üçün tədbirlər görülmüşdür.

Xarici təbliğat və informasiya fəaliyyətini qaydaya salmaq üçün ölkə daxilində mühüm işlər görülmüş, xarici kəşfiyyat, informasiya və xəfiyyə orqanlarının Azərbaycandakı fəaliyyəti nəzarətə götürülmüşdür.

Beləliklə, müstəqil Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin formalaşması və inkişafının tarixi qısa olsa da, mühüm hadisələrlə zəngindir. Bu fəaliyyətin tarixi, ədəbiyyatda öyrənilməsi də mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Xarici siyasət fəaliyyətinin qurulmasının əsas məqamları, inkişaf tendensiyaları, beynəlxalq münasibətlər sistemində Azərbaycanın özünəməxsus yer tutması və başqa məsələlər tədqiqatçıların diqqət mərkəzinə çıxarılmalı, görülən və görüləcək işlər, uğurlar və uğursuzluqlar təhlil olunmalı, nəzəri və praktiki tövsiyələr verilməlidir.

Müstəqilliyinə nail olduğu gündən Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən birini dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək, təhlükəsizliyni təmin etmək, ölkənin milli və milli dövlətçilik hüquqlarını təmin etmək və beynəlxalq təhlükəsizlik sistemi ilə bağlamaqdan ibarət idi. Bu prioritet bu gün də xarici siyasət kursunun əsas vəzifələrindən birini təşkil edir və onun reallaşdırılması istiqamətində iş davam etdirilir. Çünki Azərbaycanın dövlət müstəqilliyi yolunda mövcud olan əsas təhlükələr 1995-ci ildən başlayaraq əsasən aradan qaldırılsa da, onun təhlükəsizliyinin təmin olunmasının qarantiyası məsələsi hələ də açıq qalır. Xüsusən, nəzərə almaq lazımdır ki, ölkə ərazisindən xarici işğalçı ordu çıxarılmayıb, onun ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı ilə bağlı beynəlxalq hüquqları təmin olunmayıb. Bundan başqa, Azərbaycanın iqtisadi, siyasi, ekoloji, informasiya, ərzaq və s. təhlükəsizliyinin də qorunması istiqamətində xarici aləmlə aparılan işlər davam edir və onların ölkə daxilində reallaşdırdığı layihələr dövlətin milli təhlükəsizlik maraqlarına uyğunlaşdırılır. Azərbaycanın müdafiə qabiliyyətinin yüksəlməsi, ordu quruculuğunun Avropa və NATO standartlarına müvafiq inkişaf etdirilməsi və s. vəzifələr həyata keçirilir.

Azərbaycanın milli təhlükəsizliyinin əsas problemi Ermənistanla münaqişə vəziyyətindən çıxmaq, Dağlıq Qarabağ problemini həll etmək, işğal altındakı torpaqları geri qaytarmaq, bütün ölkə ərazisində dövlətin suve-

ren hüquqlarını bərpa etmək və sərhədlərinin təhlükəsizliyini təmin etməkdən ibarətdir. Bu problemlərin həllində Azərbaycanın ədalətli və beynəlxalq hüquqa söykənən mövqeyini dəstəkləyən, bu mövqeyin əleyhinə çıxış edən və bitərəf mövqe nümayiş etdirən dövlətlər, beynəlxalq və regional təşkilatlar mövcuddur. Əsas vəzifə sözsüz ki, mövqelərimizi müdafiə edənlərin sayını artırmaq məqsədilə xarici siyasət fəaliyyətini gücləndirmək, bu ölkələrlə, təşkilatlarla hərtərəfli iş aparılmasıdır.

Azərbaycanın yerləşdiyi Avrasiya bölgəsində dövlətlərin hərbi təhlükəsizliyini təmin edən iki sistem – Rusiyanın rəhbərlik etdiyi "Kollektiv Təhlükəsizlik Müqaviləsi" və ABŞ-ın hegemon olduğu NATO bloku, eyni zamanda müstəqil olaraq öz təhlükəsizliyinin qeydinə qalan İran mövcuddur. Yaxın illərdə NATO-ya qoşulmaq imkansız görünür. "Kollektiv Təhlükəsizlik Müqaviləsi"nə qoşulmaq isə Azərbaycanın planlarına daxil deyil. Yaxud İran və Türkmənistan kimi Azərbaycan bloklara qoşulmamaq (bitərəf ölkə) siyasəti yürütmək fikrində də deyil. Göründüyü kimi, Avropa təhlükəsizlik sisteminə (NATO-ya) inteqrasiya olunana qədər kənar təsir və təzyiqlərdən qorunmaq, öz hərbi təhlükəsizliyini təmin etmək ölkənin xarici siyasət prioriteti olaraq qalır.

Azərbaycanın milli gəlirinin mühüm bir hissəsini və iqtisadiyyatının əsas payını neft təşkil edir. 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft strategiyasının reallaşdırılması vəzifəsi dövlətin xarici siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Bu strategiyanın əsas mahiyyəti Xəzər dənizinin Azərbaycan sektorunda mövcud olan karbohidrogen ehtiyatlarının qabaqcıl Qərb texnologiyası və investisiya imkanlarından səmərəli istifadə etməklə dövriyyəyə buraxılması, təhlükəsiz yollarla dünya bazarlarına çıxarılması, satışından əldə edilən vəsaitlə ölkənin digər sahələrinin, qeyri-neft sektorunun inkişafına nail olunması, bugünkü və gələcək nəsillərin firavan həyatının təmin edilməsindən və s. ibarətdir. Bu sahədə Xəzərin sektor bölgüsü, neft kəmərlərinin çəkilişi və təhlükəsizliyi, investisiya təminatı, dünya neft-qaz bazarında lazımi yeri tutmaq və s. kimi çətinliklərin aradan qaldırılması və nəzərdə tutulan işlərin həyata keçirilməsi üçün xarici dövlətlərin imkanlarından maksimum yararlanmaq xarici siyasətin əsas prioritetlərindən birini təşkil edir.

Azərbaycan müstəqilliyininin ilk illərində xarici valyutaların tam təsiri altında olduğundan, ciddi iqtisadi, siyasi, maliyə-kredit böhranı ilə üzləş-

diyindən yenicə dövriyyəyə buraxdığı manatının sabit kursunu təmin edə bilmədi. Bundan başqa, qeyri-professional makro və mikroiqtisadi addımlar, kredit, investisiya və pul siyasəti ölkəni xarici kapitalın (rubl və dolların) tam təsiri altına saldı. Qısa zaman çərçivəsində inflyasiya fantastik həddə çatdı, büdcə, xəzinə proqnozları iflasa uğradı.

1993-2005-ci illərdə həyata keçirilən işlər və görülmüş tədbirlər böhranı aradan qaldırdı, inflyasiyanı sabitləşdirdi, büdcə, xəzinə, xarici investisiya qoyuluşu və maliyyə-kredit problemlərini həll etdi. 2005-ci ildə manatın denominasiyası haqqında fərman imzalandı, xəzinəyə iki milyard ABŞ dollarından artıq pul toplandı, neft gəlirlərinin vahid fonda toplanması və istifadəsi strategiyası müəyyən edildi. Azərbaycanın müasir xarici siyasət prioritetlərindən birini mövcud sabit vəziyyəti təmin etməklə ölkənin xarici kapital və investisiya üçün "əlverişli dövlət imicini" qoruyub saxlamaq, xarici aləmin imkanlarından istifadə edərək qeyri-neft sektorunu inkişaf etdirmək, yeni-yeni iş yerləri açmaq, manatın sabit kursunu və inflyasiyanı idarə etmək, beynəlxalq maliyyə qurumları ilə səmərəli əməkdaşlığı davam etdirmək, xarici borcların səviyyəsini nəzarətdə saxlamaq və getdikcə Azərbaycanın xarici kapitaldan və neft gəlirlərindən asılılığını aradan qaldırmaqdan ibarətdir.

Azərbaycanın xarici siyasət prioritetlərindən birini Qərb ölkələrinin təmsil olunduğu Avropa Birliyi sisteminə (iqtisadi, siyasi, sosial, mədəni məkan) və qlobal dünya siyasəti məkanına inteqrasiya təşkil edir. Bu sistemə daxil olmaqla Azərbaycan həm özünün mövcud resurslarından xalqının firavan həyatının təmin edilməsi istiqamətində daha səmərəli, təhlükəsiz və itkisiz istifadə etmək imkanı qazanır. Həm də qabaqcıl dünya texnologiyalarından, investisiya və xarici kapitalın ölkə iqtisadiyyatına daha sürətlə daxil olması, qeyri-neft sektorunun inkişafına nail olunması imkanı qazanır. Bununla bağlı, Avropa İttifaqı və ABŞ-ın imkanlarından istifadə edərək ölkənin daxili iqtisadi, sosial və digər strukturlarının islahatını aparmaq və dünya standartlarına qaldırmaq imkanı da yaranar. Odur ki, Avropa İttifaqı və onun bütün digər strukturları, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya Ticarət Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi beynəlxalq qurumlarla əməkdaşlıq Azərbaycanın xarici iqtisadi siyasətinin əsas prioriteti hesab olunur.

Azərbaycan Qərbə özünün Avrasiya məkanındakı əhəmiyyətli geosiyasi vəziyyətini və zəngin enerji resurslarını lazımi səviyyədə təqdim et-

məklə Cənubi Qafqazın ən lider dövləti statusunu öz əlində saxlaya bilər və saxlamalıdır. Qərbin köməyi və davamlı dəstəyi ilə iqtisadiyyatda struktur islahatlarını müvəffəqiyyətlə başa çatdırmaq, dünyanın liberal ticarət-biznes məkanına daxil olmaq üçün əlverişli beynəlxalq dəstək almaq və dinamik inkişaf yoluna çıxmaq xarici siyasətin mühüm prioriteti olaraq qalır.

Azərbaycanın xarici siyasət prioritetləri sırasına, eyni zamanda dünyada beynəlxalq hüquq normalarına əsaslanan sivil birgəyaşayış normalarının bərqərar olması, dövlətlərin beynəlxalq hüquqlarının qorunması üçün təsirli tədbirlərin görülməsi, beynəlxalq təşkilatların, xüsusən BMT, ATƏT, NATO kimi qurumların dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında daha yaxından iştirakının artırılması və s. məsələlər də daxildir.

Azərbaycan transmilli dünya siyasətində yaxından iştirak edir. Dünyada və müasir beynəlxalq münasibətlər sistemində baş verən bütün hadisələr və cərəyan edən tendensiyalar dövlətin daxili və xarici vəziyyətinə bilavasitə təsir göstərir. Qloballaşma və dünya siyasətinin transmilliləşməsi, regional inteqrasiya, transmilli demokratikləşmə, liberallaşma və s. kimi proseslərdə ölkənin vahid strateji yanaşma nümayiş etdirməsi və iştirakı bütün dünyada izlənir və qiymətləndirilir. Odur ki, həm bu yöndə atılan praktik addımlar, həm də görülən işlərin beynəlxalq aləmdə düzgün təqdim olunması xarici siyasətin əsas prioritetlərindən birini təşkil edir. Nəzərə alınsa ki, Amerika və Avropa İttifaqı dövlətləri müasir dövrdə öz xarici siyasətlərini dünya ölkələrinin demokratik transformasiyası üzərində qurur və hər bir ölkə beynəlxalq münasibətlər sistemində demokratik dəyərlərə münasibətinə görə qiymətləndirilir, onda bu işin nə qədər prioritet olduğunu anlamaq olar.

Azərbaycan dövləti dünyada yaşayan bütün azərbaycanlıların istinad yeri, qürur mənbəyi və doğma Vətənidir. Odur ki, ölkə daxilində olduğu kimi, bütün dünya ölkələrində yaşayan azərbaycanlıların, onlara məxsus əmlak və mülkiyyətin, soydaşlarımızın milli və vətəndaş haqlarının qorunması da xarici siyasət prioritetlərindən birini təşkil edir. Xarici ölkələrdə yaşayan azərbaycanlılar eyni zamanda Azərbaycan dövləti üçün dünyanın ayrı-ayrı ölkələrində, regionlarda və bütövlükdə beynəlxalq aləmdə baş verən hadisələrə təsir etmək anlamında xarici siyasət resursu kimi çıxış edir. Bu resursu qorumaq, imkanlarını artırmaq, birləşdirmək və həm

azərbaycanlıların öz hüquqlarının dolğun təmin olunmasında, həm də Vətənin mənafelərinin qorunmasında onlardan istifadə etmək xarici siyasətdə ən vacib prioritetlərdən biridir.

Azərbaycanın xarici prioritetləri sırasına region maraqlarının sistemləşdirilməsi və reallaşması istiqamətində görülən vacib işləri də aid etmək olar. Məsələn, Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsini həll etməklə yanaşı, Azərbaycan İran, Türkmənistan və Rusiya ilə kəsişən və toqquşan maraqların ortaq nöqtəsini tapmaq və əlaqələri yaxşılaşdırmaq, Türkiyə, Ukrayna, Gürcüstanla və strateji maraqları ölkəmizlə üst-üstə düşən digər region ölkələri ilə müttəfiqlik əlaqələrini daha da inkişaf etdirmək, Xəzər dənizinin statusu, TRASEKA, Şərq-Qərb enerji-nəqliyyat-kommunikasiya layihələrinin həllində müttəfiqlərlə birlikdə səy göstərmək kimi vəzifələri də həll etməlidir. Bütün bunlar xarici siyasətin prioritetləri sırasına daxildir.

Bundan başqa, Avrasiya regionunda həyata keçirilən beynəlxalq və regional inteqrasiyada öz layiqli yerini tutmaq, ölkənin milli maraqlarını maksimum qorumaq və təmin etmək vəzifəsi Azərbaycandan xüsusi düşünülmüş və balanslı siyasət tələb edir. Bu regionda Rusiya başda olmaqla MDB, İran başda olmaqla İƏT, Türkiyə başda olmaqla Türkdilli Dövlətlər Birliyi, ayrıca Avropa İttifaqı, Çin, ABŞ və başqa ölkələrlə əlaqələr sistemi çox mürəkkəb və ziddiyyətlidir. Bütün bunlar Azərbaycanın xarici əlaqələrində balanslı regional siyasət yürütməyi xüsusi bir prioritet kimi irəli çıxarır. Balanslı regional siyasət ölkənin bugünkü təhlükəsizliyi və müstəqil gələcəyi üçün ən mühüm təminat rolunu oynaya biləcək faktordur.

NOVRUZ MƏMMƏDOV
Prezidentin İcra Aparatının
Xarici Əlaqələr şöbəsinin müdiri,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KONSEPSİYASINDA AVROATLANTİK STRUKTURLARLA ƏMƏKDAŞLIQ

Dünyanı dahi şəxsiyyətlərin işıqlı əməlləri nurlandırır. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulurlar. Xalq onlara etimad göstərir, öz taleyini etibar edir, bütün məsuliyyət və vəzifələri onların çiyinlərinə qoyur. Heydər Əliyev Azərbaycan xalqı üçün məhz belə bir şəxsiyyətdir. Xalqımız haqlı olaraq öz azadlıq idealının təsdiqini milli-etnik potensialımızın ən yüksək meyan hesab etdiyi Heydər Əliyevin siyasi əzəmətində görür.

Heydər Əliyev XX yüzilliyin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmiş qüdrətli şəxsiyyətdir. Azərbaycan tarixinin böyük bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun mübarizə yolu, böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. O, Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi, Azərbaycanın dirçəlişi və yüksəlişinin qarantı, ötən yüzilliyin 90-cı illərindən isə yenidən müstəqilliyə qovuşmuş dövlətçiliyimizin banisi və xilaskarıdır.

Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı nə qədər tələtümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas olan siyasi müdriklik, illərlə toplanmış böyük dövlətçilik təcrübəsi, iradə yenilməzliyi və ən başlıcası - doğma Vətənini düçar olduğu bəlalardan xilas etmək istəyi ölkəmizi sürətlə fəlakətə sürükləyən təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə, azadlığa, firavan gələcəyə inamını qaytarmağa qadir olan amil kimi özünü təsdiqlədi. Azərbaycan labüd fəlakətdən xilas oldu. Müstəqilliyimizin dönməz, əbədi xarakter alması, erməni təcavüzünün qarşısının alınması və ölkəmizin ərazi bütövlüyünü təmin etmək uğrunda apardığımız mübarizədə ciddi nəticələr əldə edildi. Hər şeydən əvvəl əmin-amanlığın, qanunçuluğun bərpa olunması, müstəqilliyin qorunub saxlanması istiqamətində uğurlu addımlar atıldı. Sabit siyasi durum, mənəvi-psixoloji atmosfer şəraitində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirildi, bu sahədə həyati əhəmiyyət kəsb edən bir çox diqqətəlayiq tədbirlər həyata keçirildi.

1993-cü ildən başlayaraq Prezident Heydər Əliyev bütün istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də prinsipial və ciddi dəyişikliklərin əsasını qoydu. Müstəqil Azərbaycan dövlətinin xarici siyasət kursunun prioritet istiqamətləri müəyyən edilərək həyata keçirilməyə başlandı.

Heydər Əliyevin müəllifi olduğu xarici siyasət xətti dərin elmi-nəzəri və zəngin təcrübə üzərində qurulmuş bir xarici siyasət konsepsiyasıdır. Bu fəaliyyətdə hər bir amil, faktor, şərait və xüsusiyyət nəzərə alınmışdır. Məhz bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın demək olar ki, bütün ölkələri ilə uğurlu əməkdaşlıq edir. Azərbaycan hazırda planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə, bəlkə də ən mühümünə çevrilmişdir. Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı münasibətlərinin bütün sahələrdə dərinləşdiyi indiki şəraitdə bu, daha aydın şəkildə hiss olunmaqdadır.

İndi Azərbaycan bütün dünyaya açıqdır, çoxşaxəli diplomatik əlaqələrə malikdir, ən nüfuzlu beynəlxalq təşkilatların, iqtisadi və maliyyə qurumlarının üzvüdür. Ölkəmizin dünya birliyində nüfuzu günü-gündən artır, dövlətimiz beynəlxalq və regional siyasətin həyata keçirilməsində getdikcə daha fəal iştirak edir. Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü və bilavasitə səyləri sayəsində yaradılmış GUƏAM təşkilatı böyük bir məkanda region qüvvələrinin birləşməsi, razılaşdırılmış siyasi və iqtisadi strategiyanın işlənib hazırlanması, regional təhlükəsizliyin təmin edilməsi yönümündə fəal rol oynamağa başlamışdır.

Azərbaycanın BMT, ATƏT, AŞ kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığının dayanıqlı xarakter kəsb etməsi, hərbi-siyasi müstəvidə Avratlantik təhlükəsizliyinin mühüm elementi olan NATO ilə tərəfdaşlıq əlaqələrinin yaradılması və getdikcə güclənməsi də son illərin uğurlu xarici siyasətinin real nəticələridir.

NATO ilə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi ölkəmizin dünya birliyinə inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil et-

məsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyindən bu sahədə fəaliyyət müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Azərbaycanla NATO arasında əməkdaşlığın ilk təzahürləri 1992-1993-cü illərə təsadüf etsə də, 1994-cü ilə qədər qarşılıqlı münasibətlər epizodik xarakter daşıyırdı. Lakin Ermənistanın əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı öz əlinə keçirmək məqsədilə respublikamıza qarşı təcavüzü və bunun nəticəsində torpaqlarımızın iyirmi faizinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyondan artıq soydaşımızın qaçqına çevrilməsi nüfuzlu beynəlxalq təşkilatlarla, xüsusən NATO ilə daha sıx əməkdaşlığı zəruri edirdi.

Məhz belə bir şəraitdə Prezident Heydər Əliyev NATO ilə əməkdaşlıq haqqında prinsipial qərar qəbul etdi. NATO-nun müasir beynəlxalq münasibətlərdə aparıcı rolunu, dünya siyasətində yeni meylləri nəzərə alaraq, eləcə də öz potensialını və mənafelərini əsas tutaraq Azərbaycan dövləti 1994-cü il mayın 4-də "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzaladı. Azərbaycan MDB məkanında Ukrayna, Moldova və Gürcüstandan sonra bu proqrama qoşulan dördüncü respublika idi. Ümummilli liderimiz Heydər Əliyev bu tarixi hadisə ilə bağlı çıxışında deyirdi: "Azərbaycan Respublikası Şimali Atlantika İttifaqına dərin hörmətlə yanaşır, onun son on illiklər ərzində Avropada sülhü, sabitliyi və ardıcıl inkişafı təmin etmək sahəsində göstərdiyi fəaliyyəti yüksək qiymətləndirir. Hazırda dünyada kollektiv təhlükəsizliyin real surətdə mövcud olan strukturu kimi NATO demokratik dəyərlərin müdafiəsini və bu dəyərlərin Şərqi Avropada və keçmiş SSRİ ərazisində yaranmış yeni müstəqil dövlətlərdə yayılmasını təmin edir. Biz NATO-ya gənc Azərbaycan dövlətinə Qərb dünyası ilə sıx və çoxtərəfli qarşılıqlı münasibətlər yaratmaqda və Qərb dünyasının çox zəngin təcrübəsindən bəhrələnməkdə kömək etməyə qadir olan bir təşkilat kimi baxırıq".

Azərbaycan Prezidenti Heydər Əliyevin NATO Baş katibinin müavini Serco Balansino ilə görüşü zamanı tərəflər silahlı münaqişələrin dayandırılması və sülhün bərqərar olmasında "Sülh naminə tərəfdaşlıq" proqramının mühüm rol oynaya bilməsi haqqında yekdil fikrə gəldilər. Əlbəttə, Azərbaycanın bu proqramı imzalaması NATO ilə əməkdaşlıqda ilk addım idi. Proqramın gələcəkdə Şimali Atlantika İttifaqı ilə əməkdaşlıq sahəsində açacağı imkanları və bu əlaqələrin geniş parametrlərini nəzərə alsaq, atılmış addımın əhəmiyyətinə əsl qiymət vermək olar.

Prezident Heydər Əliyev NATO-nun mənzil-qərargahında sənədlərin imzalamasından sonra keçirdiyi mətbuat konfransında bəyan edirdi ki, "«Sülh naminə tərəfdaşlıq" proqramının imzalanması Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Gənc müstəqil dövlət kimi Azərbaycan Respublikasının bu proqramda iştirakı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Regionda hərbi münaqişə olduğunu nəzərə alaraq Azərbaycan bu proqrama böyük ümidlər bəsləyir. Müstəqil Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması Azərbaycan Respublikası ilə NATO üzvü olan dövlətlər arasında əlaqələrin genişlənməsinə kömək edəcək".

Ermənistanın Azərbaycana qarşı təcavüzü probleminə toxunaraq Azərbaycan Prezidenti deyirdi: "Şimali Atlantika İttifaqının üzvləri hər hansı dövlətin ərazi bütövlüyünün və siyasi müstəqilliyinin zərərinə olaraq qüvvə tətbiq etməkdən imtina haqqında təəhhüdlərini, həmçinin mövcud sərhədlərə hörmətlə yanaşmaq və mübahisələri dinc vasitələrlə həll etməyə tərəfdar olduqlarını təsdiq etdilər. NATO üzvü olan dövlətlərin bu mövqeyi müstəqil Azərbaycanın maraqlarına cavab verir".

Azərbaycan dövlətinin başçısı ümidvar olduğunu bildirirdi ki, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etmək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətlə, dinclıklə dayandırılmasına, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə, münaqibənin bütün nəticələrinin aradan qaldırılmasına tezliklə nail olmağa imkan verəcəkdir: "Çünki NATO üzvü olan dövlətlər hər hansı ölkənin sərhədlərinin silah gücünə dəyişdirilməsini yolverilməz sayırlar. Sənədin bu müddəaları ümid etməyə əsas verir ki, Qafqaz regionunda vəziyyətin nizama salınması üçün NATO ölkələri konkret əməli addım atacaqdır". Bunu NATO Baş katibinin müavini S.Balansinonun fikirləri də sübut edir. O, bəyan etmişdir ki, "bu proqramın iştirakçısı kimi, Azərbaycan Respublikası özünün mənsub qaldığı münaqişə ilə bağlı məsləhətləşmələr keçirilməsi barədə müraciət edərsə, biz buna böyük diqqətlə yanaşacaq və belə məsləhətləşmələr keçirəcəyik".

Azərbaycan Prezidenti "Sülh naminə tərəfdaşlıq" proqramının əhəmiyyətindən danışarkən deyirdi: "...bizim bu proqramda iştirakımız Emə-

nıstan-Azərbaycan münaqişəsi ilə bağlı məsələlərin müzakirəsində NATO-nun iştirakına şərait yaradır".

Göründüyü kimi, NATO ilə əməkdaşlığın müstəqil Azərbaycan dövləti üçün böyük əhəmiyyəti və perspektivləri vardır. Bu əməkdaşlığın əsas prinsipləri və istiqamətləri "Sülh naminə tərəfdaşlıq" proqramında və Azərbaycanın təqdim etdiyi "Prezentasiya sənədi"ndə öz əksini tapmışdır. "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla Azərbaycan hər şeydən əvvəl, planetin ən qüdrətli hərbi-siyasi bloku ilə əməkdaşlıq tellərini möhkəmləndirdi, həmçinin NATO-nun şəxsində güclü və etibarlı tərəfdaş qazandı.

Azərbaycan-NATO münasibətləri 1994-cü ilin iyununda Azərbaycan nümayəndə heyətinin Şimali Atlantika Əməkdaşlıq Şurasının (ŞAƏŞ) sessiyasında iştirakı ilə bir qədər də inkişaf etdirildi. Səfər zamanı Ermənistanın Azərbaycana təcavüzü və onun nəticələri haqqında geniş məlumat verilmiş və qəbul olunmuş bəyanatın "Regional münaqişələr" hissəsində bu problem öz əksini tapmışdır. Bəyanatda belə bir prinsipial müddəa ifadə olunmuşdur ki, bütün dövlətlərarası münaqişələr dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll olunmalıdır.

1995-ci ilin mayında NATO Verifikasiya Komitəsinin sədri Necil Nədimoğlunun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfər etdi. Bu komitə Avropada Adi Silahlı Qüvvələr haqqında müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarəti təmin etməli idi. Azərbaycana səfər də bununla bağlı idi. Prezident Heydər Əliyevlə keçirilən görüşdə NATO ilə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsinin və bölgədə sülh yaradılmasının vacibliyi vurğulandı. Azərbaycan Prezidenti Rusiya ilə Ermənistan arasında bağlanmış hərbi əməkdaşlıq haqqında müqavilənin Azərbaycan tərəfində narahatlıq doğurduğunu bildirdi. Görüşdə, həmçinin ŞAƏŞ-in iclaslarında Azərbaycan tərəfinin dəfələrlə qaldırdığı daha bir məsələ–Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə nəzarətdən kənar qalmış hərbi qüvvələrin və silahların yerləşdirilməsi NATO nümayəndələrinin diqqətinə çatdırdı. Azərbaycan regionda gərginlik yaradan bu məsələ ətrafında Şimali Atlantika İttifaqının lazımi tədbirlər görməsinin zəruriliyini irəli sürdü.

Azərbaycan nümayəndə heyətinin NATO-nun müxtəlif tədbirlərində iştirakı ilə yanaşı, Alyansın müxtəlif səviyyəli nümayəndələrinin ölkəmizə səfərlərini də əməkdaşlığın inkişafı formaları kimi qəbul etmək olar. 1995-ci ilin iyununda Prezident Heydər Əliyev NATO Silahlı Qüvvələrinin Avropa komandanının müavini general Ç.Makkenzini qəbul etdi. Görüşdə general Ç.Makkenzi Azərbaycanla NATO arasında münasibətlərin inkişafından məmnun qaldığını bildirdi və qeyd etdi ki, Şimali Atlantika İttifaqı Azərbaycan Silahlı Qüvvələrinin qurulmasında və təkmilləşdirilməsində əhəmiyyətli rol oynaya bilər. O, xüsusi vurğuladı ki, ordu hər bir dövlətin atributudur və Azərbaycan da öz növbəsində layıq olduğu orduya malik olmalıdır.

Azərbaycanın dövlət başçısı görüşdə bildirdi ki, "biz bir tərəfdən, NATO-nu dünyada ən nüfuzlu və təsirli təşkilat hesab edirik, digər tərəfdən, onu regionda sülhün dayağı və təşkilatçısı kimi görürük. Biz öz ordumuzun qurulması prosesində NATO təcrübəsindən faydalanmalıyıq və bu faktor əməkdaşlığımızın ən mühüm mərhələsi olacaqdır". Görüşdə ilk dəfə olaraq, NATO-nun rəsmi nümayəndəsi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və regionda sülhün təmin olunması zəruriliyini qeyd etdi.

Prezident Heydər Əliyevin 1996-cı ilin aprelində Avropa ölkələrinə səfəri zamanı Azərbaycan Respublikası və Avropa İttifaqı arasında imzalanan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi NATO ilə əlaqələrin genişləndirilməsi sahəsində böyük əhəmiyyətə malik oldu. Azərbaycanın xarici siyasətinin parlaq səhifələrindən biri kimi qiymətləndirilən və müstəqil dövlətimiz üçün tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin dərinləşməsi üçün hüquqi baza rolunu oynayır. Aprelin 23-də Brüsseldə NATO-nun Baş katibi Xavyer Solana ilə görüşü zamanı Prezident Heydər Əliyev Azərbaycan Respublikasının Şimali Atlantika İttifaqı ilə əməkdaşlığını təsdiqləyən və şərtləndirən "Prezentasiya sənədi"ni ona təqdim etdi. Ölkəmizin hərbi struktur rəhbərlərinin də iştirak etdiyi həmin görüşdə respublikamızın gələcəkdə Alyans ilə əməkdaşlığı barədə bəzi məsələlər müzakirə olundu. Söhbət zamanı X.Solana Cənubi Qafqazda cərəyan edən hadisələri diqqətlə izlədiyini, Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilməsində Prezident Heydər Əliyevin fəaliyyətini yüksək qiymətlən-

dirdiyini bildirdi. Tərəflər belə bir fikri xüsusi olaraq vurğuladılar ki, Qafqazda sülhün və sabitliyin mövcudluğu region dövlətlərinin gələcək əməkdaşlığının və xalqların rifahının stimuludur. Bununla əlaqədar NATO nun Baş katibi üç Cənubi Qafqaz dövləti tərəfindən Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq müqavilələrinin imzalanmasını və Azərbaycanla Ermənistanın birgə bəyanat qəbul etməsini yüksək qiymətləndirdi.

Azərbaycanın 1995-ci ildə Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil olması NATO-ya Qafqazda münaqişəli məsələlərin həllində fəxri üzv statusu ilə iştirak etmək imkanı verirdisə, "Prezentasiya sənədi"nin təqdim olunması artıq respublikamıza öz təhlükəsizlik və müstəqillik məsələlərini fərdi qaydada, istədiyi taktiki yolla, müstəqil müəyyən etməyə və bu halda Şimali Atlantika Blokunun müdafiəsinə nail olmaq imkanı verir.

1997-ci ilin əvvəlində NATO-nun Baş katibi X.Solana Azərbaycana səfər etdi. Bu səfər NATO-Azərbaycan münasibətlərinə xüsusi təkan verdi və NATO-nun ölkəmizlə bağlı planlarının ciddi olduğunu sübut etdi. Prezident Heydər Əliyevlə görüşündə Baş katib təhlükəsizlik probleminin həm Azərbaycan, həm də NATO üçün çox mühüm əhəmiyyətə malik olduğunu xüsusi vurğulamaqla bərabər, respublikamızla əməkdaşlığın "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində gələcəkdə daha da inkişaf edəcəyini bildirdi. Səfər zamanı X.Solana Milli Məclisdə NATO qarşısında duran yeni vəzifələr və Azərbaycanla Alyans arasında qarşılıqlı əlaqələrin perspektivləri haqqında nitq söylədi. O, öz çıxışında bildirirdi: "Bu il biz Avropa təhlükəsizliyinin yeni arxitekturasının qurulması üçün addımlar atırıq və bu arxitekturada Azərbaycanın yerini hiss edirik".

Azərbaycan-NATO münasibətlərinin mahiyyəti və xüsusiyyətlərinə qiymət vermək baxımından 1997-ci ilin iyulunda Prezident Heydər Əliyevin Avropa-Atlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündəki çıxışı xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçımız sammitdəki nitqində respublikamızın yeni müstəqil dövlətlərlə NATO arasında əməli dialoqa və əməkdaşlığa böyük əhəmiyyət verdiyini xüsusi vurğulayaraq bölgədə silahlı münaqişələrin aradan qaldırılmasında Azərbaycanın NATO-nun və Avropa-Atlantika Əməkdaşlıq Şurasının fəal roluna ümid bəslədiyini bildirirdi. O deyirdi: "Onlar Qafqazdakı silahlı münaqişələri kənardan müşahidə etməməlidirlər. Nəzərə almaq lazımdır ki, bu münaqişələr Ümumavropa təhlükəsizliyi üçün də ciddi təhlükə yaradır". Prezident bir daha qeyd edirdi ki, Azərbaycan Respublikası Avropa-Atlantika Əməkdaşlıq Şurasının yaradılmasını alqışlayır və buna NATO ilə tərəfdaş ölkələr arasında siyasi məsləhətləşmələrin, fəal əməkdaşlığın mühüm mexanizmi kimi baxır.

Həmin ilin iyulunda ABŞ-a rəsmi səfəri zamanı Prezident Heydər Əliyev Nyu-Yorkda X.Solana ilə növbəti görüşündə də bu fikri bir daha təsdiqləyirdi. "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan Azərbaycan ilə NATO arasında son illər yaranmış əlaqələrdən razılıqla bəhs edən Baş katib əmin olduğunu bildirirdi ki, bu münasibətlər Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində daha da möhkəmlənəcəkdir. X.Solana respublikamızın müstəqilliyinin qorunub saxlanması, ölkəmizdə demokratik proseslərin, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri müsbət qiymətləndirirdi.

1997-ci il noyabrın 14-də Prezident Heydər Əliyev Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında sərəncam imzaladı. Sərəncama uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti yanında NATO ilə əməkdaşlıq üzrə dövlət komissiyası yaradıldı. Komissiya "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlığın vahid proqramının hazırlanması ilə əlaqədar müdafiə, xarici işlər, milli təhlükəsizlik və rabitə nazirliklərinin, eləcə də Milli Elmlər Akademiyasının səylərinin birləşdirilməsi istiqamətində məqsədyönlü iş aparır. Eyni zamanda, Azərbaycan 1997-ci ildə NATO Planlaşdırma və Analiz Prosesinə (PAP) qoşuldu. Elə həmin il Azərbaycan NATO-nun Brüsseldəki mənzil-qərargahında öz diplomatik nümayəndəliyini təsis etdi. Ölkəmizin diplomatik missiyasının Şimali Atlantika Alyansının mənzil-qərargahında açılması qarşılıqlı şəkildə aparılan işləri daha da sürətləndirdi.

Azərbaycanın NATO ilə əməkdaşlıq etdiyi mühüm sahələrdən biri də "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Planlaşdırma və Analiz Prosesidir. PAP tərəfdaş dövlətlərlə Şimali Atlantika İttifaqı arasında əlaqələrin inkişafına kömək edəcək bir sıra hədəflərə nail olmaq üçün nəzərdə tutulmuş prosesdir. "Sülh naminə tərəfdaşlıq" proqramında irəli sürülmüş bir sıra məqsədlərin praktik şəkildə həyata keçirilməsini nəzərdə tutan bu prosesdə MDB ölkələrindən yalnız Azərbaycan, Ukrayna və

Moldova iştirak edir. PAP çərçivəsində fəaliyyətin əsas istiqaməti qarşılıqlı fəaliyyət tədbirlərinin, yeni hərbi təlim, sülhyaratma əməliyyatlarının planlaşdırılmasına yönəldilmişdir.

1998-ci il mayın 5-də Atlantika Müqaviləsi Assosiasiyasının (AMA) sədri G.Teodossis ölkəmizə səfər etdi. Prezident Heydər Əliyevlə görüşündə o, özündə 60-dan çox ölkənin qeyri-hökumət təşkilatlarını birləşdirən AMA-nın əsas məqsədinin NATO ilə əməkdaşlıq etmək istəyən ölkələrdə həmin blokun ideyalarının yayılmasından ibarət olduğunu bildirdi.

1998-ci ilin ikinci yarısından etibarən Silahlı Qüvvələrimizin hərbi hissələri "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO ilə birgə keçirilən hərbi təlimlərdə iştirak etməyə başladı. 1998-ci il sentyabrın 10-dan 18-dək Makedoniyanın "Krivolk" təlim mərkəzində NATO üzvü və tərəfdaş dövlətlərin "Cooperative best effort" təlimlərində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı bölüyünün bir taqımı da iştirak etdi. Otuza yaxın dövlətin qatıldığı bu təlimlərin əsas məqsədi sülhməramlı əməliyyatlar zamanı birləşmiş hərbi qüvvələrin fəaliyyətini təkmilləşdirmək, qarşılıqlı yardım və əməkdaşlıq təcrübəsini zənginləşdirmək idi. Sentyabr ayının 22-dən 28-dək isə Özbəkistanda NATO ölkələrinin və Azərbaycan da daxil olmaqla, tərəfdaş dövlətlərin beynəlxalq sülhməramlı təlimləri keçirildi. Mütəxəssislərin fikrincə, beynəlxalq hərbi əməkdaşlıq sahəsində əlaqələrin genişlənməsində bu təlimlərin böyük əhəmiyyəti vardır. Təlimlərin məqsədi sülhməramlı əməliyyatlar zamanı çoxmillətli hərbi hissələr arasında əlaqələrin möhkəmləndirilməsindən ibarət idi. Təlimlərin keçirildiyi Çirçik təlim mərkəzində bu ölkələrin silahlı qüvvələrinin nümayəndələri müxtəlif əməliyyatlarda–humanitar yüklərin qorunması, sülhməramlı əməliyyatlar zamanı tibbi xidmət göstərilməsi, minaların tapılması və zərərsizləşdirilməsi, mühüm obyektlərin qorunmasında iştirak etdilər. Azərbaycan hərbçiləri sülhməramlı təlimlər zamanı tapşırıqları yerinə yetirərkən yüksək hazırlıq nümayiş etdirdilər və bu, təlimlərdə müşahidəçi qismində iştirak edən dövlətlərin silahlı qüvvələrinin nümayəndələri tərəfindən yüksək qiymətləndirildi. Bu təlimlərdən əlavə, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ekspertləri təkcə sentyabr ayı ərzində daha ona yaxın tədbirdə iştirak etdilər.

Azərbaycan Silahlı Qüvvələrinin "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində aktiv fəaliyyəti fonunda NATO-nun Baş katibi X.Solana 1998-

ci ilin sentyabrında ölkəmizə səfərə gəldi. Səfər zamanı NATO-nun Avroatlantik və regional təhlükəsizliyə dair mövqeyi Azərbaycan tərəfinə açıqlandı və ölkə başçısı ilə NATO-Azərbaycan əlaqələrinə dair geniş müzakirələr aparıldı. X.Solana regiona ikinci səfərinin məqsədini aşağıdakı kimi izah edirdi: "Başlıcası budur ki, biz nəinki "Sülh naminə tərəfdaşlıq" proqramı üzrə ümumi işi təhlil etmək üçün, həm də dünyada təhlükəsizliyə aid digər məsələləri müzakirə etmək üçün toplaşmışıq". X.Solana daha sonra deyirdi: "XXI əsr ərəfəsində isə məsələlər daha da çoxdur, çünki dünya sürətlə dəyişir, dünyada hər şey sürətlə qloballaşır, regional səviyyədə daimi təşəbbüslər irəli sürülür. Tarixi İpək yolunun bərpasına dair Azərbaycanın təşəbbüsü ilə bu yaxınlarda Bakıda keçirilmiş konfrans buna inandırıcı sübutdur". Sentyabrın 30-da X.Solana Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə baş çəkdi, Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı bölüyünün şəxsi heyəti ilə görüşdü və onları bu günlərdə başa çatan "Mərkəzi Asiya Batalyonu-98" təlimlərində nümayiş etdirdikləri ustalığa görə təbrik etdi. Ümumiyyətlə, NATO Baş katibinin respublikamıza ikinci səfəri əməkdaşlığın inkişaf etdirilməsi baxımından daha məhsuldar oldu.

1998-ci ilin oktyabrında Şimali Atlantika Parlament Assambleyasının NATO-nun genişləndirilməsi və yeni demokratik ölkələr üzrə köməkçi komitəsinin nümayəndə heyəti ölkəmizə səfər edərək respublikamızdakı ictimai-siyasi vəziyyətlə tanış oldu. Prezident Heydər Əliyevlə görüş zamanı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və onunla əlaqədar yaranmış problemlər müzakirə edildi. Respublikamıza yenidən səfərə gəlməkdən məmnun qaldığını bildirən nümayəndə heyətinin başçısı, Fransa parlamentinin üzvü Lui Buvard Bakıda keçirdikləri görüşlərdən ətraflı söhbət açaraq, yaxın gələcəkdə Şimali Atlantika Parlament Assambleyasında Azərbaycan Milli Məclisi nümayəndəsinin daimi əsaslarla fəaliyyət göstərəcəyinə ümidvar olduğunu söylədi. Nümayəndə heyətinin üzvləri-türkiyəli Tahir Köse, polşalı Lonqin Pastusiak, yunanıstanlı Xristos Rokofilos Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması imkanları barədə maraqlandılar.

Dünyanın aparıcı ölkələrinin və beynəlxalq təşkilatların bu məsələyə daha ciddi yanaşması, lazımi səylər göstərməsi nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinin mümkün olduğunu vurğulayan dövlət başçımız bu sahədə yaranmış nor-

mativ-hüquqi sənədlərdən ətraflı söhbət açdı. 1993-1994-cü illərdə BMT-nin qəbul etdiyi qətnamələrdən, Təhlükəsizlik Şurası sədrinin bəyanatlarından bəhs edən Azərbaycan Prezidenti həmin sənədlərdə Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunduğunu vurğuladı, lakin təcavüzkar qonşumuzun bu qətnamələri və tələbləri yerinə yetirmədiyini və təəssüf ki, BMT Təhlükəsizlik Şurası və dünya dövlətlərinin bu beynəlxalq təşkilatın qərarlarına Ermənistanın itaətsizlik etməsinə laqeyd yanaşdıqlarını bildirdi. Bir çox nüfuzlu dövlətlərin üzvü olduqları Minsk qrupunun yaranmasından, ATƏT-in 1994-cü il Budapeşt zirvə görüşündə qəbul olunmuş qətnamədən söhbət açan respublikamızın rəhbəri 1996-cı ildə Lissabon sammitində ATƏT-in icraçı sədrinin bəyanatını və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün müəyyənləşdirilmiş üç əsas prinsipi geniş şərh etdi. ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Rusiya və Fransanın irəli sürdükləri təkliflərdən bəhs edən, həmin təklifləri Ermənistan tərəfinin qəbul etmədiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev həmsədrlərin səylərinin də hələ heç bir nəticə vermədiyindən təəssüfləndiyini bildirdi. Ermənistan ərazisində Rusiyanın böyük həcmdə hərbi bazalarının xüsusi status aldığını, Rusiya ilə Ermənistan arasında hərbi ittifaq yarandığını nəzərə çarpdıran dövlət başçımız Rusiyanın bir tərəfdən Minsk qrupunun həmsədri kimi münaqişənin həllinə çalışdığını, digər tərəfdən isə Ermənistanla hərbi müttəfiqlik haqqında sazış imzaladığını və hər iki ölkənin silahlı qüvvələrinin birgə hərbi manevrlər keçirdiyini deyirdi. Daha sonra o, müharibədə 1994-cü ildə atəşkəs əldə edildikdən sonra Rusiya Müdafiə Nazirliyinin Ermənistana qanunsuz, gizli yolla və təmənnasız olaraq bir milyard dollar dəyərində ağır hərbi texnika, silah-sursat, raketlər verdiyini, bunun ardınca isə "C-300" raketləri, yeni tipli hərbi təyyarələr vermək niyyətində olduğunu qeyd edərək Rusiyanın çox kiçik ərazisi olan Ermənistanı başdan-ayağa silah-sursatla doldurmasının Azərbaycana qarşı deyil, NATO-ya qarşı edildiyini bildirirdi.

1999-cu ilin martında Azərbaycan Respublikasının müdafiə naziri ABŞ Aviasiya Kollecinin direktoru general-mayor L.Smitin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi. Görüşdə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində ölkəmizlə Şimali Atlantika İttifaqı arasında əməkdaşlıq məsələləri müzakirə olundu. ABŞ-ın Avropadakı Silahlı Qüvvələri Qərargahlarının Planlaşdırma və siyasət departamentinin rəisi, hərbi-hava qüvvələri general-mayoru Çarlz Voksun martın sonlarında ölkəmizə səfəri də Azərbaycan və ümumiyyətlə, Cənubi Qafqaz dövlətləri ilə əməkdaşlığın imkanlarını öyrənmək məqsədi daşıyırdı. Prezident Heydər Əliyevlə görüşdə Ç.Voks öz səfərinin məqsədini bu şəkildə izah edirdi: "Biz buraya gəldik ki, Avropada yerləşən ABŞ qoşunları ilə Azərbaycan arasında daha dərin, daha geniş əlaqələr yaratmağın yollarını arayıb axtaraq. Biz yalnız Azərbaycanla deyil, eyni zamanda regionun digər xalqları ilə də əlaqələr yaratmaq istəyirik. Çünki bu xalqların sabitlik, sülh şəraitində yaşaması hamı üçün vacibdir". Azərbaycan Prezidenti generalın fikirlərini özünəməxsus incəliklə aşağıdakı sözləri ilə təsdiqlədi: "Mən də sizin fikrinizlə razıyam ki, bu, hər iki tərəf – həm Azərbaycan, həm ABŞ və NATO üçün, həm də Qafqazda olan başqa ölkələr üçün lazımdır. Ümumiyyətlə, bu məsələyə sizin geniş baxışınızı daha doğru hesab edirik".

1999-cu il aprelin 23-24-də Vaşinqtonda NATO-nun 50 illik yubileyinin də qeyd edildiyi dövlət və hökumət başçılarının sammiti Alyans tarixində dönüş nöqtəsi oldu. Bunu sammit zamanı qəbul edilmiş sənədlər əsasında söyləmək mümkündür. Əhəmiyyətli hadisələrdən biri NATO-nun yeni strateji konsepsiyasının qəbul edilməsi idi. Vaşinqton sammitində Azərbaycan üçün əhəmiyyətli olan bir məqama xüsusi diqqət yetirmək lazımdır. Hələ 1996-cı ilin mayından "Cinah sazışı"nın qəbul edilməsi ilə əlaqədar Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova arasında danışıqlar formatının əsası qoyulmuşdu. 1997-ci il oktyabrın 10-11-də bu ölkələrin dövlət başçılarının Strasburqda Avropa Şurası çərçivəsində keçirilən görüşü zamanı imzaladıqları əməkdaşlıq haqqında kommünikeyə uyğun olaraq, GUÖAM adlı konsultativ forum yaradıldı. 1997-ci il oktyabrın 24–25-də isə Bakıda dörd dövlətin Xarici işlər nazirliklərinin nümayəndələrinin daxil olduğu məsləhət qrupunun görüşü nəticəsində imzalanan protokolda bu təşkilatın yaradılması rəsmən elan olundu. Özbəkistan isə kommünike və protokola bir qədər sonra, 1999-cu ilin aprelində və məhz Şimali Atlantika İttifaqının Vaşinqton sammiti zamanı qoşuldu. NATO sammiti fonunda GUÖAM-ın genişləndirilməsi beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək və qurumun tədricən regional təşkilata çevrilməsini tezləşdirmək baxımından əhəmiyyətli idi.

1999-cu ilin may ayında NATO Parlament Assambleyasının Polşada keçirilən sessiyasında ölkəmiz bu təşkilatda müşahidəçi statusu aldı.

Azərbaycan NATO əməkdaşlığında diqqəti cəlb edən daha bir məqam Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı taqımının Kosovada beynəlxalq sülhyaratma qüvvələrinin tərkibinə qoşulması idi. Hələ Kosovoda NATO əməliyyatlarının başlanğıcında, MDB dövlət başçılarının görüşündə Prezident Heydər Əliyev Azərbaycan taqımının Kosovoya göndəriləcəyini bəyan etmişdi. Həmin ilin iyul ayında NATO-nun Baş katibi X.Solana Azərbaycanın Alyans yanındakı missiyasına məktub göndərmişdi. Məktubda bildirilirdi ki, Şimali Atlantika Şurası Kosovada keçirilən sülhyaratma əməliyyatlarında iştirak etmək üçün Azərbaycana rəsmi dəvət göndərməyi qərara almışdır. Məktubda, həmçinin sülhyaratma əməliyyatlarında Azərbaycanın iştirak etməsinin NATO üzvü olan ölkələr tərəfindən alqışlandığı bildirilirdi. İyulun 28-də Bakıda Türkiyə hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında "Kosovo türk taburu tərkibində Azərbaycan taqımının fəaliyyətinə dair saziş" imzalandı. 1999-cu ilin sentyabr ayından etibarən ölkəmiz öz sülhməramlı tağımını ilk dəfə olaraq, Türkiyə taburu tərkibində Kosovoda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etmək üçün həmin regiona ezam etdi. Azərbaycanın Kosovodakı sülh əməliyyatlarında iştirakı ölkəmizin silahlı qüvvələrinin NATO standartları əsasında formalaşmasının və oxşar hallarda lazımi təcrübənin toplamasının. NATO üzvü olan ölkələrin şəxsi heyətləri ilə birbaşa təmasda olmasının bariz nümunəsi idi. Azərbaycan hərbçilərinin bu istiqamətdə əldə etdiyi irəliləyişi 2000-ci ilin aprelində ölkəmizə səfər edən NATO Hərbi Komitəsinin sədri admiral Venturioni də qeyd etmişdir.

1999-cı ilin noyabr ayında ATƏT-in İstanbul sammitində Avropada Adi Silahlı Qüvvələr haqqında müqavilənin (AASQ) yeni şəraitə uyğunlaşdırılmış variantı qəbul edildi. 1997-ci ilin yanvar ayından başlayan unifikasiya prosesinin nəticəsində yaranmış yeni variant əvvəlkilərindən bəzi yeniliklərə görə fərqlənirdi. Müqavilənin 1990-cı ilin noyabrında qəbul edilmiş ilkin variantı NATO ilə Varşava Müqaviləsi Təşkilatı arasında beş kateqoriyadan (tank, zirehli döyüş maşını, artilleriya, döyüş təyyarələri və hücum vertolyotları) olan silahların Avropanın müxtəlif zonaları üzrə bərabər məhdudlaşdırılmasından ibarət idi. Müqavilənin yeni uyğunlaşdırılmış variantında blok və zonal məhdudlaşdırılma aradan qaldırılaraq, hər

bir iştirakçı dövlət üçün silahların Milli Tavanının müəyyən edilməsi ilə əvəz edilirdi. Bu, muqavilələ əlavə edilmiş iki protokolla müəyyən edilirdi. Birinci protokolda müqavilələ qoşulmuş hər bir dövlət üçün silahların Milli Tavanı, ikinci protokolda isə iştirakçı dövlətlərin əhatə etdiyi Ərazi Tavanı göstərilirdi. Birinci protokol hər bir dövlətin malik ola biləcəyi silahları, ikinci protokol isə bir ölkənin ərazi daxilində xarici və yerli dövlətin birlikdə saxlaya biləcəyi maksimum silah tavanları göstərilirdi. Başqa sözlə, Ərazi Tavanı, əvvəlki müqavilədəki zonal məhdudiyyəti dövlətin əhatə etdiyi ərazi həcminə qədər kiçildilirdi. Bundan əlavə, müqavilə digər Avropa dövlətlərinin qoşulması üçün açıq elan edilirdi. Azərbaycan üçün bu müqavilə üç məqama görə maraqlı idi: 1992-ci il Daşkənd müqaviləsi ilə Azərbaycan üçün müəyyən edilmiş silah kvotasının artırılması, regionda nəzarətdən kənar silahlı birləşmələrin yaradılmasının qarşısını alan mexanizmlərin müqavilədə əks olunması və 1996- cı ilin mayında qəbul edilmiş "Cinah sazişi"nin aradan qaldırılması.

Birinci məsələ, yəni Azərbaycan üçün nəzərdə tutulmuş, onun ərazi və əhalisinin sayına müvafiq olmayan silah kvotasının artırılmasına edilmiş cəhdlər Ermənistan və Rusiyanın etirazlar nəticəsində cavabsız qaldı. Beləliklə də, müqavilənin yeni variantında da Azərbaycan, Ermənistan və Gürcüstan üçün bərabər silah kvotaları müəyyən edildi ki, bu da regiondakı reallıqlara uyğun deyildi. Nəzarətdən kənar ərazilərdə qeyri-qanuni silahlı qüvvələrin qeydiyyatının aparılması və ya onların ləğv edilməsi mexanizmlərinin müqavilədə əks olunması Azərbaycan və Gürcüstan üçün mühüm olan ikinci məsələ idi. Bu məsələyə Prezident Heydər Əliyev İstanbul sammiti ərəfəsində respublika ziyalıları ilə görüşündə xüsusi aydınlıq gətirdi. Prezident bildirdi ki, Qarabağda qeyri-qanuni silahların qeydiyyatdan keçməsinin iki variantı mövcuddur:

- birinci varianta əsasən, oradakı silahlar Ermənistanın kvotasına aid edilirdi. Bu da faktiki olaraq, Qarabağın Ermənistanın suverenliyi altında olan bir ərazi kimi tanınması idi. Ona görə də bu variant Azərbaycan üçün məqbul deyildi;

- ikinci variant həmin silahların Azərbaycanın kvotasına aid edilməsi idi. Lakin bu halda Azərbaycan üçün nəzərdə tutulmuş Ərazi Tavanında artıq yaranırdı ki, bunun da qarşısını almaq üçün Azərbaycan silahlı qüvvələrinin malik olduğu hərbi texnikanı azaltmaq lazım gələcəkdi.

Cinah məhdudiyyətlərinə gəldikdə isə, yeni müqavilədə zonal prinsipdən imtina edilsə də, cinah rejimi toxunulmaz olaraq qaldı. Cinah rejiminin aid edildiyi 12 dövlətdən 10-u (İslandiya, Norveç, Rusiya, Moldova, Ukrayna, Yunanıstan, Tyrkiyə, Bolqarıstan, Rumıniya, Azərbaycan, Gürcüstan, Ermənistan) Balkanlar və Qafqaz kimi hələ də aşağı intensivlikli toqquşmalara səhnə olan və lokal müharibə potensialını özündə saxlayan həssas regionda yerləşdiyi üçün bu zonada qüvvələrin mövcud nisbi tarazlığının qorunub saxlanılması qərara alındı.

1999-cu ildən etibarən Azərbaycan ərazisində keçirilən tədbirlərdə də müəyyən artım müşahidə edilməyə başlandı. Bu tədbirlər Azərbaycan-NATO əməkdaşlığının inkişaf səviyyəsi haqqında fikir yürütməyə əsas verən faktlar sırasındadır. 1999-cu il mayın 20-də Bakıda NATO çərçivəsində fəaliyyət göstərən Atlantika Siyasəti üzrə Məsləhət Qrupunun sessiyası öz işinə başladı. Bu, qrupun keçmiş Sovet respublikalarından birinin ərazisində keçirdiyi ilk sessiyası idi. Sessiyanın işində NATO və AATŞ-ın 30-a yaxın dövlətinin nümayəndələri iştirak edirdi. İştirakçı dövlətlərin bir çoxu bu mötəbər tədbirin öz ölkələrində keçirilməsinə çalışırdı. Lakin hələ Brüsseldə sessiyanın 1998-ci ildə Bakıda keçirilməsi qərara alınmışdı. Sessiyada iki gün davam edən diskussiyalarda Avratlantika regionunda kollektiv təhlükəsizliyin yaradılması, əməkdaşlığın, tərəfdaşlığın dərinləşdirilməsi, böhranların nizamlanması yolları, NATO-ya gələcək üzvlük, Alyansın yeni strateji konsepsiyası və təşəbbüslərinin reallaşdırılması yolları haqqında fikir mübadiləsi aparıldı. Sessiyanın işinə NATO Baş katibinin siyasi məsələlər üzrə köməkçisi səfir Klaus-Peter Klayber sədrlik edirdi. Sessiyadan sonra K.Klayberin Azərbaycan parlamenti, Xarici işlər və müdafiə nazirliklərində bir sıra görüşləri oldu, bu görüşlərdə Azərbaycan-NATO əməkdaşlığının dərinləşdirilməsi, GUƏAM-NATO əlaqələri, Qafqaz regionunda geosiyasi vəziyyət haqqında fikir mübadiləsi aparıldı. Müdafiə Nazirliyində keçirilən görüşdə K.Klayber qeyd etdi ki, NATO boru kəmərlərinin mühafizəsinin təşkilinin maliyyələşdirilməsinə bu məsələdə marağı olan dövlətlərin cəlb edilməsində Azərbaycana yardım göstərə bilər. K.Klayber NATO-nun Müdafiə üzrə Roma Kolleci direktorunun Azərbaycan zabitlərini təhsil almağa dəvət məktubunu müdafiə nazirinə təqdim etdi. Görüşlərdən sonra K.Klayberin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Silahlı Qüvvələri ilə tanışlıq məqsədilə Bakı Ali Birləşmiş Komandirlər Məktəbində oldu. NATO-nun Romadakı Müdafiə Kollecinin rəhbəri Ceraldin Munaqa Kollecdə təhsil haqqında geniş məlumatla və AATŞ-ın əməkdaşı Pol de Vit "NATO XXI əsrdə özünü necə görür" mövzusunda mühazirələrlə dinləyicilər qarşısında çıxış etdilər. Sonra qonaqlar məktəbin tədris prosesi və maddi-texniki bazası ilə tanış olaraq burada gördüklərinə heyran qaldıqlarını gizlətmədilər. P.Vit qısa müddət ərzində NATO standartlarına uyğun təşkil edilmiş təlim-tədris prosesini təkmilləşməkdə olan Azərbaycan Silahlı Qüvvələrinin böyük uğuru adlandırdı.

2000-ci ilin aprelində NATO Hərbi Komitəsinin sədri G.Venturioni başda olmaqla Alyansın nümayəndə heyəti Azərbaycana səfər etdi. Səfərin gedişində G.Venturioni müdafiə naziri, Baş nazirlə görüşdü, hərbi hissələrə və Hərbi Akademiyaya baş çəkdi. Prezident Heydər Əliyevlə görüşdə admiral bildirdi ki, Azərbaycanın NATO ilə münasibətdə atdığı addımlar daim diqqət mərkəzindədir və gələcək planlar qurularkən bu səylərdən istifadə ediləcəkdir. Admiral sıx əməkdaşlığa misal olaraq, Azərbaycan sülhyaratma qüvvələrinin Kosovodakı əməliyyatlarda iştirakını xüsusilə qeyd etdi. O, daha sonra bildirdi ki, bu səfər yalnız məlumat əldə edilməsi, tanışlıq deyil, həm də Azərbaycanda təcrübə keçmək idi və burada keçirilən görüşlərin gələcək işlər üçün böyük əhəmiyyəti olacaqdır. Prezident Heydər Əliyev isə öz növbəsində qeyd etdi ki, Azərbaycan öz üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir, indi növbə Alyansın üzərinə düşən vəzifələri yerinə yetirməsindədir. G.Venturioninin səfəri NATO-nun hərbi fəaliyyətinə cavabdeh olan bir qurumun sədrinin Azərbaycana ilk gəlişi baxımından əhəmiyyətli idi və ikitərəfli hərbi münasibətlərin yeni mərhələyə keçirilməsi üçün təkan rolunu oynaya bilərdi.

2001-ci ilin yanvarında NATO-nun Baş katibi Corc Robertson ölkəmizdə səfərdə oldu. Səfər zamanı Baş katib Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edildi. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan-NATO əlaqələrinin gələcək perspektivləri və s. məsələlər müzakirə olundu. Bölgədəki təhlükəsizlik məsələlərinə toxunan Prezident Heydər Əliyev dedi: "Cənubi Qafqazdakı təhlükəsizlik bir çox məsələlərdən asılıdır. Ancaq birinci növbədə Cənubi Qafqaz ölkələrində münaqişələrə son qoymaq lazımdır. Bunların içərisində isə Ermənistan-Azərbaycan münaqişəsi xüsusi yer tutur. Ona görə də biz

hesab edirik ki, bütün beynəlxalq təşkilatlar, o cümlədən NATO da bu işə çox diqqətli yanaşmalıdır. Belə vəziyyət daim davam edə bilməz və davam etməməlidir".

Şimali Atlantika İttifaqının rəhbəri cavab nitqində bəyan etdi ki, "regionda çox ciddi və mühüm problem var və bu, təkcə Cənubi Qafqaza deyil, həm də bütün bölgəyə təsir göstərir. Biz bu problemi hər vasitə ilə həll etməliyik. Əgər problem münaqişə iştirakçılarının özləri tərəfindən həll olunmamış qalsa, onda belə uzunmüddətli münaqişənin müşayiət etdiyi iqtisadi, sosial və hərbi problemlərdən heç cür yaxa qurtara bilməyəcəyik. Halbuki hər şey bu münaqişənin bilavasitə iştirakçılarından asılıdır və ümidvaram ki, Siz çox tezliklə razılığa nail ola biləcəksiniz".

2001-ci ildə NATO və Azərbaycan arasında münasibətlərin daha fəal olmasından xəbər verən bir sıra təhlükəsizlik seminarları və toplantıları keçirildi. Bu baxımdan 2001-ci ilin noyabrında Bakıda keçirilən "Əməkdaşlığa hazırlıq" komanda-qərargah təlimləri mühüm əhəmiyyət kəsb edirdi.

Həmin dövrdə Azərbaycan NATO-nun nüfuzlu qurumu sayılan Parlament Assambleyası ilə əməkdaşlığı inkişaf etdirmək niyyətini bəyan etdi. Bu münasibətlə 2002-ci il yanvarın 17-18-də NATO Parlament Assambleyasının sədri Rafael Estrada ölkəmizdə səfərdə oldu və ölkə rəhbərliyi ilə Azərbaycanın Milli Məclisi və NATO-nun Parlament Assambleyası arasında münasibətlərin inkişaf etdirilməsi üzrə fikir mübadiləsi apardı. Bu çərçivədə əməkdaşlığımızın məntiqi yekunu olaraq, Azərbaycan 2002-ci il noyabrın 19-da NATO-nun Parlament Assambleyasına assosiativ üzv qəbul edildi.

Azərbaycan Respublikasının NATO-nun Parlament Assambleyasına assosiativ üzv olması sayəsində ölkəmiz, hər şeydən əvvəl öz problemləri, ilk növbədə isə Ermənistanın təcavüzü nəticəsində ərazilərimizin iyirmi faizinin işğal edilməsi və bir milyondan çox qaçqın və köçkünün ağır şəraitdə yaşamaq məcburiyyətində olması haqqında dünya ictimaiyyətinə məlumat vermək üçün daha bir beynəlxalq tribuna əldə etdi. Təsadüfi deyildir ki, analitiklər bu tarixi hadisəni ölkəmizin həyatında Şimali Atlantika İttifaqı ilə əlaqələrin genişlənib möhkəmlənməsi istiqamətində ciddi addım kimi qiymətləndirirlər.

2002-ci il mayın 7-8-də Bakıda NATO Müasir Cəmiyyətin Problemləri Komitəsi (MCPK) çərçivəsində "Xəzər dənizinin ekoloji problemləri"

mövzusunda keçirilmiş seminarın işində iştirak etmək məqsədilə ölkəmizə səfər edən NATO Baş katibinin elm və ekologiya məsələləri üzrə müavini Furne Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul olundu və bu sahədə Azərbaycanla uğurlu əməkdaşlıqdan məmnun olduğunu söylədi.

2002-ci ilin noyabrında Prezident Heydər Əliyev NATO Avratlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa zirvə görüşündə geniş nitqlə çıxış etdi. Dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə toxundu, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasında və Cənubi Qafqaz regionunda hələ də öz həllini tapmamış münaqişələrin aradan qaldırılmasında NATO-nu daha fəal olmağa çağırdı. Azərbaycan Prezidenti NATO ilə Azərbaycan arasında əlaqələrin daha da inkişaf etdirilməsi məqsədilə "açıq qapı" siyasətinin həyata keçirilməsinin tərəfdarı olduğunu bəyan etdi. Bu siyasətin vacibliyi dövlət başçısının Praqadakı çıxışında öz əksini tapdı: "Azərbaycan NATO ilə tərəfdaşlığı gələcək Avroatlantika təhlükəsizlik sisteminin əsası kimi qiymətləndirərək, alyans ilə inteqrasiya tərəfdaşlığına və intensiv ikitərəfli dialoqa səy göstərir. Bununla yanaşı, Alyans və tərəfdaşlıq üzvlərinin artmaqda olan qarşılıqlı asılılığını, tərəfdaşların mənafe və tələbatlarının daha çox nəzərə alınması zəruriliyini qeyd etmək istəyirəm.

Biz NATO tərəfindən Cənubi Qafqaza diqqətin artdığını görürük. Lakin hər cür regional təşəbbüslər və təkliflər ilk növbədə müharibələrin nəticələrinin aradan qaldırılmasına və dövlətlər arasında beynəlxalq miqyasda tanınmış sərhədlərin bərpa olunmasına yönəldilməlidir. Biz məmnunluqla qeyd edirik ki, NATO ilə Rusiya arasında yeni qarşılıqlı münasibətlər inkişaf etməkdədir, bu isə Avropanın müxtəlif regionlarında böhranların aradan qaldırılması üçün böyük əhəmiyyət kəsb edə bilər".

2003-cü il aprelin 18-də keçid dövrü demokratiyaları layihəsinin rəhbəri, ABŞ-ın NATO Komitəsinin həmsədri B.Cekson ölkəmizə səfər etdi. NATO-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsinin zəruriliyini bildirən B.Cekson Prezident Heydər Əliyevlə görüşündə daha bəyan etdi ki, Azərbaycanla Gürcüstanın NATO-ya və Aİ-yə inteqrasiyası məsələsi gündəlikdə dayanmalı və bu məsələnin üzərində iş getməlidir. Azərbaycan Prezidenti NATO ilə münasibətlərin inkişafından məmnun qaldığını bildirərək qeyd etdi ki, ölkəmiz Şimali Atlantika Alyansı ilə əməkdaşlıqda

maraqlıdır və bu istiqamətdə lazımi səylər göstərəcək. Prezident Heydər Əliyev vurğuladı ki, "Azərbaycan hələ 1994-cü ildə "Sülh naminə tərəfdaşlıq" müqaviləsini imzalayandan Avroatlantika İttifaqına daxil olmaq məqsədi daşıyır. Biz bu işi daim, müntəzəm olaraq aparmışıq. Ancaq heç vaxt bu barədə, necə deyərlər, səs-küy salmamışıq, biz öz işimizi görürük. Bilirsiniz ki, bu illərdə Azərbaycan nümayəndələri NATO-nun müxtəlif qurumlarında, təşkilatlarında daim iştirak ediblər və öz töhfələrini veriblər. Praqadan sonra biz də lazımi tədbirlər görməyə başladıq. Məhz bizim bu məqsəd və məramımızın nəticəsidir ki, sentyabrın 11-də baş verən hadisələrdən dərhal sonra biz Amerika Birləşmiş Ştatlarının antiterror koalisiyasına qoşulduq. İraqda əməliyyatlar hazırlanan zaman dünya mürəkkəb bir dövr keçirirdi. Amerika Birləşmiş Ştatları əməliyyat aparılmasını və İraqda kütləvi qırğın silahlarının ləğv olunması üçün mütləq lazımi hərbi tədbirlər görülməsini irəliyə sürdü. Ancaq təəssüf ki, çox ölkələr, o cümlədən NATO-nun üzvləri bu təklifin əleyhinə çıxdılar və ABŞ-ın yaratdığı bu koalisiyaya qoşulmadılar. Bilirsiniz ki, biz bu koalisiyaya dərhal daxil olduq. Dediklərimin hamısı onu göstərir və yəqin siz özünüz də belə bir nəticə çıxara bilərsiniz ki, Azərbaycan ardıcıl surətdə Avroatlantik İttifaqına daxil olmaq, hətta başqa üzvlər kənarda qalan vaxtda belə, Amerika ilə bir yerdə olmaq qərarını qəbul etmişdir...

Siz dediniz, NATO-ya daxil olan bir neçə yeni ölkələr bildirirlər ki, Gürcüstan da. Azərbaycan da NATO-ya daxil olmalıdır. Mən çox məmnunam, demək, onlar bizim istəklərimizi, arzularımızı yaxşı bilirlər".

NATO-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsinin zəruriliyini bildirən B.Cekson Prezident Heydər Əliyevlə görüşündə bir daha bəyan etdi ki, Azərbaycanla Gürcüstanın NATO-ya və Avropa İttifaqına inteqrasiyası məsələsi gündəlikdə dayanmalı və bu məsələnin üzərində iş getməlidir: "...indidən fikir formalaşdırmalıyıq ki, Qara dəniz hövzəsi və Cənubi Qafqaz haqqında dərindən düşünülsün. Bunu lazımi səviyyədə çatdıra bilsək, onda 2006-2007-ci illərdə üzvlüyə qəbul məsələləri müzakirə olunan zaman bu məsələyə ciddi baxıla bilər".

Bütün çətinliklərə baxmayaraq, NATO Azərbaycanla əməkdaşlığa həmişə xüsusi diqqət yetirmişdir. Ötən on il ərzində demokratik və iqtisadi islahatların aparılması və mühüm layihələrin həyata keçirilməsi Şimali Atlantika Alyansı ilə birgə əməkdaşlığımızın səmərəliliyini sübut etmişdir.

Bu amil Azərbaycan-NATO münasibətlərinin daha da intensivləşdirilməsi üçün əsas rolunu oynamışdır.

2003-cü il mayın əvvəllərində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 16-cı bəndinə uyğun olaraq, Azərbaycan Silahlı Qüvvələri kontingentinin beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etməsi üçün Milli Məclisə təkliflə müraciət etdi. Milli Məclis 2003-cü il mayın 7-də keçirilmiş iclasında "Azərbaycan Respublikası Silahlı Qüvvələri bölüyünün beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etməsi haqqında" qərar qəbul etdi.

2003-cü il mayın 15-də NATO-nun Baş katibi C.Robertson Azərbaycanda səfərdə oldu. Ölkəmizə səfəri çərçivəsində C.Robertson Baş nazir, Milli Məclis sədri, müdafiə və xarici işlər nazirləri ilə görüşlər keçirdi, Milli Elmlər Akademiyasında Virtual İpək yolu layihəsinin rəsmi açılışında, NATO ilə əməkdaşlıq üzrə komissiyanın iclasında iştirak etdi, habelə Şimali Atlantika İttifaqının qarşısında duran yeni vəzifələr və ölkəmizlə əməkdaşlığın perspektivləri barədə deputatlar qarşısında nitq söylədi. Azərbaycan-NATO komissiyasının iclasında komissiyanın sədri NATO Baş katibinə Azərbaycanın Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planına qoşulmaq niyyətini əks etdirən məktubu rəsmi olaraq təqdim etdi. Səfər zamanı NATO Baş katibi Milli Məclisdə Şimali Atlantika İttifaqının qarşısında duran yeni vəzifələr və Azərbaycanla əməkdaşlığın perspektivləri haqqında çıxış etdi: "Növbəti ildə yeddi ölkənin Şimali Atlantika Blokuna daxil olması, Avropanın Atlantikadan Qara dənizə, Qara dənizdən Balkanlara doğru ümumi təhlükəsizlik məkanında birləşməsi irəliyə doğru atılan nəhəng addım olacaqdır. Və bu, heç də prosesin sonu deyil. NATO-nun qapısı gələcəkdə də yeni üzvlərin üzünə açıq olacaq". C.Robertsonun bildirdiyinə görə, NATO-nun yeni tərəfdaşlığına "fərdi tərəfdaşlıq üzrə əməliyyat planı" daxildir ki, buraya Azərbaycan da qoşulacaq: "Bu plan Azərbaycanın hansı islahatları aparmaq istədiyini müəyyən edəcək, o cümlədən Azərbaycanın Şimali Atlantika Alyansına daha da yaxınlaşması üçün zəruri olan islahatların həyata keçirilməsini şərtləndirəcək. Bu yeni, daha dərin əməkdaşlığın çox böyük potensialı var".

NATO Baş katibinin sözlərinə görə, regional əməkdaşlıq prosesi real və ikitərəfli təhlükəsizlik məsələləri ilə yanaşı, getməlidir: "Cənubi Qafqazda közərən münaqişələrin həlli yolları xaricdə yox, bu regionun özündədir. NATO bu regionda sülh prosesinin sürətləndirilməsində başlıca rol oynaya bilməz və bunu iddia etməyəcək. Bu məsələnin məsuliyyəti məhz region dövlətlərinin öz üzərinə düşəcək. Biz eyni zamanda bilirik ki, regiondan kənar vacib qüvvələrin iştirakı olmadan münaqişənin müfəssəl surətdə həlli mümkün olmayacaq. Bu, xüsusilə Rusiyaya aiddir. Ermənistan – Azərbaycan münaqişəsinin sülh yoluyla nizamlanmasında Azərbaycanın Rusiya ilə əməkdaşlığı böyük əhəmiyyət daşıyır. Biz çox şadıq ki, ötən aylar ərzində bu əməkdaşlıqda bir sıra irəliləyişlər baş verib. Biz ümid edir və gözləyirik ki, NATO-nun Rusiya ilə münasibətləri bu məsələyə kömək edə bilər".

NATO Baş katibinin Azərbaycana səfəri siyasi müşahidəçilər tərəfindən Cənubi Qafqazda gedən proseslər kontekstindən şərh olunur və analitiklər bunu 11 sentyabr hadisələrindən sonra təhlükəsizlik landşaftında Azərbaycanın və ümumən Cənubi Qafqaz regionunun rolunun əhəmiyyətli dərəcədə artması ilə izah edirlər. C.Robertson Azərbaycanın Ümumqafqaz təhlükəsizlik sistemindəki yerini belə görürdü: "Qafqaz Avrasiyanın sabitliyi üçün böyük əhəmiyyətə malik olan region kimi qalmaqdadır. Azərbaycan isə burada Qərb və NATO ilə ən əsas tərəfdaş rolunu saxlayır".

Göründüyü kimi, Avroatlantik strukturlarla əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi ölkəmizin dünya birliyinə inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil etməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyindən bu sahədə fəaliyyət Heydər Əliyevin xarici siyasət kursunun prioritet istiqamətlərindən birini təşkil edir. Hazırda Azərbaycan yeni siyasi şəraitdə və yeni siyasi şərtlər daxilində Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ümummilli liderimizin xarici siyasətdə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz siyasətçi Prezident İlham Əliyevin rəhbərliyi altında Avropa və Avroatlantika strukturları ilə fəal əməkdaşlıq edir. Qloballaşma prosesləri ilə əlaqədar iqtisadi müstəvidə Avropa İttifaqı ilə münasibətlərin genişləndirilməsinə və təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli

iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və Ümumavropa proseslərində, xüsusən XXI əsrdə Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur.

Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin cari ilin may və sentyabr aylarında Brüsselə səfəri Avropa İttifaqı ilə əlaqələrin inkişafında müstəsna əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prezidentinin Avropa Komissiyasında keçirilmiş görüşləri zamanı bu əməkdaşlığın genişləndirilməsinə dair əldə olunmuş prinsipial razılığın həyata keçirilməsi üçün birgə tədbirlərin görüləcəyi bildirilmişdir. Ölkə başçısının gərgin diplomatik fəaliyyətinin nəticəsi olaraq Azərbaycana Avropa İttifaqının "Yeni qonşusu» statusu verilmiş, "enerji dialoqu»nun başlanması qərara alınmış, Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin icrası çərçivəsində enerji və nəqliyyat üzrə altkomitənin yaradılmasına qərar verilmişdir. Bununla yanaşı, Prezident İlham Əliyevin Brüssel səfəri Azərbaycanın istər Avropa İttifaqı, istərsə də NATO ilə münasibətlərində tamamilə yeni mərhələ açmışdır. Səfər zamanı dövlətimizin başçı «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı»nı NATO-nun Baş katibinə təqdim etmişdir. Ölkəmizin Avropa İttifaqı ilə "Genişlənmiş Avropa və qonşuları» siyasəti, Şimali Atlantika Alyansı ilə "Fərdi əməkdaşlıq üzrə əməliyyat planı» çərçivəsində genişmiqyaslı əməkdaşlıq etməsi barədə ciddi razılaşmalar əldə olunmuşdur.

BAHAR MURADOVA
Milli Məclisin deputatı
YAP İdarə Heyətinin üzvü

HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTİ ATƏT MÜSTƏVİSİNDƏ

Müasir Azərbaycan dövlətinin banisi kimi tarixdə silinməz iz qoymuş ümummilli lider Heydər Əliyev respublikamızın geniş beynəlxalq əlaqələrinin qurulmasına, onların keyfiyyət və kəmiyyət baxımından genişlənməsinə və inkişafına həmişə önəmli əhəmiyyət vermişdir.

Məhv olmaq təhlükəsi ilə üzləşmiş Azərbaycan dövlətçiliyinin son dərəcə ağır bir vəziyyətində xalqın tələbi ilə yenidən ali hakimiyyət sükanını ələ alan Heydər Əliyev gənc respublikadakı anarxiya və özbaşınalığa son qoymaqla, xalqı və ölkəni parçalanma və vətəndaş qarşıdurması fəlakətindən xilas etməklə yanaşı xarici siyasət sahəsində bundan əvvəl buraxılmış kobud və ciddi səhvlərin ağrılı nəticələrinin də aradan qaldırılmasına vacib yer ayırmışdır.

Onun rəhbərliyi altında müəyyənləşdirilmiş xarici siyasət konsepsiyası forma və məzmun baxımından respublikamızın müasir inkişaf mərhələsi üçün nəticə etibarilə ən dürüst və düşünülmüş taktika və strategiyanın tərkib hissəsi olmuş və Azərbaycan dövlətinin xarici siyasət kursunun sağlam təməlini yaratmışdır. Bu siyasət kompleks səciyyə kəsb etmiş və bütövlükdə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, ölkə qarşısında duran mühüm, qlobal problemlərin neytrallaşdırılmasına xidmət etmiş, məqsəd və istiqamət baxımından çoxsahəli olmuşdur.

Burada mühüm istiqamətlərdən biri, minimum vəzifə kimi, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə ədalətli şəkildə çatdırmaq, respublika haqqında formalaşmış mənfi obrazın müsbət imicə çevrilməsini təmin etmək, ölkəni beynəlxalq miqyasda təcrid olunmaqdan xilas etmək idi. Müstəqillik yolunda hələ kövrək addımlarını atmağa başlayan gənc Azərbaycan dövlətinin dünya birliyinin layiqli üzvü kimi tanınmasında, habelə respublika həyatının müxtəlif sahələrində gedən proseslərin, xüsusilə də

Ermənistanın Azərbaycana qarşı təcavüzünün bütün gerçəkliyi və obyektivliyi ilə dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyevin yeritdiyi sistemli, ardıcıl xarici siyasətin və onun tükənməz iradə və qətiyyətinin, düşünülmüş, dolğun addımlarının müstəsna əhəmiyyəti vardır.

İkinci əsas istiqamət – xarici siyasətin başlıca məqsədini demokratik və sivil Azərbaycan dövlətinin qurulması üçün əlverişli beynəlxalq iqlimin yaradılmasına yönəltməkdən ibarətdir. Məhz Heydər Əliyevin beynəlxalq aləmdəki nüfuzu, onun bir çox siyasətçilərə nümunə ola biləcək böyük və zəngin iş təcrübəsi qısa müddət ərzində Azərbaycanın beynəlxalq birliyə inteqrasiyası yolunda inanılmaz nailiyyətlərin əldə olunmasını təmin etmişdir. Bütün bunlar prezident Heydər Əliyevin həm ayrı-ayrılıqda dünya ölkələrinin liderləri ilə apardığı dərin məzmunlu danışıqlar, həm də nüfuzlu beynəlxalq təşkilatlarla səmərəli və işgüzar əlaqələrin formalaşdırılması nəticəsində mümkün olmuşdur. Suveren Azərbaycan dövlətinə rəhbərlik etdiyi 10 ildən artıq bir müddət ərzində ümummilli liderimiz Birləşmiş Millətlər Təşkilatının müxtəlif qurumları vasitəsi ilə dünyanın diqqətini Azərbaycanın problemlərinin, ilk növbədə Dağlıq Qarabağ münaqişəsinin respublikamıza vurduğu maddi və mənəvi zərərin ölçüyəgəlməz miqyasına cəlb etmiş və bütün beynəlxalq tədbirlərdə dövlətimizi ləyaqətlə təmsil etmişdir.

Azərbaycan liderinin keçirdiyi məqsədyönlü demokratik islahatlar və Şərq dəyərlərinin əhəmiyyətini azaltmadan Qərb sivilizasiyasına inteqrasiya siyasəti sayəsində 2001-ci ildə respublikamızın Avropa Şurasının tamhüquqlu üzvü olmağa imkan yaratmışdır.

İslam Konfransı Təşkilatı (İKT), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT), NATO, MDB, GUƏAM kimi beynəlxalq və regional qurumların yüksək tribunalarından prezident Heydər Əliyev məharətlə istifadə edərək Azərbaycanda vətəndaş sülhünü və sabitliyi təbliğ etməklə ölkəmizin sərmayələr və iqtisadi işbirliyi üçün cəlbedəcəyini ortaya qoymuşdur.

Heç şübhəsiz, Heydər Əliyevin xarici siyasətində ən ciddi məsələlərdən biri Azərbaycanın başlıca problemi olan Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə tənzimlənməsinə nail olmaq idi. Məlum olduğu kimi, bu istiqamətdə bir-birini məntiqi ardıcıllıqla tamamlayan atılmış diplomatik addımlar əsasən münaqişənin həllində rəsmi vasitəçilik missiyasını öz üzərinə götürmüş Avropada Təhlükəsizlik və

Əməkdaşlıq Təşkilatı (ATƏT) çərçivəsində həyata keçirilmişdir. Məhz bu səbəbdəndir ki, ATƏT-Azərbaycan münasibətləri əsasən Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üzərində qurulmuşdur.

1975-ci ildə yaranmış ATƏT dünyanın və Avropanın nüfuzlu beynəlxalq təşkilatları sayılan BMT, NATO, Avropa Şurası kimi mötəbər qurumlarla bərabər, bu gün də bəşəriyyət üçün ən önəmli məsələlər olan təhlükəsizlik və əməkdaşlıq problemlərini həll etmək kimi vacib bir vəzifəni həyata keçirməkdə davam edir. Hazırda dövrümüzün böyük siyasətində özünün proqram vəzifələrini reallaşdırmaqla ümumavropa təhlükəsizliyinin dayanıqlı mexanizmi kimi çıxış edən ATƏT-in ətrafında 54 Avropa dövləti, habelə ABŞ birləşmişdir. Azərbaycanın bu nüfuzlu beynəlxalq təşkilata üzv qəbul olunması 1992-ci ilin yanvar ayına təsadüf edir.

Müstəqillik yoluna yenicə qədəm qoymuş Azərbaycan Respublikasının xarici siyasətində ATƏT-ın rolu beynəlxalq münasibətlər sahəsində konfliktli vəziyyətlərin əməkdaşlıq və qarşılıqlı fayda məcrasına yönəldilməsi baxımından çox önəmlidir.

XX əsrin sonlarında Sovetlər Birliyinin parçalanması nəticəsində yaranmış yeni müstəqil Azərbaycan Respublikasının o zamankı siyasi rəhbərliyinin sərtəsəlikliyi və siyasi səbatsızlığı səbəbindən gənc dövlətimizin Yeni Avropanın siyasi və iqtisadi həyatında sivilizasiyalı birgəyaşayış qaydalarını müəyyən edən bu təşkilatla qarşılıqlı münasibətləri çox zəif idi və formal səciyyə daşıyırdı.

Lakin Heydər Əliyev diplomatiyasının gücü əvvəlki rəhbərliyin yetərincə dəyərləndirmədiyi bu nüfuzlu beynəlxalq təşkilatın imkanlarından respublikanın vacib siyasi-ictimai və sosial problemlərinin həllinə yönəldilməsi üçün möhkəm təməlin yaradılmasına kifayət etdi. Ümimmilli liderimiz ATƏT-in bu sahədəki roluna lazımi qiymət verməyi bacarırdı: «ATƏT yarandıqdan indiyə qədər həqiqətən dünyada həm sülhün, həm təhlükəsizliyin, həm də insan haqlarının qorunması, demokratiyanın inkişafı üçün böyük səylər qoyur və bu prinsiplərin həyata keçirilməsi üçün həddən artıq fəaliyyət göstərir».

Ümimiyyətlə, dünyada siyasi-ictimai vəziyyətin sabitləşməsinə daha çox ehtiyac duyulduğu ötən əsrin 90-cı illərində beynəlxalq təşkilatların, xüsusən, BMT, NATO və ATƏT-in çoxşaxəli fəaliyyəti günün tələbi kimi daha vacib və önəmli əhəmiyyət kəsb etməyə başlamışdı. Belə ki, İra-

qın Küveytə qarşı hərbi təcavüzünün aradan qaldırılmasında və Bosniya-Albaniya münaqişəsinin həll olunmasında ATƏT beynəlxalq aləmdə necə böyük nüfuza malik olduğunu nümayiş etdirmişdi. Odur ki, Azərbaycan rəhbərliyi ATƏT-in məhəlli münaqişələrin həllindəki əhəmiyyətli rolundan, respublikamızın dünya ölkələri birliyinə inteqrasiyasına təsir mexanizmlərindən, demokratik islahatların həyata keçirilməsinə şərait yaradılması imkanlarından məharətlə bəhrələnməyə çalışmışdır.

Yalnız Heydər Əliyevin yenidən hakimiyyətə tarixi qayıdışından sonra Azərbaycan ATƏT sıralarında öz sözünü demək imkanına tam nail oldu, milli strateji maraqlar baxımından ardıcıl, prinsipial və qətiyyətli siyasət bu münasibətlərdəki durğunluğu aradan götürdü. Diplomatik səylər nəticəsində bu dövr ərzində ölkənin müstəqilliyi ilə bağlı problemlərin məhəlli formasından beynəlxalq arenaya çıxarılması, təkcə Azərbaycanda deyil, bütövlükdə Qafqaz bölgəsində sülhün və əmin-amanlığın bərqərar olması üçün beynəlxalq təşkilatların, xüsusilə də ATƏT-in rolunun əhəmiyyətli səviyyəyə qaldırılması istiqamətində böyük uğurlar əldə olunmuşdur. Əksər hallarda bu təşkilatlar Heydər Əliyevin güclü sirayətedici təsir qüvvəsinə malik siyasi diplomatik gedişləri qarşısında duruş gətirməyərək öz mövqelərini Azərbaycan rəhbərliyinin konkret məsələlərə münasibəti baxımından korrektə etmək məcburiyyətində qalmışlar. Belə ki, 1993-cü ildə ATƏT-ın fəaliyyətdə olan rəhbərliyi, habelə bu təşkilatın üzvü olan 8 Avropa dövləti və ABŞ Azərbaycan sərhədlərinin toxunulmazlığını və ərazi bütövlüyünü tanıdıqlarını bəyan etmişlər. 1994-cü ilin iyulunda Azərbaycan nümayəndəsinin ATƏT-in Parlamentlərarası Assambleyasının Vyana sessiyasındakı çıxışından sonra Minsk qrupunun o zamankı rəhbəri Yan Eliasson Dağlıq Qarabağ münaqişəsini şərh edərkən ilk dəfə olaraq Azərbaycanda işğal edilmiş torpaqlarının mövcudluğu barədə fikir söyləmişdir. 1994-cü ildə ABŞ-ın BMT-dəki daimi nümayəndəsi M.Olbrayt Bakıya səfəri zamanı ATƏM-in sülhyaratma missiyasının təqdir etdiyini və Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü, habelə sərhədlərinin toxunulmazlığını bir daha təsdiq etdi, BMT Təhlükəsizlik Şurası adından Dağlıq Qarabağın Azərbaycan ərazisi olması barədə bəyanat vermişdir.

Qısa müddət ərzində beynəlxalq ictimaiyyət, konflikt barədə geniş məlumatlandırılmış, Azərbaycanın sülh təşəbbüsləri tanınmış siyasətçilər tərəfindən dəstəklənmiş və bununla da dünya siyasətində kəsərli söz demək

imkanına malik olan qabaqcıl dövlətləri təmsil edən siyasi elita nümayəndələrinin Ermənistan- Azərbaycan münaqişəsinə yanaşma tərzində nəzərə çarpacaq köklü dəyişikliklər yaranmışdır.

Məlum olduğu kimi, Ermənistan- Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin tənzimlənməsində vasitəçilik missiyasının bilavasitə həyata keçirilməsi məqsədilə 1992-ci ilin mart ayında ATƏT-ə daxil olan 12 dövlətin əhatə olunduğu Minsk qrupu təsis edilmişdir. Həmin dövrdən başlayaraq o, konfliktin siyasi yolla tənzimlənməsində bir sıra faydalı işlər görmüş, çoxsaylı sülhməramlı və humanitar aksiyalar həyata keçirmişdir.

1994-cü ilin may ayında münaqişənin təmas xəttində atəşkəs haqqında razılıq əldə olunduqdan sonra Azərbaycan diplomatiyası problemin çözülməsi istiqamətində daha fəal mövqe tutmaq üçün səylərini gücləndirdi, ATƏT- Azərbaycan münasibətlərinin mətəhərrik və səmərəli səviyyəyə çatdırılmasına diqqəti artırdı. Sonrakı dövr ATƏT-Azərbaycan münasibətlərinin dinamik inkişafı ilə səciyyələnir. Bu siyasət ATƏT-lə qarşılıqlı münasibətlərin dünya birliyi tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normaları və BMT nizamnaməsinə əsaslanan şərtlər üzərində qurulmasına zəmin yaratmışdır. Son 10 ildən atıq ötən dövr ərzində Azərbaycanın xarici siyasətində baş vermiş qlobal dəyişikliklər nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in respublikamızda baş verən ictimai-siyasi proseslərə yeni geosiyasi mühit, dövlətlərarası münasibətlər sistemi və milli maraqlar çərçivəsində dəyər verməsini şərtləndirmişdir.

Heydər Əliyevin xarici siyasətində xüsusi yer tutmuş ATƏT-Azərbaycan münasibətlərinin ən vacib istiqaməti onun Dağlıq Qarabağ probleminin nizama salınması ilə məşğul olan Minsk qrupu ilə fəal və səmərəli münasibətlərin qurulması və bu quruma daxil olan dövlətlərlə çoxşaxəli əlaqələrin, müntəzəm dialoqun və məsləhətləşmələrin aparılması olmuşdur.

Bu münasibətlərin formalaşmasında xarici diplomatik missiyaların ölkəmizə səfərləri, eyni zamanda prezident Heydər Əliyevin başçılığı altında respublika nümayəndə heyətlərinin ATƏT üzvü olan xarici dövlətlərin siyasi rəhbərliyi ilə keçirdikləri mütəmadi rəsmi və işgüzar görüşlərinin böyük əhəmiyyəti olmuşdur.

ATƏT-in tarixində və eyni zamanda Azərbaycan-ATƏT münasibətlərinin formalaşmasında 1994-cü ildə keçirilmiş Budapeşt zirvə toplantısı mühüm yer tutur. Bundan əvvəl – 1992-ci ildə Helsinkidə keçirilmiş sammitdən fərqli olaraq Prezident Heydər Əliyevin qətiyyəti sayəsində bu görüşdə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair xüsusi məsələ gündəliyə salındı. Bu anadək Avropa Təşlükəsizlik və Əməkdaşlıq Müşavirəsi adlanan ATƏT bu toplantıdan sonra böyük dövlətlərin daxil olduğu və nəinki Avropada, hətta dünyadakı ictimai-siyasi, iqtisadi, elmi və humanitar sahələrdə baş verən proseslərə təsir göstərmək imkanına malik olan çox nüfuzlu beynəlxalq quruma çevrilmişdir. Budapeşt sammiti ATƏT-in «Paris xartiyası»ndan sonrakı dövr ərzində qarşısına qoyduğu məqsədlərin reallaşmasında mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, məhz Budapeştdə Azərbaycan diplomatiyasının səyi nəticəsində Minsk qrupunun himayəsi altında ATƏT-in ilk sülhməramlı hərbi birləşmələrinin yaradılması və onların münaqişə zonasında yerləşdirilməsi qərara alındı. Bu vaxtadək bir çox dövlət başçıları və siyasi xadimlər ATƏT-in güc strukturunun yaradılması ilə BMT-nin konkret funksiyasının mənimsənilməyindən ehtiyat edirdilər. Lakin Heydər Əliyevin zərgər dəqiqliyi ilə cilaladığı təkzibolunmaz arqumentlər qarşısında əks müddəalar yalnız bəhanə kimi görünürdü. Bu, sammitə hazırlıq dövründə Azərbaycanın xarici siyasət kursunun daha da möhkəmləndirilməsi zərurəti ilə bağlı həyata keçirilmiş təxirəsalınmaz tədbirlərin məntiqi nəticəsi idi. Heydər Əliyev əminliklə deyirdi ki, «□. Yeni Avropanın yaranması üçün, Yeni Avropanın inkişafı üçün bu təşkilatın fəaliyyəti bundan sonra daha da artıq olmalıdır. Biz bir Avropa dövləti kimi və Avropa Şurasına daxil olan dövlət kimi ATƏM təşkilatının güclənməsinin tərəfdarıyıq».

Budapeştdə beynəlxalq, regional, dövlətlərarası və etnik konfliktlərin tənzimlənməsi məsələləri ilə bağlı Azərbaycan prezidentinin dəmir məntiqə söykənən konkret təklifləri ATƏT-ə keyfiyyətcə yeni daha mütəhərrik fəaliyyət mərhələsinə çağırış kimi səslənmişdir. Zirvə görüşündə çox güclü və arqumentli çıxışı ilə Minsk qrupuna qarşı çıxmış qüvvələrin səylərini neytrallaşdıran Heydər Əliyev sivilizasiyalı birgəyaşayış normaları ilə tənzimlənən yeni Avropanın bərqərar olması işində ATƏT-in xüsusi rolu olduğunu vurğulamışdır. Regional münaqişələrin aradan qaldırılması, sülhün bərqərar olması, Dağlıq Qarabağ kimi ağrılı və üzücü problemin sülhməramlı qüvvələrin köməyi ilə çözülməsi barədə Heydər Əliyevin mövqeyi və Böyük Siyasi Sazişə dair rəyləri burada çox yüksək intellektual siyasi baxışların məhsulu kimi dəyərləndirilmişdir.

Budapeşt zirvə toplantısından sonra Azərbaycanda sülhü və əmin-amanlığı təmin etmək, qaçqın və məcburi köçkünləri doğma torpaqlarına qaytarmaq, cəmiyyətdə demokratik dəyərlərin dinamik inkişafına zəmin yaratmaq, ölkənin iqtisadi dayaqlarını möhkəmləndirmək məqsədilə Azərbaycan diplomatiyası ATƏT müstəvisində dövlətimizin xarici siyasətinin konkret istiqamətlərini müəyyən etmiş və növbəti sammitə qədər olan müddət ərzində çox səmərəli işlər görmüşdür. Burada əsasən Ermənistan-Azərbaycan münaqişəsinin Dağlıq Qarabağ probleminin tənzimlənməsi ilə bağlı bilavasitə məşğul olan ATƏT üzvləri ilə bütövlükdə, habelə onun Minsk qrupuna daxil olan digər dövlətlərlə –(ABŞ, Rusiya, Almaniya, Türkiyə, Fransa, İsveç, Rumıniya) ayrı- ayrılıqda fəal diplomatik əlaqələrin intensivləşməsi xüsusi yer tutur.

Bu mənada Azərbaycan diplomatiyası ATƏT-in ən fəal üzvlərindən olan və Dağlıq Qarabağ məsələsində geosiyasi maraqlarının mövcud olduğu ABŞ, Rusiya, Türkiyə və Fransa ilə münasibətləri balanslaşdırmaqla bu ölkələrin Azərbaycan amili ilə bağlı taleyüklü məsələlərdə bir-biri ilə qarşılıqlı siyasi və iqtisadi münasibətlərinin tənzimlənməsinə də nail olmuşdur.

Prezident Heydər Əliyevin 1996-cü ildə ATƏT-in müxtəlif yüksək vəzifəli təmsilçiləri və digər diplomatik missiyalarla görüşləri ATƏT- Azərbaycan münasibətlərində canlanma yaratmış və bu formatda qarşıya qoyulmuş məsələlərin reallaşdırılmasına geniş imkanlar açmışdır.

Təsadüfi deyil ki, həmin vaxtadək Dağlıq Qarabağ münaqişəsinin həllinin «açarını öz əlində saxlamağa» ciddi-cəhdlə səy göstərən Rusiya Azərbaycana qarşı birtərəfli qaydada təsir göstərməyə çalışırdısa, Heydər Əliyevin uğurlu xarici siyasəti nəticəsində o, Azərbaycanın bu məsələ ilə bağlı irəli sürdüyü şərtləri müdafiə etmək zorunda qaldı. 1996-cı ildə ABŞ prezidenti B.Klinton Prezident Heydər Əliyevə ünvanladığı məktubda da Azərbaycanın ərazi bütövlüyünü birmənalı olaraq dəstəklədiyini bildirir və Birləşmiş Ştatların ölkəmizlə strateji əməkdaşlıq meylinə işarə vururdu. Heydər Əliyevin uzaqgörənliklə apardığı xarici siyasət nəticəsində bir zaman Ermənistanı Qafqazda əsas müttəfiqi hesab edən bu dövlətlər son nəticədə Azərbaycanla hərtərəfli münasibətlərinə prioritet əhəmiyyət verməyi üstün tutmağa başladılar. Bu mənada Fransa və Almaniya ilə qurulan diplomatik və iqtisadi münasibətlər də səciyyəvidir.

1996-cı ilin dekabrında Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in keçirdiyi növbəti zirvə toplantısı Prezident Heydər Əliyevin başçılığı altında Azərbaycan diplomatiyasının daha bir möhtəşəm uğurunu tarixə yazdı. Dövlətimizin başçısı bu sammitdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində irəliyə doğru daha bir mühüm addım atılması, Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq ictimaiyyət tərəfindən müdafiə olunması və ATƏT toplantısının sənədlərində bu məsələnin geniş əksini tapması üçün bir çox yüksək səviyyəli görüşlər keçirdi və ətraflı müzakirələr apardı.

Prezident Heydər Əliyev Lissabon zirvə görüşündə ATƏT-Azərbaycan münasibətləri baxımından tarixi əhəmiyyət kəsb edən nitqində gənc, müstəqil, demokratiya və bazar münasibətləri yolunu seçmiş ölkəmizdə hüquqi dövlət quruculuğu, islahatların həyata keçirilməsi, dünya birliyi ilə mütəhərrik əlaqələrin daha da möhkəmləndirilməsi sahəsində görülən işlərdən danışmış və hamının marağına səbəb olmuş konstruktiv təkliflər irəli sürmüşdür. Azərbaycan Respublikasının ərazi bütövlüyünü, Dağlıq Qarabağın məhz Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu və onun bütün əhalisinin təhlükəsizliyinin təmin olunması zərurətini ehtiva edən 3 əsas prinsip zəmanəmizin görkəmli şəxsiyyəti Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin gərgin işi nəticəsində Lissabon zirvə görüşünün bəyannamə layihəsinin 20-ci maddəsində öz əksini tapmışdır. Ermənistan tərəfinin etirazına baxmayaraq Heydər Əliyevin müdrik duhası, tarixdə analoqu olmayan diplomatik gedişləri bu məsələnin də həllinə öz təsirini göstərmiş və Ermənistan- Azərbaycan münaqişəsinə dair ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi bəyanatı ATƏT-in rəsmi sənədi kimi 53 dövlətin imzası ilə qəbul edilmişdir. Ermənistanın qeyri-konstruktiv, pozucu mövqeyi isə toplantı iştirakçılarının sınaq obyektinə çevrilmişdir.

Məhz bu görüşdən sonra dövr ərzində Azərbaycan diplomatiyası öz xarici siyasətində ATƏT-in məsələlərə konstruktiv və prinsipial yanaşma mövqeyindən səmərəli istifadə olunması üçün fəaliyyətini bir qədər də gücləndirmişdir.

Yeri gəlmişkən, onu da qeyd etmək vacibdir ki, Heydər Əliyev hər bir məsələdə olduğu kimi xarici siyasət konsepsiyasını da məhz ədalət və obyektivlik prinsipi əsasında qururdu. ATƏT-Azərbaycan münasibətlərin-

də Qarabağ probleminin aradan qaldırılmasında bu beynəlxalq təşkilatın vacib vasitəçilik missiyasına yüksək qiymət verməklə və onun alternativsizliyi barədə fikir yürütməklə yanaşı dövlətimizin başçısı siyasətdə heç vaxt ikili standartları və siyasi riyakarlığı qəbul etmirdi. Hətta dünyanın aparıcı dövlətlərinin təmsilçiləri ilə, görüşlərdə, bütün nüfuzlu beynəlxalq və regional tədbirlərdə yüksək ustalıq və diplomatik taktla ATƏT-in bəzən qətiyyətsizlik göstərməsindən, fəaliyyətindəki ətalətdən narazı qaldığını gizlətmirdi. Buna görədir ki, 1997-ci ilin əvvəllərində Minsk qrupunun həmsədrlərinin təyin edilməsi məsələsində də o, Azərbaycan dövlətinin və xalqının maraqlarını prinsipiallıqla qorumağa nail olmuşdur: Ermənistana daha loyal və sıcaq münasibətdə olan Rusiya Fransa ilə yanaşı Azərbaycanla strateji münasibətlərə üstünlük verən ABŞ-ın da Minsk qrupuna malik olması məhz Heydər Əliyev qətiyyətinin nəticəsidir.

1999-cu ilin noyabrında İstanbul şəhərində ATƏT-in növbəti zirvə görüşü keçirildi. Minilliyin sonuncu sammiti olan bu toplantı mahiyyətcə Avropa dövlətlərinin təhlükəsizlik və əməkdaşlıq çərçivəsində XX əsr həyatına yekun vurulması və yeni era üçün birgəyaşayış normalarının müəyyənləşdirilməsi nöqteyi-nəzərindən böyük tarixi əhəmiyyət kəsb edir. Bu zirvə görüşünün Türkiyənin təşəbbüsü ilə keçirildiyini yüksək qiymətləndirən Prezident Heydər Əliyev sammitin həmtərəfli regional əməkdaşlıq üçün yeni perspektivlərin açacağına ümidlərini ifadə etmişdir.

İstanbul sammitini XX əsrdə ən böyük hadisələrdən biri kimi səciyyələndirən əsas amil burada beynəlxalq əhəmiyyətli, regionda diplomatik fəaliyyəti istiqamətləndirən sənədlərin qəbul edilməsidir. Bunlardan ən vacibi İstanbul xartiyasıdır. 1975-ci il Helsinkidə işıq üzü görmüş analoji sənədin yeniləşməsi zərurəti 1990-cı ildə Paris xartiyasının yaranmasını şərtləndirmişdi. Ötən əsrin sonlarında sosializm sisteminin dünyanın siyasi arenasından silinməsi ilə beynəlxalq münasibətlərdə yaranmış yeni mühit isə İstanbul xartiyasının həyata vəsiqəsini tələb etdi.

İstanbul xartiyası Azərbaycanın xarici siyasətinin koordinasiyası baxımından çox ciddi bir sənəddir. Onun başlıca məqsədi Avropada sülhü təmin etmək, əmin-amanlıq yaratmaq, təhlükəsizliyin təminatı, ölkələrin ərazi bütövlüyünü qorumaq və mövcud konfliktləri sülh yolu ilə həll etmək, demokratiyanı inkişaf etdirmək, insan hüquqlarına hörməti vacib prinsip kimi qiymətləndirməkdir. Ona görə də bu tarixi sənədin Heydər

Əliyev tərəfindən də imzalanması dövlətimizin xarici siyasəti və diplomatiyası üçün misilsiz tarixi hadisədir.

İstanbul sammitinin digər sənədi – Avropada adi silahlar haqqında müqavilənin uyğunlaşdırılmış variantı müzakirə olunarkən prezident Heydər Əliyev ATƏT-in Minsk qrupunun fəaliyyətinin yarıtmaz olduğunu özünəməxsus cəsarətlə iştirakçıların nəzərinə çatdırmış və münaqişələrin yer aldığı Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin bərpa olunması üçün konkret fəaliyyət proqramını – Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı ideyasını açıqlamışdır. Dövlətlərarası münasibətlərin və münaqişələrin aradan qaldırmağın prinsipial əsaslarını təsbit etməli olan bu paktın əsas məqsədi təcavüzə, etnik təmizləmələrə, separatçılığa və terrorizmə son qoyulmasını ümdə vəzifələr sırasına daxil edir. Maraqlıdır ki, Heydər Əliyev bu çərçivədə bölgədəki Avropa sisteminə daxil olmayan digər ölkələrin, xüsusilə də bu bölgədəki proseslərə heç də biganə qalmayan İranın da iştirakını məqsədəuyğun sayırdı.

Məlum olduğu kimi, Ermənistan – Azərbaycan münaqişəsinin həllinin əsas düyün nöqtəsi Dağlıq Qarabağın status məsələsidir. ATƏT-in Minsk qrupunun, ümumiyyətlə, bu problemlə bağlı 1997-ci ildə irəli sürdüyü «paket» və «mərhələli» adı ilə tanınmış ilk iki təklif Azərbaycan rəhbərliyi tərəfindən müzakirə olunmaq üçün əsas kimi qəbul olunmasına baxmayaraq Ermənistanın qeyri konstruktiv mövqeyi onların reallaşmasına imkan verməmişdir. 1998-ci ildə daha çox «ümumi dövlət» şərti adı ilə məşhur olan üçüncü təklifi isə prezident Heydər Əliyev Azərbaycanın milli maraqlarına zidd variant kimi birmənalı şəkildə qətiyyətlə rədd etmişdir.

Bundan sonra ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçıları və Minsk qrupu həmsədrləri ilə aparılan məsləhətləşmələrdə və danışıqlarda Heydər Əliyev bu problemin çözülməsi istiqamətində məhsuldar və faydalı müzakirələr aparmış, onları münaqişənin ədalətli həllinə təsir göstərmələri üçün özünün diplomatik məharətini bir daha ortaya qoymuşdur. ABŞ-ın təşəbbüsü ilə Florida ştatının Ki-Uest şəhərində 2001-ci ildə təşkil olunmuş zirvə görüşündə dövlət başçımız bu məsələyə dair ümummilli liderə xas qətiyyətli mövqeyini bir daha nümayiş etdirərək heç zaman öz xalqının iradəsinin əksinə getməyəcəyini iştirakçılara anlatmışdır. Elə bu səbəbdəndir ki, bu görüşdən sonrakı dövrdə Minsk qrupuna həmsədrlik edən dövlətlərin heç biri Heydər Əliyevə Dağlıq Qarabağın statusu

məsələsinə dair Azərbaycanı təmin etməyən hər hansı güzəşt barədə təklif verməyə cürət etməmişdir.

Prezident Heydər Əliyevin neft strategiyası çərçivəsində reallaşmış «Əsrin müqaviləsi»nin və Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsinin təkcə OPEK ölkələri deyil, həm də ATƏT tərəfindən təqdir olunması ulu öndərimizin xarici iqtisadi siyasətdə də Avropanın və ümumiyyətlə, Qərb məkanında təsir qüvvəsinə malik beynəlxalq qurumların imkanlarından Azərbaycan xalqının mənafeləri üçün səmərəli istifadə edilməsinə yeni perspektivlər açmışdır. Prezident Heydər Əliyev deyirdi ki, «biz beynəlxalq birlikdə bərabərhüquqlu dövlət, xalq olduğumuzu bir daha dünyaya nümayiş etdirdik. Azərbaycanın müstəqilliyini bir daha nümayiş etdirdik və bəyan etdik ki, Azərbaycanın dövlət müstəqilliyi daimidir və əbədidir. Biz bir daha sübut etdik ki, Azərbaycan yaşayır və yaşayacaqdır».

Bu o deməkdir ki, təkcə Azərbaycanın siyasi rəhbəri kimi deyil, həm də bütün Qafqaz bölgəsinin lideri olmuş və Türk dünyasının ən dəyərli tarixi şəxsiyyətlərindən sayılan, şərq aləminin nadir müdrik ağsaqqalı, böyük siyasətdə özünəməxsus, analoqu olmayan məktəb yaratmış, fövqəladə insan kimi xarüqələr müəllifi Heydər Əliyevin ömrü də elə onun özünün şah əsəri olan müasir müstəqil Azərbaycan dövlətinin ömrü qədər əbədidir. Onun qurub yaratdıqlarını nəvazişlə qoruyub saxlamaqla və nurlu gələcəyə açdığı geniş yolda inamlı addımlarla irəliləməklə xalqımız onun ruhuna hesabat verməkdədir.

Bu gün müstəqil Azərbaycan Respublikasının həyati mənafeyi və milli maraqları baxımından səmərəli, realist və praqmatik xarici siyasət estafetini ləyaqətlə davam etdirən prezident İlham Əliyev də siyasi varislik missiyasını müvəffəqiyyətlə həyata keçirərək bütün ölkələrlə səmimi qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında münasibətlər qurulmasına dair dahi öndərimiz Heydər Əliyevin tövsiyələrinə sadiqlik nümayiş etdirir və Avropa təhlükəsizlik sisteminə, nüfuzlu beynəlxalq qurumlara inteqrasiya istiqamətində uğurlu fəaliyyət göstərir. Ona görə də şübhə yoxdur ki, bu kursun yüksələn xətt boyunca və davamlı şəkildə reallaşması yaxın gələcəkdə Azərbaycanın dünya sivilizasiyasında özünə layiq yer tutmasını və gələcək nəsillərin firavan və xoşbəxt həyatını təmin edəcəkdir.

GÖVHƏR BAXŞƏLİYEVA
Milli Məclisin sədr müavini

«İslam Konfransı Təşkilatı böyük bir yol keçibdir, şübhəsiz ki, onun böyük xidmətləri olubdur. O, dünyada sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsi üçün öz töhfələrini verib, öz sayələrini göstərib»

Heydər ƏLİYEV

HEYDƏR ƏLİYEV VƏ İSLAM KONFRANSI TƏŞKİLATI

Hakimiyyətə yenidən qayıtdığı ilk günlərdən Heydər Əliyev Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. O, ilk növbədə sabiq hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən o, xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: «Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır». Sözünə davam edərək, Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldir: «Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlər-

lə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır». Heydər Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti «özümüzün özümüzə vurduğumuz zərbə» adlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi.

Beləliklə, xarici siyasət xəttində mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı.

Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Konfransı təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, ənənələrimizi qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini vurğulamışdı. Azərbaycan 1991-ci ildən İKT-nin üzvü idi və bu təşkilatla əməkdaşlıq sahəsində müəyyən işlər görülmüşdür. Lakin bunlar kifayət deyildi. 1993-cü ilin ikinci yarısından başlayaraq bu istiqamətdə görülən işlər sanki yeni nəfəs aldı, İKT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başladı.

23 noyabr 1993-cü ildə İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək özünün ölkəmizlə bağlı ilk sənədlərindən biri olan bəyanatı qəbul

etdi. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezident Heydər Əliyevin müraciəti təqdim edilmişdi. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faizdən çox ərazisini işğalı nəticəsində ölkədə yaranmış vəziyyət, bir milyondan artıq qaçqının yaranması öz əksini tapmışdı. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hisslərini ifadə etmiş və Ermənistanın son təcavüzünün sülhə və əmin-amanlığa təhlükə yaratdığını qeyd etmişdilər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan Prezidentinin Azərbaycan qaçqınlarına təcili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişlər.

Bundan sonra ölkəmiz ilə İKT arasında əlaqələr Prezident Heydər Əliyevin göstərişi ilə daha da intensivləşdi. Azərbaycan bu təşkilatın informasiya, maliyyə və siyasi dəstək göstərmək imkanlarından tam gücü ilə istifadə etməyə başladı. 1994-cü ilin sentyabr ayında İKT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə daha bir qətnamə qəbul etdi. Qətnamədə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırış səsləndirilmişdir.

Prezident Heydər Əliyevin İKT Baş katibi, doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar respublikamızla İKT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq nöqteyi-nəzərindən də çox mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İKT Baş katibi səfərdən qayıtdıqdan sonra respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir.

Hələ 1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyində Azərbaycanın daimi nümayəndəsi funksiyasını daşımaq həvalə edildikdən sonra, səfirlik vasitəsilə İKT Baş Katibi və onun müxtəlif qurumları ilə mütəmadi və səmərəli iş aparılmağa başlanmışdı.

Azərbaycan Respublikasının İKT-nin beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Prezi-

dent Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi oldu. Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı kralı Fəhd bin Abdulaziz Əl-Saudla faydalı danışıqları və İKT rəhbərliyi ilə səmərəli görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti daha da artırdı. Azərbaycanın islam aləminin bir hissəsi olması bir daha yüksək səviyyədə təsdiqləndi.

Ermənistan-Azərbaycan münaqişəsi ilk dəfə 1994-cü ildə İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salındı. Münaqişənin informasiya cəhətdən və siyasi tərəfdən işıqlandırılması, dünya səviyyəsində onun həlli yollarının və üsullarının araşdırılması baxımından, bu ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edirdi.

1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT-yə üzv ölkələrin Dövlət və Hökümət Başçılarının Zirvə toplantısında iştirak etdi.

Toplantıya yola düşərkən jurnalistlərlə söhbətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatının nüfuzlu beynəlxalq təşkilat olduğunu qeyd edərək bu təşkilatın Azərbaycan üçün əhəmiyyətini çox yüksək dəyərləndirdi: «İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatlar öz səylərini nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm bir də ona görə ki, İslam Konfransı Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbacana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir».

Dövlət başçımız bu toplantını bir növ ATƏT-in üzvü olan ölkələrin Dövlət və Hökümət Başçılarının Budapeşt Zirvə toplantısının davamı hesab edir, orada da Azərbaycan üçün taleyüklü bir çox yeni qərarların qəbul ediləcəyini gözləyirdi. Elə buna görə də, orada da, bu istiqamətdə bir sıra işlər görüləcəyini bəyan etmişdi.

Sammitdə Azərbaycan və onun rəhbəri bütün dövlət başçılarının, diplomatların, KİV nümayəndələrinin, demək olar ki, bütün islam dünyasının diqqət mərkəzində idi. Bu, islam ölkələri toplantısında ölkəmizin başçısının ilk iştirak etdiyi sammit, onlara Azərbaycan həqiqətlərini çatdırmaq üçün əldə olunmuş ilk geniş fürsət idi. Bu həm də İKT-yə üzv olan dövlət başçıları üçün Azərbaycanla yaxından tanış olmaq, onun rəhbərini dinləmək, ölkəmizlə əlaqələr qurmaq, Prezident Heydər Əliyevin simasında həm də təşkilata yenicə üzv qəbul olunmuş müsəlman respublikalarının dünya siyasətinin bir çox məsələləri ilə bağlı nöqteyi-nəzəri ilə tanış olmaq üçün fürsət yaradırdı.

Prezident Heydər Əliyev həmişə olduğu kimi bu Zirvə toplantısında da ölkəmizi layiqincə təmsil edərək onun imicini yüksəklərə qaldırdı. Sammitdə Prezidentimizin çıxışı xüsusi diqqət və rəğbətlə qarşılandı, dəfələrlə alqışlara səbəb oldu. Son dövrdə ölkəmizin başına gələn fəlakətlərdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən və onun həlli yollarından, müsəlman dünyasının qarşılaşdığı kəskin problemlərdən açıq, hərarətlə və səmimiyyətlə danışan Azərbaycan Prezidenti dünyaya və islam aləminə bizim baxışlarımızı yüksək tribunadan bəyan etdi.

Heydər Əliyevə göstərilən hörmət və diqqətin, böyük ehtiramın nəticəsi kimi İKT katibliyinin və bir sıra dövlətlərin xahişi ilə Azərbaycan Respublikasının Prezidenti konfransda Asiya dövlətləri adından da nitq söylədi.

Bu nitqdə Azərbaycan Prezidenti toplantıda iştirak edən dövlət başçılarına müraciətlə İslam Konfransı Təşkilatında Asiya dövlətləri adından söz demək üçün ona imkan yaradılmasından böyük şərəf duyduğunu və bunu yüksək qiymətləndirdiyini qeyd etdi. O, göstərdi ki, VII Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, islam dövlətlərinin nüfuz və qüdrətinin artmasında yeni bir mərhələ olacaqdır, islam aləminin qarşılaşdığı çətinliklərin və problemlərin dünya ictimaiyyəti tərəfindən daha aydın başa düşülməsinə geniş imkanlar yaradacaqdır. Dövlətimizin başçısı VII Zirvə toplantısında Asiya qitəsindən olan ölkələrin artan fəallığının onların İslam Konfransı Təşkilatında daha geniş təmsil olunması ilə səciyyələndiyini, sonuncu ildə İslam Konfransı Təşkilatının sıralarının 45-dən 52-yə çatmasının deyilənlərə əyani sübut olduğunu toplantı iştirakçılarının diqqətinə çatdırdı. Azərbaycan Prezidenti burada qəbul edilən qərarların bütün islam aləmi-

nin, xüsusən Asiya qitəsinin müsəlman ölkələrinin qarşısında duran problemlərin həllinə sanballı töhfə olacağını, Asiya qitəsinin müstəqilliyini yenidən qazanmış bir sıra müsəlman ölkələrinin, o cümlədən Azərbaycanın İslam Konfransı Təşkilatının diqqət və qayğısına böyük ehtiyac duyduğunu söylədi. Bu ölkələrin həm keçmişdən miras qalmış ağır problemlərlə, həm də möhkəmlənməkdə olan müstəqilliklərinin doğurduğu təbii çətinliklərlə üzləşdiklərini, dərinləşməkdə olan iqtisadi böhranların, ictimai-siyasi sistemin dəyişməsi ilə bağlı keçid dövrünün yaratdığı çətinliklərin, bəzi dövlətlərin məruz qaldığı müharibələrin, iqtisadi blokada və müxtəlif siyasi təzyiqlərin də vəziyyətə təsir göstərdiyini bəyan etdi.

Azərbaycan Prezidenti Tacikistanda və Əfqanıstanda qardaş qanının axıdılması, Kəşmir və Fələstin problemləri, Ermənistanın Azərbaycana qarşı altı ildən bəri davam edən təcavüzü və onlarca digər problemlərin bu gün çox ciddi narahatlıqlar doğurduğunu, Asiya qitəsinin bütün ağır problemlərinin konfransda qaldırılmasını təqdir etdi, həm də onların həlli ilə bağlı nikbinliyin artmasını vurğuladı. Prezidentimiz bu problemlərin həllini dost və qardaş müsəlman ölkələrinin iqtisadi və siyasi yardımı ilə xeyli asanlaşa biləcəyini, İslam Konfransı Təşkilatının mövcud gərginliyin aradan qaldırılmasına, müharibə ocaqlarının söndürülməsinə, doğma yurdlarından didərgin düşənlərin el-obasına qayıtmasına kömək edəcəyinə, günahsız insanların qanının axıdılmasına son qoymaq üçün öz nüfuz və səylərini daha da artıracağına ümid etdiyini bildirdi.

Heydər Əliyev iştirakçıların diqqətinə onu da çatdırdı ki, Asiya regionunun müsəlman dövlətləri, o cümlədən Azərbaycan İslam Konfransı Təşkilatının fəaliyyətində, habelə Zirvə toplantısında qəbul edilmiş qərarların ardıcıllıqla yerinə yetirilməsində öz səylərini durmadan artıracaq, bu təşkilatın nüfuzunun daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməyəcəkdir.

Sonda Azərbaycan Prezidenti İslam Konfransı Təşkilatının VII Zirvə toplantısının uğurla başa çatması münasibətilə üzv dövlətlərin başçılarını bir daha təbrik etdi, onlara və onların xalqlarına, müsəlman bacı və qardaşlarımıza səadət və əmin-amanlıq arzuladı.

Səfər zamanı Azərbaycan Prezidenti İKT rəhbərliyi ilə keçirdiyi səmərəli görüşlərlə bərabər, Azərbaycanla İKT-yə üzv ölkələr arasında olan əlaqələri genişləndirmək və inkişaf etdirmək məqsədilə bir sıra ölkələrin Dövlət və Hökumət Başçıları ilə də ikitərəfli görüşlər keçirmişdir.

Azərbaycan Prezidentinin bu səfəri, orada keçirdiyi görüşlər, apardığı danışıqlar, qazandığı uğurlar öz müsbət nəticələrini verməyə başladı. Bu səfərdən sonra İKT ilə əlaqələrimizdə yeni uğurlar və nailiyyətlər dövrü başlandı.

İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin 1994-cü ilin dekabr ayında Kasablankada keçirilmiş VII Zirvə toplantısı və XXII konfransı, 1995-ci ilin dekabrında Konakridə keçirilmiş XXIII konfransı, 1996-cı ilin dekabr ayında Cakartada keçirilmiş XXIV konfransı İKT Baş katibinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəsini müzakirə edərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünü kəskin şəkildə pislədi. Bütün bu konfranslarda qəbul edilən sənədlərdə də erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili surətdə çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi tələbi qoyuldu.

Dövlətimizin başçısı İKT ilə olan əlaqələrimizi daim öz nəzarəti altında saxlamış, onların durmadan inkişafı üçün müvafiq tədbirlər görülməsinə, bu sahədə ardıcıl iş aparılmasına xüsusi diqqət verirdi. 1996-cı il sentyabr ayının 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransı məhz belə tədbirlərdən idi. Bu konfransın işində də Azərbaycan Prezidenti şəxsən iştirak etmişdir. Konfransda çıxış edən Azərbaycan Prezidenti bildirmişdir ki, İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli, mötəbər konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir.

1997-ci ildə Prezident Heydər Əliyev Tehranda İKT-nin VIII Zirvə toplantısında iştirak etmiş, geniş məruzə ilə çıxış etmiş və çoxsaylı görüşlər keçirmişdir. Prezidentimizin orada söylədiyi nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. İKT-nin sabiq Baş katibi İzəddin İraqı dövlət başçılarının Tehran zirvə konfransı günlərində Azərbaycan Prezidenti ilə keçirdiyi görüşdən sonra jurnalistin sualına verdiyi aşağıdakı cavab fikrimizə əyani sübutdur: «Mən fəxr edirəm ki, Azər-

baycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın işinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik... Mən cənab Prezidenti əmin etdim ki, İKT həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir».

Beləliklə, Prezident Heydər Əliyevin gərgin zəhməti və yorulmaz fəaliyyəti nəticəsində ilk vaxtlar İKT Baş Katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, sonrakı mərhələdə İKT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında daha kəsərli qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü kimi qiymətləndirilir.

İKT xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etdi. İKT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişilməz qalmışdır. Qeyd etmək lazımdır ki, İKT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X konfransları eyni adlı qətnamələr qəbul etmişdir. Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, onlara yeni bəndlər əlavə edilmişdir: «İKT bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır; İKT-yə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür; bu məsələ üzrə İKT-yə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırkı sədrinə məlumat verməsini İKT Baş katibindən tələb edir» və s.

İKT dövlət və hökumət başçılarının təkcə 2003-cü ilin oktyabr ayında Putracayada keçirilmiş X Zirvə Konfransının qəbul etdiyi qətnamələr Azərbaycan-İKT münasibətlərinin indiki vəziyyətinin əyani göstəricisidir. Konfrans qeyd edilən siyasi qətnamə ilə yanaşı, «Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında» qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan əməlləri pislənir, ölkənin tarixi üçün belə çətin və böhranlı vaxtda Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunur, Azərbaycan xalqının əzab-əziyyətini yüngülləşdirmək məqsədilə İKT-yə üzv dövlətlərə, islam qurumlarına, eləcə də beynəlxalq təşkilatlara müraciət edilir ki, respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərsinlər.

Konfrans ölkəmizlə bağlı «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyəti abidələrinin məhv edilməsi və dağılması haqqında» qətnamə qəbul etmişdir. Geniş və əhatəli preambula və 7 bənddən ibarət bu qətnamə işğal edilmiş torpaqlarımızdakı mədəniyyət və tarixi abidələrimizin müdafiəsinə yönəlmişdir. Konfrans İKT Baş katibinin bu barədə müvafiq hesabatını nəzərdən keçirərək, erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhvinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz və hökmən yerinə yetirilməsini tələb etmiş, problemlə bağlı İKT-yə üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verməsini İKT Baş katibindən xahiş etmişdir.

Qeyd etmək lazımdır ki, İKT qətnamələri Azərbaycan üçün təkcə siyasi əhəmiyyət daşımır, respublikamıza müsəlman ölkələri tərəfindən göstərilən humanitar, texniki və başqa yardımın böyük bir hissəsi İKT konfranslarının qəbul etdiyi mühüm sənədlər əsasında həyata keçirilir. İslam İnkişaf Bankı 1994-cü ildən etibarən mütəmadi olaraq qaçqınlarımıza hu-

manitar yardım göstərir, onlar üçün iş yerləri yaradılması məqsədilə dəzgah və avadanlığın alınmasına 1 milyon ABŞ dolları vəsait ayırmışdır. Respublikamızın sosial inkişaf layihələrinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına İslam İnkişaf Bankı təmənnasız olaraq 1,424 milyon ABŞ dolları vəsait ayırmışdır. Bankın respublikamıza təqdim etdiyi güzəştli kreditin ümumi məbləği 74 milyon dollardan artıqdır. Səudiyyə Ərəbistanının humanitar müəssisələri, Kral Fəhd adına yardım proqramı, Körfəz ölkələrinin bir sıra humanitar təşkilatlarının və fondlarının yardımı qeyd olunan sənədlər əsasında həyata keçirilir.

Ümummilli liderimiz Heydər Əliyev İKT və onun müxtəlif ölkələrdə yerləşən mərkəzləri ilə ölkəmiz arasında əlaqələr yaradılmasını, ədəbiyyat, mədəniyyət və sənət əsərlərimizin islam dünyasında da öyrənilməsini və yayılmasını həmişə mühüm saymış, bunun üçün bütün tədbirlərin görülməsi barədə müvafiq tapşırıqlar vermişdir. 1997-ci il mayın 8-də İstanbulda olarkən respublikamızın Prezidenti orada yerləşən İKT tarix, mədəniyyət mərkəzini də ziyarət etmişdir. O, öz çıxışlarında qeyd etmişdir ki, islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparılır. Bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir. İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun və respublikamızdakı bir sıra mərkəzlərin əlaqələrinin daha da sıxlaşdırılması vacibdir. Yaradılacaq belə münasibətlər xalqlarımızın və islamın tarixinin, mədəniyyətinin öyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər.

Prezident qeyd etmişdir ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yaradıcılığı və xalqımızın qədim tarixə malik mədəniyyəti ümumtürk və islam tarixində özünəməxsus yer tutur. Türk və islam tarixləri yenidən işlənib hazırlanarkən orada Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin həyat və yaradıcılığı da öz layiqli əksini tapmalıdır.

Dövlətimizin başçısı bildirmişdir ki, Azərbaycan mədəniyyətinin, incəsənətinin zəngin tarixi vardır. Bu tarixin öyrənilib yayılmasının əhəmiyyəti böyükdür. Yola salmağa hazırlaşdığımız XX əsrdə Azərbaycan ədəbiyyatında, mədəniyyətində, incəsənətində əldə olunmuş uğurlar isə xüsusilə təqdirəlayiq və cahanşümul nailiyyətlərdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov dahi Nizaminin və Füzulinin «Leyli və Məcnun» poemaları əsasında 1908-ci ildə «Leyli və Məcnun» operası yaratdı, Qara Qarayev isə

1960-cı ildə «Leyli və Məcnun» simfonik poemasını bəstələyərək klassik Şərq mövzusunu müasir sənət səviyyəsinə çatdırdı. Əlbəttə, xalqımızın içərisindən çıxmış belə dahi şəxsiyyətlərin sayı olduqca çoxdur və onların hər birinin yaradıcılığı haqqında saatlarla, günlərlə söhbət açmaq olar. Onlar həm də islam dünyasının böyük şəxsiyyətləri olduqlarına görə bu adamların yaradıcılığının islam aləmində və türk, ərəb dünyasında geniş öyrənilib yayılması olduqca vacibdir. Sözünün sonunda Azərbaycan Prezidenti vurğulamışdır ki, bununla bağlı olaraq İslam Konfransı Təşkilatının mərkəzi ilə Azərbaycanın əlaqələrinin daha da sıxlaşdırılması üçün birgə tədbirlər hazırlanmasının və keçirilməsinin təşkilinə diqqəti artırmaq vacibdir.

1997-ci il oktyabr 4-də BMT Baş Məclisinin 52-ci sessiyası çərçivəsində İKT xarici işlər nazirlərinin BMT iqamətgahında keçirilmiş əlaqələndirmə toplantısının yekun bəyanatında islam dünyasının digər problemləri ilə yanaşı, Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü də öz əksini tapmışdır.

Toplantı Ermənistanın Azərbaycan Respublikasına təcavüzünü pisləmiş və erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb etmiş, ərazilərin güc tətbiq etməklə işğalının yolverilməzliyini bir daha təsdiq etmişdir. Münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətlə və sülh yolu ilə həll edilməsinə çağırmışdır.

Beləliklə, islam aləmi problemlərimizlə yaxından tanışdır və bizi dönmədən dəstəkləyir. Bu ilk növbədə Prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş düzgün xarici siyasətimizin nəticəsidir. Məlumdur ki, xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident Heydər Əliyevin Şərq siyasətini o cümlədən İKT ilə münasibətdə yeritdiyi siyasəti qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha bu qənaətə gəlirik ki, onun apardığı xarici siyasəti də daxili siyasəti kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edib – müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq.

SVETLANA BAYRAMOVA
YAP Siyasi Şurasının üzvü

AZƏRBAYCANIN DÜNYAYA İNTEQRASİYASININ HEYDƏR ƏLİYEV YOLU

Dahi şəxsiyyət, xalqın düşüncəsi, psixologiyası, dövlətin ideologyasına təsir dərəcəsini müəyyən etmək üçün Azərbaycanın son 35 illik tarixinin təhlil edilməsi kifayətdir.

Mahir siyasi xadim və dövlət rəhbəri kimi Heydər Əliyev bütün həyatı boyu tutduğu yüksək dövlət vəzifələrində və hakimiyyətdən özü üçün yox, canından artıq sevdiyi Ana yurdu Azərbaycan mənubiyyəti ilə fəxr etdiyi doğma xalqı və onun tərəqqisi naminə istifadə etmişdir.

Öz ideyalarını xalqının və doğma yurdunun xoşbəxtliyi naminə nəzərdə tutduğu məqsədləri həyata keçirmək üçün mübarizəyə hələ ötən əsrin ortalarından başlayan Heydər Əliyev Azərbaycan müstəqilliyinin ilk rüşeymini elə o zamanlardan becərtməyə başlamışdır.

«İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir» prinsipini özünün apardığı siyasəti üçün deviz seçən Heydər Əliyev hələ Sovet hakimiyyəti illərində Azərbaycanın iqtisadi inkişafının təmin olunması üçün bütün resursları və imkanları işə salmışdır.

Azərbaycana rəhbərlik etdiyi illər ərzində təkcə respublikamızın paytaxtı Bakı şəhəri deyil, əyalətləri belə sürətlə inkişaf etdirməyi qarşısına məqsəd qoyan Ymummilli Liderimiz ittifaq əhəmiyyətli layihələrin Azərbaycanda həyata keçirilməsinin daha məqsədəuyğunluğunu sübut etmək üçün böyük əzmlə mübarizə aparmış, son nəticə etibarilə istədiyinə nail olmuşdur. Nəhəng zavod və fabriklərin Azərbaycanda tikilməsinə nail olmaq və həmin tikintiləri nəzərdə tutulan vaxtdan daha tez istifadəyə vermək yalnız Heydər Əliyev kimi böyük potensiala, tükənməz enerji və iş qabiliyyətinə malik dövlət rəhbərinə müəssər ola bilərdi.

Azərbaycana rəhbərliyinin ilk dövründə – 1969-1982-ci illər ərzində Heydər Əliyev dünyanın super dövlətlərindən sayılan SSRİ miqyasında ən bacarıqlı siyasi xadim, respublika rəhbəri, diplomatiya elminin mahir bilicisi kimi məşhurlaşmış, ölkənin hüdudlarından kənarda belə tanınmışdır.

Heç də təsadüfi deyil ki, xarici ölkələrə rəsmi səfərlərin bir çoxlarına rəhbərlik etmək məsulyyəti H.Əliyevin üzərinə qoyulmuş, diplomatik danışıqlar aparmaq bacarığı ilə o təmsil etdiyi dövlətə nüfuz qazandırmışdır. Ümumdünya Şahmat Federasiyası – FİDE-nin və Kalmıkiya Respublikasının prezidenti Kirsan İlümjinov öz xatirələrində qeyd edir ki, dünyanın ən nüfuzlualı məktəblərindən olan Moskva Beynəlxalq Münasibətlər İnstitutunda oxuyarkən, Heydər Əliyevin xarici səfərləri və oradakı nitqləri tələbələrə tədris vəsaiti kimi öyrədilirmiş.

Xaricə etdiyi rəsmi və işgüzar səfərlər kimi misilsiz imkandan Azərbaycanın SSRİ-nin hüdudlarından kənarda tanınması üçün bacarıqla istifadə edən H.Əliyev, həmin ölkələrdə millətimizə rəğbət və hörmətin qazandırılması qayğısına da qalmışdır. Heydər Əliyev tək sovet respublikaları ilə deyil, xarici dövlətlərlə Azərbaycan arasında iqtisadi və mədəni dostluq əlaqələrinin qurulması işinin başlanğıcını qoymuşdur.

Bu səfərlər zamanı ilk dəfə olaraq Azərbaycan Heydər Əliyev qüdrətli şəxsiyyət və siyasi xadim, etibarlı tərəfmüqabil, zəngin intellektual səviyyəyə malik bir rəhbər kimi qəbul olunmuşdur.

Azərbaycanla daha yaxından tanışlıq məhz Heydər Əliyevin ölkəmizə rəhbərlyi dövründə başlanmış, zəngin maddi-mənəvi sərvətlərimiz barədə dünya ictimaiyyətinə məlumatlar çatdırılmışdır.

Ölkəmizin paytaxtı Bakı öz neftinə görə hələ XIX əsrin sonlarından dünyada tanınmağa başlasa da, bu şəhəri Rusiyanın əyalətlərindən biri hesab olunurdu. Böyük Vətən müharibəsi illərində alman faşizmi üzərində qazanılan qələbədə həlledici əhəmiyyət daşıyan yanacağın təchizatı üçün respublikamızda bütün insan və iqtisadi resurslar səfərbər olunsa da, ümumilikdə bu SSRİ-nin ünvanına yazılırdı. Bu mənada ölkəmizin paytaxtı Bakıya qarşı böyük ədalətsizlik bu gün də aradan qaldırılmamış, bütün xidmətlərinə rəğmən bu şəhər qəhrəman şəhərlər siyahısına salınmamışdır.

Yalnız Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladıqda sonra respublikamız ölkənin qabaqcıl, sürətlə inkişaf edən bir diyarı kimi tanındı. Zəngin mədəniyyətimiz, elmimiz, iqtisadiyyatda qazandığımız uğurlar barədə ölkə mətbuatında məlumatlar müntəzəm olaraq verilərək geniş təbliğat işi vüsət aldı. Bakı, Sumqayıt, Gəncə, Mingəçevir kimi iri sənaye şəhərlərinin ittifaq iqtisadiyyatına inteqrasiyası sürətləndi, Lənkəran, Bər-

də, Şəki, Göyçay təkcə rayon mərkəzləri deyil, kənd təsərrüfatı və sənayenin eyni dərəcə inkişaf etdiyi ümumittifaq əhəmiyyətli regionlar kimi şöhrətləndilər.

Azərbaycanın hərtərəfli inkişafı üçün daha geniş imkanların yaranması dövrü məhz Heydər Əliyevin rəhbərliyi altında başlanmışdır. Xarici ölkələrin sənaye mərkəzləri, zavod və fabrikləri, kənd təsərrüfatı müəssisələri ilə işgüzar əlaqələrin qurulması zəminini də Heydər Əliyev yaratmış və ittifaq rəhbərlərindən biri olarkən bu işi daha geniş məcraya yönəltmişdir.

Almaniya, Yaponiya, İtaliya, Fransa kimi ölkələrin Bakı ilə sıx münasibətləri yaranmış, Sosialist respublikalarının bir sıra şəhərləri ilə qardaşlaşan Sumqayıt, Gəncə, Mingəçevirlə yanaşı şəhərlərdən əlavə qarşılıqlı dostluq və əməkdaşlıq münasibətləri formalaşdırılmışdı. Bakıda inşa edilən Kondisioner, Dərin dəmir özülləri, Robot, EVM kimi sənaye nəhənglərində işləmək üçün Azərbaycanlı mütəxəssislər ən inkişaf etmiş ölkələr ezam olunmuş, onların mütərəqqi iş təcrübəsinə yiyələnmişlər. Bu proseslər təkcə xarici ölkələrdən alınan zavod və fabrik layihələrinin Azərbaycanda reallaşması ilə məhdudlaşmamış, müəssisələr, şəhərlər, ölkələr arasında işgüzar münasibətlər yaradılmasını, mütəxəssislərin mübadiləsini zərurətə çevirmişdir. Eyni zamanda ən yeni texnologiyalarla işləyən müəssisələrində çalışan mütəxəssislər dünyaya çıxmaq, xaricdə özünü sınamaq, professional kimi təsdiq olunmaq imkanı qazanmışlar.

13 noyabr 1996-cı ildə Türkiyənnin TQRT telekanalının «Üz-üzə» proqramına müsahibə verən Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illəri xatırlayaraq belə demişdir: «Mən 1969-cu ildə Mərkəzi Komitənin I katibi olanda – 14 il ərzində Azərbaycana çox böyük xidmətlər göstərmişəm. Zavodlar, fabriklər, yollar, elektrik stansiyaları, binalar, xəstəxanalar, mədəniyyət sarayları, ali məktəblər, universitetlər tikilib. Bakıda hansı binaya baxsan, deyəcəklər ki, bunu Heydər Əliyevin vaxtında tikiblər. Bunun çoxunu mən burada (Azərbaycanda – S.B.) işləyərkən etmişəm. Azərbaycanın rəhbəri olarkən sovetlər birliyinin vəsaitindən imkanlarından çox faydalanıb, respublikamızda, Bakıda digər şəhərlərdə bu işləri gördüm... 14 il burada çalışdım. 5 ildən artıq Moskvada işləyərkən orada yenə də Azərbaycana daha çox vəsait ayırmaqla respublikamızın işlərini daha irəliyə aparmaqla məşğul oldum».

Ölkəmizin dünya iqtisadi və siyasi məkanına qovuşmasının özülünün Heydər Əliyev tərəfindən hələ 60-cı illərin sonundan qoyulduğunu bu müsahibədən aydın görmək mümkündür.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev YAP-ın III qurultayında ümummilli liderimizin Azərbaycan naminə fəaliyyəti haqqında belə demişdir: «Heydər Əliyev ictimai-siyasi quruluşundan asılı olmayaraq, sözün əsl mənasında, bütün dövrlərdə Azərbaycan xalqının lideri idi. 1970-1982-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövr ərzində Onun tərəfindən görülmüş işlər Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycana mərkəzi fondlardan böyük həcmdə vəsait gətirilirdi. Yeni zavodlar, fabriklər tikilirdi. İndi bu zavodlar və fabriklər Azərbaycanın iqtisadi və sənaye potensialına böyük dəstəkdir. Əgər o illərdə Azərbaycanda iri sənaye infrastrukturu yaranmasaydı, xüsusilə neft sahəsində, neft emalı sahəsində nəhəng uğurlar tikilməsəydi, bu gün Azərbaycının iqtisadi potensialı o qədər də güclü ola bilməzdi. Yəni demək istəyirəm ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün zamanlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, xalqa, millətə bağlılığı ölkəmiz üçün, böyük işlər görmək üçün gözəl şərait yaratmışdır. Amma təbii ki, Azərbaycının ən ağır dövrü olan müstəqilliyimizin ilk illərində Heydər Əliyevin fəaliyyəti həlledici idi.

Heydər Əliyevin ölkə rəhbərliyinə – müstəqil Azərbaycana yenidən qayıdışı ilə xalqımızın həyatında yeni mərhələ, demokratik dövlət quruculuğu dövrü başlamışdır. Vətənimizin ən çətin və keşməkeşli günlərində xalqın ümid və pənah yeri bilib müraciət etdiyi dahi insan və böyük dövlətçilik təcrübəsinə malik siyasi xadim Heydər Əliyev özünün tükənməz qüdrətini və bacarığını xalqın qüvvəsi ilə birləşdirərək Azərbaycanın xilası missiyasını şərəflə yerinə yetirmişdir.

Müstəqil dövlətimizin əlaqələrini dünya səviyyəsində qurmaq, suverenliyini möhkəmləndirmək üçün sivil dünyanın tələblərinə uyğun demokratik dövlət quruculuğu prosesi həmin dövrdən intişar tapmışdır. Heydər Əliyev daxili və xarici siyasət strategiyasının formalaşdırılması və həyata keçirilməsi istiqamətində titanik güc sərf edərək ölkəmizin dünyaya inteqrasiyası üçün bir sıra mühüm tədbirlərin qısa bir zaman kəsiyində həyata keçirilməsini təmin etmişdir.

Ölkə daxilində çox ağır problemlərin həlli ilə yanaşı, xarici siyasət doktrinasını işləyib hazırlamışdır. Xeyli sayda dövlət və hökumət başçıları, nüfuzlu siyasətçilər ilə keçirilən görüşlər mötəbər beynəlxalq təşkilatların qarşısında etdiyi çıxışlar, dünyanın aparıcı kütləvi informasiya vasitələrinə verdiyi geniş müsahibələr vasitəsilə Heydər Əliyev Azərbaycanı informasiya blokadasından çaxartdı, erməni lobbisinin uzun illər boyu apardığı təxribatların qarşısını aldı.

Azərbaycanın dünyaya inteqrasiya prosesinə ötən əsrin 70-ci illərindən başlayan Heydər Əliyev həmin dövrdə bu işi yalnız iqtisadi münasibətlər müstəvisində aparsa da, hakim sovet rejiminin məhdudiyyətlərinə baxmayaraq həmin dövrdə Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələrini qura bilmişdir.

Müstəqil dövlətimizə başçılıq etdiyi ilk gündən Heydər Əliyev yeni şəraitdən daha səmərəli istifadə edərək həm iqtisadi, həm də siyasi inteqrasiya prosesi üçün vacib olan irimiqyaslı layihələrin ölkəmizdə reallaşması üçün böyük zəhmət və diplomatik çeviklik nümayiş etdirmişdir.

Dünyanın ən yeni tarixinin qlobal əhəmiyyətli hadisələrindən hesab edilən «Əsrin müqaviləsi»nin imzalanması ilə tək iqtisadi yox, eyni zamanda siyasi mahiyyət daşıyan, ölkəmizin dünyaya inteqrasiyasına impuls verən qlobal əhəmiyyətli bir prosesə həyat vermişdir.

Ölkə Prezidenti İlham Əliyev belə demişdir: «1994-cü ildən əsası qoyulan beynəlxalq neft sazişlərinin imzalanması Azərbaycan enerji daşıyıcılarının boru kəmərləri vasitəsilə Qərbə nəqli üçün körpü olmaqdan əlavə, həm də iqtisadi, siyasi, mədəni münasibətlərin dərinləşməsinə xidmət edir.

Qısa zaman kəsiyində Azərbaycanın Avropa Şurası, NATO və digər nüfuzlu təşkilatlara, ümumilikdə Avroatlantik strukturlarına daha sürətlə inteqrasiyası ilə müstəqilliyimizin əbədiliyini və dönməzliyini təmin etmişdir. Bütün bunların nəticəsidir ki, Avropa Birliyi TASİS proqramı çərçivəsində Azərbaycana yardım göstərməklə ölkəmizin inteqrasiya prosesinə daha sürətlə qoşulması üçün texniki imkanların artırılmasında maraqlıdır». Əsası Heydər Əliyev tərəfindən qoyulan bu əməkdaşlığın bəhrəsi kimi TASİS xətti ilə Avropadan Azərbaycanın yeni texnologiyalarla təchizatı bazar iqtisadiyyatı və demokratik cəmiyyətin inkişafına təkan verir. TRASEKA kimi nəhəng proqramın həyata keçirilməsi də TASİS tərəfindən reallaşdırılır.

Ümummilli liderimiz Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan dünyada gedən bütün proseslərə yaxından qoşularaq həm

Şərq, həm də Qərb ilə eyni dərəcədə balanslaşdırılmış siyasət yürütmüş, ABŞ və İslam ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaləri eyni dərəcədə müvəffəqiyyətlə qurmuşdur. Dünya İnkişaf Bankı, Dünya İslam Ölkələri Təşkilatı kimi nüfuzlu və böyük kapitala malik təşkilatlar Azərbaycana sərmayə qoyulması işinə cəlb olunmuş, ölkəmizə milyardlarla dollar həcmində maliyyə vəsaitləri tələb edən layihələr ayrılmışdır.

Azərbaycanın dövlət müstəqilliyinin 10 illiyinə həsr olunmuş nitqində ümummilli liderimiz dünyaya inteqrasiyanın ölkəmiz üçün son dərəcə vacib olduğu vurğulanmışdır:

«İqtisadiyyatın sürətli inkişafını təmin etmək, ölkədə işsizliyi azaltmaq, əhalinin rifahını yüksəltmək Azərbaycan iqtisadiyyatının dünyaya inteqrasiyası üçün atılan vacib addımlarıdır».

Ölkə Prezidenti İlham Əliyev Azərbaycanın regional və beynəlxalq əməkdaşlığa böyük əhəmiyyət verdiyini dəfələrlə qeyd etmiş, ölkəmizin yalnız neft və qaza əsaslanmayan böyük potensialının dünyaya inteqrasiya üçün vacib amil olduğunu keçirdiyi görüşlərdə, beynəlxalq təşkilatların təşkil etdiyi konfrans və simpoziumlarda, Avropa Şurası Parlament Assambleyasındakı çıxışlarında, dünyanın aparıcı dövlət başçıları ilə söhbətlərində əsaslı dəlil və arqumentlərlə göstərmişdir.

Prezident İlham Əliyev Azərbaycan-Avropa və dünya əməkdaşlığının daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayaq qeyd etmişdir:

«Biz Avropaya inteqrasiya yolunu seçmişik.

...Biz bu yola tamamilə sadiqik, bu siyasət davam etdirilir, bu yolumuzu sözdə yox, praktiki addımlarda göstəririk. Biz ölkəmizin gələcəyini inteqrasiyada görürük. Regionda da, dünyada da vacib əhəmiyyətli ölkə olmaq istəyirik. Ona görə də əlimizdən gələni edəcəyik ki, Azərbaycanın standartlarını dünya standartlarına çatdıraq.

Bütün sahələrdə inkişafa, iqtisadi inkişafa, sosial inkişafa, demokratik inkişafa nail olaq. Bizim siyasətimiz bundan ibarətdir, bizim siyasətimiz belədir. Əlbəttə ki, bizim seçdiyimiz bu yolun hər mərhələsində əldə edilən uğurlardan çox şey asılı olacaqdır. Azərbaycanın seçimi belədir. Azərbaycan rəhbərliyinin etdiyi seçim budur və ölkədə də, beynəlxalq aləmdə də apardığımız siyasətlə bağlı əhalimizin dəstəyini daim hiss edirik».

1993-1995-ci illər ərzində Heydər Əliyevin apardığı siyasət ölkəni düşdüyü ağır iqtisadi-siyasi bloklardan çıxarmaq, Ermənistanın Azərbay-

cana təcavüzü və Dağlıq Qarabağ problemi ilə bağlı real vəziyyəti dünya ictimaiyyətinə çatdırmaq kimi çətin problemlərin həlli üçün əsaslı zəmin yaratmağa yönəlmişdi. BMT, ATƏT, İslam Konfransı Təşkilatı, Qaradəniz İqtisadi Əməkdaşlığı Təşkilatı, EKO, GÜOAM, MDB və digər qurumlara daha dərindən inteqrasiya bu dövr ərzində görülən işin səmərəliliyini nümayiş etdirir.

Dahi Heydər Əliyevin apardığı uzaqgörən siyasət Azərbaycan kimi kiçik bir ölkəni dünyanın maraq göstərdiyi bir məmləkətə, regionun əhəmiyyətli və aparıcı dövlətinə çevirdi.

Heydər Əliyevin şəxsi nüfuzu, bir sıra dövlət xadimləri ilə dostluq və qardaşlıq münasibətlərində olması, dünya ictimaiyyətində oyatdığı rəğbət və etimad ölkəmizin mövqeyini möhkəmlədirmiş, Azərbaycan həqiqətlərini dünyaya bəyan olması üçün həlledici amilə çevrilmişdir.

Balanlaşdırılmış xarici siyasət bir-birinə konfrantasiyada dayanan ABŞ və İran kimi dövlətlərlə hərtərəfli əməkdaşlığın qurulmasını təmin etmişdir.

Heydər Əliyevin «Bir millət iki dövlət» adlandırdığı Azərbaycan və Türkiyə arasındakı münasibətlər hər iki dövlətin daha da yaxınlaşmasını şərtləndirmiş, müttəfiqlik səviyyəsinə çatdırmışdır. Ortaq tarixi milli–mənəvi dəyərləri dili olan Azərbaycan və türk dövlətlərini ümumi maraqlar və iqtisadi əlaqələr bir-birinə daha sıx tellərlə bağlamışdır. Bütün ölkələrlə mehriban dostluq və əməkdaşlıq əlaqələrini qurmağı məqsəd kimi qarşısına qoyan, ölkəmizin təhlükəsizliyinin təmin edilməsi, müstəqilliyimizin əbədi olması üçün səmərəli və praqmatik siyasət xəttini formalaşdırmış ümummilli lider Heydər Əliyevin dünyaya inteqrasiya xətti Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ölkəmiz bu gün dünyada baş verən bütün proseslərə fəal müdaxilə etməyə qadirdir.

Yeni Azərbaycan Partiyasının martın 26-da keçirilən qurultayında ölkə Prezidenti İlham Əliyev Azərbaycanın gələcək inkişafını belə müəyyənləşdirmişdir: «Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zəmanənin tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir. Mən çox şadam ki, Azərbaycan xalqı 2003-cü ildə öz seçimini düzgün etdi. Heydər Əliyevin siyasətinə öz səsini verdi və bələləklə, bu gün də biz hamımız, Azərbaycan xalqı, Yeni Azərbaycan Partiyası Heydər Əliyevin siyasətinə sadiq qalaraq, onu davam etdiririk və çox uğurla davam etdiririk».

ƏLİ İNSANOV
Səhiyyə naziri,
YAP İdarə Heyətinin üzvü

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN SƏHİYYƏSİ

Azərbaycanda səhiyyənin və tibb elminin inkişafı son onilliklərdə xalqımızın əbədi ümummilli lideri, türk dünyasının böyük oğlu Heydər Əliyevin bilavasitə rəhbərliyi, diqqəti və dəstəyi altında olmuşdur. Bu gün əhalinin hər on min nəfərinə düşən tibb işçilərinin, yüksəkixtisaslı kadrların və alimlərin yetişdirilməsinə, müasir standartlara cavab verən səhiyyə-sağlamlıq ocaqlarının yaradılmasına, elmi-tədqiqat tibb institutlarının, elmi mərkəz və laboratoriyaların açılmasına görə Azərbaycanın səhiyyə göstəriciləri dünyanın ən qabaqcıl ölkələri ilə müqayisəyə layiqdir. Bütün bunlar əbədi ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə əhalinin səhiyyə-sağlamlıq işinə misilsiz qayğısının və məqsədyönlü fəaliyyətinin bəhrəsidir. Ulu öndərimiz Azərbaycana rəhbərlik etdiyi dövrdə səhiyyəmizin bünövrəsini qoymuş, təbabətin hərtərəfli inkişafı üçün bütün mümkün tədbirləri həyata keçirmiş və onun əsrlərə bərabər tərəqqisini təmin etmişdir.

Sevimli rəhbərimiz Heydər Əliyevin ilk dəfə 1969-cu ildə hakimiyyətə gəlişi ilə Azərbaycan səhiyyəsi tarixində yeni dövr, - fövqəltəbii vüsətli inkişaf dövrü - başladı. Maddi-texniki bazası yarıtmaz vəziyyətdə olan səhiyyənin bütün sahələrində böyük canlanma yarandı. Mövcud tibbi obyektlər abadlaşdırıldı və yeni tibb obyektləri tikildi, əhali kütləvi dispanser qeydiyyatına götürüldü və sahə həkimlərinin işi xeyli fəallaşdırıldı.

Həyata keçirilən uğurlu tədbirlər nəticəsində respublikamızda səhiyyə-sağlamlıq ocaqlarının profillərinin genişləndirilməsinə nail olundu, səhiyyənin maddi-texniki bazası möhkəmləndirildi, rayonların çoxunda xəstəxana və poliklinikalar üçün yeni binalar tikildi və bir sıra mövcud binalar əsaslı təmir edildi. Ana və uşaqlara tibbi xidmət çox aşağı səviyyədə olduğuna görə bu məsələyə xüsusi diqqət yetirildi. Təkcə 1970-1975-ci illərdə respublikada uşaqların sağlamlığı ilə məşğul olan xəstəxana və poliklinikaların sayı 150-dən 186-ya çatdırıldı. Tibb kadrlarının çatışmazlı-

gını aradan qaldırmaq üçün Tibb İnstitutunda və məktəblərində tələbə qəbulu artırıldı, uçqar kənd rayonlarından gələn abituriyentlər üçün güzəştlər tətbiq edildi. Tibb işçilərinin ixtisaslaşma və təkmilləşmə işinə diqqət və tələbkarlıq artırıldı. Tibb kadrlarının nəzəri-təcrübi nailiyyətlərinin səmərəliliyini artırmaq üçün təbabətin müxtəlif sahələri üzrə qurultay, konqres və konfransların keçirilməsi, yüksəkixtisaslı həkim və alim kadrların hazırlanması təşkil edildi, yeni elmi-təcrübi mərkəzlər açıldı. Respublikada kurort-sanatoriya şəbəkələrinin genişləndirilməsi, səhiyyə işçilərinin ixtisaslaşma ilə təkmilləşməsinə diqqət və tələbkarlığın artırılması günün vacib məsələləri kimi qarşıya qoyuldu və həll edildi.

1972-1982-ci illərdə respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən xəstəxana və poliklinikaların, dispanser və tibb məntəqələrinin 46,5%-i yeni binalarla təmin edildi. Uroloji xəstəliklərdən əziyyət çəkən və keçmiş ittifaqın müxtəlif şəhərlərinə getməyə məcbur olan vətəndaşlarımız üçün gözəl bir hədiyyə Respublika Klinik Uroloji Xəstəxana istifadəyə verildi. Neyrocərrahiyyə, diaqnostika, toksikologiya, yanıq, reabilitasiya (əlillər üçün) mərkəzləri və müasir profilli digər tibb müəssisələri açıldı, zəruri tibbi avadanlıqlarla təchiz edilərək xalqın istifadəsinə verildi. Bunlardan başqa, İstisu, Qalaaltı, Naftalan, Günəşli, Abşeron, Qızılqum, Bilgəh kurort və sanatoriyaları yenidən qurularaq istifadəyə verildi. Həmin dövrdə kütləvi informasiya vasitələrində müntəzəm olaraq yeni-yeni tibb müəssisələrinin istifadəyə verilməsi barədə məlumatlar dərc edilirdi.

Həmin dövrdə alı tibb məktəblərində və elmi-tədqiqat institutlarında yüksəkixtisaslı kadrların və elmi işçilər potensialının yetişdirilməsinə zəruriyyət olduğundan, keçmiş ittifaqın mərkəzi klinikalarında və xarici ölkələrdə kadr hazırlığının aparılmasına və kadrların ixtisasartırma kursları keçmələrinə xüsusi diqqət yetirildi. O zamankı çətin şəraitdə, ittifaq tərəfindən qadağalar qoyulduğuna baxmayaraq, müdrik rəhbərimiz Heydər Əliyevin qətiyyətliliyi və əzmi sayəsində 50-dən artıq gənc alim Moskvaya doktoranturaya göndərildi, 200-dən artıq tibb elmləri namizədi yetişdirildi. Tibb sahəsində mütəxəssislərin yeni nəslinin bu nümayəndələri də onlara göstərilmiş yüksək etimadı tam doğrultdular və yetkin tədqiqatçılar kimi vətənə qayıtdılar. Nəticədə respublika səhiyyəsinin ən vacib və ağır problemi olan kadr problemi müəyyən dərəcədə həll olundu.

Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan keçən əsrin 80-ci illərində tibb elminin və səhiyyə praktikasının mərkəzlərindən birinə, onların tətbiq sahəsinin genişlənməsi obyektinə çevrildi.

Ulu öndərimiz 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildikdən sonra SSRİ miqyasında iqtisadiyyatın bir sıra mürəkkəb sahələrinə, həmçinin səhiyyə sahəsinə rəhbərlik etməyə başladı və bu istiqamətin inkişafına yeni təkan verdi. Azərbaycanda səhiyyənin və tibb elminin inkişafı üçün yeni və genişmiqyaslı tədbirlər həyata keçirdi. Yenilik, islahat, inkişaf, qurmaq, yaratmaq – Heydər Əliyevin fəaliyyətini xarakterizə edən əsas prinsiplər bunlar idi. Xüsusi qeyd edirik ki, Heydər Əliyev ilk dəfə olaraq Azərbaycanda bu sahəyə rəhbərlik təcrübəsinə əsaslanaraq SSRİ əhalisinin kütləvi şəkildə dispanserləşdirilməsi və səhiyyə sistemində iqtisadi islahatlar keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi.

Ümumiyyətlə, Heydər Əliyevin rəhbərliyi ilə keçən əsrin 70-80-ci illərində Azərbaycanda 100-lərlə iri müasir səhiyyə obyektləri inşa edildi, respublikada olan tibb müəssisələrinin yarıdan çoxu yenidən quruldu, ambulator-poliklinika şəbəkəsi genişləndirildi, daim geridə qalan kənd səhiyyəsi yüksək inkişaf səviyyəsinə çatdırıldı, Bakıda və respublikanın digər şəhərlərində ittifaq əhəmiyyətli yüksək ixtisaslaşmış yeni, müasir mərkəzlər istifadəyə verildi, tibb müəssisələri saysız-hesabsız miqdarda müasir cihaz və avadanlıqlarla, tibbi ləvazimatlarla təchiz edildi, ittifaqda və xarici ölkələrdə çoxsaylı və yüksəkixtisaslı elmi-tibbi kadrlar hazırlandı. Həmin dövrdə Heydər Əliyevin rəhbərliyi ilə tibb elminin və bütövlükdə səhiyyənin inkişafı sahəsində əldə edilmiş nailiyyətlər postsovet dövründə həyata keçirilən tədbirlərin əsasını təşkil etmişdir. Məhz Heydər Əliyevin uzaqgörənliyinin və titanik əməyinin bəhrəsi olan nəhəngmiqyaslı işlərin nəticəsində Azərbaycan müstəqillik əldə etdikdən sonra yaranmış ağır iqtisadi şəraitdə səhiyyəmiz məhz həmin möhkəm təməlin əsasında, həmin yüksəkixtisaslı tibb kadrları, möhkəm maddi-texniki bazası, tibbi cihaz və avadanlıqları ilə inamla yaşamış, uğurla tərəqqi etmiş və bu gün xalqımızın sağlamlığı keşiyində əzmlə dayanır.

Müstəqilliyimizin ilk illərində SSRİ-nin parçalanması ilə əlaqədar yaranmış yeni şəraitdə bazar münasibətlərinin yaranması və inkişafı, dağılmış ittifaqın subyektləri arasında iqtisadi əlaqələrin qırılması, həmçinin dövlətin ictimai-siyasi sisteminin dəyişməsi digər sahələrdə olduğu kimi,

səhiyyədə də böhran vəziyyəti yaratmışdı. 1991-1993-cü illərdə ölkədə hökm sürən hakimiyyətsizlik, xaos və hərc-mərclik dövründə əhalinin sağlamlığının qorunmasına ayrılan vəsait, inflyasiya nəzərə alınmaqla, on dəfələrlə azalmışdı. İmmunoprofilaktika sahəsində iş əslində dayandırılmış, infeksion xəstəliklərin qalıq ocaqları kəskin şəkildə fəallaşmış, epidemiyalar başlamış, əhaliyə hamılıqla və pulsuz tibbi yardım göstərilməsi sistemi tədricən dağılmışdı. Sosial baxımdan təhlükəli xəstəliklərin xeyli artması daha çox qorxu törədirdi. Profilaktika işinə diqqətin kəskin şəkildə zəifləməsi, müalicə və epidemiyaya qarşı sanitariya tədbirlərinin həyata keçirilməməsi poliomielit, difteriya, malyariya kimi xəstəliklərin epidemiyasına səbəb olmuş, vərəm, quduzluq, bruselyoz kimi infeksion xəstəliklərə tutulma halları isə artmışdı.

Belə şəraitin bundan sonra da davamı etməsi Azərbaycan əhalisini və xalqın sağlamlığını nəticələri məlum olmayan, son dərəcə müdafiəsiz vəziyyətə sala bilərdi. Ölkənin səhiyyə sistemi özü də tam dağılma təhlükəsi ilə üzləşmişdi. Yalnız 1993-cü ildə əbədi ümumilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra səhiyyə sektorunda vəziyyətin qiymətləndirilməsinə dair səylər göstərildi, sahənin uzunsürən, dərin böhrandan çıxarılması üçün yollar axtarılmasına başlandı və ölkə rəhbərinin bilavasitə rəhbərliyi, məxsusi diqqəti və dəstəyi ilə Səhiyyə Nazirliyi tərəfindən ardıcıl və məqsədyönlü olaraq müəyyən tədbirlər həyata keçirildi.

Belə ki, əhalinin sağlamlığının qorunması işini yaxşılaşdırmaq məqsədilə Heydər Əliyevin göstərişinə uyğun olaraq, səhiyyədə geniş islahatlar proqramı işlənib hazırlandı və müvəffəqiyyətlə həyata keçirilməyə başlandı. Azərbaycan Respublikasında «Səhiyyə sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə» 13 mart 1998-ci il tarixli Prezident Sərəncamı bu işlərin daha geniş miqyasda və sürətlə aparılması üçün şərait yaratdı.

Başlanğıc dövrdə səhiyyə orqanlarının idarəetmə aparatlarında bir-birini təkrarlayan struktur bölmələrin ixtisar edilməsi, əhalinin tələbatından çox olan çarpayı fondunun azaldılması və müalicə-profilaktika müəssisələri tərəfindən əhaliyə göstərilən pullu xidmətlərin genişləndirilməsi, özəl, qismən və tam təsərrüfat prinsipi ilə fəaliyyət göstərən tibb müəssisələri yaradılması yolu ilə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyət və səmərəsinin artırılması və səhiyyənin qanunvericilik bazasının təkmilləşdirilməsi aparılan islahatların əsasını təşkil etdi.

Həyata keçirilən islahatlara müstəqil respublikamızda səhiyyənin hüquqi-normativ bazasının işlənib hazırlanması və təkmilləşdirilməsi işindən başlamaq lazım idi. Bu gərgin iş uğurla həyata keçirildi. Azərbaycanda səhiyyənin qanunvericilik bazası təkmilləşdirildi, səhiyyə sahəsində 15 qanun işlənib hazırlandı və qəbul edildi.

Müstəqilliyimizin ilk illərində səhiyyənin maliyyələşdirilməsi ilə bağlı yaranan çətinliyin qarşısını almaq üçün tibb müəssisələrinin tam və ya qismən özünümaliyyələşdirmə sisteminə keçildi və göstərilən istiqamət islahatlar dövrünün başlanğıc mərhələsində həyata keçirilən tədbirlərin ana xəttini təşkil etdi. Özünümaliyyələşdirmə sisteminə keçid nəticəsində əlaqədar, struktur və idarəetmə sistemlərində təşkilati dəyişikliklər aparıldı, respublika rayonlarının demoqrafik, coğrafi-iqlim xüsusiyyətlərini müalicə-profilaktika müəssisələrinin iş yükünü nəzərə alaraq, onların strukturunun və ştat vahidlərinin sanitar-texniki normativlərə və əhalinin tələbatına uyğunlaşdırılması istiqamətində geniş iş aparıldı, təqribən 10 min ştat vahidinin büdcədən çıxarılması hesabına 10 milyard manata qədər vəsaitə qənaət edildi, müxtəlif güzəştlərdən istifadə edən yüz minlərlə soydaşımıza hər il ixtisaslaşdırılmış pulsuz tibbi yardım göstərmək mümkün oldu, 300-dən artıq tibb müəssisəsində cari və əsaslı təmir işləri aparılmasına və müasir tibb texnikası və avadanlıqlar alınmasına nail olundu.

Qeyd etmək lazımdır ki, səhiyyədə özünümaliyyələşdirmə xidməti mövcud iqtisadi şəraitdə məcburi və zəruri addım olub, müvəqqəti xarakter daşıyır. Son illər büdcədən səhiyyəyə ayırmaların artması ilə əlaqədar, dövlət tibb müəssisələrində pullu xidmətdən imtina edilir.

Aparılan islahatlar çərçivəsində əsas nailiyyətlərdən biri özəl səhiyyə sisteminin tətbiq edilməsi oldu. İslahatlar dövründə respublikamızda müasir standartlara cavab verən xeyli özəl tibb müəssisəsi açılmışdır. Hazırda geniş fəaliyyət göstərən «Əfsanə» stasionar müalicə-diaqnostika mərkəzi (Şərur rayonu), «Nord Star» doğum evi, «Ekzimer-lazer» mərkəzi, «Medicalcenter», «Mediklab», «Diamed» müəssisəsi, «Euromed» özəl tibb mərkəzi, «Diasis» Azərbaycan-Türkiyə birgə müəssisəsi, «Medservis» şirkəti və b. ixtisaslı müalicə və tibbi xidmətə görə əhali tərəfindən rəğbətlə qarşılanmışdır.

Həyata keçirilən tədbirlər çərçivəsində əsas istiqamətlərdən biri də sığorta təbabət sisteminin tətbiqi olmuşdur. 1999-cu ildə «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının qanunu qəbul edilmiş, icbari tibbi

sığortanın bütün hüquqi və normativ sənədləri Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir. Bununla yanaşı, 10-a qədər könüllü tibbi sığorta kompaniyaları yaradılmış və fəaliyyət göstərir.

Əbədi ümummilli liderimiz Heydər Əliyev yoluxucu xəstəliklərlə mübarizə işini praktik səhiyyənin əsas strateji problemlərindən hesab edərək, öz fəaliyyətində, tövsiyyə və tapşırıqlarında profilaktik və əksepidemik tədbirlərin təkmilləşdirilməsinə xüsusi diqqət yetirmişdir.

Keçmiş ittifaq respublikaları ilə iqtisadi əlaqələrin qırılması nəticəsində peyvənd materialları ilə təminatda fasilələrin olması müstəqilliyimizin ilk dövründə vəziyyəti xeyli gərginləşdirmiş və praktik olaraq 1992-ci ildə uşaqların immunizasiya işi dayandırılmışdı. Keçən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq, respublikamızda bir sıra infeksion xəstəliklərə, o cümlədən difteriya və poliomielitə görə vəziyyət xeyli gərginləşmişdi. 1990-cı ildə Azərbaycanda poliomielitlə xəstələnmə hadisələri Avropa üzrə xəstələnmənin 50%-dən çoxunu təşkil edirdi. Yaranmış gərgin vəziyyətdə Heydər Əliyevin rəhbərliyi altında aparılan məqsədyönlü tədbirlər nəticəsində 1993-cü ildən başlayaraq Azərbaycana BMT-nin Uşaq Fondunun xətti ilə vaksin preparatlarının gətirilməsinə nail olundu. Ümumdünya Səhiyyə Təşkilatı və BMT-nin Uşaq Fondunun köməyi ilə təhlükəsiz immunizasiya praktikası üçün «soyuq zəncir» sistemi yaradıldı. Respublika əhalisi infeksion xəstəliklərə qarşı peyvəndə cəlb edildi.

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində difteriya xəstəliyi 1995-ci illə müqayisədə 1996-cı ildə 6 dəfə azaldı. Son 4 il müddətində isə 1 difteriya hadisəsi belə qeydə alınmamışdır. Həmçinin 1996-cı ildən etibarən Azərbaycanda poliomielit xəstəliyi müşahidə edilmir.

Azərbaycanda malyariya xəstəliyinə qarşı da irihəcmli təşkilati, müalicə-profilaktik və əksepidemik tədbirlər həyata keçirilmişdir. Azərbaycanda malyariya ilə xəstələnmə halları keçən əsrin 90-cı illərinin ortalarında yüksək rəqəmlərlə səciyyələndiyinə baxmayaraq, aparılmış məqsədyönlü tədbirlər nəticəsində xəstələnmə göstəricisi xeyli azalaraq 2003-cü ildə əhalinin hər 100.000 nəfərinə 6,2 təşkil etmişdir.

Son bir neçə il ərzində respublika ərazisində bir hadisə belə vəba, qara yara, tulyaremiya kimi xüsusi təhlükəli infeksiyaların, eləcə də kütləvi bağırsaq infeksiyaları və qida zəhərlənmələrinin qeydə alınmaması yoluxucu xəstəliklərlə mübarizə strategiyasının düzgün qurulmasının bariz nümunəsidir.

Qızılca ilə xəstələnmə səviyyəsi də kəskin surətdə azalmışdır. 1994-cü illə müqayisədə xəstəlik 30 dəfə azalmışdır. Həmçinin tetanus və göyöskürək xəstəlikləri son 6 il ərzində respublikada sporadik hallarda qeydə alınmışdır.

Virus hepatiti xəstəliyinə qarşı da ciddi tədbirlər görülmüşdür. Belə ki, «Qlobal Fondu»nun yardımı ilə Azərbaycanda 2001-ci ildən B Hepatiti əleyhinə vaksinasiya kompaniyasına başlanmışdır və hazırda bu iş müvəffəqiyyətlə davam etdirilir. 2002-ci ilin 2 mart tarixində Respublika Doğum evində Səhiyyə Nazirliyinin «Qlobal Fondu» ilə birlikdə Azərbaycana gətirdiyi hepatit əleyhinə vaksinlərin təqdim edilməsi mərasimində Heydər Əliyevin iştirakı sevimli rəhbərimizin immunoprofilaktikaya məxsusi diqqətinin bariz nümunəsidir.

Həyata keçirilən uğurlu tədbirlər nəticəsində son illər respublikamızda bir sıra yoluxucu xəstəliklərlə mübarizə işində əhəmiyyətli və stabil nəticələr əldə edilmiş, spesifik profilaktik tədbirlərlə idarə olunan infeksiyalar üzərində nəzərəçarpacaq nailiyyətlər qazanılmışdır.

İnfeksion xəstəliklərlə mübarizə işi hazırda da uğurla davam etdirilir və bu iş dövlət rəhbərliyinin daim diqqət mərkəzindədir. 18 sentyabr 2004-cü il tarixdə Bakı şəhər 6 saylı uşaq klinik xəstəxanasında Səhiyyə Nazirliyinin «Vişnevskaya-Rastrapoviç» fondu ilə birgə Azərbaycanda qızılca, parotit və məxmərəyə qarşı üçkomponentli vaksinin istifadəsini həyata keçirməsi və tədbirdə möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının iştirakı respublikamızda infeksion xəstəliklərə qarşı mübarizə işinin dövlət səviyyəsində həyata keçirilməsinin parlaq nümunəsidir.

Vərəmlə mübarizə problemi əsas prioritet sahə kimi daim diqqət mərkəzində olmuşdur. 2000-ci il vərəmə qarşı mübarizə ili elan olunmuş, bir sıra mühüm tədbirlər həyata keçirilmiş, bu iş 2001-2004-cü illərdə davam etdirilmiş və görülən işlər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Qeyd etmək lazımdır ki, Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri Azərbaycan səhiyyəsinin immunoprofilaktika sahəsində və ilk növbədə Avropa miqyasında qorxulu yoluxucu xəstəliklər sayılan poliomielit və difteriyaya görə əldə etdiyi yüksək nailiyyətləri dəfələrlə qeyd edərək öz təşəkkürlərini bildirmişlər.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal olunmuş ərazilərdən öz doğma yurdunu tərk etməyə məcbur olmuş bir milyondan artıq qaçqın və məcburi köçkünün tibbi təminatı ilə bağlı problemlərin həlli Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Müdrik rəhbərimizin tövsiyyə və tapşırıqlarına uyğun olaraq, Səhiyyə Nazirliyi və onun yerlərdəki orqan və müəssisələri göstərilən tibbi yardımın yaxşılaşdırılması istiqamətində məqsədyönlü iş aparırlar.

Sevimli liderimiz Heydər Əliyevin göstərişi ilə Səhiyyə Nazirliyi tərəfindən 2000-2004-cü illərdə qaçqınların daha çox məskunlaşdığı rayonlarda respublikanın aparıcı mütəxəssislərinin iştirakı və rentgen-fluoroqrafiya, laborator-diaqnostika və digər müayinə üsullarının köməyi ilə qaçqın və məcburi köçkünlər arasında müayinələr aparılmış, aşkar edilmiş xəstələr stasionar müalicəyə cəlb edilmişlər. Bu tədbirlər hazırda da davam etdirilir.

Səhiyyənin prioritet istiqamətlərindən biri olan ana və uşaqların sağlamlığının mühafizəsi sahəsində də xeyli işlər görülmüşdür.

1996-cı ildə Səhiyyə Nazirliyi tərəfindən BMT-nin Əhali Fondunun təşəbbüsü və maliyyə dəstəyi ilə «Azərbaycanda reproduktiv sağlamlıq və ailə planlaşdırılması sahəsində xidmətlərin keyfiyyətli planlaşdırılması və yaxşılaşdırılması üzrə milli proqram» işlənib hazırlanmışdır. Proqramın həyata keçirilməsi ana və uşaq ölümünün, abortların sayının azaldılmasına, sağlam ana, sağlam nəsil yetişdirilməsinə yönəldilmişdir. Bu proqram çərçivəsində Bakı, Naxçıvan, Gəncə, Masallı, Şəki, Qusar, Xaçmaz, Şamaxı, İsmayıllı, Lənkəran, Cəlilabad, Ağdaş, Qəbələ və Salyanda yaxşı maddi-texniki bazası olan 15 regional mərkəz təşkil edilmişdir.

Həmçinin «Təhlükəsiz analıq və yenidoğulmuşlara qulluq» və «Döşlə əmizdirmə və millətin sağlamlığı» proqramları uğurla həyata keçirilir. Körpə uşaqların ana südü ilə qidalanmasının əvəzsiz rolunu nəzərə alaraq 1995-ci ildə «Ana Südü ilə Qidalanma üzrə Milli Komitə» yaradılmış və ötən dövr ərzində ana südü ilə qidalanan uşaqların sayı 15% artmışdır.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq, son illər respublikamızda ana və uşaqlara göstərilən tibbi xidməti xarakterizə edən statistik göstəricilərin xeyli yaxşılaşması müşahidə edilir. Belə ki, 1998-2003-cü illərdə erkən neonatal ölüm 4,47-dən 3,23 promilliyə, 1 yaşa qədər uşaq ölümü 16,6-dan 12,8 promilliyə, 5 yaşa qədər uşaq ölümü 33,2-dən 23,1 promilliyə, ana ölümü isə 41,1-dən 19,9-a enmişdir. Qeyd etmək lazımdır ki, respublikamızda əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşması, o cümlədən uşaq ölümünün azalması məsələləri 2002-ci ilin oktyabr ayında YAP-ın yaradılmasının 10-illiyinə həsr edilmiş tədbirdə Heydər Əliyev tərəfindən vurğulanmışdır.

Narkomaniya ilə mübarizə sahəsində də nəzərəçarpacaq işlər görülmüşdür. Əbədi ümummilli liderimiz Heydər Əliyevin bu problemə dövlət səviyyəsində verdiyi qiymətə əsaslanaraq, onun tərəfindən verilmiş sərəncamların, həmçinin «Azərbaycan Respublikasında 2000-ci ildədək narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə ümummilli proqram»ın tələblərinə uyğun olaraq, narkomaniya və xronik alkoqolizmlə mübarizə sahəsində müəyyən tədbirlər həyata keçirilmişdir.

İslahatlar dövründə səhiyyə obyektləri şəbəkəsinin genişləndirilməsi, 100-lərlə tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması və yenidən qurulması istiqamətində də xeyli işlər görülmüşdür.

Belə ki, ulu öndərimiz Heydər Əliyevin iştirakı ilə ilk özəl tibb xidməti şirkəti – «Mediklab», «Respublika Artroloji Mərkəzi», «Ailə Sağlamlıq Mərkəzi», Azərbaycan Tibb Universitetinin tədris korpusu və akt zalı, «On Klinik Azəri», «Diaqnoz Tibb Mərkəzi», «Medkomservis» özəl tibb müəssisələri açılaraq istifadəyə verilmiş, həmçinin, Elmi-Tədqiqat Ağciyər xəstəlikləri İnstitutunda, Bakı şəhər 4 saylı Vərəm əleyhinə dispanserində, Gəncə şəhər Vərəm Əleyhinə Dispanserində və b. tibb müəssisələrində müasir səviyyədə təmir və yenidənqurma işləri aparılmışdır.

Bunlardan başqa, Maştağa qəsəbəsində yerləşən Respublika Psxiatriya xəstəxanasında məhkəmə-psixiatriyası ekspertizası və ciddi rejimdə saxlanılan xəstələr üçün şöbələr istifadəyə verilmiş, V.Axundov adına Elmi-Tədqiqat Milli Profilaktika İnstitutunda yoluxucu xəstəliklər klinikası açılmış, Mərdəkan qəsəbəsində yerləşən Respublika Veteranlar Xəstəxanasında və Respublika Dəri-Zöhrəvi dispanserində müasir səviyyədə təmir işləri aparılmışdır. Respublikamızda ilk dəfə olaraq Nüvə-Maqnit Rezonansı Mərkəzi açılmış, ən müasir aparatla təchiz edilərək əhalinin istifadəsinə verilmişdir. ET Kardiologiya İnstitutunun yenidən qurulmuş, Avropa standartlarına uyğun əsaslı təmir olunmuş və müasir tibb avadanlıqları ilə təchiz olunmuş binasının açılışı olmuş, Respublika Uroloji Xəstəxa-

nasının hemodializ şöbəsi müasir «Süni böyrək» cihazları ilə təchiz edilərək istifadəyə verilmişdir. Həmçinin K.Fərəcova adına ET Pediatriya İnstitutunun müalicə korpusunda, Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun akt zalında və giriş hissəsində əsaslı təmir işləri başa çatdırılmış, ET Klinik Təbabət İnstitutunun nəzəri korpusunda plastik cərrahiyyə mərkəzi təşkil edilmişdir.

Ulu öndərimiz Heydər Əliyevin Yaponiyaya uğurlu səfəri sayəsində təməmnasız yardım proqramı çərçivəsində Yaponiya hökumətinin 6 milyon dollar məbləğində yardımı ilə Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutu, Ə.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanası və Ş. Ələsgərova adına 5 saylı Doğum evi ən müasir tibb avadanlıqları ilə təchiz edilmişdir.

Həmçinin Fransa hökumətinin qrantı hesabına 8 tibb müəssisəsində sutəmizləyici qurğu quraşdırılıb istifadəyə verilmişdir.

2000-ci ilin dekabr ayında Səhiyyə Nazirliyinin dünya standartlarına cavab verən Mərkəzi Klinik Xəstəxanasının açılışı və mərasimdə sevimli liderimiz Heydər Əliyevin iştirakı keçən əsrin sonunda Azərbaycan səhiyyəsi tarixində ən əlamətdar hadisə oldu. Öz müasirliyinə görə MDB çərçivəsində ən qabaqcıl yer tutan və ən müasir tibb avadanlıqları ilə təchiz edilmiş Mərkəzi Klinik Xəstəxananın fəaliyyətə başlaması Azərbaycan səhiyyəsinin ən böyük uğurlarındandır.

İslahatlar dövründə əczaçılıq sahəsində də təqdirəlayiq işlər görülmüşdür. Belə ki, respublika əhalisini və müalicə-profilaktika müəssisələrini müasir, keyfiyyətli və zəruri dərman preparatları ilə təmin etmək, həmçinin, daxili və xarici sərmayəni Azərbaycan Əczaçılıq sənayesinin yaradılmasına cəlb etmək məqsədilə Səhiyyə Nazirliyi «Farmsintez Holdinq» Birgə Müəssisəsinin təsis olunmasında iştirak etmiş, 2000-ci il dekabrın 1-də müəssisənin təntənəli açılışı olmuşdur. Yaradılmış birgə müəssisənin təsisçilərindən biri olan «Azərsintez» müəssisəsi respublikamız üçün çox vacib olan və Ümumdünya Səhiyyə Təşkilatının tələblərinə cavab verən infuzion məhlulların, digər təsisçi – «Azərfarm» şirkəti isə 100-ə qədər dərman maddələrinin, o cümlədən İnsanovin və İnsanov Bronxoliti dərman preparatlarının istehsalı ilə məşğul olur.

Səhiyyə sahəsində aparılan islahatlar çərçivəsində Tibb Universitetində təqdirəlayiq işlər görülmüşdür. Heydər Əliyevin iştirakı ilə Universitetin 10 kafedra, kitabxana və informasiya mərkəzi yerləşən yeni tədris bi-

nası və akt zalı açılaraq istifadəyə verilmişdir. Həmçinin, Universitetin cərrahi xəstəliklər klinikasının tikilib istifadəyə verilməsi üzrə ciddi iş aparılır. Bundan əlavə, bütün kafedralar kompyuterləşdirilmiş və onların maddi-texniki bazaları möhkəmləndirilmişdir. Müstəqil dövlətimizin hərbi həkimlərə olan ehiyacını nəzərə alaraq hərbi-tibbi fakültə açılmışdır.

Ölkəmizdə səhiyyə sahəsində aparılan islahatların uğurlu nəticələri 2002-ci ildə Qafqazda yoxlamalar aparan Amerika Departamentinin xüsusi inspektorları tərəfindən də yüksək qiymətləndirilmişdir. İnspektorlar qeyd etmişlər ki, Qafqazda Bakı yeganə şəhərdir ki, dünya standartları səviyyəsində tibb müəssisələri yaradılır və bunun geniş şəbəkəsi inkişaf etməkdədir.

Müstəqillik illərində Azərbaycan tibb elmi sürətlə inkişaf etmiş, bir çox mühüm nailiyyətlər əldə edilmişdir. 2001-ci ilin mart ayında gərgin elmi-təşkilati fəaliyyətlərinə və tibb elminin inkişafındakı xidmətlərinə görə ölkəmizin tanınmış alimləri – əməkdar elm xadimləri: Səhiyyə Naziri Əli İnsanov, Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov və Milli Onkologiya Mərkəzinin direktoru Cəmil Əliyev dünyanın ən mötəbər elm ocaqlarından olan Rusiya Tibb Elmləri Akademiyasının və Azərbaycan Milli Elmlər Akademiyasının akademikləri seçilmişlər. Həmçinin, 2002-ci ildə Elmi-Tədqiqat Milli-Profilaktika İnstitutunun direktoru Namiq Əliyev Rusiya Tibb Elmləri Akademiyasının üzvü seçilmişdir.

2003-cü ildə akademik Əli İnsanov hazırladığı «Vərəm» dərsliyinə görə Frankfurt şəhərində Avropanın İnkişaf Təşəbbüsləri Mərkəzi və Biznes Təşəbbüsləri Direktorluğu tərəfindən məşhur platin «Avropa tağı» mükafatına layiq görülmüşdür. Akademik Əli İnsanov və akademik Əhliman Əmiraslanov əldə etdikləri uğurlara görə Polşa Tibb Elmləri Akademiyasının həqiqi üzvü seçilmiş və həmin akademiyanın Albert Şvaytser Böyük Qızıl Medalı ilə təltif edilmişlər. Tanınmış alimlərimizin bu uğurları Heydər Əliyevin beynəlxalq aləmdə möhtəşəm tarixi simaya çevrilmiş nəhəng şəxsiyyətinə, bütövlükdə Azərbaycan tibb elminə olan böyük ehtiramın və yüksək qiymətin bariz ifadəsidir.

Azərbaycan təbabətinin inkişafında cəfakeşlik göstərən tibb işçilərinin fədakar əməyi ulu öndərimiz tərəfindən daim yüksək qiymətləndirilmişdir. Belə ki, 17 iyun 2000-ci il tarixli Prezident fərmanı ilə Azərbaycan Tibb Universitetinin 70 illiyi münasibətilə elm, təhsil və səhiyyə sahələrində xidmətlərinə görə Universitetin 9 əməkdaşı «Şöhrət» ordeni, 15

əməkdaşı «Tərəqqi» medalı ilə təltif edilmiş, 14 əməkdaşa «Əməkdar elm xadimi», 15 əməkdaşa «Əməkdar müəllim», 17 əməkdaşa «Əməkdar həkim» fəxri adları verilmişdir. Həmçinin, ölkə Prezidentinin 2 noyabr 2000-ci il tarixli fərmanı ilə Səhiyyə Nazirliyinin yaradılmasının 80-illiyi ərəfəsində səhiyyə işçilərinin böyük bir qrupu yüksək dövlət mükafatları ilə mükafatlandırılmış, o cümlədən, 5 nəfər «Şöhrət» ordeni, 25 nəfər «Tərəqqi» medalı ilə təltif edilmiş, 8 nəfərə «Əməkdar elm xadimi», 34 nəfərə «Əməkdar həkim» fəxri adları verilmişdir.

Azərbaycan səhiyyəsinin təcrübəsi və nailiyyətləri xarici ölkələrdə böyük maraq doğurur və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan səhiyyəsi indi dünya səhiyyəsində özünün layiqli yerini tutan və qiymətini alan bir strukturdur. Təsadüfi deyil ki, 1998-ci ilin mayın 11-dən 16-dək keçirilən Ümumdünya Səhiyyə Təşkilatının ali orqanının sessiyasında ölkəmizdə səhiyyə sahəsində aparılan islahatlar yüksək qiymətləndirilmiş və Azərbaycana göstərilən yardımın 1999-cu ildən etibarən üç dəfə artırılması qərara alınmış, Azərbaycan Respublikasının Səhiyyə naziri Ümumdünya Səhiyyə Təşkilatının Baş Assambleyasının Vitse-prezidenti seçilmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, MDB dövlətlərinin səhiyyə sahəsində əməkdaşlıq üzrə şurasında Azərbaycan Respublikasında səhiyyədə aparılan uğurlu islahatlar və əldə edilən müvəffəqiyyətlərə görə Səhiyyə Nazirliyinin rəhbərliyi «Qızıl Medal»a layiq görülmüşdür.

2004-cü ildə akademik Əli İnsanova daha böyük etimad göstərilmiş və o, Ümumdünya Səhiyyə Təşkilatının İcraiyyə Komitəsinə üzv seçilmişdir.

Beləliklə, əbədi ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan səhiyyəsində aparılan islahatlar nəticəsində əhaliyə göstərilən tibbi xidmət xeyli yaxşılaşdırılmış, səhiyyənin hüquqi-normativ bazası təkmilləşdirilmiş, tibb müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, əsas dərmanlarla təchizi təmin edilmiş, kadrların ixtisasları artırılmış, səhiyyə sistemində tam və ya qismən özünüməliyyələşdirmə sisteminə keçilmiş, tibb idarələri dövlət büdcəsi ilə yanaşı, əlavə maliyyə vəsaiti əldə etmiş, tibb müəssisələrinin böyük bir qismində təmir və yenidənqurma işləri aparmaq mümkün olmuş, özəl təbabət sistemi tətbiq edilmiş və özəl tibb müəssisələri yaradılmış, Avropa və dünya standartlarına cavab verən tibb müəssisələri əhalinin istifadəsinə verilmiş, əhalinin sağlamlıq və səhiyyə göstəriciləri xeyli yaxşılaşmışdır.

MİSİR MƏRDANOV
Təhsil naziri,
YAP İdarə Heyətinin üzvü

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA TƏHSİL İSLAHATLARI

Tarixi həqiqətdir ki, Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyalarına və beynəlxalq standartlara cavab verən hazırkı səviyyəyə çatması və inkişafında ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Bu gün sürətlə dünya birliyinə inteqrasiya olunan müstəqil Azərbaycan dövləti, onun çağdaş milli tarixinin son bir qərinəsi Heydər Əliyevin titanik fəaliyyəti ilə bağlıdır və bu dövr Azərbaycan Respublikasında sosial-iqtisadi və mədəni sahələrin, xüsusilə də təhsilin inkişafında xüsusi mərhələ təşkil edir.

Müasir Azərbaycan tarixinin dönüş mərhələsini təşkil edən 14 iyul 1969-cu il milli tariximizə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük bir tarixi dövrün başlanğıcı kimi daxil olmuşdur. Təcrübə göstərir ki, elmə, təhsilə, mədəniyyətə yüksək qiymət verən xalqlar, dövlətlər və dövlət başçıları bununla nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, eyni zamanda dünya mədəniyyətinə böyük töhfə vermiş olurlar. Bu mənada, Heydər Əliyevin milli təhsilin inkişafına göstərdiyi qayğı və diqqət özünəməxsusluğu ilə seçilir. Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi bir mərhələ, bu gün haqlı olaraq, Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin intibahı dövrü kimi qiymətləndirilir.

Çağdaş Azərbaycan təhsilinin inkişafı, aparılan məqsədyönlü islahatlar sahəsində Heydər Əliyevin fəaliyyətini milli tərbiyə və təhsilə dair nəzəri görüşləri və milli təhsil quruculuğunda, təhsilin müxtəlif sahələrinin ahəngdar inkişafı istiqamətində həyata keçirdiyi islahatlar istiqamətində təhlil etmək məqsədəmüvafiqdir.

Heydər Əliyevin çoxcəhətli fəaliyyətində təhsilin məzmunu, milli təraqqidə rolu və mahiyyəti, milli ideologiya prinsiplərinin, azərbaycançılıq hisslərinin gənc nəslə aşılanması barədə nəzəri görüşlərinin tədqiqi və sistemli araşdırılması müstəqil Azərbaycanın təhsil konsepsiyasının, təhsil

sahəsində islahatların, bütövlükdə müasir təhsil sisteminin nəzəri əsaslarını müyyənləşdirməyə imkan vermişdir.

Təhsilin hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının mühüm sahəsi olduğunu, xalqın, millətin intellektual potensialını əks etdirən xüsusi, özünəməxsus sferasını təşkil etdiyini dərindən bilən Heydər Əliyev hakimiyyətə gəlişinin ilk günlərindən Azərbaycan təhsilinin inkişafına qayğını ön plana çəkmiş, ölkənin sosial-iqtisadi inkişafında təhsilin aparıcı mövqeyə malik olduğunu nəzərə alaraq, onun tərəqqisinə nail olmaq üçün bütün potensial imkanlardan istifadəyə geniş şərait yaratmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə təhsilin müxtəlif pillələri üzrə Azərbaycan təhsilinin inkişaf dövrləri və aparılmış islahatları belə səciyyələndirmək mümkündür.

Ümumi orta təhsil sahəsində aparılan genişmiqyaslı işlər nəticəsində 1979-cu ildə ümumtəhsil məktəblərinin şəbəkəsi 1965-ci illə müqayisədə 3 dəfədən çox artaraq 765-dən 2117-yə yüksəlmiş, 1145 ibtidai məktəb orta məktəbə çevrilmişdi. Şagirdlərin ümumi orta təhsili vaxtında başa vurma göstəriciləri 73,3 faizdən 89,6 faizə çatdırılmışdı.

Heydər Əliyevin gərgin əməyi və qayğısı nəticəsində ümumtəhsil məktəblərinin tədris-maddi bazası və kadrlarla təminatı daha da möhkəmləndirilmiş, 1978-ci ildən ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərlə pulsuz təminatına keçilmişdir.

1970-ci ildə Azərbaycanın ümumtəhsil məktəblərində şagirdlərin 40,2 faizi ikinci növbədə oxuyurdu. 1970-1980-ci illərdə respublikada aparılan güclü məktəb tikintisi ikinci növbədə oxuyanlar üzrə göstəricilərin yaxşılaşdırılmasına təkan verdi. Belə ki, 1970-ci ildə 28300 şagird yeri olan 90 məktəb, 1975-ci ildə 48200 nəfərlik 100 məktəb binası tikilmişdi. Nəticədə şagirdlərin ikinci növbədə oxuma göstəricisi 1978-ci ildə 30,8 faizə, 1980-ci ildə 28,1 faizə, 1985-ci ildə 24,9 faizə çatdırıldı ki, bununla da şagirdlərin 75,1 faizinin birinci növbədə təhsil almaq imkanı əldə edildi.

Həmin illərdə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 350 mindən çox şagird yeri olan 849 ümumtəhsil məktəbi birtipli layihə üzrə tikilib istifadəyə verilmişdi. Nəticədə ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sayı 1970-ci ildəki 368 mindən 1982-ci ilin əvvəllərində 710 min nəfərədək artmışdı.

Bu illərdə məktəblərin texniki və elmi-metodiki vasitələrlə təminatı əsaslı şəkildə yaxşılaşdı. 1978-ci ildə fizika və kimya kabinələri ilə təminat 92,2 faizə yüksəlmiş, məktəblərin kitabxana ilə təminatı isə 97,9 faiz olmuşdur.

1982-ci ildə Heydər Əliyevin keçmiş SSRİ-nin ali rəhbərliyinə irəli çəkilməsi, təhsil siyasətinə, təhsil islahatlarına rəhbərlik etməsi ümumtəhsilin inkişafında keyfiyyət dəyişikliklərinə gətirib çıxardı. Tarixi həqiqətdir ki, SSRİ kimi super dövlətin rəhbərliyində Heydər Əliyevin yüksək vəzifə tutması, digər sahələrlə yanaşı, ölkə təhsilinə 5 il rəhbərlik etməsi, təhsilin təşkili və inkişafı məsələlərinin bilavasitə onun səlahiyyət və nəzarətində olması keçmiş ittifaq miqyasında olduğu kimi Azərbaycanda da geniş islahatlar aparılmasına zəmin yaratdı. 1984-cü ildə keçmiş SSRİ-də ümumi təhsil və peşə təhsili üzrə islahatların əsas istiqamətlərinin müəyyənləşdirilməsi və yerinə yetirilməsi mexanizminin işlənib hazırlanması məhz Heydər Əliyevin adı ilə bağlıdır.

1984-1987-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri»ndə nəzərdə tutulan bir çox məsələlər həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, ümumi orta təhsilə 6 yaşdan başlanması və onun müddətinin 11 illik olması haqqında təklif məhz Heydər Əliyev tərəfindən irəli sürülmüş və həmin ideya müstəqil Azərbaycanın təhsil quruculuğunda reallığa çevrilmişdir.

1993-cü ilin iyununda ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin böyük səyi ilə ümumi təhsildə 11 illik icbari ümumi orta təhsilə keçildi. Yeni təhsil qanununun yaradılması həyati zərurətə çevrildi və Heydər Əliyevin təşəbbüsü ilə «Təhsil haqqında» Qanunun yeni layihəsi ümumxalq müzakirəsinə çıxarıldı.

Müstəqillik illərində də məhz ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində son dərəcə ciddi islahatlar həyata keçirilməyə başlandı. Onun tapşırığı ilə hazırlanmış və 17 fevral 2003-cü il tarixli Sərəncamla təsdiq edilmiş «Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqrama (2003-2007-ci illər)» müvafiq olaraq 5 ildə Azərbaycanda 44698 yerlik 149 yeni məktəbin, 175 məktəbdə 25560 yerlik 1328 sinif otağının tikilməsi, 408 məktəbdə əsaslı təmir işlərinin aparılması nəzərdə tutulmuşdu. Proqrama əsasən 2003-cü ildə 1906 yerlik 6 məktəb tikilib istifadəyə verilmiş, eyni zamanda 15 məktəbdə 3240 yerlik 162 əlavə sinif otağı inşa edilmişdir. 2004-cü ildə

isə 4632 yerlik 13 məktəb tikilmiş, mövcud 25 məktəbdə 3140 yerlik 157 sinif otağı inşa edilmişdir. 7116 yerlik 21 yeni məktəbin tikintisinə başlanmışdır və cari ildə istifadəyə veriləcəkdir.

Azərbaycan müəllimlərinin XI Qurultayında ümummilli liderimiz Heydər Əliyevin məktəb tikintisinə, maddi-tədris bazanın möhkəmləndirilməsinə diqqətin artırılması barədə iş adamlarına çağırışından sonra bu sahədə aparılan işlər daha geniş vüsət almışdır. Buna cavab olaraq respublikada 2003-cü ildə həm büdcə vəsaiti, həm də xarici ölkələrin qrant və kreditləri, iş adamlarının, xeyriyyəçilərin vəsaitləri hesabına ümumilikdə 18856 yerlik 96 yeni məktəb, 10060 yerlik 524 sinif otağı inşa edilmiş, 422 məktəb əsaslı təmir edilmiş, 2004-cü ildə 15095 yerlik 54 yeni məktəb binası tikilmiş, 8654 yerlik 438 sinif otağı inşa edilmiş, 358 ümumtəhsil məktəbində əsaslı təmir, 1617 məktəbdə isə cari təmir işləri aparılmışdır. 25 noyabr 2000-ci ildə Bakı şəhərində zəlzələ nəticəsində ciddi ziyan dəymiş 39 məktəb tam bərpa olunmuşdur.

Ümumilikdə son iki ildə 33951 yerlik 150 yeni məktəb tikilib istifadəyə verilmişdir. Yeni ümumtəhsil məktəblərinin tikintisi ilə əlaqədar bir il ərzində 1000-dən çox yeni iş yeri açılmışdır. Bu proses uğurla davam etdirilir.

Proqrama müvafiq olaraq 2005-ci ildə 7844 yerlik 25 yeni məktəbin, 37 mövcud məktəbdə 5760 yerlik 342 əlavə sinif otağının tikintisi nəzərdə tutulmuşdur. Sonrakı illərdə də Proqrama uyğun tədbirlər həyata keçiriləcəkdir.

Heydər Əliyevin təhsillə bağlı nəzəri fikirləri içərisində təhsilin məzmununun müstəqil Azərbaycanın dövlətçilik prinsipləri əsasında qurulması ideyası mühüm yer tutur. Onun fikrincə, «Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb bir prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar. Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması xüsusi əhəmiyyət kəsb edir. Bilirəm, bu asan məsələ deyil. Bu bir çox amillərlə bağlıdır. Ancaq indi dərs alan uşaqlar, gənclər mütləq və mütləq bizim yeni dərsliklər əsasında oxusunlar...».

Təhsilin məzmununda islahatların aparılması, ümumtəhsil məktəbləri üçün yeni dərsliklərin hazırlanması məsələsi həmişə ümummilli liderimiz Heydər Əliyevin diqqət mərkəzində olmuş, bu sahədə aparılan işlərlə müntəzəm maraqlanmış, daim Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi dərsliklərinin təhsil sistemində müstəsna əhəmiyyətə malik olduğunu vurğulamışdır.

Məhz Heydər Əliyevin yeni dərsliklərin yaradılması barədə təhsil işçiləri qarşısında qoyduğu vəzifələrə əsasən son illərdə təlim Azərbaycan və rus dillərində aparılan ümumtəhsil məktəblərinin şagirdləri üçün 147 adda yeni dərslik və 36 adda dərs vəsaiti hazırlanmışdır. Bu o deməkdir ki, hazırda ümumtəhsil məktəblərində istifadə edilən 182 adda dərslik və dərs vəsaitindən 80 faizi yeniləşdirilmiş, bununla da milli dərsliklərin hazırlanmasının birinci mərhələsi başa çatmışdır.

Nəzərə alsaq ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə hazırlanan İslahat Proqramına qədər, 1998-ci ildə ümumi orta təhsil sistemində istifadə edilən dərsliklərdən yalnız Azərbaycan dili, ədəbiyyat, ibtidai sinif dərslikləri milli zəminə uyğun hazırlanmışdı, bu sahədə aparılan işlərin miqyası daha aydın nəzərə çarpar.

Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyevin imzaladığı «Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməsinə keçmək haqqında» qərarla 1978-ci ildən şagirdlərin dərsliklərlə pulsuz təminatına keçilmiş, lakin həmin qərar təhsilin əhəmiyyətini anlamağa qadir olmayan «rəhbərlər» tərəfindən 1992-ci ildə ləğv edilmiş, Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 19951996-cı tədris ilindən I-IV sinif şagirdlərinin dərsliklərlə pulsuz təminatı yenidən bərpa edilmişdir.

Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış və təsdiq edilmiş «Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramına (2003-2005-ci illər)» uyğun olaraq 2003-cü ildə I-V siniflərdə təhsil alan bütün şagirdlər və məcburi köçkünlərin təhsil aldığı müstəqil məktəblərin VI-XI sinif şagirdləri dərsliklərlə pulsuz təmin olunmuşdur. 2003-cü ildə təlim Azərbaycan dilində olan məktəblər üçün 19 adda, təlim rus dilində olan məktəblər üçün 14 adda yeni dərslik çap edilərək şagirdlərin istifadəsinə verilmişdir. 2004-cü ildə isə I siniflər üçün «Əlifba», VI-VII siniflər üçün 34 adda yeni dərslik hazırlanmış, çap olunaraq şagirdlərə pulsuz paylanmışdır. Beləliklə bütün I-VII sinif şagirdləri dərsliklərlə pulsuz təmin edilmişdir.

Dərslik və dərs vəsaitlərinin hazırlanması sahəsində işlər cari ildə də davam etdirilir. Belə ki, VIII-XI siniflər üzrə 80-ə qədər adda dərslik hazırlanacaq və şagirdlərə pulsuz paylanacaqdır. Ümumilikdə 2005-ci ildə 118 adda 8.000.500 nüsxə dərslik çap olunub, şagirdlərə paylanacaqdır. Beləliklə, Dövlət Proqramına müvafiq olaraq 2005-ci ilin sonuna ümumtəhsil məktəblərinin bütün I-XI sinif şagirdləri dərsliklərlə pulsuz təmin ediləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin latın qrafikalı ədəbiyyatın nəşri ilə əlaqədar Sərəncamına müvafiq olaraq Dünya Bankının krediti hesabına məktəb kitabxanaları üçün 18 adda 1,7 milyon ABŞ dolları dəyərində ensiklopedik lüğətin latın qrafikası ilə 846 min nüsxədə çap edilməsi və bütün ümumtəhsil məktəblərinə pulsuz verilməsinə başlanmışdır, bu iş cari ilin mayında başa çatacaqdır. Nəticədə Azərbaycanın hər bir məktəbinin kitabxanası orta hesabla 190 nüsxə ensiklopedik lüğətlə təmin olunacaqdır.

Əlavə oxu materialı kimi Azərbaycan və dünya ədəbiyyatının klassik və müasir ədəbi nümunələri seriyasından latın qrafikası ilə 37 adda kitab çap olunmuşdur. Bu əsərlər təhsil müəssisələri kitabxanalarının zənginləşdirilməsinə xidmət edəcəkdir.

Ümummilli liderimiz Heydər Əliyevin taleyüklü təhsil siyasətinin, bu istiqamətdə ümumi orta təhsil sahəsində həyata keçirilən genişmiqyaslı işlərin, aparılan islahatların nəticəsidir ki, Azərbaycan məktəblilərinin dünya olimpiadalarında əldə etdiyi nailiyyətlər ildən ilə artmışdır. Belə ki, son dövrdə məktəblilərimiz kimya, biologiya, fizika, riyaziyyat, informatika fənləri üzrə dünya olimpiadalarında 7 qızıl, 9 gümüş, 37 bürünc medal qazanmışlar. 16 nəfər olimpiada qalibi Moskva Dövlət Universitetinə imtahansız qəbul edilmişdir. 2002-ci ildə İndoneziya Respublikasında keçirilmiş fizika olimpiadasında 4 nəfərdən 3-ü qızıl, 1-i gümüş medala layiq görülmüş və Azərbaycan komandası 69 ölkə arasında ilk 5 komanda sırasına daxil olmuşdur. 2004-cü ildə Almaniyada keçirilən beynəlxalq kimya olimpiadasında şagirdlərimiz 2 qızıl, 1 bürünc və bir xüsusi diplom, Yunanıstanda keçirilən riyaziyyat olimpiadasında 1 gümüş, informatika olimpiadasında 1 bürünc, Avstriyada keçirilən biologiya olimpiadasında 1 bürünc medal qazanmışlar.

Ümumi təhsil sahəsində aparılan genişmiqyaslı islahatlar hazırda ölkədə fəaliyyət göstərən 4542 ümumtəhsil məktəbini, burada təhsil alan

1629831 nəfər şagirdi, həmin şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olan 174297 müəllimi əhatə etmişdir.

Azərbaycan təhsilinin mühüm tərkib hissəsi olan **texniki peşə təhsilinin** yüksəliş dövrü də Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. 1970-ci illərdə Azərbaycanın texniki peşə təhsili özünün yeni yüksəliş mərhələsinə qədəm qoymuş, həmin ildə texniki peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7 dəfə, təhsil alanların sayı isə 2,5 dəfə artmışdı. Həmin illərdə Azərbaycanda gedən iqtisadi quruculuq prosesi, sənaye və kənd təsərrüfatının coşqun inkişafı yüksək ixtisaslı fəhlə kadrları hazırlanması tələbatını meydana çıxardı və bu tələbat texniki peşə təhsilinin inkişafına imkan verdi. Buna görə də o illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə təhsilin bu sahəsinin inkişafını təmin edən direktiv sənədlər qəbul edildi. 1969-cu ilin sonlarında qəbul edilmiş «Texniki peşə təhsili sistemi məktəblərində ixtisaslı fəhlə kadrlarının hazırlanmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərar təhsilin bu pilləsinin sonradan ahəngdar inkişafına təkan verdi.

Heydər Əliyevin göstərişi ilə ilk dəfə olaraq 1971-1975-ci illər üçün Azərbaycanda texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı yollarına dair strategiya müəyyənləşdirilmişdir. Həmin illərdə 35 şəhər və rayonda 54 yeni texniki peşə məktəbi yaradılmışdır. Ümumiyyətlə, bu dövrdə bu məktəblərdə 165120 nəfər ixtisaslı fəhlə kadrları hazırlanmışdır ki, bu da əvvəlki illərdən 1,7 dəfə çox idi.

1975-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə «Orta kənd texniki peşə məktəblərinin şəbəkəsini genişləndirmək və onların işini yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul edilmiş və onun qəbulundan keçən 4 il ərzində kənd texniki peşə məktəblərinin şəbəkəsi 3 dəfə artaraq 44-ə çatdırılmışdır. Demək olar ki, həmin məktəblər respublikanın bütün rayonlarını əhatə etmişdir.

Heydər Əliyevin göstərişi ilə 1976-1980-ci illərdə texniki peşə təhsili sisteminin iqtisadi və sosial inkişafı planı hazırlanıb təsdiq olunmuşdur. Bu plana uyğun olaraq peşə təhsili müəssisələri 235 peşə və ixtisas üzrə 43 nazirlik və baş idarə üçün ixtisaslı fəhlə kadrları hazırlamışdır.

1970-1982-ci illərdə respublikada texniki peşə təhsili şəbəkəsinin inkişaf dinamikasının təhlili göstərir ki, 1970-ci ildə 76 texniki peşə məktəbi fəaliyyət göstərir və orada 40,9 min şagird təhsil alırdısa, bu rəqəm müvafiq olaraq 1980-ci ildə 173 məktəbə və 99,8 min şagirdə, 1982-ci ildə isə

184 məktəbə və 109 min şagirdə çatdırılmışdır. Deməli, məktəblərin sayı bu illərdə 2,5 dəfə, təhsil alanların sayı isə 2,5 dəfədən çox artmışdır. Bu rəqəmlər Heydər Əliyevin təhsilin bu vacib sahəsinə qayğı və diqqətini çox dəqiq əks etdirir.

Heydər Əliyev o illərdə ölkədə iqtisadiyyatın durmadan inkişafı, sənaye və kənd təsərrüfatı sahələrinin modernləşdirilməsi ilə bağlı kadr hazırlığını yaxşılaşdırmaq sahəsində texniki peşə təhsili sistemi qarşısında ciddi vəzifələr qoyur və onların reallaşdırılması üçün hər cür şərait yaradırdı.

1978-1987-ci illərdə Azərbaycanda 5276 şagird yeri olan texniki peşə kompleksləri, 2400 şagird yeri olan tədris binaları, 2800 şagird yeri olan laboratoriya-təcrübə korpusları, ümumi sahəsi 15559 kv.m olan yataqxana binaları tikilib istifadəyə verilmişdir. Bu illərdə 194 tədris-istehsalat emalatxanası, 786 tədris kabineti və laboratoriyası, ümumi torpaq sahəsi 1427 hektar olan 22 təlim təsərrüfatı yaradılmışdır.

SSRİ-də 1982-1987-ci illərdə təhsil sisteminə rəhbərlik etmiş Heydər Əliyev ümumi təhsil, o cümlədən texniki peşə təhsili sahəsində əsaslı islahatların aparılması istiqamətində böyük xidmət göstərmişdir. İslahat Proqramı respublikada da texniki peşə təhsilinin inkişafına və təkmilləşməsinə böyük təkan vermişdir. Nəzərə almaq lazımdır ki, o illərdə Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində çalışan ixtisaslı fəhlələrin 70-80 faizini məhz texniki peşə məktəblərinin məzunları təşkil edirdi.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra texniki peşə təhsili sahəsində keyfiyyət dəyişiklikləri həyata keçirildi və bu sahədə aparılan məqsədyönlü işlər nəticəsində hazırda ölkədə 110 texniki peşə təhsili müəssisəsi, o cümlədən 49 peşə liseyi fəaliyyət göstərir ki, burada 22532 tələbə təhsil alır, 4196 pedaqoji işçi çalışır.

Ali və orta ixtisas təhsili Heydər Əliyevin daim diqqət mərkəzində olmuş. 1969-cu ildə hakimiyyətə gəlişinin ilk günlərindən bu təhsil pilləsinin inkişafı və müvafiq islahatların aparılması üzrə tədbirlər həyata keçirilmişdir. 1970-1980-ci illərdə Azərbaycanda ali təhsil müəssisələrinin sayı 1969-cu illə müqayisədə 12-dən 17-yə, təhsil alanların sayı isə 70 mindən 100 minə yüksəlmişdir.

Bu illərdə fəaliyyət göstərən 78 orta ixtisas məktəbində hər il 80 minə yaxın tələbə təhsil almışdı. Ali və orta ixtisas məktəblərinə qəbul olan tələbələrin sayı bu illərdə sürətlə artmışdır.

Ümumiyyətlə, 1970-1982-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılmış, çoxlu ixtisaslar, kafedralar, problem laboratoriyaları açılmışdır. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra mövcud idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 17 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bütün bu uğurlar Heydər Əliyevin ali təhsilin inkişafına, respublikanın kadr potensialının gücləndirilməsinə qayğısı nəticəsində mümkün olmuşdu.

Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafı yolundakı böyük xidmətlərindən biri də 1970-1980-ci illərdə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratmasıdır.

Həmin illərin tarixi əhəmiyyətli nailiyyətlərindən biri 70-ci illərin əvvəllərindən başlayaraq hər il 800-900 nəfər, 80-ci illərin əvvəllərindən isə ildə 1000-1400 nəfərə qədər Azərbaycan gəncinin respublikadan kənardakı keçmiş SSRİ-nin məşhur ali məktəblərinə təhsil almağa göndərilməsi idi. Heydər Əliyevin 70-80-ci illərdə respublikadan kənarda, keçmiş SSRİ-nin ali məktəblərində milli kadr hazırlığı sahəsində apardığı siyasətin mühüm istiqamətlərindən biri də milli hərbi kadrların yetişdirilməsi yolundakı tarixi xidmətləridir. 70-80-ci illərin ən əhəmiyyətli hadisələrindən biri kimi indi müstəqillik dövründə respublikamız üçün çox lazımlı olan ilk orta və ali hərbi təhsil sisteminin yaradılması ilə yanaşı, o illərdə keçmiş SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin sistemli şəkildə göndərilməsi faktı qeyd edilməlidir. Heydər Əliyevin birbaşa rəhbərliyi və qayğısı ilə 1972-ci ildən etibarən hər il 300-400, 1970-ci illərin sonu və 80-ci illərin əvvəllərindən Azərbaycandan kənara ildə 800-900 nəfər gənc keçmiş SSRİ-nin böyük təcrübəyə malik ali hərbi məktəblərinə təhsil almağa göndərilirdi. 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda C.Naxçıvanski adına hərbi məktəbin yaradılması, hərbi kadr hazırlığı sahəsində mühüm rol oynadı.

İstər Azərbaycandan kənarda, istərsə də respublika daxilində milli hərbi kadrların hazırlanması sahəsində Heydər Əliyevin xidmətləri əvəzsizdir. Nəzərə almaq lazımdır ki, məhz 70-80-ci illərdə yaradılan bəzi hər-

bu məktəblər, eləcə də respublikadan kənarda təhsil almış milli kadrlar hesabına bu gün müstəqil Azərbaycanın ordu quruculuğu və milli hərbi sistemi formalaşmış, məhz o illərdə yaranan təməl üzərində qurulmuşdur.

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı kadr hazırlığı sahəsində əvvəllər mövcud olmuş ənənələrin yenidən bərpa edilməsinə və bu işin daha geniş vüsət almasına səbəb oldu. Məhz ümummilli liderimizin rəhbərliyi ilə ali təhsil sistemində aparılan məqsədyönlü işlərin nəticəsidir ki, son dövrdə xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı xeyli artmışdır. Hazırda dünyanın aparıcı universitetlərində Azərbaycanın orta məktəblərini bitirmiş 3000-dən artıq gənc yüksək göstəricilərlə ölkəmiz üçün zəruri ixtisaslara uğurla yiyələnirlər.

Eyni zamanda hazırda Azərbaycanın ali məktəblərində 41 ölkədən 3438 nəfər əcnəbi tələbənin təhsil alması ölkənin ali təhsil sistemində islahatların aparılması və təhsilin keyfiyyətinin yüksəldilməsi, ən başlıcası isə ölkə daxilində yaradılmış sabit və sağlam mühit sayəsində əldə edilmişdir.

Ümummilli liderimizin ali təhsil sisteminə yüksək qayğı və diqqətinin nəticəsidir ki, hazırda ölkədə ümumilikdə 47 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan 27-si dövlət, 15-i özəl, 5-i isə xüsusi təyinatlı ali təhsil müəssisələridir. 42 dövlət və özəl ali təhsil müəssisəsində 116124 nəfər tələbə ölkəmiz üçün zəruri olan ixtisaslara yiyələnir.

Orta-ixtisas təhsili sahəsində də dinamik inkişaf Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərə təsadüf etmişdir. Məhz ümummilli liderimizin diqqət və qayğısı sayəsində Azərbaycanda kadr hazırlığı sahəsində xüsusi rol oynayan orta ixtisas təhsili müəssisələrinin geniş şəbəkəsi yaradılmışdır. Son illərdə ölkənin inkişaf tendensiyalarına müvafiq olaraq bu sahədə şəbəkənin təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirilmiş, 2001-2004-cü illərdə orta ixtisas təhsilinin İnkişaf Proqramı reallaşdırılmışdır. Hazırda Azərbaycanda 55 dövlət orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir ki, həmin müəssisələrdə 54173 tələbə müxtəlif ixtisaslara yiyələnirlər. 4 özəl orta ixtisas təhsili müəssisəsində 1621 tələbə təhsil alır.

Təəssüf ki, Azərbaycanın müstəqillik əldə etdiyi ilk illərdə ölkəyə rəhbərlik edənlərin yaratmaz fəaliyyəti nəticəsində bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də tənəzzül dövrü başlandı, Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində əldə edilmiş nailiyyətlər itirilməyə başladı.

1993-cü ilin iyununda Heydər Əliyevin xalqın haqlı tələbi ilə hakimiyyətə qayıdışı ilə Azərbaycanın sosial-iqtisadi və mədəni həyatının

bütün sahələrində olduğu kimi, təhsil sahəsində də ahəngdar iş fəaliyyəti bərpa olundu, geniş islahatlar üçün zəmin yaradıldı, təhsil sisteminin müstəqil dövlətçilik prinsipləri əsasında qurulması zərurəti yarandı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci ilin martında imzaladığı Sərəncamla müstəqil Azərbaycanda təhsil sahəsində beynəlxalq standartlara uyğun islahatların aparılması məqsədilə islahat proqramını hazırlayacaq Dövlət Komissiyası yaradıldı. Dövlət Komissiyası tərəfindən qısa müddətdə hazırlanmış «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı» ölkə Prezidentinin 15 iyun 1999-cu il tarixli sərəncamı ilə təsdiq edildi. Bununla da müstəqil Azərbaycanda təhsilin gələcək inkişaf konsepsiyası və strategiyası müəyyənləşdirildi. Həmin sənəd hazırlanarkən ölkəmizdə təhsil sisteminin ayrı-ayrı inkişaf mərhələləri, xüsusən, 1970-1980-ci illərdə təhsil sahəsində toplanmış tarixi təcrübə ciddi şəkildə nəzərə alınmışdır.

Proqramda Azərbaycanda təhsil islahatının üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu:

Birinci mərhələdə-bir il müddətinə (1999-cu il) vətəndaşların Konstitusiya ilə müəyyən olunmuş təhsil hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ-hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılması, eləcə də müvafiq infrastrukturun və kommunikasiya sisteminin müəyyən edilməsi nəzərdə tutulurdu.

Qısamüddətli perspektivi əhatə edən ikinci mərhələdə (2000-2003-cü illər) təhsil sahəsinin sosial-iqtisadi sabitliyini təmin edən təxirəsalınmaz problemlərin həll olunması və genişmiqyaslı islahatın aparılması üçün təşkilati-hüquqi, kadr, maliyyə, maddi-texniki təminatın və yeni idarəetmə modelinin yaradılması vəzifəsi qarşıya qoyulmuşdu.

Üçüncü mərhələ 2004-cü ildən sonrakı dövrü əhatə edir və bu mərhələdə proqramda nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

«Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı»nın əsas konseptual ideyasını və təməl prinsiplərini Heydər Əliyevin irəli sürdüyü aşağıdakı müddəalar təşkil edir: təhsil sistemində hər bir yeniləşmənin inqilabi yolla deyil təkamül yolu ilə aparılması; dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemində aparılmış islahatların nəticələri ilə yaxından tanış olunması; heç bir ölkənin təhsil sisteminin olduğu kimi Azərbaycanda qu-

rulmasına cəhdin yolverilməzliyi; islahatların xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanması, xüsusən təhsil sahəsində XX əsrdə Azərbaycanda formalaşmış mütərəqqi ənənələrdən səmərəli istifadə olunması və sair.

İslahat Proqramının birinci mərhələsində aşağıdakı komponentlər üzrə əsas tədbirlər həyata keçirilmişdir.

Təhsil sisteminin yeni normativ-hüquqi, iqtisadi və informasiya bazasının yaradılması istiqamətində:

-Təhsil Nazirliyi tərəfindən təhsil sisteminin bütün pillələrini əhatə edən normativ-hüquqi sənədlər təhlil olunmuş, yaradılması zəruri olan 150-dən artıq normativ sənəd hazırlanmış və təsdiq olunmuşdur.

-1999-cu ildə ümumi orta təhsilin dövlət standartları və bazis tədris planı təsdiq edilmiş, həmin bazis tədris planının əsasında ümumtəhsil məktəbləri üçün 1999-2005-cü illəri əhatə edən işçi tədris planları hazırlanmışdır.

-Ali və orta ixtisas təhsilinin dövlət standartları və buna müvafiq olaraq bütün istiqamətlər (ixtisaslar) üzrə baza təhsil proqramları hazırlanıb təsdiq edilmişdir.

-Təhsil müəssisələrinin fəaliyyətinə və keyfiyyətə nəzarətin yeni mexanizmləri olan müasir monitorinq və qiymətləndirmə mexanizmlərinin yaradılması istiqamətində uğurlu addımlar atılmış, bununla bağlı müvafiq sənədlər hazırlanmışdır.

-Ümumtəhsil və ali məktəblərdə şagird və tələbələrin eksperiment qaydasında biliyinin qiymətləndirilməsinin çoxballı sisteminə keçilmişdir.

Bütün növ və tiplərdən olan təlim-tərbiyə müəssisələrinin inkişafının təmin edilməsi və yeni tipli təhsil müəssisələrinin, mərkəzlərin, komplekslərin təşkili istiqamətində:

-«Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» 30 avqust 1999-cu il tarixli, 188 nömrəli Fərmanın yerinə yetirilməsi ilə əlaqədar Bakının Suraxanı və Nəsimi rayonlarında uşaq evi, Quba rayonunun Zərdabi qəsəbəsində xüsusi internat məktəb açılmışdır.

-Bir sıra özəl universitetlərin nəzdində ümumtəhsil məktəbləri, Müasir Təhsil Kompleksi, «XXI əsr» özəl ümumtəhsil məktəbləri yaradılmışdır. Bununla yanaşı, Türkiyənin Azərbaycanda fəaliyyət göstərən «ÇAĞ-Öyrətim» Şirkətinin Bakı şəhərində və respublikanın ayrı-ayrı bölgələrində 11 lisey və onların filiallarının fəaliyyətinə lisenziya verilmişdir.

-Nazirlər Kabinetinin müvafiq qərarları ilə peşə təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması üzrə tədbirlər həyata keçirilmiş, yeni tipli peşə liseyləri yaradılmışdır.

-Nazirlər Kabinetinin 2001-ci il tarixli müvafiq qərarı ilə orta ixtisas təhsili müəssisələrinin şəbəkəsinin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir. Nazirlər Kabinetinin «Orta ixtisas təhsili müəssisələrinin şəbəkəsinin təkmilləşdirilməsi haqqında» 26 avqust 2002-ci il tarixli sərəncamına müvafiq olaraq yeni tipli təhsil müəssisələri- kolleclər yaradılmışdır.

-Ölkə Prezidentinin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyun 2000-ci il tarixli Fərmanına uyğun olaraq, bəzi nazirliklərin və dövlət qurumlarının tabeliyindəki təlim-tərbiyə və təhsil müəssisələri Təhsil Nazirliyinin tabeliyinə verilmiş, respublikada fəaliyyət göstərən bütün ali və orta ixtisas təhsili müəssisələrinin filialları ləğv edilmişdir.

-Eyni zamanda bir sıra yeni ali məktəblər yaradılmış, bəzi ali təhsil müəssisələrinin statusu artırılmış və profilləri dəyişdirilərək universitetlərə çevrilmişdir.

Kadr hazırlığı, təminatı, ixtisasartırma və yenidən hazırlanmanın təşkilati mexanizmininin yaradılması istiqamətində:

-Kadr hazırlığı sahəsində islahatların aparılmasının zəruriliyi nəzərə alınaraq, II Kredit Sazişində bu sahə alt-komponent kimi müəyyənləşdirilmişdir.

-İxtisasartırma sahəsində yeni mexanizm yaradılmış və «sifariş-təklif» prinsipi əsasında ixtisasartırmaya başlanmışdır.

-Təhsil sahəsi üzrə rəhbər kadrların zəruri biliklərə yiyələnməsinin vacibliyi nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistratura pilləsində təhsilin təşkili və idarə olunması üzrə kadr hazırlığı proqramı hazırlanıb təsdiq olunmuşdur.

Təhsil sisteminin məlumat bankının və biliklər bazasının təşkilini təmin edən mexanizmin yaradılması istiqamətində:

-1998-ci ildən başlayaraq 150 nəfərdən artıq təhsil işçisi təcrübə mübadiləsi aparmaq, beynəlxalq forumlarda və konfranslarda Azərbaycanı təmsil etmək, qarşılıqlı əməkdaşlıq üçün zəmin hazırlamaq, təhsil sahəsində əməkdaşlıq haqqında protokollar imzalamaq və sair məqsədlərlə Təhsil Nazirliyinin xətti ilə dünyanın 26-dan çox ölkəsinə təcrübə mübadiləsi və xidməti səfərlərə göndərilmişdir.

-Təhsil Nazirliyi tərəfindən hazırlanmış və təsdiq olunmuş «2004-2008-ci illərdə Azərbaycanda təhsil sisteminin inkişaf proqramı»nda nəşri nəzərdə tutulmuş tədris, elmi-metodik vəsait və dərsliklərin siyahısı müəyyənləşdirilmiş, bu məsələ II Kredit Sazişinə daxil edilmişdir.

-Ali və orta ixtisas məktəbləri üçün dərslik və dərs vəsaitlərinin hazırlanması istiqamətində 68 yeni dərslik və 147 dərs vəsaitinə qrif verilmişdir. Ali və orta ixtisas məktəbləri üçün «Dərslik proqramı» hazırlanmışdır.

Təhsil sistemində müasir idarəetmə mexanizminin yaradılması istiqamətində:

-Azərbaycan Respublikası Prezidentinin Fərmanları ilə 6 aparıcı ali məktəbə (Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Kənd Təsərrüfatı Akademiyası) özünüidarəetmə hüququ verilmişdir.

-Təhsil menecerlərinin hazırlanması, təlim-tərbiyə müəssisələrinin müstəqilliyinin təmin olunması, yerli idarəetmə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, idarəetmə funksiyalarının təkmilləşdirilməsi və sair sahələr üzrə tədbirlər görülmüş, perspektiv fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.

-«Ali və orta ixtisas təhsili müəssisələrinin attestasiyası və akkreditasiyası haqqında Əsasnamə» hazırlanmış və Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir.

-Nazirlər Kabinetinin müvafiq qərarı ilə xarici dövlətlərin təhsil haqqında sənədlərinin nostrifikasiyası qaydaları təsdiq olunmuş, 2002-ci ildən həmin qaydalara müvafiq işlər aparılır.

İslahat Proqramının **ikinci mərhələsində** aşağıdakı tədbirlər həyata keçirilmişdir.

Müxtəlif yönüm və səviyyəli təhsil müəssisələrinin inteqrasiyası, onların bazasında yeni tipli elm-təhsil mərkəzlərinin yaradılması, təhsil müəssisələri şəbəkəsinin yenidən qurulması istiqamətində:

-Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin təsviri sənət profilli fakültələrinin və Azərbaycan Dövlət Rəssamlıq Texnikumunun bazasında Azərbaycan Rəssamlıq Akademiyası və nəzdində İncəsənət Kolleci, Bakı Musiqi Akademiyasının xalq musiqisi profilli ixtisaslarının və Azərbaycan Dövlət Musiqi Texnikumunun bazasında Azərbaycan Milli

Konservatoriyası və nəzdində Musiqi Kolleci təşkil olunmuş, Respublika İncəsənət Gimnaziyası da Konservatoriyanın tərkibinə verilmişdir.

-Bir sıra ali məktəblərin (Sumqayıt Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Slavyan Universiteti və sair) profilləri genişləndirilmişdir.

-Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli fərmanı ilə ilkin müəllim hazırlığını, pedaqoji kadrların ixtisasartırmasını və yenidənhazırlanmasını həyata keçirən Azərbaycan Müəllimlər İnstitutu və respublikanın 12 regionunda onun filialları yaradılmışdır.

-Respublikamızda istedadlı şagirdlərin cəlb olunduğu yeni tipli təhsil müəssisələrinin–lisey və gimnaziyaların şəbəkəsinin inkişafı üzrə tədbirlər həyata keçirilmişdir. 1998-1999-cu dərs ilində 11422 şagirdi əhatə edən 36 lisey və gimnaziya fəaliyyət göstərirdisə, hazırda onların sayı 47-yə, şagirdlərin sayı isə 23080-ə çatdırılmışdır.

Təlim-tərbiyənin məzmununun təhsil alanların imkanlarına uyğun dövlətin, ictimaiyyətin və şəxsiyyətin tələbatı əsasında qurulması istiqamətində:

-Ümumtəhsil, ali və orta ixtisas təhsili müəssisələrində təlim-tərbiyənin meyl, maraq, istedad və qabiliyyət əsasında qurulmasını təmin edən tədris planı, proqramları və dərsliklər hazırlanıb tətbiq edilmişdir.

-Azərbaycan ali təhsil sisteminin Boloniya prosesinə qoşulması və Avropa ali təhsilinə inteqrasiyası, kredit sisteminin tətbiqi sahəsində tədbirlər həyata keçirilmişdir. Azərbaycan Dillər və İqtisad Universitetlərində kredit sisteminin tətbiqinə başlanması üzrə hazırlıq işləri aparılır.

İslahat Proqramının **üçüncü mərhələsində** nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi sahəsində işlər aparılır.

Azərbaycanda islahat prosesinə Dünya Bankının qoşulması, digər beynəlxalq təşkilatların bu prosesdə fəal iştirakı, Azərbaycan təhsilinin dünya təhsil sisteminə sürətli inteqrasiyası, əslində, Heydər Əliyev şəxsiyyətinin beynəlxalq aləmdə böyük nüfuzu ilə əlaqədar idi. Məhz Heydər Əliyevin ölkə təhsilinin inkişafı sahəsində apardığı məqsədyönlü fəaliyyət nəticəsində **Dünya Bankının krediti əsasında Azərbaycanda Təhsil İslahatı Layihəsi (1999-2004) başlanmışdır.** 1999-cu il iyunun 29-da Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyası arasında «İnkişaf üçün kredit haqqında Saziş» imzalanmış və Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmişdir.

Dünya Bankının təsnifatına əsasən, Birinci Təhsil İslahatı Layihəsi üzrə ayrılmış Kredit mahiyyətcə öyrədici və innovasiya kreditli olmuşdur. Bu kreditin əsas məqsədlərindən biri Azərbaycanın təhsil sistemində Dünya Bankının qaydaları, prosedurları, təlimatları üzrə zəruri bilik və bacarıqların formalaşdırılması. Bankın təlimatlarına uyğun şəkildə fəaliyyət göstərə bilən kadr potensialının hazırlanması, pilot məktəblərində və institutlarında təhsil innovasiyalarının tətbiqinə başlanması və innovasiya təşəbbüslərinin dəstəklənməsi olmuşdur.

Layihənin dəyəri 5,5 milyon ABŞ dolları təşkil etmişdir ki, bu məbləğin 500 min dolları Azərbaycan Hökumətinin payına düşmüşdür. Ayrılan kreditin kiçik həcmli olduğu nəzərə alınaraq, Təhsil İslahatı Layihəsi yalnız üç istiqamətdə islahatların aparılmasına yönəldilmişdir: tədris planı və proqramları, tədris-metodik təminat; müəllimlərin ixtisasartırması; layihənin monitorinqi və qiymətləndirilməsi. Layihənin həyata keçirilməsi üçün 27 pilot müəssisəsi müəyyən edilmişdir.

Təhsil İslahatı Layihəsi çərçivəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir:

-20 pilot məktəbi üçün dünya təcrübəsində uğurla tətbiq edilən müasir kurrikulumların tələblərinə xeyli dərəcədə cavab verən yeni formatda Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, informatika, tarix, ingilis dili (V və VI siniflər), musiqi, təsviri sənət (I-II, V-VI siniflər), Azərbaycan dili (təlim rus dilində olan məktəblərin I-II, V-VI sinifləri), rus dili və ədəbiyyatı (təlim rus dilində olan məktəblərin V-VI sinifləri) fənləri üzrə tədris proqramları hazırlanmış və nəşr edilmişdir;

-vahid komplekt şəklində pilot məktəblərinin V və VI sinifləri üçün ədəbiyyat, təlim rus dilində olan məktəblər üçün rus dili, ədəbiyyat dərslikləri, iş dəftərləri və müəllimlər üçün metodik vəsaitlər çap olunmuş və şagirdlərin istifadəsinə verilmişdir;

-Azərbaycan dili və riyaziyyat fənləri üzrə beynəlxalq tələblərə tam cavab verən kurrikulum nümunələri hazırlanmışdır;

-şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni konsepsiyanın əsas istiqamətləri müəyyənləşdirilmiş və qiymətləndirmə modelləri hazırlanmışdır;

-ana dili və riyaziyyat fənləri üzrə beynəlxalq standartlara cavab verən milli qiymətləndirmənin modeli hazırlanmış, Bakı, Gəncə, Sumqayıt və Lənkəranın 8 pilot və 12 qeyri-pilot şəhər və kənd məktəbində 1800

nəfər V sinif şagirdi arasında həmin fənlər üzrə milli qiymətləndirmə aparılmışdır;

-«İxtisasartırma institutları üçün kurrikulumun hazırlanması», «Fəal və interaktiv tədristəlim metodları» mövzularında 1200 nəfər ixtisasartırma qurumlarının və TPI-nin əməkdaşları, pilot məktəblərinin müəllimləri üçün məqsədli seminarlar keçirilmişdir;

-keçmiş Təhsil Problemləri üzrə Elmi-Metodik Mərkəzin və Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun bazasında tamamilə yeni struktura malik Təhsil Problemləri İnstitutu, habelə keçmiş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun bazasında pedaqoji təhsili və ixtisasartırmanı özündə birləşdirən Azərbaycan Müəllimlər İnstitutu yaradılmışdır;

-təhsil islahatı sahəsində əldə olunmuş nailiyyətləri və təcrübəni öyrənmək məqsədilə Təhsil Nazirliyinin və pilot müəssisələrinin işçilərindən ibarət müxtəlif nümayəndə heyətləri Türkiyə, ABŞ, İsrail, İtaliya, Hollandiya, İngiltərə, Finlandiya və İsveç ölkələrinə tədris səfərləri etmişlər. Bundan başqa Azərbaycan mütəxəssisləri Təhsil İslahatı Layihəsinin komponentlərini əhatə edən altı mövzu üzrə Təhsil Nazirliyinin xüsusi təqaüdləri ilə İngiltərənin və ABŞ-ın universitet və kollecləründə təhsil almışlar;

-bütün pilot müəssisələrində təmir işləri aparılmış, həmin müəssisələrə ümumilikdə 466 kompüter, 64 printer, 93 televizor, 208 stereomaqnitofon, 91 videomaqnitofon, 184 multimedia və diaskopik proyektor verilmiş, bu təlimin texniki vasitələrindən başqa, onlar 29 surətçıxaran maşın, 27 faks aparatı, 27 videokamera, 6000 dəst şagird masasıoturacaqları, 470 yazı lövhəsi, akt zalı üçün 1900 ədəd kreslo və sair avadanlıqla təchiz olunmuşlar.

Sadalanan tədbirlərdən əlavə, ümumi təhsilin müasir problemlərinə həsr olunmuş xeyli sayda konfranslar, seminarlar, dəyirmi masalar keçirilmişdir. Bunlar əsasən, fəal və interaktiv təlim metodlarının tətbiqi, məktəb kurrikulumu, ixtisasartırma kurrikulumu, şagird nailiyyətlərinin qiymətləndirilməsi, milli qiymətləndirmə, monitorinq, təhsilin keyfiyyəti mövzularını əhatə etmişlər.

Layihə dövründə bütövlükdə Dünya Bankı tərəfindən ayrılmış 5 milyon ABŞ dollarının 97,08 faizi, Azərbaycan Respublikasının 500 min dollar dəyərində payının isə 89,39 faizi xərclənmişdir. Bu Layihə 31 mart

2004-cü ildə müvəffəqiyyətlə başa çatmışdır. Dünya Bankının təyin etdiyi müstəqil beynəlxalq ekspert tərəfindən "İcra tədbirlərinin başa çatdırılmasına dair Hesabat" tərtib olunmuş, hesabatda Layihə qənaətbəxş qiymətləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 8 noyabr 2001-ci il tarixli, 826 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında II Təhsil İslahatı Layihəsinin hazırlanması üçün Yaponiya qrantı üzrə Məktub-Sazişi Azərbaycan Respublikası adından təhsil naziri imzalamışdır.

Heydər Əliyevin tapşırığına əsasən Təhsil Nazirliyi tərəfindən təhsil islahatının 10 illik (2003-2013-cü illər) strategiyası hazırlanmış, prioritet istiqamətlər müəyyənləşdirilmişdir. Proqramın üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdur: I mərhələ 2003-2007-ci illəri, II mərhələ 2007-2010-cu illəri, III mərhələ 2010-2013-cü illəri əhatə etmişdir.

Təhsil Sektorunun İnkişafı Layihəsinin (TSİL) birinci mərhələsi (2003-2007-ci illər). 2003-cü il sentyabrın 19-da Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyası arasında «İnkişaf üçün Kredit haqqında Saziş» imzalanmış və həmin Saziş 2003-cü il dekabrın 18-dən etibarən qüvvəyə minmişdir. Layihə çərçivəsində İsmayıllı, Ucar və Əli Bayramlı pilot rayonları kimi müəyyənləşdirilmişdir.

Kredit Sazişinə əsasən, Təhsil Sektorunun İnkişafı Layihəsinin həyata keçirilməsi üçün Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən 18 milyon ABŞ dolları məbləğində güzəştli Kredit ayrılmışdır. Azərbaycan Hökumətinin Layihədəki iştirak payı 2,8 milyon ABŞ dolları təşkil edəcəkdir. Donor təşkilatı kimi, Açıq Cəmiyyət İnstitutu (Azərbaycan) 200 min ABŞ dolları məbləğində Layihəyə texniki yardım göstərəcəkdir.

TSİL-in aşağıdakı əsas komponentlər üzrə həyata keçirilməsi nəzərdə tutulmuşdur:

Birinci komponent: Ümumi təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu. Bu komponent daxilində kurrikulum islahatı, müəllim hazırlığı, dərsliklər və oxu materialları alt-komponentləri üzrə islahatların aparılması nəzərdə tutulmuşdur.

İkinci komponent: Səmərəlilik və maliyyə islahatları. Bu komponent çərçivəsində maliyyələşdirmə və büdcə islahatları, rasionallaşdırma və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi alt-komponentləri üzrə tədbirlər həyata keçiriləcəkdir.

Üçüncü komponent: Məktəb qrantı proqramı. Bu komponent çərçivəsində ümumi təhsildə bərabər imkanların yaradılması və məktəblərdə innovasiyaların tətbiqinə qrantlar yönəldiləcəkdir.

Dördüncü komponent: İdarəetmə, planlaşdırma və monitorinq. Bu komponent daxilində şagird nailiyyətlərinin qiymətləndirilməsi sistemi, Təhsilin İdarəolunması üzrə Məlumat Sistemi (TİMS), idarəetmə və planlaşdırma imkanları alt-komponentləri üzrə islahatların aparılması nəzərdə tutulmuşdur.

Beşinci komponent: Layihənin əlaqələndirilməsi və monitorinqi. Bu komponent daxilində LƏQ-in fəaliyyətinin təşkili, Layihənin monitorinqi, ictimaiyyətin məlumatlandırılması, müəyyən tədqiqatların aparılması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

İslahatın birinci mərhələsi üzrə artıq bir sıra tədbirlər həyata keçirilmişdir. Təhsil Nazirliyində Kurrikulum Şurası, TPİ-də Kurrikulum Mərkəzi yaradılmışdır. Təhsil sistemində yeni qiymətləndirmə sisteminin qurulması konsepsiyası hazırlanmışdır. Təhsil Nazirliyi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının PİSA 2006 qiymətləndirmə proqramına qoşulmuşdur.

Ümumtəhsil sisteminin inkişafında elmi-pedaqoji tədqiqatların daha səmərəli aparılması məqsədilə TPİ-də Təhsildə Tətbiqi Tədqiqatlar Mərkəzi yaradılmışdır.

Pilot rayonlarında Məktəb Qrantı Proqramı çərçivəsində üç mərhələdə keçiriləcək müsabiqənin artıq birinci mərhələsinin 47 qalibi müəyyənləşdirilmişdir. Həmin məktəblərə ümumilikdə 190 min dollar məbləğində qrantın verilməsinə başlanmışdır.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafı üzrə yaratdığı etibarlı təməl əsasında islahatlar uğurla davam etdirilir.

Heydər Əliyevin təhsilə, elmə, mədəniyyətə, bütövlükdə Azərbaycana xidmətləri əvəzsizdir. Əslində Heydər Əliyevin həyat yolu və fəaliyyəti Azərbaycan dövlətinə və xalqına xidmətdən ibarətdir. Əsrin üçdəbirində Azərbaycan təhsilinin ən yaddaqalan məqamları, dönüş mərhələləri, köklü islahatları bu müdrik insanın, dünya şöhrətli siyasi və dövlət xadiminin adı və parlaq fəaliyyəti ilə bağlı olmuşdur. Çünki bu dövrdə Heydər Əliyev Azərbaycan təhsilinin üstün inkişafı, ölkənin kadr, intellektual potensialının möhkəmləndirilməsi üçün elə möhkəm təməl yaradıb, elə mütərəqqi, ümummil-

li ənənələr formalaşdırıb ki, həmin monolit əsas üzərində milli təhsilimizin parlaq gələcəyi, Heydər Əliyev ideallarının həyata keçirilə-cəyi şübhəsizdir.

Heydər Əliyev tərəfindən yaradılmış etibarlı təməl əsasında Azərbaycan təhsilinin inkişafı, islahatların aparılması işinə rəhbərliyin davam etdirilməsi missiyası xalqın etimadı ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin üzərinə düşmüşdür. Heydər Əliyev idarəçilik və dövlətçilik məktəbini keçən, onun siyasi, iqtisadi və mədəni kursunu davamlı məhmsəyən cənab İlham Əliyev ümumxalq səsverməsi ilə hakimiyyətə gəlişinin ilk günlərindən başlayaraq ölkədə təhsilin inkişafı ilə əlaqədar bir sıra fərman və sərəncamlar imzalamışdır. Xüsusi vurğulanmalıdır ki, cənab İlham Əliyevin fəaliyyətində təhsilin inkişafı və islahatların aparılmasında ayrı-ayrı təhsil sahələri üzrə məqsədli Proqramlara üstünlük verilir.

Dövlət siyasətində təhsilin prioritet təşkil etməsinin nəticəsidir ki, cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» digər sahələrlə yanaşı, birbaşa təhsil sektorunun inkişafına da yönəlmişdir. Yeni məktəb binalarının tikintisi, ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə, kənd məktəblərinin pedaqoji kadrlarla təminatı, şagirdlərin dərsliklərlə pulsuz təmin olunması, tələbə təqaüdlərinin artırılması, məktəbəqədər təhsil sisteminin təkmilləşdirilməsi, təhsilin keyfiyyətinin artırılması, əhalinin bütün təbəqələri üçün təhsilalma imkanlarının bərabərləşdirilməsi kimi xüsusi əhəmiyyət kəsb edən məsələlərin Proqramda öz əksini tapması, qeyd edilən sahələr üzrə Təhsil Nazirliyi tərəfindən məqsədli İnkişaf Proqramlarının hazırlanması üçün əsas olmuşdur.

«Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)» hazırlanmış və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 21 avqust 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Bu, Azərbaycanın təhsil tarixində həm maliyyə tutumuna, həm də əhatə dairəsinə görə misilsiz bir addımdır. Proqramın həyata keçirilməsi nəticəsində 3 ildə ölkənin 4500-dən çox məktəbinin ən müasir kompüterlərlə təmin edilməsi, hər 33 şagirdə 1 kompüter nisbətinin gerçəkləşməsi, müvafiq sahədə pedaqoji kadr hazırlığı və proqram təminatının həyata keçirilməsi, 10 min yeni iş yerinin açılması reallaşacaqdır.

Ölkə prezidenti cənab İlham Əliyevin «Azərbaycan Respublikasında «Bilik günü»nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında» 21 avqust 2004-cü il tarixli Fərmanı təhsil sistemində əsaslı islahatların aparılmasına təkan verdi. Həmin Fərmana müvafiq olaraq cari dərs ilindən ümumtəhsil məktəblərinin I-IV siniflərində beşgünlük iş həftəsi tətbiq olunmuşdur. Növbəti dərs ilindən isə bir növbədə fəaliyyət göstərən ümumtəhsil məktəblərinin, eləcə də iki və üç növbəli ümumtəhsil məktəblərinin V siniflərinin beşgünlük tədris həftəsinə keçməsi barədə təklif ölkə rəhbərliyinə təqdim edilmişdir. Bu iş mərhələlərlə davam etdiriləcəkdir.

«2005-2009-cu illər üçün Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı» hazırlanmış və Nazirlər Kabinetinin 4 noyabr 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmişdir. Proqramın reallaşdırılması nəticəsində 5 ildə ümumtəhsil məktəbləri pedaqoji kadrlarla tam təmin ediləcək, keyfiyyət göstəriciləri yüksələcək, «müəllim-şagird» nisbəti tənzimlənəcək, qeyri-ixtisaslı kadr korpusu xüsusi təlimə cəlb edilməklə yenidən hazırlanacaq, müvafiq proqramlar çərçivəsində əvvəlcədən müəyyənləşdirilmiş kontingentin ixtisası artırılacaq. 15 min nəfərə yaxın pedaqoji ixtisaslı vətəndaş konkret iş yerləri ilə təmin ediləcək, yerlərdə gənc mütəxəssislər üçün müvafiq iş şəraiti yaradılacaq, onların sosial-məişət problemləri həll olunacaq.

«Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar İnkişaf Proqramı (2005-2009-cu illər)» hazırlanmış və Nazirlər Kabinetinin 03.02.2005-ci il tarixli, 20 nömrəli qərarı ilə təsdiq olunmuşdur. Proqrama müvafiq olaraq 5 il ərzində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazası əsaslı şəkildə təkmilləşdiriləcək, müvafiq sahədə təhsilin məzmunu yeniləşdiriləcək, Azərbaycanda ilk dəfə olaraq inkluziv təhsil üzrə pilot layihələri həyata keçiriləcəkdir.

«Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqla təmin olunmasına dair İnkişaf Proqramı (2005-2009-cu illər)» hazırlanmış və Nazirlər Kabinetində təsdiq mərhələsindədir.

Məktəbəqədər təhsil müəssisələrinin maddi-tədris bazasının möhkəmləndirilməsi, zəruri avadanlıq və təlim vasitələri ilə təchiz edilməsi, ərzaqla təminatı, məktəbəqədər tərbiyə ilə əhatə səviyyəsinin yüksəldilməsi məqsədilə «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin təkmil-

ləşdirilməsi üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)» hazırlanır. Asiya İnkişaf Bankı və Azərbaycan Hökuməti arasında 9 noyabr 2004-cü ildə imzalanmış Sazişə əsasən cari il fevralın 14-dən başlanmış və 10 pilot rayonu əhatə etmiş Texniki Yardım Layihəsi və hazırlanacaq Kredit Layihəsi də Proqramın tərkibinə daxil ediləcəkdir.

Azərbaycan Respublikasında məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi, ümumtəhsil məktəblərinin istilikla təminatı, təhsil sistemində şagird nailiyyətlərinin qiymətləndirilməsinin yeni modelinin yaradılması, xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı ilə bağlı inkişaf proqramları hazırlanma mərhələsindədir.

Son dərəcə qısa bir zamanda aspirantların, tələbələrin təqaüdlərinin artırılması, alimlik dərəcələrinə görə vəzifə maaşlarına əlavələrin verilməsi barədə ardıcıl imzalanmış sərəncamlar, «Təhsil haqqında» Qanunun yekunlaşdırılması ilə əlaqədar verilmiş konkret tapşırıq və bu kimi digər əhəmiyyətli addımlar ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin təhsil sistemini prioritet sahə kimi daim diqqət mərkəzində saxlamasına bariz nümunədir. Təbii ki, təhsil işçiləri də dövlət başçımızın bu qayğısına öz nailiyyətləri ilə cavab verməli, göstərilən etimadı şərəflə doğrultmalıdır.

Bütün bunlar bir daha əmin olmağa və gələcəyə nikbinliklə baxmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi strateji kursla inkişaf edəcək, təhsil islahatlarının memarı və qurucusu olan ulu öndərimiz Heydər Əliyevin müdrik tövsiyələri bu yolda bizim üçün daim sönməz məşəl olacaqdır.

GÜLÇÖHRƏ MƏMMƏDOVA
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

NƏRİMAN ƏLİYEV
Əməkdar memar, professor

Memarlıq xalqın maddi və mənəvi dəyərlərinin təzahür formasıdır

Heydər ƏLİYEV

XX ƏSR AZƏRBAYCAN MEMARLIĞI İNTİBAHININ MÜƏLLİFİ

Bəllidir ki, bütün zamanlarda memarlığın çiçəklənməsi, «memarlıq inciləri»nin yaranması xalqın sosial-iqtisadi səviyyəsinin yüksək olması və dövlətin rəhbərlərinin memarlığın inkişafına göstərdiyi qayğıdan asılı olmuşdur.

Bu mənada hesab edirik ki, Respublika şəhərlərinin və paytaxtı Bakının bizə yaxın olan XX əsr memarlığına diqqət yetirmək yerinə düşərdi. Çünki Bakının çoxəsrlik tarixində XX əsrə bərabər sürətli inkişaf dövrü olmamışdır. Şəhər məhz bu dövrdə tarixi (orta əsrlər) ərazi ölçülərini min dəfədən çox aşıb keçmişdir. Məhz XX əsrdə, şəhərin uzun inkişaf tarixi ilə müqayisədə çox qısa görünən müddətdə, onun memarlığında və şəhər salnaməsində konseptual əsasları tez-tez dəyişmişdi. Məhz XX əsrdə o, Azərbaycanın paytaxtına çevrilmişdir. Məhz XX əsrdə, yaxın şərqdə ilk opera-balet və dram teatrları, elektrik dəmir yolu salınmış, Bakı öz nefti və zəhmətkeş xalqı ilə ikinci dünya müharibəsində həlledici rol oynamışdır. Uzun inkişaf tarixi boyu olduğu kimi, Azərbaycanda XX əsr inkişafı da hamar deyil, enişli-yoxuşlu olmuşdu.

Rusiyaya axan milyard tonlarla neftin əvəzi kimi ikinci dünya müharibəsinə qədər Bakıda tikintidə avanqardizm, konstruktivizm, formalizmlə həmsərhəd olan memarlıq dirçəlişi hiss olunur. Bu dirçəlişə və ikinci dünya müharibəsindəki qələbəyə həlledici köməyə baxmayaraq, Bakının

əhalisi üçün mənzil tikintisinə pul ayrılmır. İnşaatda tənəzzül yaranır. Məlum olur ki, tikintiyə pul qoyuluşunun azaldılması ilə paralel arxaik inşaat metodları ilə şəhər əhalisinin ehtiyacı heç vaxt ödənilə bilməyəcəkdir.

50-ci illərin keçmiş SSRİ-nin baş katibi N.Xruşşov Bakıya gəlib şəraiti göründən sonra tikintidə industrial yola keçməyə icazə verilir. Təəssüflər olsun ki, belə bir halda yaşayış mənzillərinə olan ehtiyacın ödənilməyinə ümid artsa da, memarlığın bədii-estetik keyfiyyəti dözülməz dərəcədə aşağı düşür. Yüzlərlə ailə estetik siması arzu olunandan çox-çox aşağı olan eyni tipli yaşayış binalarına (mənzillərinə) köçürülür.

Bütün şəhərlərdə eyni tipli binalar tikildiyindən, şəhərlər də bir-birinə bənzəməyə başlayır. Xoşbəxtlikdən bayağı, simasız yaşayış binalarının demək olar ki, hamısı şəhərin uçqar zonalarda tikilirdi.

1969-cu ildən respublikanın rəhbərliyinə cənab Heydər Əliyevin gəlişi ilə Azərbaycan memarlarının yaradıcılıq fəaliyyətində ciddi dönüş hiss olunur. Belə ki, memarlarımız mövcud layihələndirmə və tikinti normalarının ixtiyarsız icraçısı düşüncəsindən azad olurlar. Artıq respublika çərçivəsində memarlara fərdi yaradıcılıq üçün şərait yaradılırdı. Onu da qeyd edək ki, o vaxt təcrübədə ümumittifaq və respublika çərçivəsində olan layihələndirmə və tikinti normaları hələ də ləğv edilməmişdi.

Odur ki, bu illərdə memarlıq cəhətdən diqqətə layiq əsərlər yaratmaq üçün müəlliflərdən təşəbbüs, memarların fəaliyyətinə sərbəstlik yaratmaqla məsuliyyəti öz üzərinə götürən şəxsiyyət lazım idi. Çünki çox maddi məsrəf tələb edən əsərləri yaratmaq Azərbaycan dövləti səviyyəsində böyük risqlə qarşılaşan güzəştlər tələb edilirdi.

Buna baxmayaraq 70-ci illərdə yeni layihələr əsasında fərdi memarlıq simaları olan binalar tikilməyə başlanır. Aydındır ki, bu işlər o dövrlərdə şəxsi və dövlətçilik məsuliyyəti səviyyəsində aparılırdı. Tarixi ədalət naminə demək lazımdır ki, Azərbaycan memarlığında intibah başlanırdı.

Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Əli-Bayramlı, Mingəçevir və başqa şəhərlərdə mənzil tikintisi geniş miqyas almışdı. Respublika rəhbərliyi və şəxsən Heydər Əliyev respublikanın memarlar və inşaatçıları qarşısında çox möhtəşəm planlar qoymuşdu – mənzilə ehtiyacı olanların hamısı 2000-ci ilədək müasir və abad mənzillərlə təmin edilməli idi. 1982-ci ildə respublikada mənzil fondunun ümumi sahəsi təqribən 64 milyon kv. metrə çatdırıldı. 70-ci illərdə beş mikrorayona daha dördü əlavə edildi.

Yaşayış binalarının və ictimai binaların nomenklaturasının genişlənməsi mikrorayonların memarlıq obrazını müasirləşdirməyə imkan verdi. Geniş və yaşıl həyətli doqquzmərtəbəli binaların yerləşdiyi yığcam yaşayış massivləri salındı.

Şəhərin ən iri yaşayış rayonlarından biri Bakının şərqində salındı. 400 min nəfərin məskunlaşması üçün nəzərdə tutulan bu massivdə aparılan intensiv tikinti işləri qısa müddətdə abad və müasir yaşayış rayonu yaratmağa imkan verdi və minlərlə bakılı pulsuz mənzillər aldı. Mənzil tikintisinin geniş miqyas alması şəhər ərazisinin abadlaşdırılması, uşaq müəssisələri şəbəkəsinin, xəstəxanaların, poliklinika və kinoteatrların tikintisi ilə müşayiət olunurdu.

Azərbaycanın digər şəhərlərində də boş ərazilərdə iri miqyaslı və siyasi eyhamı olan tikinti aparılırdı. Kirovabadda «Yeni Gəncə», Naxçıvandakı «Yeni Naxçıvan», Sumqayıtda «Xəzərdə Komsomolsk» mikrorayonları və başqaları memarlıq və kompozisiya həllinə görə şəhərsalmada yeni «sözlər» idilər. Bu dövrdə ictimai-inzibati, sənaye-ticarət və məişət bina və komplekslərinin də tikintisi geniş vüsət almışdı.

Memarlığımızın qızıl fonduna daxil olmuş bina və komplekslər sırasında: Prezidentin Rezidensiyasını, Prezident Aparatını, Milli Təhlükəsizlik Nazirliyinin binalarını, şəhərin mərkəzi – «Azadlıq» meydanındakı kompleksi, «Gülüstan» sarayını, «Respublika» sarayını, Bakı kondisioner zavodunu, Dərin özüllər zavodunu, 316 metrlik televiziya antenası qülləsini, «Ulduz» rəqəmli sistem aparatlarının buraxılışı zavodunu, «Elektroterm» zavodunu, ildə 5 milyon cüt ayaqqabı istehsal etmək imkanı olan ayaqqabı fabrikini, Neft daşlarında ictimai və yaşayış binaları kompleksini, Tbilisi prospektinə çıxan idman sarayı kompleksini, «Şərq bazarı» kompleksini və başqalarını göstərmək olar. Əlbəttə, siyahını asanlıqla davam etdirmək olardı. Lakin düşünürük ki, bu dövrdə baş verən iri miqyaslı dönüşü qavramaq üçün bunlar da bəsdir. Bir də məqsəd onları sadalamaq deyildir. Məqsəd diqqəti ona cəlb etməkdir ki, bütün bu möhtəşəm binalar asanlıqla və yaxud öz-özünə yaranmayıbdır. Rublun gücünün ABŞ dollarından çox olduğu bir dövrdə həmin binaların hər biri bir neçə milyonlarla manata başa gəlirdi. Özü də bu tikilən binalar və komplekslər təkcə respublikanın hesabına deyil, həm də ümumittifaq büdcəsi, yaxud nazirliklərin hesabına da yaradılırdı.

Əlbəttə ki, respublika və ümumittifaq əhəmiyyətli bu nəhəng pul qoyuluşunun təşkilatçısı olmalı idi. Layihəçilər yaxşı bilirdilər ki, o vaxtlar obyektlər SOVİKP Mərkəzi Komitəsinin göstərişi ilə planlaşdırılır və təsdiq edilirdi. Özü də bütün hallarda bu nəhəng işlər və obyektlər cənab Heydər Əliyevin təşəbbüsü və ağır zəhməti sayəsində Azərbaycana gətirilir, onun irad və tövsiyələri nəzərə alındıqdan sonra layihələrə həyat vəsiqəsi verilirdi.

Bütün hallarda da layihəçilərə, Azərbaycanın yeni dövlət quruculuğunun memarı Ümummilli liderimiz cənab Heydər Əliyev cənablarının tövsiyələrindən çox faydalandıqlarını təsdiq edirdilər. Əlbəttə, bir məqalə çərçivəsində 70-80-ci illərdə yaradılmış bütün əsərlərdən danışmaq mümkün olmadığından, biz belə layihələrdən və tikililərdən ən kiçik siyahı – Prezident Aparatının binası, «Gülüstan» sarayı, Bakı kondisionerlər zavodu, Dövlət Təhlükəsizliyi Nazirliyinin binası, Dərin özüllər və «Ulduz» zavodları, Respublika İdman sarayı kompleksi haqqında bildiklərimizi söyləməyi vacib sayırıq.

Əvvəla, ilk növbədə onu qeyd etmək lazımdır ki, bütün layihəçi memarların təsdiqinə görə, cənab Heydər Əliyevin memarlara etdiyi irad və təklifləri yüksək dərəcədə professional biliklər səviyyəsində olurdu. «Gülüstan» sarayının arxitektorları – Azərbaycan Respublikasının əməkdar memarları N.Hacıbəyov və H.Əmirxanov təsdiq edirdilər ki, cənab H.Əliyev Gülüstan sarayının yerini, həcm-məkan və planlaşdırma kompozisiyasını müəyyən etdikdən sonra məlum oldu ki, seçilmiş yerdə binanın bünövrəsinin bir hissəsi qayalığın, bir hissəsi isə torpağın üstünə düşür. Cənab H. Əliyev binanın yerini dəyişdirilərək tam qayanın üstündə oturdulmasını tövsiyə etdi. Bundan başqa, sarayın həcmi kompozisiyasında olan nisbətən xırda çıxıntılı həcmlərin ləğv edilməsinə, binanın həcminin bütöv olmasına göstəriş verdi. Eyni zamanda, min nəfərlik böyük zalın, kiçik zalların və konfrans zalının yaradılması üçün də göstərişlər verdi. Binanın bədii-memarlıq həllinə gəldikdə isə hökmən milli səpkidə olmasını tövsiyə etdi.

Respublikanın ən böyük örtülü idman sarayı olan Respublika İdman sarayının tikintisində respublikanın əməkdar memarı Yusif Qədimovun şəhadətinə görə texnoloji quruluşdan tutmuş daxili məzmun tərkibinə qədər Heydər Əliyev cənablarının göstərişləri əsas götürülmüşdür.

Respublikada sənayenin inkşafı da H. Əliyevin əsas qayğılarından biri idi. Sənaye istehsalının artırılması üçün müasir texnologiya, ən yeni texniki avadanlıqlar və yüksək səviyyəli təmizləyici sistemlərlə təchiz edilmiş yeni sənaye qurğularının tikilməsi tələb olunurdu. Bu cür sənaye qurğularının çoxu Bakıda ucaldılırdı. «Azərbaycan» nəşriyyatının qəzet korpusunu, Bakı ayaqqabı fabrikini, Bakı məişət kondisionerləri zavodunu, Şampan şərabı zavodunu, Mərkəzi şəhər Telefon stansiyasının binasını və başqalarını bu cür obyektlərə aid etmək olar.

Bakı Məişət Kondinsionerləri Zavodu (memarlar Y.Tişşenko, E.Aslanov, K.Kapinus, Ş.Seyidzadə, S.Kuznetsov) arxitektura baxımından ən maraqlı sənaye müəssisələrindən biridir. Heydər Əliyev bu zavodun inşasına xüsusi diqqət yetirir, tikintinin gedişi ilə müntəzəm məşqul olurdu. 1975-ci ilin dekabr ayında zavod istifadəyə verildi. 1982-ci ildə Əliyev çox məsuliyyətli bir vəzifə – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və Moskvaya getdi. Lakin respublikada aparılan şəhərsalma və abadlaşdırma işləri, mənzil sahələrinin və ictimai binaların tikilməsi yenə də daim onun diqqət və qayğı mərkəzində olaraq qalırdı. Respublikanın şəhərlərində tikintisi yarımçıq qalmış obyektlərin inşası başa çatdırılır, yeni obyektlərin tikintisi başlanırdı. Məsələn, Şərq bazarının (1983), İdman sarayının (1984), metronun «Elmlər Akademiyası», «İnşaatçılar» və «Memar Əcəmi» (1986) stansiyalarının inşası, eləcə də Sumqayıtda kimyaçıların mədəniyyət sarayının (1985), Naxçıvanda Xoreoqrafiya və uşaqların bədii tərbiyəsi məktəbinin binasının (1984) və başqa obyektlərin tikintisi başa çatdırıldı.

«Ulduz» zavoduna gəldikdə isə cənab Heydər Əliyev əsas binanın baş fasadına çıxan tağların formasını və şəklini belə şəxsən öz əli ilə çəkmişdir. Onun sayəsindədir ki, biz indi Xətai prospektini bəzəyən binalardan birinin Azərbaycan milli memarlığına xas olan romantika ilə sərhədləşən möhtəşəm memarlığının şahidi oluruq.

Bu memarlıq əsərlərinin hər birinin yaranma xüsusiyyəti və tarixindən çox danışmaq olar. Bircə onu qeyd etməklə kifayətlənək ki, 70–80-ci illərin möhtəşəm binaları hökmən cənab H.Əliyevin tənqidi nəzərləri və tövsiyələri süzgəcindən keçəndən sonra həyata vəsiqə almışdı. Və bunun məntiqi nəticəsi kimi, 70–80-ci illərdə Azərbaycan memarlığı intibah dövrünü yaşamış və bu intibahın böyük memarı cənab Heydər

Əliyevin rəhbərliyi altında möhtəşəm binalar və komplekslər yaradılmışdır.

Təəssüf ki, sonrakı illər Azərbaycan Respublikasının başına gələn bəlalar bu irimiqyaslı inkişaf prosesini dayandırdı. Müstəqilliyimiz və respublikamızın suverenliyi xalqımıza çox ağır başa gəldi. Azərbaycanın zəbt edilmiş şəhər və kəndlərində memarlıq abidələrinin, yaşayış və ictimai binaların görünməmiş vəhşiliklə dağıdılmasına, minlərlə dinc əhalinin məhvinə və milyondan artıq insanın öz ev-eşiyindən didərgin düşərək qaçqın olmasına gətirib çıxaran M.Qorbaçov və erməni təcavüzü başlandı.

Heydər Əliyev cənabları bu dəfə də Azərbaycan xalqının məhvi üçün düşünülmüş bu plandan da optimal çıxış yolu tapdı – ələşkəs müqaviləsi bağladı –dünyəvi ölkələrin marağına səbəb olan Bakı–Ceyhan Neft kəməri müqaviləsini bağladı – Ermənistanın Azərbaycan torpaqlarını zəbt elədiyini dünya ölkələrinə və xalqlarına bəyan etmək prosesi başlandı.

Bununla yanaşı Heydər Əliyev cənabları Şərq ölkələrinin də Azərbaycana marağını artırmaq üçün «Böyük ipək yolu» problemini də qaldırdı. Bütün bunlarla yanaşı xalqın rifahının yaxşılaşdırılması, dinc quruculuq işlərinə, memarlığımızın və şəhərlərin inkişafına olan qayğını unutmadı.

Azərbaycan xalqının müstəqilliyi naminə öz üzərinə götürdüyü nəhəng problemlərin ağırdığına baxmayaraq, cənab prezident yenə də Azərbaycan mədəniyyətinə, o cümlədən memarlığın inkişafına da diqqət yetirməyə vaxt tapırdı. Bakıda Beynəlxalq hava limanını, Sənqəçal neft terminalını, ictimai, yaşayış binaları, İçəri şəhərin bərpası və mühafizəsi problemləri, memarlıq fəaliyyəti, tarix və mədəniyyət abidələrinin bərpası, şəhərsalma qanunlarının işlənib hazırlanması (1998-ci il), Filarmoniyanın bərpası (2003-cü il) və başqa işləri göstərmək olar. Bakıda keçirilən memarlıq müsabiqəsi nəticəsində Naxçıvanda dahi Azərbaycan şairi, dramaturqu və filosofu Hüseyn Cavid Əfəndinin türbəsi ucaldılmış, Bakının rayonlarında yeni parklar salınmış, Bakıda 20 Yanvar və Qarabağ şəhidlərinə 1918-ci il mart qırğını şəhidlərinə, Nuru paşanın qoşununun qurban getmiş igidlərinə abidələr ucaldılması (1998-ci il), paytaxtın dənizkənarı parkının yenidən qurulması, abadlaşdırılması, mühafizəsi və Soltan-Zıx yarımadasına kimi inkişaf etdirilməsi problemi gündəmə gəlir.

Son illərdə Azərbaycanda gedən inşaat, quruculuq işləri ölkəmizin iqtisadiyyatının və mədəniyyətinin inkişafının nəticəsidir. Bakı şəhərinin simasının dəyişməsi, onlarla yeni, gözəl binaların tikilməsi və bu proseslərin artıq respublikanın başqa şəhərlərində başlanması da hamını sevindirir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin son illərdə imzaladığı fərman və sərəncamlarda respublikamızın bir sıra taleyüklü problemləri açılıb göstərilmişdir. Zəngin maddi–mədəniyyət abidələrimizə qayğı ilə yanaşan Heydər Əliyevin «Bakı şəhərində İçərişəhər tarix-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında» sərəncamı bu baxımdan daha əhəmiyyətlidir. Tarixi-mədəni irsimizə bu diqqət və qayğısı hamımız üçün nümunə olmalı və bütün ictimaiyyətin diqqətini dağılan memarlıq və tarixi abidələrimizə cəlb etməlidir.

Otuz üç il tarixdə elə bir böyük zaman deyil. Amma müdrik və aqil o insandır ki, tarix üçün o qədər də böyük olmayan 34 il müddətində bəşəriyyətə bütöv bir əsrin verə biləcəyi zəngin mədəni irs, sərvət bəxş edirlər. Bu mədəni milli dövlət quruculuğumuzun böyük memarı Heydər Əliyev irsi hər bir azərbaycanlının həyat dərsliyidir. Bu dərslikdən isə hər birimizin öyrənəcəyi çox şeylər var.

MAHMUD KƏRİMOV
Azərbaycan Milli Elmlər Akademiyasının
prezidenti, akademik

ELMİMİZİN BÖYÜK HAMİSİ

Bu gün Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq, tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir. Çünki Heydər Əliyev şəxsiyyəti fərdi-subyektiv ölçülərə, bütövlükdə tarixə, zamana sığmır. Özünün böyük həyatı ilə zamanın çərçivəsinə sığmayan bir insan sözə heç vaxt sığa bilməz. Çünki bu tarixi şəxsiyyətin fəaliyyətinin hər səhifəsi, hər mərhələsi son əlli illik Azərbaycan tarixinin mərhələləri ilə üst-üstə düşür, bəzən hətta indi arxada qalmış o tarixin bütövlükdə dərkini şərtləndirir.

Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası Azərbaycanın yeni tarixində məhz Heydər Əliyevin adı, şəxsiyyəti ilə bağlı idi. Keçən əsrin 70-ci illərində Azərbaycan cəmiyyətində baş verən tarixi kataklizmlər, ictimai-siyasi dəyişikliklər, ictimai şüurda yaranmış müstəqillik ideyası yalnız milli mədəniyyətin, milli özünüdərkin yüksək sosial təzahürü kimi deyil, Azərbaycanın bundan sonrakı mövcudluğunun, varlığının əsas şərti kimi də tarix səhnəsinə çıxdı. 70-ci illərdə milli iradənin sovet siyasi arenasında meydana çıxması fiziki və mənəvi terrora məruz qalan Azərbaycan milli təfəkküründü qoruyub saxlaya bildi. Cənab Heydər Əliyevin sovet siyasi arenasında rəhbərliyə gəlməsi bütün maneələri dəf edərək müstəqil düşüncəyə yol açdı. Onun həyat və fəaliyyəti tarix üçün bir örnək, nəsillər üçün bir nümunədir. Heydər Əliyev nəsillərin minillik arzusunu tarixi reallığa çevirdi. Azərbaycan xalqına böyük zəhməti hesabına ərsəyə gətirdiyi ən böyük əsərini – müstəqil, demokratik Azərbaycanı qoyub getdi. O, Azərbaycanı öz şəxsi nüfuzu və əməli fəaliyyəti ilə dünyada tanıtdırdı. Heydər Əliyev Azərbaycanı Avropa ölkələri ailəsinin tamhüquqlu üzvü etdi, ona Qafqaz regionun iqtisadi, hərbi təsir gücünə malik ən nüfuzlu dövləti statusunu qazandırdı.

O, təkcə öz ömrünün, bir insan həyatının müdriklik zirvəsində deyildi, həm də bütöv bir xalqın tarixinin yüksək zirvəsində idi. Bu zirvədən ba-

xanda yalnız bir ömrün yaşandığı illər deyil, bir xalqın dünəni, bu günü, sabahı görünürdü.

Müstəqil Azərbaycan dövlətinin hər bir atributu Heydər Əliyevin adıyla, onun yorulmaz fəaliyyəti ilə bağlı idi. O, çiyinlərində bütöv bir xalqın varlığını, bütün bəşəri keyfiyyətlərini, dövlətçilik missiyasını daşıyan böyük lider kimi millətin xarakterini, milli iradəni atdığı hər bir addımında əks etdirirdi. O, Azərbaycanın, eləcə də dünyanın siyasət arenasına yeni siyasi mədəniyyət gətirdi.

Heydər Əliyev həm də böyük bir elm adamı idi. Onun müdrik siyasətinin dərinliyi məhz elmi prinsiplər üzərində qurulması, intellektual potensiala arxalanmasında idi. Azərbaycan elminə respublikada rəhbərlikdə olduğu bütün dövrlərdə göstərdiyi qayğı və dəstək elə buradan qaynaqlanırdı. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanırdı. O, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, intellektdə görürdü. Bu dahi insan elmimizin, mədəniyyətimizin, ədəbiyyatımızın gözəl bilicisi və araşdırıcısı idi. O, həm də polad iradəsi, dəmir məntiqi və dərin mənalı nitqi ilə istənilən auditoriyanı sükuta qərq edən gözəl natiq idi. Bütün bunların fövqündə Heydər Əliyev təkrarsız bir insan, onun keçdiyi yol zəngin bir həyat ensiklopediyası idi. Hələ bundan sonra neçə nəsil bu zəngin ensiklopediyanı sətir-sətir öyrənəcək özünə bir əqidə yolu seçəcək.

Heydər Əliyev Elmlər Akademiyasının, bütövlükdə Azərbaycan elminin böyük hamisi idi. O, elmə, alimə həmişə yüksək qiymət verirdi. Akademiyanın əlli ilinin yarısından çoxu onun həyatı, rəhbərliyi ilə bağlı idi.

Azərbaycan xalqının milli fikir və mədəniyyətinin çoxəsrlik inkişaf yollarında mühüm dönüş nöqtəsi olan, 60 ilə yaxın bir müddətdə şərəfli yol keçmiş, respublikada fundamental elmin beşiyi olan Milli Elmlər Akademiyasının da intibahı keçən əsrin 70-ci illərinə təsadüf edir. Məhz bu illərdə Azərbaycan elmi, təhsili və mədəniyyəti dünya elminə birbaşa inteqrasiya olunmaq imkanı qazandı, cəmiyyət həyatına, onun tərəqqisinə xidmət edən fundamental kəşflərini etdi. 70-ci illərdə akademiya onun böyük təşkilatçılıq istedadı nəticəsində dünyada şöhrət qazandı, özünün kadr potensialını, texniki arsenalını yaratdı. İndi hamı belə bir tarixi gerçəkliyi təsdiq edir ki, Heydər Əliyev rəhbər vəzifədə olmadığı illərdə akademiyanın məhv olmaq təhlükəsi var idi.

Ölkədə başlanan ictimai xaos, iqtisadi böhran ən ağır zərbəsini Azərbaycan intellektinə endirmişdi. Möhtərəm Heydər Əliyev hakimiyyət başına gəldikdən sonra müntəzəm olaraq qayğı göstərdiyi Azərbaycanın ulu elm məbədgahı - Elmlər Akademiyası yenidən dirçəliş yoluna qədəm qoydu.

Möhtərəm Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafında elmi potensialdan ən səmərəli şəkildə istifadə edilməsinə dair göstərişlərini əldə rəhbər tutaraq, 70-ci illərin əvvəllərindən etibarən, elmi tədqiqatların mövzularının dəqiqləşdirilməsi, təkmilləşdirilməsi üzrə böyük işlər aparılmışdı. Xalq təsərrüfatının inkişafı və elmin özünün inkişaf məntiqinə müvafiq olaraq, Elmlər Akademiyası idarə və təşkilatlarının fəaliyyətinin aparıcı istiqamətləri müəyyən edilmişdi. Belə ki, respublika alimlərinin diqqəti elmi fəaliyyətin xalq təsərrüfatında səmərə verə biləcək istiqamətlərə yönəldilmişdi. Bununla yanaşı, yaxın illərdə respublikanın iqtisadi və sosial inkişaf məsələlərinin uğurlu həlli üçün gələcək texnika və texnologiyanın yaradılmasına yönəldilmiş tədqiqatların dairəsinin genişləndirilməsi nəzərdə tutulmuşdu. Texnika və texnologiyada inqilabi dəyişikliklərin mənbəyi olan fundamental tədqiqatlara ilk növbədə diqqət yetirilmişdi.

Elmi qüvvələr və maddi ehtiyatlar, əsasən, məqsədli proqramların yerinə yetirilməsinə yönəldilmiş, respublikada sənaye və kənd təsərrüfatı istehsalının intensifikasiya tələbatına cavab verən elmi-texniki tərəqqi istiqamətlərinin inkişafı sürətləndirilmişdi.

Azərbaycan sənayesinin sahə, ərazi quruluşunda yaranmış uyğunsuzluqları həll etmək məqsədilə Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə 70-ci illərin əvvəllərində sənayenin inkişafı, onun strukturunun təkmilləşdirilməsi üçün çox ciddi, nəticəsi böyük olan proqram hazırlanmışdı. Azərbaycanın imkanlarından səmərəli istifadə edilməsi ilə bağlı İttifaq hökuməti ilə prinsipial danışıqlar aparan respublika rəhbəri hazırlanan iqtisadi inkişaf proqramının həyata keçirilməsinə nail olmuşdu.

Sənayedə mütərəqqi struktur dəyişiklikləri nəticəsində yeni maşınqayırma, elektronika, yüngül, yeyinti və çoxsaylı emal müəssisələri istifadəyə verildi, on minlərlə iş yerləri yaradıldı, əmək potensialından səmərəli istifadə edilməsi strateji xətt kimi müəyyən edildi, əmək məhsuldarlığı və digər səmərəlilik göstəricilərinin dinamik artımı Azərbaycan iqtisadiyyatının çox güclü inkişaf faktoruna çevrildi.

Bizim elmimizin, xüsusilə fizika, riyaziyyat, informatika və texnika elmlərinin perspektivini planlaşdırdıqda ümummilli liderimiz Heydər Əliyevin məsləhət bildiyi strategiya, yəni sənayemizin intellektual təminatının perspektivi əsas götürülmüşdü. Nəticədə, 70-ci illərdə Azərbaycanda riyaziyyat elmi sürətlə inkişaf etmiş və dünyada tanınan elmi məktəb kimi formalaşmışdı.

Cənab Heydər Əliyevin 70-ci illərdə Azərbaycan EA-nın Fizika İnstitutuna gəlməsi fizikanın perspektiv istiqamətlərində elmi-tədqiqat işlərinin aparılmasına güclü təkan vermişdi. O, Fizika İnstitutunda elmi və təşkilati işlərlə hərtərəfli tanış olmuş, elmi kadrların hazırlanmasına xüsusi fikir vermiş və əməkdaşların sosial-məişət məsələlərinə diqqəti artırmağı tapşırmışdı. Onun göstərişi ilə institutun maddi-texniki bazası daha da gücləndirilmiş, yeni optik və elektron qurğularının alınması üçün əlavə vəsait ayrılmışdı.

Respublikada xüsusilə elektrotexnikanın intensiv inkişafı, mikroelektronika, optoelektronika, cihazqayırma və sənayenin digər sahələrinin yüksəlişi məhz yarımkeçiricilər fizikası sahəsindəki fundamental tədqiqatlar nəticəsində mümkün olmuşdu.

1972-ci ildə möhtərəm Heydər Əliyevin SSRİ EA-nın prezidenti, akademik M.Keldışla görüşü Azərbaycan Elmlər Akademiyasının inkişafına, onun elmi potensialının formalaşmasına böyük təsir göstərmişdi. Dzerjinski adına (indiki Şəhriyar adına) klubda təşkil olunmuş görüşdə möhtərəm Heydər Əliyev M.Keldışın fəaliyyətini professional səviyyədə əsaslandırdı, alimin elmi yaradıcılığını yüksək qiymətləndirdi. Bundan sonra Keldışın nəinki Kibernetika İnstitutuna, ümumilikdə bizim akademiyaya olan münasibəti kökündən dəyişdi. Bunun nəticəsində o, respublikaya saysız-hesabsız, o zaman çətin tapılan avadanlıqlar ayırmaqla elmimizin təşkili üçün yüksək səviyyəli texniki baza yaratmağa kömək etdi. Bunların içərisində yalnız hərbçilərə verilən super hesablayıcı maşın sayılan BESM-6 tipli kompleksin verilməsi məsələsi də həll edildi. Bu da respublikada müxtəlif iqtisadi və elmi əhəmiyyətli problemlərin həll edilməsi üçün çox əlverişli şərait yaratdı. Sonrakı dövrlərdə də hər il ölkə büdcəsindən akademiyaya lazımi vəsait ayrılır, ən müasir informasiya vasitələrinin alınması təmin olunurdu. Bütün bunların nəticəsində akademiyada elmin bütün sahələrində həm fundamental, həm də tətbiqi xarakterli, yüksək səviyyə-

li işlər aparmaq imkanı xeyli artdı. Bununla yanaşı, müxtəlif nazirliklərdə və birliklərdə 120-dən artıq informasiya - hesablama mərkəzi, informatika elm-istehsalat birliyi və başqa informasiyalaşdırma ilə məşğul olan müəssisələr yaradıldı.

Həmin dövrdə bir sıra yeni elektromaşınqayırma müəssisələri də tikilib istifadəyə verilmiş və iri istehsalat birlikləri yaradılmışdı. Bunlara misal olaraq, Bakı Elektrik Maşınqayırma Zavodunun "Azərelektromaş" İstehsalat Birliyini, Yüksək Cərəyanlı Elektrik Avadanlığı Zavodunu, "Azərelektroterm" İstehsalat Birliyini, "Elektrosentrolit", Bakı "Elektroavtomat" zavodlarını, Bakı Məişət Elektrik Cihazları İstehsalat Birliyini, Bakı İxtisaslaşdırılmış Yük Avtomobilləri Zavodunu, Bakı Məişət Kondisionerləri Zavodunu, Bakı Dərinlik Özəlləri Zavodunu, Bakı Dəzgahqayırma Zavodunu və s. göstərmək olar.

Bu dövrdə astronomiya, kosmik tədqiqatlar sahəsində də bir sıra işlər görülmüşdür. Təsadüfi deyil ki, xalq təsərrüfatı və müdafiə əhəmiyyətli işlərdən sayılan təbiət və onda baş verən proseslərin kosmik tədqiqi keçmiş SSRİ-də ilk dəfə olaraq Azərbaycan Elmlər Akademiyasında aparılmışdır. Bundan başqa, təbii obyektlərin parametrlərini təyin etmək üçün məsafə və kontakt ölçmələrin texnologiyası, məsafə zondlaşması üsulları və texnikasının inkişafı sahəsində də bir sıra müsbət nəticələr alınmışdı.

Azərbaycan biologiya elminin biokimya, molekulyar biologiya, biofizika, gen biotexnologiyası, bioinformatika, bioenergetika kimi müasir sahələrinin fundamental əsası məhz keçən əsrin 70-ci illərində qoyulmuşdur. Təbiətə, yaşıllığa, gözəlliyə insan sağlamlığının, fiziki və mənəvi saflığının təminatçısı kimi baxan Heydər Əliyev daima onun mühafizəsinin qeydinə qalmışdır. Bunun bariz nümunəsidir ki, həmin illərdə yaradılmış "Azərbaycanın Qırmızı Kitabı" məhz möhtərəm Heydər Əliyevin sərəncamı əsasında işıq üzü görmüşdü.

Bu illərdə Azərbaycanda becərilən əsas kənd təsərrüfatı bitkilərində gedən fizioloji və bioloji proseslərdə mineral elementlərin əhəmiyyətinin, potensial məhsuldarlığı reallaşdıran fizioloji-genetik əsasların, fiziki-kimyəvi biologiyanın müasir üsullarla öyrənilməsi sahəsində böyük uğurlar əldə edilmiş, eyni zamanda kənd təsərrüfatı radiologiyası sahəsində də bir sıra aktual tədqiqatlar aparılmışdır. Akademik Cəlal Əliyevin rəhbərliyi ilə aparılan dövlət əhəmiyyətli bu elmi-tədqiqat işlərinin nəticəsində bu gün

də uğurla davam etdirilən bitki fiziologiyası, bitki biokimyası və molekulyar biologiya sahələrində beynəlxalq miqyaslı elmi məktəblər formalaşmışdır. Bunun nəticəsidir ki, son illər seleksiyanın müasir səmərəli metodlarını tətbiq etməklə respublikanın müxtəlif bölgələrində becərilən payızlıq və bərk buğdanın yüksək məhsuldar, yüksək texnoloji və çörək bişirmə keyfiyyətinə malik, yatmaya, qışa, quraqlığa, xəstəlik və zərərvericilərə davamlı sortları yaradılmış, bir sıra kənd təsərrüfatı rayonlarında tətbiq edilmiş və ilkin toxumçuluğu təşkil edilmişdir.

Azərbaycan kimya, neft emalı və neft-kimya sənayesinin də birinci intibah dövrü 70-ci illərdə başlamışdır. Məhz bu dövrdə cənab Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi və bilavasitə iştirakı ilə respublika sənayesinin bu mühüm sahələrinə kapital qoyuluşu artırılmış, ən qəbaqcıl texnologiya və yüksək məhsuldarlığı olan katalitik krekinq kompleksi - "Azərneftyanacaq" İB tikilib istismara verilmişdi.

Cənab Heydər Əliyevin neft-kimya sahəsinin modernləşdirilməsində də aparıcı rolu olmuşdur. Belə ki, Sumqayıtda sulfanol, xətti alkil-benzol, sulfat turşusu, kaustik soda istehsalatları, məişət kimyası zavodları, güclü EP-300 piroliz qurğusu, polietilen istehsal edən qurğu və s. istismara buraxılmışdı.

Görülən işlər Azərbaycanda kimya, neft kimyası və neft emalı sahəsində elmin inkişafına güclü təkan vermiş, neft emalı və neft-kimya sənayesində böyük dirçəlişə səbəb olmuşdu. 1994-cü ildə "Günəşli", "Çıraq" və "Azəri" yataqları üzrə cənab Heydər Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə bağlanmış "Əsrin müqaviləsi"nin əsası da məhz onun respublikaya 13 illik rəhbərliyi dövründə geniş miqyasda aparılmış axtarış-kəşfiyyat işlərinin nəticəsində qoyulmuşdu.

Fiziologiyanın elmi istiqamətlərinin, onun intellektual və maddi bazasının genişləndirilərək sərbəst, özünəməxsus elmi istiqaməti olan Fiziologiya İnstitutuna çevrilməsi də möhtərəm Heydər Əliyevin respublikamıza o zamankı rəhbərliyi dövründə baş vermişdir. Məhz bu dövrdən başlayaraq, respublikada ilk dəfə aktual tibbi-bioloji tədqiqatların yüksək səviyyədə aparılması məsələsinə tam ciddiliklə yanaşılmış və qətı tədbirlərin həyata keçirilməsi üçün şərait yaradılmışdır.

Keçən əsrin 70-ci illərinə kimi Azərbaycanda mikrobiologiya, xüsusən də tətbiqi mikrobiologiya sahəsində tədqiqat aparan müstəqil qurum yox

idi. 1970-ci ilin oktyabrında Azərbaycan Dövlət mükafatına layiq görülən alimlərin Filarmoniyanın binasında keçirilən yığıncağında Heydər Əliyev təbrik çıxışında bir sıra elmlərlə yanaşı, mikrobiologiya elminin də inkişafına öz münasibətini bildirmişdi. Maraqlı cəhət ondadır ki, bir neçə cümlədən ibarət tövsiyə-məsləhətdə bu elmin fundamental və tətbiqi cəhətləri yüksək dərəcəli mütəxəssis üslübündə izah edilmişdi. Məhz həmin uzaqgörənliyin nəticəsi kimi mikrobiologiya elminə münasibətdə müsbət dönüş yaradıldı. Moskva, Leninqrad və başqa şəhərlərin elm mərkəzlərinə aspirantlar, dissertantlar göndərildi. Respublikanın bütün bölgələrinə ekspedisiyalar təşkil edildi. Sularımız, torpaqlarımız ilk dəfə olaraq keçən əsrin 70-ci illərində tədqiq olundu. Bütün bu işlərin daha da yüksək səviyyədə aparılması və gələcəkdə mikrobiologiya elminin yeni-yeni sahələri üzrə tədqiqatlara başlamaq məqsədi ilə 1972-ci ildə Azərbaycan MEA-nın nəzdində müstəqil bir qurum - Mikrobiologiya sektoru yaradıldı.

Qlobal və regional xarakterli problemlərin həlli yollarının araşdırılmasına yönəlmiş bir sıra başqa tədqiqatlar nəticəsində dəyərli elmi və praktiki nəticələr əldə edilmiş və məhz bu nailiyyətlərin məntiqi nəticəsi kimi 1994-cü ilin axırlarında Mikrobiologiya sektoruna institut statusu verilmişdir.

1970-ci il avqustun 11-də Azərbaycan KP MK-nın növbəti plenumundakı çıxışında Heydər Əliyev ölkədə kənd təsərrüfatının inkişafı məsələsinin daim diqqət mərkəzində dayandığını və başqa sahələrlə yanaşı, taxıl istehsalının artırılmasının əvvəlki kimi yenə də əsas problem olaraq qaldığını bir daha diqqət mərkəzinə çatdırmışdı. Daha sonra o, taxılçılıq sahəsini ciddi tənqid edərək, bu sahədəki vəziyyətin yarıtmaz olmasını dənli bitkilərin əkilib becərilməsinə diqqətin zəifliyi, məhsuldarlıq sortlarının və keyfiyyətli toxum materialının olmaması, həmçinin müvafiq aqrotexniki tədbirlərin kobud surətdə pozulması ilə əlaqələndirdi. Cənab Heydər Əliyev plenumda 5 il ərzində dənli bitkilərin məhsuldarlığını, təqribən, 1,5 dəfə artırmağı, yəni hər hektardan 15 sentner məhsul almağı və ümumi taxıl istehsalını 900 min - 1 milyon tona çatdırmağı bir vəzifə olaraq qarşıya qoydu. Bütün bunlar AEA Rəyasət Heyətində müzakirə edilərək Genetika və Seleksiya İnstitutunun qarşısında mühüm vəzifələr qoyuldu.

Kənd təsərrüfatı bitkilərinin milli genefondunun yaradılması sahəsində institut tərəfindən xeyli iş görülsə də, onun ardıcıl öyrənilməsi və seleksiyada səmərəli istifadə olunması göstərilən qayğıya heç də uyğun olmamışdır. Toplanmış genetik müxtəlifliyin böyük hissəsi itib batmışdır. Ona görə də 2001-ci ilin sonunda Bioloji Müxtəlifliyin Genetik Ehtiyatları üzrə Dövlət Komissiyasının yaradılması haqda sərəncam möhtərəm Heydər Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının təzahürü idi. Mərhum Prezidentimizin sərəncamında beynəlxalq və regional əməkdaşlığı genişləndirmək zəmnində biomüxtəlifliyin qorunması və istifadə olunması sahəsində işin səmərəliliyinin artırılmasına xüsusi diqqət verilmişdir. AMEA Biologiya Elmləri Bölməsi və Rəyasət Heyəti də bu məsələyə xüsusi diqqətlə yanaşaraq, Genetika və Seleksiya İnstitutunun bazasında MEA Genetika Ehtiyatları İnstitutu yaratmaq qərarına gəlmişdir.

Respublikanın yerləşdiyi ərazi seysmik cəhətdən fəal bölgə olduğundan cənab Heydər Əliyev bunu həmişə diqqət mərkəzində saxlayaraq, bu sahənin inkişafı üçün lazımi tədbirlərin həyata keçirilməsində öz köməyini əsirgəməmişdir. Buna əyani sübut olaraq, 1979-cu ildə Nazirlər Sovetinin qərarı ilə respublikada seysmoloji tədqiqatların inkişafı və zəlzələlərin proqnozunun təkmilləşdirilməsi məqsədilə EA Təcrübi Metodik Geofiziki Ekspedisiyası yaradılmışdı.

70-ci illərdə elmlə respublikanın iqtisadiyyatının müxtəlif sahələri arasında sıx əlaqə yaranmışdı. Elm iqtisadiyyatın inkişafı üçün təkanverici amil kimi çıxış edirdi. Xüsusən, aqrar sektorun sürətlə irəli getməsi onun elmi əsaslara söykənməsi ilə bağlı idi. Heydər Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində 70-ci illərdə Azərbaycanın aqrar sektoru bir neçə onilliklərə bərabər inkişaf yolu keçdi, kənd əhalisinin vəziyyəti əvvəlki dövrlərə nisbətən müqayisəedilməz dərəcədə yaxşılaşdı.

Müstəqil respublikamızda müasir torpaq islahatlarının aparılması da Heydər Əliyevin adı ilə bağlıdır. 1995-ci ildən respublikada aparılan torpaq islahatlarının başlıca icraçısı Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, elmi təminatçısı isə Azərbaycan MEA Torpaqşünaslıq və Aqrokimya İnstitutudur.

Ümummilli liderimiz Heydər Əliyevin "Bioloji müxtəlifliyin genetik ehtiyatları" haqqında sərəncamı, qeyd edildiyi kimi, elmin bir çox sahələrində öz əks-sədasını tapmışdır. Bu sərəncamın reallaşması məqsədilə

görülən işlər, xüsusən AMEA Biologiya Bilməsində və aqrar elmi institutlarda aparılan ciddi elmi tədqiqatlar torpaq ehtiyatlarının, fauna və florasının qorunması və bərpasına yönəldilmişdir.

Biomüxtəlifliyin genetik ehtiyatlarının öyrənilməsi işində Azərbaycan MEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunda torpaq muzeyinin təşkili önəmli hadisədir. Torpaq muzeyi respublikanın bütün torpaq-iqlim zonalarını əhatə edən 50-yə qədər torpaq monolitləri əsasında yaradılmışdır. Bu torpaq monolitinin əksəriyyəti 1974-cü ildə dünya torpaqşünaslarının qurultayına hazırlıq məqsədilə mərhum akademik Həsən Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə götürülmüşdür. Respublikanın bütün torpaq tiplərini əhatə edən bu monolitlər və onların morfogenlik diaqnostikası torpaq örtüyümüzün qızıl fondu olub, genetik ehtiyatların öyrənilməsində, pasportlaşdırılmasında və bərpasında vacib rol oynayacaq.

Azərbaycan alimlərinin seysmologiya sahəsində orijinal tədqiqatları sayəsində xüsusilə yeni bir ixtira kimi qeydə alınan yüksəktezlikli zəif səslərin öyrənilməsi də İttifaq miqyasında Azərbaycan EA-nın nüfuzunu artırmışdı.

1970-1985-ci illər ərzində Azərbaycan EA-nın müəssisələrində təbiət və ictimai elmlər sahəsində aparılan fundamental tədqiqatlara görə 2280 elmi, elmi-texniki və xalq təsərrüfatı əhəmiyyətli nəticə alınmışdı. Həmin dövrdə Elmlər Akademiyasının, hiss olunacaq dərəcədə, iqtisadi səmərəyə malik 850-yə yaxın işi xalq təsərrüfatına tətbiq edilmişdi.

Nəzərdən keçirilən dövr Elmlər Akademiyasının nəşriyyat fəaliyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşması ilə xarakterizə olunur. Təkcə onu qeyd etmək lazımdır ki, 15 il ərzində elmi nəşrlərin kəmiyyəti 2 dəfədən çox artmışdı. Böyük nəzəri və təcrübi əhəmiyyətə malik əsərlər nəşr edilmişdi. 1970-ci ildən başlayaraq, İttifaq və respublika Elmlər Akademiyasının orqanı olan "Sovet türkologiyası" jurnalının nəşrinə başlanılmışdı.

Xalqımızın mənəvi həyatında əlamətdar hadisə olan çoxəsrlik tariximizdə ilk universal-milli on cildlik Azərbaycan Ensiklopediyasının meydana gəlməsi də Heydər Əliyevin adı ilə sıx bağlıdır. Çoxəsrlik tariximizdə xalqımızın mənəvi həyatında əlamətdar hadisələrdən biri olan ilk universal on cildlik Azərbaycan Ensiklopediyası Heydər Əliyev dövrünün təkzibedilməz mənəvi abidəsidir.

Həmin illərdə respublika gənclərinin SSRİ-nin ali məktəblərində təhsil almalarına yaradılan şəraitin də əhəmiyyəti misilsizdir. Heydər Əliyevin göstərişi ilə Elmlər Akademiyasında və respublikanın başqa elmi idarələrində məqsədli aspirantura sistemi, SSRİ-nin aparıcı elmi mərkəzlərinə ezamiyyət və təcrübə stajı keçmək sistemi təşkil olunmuşdu.

Təkzibedilməz faktdır ki, Azərbaycanın yaşlı nəsil intellektinin əksəriyyəti sovet təhsil və elm məktəbinin yetirmələridir. Həmin insanlar bu gün Azərbaycanın elmi potensialının, intellektual səviyyəsinin daşıyıcılarıdır. Bu kadrların əksəriyyəti hazırda Azərbaycan dövlətində ali strukturların, elmi müəssisələrin rəhbərləri, aparıcı insanlardır. Ümummilli lider Heydər Əliyevin keçən əsrin 70-ci illərində böyük uzaqgörənliklə əsasını qoyduğu bu möhtəşəm universitet bu gün öz bəhrəsini verməkdədir.

Elmə dövlət qayğısının artmasının göstəricisindən biri də bu illərdə Elmlər Akademiyasının bir çox mühüm obyektinin tikilib istismara verilməsi idi. Bu tikililərin arasında Genetika və Seleksiya, Zoologiya, Aşqarlar Kimyası institutlarının binalarını, aspirantlar yataqxanasını, Şamaxı rayonunda 40 mənzilli yaşayış binası, Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutunun mühəndis-laboratoriya korpusunu, Coğrafiya İnstitutunun Pirqulu stasionar bazasını, Fiziki-kimyəvi biologiya sektorunun laboratoriya korpusunu qeyd etmək lazımdır. Nəbatat bağının yenidən bərpası və genişləndirilməsi həyata keçirilmiş, Riyaziyyat və Mexanika İnstitutunun laboratoriya korpusunun inşasına başlanmışdı.

Astronomiya sahəsində zəngin tarixi irsimizin bu elmin müasir dünya təcrübəsi kontekstində inkişafı N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının timsalında öz əksini tapmışdı. 1970-1981-ci illərdə bu rəsədxananın əldə etdiyi elmi nəticələr dünya standartlarına cavab verir, onun texniki və intellektual potensialı həsəd doğururdu.

1974-cü ilin sentyabr ayında Heydər Əliyev iki gün müddətində Şamaxı Astrofizika Rəsədxanası ilə tanış olmuş, böyük uzaqgörənliklə bu sahədəki kadr hazırlığı probleminin həlli ilə bağlı Bakı Dövlət Universitetində astronomiya kafedrasının açılması üçün göstəriş vermişdi. Burada elm şəhərciyinin salınması, elmi tədqiqat aparılması üçün yüksək səviyyədə texniki-məişət şəraitinin yaradılması məhz Heydər Əliyevin adı ilə bağlıdır.

1970-ci ildə Şamaxı Astrofizika Rəsədxanasının Naxçıvan MR Batabat yaylağında yeni bir stansiyasının inşasına başlanmışdı. Qısa müddətdə həmin ərazinin aqroiqlimi öyrənilmiş, ulduz müşahidələri üçün həmin rayo-

nun son dərəcə əlverişli olması qənaəti hasil olmuşdu. 20 sm-lik reflektor və korneqrafda aparılmış müşahidələr olduqca keyfiyyətli təsir bağışlamışdı.

Heydər Əliyev bütün ictimai-siyasi fəaliyyəti boyunca tarixə, ədəbiyyata, mədəniyyətə, ümumilikdə humanitar elmlərə yüksək qiymət və əhəmiyyət vermiş, onların xalqın mənəvi həyatında oynadığı rolu layiqincə dəyərləndirmişdir.

Heydər Əliyevi ictimai və humanitar elmlərin vəziyyəti daima düşündürmüş və narahat etmişdi. Bunun da əsas səbəbi bu elmlərin ictimai-siyasi quruluşun tez-tez dəyişməsi ilə bağlı böhran vəziyyətinə düşməsi, siyasi qütblərin kəskinləşməsidir.

İctimai və humanitar elmlər sahəsində çalışan alimlərin Azərbaycanın tarixi, mədəniyyəti, dili, hətta Yaxın və Orta Şərq xalqlarının tarixinin öyrənilməsinə həsr olunmuş əsərləri bəşəri mənəvi-etik-ideya səciyyəli mühüm elmi sərvətdir. Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanda bədii ədəbiyyatın və ədəbiyyatşünaslıq elminin inkişafı, yazıçı və alimlərin yaradıcılıqla məşğul olmaları üçün ardıcıl tədbirlər həyata keçirilmişdir.

Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafındakı xidmətlərinə görə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu da 50 illik yubileyi münasibətilə Heydər Əliyevin təşəbbüsü və tövsiyəsi ilə "Xalqlar Dostluğu" ordeni ilə təltif edilmişdi.

Cənab Heydər Əliyev görkəmli ədiblərin xatirəsinin əbədiləşdirilməsinə xüsusi diqqət yetirmişdir. Onun şəxsi təşəbbüsü ilə milli iftixarlarımız olan bir çox siyasət və elm xadimlərinin, şair və yazıçıların adı respublikanın rayonlarına, müxtəlif küçələrinə, elm, təhsil, mədəniyyət müəssisələrinə verilmiş, yaşadıqları binalara xatirə lövhələri vurulmuşdur.

Heydər Əliyevin ədəbi-mədəni sahəyə baxışı bir sistem təşkil edirdi. Burada ümumi rəhbərlik və təşkilatçılıqla yanaşı, mütəxəssislərin bəzən yadına düşməyən elə incə məqamlara diqqət cəlb edilir ki, bu böyük siyasətçinin həm də böyük sənət adamı olduğuna şübhə yeri qalmırdı. Belə anda yalnız bu sözləri deməyə ehtiyac duyulur: O, mədəniyyətimizin, ədəbiyyatımızın gözəl bilicisi və araşdırıcısı idi.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında ədəbiyyatın rolunu yüksək qiymətləndirdiyi qədər dilin də ictimai həyatımızdakı müstəsna mövqeyinə daima böyük əhəmiyyət vermişdir. Hər şeydən öncə onun bütün sahələrdə olduğu kimi, ana dilimizin inkişafında göstərdiyi misilsiz xidmətləri də qeyd etmək lazımdır. Öz xalqını və dilini dərindən sevən cənab Heydər Əliyev rəhbərliyə gəldiyi ilk günlərdən başlayaraq, respublika iqtisadiyyatı və mədəniyyətinin yüksəlişi, xalqın güzəranının yaxşılaşması uğrunda apardığı mübarizədə Azərbaycan dilinin fəaliyyət dairəsinin genişlənməsi və inkişafına da daima xüsusi diqqət yetirmişdi.

Azərbaycan incəsənəti haqqında elmin yüksək zirvəyə çatmasında da Heydər Əliyevin xidməti çox qiymətlidir. Onun incəsənətə göstərdiyi maraq, qayğı və diqqət nəticəsində memarlıq, heykəltəraşlıq, rəssamlıq, boyakarlıq və s. sahələr yüksək inkişaf yoluna düşdü. Bunun nəticəsidir ki, həmin illərdə "Azərbaycanın tarixi şəhərlərinin qorunması, bərpası və yenidən qurulması problemləri", "İçəri şəhər və onun planının regenerasiyasının əsasları", "Azərbaycan dekorativ-tətbiqi sənəti", "Sovet Azərbaycanının boyakarlığı", üçcildlik "Azərbaycan incəsənəti tarixi" (strukturu) və s. kimi fundamental elmi əsərlər meydana gəldi.

XX əsrin 70-ci və 80-ci illərində Elmlər Akademiyası alimlərinin fəaliyyəti dövlət və dünya elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Çox simvolik haldır ki, elm, iqtisadiyyat və mədəniyyətin inkişafı, yüksək ixtisaslı elmi kadrların hazırlanması sahəsində qazandığı nailiyyətlərə görə Azərbaycan Elmlər Akademiyasının aldığı ilk yüksək mükafat - "Xalqlar dostluğu" ordeni 1975-ci ildə Heydər Əlirza oğlu Əliyev tərəfindən təqdim edilmişdir.

Qeyd olunan dövrdə Elmlər Akademiyasının neçə-neçə görkəmli alimi dövlət və hökumət mükafatlarına layiq görülmüşdür...

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlləri Azərbaycan üçün ən çətin, ən ağır dövrə çevrildi. Həmin illərdə mövcud hadisələrin müharibə alovunun fonunda Azərbaycan elminə, təhsil sisteminə də ciddi zərbələr vurulmuşdur. Bütün sahələrdə olduğu kimi, elm sahəsində də durğunluq hökm sürürdü.

1993-cü il Azərbaycan tarixində, müstəqil dövlətçilik tariximizdə, respublikamızın ictimai-siyasi fikir tarixində dönüş ili kimi yadda qalmışdır. Əslində, həmin il bir dövlət kimi Azərbaycan Respublikasının yaşaması və ya süqutu kimi bir dilemanın həlli ili idi. Və həmin vaxt baş verən pro-

seslərə xalqımızın qüdrətli oğlu, böyük ictimai-siyasi xadim cənab Heydər Əliyevin qüdrətli əlləri müdaxilə etməsəydi, şübhəsiz ki, bu gün Cənubi Qafqaz ölkələri içərisində unitar quruluşlu müstəqil Azərbaycan dövlətinin mövcudluğu olduqca tərəddüdlü görünə bilərdi. 1993-cü ilin iyun ayından sonra respublika, sözün həqiqi mənasında, inkişaf yoluna qədəm qoya bildi. Dövlət düşdüyü ağır siyasi böhrandan, vətəndaş müharibəsi təhlükəsindən xilas edildi, qiyamlar yatırıldı, dövlətin müstəqilliyi və bütövlüyü təmin olundu. Respublikanın taleyüklü məsələləri ilə ciddi məşğul olmağa başlayan cənab Heydər Əliyev elə ilk gündən diqqətini ölkənin həm siyasi, həm də iqtisadi inkişafına yönəltdi. Cənab Heydər Əliyev belə bir şəraitdə bir neçə cəbhədə mübarizə aparmalı oldu.

Təbiidir ki, hər bir xalqın elminin, təhsil sisteminin inkişafı onun mənsub olduğu dövlətin apardığı kompleks işlərlə qırılmaz vəhdət təşkil edir. Möhtərəm Heydər Əliyev zəkasının ölkə elmi və təhsil sistemində yaratdığı möhkəm bünövrənin, dəyərli kadr potensialının, eləcə də ona göstərdiyi diqqət və qayğının adekvat əks-sədası müasir tarixdə bu sahənin ən müqəddəs izlərinə çevrilmişdir.

Azərbaycan tarixinin dönüş nöqtələrindən biri olan 1993-cü ildə Naxçıvandan Bakıya - müstəqil dövlət quruculuğuna qayıdan cənab Heydər Əliyev ilk görüş yeri kimi Elmlər Akademiyasını seçdi. Bununla o, türk dövlətçilik ənənələrini sistemli şəkildə davam etdirən görkəmli dövlət xadimi kimi yeni yaratmağa başladığı müstəqil dövlətin bünövrəsinin elmi sütunlar üzərində qurulduğunu, intellektual potensiala arxalandığını ictimai fikrə çatdırdı. Bu bir tərəfdən möhtərəm Heydər Əliyevin Azərbaycan elminə, intellektinə böyük hörmətinin təsdiqi idisə, digər tərəfdən Azərbaycan ziyalılarının Heydər Əliyev şəxsiyyətinə sonsuz inam və yüksək etimadının bariz nümunəsi idi.

Keçən əsrin 80-ci illərinin məlum qarmaqarışıq siyasi hadisələri nəticəsində ictimai və mədəni həyatımızın başqa sahələri kimi nəinki durğunluq, həm də tənəzzül dövrü keçirən Azərbaycan Elmlər Akademiyası üçün 1997-ci il yanvarın 31-i yeni mərhələnin başlanğıcı oldu. Möhtərəm Prezidentimiz Akademiyanın bir qrup aparıcı alimi ilə görüşündə söylədiyi tarixi nitqi ilə Azərbaycan Elmlər Akademiyasına ikinci bir həyat verdi. Uzun müddət təsirlərə məruz qalan Azərbaycan intellekti yenidən dirçəliş yoluna qədəm qoydu.

Cənab Heydər Əliyev akademiya alimləri ilə görüşü zamanı elmimizin qarşısında duran problemlərin dərindən analizini verərək, bizə dünya səviyyəli elmi işlərlə bərabər, həm də dövlətimizə, xalqımıza lazım olan elmi tutumlu strateji problemlərlə məşğul olmağı məsləhət gördü. Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını, Elmlər Akademiyasının onlardan irəli gələn vəzifələrini müəyyənləşdirdi və elm sahəsində köklü islahatların aparılmasının zəruriliyini qeyd etdi: "Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirli humanitar elmlərdir və xüsusən ... onun ədəbiyyatının, mədəniyyətinin tarixidir. Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya və başqa fənnlər hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi vardır. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq lazımdır. O cümlədən mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır".

Hələ 1993-cü il sentyabrın 21-də Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşü zamanı söylədiyi nitqində də Heydər Əliyev ictimai və humanitar elmlərə çox diqqət yetirmişdi: "... Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq... Təkcə ədəbiyyatçılar və yaxud Yazıçılar Birliyi deyil, bütün elm xadimlərimiz bu sahədə işləməlidirlər".

Bu dəyərli sözlər ölkəmizin inkişafının qlobal istiqamətlərinin intellektual təminatını həyata keçirmək kimi məsuliyyətli bir tapşırıq idi.

Bu baxımdan, Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışının, hər şeydən öncə, ictimai və humanitar elmlərin əsas elmi prinsiplər əsasında inkişafı üçün taleyüklü əhəmiyyəti oldu. Ölkə prezidenti çıxışında tarix elminin problemlərinin obyektiv işlənməsinə aydınlıq gətirdi. O, çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərh olunmasının Azərbaycan dövləti üçün mühüm aktual əhəmiyyət kəsb etdiyini bir daha diqqət mərkəzinə çatdırdı.

Dövrün bütün çətinliklərinə baxmayaraq, cənab Heydər Əliyev 1996-cı ildə YUNESKO-nun qərarı ilə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik və 2000-ci ilin aprelində isə "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin respublika səviyyəsində qeyd olunmasına şərait yaratdı.

Möhtərəm Heydər Əliyevin həmin dövrdə verdiyi tapşırıqları həyata keçirmək məqsədilə ötən müddət ərzində AMEA-nın Rəyasət Heyəti akademiyada islahatların aparılması, onun idarəetmə və təşkilat sisteminin təkmilləşdirilməsi, elmi-tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, kadr hazırlığının yaxşılaşdırılması, elmi işçilərin məsuliyyətinin artırılması, elmi və elmi xidmət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlanmış, Akademiyanın Ümumi yığıncağında təsdiq edilmiş və tədricən həyata keçirilmişdir. Bu iş bu gün də davam etdirilir.

Yuxarıda qeyd etdiyimiz kimi, Heydər Əliyevin sərhəd tanımayan geniş yaradıcılıq fəaliyyətində dilçilik məsələləri, ilk öncə ana dili, dil və dövlət, dil və mədəniyyət dil və millət, dil və tarix, dil və ədəbiyyat, dil quruculuğu kimi önəmli sosiolinqvistik məsələlər də xüsusi yer tuturdu. Bütün böyük siyasi xadimlər kimi, Heydər Əliyev də öz xalqının, öz ölkəsinin iqtisadiyyatı, maddi rifah halının yaxşılaşması ilə bərabər, onun ümummədəni tərəqqisinin də qayğısına qalmış, yaşadığı ölkənin, mənsub olduğu xalqın dünyanın ən inkişaf etmiş ölkələri və xalqları səviyyəsinə yüksəlməsinə ciddi diqqət yetirmişdir. Heydər Əliyevin ana dilinə böyük qayğısı, sədaqəti, dərin məhəbbəti onun yalnız əsl vətəndaşlıq, ana dilini sevmək, yüksək qürur hissləri ilə bağlı deyildi. Bu, eyni zamanda onun öz ana dilini dərindən bilmək, həmin dilin bütün daxili sirlərinə, gözəlliklərinə dərindən vaqif olmaq və onlardan məharətlə istifadə edə bilmək qabiliyyətindən və istedadından irəli gəlirdi. Azərbaycan dilinin dövlət dili kimi bərqərar olunması və inkişaf etməsinə xüsusi diqqət yetirən cənab Heydər Əliyev 18 iyun 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Məlumdur ki, fərmanda Azərbaycan dilinin keçdiyi tarixi inkişaf yolu, ədəbi dilimizin inkişaf mərhələləri, müstəqil Azərbaycan Respublikasında ən mühüm ünsiyyət vasitəsi olan dilimizin tətbiqi ilə əlaqədar qarşıda duran fəzifələrin həyata keçirilməsinin konkret müddətləri göstərilmişdir.

Həmin dövrdə AMEA-nın Rəyasət Heyəti respublika prezidentinin bu fərmanının icra olunması haqqında qərar qəbul etdi. Bu qərarda fərmanın dövlət dilimizin inkişafı sahəsində müstəsna əhəmiyyəti qeyd edilmiş və Akademiyada dövlət dilinin və latın qrafikasının tətbiqi məqsədilə bir sıra tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Bu tədbirlərin bir qismi artıq həyata keçirilmişdir. Rəyasət Heyətinin 2001-ci il avqustun 22-də keçirilmiş iclasında cənab Heydər Əliyevin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanı və 13 avqust 2001-ci il tarixli bəyanatı ətraflı müzakirə edildi. Rəyasət Heyəti akademiyanın elmi müəssisələrində və təşkilatlarında ölkə başçısının fərmanı və bəyanatından irəli gələn tədbirlər planının həyata keçirilməsi haqqında qərar qəbul etdi və ölkə prezidentinə müraciət ünvanlandı.

Elm müstəqil dövlətin davamlı sosial-iqtisadi və mədəni inkişafını təmin edən mühüm bir amildir. Bunu müdrik uzaqgörənliklə nəzərə alan Heydər Əliyev ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul etdi. 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyasına «Azərbaycan Milli Elmlər Akademiyası» adını verdi və bununla da akademiyanın fundamental elmin inkişafında əldə etdiyi nailiyyətləri, Azərbaycan xalqının mədəni və mənəvi təşəkkülündə oynadığı rolu və akademik elmin ölkənin inkişafının əsas təminatçısı olduğunu bir daha təsdiq etdi.

AMEA-nın Ümumi yığıncağı akademiyaya Milli Elmlər Akademiyası adının verilməsi münasibəti ilə cənab Heydər Əliyevə müraciət qəbul etdi. Müraciətdə dövlət başçısına elm və təhsilə göstərdiyi böyük diqqət və qayğıya görə səmimi minnətdarlıq bildirilmiş və qeyd olunmuşdur ki, bundan sonra da Milli Elmlər Akademiyasının alimləri müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi, onun tərəqqisi, elmimizin inkişafı, tarixımızın öyrənilməsi və mədəniyyətimizin dirçəldilməsi yolunda öz səy və bacarıqlarını əsirgəməyəcək, həmişə dövlət başçısının siyasətini dəstəkləyəcəklər.

Möhtərəm Heydər Əliyev Azərbaycan Respublikasının inkişafında Azərbaycan elminin rolunu nəzərə alaraq və AMEA-nın respublika ictimaiyyəti arasında nüfuzunu yüksəltmək məqsədilə 30 mart 2001-ci il və 1 iyul 2002-ci il tarixli sərəncamları ilə AMEA Rəyasət Heyəti və akademiyanın bütün işçilərinin əmək haqlarını əhəmiyyətli dərəcədə artırdı.

Məlumdur ki, 2001-ci ilin iyun ayında Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvlərinin seçkiləri keçirilmişdir. Bu seçkilər AMEA-

nın tarixində xüsusi yer tutmuşdur. Fundamental elmə verdikləri əsaslı töhfələri, özlərinin hərtərəfli bilikləri və dünyagörüşləri ilə fərqlənən alimlər AMEA-nın tərkibinə seçilmişdilər. Möhtərəm Heydər Əliyev seçki ərəfəsində akademiya üzvlərinin ümumi sayının 200 nəfər müəyyən edilməsi haqda xüsusi sərəncam imzalamışdı.

2002-ci ildə dövlət başçısı Naçıvan MR-in geosiyasi vəziyyətini nəzərə alaraq, AMEA-nın Naxçıvan bölməsinin yaradılması haqqında tarixi sərəncam imzaladı, avqustun 12-də Naxçıvan Ali Məclisinin iclas zalında bu yeni bölmənin yaradılmasına həsr olunmuş müşavirə keçirildi. Müşavirədə möhtərəm Heydər Əliyev blokada şəraitində yaşayan bu qədim Azərbaycan diyarının indiki şəraitdə tarixinin, arxeologiya və etnoqrafiyasının, dilinin və ədəbi irsinin öyrənilməsinə daha çox ehtiyac duyulduğunu qeyd etdi, AMEA rəhbərliyinə bu sahədə genişmiqyaslı tədqiqatların aparılması, işçi qrupunun yaradılması məqsədilə müəyyən göstərişlər verdi. Qeyd etmək istərdim ki, keçən müddət ərzində bu sahədə xeyli işlər görülmüşdür.

Qeyd edək ki, MEA-da keçirilən 2001-ci il seçkilərindən sonra dünyada gedən siyasi-iqtisadi proseslərə daha sıx inteqrasiya olunmaq, cəmiyyətin həyatında elmin rolunu daha da artırmaq məqsədilə bir sıra köklü struktur dəyişiklikləri və islahatlar aparılmışdır. Milli Elmlər Akademiyasında aparılan islahatlar və struktur dəyişiklikləri inkişaf etmiş dünya ölkələrinin təcrübəsindən faydalanmaqla, eyni zamanda ictimai təfəkkürdə yaradacaq keyfiyyət dəyişikliklərini nəzərə almaqla yeni məzmunda, Akademiyanın nizamnaməsinə uyğun olaraq, müəyyən prinsiplər üzrə mərhələli şəkildə həyata keçirilmişdir.

Cənab Heydər Əliyev Azərbaycanın milli-mənəvi dəyərlərinə, maddi mədəniyyət abidələrinə xalqın, millətin varlığının təcəssümü kimi həmişə böyük diqqət və qayğı göstərmişdir. Milli Elmlər Akademiyasının həyatında baş vermiş əlamətdar hadisələrdən biri 2002-ci ilin oktyabr ayının 24-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin böyük Azərbaycan dramaturqu Hüseyn Cavidin ev muzeyinin açılışında iştirak etməsi və həmin gün Əlyazmalar İnstitutuna Azərbaycan şifahi və yazılı ədəbiyyatının şah əsəri olan "Kitabi-Dədə Qorqud"un ən qədim əlyazması olan Drezden əlyazmasının nəfis şəkildə hazırlanmış nüsxəsini (faksimilesini) hədiyyə kimi şəxsən təqdim etməsi olmuşdu. Dövlət başçısının bu maddi və mənəvi dəstəyini alimlərimiz elmə dövlət qayğısının yeni nümunəsi kimi qəbul etmişdilər.

Bundan başqa, dünya və Azərbaycan ensiklopedik ədəbiyyat nəşri təcrübəsi əsasında yaradılmış və 2003-cü ilin fevralın 21-də Azərbaycan MEA-nın Rəyasət Heyətinin iclas salonunda ictimaiyyətə təqdim edilmiş "Naxçıvan ensiklopediyası" müstəqil Azərbaycanın (eləcə də Milli Elmlər Akademiyasının) ictimai-siyasi və mədəni həyatında əlamətdar hadisələrdən biri olmuşdur. Oncildlik Azərbaycan ensiklopediyasından sonra respublikada ilk dəfə işıq üzü görən bu ensiklopediya həm də dövlətimizin intellektual potensialının, iqtisadi inkişafının göstəricisidir. Bu nəşr ədəbi-mədəni sahəyə baxışı bir sistem təşkil edən, ümumi rəhbərlik və təşkilatçılıqla yanaşı, mütəxəssislərin yadına düşməyən incə məqamlara da diqqəti cəlb edən, mədəniyyətimizin, ədəbiyyatımızın gözəl bilicisi və yaradıcısı, Azərbaycan Prezidenti Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" 1999-cu il 12 fevral tarixli sərəncamına əsasən, Milli Elmlər Akademiyasının Rəyasət Heyəti nəzdində yaradılmış "Naxçıvan ensiklopediyası" qurumu tərəfindən hazırlanmışdır.

Milli Elmlər Akademiyası son illər beynəlxalq elmi əlaqələrin inkişaf etdirilməsi sahəsində xeyli işlər görmüş və bir sıra nailiyyətlər əldə etmişdir. 2001-ci ildən daha intensiv xarakter almağa başlayan beynəlxalq elmi əlaqələr nəticəsində MEA ilə dünyanın bir sıra aparıcı elm mərkəzləri arasında ikitərəfli əməkdaşlıq haqqında müqavilələr imzalanmış, akademiyanın yüzlərlə əməkdaşı müxtəlif ölkələrdə elmi ezamiyyətlərdə olmuş, bir sıra simpozium və elmi-praktik konfranslarda iştirak etmişdir.

ABŞ-ın Mülki Tədqiqatlar və İnkişaf Fondu (MTİF) tərəfindən MEA-da "Azərbaycan Milli Elm Fondu"nun (AMEF) təsis edilməsi akademiyanın beynəlxalq əlaqələr sahəsində əldə etdiyi və Azərbaycan elminin gələcəyə doğru daha inamla irəliləyə biləcək uğurlarından biridir. Belə ki, bu fonda ayrılmış vəsait hesabına Azərbaycan alimləri elan olunmuş elmi proqramların müsabiqələrində iştirak edərək müxtəlif məbləqlərdə qrantlar əldə etmək hüququ qazanırlar.

Bundan başqa, AMEA Ukraynada yerləşən və zəngin maliyyə vəsaitinə malik Beynəlxalq Elm və Texnologiya Mərkəzi ilə (BETM) həmin mərkəzə üzv seçilməsi haqqında danışıqlar aparmış və nəticədə 2002-ci

ilin dekabr ayında BETM-in İcraçılar Şurasının iclasında Azərbaycanın bu təşkilata qəbul olunmasının dəstəkləndiyi haqqında qərar qəbul edilmişdir.

Bütün bunların əsasında Azərbaycan elminin dünyaya çıxması və orada təbliği üçün yaradılmış şərait dayanır. Görkəmli dövlət xadimi möhtərəm Heydər Əliyev şəxsiyyəti, beynəlxalq aləmdəki nüfuzu uzun illər Azərbaycan elminin fövqündə dayanaraq, onun inkişaf yoluna işıq saldı. Azərbaycan elmi, intellekti bu işığın axarında ümumbəşəri dəyərlərə daha sıx inteqrasiya olunmaq imkanı qazandı.

2002-ci ilin dekabr ayının sonuncu günündə – Dünya Azərbaycanlılarının Həmrəylik günündə Milli Elmlər Akademiyasının prezidentini qəbul edən dövlət başçısı bununla elmin onun dövlətçilik siyasətində hansı pillədə durduğunu, Azərbaycan Respublikasında Milli Elmlər Akademiyasının, xalqımızın bu milli sərvətinin yerini bir daha təsdiq etmiş oldu. 2003-cü ilin yanvarın 4-də isə MEA-nın respublikada elmin inkişafının təşkil və təmin etdiyini, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirdiyini, elmi müəssisə və ali məktəblərin elmi fəaliyyətini əlaqələndirdiyini və istiqamətləndirdiyini, respublikamızı xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil etdiyini nəzərə alaraq möhtərəm Heydər Əliyev Milli Elmlər Akademiyasının statusu, Nizamnaməsinin və MEA prezidentinin təsdiqi haqqında fərman imzaladı, Akademiyanın işini daha intensiv qurması və dünya elminə inteqrasiya olunması üçün müəyyən tapşırıqlar verdi.

«Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq», - möhtərəm Prezidentin dediyi bu sözlər bütövlükdə Azərbaycan elminə, Akademiya əməkdaşlarına verilən ən yüksək qiymət, həm də böyük məsuliyyət idi...

...2003-cü il dekabrın 12-də xalqımız tarixən yetişdirdiyi ən böyük oğlunu itirdi.

Biz, həmişə bu Böyük İnsanın himayəsini, qayğısını və diqqətini üzərində hiss etmiş elm adamları da daima Onun işıqlı ideyalarının davamçıları olduq, müdrik siyasətini dəstəkləyərək, ona dayaq durduq. Qüdrətli, çiçəklənən Azərbaycan quruculuğunda yaxından kömək etdik. Daha neçə-neçə uğurlara imza atmaq arzusu və ümidi ilə Onu qorumağa çalışdıq. Lakin bunu axıra kimi bacara bilmədik. Tanrı Azərbaycan xalqına xilaskar

kimi göndərdiyi bu Dahi İnsanı – şərəfli missiyanın daşıyıcısını aramızdan apardı. Dahi insanlara zaman, tarix özü qiymət verir. Lakin Müdrik Tarix Heydər Əliyevə qiymətı hələ sağlığında vermişdi. Bu gün tərəqqi edən Azərbaycanın hansı sahəsinə baxsan, gözümüzün önündə Heydər Əliyevin Vətən və xalq üçün gördüyü işlər canlanır. Demək, O, mənən ölməyib – heç kəsin bacarmadığı işlərində, əməllərində Azərbaycan xalqı ilə daima yaşayacaq!

Onun arzuları sonsuz idi. Bu arzuları gerçəkləşdirmək üçün bu Dahi İnsan bizə möhkəm dövlətçilik təməli, öz siyasi kursunun layiqli davamçısı İlham Əliyevi qoyub getdi. Prezident seçkilərindən keçən bu qısa zaman kəsiyində cənab İlham Əliyev bir daha sübut etdi ki, o, Heydər Əliyev siyasətinin və ideyalarının ən layiqli və ardıcıl davamçısıdır. Respublika Prezidenti İ.Əliyev imzaladığı "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən "Azərbaycan Ensiklopediyası" nəşriyyat-poliqrafiya birliyinin AMEA-nın tabeçiliyinə verilməsi, 14 fevral 2004-cü il tarixli sərəncamı ilə Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə AMEA-nın 21 üzvünün "Şöhrət" ordeni ilə təltif edilməsi, 16 aprel 2004-cü il tarixli sərəncamı ilə AMEA-da, elmi-tədqiqat və təhsil müəssisələrində, habelə digər sahələrdə çalışan elmlər doktoru, elmlər namizədi alimlik dərəcəsinə görə vəzifə maaşlarına təyin edilmiş əlavələrin məbləğinin 2004-cü ilin iyulun 1-dən beş dəfə artırılması, nəhayət, 14 fevral 2005-ci il tarixli sərəncamı ilə "Azərbaycan Milli Elmlər Akademiyasının 60 illik yubileyi haqqında" və s. bu kimi sərəncam və fərmanları ilə bir daha sübut etdi ki, o həm də Azərbaycan elminin böyük hamisi olan ümummilli liderimiz Heydər Əliyevin elm və təhsil sahəsindəki siyasi kursuna sadiqdir. Və özü də bir elm adamı olaraq dövlətin iqtisadi-mədəni yüksəlişi və sosial rifah halının yaxşılaşdırılmasını məhz elmi biliklərin praktikaya tədbiqində görür.

Bu gün xalqımız Heydər Əliyevin qurduğu Azərbaycan dövlətini, işıqlı arzularını, ideyalarını onun ən layiqli, ən etibarlı davamçısı Azərbaycan Respublikasının prezidenti İlham Əliyevlə birlikdə böyük gələcəyə doğru aparır. Və bu gün Heydər Əliyevin nurlu dühası bu yolumuzu işıqlandırır, həmişə də işıqlandıracaq!

İMAMVERDİ İSMAYILOV
Milli Məclisin deputatı

HEYDƏR ƏLİYEVİN MƏNƏVİ İRSİ XALQIMIZ ÜÇÜN ÖRNƏKDİR

Bir də dünyanın qəribə bir qanunauyğunluğudur. Çox zaman əfsanəvi siyasət adamlarının - ən böyük sərkərdələrin belə tarixdəki rolunu heç də onların rəhbərliyi ilə əldə edilmiş hərbi qələbələr müəyyənləşdirmir. Yüzlərlə fatehlər xatırlamaq olar ki, onlar məhz bəşər mədəniyyətinə gətirdikləri yeni mənəvi nailiyyətlərlə tarixilik qazanıblar.

Dünyada maddi olan hər şey keçicidir. Mənəviyyat isə əbədi.

Hətta bütöv xalqlar üzərində fiziki qələbə qazanıb, o xalqın hər şeyini əlindən almaq olar. Bütöv xalqları son nümayəndəsinə qədər yer üzərindən silmək belə insan oğlunun bacardığı işdir.

Fəqət əgər bu məğlubiyyət xalqın ruhi aləminə sirayət etməmişsə, o xalqı mənən də məğlub vəziyyətinə salmaq, onun ruhu üzərində qələbə qazanmaq mümkünsüzsə, bu, artıq qələbə deyil. Çünki alı ucalıqlara çəkilən o ruh nə vaxtsa yenidən qayıdacaq. Nə vaxtsa o ruh yeni insanların, yeni nəsillərin təfəkküründə daxil olub konkret əməllərdə bir daha maddiləşəcək.

Və bu dəfə qələbə artıq o ruhu daşıyanların tərəfindədir...

Biz öz ruhumuzun doğulduğu yerdən başlayırıq. Azərbaycan o ruhun dünyaya göz açdığı məkandır.

Sənələr boyu ruhumuzun işığında yol gəldik. Yolumuzun üstündə maneələrə çevrilib qanımızı tökənlər oldu. Torpaqlarımızı parçalayanlar oldu, işğal edənlər oldu. Bizi doğma qardaşlarımızdan ayrı salanlar oldu, tariximizə soyqırım yaraları vuranlar oldu, dilimizi, dinimizi əlimizdən almaq istəyənlər oldu. Amma yenə də sınmadıq, əyilmədik, bəzi məqamlarda fiziki baxımdan yenilsək belə - mənən məğlub olmadıq.

Ən müxtəlif ictimai-siyasi proseslər, mədəni, hüquqi milli baxımdan ziddiyyətli həyat məqamları, Azərbaycanın milli-mənəvi, əxlaqi dəyərlərini qorumaq əzmini sarsıda bilmədi.

Artıq uyurumuz xeyirə, yolumuz qələbələrə doğru yönəlib. Bu belə də olmalıdır. Cünki xalq ruhunun ən dəyərli daşıyıcısı müəyyənləşdirib bu yolu bizə.

Öz əməllərində ötən yüzilimizin ən böyük Azərbaycanlısı mükafatının ən layiqli sahibinə çevrilən **Heydər Əlirza oğlu Əliyev** müəyyənləşdirib.

Heydər Əliyev şəxsiyyəti bu sətirlərin müəllifi üçün dünyanın əsrarəngiz həqiqətlər mənzərəsidir. Bu sırada bir həqiqət də öz təsdiqini tapıb ki, yalnız milli olan dəyərlər həm də bəşəri sayıla bilər.

Süleyman peyğəmbərin bütün dünyada yayılmış prıçalarından hansındansa belə bir zərbi məsəl göz dəyir: «Qoruduğun şeylərdən ən çox ürəyini qoru, çünki həyatın mənbəyi ondandır».

Heydər Əliyev Azərbaycan xalqının ürəyindən qopub gəlmişdi. Gəlmişdi ki, bu xalqın ürəyini qorusun, xalqın ruhunu məhv olmaqdan xilas etsin. O, öz missiyasını uğurla başa vurdu və hələ sağlığında ikən yenidən doğulduğu yerə qayıtdı - xalqın ürəyinə.

Tarixi şəxsiyyətlərin yetişməsində təbii ki, mühit, hadisə və proseslər öz sözünü deyir. Lakin bu hadisə və proseslərin mərkəzində dayanan ən əsas amil yenə də şəxsiyyətlərin özüdür. Bu prosesdə onlar təkcə cəmiyyətin ab-havasını dəyişmirlər, bu prosesdə fərd olaraq özləri də müəyyən dəyişikliklərdən, inkişafdan keçirlər. Kəskin dəyişikliklərlə bir-birini çox sürətlə əvəz edən ardıcıl situasiyalar onların qarşısında yeni vasitələr, proseslərə yeni yanaşma üslublarının tapılması məsələsini aktuallaşdırır.

Bu təbəddülatlarda dəyişməyən bircə həqiqət var - şəxsiyyətlərin gerçək siması. Bəşəriyyət ən dəyişkən situasiyalarda da Heydər Əliyevi yalnız bircə sımada tanıdı.

Heydər Əliyev kimi.

Heydər Əliyev bu sətirlərin müəllifi kimi milyonlarla şəxs üçün əsl şəxsiyyət idealıdır.

Azərbaycanın ən yeni tarixi məhz onun müəllifliyi ilə yaranıb. Hələ ölkəyə rəhbərliyinin birinci dövründə Heydər Əliyev sovet ideologiyasının bütün maneələrini yararaq Azərbaycanda milli özünüdərk məsələlərini önə çəkə, repressiya xofundan don vurmuş Azərbaycanlı şüurundakı bu qorxunu, çəkingənliyi aradan qaldıra, Azərbaycan cəmiyyətini bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə doğru hazırlaya bilmişdi.

Dövlətçilik təfəkküru bütün dəyərlərin bir-birini tamamladığı, bir-birinə bağlandığı taleyüklü intellektual düşüncə tamlığıdır. Dövlətçilik ideoloji aspektdə - vətənin, millətin, ictimai mənada - vətəndaşlığın, insanın, iqtisadi anlamda- cəmiyyətin idarəsinin, sənətdə - mənəviyyatın, ruhi-milli mənin mövcudluğunu, təbliğ etmək yönündə dünyəvi, planlı bir əna-

nəyə çevrilmiş ideyalar tənasübüdür. Heydər Əliyev hələ ölkəyə rəhbərliyinin birinci mərhələsində Azərbaycan insanlarının təhtəlşüurunda bu ideyaları oyatmağı, onların tənasübünü formalaşdırmağı bacarmışdı.

O dövrdə məhz Heydər Əliyevin xidmətləri sayəsində Azərbaycanda bir mənəvi inqilabın başladığı göz önündə idi.

Artıq dünya Nizaminin, Füzulinin, Nəsiminin, Vaqifin, C.Cabbarlının S.Vurğunun, Q.Qarayevin, F.Əmirovun onlarla belə dühalarımızın timsalında Azərbaycan sözünə, səsinə diqqət kəsilirdi.

Böyük Məhəmməd Hadinin təbirincə desək, imzalar içində bizim də xəttimiz, nişanımız görünürdü.

Hələ çox-çox sonralar duyub başa düşəcəkdik ki, bu Azərbaycanın milli-mənəvi dəyərlərinin sadəcə təbliği deyilmiş.

Bu, həm də Azərbaycan milli-mənəvi dəyərlərinin qüdrəti ilə sovetlər imperiyasının vahid dil, vahid millət kimi amorf siyasəti qarşında qurulan mənəvi sədd imiş. Bu siyasətin Azərbaycan hüdudlarından kənarda saxlanması, bu siyasətin sərhədlərimizi adlamasına imkan verilməməsi imiş.

Heydər Əliyev bir ömür boyu Azərbaycan milli-mənəvi dəyərlərinin ən qüdrətli himayəçisi, ən böyük xeyirxahı oldu.

Ölkənin hər bir səmtində Azərbaycanın söz peyğəmbərlərinə ucaltdığı heykəllərlə, sözə, sənətə, sənətkara verdiyi qiymətlə özü də insanların gözündə heykəlləşdi, özü də sözə çevrilib əfsanələrə, dastanlara, rəvayətlərə köçdü.

Heydər Əliyev Sovet İttifaqı rəhbərliyini Azərbaycanın minillik ənənələrini tanımaq məcburiyyəti qarşısında qoymaqla bu dövrdə Azərbaycan xalqını totalitar düşüncə tərzinin amansız təhdidlərindən hifz edə, imperiyanın siyasətinə qarşı müxalif mövqedə dayanan ziyalılarımızı açıq-gizli təzyiqlərdən qoruya, xalqı öz halal sərvətinin sahibinə çevirə bilmişdi.

Heydər Əliyevin zəngin mənəvi irsini yeni yüzilin müstəqil dövləti olan Azərbaycanımızın gələcək inkişaf və tərəqqi yolunu müəyyənləşdirən etibarlı səmt göstəricisi hesab edənlərin bu fikrini tam bölüşürəm.

90-cı illərin əvvəllərində elə bir zamana gəlib yetişdik ki, bu dövrdə cəmiyyət həyatında baş verən təbəddülatlar təkcə yeni müstəqillik qazanmış dövlətimizi öz müstəqilliyini itirmək, parçalanmaq təhlükəsi ilə üzüzə qoymadı. Həm də minillik dəyərlərimizə qarşı yönəldi.

O dövrdə digər keçmiş sovet respublikalarında olduğu kimi Azərbaycanda da milli mədəniyyətinin bütün sahələri üzrə tənəzzülə rəvac verən

təsirlər güclənmiş, problemləri gündən-günə artıb güclənən yaradıcı ziyalılarımız ümidsizlik girdabına yüvarlanmışdılar.

Belə bir məqamda Azərbaycan dövlətinin təhlükələrdən xilası, milli dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsi ilə yanaşı bu prosesdə öz intellekti, düşüncəsi, bir sözlə, fərdi təfəkkür töhfələri ilə lə yaxından iştirak edə biləcək elm, mədəniyyət, ədəbiyyat xadimlərimizin qayğı və çətinliklərinin tədricən yüngülləşdirilməsi də vacib amillərdən idi.

O çətin günlərdə **Heydər Əliyev Azərbaycanın cismina bir ruh, nəfəs kimi qayıtdı...**

Dövlətimizlə xalqımızla birgə milli mədəniyyətimizin, milli mənəviyyatımızın da xilasedicisinə çevrilən ümummilli liderin məqsədyönlü siyasəti sonrakı mərhələlərdə yeni inkişaf müstəvisinə adlayaraq özünün sistematik konturlarını cızdı.

Azərbaycan ziyalısının təfəkküründə və əxlaqında təmayülçülük meyllərinin get-gedə daha da güclənməsi nəticə etibarilə cəmiyyətdə itirilməkdə olan dəyərləri ziyalı nüfuzu anlamında bərpa etdi.

Tarixin bütün əyyamlarında dövlətçilik ideyalarının zənginləşməsi, həmçinin vətəndaş cəmiyyəti quruculuğunun milli, mədəni, mənəvi mahiyyətinin formalaşması prosesi həm də düzgün mədəni siyasətdən, yaradıcı şəxsiyyətlərin mövqeyindən keçib.

Azərbaycan öz dövlət müstəqilliyinə qovuşandan sonra bu siyasətin öz üzərinə yeni məzmun yükü götürməsi, Azərbaycan mədəni irsinin çağdaş dünya mədəniyyəti ilə harharmonik dialoqu mənəvi məsələ kimi qarşıda dayanmışdı. Kim nə deyir desin, sovet stereotiplərindən fərqli olaraq müstəqillik çağının yaradıcı şəxsiyyətlər qarşısında müəyyənləşdirdiyi təbii tələblərdən biri də budur ki, onlar milli-mənəvi dəyərlərimizin qorunması ilə yanaşı, dövlətçiliyimizin müdafiəsi və möhkəmləndirilməsi sahəsində də öz sağlam düşüncə ilə, suveren dövlətə malik yaradıcı ziyalının təfəkkürü prizmasından çıxış etsinlər.

Bu kimi konseptual məsələlərin gündəmə gətirilməsi və perspektiv siyasi-mədəni görüşlərin yetişməsi də məhz yeni Azərbaycanın Heydər Əliyev dövrü ilə bağlıdır.

Ümummilli liderimiz hakimiyyətə növbəti dəfə qayıdışı dövründə tarixi, mədəni, milli, ideoloji dəyərlərimizi yenidən Azərbaycan insanlarının həyatına qaytarmağa dövlət səviyyəsində nail ola bildi.

Milli-mənəvi dəyərlərin cəmiyyətin inkişafında rolunu çox yüksək qiymətləndirən Heydər Əliyev bu sahədə aparılan siyasəti dövlət siyasətinin tərkib hissəsinə çevirdi. Ziyalı düşüncəsinin dövlət təsirində kənarda, fəqət dövlətin himayəsində mövcud olması üçün real əsaslar yaratdı.

Heydər Əliyev millətin özünüdərkində, milli dirçəliş prosesində milli ideologiyanın formalaşmasında milli-mənəvi dəyərlərin rolunu, nüfuz əhatəsini xarakterizə edərkən «Bizim insanların qəlbinə təsir edən ədəbiyyatımız olub, şerimiz olub və həmin şerlər həmin sözlər doğrudan da xalqımızda, millətimizdə milli ruh oyadıb, milli dirçəliş prosesini gücləndirib - deyirdi ümummilli liderimiz - Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıb. Bəlkə də bu milli psixologiya milli ideologiya indi bir sistem halında deyil, yəni bir sənəd, bir kitab, bir proqram yoxdur. Amma bu olmalıdır və biz bunun üzərində işləyirik».

Əslində artıq belə bir proqram var. Bu proqram üzərində Heydər Əliyevin imzası olan fərman, qərar və sərəncamların, onun müxtəlif toplantılarda, görüşlərdə səsləndirdiyi fikirlərin cəmidir.

Xüsusilə də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edildiyi 1995-ci ildən sonra ümummilli liderin imzaladığı bütün hüquqi aktlar milli-ideoloji məzmun yükünə malikdir.

Dünya azərbaycanlılarının Bakıda keçirilən I qurultayındakı tarixi çıxışı, Azərbaycanın dövlət dilinin təkmilləşdirilməsi ilə əlaqədar 18 iyun 2001-ci il tarixli fərmanı, milli-mənəvi dəyərlərin qorunması və sosial ədalət haqqında 13 avqust 2001-ci il tarixli bəyanatı və onlarla belə xarakterik faktlar Heydər Əliyevin ideoloji sahədə azərbaycançılıq, azərbaycanşünaslıq, azərbaycanlı dünyagörüşü məsələləri, Azərbaycan milli-mənəvi dəyərləri, azərbaycanlı mentaliteti, əxlaqi problemlərinə dövlət səviyyəsində yanaşmasının bariz təzahürüdür.

Ümummilli liderimizin Azərbaycan xalqına, dövlətinə, Azərbaycanın elmi-intellektual, iqtisadi-siyasi, sosial-mədəni, inkişafına, milli-mənəvi intibahına həsr olunan ötən yüzil tarixi mizdə əsrarəngiz bir mərhələ təşkil edən fenomenal fəaliyyətində milli dil siyasəti həmişə həlledici mövqe tutub. Nə vaxtsa alman filosofu Vilhelm Humbolt deyirdi ki, **«xalqın dili onun ruhudur».** Bu ali gerçəklik Heydər Əliyevi də doğma dilimizin vurğununa çevirmişdi.

O, tarixin müəyyən dolanbaclarında yaddaşlardan iraq düşən, yaxud xalq ruhunun öldürülməsi naminə məqsədli şəkildə iraq salınan söz peyğəmbərlərinin yenidən düşüncələrə qaytarılması ilə Azərbaycan dilinin zəngin ədəbi yadddaşını hərəkətə gətirir, dilin daxili enerjisinin min illər boyu yığılmış ruhi-mənəvi imkanlarını oyadaraq ona dinamizm verirdi

Ümummilli liderimizin milli-mənəvi dəyərlərin qorunması və sosial ədalət haqqında verdiyi bəyanatı xatırlayıram. **Bu, sadəcə bir bəyanat yox, bütöv bir mənəviyyat dərsi idi.** O dərsdən nəsə mənimsəyənlər çox şey qazanmış oldular.

Yeri gəldi-gəldi azadlıq, demokratiya hayqırıb azadlığı nihilizm kimi başa düşənlərə bu dərs anlatdı ki, kiməsə verilmiş azadlıq başqasının hüquqları başlayan sərhədə çatarkən dayanmalı, mənəviyyat çəpərlərini adlayıb anarxiyaya çevrilməməlidir.

Bu dərs hamıya başa saldı ki, dünyada mənəviyyatdan uca heç nə dayanmır. Və bütün insanlar ən ali hündürlüklərə yetişmək üçün ilk növbədə mənəviyyat zirvəsini hədəf seçməlidirlər.

Bu bəyanat illər sonra da əxlaqımıza, adət-ənənələrimizə, milli dəyərlərimizə asi çıxmaq fikrinə düşənlərə də bir dərs olacaq, onları haqq yoluna gətirəcək.

Mənəviyyatsızlıq - bu artıq hər şeyin sonu deməkdir. Mənəviyyatsızlıq başlayan yerdə insan bitir.

Mənəviyyatsızlıq Qiyamət gününün addım səsləri, bəşəriyyətin başı üzərində səslənən əcəl zəngidir.

Tanrı Azərbaycan adlı bu müqəddəs torpağı mənəviyyat beşiyi kimi yaradıb. Minnillər boyu dünyaya ədəb-ərkan öyrədən bu Vətəndə bu gün kiminsə mənəviyyatsız olmağa haqqı yoxdur.

Heydər Əliyevin mənəviyyat dərslərində isə mənəviyyat anlayışı həm də vətəndaşlıq məfhumuna qovuşurdu.

«Hər bir insan özü öz mənəviyyatını qorumalıdır. Hər bir insan vətəndaşlıq borcunu ən yüksək borc hesab etməlidir». Bu deyim ümummilli liderimizin başqalarına da təlqin etməyə çalışdığı bir həyat kredosu idi.

Mənəviyyat anlayışı birölçülü, birrəngli deyil. Hər bir xalqın mənəvi dünyası onun həyat tərzində, maddi aləmə baxışlarında doğulur. Bu dünyaya kənardan hansısa dəyərləri gətirə və yaxud bu mənəvi dünyada qazanılan yeni nailiyyətləri bünyanın dəyərlər sisteminə əlavə edə bilərsən. Lakin xarici müdaxilələr bəzən milli-mənəvi dəyərlərə qarşı çox amansız olur. Xüsusilə də Azərbaycan kimi yenicə müstəqillik qazanan, qapılarını dünya mədəniyyətinin üzünə açan ölkələrdə bu bir tale məsələsidir.

Müasirlik şüarının qulaqbatıran səsi-avazı minnillərdən üzü bəri əldən-ələ ötürülə-ötürülə, daha da durulub cilalana-cilalana bizə, bizdən sonrakı nəsillərə doğru yol gələn qiymətli miras həyatımızdan qaçaq sala bilər. Ona görə də sərvaxt olmalıyıq.

Biz dünyadan nələri götürməli və dünyaya nələri verməliyik? Heydər Əliyevin müəllifi olduğu milli ideologiya bu sualı bizlər üçün dəqiq cavablandırıb. Zamanın qarşımızda müəyyənləşdirdiyi yeganə tələb isə bu ideologiyaya sadiqlik nümayişidir.

«Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qoruyub saxlamalı və gənc nəsli əsrlərin sınağından keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyə etməliyik». Hər cür biganəliklər, hadisə və proseslərə münasibətdə «məndən ötdü» yanaşmaları Heydər Əliyevin irəli sürdüyü bu prinsipin sərhədlərindən kənarda dayanır.

Heydər Əliyev xarakterco son dərəcə həssas insan idi. O, başqalarından da ilk növbədə bunu tələb edirdi. Heydər Əliyev bizlərə öyrətməyə çalışırdı ki, biganəlik cəmiyyətin ən böyük qənimidir. Ötən yüzildə başımıza gələnlərin çoxunu elə laqeydlik üzündən yaşamadıqmı?!

Vaxtın keçmiş, bu gün və gələcək anı insandan keçir. Həm də o qədər sürətlə ki, çox zaman keçmişə, bu günə və gələcəyə münasibətdə obyektivlik meyarını heç də hər zaman qoruyub saxlaya bilmirsən.

Heydər Əliyev isə özü bu zamanlardan keçir. Həm keçmişin, həm bu günün, həm də gələcəyin dəyərlər sistemi Onun adı ilə bağlı nələrisə dəyişmək imkanında deyil.

Çünki həm keçmişin, həm indinin, həm də gələcəyin dəyərlər sisteminin müəllifi Heydər Əliyev özüdür.

O zamana münasibətdə obyektivliyini həmişə qoruyub saxlayır və baxışlarında qətiyyən yanılmırdı.

Tarixin dilindən belə bir söz qopub: «keçmişə əsaslanıb gələcəyi görmək». Heydər Əliyev bunu bacarırdı. Ümummilli liderimiz indiyə gələcəkdən baxa bilirdi. Onun dəmir kimi sərt və çevik məntiqi uzaq gələcəyi bütün təfərrüatı ilə duyub dərk edirdi.

Bəlkə Tanrı ona bu qabiliyyəti həm də ona görə vermişdi ki, Heydər Əliyev heç zaman keçmişi inkar edənlərdən olmadı. **«Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır»** deyən Heydər Əliyev keçmişi

danmaqdansa onun səhvlərindən nəticə çıxarmağı daha üstün tuturdu. O bütün varlığı ilə bir yaddaş simvolu, kamillik həqiqəti idi.

Heydər Əliyev bizləri də yaddaşlı olmağa alışdırırdı. Çünki xalqın tarixi yaddaşı, həm də fərd olaraq hər birimizin yaddaşımız üzərində konkretləşir. Əgər yaddaşlı olmağı bacarmasaq, nə tarixdən bir əsər qalar, nə də xalqdan. Yaddaşımız yaşadığımız əxlaqi-mənəvi mühiti formalaşdırır.

Belə bir gerçək tarixin ən uzaq dönəmlərindən tanışdır ki, bəzən qüdrətli strateqlərin qurub -yaratdıqları dövlətlərin ömrü onların fiziki ömrü qədər olur. Həmin dövlətlərin, xalqların, cəmiyyətlərin yüksəlişi onlarla başlayıb, onlarla da tamamlanır.

Heydər Əliyev isə müstəqil Azərbaycan dövlətini yalnız qurub yaratmadı, Azərbaycanı yalnız sülh-sabitlik, inkişaf yoluna çıxarmadı. Həm də özünün ən layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin timsalında bu müstəqilliyin, bu sülhün, sabitliyin, bu inkişafın ardıcıllığını, əbədiliyini təmin etmiş oldu.

Heydər Əliyevin ən böyük mənəvi irsi elə İlham Əliyevdir.

Elimizin dilində belə bir deyim var ki, oğul ata yurdunun çırağını yandırar. Bu gün İlham Əliyev böyük öndərimizin Azərbaycan boyda yurdunun, evinin, ulusunun çırağını daha da nurlandırıb.

Biz bunu Azərbaycan Prezidentinin milli-mənəvi dəyərlərimizin yüksək sayğısında görürük. Minillərin o üzündən bizə doğru yol gələn qiymətli mirasın gələcək nəsillərimizə itkisiz, daha da zəngin şəkildə əmanət edilməsi üçün atdığı real addımlarda görürük.

Bu belə də olmalı idi yəqin. Heydər Əliyev məktəbində, Heydər Əliyevdən dərs almış dövlət xadimi başqa nə cür ola bilərdi ki?!

Bunu vaxtilə Mark Avreli demişdi ki, «əgər hökmdarlar filosof, filosoflarsa hökmdar olsaydı, bəşəriyyət necə də xoşbəxt olardı».

Heydər Əliyev hər iki ucalığı öz şəxsində bir araya gətirən unikal şəxsiyyət idi. Əgər o, öz adını tarixə Azərbaycanı xoşbəxtliyə doğru aparan qüdrətli dövlət xadimi kimi yazmasaydı, tarix onu dünyanın ən müdrik filosoflarından biri kimi xatırlayacaqdı...

BƏXTİYAR ƏLİYEV
Milli Məclisin deputatı

"Bizim məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir"

Heydər ƏLİYEV

MİLLİ – MƏNƏVİ DƏYƏRLƏRİMİZ VƏ MİLLİ DÖVLƏT QURUCULUĞU

Şərqdə ilk dəfə demokratik dövlət XX əsrin əvvəllərində quruldu. Bu demokratiya müjdəçisi Azərbaycan Demokratik Cümhuriyyəti idi. Yarandığı ilk günlərdən dövlət adamları anlayırdılar ki, müstəqilliyin həmin dövrdə təmin edilməsi demokratikləşən Avropaya inteqrasiyadan bilavasitə asılıdır. Ona görə də gənc dövlətimizin nümayəndə heyəti Parisə yola düşmüş, Azərbaycanın demokratik Avropa ailəsinə daxil olması üçün müəyyən işlər aparmışlar. Təəssüf ki, həmin dövrdə müstəqilliyimizi qoruyub saxlaya bilməmiş və nəticədə bu mühüm iş arzu olaraq qalmışdı.

XXI əsrə Azərbaycan həm müstəqil dövlət kimi qədəm qoymuş, həm də Avropa Şurasının tam hüquqlu üzvü olmuşdur. Bu tarixi qələbə heç də asanlıqla əldə edilməmişdir. Bunun üçün ilk növbədə müstəqilliyimiz möhkəmləndirilməli, demokratik, hüquqi cəmiyyət quruculuğu istiqamətində konkret və nəhəng işlər görülməli, iqtisadi dirçəlişə nail olmaq lazım idi. Qısa müddət ərzində Möhtərəm Prezident Heydər Əliyevin müdrik, məntiqi daxili və xarici siyasəti nəticəsində bütün bunlar əldə edilmiş, Azərbaycan müstəqil dövlət kimi beynəlxalq münasibətlər sisteminə daxil olmuşdur. Azərbaycan gənc müstəqil bir dövlət kimi möhkəmləndikcə, dünya birliyinə inteqrasiyası dərinləşdikcə müstəqilliyimizin əbədiliyi və dönməzliyi təmin edilir.

Dövlət quruculuğu çoxşaxəli, mürəkkəb bir prosesdir. Onun mühüm istiqamətlərindən bir də milli mədəniyyət məsələsidir. Milli mədəniyyətin inkişaf səviyyəsi və həmin səviyyənin istiqaməti müstəsna əhəmiyyətə malikdir. Milli mədəniyyət milli tarix və milli-mənəvi dəyərlər üzərində

köklənir. «Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək və onu qorumaq əzmindədir. Çünki milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı olmur» (Mehdiyev R.Ə. Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu Heydər Əliyev və müasir Azərbaycan. Bakı, 2003, s. 26.)

Doğrudan da, milli adət-ənənələrə sədaqət, milli təəssübkeşlik, milli identikliyə cəhd, milli özünəməxsusluğu ümumbəşəri dəyərlər süzgəcindən keçirərək qoruyub saxlamaq və möhkəmləndirmək milli həmrəyliyin və milli birliyin əsasını təşkil edir. Bunlar isə müstəqil milli dövlətçiliyin demokratik prinsiplər əsasında qurulmasına xidmət edir. Bunlarsız yadlaşma, cəmiyyətin mənəvi əsaslarının sarsılmasına və s. bu kimi sosial və sosial-psixolji hadisələr baş verir. Belə bir dövrü hər iki mənada xalqımız yaşamışdır. Birinci dəfə milli birliyə, özünəqayıdışa can atan xalq azadlığa qovuşdu və milli həmrəylik bunu təmin etdi.

Lakin cəmiyyətdəki köhnə dəyərlərin yenilərilə əvəz edilməməsi, bu boşluğun mənəvi boşluğa çevrilməsi, milli hissiyatın itirilməsi, adət-ənənələrə və onların əsasında cəmiyyətdə formalaşmış, həyat fəaliyyətimizi təmin edən sosial normaların itirilməsi yadlaşma sindromuna gətirib çıxardı. Nəticədə parçalanma, etnik separatizm, milli ədavət, məhəlli münaqişələr meydana gəldi.

Milli dövlətçiliyin nəinki qurulması, hətta onun tarixdən silinib itməsi təhlükəsi yarandı. Belə bir vəziyyət xalqı yenidən birləşdirə biləcək, onu öz milli kökünə kökləyəcək güclü şəxsiyyətə, dövlətçilik işinin mahir bilicisinə böyük ehtiyac yarandı. Şübhəsiz ki, belə tarixi məqamlarda həmin proseslərə nüfuz edə biləcək, onu istiqamətləndirəcək tarixi şəxsiyyətə zərurət yaranır. Azərbaycan tarixi özünün məhz bu məqamını yaşayırdı. Həmin tarixi şəxsiyyəti tarix özü seçdi. Bu böyük insan Heydər Əliyev idi. Belə çətin məqamda tarixi məsuliyyəti öz üzərinə götürərək milləti o xilas edə bilərdi. Etdi də bunu. Bəs bu güc, bu qüdrət, bu düha haradan idi görəsən onda? Bu suala cavab vermək çətindir. Yəqin müxtəlif elm sahələrində Heydər Əliyev fenomeni araşdırıldıqca zaman-zaman, zərrə-zərrə bu suala da aydınlıq gətiriləcək və nəinki azərbaycan xalqı, bütün bəşəriyyət bu insana dönə-dönə heyran olacaq.

Heydər Əliyev irsinin elmi-fəlsəfi təhlilini verərkən prof. R.Mehdiyev milli-mənəvi dəyərlərin dövlət quruculuğundakı əhəmiyyətini xüsusi olaraq qeyd edir. O yazır: «Məhz milli hisslərə, milli ənənələrə sədaqət-milli eyniyyəti, özgürlüyü bərqərar etmək və qoruyub saxlamaq niyyəti, qərb və şərqin tarixi nailiyyətləri ilə zənginləşmə əsasında cəmiyyətin modernləşdirilməsi, güclü və müstəqil Azərbaycan qurmağa qadir milli çoxluğun formalaşdırılması son 8 ildə keçirilən möhkəm və uğurlu dövlət quruculuğunun rəhnidir» («Azərbaycanda siyasət bu gün və sabah»).

Milli dövlət quruculuğu millı birliyi, milli mənlik şüurunun inkişafını və belə bir toplumun iradəsini tələb edir. Bunsuz dövlətin möhkəm təməlini qoymaq mümkün deyil. Bununla əlaqədar olaraq qeyd edilməlidir ki, «Heydər Əliyev xalqın səviyyəsinə uyğun gəlməyən, onun başının üstündən keçən qərarlar qəbul etməkdənsə, xalqın inkişaf səviyyəsinə uyğun islahatlar aparılmasına və dövlətin də xalqla birlikdə inkişaf etdirilməsinə üstünlük verir» (Heydər Əliyev və müasir Azərbaycan. Bakı, 2003, s.6).

Burada mühüm bir məqama toxunmaq istərdik. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Heydər Əliyev həmişə azərbaycanlı olması ilə fəxr edib. Bəlkə də sovetlər dönəmində kommunist ideologiyası onun bu hissləri tam aşkarlığı ilə sevinclə yaşamasına tam imkan verməyib. Amma doğma respublikaya 1969-cu ildə rəhbərliyə başladıqdan sonra Azərbaycan dilinin dövlət dili kimi konstitusiyada öz əksini tapmasına o çətin dövrlərdə inadkarlıq, siyasi iradə göstərərək nail olunması, onun eləcə də mədəniyyətin, incəsənətin, adət-ənənələrin inkişafına xüsusi diqqət və qayğının göstərilməsi, Cavidin yad ellərdən doğma torpağa qaytarılması onun mənəvi zənginliyinin və gücünün tükənməz mənbəsi idi. Bütöv bir millətin qan yaddaşının daşıyıcısı kimi onu qoruyub saxlayan, yeni nəsillərə ötürən dahi şəxsiyyətin liderliyə can atanlardan fərqləndirən başlıca xüsusiyyətlərindəndir bu.

Azərbaycan Respublikasının Prezidenti cənab H.Əliyevin 13 avqust 2001-ci il tarixli bəyanatı milli dövlət quruculuğu baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu çox əhəmiyyətli bir məsələdir. Həmin bəyanatda milli adət-ənənələrə söykənən və cəmiyyətin həyat fəaliyyətini tənzimləyən sosial normaların dövlət idarəçiliyində, onun inkişafında əsas amil olduğu vurğulanır. Əlbəttə, hər bir sosial hadisə konkret etnomədəni, etnososial mühitdə baş verir və bu sistemin xüsusiyyətlərinin nəzərə alınması zəruridir. Əsas insan hüquq və azadlıqları, demokratikləşmə bu dəyərlərə söykənir.

Azərbaycan xalqının xoşbəxt gələcəyinə, dövlətçiliyin möhkəmlənməsinə bütün ömrünü həsr etmiş görkəmli ictimai-siyasi xadimin, müdrik insanın bu məsələ ilə bağlı fikirləri dərindən öyrənilməli və əsas prinsiplər kimi dövlət quruculuğunun əsasında dayanmalıdır. Çünki dövlət quruculuğu, dövlət siyasəti millətdən kənarda mövcud deyil. Dövlət xalqın iradəsini ifadə edir. Xalqın dəyərlər sistemi, inkişaf səviyyəsi və adət-ənənələri isə milli siyasəti və milli dövlətçiliyi müəyyənləşdirir.

Həmişə uşaqlara, gənclərə xüsusi diqqət yetirən, onların təlim-tərbiyəsinin yüksək səviyyədə qurulmasına, sağlamlığına qayğı ilə yanaşan möhtərəm Prezident dəfələrlə qeyd etmişdir ki, biz gənclərə hər bir şərait yaratmalıyıq, çünki onlar Azərbaycanın gələcəyidir. Ona görə də dövlət rəhbərinin xalqın mənəvi dəyərlərinin qorunub saxlanması və gənc nəslin təlim-tərbiyəsində milli-mənəvi dəyərlərin gücləndirilməsinə xüsusi diqqətin nəticəsi kimi müəyyən qanunlar hazırlanmış, fərman və sərəncamlar imzalanmışdır. Eyni zamanda, bu qayğı dövlət səviyyəsində həmin məsələlərin həlli ilə bağlı aparılan işlərdə və həyata keçirilən tədbirlərdə öz əksini tapmışdır.

Çox təəssüf ki, ölkə rəhbərinin ürək ağrısı və ciddi narahatlıqla qaldırdığı məsələyə dövlət qayğısı nə qədər güclü olsa da, bir çoxları öz vətəndaşlıq mövqeyini tam məsuliyyəti ilə yerinə yetirmədikləri üçün bu sahədə bəzən ciddi problemlərlə üzləşirik. Bununla bağlı ümummilli liderimiz Heydər Əliyev demişdir: «Təəssüflər olsun ki, bizim cəmiyyətimizdə çoxları bunu görür, amma buna münasibətini bildirmir». Əsl vətəndaş mövqeyindən uzaq olan, biganəlik və laqeydlik xarakter əlamətinə çevrilmiş bir qrup adamların həyat məfkurəsini, obrazlı şəkildə desək, «qoy mənim işim düzəlsin, millət batsa da, batsın» təşkil edir. Belə bir vəziyyət çox təhlükəlidir. Bu, bizim hamımızı, ilk növbədə ziyalıları, bütün pedaqoqları dərindən düşündürməlidir. Bu düşüncələr isə bəzi suallar doğurur. Sovet ideologiyası əsasında formalaşdırılmış, lakin bu gün öz əhəmiyyətini itirmiş bir çox dəyərlərin yaratdığı boşluqları necə və nə ilə doldurmalı? Onları gənclərin əsl sərvət dəyərlərinə, idealına necə çevirməli? Milli özünüdərkin, milli şüurun və milli mənlik şüurunun təşəkkülünü necə təmin etməli?

Burada filosofların, pedaqoq və psixoloqların öhdəsinə böyük vəzifələr düşür. Sərvət dəyərlərinin təhrif edilməsi, milli adət-ənənələrdən nəşət tapan ictimai münasibətlərin gənc nəsil tərəfindən mənimsənilməsinə

əngəlliklərin törədilməsi, milli soykökümüzdən uzaqlaşdırılması şəxsiyyətin deformasiyasına, mənəviyyatsızlığına, mənlik, şərəf və ləyaqət kimi əxlaqi hisslərin itirilməsinə səbəb olur.

Varlanmaq üçün hər cür çirkin və iyrənc yollara əl atanlar milli hisslərimizə açıq-aşkar, həyasızcasına təcavüz edirlər. Fikrimizcə, bu cinayətlərin ən təhlükəlisi və dəhşətlisidir. Ona görə də belə hallara qarşı hər bir vətəndaş mübarizə aparmalı və milli saflığımızı qorumalıdır. Şübhəsiz ki, əxlaqın, mənəviyyatın pozulmasına yönəlmiş bütün bu hərəkətlərdə Azərbaycana dost olmayan xarici qüvvələrin də ideoloji və maddi baxımından «zəhməti az deyil». Bir çoxları bunu anlamır, başa düşmür. Nəticədə, «yüngül əyləncənin», «şən həyatın» qurbanlarına çevrilirlər.

Fikrimizcə, mənəvi-əxlaqi, milli dəyərləri – bəşəri dəyərləri təbliğ etmək gündəlik işimiz olmalıdır. Ailədə, məktəbdə, mətbuatda, televiziya və radiolarda bu mövzuda mütəmadi olaraq söhbətlər aparmalı, materiallar dərc edilməlidir. Təsadüfi deyil ki, Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

Heydər Əliyev ən mühüm məsələlərdən biri kimi həmişə özünü tərbiyəyə xüsusi yer vermişdir. Məlumdur ki, özünütərbiyə tərbiyənin tərkib hissəsidir. Ona görə də onun irəli sürdüyü «hər bir insan özü-öz mənəviyyatını qorusun» tezisi özünütərbiyənin xüsusilə bu gün çox mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Belə bir münasibət korrupsiyaya qarşı mübarizəni də ehtiva edir. Çünki dövlət məmurunun sədaqətli xidməti, öz vəzifəsini vicdanla icra etməsi onun mənəvi saflığından xeyli dərəcədə asılıdır.

Hər şey laqeydlikdən, biganəlikdən başlayır. Özünə və başqalarına tələbin zəif olması, münasibətlər sisteminin təhrif edilərək mənimsənilməsi bütövlükdə insanın xarakterinə mənfi təsir göstərir. Buradan da iradə zəifliyi ortaya çıxır ki, bu da bir çox bəlaların əsas səbəbidir. Tərbiyə sistemi xalqın öz adət-ənənəsinə, milli və mənəvi dəyərlərinə söykənməlidir. Lakin bir qrup adamlar zənginləşmək xatirinə gənclərin mənəvi saflığa olan meyillərini, yönəlişliyini əxlaqa zidd olan müxtəlif eybəcər əyləncələrin, oyunların və sairənin vasitəsilə təbii axarından çıxarır və nəticədə onlarda milli-mənəvi dəyərlərə yad olan davranış tərzi formalaşdırılır. Məktəblilərin qanunsuz işlərə cəlb edilməsi, mədəniyyətimizə zidd olan, hətta deyərdim ki, onun məhv edilməsinə yönəlmiş ədəbiyyatın gizli surətdə çap olunub yayılması, humanitar fəaliyyət adı altında çalışan təşkilatların pozuculuq işləri, missionerlərin fəaliyyəti, bəzi kütləvi informasiya vasitələrində dərc edilən əxlaqa zidd yazılar və s. ciddi problemlər yaradır. Halbuki, möhtərəm Heydər Əliyevin dediyi kimi, biz öz milli mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə fəxr etməliyik.

Gənclərə təhsildə, elmdə, peşə fəaliyyətində, idman və incəsənətdə qazanılan uğurlarımız təbliğ edilməlidir. Həmin nailiyyətləri əldə etmiş insanların digərlərinin idealına çevrilməsinə nail olmalıyıq. Azərbaycan əsgərinin misilsiz rəşadəti, Vətənə hədsiz məhəbbəti örnək olmalıdır. Azərbaycan Prezidentinə dövlətçiliyin rəmzi, onun qüdrəti, varlığı kimi böyük hörmət və ehtiramla yanaşılmalıdır. Hər bir vətəndaş öz ölkəsi, onun Prezidenti ilə fəxr etməlidir. Onda biz mənəvi gücə və saflığa, birliyə nail olarıq. Dövlət himni səslənəndə biz iftixar hissi keçirməliyik. Həyatımızın mənasını, mənəviyyatımızın əsasını bunlar təşkil etməlidir.

Bütövlükdə bu sahədə cəmiyyət qarşısında çox mühüm vəzifələr durur. Heydər Əliyev müdriklikllə deyirdi: «Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi-əxlaqi dəyərlər uğrunda tərbiyələndirməliyik».

Təəssüf ki, bir milyondan artıq məcburi köçkün və qaçqının uzun illər çox ağır və əzablı həyatına, torpaqlarımızın iyirmi faizinin işğal edilməsinə baxmayaraq öz şəxsi mənafeyini güdənlər – «harınlamış insanlar və onların övladları eyş-işrət içərisindədir». Özlərinin mənəviyyatını pozmaqla, namus və ləyaqətlərini itirməklə yanaşı, başqaların da bu nalayiq və cəmiyyətimiz üçün təhlükəli olan yola sürükləyir. Belələrinə və namusu alıb satmaqla məşğul olan yerlər saxlamaqla zənginləşənlərə qarşı amansız, barışmaz olmalıyıq.

Şübhəsiz ki, keçid dövrü, yeni iqtisadi münasibətlərin təşəkkül prosesi də bir sıra neqativ halların meydana çıxmasına səbəb olur və insanların əxlaqına mənfi təsir göstərir. Belə halların aradan qaldırılması üçün məqsədyönlü iş aparılmalıdır. Bu hər birimizin vətəndaşlıq borcudur.

Azadlıq, müstəqillik uğrunda mübarizə aparan xalqı bu yoldan döndərmək üçün SSRİ-nin o vaxtkı rəhbərliyi 1990-cı ilin qanlı 20 Yanvar faciəsini törətdi. Respublika dərin böhran və qorxu içində idi. İnsanlar sabahkı günə ümidsiz idilər. Belə bir dövrdə xalqının taleyinə biganə qala bilmə-

yən Heydər Əliyev heç nədən çəkinmədən, həyatını təhlükədə qoyaraq 1990-cı ilin 21 yanvarında Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək xalqına qarşı törədilmiş cinayəti bütün dünyaya bəyan etdi, bu cinayətə özünün kəskin münasibətini bildirdi. Xalqı ümidli etdi, ona arxa durdu. Bu azadlıq çağrışı xalqımızı ruhlandırdı, mübariz etdi. Xalqa nicat yolunu göstərən cənab Heydər Əliyev qadağalara baxmayaraq Vətənə döndü. Tarixin çətin sınaq məqamında xalqla bir yerdə olmağı üstün tutdu. Özünün qeyd etdiyi kimi, «adamlar fəlakətə düçar olanda kənarda qala bilməzdi». Təəssüf ki, həmin dövrdə xalqın əsil məhəbbətini qazanmış görkəmli siyasətçiyə qarşı həm Moskva, həm də onun respublikada olan əlaltıları iyrənc üsullarla mübarizə aparırdılar. Azərbaycan isə uçuruma yuvarladılırdı. 1991-ci ilin fevralında cənab Prezidentin Ali Sovetin iclasında ölkənin düşdüyü ağır vəziyyət, Qarabağı gözləyən təhlükə və onun qarşısının alınması istiqamətləri haqqındakı tarixi çıxış yaddaşlara birdəfəlik həkk olundu. Təqiblər daha da gücləndi. Qarabağın ardınca Naxçıvanın başı üzərində qara buludlar sıxlaşmağa başladı. Azərbaycanın bu qədim diyarını dəhşətli faciədən onunu əsl xilaskarı möhtərəm Heydər Əliyev qurtardı.

«Böyük iftixar hissi ilə demək olar ki, biz bu illər böyük sınaqlardan keçmişik, böyük faciələrin qarşısını almışıq, ancaq sınamamışıq, geri çəkilməmişik, müstəqillik yolu ilə getmişik və Azərbaycanın dövlət müstəqilliyini dönməz etmişik».

Qısa bir müddətdə 1970-ci illərdə yaradılmış iqtisadi potensial insafsızcasına talan edilir, ölkə viran qoyulurdu. Bu bəs deyilmiş kimi, Azərbaycanın bir neçə yerə parçalanması, vətəndaş müharibəsi və nəticədə Azərbaycan dövlətinin birdəfəlik tarixdən silinməsi təhlükəsi yarandı. Xalqın təkidi ilə cənab Heydər Əliyevə müraciət edildi. Bu ağır, çıxılmaz bir vəziyyətdə tarixi bir missiyanı üzərinə götürərək xaosun tüğyan etdiyi Bakıya möhtərəm Prezident qısa müddətdə Azərbaycan dövlətçiliyinin qorunub saxlanması üçün konkret tədbirlər həyata keçirməyə başladı. Dövlətçiliyin gözəl bilicisi və bu sahədə zəngin təcrübəyə malik insan təkcə Qarabağın deyil, həm də bütöv Azərbaycanın xilas edilməsi istiqamətində gərgin fəaliyyətə başladı.

Bu gün insanlar gələcəyə inamla baxır. İqtisadi yüksəliş, ictimai-siyasi stabillik, hüquqi və demokratik dövlət quruculuğu, xarici siyasətdəki uğurlar, Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq aləmdə yüksək

yer tutması ən ağrılı problem olan "Dağlıq Qarabağ problemi"nin sülh yolu ilə həll edilməsinə real imkanlar yaratmışdır.

Heydər Əliyev çox dəqiqliklə deyirdi: "Mən çox nikbinəm və çox inanıram, əminəm ki, Azərbaycan üçün çox ağır olan bu problemi, məsələni biz həll edəcəyik. Həll edəcəyik, işğal edilmiş torpaqlar azad olunacaqdır. İnsanlar öz doğma torpaqlarına qayıdacaqlar. O torpaqlarda viran qalmış, dağıdılmış şəhərlər, kəndlər, evlər, insan yaşayışı üçün lazım olan hər bir şey bərpa ediləcəkdir... Mən buna inanıram. "

Bunun üçün isə şəxsi ambisiyalardan uzaqlaşmaq, əl-ələ vermək və ölkəmizi Heydər Əliyev kursu ilə irəliyə doğru aparmaq lazımdır.

Bu gün Heydər Əliyev irsinin Azərbaycan dövlətçiliyi üçün əhəmiyyətini araşdırarkən istər-istəməz bir sual səni düşündürməyə bilməz: Görəsən 1993-cü ilin iyun ayında "Ölüm ya qalım" dilemması ilə rastlaşmış Azərbaycanın rəhbərliyinə cənab Heydər Əliyev gəlməsəydi, onun aqibəti necə olacaqdı? Elə tarixi şərait yaranmışdı ki, dövləti və xalqı düşdüyü vəziyyətdən yalnız peyğəmbər möcüzəsi xilas edə bilərdi. Xalq da xalqı hakimiyyətdən tam təcrid etmiş o vaxtkı iqtidar da yeganə bir nicat yolu görürdülər: Heydər Əliyev dühası.

Ona görə yox ki, onlar bu həqiqəti dərk etmişdilər. Əksinə, siyasi arenadan, bəlkə də bütövlükdə tarixdən silinib atılacaqlarını başa düşdükləri üçün özlərinin nicat yolunu Heydər Əliyevdə görürdülər. 15 iyun 1993-cü il "Qayıdışı" xalqın özünə, soykökünə qayıdışı və milli özünüdərkin başlanğıcı idi. Bu qayıdışı xalqda özünə inam, güc yaratdı. Tarixin amansız burulğanından xilas etdi.

Cənab İlham Əliyev çıxışlarının birində çox dəqiq və haqlı belə bir fikir söyləmişdi: Heydər Əliyev uzaqgörənliklə, məntiqi ardıcıllıqla atdığı hər bir addım məhvə məhkum edilmiş bir xalqı nəinki xilas etdi, həm də onu dünya sivilizasiyasının ayrılmaz və üzvi tərkib hissəsinə çevirdi. Bu əsl möcüzə idi. Bəlkə də peyğəmbərlik idi.

Bunu tək bir insan edə bilərdi. O da xalqına istinad edən, xalq hakimiyyətinə söykənən Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev. Biz tarixi şəxsiyyət tərəfindən tarixin necə yaradıldığının canlı şahidləriyik. Budur həqiqət.

VƏSADƏT ƏZİZOV
Milli Məclisin deputatı

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİK TARİXİ

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonu və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.

Heydər Əliyev

Azərbaycan xalqının əsrlər boyu qəlbində yaşatdığı milli dövlətçiliyə nail olmaq arzularının gerçək ifadəsi olan və ömrü cəmi 23 ay çəkən Azərbaycan Xalq Cümhuriyyəti ürəklərdə elə bir məşəl alovlandırdı ki, təqribən 70 il ərzində tatalıtar kommunist rejiminin amansız cəza-repressiya maşını bu məşəli söndürə bilmədi. "Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu". XX əsrin 80-ci illərinin ortalarından etibarən bütün dünyada, o cümlədən Azərbaycanda baş qaldıran milli oyanış dalğası əzəmətli xalq hərəkatına çevrilərək, yeni dünya nizamının təməlini qoyanda Azərbaycan Xalq Cümhuriyyətinin idealları xalqımız üçün yol göstərən mayaka döndü və özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edən Azərbaycan Respublikası 1991-ci ildə yenidən dövlət müstəqilliyinə qovuşdu.

"Əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkanlarından yaranmış müstəqil dövlətimiz" Azərbaycan tarixinin növbəti: keyfiyyətcə yeni bir mərhələsinin başlanğıcını qoymaqla, yeni cəmiyyət quruculuğu ilə bağlı çoxsaylı siyasi, iqtisadi, sosial və mədəni-mənəvi həyat məsələlərinin - Azərbaycan Respublikasının Konstitusiyasında "Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq; Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək; vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq; xalqın idarəsinin ifadəsi kimi qanunların aililiyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq; ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının faydalı həyat səviyyəsini təmin etmək; ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək" kimi ifadə olunmuş vəzifələrin həll edilməsini həm vacib zərurətə çevirmiş, həm də özünün mövcudluğu ilə bunun üçün ilkin - müqəddəm hüquqi əsaslar vermiş, zəruri şərait yaratmışdır.

Mənəvi sahədə həlli vacib olan çox mühüm vəzifələrdən biri Milli özünüdərk şüurunun formalaşdırılması, milli-mənəvi dəyərlərin bərpasıdır. Bu işdə xalqımızın çoxəsrlik tarixinin, heç bir konyukturdan asılı olmadan, yerli-yataqlı tədqiqi, tarixi həqiqətlərin məhz həqiqət prizmasından qiymətləndirilməsi misilsiz əhəmiyyətə malikdir. "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır: tarixi təhrif də etmək olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz". Çünki tarixin vicdanda tədqiqi və tarixi həqiqətin olduğu kimi yazıya alınması, obyektivcəsinə qiymətləndirilməsi "Haradan gəlib hara gedirik" - sualına cavab tapmaq, geniş anlamda isə özünü tanımaq və tanıda bilmək üçün gərəkdir. Tarix ideoloji qəliblər, siyasi yarlıqlar prizmasından deyil, həqiqət nöqteyi-nəzərindən dəyərləndirildikdə, Azərbaycan tarixinin təkcə sovet (1920-1991-ci illər) dövrünün deyil, əvvəlki, daha və uzaq və qədim dövrlərinin də kommunist təbliğinin prinsipləri, marksist-leninçi metodologiya əsasında tədqiq olunduğunu, əslində isə təhrif olunduğunu sübuta yetirmək indi bir elə də çətin deyildir.

Tarixi həqiqətlərin konyukturçu nöqteyi-nəzərdən, qəsdən təhrif edilməsinin bariz nümunəsi 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin tarixidir. Sovet tarixçiləri adıdən də adı həqiqətə - Gülüstan və Türkmənçay sülh müqavilələrindən sonra soyqırımının Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildiyinə uzun illər boyu göz yummuş, yaxud xalqımıza qarşı ermənilərin soyqırımı siyasətinin ayrı-ayrı təzahür hallarının mahiyyətcə təhrif olunmuş şəkildə, məsələn , 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarı-

zə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsini ən yaxşı halda "vətəndaş müharibəsi" kimi təqdim etməkdən zərrəcə olsa da, vicdan əzabı çəkməmişlər. Halbuki 1919-cu ilin mart qırğını Azərbaycanın XIX-XX əsrlərdə baş verən və hər dəfə də torpaqlarımızın müəyyən hissəsini zəbt edilməsi ilə müşayiət olunan bütün faciələri cərgəsində, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətində miqyasına və amansızlıq dərəcəsinə görə ayrıca bir mərhələ, müstəsna vandalizm hadisəsidir, deməli bütün incə məqamlarına qədər tədqiq olunmalı öyrənilməli, ən başlıcası isə dərs alınmalı tarixi faktı, tarixi həqiqətdir.

1997-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasının 79-cu ildönümünə həsr olunmuş təntənəli yığıncaqdan H. Əliyev 1918-ci ilin mayına qədər Cənubi Qafqazda, o cümlədən Azərbaycanda baş verən siyasi hadisələrə qiymət verərək qeyd edir: "Azərbaycan Xalq Cümhuriyyəti elan olunana qədər bu bölgədə mövcud vəziyyət son dərəcə mürəkkəb olmuşdur. Birinci dünya müharibəsi və onun nəticələri bu bölgəyə ağır təsir göstərmişdir. Xüsusilə erməni daşnak qüvvələrinin müsəlman əhalisinə qarşı törətdikləri qırğınlar böyük faciələr kimi yadda qalmışdır". H. Əliyev Cənubi Qafqazda müstəqillik ideyasından əvvəl Azərbaycan, erməni və gürcülərin Zaqafqaziya Komissarlığı və Zaqafqaziya Seyimində göstərmiş olduqları fəaliyyətə də münasibət bildirmişdir: "O zaman hətta Zaqafqaziya ölkələrinin birlikdə dövlət müstəqilliyini elan etmək təklifləri də olmuşdur. Lakin Cənubi Qafqazdakı siyasi vəziyyət və aralarındakı ərazi mübahisələri Zaqafqaziya dövlətlərinin bir aydan artıq yaşamasına imkan verməmişdir". Dövrün siyasi hadisələrinin təhlilini verən H. Əliyev məruzəsində qeyd edir: "1918-ci il mayın 28-də xalqımızın qabaqcıl ziyalıları, Azərbaycanın gələcəyi haqqında düşünənlər Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında Tiflisdə qərar qəbul etmiş və bu qərarı "Istiqlal bəyannaməsi" adı altında elan etdilər. Sonra, yəni iyunun ortalarından Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə dövrü başlanmışdır". Məlumdur ki, Bakıda Şaumyan başda olmaqla yaradılmış bolşevik-daşnak güruhu Azərbaycan Xalq Cümhuriyyətinin Bakıya köçməsinə imkan vermirdi. 1918-ci ilin sentyabrında Qafqaz İslam ordusunun köməyi ilə Bakı şəhəri azad olunandan sonra Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçmüş və fəaliyyətini burada davam etdirmişdir. H. Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddət ərində fəaliyyətini də yüksək qiymətləndirir: "Bu respublikanın yaranması və az müddətdə də olsa yaşaması Azərbaycan xalqının dövlətçiliyinin bərpasında, Azərbaycanın dövlət müstəqilliyini əldə etmək yolunda demokratik quruluş yaratmaq istiqamətində tarixi rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyəti bir çox dəyərli işlər görmüş və Azərbaycanı bir müstəqil demokratik respublika kimi yaşatmağa çalışmışdır".

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olan dövrdə beynəlxalq aləmdə baş verən bir sıra siyasi hadisələr Azərbaycana öz təsirini göstərmiş oldu. Belə ki, 1918-ci il iyunun 4-də Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında Batumda sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə Azərbaycan Xalq Cümhuriyyəti ölkə daxilində ona edilən təcavüzü aradan qaldırmaq üçün Osmanlı dövlətindən kömək ala bilərdi. Azərbaycan Xalq Cümhuriyyətinin bu müraciətinə müsbət cavab verən Osmanlı hökuməti Nuru paşanın rəhbərliyi ilə təşkil olunmuş Qafqaz İslam ordusunu Azərbaycana göndərmiş oldu. 1918-ci il iyunun sonu - iyulun əvvəllərində Qafqaz İslam ordusu Göyçay yaxınlığında Şaumyanın 30 minlik ordusu ilə ölüm-dirim savaşında qalib çıxdı. Bakı Sovet qüvvələrinin məğlub edilməsi ilə Bakının azad edilməsi uğrunda istiqlal mübarizəsi başlandı. Hadisələr bu şəkildə uzun müddət davam edə bilmədi. Birinci dünya müharibəsinin iştirakçısı olan Osmanlı dövləti Mudros barışığına görə məğlub dövlət kimi Cənubi Qafqazı, o cümlədən Azərbaycanı tərk etməyə məcbur oldu. Antanta qüvvələri adından general Tomsonun rəhbərliyi altında ingilis qoşunları 1918-ci il noyabrın 17-də Bakıya daxil oldular. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı yaranan çətinlikləri təhlil edən H. Əliyev öz məruzəsində qeyd edir: "Azərbaycanın ətrafında və daxilində gedən proseslər bu respublikanın, hökumətin öz normal fəaliyyətini davam etdirməsinə imkan verməmişdir. Rusiyadakı bolşevik hökuməti keçmiş çar Rusiyasının bütün ərazisində bolşevik üsul-idarəsini qurmağa cəhd göstərərək Azərbaycana istilaçılıq hərəkətlərinə başlamışdı. Respublikanın daxilində o cəhdləri dəstəkləyən qüvvələr az olmamışdır. Eyni zamanda, Cümhuriyyətin Hökumətində və onun yaratdığı parlamentdə də daxili ziddiyyətlər, çəkişmələr bu Cümhuriyyətin süqut etməsinə gətirib çıxartmışdır".

Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə beş kabinet mövcud olmuşdur. İlk üç kabinetə F. Xoyski, sonrakı kabinetlərə isə N. Yusifbəyli başçılıq etmişdir. Hökumətin daxilində baş verən proseslərin təhlilini verən H. Əliyev çıxışında qeyd edir: "Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamışdır, bu müddətdə 5 dəfə hökumət təşkil olunmuşdur. Yaranmış hər bir hökumət daxili ziddiyyətlər, çəkişmələr nəticəsində və şübhəsiz ki, xarici qüvvələrin təsiri altında istefa verməyə məcbur olmuş və beləliklə də bu ağır şəraitdə demokratik respublikanın dövlət, hökumət orqanları lazım olan səviyyədə fəaliyyət göstərə bilməmişdir. Ancaq bununla yanaşı, onlar öz üzərində düşən tarixi missiyanı şərəflə yerinə yetirmiş və Azərbaycan xalqının tarixinə parlaq bir səhifə yazmışlar".

1920-ci ilin əvvəllərində Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə son qoymaq üçün müdaxiləyə hazırlaşırdı. Azərbaycanın işğalını tezləşdirmək üçün Azərbaycanda milli kommunistlərdən ibarət bolşevik partiyası təsis edildi. Rusiya bolşeviklərindən dəstək alan yerli kommunistlər ölkə daxilində böhranın dərinləşməsi üçün bütün vasitələrindən istifadə edirdilər. Xüsusilə 1920-ci ilin martında Qarabağda erməni qüvvələri tərəfindən qiyamın qaldırılması Moskvada hazırlanmış planın tərkib hissəsi idi. XI ordunun Azərbaycana istilaçı yürüşünün nəticəsi barədə H. Əliyev qeyd edir: "1920-ci il aprelin 27-dən 28-nə keçən gecə Azərbaycan Xalq Cümhuriyyəti öz səlahiyyətlərini bolşeviklərə təhvil verməli olmuşdur. Beləliklə də Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə son qoyulmuşdur".

Uzun müddət, yəni Sovet dövründə Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları və onların fəaliyyəti qadağan olunmuşdur. İş o yerə gəlib çıxmışdır ki, Azərbaycan tarixçilərinə Azərbaycan Xalq Cümhuriyyətinin adının çəkilməsi yasaq olunmuşdur. Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini elan etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı bir çox qadağalara son qoyuldu. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzləri və himni bərpa olundu. Azərbaycan Xalq Cümhuriyyətinin vətən tarixində yenidən bərpasına xüsusi qiymət verən H. Əliyev qeyd edir: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika günü elan etmişik və bu bizim milli bayramımızdır".

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbulundan sonra ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti qurucularına dövlət səviyyəsində bəraət verildi. Bununla bağlı H. Əliyev öz çıxışlarının birində qeyd edir: "Bu gün - bu bayram günü (28 may - V. Ə.) biz Azərbaycanda ilk Demokratik respublikanın qurulmasında və fəaliyyət göstərdiyi xidmətlərinə görə M. Ə. Rəsulzadəyə, Ə. Topçubaşova, F. Xoyskiyə, onların silahdaşlarına bir daha öz minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. Onların gördüyü işlər Azərbaycan xalqının bu günü üçün çox böyük əhəmiyyət kəsb edir. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır".

Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinə hörmət əlaməti olaraq H. Əliyev öz nitqində qeyd edir: "Bu bayram günlərində Azərbaycanın Türkiyə, Fransa, Gürcüstanda olan səfirliklərində bizim göstərişimizlə M. Ə. Rəsulzadənin, Ə. Topçubəşovun, F. Xoyskinin qəbirlərini ziyarət edir və onların xatirəsinə Azərbaycan xalqının, dövlətinin hörmət və ehtiramını ifadə edirlər".

Azərbaycan Respublikasının 10-cu ildönümü ilə bağlı tədbirdə çıxışında H. Əliyev AXC rəhbərlərini xüsusi vurğulayaraq demişdir: "Onlar öz cəsarətli fəaliyyətləri ilə Azərbaycanda ilk müstəqil dövlətin qurulması üçün güclü addımlar atdılar. Xalqımıza müstəqillik ənənələri qoyub getdilər".

Azərbaycanın dövlət müstəqilliyini 11-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə xüsusi qiymət verən H. Əliyev öz çıxışında demişdir: "Azərbaycan Xalq Cümhuriyyəti qısa zamanda çox işlər gördü. İlk dəfə olaraq müsəlman Şərqində demokratik bir Respublika yaratdı. İlk dəfə olaraq Azərbaycan xalqı müstəqil yaşamaq şəraitinin nə olduğunu hiss etdi, gördü". H. Əliyev Azərbaycanın dövlət tədbirlərində mütəmadi olaraq 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti və yaradıcılarına xüsusi münasibət bildirirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin xüsusilə dövlət quruculuğu sahəsindəki işləri böyük əhəmiyyət kəsb edir. Hökumət hələ Gəncədə ikən Azərbaycan dilinin dövlət dili elan olunması, milli ordunun yaradılması haqqında qanunlar verdi. Azərbaycan Xalq Cümhuriyyəti qısa bir dövrdə 40 minlik bir nizami ordu təşkil edə bildi. 1920-ci ilin yanvarında Paris Sülh Konfransında Azərbaycan dövlətinin de-fakto tanınmasından sonra

Sovet Rusiyasının ona münasibəti kəskin şəkildə dəyişdi. Müstəqil Azərbaycan Dövlətinin de-fakto tanınmasından sonra Sovet Rusiyasının ona münasibəti kəskin şəkildə dəyişdi. Müstəqil Azərbaycanı Denikinin əli ilə məğlub etmək istəyən Sovet Rusiyası Azərbaycandan tələb edirdi ki, Denikinə qarşı mübarizədə ona müttəfiq olsun. Lakin Azərbaycan rəhbərliyi bundan imtina etdi. Bununla bağlı H. Əliyev Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümü ilə bağlı keçirilən tədbirdə demişdir: "1920-ci ilin əvvəlində Rusiyanın kommunist-bolşevik hakimiyyəti keçmiş imperiyanın ərazilərinin hamısını ələ keçirməyə başladı. Bunun üçün yenə də Azərbaycan, Bakı xüsusi yer tuturdu. Təsadüfi deyil ki, XI ordu Cənubi Qafqaza öz yürüşünü Azərbaycandan, Bakıdan başladı".

Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun obyektiv səbəblərinin təhlilini verən H. Əliyev qeyd edir ki, güclü xarici müdaxilələrə məruz qalan Xalq Cümhuriyyəti belə şəraitdə yaşaya bilməzdi. Mən bir daha deyirəm: Xalq Cümhuriyyətinin süqutu onun rəhbərlərinin günahı deyil, Cümhuriyyətinin süqutunun əsas səbəbi Sovet Qırmızı Ordusunun Azərbaycana daxil olması və Cənubi Qafqazı işğal etməsi idi.

Əsrin əvvəllərində iki ilə qədər fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti ilə 1991-ci ildə elan olunmuş Azərbaycan Respublikasında əlaqəni yüksək qiymətləndirən H. Əliyev demişdir: "Bu gün (18 oktyabr 2001-ci il - V. Ə.) Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktından danışarkən mütləq qeyd etmək lazımdır ki, həmin müstəqillik aktı Azərbaycanın 1918-ci ildə mövcud olmuş Xalq Cümhuriyyətinin bərpasıdır. Biz onların varisiyik, onların işinin davamçılarıyıq - ancaq yeni şəraitdə, yeni bir tarixi zamanda".

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş təntənəli mərasimdə H. Əliyev 2 ilə qədər fəaliyyət göstərmiş milli hökumətin dövlətçilik tariximizdə tutduğu yerə xüsusi qiymət verərək demişdir: "1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının həyatında tarixi hadisə olmuşdur və xalqımızın dövlətçilik salnaməsinin parlaq səhifələrindən biridir". H. Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə qiymət verməklə yanaşı bu məruzəsində XX əsr Azərbaycan tarixini dövrlərə bölərək qeyd edir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından keçən 80 il dörd mərhələyə bölünə bilər: birinci - 1918-20-ci illər - Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi illər; ikinci - 1920-1922-ci illə - Azərbaycan Sovet Sosialist Respublikasının hakim olduğu illər; üçüncü - 1922-1991-ci illər - Azərbaycanda totalitar rejim, kommunist ideologiyası şəraitində yaşadığımız dövr; dördüncü - 1991-ci ilin sonundan, dekabrından başlayaraq Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi günündən indiyədək keçən dövrdür".

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bağlı mövcud tarixi şəraitə nəzər salan H. Əliyev qeyd edir ki, birinci dünya müharibəsinin başa çatması, rus çarizminin süqutu, Rusiyada Oktyabr çevrilişi və ondan sonra yaranmış gərgin vəziyyət, sovet hakimiyyətinin Rusiyanın keçmiş ərazisinin hamısına lazımi qədər nəzarət edə bilməməsi Cənubi Qafqazda mövcud olan siyasi qüvvələrin qızğın fəaliyyəti Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün əlverişli şəraiti təmin etmişdir. Belə bir Cümhuriyyəti yaratmaq üçün xalqımızın qabaqcıl düşüncəli ziyalılara ehtiyacı var idi. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycandan kənarda təhsil alan kifayət qədər ziyalılarımız var idi. Onların düşüncəsində və amalında Azərbaycanda demokratik bir cəmiyyətin yaranması problemi mövcud idi. Bununla bağlı H. Əliyev qeyd edir: "bu ziyalılar öz intellektual potensialı, öz xalqına, millətinə olan qayğısı, sədaqəti ilə Azərbaycanda XX əsrin əvvəlində gedən proseslərdə iştirak etmiş və Xalq Cümhuriyyətini yaratmışdılar". H. Əliyev tarixi şəraitlə yanaşı, XX əsrin əvvəllərində Azərbaycan ədəbi mühitinə də nəzər salaraq onun xarakteristikasını vermişdir: "Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov və başqaları o illərdə yaratdıqları əsərləri ilə xalqımızda milli şüurun oyanmasına, milliliyin yüksəlməsinə böyük təsir göstərmişlər". Azərbaycan Xalq Cümhuriyyətini elan edənlərin fəaliyyətini yüksək qiymətləndirən H. Əliyev hadisələrin xronoloji baxımından təhlilini verərək demişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması: "İstiqlal bəyannaməsi"nin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz o il, o ay, o gün bu tarixi addımı atdılar".

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu səbəblərini xüsusi vurğulayan H. Əliyev bir daha bu məsələyə toxunaraq qeyd edir: "1920-ci il aprelin 27-28-də Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə son qoyulmuşdur. O vaxt, şübhəsiz ki, Xalq Cümhuriyyətinin öz fəaliyyətini davam etdirməsi

mümkün olmamışdır. Bunun səbəbləri çoxdur. Güman edirəm ki, tarixçilərimiz bunun səbəblərini doğru-düzgün araşdıracaqlar". 1920-ci ilin aprel işğalından sonra Xalq Cümhuriyyətinin yaradıcılarından olan M. Ə. Rəsulzadənin və Azərbaycanda sovet rejiminin təşəbbüskarlarından N. Nərimanovun bolşeviklərə olan inamına münasibət bildirən H. Əliyev xüsusi olaraq qeyd edir: "Xalq Cümhuriyyətinin liderlərindən bəziləri hesab edirdilər ki, onların tutduğu müstəqillik yolu davam edəcəkdir. M. Ə. Rəsulzadə hakimiyyətin bolşeviklərə təhvil verilməsinə razılıq verərkən güman edirdi ki, yeni hakimiyyət Azərbaycanın milliliyini, müstəqilliyini qoruyub saxlayacaqdır. O vaxt hakimiyyəti Azərbaycan Xalq Cümhuriyyətindən təhvil alan azərbaycanlıların bəziləri, o cümlədən N. Nərimanov da belə düşünürdü ki, onlar müstəqil Cümhuriyyəti bolşevik ideologiyası altında saxlaya biləcəklər.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun həyata keçirdiyi tədbirlərə yüksək qiymət verən H. Əliyev Cümhuriyyətin dərslərindən də nəticə çıxarmağı tövsiyə edərək qeyd edir: "1918-1020-ci illərdə Xalq Cümhuriyyətinin həyatında olmuş çəkişmələr, didişmələr, hakimiyyət mübarizəsi və şəxsi mənafeyə görə ümummilli mənafeyə zərbələr vurulması acı həqiqətdir. Biz keçmişimizdən ibrət götürməliyik, keçmişimizin zərərli tərəflərinin yenidən cücərməsinə yol verməməliyik".

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyində H.Əliyev 1918-1920-ci illərdə Azərbaycanın müstəqilliyini və iki illik fəaliyyəti ilə dünya dövlətlərinin sırasına qoşulmuş milli hökumətin fəaliyyətini yüksək qiymətləndirərək qeyd edir: "Xalq Cümhuriyyətinin 80 illik yubileyinə respublikamızda hazırlıq aparılarkən elmi konfranslar, müxtəlif müşavirələr, təntənəli mərasimlər keçirilmişdir. Tarixçilər, ədəbiyyatçılar, mədəniyyət xadimlərimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti ilə bağlı geniş tədqiqat işləri aparmış, çox maraqlı faktlar meydana çıxmışdır. Bir çox tədqiqat əsərləri nəşr olunmuşdur". H. Əliyev Cümhuriyyət dövrünün təhlilini verməklə yanaşı çağdaş Azərbaycan tarixçiləri qarşısında bir çox məsul vəzifələr qoyaraq demişdir: "Ümidvaram ki, Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı bu işlər uğurla davam etdiriləcəkdir. Xalq Cümhuriyyəti ilə bağlı bu işlər uğurla davam etdiriləcəkdir. Xalq Cümhuriyyətinin yaranması, onun yaranmasına qədərki dövr və iki illik fəaliyyəti tarixi əsərlərdə öz əksini olduğu kimi tapacaqdır. Ancaq təəssüflər olsun ki, belə olmadı"

HƏSƏN HƏSƏNOV
"Xalq qəzeti"nin baş redaktoru

HEYDƏR ƏLİYEVİN XİLASKARLIQ MİSSİYASI VƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ

Tale bəzən xalqları, ölkələri sərt sınaqlara çəkir, üzücü müharibələr və sosial kataklizmlər, tənəzzül və böhran minilliklərin nailiyyətlərini təhlükə altına alır, tarixi tərəqqi məhvə sürüklənir. Belə hallarda ölkələr və cəmiyyətlər böşəri bir xilaskarın, fenomen şəxsiyyətin, xarizmatik liderin gəlişinə ehtiyac duyurlar. Böşəriyyətin tarixi boyunca insan və hakimiyyətin qarşılıqlı münasibətlərinə dair nəzəri təsəvvürlər dəyişdiyi kimi siyasi həyatda şəxsiyyətin rolu və yeri haqqında fikirlər də dəyişmişdir.

Heydər Əliyev Azərbaycan xalqının tarixində və taleyində parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəkası, fitri istedadı, dövlətçilik təfəkkürü ilə seçilən nəhəng dövlət xadimidir. O, bir dövlət olaraq Azərbaycanın, bir millət olaraq azərbaycanlıların tərəqqi və inkişaf yolunu dahiliklə müəyyənləşdirmiş, milli-mənəvi dəyərlərimizin, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib-hazırlamış, ehkamlaşmış köhnə stereotiplər çərçivəsini dağıdaraq milli ruhun, milli ideologiyanın yüksəlişinə təkan vermişdir.

Ümummilli liderimizin dövlətçilik fəaliyyətinin ilk mərhələsi XX əsrin 60-cı illərindən başlayır. Bu dövr Sovet İttifaqının tarixində həm mürəkkəb siyasi təbəddülatlar, həm də ciddi iqtisadi dirçəliş, dıqqətəlayiq proqram və layihələrin reallaşdırıldığı elmi-texniki tərəqqi dövrü idi. Ancaq bir çox obyektiv və subyektiv səbəblər – mərkəzin ögey münasibəti, milli-dini fərqlər, respublika rəhbərliyinin millətin gələcəyinə laqeyd münasibəti üzündən Azərbaycanda inkişafı xarakterizə edən əsas göstəricilər İttifaq üzrə orta göstəricilərdən çox aşağı idi. Xalq iqtisadi tənəzzül və sıxıntı içərisində çırpınırdı, respublika çevik iqtisadi təfəkkürə, yeni siyasi düşüncəyə, mübariz milli ruha malik güclü rəhbərə ciddi ehtiyac duyurdu. 1969-cu ildə respublikanın rəhbəri seçilən Heydər Əliyevin fəaliyyətinin ilk aylarından məlum oldu ki, Azərbaycan xalqı onun şəxsində öz milli liderini, xilaskarını tapmışdır. Sərt sovet qadağalarının tüğyan etdiyi

bir dövrdə Heydər Əliyev cəsarətli addımlar ataraq milli düşüncənin formalaşmasını əngəlləyən maneələri aradan qaldırır, yeni tarixi mərhələdə qarşıda duran siyasi, iqtisadi, milli-mənəvi vəzifələri dəqiqliklə müəyyənləşdirir. İttifaq dövlətinin imkanlarından Azərbaycanın tərəqqisi naminə məharətlə bəhrələnirdi. O, siyasəti iqtisadiyyatdan, mədəniyyətdən, milli-mənəvi dəyərlərdən təcrid etmir, milli oyanışı, milli dirçəlişi, milli özünüdərk prosesini hər vasitə ilə dəstəkləyirdi.

1969-cu il Azərbaycanın həyatında tarixi tərəqqiyə doğru dönüş mərhələsi oldu. Sənayenin dinamik yüksəlişini təmin etmək üçün iqtisadiyyatda struktur siyasətinin yeni istiqamətləri işlənib hazırlandı. Nəticədə sənayenin strukturu təkmilləşdi, iri elektronika, cihazqayırma, radiotexnika, maşınqayırma, neft və kimya sənayesi müəssisələri yaradıldı. 1985-ci ildə sənayedə əmək məhsuldarlığı 1970-ci illə müqayisədə 2,1 dəfə, kənd təsərrüfatında 1,8 dəfə artmışdı. Xalq təsərrüfatında mənfəət 335 faiz təşkil edirdi. 1970 – 1985-ci illərdə 213 yeni iri sənaye müəssisəsi istismara verilmişdi. Bu illərdə paytaxtda tikilən yaşayış binalarının həcmi 1970-ci ilə qədər Bakı şəhərində inşa olunmuş yaşayış fondunun ümumi həcminə bərabər idi. Həmin dövrdə Azərbaycanda milli gəlir 2,5 dəfə, kənd təsərrüfatında məcmu məhsulun həcmi 2,7 dəfə artmışdı. SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsi Azərbaycanın payına düşürdü. Neft maşınqayırması sahəsində Azərbaycan ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. Ölkəmizdə istehsal edilən 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Heydər Əliyev yeniliyin, mütərəqqi təcrübənin, milli və ümumbəşəri dəyərlərin tərəfdarı kimi çıxış edən rəhbər, mahir dövlət idarəçisi, islahatçı təfəkkürə malik böyük şəxsiyyət idi. Bütün bu yüksək şəxsi keyfiyyətlər ona Azərbaycanı Sovet İttifaqında müttəfiq respublikalar arasında ön yerlərdən birinə çıxarmağa imkan vermişdi. Qısa zaman kəsimində görülmüş nəhəng işlər, xarakterindəki bütövlük, qətiyyət, mətin iradə, qeyri-adi zəka, tükənməz enerji, vətənpərvərlik, millət sevgisi xalqın gözündə Heydər Əliyevin xilaskar obrazını yaratdı. Böyük öndər Azərbaycanın gələcəkdə müstəqillik qazanacağını irəlicədən dərk etdiyindən əvvəlki rəhbərliyi dövründə (1969 – 1982-ci illər) respublikanın iqtisadi, sosial, mədəni potensialını müdrikliklə səfərbər edir, müstəqil Azərbaycanın inkişafı üçün əlverişli zəmin hazırlayırdı. Onun milli kadr hazırlığına, gənclər siyasətinə xüsusi diq-

qət yetirməsi, Naxçıvanski adına məktəbin yaradılmasında böyük siyasi iradə və qətiyyət nümayiş etdirməsi, azərbaycanlılardan ibarət zabit korpusunun formalaşmasına qayğı göstərməsi güclü totalitar sistem dövründə tarixi hünər, milli təəssübkeşlik, xalq qarşısında misilsiz xidmət nümunəsi idi.

Heydər Əliyev yaxşı bilirdi ki, siyasi liderin obrazı milli əxlaqa, milli mentalitetə söykənməli, korporativ maraqların fövqündə dayanmalıdır. O, Azərbaycanın bir ölkə, azərbaycanlıların bir millət kimi yüksəlişi yolunda ağlasığmaz çətinlikləri fədakarlıqla dəf edir, sovet sisteminin ziddiyyətlər məngənəsindən milləti itkisiz, ağrısız ötüşdürmək üçün tədbirlər görürdü. Milli-tarixi yaddaşımıza əbədi həkk olunmuş bir hadisəni xatırlamaya bilmirəm. 1978-ci ildə Azərbaycan Konstitusiyası qəbul edilməzdən əvvəl Heydər Əliyevin təşəbbüsü ilə respublikada Konstitusiyaya Azərbaycan dilinin Azərbaycanın dövlət dili olması barədə xüsusi maddənin daxil edilməsi üçün ciddi təşkilati iş aparıldı. Nəticədə bir çox müttəfiq respublikalardan fərqli olaraq bu maddə Azərbaycan Konstitusiyasında təsbit olundu. Bu, Azərbaycanın müstəqilliyi yolunda uzaqgörənliklə atılmış bir addım idi. Çünki milli dil müstəqil dövlətçiliyin ayrılmaz atributudur.

Heydər Əliyev Azərbaycan dövlətinin milli inkişaf konsepsiyasını və bu istiqamətdə atılacaq taktiki addımları zərgər dəqiqliyi ilə müəyyənləşdirirdi. Azərbaycan rəhbərinin milli soy-kökə bağlılığı, Kremlin qadağanlar çərçivəsindən ustalıqla yayınması, SSRİ-nin müsəlman əhalisinin dıqqət mərkəzində dayanması, xarici ölkələrdə artan nüfuzu Moskvadakı imperiya təfəkkürlü siyasətçiləri qıcıqlandırsa da onun liderlik keyfiyyətləri, parlaq təfəkkürü, dönməz siyasi iradəsi, ən çətin məqamlarda belə düzgün çıxış yolları tapmaq qabiliyyəti İttifaq miqyasında nəzərdən yayınmır və ona qarşı rəğbət hissi doğururdu.

Xalqın tarixinə, milli-mənəvi dəyərlərinə qayğıkeş münasibət millətin soy-kökünə qayıdışını şərtləndirdi, ədəbi, elmi, etnik-kulturoloji tədqiqatları gücləndirdi, bu proseslərə yeni keyfiyyət və məzmun çalarları verdi. Şübhəsiz ki, bu deyilənlər Heydər Əliyevin böyük tarixi şəxsiyyət kimi Azərbaycana birinci rəhbərliyi dövründə cəmiyyətdə müstəsna və alternativsiz roluna aydınlıq gətirir. O, Azərbaycanın rəhbəri kimi ölkədə plüralizmin, demokratik düşüncə tərzinin, qanunun aliliyinin bərqərar olması üçün böyük qətiyyət göstərirdi.

Heydər Əliyevin 1982-ci ildə Siyasi Büroya üzv seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsinə təyin olunması azərbaycanlıların bir millət kimi qibtə doğuracaq potensialını bütün dünyaya nümayiş etdirdi. Onun kuratorluq etdiyi nəqliyyat, səhiyyə, tibb sənayesi, yol tikintisi, rabitə, təhsil, mədəniyyət və digər sahələrdə qısa müddət ərzində gerilik aradan qaldırıldı, sürətli yüksəliş başlandı. SSRİ-nin rəhbərlərindən biri kimi o, dünyada gedən proseslərə dərindən nüfuz edir, beynəlxalq və regional problemlərin, münaqişələrin nizama salınmasında yaxından iştirak edir, bununla da bəşər tarixinə bir azərbaycanlı kimi öz şərəfli imzasını qoyurdu. Heydər Əliyev ona göstərilən etimadı ləyaqətlə doğruldur, ölkənin inkişafı yolunda fədakarlıqla çalışırdı. O, İttifaq dövlətinin nəhəng imkanlarını məharətlə Azərbaycanın tərəqqisinə, sosial-iqtisadi yüksəlişinə xidmət edən plan və layihələrin reallaşdırılması işinə istiqamətləndirirdi.

Yeni dövrün tələblərinə, xalqın istək və arzularına yaxından bələd olan böyük öndər siyasi sistemin mahiyyətindəki disharmoniyanı görür, Azərbaycanın imperiyanın taleyini təhdid edən təhlükələrdən xətərsiz ötüşməsi üçün yollar arayırdı. Vətənin intibahı, xalqın yüksəlişi onun amalı idi. Heydər Əliyev Siyasi Büroda yüksək insani və intellektual keyfiyyətləri, analitik təfəkkürü, problemlərə müxtəlif rakurslardan dialektik baxışı ilə seçilirdi. 1985-ci ildə Baş katib seçilən Mixail Qorbaçovu ciddi təşvişə salan, rahatlığını əlindən alan da Heydər Əliyevin bu keyfiyyətləri idi. Qorbaçov özündən qat-qat ağıllı siyasi xadimlərə rəhbərlik etmək iqtidarında deyildi. Odur ki, Heydər Əliyev 1987-ci ildə istefaya göndərildi.

İmperiyanın taleyində həlledici məqam yetişməkdə idi. İctimai münasibətlər getdikcə gərginləşir, dövlətçiliyin dayaqları Qorbaçov və ətrafı tərəfindən barbarcasına dağıdılırdı. Zaman imperiyanı çökmə nöqtəsinə yaxınlaşdırdıqca, xalqların milli oyanışı güclənir, müstəqillik ideyaları vüsət alırdı. Sovetlər Birliyində yaranmış xaotik durumdan bəhrələnərək öz təcavüzkar niyyətlərinə çatmaq istəyən qara qüvvələr də baş qaldırmışdılar. Qərb Sovet imperiyasına son zərbələri bu qüvvələrin əli ilə vurmaq qərarına gəlmişdi. "Böyük Ermənistan" xülyasını zaman-zaman reallaşdırmağa çalışan namərd qonşuların Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə çıxış etməsi Azərbaycanı uzunsürən ağır münaqişəyə, üzücü müharibəyə cəlb etdi. Heç şübhəsiz ki, iti ağlı, qətiyyəti, yenilməz iradəsi ilə uzun illər boyu ermənilərin qarşısına sədd çəkmiş Heydər Əliyevin istefası onların əl-qolunu açmışdı. Böyük öndər 80-ci illərin sonunda imperiyanın cəlladları tərəfindən öz xalqından tamamilə təcrid olunsa da, 1990-cı ilin Qanlı Yanvar günlərində o, bütün mancələri dəf edərək öz xalqına qovuşdu. Moskvada, imperiyanın mərkəzində mətbuat konfransı keçirərək qanlı qırğının təşkilatçılarını – Mixail Qorbaçovu, Kommunist Partiyasını, sovet ordusunu ittiham etdi, dünya birliyini Azərbaycanın köməyinə çağırdı.

Heydər Əliyevin Azərbaycana dönməsi ilə respublikanın tarixində epoxal dəyişikliklər və qurtuluş erası başlandı. Taleyin ümidinə buraxılmış, düşmən qabağında təklənmiş, ağır blokada şəraitində yaşamağa məhkum edilmiş Naxçıvanın xilası yolunda müdrik addımlar atıldı. Heydər Əliyevin beynəlxalq nüfuzu, zəngin dövlətçilik təcrübəsi, qardaş Türkiyə və İranla sıx əlaqələr yaratması nəticəsində Naxçıvan düşmən qabağında duruş gətirdi, öz torpaqlarını qorudu, muxtar respublikada dövlətçiliyin əsasları möhkəmləndirildi. Böyük öndər Naxçıvan Ali Məclisinin sədri kimi muxtar respublikanı düşmənin işğalından və məhvolma təhlükəsindən xilas etməklə bərabər zamanın və siyasi situasiyanın tələblərini dərketmə nümunələri göstərdi. Muxtar respublikanın adının, dövlət atributlarının dəyişdirilməsi Bakıda hakimiyyət dəhlizlərində təşvişlə qarşılansa da Heydər Əliyevin siyasi uzaqgörənliyi azadlıq, demokratiya ideallarını qəlbində yaşadan, bu yolda ardıcıl mücadilə aparan, qurbanlar verən xalqın arzu və istəkləri ilə səsləşirdi. Vətən və azadlıq yolunda ayağa qalxmış xalq Heydər Əliyevə bu mücadilənin təşkilatçısı, baş ideoloqu, millətı bu yolda səfərbər edərək öz arxasınca aparacaq qüdrətli lider, yenilməz sərkərdə kimi baxırdı.

Ayaz Mütəllibov güruhunun xalqa zidd siyasətindən, AXC – Müsavat iqtidarının xəyanətlərindən, ölkəni məhvə sürükləyən xaos və anarxiyadan, üzücü qanlı müharibədən, cəbhədəki ağır məğlubiyyətlərdən, torpaqların işğalından, bitib-tükənməyən məhrumiyyət və məşəqqətlərdən cana doymuş xalq ümid və inamla Naxçıvana baxırdı.

Ölkə milli fəlakət həddinə çatmışdı: məğlubiyyət, xəyanət, torpaqların işğalı, etnik separatizm azmış kimi yurdun hər tərəfində silahlı quldur dəstələri ağalıq edirdilər. Siyasi hərc-mərcliyin, məmləkəti təhdid edən təhlükələrin sonu görünmürdü. Xaricdəki düşmən qüvvə-

lər daxili irtica və siyasi-hərbi müxalifətlə birləşmişdilər. Surət Hüseynov tabeçiliyindəki silahlı birləşmələri cəbhə bölgəsindən çıxararaq Gəncəyə yeritmişdi. Hakimiyyəti itirəcəyindən qorxuya düşən AXC – Müsavat iqtidarı itaətdən çıxan qüvvələri ram etmək məqsədilə uğursuz bir əməliyyat keçirərkən qan tökülmüş, qardaş qırğını başlamışdı. Vətəndaş müharibəsinin alovları hər an bütün ölkəyə yayıla bilərdi. Azərbaycanın parçalanma və məhvolma təhlükəsi reallaşmışdı.

"Ölüm, ya ölüm" dilemması qarşısında qalan xalq 1993-cü ilin iyununda qəti qərar verdi: böyük dövlət xadimi Heydər Əliyev Bakıya dəvət olunmalı, hakimiyyət ona verilməli, Azərbaycan və onun dövlətçiliyi xilas edilməlidir. Xalq öz tələbində israrlı idi, çünki Heydər Əliyevi tanıyırdı, heç bir qüvvə onu bu qərarından döndərə bilməzdi. Xalq müqəddəs Qurtuluş mücadiləsinin qüdrətli sərkərdəsinin xilaskarlıq missiyasına öz varlığı qədər inanırdı.

1993-cü il iyunun 9-da təkidli tələblərdən sonra Heydər Əliyev Bakıya gəldi. Xalq dərindən nəfəs aldı, rahatlıq tapdı: ağıl və zəka, Heydər Əliyev dühası düşmən qarşısında ən etibarlı sipər idi. Bakıdakı hakimiyyət sahibləri qaçıb gizlənəndə Heydər Əliyev cəsarətlə Gəncəyə yola düşdü. Alov saçan silahlar ağıl və zəka qarşısında susdu, siyasi müdriklik siyasi ambisiyalara, hakimiyyət hərisliyinə qalib gəldi.

1993-cü il iyunun 15-də respublikada yenidən hakimiyyətə qayıdan Heydər Əliyev böyük dövlətçilik təfəkkürü ilə Azərbaycanda cövlan edən mürəkkəb prosesləri təhlil edir, məmləkətin tarixi taleyinin xilası yolunda siyasi iradə nümayiş etdirir, qəti addımlar atırdı. Düşmən qüvvələrin, müxalifət adı altında maskalanmış hakimiyyət hərislərinin, psevdodemokratların müqavimətini qırmaq, çoxpartiyalı sistem formalaşdırmaq, bazar iqtisadiyyatı münasibətlərinə yol açmaq, siyasi plüralizm, demokratiya prinsiplərini bərqərar etmək onun kredosu idi. Təşəkkül tapmış beynəlxalq sistem çərçivəsində Azərbaycan layiqli yer tutmalı, ərazi bütövlüyünü, suverenliyini təmin etməli, müstəqil dövlətçiliyini möhkəmləndirməli idi. "Ostankino" televiziyasına müsahibə verən (6 iyul 1993-cü il) Heydər Əliyev "ölkənin gələcəyini necə görürsünüz?" sualının cavabında bəyan etmişdi: **"Azərbaycan müstəqil dövlətdir və indən belə heç vaxt hər hansı başqa dövlətin tərkibinə daxil olmamalı, kiminsə vassalı, yaxud müstəmləkəsi olmamalıdır... Mən Azərbaycanı gələcəkdə azad, müstəqil dövlət kimi görürəm".**

Etnik separatizmə və onun arxasında duran məkrli qüvvələrə ağır zərbə vuran Heydər Əliyev müstəqil dövlətçiliyin möhkəmləndirilməsinin, hüquqi dövlət quruculuğunun, vətəndaş cəmiyyəti formalaşdırılmasının konseptual əsaslarını yaratdı. O, cəmiyyəti liberal və demokratik dəyərlər ətrafında birləşdirərək keçid dövrünün çətin vəzifələrinin yerinə yetirilməsinə səfərbər etməyə müvəffəq oldu. **Böyük öndər belə hesab edirdi ki, vətəndaş cəmiyyəti hər şeydən əvvəl dövlət hakimiyyətindən ayrı, azad xüsusi mülkiyyət üzərində formalaşmalı və demokratik hüquqi dövlətin meydana gəlməsinin sosial şərti olmalıdır.** Belə ki, yalnız dövlətdən asılı olmayan, yaxşı təşkil edilmiş və öz mənafelərini müdafiə etməyə qadir xüsusi mülkiyyətçilərin mövcudluğu dövlət hakimiyyətinin məhdudlaşdırılmasına, onun vətəndaşların mənafeyinə tabe etdirilməsinə, onların hüquq və azadlıqlarının dövlətin ali məqsədinə çevrilməsinə şərait yarada bilər. Bu mənada hüquqi dövlət quruculuğu prosesində qarşıya çıxan problemlərin bir çoxu həm də vətəndaş cəmiyyətinin inkişaf səviyyəsi ilə bağlı olur. Heydər Əliyev insanların siyasi hüquq və azadlıqlarının beynəlxalq standartlar səviyyəsində təmin olunmasına xüsusi əhəmiyyət verir, konstitusion azadlıqların öz təbiətinə və məzmununa görə adekvat prosessual reallaşdırılma formasının zəruriliyini vurğulayırdı. Bu baxımdan onun gəldiyi qənaət heyrətamiz dərəcədə müdrikdir: **"Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayar və onları qoruya bilərsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar".**

Heydər Əliyev cəmiyyətin rifahına, dinamik inkişafına və təhlükəsizliyinə təminat verə biləcək idarəetmə sisteminin qurulması üçün əsaslı islahatlar kursunun təşəbbüsçüsü və ideoloqu idi. Bütün siyasi, iqtisadi resursların, intellektual potensialın bu istiqamətdə səfərbər edilməsi nəzərdə tutulan strateji vəzifələrin reallaşdırılmasına şərait yaratmaqla bərabər, həm də dünyanın bir çox ölkələrinin analoji situasiyalarda üzləşdiyi sosial sarsıntılardan yan keçməyə imkan verdi. **Uğurlu xarici siyasət strategiyasının formalaşdırılması, separatizmin cilovlanması, dövlət çevrilişi cəhdlərinin qarşısının alınması, ictimai-siyasi sabitliyin təmin olunması, cəbhədə atəşkəs əldə edilməsi, torpaqların işğalının dayandırılması, silahlı dəstələrin ləğvi, xarici investisiyaların ölkəyə cəlbi, əsrin müqaviləsinin imzalanması, inflyasiyanın azaldılması, maliyyə sistemi-**

nin sağlamlaşdırılması, yeni iqtisadi münasibətlərə keçid, torpaq islahatı, qanunvericilik bazasının Avropa standartlarına uyğunlaşdırılması ümummilli lider Heydər Əliyevin Qurtuluş epopeyasının qürur doğuran səhifələridir. Bu addımlar bütün həyatını Azərbaycanın intibahına, çiçəklənməsinə həsr etmiş böyük dövlət xadiminin, ümummilli liderin tale yazısı, kredosu, missiyası idi. O, keçilmiş yolu özünəməxsus meyar və kateqoriyalarla təhlil edir, nəticə çıxarır, qarşıda duran strateji məqsəd və vəzifələri, onların reallaşdırılmasının optimal yollarını beynəlxalq və regional situasiyanı nəzərə almaqla müəyyənləşdirirdi. Tarixi keçmiş, mövcud durum, qüvvələr nisbəti, milli mənafe, ölkənin gələcəyi onun hər an diqqət mərkəzində saxladığı əhəmiyyətli amillər idi. **Böyük öndər öyrədirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticələrini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və sosial tərəqqiyə xidmət edir.** O, konkret tarixi şəraiti və faktları dərindən təhlil edərək siyasi proseslərin arzuolunmaz istiqamətdə inkişafının qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər görür, bu yolda cəmiyyəti səfərbər edir, situasiyanın gələcək təkamülünü proqnozlaşdırır, optimal qərarlar qəbul edirdi. Onun təliminə görə siyasət və öncəgörənlik qarşılıqlı vəhdətdədir.

Otən əsrin 90-cı illərindən Heydər Əliyevin qarşısında duran ən çətin vəzifələrindən biri ölkənin iqtisadi tənəzzüldən, dərin böhrandan xilas edilməsi, sovet dönəmində xüsusi mülkiyyətin ekspropriasiyası əsasında yaranmış dövlət mülkiyyətinin özəlləşdirilməsi və siyasi sistemin islahatı idi. Totalitar sovet rejimi siyasi və iqtisadi hakimiyyəti birləşdirərək mütləq və nəzarətsiz xarakter almışdı. Bu təhlükəli əlaqəni qırmaq üçün hakimiyyəti və mülkiyyəti ayırmaq, xüsusi mülkiyyətin hakim mövqe tutacağı plüralist iqtisadiyyat yaratmaq lazım gəlirdi. Müxtəlif sosial qrup və təbəqələrin ciddi marağında olan mülkiyyətin dövlətsizləşdirilməsi, siyasi sistemin dəyişdirilməsi prosesi cəmiyyətin dünyagörüşündə və sosial-siyasi dəyərlər sistemində ciddi dəyişikliklərlə müşayiət olunmalı idi. Şübhəsiz ki, cəmiyyətin iqtisadi orqanizminin yenidən qurulması bütövlükdə siyasi münasibətlər sisteminə ciddi təsir göstərir və sosial-siyasi

problemlər dövlət təsisatlarının qarşısında gözlənilməz məsələlər kompleksi qoyur. Dünya təcrübəsində bunu iqtisadiyyatın siyasi sistemə "təzyiqi" kimi səciyyələndirirlər. Belə bir mürəkkəb şəraitdə Azərbaycan ümummilli lider Heydər Əliyevin islahatçı təfəkküru sayəsində təkamül yolunu tutaraq dağıdıcı proseslərin təhlükəli kataklizmlərindən xilas oldu. Hakimiyyət Heydər Əliyev üçün xalqın və ölkənin sabahına etibarlı təminat verən vasitə idi: o, Qərbə inteqrasiya yolunu tutmuşdu. Azərbaycanı inamla irəli aparırdı, Avropa ailəsində ölkəmizin layiqli yer tutması üçün hər cür fədakarlığa hazır idi. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirir, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrilirdi. Bakı – Tbilisi – Ceyhan neft, Bakı – Tbilisi – Ərzurum qaz kəmərlərinin çəkilişi məhz bu böyük insanın türk dünyasına sonsuz məhəbbətinin, sarsılmaz mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Liderlik keyfiyyətlərinin təzahür formaları olduqca müxtəlifdir. İnteqrativ liderlik nəzəriyyəsi bu fenomenin sosial təbiətini müxtəlif amillərlə əlaqələndirir: liderin şəxsiyyəti; onun ətrafı, ardıcılları və opponentləri; lider və tərəfdarları arasında münasibətlərin xarakteri; liderliyin təzahür etdiyi konkret şərait və s. Etoloqlar bu və ya digər situasiyada liderlərin mümkün davranışlarını, qəbul edəcəkləri qərarları proqnozlaşdırmaq üçün onları tiplərə ayırırlar. M. Veberin təklif etdiyi ilk təsnifatlardan birinin əsasında haqlı olaraq nüfuz amili durur. Başqa sözlə desək, liderə könüllü tabeçiliyin əsasında liderin hərəkətlərinin düzgünlüyünə və adət-ənənələrin müqəddəsliyinə inam dayanmalıdır. İndustrial cəmiyyət üçün liderin seçilməsinin və idarəçilik funksiyasının ona verilməsinin formal qaydalarının qanuniliyinin etirafından irəli gələn bürokratik liderlik tipi səciyyəvidir. Veberə görə xarizmatik lider tipini fərqləndirən əsas cəhət rəhbərin müstəsna qabiliyyətlərinə inamdır. Sabit xarakterə malik xarizmatik liderlik ənənəvi və ya rasional olur, yaxud hər iki xüsusiyyəti özündə birləşdirir.

ABŞ politoloqu Marqaret Xermann isə dörd lider obrazını fərqləndirir: lider-bayraqdarlar, lider-icraçılar, lider-tacirlər (insanları inandırmağı və onları qarşıda duran vəzifələri yerinə yetirməyə səfərbər etməyi bacaranlar), lider-yanğınsöndürənlər (dövrün tələblərinə dərhal reaksiya verən və ekstremal şəraitdə effektiv addım atanlar). Təcrübə göstərir ki, həqiqi liderlər bütün bu obrazları bu və ya digər dərəcədə özündə cəmləşdirir.

Ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjiyə, islahatçı təfəkkürə, yenilməz iradəyə malik xarizmatik lider idi. Heydər Əliyev dövlət xadimi kimi, siyasi lider kimi daim xüsusi diqqət mərkəzində idi. Fransa Prezidenti Jak Şirak yazır: **"Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirdim. ... Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir".**

Görkəmli qazax yazıçısı Oljas Süleymenov isə Heydər Əliyevə müraciətlə demişdir: "Çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara, bəlkə də, min ildə bir dəfə verilir və onu əldən buraxmaq olmaz. Ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında, azad və məğrur insanlar olsunlar. Heydər Əliyeviç, Sizin kimi rəhbərlərin xidməti də məhz bundan ibarət idi".

Azərbaycanda ictimai-siyasi durumu və ümummilli lider Heydər Əliyevin fəaliyyətini təhlil edən Aleksandr Budberq "Moskovskaya komsomolets" qəzetində (9 aprel 1998-ci il) yazırdı: "Azərbaycanda Heydər Əliyevin hakimiyyəti mütləq və sarsılmazdır. Onun alternativi, həqiqətən, yoxdur. Ölkənin birliyinə, beynəlxalq aləmdə tanınmasına və real siyasi müstəqilliyinə nail olan Əliyev indi daha mürəkkəb vəzifəni yerinə yetirməlidir. Azərbaycanın hazırkı bütün dövlət quruluşu, bütün siyasi sistemi, əslində, onun çiynindədir. O, sabitliyə təkbaşına zəmanət verir və bunu təmin edir".

Ümummilli lider müstəqil Azərbaycan dövlətçiliyini formalaşdırmaqla bərabər, həm də dövlətçilik ənənələrinin bərpasına və inkişafına, dövlətçilik ideologiyasının yaradılmasına xüsusi diqqət yetirir, bir dövlət xadimi, mütəfəkkir filosof kimi bu sahədə görüləcək işlərin ideya-nəzəri əsaslarını, konseptual prinsiplərini işləyib hazırlayırdı. Onun fikrincə, güclü və sabit dövlət vətəndaş cəmiyyətinin formalaşmasına, insanların

sosial rifahına, şəxsiyyətin yüksək intellektual inkişafına xidmət etməlidir.

İctimai varlıqda yer almış dəyişikliklərin ictimai şüurda hələ bütövlüklə öz əksini tapmadığı bir şəraitdə sosial inkişafın, mənəvi tərəqqinin, iqtisadi, siyasi islahatların ideya-nəzəri əsaslarını işləyib-hazırlamaq son dərəcə çətindir. Heydər Əliyev zəngin dövlətçilik təcrübəsinə, dərin intellektual potensialına, heyrətamiz enerjisinə arxalanaraq bu vəzifələrin öhdəsindən ləyaqətlə gəldi. Onun fenomen şəxsiyyət kimi attraktivliyinin bir səbəbi də məhz bundadır. O, çoxları üçün qeyri-mümkün olanı reallaşdırmaqla tarixin axarının dəyişdirilməsi mexanizmlərini və cəmiyyətin inkişaf qanunauyğunluqlarını hamıdan yaxşı dərk etdiyini dəfələrlə sübut etmişdir. Odur ki, "olum, ya ölüm" dilemması qarşısında qalan xalq məhz ona müraciət etmişdi. Gənc, müstəqil dövlətin demokratik cəmiyyət formalaşdırması, yeni iqtisadi münasibətlər yoluna qədəm qoyması, islahatlar kursunu həyata keçirməsi heç də asan vəzifə deyildi. Böyük öndər bu yolun başlanğıcında bunu açıq-aydın etiraf etsə də, onun göstərdiyi qətiyyət Azərbaycanın gələcək uğurlarının təminatçısı idi: **"Bu yol çətin yoldur. On illər boyu yaranmış iqtisadi-sosial sistemdən sərbəst iqtisadiyyat sisteminə keçmək böyük çətinliklərlə bağlıdır. Bu sahədə son illərdə buraxılan səhvlər vəziyyəti daha da gərginləşdirmişdir. Ancaq biz bu yolla getməliyik. Başqa yol yoxdur".**

Demokratiyanın taleyi bu yolun necə keçilməsindən asılı idi. Böyük öndər bu yolda bütün çətinliklərə mətanətlə sinə gərdi. Çünki o, qədim dünyanın mütəfəkkir filosofu Demokritin "demokratiya şəraitində yoxsul olmaq zülm içində firavanlıqdan yaxşıdır" fikrinin məna yükünün cəmiyyətdə hər bir azərbaycanlının şüuruna hakim kəsilməsinə, millətin ruhən yüksəlişinə xüsusi önəm verir, maddi təminatla mənəvi zənginliyin vəhdətini sivil cəmiyyətin mühüm şərti hesab edirdi. Ümummilli lider mürəkkəb və ziddiyyətli keçid dövrü şəraitində belə yeni düşüncənin, yeni təfəkkürün formalaşmasına, inkişaf istiqamətlərinin səhvə yol verilmədən müəyyənləşdirilməsinə imkan verən dünya təcrübəsinin öyrənilməsini və tətbiqini hər vasitə ilə stimullaşdırırdı.

"Nə müharibə, nə sülh" vəziyyətinin qəbul olunmazlığı haqqında öz mövqeyini açıqlayan Heydər Əliyev müharibələrin törətdiyi fəlakətləri, vurduğu ağır maddi itkiləri diqqətə çatdıraraq Ermənistan – Azərbaycan,

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli təşəbbüsü ilə çıxış edir, regionda sülhün və sabitliyin təmin olunmasını beynəlxalq birliyin əsas vəzifəsi sayırdı. O, bütün münaqişələrin həllinin əsasında beynəlxalq hüquq normalarının, ədalət və humanizm prinsiplərinin, tərəflərin mənafelərinin məhz bu amillərə istinad edilərək həssaslıqla nəzərə alınmasının dayanmasını uğur qazanmağın optimal variantı kimi ön plana çəkirdi. Onun mövqeyi birmənalı idi: **Biz işğal olunmuş torpaqlarımızın qeyd-şərtsiz azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik. Zaman bu mövqenin alternativsizliyini gec-tez sübuta yetirəcək.**

Böyük şəxsiyyətlərin tarixi qayıdışı nadir hadisədir: xalq öz milli varlığının, bu gününün və gələcəyinin xilası naminə atır bu addımı. Xalqın arzu və istəklərini reallaşdırmaq yalnız seçilmişlərə nəsib olur. 1993 – 1995-ci illərdə Azərbaycanı məhvə sürükləyən parçalanma təhlükəsi, vətəndaş müharibəsi, separatçılıq meylləri, ölkəni çulğamış böhran, hərc-mərclik, hakimiyyət didişməsi, dövlət çevrilişi cəhdləri artıq neçə illərdir ki, arxada qalmışdır. Demokratik cəmiyyət, söz azadlığı, fikir plüralizmi, azad mətbuat bugünkü Azərbaycan gerçəkliyinin tərkib hissəsidir. Təkcə Azərbaycanın deyil, bütün bölgənin tərəqqisinə yol açan qlobal iqtisadi layihələr, İpək Yolunun bərpası, Bakı – Tbilisi – Ceyhan neft, Bakı – Tbilisi – Ərzurum qaz kəmərlərinin çəkilişi, Şimal – Cənub dəhlizinin vəd etdiyi iqtisadi-siyasi dividendlər, uğurlu xarici siyasət xətti, ölkəmizin Qərbə və bütövlükdə dünya birliyinə inteqrasiyasını günün reallığına çevirmişdir. Bütün bunlar və sərt sınaqlara, ağır itkilərə, ideoloji-mənəvi basqılara, məruz qalmış Azərbaycanın qısa zaman kəsimində mühüm geosiyasi məkanda lider dövlətə çevrilməsi ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasının möhtəşəm sübutlarıdır. Milli varlığımızın və milli dövlətçiliyimizin xilası həqiqətdir. Həqiqət günəş kimidir, onu inkar etmək qeyri-mümkündür.

SƏTTAR MEHBALIYEV
Milli Məclisin deputatı,
Azərbaycan Həmkarlar İttifaqları
Konfederasiyasının sədri

HEYDƏR ƏLİYEV VƏ HƏMKARLAR İTTİFAQLARI

Azərbaycan xalqı öz tarixinin çox məsul və şərəfli bir dövrünü yaşayır. Milli Müstəqilliyini bərpa etmiş bir ölkə cəmiyyətin həyatının bütün sahələrində qazandığı uğurlarla dünyəvi sivil dövlət yaratmaq yolunda inamla irəliləyir. Ölkəmiz demokratik və hüquqi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. Həyata keçirilmiş islahatlar nəticəsində iqtisadi tənəzzül və inflyasiyanın qarşısı alınmış, iqtisadi inkişafda yeni mərhələnin təməli qoyulmuşdur.

Respublikamız dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan keçən dövr ərzində ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş vermişdir. 1993-cü ildən başlayaraq Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət müstəqilliyin ilk illərində ölkədə baş alıb gedən siyasi və iqtisadi böhranı aradan qaldırmış, Azərbaycanın Demokratik Dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə irəliləməsinə geniş yol açmışdır.

XX əsrin sonları və XXI əsrin əvvəllərində Azərbaycanda müstəqil dövlətçilik anlayışının həqiqi ideoloji prinsiplərinin formalaşması da məhz H.Əliyevin adı ilə bağlıdır. Burada həm ictimai-siyasi sabitliyin bərqərar edilməsi sahəsində bu tarixi şəxsiyyətin müstəsna xidmətinin, iqtisadi inkişaf modelinin qurulması istiqamətində göstərdiyi fəaliyyətinin, həm də ölkənin beynəlxalq müstəvidə əldə etdiyi uğurların rolu vardır və bunların da hər birini nəzərə almaq zəruridir.

XX əsrin 70-ci illərindən etibarən Azərbaycana rəhbərlik edən bu dahi lider Azərbaycanın dövlət müstəqilliyinin ən çətin və ağır dövründə respublikaya rəhbərlik kimi məsuliyyətli bir vəzifəni ona etibar edən xalqın haqlı inamını bir daha qazanaraq Azərbaycanın suverenliyini dünya miqyasında təsdiq etdi, respublikanı parçalanıb məhv olmaqdan xilas etdi. Həmin ağır günlərdə Azərbaycan həmkarlar ittifaqlarının çoxsaylı

üzvləri də xalqın iradəsinin ifadəsi olan qanuni hakimiyyətin və xalqın böyük etimad göstərdiyi, sonsuz ümid bəslədiyi H.Əliyevin haqq işinin müdafiəsinə qalxdı.

Ən mühüm vəzifəsi üzvlərinin sosial, iqtisadi və hüquqi mənafelərinin keşiyində dayanmış olan Həmkarlar İttifaqı təşkilatlarının bütün fəaliyyəti Həmkarlar İttifaqı demokratiyasına ciddi əməl olunması və onun daha da inkişaf etdirilməsi, təşəbbüskarlıq və yaradıcılıq, konkretlik və işgüzarlıq, üzvlər qarşısında yüksək məsuliyyət hissi üzərində qurulur.

Azərbaycan Həmkarlar İttifaqları böyük və şanlı yol keçmiş, bu gün iqtisadiyyat, elm və mədəniyyətin bütün sahələrinin 1,5 milyon üzvünü birləşdirən ən kütləvi, nüfuzlu ictimai təşkilata çevrilmiş, öz iş üslübü və metodlarını dövrün tələblərinə uyğunlaşdırmışdır.

Qeyd etmək istərdim ki, yeni iqtisadi münasibətlərə keçid dövrünün ilk illəri həmkarlar ittifaqları üçün çox çətin olmuşdur. Demokratiya pərdəsi altında hakimiyyətə gələn qüvvələr o dövrün siyasi və iqtisadi burulğanından baş çıxarmayaraq, qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlməyə nəinki səy göstərməyə can atdılar, əksinə, mövcud ehtiyatları məhv etməyə, cəmiyyəti xaosa sürükləməyə, yenicə müstəqillik qazanmış respublikamızda fəaliyyət göstərən həmkarlar ittifaqlarına da «hücuma» keçməyə başladılar. Həmkarlar ittifaqlarının mülkiyyətinə göz dikərək, hətta onun yerləşdiyi inzibati binasını belə almağa cəhd göstərdilər. Doğrudur, həmkarlar ittifaqlarının səyi və atdığı addımlar onların bu istəklərini həyata keçirməyə imkan verməsə də, bu qüvvələr həmkarlar ittifaqlarının işinə yerli-yersiz müdaxilələrə son qoymurdular. H.Əliyevin həmin vaxt yenidən hakimiyyətə qayıdışı həmkarlar ittifaqlarının həyatında yeni səhifə açdı. Azərbaycan Həmkarlar İttifaqları yenidən ölkənin ictimai, siyasi, iqtisadi və mədəni həyatında layiqli yeri olan bir təşkilata çevrildi.

Ümummilli liderimiz H.Əliyev cənabları respublikamızda zəhmətkeşlərin əmək hüququnun və mənafelərinin müdafiə olunması sahəsində həmkarlar ittifaqlarının yerini həmişə yüksək qiymətləndirmişdir. Təsadüfi deyil ki, azad, demokratik cəmiyyət quruculuğunda həmkarlar ittifaqlarının rolunun zəruriliyinə qiymət verərək özünün prezidentlik fəaliyyətinin ilk yarım ilində «Həmkarlar ittifaqları haqqında» Azərbaycan Respublikasının Qanununu imzalamışdır.

Bu qanun ümummilli liderimizin AHİK-ın II qurultayına göndərdiyi təbrik məktubunda dediyi kimi, həmkarlar ittifaqlarının cəmiyyətimizdəki fəaliyyətinin yeni prinsipləri əsasında tənzimlənməsi və vətəndaşların sosial-iqtisadi mənafelərinin qorunmasında fəal iştirakı üçün hüquqi baza yaradır.

AHİK-in istər I, istərsə də II qurultayına təbrik məktubları Azərbaycan Həmkarlar İttifaqlarının fəaliyyətində proqram sənəd olaraq rəhbər tutulmuşdur.

Hər iki qurultaya gələn xarici qonaqların H.Əliyev tərəfindən qəbul edilməsi və qəbul zamanı həmkarlar ittifaqlarının ünvanına dediyi - «Azərbaycanda həmkarlar ittifaqı hərəkatı, həmkarlar ittifaqı təşkilatları və Həmkarlar İttifaqları Konfederasiyası böyük nüfuza və dəstəyə, geniş şəbəkəyə malikdir» sözləri respublikamızın bütün həmkarlar ittifaqı orqanları və həmkarlar ittifaqları üzvlərini ruhlandırmış, öz fəaliyyətlərini müasir tələblər səviyyəsində qurmağa böyük kömək etmişdir.

«Kollektiv müqavilələr və sazişlər haqqında», «Fərdi əmək mübahisələrinin həlli haqqında», «Fərdi əmək müqavilələri haqqında» qanunlarda və yeni Əmək Məcəlləsində həmkarlar ittifaqlarının təkliflərini öz əksini tapmışdır. Ayrı-ayrı qanunlar və digər normativ hüquqi aktların müzakirələri keçirilərkən həmkarlar ittifaqlarının mövqeyi nəzərə alınır.

Bütün sahələrdə olduğu kimi, ümummilli lider H.Əliyevin işçilərin pozulmuş hüquqlarının bərpası ilə əlaqədar gördüyü işlər və həyata keçirdiyi tədbirlər həmkarlar ittifaqları tərəfindən həmişə alqışlanmış və bu istiqamətdə onun tövsiyələri daim rəhbər tutulmuşdur. Ümummilli liderimiz əmək qanunlarının pozulduğu hallarda həmkarlar ittifaqı işçilərinin qətiyyət və prinsipiallıq göstərməsini tələb edirdi. Bildirirdi ki, həmkarlar ittifaqı təşkilatları adamların işdən qanunsuz çıxarılması ilə razılaşmamalıdır. Odur ki, işçilərin pozulmuş hüquqlarının bərpası həmkarlar ittifaqlarının daimi diqqətində saxlanılmaqdadır. Belə məsələlərlə bağlı AHİK-ə edilən müraciətlərə daha həssaslıqla yanaşılır, onların qanuni tələblərinin müsbət həllinə nail olunur və aparılan işlər nəticəsiz qalmır. Məhz, H.Əliyevin həmkarlar ittifaqlarına göstərdiyi atalıq qayğısı və etimadın nəticəsidir ki, həmkarlar ittifaqları özünə güvənərək işçilərin mənafeyini müdafiə etmək üçün bütün tədbirləri görür.

Azərbaycanın son 30 illik tarixinə nəzər salsaq, həqiqətən də misli görünməmiş sürətli yüksəlişin, əsaslı dəyişikliklərin şahidi olarıq. Bu illər ərzində xalqına, dövlətçiliyə, ölkənin iqtisadi, siyasi, mənəvi inkişafına sədaqətlə xidmət edən ümummilli liderimiz, müstəqil dövlətimizin qurucusu və memarı H.Əliyev ən çətin və ən mürəkkəb vəziyyətlərdə xalqına arxalanmış, azərbaycanlı olmağı ilə fəxr etmişdir. O öz səmərəli fəaliyyəti ilə müstəqil Azərbaycanın qurtuluş tarixini yaratmış, bütün mənalı həyatını Azərbaycana, xalqın milli- mənəvi varlığının qorunması və çiçəklənməsinə, firavan həyatının təmin edilməsinə, dünya xalqları sırasında layiqli yer tutmasına həsr etmişdir. Bu tarixi şəxsiyyətin zəngin həyatının böyük bir dövrü onun müstəqil Azərbaycan dövləti uğrunda apardığı mübarizə və fəaliyyətdən ibarət olmuşdur.

Azərbaycanın siyasi, ictimai, mədəni və sosial həyatının elə bir sahəsi yoxdur ki, orada H.Əliyev qüdrəti, H.Əliyev dühası hiss edilməsin. Bu baxımdan bəşər tarixində dahi öndərimizlə müqayisə edilə biləcək ikinci bir şəxsiyyət tapmaq çox çətindir. Öz xalqını və dövlətini məhv olmaqdan xilas edən, tarixə xilaskar və qurucu kimi düşən dahilərin sayı isə daha azdır.

Məhz H.Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə iqtisadiyyatımızın bütün sahələri uğurla inkişaf etmiş, Azərbaycanda nəhəng sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları yaradılmışdır.

H.Əliyev həmişə elmə qayğı ilə yanaşmış, bu işdə həmkarlar ittifaqlarının da fəal iştirakını məsləhət bilmişdir. Məsələn, həmkarlar ittifaqlarının XV qurultayında H.Əliyev deyir: «Həmkarlar ittifaqları elmi texniki tərəqqi proqramının həyata keçirilməsinə, istehsalatla elmin əlaqəsinin möhkəmləndirilməsinə daim kömək etməlidir. Həmkarlar ittifaqları və təsərrüfat təşkilatları elmin istehsalatla əməkdaşlığının səmərəli formalarını fəal surətdə axtarıb tapmalı və müdafiə etməlidir.

XVI qurultayda isə ən yeni texnikanın istehsalatda tətbiq edilməsi sayəsində əməyin, xüsusilə intellektual əməyin məzmununun zənginləşdirilməsini ön plana çəkmiş, yenilikçilərin və səmərələşdiricilərin təkliflərinin vaxtında tətbiq olunması üçün nazirliklərin, həmkarlar ittifaqları orqanları rəhbərlərinin məsuliyyətini artırmağı tövsiyə etmişdir.

Bu uzaq görən siyasətin nəticəsidir ki, müstəqillik əldə etmiş respublikamız qısa müddət ərzində böhran vəziyyətindən çıxa bildi və burada

ümummilli liderin şəxsi təşəbbüsü ilə həyata vəsiqə almış onlarla zavod və digər sənaye müəssisələrinin xüsusi rolu oldu.

Xalqımızın ümummilli lideri bütün dövrlərdə çalışırdı ki, insanlar daha yaxşı yaşasınlar, Azərbaycanda bütün sahələr inkişaf etsin, güclü iqtisadiyyat yaransın, beləliklə ölkəmiz dünya birliyində yerini daha da möhkəmləndirsin.

1994-cü ildə «Əsrin müqaviləsi» adlandırılan neft sazişinin bağlanması nəticəsində Azərbaycana nüfuzlu transmilli neft şirkətlərini cəlb edilmişdir. Əslində isə ümummilli liderimiz mümkünsüz sayılan bir işi reallığa çevirdi. Bu, müharibə vəziyyətində olan, daxili siyasi çəkişmələrdən cana doyan, dövlət müstəqilliyinə qənim kəsilmiş xarici qüvvələrin təzyiqlərinə məruz qalan Azərbaycana xarici investorların, transmilli şirkətlərin sərmayə qoyulmasının başlanğıcı idi. İndi dahi öndərimizin adını daşıyan Bakı-Tibilisi-Ceyhan neft kəmərinin çəkilişi, Böyük İpək Yolunun bərpası, Azərbaycanın AŞPA-ya inteqrasiyası və digər iri layihələrin həyata keçirilməsi əsl siyasi xadim fəaliyyətinin bariz nümunəsidir. Ölkəmizə milyardlarla dollar investisiya qoyulmuş və bu işlər getdikcə daha geniş miqyasda inkişaf edir.

Respublikamızın çoxsaylı həmkarlar ittifaqı ordusu öz qətiyyətli və səmərəli əməyi ilə ona göstərilən qayğını, ümidi daim doğrultmağa çalışır, əldə etdiyi nailiyyətləri unudulmaz dühа H.Əliyevin adı ilə bağlayır.

H.Əliyev öz fəaliyyəti dövründə həmkarlar ittifaqlarının işinə daim diqqət və qayğı göstərmişdir. Həmkarlar ittifaqlarının həyatında baş verən müsbət dəyişiklikləri məhz H.Əliyevin respublikamızda rəhbərlik etdiyi dövrlərə təsadüf edir. Məhz bu illərdə həmkarlar ittifaqlarının maddi bazası xeyli möhkəmlənmişdir. Respublikada həmkarlar ittifaqlarının kurort və turist bazalarının tikilməsi, əhalinin səmərəli istirahətini təşkil etmək üçün sanatoriyalarda yeni korpusların yaranması təşəbbüsü məhz bu illərdə olmuşdur.

Həmkarlar ittifaqlarının başlıca vəzifələrindən biri əmək adamlarının hüquqlarını və mənafeyini qorumaq, istehsalatda demokratiya prinsiplərini inkişaf etdirməkdir. Həmkarlar ittifaqlarının XVI qurultayında H.Əliyev demişdir: «Əmək adamlarına qayğı çoxcəhətli vəzifədir. Bu vəzifə həmkarlar ittifaqlarından ən müxtəlif istiqamətlərdə əməli fəaliyyət tələb edir. Bu həm də zəhmətkeşlərin maddi təminatı, onların mənzil,

kommunal və mənzil şəraitinin yaxşılaşdırılması, xidmət sahələrinin genişləndirilməsi üçün qayğıdır».

Təsadüfi deyildir ki, Dövlət Statistika Komitəsinin Beynəlxalq Əmək Təşkilatının «Azərbaycanın əmək statistikası və regional inkişaf sahəsində texniki yardım» layihəsi çərçivəsində keçirilən sorğusunda Azərbaycan əhalisinin sosial-iqtisadi müdafiəsini və ev təsərrüfatında iqtisadi fəallığın müayinəsində respondentlərin 53,4 faizi sosial-iqtisadi maraqlarının müdafiəsi istiqamətində həmkarlar ittifaqlarının fəaliyyətinə müsbət qiymət vermiş, sorğu aparılanların 89,3 faizi həmkarlar ittifaqı təşkilatlarından başqa onların sosial və əmək haqlarını qoruyan təşkilat tanımadıqlarını bildirmişlər.

Ümummilli lider H.Əliyev qadınların və gənclərin problemlərini daim önə çəkmiş, onların cəmiyyətdə layiqli yer tutmaları üçün var qüvvəsi ilə çalışmışdır. Ulu rəhbərin tövsiyələrinə əməl edən Azərbaycan Həmkarlar İttifaqları Respublika Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş «Qadın problemləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı»nın və gənclərin problemlərinin həlli məqsədilə dövlət siyasətinin hazırlanmasında yaxından iştirak etmiş, həmin proqram və plana salınmaq üçün faydalı təkliflər vermişdir.

Unudulmaz rəhbərimiz H.Əliyevin qayğı və ehtimadından ruhlanan Azərbaycan Həmkarlar İttifaqları gənc nəslə vətənpərvərlik tərbiyəsi aşılanmasına, o cümlədən Milli Ordu və Donanmamızın qoşun hissələrində qulluqda olan əsgər və matroslarla mədəni-kütləvi tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası nəzdində fəaliyyət göstərən Mərkəzi Əlaqələndirmə Şurası Respublikanın Müdafiə Nazirliyi, digər maraqlı təşkilatlarla sıx əlaqədə xeyli tədbirlər həyata keçirir.

Həmkarlar İttifaqlarında Respublika Silahlı Qüvvələri ilə aparılan mədəni-kütləvi işlər ümumiləşdirilərək yekun vurulur, AHİK-in İcraiyyə Komitəsində müzakirə edilərək silahlı qüvvələrin fərqlənən nümayəndələri, mədəniyyət və incəsənət işçiləri AHİK-in və Respublika Müdafiə Nazirliyinin diplom və Fəxri Fərmanları ilə təltif olunurlar.

Ümummilli liderimizin yaradıcısı olduğu C.Naxçıvanski adına Hərbi Litseydə təhsildə fərqlənən bir qrup müdavim, tağım və bölük hər il Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən mükafatlandırılır.

Məhz H.Əliyevin müdrik məsləhət və tövsiyələrini özünə rəhbər tutan Həmkarlar İttifaqları İdman Təşkilatlarının nümayəndələri Dünya və Qitə çempionatlarında, Kubok və digər birinciliklərdə, beynəlxalq yarışlarda inamla çıxış edərək yüksək nəticələr göstərir. «Gənclik» İdman Cəmiyyəti ölkə tələbələri Universiadasını, «Məhsul», «Zenit», «Spartak» və «Babək» İdman Cəmiyyətləri isə öz xidməti sahələri üzrə əməkçilərinin idman spartakiadalarını və yarışlarını keçirir. AHİK-in bilavasitə iştirakı və yaxından köməkliyi ilə Gənclər və İdman Nazirliyi ilə birlikdə əməkçilərin respublika spartakiadası keçirilir.

Unudulmaz öndər H.Əliyevin Azərbaycan Həmkarlar İttifaqlarına verdiyi mənəvi dəstək onun nüfuzunun beynəlxalq arenada möhkəmləndirilməsi üçün zəmin yaratmışdır. AHİK 1992-ci ildən Beynəlxalq Əmək Təşkilatının, 2001-ci ildən Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyasının tamhüquqlu üzvüdür və bu beynəlxalq təşkilatların keçirdiyi tədbirlərdə respublikanın dövlət orqanları ilə birgə fəal iştirak edir.

AHİK-in həyata keçirdiyi işlər ümummilli liderimiz Heydər Əliyev tərəfindən daim yüksək qiymətləndirilmişdir. AHİK-in 2003-cü il 5-6 fevral tarixində keçirilmiş II qurultayına ölkə prezidenti, ümummilli liderimiz Heydər Əliyevin göndərdiyi təbrik məktubunda deyilir: Həmkarlar ittifaqları hazırki dövrdə əmək prosesinə cəlb olunmuş Azərbaycan vətəndaşlarının hüquqlarının müdafiəçisi kimi ölkəmizdə fəaliyyət göstərən bütün müəssisələrdə, o cümlədən xarici sərmayə ilə işləyən təşkilatlarda, transmilli kompaniyalarda iş şəraitinin müasir standartlara uyğunlaşdırılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində yeni metod və vasitələrdən istifadə edərək daha ardıcıl və məqsədyönlü fəaliyyət göstərməlidirlər. Təbrik məktubunda işçilərin sosial-iqtisadi hüquqlarının qorunması sahəsindəki işlərin bir daha yaxşılaşdırılması üçün tövsiyələr verməklə əminliklə bildirilir ki, həmkarlar ittifaqları Azərbaycan Respublikasında demokratik, azad cəmiyyətin, insanların firavan həyatının bərqərar olması yolunda gələcəkdə də ön sıralarda addımlayacaqdır.

Azərbaycan Həmkarlar İttifaqlarının əməkçilərin sosial-iqtisadi müdafiəsi ilə bağlı xarici həmkarlar ittifaqları mərkəzləri ilə qarşılıqlı görüşlər keçirməsi, informasiya mübadilələri aparması həm əlaqələrimi-

zın genişləndirilməsi, həm də yeniliklərin öyrənilməsi baxımından olduqca faydalıdır. Müxtəlif beynəlxalq qurumların məşğulluq, yoxsulluğun aradan qaldırılması, sosial müdafiənin daha təsirli formalarının tapılması ilə bağlı dünyanın bir çox ölkələrində keçirilən tədbirlərdə Azərbaycan Həmkarlar İttifaqları layiqincə təmsil olunmuş və bir çox layihələrə qoşulmuşdur.

Ümumiyyətlə, son illər dünyada ümumbəşəri bir problemə çevrilmiş yoxsulluqla mübarizə kəskin xarakter almışdır. Hazırda dünyanın onlarla ölkəsində yoxsulluğun azaldılması istiqamətində ardıcıl olaraq tədbirlər görülür. 2015-ci ilədək dünyada yoxsulluq səviyyəsinin azaldılması bir vəzifə kimi qarşıya qoyulmuşdur. Bizim ölkəmizdə də yoxsulluğun azaldılması olduqca əhəmiyyətli bir işdir. Bu məsələnin əhəmiyyətini nəzərə alaraq ümummilli liderimiz H.Əliyev 2001-ci ilin mart ayında yoxsulluğun azaldılması üzrə Dövlət proqramının hazırlanması barədə Fərman imzaladı.

HİK-in mütəxəssislərinin də yaxından iştirakı ilə hazırlanan «Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı» məhz möhtərəm H.Əliyevin nəzarəti altında mükəmməl şəkildə işlənib tamamlandı və indi uğurla həyata keçirilir.

Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan, min cür maneələrdən, çətinliklərdən keçərək SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan H.Əliyev yeni Azərbaycan dövlətini yaratdı. Misilsiz dövlət xadimi kimi ən mürəkkəb, ən ağır, çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, xalq üçün ən yaxşı çıxış yolu tapmaq bacarığı yalnız ona məxsus bir keyfiyyət idi.

Qeyri-adi siyasi təfəkkürə, böyük dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyevin respublika əməkçiləri üçün gördüyü hər bir iş əvəzedilməz olmaqla yanaşı böyük tarixi əhəmiyyətə malikdir. Dövlət müstəqilliyini qazanmış Azərbaycanın düşmən qüvvələr tərəfindən yer üzündən silinməsinə qarşı apardığı müharibə, dövlətçiliyimizin qorunub saxlanması yolunda həyata keçirdiyi cəsarətli və qətiyyətli tədbirlər, işçilərin sosial-iqtisadi hüquqlarının qorunması, onların sosial qayğılarının aradan qaldırılması və sosial müdafiəsinin təşkili istiqamətlərində atdığı mühüm addımlar Azərbaycanın tarixində əbədi qalacaqdır.

Ümummilli liderimiz öz xalqına müqəddəs bir abidə qoyub getmişdir. Bu müstəqil, suveren, azad Azərbaycan Respublikasıdır. Müstəqil Azərbaycan Respublikasının hər bir üzvü dinindən, dilindən, irqindən, cinsindən və siyasi mənsubiyyətindən asılı olmayaraq bu abidəni qoruyub saxlamağa borcludur. Bu abidəni yaşatmaq, inkişaf etdirmək üçün isə ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı, ölkə prezidenti İlham Əliyevin ətrafında daha sıx birləşib, ona yaxından kömək göstərməliyik.

Azərbaycanımızı qarşıda çox böyük və möhtəşəm günlər gözləyir. Ümumilli liderimizin layiqli davamçısı cənab İlham Əliyev ölkə prezidenti seçildiyi ilk vaxtlardan insanların sosial həyat şəraitinin yaxşılaşmasını ön plana çəkdi. Elə onun ilk fərmanı da məhz bu məsələlərlə bağlıdır. Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafını əhatə edən Dövlət Proqramında 600 min yeni iş yeri açılacağı, əmək haqqının 3,1 dəfə artırılacağı, ölkəmizdə insanların həyat şəraitinin günü-gündən yaxşılaşacağı, Azərbaycanın inkişaf etmiş dövlətlərdən birinə çevriləcəyi bəyan olunmuşdur. Artıq 2004-cü ildə iqtisadiyyatımızda müsbət meyllər güclənmiş, 170 mindən qədər yeni iş yerləri açılmışdır ki, bunun da 90 mini daimi iş yeridir. Bu yol Heydər Əliyev yoludur.

Bu gün dahi şəxsiyyət, ölməz insan, ümummilli liderimiz Heydər Əliyev irsinin öyrənilməsi, təbliği və Azərbaycan cəmiyyətinə çatdırılması ümdə vəzifələrimizdən biridir. Bu irs gənc nəslin azərbaycançılıq, vətənpərvərlik, mübarizlik ruhunda tərbiyəsi, böyüməsi və yaşamasında müstəsna rol oynayır və gələcəkdə də oynayacaqdır. Heydər Əliyev irsi bu gün hər birimizə nümunədir.

Azərbaycan Həmkarlar İttifaqları əhalinin sosial mənafelərinin qorunması istiqamətində bundan sonra da fəal iş aparacaq, dövlətimizin möhkəmlənməsi və ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi məqsədilə bütün imkanlardan məqsədyönlü istifadə edəcəkdir. Bütün Azərbaycan xalqı birləşərək ulu öndərin, unudulmaz H.Əliyevin ideyalarının həyata keçirilməsi üçün onun siyasi kursunun layiqli davamçısı olan Prezident İ.Əliyevin həyata keçirməyə başladığı tədbirlərin reallaşmasına yardımçı olacaqlar.

İLQAR ƏLİYEV
Yasamal bələdiyyəsinin sədri

HEYDƏR ƏLİYEVİN DEMOKRATİK DÖVLƏT QURUCULUĞU SİYASƏTİNDƏ ÖZÜNÜİDARƏETMƏ SİSTEMİNİN YERİ

Müstəqil Azərbaycanın dövlət quruculuğu prosesində özünüidarə sisteminin bərqərar olması ümummilli liderimiz Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin bəhrəsidir.

Zəngin dövlətçilik təcrübəsinə və yüksək idarəetmə bacarığına malik Heydər Əliyev ölkəmizin gələcəyini sivil vətəndaş cəmiyyət quruculuğu ilə bağladığından, demokratiyanın mütləq atributlarından olan yerli özünüidarəetmənin xalqımızın özünəməxsus xüsusiyyətləri nəzərə alınmaqla dünyada qəbul olunan modelinin hazırlanması üçün xüsusi qayğı göstərmişdir.

35 ilə yaxın zaman kəsiyində Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin bütün fəaliyyəti dövründə həyata keçirdiyi islahatlar xalqın rifahının yüksəlməsi, demokratik ənənələrin yaranması, iqtisadi və siyasi müstəqilliyin təmin olunması işinə xidmət etmişdir. Vətəndaş mövqeyinin nəzərə alınması, təşəbbüskarlığın artırılması kimi məsələləri prioritet hesab edən bu dahi şəxsiyyət xalqımızın tərəqqisi naminə çalışmışdır.

Dünya demokratiyasının çoxəsrlik təcrübəsinin dərindən öyrənilməsi və ölkəmizin spesifik xüsusiyyətləri nəzərə alınmaqla yerli özünüidarəetmənin hüquqi bazasının yaradılması istiqamətində böyük işlər görülmüşdür. Azərbaycanda ilk dəfə 1999-cu ildə keçirilən bələdiyyə seçkiləri ilə demokratik prinsiplərə əsaslanan yerli özünüidarəetmə sisteminin bərqərar olunması üçün yeni qurumun yaranması prosesinə başlanmışdır.

Heydər Əliyevin demokratik dövlət quruculuğu siyasəti nəticəsində ölkəmizdə yerli özünüidarəetmə sisteminin qüvvədə olan qanunlara və qanunverici aktlarına istinadən fəaliyyət göstərməsi üçün zəmin yaranmışdır. Yerli və lokal əhəmiyyətli məsələlərin həllini öz üzərinə götürən, yerli əhalini öz ətrafında birləşdirərək onları sosial toplum şəklində

müəyyən problemlərin həllinə yönəldə bilən özünüidarəetmə sisteminin cəmiyyət həyatına nüfuz etməyə qadir mexanizmi yaranmışdır.

Xalqımızın dahi oğlu Heydər Əliyevin bazar iqtisadiyyatına əsaslanan sosial yönümlü cəmiyyət qurulması naminə apardığı məqsədyönlü fəaliyyət ölkəmizdə yerli özünüidarəetmənin sürətlə intişar tapmasına rəvac vermişdir. 2004-cü ildə keçirilən növbəti seçkilər bələdiyyələrin xalq tərəfindən dəstəklənən bir qurum olduğunu təsdiq etmişdir.

Antik dövrün dahi filosofu Platona görə siyasət – birlikdə yaşamaq məharətidir. Eyni zamanda siyasət cəmiyyəti təşkil etmək xüsusiyyətini özündə ehtiva edir.

Çağdaş dövrün ən böyük siyasətçilərindən olan Heydər Əliyev xalqımızın rifahının yüksəlməsi və iqtisadi inkişafı, azadlığının qorunması, ölkəmizin müstəqilliyinin dönməz və əbədi olması naminə vətəndaş cəmiyyəti quruculuğuna böyük önəm vermiş, bunun üçün lazım olan hüquqi islahatların həyata keçirilməsini, qanunvericilik bazasının yaradılmasını təmin etmişdir.

Hər bir cəmiyyətin həyatı üçün çox ağrılı olan keçid dövründə müxtəlif qrup və fərdin mənafelərinin vəhdətinə əsaslanan siyasət yürütməklə hakimiyyətin mənbəyi olan xalqı sivil inkişafa yönəltmək Heydər Əliyev kimi qüdrətli dövlət xadiminə müəssər olmuşdur və xalqımız onun timsalında demokratik təfəkkürə malik ümummilli lider əldə etmişdir.

Azərbaycan bu gün demokratik dəyərlərə üstünlük verən dövlət, Avropa Şurasının tamhüquqlu üzvü, qlobal layihələrin həyata keçirdiyi bir məmləkət kimi tanınır. Demokratik islahatların dərinləşməsi ilə cəmiyyətin idarə olunmasında ölkə vətəndaşlarının daha fəal iştirakı üçün əsaslı şərait və imkan yaranmışdır.

Azərbaycanda demokratik inkişafın vacibliyi barədə Heydər Əliyev belə demişdir: «Biz əminik ki, həyatımızın bütün sahələrində demokratikləşdirmə yolu getməklə Azərbaycan dünyanın sivilizasiyalı ölkələri sırasına çıxacaqdır» (H.Əliyev əsərləri, 8-ci cild, səh.256).

Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasının 1 maddəsində qeyd olunan «Yerli özünüidarəetmə dedikdə qanun çərçivəsində, öz məsuliyyəti altında və yerli əhalinin mənafeyinə uyğun hərəkət etməklə dövlət işlərinin əhəmiyyətli hissəsinin müəyyənləşdirilməsi və onların idarə olunması sahəsində yerli özünüidarəetmə orqanlarının hüquq və real imkanla-

n nəzərdə tutulur» prinsipləri demokratik dövlətimizin qanunvericiliyində də öz əksini tapmışdır. Azərbaycan Respulikasının Konstitusiyası ümummilli liderimiz Heydər Əliyev tərəfindən hazırlanarkən vətəndaş cəmiyyətinin bərqərar olunması hüquqi dövlətin ən əhəmiyyətli prinsiplərindən biri kimi nəzərdə tutulmuşdur. Konstitutsiyanın birinci maddəsində «Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır» müddəası ilə hakimiyyətin xalqa mənsubluğunu, xalq hakimiyyəti prinsipinin əsas götürülməsi təsbit olunmuşdur.

Azərbaycan Konstitusiyasına görə ölkəmizdə yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir.

Bələdiyyə – qanunla müəyyən edimiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyələrin statusu və fəaliyyət qaydası Azərbycan Respublikasında qəbul edilmiş bir sıra qanunlarla tənzimlənir. Mühüm qanunların hazırlanıb qəbul edilməsini həyata keçirən respublika parlamentində formalaşdırılmış Yerli və Regional Özünüidarəetmə Məsələləri üzrə Daimi Komissiyanın 1995-ci ildən işə başlaması ilə bələdiyyələrə aid çoxsaylı danışıqlar paketinin hazırlanması prosesinə rəvac verildi.

Bu illər ərzində Milli Məclisdə qəbul edilən bir sıra fundamental qanun özünüidarəetmənin həyata keçirməsinin hüquqi əsaslarını və praktikada tətbiqini təmin edir.

Azərbaycan Respublikasında yerli özünüidarəetmənin daha da təkmilləşməsində böyük dövlət xadimi Heydər Əliyev tərəfindən verilən fərman və sərəncamlar da müstəsna əhəmiyyət kəsb etmişdir. Ölkə prezidentinin imzaladığı fərman və sərəncamlar, Milli Məclisin qəbul etdiyi məcəllə, qanun və qərarlar nəticəsində Azərbaycan Respublikasında yerli özünüidarəetmənin əsas hüquqi bazası yaradılmış, bələdiyyəçilik institutu formalaşdırılmışdır. Həyatın və zamanın tələblərinə uyğun olaraq qanunlar daha da təkmilləşdirilmiş, bələdiyyələrin dinamik inkişafı təmin edilmişdir. Xalqımızın həyatının və rifahının yaxşılaşdırılması üçün vacib olan ən mühüm və vacib islahatların həyata keçirilməsi ulu öndərimiz və ümummilli liderimiz Heydər Əliyevin adı və yorulmaz fəalyyəti ilə bağlı olmuş, bu gün isə görkəmli dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

2004-cü ilin dekabrında ölkəmizin tarixində ikinci dəfə keçirilən bələdiyyə seçkiləri Heydər Əliyevin yaratdığı demokratik idarəetmə sistemi-

nin həyatiliyini bir daha təsdiq etdi. Dünya təcrübəsi, xalqımızın milli xüsusiyyətləri, keçid dövrünün reallıqları nəzərə alınmaqla formalaşdırılmış, bələdyyə modelinin xalq tərəfindən qəbul edildiyini əyani şəkildə nümayiş etdirdi.

2004-cü ildə keçirilən bələdiyyə seçkilərinin birpilləli, partiya mənsubiyyəti nəzərə alınmadan, yalnız əhali tərəfindən göstərilən etimad və qazanılan nüfuza uyğun olaraq mojaritar qaydada — demokratik prinsiplər əsasında aparılması ölkədəki siyasi dairələri sınağa çəkdi. Seçkilərin nəticəsi prezident İlham Əliyev tərəfindən davam etdirilən Heydər Əliyev siyasi kursunun xalq tərəfindən etimadla qarşılandığını və birmənalı şəkildə qəbul edildiyini göstərir..

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün andiçmə mərasimindəki nitqində Heydər Əliyev siyasətinin davam etdirilməsi zərurəti barədə demişdir: «Heydər Əliyev siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır».

Prezident İlham Əliyev 2004-cü ilin yanvar ayında Fransaya səfərində jurnalistlərin suallarına cavab verərək bir daha vurğulamışdır:

«Azərbaycan Respublikasının prezidenti kimi mən gələcək fəaliyyətimdə də Heydər Əliyevin siyasətini ardıcıl surətdə davam etdirəcəyəm. Bu siyasətin əsas prioritetlərini isə Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş soydaşlarımızın öz doğma yurdlarına qayıtması, iqtisadiyyatımızın gələcəkdə daha da inkişaf etdirilməsi, əhalinin sosial vəziyyətinin durmadan yaxşılaşdırılması, ölkəmizin beynəlxalq aləmdə əlaqələrinin daha da genişləndirilməsi, Azərbaycanın dünya birliyinə, o cümlədən Avropa xalqları ailəsinə daha sıx inteqrasiya olunması təşkil edir. Qədim tarixə, zəngin iqtisadi və mədəni potensiala malik olan Azərbaycan xalqının gələcək firavanlığı və əmin- amanlığı prezident kimi mənim fəaliyyətimin əsasını təşkil edir və əminəm ki, ələlə verərək buna nail olacağıq».

Prezident İlham Əliyevin prioritet hesab etdiyi bu vəzifələrin həyata keçirilməsində yerli özünüidarəetmə sisteminin əhəmiyyəti böyük, fəaliyyət sahələri isə genişdir.

Vətəndaş cəmiyyətinin bütün atributlarını özündə ehtiva edən yerli özünüidarəetmənin əsas qayəsi əhalinin rifahının təmin edilməsi naminə

fəaliyyətin yerlərdə onların özü tərəfindən təşkilatlanmış formada həyata keçirilməsi, yerli əhəmiyyət kəsb edən məsələlərin həllinə sosial toplumun cəlb olunması və beləliklə yerli özünüidarəetmə institutunun bərqərar olmasıdır. Bu halda yerli əhəmiyyətli məsələlərin həlli üçün məsuliyyət vətəndaşın öz üzərinə düşür, konkret inzibati ərazi üzrə iqtisadi, sosial, mədəni problemlərin həlli istiqamətində fəaliyyət göstərmək üçün əhali potensialından geniş istifadə olunur.

2004-cü ilin dekabr ayında yerli özünüidarə orqanlarına seçkilər zamanı əldə olunan nailiyyətlər ümummilli liderimiz Heydər Əliyevin irəli sürdüyü «Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır» prinsiplərin daha da möhkəmləndirilməsi istiqamətində həyata keçirilən növbəti uğurlu addım kimi yüksək əhəmiyyət daşıyır və bələdiyyə sisteminin bir təsisat kimi ölkəmizdə uzunömürlüyünə dəlalət edir.

Əhalinin yüksək siyasi mütəşəkkilliyi ilə müşayiət olunan 2004-cü ilin bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının təmsil edən namizədlərin böyük uğuru cəmiyyətdə baş verən proseslərin gerçək demokratik müstəviyə keçməsindən xəbər verir.

Ölkənin iqtidar partiyasından olan namizədlərin xalqın böyük etimadını qazanaraq bələdiyyə seçkilərində daha çox yerlərə sahib olması ölkəmizdə həyata keçirilən siyasətin xalqın dəstəyinə arxalandığını sübut edir. Müstəqil dövlətimizin siyasi və hüquqi əsaslarının daha da möhkəmləndirilməsi naminə həyata keçirilən tədbirlər nəticəsində vətəndaş cəmiyyətinin bərqərar olunması prosesi yeni vüsət almışdır.

Demokratik təsisatlar şəbəkələri genişləndikcə yerli və regional özünüidarəetmə sistemi cəmiyyətə daha dərindən nüfuz edir.

Ümummilli liderimiz Heydər Əliyevin qurub-yaratdığı demokratik, suveren, müstəqil Azərbaycanda İlham Əliyevin rəhbərliyi altında sivil, vətəndaş cəmiyyəti quruculuğu prosesi sürətlə inkişaf edir.

Yeni Azərbaycan Partiysının II qurutayında Heydər Əliyev ölkəmizin gələcək inkişaf yolunu belə müəyyənləşdirmişdir: «Əsas vəzifəmiz Azərbaycanın dövlət quruculuğudur. Azərbaycanda keçirilən islahatlar – iqtisadi, siyasi, sosial və başqa islahatlardır.

Yəni Azərbaycan tutduğu yol ilə, demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə ardıcıl surətdə inkişaf etdirməkdən ibarətdir.

Biz burada da çox şeyə nail olmuşuq. Biz bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda yeni bir sistem yaranmışdır. Dünya sisteminə yaxınlaşan, dünya standartlarına çatmağa çalışan hüquqi, demokratik, dünyəvi dövlət yaranıbdır. Budur bizim nailiyyətimiz».

Azərbaycanda Heydər Əliyev tərəfindən yaradılan bu sistemdə insanların azad siyasi və ictimai fəaliyyətinə geniş meydan verən demokratik təsisatların vasitəsilə yerli və regional özünüidarə cəmiyyət həyatının bütün sahələrinə daha dərindən nüfuz edə bilmək imkanlarını artırır.

Prezident İlham Əliyevin idarəetmə məharəti sayəsində Azərbaycanda sivil, konstitusiya və qanunlar çərçivəsində fəaliyyət göstərmək üçün hər cür şərait və imkanların mövcud olduğu bir cəmiyyət qurulmuşdur.

Dövlətin sosial siyasətinin həyata keçirilməsində bələdiyyələrin əhəmiyyətinin son dərəcə böyük olduğunu nəzərə alaraq 2004-cü ildə keçirilən bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasından irəli sürülən namizədlər öz seçki platformalarında bu məsələyə xüsusi yer ayırmış, konkret layihələr irəli sürmüş və bunun nəticəsində seçicilərin böyük əksəriyyətinin etimadını qazanmışlar.

Prezident İlham Əliyevin yeni iş yerlərinin açılması naminə həyata keçirdiyi iri miqyaslı layihələrin reallaşması prosesində bələdiyyələr yaxından iştirak edir, dövlətin müvafiq qurumları ilə fəal əməkdaşlıq həyata keçirir. Xalqa ən yaxın idarəçilik institutu kimi vətəndaşlarla qarşılıqlı inam, anlaşma şəraitində işləyir.

Ulu öndərimiz Heydər Əliyevin sosialyönümlü cəmiyyətin qurulması istiqamətində həyata keçirdiyi siyasətin davamı olaraq yerli əhəmiyyət daşıyan bütün məsələlərin həllinə vətəndaşın özü cəlb olunur, konkret inzibati ərazidə yaşayan əhalinin sosial vəziyyəti özünüidarəetmə orqanları tərəfindən öyrənilir, insanlar özləri bu problemlərin həlli yollarını aramağa cəlb olunurlar.

Bunun nəticəsidir ki, Azərbaycan bu gün dinamik sürətlə inkişaf edən bir ölkə, vətəndaşların hüquq və azadlıqlarının qorunmasına təminat verən demokratik respublika kimi dünyada qəbul olunur və nüfuz qazanır.

Heydər Əliyevin xalqımızın həyatının yaxşılaşması, dövlətçiliyimizin möhkəmlənməsi, ərazi bütövlüyünün bərpa olunması naminə apardığı say-

asəti prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli liderimizin siyasi varisi və ölkə prezidenti İlham Əliyev Azərbaycanın nüfuzunun dünya miqyasında yüksəlməsi sayəsində gördüyü işlərlə yanaşı vətəndaş cəmiyyəti quruculuğuna da mühüm önəm verir.

Azərbaycanda intişar tapmış özünüidarəetmə orqanı – bələdiyyələr cəmiyyət həyatına daha dərindən nüfuz edə bilən, əhalinin güzəranının yaxşılaşmasına müsbət təsir göstərər bir qurum kimi dövlət işlərinin müəyyən hissəsinin həllində yaxından iştirak edir. Azərbaycanda sivil dünyanın tələblərinə uyğun idarəetmə sisteminin yaradılması ilə əhali öz sosial vəziyyətinin yaxşılaşdırılması üçün imkan əldə etmişdir.

Ulu öndərimiz Heydər Əliyev Yeni Azərbaycan Partiyasının II qurultayında etdiyi parlaq və yadda qalan nitqində demokratik dövlət quruculuğu və demokratik prinsiplər barədə belə demişdir: «Demokratiyanın prinsipləri nədər ibarətdir!? Siyasi plüralizm, söz azadlığı, vicdan azadlığı, sərbəst iqtisadiyyat, hər bir insanın tam azad olması, demokratik seçkilərin keçirilməsi, demokratiya prinsipləri əsasında dövlət təsisatlarının yaranması və müxtəlif islahatların həyata keçirilməsi. Demokratiya mücərrəd anlayış deyildir, bunlardan ibarətdir. Biz bunları etmişik və edirik».

Demokratik dövlət quruculuğunda əldə olunan hər bir müsbət nəticə Heydər Əliyevin adı, möhtərəm Prezident İlham Əliyevin apardığı siyasət və fəaliyyəti ilə bağlıdır.

HEYDƏR ƏLİYEV YOLUNUN UĞURLU DAVAMI

NİZAMİ XUDİYEV
Milli Məclisin deputatı,
YAP İdarə Heyətinin üzvü

Ölməz o adamdır ki, özündən sonra Vətən üçün böyük və faydalı yadigarları qalır.

El məsəli.

UĞURLU YOLUN LAYİQLİ DAVAMÇISI

Atalar və oğullar

Mən ulu öndərimiz, bənzərsiz liderimiz, böyük rəhbərimiz Heydər Əliyev və onun layiqli varisi, bu gün Azərbaycanı böyük məharətlə idarə edən və ümidli sabahlara aparan, artıq ölkəmizdə və xaricdə yetkin siyasi lider kimi qəbul olunan, yüksək nüfuz qazanan möhtərəm Prezidentimiz İlham Əliyev haqqında hər dəfə söz deyəndə həm haqlı qürur duyur, həm də məsuliyyət hissi keçirirəm. Qürurumun səbəbi bəllidir. Məsuliyyət hissi keçirməyim də əsassız deyil. Çünki Heydər Əliyev haqqında söz demək üçün gərək ən əvvəl onun ən böyük əsərini – «Azərbaycan» adlı əsərini dərindən öyrənəsən, dərindən mənimsəyəsən. İlham Əliyev haqqında söz deyəndə isə gərək bir vacib amili unutmayasan: O, Heydər Əliyevin oğludur, Heydər Əliyevin varisidir!..

Tarixdə dahi ataların qurduğu dövləti davam və inkişaf etdirən, daha da möhkəmləndirən, yüksəldən qüdrətli oğullar olub. Amma, gəlin, etiraf edək ki, belələri çox azdır. İlham Əliyev isə böyük düha sahibi Heydər Əliyevin elə özünə layiq övladıdır. Azərbaycan və xalqımız üçün son dərəcə misilsiz, heç bir tarixi şəxsiyyətlə müqayisəyəgəlməz dərəcədə böyük işlər görən Heydər Əliyevin Azərbaycana bəxş etdiyi ən qiymətli əsəridir, ulu öndərin əvəzolunmaz yadigarlarından biridir. Heydər Əliyevin həyat, hakimiyyət, siyasət, diplomatiya məktəbinin məzunu, Heydər Əliyev ideyalarının xilaskarlıq qüdrətiylə, tükənməz Azərbaycan sevgisiylə, azərbaycançılıq missiyasıyla silahlanan İlham Əliyevin bugünkü genış-

miqyaslı və uğurlu fəaliyyəti göstərir ki, o, dahi dövlət xadimi Heydər Əliyevin bütünlüklə Azərbaycana, onun sabahına həsr edilən hakimiyyət yolunu, zəfər yolunu, şərəf yolunu ləyaqətlə davam etdirir, xalqına, Vətəninə Heydər Əliyev zirvəsindən xidmət edir.

Cənab İlham Əliyevin vaxtilə dediyi bu fikir çox yaddaqalandır: «Mənim xoşbəxtliyim bundadır ki, mən Heydər Əliyev adlı dahi şəxsiyyətin yanındayam və məndə öyrənmə imkanları daha çoxdur, nəinki başqa adamlarda.» Buna görə də tam səmimiyyətlə, qəti əminliklə demək olar ki, İlham Əliyev təkcə atasının – Heydər Əliyevin yox, bütövlükdə Heydər Əliyev kursunun, azərbaycançılıq ideologiyası ilə tam səsləşən, üstüstə düşən Heydər Əliyevçiliyin varisi, daşıyıcısı və davamçısıdır. Bir müsahibəsində isə cənab İlham Əliyev belə deyib: «...Heydər Əliyevin varisi mənim oğlum Heydər Əliyevdir. Ona görə də deyə bilərsiniz ki, Heydər Əliyevin varisi Heydər Əliyevdir.» Bu tarixi, sadə və səmimi fikirdə təkcə baba və nəvə Heydər Əliyevdən söhbət getmir, daha çox ondan söhbət gedir ki, Heydər Əliyevin ideyaları əbədidir: onun varisi özüdür, öz ideyalarıdır, yəni Heydər Əliyevin varisi Heydər Əliyevdir. Və Azərbaycan istiqlalının, azərbaycançılıq məfkurəsinin, milli müstəqilliyimizin dayaq nöqtəsi, enerji mənbəyi, hərəkətverici qüvvəsi olan xilaskar Heydər Əliyev ideyaları bütün soydaşlarımızı, bütün dünya azərbaycanlılarını birliyə, bütövlüyə, Vətən və xalq naminə fədakarlığa çağırır.

Xalqın inamı və sevgisi

Ümummilli liderimizin çox böyük uzaqgörənliklə və əminliklə dediyi «...Azərbaycanın gələcəyi etibarlı əllərdədir», «Mən seçici olsaydım, İlham Əliyevə səs verərdim» fikri yada düşür. Müdrik və qədirbilən xalqımız ulu öndərin bu fikrini 2003-cü il prezident seçkilərində təsdiqlədi, Heydər Əliyevin siyasətinə böyük inamının, məhəbbətinin nəticəsi olaraq onun varisinə – İlham Əliyevə səs verdi, onu özünə yeni rəhbər seçdi. Bu, qanunauyğunluq idi. İlham Əliyevin seçkilər ərəfəsində xalqla görüşlərində, bəlkə də, yaşına uyğun olmayan müdrikliyi, xalqla səmimiliyi, hədsiz təvazökarlığı, alicənablığı, insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə, sələfinə, üstəlik, öz şəxsiyyətinə hörmət və ehtiramı onun yüksək, ali tərbiyəsindən, ziyalılığından, zəngin mənəviyyatından,

siyasi yetkinliyindən xəbər verirdi. İlham Əliyev həm də bu səbəblərdən qalib gəldi. Və Prezident kimi fəaliyyətə başladığı ilk aylarda ulu öndər Heydər Əliyevlə bağlı ölkəmizdə yaşanan narahatlıq, sonra isə ümumxalq hüznü olmasına baxmayaraq, fəal siyasətçi kimi nəhəng siyasət ümmanının bütün istiqamətlərinə nüfuz edə bildi. O, bütün sahələrdə Heydər Əliyev strategiyasının layiqli davamçısı olduğunu əməli fəaliyyəti ilə nümayiş etdirdi.

İlham Əliyev intellekti, istedadı və şəxsiyyəti bütöv vəhdət təşkil edən liderdir. İntellektlə istedadın, elmlə istehsalatın, ənənə ilə novatorluğun üzvi vəhdətinə, yaradıcı sintezinə nail olmaq qabiliyyəti, Azərbaycanın dünəni, bu günü və sabahına sonsuz, sarsılmaz sədaqət – bunlar İlham Əliyevi hər kəsə sevdirən keyfiyyətlərdir. Onun qabiliyyəti, enerjisi, Azərbaycanın azadlığı, müstəqilliyi yolunda böyük fədakarlığı Prezident olduğu müddətdə daha qabarıq üzə çıxdı. O hər zaman, hər bir fəaliyyət sahəsində yalnız milli maraqlarımızı, Azərbaycanın çağdaş və perspektiv mənafelərini düşünüb, bu istiqamətdə hərəkət edib.

İqtisadi inkişafın qarantı

İlham Əliyevin seçkiqabağı platformasının uğurla həyata keçirildiyi, bütün istiqamətlərdə konkret nəticələr əldə olunduğu indi heç kimə sirr deyil. Qazanılan nailiyyətlər göz önündədir və danılmazdır. İqtisadiyyatımız gündən-günə inkişaf edir. Beynəlxalq əlaqələrin gücləndirilməsi sahəsində qazanılan uğurlar danılmaz faktdır. Artıq ölkədə yeni iş yerləri açılıb, ailələrin həyatında müsbət dəyişikliklər baş verib. Bu baxımdan, heç şübhəsiz, Prezident İlham Əliyevin zəkasının məhsulu olan regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət proqramının qəbul edilməsi xüsusi mərhələ təşkil edir. Həmin proqramın icrasına dövlət başçısının bilavasitə özünün nəzarət etməsi, bu proqramın icrasının bir illik fəaliyyət dövrünü əhatə edən ümumrespublika toplantısı keçirməsi əsl dövlətçilik missiyası, vətəndaş fədakarlığı, öz sözünün, öz xəttinin əsl sahibi kimi fəaliyyət göstərən dövlət rəhbərinin müdrikliyi kimi qiymətləndirilməlidir. Cənab İlham Əliyevin 600 min nəfərlik yeni iş yerinin açılacağı barədə seçkiqabağı vədinin cəmi bir ildə təxminən 30 faizinin yerinə yetirilməsi, yəni 170 min yeni iş yerinin açılması dinamik inkişafın bəhrəsi kimi

qeyd olunmalıdır. Bu iş yerlərinin əhəmiyyətli hissəsinin məhz ölkəmizin regionlarında yaradılması xüsusi razılıq doğurur. 2004-cü ildə Azərbaycanın adının dünyanın kasıb ölkələri sırasından çıxarılması isə daxili iqtisadi uğurlarımızın beynəlxalq aləm tərəfindən də təsdiqinin mühüm nümunəsi sayıla bilər.

Milli Məclisdə 2005-ci il üçün dövlət büdcəsi müzakirə olunarkən iqtisadi uğurlarımız bir daha aydın oldu. Burada olduqca həssas bir məsələni xüsusi qeyd etmək lazımdır. Bu, əsasən beynəlxalq amillərlə bağlı olan və əksər dünya ölkələrində müşahidə olan bahalaşma prosesinin Prezident İlham Əliyevin praqmatik düşüncəsi sayəsində ölkə əhalisi arasında təşvişə səbəb olmamasıdır.

Ölkəmizdə hökm sürən daxili sabitlik xarici sərmayədarların, həmçinin turistlərin Azərbaycana axınını da gündən-günə artırır.

İndi Azərbaycanı dünyanın ən bahalı layihələrindən olan Bakı-Tbilisi-Ceyhan layihəsinin 10 faiz, «Şahdəniz» layihəsinin isə 25 faiz bahalaşması qorxutmur. Azərbaycan bu layihələrdə üzərinə düşən hissənin maliyyələşdirilməsində iradəsi ilə bərabər imkanını da ortaya qoydu. Prezident İlham Əliyevin dövlət başçısı kimi uğurlu iqtisadi fəaliyyəti nəticəsində Milli Bankın valyuta ehtiyatları 880 milyon dollara, ümumi valyuta ehtiyatı isə 2 milyard dollara çatıb.

Bəli, möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanda dövlət quruculuğunun, müstəqilliyimizin, iqtisadiyyatımızın dinamik inkişafının təminatçısıdır.

Dövlətçilik və müstəqillik ideyalarına sədaqət

Mən bir ziyalı, ictimai-siyasi proseslərin iştirakçısı, həm də ölkə rəhbərinin siyasətinin əsas konturlarını ictimaiyyətə çatdıran bir qurumun rəhbəri kimi hörmətli Prezidentimiz İlham Əliyevin fəaliyyətini fəxrlə izləyirəm. Dəfələrlə şahidi olduğum hadisələrdən gəldiyim qənaət budur ki, İlham Əliyev həm ölkədə, həm beynəlxalq aləmdə yetkin lider kimi qəbul olunur. Bu müşahidələrim həm də dövlətimizin başçısının xarici ölkələrə – Ukrayna, İtaliya, Çin və digər ölkələrə rəsmi səfərləri zamanı hökumət nümayəndə heyətinin tərkibində olarkən şahidi olduğum məqamlara əsaslanır.

İndi xalq İlham Əliyevi həm də siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir.

Artıq ölkəmiz nüfuzlu beynəlxalq təşkilatların, demək olar ki, hamısında təmsil olunur. Müstəqillik yolu ilə inamla addımlayan respublikamız dünyada baş verən demokratikləşmə və əməkdaşlıq prosesində yaxından iştirak edən dövlət kimi dünya birliyinin tərkib hissəsinə çevrilib. Demokratiya və müstəqillik ideyalarına sadiq olan İlham Əliyev indi milli mənafelərimizi yüksək səviyyədə qoruyur.

Heydər Əliyev öz dühası, istedadı, siyasi təfəkkürü, tükənməz enerjisi, bir sözlə, Tanrının ona bəxş etdiyi qeyri-adi müsbət keyfiyyətləri ilə bütün dünyanı fəth etdi, Azərbaycanı dünyaya tanıtdı, dünyanı Azərbaycana gətirdi. Bu gün isə Prezident İlham Əliyev eyni bacarıqla dünya siyasətinin diqqət mərkəzindədir, regionda isə əsl liderlik nümayiş etdirir. ABŞ konqresinin Silahlı Qüvvələr Komitəsinin sədri Kurt Ueldonun hörmətli prezidentimiz haqqında dediyi sözləri yada salmaq istəyirəm: «İlham Əliyev təkcə Azərbaycanda deyil, bütün regionda əsl liderlik nümayiş etdirir, ölkəni irəli aparır, bu bizim üçün çox sevindiricidir. Dünyada çox az sayda lider tapılar ki, dünyanın hansı səmtə doğru irəlilədiyini, onun gələcək perspektivlərini əvvəlcədən görə bilsin. Eyni zamanda dünyada İlham Əliyev kimi çox az lider tapılar ki, xarici dilləri mükəmməl bilsin və prezidentliyinin qısa müddəti ərzində bu dərəcədə liderlik nümayiş etdirsin. Regionda onun nümayiş etdirdiyi liderliyə, həqiqətən, valeh olmuşuq...»

Bəli, indi Prezident İlham Əliyevin fəaliyyəti nüfuzlu diplomatik dairələrin, görkəmli siyasətçilərin, dövlət xadimlərinin, siyasi analitiklərin nəzərini cəlb edir. Fenomenal intellekt və istedadı ilə seçilən İlham Əliyev artıq müasir Azərbaycan və dünya siyasətinin danılmaz faktıdır, reallığıdır.

Prezident İlham Əliyevin çoxsaylı rəsmi səfərlərinin hər biri əsl tarixi hadisəyə çevrilir. Fransa, Qazaxıstan, Özbəkistan, Rusiya Federasiyası (bir neçə dəfə), Türkiyə, Ukrayna, Gürcüstan, Rumıniya, Almaniya, Qətər dövləti, Böyük Britaniya, İtaliya, Çin Xalq Respublikasına rəsmi səfərlər ikitərəfli münasibətlərdə yeni mərhələdir. Azərbaycan Prezidentinin Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının, Avropa Birliyinin və digər nüfuzlu beynəlxalq qurumların toplantılarında müntəzəm iştirakı, san-

ballı çıxışları, diplomatik gedişləri siyasət nəhəngləri tərəfindən yüksək qiymətləndirilir. Xarici ölkələrə səfərləri zamanı ona göstərilən yüksək ehtiram, onun ən nüfuzlu beynəlxalq mükafatlara layiq görülməsi dünya siyasət arenasında İlham Əliyevin reytinqinin çox yüksək olduğunu təsdiq edir.

Yeri gəlmişkən, bir məsələ ilə bağlı fikirlərimi də bölüşmək istəyirəm. Və bunu, heç şübhəsiz ki, tərəddüd etmədən Azərbaycanın ümummilli məsələləri, nailiyyətləri sırasına daxil etmək olar. Bu, Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri seçilməsidir. Mehriban xanım Əliyevanın bu şərəfli ada layiq görülən ilk azərbaycanlı olması, onun intellektual səviyyəsi, yüksək mədəni parametrləri ilə seçilməsi, ən başlıcası, öz Vətənini, onun zəngin irsini, mədəniyyətini böyük fədakarlıqla təbliğ etməsi, az vaxtda böyük işlər görməsi sevindirici faktdır və Vətənini, millətini sevən hər kəsdə minnətdarlıq hissi doğurur.

Bütün bunlar bütövlükdə ulu öndərimiz Heydər Əliyevin Azərbaycana ərmağan etdiyi xarici siyasət strategiyasının ardıcıl və yaradıcı inkişafıdır.

Mən hər dəfə ölkə rəhbərini xarici ölkələrə səfərləri zamanı müşayiət edən nümayəndə heyətinin tərkibində olarkən Prezident İlham Əliyevə, onun şəxsində Azərbaycanımıza çox böyük hörməti görəndə iftixar hissi keçirmişəm.

Prezident İlham Əliyevin bir neçə xarici dildə sərbəst danışması ona ölkəmizin problemlərini birbaşa qarşı tərəfə çatdırmağa imkan verib. Bəli, biliyi, bacarığı yüksək qiymətləndirən müasir dünyada zəngin erudisiyaya malik, iradəli dövlət başçısına malik olmaq istənilən millətin fəxri, onun tarixi sərvətidir. Gördüklərim, müşahidə etdiklərim bir fikri də söyləməyə əsas verir ki, məhz prezident İlham Əliyevin zəkası, iradəsi xalqımızın zorən düçar edildiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə səbəb olacaq, ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq.

Prezident İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində, Avropa Şurası Parlament Assambleyasında tarixi çıxışları ilə Ermənistanı ifşa etməsi, həqiqətləri yüksək diplomatik məharətlə, böyük cəsarətlə həm təcavüzkara, həm beynəlxalq aləmə çatdırması sabaha ümidləri artırır. Martın 12-də Daxili qoşunların bayramında Ali baş komandan, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ölkəmizin ədalətli mövqeyini, tutduğumuz prinsipial xətdə israrlı olmağımızı bir daha bəyan etdi.

Hər zaman xalqla birgə

Cənab İlham Əliyev Azərbaycan rəhbərliyinə gələn kimi milli-mənəvi dəyərlərimiz, ədəbiyyatımız, mədəniyyətimiz, incəsənətimiz, tariximiz haqqında da çox ciddi sənədlər imzaladı. Onun elmimizə, elm adamlarına, təhsilimizə, mədəniyyətimizə, gənclıyə qayğısı ictimaiyyət tərəfindən böyük razılıqla qarşılandı.

Ulu öndərimiz Heydər Əliyev «Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam... Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır» deyirdi və əməlləri ilə də bunu sübut edirdi. Xalqla birlik, xalqa arxalanmaq və xalqa xidmət etmək – bunlar İlham Əliyevin də həyat və fəaliyyətinin əsas özəyini təşkil edir.

Heydər Əliyevin sadə vətəndaşlarla ünsiyyəti, onların könlünü alması, onlara qarşı səmimiliyi hamının yaddaşına həkk olunub. O, qızıl kimi qiymətli vaxtından camaatla görüşlərə də vaxt ayırırdı, onlarla təmasda olmağa da vaxt tapırdı və buna üstünlük verirdi. Xalqın arzu və istəklərini, qayğı və problemlərini, dərdlərini özlərindən eşitməyə, öyrənməyə üstünlük verirdi. Və ömrünün sonuna qədər də belə etdi. Onun səmimiliyi, müdrikliyi, insanlarla ünsiyyəti hər kəsi öz sehrinə salırdı. Bu, Heydər Əliyevin böyüklüyü, böyüklüyündəki sadəliyi idi, həqiqi liderə xas olan bir keyfiyyət idi. Məhz xalqla, onun ən sadə nümayəndələri ilə bu cür ünsiyyət, onları duymaq onu hamının sevimlisinə çevirmişdi. Ona görə də xalq öz ürəyində Heydər Əliyevə bir abidə ucaltdı.

Bu gün həmin prinsiplərə sadıq olan Prezident İlham Əliyev əsgərlərin görüşünə gedir, onlarla bir süfrə arxasında nahar edir, qaçqın-köçkünlərə baş çəkir, onların yaşayış şəraiti ilə tanış olur, şəhər gəzintisinə çıxır, insanlarla birbaşa ünsiyyətdə olur, metro stansiyasında qatara minərək səmişinlərlə söhbət edir, şəxsən özü maşının sükanı arxasında minərək səmişinlərlə söhbət edir, yolların vəziyyəti ilə maraqlanır, elin ən əziz bayramında camaatla birlikdə şənlikdə iştirak edir, hər kəsin könlünü alır və s.. Bu sıranı çox uzatmaq olar və bu, ölkə başçısının xalqla birbaşa ünsiyyətinin, əlaqəsinin bariz nümunəsidir.

Çox ibrətamiz bir fikir var: ənənələrə hörmət etməyən xalq irəli gedə bilməz. Prezident İlham Əliyevə xas olan ən gözəl keyfiyyətlərdən biri, məhz onun ənənələrə sadiqliyidir. Bu sadiqlik Prezidentin fəaliyyətindən qırmızı xətt kimi keçir və onu xalqa daha da yaxınlaşdırır.

İnsan amili və şəxsiyyət azadlığı

İlham Əliyev ölkəmizin milli maraqlarına, cəmiyyətin maddi və mənəvi dəyərlərinə ciddi təhlükə yaradanlara qarşı mübarizəni də ən ümdə vəzifələrdən biri hesab edir.

Çox uzağa getməyək. Son zamanlar ictimaiyyətdə böyük rezonansa səbəb olmuş, cəmiyyət tərəfindən böyük razılıqla qarşılanmış bir hadisəni qeyd etmək istəyirəm. 10 mart 2005-ci il tarixdə Prezident İlham Əliyevin çox ciddi tapşırığı ilə Milli Təhlükəsizlik Nazirliyinin yüksək peşəkarlıqla hazırlayıb həyata keçirdiyi «Qara kəmər» şərti adlı xüsusi əməliyyat nəticəsində səlahiyyətli adamların rəhbərlik etdiyi və uzun illər ağır, dəhşətli cinayətlər törətmiş böyük tərkibdə mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirildi, bandanın rəhbəri və üzvləri cəmiyyət qarşısında ifşa olundular. Təbii ki, dünyanın ən inkişaf etmiş ölkələrində də yüksək çinli məmurların cinayətkarlığa qurşanması faktları var, amma onların tapılıb üzə çıxarılması, zərərsizləşdirilməsi dövlətin qüdrətindən xəbər verir.

Bu hadisə göstərdi ki, cəmiyyətdə şəxsiyyətin azadlığı, onun hüquq və azadlıqlarının toxunulmazlığı çox vacib məsələdir və Azərbaycanda vətəndaşların təhlükəsiz yaşamaq hüququnun qorunması dövlətin ali məqsədidir. Prezident İlham Əliyev ölkədə insan haqlarının ən böyük müdafiəçisidir.

Və bir daha bəlli oldu ki, heç bir qüvvə Azərbaycanı zəiflətmək iqtidarında deyil. Çünki bu dövlətin təməli, bünövrəsi möhkəm qoyulub. Hər bir vətəndaşın qanun qarşısında bərabərliyi prinsiplərini özünün idarəçilik kredosuna çevirmiş ümummilli liderimiz Heydər Əliyev insan hüquq və azadlıqlarının təminatı məsələlərinə daim diqqətlə yanaşırdı, bu məqsədlə hüquq-mühafizə orqanlarında müasir dövrün tələblərinə uyğun mütərəqqi islahatların aparılmasına normal şərait, qanunverici baza yaratmışdı. Alternativi olmayan bu siyasət təkcə ümummilli deyil, həm də fərdi maraqları özündə əks etdirir. Ümummilli liderimiz müdrikliklə bəyan etmişdi: «Dövlət iki şeydən sarsıla bilər: cinayətkar cəzasız qalanda və günahsız cəzalandırılanda». Bu tezis Heydər Əliyevin insan hüquqlarına necə böyük önəm verdiyinin təzahürüdür. Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər isə göstərir ki, demokratik siyasi sistemin formalaşdığı Azərbaycanda heç bir cinayət cəzasız qalmır və qalmayacaq.

Burada çox incə bir məqama da toxunmaq istəyirəm. Cənab Prezident girovluqda olan şəxsin sağlamlığı üçün iki həftə əməliyyatın keçirilməsinə icazə verməmişdi. Bu, dövlət başçısının ölkənin hər bir vətəndaşının taleyinə necə böyük həssaslıqla yanaşmasını sübut edir. Cənab İlham Əliyev bir daha sübut etdi ki, o, həqiqətən də, hər bir Azərbaycan vətəndaşının Prezidentidir. Bu vədinə sədaqət isə xalqın dövlətçiliyimizə, ölkə rəhbərinə inamını qat-qat artırır.

Azərbaycana xidmət edən amallar

Və indi, həqiqətən də, Azərbaycan etibarlı, qabiliyyətli əllərdədir. Prezident İlham Əliyevin ölkəmizə böyük istedad və bacarıqla rəhbərlik etməsi, Heydər Əliyev siyasi kursunu, onun Azərbaycan naminə amallarını böyük ustalıqla davam etdirməsi hər birimizin qəlbini iftixarla döyündürür. Onun bir fikri də çox diqqətçəkəndir: «Mən Heydər Əliyevdən öyrənmişəm və bundan sonra da öyrənəcəm. Bütün qərarları qəbul etməzdən əvvəl fikirləşirəm ki, Heydər Əliyev bu vəziyyətdə hansı addımı atardı.»

Bəli, İlham Əliyev uzun illər bənzərsiz lider Heydər Əliyevin məktəbinin tələbəsi olub, onun məktəbinin vacib sirlərinə yiyələnib, dövlət idarəçiliyi sahəsində böyük təcrübə qazanıb, beynəlxalq əlaqələrin qurulmasında və möhkəmlənməsində uğurlar əldə edib, dünyanın siyasi mühitində yüksək liderlik reytinqinə çatıb.

Hörmətli Prezidentin bir fikrini sitat gətirmək istəyirəm: «Mən çalışacağam ki, bundan sonra da elə işləyim ki, xalq həmişə məni dəstəkləsin».

Bəli, xalq onu dəstəkləyir. İlham Əliyev Prezident kimi elə ilk addımlarında sübut etdi ki, ona inanmaq, ona arxalanmaq, ona güvənmək olar! İnamı isə böyük qüvvədir. İnanırıq ki, O, «Bizim yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibə-

rətdir» deyən Heydər Əliyevin amallarına bundan sonra da sadiq qalacaq. Vətənimiz Heydər Əliyev dühasından bəhrələnən, lakin daha yeni, müasir şəraitə uyğun siyasi intellektə və potensiala malik bir siyasətçinin – İlham Əliyevin rəhbərliyi altında işıqlı gələcəyə gedəcək.

Və bu işdə hər birimiz, hər bir Azərbaycan vətəndaşı möhtərəm Prezidentimizə yardımçı olmalı, bununla da dövlətçiliyimizin, müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunmasına öz töhfəmizi verməliyik...

Qələbə sevinci

Möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu fəaliyyəti həmişə mənə bu qənaətə gətirir: Heydər Əliyev ölməyib! O bizim sıralarımızdadır. Əgər ulu öndərin böyük ideyaları, amalları bizimlədirsə, demək, bu, belədir. Əgər onun siyasi kursunu ləyaqətlə davam etdirən gənc prezidentimiz İlham Əliyev bu gün xalqın, millətin ürəyindən xəbər verən işlər görürsə, üstəlik, bütün dünya onu qəbul edirsə, demək, Heydər Əliyev sağdır, öz böyüklüyü, müdrikliyi, dühası və əməlləri ilə onu sevən hər kəsin qəlbində yaşayır! Azərbaycan isə ilhamla, inamla irəliləyir. Bu yolun önündə Heydər Əliyev dühasından nur alan İlham Əliyev gedir. Sözümün bu yerində Ulu öndərimizin İlham Əliyevi xarakterizə edərkən dediyi sözləri xatırlayıram: «İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçidir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.»

Biz də buna inanırıq. İnanırıq ki, Azərbaycan tarixinə ən möhtəşəm QƏLƏBƏ sözünü möhtərəm Prezidentimiz cənab İlham Əliyev yazacaq. Xalqın böyük inamla, intizarla, səbirsizliklə gözlədiyi QƏLƏBƏ sözünü! Qüdrətli liderimiz, möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin xalqımıza bəxş edəcəyi QƏLƏBƏ sevinci Azərbaycanımızın zəfər tacı olacaq! O gün isə uzaqda deyil!..

RAMİZ MİRZƏYEV
«Azəneftyağ» Neft Emalı
Zavodunun direktoru,
YAP İdarə Heyətinin üzvü

HEYDƏR ƏLİYEVİN YENİ NEFT STRATEGİYASININ UĞURLU DAVAMI

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciətində uğurlu fəaliyyətinin, Azərbaycana qazandırdığı saysız zəfərlərin mahiyyətini belə açıqlayırdı: «...**İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezidenti kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib**». Ən ali həqiqəti əks etdirən bu dəyərli fikirlərin, şübhəsiz ki, əlavə şərhə ehtiyacı yoxdur. Bəli, Heydər Əliyev öz şərəfli taleyini, sağlamlığını bütünlüklə Azərbaycan dövlətinin tərəqqisinə, xalqının rifahına bəxş edən vətəndaş, şəxsiyyət, lider olmuşdur. Təsadüfi deyildir ki, Azərbaycanın son 35 illik tarixi ulu öndərimizin bioqrafiyası hesab edilir. Və bu qənaət son bir il ərzində – ümummilli liderimizin Tanrı dərgahına qovuşduğu müddətdə daha da qətiləşib.

Böyük dönüş və tərəqqi mərhələsi

1969-cu ilin 14 iyul günü Azərbaycan tarixinin ən şərəfli zirvəsi, şanlı salnaməmizin ən qürurlu məqamıdır. Bu günü yalnız Azərbaycanın taleyində xaosdan inkişafa doğru dönüş yaradan şəxsiyyətin – əbədiyaşar liderimiz Heydər Əlirza oğlu Əliyevin ölkəyə rəhbər seçildiyi tarix timsalında qəbul etmək düzgün deyil. 14 iyul günü uzun onilliklər boyu əsarətin ağrılarına, milli mənsubiyyətindən ayrılma tələblərinin fəsadlarına, tə-

bu sərvətlərinin talanmasının iztirablarına artıq dözmək istəməyən, öz kimliyini, qürurunu, istedadını, əzmkarlığını, bacarığını bəyan etməyə susayan Azərbaycan xalqının hayqıran səsi idi.

Heydər Əliyevin Azərbaycan KP MK-ya Birinci katib seçilməsi ilə Azərbaycan tarixinin Heydər Əliyev dövrü – intibah, çiçəklənmə, böyük nailiyyətlər və uğurlar mərhələsi başladı. Bu dövr xalq təsərrüfatının bütün sahələrinin coşqun inkişafı, tikinti, quruculuq işlərinin görünməmiş vüsəti, kənd və şəhərlərimizin simasının əsaslı şəkildə dəyişməsi, elm, maarif, mədəniyyət, səhiyyə və mənəvi yaradıcılığın bütün sahələrinin güclü yüksəlişi, xalqın həyat şəraitinin durmadan yaxşılaşması ilə xarakterizə olunur. Heydər Əliyevin möhtəşəm, yaradıcı və uzaqgörən fəaliyyəti neft sənayesində də ciddi dönüşün yaranması ilə nəticələndi.

1969-cu ilin birinci yarısınadək Azərbaycanda bütün sahələrdə geriləmə, digər müttəfiq respublikalarla müqayisədə əhalinin sosial müdafiəsinin daim aşağı düşməsi kimi zərərli tendensiyalar özünü aşkar şəkildə büruzə verirdi. Ancaq Heydər Əliyev qısa müddət ərzində Azərbaycana bütün sahələrdə inkişaf, xalqa arzuladığı rifah bəxş etdi. Bu uzaqgörən insanın dövləti və milləti qarşısında ən böyük xidmətlərindən biri də məhz neft siyasətini düzgün qurması, onun inkişafına nail olması və bu sahəni millətin maraqlarına cavab verən amilə çevirərək gələcəkdə müstəqillik əldə edəcək respublikamız üçün təbii sərvətimizi qoruması idi.

Ötən əsrin 70-ci illərindən etibarən neft sənayesinin inkişafında yeni mərhələ başlandı. Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda respublika üzrə neftin ümumi hasilatı 1,3 milyon ton, qaz hasilatı isə 659 milyon kubmetr azalmışdı. O, özünəməxsus enerji və təşəbbüskarlıqla neft-qaz sənayesini yenidən qurmağa başladı. Heydər Əliyevin gərgin səyi nəticəsində «Azneft» üzrə neft hasilatının azalma sürəti qısa müddət ərzində 7,2 faizdən 4,3 faizə endi. 1971-ci ildə neft hasilatının ümumi həcmini 1 milyard tona çatdıran Azərbaycan neft elminin mərkəzi, Bakı isə neft akademiyası hesab edilirdi. Yeni yataqların kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi texnologiyadan və üsullardan istifadədə yeniliklər Azərbaycanın payına düşdü. Heydər Əliyevin təşəbbüsü və inadkarlığı sayəsində ölkədə neft sənayesi konsepsiyasının nəzəri inkişafını təmin edən elmi-tədqiqat institutları, istehsalat birlikləri, müxtəlif müəssisələr yaradıldı. 60-cı illərdə istehsalı əsaslı şəkildə aşağı düşən neft-qaz sənayesi həmin dövrdən etibarən

yeni yüksəliş mərhələsinə qədəm qoydu. Geoloji kəşfiyyat işlərinin səmərəliliyinin artması nəticəsində 8 yeni yataq kəşf edildi. Sənaye istehsalı artımı neftdə 3, qaz sektorunda isə 2 dəfə çoxaldı. Heydər Əliyevin müəllifliyi ilə tərtib olunan «Azərbaycanda neftayırma sənayesinin yenidənqurulması» planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdı. Həmin proqrama əsasən yeni texnika və texnologiyaya malik zavodlar yaradılır, təzə qurğular inşa olunur, fiziki və mənəvi cəhətdən köhnələn qurğular isə sökülürdü. Hələ sosializm dövründə SSRİ məkanındakı şəxsi nüfuzundan və hörmətindən xalqımızın mənafeyi naminə istifadə edən ümummilli liderimiz xarici dövlətlərdən çox baha qiymətə alınan və ən yeni texnologiya əsasında işləyən neftayırma qurğularının Bakıda tikilməsinə nail oldu.

Heydər Əliyev respublikaya rəhbərliyə başlayanda Xəzərin dərinliyi 40 metrə çatan sahələrində bütün neft-qaz yataqları kəşf edilərək istismara verilmişdi. Daha dərin yerlərdə iş görməkdən ötrü isə dərin qazma qurğularına ehtiyac duyulurdu. O vaxt nəinki Azərbaycanda, hətta keçmiş SSRİ məkanında belə qurğular nə layihələşdirilir, nə də inşa olunurdu. Son dərəcə nüfuzlu, təşəbbüskar və cəsarətli şəxsiyyət lazım idi ki, yalnız Azərbaycana gərək olan belə qurğuların Sovet İttifaqında layihələşdirilməsini və hazırlanmasını təşkil etsin. Ümummilli liderimizin uzaqgörənliyi, SSRİ rəhbərliyindəki hörməti sayəsində bu qurğuların, gəmilərin layihələşdirilməsi və hazırlanması nizama salındı. Nəticə çox uğurlu oldu. 12 il ərzində Azərbaycana 12 ədəd belə qurğu – əvvəlcə dənizin dərinliyi 70 metrədək olan sahələrdə, sonra isə 200 metrədək dərinlikdə işləyə bilən yarımdalma qurğuları gətirildi.

Lakin təkcə dərin qazma qurğuları ilə məsələ bitmirdi. Belə qurğuların işini təşkil etmək üçün çoxlu gəmi də gərək idi. «Süleyman Vəzirov», «İsrafil Hüseynov» kimi boruçəkən gəmilər, 2500 ton yük qaldıran «Azərbaycan» kran gəmisi, geofiziki kəşfiyyat işləri aparan gəmilər, digər texniki gəmilər də həmin dövrdə Azərbaycana gətirilmişdir. Nəticədə Azərbaycanda belə gəmilərin sayı 400-ü keçmişdi. Yeni yataqlar açılması üçün təzə platformalara ehtiyac var idi. Bunun üçün isə Azərbaycanda – Abşeron yarımadasında zavod tikilməli idi. Sovet İttifaqından vəsait alaraq dəyəri 400 milyon dollardan artıq olan dərin dəniz özülləri üçün zavod tikdirməyi ancaq Heydər Əliyev kimi şəxsiyyət bacarardı! Beləliklə, Azər-

baycanda «Şelf» tipli yarımdalma qurğularının hazırlanmasına başlanıldı. Bundan sonra yataqlar işlənildi.

Heydər Əliyevin göstərişi ilə 70–80-ci illərdə Azərbaycanda iri gəmilərdən, təchizat gəmilərindən, borudüzənlərdən, xüsusi seysmik tədqiqat və axtarış gəmilərindən ibarət güclü dəniz neft donanması yaradılmışdı. Bir sıra üzən qazma qurğularının yaradılması da Heydər Əliyevin böyük zəhməti və xidmətinin nəticəsi idi. O, neftçilərə daim qayğı göstərmiş, gərgin əməklərini yüksək qiymətləndirmişdir. Heydər Əliyevin təqdimatı əsasında üç nəfər Sosialist Əməyi Qəhrəmanı, 22 nəfər əməkdar səmərələşdirici, inşaatçı, geoloq və neft ustası fəxri adlarına layiq görülmüşdür.

Artıq Azərbaycan Heydər Əliyevin fədakarlığı nəticəsində SSRİ-də neft hasilatı, emalı, geologiyası, kəşfiyyatı ilə məşğul olan ən böyük dövlətlərdən idi və bu töhfələr bilavasitə ölkəmizin inkişafına yönəldilirdi. Yetmişinci illərin əvvəllərindən etibarən Bakıdakı neftayırma zavodlarının yenidənqurulmasına başlanıldı. Keçmiş SSRİ məkanındakı şəxsi nüfuzundan istifadə edən möhtərəm Heydər Əliyev o zamankı İttifaq rəhbərliyinin diqqətini Azərbaycandakı neft sənayesinin gələcək inkişafında mühüm yer tuta biləcək neft emalına yönəltmiş, «Azərbaycanda neftayırma sənayesinin yenidənqurulması» planının təsdiqinə nail olmuşdu. Respublikada 1976-cı ildə ELOU-AVT–6, 1980-ci ildə katalitik riforminq, 1986-cı ildə nefti kokslaşdıran qurğuların tikilməsi məhz həmin planın və Heydər Əliyev uzaqgörənliyinin nəticəsi idi.

Xalqın firavanlığına xidmət edən siyasət

Ümummilli liderimiz Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə, İttifaqın dördüncü rəhbər postuna (bu vəzifədən yüksəkdə yalnız Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Sovetinin və Nazirlər Sovetinin sədrləri dayanırdı) irəli çəkildikdən sonra da Azərbaycanı unutmur, bütün sahələrdə, xüsusilə neft sektorunda himayədarlıq missiyasını davam etdirirdi. Lakin mərkəzdə Heydər Əliyevə qarşı məkrli kampaniyanın başlanması nəticəsində gərginləşən vəziyyət ölkəmizə də sirayət edir və bu zərərli tendensiya neft sahəsindən də yan ötmürdü. Artıq ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın neft sənayesində

müəyyən mənada geriləmə və tənəzzül müşahidə olunmağa başlamışdı ki, 90-cı illərin əvvəllərində bu vəziyyət böhran həddinə qədəm qoydu.

1987-ci ildən etibarən hasilat 13,8 milyon ton neft və 12,5 milyon kubmetr qazdan 1993-cü ildə 10,3 milyon ton neft və 6,8 milyon kubmetr qaza kimi aşağı düşmüş, hasilatın ilkin aşağı düşməsi tempi neft üzrə 7,1, qaz üzrə 13,5 faiz təşkil etmişdir. Kəşfiyyat qazmasının həcmi 1970-ci ildəkinə nisbətən 17 dəfə aşağı düşmüş və ya 170 min metrdən azalıb 90-cı illərin əvvəllərində 10 min metr olmuşdur.

Respublikamızın neft sənayesinin böhranlı vəziyyətini İttifaqın dağılması prosesi daha da kəskinləşdirdi. Təəssüf ki, əvvəlki illərdə qazanılmış nailiyyətlərin bitkin təcrübəsindən müstəqilliyimizin ilk illərində məqsədyönlü şəkildə istifadə edilmədi. 90-cı illərin əvvəllərində Azərbaycanda bu sahəyə aid təbii sərvətlər milliləşdirilsə də, onlardan xalqın mənafeyinə uyğun istifadə yönümündə konkret addımlar atılması bir neçə il gecikdi. Hətta ölkə iqtisadiyyatının bütün sahələri kimi, neft sektoru da dərin böhran və uçurum qarşısında dayandı.

İki yol qalırdı: ya yataqların mənimsənilməsindən ötrü vəsait və texniki imkanların yaranması üçün 10–15 il gözləməli, ya da xarici şirkətlərin gücü ilə iş aparılmalıydı. Ən doğru variant vaxt itirmədən işə başlamaq idi. İlk dəfə hələ 1989-cu ildə «Azəri» yatağında xarici şirkətlərlə birgə işləmək barəsində təklif irəli sürüldü və tender elan olundu. Tenderin şərtləri dünyanın 16 böyük neft şirkətinə göndərildi. Bunlardan ancaq 6 şirkət tenderdə iştirak etdi. 1992-ci ildə bu yatağa «Çıraq», daha sonra «Günəşli»nin dərin hissəsi də əlavə olundu. Müqavilə ilə bağlı illər boyu danışıqlar getməsinə baxmayaraq, konkret nəticə yox idi. 1993-cü ildə də AXC-Müsavat cütlüyü antimilli neft müqaviləsi imzalamağa hazırlaşırdı. Əgər bu, reallaşa bilsə idi, Azərbaycan nəinki milyardlarla dollar həcmində vəsait itirəcəkdi, həm də neftı ilə yanaşı müstəqilliyini də əldən verəcəkdi. Yalnız 1993-cü ildən – ümummilli liderimiz Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra neftin ölkənin inkişaf vasitəsinə çevrilməsi istiqamətində əsaslı iş görüldü. Məhz 1993-cü ilin 15 iyunundan sonra neft sektoru da həqiqi qurtuluşunu tapdı.

1993-cü ilin iyununda Azərbaycan bir dövlət kimi məhvolma, dünya xəritəsindən silinmə təhlükəsi ilə üz-üzə qalmışdı. Görkəmli dövlət xadimi və müdrik siyasətçi Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıtması

Azərbaycan dövlətini və xalqını labüd fəlakətdən qurtardı. Onun yeritdiyi qətiyyətli və uzaqgörən daxili və xarici siyasət nəticəsində vətəndaş müharibəsinin alovları söndürüldü, qanunsuz silahlı birləşmələr və separatçı qüvvələr zərərsizləşdirildi, müharibədə uzunmüddətli atəşkəsə nail olundu, bir neçə dövlət çevrilişi və terror əməllərinin qarşısı alındı, ölkədə möhkəm və dönməz sabitlik yaradıldı, respublika ətrafındakı informasiya blokadası yarıldı, dünyanın aparıcı dövlətlərinin iri neft şirkətləri ilə Xəzərdəki karbohidrogen ehtiyatlarının istismarı barədə müqavilələr imzalandı, Azərbaycanın müstəqilliyi dönməz və sarsılmaz xarakter aldı. Qısaca şəkildə xatırlatdığımız bütün bunlar sübut edir ki, Azərbaycanın həqiqi dövlət müstəqilliyinin banisi və təminatçısı məhz ulu öndərimiz Heydər Əliyev olmuşdur.

Xalqın tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Heydər Əliyev Azərbaycanı məhvolma təhlükəsindən xilas etməklə bərabər, neft sənayesini də böhran və tənəzzüldən qurtardı. Ulu öndərimiz çox dəqiqliklə anlayırdı ki, böyük çətinliklər məngənəsində olan Azərbaycana onun mövcudluğu nə qədər qurtuluş bəxş edirsə, bu qurtuluşu davamlı etmək naminə xalqın rifahı və dövlətin mənafeyi üçün neftdən səmərəli faydalanmaq lazımdır. Xarici siyasət sahəsində neft amilindən bacarıqla istifadə edən ümummilli lider Heydər Əliyev müqavilə bağlanması məsələsini nəzarətinə götürdü, danışıqlara şəxsən rəhbərlik etdi.

Heydər Əliyevin misilsiz fədakarlığı, gərgin zəhməti və diplomatik səyləri, eləcə də cənab İlham Əliyevin bacarığı və yüksək vətəndaşlıq məsuliyyəti nəticəsində 1994-cü ilin 20 sentyabrında «Azəri», «Çıraq» və «Günəşli» yatağının dərin hissəsinin birgə işlənməsini nəzərdə tutan «Əsrin müqaviləsi» adını daşıyan sazış imzalandı.

Karbohidrogen ehtiyatlarının mənimsənilməsi və istismarı prosesində əsas şərt onun beynəlxalq bazara çıxarılmasıdır. «Əsrin müqaviləsi» imzalanan gündən aktual olan bu məsələnin reallaşması ciddi problemlərlə qarşılaşdı. Neftin nəql olunacağı marşrutun müəyyənləşməsi istiqamətində aparılan müzakirələr müəyyən məqamlarda yarımçıq kəsilir, bəzi hallarda isə qarşılıqlı inamsızlığa görə nəticəsiz qalırdı. Ancaq Heydər Əliyevin prinsipial və qətiyyətli mövqeyi, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyevin isə danışıqlar prosesində nümayiş etdirdiyi diplomatik manevr məharəti, tərəfdaşı inandırmaq bacarığı sayəsində Azərbaycan neftinin nəqli marşrutları barədə mühüm

qərarlar qəbul edildi və bu layihələrin reallaşması istiqamətində ciddi fəaliyyətə başlanıldı.

1996-cı ilin yanvar ayında Azərbaycan neftinin Bakı–Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalandı. 1997-ci ilin oktyabr ayında həmin xətt istifadəyə verildi. İxrac boru kəmərlərinin çoxvariantlılığının zəruriliyi alternativ layihələr üzərində ciddi iş aparılmasını tələb edirdi. 1997-ci ildə neftin Qara dənizə çıxarılması üçün Bakı–Supsa marşrutu ilə nəql haqqında Azərbaycanla Gürcüstan arasında saziş imzalandı.

1999-cu ilin 17 aprelində müstəqil Azərbaycanın tarixində əlamətdar olan bir məqam yaşandı. Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə uzunluğu 850 km, illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı–Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Məlum olduğu kimi, 1997-ci ilin noyabr ayının 12-də ümummilli liderimiz Heydər Əliyevin fədakarlığının ilkin bəhrəsi olaraq «Çıraq–1» platformasında ilk neft quyusu istismara verilmişdir. Həmin neft «Azəri Layt» adı altında Supsa terminalı ilə dünya bazarına ixrac edilməyə başlandı. Artıq Azərbaycan nefti Şimala yox, Qərbə doğru axırdı.

Lakin Azərbaycan neftinin həcminin dəfələrlə artması yeni nəql marşrutunun zəruriliyini qabardırdı. Hələ ötən əsrin 90-cı illərinin ortalarında Heydər Əliyev Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsini gündəmə gətirmişdi. 1995-ci ildə Heydər Əliyev Bakı–Tbilisi–Ceyhan marşrutu barədə təklif irəli sürərkən bu layihənin əleyhdarları tərəfdarlarından dəfələrlə artıq idi və onun reallaşması əksəriyyət üçün əfsanəyə bənzəyirdi. Lakin Azərbaycan öz təklifini «Əsrin müqaviləsi»ndə iştirak edən şirkətlərə və onların təmsil etdiyi dövlətlərə qəbul etdirə bildi. Bu istiqamətdə iş uzun müddət davam etməklə yanaşı, həm də böyük diplomatik məharət, siyasi qətiyyət tələb edirdi ki, Heydər Əliyev və İlham Əliyev bu tarixi missiyanı da uğurla gerçəkləşdirdilər.

1998-ci il oktyabrın 29-da Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəmərinin tikintisi ilə bağlı Ankara Bəyannaməsi imzalandı. 1999-cu il noyabr ayının 18-də isə ATƏT-in İstanbul zirvə toplantısında «Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri

vasitəsilə nəql edilməsinə dair» saziş imzalandı. Bəyannaməni Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları ilə bərabər ABŞ Prezidenti B.Klinton və Qazaxıstan Prezidenti N.Nazarbayev də imzalamaqla üzərlərinə müəyyən vəzifə götürdülər. İstanbul Bəyannaməsinin belə yüksək səviyyədə imzalanması məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nailiyyəti idi. Bu sənəd «Əsrin müqaviləsi»nin imzalanmasından sonra Azərbaycan üçün ikinci mühüm tarixi əhəmiyyət kəsb edən hadisə idi. Bütün dünya birmənalı olaraq, Bakı–Tbilisi–Ceyhan neft kəmərini Heydər Əliyevin şah əsəri kimi qəbul edir. Təsadüfi deyildir ki, qardaş Türkiyə Cümhuriyyətinin hökuməti Ceyhan terminalına ümummilli liderimiz Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etmişdir.

2002-ci il sentyabr ayının 18-də Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəmərinin təməlqoyma mərasimi keçirildi. Bu tədbir Heydər Əliyevin müəllifi olduğu uğurlu neft strategiyasının əməli nəticəsi, cənab İlham Əliyevin əfsanənin reallığa çevrilməsində göstərdiyi fədakarlığın məntiqi sonluğu və nailiyyəti idi.

2004-cü il fevral ayının 3-də Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin maliyyələşdirilməsi ilə bağlı sənədlərin imzalanması mərasimi əfsanənin gerçəyə çevrilməsində sonuncu hüquqi nöqtəni qoydu. Heydər Əliyevin müəllifi olduğu Azərbaycanın daimi inkişaf proqramının növbəti qələbəsini böyük iftixarla bəyan edən prezident İlham Əliyev əzmlə davam etdirdiyi siyasi kursun daha bir uğuruna imza atdı. Dövlət başçısı keçilən yolda qarşılaşdıqları çətinlikləri xatırlayaraq dedi: **«Azərbaycan rəhbərliyinin və şəxsən prezident Heydər Əliyevin qətiyyəti, beynəlxalq neft şirkətlərinin inamı və dünya ictimaiyyətinin dəstəyi bizə imkan verdi ki, bütün bu çətinliklərə baxmayaraq, istədiyimizə nail ola bilək. Bir daha bütün dünyaya sübut edək ki, Azərbaycan öz siyasətini müstəqil şəkildə aparır. Azərbaycan xalqının milli maraqlarını qorunur və heç kim, heç bir qüvvə bizi bu yoldan döndərə bilməz».**

Ümummilli liderimiz Heydər Əliyevin hələ 2002-ci ilin sentyabr ayında neft kəmərinin təməlqoyma mərasimində bəyan etdiyi kimi, **«Bakı–Tbilisi–Ceyhan irəliyə gedəcək, gedəcək, gedəcəkdir!»**

Heydər Əliyevin rəhbərliyi, cənab İlham Əliyevin fəal icraçılığı ilə uğurla həyata keçirilən yeni neft strategiyası bu təbii sərvətimizi Azərbaycana beynəlxalq miqyasda iqtisadi və siyasi marağı artıran, ölkəmizin inkişafına ciddi təkan verən vacib faktora çevirdi. Ötən illərdə 15 ölkəni təmsil edən 30-dan artıq şirkətlə daha 22 müqavilə imzalanıb. Bu müqavilələr nəticəsində Azərbaycana 60 milyard dollar həcmində sərmayənin qoyulması gözlənilir. Artıq ölkəmizə yönələn investisiyaların ümumi həcmi 17 milyard dolları keçib. Əlamətdar haldır ki, neft həm də digər istehsal sahələrinin inkişafına ciddi təsir göstərir. Bu isə Heydər Əliyevin **«Neft digər istehsal sahələrinin inkişafına təkan verməlidir»** ideyasının real nəticəsidir.

Heydər Əliyevin yadigarı

«Heydər Əliyevin yadigarları» kimi tarixə düşmüş obyektlər, tikintilər, parklar, müxtəlif infrastruktur obyektlərinin sayı on minlərlədir. Onlar indi də xalqın ehtiyaclarını ödəyir, ulu öndərimizin dövlətinə və millətinə olan sonsuz məhəbbətinin, qayğısının canlı təcəssümü kimi xatirələrdə yaşayır. «Azəneftyağ» neft emalı zavodu da məhz Heydər Əliyevin yadigarı, əbədi liderimizin milli neft sənayesinə olan himayədarlığının daim yaşayacaq təzahürü kimi qəbul edilməlidir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın bütün bölgələrini qarış-qarış gəzmiş, daim xalqın içində olmuşdur. Şəxsən özünün səyi ilə istifadəyə verilmiş, yaxud da fədakarlığı sayəsində inkişaf etdirdiyi müəssisələrdə olmaq, onların fəaliyyətini öyrənmək, problemlərini həll etmək böyük öndərin həyat amalı idi. Heydər Əliyev ölkəyə həm birinci, həm də sonrakı rəhbərlikləri dövründə dəfələrlə müəssisəmizdə olmuşdur. 1979-cu ilin oktyabrında, 1982-ci ilin yanvarında, 1993-cü ilin noyabrında, 1994-cü ilin sentyabrında, 1995-ci ilin fevralında və 2000-ci ilin iyun və noyabr aylarında keçirilən bu görüşlərin hər biri əmək kollektivində indi də hörmətlə xatırlanır. Dahi şəxsiyyətin müəssisəyə hər gəlişi, ümumiyyətlə, Azərbaycanın neft sektorunun inkişafına böyük töhfə olmuşdur. Bu ziyarətlərin hər biri daim mühüm tarixi hadisələr kimi yada düşəcək.

Ümummilli liderimiz Heydər Əliyevin göstərişi və qayğısı ilə 1997-ci ilin iyun ayından etibarən «Azəneftyağ» İstehsalat Birliyində qayda-qanun, sağlam və işgüzar atmosfer yaranmağa başladı. Bu müddətdə müəssisə 211 milyon manat zərərdə idi. Əlbir və fədakar əmək tezliklə öz gözəl bəhrəsini verdi. İlin sonunadək müəssisə nəinki ziyandan çıxdı, üstə-

lik. 28,5 milyard manat mənfəət götürdü. Birliyin balans mənfəəti 1998-ci ildə 131,7, 1999-cu ildə 189,7, 2000-ci ildə 548, 2001-ci ildə 348,2, 2002-ci ildə 419,3, 2003-cü ildə 696,3 milyard, 2004-cü ildə isə 1,02 trilyon manat olmuşdur.

Hazırda «Azərneftyağ» Neft Emalı Zavodunda 34 adda əmtəə məhsulu istehsal olunur. Bu məhsullar yüksək keyfiyyətli olmaqla yanaşı, bütün beynəlxalq standartlara da uyğundur. Bunu müəssisənin aldığı beynəlxalq mükafatlar da təsdiqləyir. Ancaq ən böyük mükafat ümummilli liderimiz Heydər Əliyevin müəssisənin fəaliyyətinə verdiyi yüksək qiymət, zavodun məhsullarının keyfiyyətini müsbət dəyərləndirməsi və kollektivin daha uğurla işləyəcəyinə bəslədiyi inam olmuşdur. «Azərneftyağ» Neft Emalı Zavodunun kollektivi daim belə hesab etmişdir ki, qazandığı nailiyyətlərin əsas səbəbkarı məhz əbədi rəhbərimiz Heydər Əliyev və onun layıqlı davamçısı cənab İlham Əliyevdir.

«Azərneftyağ» Neft Emalı Zavodu kollektiv üzvlərinin sosial müdafiəsini təşkil etmək, onların mənzillə təminatını reallaşdırmaq məqsədilə dövlət qayğısı sahəsində mühüm tədbirlər həyata keçirir. Ümumiyyətlə, 1999–2003-cü illərdə «Azərneftyağ» NEZ tərəfindən ümumi sahəsi 69215.66 kv.m, yaşayış sahəsi 39305.03 kv.m olan 876 mənzilli 15 yaşayış binası istifadəyə verilmişdir. Bu yaşayış binalarının 13-ü bir yaşayış massivində yerləşməklə yüksək seysmik davamlılığı ilə fərqlənir. Yaşayış massivlərinin fasiləsiz olaraq su, elektrik enerjisi ilə təmin edilməsi üçün 3 nasosxana, 3 elektrik yarımstansiyası tikilmiş, telefon xətti çəkilmişdir. Binaların qışda istiliklə təmin edilməsi məqsədilə qazanxana və 2 istilik məntəqəsi inşa olunmuşdur. 2004-cü ildə bu yaşayış massivində müasir tələblərə cavab verən, kompüterləşdirilmiş, yüksək səviyyədə futbol, voleybol, basketbol meydançaları, idman və akt zalı olan məktəb binası, həmçinin müasir dizaynlı, yüksək zövqlü, bütün sanitar normalara uyğun avadanlıqla təchiz olunmuş 2 mağaza, eləcə də mərasim zalı və məişət evi inşa edilmişdir. Artıq Heydər Əliyev adına 844 şagirdlik litsey də bu kompleksin sakinlərinin ixtiyarındadır. Bu mənzillərin sahibləri həm də ona görə xoşbəxtdirlər ki, ulu öndərin xeyir-duası ilə bu binalara köçmüş və evlərinin orderlərini ümummilli liderimiz Heydər Əliyevdən almışlar.

«Azərneftyağ» Neft Emalı Zavodunun qüruru sayılacaq obyektlərdən biri də «Neftçi» İdman Sağlamlıq Mərkəzidir. Bu mərkəzdə 24 idman

növü üzrə üç minə qədər idmançı fəaliyyət göstərir. Respublikanın yığma komandasının tərkibində üç yaş qrupunda 200-dən çox idmançı iştirak edir. Əbədiyaşar liderimiz Heydər Əliyevin tövsiyələri əsasında onlara hər cür şərait yaradılmışdır. Zavodun idmançıları dünya, Avropa, Azərbaycan, Bakı şəhər çempionatı və birinciliklərində, kubok yarışlarında, ən əhəmiyyətlisi isə Afinada keçirilən 28-ci Yay Olimpiya oyunlarında müvəffəqiyyətlə çıxış etmiş, Azərbaycanın bayrağını şərəflə dalğalandırmışlar. Ən çox fərəh doğuran isə odur ki, XXVIII Yay Olimpiya oyunlarında iştirak edən 38 idmançıdan 18-i məhz «Neftçi» İdman Sağlamlıq Mərkəzinin üzvləri olmuşdur. Onlardan 2-si həm öz, həm də mərkəzin adını Azərbaycanın idman salnaməsinə həkk etdirmişlər. Fərid Mansurov yunan-Roma güləşi üzrə 66 kq çəkidə bütün rəqiblərinə qalib gələrək Olimpiya çempionu adını qazanmış, İradə Aşumova isə atıcılıq üzrə 25 m məsafəyə atəş açmaqda üçüncü yeri tutaraq bürünc medalın sahibi olmuşdur.

Hesab edirik ki, «Azərneftyağ» Neft Emalı Zavodunun fəaliyyətində qazanacağı nailiyyətlər hələ qarşıdadır, hədəfdə daha müqəddəs məqsədlər və həyata keçirilməsi vacib vəzifələr var. Bu, bizim ulu öndər Heydər Əliyevin ruhu qarşısında borcumuz, Prezident İlham Əliyev önündə isə məsuliyyətimizdir!

Daha böyük zəfərlərə doğru

Azərbaycanın son illərdə qazandığı iqtisadi-siyasi uğurlarda yeni neft strategiyasının böyük payı var. Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin isə əsas icraçısı olduğu neft konsepsiyası beynəlxalq birliyin Azərbaycana inamını, etimadını formalaşdıran əsas amildir. Bu, həm də iqtisadi amildən siyasi təsir vasitəsinə çevrilərək, ölkənin geosiyasi maraqlarını təmin edən, qlobal məkana inteqrasiyanı reallaşdıran, Cənubi Qafqazda enerji təhlükəsizliyini qoruyan və sabitliyi mühafizə edən, əhalinin sosial təminatını, dövlətin iqtisadi rifah və tərəqqisini stimullaşdıran vacib faktordur. Məhz bu iki şəxsiyyətin birbaşa fəaliyyəti nəticəsində neft bir qrupun inhisarından alınaraq ümumxalq sərvətinə çevrilmiş və bilavasitə xalqın mənafeyinin ödənilməsinə yönəldilmişdir.

Azərbaycan tarixində fəlakətli səhifələrin müəllifi olan neft amili indi şəxsiyyət və qətiyyət faktoru fonunda nailiyyətin, tərəqqinin rəmzinə çev-

rilib. 1994-cü ildən etibarən neft sektorunda əldə edilən inkişaf ölkənin bütün vacib sahələrində də eyni zəfərlə davam edir. Heydər Əliyevin uğurlu fəaliyyəti, eləcə də Prezident İlham Əliyevin böyük fədakarlığı sayəsində qazanılan bu nailiyyətlər neftin həqiqətən də xalqın sərvəti olduğu qənaətini doğruldur. Özünü beynəlxalq münasibətlər sistemində, iqtisadiyyatda, neft sektorunda, qanunvericilik işində peşəkar kimi təsdiqləyən cənab İlham Əliyev Azərbaycan xalqının ona həvalə etdiyi liderlik missiyasını uğurla davam etdirir. Qısa müddət ərzində dövlət quruculuğu prosesinə əvəzsiz töhfələri ilə prezident artıq yüksək idarəçilik qabiliyyətini, əsil Heydər Əliyev nümunəsinə xas fəaliyyətini sübut etdi.

Ən əsası odur ki, xalq cənab İlham Əliyevin simasında Heydər Əliyev kursunun ən layiqli davamçısını görməkdə və ona etimad göstərməkdə yanılmadığını özü üçün dəfələrlə təsdiqlədi. Prezident İlham Əliyev də fəaliyyət prinsipinin dəyişməz olduğunu xalqına bəyan etdi. Ulu öndərimiz Heydər Əliyev cənab İlham Əliyevin şəxsiyyətini, bacarığını belə səciyyələndirirdi: **«O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».**

Heydər Əliyev həyatı boyu heç vaxt yanılmamışdır və cənab İlham Əliyev prezident kimi fəaliyyəti müddətində də sübut etdi ki, milli liderimiz ona göstərdiyi etimadda da düzgün mövqe nümayiş etdiribmiş.

Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövlətinin və xalqının daha böyük hədəflərə çatacağına və yeni zəfərlər qazanacağına artıq heç kəs şübhə etmir. Çünki Azərbaycanda Heydər Əliyev siyasi kursu, Heydər Əliyev ideyaları hakimi-mütləqdir və xalq bu qüvvəyə alternativ tanımır! Heydər Əliyevin özünün dediyi kimi, «Nə qədər ki, Azərbaycan var, mən varam, mən isə Azərbaycanda əbədi olacağam!»

Bəli, Heydər Əliyev və onun siyasi kursu Azərbaycanın özü kimi daim yaşayacaq, əbədi olacaq!

VÜQAR RƏHİMZADƏ
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEVİN QURDUĞU DÖVLƏT DİNAMİK İNKİŞAF YOLUNDADIR

Azərbaycan artıq 14 ildir ki, müstəqil dövlətdir. Ölkəmizin müstəqil dövlətçilik tarixi çətin sınaqların tarixidir. Bu tarixdə ağır imtahanlar, itkilər, uğurlar, qələbələr səhifəsi var. Azərbaycan öz milli-siyasi azadlığı uğrunda mübarizəyə hələ 1988-ci ildə qalxsa da, öz müstəqilliyini 1991-ci il oktyabrın 18-də elan etsə də, gerçək milli-siyasi azadlığın nə demək olduğunu bizə yalnız ümummilli liderimiz, adı Azərbaycanın XX-XXI əsrlər tarixinə qızıl hərflərlə yazılmış nəhəng dövlət adamı və böyük ictimai-siyasi xadim Heydər Əliyev anlatdı. Azərbaycanın dövlət müstəqilliyinin formal müstəqillikdən gerçək müstəqilliyə çevrilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır və bilavasitə onun xidmətidir. Ölkəmizə qısa fasilələrlə 34 il rəhbərlik etmiş Heydər Əliyevin artıq fenomenə və əfsanəyə çevrilmiş həyatının son 10 ili müstəqil Azərbaycan Respublikası ilə bağlıdır.

Ümummilli liderimiz Heydər Əliyev həmişə deyirdi ki, "Azərbaycanın istiqlaliyyətinin bəyan edilməsi ölkəmizin tarixində çox böyük əhəmiyyətə malik olan hadisədir". O, müstəqilliyi hər şeydən üstün tuturdu. Bu müstəqilliyi məhz Prezident Heydər Əliyev möhkəmləndirdi və onu dönməz etdi. Bugünkü müstəqil, qüdrətli, demokratik, sivil Azərbaycan Respublikasının baş memarı Heydər Əliyevdir. Prezident İlham Əliyevin sözləri ilə desək, "İndiki müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir". Bu dövləti Prezident H.Əliyev qurub. Bu sərbəstlik, təhlükəsizlik, sabitlik, dinamik sosial-iqtisadi inkişaf məhz Prezident H.Əliyevin gərgin zəhmətinin nəticəsidir. Azərbaycanda dayanıqlı sabitliyi Prezident H.Əliyev yaradıb. Azərbaycanda demokratikləşmə prosesi də bu böyük insanın adı ilə bağlıdır. Azərbaycanı çağdaş dünyanın önəmli bir parçasına çevirən, onun beynəlxalq aləmdəki nüfuzunu artıran balanslaşdırılmış xarici siyasət kursunun, ölkəmizi regionun şəksiz liderinə çevirən nəhəng geopolitik iqtisadi layihələrin müəllifi də məhz böyük öndərimiz H.Əliyevdir.

Böyük ictimai-tarixi fenomen olan H.Əliyevin siyasi bioqrafiyasının ən əhəmiyyətli mərhələlərindən biri müstəqil Azərbaycan dövlətinin tarixi ilə üst-üstə düşür. Bu fakt isə onun tariximizdəki rolunun nə qədər böyük olduğunu göstərir. Prezident H.Əliyev gerçək milli lider olaraq təkcə sovet Azərbaycanını inkişaf etdirməklə, onu keçmiş İttifaqın sayılıb-seçilən ölkəsinə çevirməklə kifayətlənmədi, XX-XXI əsrlər tariximizə həm də müstəqil Azərbaycan Respublikasının qurucusu, meman və simvolu kimi daxil oldu.

Ümummilli liderimiz H.Əliyev artıq 14 yaşı olan müstəqil Azərbaycan Respublikasına 10 ildən də artıq - 1993-cü il iyunun 9-dan 2003-cü il oktyabrın 15-dək rəhbərlik etdi. O, dövlət başçısı seçiləndə Azərbaycan müstəqil ölkə idi. Amma necə müstəqil? Bu müstəqillik sırf formal xarakter daşıyır və dövlətçiliyin mahiyyəti baxımından prinsipcə heç bir məzmun kəsb etmirdi. Azərbaycanın öz dövlət müstəqilliyini elan etdiyi 1991-ci il oktyabrın 18-dən ağır dövlət böhranının yarandığı 1993-cü il iyunun 4-dək - cəmi 19 ay ərzində! - 4 dəfə hakimiyyət dəyişikliyi, ciddi qarşıdurmalar baş vermişdi. Bu 19 ayda az qala hər həftə hansısa sahədə böhran yaranır, ölkə itkilərə məruz qalırdı. O zamankı durumu belə xülasə etmək olar: Azərbaycan öz dövlət müstəqilliyini əldə edib, müstəqil dövlət qurmaq üçün ideal şərait yaranıb, amma eyni zamanda Azərbaycanda bir-birinin ardınca dövlət çevrilişləri olur, hakimiyyət zorakı yollarla qəsb edilir və itirilir, hakimiyyətə hər dəfə də antimilli ünsürlər, primitiv idarəçilər, yaramaz şəxslər gəlir, az qala hər ay bir siyasi partiya elan olunur, psevdodemokratiya, yalançı millətçilik, populizm, səfalət, inamsızlıq, xaos və cinayətkarlıq baş alıb gedirdi. Digər tərəfdən də çörək problemi ilə qarşılaşan ölkədə sosial-iqtisadi tənəzzül sürətlənərək hərbi və ictimai-siyasi böhranla çulğaşırdı...

Azərbaycanın 1991-ci ildən sonrakı reallıqları isə müstəqil dövləti qura bilən güclü liderin olmasını zəruri edirdi. Ümummilli liderimiz H.Əliyev ölkə rəhbərliyinə gəlməsəydi, Azərbaycanın taleyi təhlükəli istiqamətdə həll olunacaqdı. Prezident H.Əliyev dövlət müstəqilliyinin 10-cu ildönümü ilə bağlı 2001-ci il oktyabrın 17-də keçirilmiş təntənəli mərasimdəki çıxışında o dövrə belə qiymət verirdi: "Biz sizinlə 1993-cü ili bir yerdə yaşadıq. Gərək bu, heç vaxt unudulmasın. Gərək heç kəs də bunu unutmasın ki, 1993-cü ildə Azərbaycan parçalanmaq, bir ölkə kimi, müstəqil dövlət kimi məhv olmaq təhlükəsi qarşısında idi. Azərbaycanda

vətəndaş müharibəsi baş vermişdi... Azərbaycanın cənubunda yeni bir "cümhuriyyət" yaratmağa çalışdılar. Şimalında yeni hərəkat başladı, separatçılıq meylləri artıq özünü göstərdi... 1993-cü ildə Azərbaycan yanırdı. Ancaq xalq bu böyük sınaqdan çıxdı. Azərbaycanı məhv etmək istəyən qüvvələrin qarşısı alındı".

1993-cü il iyunun 15-də Azərbaycan parlamentinin spikeri seçilən, iyunun 23-dən etibarənsə Prezidentin səlahiyyətlərini icra etməyə başlayan H.Əliyev Azərbaycanı vətəndaş müharibəsindən və separatizmdən, çörək problemindən, qardaş qırğınından, hərc-mərclikdən və daha neçə-neçə təhlükədən qurtardı. Bu, Azərbaycan tarixinin dönüş anı, əsl dövlət müstəqilliyinin başlanğıcı idi. 1993-cü il oktyabrın 3-də H.Əliyevin Prezident seçilməsi ilə Azərbaycan müstəqillik, milli tərəqqi və sabitlik yolu-na çıxdı. Ölkənin həyatında yeni mərhələ başlandı. Prezident H.Əliyev 1993-cü ilin iyununa qədər sadəcə olaraq formal cəhətdən, sözdə müstəqil olan Azərbaycanın müstəqilliyini cəmisi bir neçə il ərzində formal müstəqillikdən gerçək müstəqilliyə çevirdi. Öncə dövlət böhranı aradan qaldırıldı, ölkədə davamlı və dayanıqlı ictimai-siyasi sabitlik yaradıldı, qanunçuluq bərpa edildi, ölkə separatizmdən və parçalanıb məhv olmaq təhlükəsindən xilas edildi. Bununla da dövlət quruculuğu üçün münbit zəmin yaradıldı. Prezident H.Əliyev əvvəlcə dövlətin özünü qurdu və vətəndaşların təhlükəsizliyini təmin etdi, sonra isə ölkədə kompleks və sistemli hüquqi-siyasi və sosial-iqtisadi islahatlara başladı.

1994-cü ilin sonlarına doğru ölkədə həyat öz axarına düşdü. 1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişi imzalandı. Bu, müstəsna tarixi əhəmiyyətə malik qərar idi. Azərbaycan bununla vaxt qazandı. Milli Ordunu qurmaq, cəmiyyəti böhrandan çıxarmaq, dövlət təsisatlarını yaratmaq, əslində isə dövlətin özünü qurmaq, iqtisadiyyatı dirçəltmək və xəzinəni doldurmaq, vətəndaşların ərzaq, sosial və can güvənliyini təmin etmək, Azərbaycana xaricdən olan təzyiqləri neytrallaşdırmaq, beynəlxalq əlaqələri sahmana salmaq, ölkədəki silahlı cinayətkar bandaları, hərbi müxalifəti zərərsizləşdirmək, sabitlik və vətəndaş həmrəyliyi yaratmaq üçün belə bir möhlətə kəskin ehtiyac vardı. Prezident H.Əliyev dahiyanə gediş edərək bu addımı atdı. Onun bu addımının nəticəsi möhtəşəm oldu.

Prezident H.Əliyevin müstəqil dövlət quruculuğu işində ilk ciddi addımlarından biri "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qa-

nunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" 9 avqust 1994-cü il tarixli Fərmanı idi. Fərman konstitusiyalı dövlət quruluşunun mühafizəsinə, insan hüquq və azadlıqlarının cinayətkar qəsdlərdən qorunmasına yönəlməklə cinayətkarlığa qarşı mübarizədə və qanunçuluğun bərpasında əsaslı dönüş yaratdı. Prezident H.Əliyev bu cinayətkar bandalara müharibə elan edəndə onlar dövlət başçısına qarşı hərbi müxalifətə keçdilər. S.Hüseynovun 1994 oktyabr və OMON-a başçılıq edən Cavadov qardaşlarının mart 1995-ci il dövlət çevrilişi cəhdləri Prezident H.Əliyevin dövlətçilik və qanunçuluq yoluna xaricdən idarə olunan müqavimət cəhdləri idi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasına, ümumiyyətlə, Azərbaycanın tutduğu yola müqavimətin nəticəsi olan 4 oktyabr 1994-cü il qiyamı məhz Prezident H.Əliyevin sarsılmaz iradəsi və böyük təcrübəsi ilə yatırıldı. Sonra isə 1995-ci ilin mart dövlət çevrilişi cəhdinin qarşısı alındı. Prezident H.Əliyevə qarşı neçə-neçə sui-qəsd cəhdlərinin qarşısını almaq lazım gəldi. 1995-ci ilin ortalarına doğru ölkədə hərbi müxalifət, silahlı bandalar, mütəşəkkil və siyasiləşmiş cinayətkar qruplar birdəfəlik ləğv edildi. Azərbaycanın hərtərəfli inkişafı yolunda geniş imkanlar açıldı.

1994-cü il sentyabrın 20-də Azərbaycana on milyardlarla dollar xarici sərmayə və yeni texnologiyalar gətirən, yeni iş yerləri və sürətli tərəqqi perspektivləri verən neft müqavilələri bağlandı, bununla da dövlət müstəqilliyinin iqtisadi təməli qoyulmuş oldu. "Əsrin müqaviləsi"ni müstəqil Azərbaycanın yeni neft strategiyasının başlanğıcı kimi dəyərləndirən Prezident H.Əliyev 2001-ci ilin oktyabrında dövlət müstəqilliyinin 10-cu ildönümü ilə bağlı məruzəsində deyirdi: "Bəli, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" Azərbaycanın düşmənlərinin köksünə bir süngü kimi sancıldı. Ona görə buna dözə bilmədilər. Azərbaycanda baş verən və dövlətçiliyin əleyhinə olan hadisələrin bir çoxu məhz bundan sonra başladı. Çünki daxildə olan adamlar da və xaricdə olanlar da bilirdilər ki, əgər Azərbaycan artıq bu cür addım atıbsa, deməli, Azərbaycan bundan sonra daha da uğurlu addımlar atacaq. Azərbaycan iqtisadi cəhətdən inkişaf edəcək, qüdrətlənəcək, möhkəmlənəcək".

Prezident H.Əliyev demokratikləşdirmə istiqamətində işə məhz bu bənddən başladı ki, cəmiyyətdə ilk növbədə sabitlik olmalı, dövlətin və vətəndaşların təhlükəsizliyi təmin edilməlidir. Təhlükəsizliyi təmin olunmayan vətəndaş özünə hansı sivil cəmiyyəti qura bilərdi? 1993-cü ilin iyunundan 1995-ci ilin mart dövlət çevrilişi cəhdinə qədərki mərhələ məhz belə təminatın verilməsi demək idi. Prezident H.Əliyev bu ağır işin öhdəsindən gəldi. Bununla da Azərbaycanda total bir demokratikləşmə prosesi üçün münbit zəmin yaradılmış oldu.

Prezident H.Əliyevin gərgin fəaliyyəti bu aspektdən qiymətlidir ki, o, ictimai-siyasi proseslərin dialektikasına və reallıqlara istinadən addım atırdı. Böyük öndər H.Əliyev əvvəlcə dövləti qurdu və vətəndaşların təhlükəsizliyini təmin etdi, sonra isə hüquqi-siyasi, sosial-iqtisadi, struktur və idarəetmə islahatlarına başladı. 1995-ci ilin ortalarına doğru Azərbaycan irimiqyaslı islahatlara tam hazır vəziyyətə gətirilmişdi. İqtisadi tənəzzülün qarşısı alınmış, bu sahədə inkişaf meylləri və tərəqqinin konkret nəticələri müşahidə olunmağa başlamışdı. Demokratiyanın əsas tələblərindən olan bazar iqtisadiyyatına keçidin təmin edilməsi üçün 1995-ci ildən başlayaraq I və II Dövlət Özəlləşdirmə Proqramlarının gerçəkləşdirilməsi hüquqi-siyasi islahatlara böyük təkan verdi. Yeni iqtisadi sistemə keçid sürətləndi, makroiqtisadi tarazlıq əldə edildi, ölkədə milli burjuaziyanın yaranması prosesi başlandı. 1995-1996-cı illərdə həyata keçirilən torpaq islahatları torpağın kəndlilərə əvəzsiz verilməsi ilə nəticələndi, beləliklə də, Azərbaycan kəndinin qarşısında yeni inkişaf perspektivi açıldı. Bu da ona gətirib çıxardı ki, kənd təsərrüfatı məhsullarının istehsalı 1995-2000-ci illərdə 23 faiz artdı. Əhalinin sosial müdafiəsi yönündə önəmli addımlar atıldı, dövlət büdcəsinin gəlirləri ilə yanaşı, maaşlar, pensiya və müavinətlər də əhəmiyyətli dərəcədə - ən azı 5-8 dəfə artırıldı. 1995-2000-ci illər ərzində əhalinin illik pul gəlirləri 2.6 dəfə artdı, inflyasiya isə xeyli azaldı. 1999-cu il dekabrın 6-da Prezident H.Əliyevin fərmanı ilə yaradılmış Sosial İnkişaf Fondu əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi yönündə böyük əhəmiyyət kəsb etdi.

Demokratikləşmə prosesi 1995-ci il noyabrın 12-də yeni Konstitusiyamızın qəbul olunması ilə daha dinamik fazaya qədəm qoydu. Konstitusiyaya görə, dövlətin demokratik, hüquqi və dünyəvi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil edilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi olması təməl prinsiplərdir. Azərbaycan bu prinsiplərin əsas götürüldüyü ölkə kimi Qərb dünyası tərəfindən də təqdir olunub dəstəklənir. H.Əliyev iqtidarı insan hüquq və

azadlıqlarının təmin olunmasına xüsusilə böyük əhəmiyyət verir. Azərbaycanda müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması da Prezident H.Əliyevin adı ilə bağlıdır. 1997-ci ildə qəbul olunmuş "Konstitusiya Məhkəməsi haqqında" Qanun hüquqi dövlət quruculuğu yolunda müstəsna əhəmiyyətə malik addım oldu. Prezident H.Əliyevin imzaladığı 22 fevral 1998-ci il tarixli fərman insan hüquqlarının qorunmasını xeyli asanlaşdırdı. Fərman bu məsələ ilə bağlı dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir. İnsan hüquqlarının müdafiəsi sahəsində ayrıca Dövlət Proqramı hazırlandı və 1998-ci il iyunun 18-də Prezident H.Əliyev tərəfindən təsdiqləndi. Azərbaycan hüquqi islahatlarla bağlı möhkəm qanunvericilik bazasının yaradıldığı ölkədir. Ölkəmiz insan hüquqları ilə əlaqədar 180-dən artıq beynəlxalq konvensiya və sazişə qoşulub. Azərbaycan ölüm hökmünü ləğv edən ilk Şərq ölkəsidir və buna da biz yalnız böyük öndərimiz H.Əliyevin Prezidentliyi dövründə nail olmuşuq. 1993-cü ildə bilavasitə Prezident H.Əliyevin təşəbbüsü ilə icrasına moratorium qoyulan ölüm cəzası 1998-ci il fevralın 10-da tamamilə ləğv olundu. Prezident H.Əliyev 1995-ci ildə əfv və amnistiya təsisatlarını bərpa etdi.

Heydər Əliyev erası vətəndaş cəmiyyətinin sürətli şəkildə qurulması dövrüdür. 1993-2003-cü illərdə Azərbaycanda sivil vətəndaş cəmiyyətinin strukturu təşəkkül taparaq formalaşdı, azad fəaliyyət göstərən siyasi partiyaların, QHT-lərin və digər vətəndaş təsisatlarının bütöv bir şəbəkəsi yarandı. Hazırda ölkəmizdə 700-dək KİV, 80-ə yaxın siyasi partiya, 1200-dən çox QHT tam sərbəst fəaliyyət göstərir. Əgər nəzərə alsaq ki, onların böyük əksəriyyəti özünü müxalifət partiyası sayır, onda ölkədəki demokratiyanın inkişaf səviyyəsinin nə yerdə olduğu aydın görünər.

Böyük öndər H.Əliyevin siyasi fəlsəfəsinin əsasında gerçək vətəndaş həmrəyliyi və siyasi əxlaq faktoru dayanır. Prezident H.Əliyev müxtəlif yönlü siyasi qüvvələr arasında konstruktiv dialoqun və sivil münasibətlərin tərəfdarı idi. O, özünün bu mövqeyini həmişə dövlətçiliyi və demokratiyanı qorumağın zəruriliyi ilə əsaslandırırdı. "Fikir plüralizmi, söz azadlığı, vicdan azadlığı, sərbəst iqtisadiyyat, hər bir insanın tam azad olması, demokratik seçkilərin keçirilməsi, demokratiya prinsipləri əsasında dövlət təsisatlarının yaranması və müxtəlif islahatların həyata keçirilməsi. Demokratiya mücərrəd anlayış deyil, bunlardan ibarətdir. Biz bunları etmişik və edirik. Əgər biz bunları etməsəydik, Azərbaycan ötən dövrdə ağır vəziyyətdən çı-

xıb indi bu səviyyəyə qalxa bilərdimi? Ona görə də həqiqi demokratiya iqtidarın yaratdığı demokratiyadır. Həqiqi demokratiya Yeni Azərbaycan Partiyasına mənsubdur". Bu sözlər ümummilli liderimizə məxsusdur.

Prezident H.Əliyev ona qarşı qərəzli mövqe tutan siyasi partiyaların sərbəst fəaliyyətinə yalnız qanunun aliliyi prinsipindən yanaşırdı. "Mən Azərbaycanın Prezidenti kimi ölkənin bütün vətəndaşlarının hüquq və azadlıqlarının təminatçısıyam" deyə bəyan edən Prezident H.Əliyev demokratiya yolundan dönməməyi ali məqsəd sayırdı. Onun fikrincə, müstəqilliyimizin bundan sonra da möhkəmlənməsi və Azərbaycanın demokratik, sivil və dünyəvi dövlət kimi inkişaf etməsi ölkəmizdə vətəndaş həmrəyliyi əsasında baş verməlidir.

Azərbaycan başqa bir cəhətdən də nadir ölkədir. Söhbət ölkəmizin din azadlığının təmin olunması sahəsindəki unikal təcrübəsindən gedir. Azərbaycan üç dini konfessiyanın - İslamın, xristianlığın və iudaizmin dinc şəraitdə, konfliktsiz yaşadığı bir ölkədir. 2002-ci il mayın 22-23-də Prezident H.Əliyevin dəvətilə Azərbaycanda yüksək səviyyəli rəsmi səfərdə olan Roma Katolik Kilsəsinin və Vatikan dövlətinin başçısı, Roma papası II İohann Pavel Bakıda 200-dən artıq xarici jurnalistin qarşısında bəyan etdi ki, Azərbaycan dini dözümlülüyün olması baxımından dünyada nadir ölkədir. Roma papasının sözlərinə görə, belə bir demokratik və tolerant mühiti yaratmaq dünyada analoqu olmayan bir hadisədir. Xatırladaq ki, 500-dən çox dini qurumun sərbəst fəaliyyət göstərdiyi Azərbaycanda dini qarşıdurma zəmnində hələ heç bir münaqişə qeydə alınmayıb. Roma papası II İohann Pavel Prezident H.Əliyevin bu sahədəki xidmətlərini yüksək qiymətləndirmişdi.

Deyilənləri belə ümumiləşdirmək olar ki, Azərbaycanın gerçək dövlət müstəqilliyi qazanmasında və qüdrətli dövlətə çevrilməsində Prezident H.Əliyevin tarixi rolu həqiqətən də müstəsna dərəcədə böyükdür. Prezident H.Əliyevin rəhbərliyi altında keçən 10 il növbəti onilliklərin təməli olan onillik idi. Azərbaycanın müstəqil dövlət kimi əldə etdiyi nə varsa, hamısı məhz son onillikdə qazanılıb. Azərbaycan bu 10 ildə gerçəkdən müstəqil dövlət kimi formalaşıb, qüdrətlənib, demokratik dövlət imici qazanıb, sivil dünyaya sıx inteqrasiya olunub, nüfuzlu beynəlxalq təşkilatların tamhüquqlu üzvünə çevrilib və s. Halbuki ölkə müstəqilliyinin ilk iki ilində belə bir sürətli inkişaf perspektivindən çox uzaq idi. O vaxtkı vəziyyət elə idi ki, Azərbaycanın hətta müstəqil dövlət kimi mövcud olub-

olmayacağı məsələsi gündəmə gəlmişdi. 1993-2003-cü illərdə Azərbaycanda baş verən dəyişiklikləri müşahidə edəndə bəzən inanmaq olmur ki, bütün bunlar 1993-cü ildən sonrakı yeniləşmənin nəticəsidir. Azərbaycan məhz həmin ağır ildə demokratiya və bazar iqtisadiyyatı yolunu seçdi. Çünki başqa yol yox idi. Bütün çətinliklərə baxmayaraq ölkə rəhbərliyi Azərbaycanı demokratiya yoluna itkilərsiz çıxardı, bununla da, ölkəmizin beynəlxalq arenadakı rolu və əhəmiyyəti artdı. 2001-ci il yanvarın 25-də ölkəmiz Avropa Şurasına tamhüquqlu, 2002-ci ildə isə NATO-ya assosiativ üzv qəbul edildi. Azərbaycan bu illərdə ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Çin, Rusiya, Türkiyə, Pakistan kimi nüfuzlu ölkələrlə, həmçinin region dövlətləri ilə, mötəbər beynəlxalq qurumlarla, o cümlədən İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, GUƏAM və s.-lə sıx ikitərəfli əməkdaşlıq əlaqələri qurub.

Azərbaycanın H.Əliyevin Prezidentliyi dövründə əldə etdiyi nailiyyətlər tarix baxımından incələnəndə ortaya çıxan mənzərə həqiqətən də heyrətamizdir.

Müstəqil dövlət ideyası Prezident H.Əliyevin və onun komandasının işləyib hazırladığı milli tərəqqi konsepsiyasının apancı komponentidir. Ümummilli liderimiz H.Əliyevin təxminən 10 il əvvəl irəli sürdüyü "Bizə güclü Azərbaycan lazımdır" şüarı və milli tərəqqi konsepsiyası hələ bir neçə onilliklər üçün keçərli olacaq. İndi müstəqil Azərbaycan Respublikası güclü, zəngin, nüfuzlu, sivil bir dövlətdir. Böyük öndərimiz H.Əliyevin siyasəti olmadan bütün bu uğurlara nail olmaq heç vaxt mümkün deyildi və ola da bilməzdi. Ən vacib olanı da budur ki, Azərbaycan xalqı bu siyasətə alternativ görmür. Ölkəmiz bu yolla getməkdə, bu siyasəti yürütməkdə davam edəcək. Çünki H.Əliyev siyasəti indi etibarlı əllərdədir: onun bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev kimi nüfuzlu və layiqli siyasi varisi var. Bu amil isə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına və daha da möhkəmləndirilməsinə güclü bir zəmanət deməkdir.

İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV SİYASƏTİNİN LAYİQLİ DAVAMÇISIDIR

Prezident H.Əliyevin səhhətində problemlər yarananda cəmiyyətdə belə bir qəti qənaət var idi ki, böyük öndərin siyasəti mütləq davam etdirilməlidir. Bunu elə ümummilli lider H.Əliyev də bəyan edir və milli tərəqqi kursunun davamçısı kimi İlham Əliyevin namizədliyi üzərində dayanırdı. Bu böyük insan dünyasını dəyişəndən sonra cəmiyyətin bu qənaəti daha da qətiləşdi və xalq Prezident İ.Əliyevin ətrafında daha sıx birləşərək H.Əliyev ideyalarının gerçəkləşməsinə "hə" dedi. İndi Azərbaycan xalqı "Mən yaxşı Prezident olacağam" deyən İlham Əliyevin xalqa, dövlətə və H.Əliyev ideyalarına sədaqətinə tam əmindir. 2003-cü il 15 oktyabr seçkilərində parlaq qələbə qazanaraq Azərbaycana növbəti 5 ildə rəhbərlik etmək hüququ qazanan İ.Əliyev oktyabrın 31-də Prezident kimi təntənəli şəkildə vətənə, dövlətə, xalqa sədaqət andı içdi. Dövlətimizin başçısı əlini Azərbaycan Konstitusiyasına və müqəddəs Qurani-Kərimə basaraq and içdi ki, Prezidentliyi dövründə Azərbaycan Konstitusiyasına əməl edəcək, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacaq, xalqa ləyaqətlə xidmət edəcək, Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacaq və onları daim uca tutacaq.

İndi hamının yekdil fikri budur ki, İ.Əliyevin Prezidentliyi ilə Azərbaycanın tarixində keyfiyyətcə yeni mərhələ başlayır. Bu mərhələnin əsas mahiyyəti isə böyük öndər H.Əliyevin Azərbaycanda yaratdığı sabitliyin və inkişafın davamlılığının təmin edilməsi ilə müəyyən olunur. Prezident H.Əliyev son 10 ildə Azərbaycana çox şey, daha doğrusu, cəmiyyətin ondan gözlədiyi hər şeyi verdi. Bura sabitlik, əmin-amanlıq, qanunçuluq, dövlətçilik, milli rifah, sosial-iqtisadi və hüquqi-siyasi islahatlar, milli-mənəvi dəyərlərimizə sayğı kimi vacib ünsürlər daxildir. Cəmiyyət Prezident H.Əliyevdən gözlədiklərinin hamısını aldı.

İndi isə cəmiyyət nəzərlərini Prezident İ.Əliyevə dikib. Onun üzərində təkcə xalq tərəfindən yox, həm də Prezident H.Əliyev tərəfindən qoyulmuş böyük bir məsuliyyət və etimad yükü var. Ümummilli liderimiz H.Əliyev 2003-cü il oktyabrın 1-də xalqa müraciət edərək Prezidentliyə namizədlikdən İlham Əliyevin xeyrinə geri çəkildiyini bəyan etmiş və İ.Əliyevi özünün siyasi varisi adlandıraraq onu belə səciyyələndirmişdi: "Xalqı İlham Əliyevi dəstəkləməyə çağırıram. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Prezident İ.Əliyev hələ seçkilərdə namizəd kimi iştirak edərkən,-elə ondan əvvəlki və sonrakı çıxışlarında da,-dəfələrlə bəyan etmişdi ki, o, ölkə həyatının bütün sahələrində Prezident H.Əliyevin siyasi xəttini davam və inkişaf etdirəcək, yalnız bu yolla gedəcək, çünki H.Əliyev xəttinin davam etdirilməsini Azərbaycanın milli mənafeləri tələb edir, çünki bu yol ölkəni tərəqqiyə və demokratiyaya aparacaq yeganə yoldur, Azərbaycandan ötrü alternativi olmayan siyasətdir.

Hazırda Prezident kimi çox böyük uğurla çalışan İ.Əliyev bütün diqqətini bir neçə əsas istiqamət üzrə cəmləyib. Birinci məsələ ölkədə möhkəm ictimai-siyasi sabitlik, demokratiyanın, fikir plüralizminin və qanunçuluğun qorunması və inkişafı, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesinin davam etdirilməsi, müxtəlif ictimai-siyasi qüvvələr arasında milli mənafelər naminə dialoqdur. İkinci məsələ sosial yönümlü dövlət quruculuğu ilə bağlıdır. Sosial-iqtisadi və hüquqi-siyasi islahatlar kursunun, sosial yönümlü dövlət quruculuğu prosesinin davam etdirilməsi. "Mən yaxşı Prezident olacağam, mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" deyən İ.Əliyevin sözlərinə görə, qarşıdakı 5 ildə 600 min yeni iş yerinin açılması, əmək haqqının, təqaüd və müavinətlərin artırılması, yoxsulluğun ləğvi, əhalinin aztəminatlı təbəqələrinin problemlərinə diqqət, sosial infrastrukturun inkişafı, əyalətin sosial-iqtisadi inkişafı, bir sözlə, sosial yönümlü dövlət quruculuğu onun hökumətinin başlıca istiqamətini təşkil edəcək. Təsadüfi deyil ki, Azərbaycanın builki dövlət büdcəsinin 60 faizi məhz sosial sferaya ayrılıb. Neftdən gələn gəlirlərin artımı bu sahədə köklü dəyişikliklərin əsas şərti kimi nəzərdən keçirilir.

Üçüncüsü, İ.Əliyevin Prezidentliyi dövründə Azərbaycana xarici sərmayə axını daha da güclənməkdədir. Müasir iqtisadi sistemlərin və istehsal münasibətlərinin funksional asılılığından baş çıxara biləcək qədər səriştəli mütəxəssis sayılan Prezident İ.Əliyevin prioritet verdiyi məsələlərdən biri də budur. Xatırladaq ki, Prezident İ.Əliyev ARDNŞ-də məhz neft şirkətləri ilə danışıqlar və Azərbaycana xarici sərmayə cəlbi məsələlərinə məsul idi. Bu sahədəki gərgin əməyin nəticəsidir ki, Azərbaycan adambaşına düşən xarici sərmayələrin həcminə görə bu gün bütün postkommunist ölkələri arasında birincidir. Azərbaycan iqtisadiyyatına bu günə qədər müxtəlif mənbələrdən 22 milyard dollardan artıq sərmayə qoyulub ki, bunun da çox böyük hissəsini xarici investisiyalar təşkil edir.

İndi bu sahədə Azərbaycanın qarşısında daha böyük perspektivlər açılıb. Türkiyənin "Aksiyon" jurnalı özünün 2003-cü il oktyabr saylarının birində İ.Əliyevin Prezidentliyi dövründə Azərbaycanı gözləyən iqtisadi tərəqqidən söz açaraq yazırdı ki, bu tərəqqi Azərbaycana həm də milli burjuaziya verəcək: "İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycanda sosial-iqtisadi və siyasi islahatlar sabitliyi daha da möhkəmləndirəcək ki, bu da Azərbaycana xarici kapital axınını daha da gücləndirəcək... İndi gözlər İlham Əliyevdədir".

Dördüncüsü, Prezident H.Əliyevin balanslaşdırılmış xarici siyasət xəttinin davam etdirilməsi, o cümlədən regional əməkdaşlıq, təhlükəsizlik siyasətinin, qonşu dövlətlərlə əlaqələrin sıxlaşdırılması və Qərbə inteqrasiya siyasətinin yeni mərhələdə bir qədər də aktivləşdirilməsi. ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi iqtisadi cəhətdən inkişaf etmiş aparıcı dövlətlərlə, həmçinin Rusiya, Türkiyə, İran və MDB ölkələri ilə, eləcə də regional qurumlarla sıx əlaqələr, işğalçı və təcavüzkar Ermənistanın cilovlanması və cəzalandırılması, Qarabağ probleminin tam həlli, Cənubi Qafqazda təhlükəsizlik, sabitlik və davamlı sülh məsələləri Prezident İlham Əliyevin önəm verdiyi məsələlər sırasındadır. O, çıxışında da bəyan etmişdi ki, Rusiya, Türkiyə, Gürcüstan, İran kimi qonşu ölkələrlə həm ikitərəfli, həm də regional əməkdaşlıq inkişaf etdiriləcək.

Prezident İ.Əliyevin üzərinə indi böyük missiya düşür. Prezident H.Əliyev Azərbaycanı bütün regionun lider ölkəsinə çevirdi. İndi bu bölgədə Azərbaycanın iştirakı, yaxud razılığı olmadan, ölkəmizin milli maraqları nəzərə alınmadan heç bir ölkə hər hansı iri layihəni, ümumiyyətlə, bölgənin ictimai-siyasi və sosial-iqtisadi həyatı ilə, təhlükəsizliyi ilə bağlı olan hər hansı ideyanı həyata keçirmir. Prezident İ.Əliyevin təbirincə, "indi Azərbaycanla hesablaşırlar, indi beynəlxalq aləmdə Azərbaycana hörmət edirlər". O cümlədən də Qafqazdakı proseslər məsələsində hesablaşırlar və bu da Prezident H.Əliyevin Azərbaycanın mövqeyini gücləndirmək siyasətinin məhsuludur. Prezident İ.Əliyev Heydər Əliyevin bir vaxtlar irəli sürdüyü "Təhlükəsiz ümumi Qafqaz evi" ideyasının həyata keçirilməsi istiqamətində böyük uğurlar qazanmaqdadır. Analitiklər İ.Əliyevin Prezidentliyindən məhz Azərbaycanın Qafqazdakı lider mövqeyini qoruyub saxlamağı və daha da möhkəmləndirməyi gözləyir və onun buna nail olacağına əmindirlər.

Prezident İ.Əliyev dönəmi Azərbaycana hüquqi dövlət, mülki cəmiyyət quruculuğu prosesinin dərinləşməsini, demokratiyanın, söz azadlığının və fikir plüralizminin inkişafını, qanunçuluğun möhkəm şəkildə qorunmasını, müxtəlif siyasi qüvvələr arasında dialoqun dərinləşməsini, əfv və bağışlama ənənələrinin davamlılığını vəd edir. Cəmiyyət müxalifətin törətdiyi 16 oktyabr iğtişaşları zamanı bir daha gördü ki, İ.Əliyev qanunun aliliyi prinsipinə əməl edən və ona əməl etməyin vacibliyini bütün kəskinliyi və qətiyyəti ilə tələb edən qanunpərəst və iradəli liderdir. Artıq ilk addımları da göstərdi ki, sabitlik və qanunçuluq onun üçün başlıca məsələ olaraq qalacaq. H.Əliyevin Prezidentliyi zamanı dövlətləşmə mərhələsini başa vuran Azərbaycan yeni dönəmdə demokratikləşmə mərhələsini tam şəkildə həyata keçirməkdədir ki, bunu da Prezident İ.Əliyev edəcək. Qısası, Azərbaycan cəmiyyəti ölkənin yeni Prezidentindən çox şey gözləyirdi və onun bütün bu vəzifələrin öhdəsindən uğurla gələcəyinə əmin idi. Bu ümidlər doğruldu. Bu əminliyi artıran ən ciddi amillərdən biri də onunla müəyyən olunur ki, Prezident İ.Əliyev cəmiyyətdə böyük dəstəyə malikdir.

Elə bu dəstəyin nəticəsidir ki, sınaq ili uğurlu nəticələr verdi. 2004-cü ilin sosial-iqtisadi yekunları belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycan ötən bir ildə sabit inkişaf yolu ilə addımlamaqda davam edib. Azərbaycanda 1993-cü ildən bu yana hər ili irəliyə doğru daha bir addım kimi başa vurmuşuq. 2004-cü il də istisna olmadı. Ötən il yarım ölkənin həyatında mühüm keyfiyyət dəyişiklikləri ilə, hərtərəfli tərəqqi meyllərinin aparıcı yerdə qalması ilə əlamətdar oldu. Nailiyyətlər ölkənin ictimai həyatının bütün sahələrində müşahidə olunur. Biz bu ili ümummilli liderimiz H.Əliyevsiz yaşasaq da yeni Prezident İ.Əliyev böyük öndərin siyasi kursunu uğurla davam etdirməklə məmləkətimizin bu sınaqdan alnıaçıq çıxmasını təmin edə bildi.

2004-cü ildə baş vermiş hadisələri təhlil edəndə Azərbaycanın bu dövrdə böyük sosial-iqtisadi inkişaf yolu keçdiyini söyləmək olar. Azərbaycan iqtidarı öz siyasətini son il yarımda bütün istiqamətlərdə daha uğurla aparıb və böyük nailiyyətlər qazanıb. Bütün sahələrdə qənaətbəxş nəticələr var. Ən əhəmiyyətli nəticələr özünü ölkənin sosial-iqtisadi mənzərəsinin müsbətə doğru sürətlə dəyişməsində göstərir. Bu tablonun bir sıra mühüm cizgilərini nəzərdən keçirəndə ölkəmizin böyük inkişaf tempinə malik olduğunu görmək olar. Bəri başdan deyək ki, bu uğurların mənbəyi H.Əliyev siyasətidir. 2004-cü ildə əldə olunmuş uğurlu nəticələrin təməli ümummilli liderimiz H.Əliyev tərəfindən başlanmış və uğurla davam etdirilən iqtisadi islahatlarla qoyulub, yəni il yarımdakı uğurlar H.Əliyev siyasi xəttinin məntiqi davamı kimi qiymətləndirilməlidir. Azərbaycan cəmiyyəti dünən və bu gün əldə etdiklərinə görə bu siyasətə borcludur. Bu siyasət hələ uzun onilliklər boyunca bütün nailiyyətlərin bazası rolunu oynayacaq. Fikrimizi təkcə belə bir rəqəmlə əsaslandıraq. 1995-2003-cü illər arasında ÜDM 90 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, orta əmək haqqı 6 dəfə, pensiyalar 8 dəfə artıb. Bütün maliyyə mənbələri hesabına Azərbaycan iqtisadiyyatına 22 milyard dollar sərmayə qoyulub. Bu uğurun səbəbi Azərbaycanda H.Əliyev tərəfindən yaradılmış güclü iqtisadi bazanın və gələcək inkişaf üçün yaradılmış əlverişli iqtisadi mühitin mövcudluğudur. Belə dinamik inkişaf tempinə malik olan ölkədə sosial-iqtisadi tərəqqi meyllərinin qarşısıalınmaz olması əslində labüddür. H.Əliyev kursu ölkəyə elə bir dinamik inkişaf sürəti verib ki, bunun pozitiv təsirləri hələ uzun illər hiss olunacaq.

Bu stimulu 2004-cü ildə də hiss etdik. Son il yarımda müsbət iqtisadi təmayüllər daha da gücləndi. Məsələn, ötən il yarım ərzində ÜDM-də 10, əhalinin pul gəlirlərində 20, orta əmək haqqında isə 26 faiz artım müşahidə olundu. Orta aylıq əmək haqqı hazırda 478 min manat təşkil edir və bu rəqəmin 2005-ci ildə bir qədər də artırılması proqnozlaşdırılır. Xarici ticarət dövriyyəsində 40 faizlik artım müşahidə olundu ki, bu da ölkənin sosial-iqtisadi inkişafının daha bir pozitiv göstəricisidir. Azərbaycan sürətlə varlanır. 1993-cü ildə cəmi bir neçə milyon dollarlıq valyuta ehtiyatlarına malik olan ölkənin valyuta ehtiyatlarının bu gün 1,8 milyard dollara bərabər olması faktı əslində bu sahədəki real mənzərəni əks etdirir.

Azərbaycan ona görə inkişaf edir ki, ölkə postsovet epoxası iqtisadi modelinin daha optimal liberal iqtisadi sistemə, bazar iqtisadiyyatına transformasiyası və onun modernləşdirilməsi, sosial-iqtisadi, hüquqi-siyasi və struktur islahatlarının gerçəkləşdirilməsi, ölkə iqtisadiyyatına investisiyaların və bunlarla bərabər yeni texnologiyaların cəlb edilməsi xəttinə sadiqdir. 2004-cü il ərzində ardıcıl surətdə həyata keçirilmiş iqtisadi islahatların bəhrəsi özünü bütün aspektlərdən göstərdi. 2004-cü ildə struktur dəyişiklikləri aparıldı, yeni nazirliklər təşkil olundu. 2004-cü ilin əvvəlin-

də Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradıldı, Kənd Təsərrüfatı Nazirliyi yenidən təşkil olundu, "Azərsu" Səhmdar Cəmiyyəti yaradıldı, ötən ilin dekabrında isə Sənaye və Energetika Nazirliyinin yaradılması haqqında Prezident Fərmanı imzalandı və s.

Bu tədbirlər nəticəsində aqrar sektorda yeni dinamik inkişaf meylləri nəzərə çarpır. Fermer təsərrüfatları şəbəkəsinin genişləndirilməsi, kənddə sahibkarlığın dəstəklənməsi, onların mikrokreditlərlə təmin olunması, "Aqrolizinq" SC-nin yaradılması ilə kəndlilərə böyük sayda texnikanın verilməsi, texnika çatışmazlığını aradan qaldırmaq məqsədilə 250 milyard manat vəsaitin ayrılması sonda ona gətirib çıxardı ki, hazırda Azərbaycan özünü bəzi kənd təsərrüfatı məhsulları ilə təmin edir, hətta xarici bazarlara da məhsul ixrac edə bilir. Prezident İ.Əliyevin sahibkarları dəstəkləməsinin, özəl sektorun inkişafı ilə bağlı prinsipial qərarlar verməsinin, sahibkarlara kömək məqsədilə ötən il onlara 100 milyard manat kredit ayrılmasının nəticəsi olaraq bu gün ÜDM-də özəl sektorun payı 74 faizə yüksəlib, bu ilsə həmin rəqəmin 77 faizə qalxacağı proqnozlaşdırılır. Dövlət başçısı bəyan edib ki, dövlət azad iqtisadi fəaliyyəti, özəl sahibkarlığı dəstəkləmək xəttini 2005-ci ildə daha böyük qətiyyətlə davam etdirəcək və bu məqsədlə sahibkarlara 200 milyard manat kredit veriləcək.

Bu proqnozların reallaşmasına şərait yaradan amillər ölkənin sürətli iqtisadi inkişafının və deməli, varlanmasının sabit tempi ilə şərtlənir. Digər tərəfdən, iqtisadi islahatların pozitiv yüklü real nəticələri ölkəmizin iqtisadi məkanını sərmayələr üçün münbit mühitə çevirib və investorların Azərbaycana axmaqda davam etməsinə səbəb olub. Bu baxımdan heç də təsadüfi deyil ki, Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiyaların həcmi təkcə 2004-cü il ərzində 48 faiz artıb və bütövlükdə 4 milyard dollara bərabər olub. Son 10 ayda əsas kapitala yönəldilən investisiya isə 43 faiz təşkil edib. Bu isə o deməkdir ki, hökumət sahibkarlığın dəstəklənməsi, iqtisadiyyatın qeyri-bərabər inkişafı meyllərinin aradan qaldırılması və qeyri-neft sektorunun xüsusi çəkisinin artırılması üçün əlavə kapital qaynaqları tapmaqda heç bir problemlə üzləşməyəcək.

Sosial yönümlü dövlət quruculuğu məsələsi hökumətin fəaliyyətində bütün 2004-cü il ərzində başlıca istiqamət olaraq qalıb. Prezident İ.Əliyev hələ 2003-cü il noyabrın 24-də "Sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzalamaqla və 2004-cü il fevralın 11-də "Regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət Proqramı"nı təsdiq etməklə sosial yönümlü dövlət quruculuğu sahəsində əslində sıçrayışlı inkişafa imza atmış oldu. Azərbaycan cəmiyyətinin sosial mənzərəsini kökündən dəyişən bu iki sənədin müddəalarının bəndbəbənd gerçəkləşməsi nəticəsində əhalinin sosial rifah halı xeyli yaxşılaşıb. Nəticədə bölgələrdə iqtisadi canlanma yaranıb, əyalətdə hətta xaricə məhsul ixrac edən yeni müəssisələr işə salınıb, regionlarda yüz minlərlə yeni iş yeri açılıb. Prezidentin bildirdiyinə görə, son bir ildə bütün ölkə üzrə 170 mindən artıq iş yeri açılıb ki, onların da 110 mindən artığı bölgələrin payına düşür, 90 mini isə daimi iş yeridir.

2004-cü il sosial problemlərin çözülməsi sahəsində atılan fundamental addımlarla yadda qalacaq. Bu müddət ərzində maaşlar, pensiyalar, digər sosial ödəmələrdə böyük artım müşahidə olunub. 2004-cü ildə büdcədən maliyyələşən təhsil, səhiyyə, mədəniyyət, incəsənət və kütləvi informasiya, sosial təminat, kənd təsərrüfatı və digər sahələrdə çalışan işçilərin maaşları artırılıb. Bu artım təxminən 538 min nəfəri əhatə edib. Bu məqsədlə 2004-cü il iyulun 1-dən ilin sonunadək büdcədən 108 milyard manat əlavə vəsait ayrılıb, 2005-ci ildə isə daha 216 milyard manat ayrılacaq. Bundan əlavə, 2004-cü ildə Prezidentin 16 və 19 aprel, 26 və 30 iyun, 5 iyul, 4 noyabr tarixli fərman və sərəncamları ilə alimlərin, daxili işlər və milli təhlükəsizlik orqanları işçilərinin və hərbçilərin maaşları, Çernobıl əlillərinin müavinətləri, aspirant və tələbələrin təqaüdləri, hərbçilərin müavinətləri artırılıb.

Ən böyük nəticə minimum əmək haqqının 2004-cü il ərzində iki dəfə artırılmasıdır. 2004-cü ilin əvvəlində minimum əmək haqqı 45 min manatdan 60 min manata qaldırıldı. Prezident İ.Əliyevin "Minimum aylıq əmək haqqının artırılması haqqında" 30 iyun 2004-cü il tarixli Fərmanına uyğun olaraq 2004-cü il iyulun 1-dən etibarən ölkədə minimum aylıq əmək haqqının məbləği 60 min manatdan 100 min manata yüksəldildi. Bu məbləğ 2005-ci il yanvarın 1-dən etibarən 25 faiz də artaraq 125 min manata çatdırıldı. Lakin Prezident İ.Əliyev bunu da son həddsaymır: "Yəni bu meyl göstərir ki, artım davam edəcək. Əlbəttə, 125 min manat böyük məbləğ deyil. Biz bunu yaxşı başa düşürük. Minimum əmək haqqının qaldırılması, ümumiyyətlə, Azərbaycan xalqının rifah halının yaxşılaşması bizim üçün çox önəmli məsələdir. Azərbaycan xalqı ildən-ilə daha yaxşı ya-

şamalıdır və daha da yaxşı yaşayacaq. Sosial sahəyə bundan sonra da böyük diqqət yetiriləcək".

Qaçqın köçkünlərə qayğı da xeyli artıb. Qarabağ müharibəsinin qurbanı olan 1 milyon qaçqın-köçkün soydaşımızın sosial problemlərinin həlli üçün Prezident H.Əliyev tərəfindən aktual vəzifə kimi qarşıya qoyulmuşdu. Vəsaiti 1999-cu ildə ümummilli liderimiz tərəfindən qoyulmuş Dövlət Neft Fondunda toplanan ilk vəsaitdən ayırmalar onun müvafiq fərman və sərəncamları ilə məhz qaçqın-köçkünlərin sosial problemlərinin həllinə yönəldilirdi. Bu siyasət Prezident İ.Əliyev tərəfindən də uğurla davam etdirilir. Prezident İ.Əliyev qaçqın-köçkünlərin sosial problemləri ilə əlaqədar 2004-cü ildə bir fərman, üç sərəncam imzalayıb, Nazirlər Kabineti isə 4 qərar və 10 sərəncam qəbul edib. Həmin fərmanlarla ayrılmış vəsait hesabına 1 il 3 ay ərzində 6410 yaşayış evi, 3150 yerlik 18 məktəb, 18 uşaq bağçası, 16 tibb məntəqəsi tikilib, 195 km asfalt yol, 188 km su xətti, 350 km elektrik xətti, 133 km suvarma kəməri və s. sosial obyektlər istifadəyə verilib. Biləsuvar rayonundakı 5 çadır düşərgəsi ləğv edilib, 1329 qaçqın və 5081 köçkün ailəsinin - 32 min nəfərin mənzil-məişət şəraiti yaxşılaşdırılıb, 35 min nəfərdən çox qaçqın-köçkün və yerli əhali həmin qəsəbələrin tikintisində işlə təmin olunub. Hər bir ailəyə həyətyanı və əkin sahələri ayrılıb, onlara əvəzsiz maliyyə yardımı verilib. Yeni salınmış qəsəbələrdə 6 mindən çox iş yeri açılıb. 2004-cü il fevralın 4-də Bərdə və Ağcabədi rayonları ərazisindəki 4 çadır düşərgəsinin ləğvi və 3860 məcburi köçkün ailəsi üçün yeni qəsəbələrin salınması barədə sərəncam imzalayan Prezident 2004-cü il iyunun 8-də Mingəçevirdə 412 məcburi köçkün ailəsi üçün yeni salınmış qəsəbənin açılışında iştirak edib, sentyabrın 11-də Bərdəyə səfəri zamanı bu rayonda çadır düşərgələrindəki köçkünlərlə də görüşüb. Prezidentin 2004-cü il 1 oktyabr tarixli sərəncamına uyğun olaraq Saatlı və Sabirabad çadır düşərgələrindəki 4179 köçkün ailəsi üçün yeni qəsəbələrin layihələndirilməsi üçün vəsait ayrılıb. Həmin sərəncamla Naxçıvanda daha 100 qaçqın-köçkün ailəsi üçün evlərin tikintisinə vəsait verilib və s.

Prezidentin 2004-cü il 1 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın bu istiqamətdə xüsusi əhəmiyyəti var. Ümumilikdə proqramda 22921 ailənin - 110 min

köçkünün həyat şəraitinin yaxşılaşdırılması, o cümlədən 21354 ailənin yeni qəsəbələrə köçürülməsi, 1567 ailənin müvəqqəti məskunlaşdığı ictimai binaların təmiri, 30 min iş yerinin yaradılması nəzərdə tutulur. Büdcədə köçkünlərin sosial müdafiəsi üzrə ayrılan vəsaitin həcmi hər il artır. Təkcə bu il artım 100 milyard manat təşkil edəcək.

Heç kim yox, məhz Prezident H.Əliyev Azərbaycana bağışlama və əfv ənənələri gətirdi, insan hüquqlarına hörməti aparıcı sosial dəyərə çevirdi. Təsadüfi deyildi ki, o, Prezident olduğu 10 ildə üst-üstə 37 əfv sənədi imzalamış, bu sənədlərlə üst-üstə 80487 nəfər məhkumu bağışlamışdı. Bütövlükdə insan hüquqları, qanunçuluq və demokratiya məsələlərinə bu sivil yanaşma tərzi Prezident H.Əliyevin fəaliyyətinin ana xəttini təşkil edirdi. Bunun nəticəsində də Azərbaycan insan haqlarının qorunması və humanizm prinsipinin cəmiyyətdə tam bərqərar edilməsi səviyyəsinə görə hazırda bütün postkommunist məkanı ölkələri arasında qeyd-şərtsiz olaraq birinci yerdədir. Bütün bunlar ümummilli liderimiz H.Əliyevin Azərbaycan qarşısındakı xidmətlərinin, onun siyasətinin yalnız bir nümunəsidir. Bu siyasətin davam etdirilməsi missiyasını uğurla yerinə yetirən Prezident İ.Əliyev 2003-cü il dekabrın 29-da özünün ilk əfv fərmanını, 2004-cü ildə daha üç, 2005-ci ilin Novruz bayramı ərəfəsində isə daha bir əfv fərmanı imzalayaraq xeyli məhkumu bağışladı, bununla sübut etdi ki, o, H.Əliyev tərəfindən təməli qoyulan bütün dəyər və ənənələrin, o cümlədən humanizm ənənəsinin davam və inkişaf etdirilməsinə sadiqdir, həmçinin H.Əliyev siyasətinin bütün təfərrüatları ilə birgə davam etdiriləcəyinə dair vədini əməli şəkildə həyata keçirmək onun üçün əsas məsələdir. Prezident İ.Əliyev bununla sübut etdi ki, o, H.Əliyev ideyalarına və vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsinə sadiqdir.

Bu söylənənləri belə ümumiləşdirmək olar: İ.Əliyevin Prezident kimi fəaliyyət göstərdiyi dövr Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatının bütün sahələrində uğurlu olub və konkret nəticələri olan işlərlə səciyyələnib. Prezident İ.Əliyevin təbirincə desək, "ölkə Heydər Əliyevsiz keçirdiyimiz bu sınaq ilindən ləyaqətlə çıxdı". Qarşıda isə böyük planlar, öz həllini gözləyən problemlər, ən əsası isə geniş inkişaf perspektivləri var. Qarşıdakı illərdə görüləcək işlər haqqında da tam təsəvvür var. Növbəti illərdəki uğurların bünövrəsi artıq ötən illərdəki nailiyyətlərlə qoyulub.

SƏLAHƏDDİN XƏLİLOV
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEV VƏ SİYASİ VARİSLİK

Müstəqil Azərbaycan dövlətinin öz siyasi dəsti-xətti, öz dövlətçilik siması, öz inkişaf yolu vardır. Artıq on iki ildir ki, Azərbaycanda əsası Heydər Əliyev tərəfindən qoyulmuş vahid inkişaf strategiyası, siyasi-iqtisadi və mədəni-mənəvi təkamül konsepsiyası, vahid milli ideologiya formalaşmaqdadır. Ölkəmizin öz milli maraqlarına söykənən beynəlxalq siyasi kursu da, demokratikləşdirmə, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də göz qabağındadır.

Qloballaşma şəraitində milli özünəməxsusluğun qorunub saxlanması, habelə, milli mənəvi dəyərlərə sədaqətlə yanaşı, ümumbəşəri dəyərlərin, beynəlxalq hüquq normalarının və s. inkişaf etdirilməsi – bütün bunlar Azərbaycanın siyasi simasını, onun özünəməxsus beynəlxalq imicini formalaşdırmışdır.

Bu gün Azərbaycan öz milli dövlətçilik mənini qoruyub saxlamaqda, seçdiyi siyasi kursu davam etdirməkdə israrlıdır. Bu baxımdan, siyasi varisliyin təmin olunması ən vacib məsələlərdən biridir. Hələ Heydər Əliyevin hakimiyyətə qayıtdığı ilk illərdə jurnalistlərin siyasi hakimiyyət üçün kimlərinsə hazırlanıb-hazırlanmaması barədə suallarına o həmişə mənfi cavab verirdi və bu, çoxlarına təəccüblü görünürdü: – "Doğrudanmı Heydər Əliyev gələcək haqqında heç düşünmür?".

Lakin siyasi kursun hələ tam formalaşmadığı, Azərbaycanın müstəqil dövlətçiliyinin dönməz bir proses kimi hələ təsbit olunmadığı, milli ideologiyanın və ictimai-iqtisadi inkişaf strategiyasının hələ formalaşmadığı bir dövrdə siyasi varislikdən danışmaq və bunu ayrı-ayrı şəxslərlə bağlamaq hələ tez idi. Lakin sonralar da Heydər Əliyev öz yerinə kimi isə hazırlamaq istiqamətində addımlar atmadı. O, siyasi varislik məsələsini daha təbii, daha inamlı və daha qanunauyğun bir şəkildə həll etdi.

Heydər Əliyev Azərbaycan dövlətçiliyinin bütöv bir təlimini, konsepsiyasını yaratdı. Əliyevşünaslıq təlimi, Heydər Əliyev siyasi məktəbi yarandı, onun ideyalarına yiyələnmiş onlarca, yüzlərcə gənc siyasi xadimlər yetişdi və bu idealları, ideya-siyasi təlimi özündə təcəssüm etdirən, Heydər Əliyevin davamçılarını küll halında, monolit bir qüvvə kimi özündə birləşdirən Yeni Azərbaycan Partiyası mütəşəkkil bir siyasi partiya kimi özünü təsdiq etdi. Ancaq bundan sonra, YAP hakim partiya kimi püxtələşdikdən və öz sıralarında yeni liderlər yetişdirmək əzmində olduğunu sübut etdikdən sonra siyasi varislik probleminin də artıq həll edilmiş olduğu üzə çıxdı.

YAP özünün ikinci qurultayında bu məsələyə birmənalı münasibət bildirdi və beləliklə, siyasi varisliyin yeni düsturu verildi. Bəzilərinin çox bəsit şəkildə təqdim etdiyi və genetik varisliklə qarışıq saldığı Heydər Əliyev – İlham Əliyev xətti əvəzinə, Heydər Əliyev – Yeni Azərbaycan Partiyası – İlham Əliyev triadası irəli sürüldü ki, bu da real siyasi proseslərin mahiyyətini daha düzgün ifadə etməyə imkan yaratdı.

Heydər Əliyev daha çağdaş siyasi proseslərdə bilavasitə iştirak etməsə də, Azərbaycanın siyasi həyatını onsuz təsəvvür etmək mümkün deyil. Bir dövlət başçısı və siyasi lider olaraq onun siyasi kursunu indi prezident İlham Əliyev davam etdirir. Lakin Heydər Əliyevin sağlığında qazandığı iki mötəbər tituldan biri əbədilik olaraq onun adı qarşısında yazılacaqdır. Belə ki, o, dövlət başçısı və siyasi lider olmaqla yanaşı, həm də xalqımızın ümummilli lideri idi, bu gün də belə hesab olunur, sabah da belə olacaqdır!

Hələ Heydər Əliyevin sağlığında «siyasi liderliklə milli liderlik keyfiyyətlərinin bir şəxsdə birləşməsi» unikal hal kimi qeyd olunurdu: «Prezident Heydər Əliyev milli ideologiyamızın əsas prinsiplərini müəyyənləşdirməklə bərabər, onların həyata keçirilməsinə şəxsən özü nəzarət edir ki, bu da onun dövlət başçısı olmaqdan əlavə, bir ***milli lider*** kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşdığına dəlalət edir» (Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, səh. 87). Görünür, ***milli liderliyin*** ömrü daha uzun imiş. Hər bir şəxsi əbədiyyətə ancaq milli maraqlara xidmət qovuşdura bilərmiş!

Bəli, Heydər Əliyev yeni müstəqillik dövründə, keçid mərhələsində milli dövlətçilik ideologiyasının əsasını qoymaqla, həm müstəqilliyin dönməzliyini təmin etmiş, həm də bütün sonrakı proseslərin təməlində dayanmaq səlahiyyəti qazanmışdır.

Heç bir dövlət başçısı, heç bir siyasi lider, hətta heç bir millətçi ziyalı dövlət quruculuğu və idarəçiliyi ilə yanaşı, milli ideologiyanın əsas istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə yeni mükəmməl elmi konsepsiyanın yaradılması və onun həyata keçirilməsi sahəsində Heydər Əliyev qədər məqsədyönlü fəaliyyət və şəxsi əzmkarlıq göstərməmişdir.

Milli ideologiyanı bir qayda olaraq yaradıcı şəxslər, milli ziyalılığın təmsilçiləri, alimlər, filosoflar, yazıçılır formalaşdırır və inkişaf etdirirlər. Siyasətşünaslar, siyasi liderlər və dövlət başçıları olsa-olsa ancaq milli ideologiyanın bir komponenti olan milli dövlətçilik konsepsiyasının işlənib hazırlanmasında iştirak edirlər. Milli-mənəvi dəyərlərin də dövlət quruculuğu və sosial-iqtisadi inkişaf strategiyası ilə yanaşı, ümummilli inkişaf strategiyasına, milli ideologiyanın strukturuna daxil edilməsi üçün bir qayda olaraq milli ziyalılar dövlət başçısına, siyasi rəhbərliyə təsir göstərməyə çalışırlar.

Azərbaycanda isə bu proseslərin mənzərəsi xeyli dərəcədə fərqli olmuşdur. Ziyalılarımızın milli tərəqqi prosesində rolunu azaltmadan və onların milli heysiyyatına toxunmadan qeyd etməliyik ki, bizdə milli dəyərlər uğrunda mübarizənin önündə çox vaxt dövlət başçısı özü getmiş və əksinə, ziyalılarımızı da bu istiqamətdəki fəaliyyətə səfərbər etməyə çalışmışdır. Ona görə yox ki, Azərbaycan ziyalıları millətini az sevirlər. Sadəcə olaraq, Heydər Əliyev millətı sevməyin, millətə xidmətin yüksək ali nümunəsini, yollarını və üsullarını hətta alimlərimizdən, yazıçılarımızdan da yaxşı mənimsədiyinə görə təşəbbüsü həmişə o özü göstərmişdir. O öz konseptual çıxışlarında istiqamət vermək, yol göstərməklə kifayətlənməmiş, hətta rəsmi sərəncamlarla, xüsusi qərarlarla böyük milli-mədəni abidələrimizin fiziki və mənəvi cəhətdən restavrasiyasına, milli yaddaşın bərpa olunmasına, milli köklərə qayıdışın sürətləndirilməsinə rəvac vermişdir.

Heydər Əliyev taleyin Azərbaycan xalqına bəxş etdiyi fövqəladə, əvəzedilməz bir şəxsiyyət idi. Bu gün onun yeri görünür və həmişə də görünəcəkdir. Lakin «yerin görünməsi» heç də onsuz keçən müddətdəki çətinliklər, onsuz həll oluna bilməyən problemlər mənasında başa düşülməməlidir. Belə baxış məsələyə səthi yanaşmanın, terminlərin qarışıq salınmasının nəticəsi olardı. Düzdür, ənənəvi mənada «yerin görünməsi» əslində kiminsə yoxluğundan dolayı ortaya çıxır. Lakin indi Azərbaycanda

gedən proseslər heç də Heydər Əliyevsizlik sindromu yaratmır, əksinə, onun varlığına, bütün hadisələrdə iştirakına dəlalət edir. Bu proseslər onun bilavasitə cismani iştirakı olmasa da, ideyalarının gerçəkləşməsi, irəli sürdüyü strateci kursun reallaşması istiqamətində gedir.

Bu gün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Heydər Əliyev siyasi kursunu sadəcə saxlamaqla kifayətlənməyərək, onu yeni şəraitin tələblərinə uyğun surətdə, yaradıcılıqla inkişaf etdirir. Keçən bir il ərzində ölkəmizdə ictimai həyatın bütün sahələrində böyük uğurlar əldə edilmişdir. Əlbəttə, İlham Əliyevin uğurlarının səbəbi heç də təkcə onun öz fəaliyyətini bünövrəsi və postamenti Heydər Əliyev tərəfindən qoyulmuş bir zəmin üzərində qurması ilə bağlı deyildir. Burada ikinci mühüm amil də özünü göstərir ki, bu da İlham Əliyevin bir siyasi lider kimi yeni iqtisadi münasibətlər şəraitində yetişməsi ilə əlaqədardır.

İndi təkcə Azərbaycanda deyil, bütün MDB məkanında yeni ictimai inkişaf fazasına keçid başlanır. Gürcüstanda və Ukraynada baş verən «məxməri inqilab» prosesləri heç də təsadüfi olmayıb, ictimai-siyasi inkişafın daxili məntiqindən doğmaqla ikinci fazaya keçid zərurətini ifadə edir. Bu prosesin mahiyyətini dərk edə bilməyən bəzi üzdəniraq qruplar onun Azərbaycanda da baş verəcəyinə ümid bəsləyirlər. Lakin anlamırlar ki, qatar artıq getmişdir. Azərbaycanda bu hadisə keçən ilin oktyabrında artıq baş vermiş və inkişafın ikinci fazasına keçid başlanmışdır.

Əgər keçidin birinci fazası kommunist ideologiyasından imtina edilməsini və sosialist iqtisadi münasibətlərindən *qarışıq bazar iqtisadiyyatına* keçilməsini nəzərdə tuturdusa, ikinci faza həmin bu sinkretik ictimai-iqtisadi sistemin bazasında Qərb standartlarına uyğun islahatların davam etdirilməsini və vətəndaş cəmiyyətinə keçilməsini nəzərdə tutur. Yəni birinci keçid dövründə sosializm cəmiyyətinin, dövlət iqtisadiyyatının, kommunist ideologiyasının xüsusiyyətlərini yaxşı bilmək və yeni iqtisadi münasibətlərə sosializmdə əldə olunmuş nailiyyətlərin dağıdılmasına yol vermədən keçmək tələb olunurdusa, indi bazar iqtisadiyyatının özünü yaxşı mənimsəmək və vətəndaş cəmiyyətinə keçidi təmin etmək üçün onun açdığı imkanlardan istifadə etmək tələb olunur. Prezident İlham Əliyev məhz belə bir missiyanı öz üzərinə götürmüşdür.

Bütün MDB məkanında birinci keçid prosesi yalnız o hallarda uğurla yekunlaşa bildi ki, ölkəyə sovet dövründə rəhbərlik etmiş şəxslər, sosia-

list dövlətçilik sistemini yaxşı mənimsəmiş insanlar başçılıq etdilər. O ölkələrdə ki, hakimiyyətə heç bir dövlətçilik təcrübəsi olmayan «yeni qüvvələr» gəldi, orada iqtisadiyyatın və dövlətçiliyin sürətli deqradasiyası getdiyindən, xalq məcbur olub keçmiş sovet liderlərini yenidən hakimiyyətə dəvət etdi. Qazaxıstanda və Orta Asiya respublikalarında müstəqil dövlət quruculuğu keçmiş sovet liderlərinin rəhbərliyi ilə həyata keçirildiyindən itkilər az oldu. Gürcüstanda və Azərbaycanda isə xalq hərəkatı dalğasında hakimiyyətə gələn «yeni qüvvələr» keçid prosesinin mahiyyətini dərk edə bilmədikləri üçün böyük çətinliklərlə üzləşdilər. Nə yaxşı ki, o vaxt Heydər Əliyev yenidən siyasi səhnəyə qayıtdı və ictimai-iqtisadi prosesləri vaxtında düzgün məcraya yönəldə bildi.

Şəxsiyyətin böyüklüyü subyektiv fantaziyanın miqyası ilə deyil, zamanın tələbatını və obyektiv inkişaf tendensiyalarını vaxtında dərk edərək milli maraqları bu zəminə keçirmək bacarığı ilə ölçülür. Heydər Əliyev də, Şevardnadze də, Nazarbayev də zamanı düzgün dəyərləndirdikləri və keçid dövrünün nəbzini tuta bildikləri üçün öz xalqları qarşısında böyük tarixi xidmət göstərmiş oldular.

Lakin Heydər Əliyev dühasının fövqəladəliyi onda idi ki, o, təkcə öz dövrünün nəbzini tutmaq və ölkəni ictimai-siyasi və sosial-iqtisadi keçid prosesinin birinci fazasından uğurla çıxarmaq missiyası ilə kifayətlənməyərək, vaxtında ikinci keçid fazasının da təməl daşlarını qoya bildi və ikinci fazada ölkəyə rəhbərlik edə biləcək yeni siyasi güc mərkəzini də özü yaratdı. Bəzi qonşu ölkələrdən fərqli olaraq Azərbaycanda yeni iqtisadi münasibətlər sisteminin üstqurumu kimi ortaya çıxan siyasi dünyagörüşü və yeni tipli siyasi lider müxalifətdə deyil, iqtidar partiyasının öz daxilində yetişdi. Şübhə etmirik ki, zaman keçdikcə Heydər Əliyev siyasi uzaqgörənliyinin bu məqamı da elmi nəzəri təhlil süzgəcindən keçərək öz həqiqi qiymətini tapacaq, layiqincə dəyərləndiriləcəkdir.

İlham Əliyevin siyasi platformasını, seçki kampaniyasında çıxışlarını və il yarımlıq prezidentlik fəaliyyətini təhlil edərkən onun qələbəsini təmin edən altı məqamı xüsusi qeyd etmək olar:

Birincisi, – İlham Əliyev başqa «siyasətçilər» kimi real ictimai-siyasi proseslərə kənardan boylanmırdı; o, artıq bu proseslərin içərisində idi və öz siyasi liderlik keyfiyyətlərini və idarəçilik qabiliyyətini bir neçə istiqamətdə əməli işlə göstərmişdi. O, həm iqtisadiyyatımızın ən mühüm

sahələrindən birinə rəhbərlik etmiş, həm siyasi mövqelərin aşkar mübarizə sahəsi olan AŞPA-da Azərbaycanı yüksək səviyyədə təmsil etmiş, həm bir deputat kimi öz seçicilərinin rəğbətini qazanmış, xalqla bağlılığını və xalqa arxalandığını işdə-əməldə sübut etmişdi. Rəhbərlik etdiyi istənilən sahədə, hətta əvvəllər siyasi və iqtisadi amil kimi heç kimin diqqətini cəlb etməyən idman sahəsində də dönüş yaradaraq, onu dövlətçilik və beynəlxalq nüfuz amilinə çevirməsi İlham Əliyevin qeyri-adi istedadından xəbər verirdi. Bir sözlə, İlham Əliyev hələ prezident seçkilərindən əvvəl də artıq real siyasi qüvvə idi.

İkincisi, – Heydər Əliyev kursunu davam etdirmək mövqeyi:

a) sabitliyin saxlanmasına təminat verməsi;

b) insanların «gördüyünü qoyub, görəcəyə getmək» istəməməsi;

c) idarəçilik təcrübəsi olan komandaya istinad etməsi.

«Siyasi kursun saxlanması» ideyası ilə əlaqədar belə bir məqamı da qeyd etmək istərdik ki, «kursun saxlanması» heç də hər hansı bir dəyişikliyin olmasını istisna etmir. Əksinə, başqa bir şərait, başqa bir zaman, başqa bir siyasi və iqtisadi situasiya üçün səmərəli olan idarəçilik üsulları vaxtaşırı olaraq yeni zamanın, yeni situasiyanın tələblərinə uyğun olaraq dəyişdirilməsə, inkişafa nail olmaq mümkün deyil.

Heydər Əliyevin siyasi kursu onun hakimiyyətinin ilk illərində daha çox dərəcədə ictimai-siyasi sabitliyin təmin olunmasına, dövlət çevrilişləri cəhdlərinin aradan qaldırılmasına, silahlı qruplaşmaların tərk-silah edilməsinə yönəldilmişdisə, sonrakı mərhələ daha çox demokratik dəyərlərin, söz və mətbuat azadlığının inkişafına, beynəlxalq miqyasda Azərbaycanın siyasi mövqeyinin möhkəmləndirilməsinə, onun beynəlxalq nüfuzunun artmasına yönəlmişdir. Yeni iqtisadi münasibətlərə keçid və bu münasibətlərə adekvat olan yeni ictimai şüurun formalaşması, – bütün bunlar bu siyasi kursun yeni keyfiyyətli mərhələsi üçün zəmin hazırlamışdır və məhz belə bir zamanda, keçid dövrünü qət edərək yeni stabil inkişaf mərhələsinə qədəm qoyduğumuz bir vaxtda, hakimiyyətə gələn İlham Əliyevin qarşısında duran vəzifə məhz zamanın tələbinə uyğun idarəçilik üsuluna və yeni dəyərlər sisteminə keçidin təmin edilməsidir. Və onun bu sınaqdan da uğurla çıxacağına heç kim şübhə etmir.

Prezident seçkilərinin keçirildiyi ilk gündən Azərbaycanda yenə də sabitliyin pozulmasına yönəlmiş meyllərin müşahidə olunması, «dövlət çev-

rilişi illüziyası» və müvafiq dövlət orqanlarının ictimai-siyasi sabitliyin təmin olunması istiqamətində atdığı qətiyyətli addımlar Heydər Əliyev siyasi rejiminin ilk mərhələsini xatırladır. Doğrudanmı yeni seçilmiş prezident hər şeyi sıfırdan başlamalı, yenidən həmin mərhələləri qət etməli olacaqdı?

Xeyr, bütün bunlar sadəcə görüntü idi. Bütün bunlar bir qrup adamın 1993-cü ilin ab-havasını yaratmaq üçün göstərdiyi son cəhd, uğursuz bir təşəbbüs idi. Lakin silahlı qarşıdurma olmadı və ola da bilməzdi, çünki silahlı qruplaşmalar Heydər Əliyev hakimiyyətinin ilk illərində artıq ləğv edilmişdi. Ölkəni iğtişaşlar bürümədi və bürüyə də bilməzdi, çünki ictimai şüur vaxtında düzgün istiqamətləndirilmişdi.

Tarixin öz inkişaf mərhələləri var və onu geriyə qaytarmaq sadəcə olaraq mümkün deyil. Lakin 1989-1993-cü illərdəki xaosdan gözü qorxmuş ictimaiyyət 2003-cü ildəki bu lokal hadisəyə qlobal miqyaslı bir cavab reaksiyası göstərdi. Demək olar ki, hamı səfərbər oldu, bütün xalq demokratiyanın müdafiəsinə qalxdı. Bu reaksiya bir növ 1994-cü ilin oktyabrında Heydər Əliyevin xalqa müraciətinə göstərilən reaksiyanı xatırlatdı. Xalq yenə də Heydər Əliyev siyasi kursunu dəstəkləmək əzmində olduğunu göstərdi. Lakin bu reaksiya hadisənin özünə adekvat deyildi. Çünki xalq öz sözünü əslində bir gün əvvəl demişdi; ayağa qalxmaqla yox, qəzəbini ifadə etməklə yox, öz siyasi iradəsini sakit tərzdə bildirməklə, demokratik yolla, seçki vasitəsilə izhar etmişdi!

Üçüncüsü, – sadəcə vədlər vermək deyil, real iş görmək mövqeyi.

Seçki prosesi təkcə obyektiv meyarlar baxımından üstün olmalı deyil, eyni zamanda seçki kampaniyasının düzgün qurulmasının, ictimai şüurun səviyyəsinin, kütlə psixologiyasının və s. məqamların nəzərə alınmasını tələb edir. Bəzi müxalifət liderlərinin elmi əsası olmayan vədlər verməsi, xüsusən maaşların artırılması istiqamətində böyük dəyişikliklər vəd etməsi, əlbəttə, kütlə psixologiyasına ünvanlanmışdı. Lakin İlham Əliyev ancaq, doğrudan da, həyata keçirilməsini planlaşdırdığı, elmi və praktik cəhətdən real olan fəaliyyət proqramı ortaya qoydu ki, bu da əhalidə ona olan inamı daha da gücləndirdi. İctimai şüur səviyyəsinin 1992-ci ilə nisbətən xeyli yüksəlməsi daha vədlərlə spekulyasiyanın baş tutmasına imkan vermədi. Azərbaycan xalqının milli mentaliteti elədir ki, onu halal zəhməti ilə pul qazanmaq imkanı daha çox cəlb edir. Və bu baxımdan İl-

ham Əliyevin yeni müəssisələr tikilməsi, xarici investisiyanın daha geniş miqyasda cəlb olunması və 600 min iş yeri açılması haqqında dedikləri əhalidə böyük razılıq hissi ilə qarşılandı. Ötən müddət bu deyilənlərin sadəcə vəd deyil, real fəaliyyət proqramı olmasını təsdiq etdi. Qısa bir vaxtda 110 min iş yerinin açılması yeni rəhbərliyin ən böyük uğurlarından biridir və uğurlar təkcə bundan ibarət deyil. Sosial-iqtisadi inkişaf strategiyası, sahibkarlığın inkişafı, regionlarda yeni infrastruktur layihələrinin həyata keçirilməsi, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəblərin kompüterləşdirilməsi ilə bağlı addımlar bu sırada xüsusi qeyd edilməlidir.

Dördüncüsü, – sərbəstlik dərəcəsinin artması və lokal idarəetmədə yaradıcılıq meydanının genişlənməsi.

Şübhəsiz ki, İlham Əliyev siyasi məktəbinin digər davamçılarından təkcə statusuna görə deyil, həm də öz liderlik keyfiyyətləri ilə seçilir. Gənc olmasına baxmayaraq, geniş dünyagörüşü, artıq kifayət qədər təcrübəyə malik olması və atasından gələn bir sıra fərdi keyfiyyətləri onu hamıdan fərqləndirir. Lakin Heydər Əliyev dövründəki əlçatmazlıq sindromu, müəllim-tələbə münasibətlərindən irəli gələn mənəvi-psixoloji baryer görüldüyünə görə sərbəstlik dərəcəsi artmış və fərdi yaradıcılıq, kollegiallıq üçün daha münbit şərait yaranmışdır.

Beşincisi, - İlham Əliyevin məhz yeni dövrün yetirməsi olması, ruhən yeni iqtisadi münasibətlərlə bağlılığı keçid dövründən sonrakı mərhələdə ona daha böyük uğurlar qazanmaq şansı verir.

Heydər Əliyev ona məxsus olan qeyri-adi istedad, yeniliyi duymaq, dövrün nəbzini tutmaq kimi keyfiyyətlərə malik olsa da, hər halda əvvəlki dövrdə, əvvəlki idarəetmə sistemində, əvvəlki iqtisadi münasibətlər şəraitində yetişib formalaşmışdı. Yeni dövrün tələblərinə uyğunlaşmaq və dövləti, cəmiyyəti bu istiqamətdə yönəltmək üçün Heydər Əliyev keçmiş idarəçilik vərdişləri üzərində qələbə çalmaq, iş təcrübəsini daim yeniləşdirmək sahəsində böyük əzm göstərirdi və zahirən hiss olunmasa da bu yol böyük daxili dramatizmi olan bir yol idi. Bu qeyri-adi şəxsiyyət həm zaman üzərində, həm uzun müddət sədaqətlə xidmət etdiyi bir ideologiya üzərində qələbə çalmaq üçün böyük intellektual və iradi enerji sərf edirdi. İlham Əliyevin isə belə bir daxili mübarizəyə, öz üzərində qələbə üçün enerji sərfinə ehtiyacı yoxdur. Çünki o, artıq yeni zamanın, yeni ic-

timai-siyasi şəraitin yetirməsidir. Onun siyasi fəaliyyət təcrübəsi artıq yeni beynəlxalq münasibətlər və yeni iqtisadi sistem dövrünə təsadüf edir. Və İlham Əliyev bu yeni mühiti daxilən, içəridən mənimsəmək imkanına malikdir. Digər tərəfdən, İlham Əliyevlə bərabər bu yeni dövrün məhsulu olan bütöv bir komanda da yetişir ki, onlara bütün fəaliyyət meqamlarını diktə etməyə, hər böyük və kiçik məsələdə bələdçi olmağa, yuxarıdan tapşırıq verməyə xüsusi ehtiyac olmaya bilər. Yəni, hər kəs öz sahəsində daha çox müstəqillik və yaradıcılıq göstərə bilər ki, bu da yeni idarəçilik sisteminə keçid üçün mühüm şərtdir.

Burada belə bir amil də nəzərə alınmalıdır ki, yeni dəyərlər sisteminə keçidi təmin etməli olan adamlar arasında son illərdə Avropa ölkələrində, ABŞ-da təhsil almış və Qərb dəyərlərini bilavasitə mənimsəmiş gənclərin olması keçid dövrünün ikinci fazasını daha tez həyata keçirmək şansı verir.

Müasirlik dedikdə, Avropa dəyərləri dedikdə demokratikləşmə, plüralizm və s. ilə yanaşı həm də peşəkarlığın ön plana çəkilməsi, işçilərin siyasi fəallıq görüntüsünə görə yox, məhz peşəkarlıq xüsusiyyətlərinə görə seçilməsi nəzərdə tutulur.

Heydər Əliyev keçid dövrünün bütün ağırlığını öz üzərinə götürdü, ölkəni labirintlərdən keçirdi və artıq geniş magistrala qədəm qoyduğu bir vaxtda onu yenidən labirintlərə salmamaq üçün bu siyasi kursun sükanını ən çox layiq bildiyi şəxsə etibar etdi.

Heydər Əliyevin uzun müddət ərzində, gərgin mübarizə şəraitində əkdiklərini biçmək məqamı gəlib çatdığı bir vaxtda, yenidən şumlamaq və yeni qayda üzrə əkin aparmaq istəyənlərə xalqın etiraz etməsi çox təbii idi. Çox məşəqqətlər çəkmiş bu xalqın indi öz əməyinin bəhrəsini görməyə mənəvi haqqı var. İndi qurulanlar dağıdılmasa iqtisadiyyatın ildənilə inkişaf edəcəyini, qeyri-neft sektorunun genişləndirilməsi və yeni iş yerlərinin açılmasının reallığa çevrildiyini görən xalq bu sabit, ardıcıl inkişaf yolunun davam etdirilməsini istəyirdi və bu istək İlham Əliyevin platforması ilə üst-üstə düşürdü.

Xalq öz düzgün seçimini edə bildi və artıq magistrala çıxmış iqtisadi inkişafın davam etdirilməsi üçün rəvac verdi.

Altıncısı - milli həmrəylik, milli birlik üçün yaranmış ictimai-siyasi şəraitin, imkanların reallaşdırılması üçün də məhz İlham Əliyevin siyasi

mövqeyi böyük imkan açır. Əlbəttə, öz siyasi platformasını bilavasitə vətəndaş, həmrəyliyi üzərində quran partiyalar və namizədlər də var idi. Lakin təkcə bu ideya dövlət idarəçiliyi üçün kifayət olmadığından, bu məqamı öz platformasına onlarca mühüm komponentdən biri kimi daxil edən İlham Əliyevin mövqeyi məhz bu məsələdə də daha inandırıcı idi. Və xalq İlham Əliyevə səs verərkən həm də birliyə, həmrəyliyə səs verdi. Təbii ki, bu həmrəyliyə nail olmaq üçün qarşı tərəfdən də adekvat addımlar atılmalı, radikal mövqelərdən geri çəkilərək konstruktiv tənqidi mövqeyə keçilməlidir. Biz "tənqidi" sözünü ona görə xüsusi qeyd edirik ki, bəzən mətbuatda "konstruktiv müxalifət" anlayışı mahiyyətinə adekvat olmayan mənada işlədilir.

Demokratik cəmiyyətdə müxalifətin olması dövlət quruculuğunun, iqtisadi quruculuğun, xarici və daxili siyasətin alternativ variantlarını işləyib hazırlamaqla həqiqi siyasi plüralizm atmosferasına, insanlar üçün seçim imkanının yaranmasına şərait yaradır. Yəni, hakimiyyətə gəlmək istəyən siyasi qüvvəyə öz mövqeyini ancaq qarşı tərəfin tənqidi (hətta təhqiri) üzərində deyil, özünün pozitiv fəaliyyəti proqramı əsasında qurur.

Bu gün destruktiv yox, konstruktiv, total yox, lokal müxalifətə ehtiyac vardır. Yəni, bütövlükdə hakimiyyətə, prezidentə və onun kursuna qarşı, yox, ayrı-ayrı sahələr üzrə həyata keçirilən proqramlara alternativlərin hazırlanması, yeni ideyaların, yeni quruculuq modellərinin üzə çıxması çox vacibdir. Heydər Əliyevin dediyi kimi, hakimiyyətin də, iqtidar partiyasının da əsas inkişaf mənbəyi fikir plüralizmidir: "Yeni Azərbaycan Partiyası o halda həqiqi sağlam, mübariz və doğrudan da, görkəmli partiya olar ki, onun daxilində fikir mübadiləsi getsin, fikir toqquşmaları getsin, sağlam prinsiplər əsasında mübarizə getsin". (Heydər Əliyev, Müstəqillik yolu, B., 1997, s. 25).

Lakin burada bir paradoks, bütün dövrlərin ən çətin məsələsi ortaya çıxır. Belə ki, bir tərəfdən məlumdur ki, dövlətçiliyə xidmət edən sağlam fikirlərə meydan açmaq üçün subyektiv, qərəzli, şəxsi ambisiyalara xidmət edən fikirlərin qarşısı alınmalıdır. Lakin sağlam ideyanı xəstə təxəyülündən fərqləndirmək heç də asan məsələ deyildir. Tarix göstərir ki, fikir dünyasında "təmizləmə əməliyyatı" nə qədər zərif şəkildə həyata keçirilsə də, bəzən yeni, gərəkli ideyalar da ənənəvi düşüncə tərəfindən məqbul sayılmadığına görə, "standartlar"dan kənara çıxdığına görə kəsi-

lıb atılır və ya mübarizə meydanına sadəcə buraxılmır. Məhz buna görə də, senzuranın ləğvi fikrə, ideyaya, əqidəyə qarşı qoyulan hər cür qadağanın götürülməsi demokratiyanın ən mühüm amili sayılır. Azərbaycan bu istiqamətdə artıq böyük addımlar atmışdır. Heydər Əliyevin demokratiyanın inkişafı istiqamətində atdığı ən böyük addımlardan biri məhz senzuranın götürülməsi, fikir, söz, mətbuat azadlığıdır. Lakin bu azadlıqdan suiistifadə də qaçılmaz bir haldır. Həddini aşdıqda onu məhdudlaşdırmaq sözləri də başa düşüləndir. Ən çətini "qızıl orta"nı tapmaqdır.

Söz, fikir azadlığı şəraitində münsif rolunu kim oynamalıdır? Hansı fikrə yaşıl, hansına qırmızı işıq yandırmaq məsuliyyətini kim üzərinə götürə bilər? Demokratik cəmiyyətlərdə bu missiyanı xalq öz üzərinə götürür. Lakin bunun üçün xalqın yüksək inkişaf səviyyəsi, yüksək siyasi mədəniyyət, ictimai şüurun bu missiyaya adekvatlığı tələb olunur. Azərbaycanda ictimai şüur müstəqillikdən başlanan qısa tarixi bir müddət ərzində belə bir səviyyəyə yüksələ bilmişdirmi? Seçki ərəfəsində ən böyük sual bundan ibarət idi. Hər şey xalqın ağı qaradan seçmək, reallığa söykənən fikirləri illüziyadan və boş vədlərdən ayırmaq səriştəsindən asılı idi. Müstəqillik illərində xalqın dövlətçilik təfəkküründə necə, nə dərəcədə inkişaf etməsi ictimai şüurun real səviyyəsi həlledici amilə çevrilmişdi. Sağlam siyasi kursu qaragüruhdan fərqləndirmək üçün xalqın yüksək siyasi mədəniyyət, dövlətçilik təfəkküru tələb olunurdu. 2003-cü ildəki prezident seçkiləri və bu seçkilərdə xalqın nümayiş etdirdiyi siyasi şüurluluq Heydər Əliyev fəaliyyətinin daha bir aspektdə təntənəsinə dəlalət etdi.

Belə ki, Heydər Əliyev Azərbaycanda sadəcə dövlət qurmaqla kifayətlənmiş, dövlətçilik ənənəsi formalaşdırılmış, milli dövlətçilik ideologiyası yaratmış və bununla da kifayətlənməyərək dövlətçilik psixologiyasının da yaradılması sahəsində uğurla addımlar atmışdır. Şüurun psixoloji qatının məntiqi təfəkküru qatına nisbətən daha uzunömürlü olması nəzərə alınarsa, o vaxt Heydər Əliyevin təkcə öz dövrü üçün yox, həm də gələcək üçün çalışdığı üzə çıxır.

Dövlətçilik hissini təkcə bu günü deyil, həm də gələcəyi düşünmək, övladlarımızın sabahı naminə yaşamaq istəyi ilə əlaqələndirən Heydər Əliyev xalqa müraciət edərək deyirdi: "Siz gələcək övladlarınızı, nəvələrinizi də düşünməlisiniz ki, onlar necə yaşayacaqlar. Əgər biz bu dövləti,

demokratik, hüquqi dövləti, bazar iqtisadiyyatı yolu ilə gedən dövləti qursaq - və bunu qurmalıyıq - Azərbaycanın iqtisadi potensialı o qədər böyükdür ki, onu beləliklə hərəkətə gətirib Azərbaycanın iqtisadiyyatını inkişaf etdirəcəyik və ölkəmizin hər bir vətəndaşına normal, firavan həyat sürməyi təmin edə biləcəyik. Bu bizim hamımızın vəzifəsidir. Təkcə Prezidentin yox, hər bir vəzifəli şəxsin vəzifəsidir, hər bir vətəndaşın vəzifəsidir. Çünki bu ölkə bizimkidir, bu xalq, bu dövlət bizimkidir".

Dövlətçilik ənənəsi insanlara milli özünütəsdiq imkanı verən milli dövlətə münasibətin tarixən qərarlaşmış və əsasən şüurlarda yaşayan, milli şüurun başlıca tərkib hissəsi olan mənəvi-tarixi bir prosesdir. Bu proses, bu hadisə öz maddi təcəssümünü ayrı-ayrı konkret dövlət nümunələrində, dövlət idarəçiliyi formalarında tapmaqla yanaşı, həm də ümumiləşmiş rəmzi təzahürlərə ehtiyac hiss edilir. Tək özü üçün yaşamayıb, xalqa, millətə bağlı olmaq, onun ağrı-acısını bölüşmək və nailiyyətlərinə sevinmək, ümummilli inkişaf naminə fəaliyyət göstərmək və öz şəxsi səadətini ümummilli səadət kontekstinə salmaq, millət və dövlətlə qaynayıb-qarışmaq fərddən vətəndaşa çevrilməyin mühüm şərtləridir.

Heydər Əliyev öz həyatı və fəaliyyəti ilə təkcə dövlətə rəhbərliyin yox, həm də vətəndaşlığın yüksək nümunəsini yaratdı və bu şəxsi nümunə bu gün də Azərbaycan xalqının böyük quruculuq işlərinə işıq salır.

AYDIN MİRZƏZADƏ
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEV KİMİ

XX əsrin dünyanın böyük siyasətçilərindən sayılan Prezident Heydər Əliyevin siyasi baxışlarına sağlığında olduğu kimi, indi də böyük maraq var. Cəmiyyətin bu marağının onun uzaqgörən siyasətindən, məsələlərə universal yanaşmağı bacarmağından, inkişafı təmin edən mexanizmi qurmaq metodologiyasından irəli gəldiyi açıq görünür.

Onun dünyasını dəyişməsindən sonrakı cəmi bir il ərzində dünyanın beş ölkəsində - Türkiyədə, Ukraynada, Özbəkistanda, Rumıniya və Moldovada onun möhtəşəm heykəlləri ucaldıldı. Daha üç ölkədə - Rusiya, Qazaxıstan və Gürcüstanda eyni təntənəyə ciddi hazırlıq görülür. Belə ölkələrin sayının artacağı istisna deyil. Çünki, dünyanın müxtəlif ölkələrində Heydər Əliyevin siyasi irsinə maraq həddən artıq böyükdür. Onun tərcümeyi-halı öyrənilir, fəaliyyəti ciddi analiz edilir, tətbiq etdiyi siyasi texnologiyalar nümunə kimi götürülür.

İndiyə kimi heç bir kiçik ölkənin prezidentinin siyasi fəaliyyəti öz ölkəsindən kənarda belə böyük maraq doğurmayıb. Hətta dost Türkiyədə nüfuzlu siyasi partiyaların birinin sədrliyinə namizədlərdən biri sədr seçilərsə partiya siyasətinə Atatürk baxışları ilə yanaşı, Heydər Əliyev baxışlarını da gətirəcəyini vəd etmişdi.

Azərbaycan daxilində isə o bizlər üçün həm şərəfi keçmişimiz, həm də inamlı gələcəyimizdir. İndiki nəslin Heydər Əliyevin müasiri olması onun böyüklüyünü dərk etməyə, onu qiymətləndirməyə imkan verir. Eyni zamanda cəmiyyət bu dahi azərbaycanlının böyüklüyünü zaman keçdikcə daha dərindən dərk etməyə başlayır.

Heydər Əliyevin hər bir addımı öz dövrü üçün çox cəsarətli bir yenilik idi. O, sanki həmin zamanı artıq bir dəfə yaşamışdı, onunla tanış idi. Ona görə də dövrün hadisələrinə hamıdan çox hazır idi. Bununla onun əleyhdarları da razılaşmalı olurdular.

O nadir insanlardan idi ki, nəinki zamanın nəbzini tuturdu, hətta onun necə vurmağına diqtə də edə bilirdi.

Zamanı və dövrü həddən artıq yaxşı anlayırdı. Hətta onun üçün yeni olan situasiyaya düşdükdə belə qısa bir müddətdə ora uğurla adaptasiya oluna bilirdi. Situasiyanı ictimai xeyirlilik səmtinə çevirmək onun fəaliyyətinin əsasını təşkil edirdi. Sanki onun üçün bu dünyada çətin və mümkün olmayan bir iş yox idi. Elə ona görə də o hər kəslə onun dilində danışmağı çox yaxşı bacarırdı.

Zamanla sərbəst hərəkətinin iki səbəbdən yarandığını güman etmək olar. Birincisi, o həddən artıq diqqətli idi, müşahidəçilik, nəticə çıxartmaq, zamanın axarını görmək qabiliyyəti onda anadangəlmə idi. Həyatının müxtəlif dövrlərində onun birlikdə təhsil almış və ya işləmiş şəxslər onun düzgün qərarlar qəbul etmək qabiliyyətini xatırlayırlar. Onun hər hərəkəti tarixə düşəcək addım kimi yada salınır. Bir çox hallarda bu addımlar şəxsən onun həyatı və karyerası üçün təhlükəli olsa da, o onları atmaqdan çəkinmirdi. Nəinki zamana uyğun hərəkət edirdi, hətta gələcəkdə inkişafın hansı istiqamətdə gedəcəyini də ümumən göstərə bilirdi.

Zamanla sərbəst münasibətinin ikinci səbəbi isə bizcə, ondadır ki, o zamana kənardan baxa bilirdi. Onun nəzərləri daima tarixin dərinliklərinə yönəlir, oradan bugünkü yaşayışımız üçün çox gərəkli ola bilən inciləri görə bilirdi.

Onun tənqid etmədiyi yeganə sahə tariximiz idi. O, tariximizlə fəxr edirdi, hər dövründə nə isə diqqətəlayiq bir məsələ tapırdı, onun öyrənilməsinin vacibliyini vurğulayırdı. Cəmiyyət tarixə onun gözləri ilə baxdıqda bu günümüzü çox gözəl başa düşür, müstəqilliyimizin qorunmasının vacibliyini dərk edirdi.

O, həmçinin tarixin olduğu kimi öyrənilməsinin tərəfdarı idi. Onun həyat fəlsəfəsində tarixə toxunmaq, onu təhrif etməkdən heç söhbət də gedə bilməzdi.

Heydər Əliyev keçmişi düzgün görə bildiyi kimi, gələcəyə də baxa bilirdi. "Uzaqgörənlik" sözü onun bu qabiliyyətini xarakterizə etmək üçün çox zəif bir anlayışdır. Onun üçün vacib olan bugünkü proseslərin gələcəkdə inkişaf istiqamətləri idi. Ona görə də onun apardığı siyasətin əsas nəticəsi dövründən daha çox qat-qat böyük zaman kəsiyindən sonra göstərə bilirdi. 70-ci illərdəki iqtisadi inkişaf, azərbaycanlı gənclərdən hərbi kadrların hazırlanması, milli elm potensialımızın gücləndirilməsi, mədəniyyətimizə qayğının əks-sədası artıq müstəqillik dövründə özünü göstərməyə başladı.

Bir çox addımlarını məqsədli surətdə gələcəyə yönəltdiyini dahi siyasətçi sonradan dəfələrlə etiraf etmişdi.

Heydər Əliyev şəxsiyyətində nəzərə çarpan ən güclü cəhət onun Azərbaycanı ürəkdən sevməsi idi. O, bu sevgini bütün varlığı ilə göstərməyə və realizə etməyə çalışırdı. Azərbaycan onun üçün həyatının mənası, hərəkətlərinin stimulu idi. Onun bütün müsbət cəhətləri sanki bundan qidalanır, ona söykənirdi.

Onun bu dünyaya Azərbaycana sevgidə oğul nümunəsi göstərmək üçün gəldiyini iddia edənlər də var.

O, dəfələrlə vurğulayırdı ki, azərbaycanlı olmağı ilə fəxr edir. Azərbaycanı bütün ölkələrdən üstün, xalqımızın potensialının digərlərindəkindən zəngin olduğunu daima qabardırdı. Ancaq bunu elə ustalıqla, elə ağılla edirdi ki, digərləri bundan incimir, əksinə, onun üslubundan yararlanmağa çalışırdılar.

Heydər Əliyevin torpağına, xalqına belə güclü məhəbbətinin haradan yaranmasının kökləri yəqin ki, həmişə araşdırılacaq. Heç olmasa ona görə ki, Heydər Əliyev yanaşmasına ehtiyac həmişə olacaq və hələ çoxları az və ya çox şəkildə ona oxşamağa çalışacaqlar. Əlbəttə, bu oxşama ürəkdən gələcəksə, xalqımız bundan ancaq udacaqdır.

Heydər Əliyev istedadının kökləri hələ onun sağlığı dövründə geniş araşdırılmağa başlandı. Bir çoxları bu məsələdə ailə, nəsil faktoru ilə yanaşı, zamanın sosial sifarişi faktoruna da ciddi yanaşmağı məsləhət bilirlər. Məhz bu səbəbdəndir ki, gələcək Prezidentin hər bir addımı dövrün bəzən dərində gizlənən istəklərinə çox uğurla cavab verirdi. Bir sıra məsələlərin məntiqi nəticəsi isə hətta indi, onun fiziki cəhətcə sıramızda olmadığı dövrdə belə gözümüz qarşısındadır.

Heydər Əliyevin səlahiyyəti çatdığı sahələrdə Azərbaycanın xeyrinə fəaliyyət göstərdiyi hamıya yaxşı məlumdur. Ancaq onun digər sahələr barəsində də müdrikliklə məlumatlı olması, ora da təsir göstərməsi faktları çoxlarına məlumdur. Bəzən isə o, bir sahədəki fəaliyyəti ilə digər sahələrə təsir edə bilirdi. Ən əsası isə onun fəaliyyəti kifayət qədər professional, mütəxəssislərin razılığına səbəb olacaq proses idi.

Bunun ilkin nümunəsi 50-ci illərə, Əliyev Heydər Əlirza oğlunun Sovetlər Birliyinin bel sütununu təşkil edən dövlət təhlükəsizliyi orqanlarında çalışdığı dövrə gedib çıxır. O, çalışdığı idarəyə milli kadrları yığır, milli ruhun güclənməsinə səy göstərirdi. Azərbaycanda idarəçiliyin tamamilə başqa dilin və başqa ruhun təsiri altında olduğu bir dövrdə bu, çətin idi. Bu təşəbbüs gənc DTK zabiti üçün ən gözlənilməz sonluqla nəticələnə bilərdi.

Ancaq cəmiyyətin tələbini hiss edən və onu yerinə yetirməyə cəhd edən Heydər Əliyev onun da yolunu məharətlə tapa bildi. Milli ruhun sirayət etdiyi təhlükəsizlik orqanları artıq 60-cı illərdə milli dirçəliş ideyaları ilə çıxış edən ziyalılarımızın siyasi müttəfiqlərinə çevrildilər. Heç də təsadüfi deyil ki, Bəxtiyar Vahabzadənin, Xəlil Rza Ulutürkün, Məmməd Arazın, Anarın bir sıra güclü protest ruhlu əsərləri məhz həmin dövrdə yazılmışdı.

Heç də təsadüfi deyil ki, həmin ədiblərin heç biri "dissident" deyə DTK zindanlarına salınmadı. Çünki, xalqın oralardan ilk növbədə oranın milli ruhlu rəsmiləri qoruya bildi.

DTK çərçivəsində yeni ab-havanın ən yüksək zirvəsi 1967-ci ildə respublika DTK sədri təyin edilmiş 44 yaşlı general Heydər Əliyevin ziyalılarla qurduğu yeni münasibət oldu. Onun milli ruhun kükrədiyi (əslində kükrədilməsinə şərait yaradıldığı) Azərbaycan Dövlət Universiteti professor-müəllim heyəti qarşısında doğma Azərbaycan dilində çıxışları artıq bir çox məsələlərdən xəbər verirdi.

Heydər Əliyevin azərbaycansevərliyi onun diyarımıza 1969-1982 illərdə etdiyi birinci siyasi rəhbərliyi dövründə özünü çox qabarıq şəkildə göstərdi. Bu dövr haqqında ədəbiyyatda çox analitik yazılıb. Çox düzgün olaraq həmin zaman kəsiyini "Azərbaycanın intibah dövrü" adlandırmaq olar. Cəmi 13 il ərzində respublikanın sənaye potensialı bir neçə dəfə, mənzil fondu iki dəfə, elmi potensialı bir neçə dəfə, qabaqcıl texnologiyalarla təchizatı bir neçə on dəfə artırıldı.

Mədəniyyət və incəsənətin inkişafına əlverişli şərait yaradıldı, onun milli sərhədlərdən çıxaraq SSRİ və dünya miqyasında tanınması mümkün oldu. Rəssamlardan Tahir Salahov, Səttar Bəhlulzadə Mikayıl Abdullayev, memar Mikayıl Hüseynov, bəstəkarlardan Qara Qarayev, Niyazi, Fikrət Əmirov, müğənnilər Müslüm Maqomayev, Polad Bülbüloğlu, Rəşid Behbudov məhz Heydər Əliyevin dəstəyi sayəsində dünya miqyasında tanınmış simalar oldular. Gənc qrossmeyster Harri Kasparovun şahmat aləminə çıxması üçün bütün mümkün imkanlar səfərbər edildi.

Əgər 70-80-ci illərdə Ukraynadan cəmi iki nəfər şair və yazıçı Sosialist Əməyi Qəhrəmanı fəxri adı almışdısa, Azərbaycanda belə şəxslərin sayı səkkiz nəfər oldu. Həmin dövrlərdə bu ad kimlərinsə Sovet İttifaqı səviyyəsində tanınmasının və qəbul edilməsinin ən yüksək göstəricisi idi.

Ancaq Heydər Əliyev özünəməxsus müdrikliklə başa düşürdü ki, milli dirçəliş ancaq özünüdərkdən və milli xüsusiyyətlərə sadiq olmaqdan ibarət deyil. Buna həddən artıq aludəçilik milli qapanmaya və özünütədricə özünü gətirib çıxara bilərdi. Bütün inkişaf etmiş dövlətlərin uğurunun kökündə milli xüsusiyyətləri qorumaqla yanaşı, dünyanın qabaqcıl ölkələrinin təcrübəsini mənimsəmək durur. Əgər hər hansı ölkə bu zənginliyə öz təcrübəsini də töhfə verə bilirsə, artıq inkişafın mexanizminə yiyələnmiş olurdu.

Məhz bu səbəbdəndir ki, Heydər Əliyevin Azərbaycanın beynəlxalq birliyə inteqrasiyasına çox ciddi əhəmiyyət verirdi. Respublikamıza yeni texnologiyaların gətirilməsi (Bakı Məişət Kondensionerləri zavodu, Neftayırma zavodu ELOU-AVT qurğusu, müasir Azərbaycan DRES), xarici ölkələrdə azərbaycanlı mütəxəssislərin hazırlanması (1969-cu ildə respublikadan kənara təhsil almağa 10-15 nəfər göndərilirdisə, 1982-ci ildə bu rəqəm 2000 oldu), gənclərin xarici dil öyrənməsinin əhəmiyyəti (1973-cü ildə Azərbaycan Xarici Dillər İnstitutunun yaradılması) daima onun diqqətində idi. Hər il digər müttəfiq respublikalarda Azərbaycan mədəniyyət və incəsənət günlərinin keçirilməsi Azərbaycan şair və yazıçılarının əsərlərinin xarici dillərə tərcümə edilərək çap edilməsi artıq bir ənənəyə çevrilmişdi.

Bu faktların sayı-hesabı yoxdur, cəmiyyət artıq buna adi hal kimi baxır. Eyni zamanda xalqımız bunun Heydər Əliyev siyasəti nəticəsində mümkün olduğunu da yaxşı bilirdi. Həmçinin cəmiyyət bu siyasi rəhbərin digərlərindən kəskin fərqləndiyini yaxşı dərk edirdi. Cəmiyyət artıq baş verənlərə və gələcəyə Heydər Əliyev baxışları ilə baxmağı, özünə bir həyat norması seçmişdi. Çünki, bu onun ümumi maraqlarına cavab verirdi.

Heç də təsadüfi deyil ki, Qorbaçov Moskvasının 1988-ci ildə Dağlıq Qarabağ oyunları başlayanda cəmiyyət proseslərdə Heydər Əliyev boşluğunu çox ciddi surətdə hiss etdi. Heç kəs üçün sirr olmadı ki, onu məqsədli surətdə böyük siyasətdən ayırmış, Azərbaycan xalqının lidersiz qoymaq istəmişdilər. Çünki onun xalqına bağlılığına, dəmir məntiqinə, opponentlərini ciddi arqumentlərlə məğlub enmək bacarığına hamı, o cümlədən onun əbədi rəqibləri olan erməni millətçiləri də yaxşı bilirdilər. Heydər Əliyevin bir çıxışı və ya hansısa çağırışı Siyasi Büronun qərarlarından, onların erməni separatçılıqlarını dəstəkləmək əzmindən qat-qat möhkəm idi.

Heydər Əliyevin dövlətçilik təfəkkürü, uzaqgörənliyi və liderlik keyfiyyəti müstəqillik dövründə özünü bariz göstərdi. Onun baxışları və fəaliyyəti bir unikal idarəçilik universitetinin sistemi idi. Onun baxışları həm

müstəqil dövlətin quruculuğu dövrünə, həm də artıq qurulu dövlətin idarə edilməsi məsələlərinə tam uyğun gəlir.

Baxmayaraq ki, o, dahiliyə heç vaxt iddia etməyib və başqalarının fikrinə hörmətlə yanaşıb. O dialektikanın qanunlarını yaxşı bilirdi, cəmiyyətdəki prosesləri daima inkişafda görürdü. Buna görə də onun fikirləri müasir səslənir və diqqəti cəlb edirdi.

Heydər Əliyevin həmişə təsdiqlənmiş nəzəri baxışları, gələcəyə istiqamətlənən fəaliyyəti onu hətta dünyasını dəyişəndən sonra daima müasirimiz edir. Bu gün elə bir sahə yoxdur ki, onun qiymətləndirilməsində dahi siyasətçinin fikirlərinə istinad etmək və cavab tapmamaq mümkün olmasın. Bu həqiqət nəinki Azərbaycan ictimaiyyəti, hətta xarici ölkə siyasətçiləri də dəfələrlə təsdiqləmiş və buna dair çoxsaylı faktlar göstərmişlər.

Heydər Əliyevin adının Azərbaycan üçün əhəmiyyəti müasir dövrümüzdə daha da qabarıq görünür. Azərbaycan Heydər Əliyevli günlərini çox yaxşı xatırlayır və gələcəyini də onun adı və yanaşması ilə görmək istəyir. Çünki bu artıq gələcəyimizin təminatı, inkişafın dayanmaz olması deməkdir.

Heydər Əliyev siyasətinə sadiqliyi prezident İlham Əliyev özünün andiçmə mərasimində bir daha bəyan elədi və özünün gündəlik fəaliyyətində dəfələrlə sübut elədi. Artıq il yarım ərzində o özünü kifayət qədər bacarıqlı və xalqının taleyini düşünən bir dövlət başçısı kimi tanıtdıra bildi.

Həm ölkənin, həm də xarici ölkələrin politoloqları onun uğurlarının kökündə məhz Heydər Əliyev siyasi kursuna sadiqlikdə görürlər. Çünki Heydər Əliyev siyasəti xalqımızın şərəfli tarixinə söykənən, bu günün problemlərinə düzgün cavablar tapan bir fəlsəfə olduğunu dəfələrlə sübut edə bilibdir.

Azərbaycan xalqının böyüklüyü ilk növbədə özünün layiqli övladlarının adlarını həmişə uca saxlamağındadır. Belə simalar tariximizdə çox olubdur və bundan sonra da minlərlə layiqliləri cəmiyyətimizə gələcəkdir. Onların əməlləri ilk növbədə xalqımızı şöhrətləndirəcək, zəngin mədəniyyətimizi daha da zənginləşdirəcəkdir. Onları belə yaşamağa sövq edən isə Ana Torpaqları olan Azərbaycana sonsuz məhəbbətini izhar edə bilməyi olacaqdır.

Heydər Əliyev kimi.

ABDİN FƏRZƏLİYEV
Nizami rayon İcra Hakimiyyətinin Başçısı,
YAP Siyasi Şurasının üzvü

HEYDƏR ƏLİYEV İDARƏÇİLİK MƏKTƏBİ YENİ MƏRHƏLƏDƏ

Hər bir siyasi sistem öz davamlığını təmin etmək, ideoloji-sosial bazasını daha uzun müddətli siyasi proseslər işığında dominat faktor kimi qoruyub saxlamaq baxımından zəruri tədbirlər görür. Xüsusilə bu fəaliyyət təbii olduqda, yəni xalqın tələbatı və daxili siyasi dinamik güclərin, sosial qrupların mənafeyinə uyğun qurulduqda sosial sifarişə çevrilir və siyasi varisliyin aktuallığı gündəmə gəlir. XXI əsdə siyasi varislik problemi sadəcə ayrı-ayrı şəxslərin hakimiyyəti hüquqi müstəvidə transformasiyası kimi deyil, daha geniş mənada başa düşülməlidir. Dövrümüzdə bu proses öz qurum və strukturlarının, siyasi-idioloji təməllərinin, başladılan nəhəng sosial-iqtisadi,hüquqi islahatların davamının, intellektual və kadr potensialının, uzun illər ərzində böyük zəhmət bahasına qazanılan geniş sosial bazanın – elektoratın dərinləşmiş,hətta qəlibləşmiş inamının ötürülməsi ilə baş verir və bir sistem beləcə öz ardıcıllığını təmin edir. Belə keçid cəmiyyətin bütün təbəqələrinin mənafeyinə cavab verdiyi üçün mütərəqqi mahiyyət daşıyır, sosial sistemdə özünə və artıq formalaşmış hüquqi, ictimai, iqtisadi, dəyərlər sisteminə inam formalaşdırır. Bu inam həmin dövlət və cəmiyyət üçün gələcək inkişaf və hərtərəfli tərəqqi baxımından yaradıcı təkan, əlverişli stimul verir. Necə ki, Azərbaycan ən yeni tarixində belə bir proses yaşadı.

Ümummilli Liderimiz Heydər Əliyev böyük çətinliklərlə qurduğu dövlətə, misilsiz fədakarlıqlar hesabına yaşatdığı xalqına rəhbərlik etmək üçün namizədini elan etdi: «O, yüksək intellekti, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjicili və təşəbbüskar bir şəxsiyyətdir.Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər

bəsləyirəm». Bu fikirlərin məntiqi nəticəsi cənab İlham Əliyevin 2003-cü ilin 15 oktyabrında xalqın mütləq əksəriyyətinin etimadını qazanması oldu. Xalq liderinin sözünə güvənərək , öz tarixi seçimini etdi.

Ədalətli rəhbər ideyası rəhbərlik (liderlik) ictimai institutu yarananadan bu günədək ictimai düşüncədə daim aparıcı rol oynamış, aktual məna kəsb etmişdir. Müasir dövr üçün də bu ideyanın eyni dərəcədə aktual olduğu inkaredilməzdir. Demokratiya anlayışının meydana gəlməsi zərurəti məhz yaxşı rəhbər axtarışlarından qaynaqlanır. Bu gün də onu labüd edən xalqın özü tərəfindən özünə ən layiqli lider seçmək imkanı təmin etməsidir. Ötən ilin oktyabr ayında keçirilən prezident seçkisi Azərbaycan demokratiyasının timsalında yaxşı rəhbər axtarışları vəzifəsini uğurla yerinə yetirdi, namizədlərin ən layiqlisi ölkənin prezidenti seçildi. Xalqın İlham Əliyevin şəxsində yaxşı rəhbər görmək istəyinin gerçəklənməsi özünü çox gözlətmədi. Oktyabr ayının 31- də vəzifə səlahiyyətlərinin icrasına başlayarkən İlham Əliyev özünün prezidentlik fəaliyyətinin başlıca qayəsini, bir növ fəlsəfəsini açıqladı. Bildirdi ki, o, xalq üçün yaxşı prezident olacaq.

Qeyd edilməlidir ki, yaxşı prezident olmaq istəyi və ya düşüncəsi azad və ədalətli seçki prinsipinin mahiyyətindən irəli gəldiyindən, demokratik dəyərlərə malik ölkələrdə onun mövcudluğu təbii qarşılanır. Lakin unudulmamalıdır ki, sözün həqiqi mənasında yaxşı prezident olmaq istəyinin reyallaşması kifayət qədər çətindir. Xüsusilə də Azərbaycan xalqının ümummilli lideri, 30 ildən yuxarı ölkəmizə rəhbərlik etmiş dünya miqyaslı siyasətçi və dövlət xadimi Heydər Əliyevin siyasi varisində yaxşı prezidentlik iddiasının olması yetərincə cəsarətli istək təsiri bağışlayır. Heydər Əliyevdən sonra belə bir istəyin reallığa çevrilməsinin kifayət qədər çətinliyi təsəvvür ediləndir.Ölkəyə rəhbərlik etdiyi 30 ildən çox müddət ərzində o, Azərbaycanı ən ağır sınaqlardan ləyaqətlə çıxara, real təhlükələrdən sovuşdura, tənəzzüldən xilas edərək təkamül yoluna qoya bildi, xalq qarşısında misilsiz xidmətlərinə görə ümummilli lider adını qazandı. Aydındır ki, Heydər Əliyevin siyasi varisinin rəhbərlik səriştəsinin və imkanlarının xalq tərəfindən dəyərləndirilməsi məhz ümummilli liderin nümunəsində formalaşmış meyarlar prizmasından həyata keçirilir. Bu mənada İlham Əliyevin prezident kimi fəaliyyətinə, idarəçilik manerasına həm kütlə, həm də siyasi opponentlər tərəfindən Heydər Əliyev yüksəkliyinə xas olan meyarlar baxımından qiymət veriləcəyi perspektivi əvvəldən bəlli idi. Ən azı bu, prezidentliyə namizədliyini irəli sürülməsinə ra-

zılıq verən İlham Əliyev üçün sirr deyildi. Bütün bunlara baxmayaraq, İlham Əliyev bu gün Azərbaycan ictimai rəyində ona böyük rəğbət qazandıran, həm siyasi iradəsini, həm də prezident kimi fəaliyyət fəlsəfəsini göstərən «yaxşı prezident» olmaq iddiasını ortaya qoydu.

Seçkiönü və seçkidən sonrakı dövrün ictimai – siyasi proseslərini və gerçəkliklərini, İlham Əliyevin prezident rolunda siyasi idarəçilik üslubunun ilk təcrübələrini təhlil etmək əsasında onun ortaya qoyduğu iddianın reallığa çevrilməsini təmin edəcək optimal formulu müəyyənləşdirdiyi qənaətinə gəlmək mümkündür. Fikrimcə, bu formulun mahiyyətini Azərbaycanın iqtisadiyyatının gücləndirilməsi zəminində onun zəngin ölkəyə çevrilməsi, insanlara layiqli yaşayışın təmin edilməsi, ümumdünya və regional reallıqlar müstəvisində xarici siyasi xəttin yeridilməsi və Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında çevik taktikalarının tətbiq edilməsi əsasında Heydər Əliyev siyasətinin yeni mərhələdə həyata keçirilməsi təşkil edir.

Azərbaycan xalqının böyük əksəriyyətinin düşüncəsinə görə, yaxşı prezident olmaq Heydər Əliyev siyasi xəttini və idarəçilik manerasını mənimsəyərək həyata keçirmək bacarığında ifadə oluna bilər. Eyni zamanda Heydər Əliyevin dövründə əldə edilən nailiyyətlərə istinad edərək onları daha da inkişaf etdirmək zərurəti «yaxşı prezident» anlayışını təşkil edən elementlər sırasına daxildir. Başqa sözlə, yaxşı prezident olmaq üçün təkcə Heydər Əliyev siyasətinin davamçısı və idealarının daşıyıcısı qismində çıxış etmək yetərli deyil, həm də sonunculari müasir şəraitdə, yeni pillədə daha yüksək nailiyyətlərin həlledici amilinə çevirmək bacarığı tələb olunur.

İlham Əliyevin prezidentlik səciyyələndirərkən qeyd olunmağa ehtiyac duyulan əsas məqamlardan biri onun Heydər Əliyev siyasətinin yeni mərhələsi kimi təzahür etməsidir. Ümummilli lider tərəfindən əsası qoyulan islahatçılıq hərəkatı Azərbaycanda inkişafın yüksək dinamikasını təmin etmişdir. Nəticədə müstəqil Azərbaycan öz inkişafında böyük sıçrayış nümayiş etdirərək sürətlə yeni-yeni mərhələləri fəth edir. İndinin özündə də ölkəmizin iqtisadi və sosial tərəqqisində yeni mərhələyə nail olduğumuzu iddia etməyə tam əsas vardır. Deməli, qarşıda növbəti vəzifələr durur ki, onların həyata keçirilməsi siyasətə yeni çalarlar gətirir. Bu özünün aydın təcəssümünü Heydər Əliyev siyasətinin yeni mərhələdə həyata keçirilməsinin nümunəsi kimi İlham Əliyevin fəaliyyətindən və idarəçilik üslubunda tapır.

Prezidentin fəaliyyətini təhlil etmək baxımından əsas götürülə biləcək əhəmiyyətli meyarlar sırasında milli- mənəvi dəyərlərə hörmətlə yanaşılma-

sı, onları qoruyub daha da zənginləşdirmək istəyi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda latın qrafikalı əlifbaya keçilməsinin real olaraq təmin edilməsi haqlı olaraq Heydər Əliyevin xidmətlərindən sayılır. İlham Əliyevin Heydər Əliyev siyasətinə sədaqəti və öz fəaliyyətində onu ardıcıl surətdə davam etdirilməsi bu sahədə də özünü təsdiq edir. Latın qrafikalı əlifbaya keçilməsinin gənc nəsilin mənəvi tərbiyəsi, dünya və milli ədəbiyyatın nümunələrindən qidalanması qarşısında qoyduğu ciddi problemlər son bir neçə il ərzində ziyalıların və elmi ictimaiyyətin başlıca qayğısına çevrilmişdi. İlham Əliyevin dünya və Azərbaycan ədəbiyyatının klassiklərinin əsərlərini latın qrafikalı əlifba ilə çap edilməsinin dövlət hesabına maliyyələşdirilməsi haqqında təşəbbüsü və müvafiq sərəncam və imzalaması bu sahədə köklü dəyişikliklərin başlanğıcını qoydu. Bundan əlavə, milli ensiklopediyanın nəşr edilməsi haqqında hökumət qərarı da milli–mənəvi dəyərlərə prezident qayğısının bariz təzahürü sayıla bilər. Təsadüfi deyil ki, ölkə ziyalıları İlham Əliyevin bu təşəbbüsünü və qərarlarını Azərbaycan mədəniyyətinin yeni intibahına təkan verən müstəsna əhəmiyyətli addım adlandırmışdır.

Sabitliyin və qanunun aliliyinin təmin edilməsi məqsədinə xidmət edən ən ciddi tədbirlərin həyata keçirilməsi ilə yanaşı, dövlətin tərbiyə funksiyasının ən səmərəli şəkildə həyata keçirilməsi Heydər Əliyev idarəçilik üslubunun mühüm xüsusiyyətini təşkil edir. Sonuncu öz ifadəsini ən qabarıq şəkildə Heydər Əliyev tərəfindən imzalanan çoxsaylı əfv fərmanlarında və onun təşəbbüsü ilə qəbul edilən amnistiya aktlarında tapır. Azərbaycan xalqının ümummilli liderinin siyasətini bütün sahələrdə həyata keçirən prezident İlham Əliyevin sözügedən yönümdə də analoji fəaliyyət taktikası seçməsi cəmiyyətə artıq məlumdur. Otən dövr ərzində yüzlərlə məhkumun cəzaçəkmə yerlərindən azadlığa buraxılması haqqında imzalanan prezident fərmanları deyilənı təsdiq edir.

Heydər Əliyev siyasətinin və idarəçilik üslubunun ən xarakterik əlaməti, şübhəsiz, insanlara qayğı, fəaliyyətdə şəffaflıq, məmur özbaşınalığına qarşı barışmazlıq və ardıcıl mübarizədir. Məhz bu keyfiyyətlərin sayəsində onun fəaliyyəti həmişə xalqın dəstəyini qazana bilmiş, habelə yüksək səmərəlilik koofisentinə malik olmuşdur. Heydər Əliyev idarəçilik üslubuna xas olan açıqlıq və şəffaflıq, nöqsanlara barışmazlıq və s. keyfiyyətlər artıq özünü İlham Əliyevin idarəçilik üslubunda da bırmənalı şəkildə büruzə verir. Sahibkarlarla görüşdə ayrı – ayrı sahələrdə özünü göstərən nöqsanlar haqqında aydın mövqe nümayiş etdirilməsi, vəzifə səlahiyyətlərindən sui-istifadə edən

məmurlara xəbərdarlıq edilməsi, idarəçilik mexanizminin təkmilləşdirilməsi, bir sıra struktur dəyişikliklərinin həyata keçirilməsi ilə əlaqədar tapşırıqların verilməsi prezidentin sözügedən sahədə qətiyyət və iradə nümayiş etdirmək niyyətinin kifayət qədər ciddi olmasından xəbər verir.

İlham Əliyevin prezidentlik fəaliyyətini səciyyələndirən digər mühüm amil onun ictimai həyatın çox müxtəlif və rəngarəng sahələrində Heydər Əliyev siyasətini uğurla həyata keçirilməsi hesab etmək olar. Qeyd edilməlidir ki, prezidentin təhlil və dəyərləndirilməyə cəlb olunan o qədər də uzun dövrü əhatə etməyən fəaliyyəti məzmun etibarilə olduqca zəngin və çox şaxəlidir. Bu fəaliyyət həm iqtisadi və sosial inkişafın sürətləndirilməsi, həm regional inkişafın təmin edilməsi, həm neft strategiyasının həyata keçirilməsi, həm uğurlu daxili və xarici siyasət, həm də idarəetmə və icra intizamı gücləndirilməsi kimi müxtəlif aspektləri özündə ehtiva edir. Düşünürü ki, prezidentin qısa vaxda atdığı addımları, qəbul etdiyi qərarları,keçirdiyi görüş və müşavirələri sadəcə sadalamaq onun fəaliyyətinin nə qədər zəngin məzmuna, geniş perspektivə malik olması haqqında aydın təsəvvür yaradır.

Cənab İlham Əliyevin ötən dövr ərzində prezident kimi fəaliyyəti ulu öndərimizin sözlərinin doğrulduğu məqam kimi yaddaşlara və tarixə həkk edildi. Dövlət başçısının istər daxili, istərsə də xarici siyasət sahəsində qazandığı uğurlar xalqımızın öz tarixi seçimində yanılmadığını sübut etdi. Prezident İlham Əliyev həm seçki kampaniyası dövründə, həm də andiçmə mərasimində xalqımız qarşısında verdiyi bütün sözləri yerinə yetirmək istiqamətində mühüm addımlar atdı və sözlə əməlin üzvi vəhdətinə söykənən lider imici ilə həm də gələcək nəsillər üçün mükəmməl nümunə yaratdı. Əsl siyasətin məhz real iş və konkret fəaliyyət olduğunu prioritet prinsip kimi qəbul edən dövlət başçımız demişdir: « Bizdə bütün imkanlar – təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik. Əhalinin sosial müdafiəsi yüksək səviyyədə təmin olunacaq.»

Daxili siyasət sahəsində ötən dövr ərzində mühüm addımlar atılmışdır. Azərbaycanda sivil, demokratik,hüquqi dövlət quruluşu möhkəmlənmiş , insan hüquq və azadlıqlarına hörmət edən, dini – siyasi tolerantlığa əsaslanan vətəndaş cəmiyyətinin bütün zəruri atributların formalaşma prosesi sürətlənmişdir.

Ölkədə qanunvericilik sahəsindəki islahatlar geniş vüsət almış, məhkəmə hüquq islahatları sayəsində bu sahədə mövcud olan normativ aktlar tamamilə Avropa standartlarına uyğunlaşdırılmış, bazar iqtisadiyyatının hüquqi bazası dahada möhkəmləndirilmişdir.

Beləliklə, Azərbaycanın sosial- iqtisadi inkişaf strategiyası böyük bir canlanma və dinamizm qazanaraq, keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu. İqtisadiyyatda müşahidə olunan müsbət meylləri möhkəmləndirmək və daha da inkişaf etdirmək, sosial sahədə qarşıda duran problemlərin həllini sürətlədirmək məqsədi ilə Prezident İlham Əliyev « Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında»fərman imzalamışdır. Bu sənəd qarşıdakı beş il ərzində sosial-iqtisadi inkişaf istiqamətlərinin əsas tezislərini əks etdirirdi. Bunun ardınca dövlət başçısı «Azərbaycan Respublikası regionlarının sosial – iqtisadi inkişafı dövlət proqramı», «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı», «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşqqulluğun artırılması üzrə dövlət proqramı» barədə müvafiq sərəncamlar imzalamışdır.

Adı çəkilən dövlət proqramları iqtisadi və sosial islahatların növbəti mərhələdə həyata keçirilməsinin istiqamətlərini maliyyələşmə mənbələrini, idarəçilik mexanizminin təkmilləşdirilməsini, daxili bazarın qorunmasını, milli istehsalın reallaşması üçün bazar axtarılmasını və s. problemləri əhatə edən mükəmməl konsepsiyadır. Eyni fikirlər regional inkişaf haqqında Dövlət proqramına da şamil edilə bilər.

Heydər Əliyev siyasətinin həyata keçirilməsi sayəsində yaradılan makroiqtisadi durum və inkişafın yüksək dinamikası sosial və iqtisadi tərəqqinin yeni mərhələsini səciyyələndirən mühüm vəzifələrdən biri kimi regionların inkişafının sürətləndirilməsini nəzərdə tutur. İnkişafın start mərhələsinə xas olan yüksək tempinin regionların qeyri – bərabərliyində özünü büruzə verən nəticələri müasir mərhələnin ciddi problemi olaraq qalırdı. Prezidentin birbaşa təşəbbüsü ilə qəbul edilən Dövlət proqramları ilk növbədə həmin problemlərin qısa vaxtda aradan qaldırılması məqsədini güdür.

Qeyd edilməlidir ki, regionların inkişafı özlüyündə bir sıra həm iqtisadi, həm də sosial vəzifələrin həllini nəzərdə tutan kompleks tədbirlər sistemini ehtiva edir. Buraya müvafiq infrastrukturun yaradılması, investisiya təşviqi və cəlb edilməsi, yeni iş yerlərinin açılması və işsizliyin azaldılması, yoxsulluğun aradan qaldırılması və s. daxildir.

Azərbaycanda qanunvericilik sahəsində əldə edilən uğurlar həm də iqtisadi islahatlar üçün möhkəm hüquqi baza yaratmışdır. İqtisadi sahədə nə-

zərdə tutulmuş yol, iqtisadiyyatın tədricən Qərbin qabaqcıl texnologi və intensiv inkişaf sisteminə inteqrasiya edilməsinə yönəlmişdir. Azərbaycan iqtisadiyyatının ümumi inkişafında neft- qaz sektorunun və ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilən neft strategiyasının böyük əhəmiyyəti vardır. 1994-cü ilin sentyabrında Azərbaycan hökuməti ilə dünyanın aparıcı neft şirkətləri arasında imzalanan «Əsrin Müqaviləsi» bu gün öz real nəticələrini verməkdə və ölkə iqtisadiyyatının digər sahələri üçün lokomotiv rolunu oynamaqdadır. Bu yaxınlarda məhz bu müqavilə çərçivəsində « Mərkəzi Azəri» yatağından ilkin neftin hasil edilməsi Azərbaycanın Xəzər dənizinin özünə aid sektorunda növbəti karbohidorogen yatağını dünya enerji sisteminə inteqrasiya etməsinə ən parlaq nümunədir.

Bu il həmçinin yalnız iqtisadi deyil, həmçinin çox böyük geopolitik əhəmiyyət daşıyan, region ölkələrinin gələcək ictimai – siyasi və iqtisadi həyatında ciddi dəyişikliklərə yol açan Bakı – Tbilisi –Ceyhan neft kəmərinin istifadəyə veriləcəyi gözlənilir.Bundan əlavə Bakı- Tbilisi- Ərzurum qaz kəmərinin çəkilməsi istiqamətində ötən dövr ərzində böyük işlər görülmüş, beynəlxalq donor təşkilatlarla layihənin maliyyələşdirilməsi ilə bağlı mühüm razılaşmalar əldə edilmişdir.

Gələcək nəsillərin maddi rifahının başlıca təminatlarından olan « Neft Fondunun» vəsaiti durmadan artmaqdadır və 1 milyard ABŞ dollarına yaxınlaşmışdır, Fondun fəaliyyəti tamamilə şəffaf və cəmiyyətə açıq zəmin üzərində qurulmuşdur. «Neft Fondunun» vəsaitindən daha çox qeyri – neft sektorunun inkişafında və qaçqın və məcburi köçkünlərin sosial – məişət şəraitinin yaxşılaşdırılması istiqamətində istifadə olunur.

Ölkədə sahibkarlığın inkişafına dövlət qayğısı artan templə davam edir. Xüsusilə regionlarda fəaliyyət göstərən sahibkarlara bir sıra güzəştlər və imtiyazlar verilmişdir. Sahibkarlığa qayğının məntiqi nəticəsidir ki, Möhtərəm Prezidentimizin hələ prezident seçkilərindən əvvəl vəd etdiyi 600 min yeni iş yeri açılması istiqamətində respublikamızda qızğın iş gedir. Belə ki, artıq 175 mindən artıq yeni iş yeri açılmışdır. Bunlardan təxminən 120 mini daimi iş yerləridir. Regionlarda geniş quruculuq və abadlıq işləri böyük vüsət almış, zəruri infrastrukturun yaradılması üçün xeyli iş görülmüşdür.

Bütün əsas makroiqtisadi göstəricilər üzrə Azərbaycan MDB məkanında öncül yerlərdən birini tutur. Son illər ərzində ölkədə Ümumi Daxili Məhsul istehsalı 10-12% dən aşağı düşməmiş, bu il isə bu rəqəmin 15%

olacağı proqnozlaşdırılır. Ölkəmizin əlverişli geostrateji mövqeyi – Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi Azərbaycanın iqtisadi cəhətdən əlverişli partniyor kimi istər xarici dövlətlərin istərsədə beynəlxalq maliyyə qurumlarının ona olan diqqətini artırmışdır. Belə ki, son illərdə ölkə iqtisadiyyatına qoyulan xarici investisiyaların həcmi 17 milyard ABŞ dollarını keçmişdir.

Respublikamızda geniş vüsət alan sürətli iqtisadi inkişaf heç şübhəsiz əhalinin maddi rifah halının yaxşılaşmasında öz müsbət təsirini göstərmişdir. Minimum əmək haqqı artırılaraq 125 min manata çatdırılmışdır. Təqaüdçülərin pensiya təminatı yaxşılaşmış, az təminatlı ailələrin aldıqları kompensasiyaların miqdarı yüksəlmişdir. Büdcə təşkilatlarında çalışan bütün kateqoriyalardan olan məmurların və qulluqçuların əmək haqqı dəfələrlə artırılmışdır. Bununla da dövlət büdcəsindən maliyyələşən təhsil, səhiyyə, mədəniyyət, incəsənət və kütləvi informasiya, sosial təminat, kənd təsərrüfatı sahələrində və digər sahələrdə çalışan işçilərin vəzifə maaşları yüksəlmişdir. Artım şamil edilən büdcə təşkilatlarında çalışanların sayı təqribən 538 min nəfər təşkil edir.

Bu dövrdə ölkənin müdafiə qabliyyətinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılmış, imzalanmış atəşkəs sazişinə baxmayaraq təcavüzkar Ermənistanla daim münaqişə vəziyyətində olan Azərbaycan silahlı qüvvələrinin təhcizatı və döyüş qabiliyəti xeyli yüksəlmişdir. Prezident İlham Əliyev demişdir: «Orduya qayğı, hüquq- mühafizə orqanlarına qayğı bizim əsas vəzifəmizdir. Azərbaycan əskərinə, zabitinə hörmət hər kəsin borcudur, çünki, onlar dövlətin, xalqın qüdrətidir.Onların şərəfli fəaliyyətləri lazımınca qiymətləndiriləcək və dövlət bu insanların sosial vəziyyətini yüksəldəcək.» Dövlət başçısının müvafiq sərəncamına əsasən hərbi qulluqçuların vəzifə maaşları 1,5 dəfə artırılmış və onların mənzillə təminatı, həmçinin digər sosial – məişət problemlərinin həllinə dövlət qayğısı daha da artırılmışdır.

Təhsil sahəsində dövlət qayğısı özünü bütün istiqamətdə hiss etdirmişdir. Belə ki, ali təhsil müəssisələrinin maddi- texniki bazası xeyli genişlənmiş,təhsil ocaqlarında dünya standartlarına uyğun elmi şərait yaradılmışdır. Həmçinin təhsil müəssisələrində çalışanların əmək haqları, tələbə və aspirantların təqaüdləri bir neçə dəfə artırılmış, ünvanlı təqaüdlərin əhatə sferası xeyli genişlənmişdir. Bundan əlavə, prezidentin orta məktəblərin kompüterlərlə təmin olunması istiqamətində imzaladığı sənədlər və

bu istiqamətdə həyata keçirdiyi əməli işlər nəticə etibarilə ölkədə orta təhsilin keyfiyyətcə yaxşılaşmasına stimul yaratmışdır.

Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun bütün sahələrdə olduğu kimi, elm, mədəniyyət, incəsənət, ədəbiyyat sferalarında, həmçinin milli - mənəvi, dini dəyərlərin qorunması və möhkəmləndirilməsi istiqamətində də davam etdirmişdir.

Xarici siyasət sahəsində ötən dövr ərzində nəzərə çarpacaq uğurlar əldə edilmişdir. Bu ilk növbədə özünü ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və dəqiqliklə işlənib hazırlanmış balanslaşdırılmış xarici siyasət xəttinin uğurlu davamında biruzə verir. Belə ki, balanslaşdırılmış xarici siyasət kursu nəticəsində geopolitik baxımdan olduqca həssas bölgədə yerləşən ölkəmiz nəinki öz mənafelərini uğurla qoruya bilmiş, həmçinin regionun ən vacib ölkəsi halına gəlmişdir. Azərbaycan həm MDB məkanında, həm də Avroatlantik məkanda əlverişli və etibarlı partnyor imici qazanmış,ölkəmizin xarici siyasəti öz prinsipiallığı və konseptuallığı ilə fərqlənərək, daim beynəlxalq birliyin və qlobal güc mərkəzlərinin diqqət mərkəzində olmuşdur.

Azərbaycanın balanslaşdırılmış xarici siyasətinə hücumçu taktika əlavə olunmuş, bu isə onun effektivliyini daha da artırmışdır. Bu isə özünü ölkəmizin ən ağır problemi olan Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlarda qabarıq şəkildə göstərmişdir. Belə ki, hücumçu diplomatiya nəticəsində Dağlıq Qarabağ məsələsi BMT səviyyəsində müzakirəyə çıxarılmış,bu isə təcavüzkar Ermənistanı və onun havadarlarını çox narahat etmişdir.

Həmçinin Avropa Şurasının Parlament Assambleyasının son dövrdə hazırladığı bir sıra sənədlərdə Ermənistan Respublikasının bir mənalı olaraq təcavüzkar ölkə adlandırılması xarici siyasətimizin növbəti uğuru kimi qiymətləndirilə bilər. Bu yaxınlarda Dağlıq Qarabağa səfər edən ATƏT-in fakt araşdırıcı missiyasının bu ərazidə demoqrafik vəziyyəti dəyişmək məqsədi güdən qeyri- qanuni erməni məskunlaşmalarının mövcudluğunu təsdiq etməsi Azərbaycan tərəfinin illərdən bəri eşidilməyən haqq səsinin Avropa ölkələri tərəfindən növbəti etirafıdır.

Prezident İlham Əliyev tərəfindən Dağlıq Qarabağ münaqişəsinin nizama salınması sahəsində Heydər Əliyev strategiyasını rəhbər tutaraq ilk növbədə ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlərə rəsmi səfərlər edildi. Prezidentin ilk xarici səfərlərinin məhz bu marşurut üzrə

edilməsi bir yandan Azərbaycanın balanslaşdırılmış xarici siyasət konsepsiyasının dəyişməz qaldığının ifadəsi, digər tərəfdən isə Dağlıq Qarabağ probleminin ölkənin xarici siyasət xəttində prioritet olduğunun göstəricisidir.

Dünya inteqrasiya proseslərinin getdikcə daha geniş miqyas alması və sürətlənməsi dövlətlərarası əməkdaşlığı hər bir milli dövlətin mövcudluğunun və inkişafının həlledici şərtlərindən birinə çevirmişdir. Müasir şəraitdə beynəlxalq birliyə inteqrasiya etmədən, dünya birliyində layiqli yer tutmadan inkişafın təmin edilməsi qeyri mümkündür. İnkişaf olmadan isə milli dövlətçiliyin mövcudluğunun özü şübhə altına alına bilər. Hazırkı dünya nizamının aydın görünən özəlliklərinə söykənən Heydər Əliyev xarici siyasət konsepsiyası ilə tam silahlanmış İlham Əliyevin onu uğurla həyata keçirmək istəyinə, qətiyyətinə və səriştəsinə malik olduğu xarici ölkələrə rəsmi dövlət səfərləri zamanı bir daha təsdiqlənmiş oldu. Nəticədə Heydər Əliyevin səyləri sayəsində beynəlxalq aləmdə Azərbaycan haqqında formalaşmış etibarlı tərəfdaş imici nəinki qorunub saxlanıldı, hətta yeni impuls qazandı.

Beləliklə, İlham Əliyevin prezidentlik fəaliyyətinin təxminən il yarımlıq dövrü artıq arxadadır. Bu dövrdə baş verən hadisələr, görülən işlərlə zəngin olan məzmunu gələcək prespektivlər haqqında fikir söyləməyə əsas yaradır. Lakin önəmli olan odur ki, bu uğurlu fəaliyyət Heydər Əliyev siyasətinin məntiqi davamıdır. Artıq qeyd edildiyi kimi, həmin siyasətin həyata keçirilməsinin nəticəsi olaraq yaranmış ictimai-siyasi sabitlik, prinsipial xarici siyasət xətti, iqtisadi və sosial həyatdakı islahatçılıq hərəkatı, cəmiyyətin sağlam mənəvi-psixoloci durumu İlham Əliyevin prezidentlik fəaliyyətinin uğurlu nəticələrini şərtləndirən cəhətlərdir. Eyni zamanda müşahidə edilən bu fəaliyyətin uğurlu davamı olacağını da düşünmək üçün ciddi əsaslar mövcuddur. Çünki indiyə qədər görülən işlər gələcək uğurlu fəaliyyət üçün etibarlı fundamentin yaradıldığını əks etdirir.

VAQİF ABDULLAYEV
Milli Məclisin deputatı,
YAP Siyasi Şurasının üzvü

XALQIMIZ HEYDƏR ƏLİYEVİN DEMOKRATİYA KURSUNA SADİQDİR

Dünya miqyaslı siyasətçi Heydər Əliyevin hakimiyyətə qayıdışının məntiqi qanunauyğunluğunu təhlil edərkən məşhur politoloq Arnold Toynbinin bu mülahizəsini xatırlamalı oluruq: «Yaradıcı şəxsiyyət müvafiq sosial mühiti tərk etsə də, o bu mühitə bir daha qayıdır, lakin bu dəfə yeni keyfiyyətdə və yeni qüvvə ilə». Heydər Əliyevin yeni keyfiyyətdə və yeni qüvvə ilə qayıdışı millətin tərəqqisinə İlahinin mükafatı oldu.

Həqiqətən də, Heydər Əliyevin millətə «Yeni, müstəqil Azərbaycan uğrunda» şüarı ilə çağırışı Azərbaycan torpağına demokratikləşmənin, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunun çoxdan ehtiyac duyduğu ideologiyasını gətirdi, insanlarımıza öz Vətənində azad yaşamağın zərurətini anlatdı.

Bəzən deyirlər ki, tarix kütlələrin yaradıcılığının məhsuludur. Bununla müəyyən qədər razılaşmaq olar. Lakin tarixi siyasət yaradır, qüdrətli simaların ekzistensial iradəsi ilə həyata keçirilən siyasət yaradır. Əsl siyasətçi bilir ki, həyat siyasətin eksperimental materiyası deyil, həyat siyasətə deyil, siyasət həyata xidmət edir. Həyat aləmi siyasətin alfa və omeqasıdır. Onun ictimai reallaşması ya zorakılıqla, ya da təsirlə həyata keçirilir. Birincisi, xalq həyatından aralı düşmək, milli reallıqlardan təcrid olunmaq, ikincisi isə, xalqa qovuşmaq, ona arxalanmaqdır. Lakin belə halda xalqın bəyəndiyi, alqışladığı siyasəti yeritmək lazımdır, elə bir dövlət hakimiyyəti lazımdır ki, vətəndaşların arzu və amallarına cavab versin. Məntiqi olan budur ki, siyasət həyat sxemlərini törədən institut deyil, qüvvələr balansını – islahatçılıqla xalq iradəsini tarazlaşdıran institutdur. Vaxtilə, Konfutsi demişdir ki, xalqdan ayrı yolla gedirlərsə, bu artıq yol deyil. Bir sözlə, siyasət xalqın iradəsinə söykənməli, ictimai həyatın axınını, məcrasını pozmamalıdır. Heydər Əliyevin «Yeni, müstəqil Azərbaycan uğrunda» ideologiyası bu müdrikliyə söykənir, bu müdrikliyi aşılayır, ən başlıcası vətən naminə yaşamağa öyrədir.

Önəmli haldır ki, xalqın demokratik qanunlarla yaşamaq məktəbinin prinsiplərini Heydər Əliyev hələ Naxçıvanda olarkən Azərbaycan ziyalılarına verdiyi proqram xarakterli cavabında işlədib hazırlamışdı. Şübhəsiz ki, işlənib hazırlanmasında İlham Əliyevin də yaxından iştirak etdiyi bu rəhbər tarixi sənəd Azərbaycanı sosial-siyasi hərc-mərclikdən, vətəndaş müharibəsindən, qanları hesabına müstəqillik qazanmış azərbaycanlıların milli şərəfsizlikdən qurtulmaqda mayak rolunu oynadı. «Heydər Əliyevin demokratikləşmənin beş tezisi»nin əks olunduğu həyat müdrikliyinin bəhrəsi olan həmin sənədin qaydalarına qayıtdıqca onun tarixi danılmaz həqiqətlərinin aktuallığına bir daha əmin olursan və bunların məkan və zaman ölçülərində dönə-dönə dərkinin vacibliyini bütün varlığınla yaşamağın, milli inkişafımız və gələcəyimiz üçün əlamətdarlığını bir daha başa düşməyə can atırsan. Həmin misilsiz müdrik siyasətçi demokratik dəyişikliklər yolunda xalq işinə mane olan amilləri və onları aradan qaldırmağın sosial-siyasi mexanizmlərini məharətlə açır.

Birincisi, Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həll olunması. Həqiqətən də o dövrdə bu qiymətli tarixi sənəd hazırlanarkən beş il idi ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişdik, Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst və əlil olmuşdu. Ölkəmizdə bir milyondan çox yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqınlar var. O dövrdə Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev ürək ağrısı ilə qeyd edirdi: «Respublikaya misli görünməmiş hədsiz maddi və mənəvi ziyan dəyib. Ən dəhşətlisi budur ki, bütün bu faciələrin hələ də sonu görünmür». Bu sözlərin dərin həqiqətini inkar etmək mümkün deyildi, çünki, çoxlu bürokratik, mövcud reallıqları düzgün qiymətləndirməkdən uzaq olan qərarların qəbul edilməsinə baxmayaraq əvvəl olduğu kimi, yenə də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yox idi. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir.

İkincisi, Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, qədirbilən xalqının güzəranının gündən-günə ağırlaşması Heydər Əliyevin qəlbində böyük həyəcan doğurmuşdu. Ölkə iqtisadiyyatının cari ilin doqquz ayın-

dakı vəziyyəti barədə statistik məlumatları dərindən analitik təhlil edən Heydər Əliyev tamamilə haqlı olaraq qeyd edirdi ki, bu acınacaqlı vəziyyət insanlarımızı dəhşətə gətirir. Milli gəlirin istehsalı 25 faiz, sənaye məhsullarının istehsalı 25 faiz aşağı düşmüşdür. Kənd təsərrüfatında və əsaslı tikintidə vəziyyət daha da ağırdır. Əgər Azərbaycan iqtisadiyyatının səviyyəsinin son 5-6 ili ərzində dayanmadan aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyil. Həmişə respublikanın iqtisadi durumunun firavan saxlamasında önəmli iqtisadi infrastrukturu olan kənd təsərrüfatının xüsusilə ağır vəziyyətə düşməsi aqrar sektorunda həlli çox çətin olan problemlər yaratmışdı, xalqımız sanki, «çörək bol olarsa, basılmaz vətən» deyiminin əsl həyati mənasını indi dərk etməyə başlayırdı.

Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlara, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Səriştəsiz, heç bir iqtisadi biliklərə yiyələnməmiş cəbhəçilərin rəhbərliyi bütün bunlardan respublikanın müstəqilliyini möhkəmlətmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə etmək iqtidarında olmamışdır. Halbuki, təcrübəli dövlət başçısının o dövrdə göstərdiyi kimi aqrar sahədə təkcə bir il ərzində istehsalı yüksəltməklə kənd təsərrüfatı məhsullarını xeyli artırmaq mümkündür. Həqiqətən də, bütün xalqın şahid olduğu kimi Heydər Əliyevin ikinci qayıdışının bir ili ərzində ölkədə çörək bolluğu yarandı. Amma xalqa arpa çörəyi əməgən edən keçmiş rəhbərliyi xəcalət hissi boğmadı. Real təcrübə bir daha göstərdi ki, fərsiz rəhbərlik respublikanın belə zəngin daxili imkanlarından lazımi səviyyədə istifadə etməkdən çox uzaqdır.

Belə qənaətə gəlmək olar ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldilən aydın iqtisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü-gündən yaxşılaşdırmaq üçün konkret tədbirləri yoxdur. Müşahidələrin də göstərdiyi kimi, o dövrdəki rəhbərlik faktik olaraq real vəziyyətin yaxşılaşmasına yönəlmiş səriştəli qərarlar qəbul edə bilmir. Təbii ki, heç bir dövlətçilik təcrübəsi olmayan, hakimiyyətə yiyələnmiş təsadüfi «meydan qəhrəmanları» çox işləri kortəbii aparırdılar.

«Cavabda» müdrikcəsinə işlənib hazırlanmış, xalqın və dövlətçiliyin taleyüklü problemi ilə bağlı «üçüncü tezis» insanı biganə qoya bilmir, çünki

bu elə bir önəmli dövlətçilik məsələsidir ki, bunsuz milli inkişafı təsəvvür etmək mümkün deyildir. Dahi siyasətçi yazır: «Bu gün respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılığına səbəb olur. Rəhbər vəzifələrə iş qabiliyyəti, bilıyı, bacarığı, təsərrüfat və idarə etmə işlərindəki təcrübəsi nəzərə alınmadan yalnız xalq cəbhəsinə mənsubiyyətinin əsas götürülməsi hüquq normalarına uyğun deyil və buna görə də biz ağır nəticələrin şahidi oluruq. Xalq, Xalq Cəbhəsinə heç bir zaman belə müstəsna hüquq və səlahiyyət verməmişdir». Zəngin dövlətçilik və ibrətamiz həyat təcrübəsinə malik siyasətçinin bu tezisinin fəlsəfi-politoloji dəyərinin açılması böyük elmi-monoqrafik əsərin aktual mövzusudur. Heydər Əliyevin 34 il ərzində Azərbaycan dövlətçiliyinə rəhbərlik etməsinin şahidi olan nəsillər çox gözəl xatırlayır ki, onun idarəçiliyi illərində onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahədə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır.

Dərin demokratik zəkaya və kadr seçmək, kadrların siyasi-intellektual potensialından bacarıqla istifadə etmək qabiliyyətini dəfələrlə nümayiş etdirən təcrübəli dövlət başçısı həmişə respublika həyatının müxtəlif sahələri ilə bağlı kadrların öz yerində istifadəni ön plana çəkirdi. O, hesab edirdi ki, professional, səriştəli kadrların hamısı ictimai-siyasi təşkilatlara, partiyalara mənsubiyyətindən asılı olmayaraq fəal quruculuğa cəlb edilməlidirlər.

Respublikada «kadr aclığı»nın olduğu bir vaxtda Azərbaycandan kənarda, Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük iş təcrübəsi toplamış azərbaycanlılardan istifadə olunmaması Heydər Əliyev düşüncəsini çox narahat edirdi. Vaxtilə onun təşəbbüsü ilə SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almış gənclərin, mütəxəssislərin potensialından səmərəli istifadə etməmək, üstəlik, bu dövlət əhəmiyyətli məsələyə sosial biganəlik cəbhəçilərin dövründə, açığını desək, cinayət idi. Bu səbəbdən Heydər Əliyev israrla bildirirdi ki, onları öz Vətənlərində müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilər. Fəlsəfi-politoloji təhlil səviyyəsində dərk olunmasına ehtiyac duyulan bu müdrik mövqeyinin fonunda cəbhəçilərin demokratiya haqqında bəlağətli bəyanat-

ları necə də cılız görünür! «Heç olmasa, prezident sarayına bir daş atmısan ki, sənə vəzifə verək» prinsipini rəhbər tutan cəbhə liderlərinin «rəhbərliyi», nəinki kadr məsələsini həll edə bilmədi, əksinə, uzun illərin gərgin əməyi sayəsində formalaşmış ziyalılarımız Vətəni tərk edib öz potensiallarını qürbətdə istifadə etməyə üstünlük verdilər.

Həmin illərdə canfəşanlıqla bolşeviklərin siyasi simasını sözdə «ifşa» edən cəbhəçilər, meydana toplaşanları kommunistlərə qarşı yürüşə çağıran liderlər hakimiyyətə gələn kimi bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə etməyə başladılar. Təəssüf ki, onlar respublikanın idarəetmə strukturlarında bu tarixi anaxronizmi geniş tətbiq edirdilər.

1992-93-cü illərdə Azərbaycanda hakimiyyətsizliyin tüğyan etməsi gənc İlham Əliyevi də dərin düşüncələrə dalmağa, milli zəmində görünməyən hadisələrdən baş açmağa vadar edirdi. Qloballaşma özü ilə çox qəribə fəlsəfə gətirir: dünyanın, zamanın böyük həqiqətini kiçik vətənində dərk edirsən. Gənc İlham Əliyev atasının millətin gələcəyi barədə narahatçılığını bölüşdürərkən başa düşürdü ki, hakimiyyətdə olan marginalların ucbatından hərc-mərcliyin «ipə-sapa yatmayan» dəhşətlərini yaşayan cəmiyətdə demokratik ifadəetmədən söhbət gedə bilməz. Yüksək səviyyəli vəzifəni tumuş marginala demokratiyanın mahiyyətini aşılamaq qətiyyən mümkün deyildi. Bu qeyri-normal əxlaqi vəziyyət istər-istəməz dövlətçiliyin taleyini «uçurum» kateqoriyasınada təsəvvür etməyə sövq edirdi. Belə hakimiyyətsizlik xarici dövlətlərin cəmiyyətimizin daxili işlərinə qarışmasına zəmin yaradırdı. O dövrdə gənc siyasətçi fikirləşirdi ki, əgər bu vəziyyət uzun sürərsə cəmiyyət tam idarəolunmaz həddə çata bilər. Artıq sağlam düşüncəli qüvvələr başa düşürdülər ki, optimal, müstəqil idarəetmə siyasətinə, demokratik düşüncəli kadrlarlara necə də ehtiyac var. Heydər Əliyevin demokratik quruculuq konsepsiyasında «dördüncü tezisi» məhz bu narahatçılığı əks etdirirdi: «müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, hər şeydən əvvəl, respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır». Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir. Bu tezis Azərbaycanda demokratik idarətmə nəzəriyyəsinin bünövrəsinin

qoyulması demək idi. Bu gün İlham Əliyev demokratiya dərsinin milli gerçəkliyimiz üçün nə olduğunu artıq mənimsəyə bilmişdir.

Heydər Əliyevin demokratik siyasət məktəbinin incəliklərinə həssaslıqla varan İlham Əliyev bu əqidəni əxz etmişdi ki, Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır. Təbii ki, əlində avtomat televiziyaya soxulub öz marginal dünyagörüşünü diktə edən cəbhəçilər hərəmərcliyə qarq etdikləri respublikada heç bir dəyişiklik edə bilməzdilər.

Gənc siyasətçi respublikadakı vəziyyəti təhlil etdikcə Heydər Əliyevin demokratik quruculuq konsepsiyasında belə bir mühüm məqamı bölüşdürürdü ki, yeni, müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni, müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hamı onun tərəqqəsinə çalışmalıdır. Bu işdə heç kəsin sağlam düşüncəyə söykənən fəaliyyətinə məhdudiyyət qoyulmamalıdır.

Bu gün 1994-cü ilin 4 oktyabr, 1995-ci ilin 15-17 mart hadisələrini vətəndaş vicdanı ölçülərində qiymətləndirərkən, milli dəyərlərimizə və dövlətçilik prinsiplərinə vurduqları yaddaş yarasını bir daha ürək ağrısı ilə xatırlayarkən «beşinci tezisdə» vurğulanan dahi uzaqgörənliyə heyran qalırsan. Heydər Əliyev yazır: «Son zamanlar Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin təzahürü böyük təhlükə yaradır. Belə meyllərin qarşısı qətiyyətlə alınmalıdır». Yaranan problemlər sivilizasiya və demokratik yollarla həll edilməlidir.

Ana yurdumuz Azərbaycan ta qədimdən onun ərazisində yaşayan bütün insanların vətəni olmuşdur. Ona görə də, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanması və inkişaf etdirilməsi müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün ali məqsəd, yüksək amaldır.

Mövcud reallıqların məntiqi inkişafını düzgün qiymətləndirən Heydər Əliyev özünün demokratik quruculuq konsepsiyasında etiraf edirdi ki, Azərbaycanın o dövrdəki həyatı və gələcək taleyi ilə bağlı problemlər onda narahatlıq doğurur. Lakin o, müraciətində yuxarıda göstərilən respublikanın inkişafı üçün magistral istiqamətlərə, qlobal məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirdi. «Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın

çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur».

Şübhə etməmək olar ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizmin daha da inkişafı çox önəmli problemdir. Məhz belə bir şəraitdə Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın siyasi reallıqlarında ictimai intizam yaratmaq, kütlələrin sosial enerjisini demokratik quruculuq işinə səfərbər etmək baxımından obyektiv zəruriyyətdən doğurdu.

Heydər Əliyev bununla bağlı yazırdı: «Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər».

Təsadüfi deyildir ki, belə partiya yaradılan kimi həm Heydər Əliyev, həm də İlham Əliyev onun fəaliyyətində fəal iştirak etməyə başladılar.

Bu gün dərin ehtiram hissi ilə demək istərdik ki, tarixi müdriklik nümayiş etdirən qədirbilən ziyalılarımızın xalqımızın öz taleyində keçirdiyi ağır günlərdə, demək olar ki, milli fəlakət həddinə çatdığı bir dövrdə yaratdıqları Yeni Azərbaycan Partiyası demokratik dəyərlərə söykənərək cəmiyyətimizi sosial atalət durğunluğundan xilas etdi, Heydər Əliyev zəkasının təcəssümünə çevrilərək İlham Əliyev üçün ikinci siyasət məktəbi oldu.

Çox şübhəsiz ki, Yeni Azərbaycan Partiyasının meydana gəlməsi və onun cəmiyyətimizdə demokratik proseslərdə önəmli siyasi-təşkilati fəaliyyəti xüsusi bir mövzudur. Hər halda ilkin olaraq bunu qeyd etməyi vacib sayırıq ki, İlham Əliyevin siyasi təcrübəsinin formalaşmasını bu partiyasız təsəvvür etmək mümkün deyildir. O, realist, praqmatik siyasətçi kimi ilk addımlarını bu partiyada, Azərbaycan gənclərinin siyasi-əxlaqi tərbiyə məktəbi olan Yeni Azərbaycan partiyasında atmışdır. O iftixar hissilə qeyd edir ki, «bu partiyada yaşlı nəslin müdrikliyi gənclərin enerjisi ilə qovuşur». Partiyada məhz bu müdriklik fəlsəfəsinin hökm sürməsi gəncləri bu demokratik dövlətçilik partiyasına cəlb edir.

İqtidarda olan, yeni əsrin, yeni minilliyin demokratik dəyərlərini özünə fəaliyyət prinsipləri seçən güclü intellektual potensiala malik Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın siyasi həyatında dominant öncül qüvvə kimi iştirak edir. Bu partiyanı gənclər üçün müdriklik məktəbi hesab edən İlham Əliyev YAP Sədrinin birinci müavini kimi 2000-ci ilin parlament seçkilərində proporsional seçki blokuna rəhbərlik etmiş, seçkilərdə böyük uğur qazanmışdır. Xatırladaq ki, YAP-ın 21 dekabr 1999-cu ildə keçirilmiş I qurultayında İlham Əliyevin partiya rəhbərliyində sədrin müavini seçilməsi onun statusunu daha önəmli etmişdir, siyasi fəaliyyətinə yeni, güclü impuls vermişdir. Onun bu statusu şəxsi prinsiplərlə məhdudlaşmır. İlham Əliyevin YAP-ın sədr müavini seçilməsi, bir tərəfdən bu partiyanın fəaliyyət fəlsəfəsinin nüfuzunu, cəmiyyətimizin siyasi həyatının dialektikasını əks etdirmiş, digər tərəfdən yeni düşüncə tərzinin daşıyıcısı olan intellektual gənclərin kütləvi surətdə partiyaya axınını təmin etmişdir. Artıq bu amilin özü İlham Əliyevin böyük siyasətdə dərin nüfuz qazanmasından xəbər verirdi. Bu yeni status siyasi tərbiyə məktəbi oldu, belə ki, partiya həyatının gələcək inkişafının İlham Əliyev faktoru meydana gəldi. Siyasi leksikona ictimai həyatımızın etik normasına çevrilən «mənim siyasətim ondan ibarətdir ki, əməli-praktik işlərlə məşğulam» kəlamı gətirildi, böyük siyasətə sözün əsl mənasında milli inkişafın məntiqinə söykənən praqmatik siyasətçi gəldi.

Bu hər şeydən əvvəl, Azərbaycanın demokratik gerçəkliyində, ölkəmizin sosial-siyasi islahatlara başladığı mürəkkəb bir mərhələsində milli inkişafın rəhnı olan Heydər Əliyevin siyasi müdrikliyi, onun dövlətçilik təcrübəsi ilə İlham Əliyevin idarəçilikdə yeni düşüncə, gənclik enerjisi çeviklik, idarəetmədə liberalizm, siyasətdə praqmatizm kimi keyfiyyətlərinin qovuşduğu gerçəkliyin daxili və xarici siyasətin dominant xəttinə çevrilməsi idi. «İlham Əliyevin bir əqidəsi var, bir siyasəti var, bir amalı var – Azərbaycana xidmət, Heydər Əliyevə xidmət» - bu kəlam İlham Əliyevin həyat kredosuna, xalqa, dövlətə, rəhbərliyində bu gün də fəal iştirak etdiyi partiyaya xidmət kredosuna çevrildi, ona siyasət səhnəsində mübarizlik əzmi verdi.

Azərbaycanın müasir qloballaşma əsrində seçdiyi inkişaf yolu İlham Əliyevin kredosuna uyğundur. O, hesab edir ki, demokratik dəyişikliklərin həyata keçirildiyi illərdə «Azərbaycanın qazandığı nailiyyətlər mütləq qorunub saxlanmalı və artırılmalıdır. Bu gün prezidentin rəhbərliyi ilə Azərbaycanın getdiyi yol bir çox illər, və on illər üçün tutduğu yol olaraq qalmalıdır».

Zamanın ağır sınaqlarına məruz qalmış, tarixinin sərt dönüşlərində mübarizlik ruhunu itirməmiş Azərbaycan XXI əsrə müstəqillik yolları ilə inkişaf etmək, sivilizasiyalı, demokratik, hüquqi dövlət quruculuğu, azad bazar iqtisadiyyatı sahəsində uğur əldə etməklə, insan və vətəndaş hüquq

və azadlıqlarının bərqərar olmasına əsaslanan, vətəndaş cəmiyyətini formalaşdırmaq amalı ilə qədəm basmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin «bizim respublikamız cəmiyyətdə hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu yolunu tutmuşdur» ifadəsi inkişaf yolumuzun qlobal istiqamətini müəyyənləşdirmişdir. Dövrün inkişaf tələblərindən geri qalmayan respublikamız siyasətdəki islahatlarını iqtisadi islahatlarla ahəngdar əlaqədə aparır. 1993-cü ildə Heydər Əliyev iqtisadiyyatın inkişafının bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan başlıca istiqamətlərini Azərbaycan dövlətçiliyinin müstəqilliyinin və suverenliyinin, bütövlükdə demokratikləşmə proseslərini inkişaf etdirməyin başlıca xətti kimi irəli sürmüşdür. İlham Əliyev tamamilə doğru olaraq göstərir ki, «son illər ərzində Azərbaycan cəmiyyəti bu xəttin düzgünlüyünə əmin oldu». Təsadüfi deyildir ki, əsas iqtisadi göstəricilərinə görə ölkəmiz MDB ölkələri arasında birinci yeri tutur.

Deyilənlərdən belə nəticəyə gələ bilərik ki, dövlət suverenliyini inkişaf etdirmək, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək İlham Əliyevin siyasi və diplomatik fəaliyyətinin konseptual qayəsidir. «Keçmişə qayıdış yoxdur» deyən siyasətçi inanır ki, bu gün heç bir azərbaycanlı hərcmərclik, sabitsizlik taleyi ilə barışmaz. Xalqın əqidəsi dəyişmiş, onun milli-siyasi şüuru xeyli artmış, amma bununla belə bir hadisələrə sağlam düşüncə mövqeyindən baxmağı öyrənməliyik.

Milli tarixi gerçəkliyimiz də göstərir ki, dövlət suverenliyi və müstəqilliyi, milli dövlətçiliyin təşəkkülü insanlarımızın, bütövlükdə cəmiyyətimizin birliyinin mühüm amili olan xalqın siyasi şüurunun düzgün formalaşması ilə sıx bağlıdır və bu amil suveren dövlətin siyasətinə həlledici təsir göstərir. Artıq məlum həqiqətdir ki, respublikaların sosial-siyasi müstəqilliyi, o cümlədən Azərbaycan Respublikasının suverenliyi, onun dünya birliyi tərəfindən beynəlxalq münasibətlər subyekti kimi tanınması SSRİ-nin dağılması sayəsində mümkün oldu. Təbii ki, bu, avtomatik proses olmayıb əsasən müxtəlif xalqların milli şüurlarının yüksək inkişafının nəticəsi kimi təzahür etdi. Gözlənilməz dərəcədə tez baş verən hadisələrin real məntiqi xalqların milli düşüncəsində adekvat ziddiyyətli məqamlar yaratdı. Sovet gerçəkliyində ideologiyalaşdırılmış stereotiplərə məruz qalmış yeni reallıqlarada mifləşmiş durğunluq və staqnasiya vəziyyətində «inkışaf etmiş sosializmin» əlamətlərini görmüş oldu.

Politoloqların əksəriyyəti güman edirdi ki, guya bazar münasibətlərinə keçməklə bütün milli inkişaf problemləri öz-özünə həll olunacaqdır. Hətta Qərbin bir sıra siyasətçiləri hesab edirdilər ki, demokratiya, bazar münasibətləri və milli problemlərin həlli eyni müstəvidə baş verə bilər. Həyat göstərdi ki, bu modelin real proseslərlə çox az əlaqəsi var. Diktatura şəraitində də bazar münasibətləri pis inkişaf etməmişdir. Bəzi hallarda, hətta bazar iqtisadiyyatına keçidin özü diktatura metodları ilə idarəçiliyə ehtiyac yaradır (məsələn, Çili nümunəsi). Milli inkişaf və dövlətçilik problemlərinə gəldikdə isə, bazar bəzən onları mürəkkəbləşdirə də bilər. Artıq bu gün özəlləşdirmə (siyasətin nə dərəcədə düzgün qurulub-qurulmamasından asılı olmayaraq) dövlət suverenliyi ilə vəhdətdə götürülür. Xalqlar torpaq üzərində mülkiyyət məsələsində narahatlıq keçirir, qorxurlar ki, son dayaqları olan torpaqları itirməklə dövlət müstəqilliyini də itirə bilərlər.

Məlumdur ki, müxtəlif respublikalarda iqtisadi islahatlara start imkanları eyni olmamışdır, bəzilərinin iqtisadiyyatının strukturları bazar iqtisadiyyatı üçün daha uyğun və əlverişlidir, bəzilərində isə bu imkanlar azdır, digərlərində isə ümumiyyətlə, belə struktur potensialı yoxdur. Bu səbəbdən də bazar iqtisadiyyatının yaxşılaşdıracağına hələ bir çox postsovet regionlarında inam o qədər də güclü deyil. Bu vəziyyət isə demokratik dövlətçilik siyasətinə təsir etməyə bilməz. Təbii ki, belə halda milli psixologiyanın mövcud reallıqlara reaksiyasını da unutmaq olmaz. Dünya praktikası da göstərir ki, nə yüksək demokratiya, nə iqtisadi rifah milli inkişafı avtomatik həll etmir.

Milli inkişafın mühüm sosial mexanizmi olan suverenlik məsələsi son dərəcə mürəkkəb, daim diqqət tələb edən problemdir. Regionların etnik xüsusiyyəti, dövlətçiliyinin mahiyyəti onun mövcudluğunun məqsədi və mənasıdır. Dövlət suverenliyindən, onun şüura və yetkin şüurun bu suverenliyin yaranmasına və inkişafına təsirindən söhbət gedərkən, ilk növbədə millətin siyasi mədəniyyəti və onun taleyüklü problemləri nəzərə alınmalıdır. Demokratiya nəzəriyyələri sübut edir ki, «Suverenlik» kateqoriyası geniş xarakter kəsb etdiyindən «dövlət hakimiyyəti», «suverenliyin daşıyıcıları», «dövlət funksiyaları», «dövlət quruluşu», «hökmranlıq formaları», «siyasi rejim», «konstitusiya hüquq qaydası» kimi anlayışlar ondan subordinasiya asılılığında olurlar. Başqa sözlə, həmin anlayışlar mövcud siyasi reallıqda suverenlik anlayışının, onun inkişafının ardıcıl açılmasında konkret rol oynayırlar.

Məhz bu anlayışlar çərçivəsində suverenliyin dərk edilməsi, dövlətin konkret, açılmayan mahiyyətlərinə doğru hərəkətdir. Nəzəri təfəkkür bu hərəkəti dövlət suverenliyini ümumi idrak obyekti və yeni posttotalitar regional qlobal geosiyasi reallıqların düşünülmüş, şüurlu dərkinin nəticəsi kimi qəbul edir. Buna görə də suverenlik anlayışının köməkliyi ilə müasir dünyada dövlətin, onun beynəlxalq mövqeyinin mahiyyəti anlamının inkişafını öyrənmək mümkündür.

Suverenliyini dərk edən millət isə həmrəylik dairəsinə cəlb olunmağa, digər mədəni aləmlərin daşıyıcıları olan insanların mənafeləri ümumiliyinə qoşulmağa səy göstərir, öz dövlətçiliyini dünya birliyində tanıtmağa çalışır.

Bu gün demokratik inkişaf yolunda olan Azərbaycanın dünya birliyində tanınmasını aktuallaşdıran amillər hansılardır və bunlar İlham Əliyevin siyasi fəaliyyətində necə həyata keçirilir.

Birincisi, dünya siyasəti çərçivəsində müstəqilliyin və suverenliyin inkişafı üçün məsuliyyət daşımaq və bunun naminə ilkin şərt olaraq cəmiyyətimizin sosial sabitliyini təmin etmək. Belə bir mövqe artıq dünya birliyində özünü doğrultmuşdur.

İlham Əliyevin qeyd etdiyi kimi 1993-cü ildən başlayaraq, bizim liderimiz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan hərc-mərclikdən sabitliyədək, özbaşınalıqdan qayda-qanunadək, iqtisadi böhrandan iqtisadi yüksəlişədək, vətəndaş müharibəsindən vətəndaş sülhünədək yol keçmişdir.

İkincisi, daxili problemlərin analitik təhlili və rasional həyata keçirilməsi cəmiyyətimizin sosial institutlarının, deməli, onun ictimai şüurunun yetkinliyini artırmışdır. Bu isə dövlətçiliyin inkişafının mühüm şərti olan xalqın mənlik şüurunun və siyasi mədəniyyətinin inkişafına pozitiv təsir göstərmişdir. «İnsan üçün öz xalqına xidmət etməkdən, xalqa xeyir verməkdən, onun hörmət və məhəbbətini qazanmaqdan böyük xoşbəxtlik ola bilməz» - İlham Əliyevin bu səmimi etirafı cəmiyyətimizin ictimai şüurunun inkişafının güclü sosial-psixoloji detonatorudur. Onun əqidəsincə, milli dövlətçilik şüurunun müsbət göstəriciləri öz vətənini və xalqını sevən, gələcək nəsillərin qayğısını çəkən sağlam düşüncəli insan kimi yetişdirməkdir, bu mənəvi-əxlaqi keyfiyyətləri mənlik şüurunun tərkib elementlərinə çevirməkdir.

FƏZAİL AĞAMALI
Milli Məclisin deputatı
Ana Vətən Partiyasının sədri,

HEYDƏR ƏLİYEVİN MİLLİ DÖVLƏTÇİLİK KONSEPSİYASI YENİ MƏRHƏLƏDƏ

Ulu öndər, dünya miqyaslı tarixi şəxsiyyət Heydər Əliyevin milli dövlətçilik konsepsiyası zamanın ağır sınaqlarından şərəflə çıxmış və xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkisində bu konsepsiyanın yeni mərhələdə davam etdirilməsi üçün siyasi iradə, qətiyyət ortaya qoymuşdur. Bu gün Heydər Əliyev milli dövlətçilik konsepsiyası böyük müdrüklük və bitib-tükənməz enerji ilə davam etdirilməkdədir.

Təbii ki, bu barədə geniş təhlilə başlamazdan öncə ulu öndərimizin Azərbaycan dövlətçilik tarixində və dünya siyasətindəki roluna toxunmaq daha obyektiv olardı. Etiraf olunmalıdır ki, Heydər Əliyev siyasi obrazı elə bir fenomenə çevrilib ki, hər kəs onda öz fikri, əqli, elmi-nəzəri, habelə şəxsiyyət kimi formalaşmağa imkan verən keyfiyyətləri görə bilir. Bu inanc bəşər övladına xas olan yenilməzlik və ölməzliyin bədii inikası qədər mifoloji və əfsanəvidir. Bu obraz 70 il Sovet müstəmləkə əsarəti altında yaşamağa məhkum olmuş bir xalqın öz övladını nəhəng imperiya idarəçiliyinin zirvəsinə yüksəltməsi kimi unikal özünütəsdiqin möcüzəsidir. Bu, azadlıq təşnəsi olan bir xalqın müstəqilliyini onun üçün faktiki siyasi mövcudluq həddinə qaldırmış, ona dövlətçilik bəxş etmiş triumfal bir şəxsiyyətin əfsanəsidir. Heydər Əliyev obrazının dəyəri ictimai şüurda bununla məhdudlaşmır, o, Azərbaycanın daha işıqlı gələcəyinin ən etibarlı təminatı ucalığında dərk edilir.

İstər sovet dövründə, istərsə də dövlət müstəqilliyimizin bərpasından sonra o, misli görünməmiş bir səmimiyyət və sədaqətlə Azərbaycan xalqını müasir dünyanın mədəni və demokratik dəyərlərinə tapınan millətlərin cərgəsinə qoşulması, dirçəlməsi, tərəqqisi üçün gecəli-gündüzlü gərgin əmək sərf etmişdir. Heydər Əliyevi şəxsiyyətinin üstünlüyü daha iki

səciyyəvi əlamətlə - ideyalılığı və təmənnasızlığı ilə fərqlənir. Güclü, qüdrətli Azərbaycan ideyası, dövlətin fasiləsiz inkişafı konsepsiyası onun həyat kredosu idi. Heydər Əliyev hələ 1969-1982-ci illərdə, daha sonra Moskvada, Siyasi Büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışarkən, daim Azərbaycanın yüksəlişini düşünmüş, bu istiqamətdə məqsədyönlü fəaliyyət göstərmişdir. Heydər Əliyev tarixi proseslərin məntiqi nəticəsi kimi meydana çıxan xilaskar liderdir. Uzun illər müstəmləkə həyatı yaşamış xalqın öz sıralarından belə bir unikal şəxsiyyət çıxarması tarixi zərurət idi.

Heydər Əliyev milli dövlətçilik konsepsiyasının özünəməxsus cəhətləri, taktiki və strateji hədəfləri, konkret məqsədləri var. Bu məqsəd və hədəflərə o, zaman-zaman nail olub. Yeni mərhələ özünün kompleks xarakteri ilə seçilir. Bunu stabil inkişaf mərhələsi adlandırmaq daha məqsədəuyğun olardı. Ölkədə demokratikləşmə prosesi normal məcrada davam etdi, siyasi sistemin ementləri arasında total ziddiyyətlər aradan qalxdı, iqtisadi inkişaf təmin olundu, ölkənin beynəlxalq imici ilə bağlı ciddi pozitiv irəliləyişlər ortaya çıxdı. Bir sözlə, Heydər Əliyevin dövlətçilik irsi Azərbaycanı müasir, demokratik, sivil imicə malik Qərb siyasi modelinə əsaslanan bir ölkəyə çevirdi. Azərbaycan tarixində yeni siyasi era adlandırıla biləcək bu mərhələdə dövlət institutlarının tam yeni əsaslarda, dünya standartlarına uyğun şəkildə formalaşması prosesi başa çatdı. Bu prosesdə Heydər Əliyevin yürütdüyü siyasətin pozitiv mahiyyəti ondan ibarət idi ki, o, cəmiyyəti keyfiyyətcə yeni dəyərlərdə demokratik dəyişikliklərə və vərdişlərə hazırlaya bildi. Əldə olunan uğurlar göz qabağındadır. Demokratikləşmə prosesi daha ictimai rəy tərəfindən Qərbdən "ixrac olunan xammal" kimi başa düşülmür və bu Azərbaycan cəmiyyətinin öz daxili tələbatlar sistemi kimi qəbul edilir. Və artıq cəmiyyət demokratiyanın alternativini görmür. Təsadüfi deyil ki, bu gün beynəlxalq iqtisadi təşkilatlar, o cümlədən bank-biznes dairələri Azərbaycanın iqtisadi inkişafı barədə nikbin proqnozlar verirlər. Bu cür inkişafa isə yalnız demokratik cəmiyyətlərdə nail olmaq mümkündür, çünki total buxovlar cəmiyyətin digər sahələrində olduğu kimi iqtisadi inkişaf üçün də əngələ çevrilir. Məsələyə bu məntiqlə yanaşsaq, Azərbaycanda demokratiya üçün heç bir problemin olmadığını qəti əminliklə demək olar. Yaxın gələcəkdə Azərbaycanın iqtisadi baxımdan qüdrətli, siyasi baxımdan tam demo-

kratik, beynəlxalq imic baxımından daha sivil bir ölkəyə çevrilməsi heç kimdə şübhə doğurmamalıdır.

Cəmi 10 il ərzində Azərbaycan cəmiyyətində bu qədər nəhəng dəyişikliklərə nail olmaq bir çoxlarının təsəvvür etdiyi kimi heç də asan başa gəlməyib. Heydər Əliyev harizması cəmiyyəti, bütövlükdə Azərbaycan dövlətçiliyini gələcəkdə ehtimal edilən bütün bəlalardan da qoruya bildi. Ölkədə elə bir siyasi sistem təşəkkül tapıb ki, burada istənilən problemin konkret həll mexanizmi mövcuddur və ictimaiyyətin öz gələcək aqibəti haqda gümansızlığı yoxdur. Bu tendensiya cəmiyyətdə 2003-cü il 15 oktyabr prezident seçkisindən sonra daha da möhkəmləndi. Həmin gün xalq Heydər Əliyevin dövlətçilik irsinin siyasi varisiliyini təmin etmək üçün öz qəti və prinsipial mövqeyini ortaya qoydu. Və bununla da Heydər Əliyevin dövlətçilik irsinin həyata keçirilməsi istiqamətində qarşıya yeni vəzifələr çıxdı. Bu, Heydər Əliyevin dövlət quruculuğu siyasətinin davamı, növbəti məntiqi mərhələsi idi.

Əlbəttə, xalqımız 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində hakimiyyət dəyişikliklərinin və onların daşıyıcılarının sistemsiz, millətimizə baş ucalığı gətirməyən idarəçilik metodlarının ağır nəticələrini yaşamışdı. Xalqımız həm də 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn və qısa zaman kəsiyində ölkəni fəlakətlərdən qurtarıb müstəqil, demokratik və güclü Azərbaycan dövlətini yaradan Heydər Əliyev zəkasının, qərgin əməyinin və yenilməz iradəsinin məntiqi nəticəsi olan əmin-amanlığın, sabitliyin və iqtisadi dirçəlişin bəhrələrini görməkdə idi. Heydər Əliyev dövlətçilik ənənələrinin qorunub saxlanılmasına, onun müəyyən etdiyi kursun siyasi varisliyinin təmin olunmasına xalqın ciddi əhəmiyyət verməsi məhz bu məntiqə söykənirdi.

Cəmiyyət Heydər Əliyevin daxili və xarici siyasət kursuna alternativ görmədiyi kimi bu strategiyanı uğurla davam etdirəcək siyasi xadimi də haqlı olaraq ümummilli liderin komandasında müəyyənləşdirdi. Və sözsüz ki, bu inam məhz İlham Əliyevin fəaliyyəti üzərində köklənmişdi. Cəmiyyətdə qəti olaraq belə bir rəy formalaşmışdı ki, İlham Əliyev Heydər Əliyevin siyasi kursunun müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz şəxsdir.

İlham Əliyevin ən üstün cəhəti ondan ibarətdir ki, o, mövcud reallıqları operativ və obyektiv olaraq qiymətləndirməyi bacarır. Cəmiyyətin sosi-

al sifarişinə uyğun çevik qərarlar qəbul edir. Xüsusilə, ölkənin sosial-iqtisadi problemlərinə onun münasibəti daha həssasdır. İlham Əliyev həm də istedadlı strateq olaraq Azərbaycanın geosiyasi mövqeyini ustalıqla qiymətləndirir. Etiraf edilməlidir ki, İlham Əliyev fenomeninin cəmiyyətin simpatik göstəricisə çevrilməsi ilk növbədə təbii-siyasi amillərdən qaynaqlanan gerçəklikdir. Peşəkar siyasətçi kimi İlham Əliyevin siyasi-psixoloji portretinin əsasını təşkil edən komponentlər onun Azərbaycan və dünya siyasi arenası üçün uğurlu sima olduğunu birmənalı olaraq sübut edir. O, öz siyasi simasında Qərb standartlarını - aristokratik rəftarı, rasional düşüncə tərzini, alovlu vətənpərvərliyini, praqmatizmin milli mentalitetlə son dərəcə dəqiqliklə uzlaşdırılmış ansamblını yaratmağa nail olub. İlham Əliyev bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə həm də yeni nəfəs, siyasi ruh və müasirlik gətirib. Onun siyasətçi kimi formalaşmasına təsir edən komponentlərin sırasında-siyasi romantizm, psevdopətənpərvərlik, arxaik siyasi elementlər yoxdur. İlham Əliyevin 15 oktyabr qələbəsini zərurətə çevirən digər amillərin də təhlili maraq doğurur. Belə ki, seçki öncəsi cəmiyyətin apardığı komporotiv təhlil İlham Əliyevin siyasi portretinin əsas cizgilərini müəyyənləşdirmək baxımından faktoloji xammala çevrildi. İlham Əliyev müxalifət liderlərindən fərqli olaraq öz rəqiblərinə olan münasibətini şəxsi antipatiya və yaxud siyasi streslərin təsiri altında müəyyənləşdirmədi. Çünki, siyasi illüziyalar onun bir siyasətçi kimi xarakterik xüsusiyyətlərinə yaddır. Müxalifət liderlərindən fərqli olaraq İlham Əliyev abstrakt siyasi baxışların daşıyıcısı deyil. Seçkilərə hazırlıq dövründə onun siyasi kombinasiyalarında daha çox konkretlik müşahidə edildi. Açıqlamalarından bəlli olurdu ki, İlham Əliyevin rəqiblərinə qarşı adekvat siyasəti etik prinsiplərə əsaslanır. Bu isə siyasi praqmatizmin ən real göstəricisidir. Amma müxalifət liderlərinin siyasi fantaziyaları o qədər qeyri-etik idi ki, hətta onlar öz rəqiblərini məişət zəminində olan dedi-qodularla həcələməkdən belə çəkinmirdilər. İctimai rəyi formalaşdırmaq bacarığına görə də müxalifət liderləri İlham Əliyevin statusuna iddialı ola bilməzdilər. Bu xüsusiyyət İlham Əliyevdə daha spesifik səciyyə daşıyır.

Faktiki olaraq bu gün ictimai rəy üçün seçim problemi yoxdur və «sıfır» variantı demək olar ki, öz aktuallığını itirib. Daxili və xarici siyasətdə, ictimai şüurda İlham Əliyevin Heydər Əliyevin siyasi kursunun kompleks şəkildə davam etdirmək potensialına malik lider kimi qəbul edilməsi reallıqdır. Məsələyə bu kontekstdən yanaşdıqda tam əminliklə demək olar ki, İlham Əliyevin peşəkar siyasətçi kimi malik olduğu üstün keyfiyyətlərlə bu məsələnin ideoloji tərəfləri bütöv bir sistemin daxili strukturunu təşkil edir. Yəni mövcud siyasi kursun inkişafını, gələcəyini İlham Əliyevsiz təsəvvür etmək mümkün deyil. İlham Əliyevin prezident seçilməsinin ölkənin mili maraqları barədə hər bir kəsdə fərdi arxayınçılıq, ümummilli kontekstdə isə cəmiyyətə ictimai inam aşılayır. **Heydər Əliyev tərəfindən ölkənin milli maraqları, xarici siyasət prioritetləri, dövlətçiliyin təməl prinsipləri, iqtisadi inkişaf dinamikası və digər önəmli strategiyalar müəyyənləşdirildiyindən bu sahələri birləşdirən vahid konsepsiyanın real imkanlara malik lider tərəfindən davam etdirilməsi zərurəti sosial sifariş kimi ortaya çıxmaqda idi.**

İlham Əliyevin liderlik keyfiyyətlərinin beynəlxalq aspektləri də son illər müzakirə edilən ən populyar mövzular sırasındadır. ABŞ politoloqu Rouls hesab edir ki, liderin beynəlxalq imici onun daxili siyasətdəki statusu ilə vahid ansambl təşkil etməli, bu parametrlər bir-birini tamamlamalıdır. Amma etiraf edilməlidir ki, dünyada çox az lider var ki, o, həm xarici, həm də daxili siyasətin bütün paralel müstəvilərində öz uğurlarını təmin edə bilsin. Liderin beynəlxalq imicinin hansı səviyyədə olması ilk növbədə onun öz ölkəsinin milli maraqlarının reallaşması əmsalında öz təsdiqini tapır. Əgər İlham Əliyevin siyasi lider kimi imicinə bu aspektdən yanaşsaq, qeyd olunan nəzəri müddəanın doğruluğunu tamamilə sübuta yetirmək olar. Çünki istər neft strategiyası ilə bağlı gördüyü işlər, istərsə Avropa Şurasındakı fəaliyyəti, istərsə də xarici siyasət müstəvisində əldə olunan uğurlu nəticələr Azərbaycanın milli maraqlarını təmin etməklə yanaşı, İlham Əliyevin liderlik keyfiyyətlərinin həm rasional, həm də harizmatik tərəfləri barədə real təsəvvürlər yaradıb. Bunu konkret faktlar da təsdiqləyir ki, İlham Əliyev ölkənin xarici siyasət prioritetləri ilə bağlı bir sıra strateji problemlərin həllində ciddi siyasi faktor kimi çıxış etmişdir. Bu faktı vurğulamaqda məqsədimiz siyasi dairələrdə və bütövlükdə cəmiyyətdə müxalifətin əsl mahiyyəti barədə real təsəvvürlər yaratmaqdır.

Mövcud reallıqlar, Qərb siyasi təcrübəsi sübut edir ki, legitim hakimiyyət dövlətin qarşısına qoyduğu strateji hədəflərə çatmağın ən optimal yoludur. Bu reallığı ulu öndər Heydər Əliyevin on illik hakimiyyəti dövründə əldə olunan titanik nailiyyətlər də təsdiqləyir. Ümumiyyətlə,

Azərbaycanda legitim hakimiyyətin formalaşması prosesinə 1993-cü ildə start verilib. Bu ənənə 2003-cü il prezident seçkisində də davam etdirildi. Məhz İlham Əliyevin legitim prezident olmasının məntiqi nəticəsidir ki, postseçki dövrünün reallıqları böyük quruculuq işləri, əhalinin maddi həyat səviyyəsinin yaxşılaşdırılması, siyasi sabitliyin qorunub saxlanılması, vətəndaş həmrəyliyinin gücləndirilməsi kimi amillərlə müşahidə olunmaqdadır. İlham Əliyev 2003-cü il noyabrın 1-də keçirilən inauqurasiya mərasimində and içərək bildirdi ki, o, bütün azərbaycanlıların prezidenti olacaq. Fəxrlə deyə bilərik ki, dövlət başçısı həmin vədi böyük məsuliyyət və şərəflə yerinə yetirir.

Xatırlamaq yerinə düşərdi ki, 1993-cü il seçkilərində Heydər Əliyev əhalinin mütləq əksəriyyətinin səslərini qazanaraq prezident vəzifəsinin icrasına başlayanda ölkədə nə siyasi, nə də iqtisadi sabitlik vardı. Buna görə də Heydər Əliyev on illik hakimiyyətinin təqribən yarısını ölkədə dövlət quruculuğunu həyata keçirmək, sosial-iqtisadi inkişafın bazisi rolunu oynayacaq ictimai-siyasi sabitliyin bərqərar edilməsinə yönəltmişdi. O, buna nail oldu. İlham Əliyevin üzərinə düşən tarixi missiya isə ondan ibarətdir ki, o, xalqımızı bu yolda səfərbər edərək ulu öndər Heydər Əliyevin müəyyən etmiş olduğu siyasəti uğurla davam etdirsin. Bunun üçün onda bütün keyfiyyətlər işgüzarlıq, təcrübə, intelektual resurs, natiqlik məharəti, bir sözlə bütün potensial var.

Etiraf olunmalıdır ki, həm gerçək situasiya, həm real imkanlar, həm də İlham Əliyevin parlaq siyasi karyerası dövlət başçısının fövqəlmövqeyini şərtləndirən elementlərdir. Bu baxımdan, prezidentin inauqurasiya mərasimindən dərhal sonra ön plana çıxan və təcrübədə artıq sınaqdan keçirilən faktorlara marağın hədsiz dərəcədə artmasını təbii qəbul etmək lazımdır.

İlk növbədə, ölkədəki ictimai-siyasi sabitlik prezidentə imkan verdi ki, həyata keçirdiyi siyasətdə əsas ağırlığı sosial-iqtisadi problemlərin çözülməsi, həmçinin Azərbaycanın bir nömrəli problemi olan Dağlıq Qarabağ konfliktinin həlli istiqamətinə yönəltsin. İlham Əliyevin hakimiyyətinə alternativ ciddi siyasi müxalifət, yaxud 10 il əvvəl olduğu kimi hərbi müxalifət təhlükəsi yoxdur və dövlətçilik maşını sistemli şəkildə oturaqlaşıb və dövlət artıq 1993-cü ilin deyil, müasir dünyanın gerçəklikləri ilə yaşayır. Bu vacib amillərə söykənən İlham Əliyev ölkədaxili proseslərin konstruktiv məcrada inkişafını davam etdirmək, onu sürətləndirmək imkanını qısa zaman kəsiyində təsdiqlədi. O, qısa bir vaxtda nəinki hakim komanda, hətta bütün Azərbaycan üçün birləşdirici faktor kimi qəbul olundu.

Həmçinin, 15 oktyabrdan sonra bu sahədə "buzların əriməsi", radikal müxalifət düşərgəsində olan bir sıra qüvvələrin neytral və loyal müstəviyə transformasiya olunması, müxalifətin ifrat düşmənçiliyə yuvarlanmasına etirazların kütləvi xarakter alması dediklərimizi təsdiqləyir. Bu baxımdan, prezidentin atdığı mütərəqqi addımlar - həm seçkidən əvvəl, həm də seçkidən sonra müxalifəti dialoqa səsləməsini də yüksək qiymətləndirmək lazımdır. Dövlət başçısının bu dəvəti Azərbaycan cəmiyyətində sivil siyasi münasibətlərin qorunması və inkişafına xidmət edir. O, daim milli birliyin fəal müdafiəçisi olub və bu istiqamətdə ardıcıl təşəbbüslər, konkret addımlarla çıxış edib. Lakin təəssüflər olsun ki, radikal müxalifət dairələri vətəndaş həmrəyliyinə xidmət edən bu çağırışı dərk etmək qabiliyyətində deyil.

Proseslərin təhlili göstərir ki, prezident xalqın mütləq qisminin dəstəyini qazanmaqla böyük gücə söykənərək Dağlıq Qarabağ danışıqlarında uğur qazanmaq üçün milli birliyə nail olmaq, həm də ötən əsrin sonlarından başlayaraq izlənən sosial-iqtisadi yüksəliş üçün daha güclü zəmin yaratmaq istəyindədir.

İlham Əliyevin prezidentliyi ölkənin beynəlxalq əlaqələri baxımından da keyfiyyətcə daha effektiv zamana təsadüf edir. İndi Azərbaycan nə beynəlxalq tanınma həsrətində olan, nə ətrafında formalaşdırılmış antitəbliğat maneəsini aşıb keçməyə çalışan, nə də dünyaya çıxış yolları arayan dövlətdir. Azərbaycan son on ildə ciddi əsaslara malik, balanslaşdırılmış xarici siyasət kursu hesabına, üstəlik məlum 11 sentyabr hadisələrindən sonra formalaşan yeni atmosferli beynəlxalq auranın şərtlərinə uyğun olaraq strateji əhəmiyyətli bölgədə yerləşən, bəzi müstəqil dövlətlərə xas olan "banan respublikası" ənənələrini inkar edən regional güc mərkəzidir. Azərbaycan artıq daxildə dövlətçiliyimizin inkişafı, sosial rifahın təminatı, xarici siyasətdə isə milli maraqların ödənməsi üçün təsirli vasitəyə malikdir.

Şübhəsiz ki, İlham Əliyevin prezidentliyinə təsadüf edən ən fundamental amil 15 oktyabrdan sonra köhnə ictimai düşüncə tərzinin tamamilə inkarı və yeni siyasi baxışlar sisteminin formalaşması mərhələsinin başlanmasıdır. Ümumiyyətlə, İlham Əliyevin hakimiyyəti bütövlükdə yenilik məfhumu ilə sıx surətdə bağlıdır. Bunu nəinki onun seçki təbliğatı,

həm də seçkidəki möhtəşəm qələbəsindən sonra yeni ictimai düşüncə sisteminin formalaşması, Azərbaycanın siyasi həyatına müasir oyun qaydaları – praqmatiklik, liberal iqtisadi münasibətlər, açıq vətəndaş cəmiyyəti, sivil siyasi mübarizə, siyasi qüvvələrə rəqiblərini təkcə tənqid etmək deyil, həm də fəaliyyətinə, bacarıq və qabiliyyətinə görə qiymət vermə ənənələrinin yaranması bir daha sübut edir

Əslində bütün bunlar Azərbaycan siyasəti üçün ənənəvi müxalifətçilik, populizm, radikallıq, dağıdıcılıq, qaraguruhçuluq, inqilabçılıq, destruktivlik tendensiyalarının aktuallığını itirməsi demək idi. İlham Əliyevin seçkidə tətbiq etdiyi siyasi texnologiya radikal müxalifətin matəm marşına çevrildi. Bu gün Azərbaycanda inkişaf prosesi çoxşaxəli xarakter daşıyır. Əldə olunan uğurlar, xüsusilə, sosial-iqtisadi sferada bir-birinin ardınca atılan titanik addımlar prezident İlham Əliyevin bütün sahələrdə olduğu kimi xalqımızın maddi həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ümummilli lider Heydər Əliyev ənənələrini davam etdirdiyini sübut edir. Etiraf etməliyik ki, müstəqillik dövründə Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi və iqtisadiyyatın dinamik inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun rəhbərliyi zamanı ölkədə aqrar islahatların, özəlləşdirmənin, neft strategiyasının, sahibkarlığın, qeyri-neft sektorunun inkişafının təməli qoyulub. Nəticədə son on ildə iqtisadiyyatın inkişafında sabitlik və inkişaf tendensiyası yaranıb, büdcə, vergi və pul-kredit siyasətində tarazlıq əldə olunub, inflyasiyanın səviyyəsi minimuma endirilib. Bu ənənələr bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ölkənin sosial-iqtisadi, mədəni və intelektual inkişafına yönəlmiş dövlət proqramlarında 600 min iş yerinin açılması, sahibkarlığın inkişaf etdirilməsi, aztəminatlı insanların sosial müdafiəsinin gücləndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsini qarşıya əsas məqsədlər kimi qoyulub. Belə ki, dövlət başçısının 2004-cü il fevralın 11-də imzaladığı «Azərbaycan Respublikasında Sosial-İqtisadi İnkişafın təmin edilməsi» dövlət proqramının qəbulundan ötən müddət ərzində iqtisadiyyatımızın inkişafı, insanlarımızın rifah halının getdikcə yaxşılaşması danılmaz faktdır. 2004-cü ildə ümumi daxili məhsul istehsalı 18,5 trilyon manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,6 faiz çoxdur. Dövlət proqramının qəbul edildiyi vaxtdan bəri istehsal sahələrində artım 12,9 faiz olmuşdur. Xarici sərmayələrin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqa-

yisədə 61,9, daxili sərmayələr isə 61,5 faiz artmışdır. Bütün bu müsbət göstəricilərin əldə edilməsində prezident seçkilərindən sonra qəbul edilmiş dövlət proqramının, fərman və sərəncamların müstəsna rolu olmuşdur. Bu bir il ərzində ölkəmizin bütün şəhər və rayonlarında yüzlərlə müəssisə, sex, xidmət və işə obyektləri açılmışdır. Prezident bu dövlət proqramının yerinə yetirilməsi vəziyyətinə şəxsən nəzarət edir, bölgələrə səfərə çıxır, yeni müəssisələrin açılışında iştirak edir. Prezident seçkilərindən keçən bir il ərzində cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə həyata keçirilmiş irimiqyaslı işlər, uğurla aparılan daxili və xarici siyasət aydın göstərir ki, Azərbaycan tezliklə qüdrətli dövlətə çevriləcək.

Dövlət proqramının qəbul edilməsindən ötən qısa vaxt ərzində ölkə həyatında bir sıra dəyişikliklər müşahidə olunmaqdadır. Hər bir şəhər və kənddə quruculuq və abadlıq işləri aparılır, yeni iş yerləri yaradılır. Sahibkarlıq fəaliyyətinə dövlət və maliyyə qurumları tərəfindən dəstək verilir. Hazırda ölkə ərazisində 800-dən çox xarici və müştərək müəssisə, 2600-dən çox kəndli-fermer təsərrüfatı fəaliyyət göstərir. Bu müəssisə və təsərrüfatlarda müvafiq surətdə 43,2 və 10,5 min nəfər çalışır. Ölkə üzrə istehsal edilən ÜDM-in 75 faizi, iqtisadiyyatda məşğul olan əhalinin 70 faizi özəl sektorun payına düşür. ÜDM-in artım tempinə və adambaşına düşən xarici investisiyanın məbləğinə görə Azərbaycan MDB məkanında öncül yer tutur. Bütün bunlara baxmayaraq, ölkəmizdə sahibkarlığın təşəkkülü prosesi ləng gedir, bir sıra problemlərlə müşayiət olunur. Bura ilk növbədə investisiya, maliyyə-kredit, vergi sistemi ilə bağlı çətinliklər, texniki və informasiya bazasının zəifliyi daxili bazarın lazımınca qorunmaması və s. daxildir. Buna görə də dövlət proqramında sosial infrastruktur sahələrinin yaradılması və inkişafı ön plana çəkilir. Proqramda həmçinin xammal, material və intellektual potensialı hesabına yerli istehsalın inkişafını sürətləndirmək üçün tədbirlər müəyyən edilmişdir. Bu məqsədlə yerli xammal bazasında fəaliyyət göstərən kiçik və orta müəssisələr yaradılmalı, müasir texnoloji sistemə əsaslanan, xarici bazara çıxa biləcək rəqabətqabiliyyətli məhsullar istehsal edən müəssisələr işə salınmalıdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı müstəsna tarixi xidmətləri sırasında milli ordu quruculu prosesinin uğurla başa çatdırılmasıdır və bu missiya dövlətçilik tariximizin ən şərəfli səhifələrindən

bırıdır. Fərəhləndirici haldır ki, həmin tarixi missiya Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük məsuliyyət və əzmkarlıqla həyata keçirilir. Regionlara səfərləri çərçivəsində Prezidentin bir qayda olaraq hərbi hissələrə baş çəkməsi, kazarma və yeməkxanalarda Azərbaycan əsgərinin həyat tərzi ilə birbaşa maraqlanması Silahlı Qüvvələrimizdə böyük ruh yüksəlişi formalaşdırıb. Həmçinin, Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, humanitar siyasət istiqamətində də ümummilli lider Heydər Əliyev ənənələrini uğurla davam etdirir. Xüsusilə, elm və təhsilin inkişafı, idman və olimpiya hərəkatının daha geniş vüsət alması uğrunda dövlət başçısının bir ildə qəbul etdiyi fərmanlar cəmiyyətin bütün təbəqələrində rəğbətlə qarşılanıb. Prezident İlham Əliyevin ölkəmizdə elm və təhsilin inkişafı istiqamətində atdığı mühüm addımlardan biri də təhsil müəsisələrinin informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi proqramıdır. Proqram 2005-2007-ci illəri əhatə edir. Təbii ki, Prezident İlham Əliyevin 2004-cü il 21 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı (2005-2007-ci illər)" ölkəmizdə yeni informasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən və dünya təhsil sisteminə inteqrasiya imkanı verən vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiya cəmiyyətinə hazırlamaq məqsədi daşıyır. Prezident İlham Əliyevin hakimiyyətinin birinci ilində mədəniyyət və incəsənət sahəsində görülən işlər onu deməyə əsas verir ki, dövlət başçısı bu sahədə də ulu öndər Heydər Əliyevin müəyyən etdiyi prinsipləri dönmədən həyata keçirir. Belə ki, prezidentlik fəaliyyətinin birinci ilində İlham Əliyevin bu istiqamətdə atdığı addımlar mədəni sferanın sürətli inkişaf mərhələsində olduğunu nümayiş etdirir.

Dövlət başçısının qərarı ilə bütün kitabların latın qrafikası ilə çap olunması məqsədilə bu sahəyə büdcədən vəsaitin ayrılması, Milli Ensiklopediyanın nəşri ilə bağlı Dövlət Komissiyasının yaradılması, mədəniyyət və incəsənət işçilərinə fəxri adların, təqaüdlərin verilməsi və s. addımlar bunu bir daha təsdiq edir. Prezident İlham Əliyevin hakimiyyəti dövründə mədəni sferada baş vermiş əlamətdar hadisələrdən biri də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bərpa olan Dövlət Filarmoniyasının açılış mərasimində iştirak etməsidir. Prezident son bir ildə müxtəlif mə-

dəni proqramlarda, konsertlərdə də iştirak etməsi şübhəsiz ki, mədəniyyətimizin inkişafında həm də stimullaşdırıcı əhəmiyyət kəsb etdirib.

Ölkəmiz üçün baş vermiş ən mühüm hadisələrdən biri isə prezidentin xanımı Mehriban Əliyevaya Parisdə YUNESKO-nun baş iqamətgahında BMT-nin bu ixtisaslaşmış təşkilatının xoşməramlı səfiri adı verilməsidir. Təşkilatın qərarında bildirilir ki, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri xanım Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri adına mədəniyyət və incəsənətin inkişafında müstəsna xidmətlərinə görə layiq görülüb. Bu ad ona şifahi irsin və musiqi yaradıcılığı irsinin qorunub saxlanılması və inkişaf etdirilməsinə görə təqdim olunub.

Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də ulu öndər Heydər Əliyevin müəyyən etdiyi prinsipləri uğurla həyata keçirir. Birmənalı olaraq deyə bilərik ki, prezident İlham Əliyev bu missiyanın məsuliyyətini layiqincə qiymətləndirir. Təsadüfü deyil ki, dövlət başçısı bütün çıxışlarında, keçirdiyi görüşlərdə əsas diqqəti məhz bu problemə yönəldir. Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həllinə nail olunması İlham Əliyev diplomatiyasının ana xəttini təşkil edir. Bu reallıq onun bütün xarici səfərlərində də daim izlənilib.

Təbii ki, bu problemin həlli prosesində İlham Əliyevin əsas üstünlüyü odur ki, o, həmin məsələyə yanaşmada Heydər Əliyev konsepsiyasından çıxış edir. İşğal olunmuş torpaqların qeyd-şərtsiz azad olunması, **Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapması, işğal olunmuş ərazilərdə terror təşkilatlarının ləğv edilməsi, qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qaytarılması, Dağlıq Qarabağın erməni icmasına Azərbaycanın tərkibində muxtar hüquqların şamil edilməsi bu konsepsiyanın mahiyyətini şərtləndirir.** Həmin prinsiplərə sadiq qalacağını Prezident İlham Əliyev inaqurasiya mərasimində rəsmən elan etmiş və etiraf olunmalıdır ki, o, həmin siyasi xəttə sadiqlik nümayiş etdirir.

Bütün bunlara rəğmən, bu gün Azərbaycan cəmiyyətində, dövlətçilik tariximizdə böyük yüksəliş dövrünə şahidlik etməkdəyik. Əldə olunan nəticələr bir daha sübut edir ki, müdrük xalqımız ulu öndər Heydər Əliyevin qurduğu dövlətin taleyini prezident İlham Əliyevə etibar etməkdə haqlıdır...

ABEL MƏHƏRRƏMOV
BDU-nun rektoru,
YAP İdarə Heyətinin üzvü

BAKI DÖVLƏT UNİVERSİTETİNİN BU GÜNÜ VƏ SABAHI HEYDƏR ƏLİYEVİN İDEYALARI İLƏ BAĞLIDIR

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi, böyük öndər Heydər Əliyevin qoyub getdiyi ideyalar, dövlətçilik və idarəçilik məktəbi dövlətimizi gündən-günə tərəqqiyə aparır. Onun dövlətçilik və idarəçilik təcrübəsindən nəinki Azərbaycan və azərbaycanlılar, hətta bütün dünya faydalanır. Tarixdə özünün xüsusi yeri olan, xüsusi missiyalar yerinə yetirmək qüdrətinə malik dahilər əməllərinə görə bir-birlərinə bənzəsələr də, onların öz yaradıcılıq üsulları və özünəxas dəst-xətləri olur. Heydər Əliyevin də orijinal həyat tərzi olmaqla yanaşı, onda böyük dövlət adamına xas olan nadir keyfiyyətlər cəmləşmişdi. Dünyada belə şəxsiyyətlər təktək yetişir. Bu mənada Azərbaycan xalqını xoşbəxt xalq hesab etmək olar. Azərbaycan dünyaya onlarca dahi vermişdir. Onlardan sonuncusu ümummilli liderimiz Heydər Əliyev idi. Heydər Əliyev Azərbaycanı dünyada təmsil edən mahir dövlət başçısı, kamil, aqil, müdrik insan kimi hamı üçün sevimli idi. Dünyanın hər yerində onun böyüklüyünə səcdə edir və sevirdilər.

Tarixdə şəxsiyyətlərin böyüklüyü, onların miqyasları bir tərəfdən yaşadığı dövrdə gördüyü işlərin, yaratdıqlarının, etdiklərinin, dediklərinin və həyata keçirdiklərinin əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən bu fəaliyyətin gələcək əks-sədaları ilə, uzun illər hadisələrin gedişatına təsiri ilə müəyyənləşir. Azərbaycan xalqının XX əsrdə yetişdirib dünyaya verdiyi tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycan xalqının gələcək həyatının müəyyənləşməsində əvəzsiz xidmətlər göstərmiş ümummilli liderə çevrildi. Azərbaycanın geniş siyasi meydanına 1969-cu ildə çıxan Heydər Əliyev istər Azərbaycanın, istərsə də SSRİ-nin həmin dövrlərdə elə bir qlobal məsələsi olmamışdır ki, ona öz təsirini göstərməsin. Onun Azərbaycana rəhbərliyinin əsrin üçdə biri qədər ömrü əhatə edən zaman kəsiyi Heydər Əliyev dühasının zirvəsi hesab edilməlidir. Bu dövr gələcəkdə Azərbaycan xalqının həyatında intibah dövrü kimi səciyyələndiriləcəkdir. Heydər

Əliyev həmin zaman kəsiyində Azərbaycan xalqının, Azərbaycan torpağının adının bütün dünyada uca zirvələrə qaldırmış, özünün şəxsiyyət nəhəngliyi ilə doğma vətənini bütövləşdirmiş və hər yerdə xalqımıza başucalığı gətirəcək səviyyədə layiqincə təmsil etmişdir. İndi biz daha çox dərk edirik ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin xilaskarı olmuşdur. Bu gün biz anlayırıq ki, o, dövlətçiliyimizin simvolu idi. Böyük Mustafa Kamal Atatürk Türkiyə üçün hansı xidmətləri göstərmişsə, Heydər Əliyev də Azərbaycan üçün eyni xidməti etmişdir. Bütün ömrünü xalqına bağışladığını bəyan edən böyük rəhbər bizə ən böyük əsərini miras qoymuşdur. Bu müstəqil Azərbaycan dövlətidir. Bu dövləti, Heydər Əliyevin Azərbaycan adlı əsərini qoruyub saxlamağımız böyük öndərin ruhuna hörmətimiz olacaqdır və Azərbaycan xalqının hər bir nəfərinin onun ideyalarının daşıyıcısına çevrilməsi üçün əlimizdən gələni etməliyik.

XX əsrin son onilliklərində Azərbaycan elmi və təhsili də Heydər Əliyev şəxsiyyətinin, Heydər Əliyev zəkasının və bacarığının işığında inkişaf etmiş və bugünki səviyyəsinə gəlib çıxmışdır. Bu gün biz bir daha fəxrlə söyləyirik ki, Heydər Əliyev kimi nadir şəxsiyyət Bakı Dövlət Universitetinin məzunu olmuşdur. Və o həyatının bütün dövrlərində bizim təhsil ocağımızla möhkəm bağlanmışdır, heç zaman BDU-dan öz qayğıkeş əlini çəkməmişdir. Bu onun ziyalılara olan sevgisindən, doğmalığından irəli gələn bir cəhət idi. Heydər Əliyev bilirdi ki, Azərbaycanın keçmişini, onun mədəniyyətini, elm və iqtisadiyyatını, bütövlükdə Azərbaycan cəmiyyətini bu elm məbədgahından ayrı təsəvvür etmək çətindir. Ona görə də hər zaman Azərbaycanın inkişafını və intibahını burada axtarır və əlindən gələni edirdi ki, Bakı Dövlət Universitetində yeni nəsil yetişdirmək üçün şərait olsun. Heydər Əliyev epoxasının mənəvi yüksəliş tarixinin mərkəzində məhz Bakı Dövlət Universitetinin dayanması reallıqdır. O, deyirdi: «Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir». Və bu sərvəti göz bəbəyi kimi qorumaq üçün tələbkar rəhbər qətiyyəti göstərirdi. Eyni zamanda hər bir ziyalıya, elm adamına, təhsil işçisinə öz əzizi kimi baxırdı. Azərbaycanın hər bir savadlı, təhsilli insanı onun sevimlisi idi.

Bütün dövrlərdə Bakı Dövlət Universitetinə Heydər Əliyevin xüsusi bir sevgisinin olduğunun şahidiyik. O, BDU-ya olan məhəbbətini, ehtiramını, sevgisini bu sözlərlə bildirirdi: «Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam». Bakı Dövlət Universitetinin yaradılması, haqsızlıq ucbatından uzun müddət müstəqilliyini və dövlətçiliyini itirməyə məcbur

olmuş xalqımıza hava və su kimi lazım idi. Ona görə gərək idi ki, bu məbədgah milli ruhu qoruyub saxlaya bilsin. Azərbaycan xalqında özünüdərk meyllərini oyatsın, xalqın öz milli təhsil sistemini və mənəvi tərbiyə formalarını yaratmasına yardımçı olsun. Doğrudan da tarixi gedişat göstərdi ki, Bakı Dövlət Universiteti təkcə milli və ictimai tərəqqimiz üçün lazım olmadı, həm də o mənəvi qida rolunu oynadı. Bu gün dünyanın ən məşhur siyasi xadimlərindən biri olan möhtərəm prezidentimiz Heydər Əliyev də Bakı Dövlət Universitetindən mənəvi qida almışdı. Azərbaycan xalqının milli siyasi mənəviyyat tarixinin 34 ilə qədər dövrü dünya şöhrətli siyasətçi, səriştəli rəhbər, əvəzsiz şəxsiyyət Heydər Əliyevin işıqlı adı və səmərəli fəaliyyəti ilə daha da zənginləşmişdir. Həmin dövrdə Bakı Dövlət Universiteti diqqətdən kənarda qala bilməzdi. Bütün şüurlu həyatını doğma xalqının, ana vətənin tərəqqisinə həsr etmiş Heydər Əliyev bu universitetin ən xırda problemlərinə də biganə qalmamışdı. «Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam» ifadəsinin arxasında ülvi hisslər dayanırdı. Özünün tarixi xidmətini xalq qarşısında mətanətlə yerinə yetirən bir təhsil müəssisəsinin hansı böyük işləri görəcəyini Heydər Əliyev qədər dərk edən ikinci bir şəxs təsəvvür etmək çətindir.

Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi iki nəhəng varlıq - Heydər Əliyev və Bakı Dövlət Universiteti sanki bir-birinə bağlanmışdılar. Bu varlıqlardan birincisi xalqın siyasi qüdrətinin təcəssümçüsü, Azərbaycan ziyalılarının ağsaqqalı və himayəçisi, milli təhsil quruculuğumuzun nəhəng memarı Heydər Əliyev, ikincisi isə mənəvi böyüklüyümüzün simvolu, elmimizin, təhsilimizin, mədəniyyətimizin möhtəşəm məbədi olan Bakı Dövlət Universitetidir. Rəhbərimiz bu təhsil ocağına ona görə həssaslıqla yanaşırdı ki, Azərbaycanın keçmişini, onun mədəniyyətini, elm və iqtisadiyyatını, bütövlükdə müasir Azərbaycan cəmiyyətini bu elm məbədgahından ayrı təsəvvür etmirdi. Heydər Əliyev bilirdi ki, Azərbaycan intibahı və inkişafı bu təhsil ocağının köməyi ilə baş verə bilər. Tarixi gedişat göstərdi ki, böyük öndər nə qədər haqlı imiş. Cəmiyyətin tərəqqisinin, elm, mədəniyyət, mənəviyyat inkişafının ən qüdrətli vasitəsi rolunu oynayan təhsilə qayğının artırılması, bu işə dövlət siyasətinin üstün prinsipi kimi yanaşılması Heydər Əliyevin rəhbər və vətəndaş qayəsini ifadə edən önəmli cəhət idi. Bu amil Azərbaycanda 70-ci illərdən başlayaraq, Heydər Əliyev epoxasının mənəvi yüksəliş tarixinin inkar edilməz reallığıdır. Bunu danmaq, təkzib etmək mümkün deyildir. Çünki tarix baş vermiş hadisələrin və faktların yalana bürünməsinə heç vaxt imkan vermir. Bu tarixi gerçəyi necə danmaq olar ki, Heydər Əliyev Bakı Dövlət Universitetinin 50 illik yubileyində Sovet rejiminin tətbiq etdiyi bütün qadağaları aşaraq, Azərbaycanın ilk ali təhsil ocağında doğma Azərbaycan dilində çıxış etdi. Bu cəsarət o dövr üçün inqilaba bərabər bir hadisə idi. Sonralar da Bakı Dövlət Universiteti ilə bağlı hər hansı qərarın qəbul olunmasında-onun yubileylərinin keçirilməsindən tutmuş burada çalışanların təltif olunmasına, mükafatlandırılmasına qədər, hər şeyə Heydər Əliyev həssas yanaşırdı. Bu da onun BDU-ya olan sevgisinin göstəricilərindən biri idi.

Bakı Dövlət Universiteti yarandığı gündən burada işıqlı ideyalar, demokratik məfkurə xalqın milli özünüdərk prosesinin formalaşmasına təkan vermişdi. Heydər Əliyev bu əsasda möhkəm milli təməlin qoyulmasında rolu olan şəxsiyyət olmuşdu, və milli intibahın, milli şüurun oyanması üçün Bakı Dövlət Universitetinə çox böyük önəm verməsi də burada təməlini qoyduğu məsələlərin həyata keçməsi istəyindən doğurdu. O, cəsarətlə millətin oyanması üçün Sovet rejiminin bütün qadağalarını aşaraq hər cür fədakarlığı etmişdir. Özünü və karyerasını təhlükədə qoysa da. Bu gün Azərbaycan xalqı öz müstəqil dövlətini qurmağı bacarmışdısa, demək Heydər Əliyevin 70-ci illərdən başladığı milli proseslər öz nəticəsini vermişdir. Bu gün biz həmin fədakarlığın, məqsədyönlü fəaliyyətin bəhrəsini görürük. Müstəqil Azərbaycan dövləti onun ən böyük əsəri kimi yaşa-yır və əbədi olacaqdır.

Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanın siyasi hakimiyyətinə qayıdarkən Azərbaycanı fəlakət və xaosdan, bir neçə yerə parçalanmaqdan, ölüm və qandan xilas edərkən belə Bakı Dövlət Universitetini yaddan çıxarmadı və onun dövlətin yaradılıb möhkəmlənməsində rolunu çox yüksək qiymətləndirdi. O, özü şəxsən bir neçə dəfə universitetə gələrək sanki bu təhsil ocağına yenidən həyat verdi. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışına qədər Bakı Dövlət Universiteti çox acınacaqlı durumda idi və bunu biz heç zaman unutmamalıyıq.

Azərbaycanın ilk ali təhsil ocağında tədrisin səviyyəsi aşağı düşmüş, kollektivdə gələcəyə inam hissi qalmamışdı. Təkcə bizim Universitetdə deyil, respublikanın digər təhsil müəssisələrində də dağılmaq təhlükəsində idi. Alimlərin bir çoxu Azərbaycanı tərk edərək başqa ölkələrə üz tutmuş, elələri də olmuşdu ki, müəllimliyin və elmin daşını birdəfəlik atmışdılar. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı sanki bütün elm adamlarına, o cümlədən Bakı Dövlət Universitetinin kollektivinə gələcəyə inamla baxmaq hissi aşıla-

dı. Universitetin kollektivi Azərbaycanı bəlalardan və düşdüyü xaotik vəziyyətdən çıxarmaq üçün qərarlı olan Heydər Əliyevə əsl dayaq oldular və ziyalı sözünü dedilər. Mən bir hissəsi BDU müəllimlərindən ibarət olan 91 nəfər ziyalının Heydər Əliyevə müraciətini xatırlatmaq istərdim. Həmin müraciət cəmiyyətdə əlamətdar hadisəyə çevrildi. Respublikanın siyasi həyatında dönüş nöqtələrindən biri kimi tarixə düşdü. Heydər Əliyevin «91 lər»ə cavab məktubu isə Heydər Əliyevin siyasi irsinin nadir nümunələrindən biri kimi tarixə çevrilmişdir. Bu müraciətində ümummilli liderimiz Azərbaycan xalqının həyatına biganə qalmayacağını bəyan edir və onu düşdüyü vəziyyətdən çıxarmaq üçün əlindən gələni edəcəyini bildirirdi. Belə də oldu. 1993-cü ilin iyununda artıq vətəndaş müharibəsi içərisində olan Azərbaycanın imdadına Heydər Əliyev çatdı. Elə həmin dövrdən də Bakı Dövlət Universitetinin kollektivi böyük rəhbərin atdığı addımlara dəstək verməyə başladı. İndi biz fəxrlə söyləyə bilərik ki, Bakı Dövlət Universitetinin kollektivi Heydər Əliyev si-yasətinin ən öncül daşıyıcıları olmuşdur və bu siyasətin sosial dayağı kimi bütün həlledici məsələlərə öz münasibətini bildirmişdir. Bakı Dövlət Universiteti üçün Heydər Əliyevin Azərbaycana qayıdışı əsl xoşbəxtlik, xalqımıza misiliz xidmət idi. Universitetin böyük elmi şurası universitet elminin və təhsilinin inkişafına göstərdiyi qayğıya, universitetin adını və şöhrətini yüksəklərə qaldırdığına, Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərinə görə Heydər Əlirza oğlu Əliyevə BDU-nun Fəxri Doktoru adı verilməsi barədə qərar qəbul etməsi də tarixi bir addım, universitet kollektivinin böyük öndərə ehtiramının ifadəsi idi. Mən özümü xoşbəxt hesab edirəm ki, 2000-ci ildə BDU-nun 80 illiyinə gəlmiş qonaqları qəbul edərkən böyük öndərə Fəxri Diplomu təqdim etmək şərəfinə nail olmuşam.

Ümummilli liderimiz Heydər Əliyev özünün Azərbaycan Prezidenti olduğu dövrdə ümumən təhsil sistemimizin sağlamlaşmasına öz rəhbər göstərişlərini verir və təhsilimizin inkişafına əvəzsiz xidmətlərini göstərirdi. İndi böyük öndərin BDU-da dəfələrlə professor-müəllim heyəti ilə görüşməsi ehtiramla xatırlanır. Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycan cəmiyyətində siyasi elitanın formalaşması üçün bir məktəb idi. O, siyasət və mənəviyyatı, təhsil və elmi müasir tələblər baxımından inkişaf etdirərək bir-birinə yaxınlaşdırmış və üzvi surətdə bir-birinə bağlamışdı. Onun fəaliyyəti Bakı Dövlət Universitetinin təhsil və elmə bağlı olan alimləri üçün bir məktəb idi. Heydər Əliyev Azərbaycanda siyasi prioritetlərin də əsasını qoymuş, siyasi rəhbərlik mədəniyyətinin nə demək olduğunu nəinki Azərbaycana,

bütün dünyaya göstərmişdi. Bizim gəncliyimizin bu məktəbdən çox şey öyrənəcək. Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs prezidentimiz cənab İlham Əliyev tərəfindən yaradıcı şəkildə davam etdirilir və son dövrlər Azərbaycanın iqtisadi yüksəlişə nail olması və milli maraqlarımızın təmin edilməsi üçün diplomatiya sahəsində qazandığımız uğurlar ölkəmizin gələcək qüdrətindən xəbər verir. Və həm də onun götəricisidir ki, Heydər Əliyevin müəyyən elədiyi bu siyasi xətt necə də doğru və uzaqgörəndir. Ölkə başçımız cənab İlham Əliyevin apardığı siyasət Bakı Dövlət Universitetində də diqqətlə qarşılanır, təhlil edilir və dəstəklənir. Dövlətin aparıcı təhsil və elm mərkəzlərindən birinə çevrilmiş Bakı Dövlət Universitetində yeni dövrün qibtə elədiyi proseslərə, müasirliyə son dərəcə diqqətlə yanaşılır. Biz universitetin elmi-texniki bazasını möhkəmləndirməklə, tədrisin keyfiyyətini dünya standartları səviyyəsinə çatdırmaqla, sivil dünyanın qəbul etdiyi normaları universitetimizə tətbiq etməklə burada köklü dəyişikliklər aparırıq. Yeni avadanlıqlar alınır, laboratoriyalar qurulur, yeni sistemlər tətbiq edilir. Elmin, təhsilin gələcək uğurları və insanların təfəkküründə yeniləşməsi hesabına nail olacağımız nailiyyətlərə görə də ümummilli liderimiz Heydər Əliyevə borcluyuq. Məhz onun apardığı siyasətin nəticəsində bu gün Bakı Dövlət Universiteti dünyanın inkişaf etmiş ölkələrinin aparıcı universitetləri ilə bir sırada dayanır. Günü-gündən beynəlxalq əlaqələri genişlənən universitetimizin bir neçə regional universitet assosiasiyalarının üzvü olması və bu qurumların işində səmərəli fəaliyyət göstərməsi Azərbaycanın adını ucaldır. Bakı Dövlət Universitetinin özü bir çox beynəlxalq tədbirlərin mərkəzinə çevrilmişdir. Universitetimizin informasiyalı cəmiyyətin əsası sayılan kompüter texnologiyasının, internetin zəngin məlumat bazasının auditoriyalara çatdıran bir məkana çevrilməsində də dediyimiz amillərin rolu böyükdür.

Bu gün Bakı Dövlət Universiteti həm xarici görünüşü, həm də tədris proseslərinin yeni dövrə uyğunlaşdırılması sahəsində modern bir mərkəzdir. Azərbaycanın öz tarixinin müasir, daha şərəfli və əzəmətli dövrünə qədəm qoymasında BDU öz sözünü deyir və onun rolu cəmiyyətdə rəğbətlə qarşılanır. Biz elmimizin və təhsilimizin strategiyasını müəyyən etmiş ümummilli lider Heydər Əliyevin açdığı yolla gedirik. Şübhəsiz ki, müstəqilliyimiz əbədi olduğu kimi təhsilimiz, elmimiz də əbədi olacaqdır. Heydər Əliyev əbədi intibah simvoludur. Əminəm ki, müstəqil Azərbaycanın gələcək həyatının bütün mərhələlərində də onun bənzərsiz dəst-xətti və siyasi iradəsi öz sözünü deyəcək və gələcəyimizə işıq salacaqdır.

ELMAR QASIMOV
Təhsil nazirinin müavini,
YAP Siyasi Şurasının üzvü

TƏHSİL SİSTEMİNDƏ HEYDƏR ƏLİYEV YOLUNUN DAVAMI

Bu gün Azərbaycan dövləti müstəqillik yolunda, demokratiyanın inkişafı istiqamətində uğurla addımlayır və ölkəmizdə böyük səylə davam etdirilən hüquqi dövlət quruculuğu prosesi hər bir ölkə vətəndaşında gələcəyə inam yaradır. Aydındır ki, dövlət quruculuğu prosesini islahatlarsız təsəvvür etmək qeyri-mümkündür və bu baxımdan öz müstəqilliyini ikinci dəfə bərpa etmiş Azərbaycan Respublikasında ölkə həyatının bütün sahələrində genişmiqyaslı islahatlar həyata keçirilməkdədir. O da məlumdur ki, müxtəlif sahələrdə aparılan islahatların qarşısında duran problemlər dialektik şəkildə vəhdət təşkil etdiyindən onları bir-birindən ayırmaq mümkün deyildir.

Ancaq təhsil sistemində həyata keçirilən islahatların özünəməxsus yeri vardır və onların müvəffəqiyyətlə nəticələnməsindən ötrü köhnə təfəkkür tərzinin yeni təfəkkür tərzinə keçid probleminin həlli başlıca şərtdir. Bu baxımdan ötən əsr Azərbaycan ictimai-siyasi, mədəni inkişaf tarixinin ən böyük nailiyyətlərindən biri ölkəmizdə dünyəvi təhsil sisteminin bərqərar olması, müasir təhsil verən güclü tədris-tərbiyə müəssisələri şəbəkəsinin formalaşması sayıla bilər. Müvafiq sahənin hərtərəfli və ahəngdar inkişafının son 30 illik tarixi isə ümummilli liderimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə əlaqədardır. Bu böyük şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasında demokratik, sivil, dünyəvi prinsiplərə söykənən, milli və ümumbəşəri dəyərlərə əsaslanan təhsil sisteminin yaradılmasına dövlət təminatı verildi. Məsələnin ümumdövlət və ümummilli əhəmiyyətini nəzərə alan möhtərəm Heydər Əliyev o vaxt, yəni 1999-cu ildə müvafiq sərəncamla "Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı"nı təsdiq etdi. Üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulan islahatların bir il müddətini əhatə edən birinci mərhələ hazırlıq mərhələsi (1999-cu il) adlanır. Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiyada müəyyən olunmuş təhsil almaq

hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ-hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılmasını, eləcə də onun unfrastrukturu və kommunikasiya sisteminin müəyyən edilməsini nəzərdə tutur.

Qısamüddətli perspektivi əhatə edən ikinci mərhələdə (2000-2003-cü illər) təhsil sahəsinin sosial-iqtisadi stabilliyini təmin edən, təxirəsalınmaz problemlərin həll olunması və genişmiqyaslı islahatların aparılması üçün təşkilati — hüquqi, kadr, maliyyə, maddi-texniki təminatının və yeni idarəetmə modelinin yaradılması nəzərdə tutulurdu.

Üçüncü mərhələ (2004-cü ildən) proqramda qarşıya qoyulan bütün tədbirlərin həyata keçirilməsini əhatə edir.

Göründüyü kimi, islahatın bütün mərhələlərində şəxsiyyət diqqət mərkəzindədir və islahatın əsas prinsiplərinin həyata keçirilməsində başlıca məqsəd müstəqil Azərbaycanın gələcəyini təmin edəcək vətənpərvər gəncliyin formalaşdırılmasıdır.

Məlumdur ki, təhsil hər bir dövlətin, ölkənin və cəmiyyətin həyat və fəaliyyətinin mühüm bir sahəsidir. Bu, elə bir sahədir ki, ölkə əhalisinin demək olar ki, hamısı bu və ya digər formada onunla bağlı olur, yaxud hansısa prosesin iştirakçısına çevrilir. Odur ki, hər bir ölkə vətəndaşı son dərəcə mürəkkəb olan təhsil sahəsinə diqqətlə yanaşmalıdır.

Beləcə ötən əsrin sonlarına təsadüf edən qlobal islahatlar ölkə başçısı tərəfindən imzalanmış "Təhsil sisteminin təkmilləşdirilməsi barədə" və "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf sahəsində Dövlət Proqramı"nın təsdiqi barədə" sərəncamlarla daha da möhkəmləndirildi. 2001-2002-ci tədris ili ölkəmizdə təhsilin inkişafı naminə həyata keçirilən əməli tədbirlər və eksperimentlərlə zəngin bir dövr oldu. "Təhsildə keyfiyyət ili" elan edilən həmin dərs ili ərəfəsində möhtərəm prezidentimizin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanlardan, habelə mənəviyyatımıza zidd təzahürlərin aradan qaldırılması ilə bağlı bəyanatından irəli gələn vəzifələr proqram sənəd kimi qəbul olundu. Bu dərs ilində məktəbəqədər təhsilin normativ-hüquqi bazasının möhkəmləndirilməsi və şəbəkənin optimallaşdırılması istiqamətində görülən işlər davam etdirildi. Qeyd etmək lazımdır ki, respublikamızda 1777 məktəbəqədər müəssisə fəaliyyət göstərir və onlar 110.774 uşağı əhatə edir. Həmin təhsil müəssisələrində 14.500 pedaqoji işçi çalışır. Müəssisə-

lərdən 1709-u bilavasitə Təhsil Nazirliyi sistemindədir və bu məktəbəqədər müəssisələr 104.899 uşağı əhatə edir. Ölkəmizin 18 bölgəsindəki 51 məktəbəqədər təhsil müəssisəsinin 101 qrupunda Açıq Cəmiyyət İnstitutu — Yardım Fondunun "Addım-addım" texnologiyasının tətbiqi keyfiyyətin yüksəlməsinə, təlim-tərbiyə işinin müasir yanaşmalar üzərində qurulmasına imkan verdi. Respublika hökuməti və YUNİSEF-in Azərbaycandakı nümayəndəliyi tərəfindən 2000-2004-cü illəri əhatə edən "Erkən uşaqlıq dövrünün inkişafı və daha yaxşı valideynlik təşəbbüsü" proqramına əsasən 4 pilot uşaq bağçasında məqsədyönlü eksperimentlər aparıldı. Həmçinin həmin beynəlxalq təşkilat Azərbaycanın 14 rayonunda 33 Uşaq İnkişaf Mərkəzi yaratdı ki, onların intensiv fəaliyyəti uşaqların inkişafının təmin olunmasında əhəmiyyətli rol oynadı.

Layihənin həyata keçirilməsi nəticəsində valideynlər və tərbiyəçilər uşağa qayğı vərdişlərinə və erkən təlim təcrübəsinə yiyələnirlər. Həyata keçirilmiş təlim tədbirləri nəticəsində valideyn-uşaq, tərbiyəçi-valideyn, tərbiyəçi-uşaq münasibətlərinin dinamikasında müsbət dəyişikliklər baş vermişdir. Pilot uşaq bağçalarının təlim materialları ilə təmin edilməsi, yeni təlim modellərinin tətbiqi uşaqların bacarıq və istedadının üzə çıxarılmasına əlverişli şərait yaratmış, ümumilikdə pilot məktəbəqədər tərbiyə müəssisələrinə uşaqların cəlbini xeyli yaxşılaşdırmışdır. Proqramın monitorinqi göstərmişdir ki, layihədə iştirak edən uşaqlar daha çox inkişaf etmiş, təhsilin keyfiyyəti yüksəlmişdir. Təhsil Nazirliyi, YUNİSEF, YUNESKO, Beynəlxalq Sülh Korpusu, Açıq Cəmiyyət İnstitutu, "Dünyaya baxış" və digər təşkilatların sıx əməkdaşlığı şəraitində Bakı şəhəri, Sumqayıt şəhəri və Yevlax rayonunda 8 məktəbəqədər təhsil müəssisəsində 36 nəfər xüsusi qayğıya ehtiyacı olan uşağın inklüziv təhsilə cəlb edilməsi üzrə iş aparılır. Bu pilot layihələrdən biri artıq başlanmış, digər ikisi üzrə isə hazırlıq işləri aparılır.

Bu gün Azərbaycanda 4551 ümumtəhsil məktəbi fəaliyyətdədir və 1 milyon 686 mindən artıq şagird həmin təhsil müəssisələrində təhsil alır. Həmin müəssisələrdə 168 min pedaqoji işçi çalışır. Məktəblilərimizin ayrı-ayrı fənlər üzrə beynəlxalq olimpiadalarındakı çıxışı 2001-2002-ci dərs ilində daha uğurlu olmuşdur. Belə ki, riyaziyyat, kimya, biologiya fənlərindən keçirilən Dünya olimpiadalarının hər birində 1 bürünc medal, fizika üzrə Dünya olimpiadasında 3 qızıl və 1 gümüş medal qazanılmışdır. Fizika fənnindən Azərbaycan komandası 69 ölkə arasında ilk 5 komanda sırasına daxil edilmişdir. Kimya fənni üzrə Beynəlxalq Mendeleyev olimpiadasında 3

nəfər şagirdimiz bürünc medala layiq görülmüşdür. Ümumiyyətlə isə, son illərdə Mendeleyev olimpiadasının qaliblərindən olmuş 12 şagirdimiz Moskva Dövlət Universitetinin kimya fakültəsinə imtahansız qəbul edilmişlər.

Orta təhsil sahəsində əldə etdiyimiz ən mühüm nailiyyət tədris proqramları və dərslik probleminin həlli ilə bağlıdır. 2002-2003-cü dərs ilində məktəblərə milli kimya dərslərinin göndərilməsi mühüm uğur kimi qeyd edilməlidir. Dövlət büdcəsi hesabına çap olunmuş 23 adda 1 milyon 910 min nüsxə ibtidai sinif dərslikləri məktəblilərin istifadəsinə verilmişdir. Həmçinin ilk dəfə olaraq təlim rus dilində olan məktəblər üçün 13 adda milli dərslik çap olunmuşdur. Təlim Azərbaycan dilində olan ümumtəhsil məktəbləri üçün 145 adda dərslik və dərs vəsaitindən 115-i yeniləşdirilmişdir. Proqram və dərsliklərin hazırlanması, habelə nəşri sahəsində beynəlxalq əməkdaşlığa da xüsusi diqqət yetirilir. Bu baxımdan Təhsil Nazirliyi ilə Açıq Cəmiyyət İnstitutu — Yardım Fondu və YUNİSEF arasındakı əməkdaşlığı xüsusilə qeyd etmək lazımdır.

Respublikamızın ümumtəhsil məktəbləri ABŞ-ın ümumtəhsil məktəbləri üzrə mübadilə proqramlarında və digər beynəlxalq təşkilatların həyata keçirdiyi proqramlarda fəal iştirak edirlər. "Azadlığın Dəstəklənməsi Aktı" çərçivəsində ABŞ hökuməti tərəfindən maliyyələşdirilən ACCELS təşkilatının həyata keçirdiyi müsabiqələrdə minlərlə şagird iştirak etmiş və onlardan 456 nəfəri ABŞ-da 1 il müddətinə təhsil almaq imkanı qazanmışdır. Yalnız 2002-ci ildə ABŞ-a 54 şagird göndərilmişdir.

Açıq Cəmiyyət İnstitutu — Yardım Fondunun "Addım-addım" layihəsi respublikamızın 17 bölgəsinin 35 məktəbində tətbiq edilir. 2001-2002-ci dərs ilində bu layihəyə 11 məktəb də qoşulmuşdur. 2002-ci ilin iyul ayından isə müasir təhsil kompleksi, riyaziyyat-informatika təmayüllü lisey, Bakı Avropa liseyi və İ.Əfəndiyev adına Elitar Gimnaziya YUNESKO-nun Assosiativ Məktəblər Layihəsi şəbəkəsinə daxil edilmişdir.

Yeri gəlmişkən, bir məsələni də xüsusilə nəzərə çatdırmaq lazımdır ki, orta məktəbin əsas vəzifəsi şagirdlərə zəruri bilik verməklə yanaşı, eyni zamanda onların əsl vətəndaş kimi yetişdirilməsini təmin etməkdən ibarətdir. Tərbiyə işinin təşkilində bu gün əsas vəzifə ümummilli liderimiz H.Əliyevin belə bir müdrik göstərişini həyata keçirməkdən ibarətdir: "Məktəb həyatı təkcə təhsil vermir, eyni zamanda bu, yüksək tərbiyə ocağıdır".

Orta təhsil sistemində ən ciddi məsələlərdən biri məktəb tikintisi, bu müəssisələrin təmiri və təchizatı ilə bağlıdır. Suraxanı rayonundakı 275

saylı məktəbdə ümummilli liderimiz Heydər Əliyevin "Mən bu gün bəyan edirəm ki, yaxın zamanlarda Azərbaycanda məktəb tikintisi, məktəblərin müasir avadanlıqlarla təmin olunması, təmir edilməsi ilə əlaqədar ciddi tədbirlər haqqında öz təkliflərimi irəli sürəcəyəm" deməsi onun təhsilə böyük diqqət və qayğısının təzahürü idi. Bu, əlbəttə ki, hamımızda məktəblərimizin inkişafına inam və nikbinlik hissi yaratdı.

1993-2002-ci illərin təhlili göstərir ki, həmin illərdə Azərbaycanda 137 yeni məktəb binası tikilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan və ölkəmizin perspektiv inkişafı baxımından böyük əhəmiyyət kəsb edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" 714 maddəsindən 97-si təhsil sektorunun inkişafına yönəldilmişdir. Proqramın təhsillə bağlı maddələrində aşağıdakılar öz əksini tapmışdır: yeni məktəb binalarının tikilməsi, ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı, kənd məktəblərinin pedaqoji kadrlarla təminatı, şagirdlərin pulsuz dərsliklərlə təminatı, tələbə təqaüdlərinin artırılması, məktəbəqədər təhsil sisteminin təkmilləşdirilməsi, təhsilin keyfiyyətinin artırılması, kənd məktəblərinin texniki təminatı və əhalinin bütün təbəqələri üçün təhsil almaq imkanlarının bərabərləşdirilməsi.

Artıq qeyd edə bilərik ki, özündə 270 milyard manat investisiya qoyuluşunu cəmləşdirən, 44698 şagird yerlik 149 yeni məktəb binasının inşasını, 26560 şagird yerlik 175 məktəbdə 1328 əlavə sinif otağının tikilməsini, 164.690 yerlik 408 məktəbdə əsaslı təmir işlərinin aparılmasını əks etdirən həmin beşillik inkişaf proqramı çərçivəsində məqsədyönlü fəaliyyətə başlanılmışdır. Ötən il Naxçıvan MR-də 1296 yerlik, Bərdə rayonunda 840 yerlik, Bakının Xətai rayonunda 840 yerlik, Şəki rayonunda 640 yerlik, Əli Bayramlı şəhərində 640 yerlik, Lənkəran rayonunda 360 yerlik yeni məktəb binaları tikilib istifadəyə verilmişdir. Bir faktı da qeyd etmək lazımdır ki, həmin məktəblərin böyük əksəriyyəti dünya standartlarına tam cavab verir. Ən əsası odur ki, bu gün məktəb tikintisi, təmiri və təchizatı işi yalnız dövlətin vəsaiti ilə yox, ayrı-ayrı fiziki və hüquqi şəxslərin, beynəlxalq, qeyri-hökumət və donor təşkilatlarının, müxtəlif dövlətlərin ölkəmizdə akkreditə olunmuş səfirliklərinin maliyyə vəsaitləri hesabına həyata keçirilir. Təkcə Yaponiya hökumətinin qrant proqramı çərçivəsində respublikamızın müxtəlif bölgələrində 10 yeni məktəb binası inşa edilmişdir. 2003-2004-cü illər ərzində isə 40-a yaxın yeni məktəb binası 11 min şagirdin istifadəsinə verilmiş, 400 məktəbdə əsaslı təmir işləri aparılmışdır. Bununla əlaqədar olaraq 1000-dən artıq fəhlə və qulluqçu işə cəlb edilmiş, 500-dən artıq pedaqoji kadrın yeni məktəblərdə işlə təminatı həyata keçirilmişdir.

Təbiidir ki, şəbəkəsinə 4500-dən artıq məktəb daxil olan sistemin texniki avadanlıqlarla təminatı kimi mühüm bir məsələnin həlli də kifayət qədər vaxt tələb edir. Ancaq onu da qeyd edə bilərik ki, bu proses ölkəmizdə gedir və biz hamımız yaxın vaxtlarda 1 milyon 700 minədək şagirdin təhsil aldığı məktəb şəbəkəsinin maddi-texniki bazasının daha da gücləndirilməsinin şahidi olacağıq. Ümumtəhsil məktəblərinin avadanlıqlarla təminatına dair işlənib hazırlanmış layihəyə əsasən 100 milyard manat maliyyə vəsaiti həcmində avadanlıqların alınması nəzərdə tutulub. Bu ilin büdcə layihəsində isə müvafiq məqsəd üçün 13 milyard manat maliyyə vəsaitinin ayrılması planlaşdırılmışdır.

Azərbaycan Respublikası prezidentinin 2004-cü il 21 avqust tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı" isə ölkəmizdə yeni informasiya texnologiyalarından istifadə edilməklə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Dünya təhsil sisteminə inteqrasiya imkanı verən vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiya cəmiyyətinə hazırlamaq məqsədini daşıyan bu proqramın həyata keçirilməsindən ötrü build büdcənin layihəsində 20 milyard manat məbləğində maliyyə vəsaitinin ayrılması da nəzərdə tutulub. Proqramın yerinə yetirilməsi nəticəsində 4521 məktəb ən müasir tipli kompüter avadanlıqları ilə təchiz olunacaq və ölkəmizin ümumtəhsil məktəblərində hər 33 şagirdə bir ədəd kompüter düşəcək. Üç il ərzində ölkəmizdə təqribən 10 min yeni iş yeri açılacaqdır. Təsadüfi deyildir ki, 2004-cü il sentyabrın 11-də Bərdə şəhərində akademik Zərifə Əliyeva adına orta məktəbin açılışı mərasimində geniş nitq söyləyən dövlət başçısı İlham Əliyev demişdir: "Bildiyimiz kimi, Azərbaycanda təhsilə böyük diqqət göstərilir. Təhsil bilik, elm, tərəqqi deməkdir. Hər bir dövlət, hər bir xalq öz təhsilini daha da təkmilləşdirməyə çalışmalıdır. Bu istiqamətdə Azərbaycanda da işlər aparılır. Onu da qeyd etməliyəm ki, ölkəmizdə büdcənin 20 faizi təhsilə ayrılır. Bu da təbiidir. Çünki təhsil bizim gələcəyimizdir".

Regionların sosial-iqtisadi inkişafı proqramının təhsillə bağlı blokuna məktəbəqədər təhsil sisteminin təkmilləşdirilməsi problemlərinin həlli

məsələsi də daxildir. Qeyd etmək istərdim ki, bu ildən etibarən ən çox ehtiyacı olan uşaq bağçalarının əsaslı təmiri, bütün məktəbəqədər təhsil müəssisələrinin avadanlıq və tədris ləvazimatları ilə təchizatı, habelə müvafiq sahə üçün kadr hazırlığı probleminin həllindən ötrü 2,5 milyon ABŞ dolları həcmində investisiya qoyuluşu planlaşdırılmışdır.

"Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)" üzrə ümumtəhsil məktəb şagirdlərinin dərsliklərlə pulsuz təmin olunmasına dair ümummilli liderimiz H.Əliyevin siyasətini uğurla davam etdirən dövlət başçısı İlham Əliyev bu tədris ili üçün müvafiq məqsədlə 16 milyard manat, növbəti dərs ili üçün 45 milyard manat maliyyə vəsaitinin ayrılması barədə sərəncam imzalamışdır. Bu göstərici 2002-ci illə müqayisədə 9 dəfə çoxdur ki, bu da dövlətin dərslik siyasətinə qayğısının bariz təzahürüdür. Qeyd olunmalıdır ki, əgər 2003-cü ilədək I-IV sinif şagirdlərimiz pulsuz dərsliklərlə təmin olunurdusa, ötən tədris ilində bu V sinif şagirdlərinə də aid edilmişdi. Həmçinin müstəqil məcburi köçkün və qaçqın məktəblərinin I-XI sinif şagirdləri pulsuz dərsliklərlə təmin olunmuşdur. 2004-2005-ci tədris ilində isə dövlət vəsaiti hesabına 20 adda 55.707 nüsxə dərslik Gürcüstandakı Azərbaycan məktəblərinə humanitar yardım kimi göndərilmişdir. Həmçinin möhtərəm prezidentimiz İ.Əliyevin xanımı Mehriban Əliyevanın hədiyyəsi olan 6 min nüsxə VIII-XI sinif dərslikləri ötən ilin sentyabrında gürcüstanlı soydaşlarımıza çatdırılmışdır.

"Təhsil sistemində müasir yanaşmaların təşəkkülü ili" elan olunmuş 2002-2003-cü dərs ilində təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi, xüsusilə təhsil sahəsindəki bütün fəaliyyətin bilavasitə şagirdlərin mənafeyinə yönəldilməsi də son dərəcə vacib addımlardandır. Bu baxımdan istər-istəməz dövlət başçısı İlham Əliyev tərəfindən imzalanan sərəncamlara da toxunmağı zəruri hesab edirəm. Belə ki, ölkə prezidentinin may 2004-cü il tarixli sərəncamı aspirantların, ali, orta ixtisas, peşə məktəbləri və liseylərin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılmasını (85 min nəfəri əhatə edir), iyul 2004-cü il tarixli sərəncam alimlərin dərəcələrinə görə vəzifə maaşlarına əlavələrin (800 nəfərdən çox elmlər doktoru, 5200 nəfər elmlər namizədi əhatə olunur) 5 dəfə artırılmasını nəzərdə tutur. Bundan əlavə, dövlət başçısının iyul 2004-cü il tarixli sərəncamı ilə minimum aylıq əmək haqqı 60 min manatdan 100.000 manata qaldırılmışdır ki, bu da dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışan 105 minə yaxın köməkçi və digər kateqoriyalardan olan təhsil işçilərini əhatə edir. Əlbəttə, bütün bunlar bir daha sübut edir ki, təhsil sektoru işçilərinin sosial müdafiəsi dövlət başçısının daim diqqət mərkəzindədir.

Çıxışımın əvvəlində qeyd etdiyim kimi, ölkə təhsil sistemində aparılan islahatların təşəbbüsçüsü olan ümummilli liderimiz H.Əliyevin xeyir-duası əsasında 2003-cü ilin sentyabrın 19-da Azərbaycan hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında saziş" imzalanmışdır. Dünya Bankının prosedur qaydalarına müvafiq olaraq I Kredit Sazişi 2003-cü ilin dekabrın 18-dən qüvvəyə minmişdir. Layihənin dəyəri 5,5 milyon ABŞ dolları təşkil etmişdir ki, bu məbləğin 500 min dolları Azərbaycan hökumətinin iştirak payına düşmüşdür. Ayrılan kreditin kiçik həcmli olduğu nəzərə alınaraq Təhsil İslahatı Layihəsi yalnız aşağıdakı üç istiqamətdə islahatların aparılması üçün xüsusi yanaşmaları özündə cəmləşdirmişdir:

1) Tədris planı və proqramları, tədris-metodik təminat;
2) Müəllimlərin ixtisasartırması;
3) Layihənin monitorinqi və qiymətləndirilməsi.

Artıq 2003-cü ildə yekunlaşdırılan və Dünya Bankının rəsmiləri tərəfindən baş tutduğu bildirilən I Kredit Sazişi çərçivəsində həyata keçirilən tədbirlər barədə ictimaiyyətə ətraflı məlumat verilmişdir. Onu da qeyd etmək istərdim ki, II Kredit Sazişinə uyğun məqsədyönlü fəaliyyətə də başlanılmışdır. Bu saziş 18 milyon ABŞ dolları (2,8 milyon ABŞ dolları Azərbaycan hökumətinin iştirak payıdır) həcmində olub 4 illik müddəti əhatə edir. Açıq Cəmiyyət İnstitutu (Azərbaycan) layihədə 200 min ABŞ dolları məbləğində texniki yardım göstərəcək. Həmin sazişə müvafiq olaraq bütün komponent və alt komponentlər hazırlanaraq beynəlxalq ekspertlər və məsləhətçilərlə razılaşdırılaraq Dünya Bankının ofisinə təqdim olunmuşdur. İcra planına əsasən 5 komponent və bunlara müvafiq 8 alt komponent çərçivəsində fəaliyyət göstərilməsi planlaşdırılıb. Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında bağlanmış II Kredit Sazişinə uyğun olaraq ölkəmizdə həyata keçirilən Təhsil İslahatı Layihəsinin 2003-2007-ci illəri əhatə edən birinci mərhələsində ümumi təhsilin keyfiyyəti və onun real tələbata uyğunluğu istiqamətində işlərin görülməsi nəzərdə tutulub. Gözlənilən nəticələr isə bundan ibarətdir ki, 2008-ci ilədək müasir yanaşmaları və ideyaları özündə əks etdirən ümumi təhsilin yeni dövlət standartları təsdiq olunacaq.

ümumtəhsil məktəblərinin tədris planı və proqramlarında köklü dəyişikliklər aparılacaq və yeni nəsil dərsliklər yaranacaqdır.

Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən Təhsil İslahatı Proqramının 3 mərhələdə reallaşdırılması nəzərdə tutulmuşdur. I mərhələ (əvvəl etdiyimiz kimi, 2003-2007-ci illəri, II mərhələ 2007-2010-cu illəri, III mərhələ 2010-2013-cü illəri əhatə edəcəkdir. Proqramın I mərhələsindən (xüsusi olaraq sonrakı mərhələlərdə orta məktəb məzunlarının bazar iqtisadiyyatının, ictimai və siyasi mühitin tələblərinə cavab verən bilik və bacarıqlara yiyələnmələrinə, habelə kadr potensialından daha səmərəli istifadə və nəhayət, texniki peşə təhsilində, ali təhsildə islahatlara başlamaq üçün təhsil sektorunda möhkəm zəmin yaradılmasına nail olmaqdır. Təhsil Sektorunun İnkişafı Layihəsinin əsas komponentləri ümumi təhsilin keyfiyyətinin artırılması və real tələbata uyğunlaşdırılması, səmərəliliyin təmini və maliyyə islahatlarının aparılması, məktəb qrantı proqramı, idarəetmə, planlaşdırma və monitorinq bazasının gücləndirilməsidir. Layihənin əlaqələndirilməsi üçün xüsusi qrup yaradılmış, layihənin monitorinqi və ictimaiyyəti məlumatlandırma kampaniyasının təşkili nəzərdə tutulmuşdur.

Ümumi təhsilin keyfiyyətini yüksəltmək üçün hazırda mövcud olan və əslində hafizənin inkişafına xidmət göstərən ümumtəhsil məktəbini şəxsiyyətyönümlü məktəbə çevirmək istiqamətində də iş aparılır. Bunun üçün ilk növbədə yeni təhsil standartlarını müəyyənləşdirmək və məktəb kurrikulumunu hazırlamaq nəzərdə tutulur. Azərbaycan təhsil sistemində yeni olan "kurrikulum" anlayışı təlim prosesi ilə bağlı bütün fəaliyyətin təşkili və həyata keçirilməsini əks etdirən konseptual sənəd kimi başa düşülür. Yəni layihə çərçivəsində hazırkı tədris planını, tədris proqramlarını, şagirdə və onun hazırlıq səviyyəsinə verilən tələbləri, hər bir dərsin inkişafetdirici məqsədlərini, metodik təminatını, qiymətləndirmə modelini və texniki təchizatını əks etdirən bir konseptual sənəd hazırlanacaq. Kurrikulumların hazırlanması üçün Təhsil Nazirliyinin nəzdində Kurrikulum Şurası, Təhsil Problemləri İnstitutunda isə Kurrikulum Mərkəzi yaradılmış, beynəlxalq məsləhətçi xidmətlərindən istifadə nəzərdə tutulmuşdur.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi sistemində də əsaslı dəyişikliklər ediləcəkdir. Təhsil Nazirliyində yaradılmış şagird nailiyyətlərinin qiymətləndirilməsi şöbəsi mövcud qiymətyazma sisteminin 4-5 ildən sonra şagirdlərin real inkişafının ölçülməsinə imkan verən müasir qiymətləndirmə sistemi ilə əvəz olunması yönümündə iş aparır. Bu sahədə də beynəlxalq məsləhətçi xidmətləri istifadə olunacaqdır.

Təhsil Sektorunun İnkişafı Layihəsi çərçivəsində səmərəliliyin artırılması və maliyyə islahatı üçün 3 pilot rayonunda — İsmayıllı, Ucar və Əli Bayramlıda bir sıra tədbirlər həyata keçirilir. Maliyyə Nazirliyinin razılığı ilə bu rayonlarda 59 məktəbə maliyyə müstəqilliyi verilmiş, həmin məktəblər üçün əlavə 45 vahid mühasib ştatı ayrılmışdır.

Pilot rayonlarında ümumtəhsil sistemində bütün şagirdlər üçün bərabər imkanların yaradılması və məktəblərdə innovasiyaların tətbiqi məqsədilə Məktəb Qrantı Proqramı da həyata keçirilir. Proqramda 2004, 2005 və 2006-cı illərdə üç mərhələdə həmin rayonların 148 məktəbi arasında müsabiqə keçirilməsi və müsabiqədə qalib çıxmış məktəblərin hər birinə beş min ABŞ dolları dəyərində qrant verilməsi nəzərdə tutulmuşdur. 2004-cü il üzrə Təhsil Nazirliyi tərəfindən 46 qalib məktəb artıq müəyyənləşdirilmişdir.

Təhsil Sektorunun İnkişafı Layihəsi çərçivəsində Təhsilin İdarəolunmasının Məlumat Sistemlərinin yaradılması, Təhsil İslahatı Proqramının son mərhələsində respublikanın bütün ümumtəhsil məktəblərinin bu şəbəkəyə qoşulması, elmi-pedaqoji tədqiqatlar sahəsində işlərin yenidən qurulması sahəsində də ilk addımlar atılmışdır.

Şəxsiyyətyönümlü məktəbin qurulması üçün yeni dərslik siyasəti konsepsiyası hazırlanır. Bu məqsədlə 2008-2013-cü illərdə müasir tələblərə tam cavab verən dərsliklərin tərtib və nəşr olunması planlaşdırılmışdır. Təsadüfi deyildir ki, ümumtəhsil məktəbləri kitabxanalarının oxu materialları ilə təchiz olunması da Təhsil Sektorunun İnkişafı Layihəsinə daxil edilmişdir. Layihənin dəyərləndirilməsi sənədində 2005-ci ildə bütün ümumtəhsil məktəblərinin oxu materiallarının ilk dəsti ilə təmin edilməsi Dünya Bankı tərəfindən layihənin əsas icra indikatorlarından biri kimi müəyyən edilmişdir. Təhsil Nazirliyində yaradılmış komissiya təqdim olunan kitabları müvafiq meyarlar əsasında qiymətləndirmiş və nəticədə «Ayna» Mətbu Evinin 18 cilddən ibarət «Ayna uşaq Ensiklopediyası»nın alınması məqsədəuyğun hesab edilmişdir. Bundan sonra Dünya Bankının verdiyi razılığa əsasən «Ayna» Mətbu Evi ilə 846.000 ədəd kitabın təchiz olunması üçün dəyəri 1.689.650 ABŞ dolları məbləğində olan müqavilə imzalanmış və artıq kitab komplektinin nəşr olunaraq respublikanın bütün məktəb kitabxanalarına paylanması başa çatmaqdadır.

YUNESKO-nun «Xüsusi qayğıya ehtiyacı olan uşaqlar: problemə münasibət, praktika və siyasət» layihəsinin ölkəmizdə həyata keçirilməsi üçün 82.400 ABŞ dolları məbləğində qrant ayrılmışdır. Bu layihənin başlıca məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqların kütləvi məktəblərdə təhsil almaları üçün əlavə imkanlar yaratmaq, müəllim, psixoloq, həkim və valideynlərlə treninqlər keçirmək və müvafiq metodik vəsaitlərin hazırlanmasıdır. 2 məktəb və 2 uşaq bağçasını əhatə edəcək bu pilot layihə bir il ərzində həyata keçiriləcəkdir.

Azərbaycan hökuməti və Asiya İnkişaf Bankı arasında 9 noyabr 2004-cü il tarixdə imzalanmış sazişə əsasən "Azərbaycanda erkən yaşlı uşaqların inkişafına Texniki Yardım Layihəsi" 14 fevral 2005-ci il tarixdən həyata keçirilir.Layihənin məqsədi 10 pilot rayonunda — Naxçıvan və Sumqayıt şəhərləri, Bakı şəhərinin Xətai rayonu, Şamaxı, Quba, Cəlilabad, Tovuz, Zərdab, Bərdə, Balakən rayonlarında, ümumilikdə 291 məktəbəqədər təhsil müəssisəsində erkən uşaqlığın inkişafının əsas göstəricisi üzrə baza sorğusunun aparılması, real vəziyyətin öyrənilməsi, mövcud problemlərin aşkar edilməsi və ehtiyacların müəyyənləşdirilməsi, erkən uşaqlığın inkişafının təkmilləşdirilməsi üzrə strategiyanın və siyasətin işlənməsi, Asiya İnkişaf Bankı tərəfindən maliyyələşəcək kredit layihəsinin hazırlanmasıdır.

Texniki Yardımın ümumi dəyəri 750 min ABŞ dolları ekvivalentindədir. Azərbaycan hökumətinin layihədə iştirak payı 150 min dollar təşkil edir. 600 min dollar həcmində Texniki Yardım Yaponiya hökumətinin maliyyələşdirdiyi Yaponiya Xüsusi Fondundan qrant şəklində ayrılmış və Asiya İnkişaf Bankı vasitəsilə maliyyələşdirilir.

Çıxışımın sonunda tam açıq şəkildə qeyd etmək istərdim ki, bu gün Azərbaycan təhsil sistemi dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemi ilə rəqabətə girə bilmək imkanlarına malikdir. Təhsil sistemimizin dünya təhsil sisteminə inteqrasiyası uğurla davam edir və onun modernləşdirilməsi kimi qlobal bir proses günümüzün reallığına çevrilmişdir. Əminəm ki, bünövrəsi ümuummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və respublika prezidenti cənab İlham Əliyevin böyük müvəffəqiyyətlə davam etdirdiyi təhsil siyasəti uğurla nəticələnəcəkdir.

MÜBARİZ QURBANLI
Milli Məclisin deputatı,
YAP İdarə Heyətinin üzvü

HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT XƏTTİNİN BEYNƏLXALQ TƏŞKİLATLAR MÜSTƏVİSİNDƏ UĞURLU DAVAMI

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ölkənin qarşısında bir sıra mühüm vəzifələr dayanırdı. Həmin vəzifələr sırasında Azərbaycanın xarici siyasət xəttinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Keçmiş SSRİ-nin süqutu ümumilikdə dünya miqyasında, eyni zamanda Cənubi Qafqaz bölgəsində geopolitik baxımdan yeni situasiya yaratmışdı. Müstəqil Azərbaycan dövlətinin xarici siyasət kursu müəyyən edilərkən dünyada və regionda gedən proseslər, həmçinin Azərbaycanın Ermənistan tərəfindən təcavüzə məruz qalması və digər amillər nəzərə alınmalı idi. Keçmiş sovet sisteminin mövcud olduğu vaxtda başqa müttəfiq respublikalara kimi Azərbaycan da müstəqil xarici siyasət yeritmək iqtidarında deyildi. Odur ki, Azərbaycanın xarici siyasəti ilə əlaqədar təcrübəli kadrların çatışmazlığı, ölkənin bu yöndə maraqlarının müəyyən olunmasında səriştəsizlik müstəqilliyin ilk illərində özünü açıq şəkildə büruzə verdi.

Məlumdur ki, bu və ya digər dövlətin xarici siyasət xəttinin müəyyən edilməsi ölkənin sosial-iqtisadi və ictimai-siyasi inkişafı, coğrafi vəziyyəti, tarixi ənənələri, təbii resursları, milli maraqları və s. amillərlə bağlıdır. Milli maraq anlayışı xarici siyasətin hazırlanması və həyata keçirilməsində başlıca yer tutur. Müasir geopolitik və politoloji ədəbiyyatda «milli maraq» terminin izahı verilir. Ümumiyyətlə, bu anlayışın siyasi ədəbiyyata daxil olması ötən əsrin 30-cu illərinə təsadüf edir. İkinci dünya müharibəsindən sonra «milli maraq» məfhumu daha geniş və qabarıq şəkildə işlədilməyə başlanır. Əlbəttə, bu yazıda məqsəd heç də «milli maraq» barədə təhlil vermək deyildir. Bizim üçün əsas məqsəd Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasından sonra ölkənin milli maraqlarını əks etdirən xarici siyasət kursunun müəyyən edilmə istiqamətində keçilmiş yola nəzər salmaqdır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi tarixi nailiyyətdir. Lakin müstəqilliyin əldə edilməsi ilə məsələ başa çatmır. Əsas vəzifələr sırasında əldə edilmiş müstəqilliyin möhkəmləndirilməsi, ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi, milli təhlükəsizliyin qorunması, sosial-iqtisadi asılılığın aradan qaldırılması və digər bu kimi məsələlər dayanırdı. Dövlət müstəqilliyinin bərpasından sonra qarşıda təxirəsalınmaz, öz həllini gözləyən vacib məsələlər sırasında müstəqil dövlət quruculuğunun həyata keçirilməsi və Azərbaycanın beynəlxalq aləmdə daha geniş miqyasda tanınmasına nail olmaq dayanırdı. SSRİ-nin süqutu ilə müstəqillik əldə etmiş digər ölkələrlə müqayisədə Azərbaycanın bu baxımdan durumu fərqli idi. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində meydana gəlmiş Qarabağ münaqişəsi Azərbaycanın daxili və xarici siyasətinə mənfi təsir göstərirdi. Müstəqilliyin ilk illərində ölkə rəhbərliyində olan siyasi dairələr Ermənistanın təcavüzünün qarşısının alınması, dünya miqyasında, beynəlxalq təşkilatlarda bu təcavüzün ifşa olunması, milli maraqları özündə əks etdirən xarici siyasətin müəyyən edilməsi istiqamətində heç bir real iş görmədilər.

1993-cü ilin iyun ayında Ümummilli lider Heydər Əliyevin Azərbaycanda ali siyasi hakimiyyətə qayıdışı ilə ölkəni bürümüş sosial-siyasi, mənəvi-psixoloji, iqtisadi böhrana son qoyuldu. Bütün sahələrdə olduğu kimi, xarici siyasət sahəsində də prinsipial və ciddi dəyişikliklərə başlanıldı. Əvvəlki hakimiyyətlərin zamanında yol verilmiş nöqsanların aradan qaldırılması üçün vacib qərarlar qəbul edildi. Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin başlıca vəzifələrindən danışarkən Ümummilli lider Heydər Əliyev demişdi: «Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən səriştəli xarici siyasət yerilidməsidir... Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir» (Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab, Bakı, 1997, səh., 205-207).

Azərbaycanın xarici siyasət doktrinasını müəyyən edən Ümummilli lider Heydər Əliyevin siyasətində başlıca elementləri tarixi reallıqları düzgün dəyərləndirmə, qətiyyətlilik, elmilik, praqmatik yanaşma, milli maraqların öncüllüyü, geopolik prosesin dəqiq müəyyənləşdirilməsi, məqsədyönlü fəaliyyət, regional xüsusiyyətlərin nəzərə alınması və digər bu kimi amillər təşkil edirdi.

Müstəqil Azərbaycan dövlətinin uğurlu xarici siyasət yeritməsi üçün ölkənin daxilində ictimai-siyasi sabitliyin yaradılması, iqtisadi sahədə geriləmənin aradan qaldırılması, möhkəm nizam-intizama malik ordunun qurulması olduqca vacib idi.

Xarici siyasəti daxili siyasətdən əlahiddə təsəvvür etmək düzgün olmazdı. Məhz bu baxımdan 1993-cü ildən başlayaraq ölkə daxilində həyata keçirilən tədbirlər, sosial-iqtisadi islahatlar çevik xarici siyasətin həyata keçirilməsinə əlverişli zəmin yaratmışdı.

Müstəqil Azərbaycan dövlətinin beynəlxalq təşkilatlarda mövqeyinin möhkəmləndirilməsi ümummilli lider Heydər Əliyevin xarici siyasətinin çox mühüm istiqamətlərindən biri olmuşdur. Müasir dünyamızda gedən proseslər – qloballəşmə, demokratik dəyərlərin ümumbəşəri xarakter daşıması, dövlətlərarası əlaqələrin daha intensiv şəkil alması, sülh və təhlükəsizliyin qorunması yönündə əməkdaşlığın zəruriliyi, terrorizmə qarşı mübarizə, ümumbəşəri problemlər və s. amillər beynəlxalq və regional təşkilatların rolunu və əhəmiyyətini getdikcə artırır. Hazırda dünyada xeyli beynəlxalq və regional əhəmiyyət daşıyan təşkilatlar fəaliyyət göstərir. Müstəqil Azərbaycan respublikası bir sıra təşkilatların işində fəal iştirak edir. Azərbaycanın müstəqilliyinin ilk illərində beynəlxalq təşkilatlarla əlaqələr lazımi səviyyədə qurulmamışdı. Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də ölkənin BMT-yə bərabərhüquqlu dövlət kimi qəbulu yalnız 1992-ci ilin martında həyata keçirilmişdi. Digər mühüm əhəmiyyət daşıyan təşkilatlara - ATƏM (1994-cü ildən sonra ATƏT adlanır), İslam Konfransı təşkilatı, İqtisadi Əməkdaşlıq təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlığı təşkilatı – Azərbaycan 1992-1993-cü illərdə daxil olsa da, bu qurumlarda fəaliyyət istənilən səviyyədə deyildi. Ümummilli lider Heydər Əliyevin ali siyasi hakimiyyətə qayıdışından sonra beynəlxalq təşkilatlarda Azərbaycanın diplomatik fəaliyyəti gücləndirildi. Ölkənin xarici siya-

səl xəttinin dəqiq istiqamətləri və hədəfləri müəyyən edilərək ardıcıl şəkildə həyata keçirilməyə başlanıldı.

Müasir dünyamızdı ən aparıcı və əhəmiyyətli beynəlxalq qurumlar sırasında Birləşmiş Millətlər Təşkilatının (BMT) yeri olduqca böyükdür. Hələ ikinci dünya müharibəsinin şiddətlə davam etdiyi bir vaxtda dünyada sülhün və təhlükəsizliyin qorunması, müharibələrin qarşısının alınması, təcavüzkarın cəzalandırılması üçün yeni bir beynəlxalq təşkilata ehtiyac olduğu bildirildi. Antihitler koalisiyasına daxil olan dövlət rəhbərlərinin keçirlən görüşlərində gələcək BMT-nin strukturunun və funksiyalarının ilk variantları müzakirə olunurdu. Nəhayət, 1945-ci ilin aprelində müttəfiqlərin San-Fransisko konfransında BMT-nin yaradılması haqqında qərar qəbul edildi. BMT-nin Nizamnaməsində təşkilatın əsas vəzifələri və strukturu müəyyən edilmişdir. İkinci dünya müharibəsindən ötən müddət ərzində beynəlxalq münasibətlərdə və eləcə də, beynəlxalq təşkilatların fəaliyyətinlə xeyli dəyişikliklər baş vermişdir Sosialist sisteminin süqutu, SSRİ-nin dağılması nəticə etibarilə «soyuq müharibə»ni aradan qaldırmış və bu beynəlxalq təşkilatların, o cümlədən BMT-nin qarşısında duran vəzifələrin yeni şəraitə uyğunlaşdırılmasını zəruri etmişdir. Hazırda BMT-yə üzv olan 184 dövlətdən 120 dövlətin əhalisinin ümumi sayı 10 milyon nəfərdən azdır. Kiçik dövlətlərin siyasi-iqtisadi baxımdan böyük dövlətlərdən asılılığı qalmaqdadır. Bütün bunlar BMT səviyyəsində qərarların qəbul edilməsinə öz təsirini göstərir. Təşkilatın ən vacib qurumlarından olan Təhlükəsizlik Şurasında beş ölkənin veto hüququna malik olması faktiki olaraq həmin ölkələrin – ABŞ, Rusiya, Fransa, Çin, İngiltərə – üstün mövqedə durmasına gətirib çıxarmışdır. Hərbi-iqtisadi cəhətdən güclü dövlətlərin maraqlarının BMT-də daha geniş şəkildə təmin edilməsi «ikili standart» siyasətinin qabarıq formada təzahür etdirir. BMT səviyyəsində böyük dövlətlərin maraqlarının toqquşması bu qurumda daha incə və çevik siyasət yeritməyi zəruri edir.

Müstəqil Azərbaycan dövlətinin beynəlxalq təşkilatlarda siyasətini müəyyən edərkən Ümummilli lider Heydər Əliyev bir sıra məqamları xüsusi olaraq nəzərə almışdır. Birincisi, Ermənistanın Azərbaycana təcavüzü və bu təcavüzün beynəlxalq təşkilatlar səviyyəsində pislənilməsinə, Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına və ona qarşı müvafiq sanksiyaların tətbiq edilməsinə nail olmaq; ikincisi, beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən layihələrdə Azərbaycanın geniş şəkildə iştirakının təmin edilməsi; üçüncüsü, Ermənistanın təcavüzü nəticəsində məcburi olaraq öz yaşayış məskənlərini tərk etmiş ölkə vətəndaşlarının sosial-iqtisadi təminatı üçün beynəlxalq qurumlardan humanitar yardımların alınmasına çalışmaq; dördüncüsü, beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qərar və qətnamələrin yerinə yetirilməsi istiqamətində fəaliyyəti genişləndirmək; beşincisi, Azərbaycan haqqında həqiqətləri daha geniş şəkildə yaymaq; altıncısı, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması istiqamətində beynəlxalq təşkilatların vasitəçiliyindən istifadə etmək. Ümumiyyətlə, mövcud beynəlxalq münasibətlər sistemində münaqişələrin sülh yolu ilə çözülməsi istiqamətində beynəlxalq təşkilatların, ələlxüsus BMT-nin rolu xeyli yüksəlmişdir. BMT-nin məlumatlarına görə Berlin divarlarının sökülməsindən sonra dünyada 82 münaqişə ocağı yaranmışdır ki, bunlardan 79-u ölkədaxili vətəndaş müharibələri, 3-ü isə dövlətlərarası toqquşmalar nəticəsində meydana gəlmişdir. Yeri gəlmişkən, bəzi xarici konfliktoloqlar səhv olaraq Dağlıq Qarabağ münaqişəsini də ölkədaxili vətəndaş müharibəsi kimi təqdim etməyə çalışırlar. Lakin beynəlxalq təşkilatlar səviyyəsində qəbul edilən sənədlər bu münaqişəni Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticəsində yaranmış dövlətlərarası münaqişə kimi qiymətləndirilmişdir. Azərbaycan diplomatiyasının uğurlu fəaliyyəti sayəsində Dağlıq Qarabağ münaqişəsinin hüquqi-siyasi qiyməti verilmişdir. Azərbaycanın haqlı mövqeyinin dünya ictimai rəyinə çatdırılması baxımından Ümummilli lider Heydər Əliyevin 1994-cü il sentyabr ayının 29-da BMT Baş Məclisinin 49-cu sessiyasındakı çıxışı əhəmiyyətli rol oynamışdır. Həmin çıxışında ümummilli lider Heydər Əliyev Ermənistanın Azərbaycana təcavüzünün vurduğu ziyanın həcmini faktlarla çatdıraraq demişdir: «Təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Mən Azərbaycan tərəfinin dəhşətli itkilərini sizə deməliyəm. 20 minən çox adam həlak olmuşdur, 100 minə yaxın adam yaralanmış və xəsarət almışdır, 6 min adam əsir düşmüşdür, bir milyondan çox azərbaycanlı – ölkə əhalisinin təxminən 15 faizi qaçqın vəziyyətinə düşmüşdür və çadır şəhərciklərində yaşayır. Onlar öz vətənində evsiz-eşiksiz qalmışlar, yayın istisindən, qışın soyuğundan, epidemiyalardan

əzab çəkirlər, ən zəruri şeylərə ehtiyac duyurlar. Azərbaycanın işğal edilmiş ərazilərdə 700 şəhər və kənd dağıdılmışdır. Həmin şəhər və kəndlərdə demək olar, bütün evlər, məktəblər, xəstəxanalar yandırılmış və talan edilmiş, qədim mədəniyyət abidələri məhv edilmişdir».

Ümummilli lider Heydər Əliyevin BMT tribunasından səsləndirdiyi bu fikirlər Ermənistanın işğal siyasətinin əsl mahiyyətinin ifşa edilməsi istiqamətində atılan addımlardan biri idi. İlk dəfə olaraq beynəlxalq miqyaslı nüfuzlu təşkilatın kürsüsündən Azərbaycan haqqında tutarlı dəlillər dünya ictimaiyyətinin diqqətinə çatdırılırdı. Ümummilli lider Heydər Əliyevi həmin çıxında Ermənistanın təcavüzkar əməllərini ifşa etməklə yanaşı münaqişənin həll edilməsi üçün BMT səviyyəsində həyata keçirilməsi zəruri olan siyasətin hədəflərini göstərmişdir.

Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən BMT qətnamələrinin yerinə yetirilməsinin yolverilməz olduğu xüsusi olaraq qeyd edilmişdir. Bunanla bağlı Heydər Əliyev öz çıxışında deyirdi: «Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilmsi ilə əlaqədar olaraqa son iki il ərzində Təhlükəsizlik Şurasının 4 qətnaməsi və onun sədrinin 6 bəyanatı qəbul edilmişdir... Lakin bütün bu qərarlara Ermənistan Respublikası hələ də qətiyyən məhəl qoymur... Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifələrini yerinə yetirmək bacarığına inam poza bilər».

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Heydər Əliyevin xarici siyasətində əsas yerlərdən birini tuturdu. Beynəlxalq təşkilatlarda keçirilən görüşlərdə və çıxışlarda bu məsələ daim diqqət mərkəzində olmuşdur. Eyni zamanda, Azərbaycan tərəflərinin konstruktiv mövqeyi həmişə açıq şəkildə ifadə edilmişdir. BMT Baş Məclisinin 49-cu sessiyasındakı çıxışında Heydər Əliyev Azərbaycanın mövqeyini açıqlayarkən demişbir: «Bizə vurulmuş bütün ziyanlara baxmayaraq, biz beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik. Biz Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə zəmanət verməyə hazırıq... Biz Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunun müzakirə etməyə hazırıq». (bax., Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir.Bakı., 1997., səh. 311).

Ümummilli lider Heydər Əliyevin BMT səviyyəsində həyata keçirdiyi siyasi xətt, orada etdiyi çıxışlar, BMT-nin baş katibi olmuş Butros Butros Qali ilə və onu əvəz etmiş baş katib Kofi Annanla apardığı danışıqlar öz səmərəli nəticələrini vermişdir.

Müstəqil Azərbacanın xarici siyasəti həyata keçirilərkən digər beynəlxalq təşkilatlarda əldə edilmiş müsbət irəliləyişləri qeyd etmək lazımdır. Bu baxımdan, Heydər Əliyevin ATƏT çərçivəsində yeritdiyi siyasətin bəzi məqamlarının təhlili vacibdir. Onun düşünülmüş və dəmir məntiqə söykənən siyasi xtti, siyasi iradəsi və qətiyyəti ATƏT-də gedən proseslərdə aydın şəkildə görünür. Məlumdur ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində ATƏT-in vasitəçilimyi müəyyən edilmişdir. Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan ATƏM-ə (indiki ATƏT) üzvü qəbul edildi. Məlumdur ki, bu təşkilat Avropada sülh və təhlükəsizlik məsələlərini özünün qəbul etdiyi sənədlərdə ön plana çəkir. Hələ keçmiş sosialist sisteminin mövcud olduğu zamanda, 1975-ci ildə təsis edilən ATƏM, Avropa təhlükəsizliyi və əməkdaşlığı istiqamətində xeyli işlər görmüşdür. Azərbaycan müstəqillik əldə edən zaman Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə bağlı vasitəçilik missiyası beynəlxalq təşkilat kimi 1992-ci ildən ATƏT-in himayəsinə keçmişdir. Bu qurumda Azərbaycan diplomatiyasının əsas vəzifələrindən biri Ermənistanın Azərbaycana təcavüz etməsini ifşa etmək, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin rəsmi surətdə bəyan olunmasına nail olmaq və eyni zamanda, ATƏT-in vasitəçilik missiyası ilə Ermənistanın işğal etdiyi ərazilərin qaytarılmasını həyata keçirmək idi. Bu yöndə ciddi addımlar ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində atılmışdı.

19994-cü il dekabr ayının 5-6-da ATƏM-in üzvü olan ölkələrin dövlət başçılarının Budapeştdə keçirilən zirvə toplantısında iştirak edən Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilk dəfə olaraq bu qurumda müzakirə olunmasına nail olur. Onun səyi ilə Qafqaz regionunda təhlükəsizlik məsələsi ətrafında danışıqlar aparıldı. Avropada təhlükəsizliyin təmin edilməsində məsuliyyət daşıyan bir təşkilat kimi ATƏT-in sülhməramlı qüvvələrinin yaradılması və onların münaqişə regionlarına göndərilməsi məsələsi Budapeşt sammitində diqqət mərkəzində dayanan məsələlərdən biri idi. Bununla bağlı Azərbay-

canın mövqeyindən danışarkən Heydər Əliyev demişdir: «Son illər, xüsusən mən bu işlə məşğul olduğum vaxt çoxları dəfələrlə mənə demişdilər ki, ATƏM heç zaman sülhməramlı qüvvələr yarada bilməz və bu mümkün deyil... Ancaq mən daim inanırdım ki, ATƏM-in sülhü mühafizə qüvvələrini yaratmaq olar. Mən bundan ötrü çalışırdım, bütün səylərimi də buna yönəltmişdim».

ATƏT-in Budapeşt sammitinin mühüm və fərqləndirici xüsusiyyətlərindən biri ondan ibarət olmuşdu ki, burada ilk dəfə sülhü mühafizə qüvvələrinin yaradılması qərara alınmışdı. SSRİ-nin süqutu, Varşava müqaviləsinin ləğvindən sonra yaranmış yeni situasiyada Avropanın münaqişəli bölgələrinə ATƏT-in himayəsi altında sülhü mühafizə qüvvələrinin göndərilməsi barədə belə bir razılığın əldə edilməsi Azərbaycanın maraqlarına uyğun idi. Həmin dövrdə Avropada sülhə təhlükə yaradan bəzi münaqişə ocaqlarının sırasında Balkan yarımadasında (keçmiş Yuqoslaviyə ərazisində) mövcud olan münaqişələrlə bərabər Cənubi Qafqazda Dağlıq Qarabağ, Abxaziya, cənubi Osetiya, Moldova ərazisində Dnestryanı kimi problemlər yaranmışdı. Bu münaqişələrin aradan qaldırılması istiqamətində atılacaq addımlardan biri də beynəlxalq sülyaradıcı qüvvələrin ərazilərə göndərilməsi ola bilərdi. Lakin, burada bir neçə amil prosesin bu istiqamətdə inkişafına əngəl olmuşdu. Birincisi, maliyyə ilə bağlı idi. Aydındır ki, münaqişə ocaqlarına göndəriləcək sülhü mühafizə qüvvələrinin maliyyələşdirilməsi öz həllini tapmadan bu məsələni reallaşdırmaq mümkün olmayacaqdı. ATƏT-in belə maliyyə imkanı olmadığından proses irəli gedə bilməmişdi. İkincisi, keçmiş SSRİ-nin varisi rolunda çıxış edən Rusiya dövləti MDB məkanında yaranmış olan münaqişələrin aradan qaldırılması üçün kənardan hərbi qüvvələrin cəlb olunmasına əməli işlərdə mane olurdu.

ATƏT-ın Budapeşt sammitində Heydər Əliyevin diplomatik səyləri nəticəsində Dağlıq Qarabağ münaqişəsi bu qurumun fəaliyyətində aparıcı yerlərdən birini tutmuşdu. Budapeştdə həyata keçirilən tədbirlər növbəti illərdə öz nəticəsini biruzə vermişdi. Bu baxımdan ATƏT-in 1996-cı ilin dekabrında Lissabon şəhərində keçirilmiş zirvə toplantısı xüsusi olaraq qeyd edilməlidir. Ümummilli lider Heydər Əliyevin Lissabon sammitində nümayiş etdirdiyi diplomatik məharət və qətiyyət nümunəsi hələ uzun müddət tədqiqatçıların diqqətində qalacaqdır.

ATƏT-in Lissabon zirvə toplantısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında gedən müzakirələrdə Azərbaycanın ərazi bütövlüyünün tanınması Ermənistan üçün ağır zərbə oldu. Həmin toplantıda Ermənistan diplomatik, siyasi ideoloji, psixoloji, təbliğati baxımdan məğlub oldu. Zirvə toplantısında qəbul edilən sənəd Dağlıq Qarbağ münaqişəsinin həllinə dair prinsipləri müəyyən etmişdi:

I. Azərbaycanın ərazi bütövlüyünün tanınması;

II. Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək idarəetmə statusunun verilməsi;

III. Dağlıq Qarabağın bütün əhalisinin (azərbaycanlı və ermənilərə) təhlükəsizliyinə zəmanət verilməsi.

Azərbaycan diplomatiyasının ATƏT çərçivəsində uğurlu fəaliyyəti qurumun 1999-cu ildə İstanbulda keçirilmiş ali toplantısında davam etdirilmişdi. ATƏT-in Minsk qrupunun daha da fəallaşması təşkilatın Lissabon toplantısından sonra qabarıq şəkildə görünürdü. Minsk qrupunun həmsədrləri dünyanın üç ən böyük dövləti – Rusiya, ABŞ, Fransa olmuşdu. ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə birbaşa məşğul olmaq üçün yaradılmışdı. Minsk qrupu yarandığı vaxtdan indiyə qədər münaqişənin həll edilməsi üçün müəyyən cəhdlər göstərməsinə baxmayaraq hələlik əsaslı dönüşə nail ola bilməyibdir. Bunun başlıca səbəbi danışıqlar prosesində Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsidir. Ümummilli lider Heydər Əliyev 1993-cü ildən 2003-cü iləqədək dəfələrlə Minsk qrupunun həmsədrlərini qəbul etmiş, münaqişənin sülh yolu ilə həll edilməsi variantlarını geniş şəkildə müzakirə etmişdir. Əlbəttə, Minsk qrupu çərçivəsində gedən danışıqlarda işğal olunmuş ərazilərin qaytarılmasına hələlik nail olunmasa da orada gedən prosesdə Azərbaycan diplomatiyası müəyyən uğurlar əldə edə bilmişdir. Əvvəla, bu qurumda iştirak edən ölkələr Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının zəruri olduğunu, işğalçı qoşunların Azərbaycan torpaqlarından çıxarılmasını qəbul edilən sərhədlərdə birmənalı ifadə etmişlər, digər tərəfdən Ermənistan bu illər ərzində siyasi-təbliğati istiqamətdə mövqelərini itirmişdir. Erməni lobbisinin cəhdlərinə baxmayaraq, indi ermənilərin yaydıqları yalanlara inananların sayı minimuma enmişdir. Azərbaycanın ədalətli mövqeyini müdafiə edən ölkələrin sayı getdikcə artmaqdadır. Azərbaycanın ATƏT-də həyata keçirdiyi siyasət prezident İlham Əliyev

tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin BMT Baş Məclisinin 59-cu sessiyasında etdiyi çıxışdan sonra ATƏT işğal olunmuş Azərbaycan ərazilərinin ermənilər tərəfindən beynəlxalq hüququ norma və prinsiplərinə ziddi olaraq məskunlaşdırılması faktını növbəti dəfə araşdırmışdır. Ortaya çıxan faktlar Ermənistanın işğalçı siyasətini bir daha göstərmişdir.

Ümummilli lider Heydər Əliyevin digər beynəlxalq təşkilatlarda həyata keçirdiyi məqsədyönlü siyasət müsbət nəticələr vermişdir. Heydər Əliyevin BMT-nin yüksək tribunasından 1994-cü və 1997-ci illərdə etdiyi çıxışlar, Avropa Şurası, ATƏT, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Türk Dövlətlər Birliyi, İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUÖAM və digər beynəlxalq, regional qurumlarda söylədiyi nitqlər müstəqil Azərbaycanın milli maraqlarının təmin edilməsinə, ölkənin sosial-iqtisadi və siyasi mənafeyinin qorunmasına, Ermənistanın təcavüzkar siyasətinin ifşasına yönəlmiş xarici siyasət xəttinin başlıca məqamlarını özündə əks etdirmişdir. Bu siyasi xəttin ardıcıl olaraq həyata keçirilməsi nəticəsində Azərbaycanın müstəqiliyyinin dönməzliyi təmin edilmiş, Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin daxili və xarici siyasəti prezident İlham Əliyev tərəfindən qətiyyətlə, uğurla, praqmatik və çevik şəkildə davam etdirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: «Azərbaycanda bu siyasətə alternativ yoxdur. Əgər biz istəyirik ki, Azərbaycan xalqı rahat xoşbəxt yaşasın bu siyasət mütləq və mütləq davam etdirilməlidir».

GÜLƏR ƏHMƏDOVA
Milli Məclisin deputatı

HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİNİN UĞURLU DAVAMI

"Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun". Bu fikirləri ümummilli lider Heydər Əliyev Azərbaycan gənclərinin 1999-cu il martın 5-də keçirilən İkinci Forumunda dilə gətirmişdi. Ümumiyyətlə, Azərbaycan dövlətinin qurucusu hələ sovetlər dönəmində gənclərimizə xüsusi qayğısı ilə seçilib, respubilkada birinci katib postunda çalışarkən minlərlə gəncimizi SSRİ-nin müxtəlif respubilkalarının ən nüfuzlu ali təhsil ocaqlarına oxumağa göndərib. Təhsilli gəncliyin formalaşmasına can atan bu dahi şəxsiyyət 1993-cü ilin iyununda xalqın tələbiylə ikinci dəfə hakimiyyətə gələrkən də həmin xəttə sadiq qalıb. Və ümummilli liderin 2000-ci il 1 sentyabrda Bilik Günü münasibətilə çıxışında da bir çox həqiqətlər öz əksini tapıb. Təhsilimizin inkişaf tarixinə ekskursiya edən Azərbaycan prezidenti konseptual yanaşma ortaya qoyub: "Bakı Dövlət Universiteti 1919-cu ildə yaranmışdır, - ondan sonra onlarca digər ali təhsil müəssisələrinin və bunların davamı olaraq Azərbaycanda böyük elmi tədqiqat müəssisələri şəbəkəsinin yaranması - bunlar hamısı xalqımızın tarixi nailiyyətidir. Azərbaycanda xalqımızın geniş mənada təhsilli, bilikli olması və çox geniş məktəb şəbəkələrinin, universitetlərin yaranması böyük, çətin və ağır yollar keçmişdir. Vaxt var idi ki, biz 1919-cu ildə Azərbaycanda ilk dəfə universitet yaradarkən orada dərs demək üçün milli müəllim, professor kadrlarına möhtac idik. Belə kadrlar yox idi, çox az idi, çatışmırdı. Ona görə də başqa ölkələrdən gəlib Azərbaycanda universitetin qurulmasında və təhsilin ilk illərində təhsil sisteminin yaranmasında bizə kömək etdilər. Bizim ilk dünyəvi məktəblərimiz də elə

bu əsrin əvvəlindən yaranmışdır. Ancaq onlar da çox məhdud bir miqdarda gənclərin, uşaqların oxuması imkanına malik idi. Tarixi nöqteyi-nəzərdən qısa bir zamanda Azərbaycan xalqı böyük bir yol keçdi. Demək olar ki, 20 il ərzində Azərbaycanda hər yerdə məktəblər, ali təhsil müəssisələri, sonra elmi müəssisələr, elmi tədqiqat institutları yarandı. Həhayat, 1945-ci ildə Azərbaycan elminin ən yüksək zirvəsini təşkil edən Azərbaycan Elmlər Akademiyası fəaliyyətə başladı. Azərbaycan çoxdandır ki, icbari orta təhsil sistemini tətbiq edibdir. Təbiidir ki, bizim bu nailiyyətlərimiz birinci növbədə xalqımızın, millətimizin təhsilə, biliyə, elmə olan marağı, bununla bərabər, xalqımızın qədim ənənələri ilə əlaqədar olmuşdur. Bunlarla da bərabər, Azərbaycanda təhsil sahəsində aparılan böyük işlər, siyasət öz nəticələrini vermişdir. Məhz bunlara görə Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini əldə edən zaman ölkəmizdə bütün uşaqların oxuması, təhsil alması üçün məktəblər, çox sayda universitetlər, ən önəmlisi odur ki, böyük, yüksək səviyyəli müəllim, professor, ali məktəb müəllimləri ordumuz var idi. Dinamik inkişaf edən dünyada sürətlə yeniliklər meydana çıxır. Ona görə də, təbiidir, müəllim 10-15-20 il bundan öncəki səviyyəsi ilə bizim bu günkü yüksək təhsilimizi təmin edə bilməz. Gərək müəllim öz üzərində daim işləsin, dünyanın texniki, elmi tərəqqi nailiyyətlərindən xəbərdar olsun və onları tələbələrə, gənclərə, uşaqlara çatdırsın. Təhsil sahəsində bizim apardığımız islahatlar da məhz buna yönəldilib".

Gənclərdə müəllimə hörmət və sevgi hissləri aşılamağa çalışan prezident Heydər Əliyev daim özünün müəllimə münasibətini xatırladır, müəllimliyi ən şərəfli bir peşə kimi xarakterizə edirdi.

Bu böyük dövlət xadiminin təhsil siyasətində vətənpərvər yönümə xüsusi önəm verməsi də diqqət çəkirdi. Elə o səbəbdən də dəqiq elmlərə yanaşı gənclərimizin Azərbaycan tarixini, ədəbiyyatını və dilini öyrənməsinin zəruriliyini dəfələrlə çıxışlarında vurğulayırdı. Və gənclərin həmin sahələri öyrənməsinin əhəmiyyətini anlatmaq üçün millətləri "ərilməy"ə hesablanan sovetlər imperiyasının siyasətinin xarakter və mahiyyətini də xatırladırdı:":"Sovet hökumətinin təhsil sahəsində olan bütün təlimatları, əmrləri, göstərişləri hər bir respublikada hər millət üçün eyni idi. Demək, burada hər millətin milli ənənələri, dəyərləri, xüsusiyyətləri nəzərə alınmırdı. Ona görə də, məsələn, saydığım bu sahələrə məktəbdə o qədər böyük diqqət yetirilmirdi. Ancaq indi müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə o, həqiqi vətənpərvər ola bilməz. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, öz millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz. Ancaq təkcə tarix deyil, bizim zəngin ədəbiyyatımız da var. Azərbaycan ədəbiyyatı qədim dövrlərdən indiyədək öz zənginliyi ilə bütün dünya xalqları içərisində öncül yerlərdə olubdur. Demək, bu, həm bizim tariximiz, həm mənəviyyatımız, həm də milli mənliyimizdir. Dil isə hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin".

Etiraf olunmalıdır ki, Azərbaycan təhsilinin köklü inkişafı birmənalı olaraq ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xüsusilə, 1998-ci ildə prezident Heydər Əliyevin təhsil sahəsində islahat proqramının hazırlanması üçün xüsusi sərəncamla dövlət komissiyasını yaratması bu sahədə aparılan kardinal dəyişikliklər üçün fundamental baza yaratdı. Beləliklə, konkret strateji proqram üzrə islahatın başlanmasının əsası qoyuldu. Dövlət komissiyası tərəfindən qısa zaman ərzində Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı hazırlandı və müzakirələrdən sonra 1999-cu ildə təkmilləşdirilmiş variantda prezident tərəfindən imzalandı. Ümummilli liderimiz gəncləri təhsilli və elmli görmək üçün yenə də onların xaricdə təhsil almasına şərait yaratmışdı.

Ümummilli lider gəncliyimizin vətənpərvər ruhda böyüməsində və millətin bütövlüyünün qorunmasında islam dininin rolunu da nəzərə alırdı. Çünki millətimizi parçalamaq üçün xarici dairələrin dinimizi də hədəf seçdiyi və əsasən gənclərlə iş aparmağa çalışdıqları da bəlliydi. Azərbaycanın müstəqillik qazanmasından sonra sayı günü-gündən artaq missioner təşkilatlar təsadüfən peyda olmurdu. Elə buna görədir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi effektli mübarizə məqsədiylə yaradılmışdı. Prezident Heydər Əliyevin hər bir müsəlmana xas borcunu yerinə yetirməsi, Kəbəni ziyarət etməsi də gənclyimiz üçün böyük örnək idi

Gənclərimiz hərbi kadr kimi hazırlığı üçün bazanın yaradılmasında da uzaqgörən siyasi xadim kimi Heydər Əliyevin böyük rolu olub. Hələ

sovet hakimiyyəti zamanı - 1970-ci ildə Haxçıvanski adına Orta Hərbi Məktəbin açılmasına birinci katib kimi Heydər Əliyev xüsusi səylər nəticəsində nail olub. Digər tərəfdən, SSRİ məkanında təxminən 140-dan artıq hərbi məktəbə gənclərin göndərilməsi də 70-ci illərdən başlayaraq azərbaycanlı zabit kadrların hazırlanmasının əsasını qoyub. Prezident Heydər Əliyevin hər bir çıxışı isə sözsüz ki, gənclərə hərbi-vətənpərvərlik hisslərinin aşılanmasında önəmli rol oynayırdı. Məsələn, 1991-ci ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbində bu təhsil müəssisəsinin ilk məzunları ilə keçirilən görüşdə ümummilli liderin çıxışı vətəni sevən hər bir şəxsi riqqətə gətirirdi:"Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ordu quruculuğu haqqında bəyanatlar verilsə də, həqiqi, Azərbaycanın müstəqilliyinə cavab verən ordunun yaradılması üçün hələ çox işlər görmək lazım idi. Bu işləri çətinləşdirən bir də o idi ki, bir tərəfdən, Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzünün qarşısı alınmalı, eyni zamanda dövlət qurulmalı və Azərbaycanın millı ordusu yaranmalı idi. O illərdə Azərbaycanın mütəşəkkil, yüksək peşəkar hərbi kadrları olsaydı, təbiidir ki, biz torpaqlarımızın müdafiəsini daha da yaxşı təmin edə bilərdik və Ermənistan silahlı qüvvələrinin təcavüzünə lazımı cavab vermək mümkün olardı. Ancaq təəssüf ki, bunlar olmayıbdır. Əlavə etsək ki, Azərbaycan dövlət müstəqillyini əldə etdiyi zaman Azerbaycanın daxilində ictimai-siyasi sabitlik pozulmuşdu, müxtəlif siyasi qüvvələr hakimiyyət uğrunda mübarizə apararaq, o vaxt bizim onsuz da az olan hərbi kadrlarımızın hərəsi bir tərəfə çəkib, onlara öz təsirini göstərmək, onlardan öz məqsədləri üçün istifadə etmək istəyirdi, onda təsəvvür edə bilərsiniz ki, Azərbaycanda ordu quruculuğu nə qədər çətin bir dövr keçibdir. Ancaq şükürlər olsun ki, keçmişdə, hələ sovet hakimiyyəti zamanı - 70-ci illərdə biz Azərbaycanın gələcəyi haqqında düşünürək, ölkəmizin milli zabit kadrlarının hazırlanması ilə çox ciddi məşğul olmuşduq. Bu da hamıya məlumdur. Təsəvvür edə bilərsiniz ki, əgər bunlar olmasaydı, Ermənistan müxtəlif ölkələrin hərbi birləşmələrindən istifadə edərək və Azərbaycana təcavüz üçün müəyyən hazırlıqlar görərək ölkəmizə hücum etdiyi zaman Azərbaycan nə qədər ağır vəziyyətə düşərdi. O vaxt Azərbaycanda ordu quruculuğunun əsasını keçmiş illərdə bizim hazırladığımız hərbi kadrlar təşkil etdi. Ancaq bu, müstəqil Azərbaycanın bu günü və gələcəyi üçün heç də yetərli deyildir. Azərbay-

canın güclü ordusunu qurmaq, Azərbaycan ordusunu dünya standartlarına qaldırmaq üçün bizə müasir tələblərə uyğun olan hərbi məktəblər və bu məktəblərdə millı zabit kadrlarının hazırlanması lazım idi. Təəssüflər olsun ki, o dediyim səbəblərə görə, biz bu işə vaxtında başlaya bilmədik. Ancaq 1995-1996-cı illərdən sonra, birincisi, Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında saziş əldə olunandan sonra, ikincisi, Azərbaycanda daxili ictimai-siyasi vəziyyəti sabitləşdirəndən sonra biz hərbi məktəbimizin təşkil edilməsi, onların yüksək səviyyəyə qaldırılması işi ilə ciddi məşğul olmağa başladıq. Bu gün də məşğul oluruq və bundan sonra da məşğul olacağıq. Bəli, burada - keçmiş Sovetlər İttifaqının çox qabaqcıl bir Ali Hərbi Dənizçilik Məktəbinin yerləşdiyi yerdə, bu kompleksdə Azərbaycanın milli alı hərbi məktəbinin yaranması, 1997-ci ildə işə başlaması və dörd il müddətində yüksək təhsil almış zabit dəstəsinin bu ilki buraxılışı Azərbaycan ordusunun güclənməsinə təsir edəcək və ordu quruculuğumuz üçün mühüm hadisə olacaqdır. Amma bu, işin başlanğıcıdır. Bizdə hərbi akademiya yaranıbdır. Bu məktəbi qurtaran məzunlar hərbi akademiyada da bir il təhsil alandan sonar ən yüksək hərbi biliyə, hərbi peşəyə malik olacaqlar. Ali Baş Komandan kimi əmr edirəm ki, təhsil prosesində bütün fənləri yüksək səviyyədə mənimsəməyə çalışmalısınız. Bunun üçün də təbiidir ki, zabit-müəllim heyətindən tələb edirəm ki, onlar öz səviyyələrini də qaldırsınlar və təhsil işini daha da yaxşı qursunlar. Bizim bu gənc kursantlara müxtəlif fənləri öyrətmək üçün can yandırsınlar. Hərbi peşə başqa peşələrə nisbətən asan deyil, çətindir. Hərbi məktəbə daxil olub alı hərbi təhsil almaq, bizim orduda, silahlı qüvvələrdə xidmət etmək istəyirsinizsə, demək, siz sağlam mənəviyyata malik olmalısınız. Sağlam mənəviyyat isə Azərbaycanın müstəqilliyinə, Azərbaycan dövlətinə, Azərbaycan xalqının bu gününə və gələcəyinə sədaqət, millətimizə sədaqət - bunlardan ibarət olmalıdır. Sizin hər biriniz bilməlisiniz ki, bu mənəvi dəyərlərə, mənəvi keyfiyyətlərə malik olmasanız, bütün başqa biliklərə baxmayaraq, siz müstəqil Azərbaycanın ordusunun dəyərli zabiti, dəyərli döyüşçüsü ola bilməzsiniz. Dünyada çox peşələr var. Hər bir ölkədə, o cümlədən müstəqil Azərbaycanda da. Amma bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə milləti, xalqı, torpağı qorumaq peşəsidir, yəni hərbi peşədir".

Ümumiyyətlə götürdükdə isə, təcrübəli və müdrik dövlət xadimi kimi Heydər Əliyevin gənclər siyasəti sistemli xarakter daşımışdır. 1993-cü ildə hakimiyyət olimpinə yenidən yüksəlmiş ümummilli lider elə həmin ilin sentyabrında ilk dəfə gənclərin nümayəndələri ilə görüşüb, onların problemləri ilə tanış olub və dövlət başçısı 1994-cü ildə Gənclər, İdman Nazirliyinin (indiki Gənclər, İdman və Turizm Nazirliyi) yaradılması haqqında fərman imzalayıb. Bu dövrdən başlayaraq dövlət gənclər siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində bir sıra işlər görülüb. Nazirlik qısa zaman kəsimində gənclərlə iş sahəsində yaranmış nöqsanların aradan qaldırılması, gənclərin dövlətçilik və müstəqillik naminə möhkəm birliyinə nail olunması, onların ölkəmizi beynəlxalq miqyasda layiqli təmsil etməsi istiqamətində fəaliyyətə başlayıb. 1995-ci ildə isə 42 uşaq və gənclər təşkilatını birləşdirən Gənclər Təşkilatları Milli Şurası yaradılıb. 1996-cı il fevralın 2-də keçmiş SSRİ məkanında ilk dəfə gənclərimizin prezidentin təşəbbüsü ilə forumu keçirilib. Bu forumun işində respublika prezidenti başda olmaqla bütün dövlət orqanlarının rəhbərləri iştirak edib, gün ərzində respublika gəncliyinin bütün təbəqələrini təmsil edən nümayəndələrin irad və təklifləri dinlənilib, müasir Azərbaycan gəncliyinin problemləri yaxından öyrənilib. Forumda prezident Heydər Əliyev proqram xarakterli çıxış isə xüsusi diqqət çəkib. O bildirib ki, hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respubilkasının gələcək yolu kimi qəbul etməli və öz həyatını quranda, özünü həyatda fəaliyyətə hazırlayanda və fəaliyyətə başlayanda tək özü, ailəsi haqqında yox, daha çox müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir.

Forumun müsbət nəticələri artıq ilk bir il ərzində özünü göstərib, respubilkada fəaliyyət göstərən uşaq və gənclərlə işləyən və onları öz ətrafında birləşdirən 120-dən artıq qeyri-hökumət təşkilatının fəaliyyətlərinin gücləndirilməsinə böyük təkan verib. 1997-ci il fevralın 1-də prezident Heydər Əliyevin müstəqil Azərbaycan Respubilkası gənclərinin Birinci Forumunun bir illiyi ilə əlaqədar forumun nümayəndələrinin bir qrupu ilə görüşündə də bu məsələlərə toxunulub. Ölkə prezidenti də Gənclər və İdman Nazirliyinin artıq öz işini yaxşı təşkil etdiyini, ötən müddət ərzində bütün sahələrdə gənclər arasında işlərin nizama salдığını, istiqamətlərin müəyyənləşdirdiyini, gənclər təşkilatlarının işinin ələ-

qələndirilməsi və onların hamısının bir istiqamətdə fəaliyyət göstərməsi üçün müəyyən nəliyyətlərin əldə olunduğunu söyləyib. Dövlət başçısı əhatəliliyi ilə seçilən bu çıxışında gəncliyi cinayətkarlıqdan qorumağın əsas vəzifə olduğunu vurğulayıb, problemi önləmək yönündəki tövsiyələrini dilə gətirib. Forumun bir illiyi ərəfəsində çoxsaylı gənclərin müraciətini nəzərə alaraq prezident Heydər Əliyev hər il fevralın 2-nin Gənclər günü kimi qeyd olunması haqqında sərəncam imzalayıb. Birinci Forumda qəbul edilmiş qətnaməyə uyğun olaraq, gənclərin növbəti forumu 3 ildən sonra - 1999-cu ildə keçirilib. Forumun işində iştirak edən dövlət başçısı öz bilik və bacarıqlarını reallaşdıra bilmələri üçün gənclərə şərait yaratmağı, müstəqil dövlət quruculuğu prosesində onların potensialından daha səmərəli istifadə etməyi bütün dövlət orqanlarına tövsiyə edib:" XXI əsr gənclərin əsridir. XXI əsr Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub-yaratmaq və inkişaf etdirmək dövrüdür. Gənclər və idman naziri Əbülfəs Qarayevin, Gənclər Təşkilatları Milli Şurasının sədri Azay Quliyevin, Respubilka Uşaq Təşkilatının sədri Gülər Əhmədovanın, Azərbaycan Skaut Assosiasiyası Milli Məclisinin üzvü Səbinə Hüseynovanın çıxışlarında və başqa nitqlərdə dəyərli fikirlər söylənilmişdir. Gəncliyin bu günkü vəziyyəti, mövcud nöqsanlar və qarşıda duran vəzifələr ətraflı müzakirə edilmişdir. Gənclərin II forumu Azərbaycan gəncliyinin bu gününün və sabahının aydın güzgüsüdür. Həll olunmayan məsələlər, nöqsanlar məruzələrdə və çıxışlarda cəsarətlə göstərilmişdir. Bunlar şəxsən məni çox sevindirir. Çünki bu günkü gənclər cəsarətli olmalı, hər şeyi açıq-aydın deməli, nöqsanların üstünü örtməməlidirlər. Şübhəsiz ki, nöqsanlar dövlət və hakimiyyətin ayrı-ayrı orqanlarının fəaliyyətinə aiddir. Eyni zamanda gənclər təşkilatlarının, gənclərin özünə aiddir. Beləliklə, siz bizi, hakimiyyət orqanlarını tənqid etdiniz. Çox da yaxşı etdiniz. Mən sizin bu cür çıxışlarınızı xüsusi qiymətləndirirəm. Eyni zamanda, təəssüf edirəm ki, sizin burada göstərdiyiniz nöqsanlar və həll olunmamış problemləri müvafiq orqanlar indiyə qədər həll edə bilməmişlər. Ancaq güman edirəm, sizin də nöqsanınız ondan ibarətdir ki, bu məsələləri siz vaxtında, kəskin olaraq qaldırmamısınız. Yəqin ki, ancaq forumu gözləmisiniz. Mən bəyan edirəm ki, sizin tənqidi çıxışlarınızdan nəticə çıxarmalıyıq, hakimiyyət orqanları özləri üçün ciddi nəticə çıxarmalıdırlar. Nöqsanlar qısa müddətdə aradan

götürülməlidir. Problemlər nə qədər çətin olsa da, ardıcıl surətdə həll edilməlidir. Bir sözlə, Azərbaycan gəncliyinin həyatını, təhsilini, məşğulluğunu və fəaliyyətini təmin etmək üçün biz bütün imkanları səfərbərliyə almalıyıq, əlimizdən gələni etməliyik. Çıxışlarda səsləndi ki, ötən forumda bəzi təkliflər verilmiş və ondan sonra həmin təkliflər hazırlanıb müvafiq dövlət orqanlarına çatdırılmış, ancaq bunlar nəticə verməmişdir. Mən bundan sonra da belə halların olmaması üçün təklif edirəm ki, Gənclər və İdman Nazirliyi, Gənclər Təşkilatlarının Milli Şurası, Respublika Uşaq Təşkilatı və başqa təşkilatlar forumda irəli sürülmüş məsələlərin hamısını birlikdə cəmləşdirsinlər və onların həll olunması üçün lazımi sənədlərin layihələrini qısa bir müddətdə, ola bilər, on gün ərzində təqdim etsinlər".

İkinci Forumdan ötən dövr ilk növbədə gənclər siyasətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi ilə səciyyəvi olub. Prezident Heydər Əliyevin 1999-cu il iyunun 29-da imzaladığı "Dövlət gənclər siyasəti haqqında" fərmanla təsdiq olunmuş geniş tədbirlər planında gənclər siyasətinin bütün istiqamətləri, gənclərin bütün təbəqələrinin problemlərinin həlli üzrə konkret tədbirlər öz əksini tapıb.

Ötən dövrdə fərmana uyğun olaraq Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi, Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi yaradılıb, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi, istedadlı gənclərin üzə çıxarılması, sosial müdafiəyə ehtiyacı olan gənclərin problemlərinin həlli, bədən tərbiyəsi və idmanın inkişafı, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, həm respublika səviyyəsində, həm də yerlərdə bacarıqlı gənclərin məsul vəzifələrə irəli çəkilməsi sahəsində real tədbirlər görülüb.

1999-2000-ci illərdə Azərbaycan Respubilkasının Hazirlər Kabineti tərəfindən gənclərlə bağlı "Gənc ailə", "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" dövlət proqramları qəbul olunub.

Ölkə əhalisinin yarıdan çoxunu təşkil edən uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək, onların problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək, həyata keçirilən gənclər siyasətini tənzimləmək məqsədilə hazırlanmış "Gənclər siyasəti haqqında" Qanun Azərbaycan Respubilkası Prezidentinin 6 may 2002-ci il tarixli fərmanı ilə qüvvəyə minib. Qəbul olunmuş qanun və qərarla-

rın əsas məqsədi ölkəmizdə fiziki cəhətdən sağlam gənc nəsil yetişdirmək, onların mükəmməl təhsil almasına, elmin əsaslarına dərindən yiyələnməsinə, böyüməkdə olan nəslin elmi-texniki yaradıcılığa həvəsləndirilməsinə, bədii yaradıcılığa, ədəbiyyat və incəsənətə meyl göstərən gənclərin üzə çıxarılmasına, onlar üçün əlverişli yaradıcılıq mühitinin formalaşmasına, hüquq pozuntularının, cinayətkarlığın və narkomaniyanın profilaktikasına, dövlət quruculuğunda, respubilkanın ictimai-siyasi həyatında onların fəal iştirakına, bacarıqlı gənclərin üzə çıxarılaraq onlarda idarəçilik vərdişlərinin yaradılmasına yönəlib. Bu sahələr üzrə nazirlik və onun rayon (şəhər) gənclər, idman və turizm idarələri (baş idarələr), Naxçıvan Muxtar Respubilkası Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən hər il çoxlu tədbirlər keçirilib, konkret istiqamətlər müəyyənləşdirilib.

Azərbaycan gənclərinin İkinci Forumundan keçən dövr ərzində (1999-2002) idmançılarımızın qazandığı medalların ümumi sayı 674 olub. Onların 228-i qızıl, 173-ü gümüş, 273-ü bürünc medallardır. 2000-ci ildə Sidneydə keçirilmiş XXVII Yay Olimpiya oyunlarında idmançılarımızın 2 qızıl və 1 bürünc medal qazanaraq respubilkamızı 199 ölkə arasında 34-cü yerə çıxarması Azərbaycanda Olimpiya hərəkatının sürətlə inkişafından xəbər verir. 2002-ci il isə Azərbaycan gəncliyinin həyatında əsasən Üçüncü Forum ili kimi yadda qalıb.

Bacarıqlı gənclərin üzə çıxarılmasında, onların idarəçilik vərdişləri qazanmasında gənclər təşkilatları böyük rol oynayıb və bu gün də oynayır. Azərbaycanda 80-nə yaxın gənclər, 40-dan artıq uşaq təşkilatı fəaliyyət göstərir. Onların konfederativ qurumu olan Milli Şura 2000-ci ilin aprelində Avropa qitəsində ən nüfuzlu beynəlxalq qeyri-hökumət təşkilatı olan Avropa Gənclər Forumuna tamhüquqlu, 2002-ci ilin yanvarında isə BMT-nin Sosial-İqtisadi Şurasına müşahidəçi statusu ilə üzv qəbul edilib. Azərbaycanın Skautlar Assosiasiyasının Ümumdünya Skaut Hərəkatı Təşkilatına tamhüquqlu üzv qəbul olunması dünyanın ayrı-ayrı ölkələrində keçirilən beynəlxalq tədbirlərə uşaq və gənclərin daha geniş cəlb olunmasına şərait yaradıb.

2003-cü il oktyabrın 15-də hakimiyyət olimpinə yüksələn İlham Əliyev isə ümummilli lider Heydər Əliyevin gənclər siyasətini bütün sahələrdə uğurla davam etdirməkdədir. Dövlət başçısının tapşırığıyla 5 il ərzin-

də 149 məktəb binasının tikilməsi planlaşdırılır. "Birlik günü"nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsiylə bağlı fərman da təhsil sistemimizin Avropa standartlarına uyunlaşdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir. Zamanın ruhuna uyğun atılmış digər bir addım isə təhsil ocaqlarının informasiya və kommunikasiya texnologiyaları ilə təchizi proqramıdır. 2004-cü il 21 avqust sərəncamıyla təsdiqlənmiş proqramın 2005-2007-ci illər ərzində gerçəkləşdirilməsi nəzərdə tutulub.

Bu proqramın gerçəkləşməsi sonucunda 4521 məktəb kompüter avadanlığı alacaq və hər 33 şagirdə bir müasir kompüter düşəcək.

Prezidentin qərarıyla bütün kitabların latın qrafikasıyla nəşri üçün büdcədən vəsait ayrılması, Milli Ensiklopediyanın işıq üzü görməsi məqsədilə dövlət komissiyasının yaradılması, mədəniyyət xadimlərinə fəxri adların, təqaüdlərin verilməsi də bu baxımdan diqqət çəkir.

Dövlət başçısının bu ilin martında Kəbəni ziyarət etməsi isə gənclərdə islam dininə qarşı sayğının aşılanması baxımından böyük önəm daşıyır.

Prezident İlham Əliyevin ordu quruculuğu sahəsində gördüyü işlər də yetərincədir. Gənclərin hərb sənətinə meylinin artması üçün dövlət başçısı orduya qayğısını əsirgəmir. 2004-cü ilin büdcəyə əlavə gəlirlər daxil olarkən həmin vəsaitin əhəmiyyətli qismininin orduya yönəldilməsi də təsadüfi deyildi. Silahlı Qüvvələrdə xidmət edən hərbiçilərin əməkhaqqının artırılması, məişət problemlərinin həlli yönündə tapşırıqların verilməsi də həmin siyasətin davamıdır. Dövlət başçısının göstərişiylə Yevlax, Gəncə, Şəki və digər rayonlarda veteranlar, əlillər və onların ailələri üçün yeni binalar tikilib. Hərbi kadrların hazırlığı da diqqət mərkəzindədir. Qısa zaman kəsimində Qaraheybət qəsəbəsində müasir standartlara cavab verən hərbi tədris mərkəzi istifadəyə verilib.

İdman sahəsinə gəlincə isə, prezident İlham Əliyev 1997-ci ildən Milli Olimpiya Komitəsinə (MOK) başçılıq edir. Həm o dövrdə, həm də hakimiyyət olimpinə yüksəldikdən sonra MOK rayonlarda sürətlə idman mərkəzlərinin tikintisiylə məşğuldur. Təsadüfi deyildi ki, hələ 2000-ci il Sidney Olimpiadasında iki qızıl, bir bürünc medalla Azərbaycanın komanda hesabıyla 199 ölkə arasında 34-cü yeri tutması MOK prezidentinin idmançılara hərtərəfli qayğısının nəticəsi kimi qiymətləndirilirdi. Və 2004-cü il Afina Olimpiyadasında yüksək göstəricilər əldə etmək üçün

onun tövsiyəsi ilə Azərbaycan idmançılarının mütəmadi olaraq dünya və Avropa çempionatlarında iştirakı gerçəkləşdirildi. Nəticə də özünü çox gözlətmədi. Əgər Sidneydə komandamız 10 idman növündə təmsil olunmuşdusa, Afinada 12 idman növü üzrə idmançılarımız mübarizə apardılar. Sonucda isə dah çox medal qazana bildilər.

Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin qışında Birlik Kuboku çərçivəsində keçirilən görüşdə Ermənistanın "Purnik" komandasını məğlub etmiş və ikinci yeri tutmuş "Heftçi" komandasının üzvüləriylə görüş keçirməsi də əslində böyük önəm daşıyırdı. Bu addım da faktiki gənclərdə idmana meylin artmasına, vətənpərvərlik hisslərinin güclənməsinə yönəlmişdi. Ümumiyyətlə, İlham Əliyevin prezidentliyi dönəmində boks, tekvando və digər növlər üzrə Azərbaycanda tez-tez beynəlxalq miqyaslı yarışlar keçirilir, bu sahə ilə də Azərbaycan beynəlxalq miqyasda tanıdılır.

Ümumilikdə götürdükdə isə, dövlət başçısının ötən müddət ərzində gəncləri bütün sahələrdə irəli çəkdiyi göz önündədir. Yeni təyin olunmuş icra başçılarının əksəriyyəti gəncdir, Azərbaycanın Gəncə və Sumqayıt kimi iki böyük şəhərində də rəhbərlik əvvəllər gənclər təşkilatında fərqlənmiş şəxslərdir. Milli Təhlükəsizlik və Xarici İşlər Nazirliyinin rəhbərliyində də gəncləşdirmə siyasəti aparılmışdır. Və cinayətkarlığa qarşı mübarizədə Milli Təhlükəsizlik Nazirliyinin, Ermənistanla diplomatik savaşda Xarici İşlər Nazirliyinin uğuru da İlham Əliyevin müdrik dövlət başçısı olduğu və seçimlərində rasional düşüncəyə əsaslandığını göstərir.

Azərbaycan Respubilkasının Prezidenti cənab İlham Əliyevin 2003-cü il 24 noyabr tarixli "Azərbaycan Respubilkasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanında gənclərlə bağlı müddəalar da öz əksini tapmışdır. Bütün bunlar isə Heydər Əliyev siyasətinin uğurlu davamıdır.

VAQİF HÜSEYNOV
Kənd Təsərrüfatında Özəl Bölmənin
İnkişafına Yardım Agentliyi rəhbəri,
YAP-ın siyasi şurasının üzvü

HEYDƏR ƏLİYEVİN AQRAR SİYASƏTİNİN UĞURLU DAVAMI

Müstəqilliyin ilk illərində iqtisadiyyatın digər sahələri kimi kənd təsərrüfatında da mürəkkəb vəziyyət yaranmaqla böhran dərinləşirdi. Aqrar islahatlar barədə çox danışılsa da müstəqilliyin ilk illərində hakimiyyətdə olanlar aqrar islahatlara nədən başlamağı və necə başlamağı bilmirdilər. Ona görə də o dövrdə aqrar islahatlar pərdəsi altında keçirilən əsaslandırılmamış tədbirlər inkişaf əvəzinə tənəzzüllə nəticələnirdi.

Bunun nəticəsidir ki, respublikada kənd təsərrüfatının inkişafı üçün əlverişli torpaq-iqlim şəraitinin, kifayət qədər əmək ehtiyatlarının, maddi texniki bazanın, yüksək ixtisaslı mütəxəssislərin, enerji və su mənbələrinin olmasına baxmayaraq, 1990-1993-cü illərdə əkinçilik və heyvandarlıq məhsulları istehsalı kəskin şəkildə azaldı.

Ölkəmizin müharibə şəraitində olması, başqa dövlətlərlə iqtisadi əlaqələrin kəsilməsi, maddi-texniki resurslarla təchizatda yaranmış çətinliklər, kənd təsərrüfatı məhsullarının satış qiymətləri ilə maddi-texniki resursların qiymətləri arasında tarazlığın pozulması, qiymətqoymada, maliyyə-kredit, vergi-sığorta siyasətində, aqrar bölmənin idarə edilməsinin struktur quruluşunda və kadrların seçilib yerləşdirilməsində 1993-cü ilə kimi yol verilən ciddi nöqsanlar kənd təsərrüfatında iqtisadi böhranın daha da dərinləşməsinə səbəb oldu. Səriştəsiz və uzağı görə bilməyən o dövrki respublika rəhbərləri tərəfindən kənd təsərrüfatı işçilərinin tez-tez dəyişdirilməsi, səriştəsiz, bacarıqsız, istehsalat və idarəetmə təcrübəsi olmayanların vəzifəyə təyin edilməsi, elmi tövsiyələrə, təkliflərə və məsləhətlərə məhəl qoyulmaması kənd təsərrüfatı məhsullarının istehsalında, emalında və satışında hərc-mərclik yaratmışdır.

Doxsanıncı illərin əvvəlində respublikanın aqrar sahəsində yaranmış böhranın aradan qaldırılmasına ümummilli liderimiz H.Əliyevin, ikinci dəfə xalqın arzusu və tələbi ilə hakimiyyətə gəlməsi nəticəsi olaraq real zəmin yaradıldı.

H.Ə.Əliyevin hakimiyyətə gəlməsi ilə aqrar sahənin bazar münasibətlərinə keçirilməsi istiqaməti əsas götürməklə aqrar bölmədə islahatların keçirilməsi, mülkiyyətin və təsərrüfatçılığın müxtəlif formalarının inkişaf etdirilməsi, çevik qiymət, vergi, kredit siyasətinin həyata keçirilməsi, aqrar bölməyə investisiya qoyuluşunun artırılması, əkinçilik və heyvandarlığın elmi əsaslarla inkişaf etdirilməsi vəzifəsi irəli sürüldü.

Aqrar islahatların aparılmasına dair qəti qərara gəlməzdən əvvəl kənd təsərrüfatının düşdüyü acınacaqlı vəziyyət, alimlərin və respublika ictimaiyyətinin iştirakı ilə dəfələrlə hərtərəfli müzakirə olundu. Yalnız bundan sonra aqrar islahatların hüquqi təminatının işlənilməsinə başlanılmışdı və "Aqrar islahatının əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Torpaq islahatı haqqında" və başqa qanunlar qəbul olundu.

Respublika prezidenti ümummilli liderimiz fərmanları ilə aqrar islahatların aparılmasına dair bir sıra əsasnamələr və qaydalar təsdiq olundu. Ümumiyyətlə, indiyədək islahatların aparılmasına dair 50-dən çox normativ-hüquqi sənəd qəbul olunmuşdur.

İslahat başlananda respublikada 2020 kolxoz və sovxoz mövcud olmuşdur. Onlardan indiyədək 1979 təsərrüfata məxsus torpaq və əmlak özəlləşdirilmişdir. 41 təsərrüfat toxumçuluq və damazlıq məqsədilə dövlət mülkiyyətində saxlanmışdır.

İslahat aparılan təsərrüfatlara məxsus əmlakın ümumi dəyəri 2 trilyon 648 milyard 208 milyon manat təşkil edirdi. Ondan 178,1 milyard manatlığı dövlət mülkiyyətində saxlanılmış, 606,4 milyard manatlığı bələdiyyə mülkiyyətinə verilmiş, qalan 1 trilyon 926 milyard manatlığı isə xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulmuşdur.

Xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulmuş əmlakdan 1 yanvar 2005-ci il tarixə kimi 1 trilyon 910 milyard manatlığı və ya 98,0 faizi özəlləşdirilmişdir.

Aqrar islahatlara başlayanda çoxları bunun müsbət nəticə verəcəyinə şübhə ilə baxırdılar. Xüsusilə, müxalifətdə olanlar tezliklə böhranın dərinləşəcəyini, kənd təsərrüfatı məhsullarının qıtlığı yaranacağını və qiymətlərin kəskin artacağını söyləyir və əhalidə iqtidarın yürütdüyü aqrar siyasətə inamsızlıq yaratmağa çalışırdılar. Lakin həyat belə düşünənlərin səhv

etdiklərini və ümummilli liderimiz möhtərəm H.Əliyevin rəhbərliyi ilə həyata keçirilən aqrar islahatların düzgünlüyünü və geri dönməzliyini təkzibolunmaz faktlarla sübut etdi.

Rəsmi statistikaya əsasən respublikamızda 2003-cü ildə 1999-cu illə müqayisədə taxıl istehsalı 87,4%, şəkər çuğunduru 3 dəfə, dən üçün günəbaxan 7 dəfə, kartof 95,1%, tərəvəz istehsalı isə 56% artmışdır. 1 yanvar 2005-ci ildə 2293,5 min baş qaramal və 7437,0 min baş qoyun-keçi olmuşdur ki, bu da 1995-ci ildə müqayisədə müvafiq olaraq 611,8 min baş və 2792,6 min baş çoxdur.

Keçmiş kolxoz və sovxozların istifadəsində olmuş torpaqlardan 1,60 min hektarı "Torpaq islahatı haqqında" qanununa əsasən xüsusi mülkiyyətə verilməli idi. Ondan indiyədək 1,50 min hektarı və ya 98,7 faizi faktiki olaraq xüsusi mülkiyyətə verilmişdir. Respublika üzrə torpaqdan pay almaq hüquqi olan 869874 ailədən 863787 ailəyə və ya 99,3 faizinə pay torpağına mülkiyyət hüququna dair dövlət aktı verilmişdir. Onlar indi öz payına düşən torpağın tam hüquqlu sahibləridirlər. Onların sərbəst olaraq istehsalın istiqamətini müəyyən etmək, istehsal etdiyi məhsula sərəncam vermək və digər hüquqları vardır.

Aqrar islahatların birinci mərhələsində kənddə mülkiyyətçilərin yaranması və onların sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Bu mərhələdə mülkiyyət forması dəyişdirilmiş, planlı sosialist təsərrüfatı sistemi bazar iqtisadiyyatı yönümlü xüsusi mülkiyyətçiliklə əvəz olunmuşdur.

Görülmüş tədbirlər aqrar bölmədə 90-cı illərin əvvəlində yaranmış tənəzzülün qarşısını almağa imkan vermişdir. 1996-cı ildən başlayaraq ölkəyə kənardan gətirilən ərzaq məhsullarının həcmi ilbəil azalmağa başlamışdır. Daxili istehsal hesabına ölkənin mühüm ərzaq məhsullarına olan tələbatın ödənilməsi islahatadək olan axırıncı illərlə müqayisədə indi xeyli artmışdır.

Ölkədə kənd təsərrüfatı məhsullarının 99 faizi özəl bölmədə istehsal olunur. Kəndlinin torpağa bağlılığının nəticəsidir ki, bir sıra çətinliklərə baxmayaraq, ölkədə ən zəruri kənd təssərüfatı məhsullarının istehsalı ildən-ilə sürətlə artır.

Aqrar islahatların aparılması nəticəsində baş vermiş müsbət dəyişikliklərin dönməzliyinin təmin edilməsi mütərəqqi dünya təcrübəsindən istifadə edilməsi məqsədilə beynəlxalq təşkilatlarla əlaqələr yaradılması zəruri və vacib idi.

Ölkəmizin ictimai-iqtisadi mühitinin sabitliyini, islahatların hüquqi təminatının beynəlxalq standartlara uyğunluğunu görən və ona qiymət verən Beynəlxalq Maliyyə qurumları, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, həmçinin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond və digər beynəlxalq qurumlar aqrar sahəyə təkan verəcək böyük layihələrlə ölkəmizə müraciət etdilər və beləliklə, əsil inkişafın təməli qoyuldu.

Dünya Bankının Maliyyə dəstəyi ilə yaradılan Mərkəzi İşçi Orqanı kimi fəaliyyətə başlayan, 2000-ci ilin əvvəlindən isə ölkə Prezidenti ümummilli liderimiz möhtərəm H.Əliyevin fərmanı ilə yaradılmış Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyi hazırda aqrar sahədə aparılan islahatlara dəstək verən bir layihənin iclasını yekunlaşdırmış və hal-hazırda 3 böyük layihənin icrasını həyata keçirir və bir layihənin hazırlanması ilə məşğuldur.

Sözü gedən beynəlxalq layihələrin icrası kompleks tədbirləri özündə birləşdirdiyindən Agentlik respublikanın müvafiq orqanları ilə əlaqəli fəaliyyət göstərir.

Biz inanırıq ki, ölkəmizdə mütərəqqi təcrübənin tətbiqi və bazar iqtisadi münasibətlərinin təkmilləşdirilməsi sahəsində Möhtərəm Prezidentimiz İlham Əliyevin yeritdiyi dönməz siyasətə söykənərək beynəlxalq qurumların köməyindən məqsədyönlü istifadə etməklə sahibkarlığın inkişafı təmin ediləcəkdir.

Agentlik hazırda aqrar sahədə aparılan islahatlara və kənd təsərrüfatının inkişafına dəstək verən 3 layihənin icrasını və yeni iki layihənin hazırlanması və müvafiq idarəetmə orqanları ilə razılaşdırılması işlərini həyata keçirir.

"Təsərrüfatların özəlləşdirilməsi" adlanan birinci layihənin icrasına 1997-ci ildə başlanılmış və o, artıq müvəffəqiyyətlə yekunlaşdırılmışdır.

"Təsərrüfatların Özəlləşdirilməsi" layihəsinin ümumi dəyəri 28,82 milyon ABŞ dolları təşkil etmişdir ki, bunun da 51,0% Dünya Bankının, 32,27% Beynəlxalq Kənd Təsərrüfatının İnkişaf Fondunun, 7,54% Azərbaycan Hökumətinin, 9,19% isə layihə çərçivəsində əhatə edilən təsərrüfatların payına düşür.

"Təsərrüfatların Özəlləşdirilməsi" layihəsinin əsas komponentləri aşağıdakılar olmuşdur:

- Torpaq qeydiyyatı;
- İnformasiya və məsləhət;
- Sudan istifadəedənlər assosiasiyası;
- Özəl təsərrüfatlara kredit xidməti;
- İrriqasiya və drenaj şəbəkələrinin təmir və bərpası;
- Yaşayış məntəqələrinin inkişafı proqramı;
- Layihənin idarə olunması.

Bu layihə ilə Naxçıvan MR-in Şərur rayonunda "Püsyan", Bərdə rayonunda "Qılınclı", Lənkəran rayonunda "Mamusta", Salyan rayonunda "Şəfəq", Ucar rayonunda "Qulabənd-Xətai", Xaçmaz rayonunda "Yergüc" təsərrüfatları əhatə edilmişdir.

Layihənin tətbiqi nəticəsində 23300 nəfəri əhatə edən 6645 ailə başçısına torpaq mülkiyyətinə dair dövlət aktı verilmişdir. Torpaq mülkiyyətçilərinin su problemlərini həll etmək məqsədilə 8000-dən çox torpaq mülkiyyətçisini özündə birləşdirən 17000 hektar sahəyə xidmət edən Sudan İstifadəedənlər Assosiasiyası yaradılmışdır. Pilot təsərrüfatlarında 27 kəndi əhatə edən ərazilərdə təsərrüfatdaxili suvarma və drenaj şəbəkələrində təmir-bərpa işləri aparılaraq Sudan İstifadəedənlər Assosiasiyalarının istifadə verilmişdir. Bu işlərin icrasına 7,2 milyon ABŞ dolları xərclənib.

Layihənin əvvəlindən 01 aprel 2004-cü il tarixədək 5211 torpaq mülkiyyətçisinə 42,1 milyard manat məbləğində kredit verilmişdir. Vaxtı çatmış kreditlərin 91,2% qaytarılmışdır.

Bununla yanaşı təsərrüfatlarda tədarük-təchizat satış birlikləri yaradılmış, beynəlxalq standartlara cavab verən südün ilkin emalı zavodu istifadəyə verilmiş, kəndlərdə bir çox sosial obyektlər - bərbərxanalar, dərzi, xalçaçılıq, mebel, tara sexləri və s. yaradılmışdır.

Layihənin həyata keçirilməsi nəticəsində aşağıdakılara nail olunmuşdur:

1. Aqrar islahatların həyata keçirilməsinə dəstək verilmiş. Torpaq mülkiyyətinə dair sənədlərin hazırlanması və təcrübədə sınaqdan keçirilməsi nəticəsi olaraq 6645 ailəyə ilk dəfə olaraq torpaq mülkiyyətinə dair dövlət aktı verilmişdir. Sonralar bu təcrübədən istifadə edilərək müvafiq dövlət orqanları tərəfindən 871446 ailəyə torpaq mülkiyyətinə dair dövlət aktı verilmişdir.

2. Layihənin əhatə etdiyi pilot təsərrüfatlarında özəl kənd təsərrüfat müəssisələri formalaşdırılmış, onların optimal ölçüləri, fəaliyyət prinsip-

ləri müəyyənləşdirilmiş və təcrübədə sınaqdan keçirilmişdir. Bu təcrübədən özəl təsərrüfatların formalaşmasında istifadə edilir.

3. Layihənin əhatə etdiyi təsərrüfatlarda səmərəli sosial-iqtisadi infrastruktur formalaşmasına nail olunmuşdur. Bunların nəticəsində layihənin həyata keçirilmə müddətində pilot təsərrüfatlarında əsas kənd təsərrüfatı bitkilərin məhsuldarlığı 2-3 dəfə, heyvanların baş sayı 1,5-2 dəfə, ümumi məhsul istehsalı isə 3,5 dəfə artmışdır.

Bu layihənin icrasının uğurlu nəticələri ərazi və fəaliyyət əhatəliliyi daha geniş olan "Kənd təsərrüfatının inkişafı və kreditləşməsi" layihəsinin tərtibi və icrasına zəmin yaratdı. "Kənd təsərrüfatının inkişafı və kreditləşməsi layihəsi"nin icrasına 2000-ci ilin fevral ayından başlanılmışdır.

Ölkəmizdə kənd təsərrüfatını inkişaf etdirmək üçün mühüm təcrübəvi əhəmiyyəti olan bu layihə 10 illik dövrü əhatə etməklə birinci mərhələyə 4 il, qalan 2 mərhələnin hər birinə 3 il vaxt ayrılmışdır. Layihənin birinci mərhələsi 29 rayonu birləşdirən 5 regionda həyata keçirilir. Respublika üzrə kənd əhalisinin 47,5% respublikanın ümumi torpaq sahəsinin 39,4%, kənd təsərrüfatlı təyinatlı torpaqların 36,8% əkin yerlərinin 35,0%, torpaq payı almış ailələrin (torpaq mülkiyyətçilərinin) 52,9% bu layihənin əhatə etdiyi rayonların payına düşür.

Bu layihənin birinci mərhələsinin icrası üçün 33,65 milyon ABŞ dolları ayrılmışdır ki, bunun da 30 milyon dolları Dünya Bankının, 1,34 milyonu Azərbaycan Hökumətinin və 2,31 milyon dolları icraçı agentliyin payına düşür.

Layihə Daşınmaz əmlakın qeydiyyatı; Kənd kreditləri; Kənd təsərrüfatı strategiyası; İnformasiya və məsləhət xidməti (Baytarlıq Xidməti və Müsabiqəli Qrantlar subkomponentləri daxil olmaqla) layihənin idarə edilməsi komponentlərdən ibarətdir.

Artıq Naxçıvan Muxtar Respublikasının bütün rayonlarını əhatə edən Regionlar Məsləhət Mərkəzi, Gəncə, Şəki, Masallı və Beyləqan Regional Məsləhət Mərkəzləri təşkil edilmiş və səmərəli fəaliyyət göstərirlər.

Bu layihə çərçivəsində respublikanın 10 regionda Baytarlıq və Torpaq Qeydiyyatı Xidmətləri fəaliyyət göstərir.

Layihənin mühüm tərkib hissələrindən biri Müsabiqəli Qrantlar və Elmi Sistemin İslahatı yarımkomponentidir.

Bu yarımkomponentin məqsədi - müasir texnologiyaların özəl bölməyə sürətlə ötürülməsini təmin etməklə fermer təsərrüfatlarının gəlirlə-

rının artırılması, milli kənd təsərrüfatı tədqiqatları və yayım sisteminin modernləşdirilməsi və onun səmərəliliyinin artırılmasıdır.

Eyni zamanda bu layihə vasitəsilə elmi-tədqiqat institutlarının müəyyən dərəcədə maddi-texniki bazası gücləndirilir, elmi nəticələrin yayılması dəstəklənir.

Ümumilikdə Müsabiqəli Qrantlar Proqramı çərçivəsində 43 layihə maliyyələşdirilir.

Artıq I-ci mərhələdə maliyyələşdirilmiş layihələrdən buğda, qarğıqalı, noxud, pambıq, meyvə, üzüm, bitki mühafizəsi və heyvandarlıq üzrə 12-dən çox layihə başa çatmışdır.

Proqram çərçivəsində həyata keçirilən layihələr ölkənin 9 təbii-iqtisadi bölgəsini, 38 rayonunu, 112 kəndini, 463 fermer təsərrüfatını əhatə etməklə 643 hektarda həyata keçirilir.

5000 nəfər fermer müsabiqəli qrant layihələri üzrə keçirilən tarla günləri və seminarlar vasitəsilə layihə nəticələrini bilavasitə öz gözləri ilə görmüş və bilgi əldə etmişlər.

Layihələr üzrə həyata keçirilən tarla günləri və seminarlar vasitəsilə hər il 20 min nəfərdən artıq fermer müsabiqəli qrant layihələri barədə məlumat əldə edirlər.

İndiyə kimi bu layihə çərçivəsində 736 Birgə Borclular qruplarının 13148 üzvünə 17,8 milyard manat məbləğində qısamüddətli kreditlər verilmiş və verilən kreditin 95,4% qaytarılmışdır. Bu layihə çərçivəsində 980 üzvü olan 20 Kredit İttifaqı yaradılmış və onlardan 903 üzvü özündə birləşdirən 18 Kredit İttifaqına 3,99 milyard manatdan artıq kredit verilmişdir.

Bu ilin sentyabr ayında Gəncə regionunda 6 kredit ittifaqı təsis edilmiş, hazırda onların rəsmiləşdirilməsi həyata keçirilir.

Kənd strategiyasını əsaslandırmaq məqsədilə ilkin mərhələdə Respublikanın Kənd Təsərrüfatının mövcud vəziyyəti təhlil edilərək, Neft gəlirlərinin artımı şəraitində bu sahənin rəqabət qabiliyyətinin qorunub saxlanmasına səbəb ola biləcək Strategiya və siyasətlər haqqında ümumi müddəaları özündə əks etdirən və Dövlət Komissiyası tərəfindən qəbul edilmişdir.

Sonrakı mərhələdə isə - "Azərbaycanın kənd təsərrüfatı üçün Siyasət və Strategiyalar" Sənədi hazırlanmış və bu Sənəd rəy və təkliflər alınması məqsədilə aidiyyəti nazirlik və komitələrə göndərilmişdir. Alınmış rəylər əsasında müvafiq düzəlişlər edilmiş və "Azərbaycanın kənd təsərrüfatı üçün Siyasət və Strategiyalar" Sənədinin icra məqsədilə hökumətə tövsiyyə olunmaq üçün bu günlərdə Dövlət Komissiyasına təqdim edilməsi planlaşdırılır.

Agentlik tərəfindən tam hazırlanacaq bu sənədlər toplusunun hökumət tərəfindən həyata keçirilməsi nəticəsində yeni təsisatların yaradılması, Kənd təsərrüfatının bütün alt-bölmələrində məhsuldarlıq səviyyəsinin və rəqabət qabiliyyətinin artımı, eləcə də əlavə iş yerlərinin yaradılacağı proqnozlaşdırılır.

"Kənd təsərrüfatının inkişafı və kreditləşməsi" layihəsinin birinci mərhələsinin icrası nəticəsində aşağıdakılara nail olunmuşdur.

1. Ölkənin 10 regionunda daşınmaz əmlakın qeydiyyatı üzrə səmərəli fəaliyyət göstərən qurumlar yaradılmış, onlar bina və müasir avadanlıqla təchiz edilmişdir. Hal-hazırda həmin mərkəzlər beynəlxalq tələblərə cavab verən daşınmaz əmlakın qeydiyyatını həyata keçirirlər.

2. Ölkənin 5 regionunda səmərəli fəaliyyət göstərən informasiya və məsləhət mərkəzləri yaradılmışdır. Gələcəkdə ölkənin bütün regionlarda belə mərkəzlərin yaradılması nəzərdə tutulur.

3. Müsabiqəli qrantların həyata keçirilməsi ilə əlaqədar olaraq müasir texnologiyaları, elmi tədqiqatların nəticələrinin torpaq mülkiyyətçilərinə və kəndli fermer təsərrüfatlarına çatdırılmasına, elmi müəssisələrdə kənd təsərrüfatında çalışanlar arasında yeni münasibətlərin formalaşmasına nail olunub.

4. Azərbaycanın kənd təsərrüfatı üçün siyasət və strategiyalar işlənib hazırlanmış və bu sənəd müvafiq dövlət orqanları ilə razılaşdırılmışdır.

5. Kənddə beynəlxalq tələblərə uyğun gələn kredit münasibətlərinin formalaşmasına və qeyri bank təşkilatı olan kredit ittifaqlarının yaradılmasına nail olunmuşdur.

Azərbaycan Respublikası ilə İFAD (Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond) arasında 27 noyabr 2000-ci il tarixdə bağlanan müqaviləyə əsasən Dağ və Yüksək Dağlıq ərazilərdə kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə proqram kredit razılaşması əldə edilmişdir. 16 yanvar 2001-ci il tarixdə ümummilli liderimiz möhtərəm Heydər Əliyevin sərəncamı ilə təsdiq edilmişdir.

İFAD tərəfindən verilən kreditə uyğun olaraq təbii ehtiyatları və ətraf mühitin ekoloji tarazlığını qorumaqla dağ və yüksək dağlıq ərazilərdə kənd təsərrüfatını inkişaf etdirmək, orada yaşayan əhalinin gəlirlərini artırmaq, borc alanların (benifisarların) bazar iqtisadiyyatında fəal iştirakını, təbii ehtiyatlardan istifadə və idarə etmək, onların təşkilatlanmasını gücləndirmək, maliyyə, texniki və kommersiya xidmətlərindən faydalanmağı, ətraf mühiti qorumaq və bərpa etmək qabiliyyətini aşılamaqla onların həyat səviyyəsini yüksəltməkdən ibarətdir. Proqramın icra müddəti - 14 il olmaqla 2 mərhələdə aparılacaqdır. Birinci mərhələ 7 il davam edəcəkdir. Bu mərhələnin ilk illərində bir çox əsas elementlərin sınaqdan keçirilməsi icmaların yaradılması, kredit verilməsi və texnologiyaların təkmilləşdirilməsi nəzərdə tutulur.

Layihənin Azərbaycanın bir-birindən fərqlənən 4 dağlıq zonalarında seçilmiş aşağıdakı rayonlarda aparılacaqdır:

* Qəbələ rayonu (Böyük Qafqaz dağlarının cənub hissəsi)
* Şahbuz rayonu (Naxçıvan Muxtar Respublikası)
* Gədəbəy rayonu (Kiçik Qafqaz dağları)
* Lerik rayonu (Talış dağları)
* Quba rayonu (Böyük Qafqaz dağlarının Şimal hissəsi)

Kənd və məntəqələrdə seçim, dəniz səviyyəsindən 500 metrdən yuxarı olmaqla aparılmışdır.

Proqramın birinci mərhələsi 4 əsas komponentdən ibarətdir: birgə inkişaf, gəlir yaradılması. (bitkiçiliyin inkişafına yardım, heyvandarlığın inkişafına yardım, marketinq və emala yardım), ətraf mühitin yaxşılaşdırılması, proqramın idarə edilməsi.

Proqramın birinci mərhələsinin dəyəri 10 milyon dollardır. Bunun 8,7 (85%) dolları İFAD-ın, 1,3 milyon dolları isə Azərbaycan Hökumətinin payına düşür.

Proqram Naxçıvan MR-nın Şahbuz rayonunda, Qəbələ, Gədəbəy və Lerik, Quba, Daşkəsən və İsmayıllı rayonlarında həyata keçirilir.

Yerli icma nümayəndələrinin iştirakı ilə təlimlər keçirilib. Birgə müzakirələrin nəticəsi olaraq prioritetlər müəyyənləşdirilib və hər bir Proqram ərazisində seçilmiş kəndlər üçün Kənd Fəaliyyət Planları hazırlanıb və kənd Bələdiyyə və İcra Nümayəndələri tərəfindən təsdiqlənib. Proqram ərazilərində sosial infrastrukturların bərpası üzrə müxtəlif işlər görülüb və hal-hazırda bu işlər davam etdirilir. Proqram ərazilərində artıq 8 məktəb, 6 uşaq bağçası, 3 həkim ambulatoriyası, 2 kənd xəstəxanası, 8 heyvanlara xidmət məntəqələri, 2 kənd klubu, 4 kəndə içməli suyun çəkilməsi həyata keçirilib və bu işlərin icrasına 422746 ABŞ dolları sərf edilib.

Birgə borclular qrupu və Kredit Assosiasiyaların yaradılması üçün Proqramın nəzdində yaradılmış Mikromaliyyə borc verən qeyri-bank məhdud məsuliyyətli təşkilatla 1 iyul 2004-cü ildən müqavilə bağlanılıb və artıq rayonlar üzrə 190 borcalan qrupu yaradılıb və onlara 1622 milyon manat məbləğində kredit verilib.

Kiçik və Orta Emal Sahibkarlıq subyektlərinin kredit xətti üçün artıq tender vasitəsilə Kommersiya bankı seçilib və həmin təşkilatla müqavilə danışıqları aparılır.

Hər iki fəaliyyət növlərində bütün vəsaitlər (toxum, gübrə, kimyavi maddələr) proqram tərəfindən pulsuz olaraq verilir.

Proqram ərazilərinin hər birində 2 heyvanlara xidmət məntəqələri tikilmiş və artıq Qəbələ və Şahbuz rayonlarındakı məntəqələr tam fəaliyyət göstərirlər, Gədəbəy və Lerik rayonlarında isə bu məntəqələrin tikintisi artıq başa çatmaq üzrədir. Süni mayalanma üzrə təlimlər keçirilib, süni mayalanma texnikləri seçilib, bütün lazımi avadanlıq alınıb. Artıq rayonlar üzrə 48 inək sünü yolla mayalandırılıb.

Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi Layihəsinin icrasına 240 nəfər, "Dağ və yüksək dağlıq ərazilərin inkişaf etdirilməsi proqramı"na 180 nəfər, cəmi Agentlik üzrə isə 420 nəfər Respublika vətəndaşı işə cəlb edilmişdir.

"Kənd investisiya" layihəsi üzrə hazırlıq işləri artıq başa çatdırılmış və 23 sentyabr 2004-cü ildə Azərbaycan Hökuməti tərəfindən təsdiq edilmişdir. Yaxın günlərdə layihənin icrasına başlanacaqdır.

Layihə aşağıdakı komponentlərdən ibarətdir:

İqtisadi infrastruktur, bacarıqların artırılması və layihənin idarə olunması. Layihə ilə Muğan-Salyan (Cəlilabad, Neftçala, Salyan, Saatlı, İmişli, Biləsuvar, Səbirabad), Düzən Şirvan (Hacıqabul, Kürdəmir, Zərdab, Ucar, Göyçay, Ağdaş, Yevlax), Naxçıvan (Sədərək, Şərur, Şahbuz, Babək, Culfa, Ordubad, Xəncərli) bölgələri əhatə ediləcəkdir.

Layihənin ümumi dəyəri 21,1 min ABŞ dollarıdır. Bu məbləğin 68% yəni 15 milyon dolları Dünya Bankının, 8% birgə benifisiarların, 8% Azərbaycan Dövlətinin, 15% birgə maliyyələşdirmə qrantının hesabına olacaqdır.

Azərbaycanın şimal-şərq regionunda "Kənd təsərrüfatının inkişafı layihəsi" üzrə də hazırlıq işləri başa çatmaq üzrədir və onun yaxın vaxtlarda icrasına başlanılması nəzərdə tutulur.

Layihənin məqsədi ərzaq təhlükəsizliyinin təmin edilməsi və gəlir əldə etmə imkanlarının genişləndirilməsi yolu ilə Respublikanın şimal-şərqində yerləşən Abşeron, Dəvəçi, Xızı və Siyəzən rayonlarının suvarılan ərazilərində yaşayan 15012 ailənin həyat səviyyəsinin yaxşılaşdırılmasından ibarətdir.

Layihənin 5 illik (2005-2009) müddətli ərzində onun ümumi dəyəri 25148 milyon ABŞ dolları məbləğində qiymətləndirilmişdir.

Son illərdə ölkənin aqrar sahəsində baş verən müsbət dəyişikliklər ümummilli liderimiz möhtərəm Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən, Azərbaycan Respublikasının prezidenti, Heydər Əliyev siyasətinin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən yaradıcılıqla davam etdirilən iqtisadi islahatların və onun tərkib hissəsi olan aqrar islahatların düzgünlüyünü bir daha sübut edir.

Ölkənin aqrar sahəsində ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi siyasət Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev tərəfindən ictimai-siyasi və beynəlxalq münasibətlər kontekstində yaradıcılıqla və uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti möhtərəm İlham Əliyevin 2004-cü ildə imzalandığı "Sosial-iqtisadi inkişafın daha da sürətləndirilməsi", "Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" fərmanları və fərmanlar əsasında qəbul edilmiş digər normativ-hüquqi sənədlər ümummilli liderimiz Heydər Əliyevin apardığı siyasəti və onun mühüm tərkib hissəsi olan aqrar siyasətin yeni məzmunda məntiqi davamıdır.

NİZAMİ CƏFƏROV
Milli Məclisin deputatı,
AMEA-nın müxbir üzvü

Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir- birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir- birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı- ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir- birimizdən ayırmayıb, bir- birimizə bağlayıb, bir- birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik.

Heydər ƏLİYEV

TÜRK DÜNYASININ BİRLİYİ STRATEGİYASI: HEYDƏR ƏLİYEVDƏN İLHAM ƏLİYEVƏ

Müasir Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin siyasi- ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb bütövlükdə türk dünyasını (və ümumən dünyanı!) əhatə edir. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi- nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev Azərbaycanın türk dünyası, xüsusilə müstəqil türk dövlətləri ilə əlaqələrinin müfəssəl proqramını vermişdir ki, buraya əsasən aşağıdakılar daxildir:

— Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə etmək;

— türk dünyasının qüvvələrini birləşdirmək, hər hansı türk dövlətinin (xüsusilə beynəlxalq) problemlərinin həllində türk dünyasının birgə hərəkətini təmin etmək;

— türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq və bunun üçün hər bir müstəqil türk dövlətinin imkanlarından yararlanmaq və s.

...Heydər Əliyevin türk dünyasının problemləri ilə daha ardıcıl məşğul olduğu mərhələ 1993-cü ildən, müstəqil Azərbaycan Respublikasının prezidenti seçiləndən sonra başlayır. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində Heydər Əliyev demişdi: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin — Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir"... Bu müraciətdə türklük düşüncəsinin ən azı üç tarixi əlaməti əks olunur:

1) ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması;

2) türk (və ümumən müsəlman) dünyasının birliyinə çalışılması;

3) həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi ideyasının müdafiəsi.

...Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini dönə-dönə dəyərləndirmiş, onu "iyirminci əsrin bəşəriyyətə verdiyi böyük dühalardan" saymışdır. Türkiyə haqqında müxtəlif vaxtlarda deyilmiş aşağıdakı sözlərin hamısı Heydər Əliyevə məxsusdur: "Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən birinə çevrilmişdir...", "Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var...". "Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir". "Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim və zəngin tarixi var". "İndi Azərbaycan Respublikası bir müstəqil dövlət kimi Türkiyə Cümhuriyyəti ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə çalışır...". "Mən bu gün bir daha Türkiyə torpağına ayaq basmağıma, Türkiyə torpağında olmağıma görə özümü çox xoşbəxt hesab edirəm...". "Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir". "Hələ gənc yaşlarımda kitablardan, qəzetlərdən

Türkiyə haqqında, türk xalqı haqqında oxuyarkən Türkiyəyə həmişə həsrətlə baxır, ona böyük maraq göstərir, Böyük Millət Məclisinin işi barədə, onun qəbul etdiyi qərarlar barədə məlumatları həvəslə, diqqətlə oxuyurdum". "... Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir". "... Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir". "... xalqlarımız bir kökdəndir... Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik...". "Biz bir millət, iki dövlətik...". "Burada, bu salonda kimin türkiyəli, kimin azərbaycanlı olduğunu ayırmaq mümkün deyildir...". "Azərbaycanla Türkiyə arasındakı sədlər, sərhədlər, qadağalar, yasaqlar götürülmüşdür"... və s.

Heydər Əliyev 1994-cü ilin fevralında Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə rəsmi səfərdə olarkən müxtəlif görüşlər keçirmiş, bu ölkə barəsində on illərlə ürəyində, beynində daşıdığı fikirlərinin əksəriyyətini ilk dəfə söyləmişdir...

90-cı illərin əvvəllərində hələ Naxçıvanda olarkən Heydər Əliyev Türkiyə prezidenti Süleyman Dəmirəllə, Türkiyənin böyük ictimai-siyasi və dövlət xadimləri ilə tez-tez görüşmüş, sıx əlaqələr saxlamışdır... Müşahidələr göstərir ki, Süleyman Dəmirəl Azərbaycan Prezidentinin ən çox qiymətləndirdiyi, hətta özünə qardaş hesab etdiyi türk dövlət başçılarından, dünya ictimai-siyasi xadimlərindən biri (və bəlkə də birincisi)dir. Heydər Əliyevin Süleyman Dəmirələ müraciətən dediyi aşağıdakı sözlər bunu bir daha sübut edir: "Türkiyə Cümhuriyyətinin beynəlxalq aləmdə xarici siyasətini aparmaqda, onu beynəlxalq təşkilatlarda təmsil etməkdə, Türkiyə Cümhuriyyətinin ilbəil Dünya birliyində layiqli yer tutmasında sizin böyük xidmətləriniz var və buna görə də siz təkcə Türkiyədə yox, yalnız türk dünyasında yox, bütün dünyada məşhur bir siyasi-ictimai xadimsiniz, dövlət xadimisiniz".

Heydər Əliyev daha sonra demişdir: "Azərbaycan xalqının sizə xüsusi hörmət və məhəbbəti vardır. Çünki xalqımız sizi çox yaxşı tanıyır, siyasi fəaliyyətinizi, dövlət fəaliyyətinizi həmişə izləyir. Təsadüfi deyil ki, hələ "soyuq müharibə" vaxtı, Sovetlər İttifaqı ilə Türkiyə Respublikası arasında münasibətlərin gərgin olduğu bir dövrdə Azərbaycan Respublikası, xalqımız Sovetlər İttifaqının tərkibində olduğu bir vaxtda — 25 il bundan öncə siz Türkiyənin baş naziri kimi Sovet İttifaqına ilk səfər etmisiniz.

Moskvada, Sovetlər İttifaqının başqa şəhərlərində olmusunuz. Biz o zaman hiss etdik ki, qəlbiniz, ürəyiniz Azərbaycana da gəlməyi sizə əmr etmiş, Bakıya gəlməyi sizə tövsiyə etmişdir. Siz Bakıya, Azərbaycana gəldiniz.

Heydər Əliyev Süleyman Dəmirəli "böyük öndər Mustafa Kamal Atatürkün işinin etibarlı davamçısı kimi, onun böyük şagirdi kimi" qiymətləndirmiş, "türk dünyasının, türk dövlətlərinin bir-birinə daha yaxın olması" yolunda hələ çox işlər görəcəyinə əminliyini ifadə etmişdir...

Böyük dövlət xadimi Süleyman Dəmirəl isə «Azərbaycan Prezidenti, qardaşım Heydər Əliyev» adlı məqaləsində (2003) Azərbaycan xalqının milli liderinin tarixi xidmətlərini dünyanın böyük dövlət adamlarının öz xalqları qarşısındakı tarixi xidmətləri ilə müqayisə edib göstərir ki, Çörçilin 1940- cı, Ruzveltin 1942- ci, Adenaurun 1946- cı, De Qollun 1958- ci ildə gördükləri işləri Heydər Əliyev 1993- cü ildə gördü. Və Heydər Əliyevin « intəhasız təcrübəsi, qətiyyəti, əzmi, uzaqgörənliyi, sülhsevərliyi, Azərbaycana və Azərbaycan xalqına olan sonsuz məhəbbəti, türk tarixinə, mədəniyyətinə və türklüyə bağlılığı, vətənpərvərliyi hər cür tərifdən yüksəkdə dayanır».

...Türkiyə xüsusilə 20-ci illərdən başlayaraq yalnız türkiyəlilərin deyil, ümumən dünya türklərinin mənəvi vətəni olmuşdur. Sibir, Türküstan, Volqaboyu, Şərqi Avropa, Şimali Qafqaz, Azərbaycan türkləri həmin illərdən etibarən ümidlərini Türkiyəyə bağlamışdılar. Bunun bir səbəbi də o idi ki, cəza orqanlarının təqibindən qaçan yüzlərlə türk mücahidi 20, 30, 40-cı illərdə məhz Türkiyədə məskunlaşmışdılar: onların içərisində **Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Əhməd Bəy Ağaoğlu, Zəki Vəlidi Toğan, Yusif Akçura oğlu, İsa Yusif Alptəkin, Əhməd Cəfəroğlu...** kimi böyük simalar vardı ki, elmi, ictimai-siyasi, mədəni-ədəbi fəaliyyətlərinin sonuna qədər **türkçülüyü Türkiyəçilik səviyyəsinə enməyə qoymamış**, böyük ideallar uğrunda gərgin mücadilələr vermişlər. Və beləliklə, Türkiyə faktiki olaraq bir neçə on il (əlli ildən artıq!) ümumən türklərin vətəni olmuşdur...

...Heydər Əliyev görünür, Türkiyəni bir də ona görə sevmişdir ki, bütün Türk dünyasından Türkiyəyə yollar uzandığı kimi, Türkiyədən də bütün Türk dünyası görünürdü (və bu gün də görünməkdədir). Yalnız uğurları ilə deyil, həm də qüsurları, problemləri ilə... Türkiyə təkcə həmin uğurlara sevinmir, problemlərin həllinə, mübahisələrə, dedi-qodulara da səbrlə münsiflik edir.

...Heydər Əliyevin tarixi Türküstan — Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan... ilə, həmin türk regionunun dövlət xadimləri, siyasi-ictimai liderləri ilə əlaqələri sovet dövründə sıx olmuş, sovet dövlətinin süqutundan sonra isə yeni milli-ideoloji məzmun kəsb etmişdir.

Hələ sovet dövründə Qazaxıstana, onun rəhbərliyində gedən proseslərə, rus şovinizminin bu proseslərə müdaxiləsinə Heydər Əliyevin münasibətinin yeganə düzgün münasibət olduğunu tarix təsdiq elədi. Heydər Əliyevin adını böyük uzaqgörənliklə qeyd etdiyi Nursultan Nazarbayev respublika rəhbərliyinə gəldi.

...1994-cü ilin martında Çinə rəsmi səfərdən Bakıya qayıdan Heydər Əliyev Almatıda dayanır və Nursultan Nazarbayevlə görüşür. Azərbaycan Prezidentinin həmin görüşdəki çıxışı olduqca maraqlı, türk dövlətləri başçılarının münasibətləri baxımından olduqca təsirlidir: "Əvvəlcə qeyd etmək istəyirəm ki, mən özüm Almatıda dayanmağı xüsusi olaraq planlaşdırdım ki, məhz Nursultan Abişeviçlə görüşə bilim. Başqa sözlə, söhbət təkcə texniki ehtiyacdan deyil, həm də mənim Nursultan Abişeviçlə görüşmək, danışmaq arzumdan gedir". Azərbaycan Prezidenti əlavə edir: "Biz onunla çoxdan dostuq. İndi üzərimizə böyük məsuliyyət götürdüyü bir vaxtda, əsrlərlə dostluq etmiş xalqlarımızın taleyi üçün *böyük məsuliyyət daşıdığımız bir vaxtda* (kursiv bizimdir — N.C.), şübhəsiz ki, görüşlərimiz, fikir mübadiləsi aparmağımız tələb olunur. Buna görə də mən bu gün Nursultan Abişeviçlə məmnuniyyətlə görüşdüm. Biz dövlətlərarası münasibətlərimizin bir çox məsələlərinə dair fikir mübadiləsi etdik...".

Türküstan respublikaları, həmin respublikalarla Azərbaycanın çoxtərəfli əlaqələri, əməkdaşlığı və s. barədə Heydər Əliyevin, görünür, ilk proqram əhəmiyyətli fikirləri Türk dövlətləri başçılarının İstanbulda keçirilən 2-ci zirvə toplantısında söylənmidir. ... Azərbaycan prezidentinin İstanbula yola düşərkən Bakıda, hava limanında jurnalistlərə dediyi aşağıdakı sözlər diqqəti cəlb edir: "Şübhəsiz ki, zirvə toplantısı bizim xalqlarımızın (türk xalqlarının — N.C.), müstəqil ölkələrimizin (türk dövlətlərinin — N.C.) bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keç-

münasibətlərimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti bunlar hamısı respublikamızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır"... Və 2-ci zirvə toplantısının açılışında Azərbaycan Prezidenti bu fikri daha da inkişaf etdirib demişdi: "Bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu çox böyük əsasdır. Ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə, bütün istiqamətlərdə bu əməkdaşlığı təmin etməyə bizim böyük imkanlarımız var. Azərbaycan Respublikası belə qərara gəlib ki, *bundan sonra da bu imkanlardan istifadə etsin və əməkdaşlığı genişləndirsin* (kursiv bizimdir — N.C.)..."

... Həmin nitqində Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin türk dövlətləri ilə əlaqələrində, ümumən xarici siyasətində artıq neçə illər kölgədə qalmış bir məsələyə işıq saldı. O ancaq dahi diplomatlara (və türk dünyasının birliyi uğrunda hər cür mücadiləyə hazır böyük türkçülərə!) xas olan bir açıqlıqla dedi: "... Ancaq bir həqiqəti də qeyd etmək istəyirəm ki, ölkələrimiz (söhbət türkdilli ölkələrdən gedir — N.C.) müstəqillik əldə edəndən sonra, iki il bundan öncə Ankarada bizim ölkələrimizin rəhbərləri toplaşıb, görüşüb birgə bəyanat qəbul edəndən sonra, ola bilər ki, Azərbaycan tərəfinin buraxdığı səhvlər nəticəsində Azərbaycan Respublikasının Qazaxıstanla, Özbəkistanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Təxminən bir il bundan öncə, mən Azərbaycan Respublikasına başçılıq etməyə başladığım gündən bu qardaş respublikalarla əlaqələrin bərpa olunması üçün çox çalışmışam və bildirmək istəyirəm ki, *bu əlaqələrin zəifləməsi və bəzən də qırılması* (kursiv bizimdir — N.C.) səbəbləri ancaq Azərbaycandadır". Azərbaycan Prezidenti daha sonra dedi ki, "ona görə də Azərbaycan tərəfindən bu əlaqələrin uzun müddət zəiflədilməsinə görə də xüsusən 1992-ci ildə Ankara bəyannaməsindən sonra Azərbaycan tərəfindən bu dövlətlərlə əlaqələri inkişaf etdirmək üçün təşəbbüs göstərilmədiyinə görə mən dostlarımdan, qardaşlarımdan üzr istəyirəm və

bunu etiraf edirəm. Eyni zamanda bildirmək istəyirəm ki, Azərbaycan bu əlaqələrin gücləndirilməsinə çalışır və bundan sonra da çalışacaqdır.

Ümumiyyətlə, bir kökdən, bir mənşədən olan və adət-ənənələri bir olan xalqların, ölkələrin, dövlətlərin əməkdaşlığının böyük gələcəyi var və mən hesab edirəm ki, biz bu imkanlardan səmərəli şəkildə etməliyik".

...Etiraf edək ki, Heydər Əliyev Türküstanın dövlət başçıları **Nursultan Nazarbayev, İslam Kərimov, Saparmurad Niyazov (Türkmənbaşı), Əsgər Akayev** ilə görüşlərində, münasibətlərində öz ağsaqqallıq missiyasını, türk dünyasının lideri vəzifəsini həmişə məharətlə yerinə yetirmişdir. Təcrübəli dövlət adamının, müdrik ictimai-siyasi xadimin qeyri-adi nüfuzu qısa bir müddətdə Türküstana yayılmış və həmin ölkələr, onların münasibətləri, beynəlxalq mövqeləri üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu artıq göstərməkdədir. Heydər Əliyev uzaqgörən, qətiyyətli, lakin eyni zamanda səbrli, hadisəni mahiyyətdən, təsadüfi zərurətdən ustalıqla ayıran dövlət xadimi idi. Bu isə ona Türküstan respublikaları ilə münasibətdə çox geniş səlahiyyətlər verirdi. Digər tərəfdən, Mərkəzi Asiya türklüyünün Türkiyəyə, oradan da Qərbi Avropaya yolunun ən kəsəsi Azərbaycandan keçir. Şimal-Qərbdən və Cənub-Qərbdən keçən yollar, əslində, tarixi-ənənəvi yoldan (İpək yolundan!) çıxmaq deməkdir. Bunu Azərbaycanın köhnə "rəhbərliyi" bilmirdi. Heydər Əliyev isə bilirdi.

...Son illərin müşahidəsi göstərir ki, türk dünyasının iqtisadi, siyasi, mədəni əlaqələri türk dövlətlərinin bu sahələrdəki əməkdaşlığı harada adətən "xarici" düşünən, arabir də "müxalif" hərəkət edən türk dövlət başçısı Saparmurad Niyazov (Türkmənbaşı) olmuşdur. Türk dövlət başçılarının 2-ci zirvə toplantısında mətbuat konfransında söylədiyi aşağıdakı mülahizələr Türkmənbaşının mürəkkəb tarixi proseslərə dərindən (və ümumtürk mənafeləri mövqelərindən!) yanaşmaqda çətinlik çəkdiyini göstərir: "... Prinsip etibarilə biz Azərbaycanın Qərb konsorsiumu ilə imzaladığı müqavilənin əleyhinə deyilik. Yeganə məqsəd bu olmalıdır ki, heç kim bir-birindən şübhələnməsin, heç kim fikirləşməsin ki, biri digərinin hesabına fayda götürməyə çalışır və Xəzər dənizi hansısa çəkişmə, mübahisə, qeyri-sabitlik obyektinə çevrilməsin... Xəzərlə bağlı məsələlərdə müvafiq dövlətlərin ehtiyat etməsini başa düşmək mümkündür. Bu gün bizlərdən kimsə bir iş görərkən qonşular buna həmişə şübhə ilə yanaşırlar. Bizim də Hollandiya və Argentina firmaları ilə sazişlərimiz var, on-

lar Xəzər dənizinin sahilində işləyirlər. Lakin biz mövcud neft mədənlərində hasilatın artırılması barədə saziş bağlamışıq və gəliri yarı bölməcəyik. Xəzərin Türkmənistan sahillərindəki şelfində iş görmək barədə də danışıqlar aparacağıq"... Və Saparmurad Niyazov türk dövlətləri başçılarının məclisində yuxarıdakı sözlərin ardınca öz strateji mövqeyini belə bəyan etmişdir: "... Əgər Rusiya ilə saziş bağlamaq sərfəli olarsa onunla, İranla sərfəli olarsa onunla saziş bağlayacağıq".

"Xəzər dənizi hansısa çəkişmə, mübahisə, qeyri-sabitlik obyektinə çevrilməsin" deyən Türkmənbaşı elə bil ki, Xəzəri tarixi ənənələrə baxmadan iki daşın arasında bölüşdürüb, öz payını daha yüksək qiymətə (kim çox verdi!) satmaq istəyir. Halbuki Xəzər dənizi türk dövlətlərini məhz bölünməzliyi ilə birləşdirməlidir...

Və yeri gəlmişkən, Xəzər hövzəsi türk (eləcə də qeyri-türk!) dövlətlərindən ancaq birinin Azərbaycanın paytaxtı Xəzər dənizinin bilavasitə sahilində yerləşir. Yalnız Azərbaycan prezidentinin iş kabinetindən baxanda qədim türk tayfalarından birinin adını daşıyan Xəzər dənizi görünür... "Coşğun Xəzər oynar ayaqlarında..."

...1994-cü il oktyabr ayının sonlarında Heydər Əliyev Türkmənistanın müstəqillik qazanmasının 3-cü ildönümü şənliklərində iştirak etmək üçün Aşqabada gedir. Azərbaycan Prezidentinin məqsədi, heç şübhəsiz, sadəcə şənliklərdə iştirak etmək deyildi, Aşqabadda jurnalistlərə verdiyi müsahibədə daha böyük (əslində, tarixi!) bir məqsəd izlədiyini etiraf etmişdi: "... Türkmənistan bizə qonşu, dilimizə və keçmişimizə görə yaxın bir ölkədir. Ona görə də mən istəyirəm ki, ölkələrimiz arasındakı əlaqələri möhkəmləndirək. Vaxtilə böyük səhvlər buraxılıb, Azərbaycanı Orta Asiya, ümumiyyətlə, Mərkəzi Asiya ölkələrindən uzaqlaşdırıblar. Mən istəyirəm ki, bu, aradan götürülsün. Güman edirəm ki, belə tədbirlər gələcəkdə keçmiş "İpək yolu"nun canlandırılmasına kömək edəcəkdir"...

Heydər Əliyevin müstəqil Türkmənistan dövlətinin 3-cü ildönümü münasibətilə dediyi aşağıdakı sözlər, bir tərəfdən, böyük türk dövlət xadiminin bir türk dövlətinin uğurlarına ürəkdən gələn sevincini ifadə edirsə, digər tərəfdən, həmin dövlətin rəhbərliyini türk birliyi mövqeyində möhkəm dayanmağa çağırır: "Mən Türkmənistanın bu üç illik müstəqillik dövründə əldə etdiyi nailiyyətləri, prezident, dostum və qardaşım Saparmurad Türkmənbaşının xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Hörmətli prezident

Saparmurad Türkmənbaşı ilə biz çox illərdir ki, dostuq, tanışıq. Vaxtilə bir yerdə də işləmişik. İndi də qonşu ölkələrə rəhbərlik edirik. Ona görə dünən də, bu gün də Türkmənistanın son dövrdə (mən əvvəllər də Türkmənistanda olmuşam), xüsusilə müstəqillik qazanandan sonra hörmətli prezident Türkmənbaşının rəhbərliyi altında əldə etdiyi nailiyyətlər məni qəlbən çox sevindirdi... Müsəlman dövlətlərinin Pakistan, Türkiyə, Türkmənistan, İran və Azərbaycanın rəhbərlərinin burada, Türkmənistan torpağında, qədim türk torpağında toplanması çox böyük hadisədir".

...Heydər Əliyevin Türkmənistana səfəri Azərbaycan Prezidentinin müstəqillik yolları ilə addımlayan tarixi Türküstana — Orta Asiyaya ilk səfəri idi və bu səfərin nəticələri ilə əlaqədar Heydər Əliyev demişdi: "Güman edirəm ki, gələcəkdə əməkdaşlığımız üçün çox böyük imkanlar var və Saparmurad Niyazovla danışdıq ki, bu imkanlardan hər iki tərəf istifadə etməyə çalışacaqdır".

Heydər Əliyev türk dövlətlərinin, ümumən türk dünyasının birliyinə heç zaman sadəcə etnik köklərin ümumiliyinə əsaslanan mədəni- etnoqrafik (yəni tarixdə qalmış) birlik kimi baxmaqla kifayətlənməmiş, bu birliyin siyasi perspektivlərinə xüsusi diqqət yetirmişdir. 2000- ci ildə türkdilli dövlətlərin Bakıda keçirilən VI zirvə görüşündə qəbul olunmuş, bilavasitə Heydər Əliyevin düşüncələrini əks etdirən «Bakı bəyannaməsi» hər bir maddəsi ilə bunu bir daha təsdiq edir.

...Təbii ki, türk dünyası Türküstandan, Mərkəzi Asiyadan çox genişdir: Yakutiya, Sibir türkləri var; Volqaboyu türkləri — tatarlar, başqırdlar, çuvaşlar var; Şimali Qafqaz türkləri var... Onların hamısı sovet dövründən (və dövlətindən!) keçmişlər, indi isə Rusiyanın vətəndaşıdırlar. Ona görə də Heydər Əliyev Azərbaycanla , eləcə də digər türk dövlətləriylə Rusiya arasındakı iqtisadi, siyasi, mədəni münasibətlərin inkişafına, qarşılıqlı əlaqələrin intensivliyinə həmişə xüsusi önəm vermiş, Rusiya türklərinin milli özünüdərk (və özünüifadə) imkanlarının genişlənməsinə türk dünyasının ümumi yüksəliş strategiyasının üzvi tərkibi hissəsi kimi baxmışdır.

Qeyd etmək lazımdır ki, Türkiyə türklərindən sonra dünyada sayca ən çox olan türk xalqı azərbaycanlılardar – onlar dünya türklüyünün beşdə birindən çoxunu təşkil edirlər. Və ona görə də dünya azərbaycanlılarının birliyinə, mütəşəkkilliyinə nail olmaq üçün Heydər Əliyevin apardığı ardıcıl mübarizə (eləcə də həmin mübarizənin Azərbaycan dövlətinin siyasətinə

çevrilməsi türk birliyi, müstəqilliyi uğrundakı mübarizənin, heç şübhəsiz, fəal tərkib hissəsi, fundamental çıxış (və dayaq!) nöqtəsidir. Azərbaycan xalqının milli liderinin uzaqgörənliklə yaratdığı Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi böyük öndərin ideyalarını həyata keçirmək sahəsində artıq xeyli iş görməkdə, milli liderin yaratdığı başqa bir quruma - Azərbaycanda Atatürk Mərkəzinə də öz fəaliyyətini genişləndirmək üçün təcrübə qazanmaqda yardım etməkdədir.

Türk dünyasının fəxri, Heydər Əliyevin türk dünyasının yüksəlişi barədəki strateji mövqeyini onun aşağıdakı sözləri aydın əks etdirir: "Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir".

Və fəxr olunmalıdır ki, Azərbaycanın milli liderinin türk dünyasının qarşılıqlı əlaqələri, yüksəlişi strategiyasını Azərbaycan Prezidenti İlham Əliyev respublikaya rəhbərlik etdiyi elə ilk aylardan uğurla davam (və inkişaf!) etdirməkdədir. Onun Qazaxıstana, Özbəkistana, xüsusilə Türkiyəyə rəsmi səfərləri göstərdi ki, İlham Əliyev bütün sahələrdə olduğu kimi, bu sahədə də öz siyasi enerjisini əsirgəməyəcək, türk dövlətləri arasındakı qarşılıqlı əlaqələrin genişlənməsi, türk dünyasının müasir dünyada özünəməxsus yerini tutması uğrunda müasir dövrün türk lideri olaraq böyük xidmət göstərəcəkdir. Milli lider Heydər Əliyevin layiqli varisi olan İlham Əliyev Prezident kimi Türkiyəyə ilk rəsmi səfəri ərəfəsində demişdi: «Biz öz siyasətimizi müstəqil şəkildə aparmalıyıq ki, xalqlarımız, millətimiz daha da güclənsin, qüdrətlənsin, möhkəmlənsin. Bizim gücümüz də birlikdədir». Və Ankara görüşlərində həm Azərbaycanın, həm də Türkiyənin xüsusi beynəlxalq problemlərinin həllində hər iki dövlətin başçılarının prinsipial mövqe nümayiş etdirməsi həmin «güc birliyi»nin siyasi reallıq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

BƏXTİYAR SADIQOV
Milli Məclisin deputatı,
«Azərbaycan» qəzetinin baş redaktoru

OXŞAR TALELƏR

Həyatda oxşar talelərə təsadüf edilir. Eyni əqidəyə qulluq edərək mübarizəyə atılanlar, əldə silah düşmən üstünə birlikdə gedənlər hərdən bənzər tale yaşayırlar. Bu, ömrün müəyyən məqamında baş verən oxşarlıq olur. Vətənlə övladın oxşar taleyinə isə az təsadüf edirik. Əsasən də onların qırılmaz tellərlə bağlılığı olanda. Belə hal hər xalqın həyatında bir dəfə baş verir. Hər dəfə də dövlətin və millətin çox mürəkkəb və keşməkeşli dövrünə düşür.

Qovuşma

Dövlətlər də insanlar kimidir: yaranır, inkişaf edir, qüdrətlənir, hərdən isə süquta uğrayaraq yox olur! Bu bir tərəfdən tarixin yaratdığı şəraitlə bağlıdır. Lakin hadisələrin gedişinə təsir göstərməyə qadir görkəmli şəxsiyyətlərin rolunu nəzərə almamaq da yanlış olardı. O xalq xoşbəxtdir ki, tarixinin və taleyinin həlledici məqamında siyasət meydanında güclü lideri, siyasi və dövlət xadimi səviyyəsinə yüksəlmiş övladı olur. Məhz o halda xalq istəyinə çatır, yaxud real təhlükədən qorunur, dövlətçiliyi yaşa-yır! XX əsrin əvvəllərində Azərbaycan müstəqillik qazandı. Lakin tarixi şərait - həm ölkədaxili vəziyyət, həm də beynəlxalq aləmdə baş verənlər müstəqilliyin itirilməsi ilə nəticələndi. 23 aydan sonra Azərbaycan "könüllü şəkildə" XI qızıl ordunun "köməyi ilə" "qırmızı imperiya"nın tərkibinə qatıldı. İkinci oxşar hadisə XX əsrin doxsanıncı illərində təkrarlandı. Yenə xarici qüvvələr və daxildə gedən aramsız mübarizə ölkəmizin müstəqilliyini, həm də təkcə müstəqilliyini yox, bütövlükdə bir dövlət kimi mövcudluğunu təhlükə qarşısında qoydu. Bu dəfə müstəqilliyimizi və dövlətimizi xalqımızın dahi oğlu, ümummilli liderimiz Heydər Əli-yev qurtararaq əbədiliyə və dönməzliyə çevirdi! İndi respublikamızda, hətta bütün dünyada Heydər Əliyev deyəndə Azərbaycan, Azərbaycan de-yəndə Heydər Əliyevin anılması təsadüfi deyil! Çünki, bir - birini yaşadan və ucaldan iki varlıq əslində vahid anla-yışa çevrilmişdir. Bunu ümummilli liderimiz Heydər Əliyevin tərcümeyi - halı və Azərbaycanın yaxın tarixi də əyani şəkildə sübut edir.

1941-1945-ci illər müharibəsindən sonra Azərbaycan ağır və böhranlı vəziyyətə düşmüşdü. Qələbənin qazanılmasına böyük "neft töhfəsini" verən ölkə iqtisadi cəhətdən hərbi əməliyyatlar gedən dövlətlərdən o qədər də fərqlənmirdi. Neftçıxarmada imkanlar tükənmişdi. Əslində aqrar ölkə olan Azərbaycanın kənd təsərrüfatında istehsal əzələ qüvvəsinə söykənirdi. Texnika və suvarma suyu çatmır, məhsuldarlıq aşağı, kəndlinin dolanışığı ağır idi. Çiy kərpicdən tikilmiş alçaq və yastı komalar o dövr kəndinin xarakterik simasını təşkil edirdi. Azərbaycan keçmiş SSRİ-yə daxil olan on beş respublikadan ən geridə qalmışı və tanınmayanlardan biri sayılırdı.

Həmin dövrdə Heydər Əliyev də tanınmırdı. 10 may 1923-cü ildə sadə, zəhmətkeş azərbaycanlı ailəsində dünyaya gələn bu gənc 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyasının) memarlıq fakültəsində təhsil almışdır. Müharibənin başlanması ona təhsilini başa çatdırmağa imkan verməmişdi. 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə yüksəlmişdir. 1969-cu ilin iyul ayında Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərək respublikaya rəhbərlik etməyə başlamışdır. Heydər Əliyevin Azərbaycana rəhbər təyin edilməsi, Azərbaycanın isə onun simasında özünə yeni tipli rəhbər tapması hər ikisinin yüksəlişinin, xalqın da xoşbəxtliyinin başlanğıcı oldu! Beləliklə bu vaxtdan iki "tanınmayan" bir-birinin sayəsində məşhurlaşmağa, təkcə SSRİ miqyasında deyil, bütün dünyada ad çıxararaq ucalmağa başladı. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev "Əsil vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" əsərində həmin dövrü belə xarakterizə edir: "1969-cu il Azərbaycanın ən yeni dövrü tarixində dönüş ili oldu. Respublikanın dinamik inkişafının təmin edilməsinə dair kompleks proqramlar işlənib hazırlandı. Bu yorulmaz fəaliyyət sayəsində 1970- 1985-ci illər baş vermiş dəyişikliklərin vüsəti, rifahın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifədir. Həmin illərdə Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublika iq-

tisadiyyatının hərtərəfli təraqqisi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Sosial-iqtisadi inkişafın başlıca istiqamətlərini müəyyən edən həmin qərarların xalqımızın mənafeləri baxımından tarixi əhəmiyyəti vardı. Tam əminlə demək lazımdır ki, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadiyyatına daha dərin inteqrasiyası prosesi hələ 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində təməli qoyulmuş potensiala əsaslanır."

Heydər Əliyevin tükənməz enerjisi və təşkilatçılıq məharətinin Azərbaycanın təbii ehtiyatları və iqtisadi potensialı ilə birləşməsi, üstəlik mövcud reallıqların düzgün qiymətləndirilərək mümkün olanlardan daha səmərəli istifadə edilməsi sürətli inkişaf və güclü yüksəlişlə nəticələndi. Ən önəmlisi o idi ki, baş verən intibah mənəvi sferanı da əhatə edirdi. Ümummilli liderimiz Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkə iqtisadiyyatı həm intensiv, həm də ekstensiv inkişaf edirdi. Beləki, 1970-1982-ci illərdə respublikada 250 yeni müəssisə, istehsalat və sex tikilmiş, neftayırma sənayesi müəssisələri tamamilə yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa olunmuşdur. Nəticədə göstərilən müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmışdır. 13 ildə o zamankı qiymətlərlə 101,5 milyard manatlıq (əvvəlki 50 ildə olduğu qədər) məhsul istehsal edilmişdir. Həm də xalq istehlakı malları istehsalı 3 dəfə, əmək məhsuldarlığı 2 dəfədən çox, fond verimi 25 faiz artmışdır.

1970-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. Əsaslı dövlət vəsaiti qoyuluşunun 1 manat artımı hesabına əlavə olaraq 3,5 manatlıq məhsul alınmışdır. Göstərilən dövrdə milli gəlir 2,6 dəfə çoxalmışdır. Azərbaycan büsbütün yenidən tikilib qurulmuş, yeni kənd və qəsəbələr salınmış, fabrik və zavodlar tikilmiş, yaşayış məntəqələrinin siması tamamilə dəyişmişdir. Yetmişinci illərədək Azərbaycan kəndi əsasən çiy kərpicdən və palçıqdan tikilmiş komalardan ibarət idi. Kəndlinin gəliri az olduğundan güzəranı ağır keçirdi. Kənd təsərrüfatının yüksəlişi bu sahədə inqilabi dəyişiklik yaratdı. Yeni texnika və aqrotexniki qaydaların genişmiqyaslı tətbiqi hesabına əmək məhsuldarlığı və məhsul istehsalı bir neçə dəfə artdı, təsərrüfatların və əməkçilərin gəliri qat-qat çoxaldı. Kəndlinin güzəranı və məişət şəraiti dəyişdi. Azərbaycan kəndi palçıq komalardan qurtularaq si-

masını dəyişdi. O vaxtdan həyətində minik avtomobili, ikimərtəbəli ağ mişar daşından evi, məişətində hər növ elektrik cihazları olan kəndli ailələri Azərbaycan kəndlisini xarakterizə edən başlıca əlamətə çevrildi. Bu gün elə bir kənd tapılmaz ki, orada Heydər Əliyev dövrünü xatırladan bir neçə "abidə"yə rast gəlinməsin. Ölkə paytaxtı Bakı şəhəri də yeni mikrorayonlar, park və xiyabanlar, küçə və meydanlar hesabına böyüyərək gözəlləşdi. "Gülüstan" və "Respublika" sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehmanxanaları, Əl oyunları sarayı və Olimpiya İdman Kompleksi, metro stansiyaları və digərləri həmin dövrdə tikilmiş, N.Nərimanova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə abidələr qoyulmuş, onlarla ədəbiyyat və incəsənət xadiminə, sənətkara fəxri adlar, dövlət mükafatları verilmişdir. Bütün bu yüksəliş və dəyişikliyin memarı və qurucusu olan ümummilli liderimiz Heydər Əliyev isə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülərək dünya miqyasında tanınıb məşhurlaşmışdır.

Kimlər kimə və niyə hücum edirdi

Tarix göstərir ki, böyük imperiyalar nə qədər güclü və qüdrətli olsalar da uzun müddət yaşamır, müəyyən dövrdən sonra parçalanaraq süqut edirlər. SSRİ adlanan super dövlət onun ideoloqları tərəfindən imperiya sayılmasa da, ("qardaş xalqların azad, bərabərhüquqlu və könüllü ittifaqı" adlandırılsa belə) onun da çox yaşamayacağı proqnozlaşdırılırdı. Yetmişinci illərin sonlarında qırmızı imperiyanın iqtisadi durumunun sürətlə pisləşməsi, ideya-mənəvi böhranın güclənməsi açıq-aşkar hiss olunurdu. Vəziyyəti nizamlamaq, super dövləti qoruyub saxlamaq üçün tədbirlər görülür, cəhdlər göstərilirdi. Çıxış yollarından biri ölkənin zəngin təbii sərvətlərindən, mövcud potensialından səmərəli istifadəni, dövləti nizam-intizamı möhkəmləndirməni təmin edəcək yüksək intellektə və mahir təşkilatçılıq bacarığına malik insanların yüksək vəzifələrə gətirərək nüfuz və bacarıqlarından istifadə edilməsi idi. Məhz bu niyyətlə ümummilli liderimiz Heydər Əliyev SSRİ-də ən yüksək postlardan birini tutaraq dövləti idarə etmək üçün Moskvaya aparıldı. Əlbəttə, böyük türk oğlunun Kremlə getməsi fərəhli, sevincli və iftixarlı idi. Həm də hamı çox gözəl anlayırdı ki, böyük vətənpərvər və uzaqgörən dövlət xadimi Heydər Əliyevin Moskvada işləməsi Azərbaycanın yüksəliş və inkişafına müsbət təsir göstərəcəkdir. Lakin SSRİ-nin rəhbərlərinin sürətlə sıradan çıxması nəticəsində M.Qorbaçov kimi xəbis

xislətli, avantürist və tamahkar şəxslərin ölkə başçısı olması vəziyyəti büsbütün dəyişdi. Mahiyyətcə boşboğaz və dağıdıcı olan Qorbaçov Heydər Əliyev kimi dahi siyasətçi və görkəmli dövlət xadimi qarşısında sönüklüyünü dərindən dərk edirdi. Odur ki, onu daim təqiblərə məruz qoyur, açıq mübarizədə gücü çatmadığından fiziki cəhətdən aradan götürməyə çalışırdı. Ulu öndərimiz SSRİ rəhbərliyindən və Sov.İKP-dən istefa verərək çox çətin və ağır, qorxulu və təhlükəli bir şəraitdə yaşamağa başladı.

Əbədi və əzəli düşmənlərimiz sayılan ermənilər yaxşı bilirdilər ki, nə qədər Heydər Əliyev Azərbaycana, sonra isə SSRİ-yə rəhbərlik edir, məkrli planlarını həyata keçirə bilməyəcəklər. Odur ki, mərtəbə yataraq əlverişli məqam gözləyirdilər. Nəhayət belə bir fürsət əllərinə düşmüşdü. SSRİ-nin dağılması planının baş icraçısı olan M.Qorbaçovu müxtəlif vasitələrlə ələ almaqla Dağlıq Qarabağın Ermənistanın tərkibinə qatılmasına razılıq verməsinə nail olmuşdular. Bu alçaq planın icrasına isə Heydər Əliyevin siyasət meydanından uzaqlaşdırılması ilə start verildi.

Ümummilli liderimizin şübhəli infarkt xəstəliyindən ağır vəziyyətdə yatdığı dövrdə Azərbaycan üçün də qorxulu və təhlükəli anlar başlandı. Həm ulu öndərimiz, həm də vətənimiz sanki eyni xəstəliyə tutulmuşdu. Təhlükə elə böyük idi ki, hər ikisinin mövcudluğu böyük qorxu altındaydı. Fiziki cəhətdən güclü və sağlam olan, böyük iradə və dözüm sahibi Heydər Əliyev xəstəliyə də üstün gəldi. Sanki Tanrı onu Azərbaycanı qoruyub saxlamaq, onun müstəqilliyini əbədiliyə və dönməzliyə çevirmək-dən ötrü hifz etmişdi. Həmin dövrdə Moskvada Qorbaçov və onun ermənipərəst ətrafı ümummilli liderimizə təzyiqlər göstərərkən Bakıdan da qucaq-qucaq şər və böhtan dolu məktublar təşkil edilir, müxtəlif qəzetlərdə qərəzli məqalələr yazdırılırdı. Azərbaycana da daxildən və xaricdən basqılar var idi. Mərkəzə arxalanan və sovet ordusu tərəfindən silahlandırılan erməni yaraqlıları Dağlıq Qarabağdakı Azərbaycan kəndlərinə hücumlar təşkil edir, evləri qarət edib yandırır, dinc əhalini öldürüb doğma yurd-yuvasından qovaraq çıxarırdı. Ölkə daxilindəki manqurt rəhbərlər isə əhalidəki ov tüfənglərini belə yığır, insanları düşmən qarşısında əliyalın qoyurdular. Məhz belə üzdəniraq respublika rəhbərlərinin müttiliyi və vəzifəpərəstliyi sayəsində kənd və qəsəbələrimiz düşmən əlinə keçir, köməksiz və arxasız qalan insanlar öz ölkəsində məcburi köçkünə çevrilirdi. Xalqın fəlakət və müsibətinin artdığı, separatizm dalğasının bürüdüyü dövlətin ölüm-qalım məsələsi həll edildiyi bir zamanda Bakıda

hakimiyyət uğrunda savaşın ardı - arası kəsilmirdi. Adlarını "demokrat" qoyaraq zorakılıq yolu ilə hakimiyyətə gəlməyə can atan meydan qəhrəmanları mitinqlər, tətillər və piketlər keçirərək vətəndaş itaətsizliyi təbliğ edir, dövləti iflic vəziyyətinə salırdılar. Torpaqları müdafiə edəcək silahlı qüvvələrin olmaması, ayrı-ayrı dəstələrin müxtəlif adamların və siyasi partiyaların mənafeyinə xidmət göstərməsi, milli ordu yaradılmasının əsassız şəkildə uzadılması Azərbaycanı fəlakətlərə düçar etdi. Əli Azərbaycan xalqının qanına batmış cəllad Qorbaçovun fitvası ilə 1990-cı ildə 20 Yanvar faciəsi törədildi. Tərkibində erməni könüllülərinin iştirak etdiyi Moskvadan göndərilmiş cəza dəstələri yüzlərlə dinc və silahsız sakini güllələboran edib qanını axıtdı, tankın və zirehli texnikanın tırtılları altında qoydu. Bu, görünməmiş qəddarlıq və vəhşilik idi. Özünün təhlükə altında olmasına baxmayaraq xalqın cəsur və sədaqətli oğlu Heydər Əliyev heç nədən qorxub çəkinmədən Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək bu qanlı və amansız aksiyanı pisləyən ilk bəyanat verdi, onu törədənlərin tarix qarşısında cavabdehlik daşıyacağını söylədi. Bu sərt bəyanat aydın səmada şimşək kimi çaxdı. Özünü tənha hiss edən Azərbaycan xalqı arxasız və köməksiz olmadığını gördü. Əgər həmin günlərdə xalq öz həqiqi rəhbərinə qovuşsaydı, yəqin ki, bu qədər müsibətlər baş verməz, torpaqlarımızın 20 faizi işğala məruz qalmaz, bir milyondan çox qaçqın və məcburi köçkün ordusu yaranmazdı! Heyhat!

Vətənin ağır vəziyyətdə olduğunu görən ulu öndərimiz uzaqda qala bilmədi. O, çətin günlərdə xalqla birlikdə olmaq, bilik və zəngin təcrübəsi ilə mövcud problemlərin həllinə yaxından kömək göstərmək üçün Bakıya qayıtdı. Lakin mənfur qüvvələr Heydər Əliyevin öz əlləri ilə tikib qurduğu paytaxtda yaşamasına imkan vermədilər. Milli Məclisin 1991-ci ilin fevral sessiyasında çıxış edərək Dağlıq Qarabağ probleminin kökünün çox dərinliklərdə olduğunu, bir sıra dövlətlərin əli ilə Azərbaycanın müstəqilliyə çıxmasına imkan verməmək üçün məkrli planlar hazırlandığını söyləyərək bu qəsdlərin qarşısının alınmasından ötrü birgə fəaliyyət göstərmək üçün vahid proqram hazırlanmasının vacibliyini vurğuladı. Gözlərini vəzifə ehtirası pərdələyənlərin əlində qulbeçəyə çevrilənlər çıxışa mane olmağa çalışdılar. Mərkəzə qul itaəti göstərənlər isə bu müdrik və uzaqgörən insanın məsləhət və tövsiyyələrini eşitmək istəmədilər. Heydər Əliyev Naxçıvana qayıdaraq həyatının ən ağır dövrlərindən birini yaşamağa başladı. Əslində onun gəlişi ağır blokada şəraitində qalan Naxçıvana yeni

həyat gətirdi, onu düşmən işğalından, aclıqda və soyuqda qalaraq məhv olmaq təhlükəsindən xilas etdi. Bu ulu diyar yaşadı, mübarizə apardı, müstəqillik yollarında atdığı uğurlu addımlarda böyük Azərbaycana nümunə göstərdi. Lidersiz və rəhbərsiz qalan ölkə isə müstəqilliyini möhkəmləndirmək əvəzinə bəlalara düçar oldu. 1991-ci il 20 noyabr faciəsini 1992-ci ilin fevralında Xocalı soyqırımı əvəz etdi. Bir-birinin ardınca süquta uğrayan kənd və qəsəbələrdən sonra Şuşa, Laçın, Kəlbəcər işğala məruz qaldı. AXC-Müsavat cütlüyünün hakimiyyətə yiyələnməsi vəziyyəti daha da pisləşdirdi. Başları xalqın sərvətini çapıb talamağa qarışan "bəy"lər ordu quruculuğu, torpaqların müdafiəsi ilə məşğul olmağa vaxt tapmadılar. Mövcud silahlı qüvvələr isə kiminsə şəxsi mənafeyinə, hakimiyyətə gətirilməsinə xidmət edirdi. Düşmən Kür çayına qədər əraziləri tezliklə işğal edəcəyini gizlətmir, buna hazırlıq görürdü. Başlarını itirmiş ölkə başçıları isə lazımi səriştə və təcrübələri olmadığından dövləti idarə edə bilmir, xaos və qanunsuzluq baş alıb gedirdi. Azərbaycanı bürüyən separatizm dalğaları onun bir dövlət kimi mövcudluğunu sual altında qoymuşdu. Xalq yaxınlaşmaqda olan fəlakətdən nicat yolunu sınanmış oğlunu-görkəmli siyasi və dövlət xadimi - Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etməkdə görürdü. Xalqın təkidli çağırış və xahişinə biganə qala bilməyən ümummilli liderimiz Heydər Əliyev geriyə qayıtdı.

Xilas edən qayıdış

Əslində 1993-cü ilin iyun günlərində Azərbaycanın taleyi həll olunurdu. Dağıtmaq, qanunsuzluqlar, özbaşınalıqlar törətməklə hakimiyyəti qəsb edən AXC-Müsavat cütlüyü iqtidarda olduğu bir ildən də az müddətdə dövlət quruculuğu, milli ordu yaradılması və torpaqların müdafiəsi, iqtisadiyyatın dirçəldilməsi və zəruri islahatlar aparılması, düzgün daxili siyasi xətt hazırlanaraq yeridilməsi sahəsində heç bir iş görə bilməmişdi. Tankın belində hakimiyyətə gələn, dalbadal fövqəladə vəziyyətlər elan edən "bəy"lərin əsil simaları açılmışdı. Onlar dövlət hakimiyyətini və xalqın sərvətini çapıb-talamaqla qısa müddətdə varlanmaq, rüşvət toplamaq üçün vəzifələrə yiyələnmək və bu yolda bir-birləri ilə çəkişmək, məsuliyyətsiz bəyanatlar verib düşünülməmiş addımlar atmaqla Azərbaycanın digər dövlətlərlə münasibətlərini korlamaq, ölkə daxilində narazılıq və qarşıdurma yaratmaqla məşğul idilər. Xalq isə bunları görür və belə iqtidardan iyrənirdi. AXC-nin öz bətnindən çıxan, onun vasitəsilə silah və sərvət əl-

də edən Ə.Hümbətov, S.Hüseynov kimiləri isə köhnə əqidəsdaşlarına qarşı çıxaraq dövlətlə zor dilində danışır, separatçılıq və anti-dövlətçilik fəaliyyəti göstərirdilər. Başlarını itirən "bəy"lər nəinki Azadlıq meydanında xalqa verdikləri vədləri yerinə yetirə bilməmişdilər, əksinə mövcud olanları da dağıdaraq məhvolma həddinə çatdırmışdılar.

Belə bir məqamda hamı gözəl anlayırdı ki, Heydər Əliyevsiz Azərbaycan məhvə məhkumdur. Müstəqilliyi, dövləti, xalqı düşdüyü bəladan yalnız o müdrik və təcrübəli İNSAN xilas edə biləcək! Ümummilli liderimiz Heydər Əliyev də vəziyyətin son dərəcə ağır və çıxılmaz olduğunu yaxşı görürdü. Eyni zamanda xalqın və dövlətin taleyinə biganəlik göstərə bilmirdi. Odur ki, xilas edən QAYIDIŞ baş verdi. Xalqın təkidli çağırışına etinasız qalmayan Heydər Əliyev çox ağır və məsuliyyətli bir vəzifəni çiyinlərinə aldığını əla bilirdi. Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilən Heydər Əliyev Milli Məclisin 15 iyun 1993-cü il tarixli iclasındakı çıxışında deyirdi: "Sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bu günki ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm."

Beləliklə, tarixi qovuşma baş verdi. Həyatının ən çətin illərini yaşayan ümummilli lider Heydər Əliyevlə məhvolma ərəfəsində olan Azərbaycan yenidən bir-birinə tapındı. Bu həm də fəlakət və müsibətlərin sonu demək idi! Çünki təkcə Azərbaycan xalqı yox, bədxahlarımız və düşmənlərimiz də yaxşı bilirdilər ki, Heydər Əliyevin rəhbəri olduğu Azərbaycan basılmaz və yenilməzdir! O daim inkişaf və tərəqqi yolu ilə irəliləyəcəkdir! Lakin ilk qovuşma mərhələsində bir çox problem və çətinliklər həll edilməli idi. Xalqın xilaskarı missiyasını üzərinə götürən ümummilli lider Heydər Əliyev özünəməxsus enerji və uzaqgörənliklə fəaliyyətə başladı.

Naxçıvandan Bakıya dönən Heydər Əliyev özü ilə bilik və təcrübəsindən başqa heç nə gətirməmişdi. Onun nə ordusu vardı, nə də cəbbəxanası. Faktiki olaraq təpədən-dırnağacan silahlanmış xarici düşmənlərlə, eyni zamanda kifayət qədər silah-sursatı olan və dövlətçiliyə əl-qaldıran qüvvələrlə çarpışmalı idi. Lakin bu böyük insan heç zaman ölümdən və mübarizədən qorxaraq geri çəkilməmişdi!

İlk növbədə silahlı qarşıdurma yarandığı, qardaş qanı axıdıldığı Gəncə hadisələrini nizama saldı, vətəndaş müharibəsinin alovlarını söndürdü. Ölkə daxilindəki qüvvələrin və siyasi partiyaların başı hakimiyyət uğrunda mübarizəyə və daxili çəkişməyə qarışdığından torpaqların müdafiəsi büsbütün unudulmuşdu. Bundan istifadə edən düşmən kənd, qəsəbə və rayonlarımızı bir-birinin ardınca ələ keçirirdi. Milli ordu yaratmaq adı ilə "birləşdirilən" ayrı-ayrı dəstələrdə pərakəndəlik və özbaşınalıq hökm sürür, vahid komandanlığa tabeçilik göstərilmirdi. Düşmən Kür çayına qədər olan əraziləri tezliklə işğal etmək niyyətini gizlətmirdi. Hərbi əməliyyatların gedişində atəşkəs yaradılması bir sıra problemlərin həllinə imkan verdi. Ən əvvəl yeni ərazilərin işğalının qarşısı alındı. Zorla doğma yurd-yuvalarından qovularaq çöllərdə və düzlərdə ağır şəraitdə yaşayan yüz minlərlə məcburi köçkünün yerləşdirilməsinə, onlar üçün minimum şərait yaradılmasına imkan qazanıldı. Milli ordu quruculuğuna başlanıldı. Ümummilli liderimiz yorulmadan çalışır, bir neçə istiqamətdə fəaliyyət göstərirdi. Ölkəni bürüyən ağır böhrandan qurtulmaq üçün geniş islahatlara başlandı. Bundan ötrü müvafiq qanunçuluq bazası yaradılır, cəsarətli addımlar atılırdı. Özəlləşdirmə proqramı hazırlanaraq mərhələlər üzrə həyata keçirildi, MDB məkanında ilk dəfə olaraq məhz Azərbaycanda aqrar islahatlar aparıldı. Bütün bunların nəticəsində ölkəmiz uzun sürən ağır böhrandan qurtuldu, 1997-ci ildən indiyədək davam edən yüksəliş və inkişafın əsası qoyuldu. Qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, əhalidəki külli miqdarda qanunsuz silah-sursat toplanıldı, görülən digər təsirli tədbirlər sayəsində möhkəm və dönməz sabitlik yaradıldı.

20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə dahi öndər Heydər Əliyevin çox böyük müdriklik və uzaqgörənliklə hazırladığı yeni neft strategiyasının həyata keçirilməsinə başlandı. Neft sahəsi lokomotiv rolunu oynayaraq iqtisadiyyatın digər sahələrinin də inkişafına yardım göstərdi, eyni zamanda Azərbaycanın dünyaya inteqrasiyasını sürətləndirdi. Baş müəllifi ulu öndərimiz olan yeni Konstitusiya ümumxalq səsverməsi yolu ilə qəbul edildi, ölkəmizdə sərbəst bazar iqtisadiyyatına keçidi şərtləndirən möhkəm qanunvericilik bazası yaradıldı, hüquqi-siyasi və iqtisadi sahədə qazanılan uğurlar nəticəsində Azərbaycan Avropa Şurasına üzv oldu. Tarixi qayıdış təkcə müstəqilliyimizin və dövlətçiliyimizin xilası deyildi. Bu həm də yeni Azərbaycanın qurulması, xalqın və dövlətin hazırkı sabitliyini, habelə gələcək firavanlığını təmin edəcək təməlin yaradılma-

sıydı. Ötən əsrin səksəninci illərinin sonu, doxsanıncı illərinin əvvəllərində Azərbaycanda baş alıb gedən özbaşınalıq və qanunsuzluq, hakimiyyət uğrunda qeyri-sivil mübarizə və zorakılıqla iqtidara gəlmə kimi xoşagəlməz ənənə yaranmışdı. Ulu öndərimiz 1994-cü ilin oktyabr və 1995-ci ilin mart ayında dövlət çevrilişi cəhdlərinin qarşısını məharətlə, xalqın dəstəyi ilə almaqla bu yaramaz meylin vaxtının keçdiyini göstərdi. Bunu unudanlar isə 2003-cü ilin oktyabr ayının 15-16-da Azərbaycanda güclü dövlət, xalqın dəstəklədiyi iqtidar, zoru öz yerində oturtmağa qadir güc və Heydər Əliyevin qurduğu möhkəm və əbədi dövlətin mövcudlu-ğunu gördülər.

Sağlığında əfsanəyə çevrilən insan

Heydər Əliyev böyük qurucu idi. Hansı sahəyə nüfuz edirdisə, orada yeniliklər yaradır, əsaslı bir iş görürdü. Həm də bu fəaliyyət təkcə bu günlə məhdudlaşmır, gələcəyə ünvanlanırdı. Qeyri-adi enerji və təşkilatçılıq qabiliyyəti ilə fərqlənən, mahiyyətcə qurucu və yaradıcı olan, öncəgörmə qabiliyyətinə və siyasi fəhmə malik ulu öndərimiz hələ sağlığında əfsanəyə çevrilmişdi. Bu da onun başqaları üçün əlçatmaz hesab olunan işləri qısa müddətdə yerinə yetirməsi, ən ağır və çətin vəziyyətlərdən uğurlu çıxış yolu tapması, hətta mümkün olmayanı belə gerçəkliyə çevirməsi məharəti ilə bağlı idi. Böyük təsir və nüfuzetmə qabiliyyətinə malik olan ulu öndərimiz mühiti, münasibətləri, necə deyərlər ab-havanı belə ustalıqla dəyişirdi. Bu məqamda ümummilli liderimiz Heydər Əliyev həm də müasir Azərbaycan parlamentinin banisi sayılır. Doxsanıncı illərin lap əvvəllərində seçilən ilk parlament çoxlarının yadındadır. O dövrdə Azərbaycan kükrəyib qaynayırdı. Mərkəzin haqsızlığı, xalqın azadlıq və müstəqillik arzusu, mövcüd durumdan kimlərinsə yararlanmaq niyyəti - bütün bunlar bir-birinə qarışaraq ümumi çaşqınlıq və getdikcə idarəolunmaz vəziyyət yaradırdı. Belə mürəkkəb vəziyyətdə seçilən parlament bir çox hallarda meydan əhval-ruhiyyəsini əks etdirirdi. Xüsusilə də AXC-Müsavat cütlüyünü parlamentdə təmsil edənlər özlərini mitinqlərdə olduğu kimi aparır, qəribə tərzdə davranırdılar. Özgəsini dinləməmək, müsahibinin fikrinə hörmət etməmək, öz dediyini başqasına zorla qəbul etdirməyə çalışmaq, yersiz mübahisələrə girişmək, kobud söz və ifadələrə aludəçilik göstərmək, diqqəti əsas məsələlərdən yayındırmaq, şəxsi iddialarını yerinə yetirməyə can atmaq və s. mənfi meyllər adi hala çevrilmişdi. Əslində bütün bunlar "demokratiya əlaməti və təzahürü" kimi qə-

ləmə verilirdi. Amma demokratik prinsiplərdən əsər-əlamət belə yox idı. (İclas salonunda fasiləsiz siqaret çəkilməsinin demokratiyaya nə dəxli var?!). Milli Məclisdə spikerin şəxsi istəyindən asılı olaraq hər hansı məsələ - millət vəkillərinin istəmədikləri qərarlar belə keçirilə bilirdi. Bundan ötrü dönə-dönə səsvermə aparılır, deputatlara qanunsuz təzyiq göstərilirdi. Spikerlə deputatlar arasında normal, qanunun aliliyi və dövlətçilik prinsiplərinə əsaslanan münasibətlər yox idı. Bu isə parlamentin səmərəli, xalqın mənafeyinə uyğun fəaliyyətinə imkan vermirdi.

Ümummilli liderimiz Heydər Əliyevin ölkənin ən ağır və çətin dövründə geriyə dönməsi və Ali Sovetin Sədri seçilməsi alı qanunverici orqanın fəaliyyətində və xalqın ona münasibətində böyük dəyişiklik yaratdı. Ulu öndərimiz özü ilə bərabər Milli Məclisə böyük bir işgüzarlıq, səmərəli və məqsədyönlü fəaliyyət, prinsipiallıq və daim milli mənafelərə sadiqlik kimi zəruri keyfiyyətlər də gətirmişdi. Heydər Əliyev elə ilk günlərdən iclasları işgüzar və səmərəli müzakirələrə, obyektivliyin təmin olunmasına istiqamətləndirir, populist çıxışların qarşısını dərhal alır, Məclisi böyük təmkin və ustalıqla idarə edirdi. Kimlərinsə şou yaratmasına imkan vermirdi. Xalqın gözü qarşısında Milli Məclis saatbasaat inkişaf edərək dəyişir, milli mənafeyin keşiyində duran fəal orqana çevrilirdi. Bu alı məclisə rəhbərlik etdiyi dövrdə Heydər Əliyev parlamentin fəaliyyətinə bir təmkin və sanbal, işgüzarlıq və məqsədyönlülük, partiya və qrup mənafelərindən uzaqlaşaraq milli və dövləti maraqlara xidmət prinsipini bərqərar etmişdir. Azərbaycan parlamenti bu gün də ulu öndərin qoyduğu yolla gedir.

2004-cü il may ayının 7-də Azərbaycan Respublikası Milli Məclisində ümummilli liderimiz Heydər Əliyevin abidəsinin təntənəli açılışı oldu. Bu ulu öndərimizin əbədiyyətə qovuşduqdan sonra parlamentə ilk "qayıdışı" idi. Və həmin vaxtdan ürəklərdəki abidəsinin mərmər variantından biri binanın foyesində əbədi məskən tutub. Abidənin təntənəli açılışı mərasimində prezident İlham Əliyev qəlbləri riqqətə gətirən çıxış etdi: "...Heydər Əliyevin ikinci qayıdışı məhz bu binadan başlamışdır. 1993-cü ildə parlamentin sədri seçildikdən sonra müstəqil Azərbaycanın həyatında yeni dövr başlanmışdır. O illərə qədər parlamentdə yalnız siyasi mübarizə gedirdi. Müəyyən qruplar bir-biri ilə mübarizə aparırdılar. Eyni zamanda Azərbay-can torpaqları işğal olunurdu. Əgər 1993-cü ildə xalqın tələbi və təkidi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan çox böyük bəlalarla üzləşə bilərdi. Ölkə parçalanma ərəfəsində idi. Vətəndaş muha-

rıbəsi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın itirilməsi, digər təhlükəli amillər ölkəni dağıdırdı. Azərbaycan böhran içində idi.

Bu gün həmin dövrü təhlil edərkən açıq-aydın görürük ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, iradəsi Azərbaycanı bu bəlalardan qurtardı. Burada qeyd olundu ki, Heydər Əliyevin bu binada çətin günləri də olmuşdur. Ona qarşı edilən ədalətsizliklər də olmuşdur. 1991-ci ilin fevral və mart aylarında öz sözünü açıq deyəndə, burada bəzi öyrədilmiş "deputatlar" ona qarşı hücumlara başlamışdılar, təhqirlərə yol vermişdilər. Amma bu təzyiqlər onu seçdiyi yoldan çəkindirmədi. O öz siyasətini apardı. O illər bunu etmək çox çətin olsa da, Heydər Əliyev xalqının müdrikli-yinə, gücünə inanırdı. O bilirdi ki, xalq onu dəstəkləyir, onun arxasınca gedir. Əgər belə olmasaydı, 1993-cü ildə o Bakıya qayıdıb bu vəziyyətdən çıxış yolları tapa bilməzdi. Heydər Əliyev xalqın gücünə arxalanaraq bütün tədbirləri həyata keçirdi və on il ərzində Azərbaycan müasir, iqtisadi cəhətdən qüdrətli dövlətə çevrildi. İndi Azərbaycanla hesablaşır, Azərbaycana hörmət edirlər. Ölkəmiz dünya birliyində özünəlayiq yerini tuta bilibdir. Bu gün Azərbaycan bütün parametrlərə görə regionda ən dinamik inkişaf edən ölkədir. Azərbaycanda siyasi, iqtisadi islahatlar aparılır. Dünya miqyasında ən böyük layihələr həyata keçirilir. Bütün bu amillər ölkəmizin nüfuzunu qaldırır, dünyada imicini artırır, dünya üçün nə qədər önəmli olduğunu sübut edir. Əlbəttə, biz heç zaman unutmarıq ki, bütün bu uğurların əsası məhz o illərdə - 1993-1994-cü illərdə qoyulmuşdur. "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan yeni bir eraya qədəm qoydu.

Deməliyəm ki, Milli Məclisin də bu proseslərdə rolu olmuşdur. Çünki, bütün Azərbaycan iqtisadiyyatı üçün vacib olan müqavilələr Milli Məclis tərəfindən təsdiq edilmiş və qanun qüvvəsinə minmişdir.

Beləliklə, bu illər ərzində müasir Azərbaycanın inkişaf konsepsiyası çox sürətlə və dinamik həyata keçirilir. Ölkəmizin qarşısında böyük vəzifələr durur. Bizim məqsədimiz Azərbaycanı inkişaf etdirmək, ölkəmizdə yaşayan hər bir insanın həyat şəraitini yaxşılaşdırmaq, çoxlu sosial problemlərin həllində iştirak etməkdir. Əminəm ki, biz bütün bu məqsədlərə çatacağıq. Artıq beşillik və onillik tədbirlər planı hazırlanmışdır və biz öz siyasətimizi bu planlara uyğun olaraq aparırıq. Azərbaycanın sosial iqtisadi inkişaf proqramı qəbul edilmişdir. Bu proqramlar Azərbaycanın hər bir bölgəsinin, rayonunun, kəndinin inkişaf etməsinə imkan verəcəkdir.

Bu, Heydər Əliyevin siyasətidir. O, 1993-cü ildə öz həyatını təhlükə altına qoyaraq ikinci dəfə hakimiyyətə gəldikdə qarşısında bir məqsəd var idi- xalqa xidmət etmək. O demişdi ki, mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram. Bu, belə də oldu. Onun başqa amalı yox idi. Biz hamımız bunu yaxşı bilirik. Ömrünün son dəqiqələrinə qədər Heydər Əliyev bu ideyalarla, fikirlərlə, amallarla yaşamışdır. Bizim məqsədimiz bu ideyaları yaşatmaqdır, onun siyasətini davam etdirməkdir. Çünki bu, Azərbaycan üçün yeganə inkişaf yoludur. Bu yol ölkəmizi daha da gücləndirəcək, daha da irəliyə aparacaqdır. Ölkəmizin gələcəyi çox parlaq olacaqdır. Bunu etmək, buna nail olmaq üçün hər bir şərait vardır."

Ümummilli liderimiz Heydər Əliyev çox çətin, ağır, mübarizə və qələbələrlə dolu bir ömür yaşadı. Bəlkə də tərəziyə qoyulsa, çətin günləri xoş günlərindən çox olar. Buna baxmayaraq xoşbəxt ömür yaşadı. Əvvəla, tarixin onun üzərinə qoyduğu şərəfli missiyanı - Azərbaycanı parçalanmaq və bir dövlət kimi məhv olmaqdan qurtararaq müstəqilliyimizin qorunub saxlanılması və əbədiliyə çevrilməsi vəzifəsini yerinə yetirdi. İkincisi, bu yolda gördüyü işlərlə - iqtisadi islahatlar, hüquqi, demokratik dövlət quruculuğu və ölkəmizin dünyaya inteqrasiyası sahəsindəki cahanşümul fəaliyyəti nəticəsində özü XX və XXI əsr Azərbaycanının ən görkəmli şəxsiyyəti kimi dünya tarixinə düşdü. Ən böyük xoşbəxtliyi isə şübhəsiz Heydər Əliyevin müəyyən etdiyi yolun bu gün də uğurla davam etdirilməsidir. Ümummilli liderimiz Heydər Əliyevdən cismən ayrıldığımız bir ildə dövlət quruculuğu, iqtisadi və siyasi sahədə qazanılan uğurlar da göstərir ki, onun ideyaları həmişəyaşar və məğlubedilməzdir. Qeydlərimizi prezident cənab İlham Əliyevin sözləri ilə yekunlaşdırırıq: "Onun ideyaları yaşayır. Heydər Əliyevin əsəri olan müstəqil Azərbaycan yaşayır. Bu, böyük xoşbəxtlikdir. Yadımdadır, Heydər Əliyev xəstə olanda çox tanınmış bir şəxs mənə demişdi ki, o, xoşbəxt adamdır. Çünki, öz əmə-yinin nəticəsini görmüşdür və arxayındır ki, siz onun yolunu davam etdirirsiniz, 10 il ərzində qurulmuş sistem yaşayır, səmərəli işləyir və Azərbaycan xalqına xidmət edir. Bu baxımdan biz də xoşbəxtik ki, onun siyasətini davam etdirmək üçün ölümüzdən gələni əsirgəmirik. Əminəm ki, biz hamımız - Heydər Əliyevin silahdaşları, onun komandası bu siyasəti gələcəkdə də aparacağıq."

Bu dəfəki qovuşma əbədidir. Nə qədər Azərbaycan var, Heydər Əliyevin də adı və əməlləri yaşayacaq, xalqın xoşbəxtliyi və firavanlığı təmin olunacaqdır!

MÜNDƏRİCAT

I BÖLMƏ: HEYDƏR ƏLİYEV İRSİ MİLLİ SƏRVƏTİMİZDİR

Murtuz Ələsgərov. Heydər Əliyev irsi və Azərbaycanda parlamentarizm ənənələri ... 3

Əli Nağıyev. Müstəqil Azərbaycanın sosial siyasəti ... 12

Əli Əhmədov. Heydər Əliyevin demokratiya baxışları ... 23

Arif Rəhimzadə. Əsrə bərabər on il ... 33

Zahid Quralov. Heydər Əliyevin elmi irsinin formalaşmasına ictimai-siyasi mühitin təsiri ... 39

Asya Manafova. İnsanları dəyərləndirən dahi şəxsiyyət ... 52

Yusif Hümbətov. Heydər Əliyevin dövlət idarəçilik irsinin öyrənilməsi ... 60

Vaqif Əliyev. Dünyanın ən böyük Azərbaycanlısı ... 70

Məlahət Həsənova. Türk Dünyasının qoşa zirvəsi ... 81

Kərim Kərimov. Heydər Əliyev Azərbaycanın əbədi intibah simvoludur ... 85

Yaqub Əliyev. Heydər Əliyev fenomeni ... 96

Eldar İbrahimov. Tarixin qiymət verdiyi şəxsiyyət ... 104

Fikrət İsmayılov. Dahi şəxsiyyət, ulu öndər ... 112

Rövşən Mustafayev. Şəxsiyyət və zaman ... 121

İradə Hüseynova. Azərbaycan dövlətçiliyi tarixində Heydər Əliyev irsi ... 132

Hadi Rəcəbli. Heydər Əliyev - siyasi lider, dahi şəxsiyyət ... 150

Musa Musayev. Ümumilli liderimiz Azərbaycanın müstəqillik simvoludur ... 164

Rizvan Vahabov. Heydər Əliyev şəxsiyyəti böyük məktəbdir ... 173

Ağabəy Əsgərov. Heydər Əliyev müstəqil Azərbaycanın demokratik mətbuatının banisidir ... 188

Xeyrəddin Qoca. Zaman həmişə Heydər Əliyevin xeyrinə işləyirdi ... 202

Nurlana Əliyeva. Əbədiyaşarlıq fəlsəfəsi ... 210

Sudeyif İmanverdiyev. Qətiyyətlilik nümunəsi ... 220

Əhməd Vəliyev. Heydər Əliyev irsi: reallıqlar və faktlar ... 232

Fəttah Heydərov. Heydər Əliyev ideyaları Azərbaycan xalqının milli sərvətidir ... 249

İsgəndər Quliyev. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyasının memarıdır ... 263

Miri Qənbərov. Minilliyin zirvəsində ... 274

Hacıməmməd Ramazanov. Heydər Əliyev irsi və mənəvi tərbiyə ... 281

Rizvan Cəbiyev. Bu dünyadan Heydər keçdi ... 288

Musa Urud. Qədim torpağın böyük oğlu ... 298

Məmməd Əlizadə. Xalqın oğlu ... 312

Bəkir Nəbiyev. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı ... 321

Aslan Aslanov. Heydər Əliyev və AzərTAC ... 328

Novruz Quliyev. Qətiyyət nümunəsi ... 337

II BÖLMƏ: HEYDƏR ƏLİYEV İRSİ VƏ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN TƏMƏL PRİNSİPLƏRİ

Ziyafət Əsgərov. Heydər Əliyev və hüquqi dövlət quruculuğunun əsas prinsipləri ... 351

Əli Hüseynov. Heydər Əliyev Azərbaycanda hüquqi dövlətin banisidir ... 363

Siyavuş Novruzov. Heydər Əliyev və Azərbaycanın siyasi sistemi ... 369

Yaqub Mahmudov. Azərbaycan tarixinə Heydər Əliyev baxışı və ya xalqımızın milli dirçəliş konsepsiyası ... 378

Şahin Məmmədov. Heydər Əliyev irsi və Azərbaycançılıq ... 405

Mirkazım Kazımov. Azərbaycançılıq - Heydər Əliyevin dövlət quruculuğu prinsipidir ... 413

Səyyad Aran. Ədalətlilik - Heydər Əliyevin dövlət quruculuğu prinsiplərindən biri kimi ... 421

Rəbiyyət Aslanova. Heydər Əliyev irsi və milli suverenlik prinsipi ... 425

Şahlar Əsgərov. Heydər Əliyevin liberal-maarifçilik ideyaları ... 438

Hüseyn Paşayev. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin milli inkişaf konsepsiyasının müəllifidir ... 453

Alqış Həsənoğlu. Heydər Əliyevin milli hamrəylik formulu 461

Firdovsi Əliyev. Heydər Əliyev Azərbaycan tarixinin intibah dövrünün müəllifidir 467

Seyfəddin Qəndilov. Ümumimilli lider Heydər Əliyevin rəhbərlik məharəti və dövlətçilik təcrübəsi bütün dövrlər üçün əhəmiyyətlidir 475

Xanhüseyn Kazımlı. Heydər Əliyev idarəetmə məktəbi 483

Asəf Hacıyev. Dövlətçilik dərsləri 493

Miyail Zabelin. Ölkənin müdafiə qüdrətinin möhkəmlənməsində Heydər Əliyevin rolu 499

Fuad Ələsgərov. Heydər Əliyevin milli təhlükəsizlik konsepsiyası gələcəyə ünvanlanmış proqramdır 509

Abutalıb Səmədov. Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda mübarizəsi 525

Vahid Novruzov. Heydər Əliyev Azərbaycanda demokratik iqtisadi islahatların banisidir 536

Əli Əlirzayev. Neft sənayesinin sosial-iqtisadi mahiyyəti və onun tədqiqinin nəzəri-metodoloji aspektləri 547

Qərib Məmmədov. Heydər Əliyev torpaq islahatları aqrar tariximizdə nadir hadisədir 558

Əli Həsənov. Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşməsi 571

Novruz Məmmədov. Heydər Əliyevin xarici siyasət konsepsiyasında Avroatlantik strukturlarla əməkdaşlıq 582

Bahar Muradova. Heydər Əliyevin xarici siyasəti ATƏT müstəvisində 604

Gövhər Baxşəliyeva. Heydər Əliyev və İslam konfransı təşkilatı 615

Svetlana Bayramova. Azərbaycanın dünyaya inteqrasiyasının Heydər Əliyev yolu 626

Əli İnsanov. Heydər Əliyev və Azərbaycan səhiyyəsi 633

Misir Mərdanov. Heydər Əliyev və Azərbaycanda təhsil islahatları 645

Gülçöhrə Məmmədova, Nəriman Əliyev. XX əsr Azərbaycan memarlığı intibahının müəllifi 667

Mahmud Kərimov. Elmimizin böyük hamisi 674

İmamverdi İsmayılov. Heydər Əliyevin mənəvi irsi xalqımız üçün örnəkdir 694

Bəxtiyar Əliyev. Milli - mənəvi dəyərlərimiz və milli dövlət quruculuğu 702

Vəsadət Əzizov. Heydər Əliyev və Azərbaycanın müstəqillik tarixi 710

Həsən Həsənov. Heydər Əliyevin xilaskarlıq missiyası və Azərbaycan dövlətçiliyi 719

Səttar Mehbalıyev. Heydər Əliyev və Həmkarlar İttifaqları 731

İlqar Əliyev. Heydər Əliyevin demokratik dövlət quruculuğu siyasətində özünüidarəetmə sisteminin yeri 740

III BÖLMƏ: HEYDƏR ƏLİYEV YOLUNUN UĞURLU DAVAMI

Nizami Xudiyev. Uğurlu yolun layiqli davamçısı 747

Ramiz Mirzəyev. Heydər Əliyevin yeni neft strategiyasının uğurlu davamı 757

Vüqar Rəhimzadə. Heydər Əliyevin qurduğu dövlət dinamik inkişaf yolundadır 769

Salahəddin Xəlilov. Heydər Əliyev və siyasi varislik 786

Aydın Mirzəzadə. Heydər Əliyev kimi 798

Abdin Fərzəliyev. Heydər Əliyev idarəçilik məktəbi yeni mərhələdə 804

Vaqif Abdullayev. Xalqımız Heydər Əliyevin demokratiya kursuna sadiqdir 814

Fəzail Ağamalı. Heydər Əliyevin milli dövlətçilik konsepsiyası yeni mərhələdə 825

Abel Məhərrəmov. Bakı Dövlət Universitetinin bu günü və sabahı Heydər Əliyevin ideyaları ilə bağlıdır 836

Elmar Qasımov. Təhsil sistemində Heydər Əliyev yolunun davamı 842

Mübariz Qurbanlı. Heydər Əliyevin xarici siyasət xəttinin beynəlxalq təşkilatlar müstəvisində uğurlu davamı 853

Gülər Əhmədova. Heydər Əliyevin gənclər siyasətinin uğurlu davamı 863

Vaqif Hüseynov. Heydər Əliyevin aqrar siyasətinin uğurlu davamı 874

Nizami Cəfərov. Türk dünyasının birliyi strategiyası Heydər Əliyevdən İlham Əliyevə 885

Bəxtiyar Sadıqov: Oxşar talelər 895

Kitab "Azərbaycan" nəşriyyatında
nəşr və çap olunmuşdur.

HEYDƏR ƏLİYEV İRSİ
VƏ AZƏRBAYCANIN DÖVLƏTÇİLİYİ

Çapa imzalanmışdır 14.04.2005. Kağız formatı 70x100 1/16.
Fiziki çap vərəqi 57. Şərti çap vərəqi 73,53. Tirajı 500. Sifariş 1651.

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Az 1073 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə
Tel.: (99 412) 438 00 10. Fax: (99 412) 497 69 83.
E-mail: azerbneshr@azerin.com